ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
THE MINISTRY OF SCIENCE AND EDUCATION OF THE REPUBLIC OF AZERBAIJAN

KONFRANS MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2022 № 8/II

SUMQAYIT - 2022

ISSN 2708-955X (print)
ISSN 2709-6033 (on-line)

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ

МИНИСТЕРСТВО НАУКИ И ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

MINISTRY OF SCIENCE AND EDUCATION AZERBAIJAN REPUBLIC
SUMGAYIT STATE UNIVERSITY

KONFRANS MATERİALLARI

МАТЕРИАЛЫ КОНФЕРЕНЦИЙ

CONFERENCE PROCEEDINGS

2022 № 8/II

SUMQAYIT – 2022
СУМГАИТ – 2022
SUMGAYIT – 2022

Sumqayıt Dövlət Universiteti
Konfrans materialları

REDAKSİYA HEYƏTİ

ELXAN HÜSEYNOV *prof., rektor (baş redaktor)*
RAMAZAN MƏMMƏDOV *prof., elm və innovasiyalar üzrə prorektor, (baş redaktor müavini)*
ƏKBƏR AĞAYEV *prof. (təbiət və texniki elmlər bölməsi üzrə məsul katib)*
NİGAR İSGƏNDƏROVA *prof., (sosial və humanitar elmlər bölməsi üzrə məsul katib)*

Сумгаитский государственный университет
Материалы конференций

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ

ЭЛЬХАН ГУСЕЙНОВ *проф., ректор (главный редактор)*
РАМАЗАН МАМЕДОВ *проф., проректор по науке и инновациям (заместитель главного редактора)*
АКПЕР АГАЕВ *проф. (ответственный секретарь раздела естественных и технических наук)*
НИГЯР ИСКЕНДЕРОВА *проф., (ответственный секретарь раздела социальных и гуманитарных наук)*

Sumgayit State University
Conference proceedings

EDITORIAL BOARD

ELKHAN HUSEYNOV *prof., rector (chief editor)*
RAMAZAN MAMMADOV *prof., vice-rector for science and innovations, (deputy chief editor)*
AKBAR AGAYEV *prof. (executive secretary of the department of natural and technical sciences)*
NIGAR ISGANDAROVA *prof., (executive secretary of the department of social and humanitarian sciences)*

UNİVERSİTET ELMİNİN VƏ TƏHSİLİNİN MÜASİR PROBLEMLƏRİ

(*Sumqayıt Dövlət Universitetinin 60 illiyinə həsr olunur*)

RESPUBLİKA ELMİ KONFRANSI

(17-18 noyabr 2022-ci il)

СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ УНИВЕРСИТЕТСКОЙ НАУКИ И ОБРАЗОВАНИЯ

(Посвящается 60-летию Сумгаитского государственного университета)

РЕСПУБЛИКАНСКАЯ КОНФЕРЕНЦИЯ

(17-18 ноября 2022 год)

ODERN PROBLEMS OF UNIVERSITY SCIENCE AND EDUCATION

(Dedicated to the 60th anniversary of Sumgait State University)

REPUBLICAN CONFERENCE

(November 17-18, 2022)

V BÖLMƏ

TARİX. FƏLSƏFƏ

TARİX ELMİNDƏ CƏNUBİ AZƏRBAYCAN TARİXİ PROBLEMİ

Baxşəliyev A.B.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor
sdu.adil@gmail.com

Açar sözlər: *Cənubi Azərbaycan, tarix, tədqiqat, universitet, problem*

Ulu öndər H.Əliyev dövlətçilik tariximizə və onun ənənələrinə yüksək qiymət verərək demişdir ki, Azərbaycan xalqının bizim eranın iki min ili ərzində keçib gəldiyi yol yenilməz, zəngin, mərdanə bir qəhrəmanlıq tarixidir [5, s.51]. Bu baxımdan dövlətçilik sahəsində bizim uğurlarımızı, müstəqil dövləti inkişaf etdirmək arzumuzu orta əsrlərdə mövcud olmuş böyük Azərbaycan Səfəvi dövlətinin tarixi ilə bağlıdır. Azərbaycan Respublikasının ali məktəblərində dövlətçilik tariximizin gənclərə öyrədilməsi tarixçilər qarşısında çox məsuliyyətli vəzifələr qoyur.

Azərbaycan tarixşünaslığında tarixi tədqiqqatların əsas mərkəzi Azərbaycan SSR Elmlər akademiyasının, dövlət müstəqilliyinin bərpa edilməsindən sonra isə AMEA-nın Tarix İnstitutu olmuşdur. Bununla bərabər respublkamızda universitetlərin müvafiq tarix kafedralarında tanınmış tarixçi alilərin müxtəlif nəsillərinin nümayəndələrinin iştirakı ilə istər bütün sovet kakimiyyəti illərində, istərsə də müstəqillik illərində tariximizin ən müxtəlif problemlərinin tədqiqinin nəticələrini əks etdirən onlarla dəyərli əsərlər işıq üzü görmüşdür.

Universitetlərdə tarix elminin inkişafında iki əsas mərhələ tədqiq olunan mövzuların əsas istiqamətləri, əhatə etdiyi problemlər baxımından ciddi şəkildə bir-birindən fərqlənir. Azərbaycan tarixşünaslığında Yusifov Yusif, Qazıyev Məmmədəmin, Əlimirzəyev Xəlil, Abdullayev Zakir, Atakişiyev Aslan, Mahmudov Yaqub, Muxtarova Əsməd, İsmayılov Eldar, Şükürov Kərim, Zeynalov İbrahim, İsgəndərov Anar, Qasımlı Musa, Hüseynova İradə, Axundova Nərgiz və digər tanınmış tarixçi alimlərin universitet tarix elminin müxtəlif problemlərinin tədqiq edilməsində mühüm xidmətəri olmuşdur.

Universitetlərdə tarix elminin inkişafının müxtəlif vaxtlarında ümumi, fundamental tarixi əsərlərlə bərabər, konkret mühüm əhəmiyyət kəsb edən problemlərin tədqiqi də diqqət mərkəzində olmuşdur. Belə mövzulardan biri də Cənubi Azərbaycan mövzusudur.

Azərbaycanın Ruiya və Qacarlar imperiyaları arasında bölünməsindən sonrakı Cənubi Azərbaycanın tarixinin ən müxtəlif problemləri XIX əsrin ortalarından başlayaraq, xüsusi ilə də XX əsrin əvvlərindən bəri problemin tədqiqi tarixçilərin tez-tez müraciət etdiyi istiqamət kimi diqqəti cəlb etmişdir.

İlk olaraq Azərbaycanın dövlətçilik tarixinin parlaq səhifələrindən birini təşkil edən Şeyx Məhəmməd Xiyabaninin rəhbəri olduğu Təbriz Milli Hökumətinin [1; 2] və Seyid Cəfər Pişəvərinin başçılığı ilə yaranmış Cənubi Azərbaycan Milli Hökümətinin fəaliyətinin tədqiqinə həsr edilmiş 2 dissertasiyanı qeyd etməliyik [17; 18].

Ertiraf etmək lazımdır ki, dövlət müstəqilliyinin bərpasından sonra tədqiqatların ideoloji təsirlərdən və digər məhdudiyyətlərdən azad olması bütün problemlərin, o cümlədən bu yazıda araşdırdığımız Cənubi Azərbaycan mövzusunun öyrənilməsi yeni və daha məhsuldar mərhələni yaşamağa başladı.

Müstəqillik illərində işıq üzü görmüş tədqiqatlardan bəhs edərkən ilk növbədə "Cənubi Azərbaycan tarixinin oçerkləri (1828-1917)" kitabının adını qeyd etmək istərdik [6]. Kitabda Cənubi Azərbaycan tarixinin bir sıra ən vacib problemləri yetərincə tədqiq olunur.

Tədqiq etdiyimiz problemlə bağlı ən dəyərli monoqrafiyalardan danışarkən Bayramzadə Səmədin 2016-cı ildə nəşr edilmiş "Güney Azərbaycan: "21 Azər"dən İranda "ağ inqilab"ın əvvəlinədək (iqtisadi və ictimai-siyasi vəziyyət) monoqrfiyasınn hökmən qeyd etməliyik [16]. Əsər həqiqətən Cənubi Azərbaycan tarixinn bəhs edən ən dəyərli əsərlərdən biridir.

Eynulla Mədətlinin 2017-ci ildə nəşr edilmiş "Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri)" kitabı da universitet tarix elminin nailiyyətlərinin daha da çoxalmasında müəyyən rol oynamışdır [8]. Bu monoqrafyada İranda uzun müddət milli zülmə mərüz qalan 35-40 milyon azərbaycanlının iqtisadi və sosial-siyasi vəziyyəti öyrənilir.

Məmmədli Pərvanənin 2009-cu ildə nəşr etdirdiyi "Cənubi Azərbaycan mətbuatı tarixi" kitabı da Cənubi Azərbaycan tarixinin, o cümlədən mətbuat tarixinin öyrənilməsi üçün mühüm mənbə rolu oynaya bilər [9].

2014-cü ildə kollektiv müəlliflər tərəfindən yazılmış "Güney Azərbaycan: tarix və müasirlik" toplusu da son illər Azərbaycan tarixşünaslığında özünəməxsus yer tutur [7]. Bu məqalələr toplusu Güney Azərbaycanın müasir tarixinin aktual məsələlərinə həsr edilmişdir. Topluda Güney Azərbaycanın tarix, mədəniyyət, elm və maarifinin ayrı-ayrı məsələləri və problemləri ilə tanış olmaq mümkündür. Bu, Azərbaycanın və İranın elmi-mədəni əlaqələrinin öyrənilməsi baxımından da önəmlidir.

Sovet dövrü universitet tarix elmində özünəməxsus yeri olan, xüsusi ilə də bütün yaradıcılığını tədqiq etdiyimiz mövzuya həsr etmiş, 2001-ci ildən 2004-cü ilədək Bakı Dövlət Universitetinin (BDU) "Azərbaycanın qədim və orta əsrlər tarixi (təbiət elmləri üzrə)" kafedrasının müdiri vəzifəsində çalışmış Seyidağa Onullahi haqqında ayrıca danışmağa dəyər [4, s.311].

Görkəmli alim "Təbriz şəhərinin tarixi" [10], "İran fəhlələrinin tətil hərəkatı: 1951-1953-cü illər" [11], eləcə də AMEA-nın çoxcildli "Azərbaycan tarixi" [3] kitablarının müəlliflərindən biri idi. Onun "Erməni millətçiləri və İran" (12) kitabı Londonda və Bakıda çap olunmuşdur. Fars, ərəb, fransız, rus, türk dillərini bilən alim orta əsrlər üzrə bir çox qaynaqları araşdıraraq nəşr etdirmişdir.

Tarixşünaslığımızda ilk dəfə olaraq S.Onullahi Məhəmməd Müfid Yəzdinin "Müxtəsəri-Müfid" əsərini ilk dəfə təhlil etmiş və bu əsərdə Təbriz şəhərinin sosial-iqtisadi vəziyyəti barədə verilmiş maraqlı məlumatları tədqiqata cəlb etmişdir.

Tədqiq etdiyiz mövzu ilə bağlı Musa Qasımlının yaradıcılığı haqda bəhs etmək yerinə düşər. Alim Azərbaycan tarixinin öyrənilməmiş bir sıra aktual problemlərinin - Azərbaycanın beynəlxalq mədəni əlaqələri (1946–1991), Ceyid Cəfər Pişəvəri hərəkatınından sonra Cənubi Azərbaycanda yaranmış şəraitin Birləşmiş Millətlər Təşkilatında müzakirəsi, Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (1920-1922), xarici dövlətlər və Azərbaycan (1920-1922), Birinci dünya müharibəsi illərində "könüllü" adı altında erməni silahlı bandalarının hazırlanması və fəaliyyətləri, Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918) və digər sanballı əsərlərində birbaşa və ya dolayı şəkildə Cənubi Azərbaycan tarixi ilə bağlı bir sıra vacib məsələləri tədqiq etmişdir [13-15].

Bu dediklərimizlə yanaşı Cənubi Azərbaycan tarixi ilə bağlı vacib məsələlərin tədqiqi sahəsində görüləsi işlərin həldə çox olğunu etiraf etmək lazımdır. Təəssüflə qeyd etməliyik, Cənubi Azərycandakı həmvətənlərimizin indiki hüquqsuz vəziyyəti, İran tarixşünaslığında mövzumuzun öyrənilmə səviyyəsi və digər istiqamətlər arzu edilən səviyyədən çox geri qalmaqdadır. Bu, o deməkdir ki, universitet tarix elmi Cənubi Azərbaycan tarixinə aid tədqiqatlarını daha da sürətləndirməlidir.

Ədəbiyyat

1.Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918 - 1920) / tərt. ed. V.Allahverdiyev, Ş.Mehdiyev – Bakı: Gənclik - Gənclik mərkəzi, - 1990. - 96 s.

2.Azərbaycan Demokrat Firqəsi Və Milli Hökumət Dönəminin sənədlərindən: [Elekrton resurs] / URL: http://www.achiq.info/m.hukumet/qzlsndL.pdf

3.Azərbaycan tarixi: yeddi cilddə. Bakı: Elm, 1998 - 2003.

4.Bakı Dövlət Universitetinin Professorları. Bakı: Bakı Universiteti nəşriyyatı, - 2014. s.311,312.

5.Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. // Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqma müraciət. 29 dekabr 2000-ci il / Bakı: XXI - Yeni Nəşrlər Evi, - 2001. - 56 s.

6.Cənubi Azərbaycan tarixinin oçerkləri (1828-1917)". Bakı: Elm, - 1985. - 316 s.

7.Güney Azərbaycan: tarix və müasirlik. Bakı: Zərdabi nəşriyyatı, - 2014. - 216 s.

8.Mədətli E. Azərbaycan tarixi məsələləri İran tarixşünaslığında (XX əsrin əvvəlləri). Bakı: "Turxan" NPB, - 2017. - 288 s.

9.Məmmədli P. Cənubi Azərbaycan mətbuatı tarixi. Bakı: Elm, - 2009. - 230 s.

10.Onullahi S. XIII - XVII əsrlərdə Təbriz şəhəri (Sosial-iqtisadi tarixi). Bakı: Elm, - 1982. - 280 s.

11.Onullahi S. 1951–1953-cü illərdə İran fəhlələrinin tətil hərəkatı. Bakı: Azərbaycan SSR EA, - 1968. - 145 s.

12.Onullahi S. Erməni millətçiləri və İran. Bakı: Maarif, - 2002. - 88 s.

13.Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə. I hissə (1914-cü il avqust-1917-ci il oktyabr). Bakı: Qanun, 2000, 15 ç.v.

14.Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914–1918-ci illər). 3 hissədə. II hissə (1917-cü il noyabr-1918-ci il noyabr). Bakı: Adiloğlu, 2001, 15 ç.v.

15.Qasımlı M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914–1918-ci illər). 3 hissədə. III hissə (sənədlər, materiallir, xəritələr, şəkillər). Bakı: Adiloglu, 2004, 35 ç.v.
16.Байрамзаде Самед Зулфали оглы. Южный Азербайджан: от «21 Азер»а до «белой революции» в Иране (Экономическое и социально-политическое положение). Баку- 2016. 334 с.
17.Девелли-Маммад, А. Формирование и деятельность национального правительства в Южном Азербайджане (1945-1946 гг.): / автореферат дис. кандидата исторических наук. / - Баку, 1967. - 29 с.
18.Мамедов, К. Создание Южно - Азербайджанского народно - демократического государства (1945-1946 гг.): / автореферат дис. кандидата исторических наук. / М., 1950. - 31 с.

РЕЗЮМЕ
ПРОБЛЕМА ИСТОРИИ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ИСТОРИЧЕСКОЙ НАУКЕ
Бахшалиев А.Б.

Ключевые слова: *Южный Азербайджан, история, исследование, университет, проблема.*

Два основных этапа развития исторической науки в вузах существенно отличаются друг от друга по основным направлениям исследований тем, проблемам, которые она охватывает. Освобождение исследований от идеологических влияний и других ограничений после восстановления независимости стало новым этапом для изучения всех проблем, в том числе и темы Южного Азербайджана, которую мы рассмотрели в этой статье. Следует признать, что еще предстоит проделать большую работу в области изучения важных вопросов, связанных с историей Южного Азербайджана. Нынешнее бесправное положение наших соотечественников в Южном Азербайджане, требует особого исследования. Изучение нашей истории в иранской историографии не соответствует требованиям сегодняшнего дня.

SUMMARY
THE PROBLEM OF THE HISTORY OF SOUTH AZERBAIJAN IN HISTORICAL SCIENCE
Bakhshaliyev A.B.

Key words: *South Azerbaijan, history, research, university, problem.*

The two main stages of the development of historical science in universities differ significantly from each other in the main areas of research and the problems that it covers. The liberation of studies from ideological influences and other restrictions after the restoration of their independence has become a new stage for the study of all problems, including the topic of South Azerbaijan, which we have considered in this article. It should be recognized that there is still a lot of work to be done in the field of studying important issues related to the history of South Azerbaijan. The current disenfranchised situation of our compatriots in South Azerbaijan requires special research. The study of our history in Iranian historiography does not meet the requirements of today.

ATMOSFER HAVASININ ÇİRKLƏNMƏSİNİN PROQNOZUNUN ÜMUMİLƏŞDİRİLMİŞ GÖSTƏRİCİSİ

Ağayev T.D.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor
aqayev_tahir@mail.ru

Açar sözlər: *statistik proqnoz, hava hövzəsi, zərərli maddələr, meteoroloji şərait, çirklənmə indeksi*

Atmosfer havasının çirklənməsinin statistik proqnozu metodlarının əsasında havada zərərli maddələrin (ZM) konsentrasiyası və müvafiq meteoroloji şəraitlərin analizi durur. Bunun üçün adətən proqnozu edilən kəmiyyətin havanın çirklənməsinin ümumiləşdirilmiş göstəricisi – P parametri tətbiq edilir [2]:

$$P = \frac{m}{n}$$

burada *n* – şəhərdə bir gün ərzində bütün stasionar məntəqələrdə çirkləndiricilərin qatılığı üzərində aparılan müşahidələrin ümumi sayı, m - həmin gün ərzində ortafəsillik yüksək qatılığı ($q_{or.fəs.}$) 1,5 dəfədən (q> 1,5 $q_{or.fəs.}$) çox aşan müşahidələrin sayı.

P parametrinin gündəlik qiymətlərini almaq üçün hər bir stansiya üçün əvvəlcədən çirkləndiricilərin orta fəsillik qiymətləri hesablanır. Çirkləndiricilərin qatılığının orta qiymətləri hər bir il üçün ayrıca hesablanır. P parametrinin operativ olaraq gündəlik hesablanması üçün əvvəlki ilin müvafiq üç aylıq dövrü və verilən ilin iki ayı üçün havanın çirklənməsinin orta səviyyəsinin nəzərə alınması tövsiyyə edilir. İstifadə edilən bütün müşahidə sırası üçün $1.5q_{orta}$ üstələyən vahid konsentrasiya qeyd edilir. P parametrini hər bir çirkləndirici üçün ayrılıqda və bütün çirkləndiricilər üçün hesablanması tövsiyyə edilir[2].

P parametrinin hesablanması və onun şəhər üzrə havanın çirklənmə xarakteristikası kimi istifadə edilməsi üçün bütün şəhərdə stasionar məntəqələrin sayının üçdən az olmaması zəruridir; gün ərzində bütün

məntəqələrdə çirkləndiricilərin konsentrasiyası üzərində aparılan müşahidələrin miqdarı 20-dən az olmamalıdır.

Şəhərdə hava hövzəsinin çirklənməsinin üç səviyyəsini ayırırlar: çox yüksək (I qrup) P>0,35; yüksək (II qrup) 0,20 <P<0,35 və aşağı (III qrup) P≤0,20. P>0,35 qiymətlərinin təkrarlanması az olan hallarda çox yüksək səviyyə kimi P>0,30, P>0,25 və ya P>0,20, aşağı səviyyə kimi isə - P≤0,15 və ya P≤0,10 götürülür. P parametri 0-la 1 arasında dəyişə bilər.

P və q parametri nisbi xarakteristikalardır və havanın çirklənməsinin orta səviyyəsindən asılı deyil. Buna görə də onların qiymətləri əsasən meteoroloji şəraitlərlə müəyyən edilir.

Hal-hazırda şəhərlərdə havanın keyfiyyət xarakteristikası və atmosferin çirklənməsində ən böyük rolu olan zərərli maddələri müəyyən etmək üçün, eləcə də ayrrı-ayrı rayonları və ya şəhərlərin atmosfer havasının çirklənməsüinin müqayisəli qiymətləndirilməsi üçün standart indeks (Sİ) və atmosferin kompleks çirklənmə indeksindən (AKÇİ) istifadə edilməsi qəbul edilmişdir.

Sİ – ZM qısa müddət ərzində (20 dəq) ölçülmüş ən böyük qiymətinin yol verilən birdəfəlik maksimal qatılıq (YVQHm.b.) həddinə nisbəti. Sİ<1 olduqda havanın çirklənməsi insan sağlamlığına və ətraf mühitə gözə çarpacaq təsir göstərmir. Sİ>10 olduqda havanın çirklənməsi yüksək kimi xarakterizə edilir [2].

Atmosferin kompleks çirklənmə indeksi (AKÇİ) – bir neçə qatışığın havanın cəm çirklənmə səviyyəsinin yol verilən qatılıq həddini neçə dəfə aşdığını müəyyən etməyə imkan verir. Bu məqsədlə müxtəlif maddələrlə çirklənmə hər hansı bir maddə ilə (adətən, kükürd dioksid) çirklənmə səviyyəsinə gətirilir. Bunun üçün C_i dərəcə göstəricisi ilə həyata keçirilir. Hər hansı i maddəsi üçün atmosferin çirklənmə indeksi (AÇİ) aşağıdakı formula ilə hesablanır:

$$\dot{I}_i = \left(\frac{q_{or.i}}{YVQH_{or.s.i}}\right)^{C_i}$$

burada $q_{or.i}$ ayrıca çirkləndiricinin orta aylıq, fəsillik, illik qatılığı, $YVQH_{or.s.i}$ - həmin maddənin orta sutkalıq yol verilən qatılıq həddi. Müxtəlif təhlükəlik siniflərin maddələri üçün aşağıdakı C_i qiymətlər alınmışdır:

Təhlükəlik sinfi	1	2	3	4
C_i	1,7	1,3	1,0	0,9

Bütün maddələrlə çirklənmə səviyyəsini üçüncü təhlükəlik sinfinə (kükürd dioksid) gətirmək üçün n maddəsini nəzərə alan AKÇİ formulunu aşağıdakı kimi yazmaq olar:

$$\dot{I}_n = \sum_{i=1}^{n} \dot{I}_i = \sum_{i=1}^{n} \left(\frac{q_{or.i}}{YVQH_{or.s.i}}\right)^{C_i}$$

Beləlilə, AKÇİ kükürd dioksidin çirklənmə səviyyəsinə gətirilmiş çirkləndiricilərin (adətən beş maddə) orta aylıq, fəsillik, illik qatılıqlarının ($q_{or.i}$) cəminin $YVQH_{or.s.i}$ bölünməsindən alınır. Mövcud qiymətləndirilmə üsullarına uyğun olaraq aşağı çirklənmə səviyyəsi AKÇİ 5, orta -AKÇİ 5-6, yüksək – AKÇİ 7-13 və çox yüksək AKÇİ ≥14 olduqda sayılır.

Bakı şəhərində 2010-2016-cı illər üzrə atmosfer havasının çirklənməsinin illik gedişini qiymətləndirmək məqsədilə P ≤ 0.20; 0.20 < P ≤ 0.35 и P > 0.35 qruplar olan günlərin miqdarı hər bir ay üçün ayrılıqda cəmlənmişdir. Müəyyən edilmişdir ki, Bakı şəhəri üzrə 2010-2016-cı illərdə P parametrinin I qrupu üzrə illik gedişdə atmosfer havasının çirklənməsi günlərinin ən böyük miqdarı yay – payız aylarında (maksimum –iyul, noyabr), ən az miqdarı (mart) isə yaz aylarında müşahidə edilir. P parametrinin II qrupu üzrə illik gedişdə atmosfer havasının çirklənməsi günlərinin maksimal miqdarı yaz aylarında (aprel) qeyd edilir. III qrup üzrə illik gedişdə isə atmosfer havasının çirklənməsi günlərinin ən böyük sayı yayda (maksimum – avqust) müşahidə edilir. İllik gedişdə havanın çirklənməsinin belə paylanmasının səbəbi sinoptik vəziyyətin və meteoroloji şəraitlərin qanunauyğun növbələşməsi ilə izah edilir[1]. Belə ki, ilin yay fəsli antisiklonal və az qradientli barik sahənin olması ilə xarakterizə edilir. Havanın temperaturunun illik gedişində maksimal qiymətlərin yayda olmasına uyğun olaraq P parametrinin I və III qruplarda atmosfer havasının çirklənməsi günlərinin maksimal qiymətləri qeyd edilir. I qrup üzrə payızda atmosfer havasının çirklənməsi günlərinin sayının artması siklonik hava şəraiti ilə əlaqədar ola bilər. Payız aylarında keçən siklonların təkrarlanmasının artması hesabına tədqiq edilən ərazidə aşağı, laylı buludların, dumanların, troposferdə istilik adveksiyasının, yüksəklik inversiyalarının olması müşahidə edilir[1]. Bu həm də atmosfer havasında çirkləndiricilərin toplanmasına gətirib çıxarır.

II qrup üzrə yaz aylarında atmosfer havasının çirklənməsi günlərinin çoxalması, bu fəsildə yerüstü inversiyaların, durğun havaların və dumanların təkrarlanmasının artması ilə sıx əlaqədardır.

Qışda atmosfer havasını çirkləndirən hissəciklərin toplanmasına mane olan sinoptik şəraitlər formalaşır. Belə ki, qeyd edilən dövrdə küləyin sürətinin artması və çirkləndiriciləri havadan yuyub aparan yağıntıların bol olması ilə müşaiət olunan sikllonik fəaliyyət güclənir

Atmosfer havasının çirklənməsinin illər üzrə dəyişməsinin paylanma xüsusiyyətləri qrafikinin analizi göstərir ki, baxılan üç qrup üçün P parametrinə görə çirklənmə günlərinin ən böyük miqdarı 2011, 2013 və 2015-ci illərə düşür. Həmin illərdə antisiklonal havaların təkrarlanması daha çox və buna uyğun olaraq durğun havalı günlərin sayı artıq olmuşdur.

Ədəbiyyat

1. Агаев Т.Д. Метеорологический режим и его влияние на загрязнение воздуха городов. Sumqayıt: Редакционно-издательский отдел СумГУ.2022. 323 с.
2. Руководство по прогнозу загрязнения воздуха. С.-Петербург: Гидрометеоиздат. 1993. 104 с

РЕЗЮМЕ

ОБОБЩЕННЫЙ ПОКАЗАТЕЛЬ ПРОГНОЗА ЗАГРЯЗНЕНИЯ АТМОСФЕРНОГО ВОЗДУХА

Агаев Т.Д.

Ключевые слова: *статистический прогноз, воздушный бассейн, вредные вещества, метеорологические условия, индекс загрязнения*

В статье приведены способы расчета обобщенного показателя прогноза загрязнения атмосферного воздуха городов. Установлено, что наибольшее количество дней загрязнения атмосферного воздуха в городе Баку в 2010-2016 годах по I группе параметров P наблюдается в летне-осенние месяцы (максимум - июль, ноябрь), а наименьшее количество - в весенние месяцы (март). Максимальное количество дней загрязнения атмосферного воздуха в годовом ходе по II группе показателя P приходится на весну (апрель). Наибольшее количество дней загрязнения атмосферного воздуха в годовом ходе III группы наблюдается летом (максимум - август).

SUMMARY

GENERAL INDICATOR OF THE FORECAST OF ATMOSPHERIC AIR POLLUTION

Aghayev T.D.

Key words: *statistical forecast, air pool, harmful substances, meteorological conditions, pollution index*

The article shows ways to calculate the generalized indicator of the forecast of atmospheric air pollution in cities. It is established that the highest number of days of atmospheric air pollution in the city of Baku in 2010-2016 according to the I group of parameters P is observed in the summer-autumn months (maximum - July, November), and the lowest number (March) - in the spring months. The maximum number of days of atmospheric air pollution per year according to the II group of indicator P falls on spring (April). The highest number of days of atmospheric air pollution in the annual course of group III is observed in summer (maximum - August).

AZƏRBAYCANIN DAĞLIQ ƏRAZİLƏRİNDƏ TURİZMİN İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARI

Mərdanov İ.İ.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor

geography.sumqayıt@mail.ru

Açar sözlər*: ekogeomorfoloji, massiv, qurşaq, alpinizm, kənd, rekreasiya*

Azərbaycanın dağlıq əraziləri uzun müddət bir çox ixtisas sahiblərinin həyata keçirdiyi tədqiqatların obyektləri olmuş, bu ərazilərin təbii şəraiti haqqında böyük həcmdə elmi material toplanmışdır [2]. Bu materiallar əsasında ərazilərin ekogeomorfoloji xüsusiyyətləri, temperatur və yağıntı rejimi, çayların və göllərin hidroloji xüsusiyyətləri, torpaq və bitki örtüyünün xarakteri, hündürlük qurşaqlığı üzrə paylanması müəyyən edilmişdir.

Xüsusilə son illərdə bu tədqiqatlar zamanı Azərbaycanda və digər ölkələrdə dağ landşaftlarının rekreasiya imkanları təhlil edilmiş, təbii ehtiyatlardan istifadə istiqamətləri göstərilmişdir [1, 5].

Ekocoğrafi tədqiqatlar Azərbaycanın dağlıq ərazilərindən əsasən, Böyük Qafqaz, Talış dağ sistemlərini və Kiçik Qafqazın şimal-şərq yamacını əhatə etmiş, bu araşdırmalar təsərrüfatın müxtəlif sahələrinin səmərəli inkişaf etdirilməsi üçün nəzəri əsasların formalaşdırılmasına imkan vermişdir.

Eyni zamanda qeyd etmək lazımdır ki, bu ərazilərin rekreasiya və turizm məqsədilə mənimsənilməsi məsələləri hələ tam həll edilməmişdir. Dağlıq ərazilərin infrastrukturu, ilk növbədə, yol şəbəkəsi yenidən qurulmaya ehtiyac duyur. Əsas magistral yollardan uzaqda yerləşən kəndarası yollar asfalt örtüyünə malik

olmadığından nəqliyyat vasitələrinin hərəkəti üçün çətinlik törədir. Bu istər yerli, istərsə də xarici turistlətin bu rayonlara səfərləri üçün çəkindirici rol oynayır.

Dağlıq ərazilərdə əsasən, soyuq, mülayim-isti və ya dağ-tundra iqlim tipləri yayılmışdır. Belə sərt iqlim şəraiti ərazilərə turist səfərlərinin əsas etibarilə, yay aylarında həyata keçirilməsinə gətirib-çıxarır. Bu vəziyyətin dəyişdirilməsi üçün dağ rayonlarının istilik şəbəkəsinin, qaz təminatının müasir tələblərə uyğun vəziyyətə gətirilməsinə ehtiyac vardır. Dağlıq relyefə malik inkişaf etmiş Avropa ölkələrinin təcrübəsindən istifadə etməyin vaxtı çoxdan çatmışdır və bunun üçün kifayət qədər maliyyə imkanları vardır. Qeyd etmək lazımdır ki, bu sahədə kapital qoyuluşları yüksək dərəcədə səmərə verə bilər və eyni zamanda, ərazilərdə təsərrüfat fəaliyyətinin intensivləşdirilməsi, əmək ehtiyatlarının cəlb edilməsi yolu ilə işsizlik probleminin həlli baxımından mühüm rol oynaya bilər.

Şəkil. Yarıdağ massivində subnival sahələr ekstremal turizm həvəskarları üçün maraqlı ola bilər.

Eyni zamanda qeyd etmək lazımdır ki, dağlıq ərazilərin mürəkkəb təbii şəraiti, müxtəlif təbii-dağıdıcı hadisələrin tez-tez baş verməsi turistlərin təhlükəsizliyinin təmin edilməsi məsələlərini aktual edir [4]. Bu sahədə də ən qabaqcıl beynəlxalq təcrübədən yararlanmağa ehtiyac vardır. Əks halda, ölkəmizə düşmən münasibəti göstərən qüvvələr hər hansı bir bədbəxt hadisədən istifadə edə bilərlər.

Böyük və Kiçik Qafqazın subnival-nival qurşağının əraziləri ekstremal turizm həvəskarlarının diqqətini daim cəlb edir [3]. Lakin bura turist marşrutlarının olmaması, müvafiq infrastrukturun olmaması ölkənin bu sahənin inkişafından gəlir əldə etməsinə imkan vermir. Bu baxımdan, Böyük Qafqazın şimal-şərq yamacındakı Şahdağ və Yarıdağ massivləri diqqətəlayiq ərazilər hesab edilə bilər. Şahdağ massivində turizm kompleksi yaradılsa da, bu kompleksin fəaliyyət dairəsinin genişləndirilməsinə ehtiyac vardır. Müvafiq təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi şərtilə, bu ərazilərdə ekstremal turizm həvəskarlarının keçidi, alpinizm idman növünün yarışlarının keçirilməsi təşkil edilə bilər (Şəkil). Gələcəkdə bu massivlər xarici ölkələrin kinostudiyalarına film çəkilişlərinin həyata keçirilməsi üçün də təklif edilə bilər.Turizmin inkişaf etdirilməsi baxımından Talış dağ sisteminin də imkanları tam qiymətləndirilməmişdir. Burada yalnız bəzi meşə massivləri turizm fəaliyyəti dairəsinə daxil edilmişdir. Burada Böyük və Kiçik Qafqazda olduğu kimi, kənd turizminin inkişaf etdirilməsinin böyük imkanları vardır.

Kiçik Qafqazda turizmin inkişafı böyük imkanlara malikdir. Xüsusilə, 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə təbii şəraitin xüsusiyyətləri müxtəlif turizm sahələrinin inkişafına şərait yaradır. Burada müxtəlif tarixi abidələrin mövcudluğu ziyarət turizminin təşkilinə imkan verir. Nəzərə almaq lazımdır ki, bu abidələr istər Qafqaz Albaniyasının xristianlıq, istərsə də, islam mədəniyyətinin inkişafı dövrlərinə aiddir, bu da dünyanın müxtəlif regionlarından gələn turistlərin diqqətini cəlb edə bilər.

Həkəri çayının hövzəsi bu baxımdan diqqətəlayiq region hesab edilə bilər. Bu ərazidə tarixi abidələrlə yanaşı, maraqlı təbii şərait də mövcuddur, belə ki, burada işğala qədərki dövrdə dağ meşələri düzənlik Şərq çinarı meşələrinə keçirdi. Meşələrin əksər hissəsi işğal dövründə məhv edilmişdir, lakin bərpa tədbirləri nəticəsində, güman etmək olar ki, tezliklə əvvəlki təbii şərait bərpa edilə bilər. Nəzərə almaq lazımdır ki, bu ərazi Zəngəzur nəqliyyat koridorunun qonşuluğunda yerləşir və burada yaxın vaxtlarda, Zəngilan və daha sonra Laçın beynəlxalq aeroportları fəaliyyətə başlayacaq. Bu amillər ərazinin xarici turistlər üçün cəlbediciliyini artıra bilər.

Qarabağ vulkanik yaylasının səthlərinin az meylliyi ilə səciyyələnən əraziləri turizm komplekslərinin tikintisi üçün böyük perspektivlərə malikdirlər və yəqin ki, bu baxımdan Ermənistanla sülh müqaviləsinin bağlanması ilə hərbi təhlükələrin aradan qaldırılması, minalardan təmizlənmənin təmin olunmasından sonra Böyük Qafqazın oxşar təbii şəraitə malik əraziləri ilə rəqabət apara bilərlər.

İşğaldan azad olunmuş ərazilərə tələbələrin, magistr və dissertantların səfərlərinin təşkili onların praktiki biliklərinin zənginləşməsində, nəzəri məlumatların dərindən dərk edilməsində böyük rol oynaya bilər. Məsələn, Kiçik Qafqazın Qarabağ vulkanik yaylası ərazisi vulkanik relyef formalarının geniş yayılması ilə səciyyələnir və bu formaların vizual müşahidəsi tələbə, magistr və dissertantlarda "geomorfologiya" fənnindən müvafiq mövzuların daha yaxşı mənimsənilməsinə, müxtəlif süxurların fərqli cəhətlərinin təhlilinə imkan yarada bilər.

Ədəbiyyat

1. Ализаде Э.К., Тарихазер С.А., Кучинская И.Я., Гулиева С.Ю. Ландшафтно-геоморфологическая оценка рекреационного потенциала горных геосистем (На примере азербайджанской части Большого Кавказа) // Устойчивое развитие горных территорий, 2017, т. 9, №2(32). С.130-140.
2. Марданов И.И. Высокогорные ландшафты Большого Кавказа: последствия экзогенеза. Монография. Сумгаитский государственный университет, ISBN- 978-9952 -37 -712-5, Сумгайыт: Отдел редакции и полиграфических работ СГУ, 2021. –338 с.
3. Марданов И.И. Развитие туризма в высокогорьях: возможности и перспективы. Azərbaycan Respublikası, Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti, İSSN: 2708-955X print İSSN: 2709-6033 on-line, "Azad olunmuş ərazilərdə biomüxtəlifliyin bərpası yolları", Respublika elmi konfransının materialları, №2, 14-15 aprel 2022. –S.37-39.
4. Тарихазер С.А. Современные оползневые процессы рельефообразования Большого Кавказа (в пределах Азербайджана) // Известия Тульского государственного университета, Науки о Земле, Выпуск 1, Тула, Издательство ТулГУ, 2020. С.120-136.
5. Ivan Paunović, Verka Jovanović. Sustainable mountain tourism in word and deed: A comparative analysis in the macro regions of the Alps and the Dinarides. Acta geographica Slovenica, WITH SPECIAL ISSUE (Franciscean cadaster as a source of studying landscape changes) Vol. 59 No. 2, 2019, pp. 59–69.

РЕЗЮМЕ

ВОЗМОЖНОСТИ РАЗВИТИЯ ТУРИЗМА В ГОРНЫХ РАЙОНАХ АЗЕРБАЙДЖАНА

Марданов И.И.

Ключевые слова:*экогеоморфологический, массив, пояс, альпинизм, сельский, рекреация*

В этой работе рассмотрены возможности развития горного туризма в различных регионах Азербайджана. На основе накопленного опыта многолетних полевых и камеральных исследований показаны особенности природных условий в горных районах, позволяющие развивать туристическую инфраструктуру и принимать как местных, так и иностранных туристов в течение всего года. Отмечена роль развития туристической индустрии в решении многих социально-экономических проблем горных территорий.

SUMMARY

OPPORTUNITIES FOR THE DEVELOPMENT OF TOURISM IN THE MOUNTAINOUS AREAS OF AZERBAIJAN

Mardanov I.I.

Key words:*ecogeomorphological, massif, belt, mountaineering, rural, recreation*

In this paper, the possibilities for the development of mountain tourism in various regions of Azerbaijan are considered. On the basis of the accumulated experience of many years of field and desk research, the features of natural conditions in mountainous areas are shown, which allow developing tourism infrastructure and receiving both local and foreign tourists throughout the year. The role of the development of the tourism industry in solving many socio-economic problems of mountainous areas is noted.

NƏSİRƏDDİN TUSİ VƏ FƏZLÜLLAH RƏŞİDƏDDİNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN

Həsənov H.İ.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan, dosent
habil.hasanov.1967@mail.ru

Açar sözlər: *tarixşünaslıq, mənbə, orta əsrlər, türk, monqol, N.Tusi, F. Rəşidəddin*

Azərbaycan orta əsrlər tarixi farsdilli, ərəbdilli, türkdilli və s. dövrümüzə qədər gəlib çatmış ilk yazılı mənbələr və arxeoloji materiallar əsasında tədqiq olunmuşdur. XIII əsrin əvvəlində Azərbaycan monqol əsarəti altına düşdü. Monqolların yürüşləri Azərbaycanın sosial-siyasi, iqtisadi və mədəni həyatına ağır təsir göstərdi. Lakin Hülakülər dövlətinin təşəkkülü, Azərbaycanın bu dövlətin siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilməsi, burada sabitliyin bərqərar olması müəyyən zaman kəsiyində ölkənin inkişafına şərait yaratdı. Monqol əsarəti bu dövrün tarixi əsərlərində öz əksini tapmışdır.

Görkəmli Azərbaycan filosofu, astronomu, riyaziyyatçısı, dövlət xadimi Nəsirəddin Tusi (1201-1274) dövrünün ən dəyərli alimlərindən biri olmuşdur. O, Tus şəhərində anadan olmuşdur. İlk təhsilini atasından alan Nəsirəddin sonralar dövrünün ən şöhrətli müəllim və müdərrisi hesab edilən Fəridəddin Damadın yanında oxumağa başlamışdır.

N.Tusi bir müddət İrandakı Qohestan (Kuhistan) hökmdarı (İsmaili hökmdarı) Nasir Möhtəşəmin sarayında yaşamış və Nasirin şərəfinə məşhur «Əxlaqi-Nasiri» əsərini ona ithaf etmişdir. Lakin zaman keçdikcə hökmdarla Tusi arasındakı münasibətlər pisləşmişdir. Bunun səbəbi Tusinin İsmaililərin yanında ola-ola Bağdadın Abbasi xəlifəsi Möhtəsimə mədhlə dolu qəsidə yazması idi. Bundan qəzəblənən Möhtəşəm Nasir onu Ələmut qalasına saldırır. Tusi də qalanın zəngin kitabxanasında elmlə məşğul olmağa başlayır.

İsmaililərin son hökmdarı Rüknəddin Xurşahın dövründə Tusinin vəziyyəti yaxşılaşır. Hülakü xanın yürüşü vaxtı o, Rüknəddin Xurşaha qalanı Hülakü yə təslim etməyi məsləhət görür. O da qalanı təslim edir. Hülakü xan heç bir müqavimətə rast gəlmədən «məğlubedilməz», Ələmut qalasını ələ keçirir. Hülakü bu işdə Tusinin əməyini yaxşı qiymətləndirir, onu özünün vəziri – məsləhətçisi təyin edir. Hülakü xan ən ciddi işləri Nəsirəddinlə məsləhətləşirdi, onun fikri ilə razılaşırdı. Hülakünün ərəb xilafətinə son qoymaq üçün Bağdada hücum etməsinin əsas səbəbkarı da Tusi olmuşdur. Hülakü xan Konstantinopola yürüş etmək istəyirmiş. Çünki Hülakünün münəccimlərindən Hüsaməddin ona Hülakü Bağdada gedərsə, peyğəmbərin varisi, yer üzərində allahın kölgəsi hesab edilən xəlifəyə əl qaldırarsa rəmlin, göstərdiyinə görə, böyük fəlakətlər baş verəcəyini deyir. N.Tusi tutarlı faktlarla bunun əsassız olduğunu deyir. Bundan sonra, Hülakü xan Bağdadı tutur (1258-ci ilin fevralı) sonuncu Abbası xəlifəsini edam etdirir.

N.Tusi Hülakü xanın Bağdadı tutmasını yazaraq Cüveyninin əsərinə əlavə etmişdir. Ümumiyyətlə, Nəsirəddin Tusi yaşadığı dövrdə 76 əsər yazmışdır. Tusiyə dünya şöhrəti qazandıran onun riyaziyyat və nücum elmlərinə aid yazdığı «Zice Elxani» kimi əsəri və Marağa rəsədxanasıdırsa, onu Şərq xalqlarına sevdirən «Əxlaqi-Nasiri» əsəri olmuşdur [2].

İsmaili hökmdarı Nasir, Nəsirəddin Tusiyə Misgəvehin «Ət-təharə» adlı kitabını fars dilinə tərcümə etməyi təklif edir. Lakin Tusi öz fəlsəfi-əxlaqi, ictimai-siyasi görüşlərini əks etdirən yeni əsər yazmaq qərarına gəlir. Əsərin ən başlıca cəhəti antik yunan fəlsəfəsinin, qədim İran tərbiyə nəzəriyyəsinin, klassik ərəb şəriət əqidəsinin və Azərbaycan iqtisadi-siyasi təcrübəsinin üzvü bir vəhdət halına salınmasından ibarətdir.

«Əxlaqi-Nasiri» «Müqəddimə və kitabın yazılmasının səbəbi», «İlk qeydlər və elmlərin bölgüsü» və üç məqalədən ibarətdir. Birinci məqalə - iki hissə, on yeddi fəsil, ikinci məqalə – beş fəsil, üçüncü məqalə – səkkiz fəsildir. Beləliklə, əsər üç məqalə, otuz fəsildən ibarətdir. «Əxlaqi-Nasiri» Tusi tərəfindən ən azı üç dəfə yenidən işlənmişdir.

Birinci məqalə «Əxlaqın saflaşdırılması haqqında» adlanır. «Nəfs», «ruh», «mənəviyyat», xoşbəxtlik və səadətə çatmağın bütün nəzəri məsələləri birinci məqalənin və fəsillərinin ana xəttini təşkil edir. Tusi cəmiyyətdə namuslu, xeyirxah, işgüzar adamların tərbiyə edilib hazırlanması üçün, döyüb-danlamaq da daxil olmaqla, bütün üsulların tətbiqini mümkün hesab edir. Lakin tərif, mükafat, şirniklendirməyə üstünlük verir. O, yeni nəslin yetişdirilməsində tərbiyə və təlimin həlledici əhəmiyyətini qeyd edir.

N.Tusinin ikinci məqaləsi «Evdarlıq elmi haqqında» dır. Məqalədə məqalədə əsas yeri əmək, zəhmət, peşə, sənət, mal və zümar toplamaq, evi idarə etmək, övlad saxlamaq və tərbiyə etmək məsələlərinə diqqət yetirmişdir. O, göstərir ki, ata, ana, övlad, xidmətçi, azuqə ailənin quruluşuna daxildir.

N.Tusinin üçüncü məqaləsi "Ölkə, şəhərləri idarəetmə qaydaları" adlanır və sosial-iqtisadi və siyasi problemlərə həsr edilmişdir. O, cəmiyyətin yaranışı, ictimai əmək bölgüsü, icmaların əmələ gəlməsi, fərdlə

cəmiyyətin üzvü rabitəsi, şəhərlərin yaranması, dövlətin meydana gəlməsi məsələlərini əlaqəli şərh edir. O, ilk ictimai forma kimi «ailəni», «məhəllə»ni, «şəhər»i, «böyük xalqlar»ı nəhayət, bütün dünya ictimaiyyətini göstərir.

N.Tusi vəzifəni insanlara onların təbiətinə görə verməyi məsləhət görür. Qeyd edir ki, dövlətin əsas vəzifəsi xeyirli işlərlə məşğul olmaq, şər işlərin qarşısını almaqdır.

Beləliklə, N.Tusi «Əxlaqi - Nasiri» əsərində feodal cəmiyyətinin əxlaq qaydalarını və dövlət idarəçilik sistemini ümumiləşdirir. «Əxlaqi - Nasiri» əsərini Rəhim Sultanov farscadan Azərbaycancaya tərcümə edərək çap etdirmişdir [2].

N.Tusinin dövlət maliyyəsi barədə «Risaləsi» həcmcə kiçikdir, ancaq dəyərlidir. Hülakü xanın göstərişi ilə tərtib olunmuş «Risalə» Şərqdə monqol yürüşlərinə qədər və monqol hökmranlığının ilk illərində vergi və maliyyə işlərinin təşkilinə həsr olunmuşdur. Burada vergi və mükəlləfiyyətlər, dövlət və hökmdarın mədaxil və məxarici, onların tənzimlənməsi yolları göstərilir [5, s.86-94].

Fəzlüllah Rəşidəddin (1247-1318) redaktəsi ilə farsca yazılmış «Cami-ət-təvarix» ("Salnamələr məcmuəsi" və ya "Tarixlər məcmuu") qiymətli mənbədir. Rəşidəddin Abaqa xan dövründə (1265-1281) saray həkimi, Qazan xan (1295-1304) və Sultan Ulcaytu Məhəmmədin (1304-1316) hakimiyyəti dövründə isə Elxanilər dövlətinin baş vəziri olmuşdur. Rəşidəddin Ulcaytunu zəhərləmə bəhanəsi ilə edam olunmuşdur. Rəşidəddin ailəsi ilə birlikdə uzun müddət Təbrizdə yaşamış, şəhərin idarə olunmasında baş vəzir və iri feodal kimi bilavasitə iştirak etmişdir. Digər tərəfdən Rəşidəddin ölkənin idarə olunmasına dair qanunnamə tərtib etmiş və Qazan xanın fərmanı ilə həmin qanunnamə uzun müddət icra olunmuşdur. Qazan xanın keçirdiyi islahatların təşəbbüsçüsü və hazırlayanı olmuşdur.

Rəşidəddinin tarixə, tibbə, fəlsəfəyə, kənd təsərrüfatına və digər elmlərə aid 14 əsəri vardır. Onun «Came-ət-təvarix» [6] və «Vəqfnamə» əsərləri tarixşünaslıqda mühüm yer tutur. «Mükatibat»i (yazışma) və "Asar və əhya" ("Təsir və dirçəliş") əsərləri də dövrün sosial-iqtisadi və siyasi tarixini araşdırmaq baxımından əhəmiyyətlidir.

«Came-ət-təvarix» əsərinin yazılmasında – Çin, Hindistan, Fransa və digər ölkələrdən gəlmiş, həmçinin Elxanilər sarayının tarixçiləri də fəal iştirak etmişlər. Abdullah Kaşaninin bu işdə xüsusən çox zəhməti olmuşdur. «Came-ət-təvarix» 1300-cü ildə Qazan xanın (1295-1304) əmri ilə yazılmağa başlamışdır. Onun «Tarix-e Qazani» adlı hissəsi 1307-cü ildə tamamlanmış və Sultan Ulcaytuya təqdim olunmuşdur. Əsər tam şəkildə 1310-cu ildə başa çatdırılmışdır [3, s.16]. 3 cilddən ibarət olan və farsca yazılmış «Came-ət-təvarix»in bütün hissələri Azərbaycan tarixi üçün eyni dərəcədə əhəmiyyətlidir. Əsərdə yalnız monqol əsarətində olan xalqların deyil, bir sıra digər xalqların tarixi də öz əksini tapmışdır.

Əsərin Qazan xanın dövrünə həsr olunmuş əsas hissəsi əvəzsiz dəyərə malik olduğu halda, Çingiz xana, Xarəzmşah Məhəmmədə və başqalarına aid bölmələri iqtibas xarakteri daşıyır və burada Cüveyninin «Tarix-e cahangüşa» əsərinin təsiri duyulur.

Əsərin «Oğuznamə» adlandırılan hissəsi oğuz-türk tayfalarının Şimali Çin, Türküstan, Tibet, Hindistan, Uralətrafı ərazilər, Cənubi Rusiya, Qafqaz, İran Anadolu və digər əraziləri tutmaları barədə zəngin məlumat verir. Əsərdəki tarixi faktlar, hadisələr X əsrdən başlayaraq Azərbaycanda və qonşu ölkələrdə baş vermiş tarixi prosesləri izləməyə imkan yaradır.Əsərin türk – monqol qəbilələrinə həsr olunmuş bölməsi Mərkəzi Asiyanın köçəri tayfaları barədə əvəzsiz məlumata malikdir, bu sahədə ən qiymətli mənbədir [3,s.16]. Əsərdə oğuzların 24 qəbilədə birləşmələri, onların törəmələri, türk qəbilələrinin təsnifatı verilir. Diqqəti cəlb edən əsas cəhət Hülakülər dövləti (XIII-XIV) dövründə Azərbaycan ərazisində məskunlaşmış türk-monqol qəbilələri – oyrat, sulduz, bayat, cəlair, kerait, karluk, qalac, ağcəri, sakait (sukdit), corat, budat və s. haqqında məlumatdır [7, s13].

R.Şükürova «Came-ət-təvarix»ə daxil olan «Oğuznamə»nin Türkiyədə saxlanılan əlyazmasını tədqiqata cəlb etmiş, Azərbaycan və rus dillərinə tərcümə edərək nəşr etdirmişdir. Əsərdə Oğuz tayfaları və onların Azərbaycana yürüşləri, o cümlədən Şirvana və Şamaxıya elçilər göndərməsi, Arran və Muğana səfərləri barədə geniş məlumat verilir [4].

Göstərilən mənbədə oğuzların tarixi və həyatı Oğuzun atası, əmiləri, qohumları və yaxınları ilə döyüşü, onun düşmənləri üzərində qələbəsi, Oğuzun kürreyi-ərzi zəbt etmək üçün yürüşü və onun müxtəlif ölkələrə elçilər göndərməsi, həmçinin Diyarbəkirə, Şama, Firəngə (Frank), Roma (Biransa), Misir, Bağdad, Bəsrə və Mazandarana yürüşləri, Mazandaranı, Xorasanı və digər yerləri tutmağından bəhs olunur.

Mənbədə göstərilir ki, Nuh Peyğəmbərin oğlu Yafət (Yafəs) olmuşdur. Nuh Türküstanı oğlu Olçay ləqəbli Yafəsə vermişdir. Olçayın 4 oğlu olmuşdur. Böyük oğlu Qara xan adlanırdı. Qara xanın oğlu Oğuz xan idi. Oğuzun 8 aylıq mühasirədən sonra Dərbəndi tabe etməsi, Şirvan və Şamaxı, Arran, Muğan əhalisindən xərac alması, Gürcüləri məğlub etməsindən mənbədə yığcam şəkildə bəhs olunur. "Oğuznamə" təkcə Türk xalqlarının deyil, həm də onların yürüş etdikləri ölkə və vilayətlərin xalqlarının ilkin tarixinə dair qiymətli mənbədir. "Oğuznamə"nin Qazan xanın (1295-1394) və ya onun varisi Olçaytunun (1304-1417)

zamanında Anadolu və ya Azərbaycanda ilkin olaraq uyğur dilində yazıldığı ehtimal edilir. Əsərin III cildindəki qələmə alınmış hadisələr Azərbaycan tarixi üçün dəyərli məlumatlardır. Hülakü xanın Azərbaycana və Bağdada səfəri, N.Tusinin Marağa rəsədxanasını tikdirməsi, Qızıl Orda ilə müharibələr, Arranda Arqun xana qarşı iğtişaş, Keyxatunun kağız pulları (çao və ya çav adlanır) tədavülə buraxması və s. bilavasitə tariximizlə bağlıdır.

Qazan xana həsr olunmuş bölmənin 3-cü hissəsində müəllif daha orijinal faktların şərhinə keçir. Qazan xanın bütpərəstliyə qarşı çıxıb islama meyl etməsi, qazılara, şeyxlərə yaxşı münasibət bəsləməsi, vəqf əmlakını qoruması və s. barədə məlumat verir. Cəmiyyətin idarəsində əsas yer tutan qanunlar, davranış qaydaları, məhkəmələrin hüquqi əsasları, oğurluğa, möhtəkirliyə qarşı mübarizə, Qazan xanın hərbi işə münasibəti, rəiyyətin qorunması üçün müqatiə sisteminin ləğvi və 1303-cü ildə çəki, ölçü və pul vahidlərinin dəqiqləşdirilməsi barədə verdiyi islahat bu hissədə öz əksini tapmış məsələlərdir. Bu hissədə şərh olunan materiallar dövlət sənədi səviyyəsində olub Qazan xan islahatlarının hüquqi əsasını təşkil edir [3, s.18].

«Came-ət-təvarix» əsəri bir sıra Avropa xalqlarının dillərinə tərcümə edilmişdir. XX əsrin 40-50-ci illərində 3 cilddə, 4 kitabdan ibarət rus dilinə tərcümə edilərək çap olunmuşdur. Əbdülkərim Əlizadə əsərin «Qazanın tarixi» hissəsinin elmi-tədqiqat mətnini hazırlamış və ruscaya tərcümə edərək nəşr etdirmişdir. Dövrün sosial-iqtisadi və siyasi həyatını öyrənmək baxımından F.Rəşidəddinin ayrı-ayrı şəxslərə yazdığı məktubların böyük elmi əhəmiyyəti vardır. F.Rəşidəddinin yazışmasını katibi Məhəmməd Aberkuhi toplamışdır. «Mükatibəti Rəşidi» və ya «Münsaati-Rəşidi» adlanan bu toplu 53 məktubu əhatə edir. Onlardan 21-i oğullarına yazılmışdır [8]. Onlardan 10 nəfəri Rum, İsfahan, Şiraz, Ərdəbil, Bağdad, Gürcüstan kimi yerlərdə hakim idilər. Bir oğlu – Qiyasəddin Məhəmməd Rəşidi isə (1327-1336) Elxanilər dövlətinin vəziri olmuşdur. Oğlu Şihabəddin Tüstər və Əhvaz vilayətlərinin əmiri idi.

Tədqiqatçı A.İ.Falina Rəşidəddinin yazışmalarını ruscaya tərcümə edib nəşr etdirmişdir. A.İ.Falinanın tərtib etdiyi sənədlər toplusuna daxil olan yazışmalardan biri Rəşidəddinin oğlu Sihabəddinə məktubudur [1, s.176-177]. Bu məktub monqolların «Örüş siyasətinə» qarşı yönəlmiş «yeni» xəttin (islahat xəttinin) konseptual sənədlərindən biridir. Monqol basqınları, xüsusilə mürtəce «örüş» siyasəti Azərbaycanın və Hülakülərə tabe olan bütün ölkələrin iqtisadiyyatını dağıtmışdı. Bütün bunlarla bağlı Yaxın və Orta Şərqdə monqol hakimiyyətinin özülü sarsıldığına görə, islahat ideyası ortaya atılmışdı. Yeni siyasətin ideoloqu F.Rəşidəddin keçiriləcək islahatların fəlsəfi özülünü qoymağa çalışırdı. Xərac ödəyən bütün kənd və şəhər əhalisinə qarşı «ədalətli siyasət» yeritməyi tövsiyə edirdi, çünki ədalət «arxayın yaşayıb diləklərə çatmaq» üçün başlıca səbəbdir.

Təbrizin iqtisadi-ictimai vəziyyətini tədqiq etmək üçün rəsmi sənədlərin, vəqfnamələrin mühüm əhəmiyyəti vardır. Belə vəqfnamələrdən biri də Rəşidəddinin «Vəqfnameye Rəbi Rəşidi» əsəridir. Burada Təbriz və Rəbi Rəşididə təsərrüfat həyatı, sənətkarlıq, ticarət, qul əməyi və qulların vəziyyəti barədə ətraflı məlumat verilir. Ümumiyyətlə, F.Rəşidəddinin öz xətti ilə yazdığı «Vəqfnamə» Rəbi Rəşidi məhəlləsinin qanuni əsasını təşkil edən sənəd xarakterli əsərdir. 680 il unudulmuş bu qanun kitabı 1972-ci ildə tarix elminə məlum olmuşdur. Əsər 3 cilddən (12 hissə, 24 fəsil) ibarətdir [3, s.18].

«Vəqfnamə» XIV əsrdə Azərbaycanda ictimai dünyagörüşün vəziyyətini, «Vəqf» institunun mahiyyətini öyrənmək üçün əvəzsiz məxəzdir. Burada şəhərlərin iqtisadi həyatı, ticarət və mədəni əlaqələri və s. öz əksini tapmışdır. Rəşidəddinin «Asar və əhya» əsəri kənd təsərrüfatına həsr olunmuşdur. Kitabda Azərbaycanın münbit torpaqları, bitki örtüyü, suvarma şəbəkəsi və üsulları, iqlimi, nadir ağaclarından bəhs olunur. Becərilən bitkilər, meyvələr, gübrələmə qaydalarından danışılır. Barama becərilməsi və ipəkçiliyə geniş şərh verilir. Bu əsər Azərbaycanın tarixi-siyasi coğrafiyasını və etnik mənzərəsini öyrənmək baxımından əhəmiyyətlidir. Müəllifin məlumatı Qafan, Sürməli, Dizmar kimi ərazilərin Azərbaycana aid olduğunu təsdiqləyir, monqol yürüşü dövründə Xətayların Azərbaycana gəlib, Xoy ərazisində məskunlaşdığını söyləməyə imkan verir [3, s.19].

Ümumiyyətlə, qeyd edilən mənbələr ümumi monqol tarixi baxımından yazıldığı üçün ayrı-ayrı vilayətlərdən, o cümlədən Azərbaycandan da ayrılıqda bəhs etməmişdir. Lakin Azərbaycanın Hülakülər dövlətinin mərkəzi olmasından irəli gələrək tədqiqat obyektimiz olan bu mənbələrdə Azərbaycan tarixinə geniş yer verilmiş və dövrün sosial-iqtisadi və siyasi həyatını öyrənmək baxımından əhəmiyyətli hesab edilmişdir.

Ədəbiyyat

1. Azərbaycan tarixi üzrə qaynaqlar (prof.S.S.Əliyarov və dos.Y.M.Mahmudovun redaktəsi ilə). Bakı, 1989.
2. Tusi N. Əxlaqi Nasiri. Bakı, 1989
3. Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003
4. Şükürov R.M. Fəzlullah Rəşidəddin “Oğuznamə” (fars dilindən tərcümə). Bakı, 1982

5. Туси Н. Трактат о государственных финансах- В кн: Хатиби С.Персоязычные документальные источники по социально-экономической истории Хорасана XIII-XIV вв. Ашхабад, 1985
6. Фазлуллах Рашид-ад-дин. Джами ат-Таварых. т.III. Составитель научно критического текста на персидском языке А.А.Ализаде, Баку, 1957
7. Фазлуллах Рашид-ад-дин. Огузнаме (Перевод с персидского коммен. и т.д. Р.М.Шукюровой). Баку, 1987
8. Фазлуллах ибн Рузбихан Хунджи. Тарих-и алам-арам Амини. Баку, 1987

РЕЗЮМЕ
АЗЕРБАЙДЖАН В ПРОИЗВЕДЕНИЯХ НАСИРЕДДИНА ТУСИ И ФАЗЛАЛЛЫ РАШИД АД-ДИНА
Гасанов Г.И.

Ключевые слова: *историография, источник, средневековье, тюркский, монгольский, Н. Туси, Ф. Рашидаддин*

Известно, что источники составляют основу исторической науки. В этом смысле можно считать обоснованным тезис историков европейской позитивистской школы «если есть источник, есть история». Поэтому, принимая во внимание важность источников в объективном изучении истории данного периода, в статье исследуются труды и историографическая база Насираддина Туси и Фазлуллы Рашидаддина в сравнительной форме.

При изучении источников на первый план выдвигаются вопросы, связанные с историей Азербайджана. Также разъяснены односторонний подход авторов к событиям, некритическое отношение к используемым ими источникам и другие вопросы.

SUMMARY
AZERBAIJAN IN THE WORKS OF NASIREDDIN TUSI AND FAZLALLAH RASHID AL-DIN
Hasanov G.I.

Key words: *historiography, source, medieval centuries, turkic, mongolian, N.Tusi, F.Rashidaddin*

The article is dedicated to one of the most presing problems of historical science. It is known that sources form the basis of the science of history. In this sense, the thesis of historians of the European positivist school "if there is a source, there is history" can be considered justified. Therefore, taking into account the importance of sources in the objective study of the history of the period, the works and historiographical base of Nasiraddin Tusi and Fazlullah Rashideddin are examined in the article in comparison.

While researching the sources, issues related to the history of Azerbaijan have been brought to the fore. The have used authors' one-sided approach to the events, exaggeration of the rulers' activities, uncritical approach to the sources and other issues have also been clarified.

SƏFƏVİ ŞAİRLƏRİNİN MOĞOL SARAYINA MÜHACİRƏTİ MƏSƏLƏSİ R.M.SEYVORİNİN TƏDQİQATINDA

Namazova L.S.
Tarix İnstitutu, Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
namazovalamiyya@gmail.com

Açar sözlər: *Rocer Seyvori, Səfəvilər, Moğol, mühacirət, ədəbiyyat*

Bəhs edilən dövrlə birbaşa əlaqədar olan Sam Mirzənin, Sadiq bəy Əfşarın yaradıcılığından da aydın olur ki, Şah I İsmayıl sarayında mütəmadi olaraq ədəbi məclislər təşkil edirdi. Ədəbi inkişafın yaşandığı Səfəvilər dövründə hər hansı bir inkişaf olmadığını qeyd etmək ən azından dövrün ədəbi mühitindən xəbərsiz olmaq deməkdir. Məhz diqqəti bu məqama çəkən R.Seyvori də Eduard Braunun, Mirzə Məhəmməd xan Qəzvinin fikirlərini təkzib edir və hətta Qəzvininin Moğol sarayında şairlərin maddi baxımından Səfəvi sarayı ilə müqayisədə daha yaxşı rəğbət görməsinə belə münasibət bildirir: *"Səfəvi şahlarının şairləri rəğbətləndirmədiyini qeyd etmək yanlışlıqdır. Bundan başqa bir sıra şahların özləri poeziya nümunələri yaratmışdır, onlar və şah ailəsinin digər üzvləri şairlərin və kitabsevərlərin, musiqi və xəttatların himayədarı idi. Şah I İsmayıl Xətai təxəllüsü ilə Azəri türkcəsində şeirlər yazmışdır. Sultan Məhəmməd Şah Fəhmi təxəlüsü ilə şeirlər yazırdı"* [3, s.206]. Daha sonra R.Seyvori *"bütün Səfəvi şahları yalnız İmamları tərifləyən şeirlərin yazılmasına çalışmışdır"* kimi yanlış fikrə İsgəndər bəy Münşiyə istinadən düzgün qiymət verməyi bacarır. R.Seyvori, Şah I Təhmasibin ölümü ərəfəsindəki ədəbi vəziyyətlə bağlı İsgəndər bəy Münşinin əsərinə istinadən yazır ki, Şah I Təhmasib şairlərə daha çox məsum imamları mədh etmək barədə göstəriş vermişdi [3, s.206-207; 2, s.331-332]. R.Seyvorinin qeydlərindən məlum olur ki, Şah I Təhmasib sadəcə şairlərin himayədarı deyil, hətta onlarla yaxın dostluq əlaqələrində olub. Mirzə Şərəf Cahan və Mövlana

Heyrətinin onun ədəbi məclisinin üzvü olması da bunu bir daha təsdiq edir. Yalnız həyatının sonlarına doğru o daha mühafizəkar olmuş və şairləri himayə etmək üçün ilk öncə İmamlara tərif etmələrinin lazım olduğu fikrinə yönəlmişdir. R.Seyvori Ehsan Yar Şaterə istinadən qeyd edir ki, Şah I Abbas da şairləri həvəsləndirmişdi. O şairləri saray şairi vəzifəsinə təyin edirdi və ən azından bir dəfə şairə təşəkkür əlaməti olaraq onun çəkisində qızıl verirdi [4, s.223-225].

R.Seyvorinin tədqiqatında Səfəvi-Moğol münasibətlərinin 1544-cü ildən 1638-ci ilə qədər necə inkişaf etməsi barədə hər hansı bir məlumata rast gəlinmir. O, sadəcə olaraq dövlətlərarası münasibətlərdə Səfəvi şairlərinin Moğol sarayına mühacirət etməsi barədə bir qədər geniş məlumat verir. Səfəvilər dövləti ilə Moğol dövlətini müqayisə edən R.Seyvori yazır ki, Moğol dövləti daha varlı olduğuna görə Səfəvi şairləri bu dövlətin sarayına mühacirət edirdilər [3, s.192]. Onun sözlərinə görə Dehlidəki Moğol sarayına mühacirət edən şairlərin maddi baxımdan mükafatı daha böyük olurdu. Bu da öz növbəsində fars poeziyası əsasında "səbk-i hindi" və ya "hind üslubu" adı ilə tanınan yeni üslubun formalaşmasına səbəb olurdu [3, s.204]. İndiyə qədər heç kimin ağlına gəlməyib ki, Moğol sarayında Səfəvilər dövlətindən miqrasiya etmiş şairlərin yaratdığı poeziya "Səfəvi üslubu" adlandırıla bilər. Bir çox iranlı tənqidçilər iddia edirlər ki, bu poeziya heç də gözəl farscada yazılmayıb. "Hind janrı" alçaldıcı termin kimi istifadə edilirdi və məqsəd bu üslubda yazılan şeirləri aşağı növ farsca şeirlər kimi ifadə etmək idi [3, s.207-208]. R.Seyvori bu istiqamətdə mövqe tutan tənqidçilərdən – Həzin, Lütfəli Azər Bəgdili, Hidayət və Bahardan sitatlar gətirir və qeyd edir ki, etibarlı hesab etdiyimiz tənqidçilər öz fikirləri ilə özlərini gözdən salırlar. Həqiqətən də, R.Seyvorinin əsərində bu müəlliflərdən gətirdiyi sitatlara diqqət yetirəndə onların sağlam tənqiddən çox uzaq olduqları görünür [3, s.208]. Maraqlıdır ki, bu gün iranlı tənqidçilər tərəfindən ötən əsrin ortalarına qədər "hind üslubu" kimi təqdim edilib alçaldılan Moğol sarayında Səfəvilər dövlətindən gedən şairlərin yaratdığı məktəb bu gün nəinki "Səfəvi məktəbi" kimi qəbul edilir, hətta bu məktəbin "İsfahan məktəbi" adlandırılması arzusu da ortaya çıxır [4, s.220; 3, s.209]. Beləliklə, aydın olur ki, bütün şərqdə yeni və mütərəqqi cərəyan kimi meydana çıxmış "hind səbki"si XVII əsrdə Səfəvilər dövlətində mövcud "İsfahan səbki"si əsasında formalaşmışdır. Səfəvilər dövrü ədəbiyyatında, xüsusilə Şah I Abbasın dövründən başlayaraq ədəbiyyatda yeni meyllər ortaya çıxır. Firuzkuhinin fikrincə, XVII əsrdə yaxşı şeirə və sənətə diqqət daha artdı. Saray ətrafında toplanan məddahlar, nazimlər, epiqonçular sənət aləmindən uzaqlaşdırıldılar. Ümumiyyətlə, hökmdara, saray adamlarına, vəzifə sahiblərinə mədhlər yazmaq qadağan olundu. Hətta bir qayda olaraq məliküş-şüəralar belə çox fövqəladə hallarda, məsələn hökmdarların döyüşlərdə qələbə çaldığı zamanlar arabir şeirlər yazırdılar [1, s.9].

R.Seyvori Moğol sarayı üçün fars dilinin yad olmadığını, hətta bir çox Moğol şahzadələrinin fars dilində poeziya nümunələri yaratdığını qeyd edir. Təsadüfi deyil ki, Moğol imperatorları – Əkbər (1556-1605), Cahangir (1605-1627) və Şah Cahan (1628-1658) fars poeziyasının parlaq nümayəndələrini sarayda toplamışdılar [3, s.205]. R.Seyvori Hindistana köç edən Səfəvi şairləri ilə bağlı tədqiqat aparan Əziz Əhmədə istinadən yazır ki, tarixin bu mərhələsində Hindistanda iqtisadi resursların daha çox və zəngin olması Səfəvi şairlərinin bu məkana üz tutmasının başlıca səbəbi idi [3, s.206]. Lakin tədqiqatçının daha sonra da qeyd etdiyi kimi, bu məsələni yalnız maddi baxımdan izah etmək doğru deyil. Çünki Moğol saray şairləri və Moğol imperatorları arasında olan münasibətlərlə müqayisədə Səfəvi şahlarının şairlərlə münasibətləri daha səmimi, yəni yaxın dostluqlar şəklində olub [3, s.207].

R.Seyvorinin Səfəvi şairlərinin Moğol sarayına köçü məsələsinə dövrün siyasi hadisələri kontekstində qiymət verməsi təqdirəlayiq haldır. Zaman-zaman tədqiqatçının məsələ ilə bağlı subyektiv fikirlərinə rast gəlsək də, ümumən onun Səfəvi hökmdarlarının şairlərinə münasibəti, Səfəvi şairlərin yaratdıqları üsluba baxışı obyektiv qiymətləndirilə bilər.

Ədəbiyyat

1. Azəroğlu, B.A. Saib Təbrizinin sənət dünyası / B.A.Azəroğlu. – Bakı: Yazıçı, – 1981. – 175 s.
2. Münşi, İ. Dünyanı bəzəyən Abbasın tarixi. (Tarixe-aləmaraye-Abbasi) / İ.Münşi, fars dilindən tərc. Ş.F.Fərzəliyev – Bakı: Şərq-Qərb, – c. 1: 1571-1586. – 2010. – 1144 s.
3. Savory, R. Iran under the Safavids / R.Savory. – Cambridge: Cambridge University Press, – 1980. – 277 p.
4. Yar-Shater, E. Safavid Literature: Progress or Decline // Iranian Studies. Studies on Isfahan: Proceedings of the Isfahan Colloquium, – vol.7. – 1974. №1/2, – p.217-270.

РЕЗЮМЕ
ВОПРОС ЭМИГРАЦИИ ПОЭТОВ СЕФЕВИДОВ ВО ДВОРЕЦ МОГОЛОВ В ИССЛЕДОВАНИИ Р.М.СЕЙВОРИ
Намазова Л.С.

Ключевые слова: *Роджер Сэйвори, Сефевиды, Могол, эмиграция, литература*

Роджер Сэвори, сефевидский ученый Великобританского происхождения, в своих работах изучал различные проблемы, связанные с Сефевидским государством. В исследовании, в котором затрагивались отношения Сефевидского государства с восточными государствами, в том числе с моголами, события интерпретировались с его точки зрения. В этом контексте исследователь попытался прокомментировать миграцию Сефевидских поэтов к Могольскому двору на основе информации, почерпнутой из различных историографических источников.

SUMMARY
EMIGRATION OF SAFAVID POETS TO THE MOGHUL PALACE IN THE RESEARCH OF R.M.SAVORY
Namazova L.S.

Key words: *Roger Savory, Safavids, Moghul, emigration, literature*

Roger Savory, a Safavid scholar of British descent, in his works studied various problems associated with the Safavid state. In a study that touched on the relations of the Safavid state with the eastern states, including the Moghuls, the events between the two states were interpreted from his point of view. In this context, the researcher tried to comment on the migration of Safavid poets to the Moghulian court on the basis of information he gleaned from various historiographies.

QƏRBİ AZƏRBAYCAN VƏ ZƏNGƏZUR MƏKTƏBLƏRİNİN TARİXİ

Adıgözəlova Ş.Ə.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent

Açar sözlər: *təhsil, məktəb, Zəngəzur, işğal, erməni*

Qərbi Azərbaycanda məktəblər sayca az olsa da fəaliyyət göstərmişdir. Lakin Azərbaycanda VII əsrdən başlayaraq (Ərəb xilafəti dövründə) mollaxana və mədrəsələr geniş yayılmağa başladı. Məktəb (mollaxana) və ibtidai mədrəsələr uzun zaman azərbaycanlılar üçün yeganə təhsil ocağı olaraq qalmışdır.

1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" sazişləri nəticəsində Azərbaycan iki hissəyə bölündü. Şimali Azərbaycan rusiyaya birləşmək məcburiyyətində qaldı. Həmin sazişə əsasən Yaxın Şərqdən, Türkiyə və Şimali Afrikadan ermənilər Qərbi Azərbaycana və Qapabağa köçrülməyə başlandı. XIX əsrin 40-cı illərindən başlayaraq ruslaşdırma siyasətini aparmaq üçün yenicə yaradılan quberniyalarda ibtidai rus məktəbləri açılması sürətləndirildi.

Mollaxanalarda təhsil müddəti müəyyən edilməmişdi . Çox vaxt 6-7 il, bəzən isə 9-10 ilə qədər davam edə bilərdi. Qarakilsə (Sisiyan) rayonunun Şəki və Urud, Qafan rayonunun Kurud kəndindəki məktəblər ibtidai mədrəsə hesab edilirdi.

Qərbi Azərbaycanda mədrəsə tipli mollaxanalara nisbətən ibtidai təhsli verən mollaxanalar bir qədər çox olmuşdu. 1891-ci ilin məlumatına görə Yelizavetpol quberniyasında fəaliyyət göstərən 433 ruhani məktəbində 3311 şagird oxuyurdu. İrəvan qəzasında azərbaycanlıların da oxuması üçün ilk dəfə dünyəvi məktəblər XIX əsrin 80-ci illərində açılmağa başlamışdır. Onlardan 1881-ci ildə Uluxanlıda, 1882-ci ildə İrəvanda, 1883-cü ildə İmanşahlıda, 1884-cü ildə Basarkeçər rayonunun Zod kəndində ibtidai rus məktəbləri açılmışdır. 1898-ci ildə İrəvanda və Böyük Vedidə, 1905-ci ildə isə Qəmərlidə rus -tatar məktəbləri açılmışdır. 1901-ci ilədək Yelizavetpol quberniyasında 28 ibtidai xalq məktəbi açılmışdır ki bunun da 12-si Zəngəzur qəzasında idi.

Zəngəzurdakı ibtidai rus-tatar məktəbləri içərisində 1876-cı ildə Gorus kəndində açılmış 1 sinifli üçillik məktəb 1883-cü ildə ikişöbəli beşillik məktəbə çevrildi. Məktəbdə təhsil alanların əksəriyyəti azərbaycanlılar idi. Lakin Rusiyada baş verən 1905-1907-ci il inqilabından və 1905-ci il azərbaycanlıların soyqırımı və deportasiyasından sonra vəziyyət dəyişdi. Bundan istifadə edən ermənilər nəinki Qərbi Azərbaycanda, hətta bütün Cənubi Qafqazda azərbaycanlıları qətlə yetirməyə başladılar.

Ermənilərin azərbaycanlıra qarşı deportasiya və soyqırımı beş mərhələdə olmuşdur: I mərhələ - 1905-ci ilə qədər; II mərhələ - 1905-1914-cü illər; III mərhələ -1914-1920-ci illər; IV mərhələ - 1948-1953-cü illər; V mərhələ - 1988-ci il;

XX əsrin əvvəllərində rus-tatar məktəbləri müxtəlif bəhanələrlə bağlanırdı. 1918-ci il ermənilərin törətdiyi mart qırğını zamanı minlərlə azərbaycanlı qətlə yetirildi və on minlərlə azərbaycanlı Qərbi

Azərbaycandan deportasiya edildi. Erməni həmlələrinə tab gətirməyən məktəblər də tamamilə dağıdılırdı və artıq 1920-ci ildə Qərbi Azərbaycanda 2-3 rus-tatar məktəbi qalmışdı.

Zəngəzurda daşnak hökuməti 1921-ci ildə süqut etdi. Yalnız bundan sonra azərbaycanlıların bir qismi öz vətənlərinə qayıda bildilər. Azərbaycan və Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra Qərbi Azərbaycanın, Zəngəzurun böyük bir hissəsi Ermənistana verildi. Sovet rusiyası ilə Ermənistan arasında bağlanan müqaviləyə əsasən Şərur-Dərələyəz qəzasının Dərələyəz (dağlıq) sahəsi bütünlüklə Ermənistana verildi (Zaqafqaziya MİK-in 1929-cu il 18 fevral qərarı). Bu, Moskva müqaviləsinin (1921) və Qars müqaviləsinin (1921) şərtlərinə zidd idi. 1922-1923-cü illərdə Qərbi Azərbaycanda 36 Azərbaycan məktəbi fəaliyyət göstərmiş. Ermənistan hökuməti 1923-1924-cü dərs ilində 54 Azərbaycan məktəbinin fəaliyyət göstərməsinə icazə verdi. 1936-37-ci tədris ilində Zəngəzur qəzasının Şəhərcik, Gığı, Vağüdü və Aldərə kəndlərində yeddiillik məktəblər orta məktəbə çevrildi. Əgər 1925-ci ildə Sisiyan rayonunun azərbaycanlılar yaşayan kəndlərində 172 şagird oxuyurdu və bu böyük tərəqqi hesab edilirdisə, 80-ci illərdə həmin rayonun Azərbaycan məktəblərinin məzunlarından 66 nəfəri elmlər doktoru və elmlər namizədi alimlik dərəcəsi almışdır.

Ədəbiyyat

1. Azərbaycan tarixi. I-II-III cild, Bakı- 1964
2. Azərbaycan ədəbiyyatı tarixi, I-II cild. Bakı -1960
3. H.Əhmədov "XIX əsr Azərbaycan məktəbi" Bakı -1985
4. M.Mehdizadə "Azərbaycan sovet məktəblərinin tarixinə dair xülasələr" Bakı-1958
5. Ə.Seyidov "Pedaqogika tarixi" Bakı-1968
6. Ə.Adıgözəlov "Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən" Bakı-2003

РЕЗЮМЕ
ИСТОРИЯ ШКОЛ В ЗАПАДНОМ АЗЕРБАЙДЖАНЕ И ЗАНГЕЗУРЕ
Адыгезалова Ш.А.

Ключевые слова: *образование, школа, Зангезур, оккупация, армяне*

В Западном Азербайджане история и развитие школ, образования и воспитания до сих пор остаются неизученными. В результате Гюлистанского договора 1813 г. и Туркменчайского договора 1828 г. Азербайджан был разделен на две части. Северный Азербайджан был вынужден присоединиться к России. Во время мартовской резни 1918 года армянами были убиты тысячи азербайджанцев, а десятки тысяч азербайджанцев были депортированы из Западного Азербайджана. В статье освещается история школ Западного Азербайджана и Зангезура.

SUMMARY
HISTORY OF SCHOOLS IN WESTERN AZERBAIJAN AND ZANGEZUR
Adigozalova Sh.A.

Keywords: *education, school, Zangezur, occupation, armenians*

The people of Azerbaijan possessing deep mentality, a rich spiritual world and noble moral qualities, have always paid great attention to the upbringing of the younger generation. School, education and upbringing in Western Azerbaijan still remain unexplored. As a result of the Gulistan Treaty of 1813 and the Turkmenchay Treaty of 1828, Azerbaijan was divided into two parts. During the March massacre of 1918, thousands of Azerbaijanis were killed by Armenians, and tens of thousands of Azerbaijanis were deported from Western Azerbaijan.

ELM TARİXİLİK VƏ MÜASİRLİK PRİZMASINDA

Həsənov R.
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı, Azərbaycan
hesenli.82@inbox.ru

Açar sözlər: *elmin mənşəyi, elm tarixi, elm və fəlsəfə, müasir dövrdə elm, elmi nailiyyətlər.*

Elm gerçəklik haqqında izahat və proqnozları özündə ehtiva edən və gerçəkliyin sirlərini araşdıran sistemli biliklər toplusudur. Elmin mənşəyi təbiətin və onun fəaliyyətinin praqmatik nəzərdən keçirilməsindən, eləcə də nəzəri araşdırmadan qaynaqlanır. “Elmdə nə isə yeni bir nəticə ala bilmək üçün ilk növbədə əvvəlki elmi biliklərin mənimsənilməsi tələb olunur.” [2, s.28] Elm tarixi elmin tarixi dəyişikliklərini və proseslərini öyrənən bir elm sahəsidir. Bu sahədə ixtisaslaşan alimi elm tarixçisi adlandırırlar. Elm tarixinə yanaşmanı geniş şəkildə iki növə bölmək olar, biri təbiətşünaslığın əsas nəzəri

sahəsi kimi tədqiq edilir, digəri isə elmi-fəlsəfi cəhətdən araşdırılır. Elmin müsbət və mənfi tərəfləri haqqında aparılan müzakirələrə elmşünaslıq deyilir.

Elmin ilkin rüşeymləri təxminən eramızdan əvvəl 3000-1200-cü illərdə Qədim Misir və Mesopotamiyada təzahür etməyə başladı. [6] Bu iki sivilizasiyanın riyaziyyat, astronomiya və tibb sahəsində əldə etdiyi nailiyyətlər klassik yunan təbiət fəlsəfəsinə daxil edilmiş və onu formalaşdırmışdır. "Qədim yunan mütəfəkkirləri faktiki materialları, dərin mühakimələri, kəşfləri toplamağa, onların məntiqi əlaqələrini açmağa, onlara sistemli bir görkəm verməyə çalışdılar." [3, s.112] Qədim dövrlərdən erkən müasir dövrə qədər elm və fəlsəfə arasında heç bir fərq yox idi. Müasir təbiət elminin yaranmasına qədər təbiət haqqında nəzəri və fəlsəfi nəzəriyyələr təbiət fəlsəfəsi və ya naturfəlsəfə adlanırdı. Qədim dövrlərdən bəri bəşəriyyət onları əhatə edən təbiət hadisələri və canlıların fiziki quruluşu ilə maraqlanmışdır. Tarixən bu maraqları izah etmək üçün bilik və təcrübə müxtəlif sivilizasiyalarda, o cümlədən Yaxın Şərq, Qədim Hindistan və Qədim Çində toplanmış və akademik fənlər kimi sistemləşdirilmişdir. Qədim dövrlərdə formalaşmış müxtəlif akademik sistemlər arasında qədim Yunanıstan və Roma təbiət fəlsəfəsi düşüncə tarixinə böyük təsir göstərmişdir.

Eramızdan əvvəl 2500-cü illərdə elmi fəaliyyətlərin intensivləşdiyi müəyyən edilmişdir. Miletli Fales tərəfindən əsası qoyulan və sonralar onun davamçıları Anaksimandr və Anaksimen tərəfindən davam etdirilən Milet məktəbinin erkən yunan filosofları ilk dəfə fövqəltəbii qüvvələrə əsaslanmadan təbiət hadisələrini izah etməyə cəhd etmişdilər. Pifaqorçular mürəkkəb rəqəmlər fəlsəfəsini önə sürərək, riyaziyyat elminin inkişafına əhəmiyyətli töhfə verdilər. Atomlar nəzəriyyəsi yunan filosofu Levkipp və onun tələbəsi Demokrit tərəfindən hazırlanmışdır. Yunan həkimi Hippokratın elmi fəaliyyəti nəticəsində sistemli tibb elmi meydana gəlmişdi. O dövrdə sağlamlıq və xəstəliklə bağlı yeganə çarə məbədlərdə dua etmək və mövhumata əsaslanan "müalicə" idisə, Hippokrat bu ənənələri ləğv edərək konkret müşahidələrə əsaslanırdı. Astronomiya ən qədim elm sahələrindən biridir, insanların səmaya olan marağı onları səma cisimlərini tədqiq etməyə sövq etdi. Babil astronomları ilə müqayisədə yunan astronomları riyazi təfərrüatları mənimsəmiş və bu elmin inkişafına dəyərli töhfələr vermişdilər. Roma İmperiyasının hakimiyyəti altında Misirdə yaşamış Ptolemey xüsusilə astronomiya tarixində mühüm mövqeyə malikdir. Akademiya adlı məktəb yaradan Platon kainatı həndəsi şəkildə izah etməyə çalışmış, göy cisimlərinin dairəvi hərəkətini izah edən kosmologiyanı müdafiə etmişdir. Akademiyadan Platonun tələbəsi olan Knidoslu Evdoks konsentrik göy sferası nəzəriyyəsində 27 göy sferasının yer ətrafında fırlanma hərəkətlərini birləşdirərək planetin, ayın və günəşin nizamsız hərəkətini izah etməyə çalışmışdır. Həmçinin, Platonun tələbəsi olan Aristotel biologiya sahəsində çoxlu araşdırma apardı. O, 540-a yaxın heyvan növünü morfologiyasına görə təsnif etmək üçün empirik və induktiv üsullardan istifadə etmişdir. Empirik müşahidələrin əsasını qoyan Aristotel Likeion (yun. Λύκειον) adlı bir məktəb yaratdı, elmin dərinləşməsinə töhfə verdi və gənc nəsillər yetişdirdi. Eramızdan əvvəl IV əsrdə Aristotel teleoloji fəlsəfənin sistematik proqramı yaratdı.

Qərbi Roma İmperiyasının süqutundan sonra, Orta əsrlərin ilk dövrlərində (təxminən 400-1000-ci illər) Qərbi Avropada qədim yunanların gerçəklik haqqındakı bilikləri tədricən unudulmuşdu, lakin İslam Şərqi Qızıl Dövrünü yaşayırdı. 825-ci ildə Bağdadda "Beyt əl-Hikmə" ("Hikmətlər evi") akademiyası yaradıldı. 972-ci ildə Qahirədə Əl-Əzhər Universiteti quruldu. X əsrdə təkcə Kordovada tibb, riyaziyyat, astronomiya və fəlsəfənin tədris edildiyi 27 mədrəsə var idi. [4] X-XIII əsrlərdə Qərbi Avropa qədim yunan yazılarını bərpa etdilər və İslam alimlərinin araşdırmalarını mənimsədilər. XVII əsr elmi inqilab dövrü adlanır. Q. Qaliley səma cisimlərini müşahidə etmək üçün teleskopdan istifadə etdi. N. Kopernik heliosentrik nəzəriyyəsi və kilsənin antipatiyasına görə həbs olundu. Lakin bundan sonra İ. Kep1er və İ. Nyuton vasitəsilə heliosentrik nəzəriyyə quruldu. A. V. Levenquk mikroskop altında mikrobları, U. Harvey qan dövranını kəşf edir. R. Dekart kainatın efirini, insan beyni və heyvan ruhunu təbiətə mexaniki baxışdan müzakirə etdi. R. Boyl qazlar üzərində tədqiqat aparmışdır.

Müasir elm adətən üç böyük sahəyə bölünür:

- fiziki dünyanı öyrənən təbiət elmləri (məsələn, biologiya, kimya və fizika);
- fərdləri və cəmiyyətləri öyrənən sosial elmlər (məsələn, iqtisadiyyat, psixologiya və sosiologiya);
- formal sistemləri öyrənən formal elmlər (məsələn, məntiq, riyaziyyat və nəzəri kompüter elmləri), aksiomalar və qaydalar.

Müasir dövrdə elm təbiət və fiziki elmlərə ekvivalent olaraq istifadə olunur, ona görə də o, maddi dünyanın hadisələri və onların qanunları ilə məşğul olan öyrənmə sahələri ilə məhdudlaşır. "Elmin mahiyyəti artıq dərk edilmiş olan həqiqətlərdən yox, onların axtarılmasından, təbiət və cəmiyyət qanunlarının öyrənilməsi və istifadə olunmasına yönəlmiş eksperimental tədqiqat işlərindən ibarətdir." [5] XIX əsrdə elm sözü daha çox təbiət aləminin, o cümlədən fizika, kimya, geologiya və biologiyanın sistemli tədqiqi ilə əlaqədar idi. Biologiyada müasir inqilab XIX əsrdə Ç. Darvinin təkamül nəzəriyyəsinin (1859) və Q. Mendelin əsrin sonuna qədər böyük ölçüdə diqqətdən kənarda qalan genetik nəzəriyyəsinin nəşri ilə

başladı. Biokimyanın inkişafı və ən mühüm bioloji proseslərin molekulyar səviyyədə baş verdiyinin tanınması dezoksiribonuklein turşusunun (DNT) strukturunun, molekul daşıyan molekulun kəşfi kimi fundamental nəticələrlə molekulyar biologiya sahəsinin sürətlə böyüməsinə səbəb oldu. Riyaziyyatda mücərrəd, aksiomatik yanaşmaya doğru hərəkət XIX əsrin əvvəllərində iki müxtəlif qeyri-evklid həndəsəsinin və bəziləri qeyri-kommutativ olan müxtəlif mücərrəd cəbrlərin kəşfi ilə başladı. Radiologiyanın banisi M. Kürinin elmə verdiyi töhfələr kimya sahəsində böyük əks-səda doğurdu. Radioaktivlik sahəsindəki işi ona 1903-cü ildə fizika və 1911-ci ildə kimya üzrə Nobel mükafatı qazandırdı.

Müasir cəmiyyətdə elm bir çox sənaye sahələrində və insanların həyatında mühüm rol oynayır. Elmin inkişaf səviyyəsi cəmiyyətin maariflənməsinin əsas göstəricilərindən biri olmaqla yanaşı, həm də dövlətin müasir tərəqqisinin göstəricisidir. İnsanı əhatə edən hər şey elmin nailiyyətləridir. Müasir elmin heyrətamiz imkanları var. Hələ 1904-cü ildə N. Tesla iddia edirdi ki, bir gün insan öz fikrini ən uzaq məsafələrə göndərə biləcək. Bir əsr sonra bu mümkün oldu. Elektromaqnit şüalarının təsiri ilə bağlı aparılan tədqiqatların əksəriyyəti onun sağlamlığa zərərindən danışır. Lakin indiki mərhələdə elm də elmi ictimaiyyətin strukturunda yeni sahələr yaratmaqla belə problemləri həll etməyə çalışır. Təbabətin, biologiyanın, genetikanın, embriologiyanın inkişafı sayəsində bəşəriyyət bir çox xəstəliklərə qarşı "antidot" tapa bildi.

XXI əsrdə bəşəriyyət yer kürəsinin demək olar ki, bütün məkanını işğal edib. Biz müxtəlif ölkələrdə, müxtəlif enliklərdə, müxtəlif yerlərdə yaşayırıq və buna görə də hər bir ölkənin öz təbii şəraiti və iqlim xüsusiyyətləri var. Bir çox ölkələr daim təbii fəlakətlərlə təhdid edilir. Təəssüf ki, təbii sərvətlərin məhdudluğu özünü getdikcə daha çox hiss etdirir. Ona görə də coğrafiya, geologiya, energetika və torpaqşünaslıq kimi elmlər xüsusi əhəmiyyət kəsb edir. Müxtəlif bilik sahələrindən olan bu elmlər cəmiyyəti təbii fəlakətlərdən xəbərdar etməyə, bəşəriyyətin gündəlik ehtiyac duyduğu alternativ enerji və mineral mənbələri tapmağa çalışır. Müasir dövrdə ölkələrin rifahı onların elm sahəsinin vəziyyətindən birbaşa asılıdır. Elmi məlumatların, kəşflərin artımı, tədqiqatçıların sayı təxminən hər 5-10 ildə orta hesabla iki qat artır. Təhsilverənlər qlobal şəbəkə - internet vasitəsilə uşaqlara elmin əsaslarını çatdırmağa çalışırlar. "Görünməz kolleclərə", distant təhsilə, virtual institutlara üstünlük verilməyə başlayır. Elmi ictimaiyyət müxtəlif elm sahələrində ixtisaslaşan və müxtəlif sahələrdə tədqiqat aparan çoxlu alim və əlaqəli qurumlardan ibarətdir.

XX əsrdə elmin bəşəriyyətin inkişafına verdiyi töhfə çox böyükdür. Ən son elmi inkişaflar, şübhəsiz faydaları ilə yanaşı, potensial təhlükə də daşıyır. İstilik elektrik stansiyaları böyük miqdarda enerji istehsal etməklə atmosferə milyonlarla ton kül və qaz buraxaraq ətraf mühiti çirkləndirir və planetin ozon təbəqəsini məhv edir. Atom elektrik stansiyalarında və radioaktiv materiallardan istifadə edən müəssisələrdə baş verən qəzalar fəlakətli nəticələrə gətirib çıxarır. Buna misal olaraq Çernobıl AES-də baş vermiş fəlakəti göstərmək olar.

Texnologiyanın və elmi nailiyyətlərin təbii proseslərə ahəngdar şəkildə daxil edilməsi qarşıdakı əsrin alimlərinin aktual vəzifələrindən biridir. Yalnız bu çətin vəzifəni həll etməklə nəinki sağ qalmağı, həm də gələcək nəsillərə layiqli həyatı təmin etmək olar. Elm adətən dünya, o cümlədən insanın özü haqqında obyektiv biliklərin istehsalı üçün yüksək ixtisaslaşmış fəaliyyət kimi qəbul edilir. Şübhəsiz ki, elm mədəniyyətin ən mühüm formalarından biridir və onun inkişafı insan həyatının bütün sahələrinin yeniləşməsinin ən mühüm amilidir. Çağdaş dövrdə elm insanın dünyagörüşünü formalaşdırır və texnoloji tərəqqi ilə sıx bağlıdır. Bununla yanaşı elm cəmiyyətin inkişafı üçün proqnozların yaradılmasına və proqramların hazırlanmasına, bəşəriyyətin qarşısında duran problemlərin həllinə kömək edir. "Müasir inkişaf mərhələsində ictimai həyatda elmin xüsusi çəkisi getdikcə artır." [1, s. 5] Biliyə əsaslanan iqtisadiyyat bütün istiqamətlərdə inkişaf edərək dünya bazarlarında hökmranlıq etmişdir. Səhiyyə, kənd təsərrüfatı, rabitə, enerji, sənaye inkişafı və infrastruktur kimi sahələr də daxil olmaqla, davamlı inkişaf problemlərinin öhdəsindən gəlmək üçün ölkələrə elm, texnologiya və mühəndislik sahəsində yüksək potensial lazımdır.

Elmi şəbəkələrin qurulması və elmi məlumatlara çıxışın asanlaşdırılması beynəlxalq elmi cəmiyyətlərə inteqrasiya olunmuş güclü tədqiqat bazasının yaradılması üçün vacibdir. Bu baxımdan informasiya-kommunikasiya texnologiyalarının rolu artır. Elmin inkişafında ekstensiv və inqilabi dövrlər bir-birini əvəz edir - elmi inqilablar onun strukturunun, idrak prinsiplərinin, kateqoriya və metodlarının, habelə təşkili formalarının dəyişməsinə gətirib çıxarır. Elm onun diferensiallaşdırılması və inteqrasiyası, fundamental və tətbiqi tədqiqatların inkişafı proseslərinin dialektik birləşməsi ilə xarakterizə olunur. "Elmdə yeni biliklər, dünyaya maraq və problemləri həll etmək istəyi ilə motivasiya olunan elm adamlarının araşdırmaları ilə inkişaf etdirilir." [7]

Elmi inqilab dövründən başlayaraq elmi metodlar tədricən formalaşmış və hər bir sahədə elm obyektin xarakterinə uyğun olaraq davamlı olaraq konkret metodologiyalar və üsullar inkişaf etdirmişdir.

Bununla belə, hansı metodların elmi sayıla biləcəyi arasındakı sərhəd həmişə aydın deyil və alimlərin bu barədə müzakirələr hələ də davam edir. Elm mükafatları adətən bir intizama əhəmiyyətli töhfələr vermiş şəxslərə və ya təşkilatlara verilir. Onlar tez-tez nüfuzlu qurumlar tərəfindən verilir, buna görə də onları qəbul etmək bir alim üçün böyük şərəf sayılır. Erkən İntibah dövründən elm adamlarına tez-tez medallar, maddi vəsaitlər və titullar verilir. Nobel mükafatı hər il tibb, fizika, kimya və iqtisadiyyat sahələrində elmi nailiyyətlər əldə etmiş şəxslərə verilir. [8] Elm eksperimentə böyük əhəmiyyət verir, elmi metod isə təcrübəyə əsaslanır. Bu mərhələ mövzunu nəinki inandırıcı edir, həm də onu müəyyən çərçivəyə salır.

Müasir cəmiyyəti elmsiz idarə etmək mümkün deyil. İndiki inkişaf mərhələsində elm cəmiyyətin sosial strukturunu dəyişir. Bütün dünyada əqli əməklə məşğul olanların sayının artması, ixtisassız əl əməyində işləyənlərin sayının azalması tendensiyası müşahidə olunur. Elm insana birbaşa təhsil vasitəsilə təsir edir. Elmi əsərlərin və nailiyyətlərin öyrənilməsi uşaqların inkişafına, onların savadlı şəxsiyyət kimi formalaşmasına kömək edir. Müasir təhsil prosesi dünyanın elmi mənzərəsinə, təhsil sektoru isə elmi tövsiyə olunan metodlara əsaslanır. Tədris prosesinə və təhsilin strukturunun dəyişdirilməsinə yönələn elm onun bütün komponentlərinə: məqsədlərə, vəzifələrə, prinsiplərə, forma və metodlara, vasitələrə, nəticələrə şamil edilir. Elmi dünyagörüşünün formalaşması həm də şəxsiyyətin formalaşmasında mühüm rol oynayan təhsil sistemi ilə bağlıdır. Təhsil və elm sahəsində müasir siyasət ali təhsilli mütəxəssislərin və bakalavrların böyük potensialının hazırlanmasına və istifadəsinə yönəlib.

Ədəbiyyat

1. Xəlilov S. Elm haqqında elm. Bakı: Azərbaycan Universiteti, 2011, 752 s.
2. Xəlilov S. Elmşünaslığa giriş. Bakı: Çaşıoğlu, 2010, 446 s.
3. Məmmədov Ə. B., Bəşirov R. İ. Müasir təbiətşünaslığa konseptual yanaşma. Bakı: Elm, 2001, 757 s.
4. Большаков О. Г. Средневековый арабский город // Очерки истории арабской культуры (V—XV вв.). — М.: Главная редакция восточной литературы издательства «Наука», 1982.
5. Волков Г.Н. Социология науки. Очерки. М., Политиздат, 1968, с.121.
6. Grant, Edward (2007). "Ancient Egypt to Plato". A History of Natural Philosophy: From the Ancient World to the Nineteenth Century (First ed.). New York: Cambridge University Press. pp. 1–26
7. MacRitchie, Finlay (2011). "Introduction". Scientific Research as a Career. New York: Routledge. pp. 1–6. ISBN 978-1-4398-6965-9. Archived from the original on May 5, 2021. Retrieved May 5, 2021.
8. Stockton, Nick (October 7, 2014). "How did the Nobel Prize become the biggest award on Earth?". Wired. Archived from the original on June 19, 2019. Retrieved September 3, 2018.

РЕЗЮМЕ
НАУКА В ПРИЗМЕ ИСТОРИИ И СОВРЕМЕННОСТИ

Гасанов Р.

Ключевые слова: *происхождение науки, история науки, наука и философия, современная наука, научные достижения*

Современное общество не может управляться без науки. На современном этапе развития наука меняет социальную структуру общества. Во всем мире наблюдается увеличение числа людей, занятых умственным трудом, и уменьшение числа людей, занятых неквалифицированным физическим трудом. Наука воздействует на людей непосредственно через образование. Изучение научных трудов и достижений помогает развитию детей и формированию их как образованных личностей. Современный образовательный процесс основан на научном взгляде на мир, а образовательная сфера – на научно-рекомендуемых методах.

В современном обществе наука играет важную роль во многих отраслях и жизни людей. Уровень развития науки является одним из основных показателей образованности общества, а также показателем современного прогресса государства. Во всем, что окружает человека, присутствует наука и её достижения.

SUMMARY
SCIENCE IN THE PRISM OF HISTORIC AND MODERNITY

Hasanov R.

Keywords: *origin of science, history of science, science and philosophy, modern science, scientific achievements*

Modern society cannot be managed without science. At the current stage of development, science is changing the social structure of society. All over the world, there is an increase in the number of people engaged in intellectual labor, and a decrease in the number of people working in unskilled manual labor. Science affects people directly through education. The study of scientific works and achievements helps for the development of children and their formation as an educated personality. The modern educational process is based on the scientific view of the world, and the educational sector is based on scientifically recommended methods.

In modern society, science plays an important role in many industries and people's lives. The level of development of science is one of the main indicators of the education of the society, and it is also an indicator of the modern progress of the state. Everything that surrounds man is the achievement of science.

XƏZƏR DƏNİZİNİN SƏVİYYƏSİNİN DƏYİŞMƏSİ HAQQINDA

Alməmmədli M.G.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
mesudaz@mail.ru

***Açar sözlər**: Xəzər dənizi, səviyyə tərəddüdü, geomorfoloji analiz, reqresiya, transqresiya.*

Xəzər dənizinin geomorfologiyasının və Xəzər dənizinin səviyyəsindəki dalğalanmaların tarixinin öyrənilməsində bir çox tədqiqatçılar mühim işlər aparmışdırlar. Əldə edilmiş məlumatların analizi onu deməyə imkan verir ki, Xəzər dənizinin səviyyəsindəki dalğalanmalar mütəmadi olaraq baş verir. Xəzər dənizinin sahilində aparılan çöl tədqiqatları zamanı 1929-cu ildən başlayaraq 1977-ci ilə qədər davam edən (bu dövrdə səviyyə 3 metr azalıb) səviyyənin azalması prosesləri müşahidə edilmişdir.. 1978-ci ildən 1995-ci ilə qədər səviyyə 2,36 m yüksəlmiş, 1996-cı ildən 2015-ci ilə qədər onun səviyyəsi yenidən 1,34 m aşağı düşərək səviyyənin -28 m-də dayanmışdır [1]. Amma bu səviyyə dayanaqlığı çox da uzun sürməmiş və son 2 ildə yüksək sürətlə Xəzər dənizinin səviyyəsi düşməkdə davam edir.

Dağıstan və Şimali Azərbaycan daxilində Xəzər dənizinin sahillərinin və sahilyanının (Xəzərə axan çay dərələri də daxil olmaqla) uzunmüddətli müfəssəl tədqiqi Xəzərin paleocoğrafiyası ilə bağlı bir sıra problemlərə (səviyyənin dəyişməsi şəraitində onun sahillərinin təkamülü) yenidən nəzər salmağa imkan vermişdir. Mən onlardan nəinki Xəzər regionu üçün böyük elmi və tətbiqi əhəmiyyət kəsb edən, hətta bəzi hallarda regional çərçivədən kənara çıxan bəziləri üzərində dayanmaq istəyirəm. Qeyd edim ki, əvvəllər müxtəlif nəşrlərdə bu və ya digər dərəcədə bu problemlərə həsr olunmuş məqalələr çap edilmişdir.

Birinci Xəzər dənizinin tarixi, qısaca və ümumi şəkildə desək, onun səviyyəsindəki dalğalanmaların tarixidir. Neopleistosendə, yəni son 700-750 min il əvvəl onun səviyyəsindəki dalğalanmaları göstərən çoxlu əyrilər var. Bu cür əyrilərin qurulması üsulları əsasən Volqa və Ural çayı dərələrinin geoloji və geomorfoloji quruluşunun materiallarına əsaslanaraq məlumdur [1]. Əgər belə əyrilər Xəzər dənizinin tarixinin əsas transqressiv-reqressiv mərhələlərini qiymətləndirmək üçün az və ya çox məqbuldursa (yəni paleocoğrafi məqsədlər üçün), onda onlar aşağı amplituda səviyyəli dalğalanmalar (5-10 m) haqqında mühakimə yürütmək üçün uyğun deyildir.

G.İ.Rıçaqov Xəzər dənizinə axan kiçik çayların dərələrinin mənsəb hissələrinin strukturunun ətraflı öyrənilməsi əsasında yeni üsul işləyib hazırlamışdır. (?)Onun inkişafı prosesində müəyyən edilmişdir ki, bütün kiçik çaylar qarşıya qoyulmuş vəzifələrin həlli üçün uyğun deyil, yalnız daimi axan, estuari hissələri asanlıqla eroziyaya məruz qalan süxurları kəsib keçən çaylar bu problemin öyrənilməsində mühim əhəmiyyət kəsb edir. Bu çayların bərk gətirmələri kiçik,(və nəticədə deltaların olmaması), müasir allüviumun qalınlığı isə əhəmiyyətsiz olmalıdır. Dağıstan və Şimali Azərbaycan ərazisində tədqiq edilən və yuxarıda göstərilən şərtlərə cavab verən çoxlu çaylar arasında aşağıdakıları qeyd etmək olar: Qəmri-Özən, Uluçay, Rubaçay (Dağıstan), Gilgilçay (Azərbaycan).

Belə çayların xüsusiyyəti ondan ibarətdir ki, onlar dəniz səviyyəsindəki kiçik və qısamüddətli dəyişikliklərə çox həssasdırlar: azaldıqda, hətta dayaz sahillərdə də dərələrini dərinləşdirirlər, yüksəldikdə dərələrində, sahillərində inqressiv terraslar əmələ gəlir ki, strukturunda allüvial və dəniz çöküntüləri iştirak edirlər. Kəsmələrdə bu, bəzi allüvial-dəniz təbəqələrinin digərlərinə söykənməsində və ya meyl etməsində özünü göstərir ki, bu da çöl tədqiqatlarında asanlıqla müəyyən edilir. Belə terrasların mütləq hündürlüyü demək olar ki, transreqresiya edən dənizin mütləq hündürlüyü ilə eynidir. Bu qənaətin etibarlılığını G,İ,Rıçaqov 1967-ci ildə Şura-Ozen (Dağıstan) (dəniz səviyyəsində -28,5 m), sonra 2002-ci ildə (dəniz səviyyəsində -27,2 m) dərəsinin mənsəb hissəsinin ətraflı çöl tədqiqatının nəticələrini müqayisə edərkən təsdiqləmişdir. Bu belə qənaətə gəlməyə əsas verir ki, kiçik çayların vadilərində müşahidə edilən Holosen dövrünün inqressiv terrasları Yeni Xəzər transqressiyasının müxtəlif mərhələlərində, bəzi hallarda isə daha çox dəniz səviyyəsinin mütləq hündürlüyünə etibarlı sübut kimi istifadə edə bilər.



Şəkil. Xəzər dənizinin Holosendə səviyyə tərəddüdü

Paleogeomorfoloji baxımdan kiçik çayların böyüklərdən daha bir böyük üstünlüyü var. Belə

çayların mənsəb hissələrinin dərələrinin quruluşuna əsasən Yeni Xəzər transqressiyasının reqressiv fazalarının dərinliyini kifayət qədər etibarlı şəkildə qiymətləndirmək olar və bütün Xəzər tədqiqatçılarına məlum olduğu kimi, bu, ən çətin paleogeomorfoloji problemlərdəndir.

Kiçik çayların dərələrinin mənsəb hissələrinin strukturu haqqında əldə edilmiş məlumatlar, Xəzərin Dağıstan və Şimali Azərbaycan sahillərinin ətraflı tədqiqi ilə yanaşı, Xəzər dənizinin səviyyəsinin Holosendə dəyişməsi üçün kifayət qədər əsaslandırılmış əyri qurmağa imkan vermişdir (Şəkil).

İkinci müddəa Xəzərin səviyyəsinin 1978-ci ildə başlayan "gözlənilməz" yüksəlişi proqnozların yeni dalğasına səbəb oldu, bu dəfə səviyyənin -22–21 m-ə yüksəlməsi ilə bağlıdır. Bu proqnozlar XIX əsrin əvvəllərində Xəzər dənizinin belə səviyyələrdə səviyyəsi haqqında ədəbiyyatda mövcud olan məlumatlara əsaslanırdı. Həmçinin o dövrün iqlim şəraiti müasir şəraitə bənzədiyindən belə proqnozlar verilirdi ki,indiki zamanda səviyyə göstərilən kəmiyyətlərə qədər yüksələ bilər.

Bu qənaətlər əsasən arxiv ədəbi-kartoqrafik mənbələrinin (əsasən A.İ.Naqayev və A.E.Kolodkinin [1,2] Xəzər dənizinin xəritələrində, həmçinin Xəzər dənizinin türkmən sahillərinin bir sıra xəritələrində) təhlilinə əsaslanırdı. Dəniz səviyyəsinin dəyişməsi zamanı müxtəlif növ dəniz sahillərinin təkamülü ilə bağlı müasir biliklərə əsaslanaraq deyə bilərəm ki, Aral tipli sahillərin inkişafı çərçivəsində sahil zolağının məkan mövqeyinin təhlili əsasında müəyyən dərəcədə mümkündür.

Xəzər dənizinin yuxarıda qeyd olunan xəritələrinin A.İ.Naqayev (1796) və A.E.Kolodkinin (1809–1814-cü illərin tədqiqat məlumatlarına əsaslanaraq) müqayisəsinə və əsasən bu xəritələrdə Suiti adasının təsvirinə böyük diqqət yetirilmişdir. A.İ.Naqayevin xəritəsində bu ada, A.E.Kolodkinin xəritəsində isə onun yerində mərkəzi hissəsində dərinliyi 1,6 m-ə qədər olan dayazlıq (bank) təsvir edilmişdir. Suiti adasının A. I. Nagaevin vaxtı dəniz səviyyəsindən ən azı 1 m yuxarı qalxdığı (tarixi məlumatlara görə, onun üzərində balıq ovu yerləri yerləşdirdi), A. E. Kolodkinin xəritəsində isə dərinliyi 1,5 m-ə qədər olan dayaz sahə kimi təsvir edilmişdir. Belə nəticəyəgəlmək olar ki, dəniz səviyyəsi XVIII-XIX əsrlərin əvvəllərində 2,5 metrə qədər yüksəlir və Xəzər dənizinin səviyyəsi on doqquzuncu əsrin əvvəllərində -22—-21 m təşkil edir [2] .

Qeyd edək ki, bu xəritələr müqayisə edilərkən nədənsə bu qənaətə zidd olan bir sıra hallar və faktlar nəzərə alınmayıb. Birincisi, sual yaranır: A.E. Kolodkin xəritəni ilin hansı vaxtında çəkmişdir? Hazırda hamıya məlumdur ki, Suiti adasının ərazisində dəniz səviyyəsi ilin müxtəlif vaxtlarında orta illik göstəricidən 70 sm yüksək və ya 60 sm aşağı ola bilər.

19-cu əsrin əvvəllərində dəniz səviyyəsinin yüksək olması ilə ziddiyyət təşkil edən misallar çəkəcəyəm. A. E. Kolodkinin xəritəsində Çeçen adaları, Kulalı və digər obyektlər göstərilir ki, onların sahilləri dəniz səviyyəsindən -24 m -dən çox olmayan hündürlüklərdə yerləşir.

Üçüncüsü kiçik çayların vadilərinin, eləcə də Xəzər dənizinin Dağıstan və Şimali Azərbaycan sahillərinin hissələri, ilk növbədə, belə qənaətə gəlməyə imkan verir ki, Xəzər dənizi üçün səviyyə tərəddüdü -30 ilə -25 m aralığında onun normal vəziyyətidir. Dənizin sahil zonasında iqtisadi tədbirlər (təbii ki, dalğaların təsiri və dalğalanma hadisələri nəzərə alınmaqla) işlənib hazırlanarkən səviyyə dəyişmələrinin bu diapazonu ("risk zonası") rəhbər tutulmalıdır" [3].

Mövcud iqlim şəraitində Xəzər dənizinin səviyyəsinin geomorfoloji analiz əsasında müəyyən edilmiş "risk zonası" daxilində dəyişəcəyi qənaəti riyazi modelləşdirmə məlumatlarına uyğundur. Beləliklə, Xəzər səviyyəsinin stasionar ehtimal sıxlığının hesablanmış əyrisinə [4] əsasən iki sabit tarazlıq səviyyəsi müəyyən edilmişdir: -28,3 və -25,8 m yaxın.

Sahilin landşaft quruluşu da yuxarıdakı nəticələrə uyğundur. -25 m BS-dən yuxarıda yerləşən ərazilər tamamilə homojen olmasa da, kifayət qədər yaxşı inkişaf etmiş zonal torpaq və bitki örtüyünə malik litoloji-morfoloji kompleksdir. Hipometrik cəhətdən daha aşağıda yerləşən sahilyanı ərazilər fərqli relyef və çöküntülərlə xarakterizə olunur və burada torpaq və bitki örtüyü ilkin formalaşma mərhələsindədir. Bu ərazilərin qeyri-bərabər yaşı xronometrik məlumatlar ilə də təsdiqlənir:dəniz səviyyəsindən -25 m-dən aşağı olan dəniz çöküntülərinin yaşı 1000 ildən çox deyil, yuxarıda yerləşən dəniz çöküntülərinin yaşı isə 2-2500 il və daha çoxdur.

Mövcud bir-biri ilə uzlaşmayan nöqteyi-nəzərlər toplusu onunla bağlıdır ki, paleo-hadisələrin təhlili zamanı təbii mühitin inkişafının ümumi coğrafi qanunauyğunluqlarına az və ya heç diqqət yetirilmir. Bütün diqqət son vaxtlar radiometrik məlumatlara yönəlib və bu, paleocoğrafi hadisələrin yenidən qurulması üsullarından yalnız biridir. Yuxarıda göstərildiyi kimi, maddi obyektlərin (relyef və onu təşkil edən süxurların) öyrənilməsinə əsaslanan geomorfoloji analiz üsulu ilə alınan nəticələr bütün digər (hətta ədədi) üsullardan daha etibarlı olur.

Sonda demək istərdim ki, Son Pleystosen və Holosendə baş vermiş paleocoğrafi hadisələrin rekonstruksiyası zamanı müxtəlif üsullardan istifadə etməklə əldə edilmiş rekonstruksiya edilmiş paleocoğrafi hadisələrin nəticələrini dəniz oksigen izotop şkalası ilə müqayisə etmək faydalı olardı, o, ideal olmasa da, lakin yenə də təbii mühitdə qlobal dəyişikliklərin ayrılmaz göstəricisidir (yəni, paleocoğrafi

rekonstruksiyalarda coğrafi yanaşmadan istifadə və bəyan etməmək) oxucuya əldə edilən nəticələrin etibarlılığını qiymətləndirməyə imkan verir. bu və ya digər metodun tətbiqi əsasını izləyir [1].

Ədəbiyyat

1. Рычагов Г.И. К методике геоморфологических исследований (геоморфологические уроки Каспия) // Геоморфология. 2019. № 4. С. 28-41.М.: Изд-во МГУ, 1997. 268 с.
2. Рычагов Г. И. Уровень Каспийского моря на рубеже XVIII-XIX веков // Геоморфология. 1994. № 2. С. 102-108.
3. Рычагов Г. И. Колебания уровня Каспийского моря: причины, последствия, прогноз // Вестн. Моск. ун-та. Сер. 5. География. 2011. С. 4-12.
4. Найденов В. И. Нелинейная модель колебаний уровня Каспийского моря // Математическое моделирование. 1992. Т. 4. № 6. С. 50-64.

РЕЗЮМЕ
О КОЛЕБАНИЯХ УРОВНЯ КАСПИЙСКОГО МОРЯ

***Ключевые слова**: Каспийское море, колебания уровня, геоморфологический анализ, регрессия, трансгрессия.*

Рассмотрено значение геоморфологического метода при реконструкции палеогеографических событий, имевших место в позднем неоплейстоцене и голоцене. Приведены конкретные данные, полученные в результате его применения: составлена обоснованная кривая колебания уровня Кас пийского моря в голоцене; определена “зона риска” (от -30 до -25 м абс.), в пределах которой уровень Каспия будет колебаться и впредь при современных физико-географических условиях, что имеет принципиальное значение при планировании любых хозяйственных мероприятий в береговой зоне; сделаны (оправдавшиеся впоследствии) прогнозы колебания уровня Каспия в X X–начале XXI вв.; подтверждена климатическая природа каспийских трансгрессий. Полученные данные об эволюции берегов Каспийского моря при повышении его уровня могут быть использованы при прогнозе развития берегов других морей в условиях современного поднятия уровня Мирового океана.

SUMMARY
ON FLUCTUATIONS IN THE LEVEL OF THE CASPIAN SEA
Almammadli M.G.

***Keywords**: Caspian sea, level fluctuation, geomorphological analysis, regression, transgression*

The main focus of the article is the significance of the geomorphological method for the reconstruction of paleogeographic events that took place in the Late Pleistocene and Holocene. The specific data obtained as a result of applying this method are given. A reasonable curve of the Caspian Sea level fluctuations in the Holocene was compiled. A “risk zone” has been defined, within which the level of the Caspian Sea will fluctuate in the future, under modern physics-geographical conditions, which is fundamental importance when planning any economic measures in the coastal zone. Predictions were made and later justified of the Caspian Sea level fluctuations in the 20th–early 21st centuries. The climatic nature of the Caspian transgressions was confirmed. Obtained were new data on the evolution of the shores of the Caspian sea under rising level conditions, which can be used when forecasting the development of the shores of other seas in the conditions of the present-day rise of the World Ocean level.

AZƏRBAYCANIN TƏHSİL TARİXİ (TARİXƏ QISA SƏYAHƏT)

Əsədova A.V.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
asadova_ayten@bk.ru

***Açar sözlər:** təhsil, elm, mədəniyyət, məktəb, tədris, müəllim*

Hər bir xalqın həyatında təhsil, elm xüsusi yer tutur. Təhsil bir xalqın inkişafı, tarixinə bağlılığı deməkdir. Azərbaycan xalqının həyatında təhsil, tərbiyə, elm hələ qədim zamanlardan ən önəmli dəyər sayılmışdı. Qədim tarixə, mədəniyyətə, malik bu yurdun sakinləri hələ qədimdən yazı, oxuma mədəniyyətinə sahib olmuşdular. Hələ eradan əvvəl IX əsrdə yaranmış Manna dövlətində riyazi hesablamalar, həndəsə inkişaf etmişdi. Bu elmlərin inkişafı nəticəsində böyük inşaat işləri aparılırdı. Qədim və erkən orta əsrlərdə Azərbaycanda müəllimə, öyrədənə, təlim-tərbiyəyə, elm-təhsilə xüsusi hörmət vardı.

Atropatena dövlətində məktəb və təhsildə pəhləvi əlifbasından istifadə edilirdi. Burda təhsil əsasən evdə alınır (ilk vaxtlarda zadəganlarda), 7 yaşdan sonra isə uşaqlar məktəbə göndərilirdi. Artıq 16 yaşdan yuxarı şəxslər ixtisas təhsili alıb mütəxəssis kimi yetişirdilər. Azərbaycanın şimal hissəsində Qafqaz Albaniyası da elm və təhsil qədim və ilk orta əsrlərdə inkişaf etmişdi. Albaniyada məskunlaşmış xalqların kitab mədəniyyəti də mövcud idi. Buna misal olaraq 52 hərfdən ibarət Alban əlifbasını göstərə bilərik. 1948-1952-ci illərdə Mingəçevirdə aparılan arxeoloji qazıntılar nəticəsində tapılan Alban əlifbası yazıları bunu

təsdiq edir. Arxeoloji qazıntılar nəticəsində V-VII əsrə aid alban yazıları olan çoxlu mədəniyyət qalıqları tapıldı. Tapılan gil lövhə üzərində 56 hərf olduğu qeydə alınmışdı.Albaniyada əlifbanın, yazıların olması həm də onu öyrədənlərin və öyrənənlərin olması demək idi. Bu isə məktəblərin olmasından xəbər verir. Hətta məktəblərdən məlum olur ki, bu dövrlərdə iri feodallar uşaqlarını öyrətmək üçün bəzi şəxslərin yanına göndərirdilər. İlkin alban məktəblərində əsasən dini təhsil verilirdi. Artıq VIII əsrdən Albaniyada əlifba ərəb əlifbası ilə əvəz oldu. 705-ci ildə Albaniyanın varlığına son qoyuldu. Azərbaycan ərazisində İslam dini yayılmağa başladı. Tərbiyə-təlim (bu dövrdə) insanın inkişafının ilk illərində aparılırdı. VIII əsrdən başlayaraq Azərbaycanda müsəlman məktəbləri yarandı, məsçidlərin nəzdində məktəblər təşkil edildi. Artıq X-XI əsrlərdə müddərislər adlandırılan peşəkar müəllimlər, təlimçilər fəaliyyətə başladılar. Ərəb xilafəti dövründə Azərbaycanda fərdi təhsil almaq üstünlük təşkil edirdi. Elm həvəskarları xüsusi alimlərin, yanında yüksək fərdi təhsil alırdılar. Artıq Azərbaycan alimləri yunan və başqa alimlərin əsərləri ilə tanış idilər. IX əsrdə Azərbaycan elmində intibah mərhələsinin başlanğıcı qoyuldu (IX-XII). Azərbaycanda elm və təhsilin inkişafının II mərhələsi XII-XIV əsrləri əhatə edir və güclü inkişaf edir. IX-XII əsrlərdə artıq alimlər yetişirdi (xüsusi elm sahəsində). Bunlara N.Gəncəvini, Fəridəddin Şirvanini, Mahmud Xocanı, Xəqani Şirvanini və s. göstərmək olar. XIII əsrdən başlayaraq Azərbaycanda təhsil daha da inkişaf edirdi. Azərbaycanın bir çox şəhərlərində mədrəsələr fəaliyyət göstərirdi. XIII əsr təhsil sahəsində xüsusi adı çəkilən mədrəsələrin çoxu Marağada idi.

Xilafətin süqutu Azərbaycanda siyasi dirçəlişə səbəb oldu. Azərbaycan feodal dövlətlərinin (Şirvanşahlar, Səlarilər, Sacilər, Rəvvadilər) hökmdarları elmin inkişafı üçün savadlı insanları öz saraylarına toplayırdılar. Bu dövrdə Bərdə, Gəncə, Şamaxı, Təbriz, Ərdəbil və s. şəhərlərdə təhsil verən tədris ocaqları, mədrəsələr fəaliyyət göstərirdi. Məsçidlərin nəzdində fəaliyyət göstərən məktəblərdə uşaqlara Qurani Kərim öyrədilir yazı, oxu və müxtəlif bilik sahələrinə aid ilkin məlumatlar verilirdi. Elm, təhsil, tədris vahid İslam mədəniyyəti altında aparılırdı. XII əsrdə artıq təbiət elmlərinə də maraq artmışdı. Bu dövrdə Azərbaycan alimləri təbiət, fəlsəfə, astronomiya, tarix, coğrafiya inkişafında öndə gedirdilər və dünya elminə öz töhvələrini vermişdilər. XIII əsrdə yazılan "Əcaib əl Dünya" əsərində bildirilirdi ki, bu mədrəsələrdə müəllimlər işləyir, tədris aparılırdı. Bu cür mədrəsələr Gəncə, Şamaxı şəhərlərində də fəaliyyət göstərirdi. Artıq bu dövrdə şəhərlərin zəngin kitabxanaları var idi. Filosofların ən məşhur əsərləri tərcümə edilib, tədris edilirdi. XIV əsrdə isə mədrəsələrdə elmi kitabxanalar təşkil edilmişdir. Buna misal "Şənbi Qazan", "Rəbi-Rəşidi", "Sultaniyyə" mədrəsələrini göstərmək olar. XIV əsrdə fəaliyyət göstərən "Şənbi Qazan" təhsil müəssisəsində ibtidai məktəbdə 100-ə qədər şagird təhsil alırdı.

Artıq XIV əsrdən Azərbaycan dili formalaşmağa başladı. Bu dövrdə əsərlərin çoxu Azərbaycan dilində yazılmağa başladı. Elm insan üçün ən dəyərli zinət hesab edilir. Bu ideyanı irəli sürənlərə Ə.Təbrizini, Ə.Marağayini, F.Nəimini, İ.Nəsimini və s. göstərə bilərik. Professor Faruq Sümərin araşdırmasına görə Ağqoyunlu sultanı Uzun Həsən Qurani türkcəyə çevirib oxutmağa başladı. Bu müqəddəs kitabın tarixində ilk türk çevirmələrindən sayılır . Azərbaycan Səfəvilər dövlətinin yarandığı vaxtlar (1501 il) isə elm təhsil daha da inkişaf etdi. Məktəb, mədrəsələrlə yanaşı kitabxanaların sayı artdı. Şah İsmayıl Xətai özü savadlı olduğu kimi biliyə, elmə böyük qiymət verirdi. Səfəvilər dövründə tədrisdə (Azərbaycan) türk dilinə üstünlük verilirdi və bu türk dili dövlət dili elan edildi. Hətta Xətai tədrisin ana dilində aparılması üçün əmr də vermişdi. Artıq XVII əsrdə Azərbaycanda 1200 ibtidai məktəb var idi. Övliya Çələbinin məlumatlarına görə. Təkcə Təbriz şəhərində 600 ibtidai məktəb var idi. Dini təhsillə yanaşı dünyavi təhsil də verilirdi. XVIII əsrdə amansız feodal çəkişmələri, fasiləsiz basqınlar Azərbaycanda təhsilə mənfi təsir etməyə bitməzdi. Lakin iri şəhərlərdə Təbriz, Gəncə, Quba, Şəki və s. şəhərlərdə məktəblər qalmaqda idi. Bu dövrdə Şuşada Saatlı məhəlləsində, Cəbrayılın Cəbərilər kəndində isə 9 məktəb fəaliyyət göstərirdi. XIX əsrdən isə təhsildə ciddi dəyişmələr əsasında ruslaşdırma siyasəti başladı. 1828-ci ildən (Türkmənçay sülhü) çarizmin Azərbaycanda təhsil siyasəti iki istiqamətdə aparıldı. Mollalar və əfəndiləri öz qulluqçusuna çevirməklə azərbaycanlı uşaqlarını rus məktəblərində təhsil vermək məqsədi ilə 1828-ci ildə Tiflisdə "Əmanətlər" adlı məktəb açmışdı. XIX ə 30-cu illərindən etibarən Azərbaycanda məhəllə məktəbləri tipli qəza məktəblərinin yaranmasına qərar verildi. 1830-cu ilə qədər Şuşa, Şəki, Bakı, Gəncə, Naxçıvan, Şamaxı da qəza məktəbləri açıldı. 1832-ci ildə ilk pansionlu (Bakıda) məktəb layihələri A.Bakıxanov işləyib hazırlamışdı. Məktəblərdə təhsil verən müəllimlər əsasən mədrəsələrdə təhsil alanlar idi, onlara misal S.Ə.Şirvanini göstərmək olar.1881-ci ildə azərbaycanlıların mədəni mərkəzi olan İrəvanda gimnaziya və İrəvan Müəllimlər seminariyası fəaliyyətə başladı. 1883-1895-ci ildə seminariyanı 123 tələbə bitirmişdi. 1896-cı ildə ziyalıların təşəbbüsü ilə Şuşada iki sinifdən ibarət Rus-tatar məktəbi fəaliyyətə başlamışdı. Ümumilikdə 1883-1885-ci illərdə Şuşa qəzasında bir çox kəndlərdə məktəblər açılmışdı. 1883-cü ildən Qarabağda ana dilində təhsil verən şəxsi məktəblər açılmışdı.

XX əsrdə Azərbaycanda qadın təhsilində xüsusi diqqət yetirilirdi. 1948-ci ildə Şamaxıda ilk rus qız məktəbi açılmışdı. Bu işi təşkil edən "Müqəddəs Nina" Qadın xeyriyyə cəmiyyəti idi. 1900-1913-cü illər

ərzində Şamaxıda, Salyanda, Lənkəranda, Şəkidə, Gəncədə, Gədəbəydə, Qaxda, Naxçıvanda, Zaqatalada yeni tipli məktəblər açıldı. Yeni məktəblər 4 illi idi. Məktəblərdə riyaziyyat, coğrafiya, fizika, tarix keçirilirdi. 1901-ci ildə Bakıda açılan ilk müsəlman rus qadın məktəbi H.Z.Tağıyevin adı ilə bağlıdır. 1914-cü ildə Gəncədə, 1916-cı ildə Bakıda, 1919-cu ildə AXC-i hökumətinin təşəbbüsü ilə Qazaxda müəllimlərin seminariyası açıldı. Azərbaycanda təhsilin inkişafını daha geniş şəkildə 1918-ci ildən sonra görürük. 1918-ci ilə qədər Azərbaycanda ana dilində tədris aparılmamışdır. Azərbaycanda ilk ana dili məktəb A.Şaiqin yaratdığı "Nümunə" məktəbi olmuşdu (1918-1926). Məhz bu məktəbi yaratmaq AXC-nin dövrünə təsadüf edir.Əhalinin savadlandırılmasını sürətləndirmək üçün Xalq Maarifi Nazirliyinin 1919-cu il 7 sentyabr tarixli sərəncamına əsasən, azərbaycanlı şagirdlərin hazırlıq siniflərinə və birinci siniflərə qəbul olunması göstərişi verilmişdi. AXC-nin 1918-ci il 28 mayında müstəqillikdən sonra yaradılan hökumətin tərkibinə Xalq Maarifi Nazirliyi təşkil edilmişdir. Bu sahəyə bütün məktəb və maarif işinin təşkili və idarəsi tapşırılmışdır. Nazirlər Şurasının 1918-cı il 28 avqust tarixli qərar ilə bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılır, eyni zamanda dövlət dili icbari qaydada tədris olunurdu. Azərbaycan hökuməti tədris işini milliləşdirərkən azsaylı xalqların uşaqlarınıda nəzərə almışdı. Hökümətin 1918-ci il 7 sentyabr qərarı ilə sinifdə başqa millətlərdən olan şagirdlərin sayı 10 nəfərdən az olmadıqda onlara öz dillərində ilahiyyat və ana dili dərsləri keçirilməli idi.Azərbaycan Dövlət Univeristetinin yaranmasında M.Ə.Rəsulzadənin böyük xidmətləri vardır.

1920-ci ildə Sovet hakimiyyəti quruldu. Bu dövrlərdə təhsildə əsas məsələ yeni məktəb sistemi qurmaq idi.1920-1922-ci ildə Bakı, Nuxa, Gəncə, Qazax, Naxçıvan, Şuşada müəllim qəza seminariyaları açıldı. 1924-cü ildə Gəncədə 2, Qazax qəzasında isə 5 yeni məktəb açıldı. Buna baxmayaraq məktəblər 1926-cı ilin ölkənin 35 faizini ödəyirdi. 1920-ci ilin sentyabrdan savadsızlığı aradan qaldırılması üçün tədbirlər həyata keçirilməyə başladı. Bu məqsədlə 20 səyyar qrup təşkil olunmuşdu. Rayonlarda səyyar təhsil məktəbləri təşkil edilmişdi. 1925-ci ildə Azərbaycanın böyük şəhərlərində əlifba kursları açıldı. 1960-cı ildə orta məktəblər üçün "Azərbaycan tarixi" dərsliyi çapdan çıxdı. 1965-ci il 14 may tarixli qərarına tarixdə (Azərbaycan tarixi) böyük əhəmiyyəti oldu. Bu qərar məktəb tarix kursunun ardıcıl və əsaslı öyrənilməsinə imkan yaratdı.1949-cu ilin 7 illik təhsilə, 1959 ildən isə 8 illik təhsil tətbiq edildi. 1966-cı ilin orta təhsil ümum orta təhsil elan edildi. "İnternat tipli məktəblər" yaradıldı. 1947-ci ildə APİ-nin nəzdində Xarici Dillər İnstitutu, 1950-ci ildə Politexnik İnstitutu, 1951-ci ildə Xalq Təsərrüfatı İnstitutu, 1959-cu ildə Xarici Dillər İnstitutu yaradıldı.

1991-1999-cu illər orta Azərbaycan müstəqil dövlət olaraq yeni təhsil siyasəti həyata keçirməyə bağlandı. 90-cı illərdə məlum baş vermiş hadisələr (müharibə) məktəb sisteminə ciddi mənfi təsir göstərmişdi. 1998-ci ildə Heydər Əliyevin 30 mart sərəncamı ilə təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası təşkil edildi. Ümummilli lider H.Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycan təhsilinə ciddi qayğı göstərmişdi. Dahi şəxsiyyət bildirirdi ki, ilk öncə təhsildə vətənpərvərlik önə çəkilməlidir. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra xalq maarifi sisteminin saxlanılması üçün ayrılan vəsaitlər dəfələrlə artırılmışdır. Dahi şəxsiyyət dəfələrlə etdiyi çıxışlarda bu fikri söyləmişdir: - "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət harada olursa olsun, nədən olarsa olsun, kəsib təhsilə xərcləməli, gənc nəsli savadına, biliyinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir". Fəaliyyətində də bu prinsipləri əsas tutan Heydər Əliyev hakimiyyətə gəldikdən heç bir ay keçməmiş Azərbaycan KP MK Bürosunun 1969-cu il 12 avqust tarixli iclasında respublikanın müxtəlif rayonlarından gənclərin ali məktəblərə müxtəlif ixtisaslar üzrə müsabiqədən kənar qəbulu haqqında qərar çıxarmasına nail oldu. 2002-ci il okytabrın 4-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Fərman verdi. 2003-2007-ci illərdə bütün Azərbaycan məktəbləri üçün yeni avadanlıqlarla təchiz edildi. Heydər Əliyev tərəfindən 17 fevral 2003-cü il tarixdə xüsusi Sərəncamla 5 illik inkişaf proqramı təsdiq edilmişdir.2000-2005-ci illərdə Təhsildə Tərbiyə Proqramı işlənib hazırlandı. H.Əliyev 2000-ci il 13 iyunda "Azərbaycan respublikasında təhsil sisteminin təkmilləşməsi haqqında" Fərman verdi . Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutu bazasında Təhsil problemləri institutu yaradıldı. Təhsildə Sovet təhsil sisteminin izləri təmizləndi. Müasir dövrdə Azərbaycan təhsilinin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrü təhsilin inkişafında köklü dəyişikliklər ili kimi qiymətləndirmək olar. Bu inkişaf 2009-cu ildən daha da sürətləndirilmiş və 2009-cu ildə qəbul olunmuş "Təhsil Qanunu"na 40- dan çox adda hüquqi normativ sənəd hazırlanıb qüvvəyə minmişdir. Daha sonra 2012-ci ildə Prezidentin Fərmanı ilə təsdiq edilmişdir. 24 oktyabr 2013-cü ildə İlham Əliyevin Sərəncamı ilə hazırlanmış "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilimizin inkişafında mühüm bir addımdır. Ümumilikdə 2003-cü ildən başlayaraq Azərbaycanda təhsilin modernləşmə siyasəti bu sahənin inkişafına təkan vermişdir.Hal-hazırda Azərbaycanda ümumi orta təhsil icbaridir və müvafiq proqrama əsasən aparılır. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2006-cı il oktyabrın 30-da "Azərbaycan Respublikasında Ümumi Təhsilin

Konsepsiyası”nı (Milli Kurikulumu) təsdiq etmişdi.Hal-hazırda Azərbaycan təhsil özünün ən inkişaf dövrünü yaşayır.

Yuxarıda sadalaqlarımızdan belə nəticəyə gələ bilərik ki, Azərbaycanda tarix boyu təhsil-tədris inkişaf etmiş. Bu gündə Azərbaycan təhsil dünya standartlarına cavab verir. Bütün tarix boyu Azərbaycanda təhsilin inkişafı nəticəsində dünya elminə yeni töhvələr verilmişdir.

Ədəbiyyat

1.Əhmədov.H.H.Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010, 800 s.
2. Mərdanov M.C. Azərbaycanın təhsil tarixi. Bakı: Təhsil, 2011, 296 s.
3.Ənvər Ç.Qarabağda maarif:1750-1950. Bakı: Zərdabi LTD MMC, 2013, 288 s.
4.Allahverdiyev C.V. İrəvan müəllimlər seminariyası. Bakı: Elm və təhsil, 2022, 272 s.
5.Azərbaycan Xalq Cumhuriyyətinin Ensiklopediyası: l c. Bakı: Lider, 2004, 440 s.

РЕЗЮМЕ
ИСТОРИЯ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ (КРАТКОЕ ПУТЕШЕСТВИЕ В ИСТОРИЮ)
Асадова А.В.

Ключевые слова: *образование, наука, культура, школа, учение, учитель.*

Образование, наука занимают особое место в жизни каждого народа. Образование означает развитие народа, его приверженность своей истории. Образование, воспитание, наука еще с древних времен считались важнейшей ценностью в жизни азербайджанского народа. Обладая древней историей, культурой, жители этой страны еще с древних времен имели культуру письма, чтения. В результате развития этих наук велись большие строительные работы. В древнем и раннем Средневековье в Азербайджане было особое уважение к учителю, науке и образованию.

В статье говорится о развитии образования в Азербайджане на протяжении всей его истории. Сегодня Азербайджан отвечает мировым стандартам образования. На протяжении всей истории в результате развития образования Азербайджан внес свой посильный вклад в мировую науку.

SUMMARY
THE HISTORY OF AZERBAIJAN'S EDUCATION (A BRIEF JOURNEY INTO HISTORY)
Asadova A.V.

Keywords: *education, science, culture, school, teaching, teacher*

Education and science occupy a special place in the life of every nation. Education means the development of the people, their commitment to their history. Education, upbringing, science have been considered the most important value in the life of the Azerbaijani people since ancient times. Having an ancient history and culture, the inhabitants of this country have had a culture of writing and reading since ancient times. As a result of the development of these sciences, large construction works were carried out. In the ancient and early Middle Ages, Azerbaijan had a special respect for the teacher, teacher, teacher, science and education.

The article talked about the development of education in Azerbaijan throughout its history. On this day, Azerbaijan meets the world standards of education. Throughout history, as a result of the development of education in Azerbaijan, new contributions have been made to world science.

AZƏRBAYCAN RESPUBLİKASINDA MÜALİCƏVİ TURİZM POTENSİALININ TƏDQİQİ

Yusifova S.N.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
namazova.sabina@gmail.com

Açar sözlər: *turizm, region, müalicəvi neft, speleoterapiya, mineral su, termal su, palçıq vulkanları, dərman bitkiləri.*

Mövzunun aktuallığı. Turizm dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanın da iqtisadiyyatının ən gəlirli sahələrindən birinə çevrilmişdir. İqtisadiyyatın bu sahəsi insanların öz asudə vaxtlarını səmərəli təşkil etməklə bərabər, ətraf aləmi yaxından dərk etməsi, işgüzar fəaliyyəti, dünyagörüşünün artması, dini, etnik, və ekoloji tərbiyəsi, istirahəti, əyləncəsi, sağlamlığı, müalicəsi və s. məqsədləri üçün ən yaxşı vasitədir. Eyni zamanda həm dövlət, həm sahibkarlar, həm də bir çox sıravi vətəndaşlar üçün əsas gəlir mənbəyi, sosial-iqtisadi inkişafın mühüm amilidir. Turizm ölkəmizin beynəlxalq səviyyədə dövlət və coğrafi ərazi kimi tanınmasında, dünyada nüfuzunun artmasında, milli mentalitetimizin və mətbəximizin təbliğində böyük rol oynayır[2, 6].

Azərbaycan Respublikasının müalicə turizmi istiqamətində resurs potensialı çox zəngindir. Belə ki, Naftalanın müalicəvi nefti, Naxçıvanda Duzdağda mağara şəraitində təbii duzla speleoterapiya imkanları, Kiçik və Böyük Qafqaz dağlarının ətəklərində yerləşən inzibati rayonlarımızın ərazisində mövcud olan təbii mineral su mənbələrimiz, Talış dağlarında, o cümlədən Lənkəran və Masallıda müalicəvi termal su

mənbələrimiz, Xəzər dənizinin sahil zonasının dəniz iqlimi və suyu, Abşeronun- Xızı iqtisadi rayonunun ərazisində geniş yayılmış palçıq vulkanları, dağ rayonlarımızın növbənöv dərman bitkiləri və s. müalicə turizminin perspektivini daha da artıran amillərdəndir[1, 3]. Eyni zamanda Abşeron və Aran rayonlarımız aeroterapiya və iqlim amilləri ilə müalicə üçün çox əlverişlidir. Qeyd olunan ərazilərimizin təbii ekoloji şəraiti və iqlim amilləri, buradakı sanatoriya və kurort müəssisələrində nevroloji, uroloji, həzm, tənəffüs, dayaq- hərəkət sistemi və ürək-damar sistemi xəstəliklərinin müalicəsində çox böyük rola malikdir[4].

Şamaxı-Qobustan vulkanları, Ələt vulkanları silsiləsi, Qobu-Bozdağ vulkanları və s. Azərbaycanda geniş yayılmış vulkanlar sistemidir. Tədqiqatlar zamanı Abşeronun vulkan palçığının fizioterapiyanın səmərəli bir üsulu kimi çoxdan məlum olan müalicəvi təsiri və bu ehtiyatlardan turizm məqsədilə istifadə məsələsində mövcud olan problemlərlə xüsusi məşğul olunmuşdur. Çünki, vulkan palçığı da uroloji, kosmetoloji, nevroloji, ateroskelerotik, müxtəlif osteoxondrozlar və s. xəstəliklərdə yüksək balneoloji əhəmiyyətə malikdir[5].

Ölkəmizin, xüsusən də onun Milli Parklarının təbii turizm-rekreasiya ehtiyatlarının zənginliyi bu potensialdan məqsədəuyğun şəkildə istifadə etmək üçün lazımi infrastrukturun formalaşdırılmasını da tələb edir ki, bu da son onillikdə geniş vüsət almışdır. Artıq Respublikamızda müalicəvi turizm infrastrukturunun inkişafı baxımından xeyli işlər görülmüş, yeni yeni sanatoriya-kurort müəssisələri inşa edilmiş, əvvəlki illərdən qalmışlar bərpa edilmiş və bu proseslər bu gün də yüksək templə davam etdirilir[7]. Bu sahədə Dövlətlə yanaşı özəl sektorda da böyük canlanma müşahidə olunur. Azərbaycan Respublikasında müalicə turizm mərkəzlərinin iqtisadi rayonlar üzrə yerləşməsi aşağıdakı xəritədə öz əksini tapmışdır (Şəkil).



Şəkil. Azərbaycanda müalicə turizm mərkəzlərinin yerləşməsi:
(Xəritənin mənbəyi- S.H.Bağırlının "Azərbaycan Respublikasında müalicə-turizm mərkəzlərinin inkişaf etdirilməsinin iqtisadi-coğrafi aspektləri"mövzusunda dissertasiya işidir).

Tədqiqatın məqsədi. Məqsəd Azərbaycanda müalicəvi turizm potensialının öyrənilməsi, onların inkişafına təsir göstərən təbii-coğrafi şəraitin və iqtisadi-sosial bazanın skrininqini həyata keçirməkdir.

Tədqiqat metodları. Tədqiqat prosesində bir sıra geniş yayılmış məlum metodlardan, o cümlədən riyazi, statistik və müqayisəli təhlil, həmçinin xəritələşdirmə metodlarından istifadə edilmişdir.

Tədqiqatın gedişi. Tədqiqat işinin gedişi zamanı, Azərbaycanın müstəqillik illərində müalicə turizminin inkişafı istiqamətində həyata keçirilən tədbirlər kompleks şəkildə tədqiq edilməklə bərabər, hazırda mövcud olan müxtəlif sanatoriya- kurort müalicə mərkəzlərinin fəaliyyəti də araşdırılmışdır. Bu məqsədlə də müalicə turizminin təşkili ilə məşğul olan və sanatoriyalarda müalicə alan turistlərdən ibarət 300-ə yaxın insan arasında sosioloji sorğu da keçirilmişdir. Sorğu məqsədilə Abşeron, Bakı, Nabran,

Naftalan, Lənkəran, Masallı, Naxçıvan və s. bölgələrin insanları və burada yerləşən sanatoriya- kurort müalicə mərkəzlərinin qonaqlarına bu sahə ilə bağlı müxtəlif suallar verilmiş, onların turizmə münasibəti, hansı amillərin onların səyahətinə mane olduğu, müalicə turizmindən nə dərəcədə istifadə etdikləri, bu zaman hansı problemlərlə qarşılaşdıqları onlardan soruşulmuş, təklifləri qeydə alınmışdır. Sonda sorğunun nəticələrinin təhlili verilmiş, müəyyən təkliflər irəli sürülmüşdür.

Eyni zamanda sanatoriya- kurort müalicə mərkəzlərinin inkişafının iqtisadi-coğrafi əhəmiyyəti araşdırılmış, SWOT analiz aparılmış, müalicə turizminin əsas resursları haqqında insanların məlumatlılığı öyrənilmişdir. Əldə olunan məlumatlar göstərdi ki, ölkəmizdə müalicə turizmini inkişaf etdirmək üçün bu istiqamətdə yerli əhali arasında kifayət qədər laımi məlumatlar olmadığından maarifləndirmə işləri həyata keçirilməli, ərazinin təbii ehtiyatlarının hansı xəstəliklərin müalicəsində istifadəyə yararlı olması müəyyənləşdirilməklə əhaliyə çatdırılmalı, bu sahədə reklam işləri gücləndirilməlidir. Bunlarla yanaşı, xidmət keyfiyyətinin artırılması, qiymətlərin yerli əhalinin iqtisadi vəziyyətinə uyğunlaşdırılması, mümkün qədər xidmət keyfiyyətinə neqativ təsir etmədən qiymətlərin aşağı səviyyədə saxlanması kimi təkliflər irəli sürülmüşdür.Ölkəmizdə müalicə turizminin SWOT analizi də göstərdi ki, mütəxxəssis rəyləri nəzərə alınmaqla mövcud təbii resurslar və iqtisadi imkanlar hesabına qeyd olunan problemlər həllini taparsa müalicə turizmi tam inkişaf etdirilə bilər.

Tədqiqatın elmi yeniliyi. Tədqiqat nəticəsində əldə etdiyimiz elmi yenilikləri aşağıdakı kimi xarakterizə etmək olar:

1) Müalicə turizminin inkişaf potensialı və bu sahədə nəzərəçarpan problemlər öyrənilmişdir;

2) Müalicə turizminin gələcək inkişafı üçün mövcud infrastrukturun təkmilləşdirilməsi yolları əsaslandırılmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqat məqsədilə ölkənin bir sıra sanatoriya-kurort müəssisələrində araşdırmalar aparılmışdır ki, nəticədə onlarda təklif edilən xidmətlər, müalicə prosedurları, bir çox xəstəliklərin müalicəsində onların istifadə imkanları müəyyən edilmiş, gələn turistlərin ölkələr üzrə təsnifatı aparılmışdır. Bu da Azərbaycan Respublikasında müalicə turizminin inkişafı sahəsində həyata keçirilən layihələrdə, proqramların hazırlanmasında, bu sahədə olan mövcud problemlərin həllində elmi cəhətdən əsaslandırılmış mənbə kimi istifadə edilə bilər.

Təkliflər: 1) Xidmət çeşidinin artırılması, nəqliyyat qiymətlərinin tənzimlənməsi, SPA xidmətləri üzrə brendlərin yaradılması, turistlərin asudə vaxtını daha da səmərəli təşkil olunması üçün ekskursiyaların təşkili və s. yerli və xarici turistlərin sayının artımına imkan verə bilər.

2) Müalicə turizmi məkanlarının mövcud potensialının gücləndirilməsi üçün müalicə məqsədilə hələlik geniş istifadə edilməyən ehtiyatlar, məsələn, palçıq vulkanlarının müalicəvi əhəmiyyəti, tərkibi araşdırılmaqla onlardan istifadə edilə biləcək sanatoriyalar yaradılması məqsədəuyğun olar.

Nəticə: 1) Azərbaycanda müalicə turizminin inkişafı üçün ölkədə çoxsaylı balneoloji, müalicəvi neft, palçıq vulkanları, speleoterapiya kimi müalicə ehtiyatları mövcuddur. Eyni zamanda müalicə turizmi sahəsində tədricən formalaşan infrastruktur, dövlətin və fərdi şəxslərin bu sahənin inkişafına dəstəyi müalicə turizminin inkişafı üçün görülən əsaslı addımlardandır. Bu sahəyə orta və kiçik sahibkarların cəlb edilməsi, onlara müəyyən vergi güzəştlərinin tətbiq edilməsi, bu sahə üzrə ixtisaslaşmış turizm şirkət və agentlikləri formalaşdırılması zəruridir.

2) Araşdırmalarla müəyyən edilmişdir ki, müalicə turizminin inkişafına mane olan problemlərin aradan qaldırılması üçün infrastrukturun təkmilləşdirilməsi və yenilərinin formalaşdırılması, güclü reklam siyasətinin aparılması, keyfiyyət standartlarının yüksəldilməsi, sərgi və yarmarkalarda müalicə turizmi ilə bağlı ayrıca stendlərlə resursların nümayiş edilməsi, çoxsaylı infoturlar təşkil olunması vacib amillərdəndir.

Ədəbiyyat

1. Алиев И. Градостроительная организация курортно-рекреационной системы в Азербайджанской ССР. – Баку: – 1982, – 132 с.
2. Naxçıvan Muxtar Respublikası Duzdağ fizioterapiya xəstəxanası. – Naxçıvan: Əcəmi, – 2006, – 11 s.
3. Əlirzayev Ə. Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2011, 494 s.
4. Naftalan kurort şəhəri. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – 2012, – 101 s.
5. Soltanova, H.B. Azərbaycan Respublikasında turizm və onun inkişafı. – Bakı: AzTU – 2015, – 475 s.
6. Bağırlı S.H. Naftalan – Azərbaycanın əsas müalicə-turizm regionlarından biri kimi // "Azərbaycan Respublikasında Demoqrafik İnkişaf: Əhali məskunlaşmasının perspektivləri və regional problemləri" mövzusunda elmi konfrans, – Bakı: AMEA, Coğrafiya İnstitutu, – 2016, – s. 538-546.
7. Bilalov B. Ə., Gülalıyev Ç. G.. Turizmin əsasları. Bakı: "QHT Nəşriyyatı", 2015, 496 s.
8. Bağırlı S.H. Lənkəran iqtisadi rayonunda turizmin mövcud vəziyyəti, problem və perspektivləri//"İnsan və ətraf mühit münasibətləri" mövzusunda elmi konfransı, – Bakı: AMEA, Coğrafiya İnstitutu, LDU, – 2017, – s. 522-525.

РЕЗЮМЕ
ИССЛЕДОВАНИЕ ПОТЕНЦИАЛА ТЕРАПЕВТИЧЕСКОГО ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ
Юсифова С.Н.

Ключевые слова: *туризм, регион, целебное масло, спелеотерапия, минеральная вода, термальная вода, грязевые вулканы, лекарственные растения.*

Исследованиями установлено, что в Азербайджанской Республике имеются многочисленные бальнеологические, лечебные нефтяные, грязевые вулканы и спелеотерапевтические ресурсы для развития терапевтического туризма. При этом постепенно формирующаяся инфраструктура в сфере терапевтического туризма, поддержка государством и частными лицами развития данной сферы является одним из основополагающих шагов, предпринятых для развития терапевтического туризма. Необходимо привлекать в эту сферу средних и мелких предпринимателей, применять к ним определенные налоговые льготы, создавать специализированные в этой сфере туристические компании и агентства. Поэтому для устранения проблем, мешающих развитию терапевтического туризма, улучшения инфраструктуры и формирования новых, проведения сильной рекламной политики, повышения стандартов качества, демонстрации ресурсов, связанных с терапевтического туризмом, необходимо организовывать информационные туры. При этом увеличение спектра услуг, регулирование цен на перевозки, создание брендов на СПА-услуги, организация экскурсий для более эффективной организации досуга туристов и т.д. может позволить увеличить количество местных и иностранных туристов.

SUMMARY
STUDY OF THE POTENTIAL OF THERAPEUTIC TOURISM IN THE REPUBLIC OF AZERBAIJAN
Yusifova S.N.

Keywords: *tourism, region, healing oil, speleotherapy, mineral water, thermal water, mud volcanoes, medicinal plants.*

Studies have established that in the Republic of Azerbaijan there are numerous balneological, therapeutic oil, mud volcanoes and speleotherapeutic resources for the development of therapeutic tourism. At the same time, the gradually emerging infrastructure in the field of therapeutic tourism, support by the state and private individuals for the development of this area is one of the fundamental steps taken to develop therapeutic tourism. It is necessary to attract medium and small entrepreneurs to this area, to apply certain tax benefits to them, to create travel companies and agencies specialized in this area. Therefore, in order to eliminate the problems that hinder the development of therapeutic tourism, improve infrastructure and form new ones, conduct a strong advertising policy, raise quality standards, demonstrate resources related to therapeutic tourism at exhibitions and fairs with separate stands, organizing numerous information tours are important factors. At the same time, the increase in the range of services, the regulation of transportation prices, the creation of brands for spa services, the organization of excursions for more efficient organization of leisure time for tourists, etc. can allow to increase the number of local and foreign tourists.

ŞİRVAN MİLLİ PARKI VƏ BUFER ƏRAZİLƏRİNİN BİR SIRA COĞRAFİ PARAMTERLƏRİNİN MƏSAFƏDƏN ZONDLAMA VASİTƏSİLƏ MÜQAYİSƏLİ SƏCİYYƏSİ VƏ SƏPƏLƏNMƏNİN XƏTTİ TENDENSİYASI

Hüseynov R.Ə., Nağıyeva X.X.
Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
rauf554@bk.ru ; *naghi_915@gmail.com*

Açar sözlər: *trend, NDVİ, LST, SMİ, VHİ, reqressiya, korrelyasiya*

Giriş. XX əsrin 70-ci illərindən başlayaraq təbii ehtiyatların idarə edilməsi, torpaqdan istifadəyə nəzarət, bitki örtüyünün dinamikası, buzlaqların sahəsinin dəyişməsi, qar xəttinin sərhəddinin müəyyən edilməsi, şəhərlərin böyüməsi nəticəsində ətraf mühitə dəyən zərəri minimuma endirmək, təbii fəlakətlərin təsirini qiymətləndirmək və ekosistemin kompleks mühafizəsi üçün strategiyaların yaradılması və.d. prosesləri öyrənmək üçün məsafədən zondlama metodundan istifadə edilməyə başlanmışdır [2, 6]. Torpaq-bitki örtüyündə baş verən dəyişiklikləri qiymətləndirmək üçün dünyada müxtəlif tədqiqatlar aparılmışdır [3, 4, 5, 7]. Müasir tədqiqatlar məsafədən zondlama, o cümlədən peyk şəkillərinin emalı vasitəsilə həyata keçirilir.

BMT-nin Ətraf Mühitin mühafizəsi üzrə Monitorinq Mərkəzinin (UNEP-WCMC) Mühafizə olunan ərazilərin ümumdünya məlumat bazasının (WDPA) məlumatlarına əsasən, dünya quru ərazisinin 14,6 %-in (21,74524 mln km^2) və dəniz akvatoriyalarının 11,5 %-in (41,52995 mln km^2) mühafizə olunan ərazilər təşkil edir [4]. Azərbaycanda bu rəqəmlər müvafiq olaraq 10,2 % (8,8332 min km^2) və 0,4 % (0,3464 min km^2)-dir.

Tədqiqat obyekti və metodu. Tədqiqat Şirvan Milli Parkını və onun bufer ərazilərini əhatə edir (Şəkil.). Ərazi dəniz səviyyəsindən -21 - 123 m mütləq hündürlüklər arası yerləşir, əsasən meyilliyi 0-5° (29369,21 ha) olan sahələr üstünlük edir.

Tədqiqat rayonu ərazisində iqlim göstəriciləri həm şərqdən qərb istiqamətə, həm də şimaldan cənuba doğru dəyişir. Orta illik yağıntıların miqdarı 259-263 mm, orta illik temperatur 14,6ºC, aktiv temperaturun cəmi (>10º) 4556°C, illik mümkün buxarlanma 451 mm, küləyin orta illik sürəti 12,4 m/san-dir.

Relyefin ayrı-ayrı tiplərinin əmələ gəlməsində Xəzər dənizinin səviyyəsinin qalxıb-enməsinin böyük rolu vardır. Xəzər dənizinin fəaliyyəti ilə yaranan relyef formaları – həm dənizin müasir sahil zonasında və ondan çox uzaqlarda müxtəlif yüksəkliklərdə müşahidə edilir. Sahil zonasından sovurulan qumlar düzənliyin səthində sahəvi akkumulyasiya edərək qum çölləri, ara-sıra yastı dyunlar və dyun tirələri əmələ gətirir [1].



Şəkil 1.

Təhlil və müzakirələr. Ərazi xüsusi mühafizə olunan ərazi statusuna malik olmaqla, 2003-cü ildə yaradılmışdır. Tədqiqat ərazisinin ümumi sahəsi 71367,4 ha olmaqla, onun 54373,5 hektarı Şirvan Milli parkının, 6232 hektarı Şirvan Dövlət Təbiət qoruğunun, 4930 hektarı Bəndovan Dövlət Təbiət yasaqlığının, 5831,9 hektarı isə bufer ərazilərin payına düşür. Qorunan ekosistem ətraf neqativ təsirlərə qarşı çox həssas və dayanıqsızdır. Milli Park yaradıldıqdan sonra antropogen təsir minimuma enmiş və deqradasiya prosesinin sürəti zəifləmişdir.

Tədqiqat ərazisinin müxtəlif parametrlərində baş verən dəyişikliklər peyk şəkilləri (LANDSAT 8-9 Collection 2T-1) vasitəsilə 2021-ci ilin altı aylıq perioduna əsasən (aprel-sentyabr ayı) üçün təhlil edilmiş, orta statistik göstəricilər əsasında müvafiq xəritələr tərtib olunmuşdur (Şəkil 1). Tədqiqat real məlumatlara əsaslanır və monitorinq xarakteri daşıyır. Xəritələrə və bir sıra parametrlərə əsasən müvafiq hesablamalar aparılmışdır (Cədvəl).

Cədvəl.

Paramterlər üzrə sahələr

2021-ci il (aprel-sentyabr)	LANDSAT 8-9 (Collection T1-2 OLİ_TİRS) (Təsvirin görüntü periodu: aprel-sentyabr) Mərkəzi nöqtənin koordinatı: 40°19'57.36"N ; 48°44'30.19"E WRS Path-167; WRS Row-032		
	Göstərici	**Sahə, ha**	**Ümumi cəmdən, %-lə**
Normallaşdırılmış bitki vegetasiya indeksi (NDVİ)	-0,0653 – 0,109	30661,35	42,96
	0,11 – 0,16	36507,47	51,15
	0,161 – 0,354	4198,58	5,89
	Cəm	71367,4	100
Yer səthinin temperaturu (LST)	21,7 – 28,9	20801,98	29,15
	29 – 32,1	22856,64	32,03
	32,2 – 36,3	27708,78	38,82
	Cəm	71367,4	100
Torpağın rütubət indeksi (SMİ)	0,079 – 0,287	30050,74	42,1
	0,288 – 0,439	29260,79	41,0
	0,44 – 0,871	12055,87	16,9
	Cəm	71367,4	100

Cədvəl (davamı)

Normallaşdırılmış fərq nəmlik indeksi (NDMİ)	-0,117 - -0,048	16396,05	22,95
	-0,0479 - -0,0267	30551,28	42,81
	-0,0266 - 0,00351	18691,64	26,2
	0,00352 – 0,0551	3865,69	5,42
	0,0552 – 0,336	1862,74	2,62
	Cəm	71367,4	100
Vegetasiya sağlamlıq indeksi (VHİ)	0,24 – 0,337	12306,42	17,24
	0,338 – 0,396	16876,24	23,65
	0,397 – 0,449	22771,53	31,91
	0,45 – 0,513	12616,51	17,68
	0,514 – 0,695	6796,7	9,52
	Cəm	71367,4	100

Normallaşdırılmış bitki vegetasiya indeksi (NDVİ) dəyərləri -1 və 1 diapazonda dəyişir. Mənfi dəyərlər zəif inkişaf etmiş bitki örtüyünü, müsbət dəyərlər isə yaxşı inkişaf etmiş bitki örtüyünü göstərir. Altı aylıq period üzrə sahələr hesablanmışdır: aprel ayında tədqiqat ərazisinin 35,15 %-i (25085,56 ha) zəif, 42,37 %-i (30242,51 ha) orta, 22,48 %-i (16039,33 ha) yaxşı; may ayında tədqiqat ərazisinin 26,66 %-i (19026,34 ha) zəif, 70,33 %-i (50193,92 ha) orta, 3,01 %-i (2147,14 ha) yaxşı; iyun ayında tədqiqat ərazisinin 54,29 %-i (38745,86 ha) zəif, 44,00 %-i (31398,83 ha) orta, 1,74 %-i (1222,71 ha) yaxşı; iyul ayında tədqiqat ərazisinin 42,75 %-i (30505,81 ha) zəif, 55,02 %-i (39272,71 ha) orta, 2,23 %-i (1588,88 ha) yaxşı; avqust ayında tədqiqat ərazisinin 46,25 %–i (33007,734 ha) zəif, 51,24 %-i (36565,83 ha) orta, 2,51 %-i (1793,84 ha) yaxşı; sentyabr ayında tədqiqat ərazisinin 43,62 %-i (31130,49 ha) zəif, 52,96 %-i (37793,89 ha) orta, 3,42 %-i (2443,02 ha) yaxşı inkişaf etmiş bitki örtüyü ilə örtülmüşdür. Normallaşdırılmış bitki vegetasiya indeksi ilə yer səthinin temperaturu arasındakı korrelyasiya aprel ayında 0,146-0,194, may ayında 0,154-0,104, iyun ayında 0,042-0,126, iyul ayında 0,071-0,116, avqust ayında 0,221-0,083, sentyabr ayında 0,198-0,074 intervalında tendensiyanı göstərir. Orta statistik göstəricilərə əsasən korrelyasiya tendensiyası mənfidir və 0,139-0,116 intervalında dəyişir.

Yer səthinin temperaturu (LST) ilə normallaşdırılmış bitki vegetasiya indeksinin korrelyasiyası aprel ayında 20,864°-21,645°C, may ayında 43,757°-34,535°C, iyun ayında 22,624°-13,791°C, iyul ayında 23,612°-25,713°C, avqust ayında 42,863°-33,062°C, sentyabr ayında 37,894°-29,538°C intervalında tendensiyanı göstərir. Orta statistik göstəricilərə əsasən korrelyasiya tendeniyası mənfidir və 31,94-26,38 ºC intervalında dəyişir.

Altı aylıq perioda əsasən, normallaşdırılmış bitki vegetasiya indeksi ilə yer səthinin temperaturu arasındakı korrelyasiya 0,104-0,123 (+),yer səthinin temperaturu ilə normallaşdırılmış bitki vegetasiya indeksi arasındakı korrelyasiya 29,545-32,825°C-dir.

Torpağın nəmlik indeksi (SMİ) dəyərləri -1 və 1 diapazonunda dəyişir. Altı aylıq period üzrə sahələr hesablanmışdır: aprel ayında tədqiqat ərazisinin 43,9 %-i (31324,31 ha) zəif, 53,4 %-i (38121,55 ha) orta, 2,7 %-i (1921,54 ha) yaxşı; may ayında tədqiqat ərazisinin 61,49 %-i (43884,66 ha) zəif, 34,5 %-i (24621,05 ha) orta, 4,01 %-i (2861,69 ha) yaxşı; iyun ayında tədqiqat ərazisinin 46,77 %-i (33378,99 ha) zəif, 16,31 %-i (11641,65 ha) orta, 36,92 %-i (26346,76 ha) yaxşı, iyul ayında tədqiqat ərazisinin 41,92 %-i (29922,52 ha) zəif, 30,48 %-i (21753,02 ha) orta, 27,6 %-i (19691,86 ha) yaxşı; avqust ayında tədqiqat ərazisinin 69,36 %-i (49475,91 ha) zəif, 27,7 %-i (19791,57 ha) orta, 2,94 %-i (2099,92 ha) yaxşı; sentyabr ayında tədqiqat ərazisinin 55,37 %-i (39514,64 ha) zəif, 41,09 %-i (29322,39 ha) orta, 3,54 %-i (2530,37 ha) yaxşı dərəcədə rütubətlə təmin olunmuşdur.

Məlumatların toplanmasının son mərhələsi emprik parametrlərin xətti metodla müəyyən edilməsidir. Tədqiqat ərazisinin torpaq nəmlik indeksi (SMİ) xəritəsini tərtib etmək üçün normallaşdırılmış bitki vegetasiya indeksi (NDVİ) və yer səthinin temperaturu (LST) göstəriciləri korrelyasiya edilmişdir (Şəkil 2).



Şəkil 2. Torpaq səthinin temperaturu (LST) və Normallaşdırılmış bitki vegetasiya indeksi (NDVİ) arasında xətti reqressiyanın səpələnmə qrafiki (2021: aprel-sentyabr)

Nəticə. Səpələnmənin xətti tendensiyasından məlum olur ki, 2021-ci il aprel ayında bitki örtüyü 20,864-21,645°C temperatur intervalında, may ayında bitki örtüyü 24,435-25,843°C, iyun ayında bitki örtüyü 26,112-27,214°C, iyul ayında bitki örtüyü 27,341-28,191°C, avqust ayında bitki örtüyü 30,117-31,142°C, sentyabr ayında bitki örtüyü 17,642-18,096°C temperatur intervalında formalaşmışdır. Nəticədə müəyyən edilmişdir ki, tədqiqat ərazisinin 8,97 %-də (6399,732 ha) çox şiddətli, 24,05 %-də (17167,21 ha) şiddətli, 23,27 %-də (16610,85 ha) mülayim, 19,37 %-də (13819,19 ha) zəif, 24,34 %-də (17370,418 ha) fon səviyyədə quraqlıq və onun təzahürləri formalaşmışdır.

Ədəbiyyat

1. Şirinov N.Ş., Vəliyev X.Ə., Əliyev Y.Q. Xəzərin, onun sahillərinin təbiəti və ekologiyası. Bakı: 1998, 189 s.
2. Arshad S., Morid S., Reza Mobasheri M., Agha Alikhani M. Development of Agricultural Drought Risk Assessment Model for Kermanshah Province (Iran), using satellite data and intelligent methods // International Conference on "Drought management: Scientific and technological

innovations",International Conference on "Drought management: Scientific and technological innovations", 1, Zaragoza (Spain), 12-14 June 2008. 2-85352-390-X. pp. 303-310
3. Gao B C. NDWI: A normalized difference water index for remote sensing of vegetation liquid water from space / Journal Remote Sensing of Environment, 1996. 58(3): pp. 257-266.
4. Raynolds M K, Comiso J C, Walker D A, et al. Relationship between satellite-derived land surface temperatures, arctic vegetation types, and NDVİ / Journal Remote Sensing of Environment, 2008,.112(4): pp. 1884-1894.
5. Weng, Q., Lu, D.. A sub-pixel analysis of urbanization effect on land surface temperature and its interplay with impervious surface and vegetation coverage in Indianapolis, United States / Int. J. Appl. Earth Obs. Geoinf. 2008, 10, pp. 68–83.
6. Zhan Z., Qin Q., Wang X. The Application of LST/NDVİ Index for Monitoring Land Surface Moisture in Semiarid Area // İn Proceedings of the İGARSS ’04, Anchorage, AK, USA, 20-24 September 2004; Volume 3, pp. 1551–1555.
7. Zha. Y., Gao. J., Ni. S. Use of normalized difference built-up index in automatically mapping urban areas from TM imagery / Int. J. Remote Sens. 2003, 24, pp. 583–594.

РЕЗЮМЕ
СРАВНИТЕЛЬНАЯ ОСОБЕННОСТЬ И ЛИНЕЙНАЯ ТЕНДЕНЦИЯ РАССЕЯНИЯ РЯДА ГЕОГРАФИЧЕСКИХ ПАРАМЕТРОВ ШИРВАНСКОГО НАЦИОНАЛЬНОГО ПАРКА И БУФЕРНЫХ ТЕРРИТОРИЙ МЕТОДОМ ЗОНДИРОВАНИЯ НА РАССТОЯНИИ
Гусейнов Р.А., Нагиева Х.Х.

Ключевые слова: *тренд, NDVI, LST, SMI, VHI, регрессия, корреляция*

Статья основана на полевых исследованиях и данных современных спутниковых датчиков. В пределах выбранного района исследований изучались различные географические параметры, тенденция изменения почвенно-растительных показателей за полугодовой период. Также в связи с явлением трансгрессии и регрессии Каспийского моря изучались изменения, происходящие в прибрежной полосе. На основании линейного тренда рассеяния и гипсометрического профиля местности рассчитана площадь экосистем с оптимальными условиями в районе.

SUMMARY
COMPARATIVE PECULIARITY AND LINEAR TENDENCY OF SCATTERING OF A NUMBER OF GEOGRAPHICAL PARAMETERS BY THE METHOD OF SOUNDING AT A DISTANCE OF THE SHIRVAN NATIONAL PARK AND BUFFER TERRITORIES
Huseynov R.A., Nagiyeva H.X.

Key words: *trend, NDVI, LST, SMI, VHI, regression, correlation*

The article is based on field research and data from modern satellite sensors. Within the selected study area, various geographical parameters were studied, the trend of changes in soil and plant indicators over a six-month period was studied. Also, in connection with the phenomenon of transgression and regression of the Caspian Sea, the changes taking place in the coastal strip were studied. Based on the linear scattering trend and the hypsometric profile of the area, the area of ecosystems with optimal conditions in the area was calculated.

XIX ƏSRİN 30-50-Cİ İLLƏRİNDƏ İRƏVAN ŞƏHƏRİNİN SOSİAL İQTİSADİ HƏYATININ TARİXİNDƏN

Allahverdiyeva L.C.
Tarix İnstitutu, Bakı, Azərbaycan
allahverdiyevaL-95@mail.ru

Açar sözlər: *İrəvan şəhəri, əhali, türklər, ermənilər, sənətkarlıq, əkinçilik, maldarlıq*

Məlumdur ki, XVIII əsrin 40-cı illərinin sonunda Azərbaycanda meydana çıxmış çoxsaylı feodal dövlətləri olan xanlıqlardan biri də Vətənimizin qərb torpaqlarının xeyli hissəsini əhatə etmiş İrəvan xanlığı olmuşdur. Bu xanlıq, eləcə də onun paytaxtı İrəvan şəhəri XVIII əsrin ortaları – XIX əsrin əvvəllərində də Azərbaycanın, habelə bütün bölgənin sosial-iqtisadi və ictimai-siyasi həyatında ciddi rol oynamışdır. İrəvan xanlığının paytaxtı olması İrəvan şəhərinin inkişaf etməsində ciddi amil rolunu oynamışdır. 1827-ci il oktyabr ayında İrəvan şəhəri, bütövlükdə İrəvan xanlığı Rusiya tərəfindən işğal olundu. G. Nəcəfli “Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunan layihələr” adlı məqaləsində belə yazır: “Çar Rusiyasının Cənubi Qafqazı işğal etmək siyasətində Azərbaycan torpaqlarının işğalı önəmli

yer tuturdu. Bu siyasətin həyata keçirilməsində çar Rusiyasının işğalçılıq fəaliyyəti və bölgədəki ermənilərin məkrli planları mühüm rol oynamışdır [7, 25].

İşğaldan sonra şəhərin siyasi həyatı ilə yanaşı sosial-iqtisadi həyatında da fərqli xüsusiyyətlər yarandı. Belə ki, İrəvan əyalətinin kameral təsvirinə görə, XVIII yüzillikdə İrəvan şəhərində yaşayan əhalinin böyük əksəriyyəti Azərbaycan türklərindən ibarət idi, ermənilər isə şəhər əhalisinin ¼ hissəsini təşkil etmişdir. Lakin işğaldan sonra yeni rus müstəmləkəçi idarəçiliyindən narazı qalan türk əhalisinin xeyli hissəsi öz doğma torpaqlarını tərk etmək məcburiyyətində qaldı. Və əksinə, Rusiya tərəfindən bu ərazilərə, həmçinin də İrəvan şəhərinə xeyli erməni əhalisi köçürüldü. 1831-ci il "İrəvan əyalətinin kameral təsvirinə" əsasən işğaldan əvvəl İrəvan şəhərinin əhalisinin 84%-i Azərbaycan türklərindən ibarət idi. Qısa müddət ərzində İrəvan şəhərinə Qacarlar ərazisindən 366 ailə (1.715 nəfər), Osmanlı Türkiyəsindən isə 11 ailə (48 nəfər), ümumilikdə 377 ailə və ya 1.763 erməni köçürüldü. Artıq işğaldan qısa müddət sonra şəhər əhalisinin yalnız 64%-ni Azərbaycan türkləri təşkil edirdi. 1834-cü ilin kameral təsvirinə əsasən İrəvan şəhəri və ətrafında yaşayan 2.750 ailənin 65,7% -i "tatar" (azərbaycanlı -L.A.), 32,6%-i erməni, 1,4%-i boşa (qaraçı) olmuşdur [2, 40].

Artıq XIX əsrin ortalarına doğru bu nisbət bir qədər də dəyişmiş və İrəvan şəhərinin əhalisinin 55,2 %-ni azərbaycanlı ailələri, 44,8%-ni isə erməni ailələri təşkil etmişdir. V.P. Jelixovskaya "Qafqaz və Cənubi Qafqaz" əsərində qeyd edirdi ki, " İrəvan quberniyasının əsas əhalisi ermənilərdir, lakin burada çoxlu tatarlar, kürdlər və s. vardır. O, həm də müsəlmanları və burada məskunlaşmış digər əhalini "vəhşi", "quldur" adlandırmışdır." [8, 25]. Jelixovskayanın İrəvan şəhərinin sosial həyatı ilə bağlı verdiyi məlumatlar bir az qərəzlidir. Belə ki, şəhərin, ümumilikdə, quberniyanın əhalisinin çox hissəsinin ermənilərdən ibarət olduğunu göstərsə də, məlumdur ki, bu yerlərin aborigen sakinləri məhz Azərbaycan türkləri olmuşdur. Ümumilikdə, demək olar ki, İrəvanın bəhs edilən dövrdəki şəhər quruluşu - məscidlər, saray kompleksi, karvansaralar, ev təsərrüfatları, hamamlar və s. Azərbaycanın maddi mədəniyyətinin ayrılmaz hissəsi kimi yerli şəhər əhalisinin əsasən azərbaycanlılardan ibarət olmasını danılmaz surətdə sübut edir. Bununla belə, Jelixovskayanın özü İrəvan şəhəri haqqında belə yazırdı: "İrəvan tamamilə bir tatar şəhəri kimi görünür, uzaqdan çox gözəldir. Şəhərin yayıldığı düzənlik tamamilə bir çiçək səbətinə bənzəyir. Ağ evlər, qüllələr, qalanın xarabalıqları, məscidlər və rəngarəng minarələr müxtəlif rəngli kirəmitlərlə örtülmüşdür. Hər yer bağlarla əhatələnmişdir, üzüm, sarmaşıq xalçaları və qızılgül, nar kolları ilə örtülmüşdür. İrəvan şəhərində Sərdar xan sarayı və keçmiş fars xanlarının sarayları diqqətəlayiqdir. Bu saraylar güllərlə, cənnət quşları və xanların portretləri ilə boyanmışdır" [8, 28-29]. İ. Şopenin 1831-ci il kameral təsvirinin materialları əsasında verdiyi məlumatlara görə isə, İrəvan şəhərinin əhalisinin etnik tərkibi belə olmuşdur: 5338 azərbaycanlı, 6125 erməni olmaqla cəmi 12605 nəfər. Şəhərdə o cümlədən 4 xan, 51 bəy, 19 mirzə, 50 molla, 39 seyid, 3 dərviş, 8 erməni məlik və bəyləri, 1 erməni mirzəsi, 13 keşiş vardır [12, 468].

İrəvan şəhərinin əhalisi, əsasən, sənətkarlıq və ticarətlə, ətraf ərazilərin əhalisi isə daha çox əkinçilik və maldarlıqla məşğul olmuşdur. N. Mustafa yazır ki, hələ orta əsrlərdən etibarən İrəvanda şəhərlərə xas olan bütün infrastruktur yaranmışdı. Şəhərin əlverişli coğrafi mövqeyi, onun Şərqdən Qərbə və əksinə gedən ticarət yollarının üzərində yerləşməsi orada çoxsaylı karvansaraların, məscidlərin, bazarların, zərbxanaların meydana gəlməsinə səbəb olmuşdur [6, 244-245]. "1831-ci il kameral təsvirinə" əsasən İrəvanda 1730 ev var ki, onlardan 792-si Köhnəşəhər, 622-si Təpəbaşı, qalan 322-si isə Dəmirbulaq məhəlləsində yerləşmişdir. İrəvanda həmçinin 6 kilsə, 8 məscid, 7 karvansara, 8 hamam da mövcud olmuşdur. Hüseyn Əli xan məscidinin nəzdindəki məktəbdə 200-ə yaxın uşaq təhsil almışdır [12, 468-469]. İrəvan şəhərində 1852-ci ildə açılmış beşsinifli qəza məktəbi fəaliyyət göstərmişdir. Burada 109 uşaq təhsil almış, onlardan 48-i yuxarı təbəqəni təmsil edən vəzifəli şəxslərin, 61-i isə digər vətəndaşların övladları idi. 200 kitabdan ibarət kitabxana da mövcud olmuşdur [9, 445]. Hətta bu dövrdə İrəvan şəhərində 5 pulsuz aptek - əczaxana yaradılmışdır ki, bu da şəhər əhalisi üçün çox faydalı olmuşdur [9, 440].

Cənubi Qafqaz regionu, o cümlədən də İrəvan şəhəri əlverişli coğrafi mövqedə yerləşmiş, ərazisinə və iqliminə görə çox əhəmiyyətli bir bölgə olmuşdur. Bu səbəbdən də çar Rusiyası İrəvan bölgəmizi də öz sənayesi üçün xammal mənbəyi və satış bazarına çevirməyə çalışaraq müxtəlif tədbirlər həyata keçirirdi. Ruslar hələ Cənubi Qafqazı işğal etməzdən əvvəl bölgəni diqqətlə araşdırmış və əmin olmuşlar ki, orada təbiətdə insan üçün nə lazımdırsa mövcuddur və insanlar təbiətin bu zənginliklərindən kifayət qədər istifadə etməyiblər [11, 471]. Əsasən dağlıq, amma eyni zamanda düzən ərazilərinin mövcud olması bölgənin həm də iqtisadi əhəmiyyətini artırmışdır. İrəvan şəhərində də kənd təsərrüfatının müxtəlif sahələri, həmçinin də maldarlıq və əkinçilik öz inkişaf səciyyələrinə görə fərqlənmişdir. Maldarlar dəvə, camış, inək, qoyun, keçi saxlayırdılar. Təsərrüfatda dəvə, at, ulaq, qatırdan istifadə olunurdu. Əkinçilikdə isə dənli bitkilərdən buğda, arpa becərilməsi xüsusi yer tutmuşdur. Nisbətən mülayim iqlimə malik ərazilərdə üzüm, pambıq, düyü, lobya və s. yetişdirilirdi. İrəvan şəhərində əkinçilik suni suvarmaya əsaslanmışdır. Üzümçülük inkişaf etsə

də, şərabçılıq üçün əlverişli deyildi [10, 6-7]. Səbəbi isə uzun müddət əhalinin çox böyük əksəriyyətinin müsəlmanlardan ibarət olması idi [8, 26].

İrəvan həm də bolsulu şəhər idi. Ərazisindən Zəngi çayının keçməsi, çoxlu bulaqları, arxlarının olması əkinçilik üçün çox əhəmiyyətli idi. Burada ipəkçilik, şərabçılıq, bağçılıq da inkişaf etmişdir. İrəvan şəhərinin ətrafındakı torpaqlarda keyfiyyətli taxıl, pambıq, çəltik, buğda, arpa, darı, küncüt, kətan, bostan bitkiləri, hər cür tərəvəz yetişdirilirdi. İrəvan şəhər sakinlərinin əsas gəlir yeri bağçılıq olmuşdur. Torpağın münbitliyinə görə bağçılıq burada inkişaf etmiş vəziyyətdə olmaqla sakinlərə kifayət qədər gəlir gətirirdi. İ.Şopenin verdiyi məlumatlara görə, bu bölgə müxtəlif növ üzümlərlə zəngin idi: qara, tünd qırmızı, çəhrayı, yaşılımtıl, sarı və s. Onların da arasında qoz kimi böyük, orta və noxud kimi kiçik ölçüləri olan üzümlər yetişirdi. Üzümdən keyfiyyətli şərab istehsal edilirdi. İrəvan şərabı o qədər güclü olmuşdur ki, vərdişsiz adam üçün ondan bircə stəkan içmək baş gicəlləndirməsi üçün kifayət edirdi. Həmçinin də yetişməmiş üzümlərdən sakinlər, xüsusilə də azərbaycanlılar yüksək keyfiyyətli sirkə hazırlaya bilirdilər. Bu sirkə nəinki Cənubi Qafqaz regionlarına, hətta xarici ölkələrə də ixrac edilirdi. Ümumiyyətlə, İrəvanı əhatə edən torpaqlar, demək olar ki, bütün yerli bitkilər üçün də yararlı olmuşdur. Məsələn, burada buğda, kətan, marena, arpa, darı, küncüt və hər cür tərəvəzlər və s. yetişirdi. Duz bu bölgənin, eləcə də İrəvan şəhərinin xüsusi sərvəti olmuşdur [12, 751-752]. 1831-ci ilin kameral təsvirinə görə İrəvan şəhərində arıçılıq da inkişaf etmişdir.

XIX əsrin 30-cu illərində İrəvan şəhəri 3 məhəllədən – Köhnəşəhər, Dəmirbulaq və Təpəbaşı məhəllələrindən ibarət olmuşdur [12, 464]. Şəhərin qala divarlarının, evlərinin və digər tikililərinin inşasında bişmiş və çiy kərpicdən istifadə edilmişdir. Həmçinin karvansaraların tikintisində əhəng və ya yonulmuş bazaltdan, habelə, qranitdən də istifadə olunmuşdur. Bu divarlar həm də suvanmış və rənglənmişdir.

İrəvan xanlığında, eləcə də İrəvan şəhərində bütün əsas tikililər Sərdar Hüseynqulu xanın dövründə inşa edilmişdir. Hətta şəhərin suvarma sistemi üçün su arxlarının çəkilməsi də Sərdar Hüseynqulu xanın fəaliyyətinin nəticəsi idi. Əsas su arxlarından əlavə şəhərdə 196 su quyusu vardır ki, bunlardan da arxlardan uzaqda yaşayan əhali istifadə etmişdir. Bəzi "Qafqaz təqvimlərində" yazılırdı ki, İrəvan şəhərinin iqlimi yaşayış üçün çox da uyğun deyildir. Qış, təqribən, noyabr ayının birindən aprelin birinədək davam edirdi. Sağlamlıq üçün ən yaxşı vaxt aprel-may ayları idi. Yay aylarında yağış nadir hallarda yağırdı. Hətta bu və digər səbəblərdən ölüm halları İrəvan şəhərində çox olmuş, xəstəliklər yayılmışdır [9, 457-458].

İrəvan bölgəsi əsasən dağlıq ərazidir. Güman edilir ki, bu bölgə yeraltı faydalı qazıntılarla da zəngin olmuşdur. Burada çoxlu filiz və minerallar (dəmir, mis, kobalt və s.) var idi. Lakin Şopen yazırdı ki, bu yataqların çoxu hələ də tam öyrənilməmiş qalmışdır. Bəzi yer adlarının tərkibində bu metalların adlarının olması da belə nəticəyə gəlməyə əsas yaradırdı. Məsələn, Altun dağı (Qızıl taxt), Göy çay (Gümüşxana) kimi adları göstərmək olar. Bunlardan əlavə, rayonun müxtəlif yerlərində mis də hasil edilirdi. Əsas mis filizləri Dərələyəz mahalında, xüsusilə Dərəçiçəkdə yerləşirdi. Burada dağlar, dərə və oradan axan çay Misxana dağı, Misxan dərəsi, Misxan çay adlanırdı [12, 815-816]. Ağrı vadisinin şimal qərbində Göyçə gölü yerləşir. Uzunluğu 80 verst, eni 60 verst olan gölün zəngin balıq ehtiyatı olmuşdur [8, 25-27].

Əkinçiliyin, maldarlığın inkişafı, eləcə də təbii sərvətlərlə zənginlik İrəvan şəhərində onlara uyğun sənətkarlıq sahələrinin də inkişafına şərait yaratmışdır. U.Həsənov və F.Əliyev yazırdılar ki, Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri kimi, İrəvan şəhərində sənətkarlıq və tətbiqi sənət xüsusilə inkişaf etmişdir. Sənətkarlıq sahələrinin inkişafı özünəməxsusluğu ilə fərqlənirdi. Azərbaycanın digər şəhərlərində olduğu kimi, burada da sənətkarların əksəriyyəti "əsnaf" adlanan sex təşkilatları ətrafında birləşirdi. Lakin əsnaflar sex təşkilatlarının zəifliyinə görə ölkənin həyatında bir o qədər də həlledici rol oynamırdılar. Sex başçılarının (ustabaşı) hüquqları sex təşkilatının hüquqlarında kənara çıxmırdı. Sex təşkilatlarının zəifliyi üzündən Azərbaycan şəhərlərinin hamısında "əsnaf" üzvləri ilə yanaşı, fərdi sənətkarlar da fəaliyyət göstərirdilər [3, 76].

XIX əsrin 30-cu illərində İrəvan şəhərində 2318 nəfər sənətkarlıqla məşğul olmuşdur. Onlardan 1436 nəfərini azərbaycanlılar, 468 nəfərini yerli ermənilər, 386 nəfərini isə İrəvana köçürülüb gətirilən ermənilər təşkil edirdilər [6, 248]. Fəaliyyətləri ilə əlaqədar olaraq sənətkarlar evlərini tikəndə otaqlardan birini emalatxana və ya dükan üçün ayırırdılar. Əhalinin əksəriyyəti kiçik və o qədər də hündür olmayan evlərdə və zirzəmilərdə yaşayırdı. Kasıbların bir və ya iki otağı olardı. Bunlar həm yataq otağını, həm də mətbəxi əvəz edirdi. Bu cür evlərdə, adətən, pəncərə qoyulmurdu. Ona görə də belə evlər, xüsusilə qış dövründə yaşayış üçün əlverişli deyildi. Yoxsulların evinin döşəməsində çörək bişirmək üçün və soyuq İrəvan qışında kürsülü soba kimi istifadə olunmaq üçün təndir olurdu. Evlərin küncündə kiçik ocaqlar düzəldilir, tüstünün çıxması üçün evin tavanında baca qoyulurdu. Şəhərin varlılara məxsus evlərində otaqların sayı nisbətən çox olurdu. Bəzi evlərdə ocaq əvəzinə daşdan hörülmüş buxarılar, sadə şüşə və ucuz qabların əvəzinə saxsı və çini qablar, gümüş və qızılı qab-qacaq, palaz əvəzinə isə xalı-xalçalar, gəbələr olurdu. Kənd yerlərində sənətkarların və kustar sənayenin inkişafında aztorpaqlı kəndlilərin rolu daha böyük

idi. Çünki son dərəcə az olan məhsulu yığdıqdan və kiçik torpaq sahəsini əkdikdən sonra, xüsusilə qış vaxtı, bekar qalan kəndlilər də istər-istəməz sənətkarlıqla məşğul olurdular. Məsələn, dəriçilik sənəti Dərəkənd məhəlləsində, Zəngi çayının yaxınlığında dabbaqlar icmasında inkişaf etmişdir. Bu icmaya məxsus 32 dükan vardır. Sərdarın zamanında bu sahə iltizama verilmişdi. İrəvan dərilərindən başqa, burada Bəyaziddən və Makudan gətirilən dəriləri də nəzərə almaqla, ildə təxminən 4 min böyük, 25 min balaca dəri aşılanırdı. Böyük dərilər 3 rubla, kiçik dərilər isə 80 qəpik gümüş pula satılırdı. Bəzi ustalar dərini çox yüksək keyfiyyətlə aşılayır, bəziləri isə onları təbii vasitələrlə qara, qırmızı və sarı rəngə boyayırdı [2, 70-71]. Bölgədəki tut bağlarının zənginliyinə görə, güman etmək olar ki, ipəkçilik vaxtilə yerli məşğuliyyətin mühüm sahəsi olmuşdur. Məsələn, XIX əsrin əvvəllərində İrəvan şəhərində ildə təqribən 10 puddan çox ipək istehsal olunmuşdur. İpəkçiliyin belə məhdudluğunun səbəblərindən biri kimi bu sahəyə diqqətin az ayrılması idisə, digər səbəb də İrəvandakı bulaqların suyunun çox soyuq və iqliminin də ipək qurdlarının yetişməsi üçün dəyişkən olması idi [12, 753].

İrəvan əyalətinin 1831-ci il kameral təsvirinə görə, İrəvan şəhərində ən geniş yayılmış peşələr isə tacir, baqqal, papaqçı, xırdavatçı, bağban, başmaqçı, nökər və günəmuzd fəhləlik idi. Bütün İrəvan şəhərində qeydə alınmış 2 saat ustası, 1 nəfər şüşə ustası və 4 xarratın hamısı isə azərbaycanlılar idi. Eyni zamanda, cəmi 1 nəfər silah ustası qeydə alınmışdır. Halbuki, türklərin əksəriyyət təşkil etdiyi İrəvan şəhərində yerli ermənilər arasında 4 nəfər, gəlmə ermənilər içərisində isə 12 nəfər silah ustası qeydə alınmışdır. Hətta, cəmi 50 ailə olan qaraçılar arasında da 1 nəfər silah ustası var idi. Türklər arasında silah ustalarının az olması onların Rusiya imperiyasına xidmət etmək istəməyərək İrana, yaxud Osmanlı dövlətinə getməsi ilə də bağlı ola bilərdi. Açığı, hələ elektrikin olmadığı bir vaxtda tornaçı dəzgahını və tokar (tornaçı) peşəsini təsəvvür etmək nə qədər çətin olsa da, saat ustası kimi, bu sənətin də İrəvanda yalnız türklərə məxsus olması qürurverici haldır [2, 37]. Silah ustalığında olduğu kimi, parça toxuyanlar arasında da ermənilər, xüsusən gəlmə ermənilər üstünlük təşkil edirdilər. Digər sənət növləri üzrə olmasa da, tacirlər arasında müqayisə aparmaq əhəmiyyətli olduğu üçün qeyd etmək lazımdır ki, 1831-ci ildə 151 nəfər türk, 68 nəfər erməni taciri vardı ki, bu da ticarət kapitalının müsəlmanların əlində olduğunu göstərirdi [2, 38]. E.T. Qarayev Şopenə istinad edərək yazır ki, işğaldan sonra İrəvan şəhərində və mahallarda 96 sənətkarlıq və ticarət sahəsi qeydə alınmışdır. Bu sənət sahələri içərisində toxuculuq xüsusilə seçilirdi. Maldarlığın, xüsusilə qoyunçuluğun, pambıqçılığın və baramaçılığın geniş yayılması bu sahənin inkişafına əlverişli zəmin yaratmış, onu xammalla təmin etmişdir. 1829-1832-ci illərdə aparılan siyahıyaalmaya görə, İrəvan şəhərində 3-ü Azərbaycan türkü, 12-si yerli erməni, 105-i isə gəlmə erməni olmaqla 120 nəfər, mahallarda isə 26-ı Azərbaycan türkü, 652 yerli və 2076 gəlmə erməni olmaqla 2.754 toxucu qeydə alınmışdı. 1850-ci illərin əvvəllərində isə İrəvan şəhərində cəmi 19 toxucu yaşamışdı. Toxuculuqla bağlı olan sənət sahələrdən biri də boyaqçılıq idi. Boyaqçılar boyaqçı və şiləçi olmaqla iki qrupa bölünürdülər Toxuculuq məmulatı üçün lazım olan iplərin, pambıq və yun parçaların rənglənməsində bu sahənin mühüm əhəmiyyəti vardır [1, 373-374]. İrəvan şəhərinin metalla zənginliyi bilavasitə onlara uyğun sənatkarlıq sahələrinin də inkişafına şərait yaratmışdır. Məsələn, dəmirçilər, təkərçilər metal əşyalardan əmək alətləri, o cümlədən dəryaz, oraq, balta, nal, bıçaq, mismar və başqa alət və əşyalar hazırlayırdılar. İrəvan şəhərində şüşəsazlıq sənəti zəif inkişaf etmişdi. İnşaatda adi şüşələrlə yanaşı, şəbəkələrdən də istifadə olunurdu.

İrəvan Azərbaycan şəhəri olduğu üçün əhalisi də əsasən müsəlman türklərdən ibarət idi. Burada, az da olsa, ermənilər, kürdlər, qaraçılar da yaşamışdır. Coğrafi mövqeyinin, iqlimin əlverişliliyi, ərazisində faydalı qazıntıların zənginliyi İrəvan şəhərində əkinçilik, maldarlıq, habelə sənətkarlıq sahələrinin inkişafına şərait yaratmışdır. Bütövlükdə götürüldükdə XIX əsrin 30-50-ci illərində İrəvan şəhərimiz bölgənin həyatında mühüm rol oynayan inzibati, iqtisadi və mədəni mərkəz kimi tanınırdı.

Ədəbiyyat

1. Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu–XIX yüzilliyin ortalarında). Bakı, 2016, 544 s.
2. Əhmədli N. İrəvan əyalətinin kameral təsviri. I cild. İrəvan şəhərinin kameral təsviri. Bakı, 2018, 328 s.
3. Əliyev F.M., Həsənov U. İrəvan xanlığı. Bakı, 2007, 144 s.
4. İrəvan xanlığı / Y.V. Mahmudovun redaktorluğu ilə. Bakı. 2010, 463 s.
5. Məmmədova İ.M. İrevan xanlığının nüfuzu (Səyyahların məlumatları, sosial, dini, iqtisadi vəziyyəti, məşğuliyyətləri, İrəvan xanlığının sosial vəziyyəti, ermənilərin xanlığa köçürülməsi) // Akademik Tarix və Düşüncə Jurnalı, may 2017, 4 cild, №11, s. 25-57.
6. Mustafa N.Y. İrəvan şəhəri, Bakı. 2020, 292 s.
7. Nəcəfli G.T., Azərbaycan torpaqlarında erməni dövləti yaradılması məqsədilə tərtib olunan layihələr (XVIII əsrin I rübü) // "Geostrategiya" jurnalı, mart-aprel 2016, № 02.
8. Желиховская В. Кавказ и Закавказье (с рисунками и картою Кавказа). Sank Peterburq. 1885, 118 с.

9. Кавказский календарь на 1852 год. Тифлис. 1851. 724 с.
10. Пираловъ А.С. Краткий Очеркъ Кустарныхъ промысловъ Кавказа. С-Петербургъ. 1913, 128 с.
11. Статский советник Грибоедова. Коллежский советник Завелейский. Тифлис, 7 сентября 1828 г.
12. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи // «В типографии Императорской Аккадемии Наук», Санкт-Петербург, 1852, 1236 с.

РЕЗЮМЕ
ИЗ ИСТОРИИ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ ЖИЗНИ ГОРОДА ЕРЕВАНА В 30-50-Е ГОДЫ XIX ВЕКА
Аллахвердиева Л.Дж.

Ключевые слова: *Иреван, население, турки, армяне, ремесла, земледелие, скотоводство*

Иреванское ханство сыграло важную роль в истории города Иревана и способствовало развитию города. Этот фактор также оказал положительное влияние на социально-экономическую жизнь города. Благодаря выгодному географическому положению и условиям, его хозяйственная жизнь развивалась в различных областях. Однако после оккупации царской Россией этнический состав города изменился. Постепенно количество азербайджанских тюрков уменьшилось, а в результате миграции стало увеличиваться количество армян. Кроме того, экономическая жизнь города ослабла до середины 19 века.

SUMMARY
FROM THE HISTORY OF THE SOCIAL AND ECONOMIC LIFE OF THE CITY OF IRAVAN IN THE 30-50S OF THE XIX CENTURY
Allahverdiyeva L.J.

Key words: *Iravan city, population, crafts, agriculture, cattle-breeding*

Being the center of the Iravan Khanate played an important role in the history of the city of Iravan and was one of the reasons for the development of the city. This factor also had a positive impact on the social-economic life of the city. Due to its favorable geographical location and conditions, its economic life has developed in various fields. However, after being occupied by Tsarist Russia, the ethnic composition of the city changed. Gradually, the number of Azerbaijani Turks decreased, and as a result of migration, the number of Armenians began to increase. In addition, the economic life of the city weakened until the middle of the 19th century.

AZƏRBAYCANDA TƏHSİL: TARİXİ, MÖVCUD DURUMU, PERSPEKTİVLƏRİ

Hacıyeva M.C.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
umid-haciyev-2017@mail.ru

Açar sözlər: *maarifçilik, təhsil, islahat, proqram, distant təhsil*

Təhsil hər zaman ictimai həyatın ən əsas sahələrindən biridir. Biz bu tezisdə təhsilimizin tarixi, bu sahədə olan uğurlarımız və bəzi problemlərdən danışaraq diqqəti bu sahəyə çəkməyə çalışacayıq.

Azərbaycanın peşəkar təhsil tarixinin maarifçiliklə başladığını deyə bilərik. XIX əsrin ortaları-XX əsrin əvvəllərini əhatə edən bu dövr Azərbaycanda cəhalətə, feodalizmin mürtəce qaydalarına, keçmişin inkişafa mane olan bütün əlamətlərinə qarşı cəmiyyətin ziyalı təbəqəsinin mübarizəsini ifadə edirdi. Çıxış yolunun yalnız elmin, təhsilin inkişaf etdirilməsində görən maarifçilər şəxsi fədakarlıq nümunəsi göstərərək bütün çətinliklərə tab gətirir, yaradılan süni maneələri aşırdılar. Bir yandan çar Rusiyasının türk-müsəlman xalqlarına soyuq münasibəti, buradan irəli gələn bürokratik əngəllər, digər tərəfdən daxildə cəhaləti təbliğ edən qüvvələr Azərbaycan maarifçiliyi qarşısında duran əsas maneələr idi. İşğaldan sonra çarizmin Azərbaycan dilinin tədrisinin zəruri olduğunu vacib hesab etməsi, heç də dilimizə olan hörmət və qayğıdan irəli gəlmir, əksinə idarəçiliyə cəlb olunmuş rus və qeyri millətlərin bu dili öyrənmələri ilə bağlı idi. Bu baxımdan dərsliklərin tərtib olunması günün vacib məsələsi olduğundan ziyalılarımızın bir qismi bu işə çox həvəslə başladılar. M.Ə.Vəzirov, S.Vəlibəyov, rus müəlliflərindən A.Q.Çernyayevski bu sahədə xüsusi fərqlənirdilər. Mirzə Əbülhəsən Vəzirovun "Tatar-Azərbaycan şivəsi" [1] dərsliyi 1861-ci ildə, Çernyayevskinin "Vətən dili" [2] dərsliyi isə 1882-ci ildə nəşr olundu.

XIX əsr, XX əsrin əvvəllərində A.A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi, S.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev, Ü.Hacıbəyov və başqa ziyalılarımızın fəaliyyəti nəticəsində cəmiyyətdə elmi ideyaların genişlənməsi, milli şüurun, özünüdərk prosesinin inkişafı xeyli sürətləndi. Bu kimi proseslərin davamı olaraq XX əsrin əvvəllərində milli dövlətçiliyimizin bərpası – Azərbaycan Xalq Cümhuriyyətinin qurulması

ilə nəticələndi. Bu gənc dövlət yarandığı gündən elmin, təhsilin inkişafına çalışırdı. Cümhuriyyətin qurucularından olan Məhəmməd Əmin Rəsulzadə dövrünün ən böyük maarifçilərindən idi. O, "Əsrimizin Siyavuşu" əsərində Cümhuriyyət dövründə bu sahədə görülən işlərdən bəhs edərək yazır: "Azərbaycan gəncliyini elm və texnika əsrinə hazırlamaq üçün Bakı Universiteti açılmışdı. Bundan başqa, yüzə yaxın tələbə müxtəlif texniki sahələrdə təhsil almaq üçün dövlət məsrəfi ilə Avropanın universitetlərinə və digər yüksək məktəblərinə göndərilmişdi". [3, s.43]

Azərbaycan Xalq Cümhuriyyəti Rusiya tərəfindən işğal edildikdən sonra Azərbaycanda təhsil yeni məzmun və yeni formada quruldu. Əsas qayəsini marksizm-leninizm ideologiyası təşkil edən sovet təhsilinin bir sıra müsbət tərəfləri ilə yanaşı, nöqsanlı tərəfləri də var idi. Lakin insafən demək lazımdır ki, mollaxana və mədrəsə təhsilindən çox-çox müasir olan bir təhsil idi. Bu dövrdə isə təhsil üçün ən çətin məsələ dərslik məsələsi idi.

Milli müstəqillik qazandıqdan sonra "Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı" 5 iyun 1999-cu ildə qəbul edilmişdir. Ulu öndər Heydər Əliyev 1998-ci ildə "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncam imzalamış, 1999-cu ildə isə islahat proqramı qəbul edilmişdir. Beləliklə cəmiyyətimizdə təhsil sahəsinin hərtərəfli, kompleks inkişafı üçün zəmin yarandı. [4]

2005-ci ildən Azərbaycan Respublikası vahid Avropa təhsil məkanına inteqrasiya etmək üçün Bolonya prosesinə qoşulmuş və ölkəmizdə ali təhsil sahəsində islahatların yeni inkişaf mərhələsi başlanmışdır. "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın qəbul olunması ilə rəqabətqabiliyyətli təhsil mühitinin formalaşması üçün əsas yaranmışdır. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" isə təxminən 100 il bundan öncə Azərbaycan Xalq Cümhuriyyətinin başladığı müqəddəs missiyanın müstəqil Azərbaycan Respublikası tərəfindən davam etdirilməsinin bariz nümunəsifir.

Azərbaycanda ali təhsil müəssisələri artıq müəyyən inkişaf yolu keçmiş, ERASMUS, TEMPUS, MEVLANA kimi beynəlxalq mübadilə proqramlarında aktiv iştirak etməyə başlamışlar. Sumqayıt Dövlət Universiteti də bu proqramlara qoşulmuş, bu sahədə xeyli uğurlar əldə etmişdi.

Ali təhsilimizdə olan uğurlarla bərabər bu sahə üzrə hələ də üzərində çalışılacaq bəzi nüanslar da vardır.

Düşünürük ki, müasir dövrdə təhsil sahəsində diqqət yönəldilməli olan problemlərdən biri dəyərlər məsələsidir.

1990-cı illərdən etibarən keçid dövrünü yaşamağa başlayan cəmiyyətimizdə əxlaqi-mənəvi dəyərlərin deqrodasiyası prosesi baş vermişdir. Bunu təbii hesab edirik. Çünki cəmiyyətin bütün sahələrində ənənəvi dəyər və kodekslərin birdən-birə çökməsi, yenilərinin hələ tam formalaşmaması sanki mənəvi boşluq yaratmışdır. Təhsil ictimai şüurun formalaşmasında əsas amillərdən biri olduğuna görə də o, mənəvi dəyərlərə inamı bərpa edəcək sosial instituta çevrilməlidir. [5]

Cəmiyyətin inkişafında ali təhsil müstəsna rol oynayır. O halda ali təhsil ocaqlarında da bu cür əxlaqi-mənəvi dəyərlərin yüksəldilməsi, bu dəyərlərə qiymət verilməsi məsələlərinə həssaslıqla yanaşılmalıdır. Çünki ali təhsilli insanlar cəmiyyətdə nümunəvi rol oynayır, sanki digərləri üçün bir tərbiyə məktəbidir.

Təhsilimizdə olan problemlərdən biri də orta məktəblərdə biliklərin nəzəriyyə üzərində qurulması və öyrədilməsidir. Buna görə də şagirdlər tələbə adını qazandıqdan sonra universitetlərdə nəzəri bilikləri praktikada göstərməyə çətinlik çəkirlər. Artıq Sumqayıt Dövlət Universitetində elmi laboratoriyaların müasir cihazlarlarla təchiz edilməsi tələbələr üçün yeni imkanlar açır və onlar biliklərini praktik cəhətdən də möhkəmləndirirlər. Tədris prosesinin modernləşməsi məqsədi ilə "LABVieW" proqramı ilə işləyən virtual laboratoriyalar təşkil olunmuşdur. [6]

Bu gün təhsillə bağlı aktual olan məsələlərdən biri də distant təhsilin təşkil edilməsidir. Birdən birə bütün dünyanı ağuşuna alan Covid -19 pandemiyası distant təhsilin bu cür vəziyyət üçün heç də hazır olmadığını göstərdi. Məlum oldu ki, ortaya çıxan problemlərin həlli üçün onlayn təhsilin elmi-nəzəri əsasları işlənməli müvafiq sahədə peşəkar müəllimlər hazırlanmalı, distant tədrisin bütün prinsiplərini əhatə edən kontent yaradılmalıdır. [7] Yəni distant tədrisin səmərəliliyinin artırılması üçün uyğun təkliflər hazırlanmalı və bu istiqamətdə əsaslı tədqiqatlar aparılmalıdır.

Ədəbiyyat

1. Adilov, V.Z. Mirzə Məhəmməd Əfşar "Fənni-sərfü nəhvi-türki" (qrammatik oçerk, mətnin transliterasiyası, lüğət və əlyazmanın fotosurəti). /V.Z.Adilov, R.Babazadə-Bakı: Elm və təhsil, -2015. 260 s.
2. Abdullayev, A.S. Azərbaycan dilinin tədrisi tarixindən / A.S.Abdullayev. –Bakı: Maarif, -1996. 332 s.

3. Məhəmməd Ə.R. Əsrimizin Siyavuşu. Bakı: Mücrü, 2021, 64 s
4. https://tehsil.biz>news>
5. https://rosinka173.ru>
6. https://tehsil-press.az>
7. https://azertag.az>xeber

РЕЗЮМЕ
ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ: ИСТОРИЯ, СОВРЕМЕННОЕ СОСТОЯНИЕ, ПЕРСПЕКТИВЫ
Гаджиева М.Дж.

Ключевые слова: *просвещение, образование, реформа, программа, дистанционное обучение*

В тезисах рассматривается история образования в Азербайджане, акцентируется внимание на текущих проблемах и перспективах развития. Сообщается, что наши образовательные традиции, исторически восходящие к эпохе просвещения, продолжаются и сегодня интеграцией в единое европейское образовательное пространство. Кроме того подчеркивается , что в сфере образования важную роль играют морально-нравственные факторы для формирования общественного сознания. Вопрос расширения дистанционного образования в нашей стране, вытекающий из требований современности, является одним из вопросов, анализируемых в статье.

SUMMARY
EDUCATION IN AZERBAIJAN: HISTORY, CURRENT SITUATION, PERSPECTIVES
Hajiyeva M.J.

Keywords: *enlightenment, education, reform, program, distance education*

The thesis examines the history of education in Azerbaijan, focuses on current problems and development prospects. It is reported that our educational traditions, which historically came from the era of enlightenment, continue today with integration into a single European educational space. In additional, the thesis emphasizes the importance of paying attention to the value factor in the field of education, which plays an important role in the formation of social consciousness in society, and moral are brought to the front side. The issue of expanding distance education arising from the requirements of our time in our country is one of the issues analyzed in the thesis.

II QARABAĞ MÜHARİBƏSİNDƏ SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN TARİX VƏ COĞRAFİYA FAKÜLTƏSİ MƏZUNLARININ İŞTİRAKI

Əhmədova Ş.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
muzefferomer71@gmail.com

Açar sözlər. *leytenant, əsgər, qəhrəman, Vətən, şəhid, qəhrəman*

1993 cü ildə əsası Ümummulli lider Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu işi 2003 cü ildən daha da nizamlı şəkildə həyata keçirilməyə başladı. Bu dövrdən ölkəmiz təkcə xarici ölkələrdən silah sursat almır,milli hərbi sənaye hesabına da özünü təmin etməyə başlayır. Belə ki.Prezident İlham Əıiyevin Fərmanı ilə 16 dekabr 2005 ci ildə Müdafiə Sənayesi Nazirliyi yaradıldı.[1.s.1], [2,s. 1.] 27 sentyabr 2006 ci ildə isə President müxtəlif elm istehsalat birliklərinin və zavodların bazasında nazirliyin istehsalat bölmələrinin yaradlması haqqında 426 saylı növbəti Fərmanı imzaladı.[3,s 1.]

Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin təmin edilməsi üçün hər il 2 milyard dollar vəsait ayrıldı.

Bütün bu tədbirlər xalqımız və dövlətimiz üçün ən ümdə problem olan Qarabağ probleminin birdəfəlik çözülməsi üçün həyata keçirilirdi. Atalarımız ta qədimdən demişlər ki, ordun varsa yurdun var! Bəli,ordumuz 30 ildən bəri erməni vəhşilərinin tapdağı altında olan Qarabağımızı azad etməli idi.1994 cü ildə atəşkəs elan olunsa da erməni hərbi birləşmələri tez tez mövqelərimizi atəşə tutur,yerli dinc əhalini,körpə uşaqları, yaşlı nurani qocaları nişan almaqdan belə həzz alır, bunu qəhrəmanlıq sanırdılar.amma düşünmürdülər ki, türkün qəhrəmanları meydanda at oynatsa dünya onlara dar gələcək.

Bu belə də oldu.Terrorçü erməni hərbi birləşmələrinin 27 sentyabr 2020 ci il səhər saat 6:00 radələrində növbəti dəfə atəşkəsi pozması artıq Azərbaycan ordusunun əkshücum əməliyyatlarına başlamasına rəvac verdi. Elə həmin gün Azərbaycan ordusunun şəxsi heyət və tank bölmələrinin, raket artirelliya qoşunlarının bölmələri cəbhə aviasiya və pilotsuz uçuş aparatlarının dəstəyi ilə erməni hərbi

birləşmələrinin ön xəttə və müdafiənin dərinliyində yerləşən xeyli canlı qüvvəsi,hərbi obyektləri və döyüş texnikası ,o cümlədən 12 ədəd "OSA"raket zenith kompleksi aşkar edilərək məhv edildi.

President, Ali baş komandan İ.Əliyev 28 sentyabr 2020 ci il saat 10:50 dəqiqədə Azərbaycan Respublikası Konstitusiyasının 109 cu maddəsinin 25 ci bəndini rəhbər tutaraq ölkədə qismən səfərbərlik elan etdi. Ölkədə hərbi vəziyyət və komendat saatı tətbiq edildi,internetin verilməsində məhdudiyyətlər yaradəldbününla da II Qarabağ müharibəsi (1988 noyabr və 1994 cü il 12 may Bişkek protokolu ilə atəşkəsə nail olunmasına qədər olan dövr I Qarabağ müharibəsi dövrü hesab edilir.)

Torpaqlarımızın erməni faşist vandallarından təmizlənməsində iştirak etmək üçün müharibəyə getməyə sanki gənclər yarışa girmişdilər. Bu gənclərin sırasında Sumqayıt Dövlət Universitetinin o cümlədən universitetin Tarix coğrafiya fakültəsinin məzunları da var idi.

Belə ki, II Qarabağ müharibəsində Sumqayıt Dövlət Universitetinin Tarix coğrafiya fakültəsinin bizə məlum olan 39 nəfər məzunu iştirak etmişdir.Bu məzunlardan 4 nəfəri Azərbaycan ordusunun zabiti – Hüseynov Nizami Ələmdar oğlu baş leytinant, Əliyev Qaib Məmməd oğlu baş leytinant rütbəsində, Qənimətov Ətraf Oktay oğlu (şəhid) isə leytinant. Hüseynov Elgün Qorxmaz oğli isə baş gizir (snayper tağım komandiri) rütbələrində olmuşlar, digər məzunlar isə müddətli hərbi xidmətdə-əsgər olmuşlar.

Bu kiçik məqalədə vətən üçün candan keçməyə hazır olmuş həmin böyük ürəkli məzun oğullarımızın adlarını çəkmək mənim üçün şərəfdir,qürürvericidir, Beləliklə,məzunlarımızdan Ətraf Qənimətov (şəhid), Elgün Quliyev (şəhid), Çoşqun Hidayətov, Kamran Quliyev, Orxan Sadaylı, Kənan Hüseynov, Sübhan Məlikov, Şahmurad Həsənov, Sadiq Səlimov, Ağamir Mürsəlzadə, Tural Qafarlı, Kənan Hacıyev, Sahib Mənsimov, Həbib Bağırzadə, Əlihüseyn Fətullayev, Fərid Həsənov, Qasım Qasımov, Qəhrəman Qasımov,Toğrul Qardaşzadə, Həsən Həsənli, Seymur Babayev, Qaib Əliyev, Elmin Bağırov, Xəlil Cəfərov, İqbal Qarayev, Elgün Hüseynov, Zaur Nadirov, Amir Kərimov, Kənan Hüseynov, Kamran Abdullayev, Əli Əsgərov, Murad Əlizadə, Taleh Aslanov, Kamran Səfərli, Rəhman Yolçuyev, Xəyal İsgəndərli, Paşa Məmmədov (2007-ci il buraxılışı), Nizami Hüseynov (2007-ci il buraxılışı) və Vaqif Qasımov (magistr) Vətən müharibəsində qəhrəmanlıqla iştirak etmişlər.

Yuxarıda da qeyd etdiyimiz kimi fakültəmizin müharibədə iştirak edən məzunları arasından 2 nəfəri vətən müharibəsi şəhididirlər.

Şəhid Qənimətov Ətraf 20 mart 1997-ci ildə Şəki rayonunda anadan olsa da onun valideyinləri Laçın rayonunun Vəlibəyli kəndindən məcburi köçkün olaraq bura gəlmişlər. Ətraf 2014-cü ildə Şəkidə "Çələbixan" qəsəbə 1 saylı köçkünlər məktəbini bitirmişdir. Məktəbdə oxuduğu vaxt "Təlim və tərbiyədə əldə etdiyi nəaliyyətə görə" "Fəxri Fərman"la təltif edilmişdir. 2014-cü ildə Sumqayıt Dövlət Universitetinin "tarix coğrafiya fakültəsinin "Tarix müəllimliyi" ixtisasına qəbul olmuş, 2019-cu ildə universiteti bitirmişdir. Oxuduğu müddətdə özünü nümunəvi aparmış,ictimai işlərdə iştirak etmişdir. 2015-ci ildə Avropa oyunlarında iştirakına görə "Bakı 2015" Təşəkkürrnamə ilə təltif olunmuşdur. Bundan əlavə Vətənimizin paytaxtı Bakıda keçirilən bir sıra idman oyunları və yarışlarda könüllü iştirakına görə Qənimətov Ətrafın digər Təşəkkürrnamə və Sertifikatları da vardır.

Azərbaycan ordusunun Quru Qoşunlarının leytinantı olan Ətraf 2020-ci il 13 oktyabrda Fizuli uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. İgid döyüşçü Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölümündən sonar "Vətən uğrunda", "Füzuli Uğrunda" və "Hərbi xidmətdə fərqləndiyinə görə" medalları ilə təltif edilmişdir. [1.w https://az.m.wikipediya "Ətraf Qənimətov " məqaləsi]

Şəhid Elgün Quliyev 1992-ci ildə Şamaxı rayonunun Göylər kəndində anadan olub.orta məktəbi bitirdikdən sonar Şəki İslam Kollecinə daxil olub, 2008-ci ildə kolleci bitirib, 2009-cu ildə Sumqayıt Dövlət Universitetinin "Tarix coğrafiya" fakültəsinin "Tarix müəllimliyi" ixtisasına qəbul olmuş, 2014-cü ildə ali təhsilini başa vuraraq hərbi xidmətı yola düşmüşdür. 2020-ci ildə müəllimlərin İşə Qəbulu imtahanından keçərək işə qəbul olmuşdur. Elə həmim il bədnam düşmən atəşkəsi pozduğu üçün Respubliika Prezidenti qismən səfərbərlik elan edir, Elgün "Tarix müəllimi ola bilməsəm də, yəni işləyə bilməsəm də,bəlkə tarix yazdım" - deyib könüllü olaraq müharibəyə getmək üçün ərizə ilə müraciət edir. Müraciəti qəbul edilmədikdə isə israr edir və müharibəyə gedir. Qəhrəmancasına döyüşür,öz şərəfli ölümü ilə tarix yazır. O, müharibənin sonuncu 44-cü günü Şuşanın azad edilməsi zamanı qəhrəmancasına şəhid olur.Sanki,könüllü olaraq müharibəyə yollanan Elgünə son sözləri Tanrı dedizdirmişdi,o son günə qədər tarix yazanların sırasında oldu və 44-cü gün Şuşaya daxil olanlardan,şərəfli tarixi yazanlardan oldu.

Elgün tarixi öyrətmək üçün doğulmuşdu,tarixi yazmaq üçün öldü.Şəhidlik zirvəsinə ucaldıqdan sonra Respublika Prezidentin İlham Əliyevin Fərmanı ilə 15.12.2020 ci ildə "Vətən uğrunda" və 29.12.2020 ci ildə "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir. [2. https://az.m.wikipediya org "Elgün Quliyev" məqaləsi]

Vətənimizin,torpaqlarımızın azadlığı uğrunda şəhadətə yüksələn hər iki tələbəmizə Ulu Tanrıdan rəhmət diləyib,məqamlarının ucalığını arzulayırıq.

II Qarabağ müharibəsində şəhid olmuş məzunlarımızdan əlavə igidliklərinə görə medallar və digər təltifnamələrlə dəyərləndirilən məzunları da az deyildir.

2018-ci il məzunu 872 saylı qrupun əlaçı tələbələrindən olmuş Səlimov Sadiq Şirxan oğlu ön cəbhədə Azərbaycan Ordusunun Quru Qoşunlarının Tank Briqadasında müharibənin son gününə qədər igidliklə döyüşmüşərək, nümunəvi əsgər kimi Qələbə Paradına da dəvət almışdır. Qəhrəman məzunumuzun bu xidməti Respublika Prezidenti tərəfindən "Füzulinin azad olunmasına görə", "Hadrutun azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Müharibə İştirakçısı" medalları ilə təltif edilmişdir.

2019-cu il məzunu 883 saylı qrupun tələbəsi olmuş Məlikov Sübhan Eldəniz oğlu 27 sentyabr 2020-ci il tarixindən Füzuli uğrunda döyüşlərdən başlayaraq Cəbrayıl,Xocavənd,uğrunda döyüşlərdə kəşfiyyat bölməsində igidliklə döyüşmüş,26 oktyabrda yaralanmış,sağaldıqdan sonra yenidən Zəngilanın işğaldan azad edilməsində iştirak etmişdir.Respublika Prezidentinin fərman ilə "Cəbrayılın işğaldan azad edilməsinə görə", "Zəngilanın işğaldan azad edilməsinə görə", "Xocavəndin işğaldan azad edilməsinə görə", "Döyüşdə fərqlənməyə görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

2016-cı il məzunu 855 saylı qrupun tələbəsi olmuş Hidayətov Coşqun Hikmət oğlu döyüşlərdə Füzuli,Cəbrayıl,Zəngilan,Hadrut,Xocavənd,Şuşa istiqamətlərində baş istehkamçı kimi iştirak etmiş,Respublika Prezidentinin Fərmanı ilə "Cəbrayılın azad edilməsinə görə" və "Vətən müharibəsi iştirakçısı " medalları ilə təltif edilmişdir. Coşqun Hidayətov müharibədən sonra da azad edilmiş torpaqlarımızın yenidən bərpası ilə bağlı bir sıra tədbirlərdə fəal iştirak etmişdir.Hazırda Böyük Qayıdış Gənclər Təşkilatı İdarə Heyətinin Üzvü və həmin təşkilatda layihələr üzrə menecerdir. Respublika İdman və Gənclər Nazirliyinin əməkdaşıdır.

2020-ci il məzunu 892 saylı qrupun tələbəsi olmuş İsgəndərli Xəyal Amil oğlu da layiqli döyüş yolu keçmiş, Respublika Prezidenti İlham Əliyevin Fərmanı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" üçüncu dərəcəli medalla təltif edilmişdir.

2020-ci il məzunu 891 saylı qrupun tələbəsi olmuş Mənsimov Sahib Murad oğli Tərtər,Ağdərə istiqamətlərində və Soqovuşanın alınması uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşmüş və Respublika Prezidenti İlham Əliyevin Fərmanı ilə" Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmişdir.

Böyük ürəkli oğullarımızın vətənə sevgilərini,qəhrəmanlıqlarını kiçik bir məqalədə tərənnüm etmək əlbəət ki,mümkünsüzdür.Sadəcə bu bir başlanğıc olsun deyə bu məqalədə kiçik nüanslara toxunmaq istədik. Canını vətənə fəda etməyə hazır olan bu oğulların rəşadəti böyük dastanlarda tərənnüm ediləcək, zaman zaman gənc nəslin vətənpərvərlik tərbiyəsi üçün örnək olacaqdır.

Ədəbiyyat

1. 15 fevral 2011-ci il tarixli 381 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı "Azərbaycan "qəzeti 20 fevral 2011-ci il.№ 40
2. 21 dekabr 2009-cu il tarixli 195 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı "Azərbaycan " qəzeti 2009-cu il №289
3. 15 fevral 2011-ci il tarixli 381 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Respublika" qəzeti 18 fevral 2011-ci il №38. Qanunveri-cilik toplusu , 2011-ci il , №2, maddə 85.
4. https://az.m.wikipediya org "Ətraf Qənimətov " məqaləsi
5. https://az.m.wikipediya org "Elgün Quliyev" məqaləsi

РЕЗЮМЕ

УЧАСТИЕ ВЫПУСКНИКОВ ФАКУЛЬТЕТА ИСТОРИИ И ГЕОГРАФИИ СУМГАИТСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ

Ахмедова Ш.М.

***Ключевые слова**: лейтенант, солдат, герой, Родина, шехид, герой .*

В статье рассказывается о справедливой борьбе азербайджанского народа против армянских фашистов, оккупировавших наши земли на протяжении 30 лет. Обсуждаются интересные факты об участии выпускников Сумгаитского государственного университета в Отечественной войне, их мужественном боевом пути, их героизме. Отмечается, что будущие педагоги храбро и самоотверженно сражались за Родину.

SUMMARY
PARTICIPATION OF GRADUATES OF THE HISTORY AND GEOGRAPHY FACULTY OF SUMGAIT STATE UNIVERSITY IN THE SECOND KARABAKH WAR
Akhmedova Sh.M.

Key words: *Lieutenant, soldier, hero, Motherland, shehid, hero .*

The article talks about the rightful struggle of the Azerbaijani people against the Armenian fascists who have been occupying our lands for 30 years in the Second Karabakh War. Interesting facts about the participation of Sumgayit State University graduates in this war, their brave ways of fighting, and their heroism are discussed. It is noted that the sons who were born to teach history fought bravely for the motherland and wrote history with their blood.

FÜZULİ RAYONUNUN TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİ, BƏZİ OYKONİMLƏRİ, TURİZM EHTİYATLARI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

[1]Əliyev Ş., [2]Tapdıqoğlu (*Vəlişov*) N.
[1]Coğrafiya İnstitutu, b.f.d., [2]Tarix İnstitutu, e.i.
Bakı, Azərbaycan
ayshenmammadova1987@gmail.com

Açar sözlər*: etnonim, ekskursiya, turizm, türbə*

Qarabağ iqtisadi rayonuna daxil olan ***Füzuli rayonu*** 8 avqust 1930-cu il tarixdə təşkil edilmişdir. Rayon Qarabağ dağ silsiləsinin cənub-qərb ətəklərindən Araz çayına qədər olan maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İran İslam Respublikası ilə həmsərhəddir. Rayonun ilkin adı ***Qarabulaq*** (*1827-ci il*) olmuşdur. Bu yaşayış məntəqəsi əvvəllər bir müddət qeyri-rəsmi olaraq ***Molokan*** adı da daşımışdır. Rayon sonralar Birinci Rusiya – İran müharibəsinin tanınmış sərkərdəsi, çar polkovniki Pavel Koryaginin şərəfinə ***Koryagin*** adlandırılmışdır. 1959-cu ilin aprelindən rayon dahi Azərbaycan şairi Məhəmməd Füzulinin şərəfinə ***Füzuli*** adlanmışdır.

Qarabağın dilbər guşələrindən biri, coğrafi cəhətdən gözəlliklər diyarı olan *Füzuli* rayonunun ərazisi *1386* kvadrat kilometrdir (*bəzi sənədlərdə rayonun ərazisi 1390 kv. km və ya 139 000 hektar da yazılır*). Əhalisinin sayı hazırda *138 000* nəfərdir. Rayonda *2* şəhər (*Füzuli*, *Horadiz*), *76* kənd, eləcə də hər biri bir neçə qəsəbədən ibarət olan *Qayıdış* və *Zobucuq* adlı qəsəbələr vardır. Rayon ərazisindən axan *Köndələnçay*, *Quruçay*, *Qozluçay*, *Çərəkənçay*, *Dəliçay* çayları Araz hövzəsinin çaylarıdır. Füzuli rayonunun ən iri yaşayış məntəqələri *Füzuli şəhəri*, *Horadiz şəhəri*, *Böyük Bəhmənli kəndi*, *Horadiz kəndi*, *Qacar kəndi*, *Aşağı Seyidəhmədli kəndi*, *Əhmədbəyli kəndi*, *Bala Bəhmənli* kəndləridir. Rayonun ərazisi məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz-qəhvəyi və s. kimi qiymətli torpaq sahələrinə malikdir. Rayon ərazisində taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdir.

Rayon ərazisindəki müxtəlif tarixi dövrlərə aid olan *Qaraköpəktəpə, Qarabulaq kurqanları, Günəştəpə, Zərgərtəpə, Meynətəpə* adlanan sahələrdə, eləcə də *Quruçay* sahillərində elmi-tədqiqat, arxeoloji işlər aparılmış, orada yaşamış qədim tayfaların tarixi, məişəti, mədəniyyəti öyrənilərək tədqiq olunmuşdur. Bu yerlər xalqımızın uzaq keçmişinə aid çoxlu maddi-mədəniyyət nümunələri və qiymətli memarlıq abidələri ilə zəngindir. Rayonun ərazisi Azərbaycanda (*eləcə də bütün Qafqazda, Zaqafqaziyada*) ən qədim insan məskənlərindən biri hesab olunur. Onun ərazisi paleolit abidələri ilə zəngindir. Füzuli şəhərindən *15* kilometr məsafədə yerləşən *Azıx mağarası* Quruçayın sol sahilində qərar tutduğu üçün mağara və onun yaxın ətraflarında tapılan daş dövrü nümunələrini tədqiqatçılar "*Quruçay mədəniyyəti*" (*onun yaşı təxminən 1 300 000 ilə yaxındır*) adı ilə izah və təhlil edirlər.

Qaraköpəktəpə çoxtəbəqəli qədim yaşayış yeri Füzuli şəhərinin ərazisində, Köndələnçayın sağ sahilində, 50 metr hündürlükdə yerləşir. Rus arxeoloq-alimi A.A.İvanovski, Azərbaycan alimi, professor Q.İsmayılov burada maraqlı tədqiqat işləri aparmışlar. 1964-cü ildən etibarən aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, miladdan öncə V minillikdən eramızın XVIII əsrinə qədər burada yaşayış yeri olmuşdur. Qaraköpəktəpə abidəsindən Azərbaycanın qədim tarixinin ardıcıl inkişaf mərhələlərini əks etdirən 10 mindən artıq qiymətli maddi-mədəniyyət nümunəsi əldə edilmişdir. Buradan eneolit dövrünə, orta Tunc dövrünə, Kür-Araz mədəniyyətinə aid çoxlu nümunələr tapılmışdır, Azərbaycanda antik dövrə aid yaşayış yeri ilk dəfə Qaraköpəktəpədə aşkar edilmişdir (*1; s. 61*). Bir tərəfi meşəlik, bir tərəfi çay, bir tərəfi Füzuli şəhəri olan əsrarəngiz gözəlliyə malik Qaraköpəktəpə abidəsini gələcəkdə gözəl istirahət mətkəzinə, turizm zonasına çevirmək olar.

Rayon ərazisində çoxlu sayda ölkə əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri hesab edilən türbələr vardır. Azərbaycanın qorunan memarlıq abidələrinin siyahısını bəzəyən, Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan və XIII əsrin dəyərli abidəsi hesab edilən *Əhmədalılar türbəsi* (*adına bəzən Arğalı da deyilir; erməni işğalından azad olunsa da, çox zərər çəkib*), *Babı türbəsi* (*XIII əsr, 1272-1273-cü illərdə tikilmişdir; erməni işğalından azad olunsa da, çox ziyan çəkib*), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari *Mirəli türbəsi* (*XIII – XIV əsrlər, erməni işğalından azad olunsa da, çox ziyan çəkib*), Qarğabazar kəndindəki *Hacı Qiyasəddin məscidi* (*1682-ci il*), *Karvansara* (*1684-cü il*), Qoçəhmədli kəndindəki *Məscid* (*XVIII əsr*), Füzuli şəhərindəki *Hacı Ələkbər məscidi* (*XIX əsr, erməni vandalları tərəfindən bütünlüklə dağıdılıb*), *"Məşədi Həbib" hamamı* (*1895-ci il, dağıdılıb*), Merdinli kəndində məscid və kənd ərazisində daşdan yonulan *At və qoç fiqurlu qədim abidələr* (*XVII – XIX əsrlər*) və daha onlarla qiymətli maddi-mədəniyyət nümunələri Füzuli torpağındadır. Onlardan bir neçə nümunəyə diqqət edək:

Babı türbəsi Babı kəndinin yaxınlığındakı qəbiristanlıqda, Araz çayının sol sahilində yerləşir. Türbənin kitabəsi üzərində onun hicri 670-ci ildə *(miladi 1272-ci il)* Şeyx ƏbuYaqub ibn Səd tərəfindən tikildiyi qeyd olunub. Bu ansambl-abidədən indi ancaq türbə xarabalığı və zədələnmiş minarə qalmışdır. Türbə planda səkkiz güşəlidir. Ağ daşdan hörülmüş türbənin üst hissəsi səkkiz bucaqlı çatma günbəzlə örtülüdür. Türbənin günbəzi bir qat sıra daşdan hörülüb. Ornament bəzəklərinə görə türbənin tikintisində Əcəmi memarlıq məktəbinin təsiri duyulur; türbənin xarici səth bölgülərində Naxçıvandakı Möminə xatın türbəsinin səth bölgülərinin təsiri duyulur (*2; s. 526*). Bəzi məlumatlara görə, abidə görkəmli Azərbaycan ilahiyyatçısı, şair, filosof, sərkərdə Şeyx Babi Yaqubun şərəfinə ucaldılıb. Bəlkə də, elə bu səbəbdən el arasında bəzən ona ***Şıxbaba türbəsi*** də deyirlər.



Göründüyü kimi, ***türbə*** minarədən ayrı düşmüşdür. Bəzi mülahizələrə görə minarənin türbədən ayrılmasına səbəb ya ildırımvurma, ya da top mərmisinin dəyməsi olmuşdur...

Orta əsrlər dövrünün tanınmış tədqiqatçısı A.Brozqula və akademik T.Roskovski "*Şeyx Babı Yəqub*" türbəsinin XII əsrə aid olduğunu iddia edirdilər. Sonralar professor V.Kraçkovskaya da "*Şeyx Babı türbəsinin öyrənilməsi tarixinə dair*" məruzəsində A.Brozqula və T.Roskovskinin fikirlərini təsdiqləmişdir. 1940-cı illərdə Peterburq Akademiyasının şərqşünas alimi M.Xonikov da *Babı türbəsi* haqqında maraqlı açıqlamalar vermişdir.



XX əsrin ortalarında rus alimləri ilə yanaşı, Azərbaycan alimləri *(Ə.Salamzadə, Ş.Fətullayev, M.Nemətova, K.Məmmədzadə və s.)* də Şeyx Babı Yəqub türbəsinin öyrənilməsi istiqamətində maraqlı

araşdırmalar aparmışlar. Onlar bu fikrə gəlmişlər ki, Füzuli rayonu ərazisindəki Babı və Əhmədalılar türbələri Naxçıvan *(Əcəmi)* memarlıq məktəbinin təsiri ilə inşa edilmişdir (*3; s. 71*). Babı günbəzinin yerləşdiyi ərazi araşdırıcılar tərəfindən *Xanəgah* da adlandırılmışdır. Günbəzin kitabəsinin üzərindəki yazıların tərcüməsi belədir: *"Bu müqəddəs məqbərə Zahid, Kamil, Şeyx Babı, Yəqub ibn İsmayıl Qur Xər üçün tikilməsinə 672-ci ildə əmr olunmuşdur. Yer üzərində nə varsa, hamısı məhv olacaqdır"*. Daş kitabədə qeyd olunan bu sözlər burda dəfn edilənin sufi şeyxi olduğunu, məqbərənin müqəddəs ziyarətgah, Şeyxin kamil və zahidliyini ifadə edir. M.Nemətova kitabədəki Zahid, İsmayıl, Qur Xər ləqəblərini tarixi qaynaqlarla əlaqədar araşdırmışdır.Şeyx Babı türbəsi ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət, memarlıq abidəsi hesab olunur. Burada əsaslı arxeoloji qazıntılar aparılmadığından yolların istiqamətini müəyyən etmək çətindir. Günbəzdən azacıq aralıda hamam xarabalığı da aşkar edilmişdir. Yeraltı hissəsi salamat qalan bu hamamın divar ornamentləri göy firuzə rəngli mozaika ilə bəzədilmişdir.

Əhmədalılar türbəsi. Füzuli rayonu ərazisində qeydə alınan digər bir ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidəsi Əhmədalılar türbəsidir. *Əhmədalılar türbəsi (bəzən adına **Arğalı türbəsi** də deyilir)* Əhmədalılar kəndində yerləşir. *Əhmədalılar* oykonimi etnotoponimdir (*4; s. 178*). Türbənin daşdan tikilmiş çatma tağlı günbəzi var. Abidənin səthləri dayaz batıqlar ilə işlənmiş, girişdəki baştağı oyma həndəsi ornamentlərlə haşiyələnmişdir. Baştağın ornament bəzəklərində, səthlərinin işlənməsində Naxçıvan memarlıq məktəbinin *(Əcəmi)* təsiri duyulur. *Əhmədalılar türbəsi* memarlıq baxımından *Babı* türbəsinə çox oxşayır. Türbənin XIII əsrin sonu, XIV əsrin əvvəllərində tikildiyi güman edilir.

Əhmədalılar türbəsinin günbəzi ikiqatlı hörülüb və ara məsafəsi daş-əhəng qarışıqlı məhlulla doldurulub. Şimal tərəfdəki qapı ilə üzbəüz mehrab əvəzinə, ikinci qapı da vardır. Bu qapıların portal çərçivələri həndəsi naxışlarla bəzənmişdir. Türbənin üzərində kitabəsi yoxdur. El arasında bu türbəyə ***Arğalı türbəsi*** *(bəlkə də arıq Alı)* də deyilir. Orada dəfn olunan şəxsin kimliyi hələlik dəqiq bilinmir. XX əsrdə – 1960-cı illərdə *Əhmədalılar türbəsi* bərpa edilmişdir. ***Əhmədalılar türbəsi*** Azərbaycanın ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən hesab edilir.

Mirəli türbəsi. Rayon ərazisində orta əsrlərə aid memarlıq abidələrindən biri də Aşağı Veysəlli kəndi yaxınlığında yerləşən ***Mirəli*** türbəsidir. Kitabəsi qalmadığından XIII əsrin sonu – XIV əsrin əvvəllərində tikilməsi ehtimal edilən *Mirəli türbəsi* Azərbaycanın qülləvarı türbələri sırasına daxildir. Üçpilləli kürsünün üzərində tikilmiş türbənin silindr şəkilli gövdəsi konusvarı günbəzlə tamamlanır. Giriş qapısı türbənin səthindən xeyli irəli çıxmış baştağ şəklindədir. Türbə yeraltı (*sərdaba*) və yerüstü hissələrdən ibarətdir. Yuxarı hissədən sərdabaya pilləvarı yol salınmışdır (*5; s. 589*)...

Füzuli rayonunun ərazisində təzəcə istifadəyə verilmiş beynəlxalq aeroport Füzuliyə yaxın gələcəkdə sərnişin axınını gücləndirəcək və gələcəkdə bu yerlərdə turizmin inkişafına xidmət edəcəkdir. Füzuli rayonunun Qaraməmmədli, Yuxarı Veysəlli, Qacar, Qaradağlı, Arış, Xələfşə, Cuvarlı, Üçbulaq, Dövlətyarlı və digər kəndlərinin ərazilərində turist bazalarının açılması gələcəkdə rayonun mədəni və iqtisadi cəhətdən daha da yüksəlişinə səbəb olardı. Rayon ərazisində olan *Ərgünəş dağı, Xəzəz dağı, Üryandağ, Peykanlı dağı, Haçagədik, Qızılqaya, Çaldağ, Qaraköpəktəpə, Ələkbər yalı, Bəytəpə dağı, İlanlı dağ, Miralılar yalı, Heydər quzeyi, Qozludərə, Güllüdərə, Dördtəpə dağı, Qaraarxac dərəsi, Cinqobu, Dördçinar güneyi, Üçarmud təpəsi, "Seyidli bulağı", "Yarğan bulaq", Ulu bulaq", "Qarabulaq", "Əsgərxan bulağı", "Qaraməmmədli bulağı"* Füzuli rayonunun səfalı istirahət guşələrindən hesab edilir. Yuxarıda adları qeyd olunan ərazilərə elmi məlumatlar əldə etmək baxımından və kollektiv dincəlmək məqsədilə ekskursiyalar təşkil etmək böyük effekt verərdi. Onu da qeyd etmək yerinə düşər ki, təkcə *"Qaraməmmədli"* istirahət mərkəzi 1993-cü ilin yayına – işğala qədər uzun illər füzulilərin istirahət etdikləri məkanlardan biri olmuşdur. Arazın sol qolu olan Köndələnçayın sahilində qərar tutan, Qaraməmmədli nəslinin adı ilə adlandırılan ***Qaraməmmədli*** kəndində (*6; s. 33*) hər il yay aylarında on minlərlə Füzuli sakinləri dincəlib istirahət edərdilər. Təbiətin bu gözəl yerlərini istirahət guşələri kimi yenidən bərpa etmək, çoxlu sayda ölkə daxili və xarici turistlərinin bu yerlərə səfər etmələrinə gətirib çıxarardı...

Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə: III c. Bakı, 1979, s. 61.
2. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə: I c. Bakı, 1976, s. 526.
3. Useynov M., Bretanitskiy L., Salamzade A., İstoriya arxitekturı Azərbaydjana. M., 1963, s.71.
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. 2 cilldə: I c. Bakı: Şərq-Qərb, 2007, s. 178.
5. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə; VI c. Bakı, 1982, s. 589.
6. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. 2 cilldə; 2 c. Bakı: Şərq-Qərb, 2007, s. 33.

РЕЗЮМЕ
ИСТОРИКО-КУЛЬТУРНЫЕ ПАМЯТНИКИ ФИЗУЛИНСКОГО РАЙОНА, НЕКОТОРЫЕ ОЙКОНИМЫ, ТУРИСТСКИЕ РЕСУРСЫ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ
Алиев Ш., Таптыгоглу (Велишов) Н.

***Ключевые слова**: этноним, экскурсия, туризм, могила*

В статье представлена информация об исторических, археологических и природных памятниках Физулинского района, являющегося частью Карабаха. Также говорится о развитии туризма в этом районе в будущем.

SUMMARY
HISTORICAL AND CULTURAL MONUMENTS OF THE FUZULI DISTRICT, SOME OIKONYMS, TOURIST RESOURCES AND DEVELOPMENT PROSPECTS
Aliyev Sh., Taptygoglu (Velishov) N.

***Keywords**: ethnonym, excursion, tourism, grave*

The article provides information about historical, archaeological and natural monuments of the Fuzuli district, which is the charming corner of Karabakh, as well as the development of tourism in the region in the future.

КАСПИЙСКАЯ ФЛОТИЛИЯ И БРАТЬЯ НОБЕЛЬ.

Гасанова С.К.
Институт истории, Баку, Азербайджан
kazimovar@mail.ru

***Ключевые слова**: Баку, нефть, братья Нобель, рабочий класс, медицинское обслуживание*

Наряду с общим развитием нефтяной промышленности были достигнуты крупные успехи также и в области транспортировки нефти и её продуктов. Перевозка нефти по железной дороге в вагонах-цистернах, значительно уменьшила транспортные расходы. Для этого необходимо было наладить дело и с дальней перевозкой нефти. Для торговли нефтью внутри страны и за границей, в 1883 г. была проведена Закавказская железная дорога. Большое значение для роста нефтяного производства наряду со строительством Закавказской железной дороги, завершённым 1883 году, имело появление наливных судов на Каспии.

Впервые в мире перевозку нефти и её продуктов наливом в судах осуществили в 1873 году астраханские купцы братья Артемьевы Н.И. и Артемьевы Д.И. долгое время занимавшиеся перевозкой нефтяных грузов из Баку в Астрахань.

Убедившись в выгодности перевозки нефти наливом бр.Артемевы реконструировали под налив нефтепродуктов все свои суда. Их опытом воспользовались бр.Нобель, по заказу которых в 1878 году в Швеции была построена первая наливная шхуна «Зороастр». Примеру фирму Нобель последовали и другие пароходные общества. Через десять лет на Каспийском море было уже 30 паровых наливных судов ёмкостью в 8,5 тыс., регистровых тонн.

Что же касается парусного флота, то Каспию здесь принадлежало первое место. Суда этого флота составляли 41,3% всего тоннажа парусных судов страны.

Значительна была роль Каспийского торгового флота в перевозках сухих грузов. Основными предметами перевозок являлись пшеница, рис, сахар, соль, фрукты, рыба, хлопок, мануфактура, лес, металл и изделия из него, стеклянные, фарфоровые и фаянсовые изделия и другие товары.

В 1900 году наливные паровые суда занимали довольно сильные позиции в составе парового флота Каспия. В целом нефтеналивной паровой флот в годы кризиса и в последующие годы находился в состоянии застоя.

Огромное значение в развитии морского транспорта на Каспии имел Бакинский порт. По своему географическому расположению он был важнейшим транспортным центром не только Азербайджана, но и всего Кавказа и Каспийского бассейна. Бакинский порт являлся важным пунктом транзитной торговли между губерниями Европейской России, Закавказьем, Средней, Азией, Ираном. Особенно большую роль приобрёл Баку с развитием здесь капиталистической нефтяной промышленности и увеличением вывоза нефти и её продуктов.

Благодаря широким масштабам вывоза нефти и её продуктов Бакинский порт по общему грузообороту занимал первое место среди всех российских портов не только Каспийского, но и Чёрного и Балтийского морей.

Помимо вывоза нефти, Бакинский порт занимал видное место в торговле с портами Каспийского моря и особенно с заграничными (иранскими), куда из Баку вывозились и поступали оттуда около 8 млн. пудов товаров в год.

Большую роль в морском транспорте Каспия в указанный период играли азербайджанские капиталисты, лишь незначительно уступая русским предпринимателям во владении, как общей численностью, так и грузоподъёмностью судов Каспийского торгового флота.

Одним из крупных судовладельцев являлось Т-во бр.Нобель. К концу XIX века этой фирме принадлежало на Каспии 11 наливных судов с чистой вместимостью 6,9 тыс. реч. т. Однако монопольное положение Т-ва бр.Нобель в Каспийском судоходстве определялось не только численностью судов, но и, по существу, командными позициями, которые занимало оно в перевозке нефтяных грузов по морю.

Газета «Каспий» в 1894 году писала: «Владея собственным наливным флотом, кстати сказать, уже окупившим свою стоимость, имея громадное количество нефтяных станций и резервуаров занявших все торговые центры России, перевозка керосина на внутренние рынки фирме (Т-ву бр.Нобель – Д.Г.) обходится почти задаром, в то время как другие фирмы приплачивают на фрахте и хранении товара».

Доля Т-ва бр.Нобель в общем вывозе нефтепродуктов морем из Баку на Волгу колебалась в пределах от 30 до 45% годичного вывоза. В феврале 1907 года фирмой было вывезено в Нижний Новгород 26 млн. пудов нефтяных остатков, что составляло 85% всего количества нефти, сделанной для перевозки в этом районе.

В начале XX века Т-ву принадлежал приоритет в техническом усовершенствовании во флоте. В 1903 году впервые в мире Т-вом бр.Нобель был применён двигатель Дизеля в качестве движущей силы на волжских судах, чем было положено начало для перехода в будущем и на Каспии от паровой тяги на тепловую.

Для таких фирм, как Т-во бр.Нобель и Об-во «Мазут», водный транспорт являлся важнейшим орудием в борьбе за господство на нефтяном рынке.

Переговоры между этими фирмами завершились в самом начале 900-х годов заключением карательного соглашения «Нобмазут», в соответствии с которым обе фирмы проводили согласованную торговую политику на внутренних рынках в целях полной монополизации сбыта нефтепродуктов и получения высоких прибылей.

Являясь, «хозяевами русской бакинской нефти», крупные монополии захватили командные позиции и в её транспортировке. Политика этих фирм ещё больше усугубляла тяжёлое положение, создавшееся в морском транспорте Каспия, и способствовало углублению возникшего в этой отрасли экономики кризиса, отражавшего одну из основных черт империализма.

Литература

1. Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной бакинской нефтяной промышленности. М., 1959, с.20.
2. Обзор бакинской нефтяной промышленности за 1900 г. Ч.2. Баку, 1901, с.357-358.
3. Отчёт начальника Бакинского торгового порта за 1909 год. Баку, 1910, с.6.
4. Обзор бакинской нефтяной промышленности за 1903 г., ч.1, с.442, 444.
5. Русский торговый флот. Список судов к 1 января 1901 г., с.9.
6. Приводится по: Фурсенко А.А. Указ.соч., с.55.
7. 30 лет деятельности Т-ва нефтяного производства бр. Нобель. 1879-1909, с.215-216.
8. Монополистический капитал в нефтяной промышленности России. 1883-1914. Документы и материалы, с.513.
9. ЦГИА СССР, ф.387, оп.1, д.212, лл.97 и об.
10. Газ. «Баку», №125, 13 июня 1906 г.

XÜLASƏ
XƏZƏR DONANMASI VƏ NOBEL QARDAŞLARI
Həsənova S.K

Açar sözlər: *Bakı, neft, Nobel qardaşları, fəhlə sinfi, tibbi xidmət.*

Azərbaycanda proletariatın formalaşması üçün ən mühüm mərkəz güclü kapitalist sənayesinin inkişaf etdiyi neft Bakısı idi. XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda fəhlə sinifi formalaşdı. Onun əsas özəyi və döyüşkən avanqardını Bakı proletariatı təşkil edirdi ki, bu zaman onların sayı 65-70 min nəfər idi. Dənizçilərin və matrosların iş şəraiti çox ağır idi. Dənizçilərin qidası zəif təmin olunurdu. Dənizçilərə tibbi xidmət son dərəcə aşağı səviyyədə idi.

SUMMARY
THE CASPIAN FLEET AND THE NOBEL BROTHERS.
Hasanova S.K.

Key words*: Baku, oil, Nobel brothers, working class, medical care.*

The most important center for the formation of the proletariat in Azerbaijan was oil Baku, where a powerful capitalist industry grew. By the end of the XIX and beginning of the XX centuries, a detachment of the working of people, was formed in Azerbaijan. The main core and fighting vanguard of it was the Baku proletariat, the number of which by this time was 65-70 thousand people. The working conditions of seafarers and sailors were very difficult. The food for seafarers was poorly supplied. The medical care for sailors was at an extremely low level.

XIX ƏSRDƏ ŞİMALİ AZƏRBAYCANDA TƏHSİLİN TARİXİNDƏN

Məmmədov Ə.F.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, t.f.d.
mammadovanvar1969@mail.ru

Açar sözlər*: Şimali Azərbaycan, Rusiya İmperiyası, qəza məktəbləri, təhsil, gimnaziya, ibtidai təhsil*

Qeyd etmək lazımdır ki, Azərbaycanda ilk məktəblər haqqında məlumatlar X əsrə aiddir. Orada zadəganların və ruhanilərin övladları təhsil alırdılar. Ərəb istilasından sonra (7-ci əsr) İslamı yaymaq üçün məscidlərin nəzdində məktəblər açılmışdır. X-XI əsrlərdə Təbriz, Naxçıvan, Bərdə, Gəncə, Şamaxı kimi bəzi iri şəhərlərdəki məscidlərdə mədrəsələr yarandı. Bu qurumlar savadlılığın təşviqində mühüm rol oynamış, orada Əbu-l-Əla Gəncəvi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Nəsimi, Füzuli, Vaqif və b. kimi tanınmış şair və mütəfəkkirlər təhsil almışlar. 1647-ci ildə Təbrizdə 47 mədrəsə və 600 məktəb, Şamaxıda isə 7 mədrəsə və 47 məktəb var idi [2, s. 168].

XIX əsrin 30-cu illərindən Cənubi Qafqazda, o cümlədən də Şimali Azərbaycanın müxtəlif yerlərində qəza məktəbləri açılmağa başlandı. Belə məktəblərin açılması üçün heç bir vəsait əsirgəməyən çarizmin Qafqazdakı hakimiyyət orqanları bununla yerli əhalinin ruslaşdırılmasını həyata keçirir, burada imperiyanın sadiq təbəələrini yetişdirirmək niyyətini güdürdü. İlk qəza məktəbi 1830-cu ildə Şuşada, sonra Şəkidə (1831), Bakıda (1832), Gəncədə (1833), Şamaxıda və Naxçıvanda (1837), Quba və Ordubadda (1856), Zaqatalada (1862) açılmışdır. 1870-ci illərə qədər bu məktəblərin sayı son dərəcə ləng artdı. Qeyd etmək lazımdır ki, bu məktəblərdə azərbaycanlıların sayı çox az idi [4, s. 145].

Bu məktəblərin bəziləri yerli əhalidən toplanan vəsait hesabına aparılırdı. Belə ki, Zaqatala dairəsində dairə rəisi Şelkovnikovun təşəbbüsü ilə XIX əsrin 70-ci illərində təşkil edilmiş sənət məktəbi hər evdən 40 qəpik yığmaqla yerli əhalinin hesabına açılmış bu məktəbdə artıq 90-cı illərin əvvəllərində üç müəllim və dülgər, dəmirçi, çilingər peşələrinə yiyələnən 40 şagird var idi. Məktəbin nəzdindəki nümunəvi meyvə bağları və barama açan müəssisənin gəliri ilə məktəbin bütün xərcləri ödənilirdi. Dairədə bağçılığın inkişafında sənət məktəbinin nəzdində fəaliyyət göstərən fermanın da xüsusi rolu olmuşdu [5, s. 41-42].

Rusiyada olduğu kimi Cənubi Qafqazda da məktəblər kilsə-prixod və dövlət (ministerskiye) məktəbləri olmaqla iki növə ayrılırdı. Araşdırılan dövrdə müsəlman uşaqlarının əksəriyyəti məscidlərin nəzdində açılmış məktəblərdə təhsil alırdı. Azərbaycanda fəaliyyət göstərən tədris müəssisələrinin əksəriyyəti məhz məscidlərin nəzdində təşkil olunmuş məktəblər idi. XIX əsrin sonuna doğru Bakı quberniyasında olan 245 bu tip məktəbdə 4915 nəfər (onlardan 64 nəfəri qız), Yelizavetpol quberniyasındakı 268 məktəbdə 4384 şagird (onlardan 145 nəfəri qız) təhsil alırdı [1, s. 269].

XIX əsrin sonlarında dövlət, özəl və dövlət məktəbləri ilə yanaşı, onların arasında yeni üsulla tədrisi ana dilində olan məktəblər də yaradıldı. Yeni üsulla məktəblərin təşkili hərəkatına tanınmış maarif xadimləri

H. Zərdabi, N. Vəzirov, M. Şahtaxtlı, S. Mehmandarov, A. Axverdiyev və başqaları rəhbərlik edirdilər. Nəticədə XIX əsrin sonu - XX əsrin əvvəllərində. Azərbaycanda 240-dan çox rus-azərbaycan məktəbi açıldı, bu məktəblərdə 837 şagird təhsil alırdı. Tədris rus dilində aparılan adi məktəblərdən fərqli olaraq bu məktəblərə yalnız azərbaycanlılar qəbul olunurdu və rus dili ilə yanaşı, Azərbaycan dili də böyük ölçüdə tədris olunurdu [1, s. 270-271].

Tədqiq olunan dövrdə fəaliyyət göstərən tədris müəssisələrindən biri də xüsusi ruhani məktəbləri olan mədrəsələr idi. Mədrəsələr də məscidlərin nəzdində təşkil olunmaqla məktəblərdən sonrakı pilləni təşkil edir və məktəbləri bitirən uşaqlar üçün ali dini təhsil vermək üçün nəzərdə tutulmuşdu. Təhsil müddəti 6-8 ildən 10-15 ilə qədər olan mədrəsələrdə ərəb dili, şəriət, ədəbiyyat, fəlsəfə, məntiq, psixologiya, islam dininin tarixi tədris olunurdu [3].

Cənubi Qafqazın yerli əhalisinin nümayəndələri arasından ibtidai sinif müəllimləri hazırlayan orta pedaqoji təhsil müəssisəsi olan Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası 1876-cı ildə açılmışdır. Seminariyanın nəzdində 1879-cu ildə açılmış Azərbaycan bölməsinin azərbaycanlı müəllim kadrların hazırlanmasında xüsusi rolu olmuşdur. 1918-ci ilə qədər fəaliyyət göstərmiş Seminariya Zaqafqaziya xalqlarının, o cümlədən Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamışdır.

Ədəbiyyat

1. Azərbaycan tarixi. 7 cilddə, V c. Bakı, 2000
2. Nuriyeva İ.T. Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Texniki Ali məktəblər üçün dərslik. Bakı: Elm və təhsil, 2019.
3. XIX əsrin ikinci yarısında Azərbaycanda mədəniyyət və milli-mədəni dəyərlər. https://sesqazeti.az/news/mia/319748.html
4. Ведомость о числе учащих и учащихся в учебных заведениях Кавказский Календарь на 1846 г. отд. 3-я, Тифлис, типография канцелярии наместника Кавказского, 1845
5. Кондратенко Е. Краткие статистические сведения о Закатальском округе. // Записки КОИРГО, кн. XIX, Тифлис, типографии: Груз. изд. Товаришества, Мартиросянца и Шарадзе, 1897, с.39-50

РЕЗЮМЕ

ИЗ ИСТОРИИ ОБРАЗОВАНИЯ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В XIX ВЕКЕ

Мамедов А.Ф.

***Ключевые слова**: Северный Азербайджан, Российская империя, уездные школы, образование, гимназия, начальное образование*

На Востоке всегда ценились образованные и знающие люди. К таким людям уважительно обращались как «мирза». Эта тенденция получила продолжение на мусульманском Востоке. «Учись от колыбели до могилы», — говорил Пророк Мухаммед. Пример тому – Низам-уль-Мульк, визирь Алп-Арслана, правитель государства Сельджуков, а позднее Маликшах, автор трактата «Правительственная книга», и Мирза Панах Вагиф, министр Карабахского хана Ибрагима, известный поэт. После оккупации Северного Азербайджана царской Россией в XIX веке колониальные власти провели определенные мероприятия в области образования. В статье рассматриваются работы царизма в этой области и их колониальный характер.

SUMMARY

FROM THE HISTORY OF EDUCATION IN NORTHERN AZERBAIJAN IN THE 19TH CENTURY

Mammadov A.F.

***Key words**: Northern Azerbaijan, Russian Empire, county schools, education, gymnasium, primary education*

Educated and knowledgeable people have always been valued in the East. Such people were respectfully addressed as "mirza". This trend has continued in the Muslim East. “Learn from the cradle to the grave,” said the Prophet Muhammad. An example of this is Nizam-ul-Mulk, the vizier of Alp-Arslan, the ruler of the Seljuk state, and later Malikshah, the author of the treatise “The Government Book”. Or Mirza Panah Vagif, minister of the Karabakh Khan Ibrahim, a famous poet. After the occupation of Northern Azerbaijan by Tsarist Russia in the 19th century, the colonial authorities carried out certain work in the field of education. The article deals with the works of tsarism in this area and their colonial character.

MÜASİR DÖVRDƏ SOSİAL MEDİANIN ELMİ YENİLİKLƏRƏ TƏSİRİ

Rzaquluyeva S.D.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
sosiologiya@mail.ru

Açar sözlər*: *cəmiyyət, elm, inkişaf, təhsil, sosail media, internet

Elmi müzakirələrin çaşqınlığı ictimaiyyətin gözü qarşısında üzə çıxanda başqa problemlər ortaya çıxır. Elm şərəflə özünü islah edən bir prosesdir. Şərhlərə yenidən baxılır və bəzən eksperimental nəticələrin yanlış olduğu aşkar edilir və nəticələr dəyişdirilir. Sistem həqiqətə getdikcə yaxınlaşmaq üçün yaxşı bir iş görür, lakin bu dəyişikliklərin qeydi, çox vaxt sosial mediada qeyri-müəyyən müddətə qorunur, gündəmə yönləndirilən etirazçılara elm adamlarının güman etdiklərini etdikləri zaman elm adamlarını fırıldaqçı kimi qələmə vermək üçün material verir.

Pandemiyadan çox əvvəl elm adamları sosial mediaya axın etməyə, fikir, düşüncə və məlumat paylaşmağa başladılar. Lakin pandemiyanın bir çox platformada, xüsusən də Twitter-də elm adamlarının görmə qabiliyyətini və əlaqəsini artırdığı danılmazdır. Bu elm üçün yaxşı və ya pis oldu? Cavab hər ikisidir.

Müsbət tərəfi odur ki, sosial media elmi suallar üzərində tez və şəffaf əməkdaşlıq etmək üçün yaxşı bir yol ola bilər və bu yolda bir çox görkəmli elm adamları ictimaiyyətə təqdim olunub. Bu, həm də zəhmətin təzyiqi və skeptik ictimaiyyətin yığıldığı zaman elm adamları üçün buxarı buraxmaq üçün yaxşı bir yoldur. Mənfi tərəfi odur ki, bu geniş açıq forumlar elmə xələl gətirməyə çalışan qüvvələrə debatları seçməyə imkan verir. "Science" jurnalının bu həftəki sayında "Elm və sosial media" ilə bağlı şərhlər elmi müəssisənin mərkəzinə çevrilmiş bu məsələləri araşdırır. Müəlliflərin aydınlaşdırdığı kimi, elm adamları, səhvən anlaşılmazlığa səbəb olmadan və hiper həyəcan trolları tərəfindən oyuna düşmədən mediadan səmərəli istifadə etmək üçün sosial medianın təsirinə və daxili işlərinə daha çox diqqət yetirməlidirlər.

Pandemiya bu gərginliyi gündəmə gətirib. Məsələn, Pensilvaniya Universitetinin Annenberq Ünsiyyət Məktəbindən Kathleen Hall Jamieson qeyd etdi ki, alimlər "maskalar işləyir" demək əvəzinə, "maskalar kömək edir" deməli idilər, çünki onlar COVID-19-un yayılmasının qarşısını tam ala bilmirlər. . Elmlə əlaqə saxlayanlar qətiyyətsiz görünmək qorxusundan mütləq şeylərə meyl edə bilərlər. Bununla belə, bir mübadilə var. İctimai yerlərdə istəklə maska taxan və COVID-19-u tutan bir antimasker bu faktı elmi konsensusun yanlış olduğuna dair sübut kimi sevinclə iddia edə bilər. Elmi ictimaiyyət bu dərsi öyrənməli olsa da, #MasksWork heşteqi hələ də Twitter-də qışqırır. Eynilə, #VaccinesWork həştəqi elm adamları üçün peyvəndin xəstəliyin şiddətini azaldan immunitet reaksiyasına səbəb olduğunu bildirir, lakin bəzi ictimaiyyət üçün bu, peyvəndin infeksiyanın tamamilə qarşısını alması anlamına gələ bilər. İndi antivaxxers şübhə səpmək üçün Omicron variantı ilə sıçrayış yoluxma hallarından istifadə edir.

Elmi müzakirələrin çaşqınlığı ictimaiyyətin gözü qarşısında üzə çıxanda başqa problemlər ortaya çıxır. Elm şərəflə özünü islah edən bir prosesdir. Şərhlərə yenidən baxılır və bəzən eksperimental nəticələrin yanlış olduğu aşkar edilir və nəticələr dəyişdirilir. Sistem həqiqətə getdikcə yaxınlaşmaq üçün yaxşı bir iş görür, lakin bu dəyişikliklərin qeydi, çox vaxt sosial mediada qeyri-müəyyən müddətə qorunur, gündəmə yönləndirilən etirazçılara elm adamlarının güman etdiklərini etdikləri zaman elm adamlarını fırıldaqçı kimi qələmə vermək üçün material verir. etmək.

Sosial mediada, xüsusən də pandemiya ilə bağlı sui-qəsd nəzəriyyələri çoxaldıqda, alimlər bəzən iddiaları ələ salmaq üçün yumoristik yazılardan istifadə edirlər. Şəxsi Twitter hesabımdakı ən yüksək nişan, şarlatan Scott Atlas (Prezident Trump-ın müşaviri idi) tvitində bir çox elm adamının ağır kəskin respirator sindromlu coronavirus 2 (SARS-CoV-2) yayılmasına imkan verən təhlükəli Böyük Barrinqton Bəyannaməsini dəstəklədiyi zaman baş verdi.) yayılma. Mən Atlasa cavab verdim və dedim: "Yox, onlar deyil. Mən bilərdim." Bu tvitin pandemiya ilə bağlı yazdığım hər şeydən qat-qat üstün olması - nüfuzlu araşdırmalar tərəfindən dəstəklənən şərhlər - insanların gərginliyi aradan qaldırmaq üçün nə qədər ac olduqlarını əks etdirir. Əlbəttə ki, bu cür mübadilələri kontekstdən çıxarmaq olar ki, bu da alimləri şübhəli ictimaiyyətlə əlaqədən kənarda göstərə bilər.

Əsas problem ondan ibarətdir ki, sosial media şirkətləri tərəfindən istifadə edilən alqoritmlər mötəbər informasiyanı fəal şəkildə cəsarətləndirir - fikir ayrılığı və qeyri-adi bəyanatlar daha çox əlaqə ilə nəticələnir. Bu məqam Brossard və Scheufele tərəfindən Perspektivdə ciddi şəkildə müzakirə olunur. Əksər elm adamları faktlara qarşı ictimai müqavimətin canlı sui-qəsd nəzəriyyəçiləri tərəfindən deyil, cansız alqoritmlərlə necə gücləndirilə biləcəyini qiymətləndirmir ki, bu da insanların məşğul olmağı seçdiklərini gücləndirir.

Bütün bunlarla bağlı nə etməli? Amerika Elmin İnkişafı Assosiasiyasının (Elmin naşiri) virtual illik toplantısında (17-20 fevral) mən bu problemlərin ön cəbhəsində olan dörd görkəmli alim və rabitəçi arasında müzakirəyə moderatorluq edəcəyəm. : Jane Lubchenco (Ağ Evin Elm və Texnologiya Siyasəti İdarəsi), Joelle Simpson (Uşaq Milli Xəstəxanası), Katherine Mack (Şimali Karolina Dövlət Universiteti) və Kathleen Hall Jamieson (Pensilvaniya Universiteti). Elmi ictimaiyyətin elmi daha yaxşı başa düşülməsinə və daha konstruktiv fikir mübadiləsinə kömək etmək üçün sosial medianın gücündən istifadə etmək üçün nə etməlidir.

Bir çox icmalarda bərabərsizliklərin bir çox növləri kimi, elmi kommunikasiya (SciCom) icmasının fikir liderləri "rəqəmsal uçurumu" tanımaq və azaltmaq üçün məsuliyyət daşıyırlar ki, çıxış, təhsil, gəlir və təsir sferasında bərabərsizlik maliyyələşdirilən tədqiqat növləri və həll edilmədikdə, bu boşluq daha da genişlənəcəkdir. Corctaun Universitetinin Sosial Təsir Ünsiyyəti Mərkəzi və Waggener Edstrom Worldwide bu yaxınlarda rəqəmsal olaraq məşğul olan Amerikalı yetkinlər arasında səbəb dəstəyi (yerli və qlobal səviyyədə) üçün qavrayışları, davranışları və motivasiyaları tədqiq etdi, bunun nəticələri müxtəlif sosial-iqtisadi icmalar üçün çox ibrətamiz fikirlər ola bilər. kimi az təmsil olunan tədqiqat səbəbləri üçün vəsait toplamağa çalışırlar; transseksual, lezbiyan, gey və biseksual sağlamlıq, uşaqların psixi sağlamlığı, yemək pozğunluğu, intihar, miqren. Məhdud sferaları olan alimlərə və ya qeyri-kommersiya elmi-tədqiqat institutlarına ianə verənlərin motivasiyaları və maneələri ilə bağlı təlimatların verilməsi (skeptisizmin azaldılması, şəxsi məlumatların toplanmasının minimuma endirilməsi, şəffaflığın artırılması, o cümlədən səbəbin oflayn komponenti, nəticələrin effektiv şəkildə ötürülməsi). təsir və kifayət qədər təmsil olunmayan səbəblər bu kampaniyaların uğuruna böyük təsir göstərə bilər.

Digər mübahisəli məqam isə qadınların tarixən kifayət qədər təmsil edilməməsi və onların STEM sahələrində araşdırmalarının kifayət qədər maliyyələşdirilməməsidir. Son təhlillər göstərir ki, qadınlar sosial şəbəkələrdən daha effektiv şəkildə davamlı "vızıltı" dalğası yaratmaq üçün və kampaniyalarını irəli aparan emosional, müsbət və canlı dildən istifadə etməklə kraudfanding kampaniyalarında üstün olurlar.

Ədəbiyyat

1. Charles T. Science and Society: The Role of Long-Term Studies in Environmental Stewardship
2. Miedema F.. Open Science: the Very Idea
3. https://en.unesco.org/themes/science-society

РЕЗЮМЕ

ВЛИЯНИЕ СОЦИАЛЬНЫХ СЕТЕЙ НА НАУЧНЫЕ ИННОВАЦИИ В СОВРЕМЕННУЮ ЭПОХУ

Рзагулиева С.Д.

Ключевые слова: *общество, наука, развитие, образование, социальные сети, интернет.*

Когда путаница научных дебатов выставляется на всеобщее обозрение, возникают другие проблемы. Наука – это благородный самокорректирующийся процесс. Интерпретации пересматриваются, и иногда экспериментальные результаты оказываются неверными, и результаты меняются. Система делает все возможное, чтобы все ближе и ближе подобраться к истине, но отчеты об этих изменениях часто сохраняются в социальных сетях на неопределенный срок, давая протестующим, движимым повесткой дня, материал, чтобы заклеймить ученых мошенниками, когда они делают то, что предполагают.

SUMMARY

THE IMPACT OF SOCIAL NETWORKS ON SCIENTIFIC INNOVATION IN THE MODERN ERA

Rzaguliyeva S.D.

Keywords: *society, science, development, education, social media, internet*

When the confusion of the scientific debate is exposed to the public eye, other problems arise. Science is an honorably self-correcting process. Interpretations are revised and sometimes experimental results are found to be incorrect and results are changed. The system does a good job of getting closer and closer to the truth, but the record of these changes is often preserved indefinitely on social media, giving agenda-driven protestors material to label scientists as frauds when they do what they assume.

MÜASİR DÖVRDƏ FƏLSƏFƏNİN TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

Hacıyev O.Y.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
osmanhaciyev@mail.ru

Açar sözlər: *marksizm-leninizm fəlsəfəsi, müasir fəlsəfə, tədris, tələbə gənclər, dünya fəlsəfəsi, Azərbaycan milli fəlsəfəsi*

Sovet dövründə totalitar dövlətin rəsmi ideoloji nəzəriyyəsi kimi zorla təqdim olunan marksizm fəlsəfəsi sinfiliyə, ehkamçılığa əsaslanan nəzəri sistem idi. Sovet marksizm fəlsəfəsi Marks, Engels, Lenin, XX əsrin 30-50-ci illərində isə Stalinin cəmiyyət, siyasət və iqtisadiyyat haqqında baxışlar sistemi və fikirləri əsasında formalaşmış materialist dialektik, eklektik nəzəriyyə idi.

"Sovet materializmində hər şey maddinin törəməsi elan olunduğundan əslində maddi ilə mənəvi arasındakı fərq və əlaqə məsələləri son dərəcə dolaşdırılaraq, anlaşılmaz bir məzmun kəsb etmişdir." [6, s.13]

Bütün sovet təhsil sistemində marksizm fəlsəfəsi məcburi fənn kimi tədris olunurdu. Sovet marksizm fəlsəfəsində varlıq materiyadan geniş anlayış olmasına baxmayaraq bütün sahələrdə materiyaya üstünlük verilirdi. Marksizm fəlsəfəsi Hegelin idealist dialektikasını başı üstə çevirərək "yeganə materialist elmi metod" olan marksist dialektikanı tarixi proseslərə tətbiq edirdi. Sovet fəlsəfəsi dinə insanda kütlük, fəaliyyətsizlik, yaradan amil kimi baxırdı. Marksizm fəlsəfəsi dialektik (təbiət və idrak haqqında təlim) və tarixi materializmdən (cəmiyyət haqqında təlim) ibarətdir. Materialist dialektikanın qanunlarını cəmiyyətə tətbiq edən tarixi materializm ictimai varlığı birinci, ictimai şüuru ikinci hesab edirdi. Bir sözlə, dialektik və tarixi materializm *" nə dünyanın, nə də insanın əsl mahiyyətini, onun dəyərini verə bilmirdi. Bu fəlsəfədə insan biososial varlıq olaraq yalnız bolşevik-materialist fəlsəfəsində öz həqiqi idealını tapmalı olan, bütün ruhu, düşüncəsi yalnız maddiliklə bağlı olan bir varlıq idi."* [6, s.16]

Marksizm fəlsəfəsinin əksər proqnozları düzgün olmadı, sinfi yanaşma, sinfi mübarizə problemləri cəmiyyətdə ziddiyyətlər yaratdı, təbii amillərə əhəmiyyət verilmədi. Akademik Y.Qarayevin fikrincə,*"Marksizmin "sinif mübarizəsi" haqqında 160 illik intriqa təlimindən ən çox milli yaddaş, mənəvi sərvət və dəyərlər zərər çəkdi"*[3, s.55].

Kor-koranə inkarçılığa əsaslanan marksizm fəlsəfəsi, sovet marksizm-leninizmi və Qərb marksizmi kimi inkişaf etdi. Lakin sovet rejimi dağıldığı kimi marksizm-leninizm fəlsəfəsinin bir çox ideyaları ya aradan qaldırıldı, ya da yenidən nəzərdən keçirildi.

Müasir dövrdə fəlsəfənin tədqiqi və tədrisi zamanı dünya fəlsəfə tarixinin təhrif olunmasına son qoyuldu, onun guya materializm və idealizmin mübarizəsi tarixindən ibarət olması fikri, dini inkar edən ateizm istiqaməti aradan qaldırıldı*." Ateizm buxovlarından azad olmuş dini şüur yeni inkişaf müstəvisinə keçir və nəticədə dinlə ideologiyanın, dinlə fəlsəfənin də yeni münasibətləri formalaşır; ictimai şüurda gedən bütün bu yeni proseslərin elmi-fəlsəfi təhlilinə ehtiyac yaranır."* [2, s.4]

Müasir fəlsəfədə insana xüsusi diqqət yetirilir. İndiki fəlsəfi məktəb və cərəyanların əksəriyyəti sovet cəmiyyətinin rəsmi siyasətini və ideologiyasını özündə əks etdirən marksizm-leninizm fəlsəfəsinə qarşı dururlar, onu ciddi tənqid edirlər.

Azərbaycan alimləri fəlsəfəyə aid yazdıqları dərs vəsaitlərində və əsərlərində dünya fəlsəfi fikrinə əsaslanmaqla Azərbaycan və Şərq fəlsəfəsini ön plana çəkir, problemi yeni metodlardan, müasir yanaşma üsullarından nəzərdən keçirirlər. Fəlsəfə elmləri doktoru İ. Məmmədzadə yazır*: "Köhnə anlayışlara yeni mənalar yükləməklə fəlsəfə mədəniyyətin bir bütövlük və sistem kimi dərkini modelləşdirmiş olur."* [4, s.7] Deməli, müasir fəlsəfənin mədəniyyətin tərkib hissəsi olan anlayışları yeni məna kəsb edərək bilavasitə insan şüuruna təsir edir.

Müasir fəlsəfə ictimai və humanitar elmlər arasında əlaqələndirici vasitə rolunu oynayır. Ateist marksizm-leninizm fəlsəfəsindən fərqli olaraq müasir fəlsəfə, din, elm, mədəniyyətlə qovuşur. Rusiyalı alim A.A.Hüseynov bu fikri əsaslandıraraq yazır*: "Fəlsəfə ... elmlə din arasında yerləşərək ... varlığın idrakda aşkarlanan başlanğıclarını insani mövcudluğun normativ proqram keyfiyyətində formalaşdırılan son məqsədləri ilə birləşdirir."* [7, s.5]

Fəlsəfə fənnlərarası metodologiya, milli ideologiya, tarixlə sıx qarşılıqlı əlaqədədir. Bu baxımdan İ. Məmmədzadə üç aspekti diqqətə çatdırır:

"1) Azərbaycanda ölkənin modernləşdirilməsi kontekstində ictimai elmin müasirləşdirilməsinin yolları və təmayülləri;

2) Beynəlxalq elmi əməkdaşlıq və effektivlik;

3) İctimai elmlərdə fənnlərarası tədqiqatlar və dialoq fəlsəfəsi." [4, s.126]

Hazırda ictimai və humanitar elmlərin, o cümlədən fəlsəfənin islahatı zərurəti ortaya çıxır.

Müasir fəlsəfənin tədrisinin aktual problemindən biri də bu elm sahasində fənnlərarası tədqiqatların metodologiyasına ciddi diqqət yetirilməsidir. Azərbaycan alimləri öz fəlsəfi əsərlərində tədqiqatları aşağıdakı istiqamətlərdə aparırlar:

"1) İnformasiyalaşdırma və ya ictimai elmlərin nəticələrinin yoxlanılan olması;

2) etika, bioetika, elmin idarə olunması, elmin və mədəniyyətin fəlsəfi problemlərinə müraciət edilməsi;

3) milli ideologiya və liderlik, milli və vətəndaş identikliyi, siyasi etika problemlərinin öyrənilməsi;

4) ictimaiyyətşünas alimlərin diqqətinin dialoq fəlsəfəsi mövzusuna cəlb edilməsi;

5) intellektual mülkiyyət məsələlərinə maraq ." [9, s.41]

Bir sözlə, qloballaşma və modernləşmə prosesi fənnlərarası tədqiqatların dialoq fəlsəfəsinin öyrənilməsinə təsir edir.

Fəlsəfi yanaşma bütün fənnlər üçün zəruridir. Fənnlərarası tədqiqat mədəniyyətinin aktuallığı və müasirlik bir-birlərini tamamlayır. Bu təbiidir. Çünki yalnız fəlsəfə müasirlik, mədəniyyət və tarix haqqında tam və bütöv təsəvvür yaratmaq qabiliyyətinə malikdir

Bu gün Azərbaycanda ali məktəblərdə müasir fəlsəfəyə aid aşağıdakı dərsliklər və dərs vəsaitləri tədris olunur: Fəlsəfə. Ensiklopedik lüğət.(Bakı, 1997), Fəlsəfə (Ali məktəblər üçün dərs vəsaiti). (Bakı, 1999), V. Paşayev Fəlsəfə. (Bakı, 1999), 1999-cu ildə BDU-nun nəşriyyatında akademik Z.Məmmədovun tərtib etdiyi "Şərq fəlsəfəsi" (IX-XII əsrlər) (Bakı, 1999), M.Fərhadoğlu Fəlsəfənin əsasları (dərs vəsaiti). (Bakı, 2006,), S.S. Xəlilov fəlsəfə: tarix və müasirlik (Fəlsəfi komparativistika) (Bakı, 2006), Y. Rüstəmov Fəlsəfənin əsasları (dərs vəsaiti). (Bakı, 2007), A. Şükürov Fəlsəfə (Ali məktəblər üçün dərslik). Yenidən işlənmiş və təkmilləşdirilmiş ikinci nəşri (Bakı, 2008), Z. Bağırov Fəlsəfə (sxemlərdə). Dərs vəsaiti (bakalavr hazırlığı üçün) (Bakı,2009), H.İmanov Fəlsəfənin əsasları (Bakı, 2010), R.Mehdiyev Fəlsəfə (Ali məktəblər üçün dərs vəsaiti). (Bakı, 2010), Z. Hacıyev Fəlsəfə (Ali məktəblər üçün dərslik) (Bakı,2012), A. Nəzərova Fəlsəfə terminlərinin izahlı lüğəti. (Bakı, 2014), Azərbaycan alimlərinin tərcümə etdikləri əsərlər fəlsəfə elmləri doktoru A.Əsədovun rus dilindən tərcümə etdiyi norveçli filosoflar Q.Skirbekk, N.Gilyernin "Fəlsəfə tarixi", fəlsəfə üzrə fəlsəfə doktoru F.Cəbrayılovanın rus dilindən tərcümə etdiyi V.A.Kankenin "Fəlsəfə" (dərs vəsaiti) kitabları müasir fəlsəfi problemlərin tədrisinə həsr olunmuşdur.

S.Xəlilovun "Baxış bucağı. Fəlsəfi publisistika", "Fəlsəfə: tarix və müasirlik", "Mənəviy-yat fəlsəfəsi", "Lider. Cəmiyyət. Dövlət", "Şərq və Qərb: ümumbəşəri ideala doğru" əsərləri, İ.Məmmədzadənin "Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallağı haqqında", "Etikaya giriş" "Əxlaqın şərhi", Z.Ağayevanın "Mənəvi dəyərlər və sosial gerçəklik", A.Şirinovun "Sosial zaman və məkan", A.Əsədovun "Anqlo-Amerikan fəlsəfədən etüdlər: anqlo-amerikan fəlsəfədə idealın və reallığın münasibətlərinə dair", R.Həsənovun "Georq Vilhelm Fridrix Hegelin ruh fəlsəfəsi, X.Quliyevanın "Azərbaycan maarifçiliyində fəlsəfi-etik məsələlər" əsərləri fəlsəfənin tədrisi zamanı əlavə materiallar kimi istifadə olunur.

Təhsilin indiki mərhələsində yeni fəlsəfənin tədrisinə ehtiyac yarandı. Tədqiqatçılar tələb edirlər ki, fəlsəfi, təbiətşünaslıq, sosioloji, psixoloji, pedaqoji təlimlərdə ən qədim zamanlardan başlayaraq bu günə qədər mövcud inkişafın ümumiləşdirilməsi məqsədəuyğundur. Bilik və yanaşmaların bu cür inteqrasiyası, ilk növbədə, ontoloji və metodoloji ideya və konsepsiyalar səviyyəsində fəlsəfə tərəfindən həyata keçirilməlidir. Fəlsəfənin bir sistem kimi öyrənilməsi aşağıdakılar nəzərə alınmaqla aparılmalıdır:

- özünütəşkil proseslərinin baş verdiyi mürəkkəb sistemdə fəlsəfənin xüsusiyyətləri;
- ümumən bütün sivilizasiyanın və xüsusən də fəlsəfə elminin müasir vəziyyəti ilə əlaqədar olaraq onun təkamülü;
- müasir fəlsəfənin öyrənilməsinin və onun ictimai şüurda, təhsil prosesində mədəniyyətin digər formaları ilə sıx əlaqədə əks olunmasının yekun prakseoloji nəticələri.

Müasir fəlsəfənin tədrisi dövlət və qlobal xarakterli indiki sosial-mədəni proseslərə və onların hazırkı cəmiyyətin sferasına əks olunmasına uyğun olmalıdır. Üstəlik, bu prosesləri fəlsəfi izahat baxımından təhlil etmək lazımdır. 20-ci əsrin sonlarında köhnə həyat yönümləri, fəlsəfənin köhnə naturalist, metafizik və subyektivist münasibətləri aradan çıxarılmağa başlandı. Bu, fəlsəfi fikrin azadlığına, klassik fəlsəfədən kənar yeni istiqamətlərin inkişafına yaradıcı təkan verdi.

XX əsr mədəniyyətində eyni vaxtda iki xarakterik proses baş verir: fəlsəfənin diferen-siasiyası, onun sonrakı ixtisaslaşması, fəlsəfi cərəyanların və ideyaların plüralizmi. Fəlsəfənin diferensiallaşması elm, mədəniyyət, təhsil fəlsəfəsinin yaranmasına gətirib çıxartdı və digər sahələr onun parçalanmasına və bütövlüyünün itirilməsinə səbəb oldu. Ona görə də fəlsəfi problemin həlli fəlsəfi irsin işlənməsini, yenidən şərhini, metafəlsəfi əksini tələb edir. Yeni post-klassik təhsilin və dünyanın yeni mənzərəsi olan

dünyagörüşünün yaradılması problemi müasir fəlsəfənin bütün sahələrinin əhatə olunmasını, onun müxtəlif cərəyanlarının məhsuldar ünsiyyətini, eləcə də yeni transdissiplinar tədqiqat sahələrinin əsasında ünsiyyətə daxil olan müxtəlif elmlərin inkişafının yaradılmasını tələb edir.

Postmodern fəlsəfə "anti-təhsil və "anti dünyagörüşü" niyyətlərinə görə təhsilin fəlsəfi əsası sayıla bilməz. Biz postmodern mədəniyyətin xüsusiyyətlərini və əlamətlərini, onun estetikasını (dəyərlərin və mənaların radikal plüralizmi, həqiqət anlayışına konstruktivist yanaşma, kommunikasiya şəbəkələrinə ardıcıl münasibət) nəzərdən keçirdikdə aydın olur ki, bu təkcə fəlsəfi mədəniyyət tərəfindən nəzərə alınmamalıdır. Hazırda postmodern təhsil də meydana gəlir. Lakin postmodernizmə istənilən münasibətlə *"XX əsrin fəlsəfi nəticələrini ümumiləşdirməyin ilk vəzifələrindən biri postmodern sonsuzluğunu dəf etmək, nihilizmin öhdəsindən gəlməyə qadir olan bir növ mənəvi antitellər hazırlamaqdır. Görünür, bu vəzifəni fəlsəfənin məna yaradan aspektlərinin qurulması və fəlsəfənin dünyəviləşdirilməsi, onun fərdi və ictimai şüurun praktiki təbəqəsinə qaytarılması əsasında həll etmək olar"* [8, s.6]. XX əsrin astanasında bəşəriyyətin intellektual dairələrinin artan narahatığı bir-birinə bağlıdır.

Azərbaycan fəlsəfənin tədrisi sahəsində Avropa standartlatına uyğunlaşmaq istəsə də, lakin bu sahədə sovet qaydalarından kənara çıxa bilmir. Bununla da elmin, o cümlədən fəlsəfənin ümumdünya meyarlarından və dünya tərəfindən qəbul olunmuş fəlsəfi dəyərlər sistemindən yayınma halları baş verir.

Müasir Azərbaycan fəlsəfəsinin tədrisi zamanı Qərb fəlsəfi fikrinə, Şərq müsəlman fəlsəfəsinə, kommunist ideologiyasından azad MDB elmi fəlsəfəsi əsərlərinə istinad edilir.

Azərbaycan fəlsəfəsi öz spesifikliyi ilə fərqlənir. Çünki, bu fəlsəfə ümumbəşəri və milli ideyaların inkişafına töhfə verir. Müasir fəlsəfi sistem yaratmaq çətin problemdir. *"Fəlsəfənin rolu və əhəmiyyəti" haqqında danışarkən müxtəlif fəlsəfi nəzəriyyələrə aid məlumatlar, fəlsəfi biliklər sistemi ilə yanaşı, fəlsəfi düşüncə qabiliyyətinin formalaşması məsələsi nisbi müstəqil bir vəzifə kimi ayrılıqda nəzərdən keçirilməlidir"* [1, s.96].

Fəlsəfi təlimin elm, din, incəsənət, əxlaq, siyasət, hüquq və s. ictimai şüur formaları ilə müqayisəsi mühüm əhəmiyyət kəsb edir. Ümumdünya fəlsəfə elmləşmiş fəlsəfə kimi çıxış edir. Fəlsəfə həm də digər elmlərin metod və formalarından istifadə edir.

Azərbaycan fəlsəfəsinin tədrisi zamanı fəlsəfi, ictimai və humanitar fənlərlə sıx əlaqə yaradılır. Fəlsəfə və fəlsəfə tarixinin əlaqələri daha da möhkəmləndirilir. Hazırda sosial fəlsəfə mühüm əhəmiyyət kəsb edir. *"Əlbəttə, bu gün sosial fəlsəfə ilə yanaşı cəmiyyət sosiologiya, siyasi elmləri və s. də mənimsəyir"* [5, s.29]. Lakin o da aydındır ki, fəlsəfə yalnız sosial fəlsəfədən ibarət deyil və müasir fəlsəfə yeni informasiya cəmiyyəti, bir çox ictimai və humanitar elmlər ilə də sıx bağlıdır.

Beləliklə, müasir fəlsəfə marksizmin ehkamlarından azad olaraq, alimlərin həqiqət axtarışlarına, elmi obyektivliyə, ümumbəşəri və milli dəyərlərin vəhdətinə əsaslanaraq tədris olunur, gənc nəsildə müstəqil fəlsəfi düşüncə formalaşdırır.

Ədəbiyyat

1. Xəlilov S.S.Baxış bucağı. Fəlsəfi publisistika. -Bakı: Elm və təhsil, 2010,-256 s.
2. Xəlilov S.S. Fəlsəfə: tarix və müasirlik (fəlsəfi komparativistika). -Bakı: "Azərbaycan Universiteti" nəşriyyati, 2006, - 420 səh.
3. Qarayev Y. Müstəqillik dövrünün milli öndəri// Y.Qarayev seçilmiş əsərləri. 5 cilddə, V cild. -Bakı: Elm, 2016, -s.9-67
4. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar, təmayüllər, perspektivlər. Bakı: Təknur, 2012, -216 s.
5. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında.-Bakı: Təknur, 2009,- 226 s.
6. Şirinov A. Ə. Sosial fəlsəfə və sosial gerçəklik. Bakı: Qanun, 2008, -340 s.
7. Гусейнов А.А. Философия между наукой и религией // Вопросы философии, 2010, №8, с.4-11
8. Канке, В.А. Основные философские направления и концепции науки. Итоги XX столетия. - Москва: Логос, 2000. -320 с.
9. Мамед-заде И. Модернизация, гражданское общество в Азербайджане и проблемы информационной культуры // İncəsənət və mədəniyyət problemləri. 2009, №4 (30), s.32-56

РЕЗЮМЕ
АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ ФИЛОСОФИИ В СОВРЕМЕННУЮ ЭПОХУ
Гаджиев О.Ю.

Ключевые слова: *философия марксизма-ленинизма, современная философия, образование, студенческая молодежь, мировая философия, национальная философия Азербайджана*

В статье говорится об успехах и проблемах, возникших в области преподавания современной национальной философии в освободившемся от философии марксизма-ленинизма независимом Азербайджане. Студенты изучают отношения человека и мира в философии, вклад современной азербайджанской национальной философии в мировую философию и систему общечеловеческих философских ценностей, а также актуальные проблемы преподавания философской мысли в нашей стране. Национальная философия Азербайджана влияет на формирование процесса национального самосознания народа, обосновывает новое общественное сознание с философско-теоретической стороны. Прежде всего национальная философия пересматривает мировоззренческие и нравственные ценности, освобождает их от влияния марксисткой философии.

SUMMARY
ACTUAL PROBLEMS OF TEACHING PHILOSOPHY IN MODERN AGE
Hajiyev O.Yu.

Key words: *Marxism-Leninism philosophy, modern philosophy, education, student youth, world philosophy, national philosophy of Azerbaijan*

The article talks about the successes and the problems that have arisen in the field of teaching modern national philosophy in independent Azerbaijan freed from the philosophy of Marxism-Leninism. Students are taught the human-world relations in philosophy, the contributions of modern Azerbaijani national philosophy to world philosophy and the system of universal philosophical values, and the actual problems of teaching philosophical thought in our country. The national philosophy of Azerbaijan affects the formation of the process of national self-awareness of the people, it justifies the new social consciousness from a philosophical-theoretical aspect. First of all national philosophy revises philosophical and moral values, frees them from the influence of Marxist philosophy.

ÇİN FİLOSOFLARININ TƏLİMLƏRİNDƏ MUSİQİ ESTETİK TƏSƏVVÜRLƏR

Qəniyeva A.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
afaqgeniyeva79@gmail.com

Açar sözlər: *fəlsəfə, musiqi, estetik, insan, təbiət, cəmiyyət*

Təbiəti mükəmməl hesab edən qədim Çin filosofları insanın və cəmiyyətin təkmilləşməyə ehtiyacı olduğunu qeyd edirdilər. Məhz belə bir cəmiyyətdə musiqinin funksiyası və mahiyyətinə baxış formalaşmağa başlayırdı. Mükəmməl təbiətə uyğun musiqinin yaradılması vacib şərt idi və o insanın və cəmiyyətin təkmilləşdirilməsinə xidmət etməli idi. Burada ümumi baxış iki əsas fəlsəfi-dini cərəyanda daosist və konfutsionçuluqda müxtəlif modifikasiya və təzahürə malik olmuşdur.

Qədim Çində musiqi müxtəlif etnik birliklərin intensiv qarşılıqlı təsirinin nəticəsidir. Çin etnogenezini araşdıran tədqiqatçılar qeyd edirlər ki, "Mədəniyyət etnosun vacib əlamətlərindən biridir. Eyni zamanda ictimai birliklərin qohumluq əlaqələrinin inkişaf etdiyi ekoloji şəraitin praktikliyi ilə izah olunur." [1]

Çin musiqisi ilkin inkişaf mərhələlərində magik, simvolik, natur fəlsəfi və kosmoloji formalarda qavranılmışdır. Məsələn, dao mifologiyasında musiqiçilərin hamisi 8 ölməzədən biri olan Lan Tsay hesab edilirdi. Mifə görə bir dəfə o, göl kənarında rəqs edən zaman səmada bir durna görünür və fleyta alətində musiqi səslənir. O andan etbarən o göyə qalxır və gözdən itir.

Eradan əvvəl konfutsiçilik yayıldıqdan sonra musiqi daha da geniş ictimai əhəmiyyət kəsb etməyə başlamışdır. Konfutsionçuluğun iki əsas kateqoriyası "li" (ritual) və "jen" (humanistlik) musiqi estetikasına daxil olmuşdur. Konfutsionçuluqda əsas məsələlər etika, əxlaq və dövlət idarəçiliyi məsələləri idi. Konfutsi və onun davamçıları üçün musiqinin vəzifəsi hır şeydən əvvəl dövlətin düzgün quruluşuna xidmət etməkdən ibarətdir və bu baxımdan gözəl musiqi müəyyən ciddi struktura malikdir.

Konfutsionçu Syun Tszının fikrincə mükəmməl müdrik olan yalnız musiqini deyil, insanın və cəmiyyətin həyatında musiqinin əhəmiyyətini dərk edə bilir. Musiqi müdrik adamların sevinc mənbəyidir. Konfutsionçuluqda musiqi ilə birlikdə estetika, etika, psixologiya, pedaqogika. Siyasət, dövlət idarəçiliyi əlaqələndirilmişdir. Bu təlimdə musiqi fəaliyyətinin yaradılmasından tətbiqinə qədər ciddi dövlət reqlamentasiyası nəzərdə tutulur Musiqi başlıca olaraq insanların şüur və davranışlarının idarə olunmasının

vasitəsi kimi başa düşülür. Konfutsionçuluqda musiqinin sosial funksiyasına ictimai harmoniyanın bərqərar edilməsi vasitə kimi istifadə edilirdi.

Çin fəlsəfəsinin ən mühüm anlayışlarından biri olan *dao* daosizmin əsas anlayışıdır. Lao Tszı fəlsəfəsində *dao* təbiətin insan cəmiyyətinin davranışını, təfəkkürün hər yerdə fəaliyyət göstərən təbii qanunudur. Daosizmdə ilkin yerdə təbiətlə insanın harmonik olaraq dao-nu kainat həyatının sirrli bütövlüyünü təcəssüm etdirən cəhətlər dayanır. Bu cərəyanda təbiət haqqında təlim də əsas yerdə dayanır və digər cəhətlər- sosial qnesoloji və estetik təlimlər isə ilkin təlimlərdən yaranır.

Daosist mütəfəkkirlərə əsasən musiqi insanın daxili aləmi ilə ayrılmazdır. Həmçinin insan qəlbinin mistik fikirləri ilə də bağlıdır. Daosizmə görə insan həyatında musiqinin rolu, funksiyası ikili xarakter daşıyır.Musiqinin ikili finksiyası dedikdə bir tərəfdən insani hisslərin ifadəsi, digər tərəfdən insana və təbiətə böyük təsir göstərmək nəzərdə tutulur. Filosof-şairlərdən Su Şi (XI əsr) və İn Şao (XII əsr) musiqini "mükəmməl müdrik", xeyirxah insanın xarakterinin ayrılmaz elementmləri sırasına daxil etmişlər. Daosist Cjuan Tczının fikrincə insansevərlik, ədalət prinsipi xeyirxahlığın əsası hüsab edilirsə, ritual davranışın forması, musiqinin harmoniyasını, sevgi və yaxşılığı üstün tutursa həmin adam xeyirxah adam hesab olunur [2].

Daosizmdə musiqinin psixoloji funksiyası daha vacib hesab edilirdi. Onlar şəxsiyyətin harmoniyasını əldə etmək üçün əsas vasitə kimi musiqini qeyd edirdilər. Musiqi təhsilin zirvəsi, humanistliyin əsası, kamil müdrüklüyün mühüm atributu hesab edilirdi. Daosizmin diqqət mərkəzində insan və təbiət dayanırdı, burada musiqinin fərdi psixoloji funksiyası şəxsiyyətin ruhi harmoniyasının əldə edilməsi vasitəsi kimi istifadəsi mühüm əhəmiyyət kəsb edir. Musiqi və cəmiyyətin (insanın) qarşılıqlı təsiri Çin musiqi estetikasının mərkəzi və əsas ideyalarından biridir. Çin cəmiyyətində musiqini mənəvi tərbiyənin açarı hesab edirlər.

Beləliklə qeyd edə bilərik ki, Çin fəlsəfəsində iki əsas cərəyan daosozm və konfutsiçilik olmuşdur. Buna əsasən də Çində musiqi estetik fikirlər qeyd olunan iki cərəyanın aparıcı ənənələrinin yolu ilə inkişaf etmişdir. Çin musiqi estetikasının aparıcı tendensiyası musiqinin naturfəlsəfi, kosmoloji və magik şərhdən və qavrayışdan praqmatik istiqamətli istifadəyə keçidlə ifadə olunur. Qədim Çin musiqi təfəkkür sistemi dini və fəlsəfi sistemlərlə sıx əlaqədar olmuşdur və özünün əsas cizgilərinə əsasən günümüzə qədər bütöv estetik sistem kimi saxlanılmışdır.

Ədəbiyyat

1. Abdullazadə G. Qədim və orta əsrlərin musiqi mədəniyyəti. Bakı. Qartal, 1996. 292s.
2. Древнекитайская философия. Т1. М., 1972. 361с.

РЕЗЮМЕ

МУЗЫКАЛЬНО-ЭСТЕТИЧЕСКИЕ ИДЕИ В УЧЕНИЯХ КИТАЙСКИХ ФИЛОСОФОВ

Ганиева А.А.

Ключевые слова: *философия, музыка, эстетика, человек, природа, общество*

В древнекитайской философии главной темой были взаимоотношения природы, человека и общества. Если мы рассмотрим вопросы музыкальной эстетики в китайской философии, то увидим, что многие из них эстетики основаны на общей космологической системе, основные концепции которой используются всеми школами и течениями с различными модификациями. Китайская музыкальная эстетика существовала с классического периода в виде двух основных конкурирующих систем – конфуцианства и даосско-буддийской.

SUMMARY

MUSICAL AND AESTHETIC IDEAS IN THE TEACHINGS OF CHINESE PHILOSOPHERS

Ganieva A.A.

Key words: *philosophy, music, aesthetics, human, nature, society*

In ancient Chinese philosophy, the main theme was the relationship between nature, human and society. If we consider the issues of musical aesthetics in Chinese philosophy, we will see that many concepts of musical aesthetics are based on a common cosmological system, the basic concepts of which are used by all schools and currents with various modifications. Chinese musical aesthetics have existed since the classical period in the form of two main competing systems - Confucianism and Daoist-Buddhist.

İCTİMAİ-SİYASİ PROSESLƏR VƏ İNSAN AMİLİ

Ağayev İ.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fil.f.d.
ismayil.agayev.66@mail.ru

Açar sözlər: *tarixi mövzu, insan amili, cəmiyyət, mənəvi dəyərlər, insan münasibətləri, düşüncə*

XX əsr Azərbaycan dramaturgiyasının tanınmış nümayəndələrindən biri olan İlyas Əfəndiyevin tarixi mövzulu dramları – "Mahnı dağlarda qaldı", "Sevgililərin cəhənnəmdə vüsalı" və "Tənha iydə ağacı" keçən əsrin mürəkkəb ictimai-siyasi hadisələrinə, müxtəlif siyasi çevrilişlərdən sonra Azərbaycanda olan ağır, dramatik dövrlərə həsr edilmişdir. Bu dramlar müxtəlif dövrlərdə yazılsalar da, bağlı olduqları mövzu və tarixi hadisələrin ardıcıllığı ilə tədqiq edildikdə XX əsrin əvvəllərində, sosialist çevrilişinin qələbəsindən tarix səhnəsindən silinməsinə qədər olan dövrdə xalqımızın yaşadığı faciələrə şahid oluruq.

İ.Əfənidyev yaradıcılıq prinsipinə sadiq qalaraq sosializmin daxili məzmununu göstərmək üçün həmin siyasi çevrilişin insanların münasibətlərində, həyatlarında, fikir və düşüncələrində yaratdığı dəyişikliklərdən, onun «alt qat»larının doğurduğu faciələrdən söhbət açmışdır. Cəmiyyət və onun ideoloji sistemi, siyasi sistemin doğurduğu mənəvi-əxlaqi sfera, insan taleləri və həyatları ilə bağlı verilmişdir. Yeni ideologiya ilə silahlanan insanların öz fikir və baxışlarındakı qətillik və amansızlıqları, bu ideologiyaya müxalif olan qüvvələrin öz əqidə və prinsiplərinə sadiqliyi, hər iki tərəfin öz əqidəsi, məsləki yolunda dönməzliyinin yaratdığı qarşıdurma, insan amilinin ideoloji prinsiplərlə izahı və belə münasibətlərdən faciəvi yaşantılar böyük ustalıqla təsvir edilmişdir.

Vahid və doqmatik ideoloji münasibətlərlə insanı, cəmiyyəti izaha cəhd, digər fikir və baxışları qəbul etməməklə mürəkkəb varlıq olan insanı, cəmiyyəti vahid sosializm ideologiyası ilə izah kəskin ziddiyyətlər doğurmuşdur. İnsanın mürəkkəb varlıq kimi özünəməxsus cəhətləri ilə qavranılmaması, ideoloji prinsipin insan amilindən, mənəvi-əxlaqi dəyərlərdən yüksək tutulması və bunun doğurduğu faciələr dramaturqun tarixi mövzulu dramlarında dolğun inikasını tapmışdır.

İnsanla mühitin bağlılığı dialektik xarakterdədir, mühit insanı, insan da mühiti dəyişdirmək qabiliyyətinə malikdir, bunlardan birini mütləqləşdirmk gerçəkliyi qeyri-obyektiv, qeyri-rasional izah deməkdir. Məhz bu baxımdan sosializm ideyalarının prinsipləri ilə gerçəkiyi, münasibətləri, xalqı izah etmək, müxtəlifliyi, şübhə və inkarı qəbul etməmək həmin ideologiyanın rasional prinsiplər üzərində qurulmadığını, qeyri-məqbulluğunu göstərdi, həmin ideoloji prinsiplərin yaşaması, qəbul edilməsi məntiqi düşüncə və idrak ilə deyil, qorxu, təzyiq, güc vasitəsilə ilə mümkün oldu. Təzyiq və qorxunun hakim olduğu cəmiyyətdə isə zülm, əzab, məhrumiyyət həmin cəmiyyətin ayrılmaz xüsusiyyətləri olur. Hər bir insan iki sferada mövcuddur, həm fərd kimi özünün fikir və baxışları, arzu, istəkləri ilə yaşayır, həm də cəmiyyət daxilində sosail mühitin əxlaq prinsipləri, qanunları ilə yaşamaq məcburiyyətindədir, bunların hər ikisi biri digərinə müxalif olub mübarizə şəraitində mövcuddur, hər ikisi: həm makromühit, həm də mikromühit dialektik münasibətdədir, ayrı-ayrılıqda da dialektik məzmundadırlar. XX əsrin 20-ci il siyasi çevrilişindən sonra yeni ideoloji prinsiplər milli xarakter və düşüncə, təfəkkür tərzini nəzərə almadan zor və təzyiqlə xalqın düşüncəsinə, dərk və fəaliyyət dünyasına yeridildi.

Azərbaycan xalqı kənardan yeridilən bu ideyaları qəbul etmək məcburiyyətində qaldı. Sosial mühit, yeni ideya və prinsiplər subyektiv dünyanın tələb və ehtiyacları ilə hesablaşmır, insanları, milləti iki cəbhədən birində, ya bolşevizm, ya da ona əks olan xalq düşməni cəbhəsində yaşamağa məcbur edirdi, birincilərə həyat, ikincilərə isə ölüm, sürgün, dəhşətli faciələr qismət olurdu. Yeni ideologiyanı qəbul edib onun qalibiyyəti üçün cəhd göstərənlər sürgün, ölüm dünyasının reallaşmasına, milli dəyərlərin, insan və şəxsiyyət amilinin məhvinə şərait yaradırdılar. Yeni ideologiyanın tərəfdaşları, müdafiəçiləri bir şəxsiyyət, insan kimi fərdi, özünəməxsus fikir və düşüncə tərzindən uzaqlaşır, mürəkkəb həyatı, gerçəkliyi fikir müxtəlifliyi prizmasından izahı qəti olaraq rədd edirdilər.

"Mahnı dağlarda qaldı"da İ.Əfəndiyev XX əsrin ilk onilliklərində Azərbaycanda baş verən siyasi dəyişikliklərdən, onun insanların həyat və baxışlarında, düşüncələrində buraxdığı izlərdən, törətdiyi faciələrdən söhbət açır, mürəkkəb siyasi mühiti insanların taleyi, həyatı, yaşantıları, mənəvi-ruhi dünyalarındakı dəyişikliklərin köməy ilə izaha çalışır. Həmin siyasi hadisələrdən sonra incəsənətdə, ədəbiyyatda əsas yeri kütlə, xalq obrazı tuturdu və bu siyasi sistemin ideoloji ptinsipləri ilə bağlı idi. Cəmiyyət və gerçəkliyin izahı zamanı kütlə baxışı və düşüncəsi əsas götürülərək fərdi düşüncə, fərdi dünya, subyektiv baxış və fikirləri isə ciddiyə alınmır, ya da heç yer verilmirdi.

Dramın əsas qəhrəmanı Nicat məhz kütlə mənafeyinin müdafiəçisi olub, yeni ideoloji baxışların daşıyıcısı, kütlə uğrunda vuruşan döyüşçüdür. Onun üçün əsas yeni ideoloji sistemin qalibiyyətidir, buna

mane olanlar isə düşmən, məhvə məhkum olanlar təbəqəsinə daxildirlər. Nicatın sosial mühitdə ideyaların təntənəsi uğrunda mübarizədə hər cür məhrumiyyətlərə dözməsi, ən ağır faciələrə səbəbkar olması onun fərdi dünyasını sosial zamana qurban verməsi kimi anlaşılır. Fərd kimi, düşünən insan və şəxsiyyət kimi daxili mübarizədən, təkamül və yeniləşmədən uzaqlaşması, milli-mənəvi dəyərləri ideoloji səmtdən izaha cəhd etməsi obrazın fikir və baxışlarını, düşüncə və təfəkkür dünyasını tam anlamağa imkan verir.

Fərdi dünyanın daxili təkamül və dəyişmələrindən, real mühit, zaman qarşısında daxili hesabatdan uzaqlaşma Nicatı kamil insan obrazı deyil, siyasi-ideoloji qurban kimi formalaşdırır. Fərdi baxışları, düşüncə və yanaşmaları, fikir müxtəlifliyini qəbul etməməklə Nicat Şahnazın şəxsiyyət və cəmiyyət haqqındakı fikirlərinə qarşı dayanır, Şahnazı öz fikir və düşüncəsindən, "sinfi"liyindən uzaqlaşmamaqda günahlandırır. Özü isə bütün insanlara, cəmiyyətə, milli-əxlaqi dəyərlərə digər sinfin – proletariatın prizmasından yanaşır, gerçəkliyi sinfilik baxışı ilə izaha çalışır. Mürəkkəb həyat, mürəkkəb insan və insan münasibətləri, dialektik məzmunda olan gerçəklik, bir sinfin baxış və prinsiplərinə sığa bilməz, gerçəklik sinfin fikir və baxışlarından daha geniş, daha mürəkkəbdir.

Şahnazın insan və insan ləyaqəti, şəxsiyyət haqqındakı fikirləri Nicatın və Böyük bəyin düşüncə və baxışlarına ziddir. Şahnazın fikrincə, hakimin məhkuma, məhkumun hakimə çevrilməsi cəmiyyət daxilində, ictimai münasibətlərdə harmoniya yarada bilməz, çünki hər iki münasibətdə insan amili unudulur, insana sinfi münasibətlərlə yanaşılır, insanın mənəvi dünyası, əxlaq və psixologiyası əsas götürülmürdü. Böyük bəylər xalqa çar Rusiyasının siyasəti və prinsipləri ilə yanaşırsa, Nicatlar xalqa, doğma yurda bolşevik Rusiyasının siyasəti və prinsipləri ilə yanaşırdılar.

Dramın ilk səhnəsində Nicatın Şahnaza münasibətində bütövlük vardır, o, Şahnazı sevir, təmiz hisslə onun zadəgan ailəsindən olmasına, sinfi ayrı-seçkiliyə baxmadan qəbul edir. Hiss və fikir arasında harmoniya vardır. Hətta Şahnazı götürüb qaçması Nicatın bir fərd kimi arzu və istəklərini gerçəkləşdirmək gücünə malik olduğunu göstərir. Nicatla social mühit arasında ilk konflikt başlanır, social mühit amansızlıqla gəncləri bir-birindən ayırsa da, Nicat oxucunun nəzərində yüksəlir. Şahnaz da müstəsna bir varlıqdır, onun üçün məhəbbət həyat, yaşam mənasındadır. Bu xarakterdə olan insanların qəlbindəki sevgi atəşi, alovu xatırladır, belə insanlar üçün orta yol yoxdur, onlar ya sevərək yaşayır, ya da sevgisi yolunda əzabı, ölümü qəbul edirlər. O, sevgisinin ləkələnməsinə, ülvi və pak sevgi dünyasının ahənginin pozulmasına dözə bilmir, bununla barışa bilmir. Məhz bu prinsip və mənəvi keyfiyyətlərlə yaşaması, daxili aləmində, sevgi və nifrətində olan bütövlük mühit tərəfindən qəbul edilmir. Fərdi zaman sosial mühitlə, bu mühitin reallaşdırdığı fikir və baxışlarla, münasibət dünyası ilə ahəng tapa bilmir. Böyük bəyi xilas etmək cəhdi, bunun uğursuzluqla nəticələnməsi, bu hərəkəti üçün cavabdehlik, daxilən Nicatla olan ayrılıqlar sanki Şahnazı yenidən yaradır, onda reallığa qarşı üsyan, qəzəb motivləri güclənir. Sosial mühitin hamı ilə etdiyi rəftarın onunla da edilməsinə dözə bilmir, belə münasibəti qəbul etmir, sosial zaman onun qarşısında iki yol qoyur: ya ona baş əyib yaşamalı, ya da həyat səhnəsindən çıxmalıdır. Şahnaz böyük cəsarətlə ikinci yolu seçir, bir fərd kimi baxışlarında olan bütövlüyə inamı, sədaqəti təsdiqləmək üçün özünü məhv edir, "Faciəvi qəhrəman heç bir vəziyyəti nəzərə almadan, öz dediyini həyata keçirtmək zərurətinə uyğun şəkildə hərəkət edir. Faciə qəhrəmanı fəaliyyət yönünü və məqsədini özü seçib azadcasına fəaliyyət göstərir". [1.71] Bu sadəcə ölüm deyil, mürəkkəb gerçəklikdə, ziddiyyətli zaman daxilində özünütəsdiqdir, fərdin mənəvi-əxlaqi və psixoloji keyfiyyətləri ilə səciyyələnən intihardır. Şahnaz üçün ölüm, intihar son silah mənasındadır. Göründüyü kimi, "İctimai zaman tarixi şərait isə heç nədən asılı olmadan spesifik qanunları, ziddiyyətləri, təsadüfləri, subyektiv və obyektiv tendensiyaları, bəzən heç bir insan məntiqiniə sığmayan döngələri ilə yaşayır. Fərdlə cəmiyyət, bioqrafik zamanla sosial zaman arasındakı bu qütbləşmə dünya ədəbiyyatının ən qədim mövzularından biridir". [2.38]

Nicat aldadılmışlar nəslinin nümayəndəsidr. O, Rusiya imperiyasının müstəqillik, azadlıq iddialarına inanıb vətəni imperiya əsarətinə təqdim edən İbrahim xanın XX əsrdəki mənəvi varisidir. Çar Rusiyasına inanan İbrahim xanın tarixdə yaşadığı faciələr, irica siyasəti, mənfur düşmənçiliklə dolu keçmiş Nicat kimi düşünənlərin fikirlərində, siyasi həyatlarında heç bir dəyişiklik yaratmır, Nicatlar eyni siyasi kələklər, siyasi aldatmalarla dolu yeni bolşevizm siyasətinin XIX əsrdən başlamış irtica siyasətinin davamı olduğunu anlamırlar. İbrahim xanı, ailəsini qan içində boğan imperiya yeni adla Azərbaycana gəlir, amansız faciələr, qanlar törədərək Nicatı hakim elan edir, bu imperiyanın adı dəyişmiş, daxili irtica məzmunu, siyasəti isə əvvəlkindən daha ağır və dəhşətli olmuşdur.

İmperiya siyasətinə aldananların sonrakı taleyi, imperiya əsarətində qalan Azərbaycanın ağır həyatı "Sevgililərin cəhənnəmdə vüsalı" faciəsində geniş və yüksək sənətkarlıqla təsvir edilmişdir. İbrahim xanın inamı, faciəsi, övladı Xurşidbanunun mübarizə dünyası ilə nəticələndi. Nicatın inamı nə ilə nəticələnəcək, o, dərin inam və ümidlə gözlədiklərini yeni imperiyadan ala biləcəkmi?

Bu faciədə Nicatın əqidəsini və fəaliyyət yolunu Səlim, Şahnazın baxış və fikirlərini Xumar davam etdirirlər. Səlim Nicatın başladığı siyasəti daha faciəli şəkildə, qeyri-insani prinsiplərlə reallaşdırır. Sinfi

ayrılıqlarla milləti parçalayan, cəmiyyəti sinfi münasibətlə idarə edən hüquq orqanları artıq insanların fikir və baxışlarına, düşüncələrinə müdaxilə edir, hakim ideologiyadan uzaq, ona müxalif düşünmək qadağan olunur, müxalif fikir və düşüncə sahibləri isə faciəli şəkildə öldürülür. Bu ideologiya artıq insanlara şəxsiyyət, ali varlıq kimi deyil, ideya daşıyıcıları kimi baxır, etiraz, fikir ayrılığı qəbul edilmir. Nicatın silahı, amorf məntiqi ilə irəliləyən bolşevizm Səlimin məhdud təfəkkürü ilə daha dəhşətli kabusa çevrilir. İdeoloji qalibiyyət zamanı öz qardaşını ölümə, məhvə verməyə hazır olan Nicatı artıq Səlim əvəz etmişdir, o, doğma qardaşı oğlunu ideologiyanın təntənəsi naminə soyuqqanlıqla məhv edir. Sosial zamanın itaətində olmaqla bərabər, Səlim düşünür, etdiyi cinayətləri anlayır, özünü əlinə ölüm silahı verilmiş başkəsən robota bənzədir. Açıq etirazdan qorxan Səlim daxilən tərəddüdlər içində yaşayır, yırtıcı təbiətindən dəhşətə gəlir. Mühit o qədər amansızdır ki, daxildə olan insani duyğuların, hisslərin xaricə yönəlməsinə imkan vermir, amansızlıq, cəlladlıq, vəhşicəsinə məhv etmək – bu bioloji instinktlər həmişə maneəsiz fəaliyyətdədir. Səlim anlayır ki, imperiya onun ilk qurucularını qan içində boğmuşdur, indi onun nəslinin – imperiya siyasətinə sadiq nökərlik edən nəslin qətl növbəsi gəlib çatmaqdadır, diktatura – qeyri-məhdud hakimiyyət özünə sadiq nökərlər gəzir, onun üçün insan, şəxsiyyət amili axırıncı, nəzərə alınmayan məsələlərdir. Bütün bunlar sosialist rejimin, sovet imperiyasının daxili mahiyyəti ilə bağlı idi. İmperiya siyasətini, sosializm ideyalarını Azərbaycana gətirən Nicat kimiləri artıq məhv edilmiş, zindanlara atılmışdır, rejim onların imperiyaya sədaqətini, xidmətini onları məhv etməklə, sürgünə göndərməklə qiymətləndirmişdir. Bu qətli icra edənlər həmin xalqın övladları, zindana atılanların əqidə, məslək yoldaşlarıdır, Səlimə aydındır ki, onun da taleyi əvvəlkilərdən fərqli olmayacaq.

Bütün ölkə, cəmiyyət məhbəsi xatırladır, insanlar isə məhbusdurlar, belə bir məhbəsdə insan amili, şəxsiyyət bütövlüyü haqda danışmaq olduqca çətindir, insan kimi düşünüb yaşamaq mümkün deyil, sistemin "təmizlənmə" əməliyyatına məruz qalmış Cabbar deyir: "… Yox, mən bu gündən insan kimi yaşamayacağam. Həşərat kimi sürünəcəyəm!".Sosial zaman insanları "canavar kimi buru-buruna" gətirib, bir-birini parçalamağa hazır vəziyyətdə saxlayər. Sosial mühit vicdan deyilən dəyəri qiymətləndirməkdən çox uzaqdır, vicdanın, bəşəri hisslərin işığına, nuruna düşmən kəsilən qatı zülmətdir. Çox keçmir, Səlim özü məhbusa çevrilir, yalan-doğru bütün ittihamları qəbul edib məhbus ömrünü yaşamağa məhkum edilir, həqiqətən, "1937 fenomeni də, sonrakı durğunluq eniş-yoxuşları da ictimai mülkiyyətlə yox, ictimai vicdanla bağlı normaların pozulduğu yerdə baş verə bilib". [3.59]

Dramaturq Nicat – Səlim dünyasına qarşı Şahnaz – Xumar – Ayaz dünyasını yaratmaqla mühitin dəhşətli simasını bu məsum, günahsız varlıqlara münasibətində verməyə çalışmışdır. Şahnaz ülviliyi və sədaqətini yaşayan Xumar öz sədaqətini, məhəbbətini siyasi rejimin təzyiqləri önündə itirmir, əksinə, şəxsiyyət kimi bütövlüyünü gerçəkləşdirir, ölüm təhlükəsi ilə üz-üzə dayananda belə öz insaniliyini itirmir. Öz eşqinə, təmiz insani hisslərinə sadiq qalmaqla fikir və hisslərində bütövlüyünü, əyilməzliyini, böyüklüyünü təsdiqləyir. Ayazın şəxsiyyət kimi vüqarını, qürurunu saxlaması, Xumarın mənəvi əxlaqi saflığı fərdi zamanın sosial zamanla konfliktini daha da kəskinləşdirir. Şahnaz özünütəsdiq və sosial mühitə etirazını bildirmək üçün intiharı seçdiyi kimi, Xumarla Ayaz da öz mənəvi saflıqlarını, daxili bütövlüklərini qorumaq üçün intiharı seçirlər. Bu intiharın olduqca dərin, mürəkkəb ictimai-fəlsəfi məzmunu və psixoloci əsasları vardır, çünki bu intihar mühitə, zamana, gerçəkliyə, onun mənəvi əsaslarına, yaşam prinsiplərinə etiraz kimi dərk edilir. Həm çar, həm də sovet Rusiyasının siyasətinə inananların faciəsi hər iki əsrdə demək olar ki, eynidir, onların özlərinə, övladlarına sürgünlər, ölüm düşərgələri nəsib olmuşdur. Bu dəhşətli terror aktları olduqja dözülməz idi, digər tərəfdən isə rejim saxta ideologiyasını zehinlərə, yaddaşlara köçürməyə kəskin cəhdlər edirdi. Dünyaya gələn hər yeni nəsil öz tarixi, keçmişi haqda saxta məlumat və ideologiya ilə silahlandırılırdı, yeni ideologiyanın əsirinə çevrilməyə məcbur edilirdi. Yeni nəsil bilərəkdən «manqurt»laşdırılır, öz tarixinə laqeyd, biganəlik ruhunda tərbiyələndirilirdi, belə bir ideoloji saxtalaşdırmada isə fikir-düşüncə sahibləri fəal iştirak edir, imperiya siyasətinin təbliğ və tərənnümü ilə məşğul olurdular. Onlar reallığı, ziddiyyətli həyatı amorf və saxta ideoloji prinsiplərlə izah edir, xalqı bu mənfur, qeyri-humanist prinsiplərə inandırmağa cəhd göstərirdilər. Dramaturq məhz belə şəxslərin həyat və talelərinə həsr etdiyi "Tənha iydə ağacı" pyesində ideologiyaya xidmət edən insanları təsvir etməklə kifayətlənməmiş, cəmiyyət daxilindəki ciddi problemlərdən söhbət açmışdır. XX əsrin 20-ci illərindəki siyasi çevriliş xalqın həyatında bir-birindən acı, faciəli hadisələr törətdi, ziyalıların müəyyən hissəsi məhv edildi, sürgünlərə göndərildi, digərləri isə xarici ölkələrə getməyə, mühacir həyatı sürməyə məcbur oldular, bir başqaları isə saxta ideologiyaya və qeyri-humanist hüquq prinsiplərinə söykənən cəmiyyətin idarə edilməsində iştirak etdilər. Fikir, zəka sahiblərindən yeni nəslin bu amorf ideoloji prinsiplər üzərində qurulan sistemə itaətkar, sadiq xidmətini təmin etmək üçün tarixin, müasir həyatın saxtalaşdırılması tələb edildi.

Mühacirət həyatı yaşayan, çətinliklə olsa da, öz milli qürurunu, şəxsiyyət bütövlüyünü qoruya bilən Kərim bəy vətəndən aralı düşən, uzaq, ideoloji təzyiqlərdən uzaq olan azərbaycanlıdır. Vətəndə yaşayan

Behbud bəy isə imperiyanın bütün cinayətlərini görüb etiraz etməyən, qanlı terror və irtica qarşısında susaraq yaşayan Azərbaycan ziyalısıdır. Despot qarşısında susmaqla, etiraz etməməklə, qəzəb və hiddətini bildirməməklə bu rejimə bəraət verərək yaşamaqla fikir və zəka sahibləri Behbud bəyin simasında bu mənhus sistemi tərənnüm etməklə məşğul olmuş, bir şəxsiyyət kimi deyil, rejimin itaətkar müdafiəçisi kimi yaşamışlar. Əgər Səlim 37-ci ildə başkəsən idisə, Behbud bəy kimi fikir sahiblərinin fəaliyyəti də faciəvi idi. Saxta ideologiya, imperiya siyasəti tərənnüm edilərək xalqın zehninə, düşüncəsinə yeridilir, saxtalıq ali həqiqət kimi təqdim olunurdu. Mənəvi müqəddəsliyə, mənəvi dünyaya edilən bu müdaxilə ağır faciələr törədir, fikir və əxlaq böhranı yaradırdı. Nəsillərin real mühiti, sosial zamanı təhrif edilmiş şəkildə, saxta ideoloji prinsiplər əsasında qavraması böyük faciələrin əsasını qoyurdu. Nəsillərin bir insan, şəxsiyyət kimi soyköklərindən uzaqlaşması, mənhus sistemin "ədalətli cəmiyyət" kimi təqdim edilməsi uzun yaşaya bilməzdi. Tarixin obyektiv, dialektik inkişafı, müasir dünya və onun inkişaf meyilləri belə sistemin məhvini labüdləşdirdi. Bəşəri dəyərləri, humanist prinsipləri, insan amilini əsas inkişaf istiqaməti götürən müasir sivilizasiya sosialist sisteminin hökmünü verdi, bu sistem ömrünü başa vurdu.

Məhz tərəqqi, təkamül, bəşəri ideya və baxışların təntənəsi bu socialist sisteminin böhranını dərinləşdirdi və ictimai-siyasi mühitdən çıxartdı. Onun faciələri, törətdiyi fəlakət və böhranlar tarixin yaddaşına verildi, amma həmin sistemin ideologiyası ilə silahlanmış Behbud bəy kimi şəxslərin faciəsi uzun müddət davam edəcək, bu ideologiya altında böyüyüb tərbiyə alanların fikir və düşüncə böhranı uzun müddət davam edəcəkdir.

İ.Əfəndiyevin tarixi mövzulu dramlarındakı əsas məqsədlərdən biri də insanların təfəkkür və düşüncələrində yaşayan amorf fikir və baxışlarla mübarizə aparmaq, itirilmiş mənəvi-əxlaqi dəyərləri, millilik və insan amilini qoruyub ən yüksək mövqedə saxlamaqdır. Bu mürəkkəb və ağır olsa da, yüksək vətəndaşlıq yanğısı, şəxsiyyət bütövlüyü tələb edən fəaliyyət və yaşam məqsədidir.

Ədəbiyyat

1. Borev Y. Estetika. Bakı: Təhsil, 2010.
2. Əliyev R.N. C.Cabbarlının yaradıcılıq təkamülü. Bakı: Yazıçı, 1984.
3. Qarayev Y.V. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988.

РЕЗЮМЕ
ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ И ЧЕЛОВЕЧЕСКИЙ ФАКТОР
Агаев И.А.

Ключевые слова: *исторический предмет, человеческий фактор, общество, нравственные ценности, человеческие отношения, мысль*

В статье рассматриваются драмы И. Эфендиева на историческую тематику, а также обсуждается роль событий в истории нашего народа. В сложных общественно-политических процессах исследуются отношения к людям, ситуации в обществе, мнения и взгляды людей в драматические моменты. В сложных ситуациях очень ценится то, что отдельные персонажи придерживаются своих идей и взглядов, своей личной целостности и своих убеждений. Трагедии, вызванные политической обстановкой, боль в жизни людей вызванная беспощадным отношением, объясняются с позиции нравственных ценностей. Объяснение человеческого фактора в обществе на основе политико-идеологических принципов создает условия для трагедий в широком и комплексном плане.

SUMMARY
SOSIAL-POLITICAL PROCESSES AND THE HUMAN FACTOR
Aghayev I.A.

Keywords: *historical subject, human factor, society, moral values, human relations, thought*

The article examines I. Efendiyev's dramas with historical themes, and discusses the role of the events in the history of our nation. In complex socio-political processes, attitudes towards people, situations in society, people's opinions and views in dramatic moments are investigated. In complex situations, it is highly valued that individual characters stick to their ideas and views, their personal integrity, and their convictions. The tragedies caused by the political environment, the pains left in people's lives by the merciless relationships created are explained from the perspective of moral values. Explaining the human factor in the environment on the basis of political-ideological principles has been clarified in a wide and comprehensive way.

MÜASİR DÖVRDƏ ELM VƏ TƏCRÜBƏ

Mədədzadə K.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan dosent
konulmededzade@mail.ru

Açar sözlər: *elm, təcrübə, nəzəriyyə,elmi kəşf*

Nəzəriyyə və təcrübə məsələsinə tarixən müxtəlif yanaşmalar mövcud olub və bu gün də mövcuddur. Bəziləri elmi, bəziləri isə onun tətbiqini-təcrübəni əsas götürür. Nəzəriyyə və təcrübəni bir-birindən ayırmayan, əksinə onların vəhdət təşkil etdiyini iddia edənlər daha çoxluq təşkil edir. Şübhəsiz elmi nailiyyətlərin, biliklərin dəyəri, əsl mahiyyəti onun təcrübədə tətbiqi zamanı daha aydın görünür. Bu səbəbdən elm və təcrübə bir-biri ilə paralellik təşkil edəndə daha faydalı, daha məhsuldar olur. Real həyatda tətbiq edilməyən hər hansı nəzəriyyə, elmi kəşfi barsız ağaca bənzətmək olar. Buna görə də məşhur filosof R.Dekartın bu barədə dediyi – "bilmək hər şey deyil, əsas olan onun tətbiqidir" fikri elmlə təcrübənin istifadə mexanizminə verilən ən uğurlu qiymətdir.

Nəzəriyyə və təcrübə arasındakı əlaqə bir çox fənlər arasında münaqişəyə, fikir ayrılığına səbəb olmuşdur. Buna görə də müxtəlif sahələrdə çalışan alimlər və praktiklər bu məsələyə fərqli yanaşır, fərqli məqsədləri, prioritetləri və fəlsəfələri rəhbər tuturlar.

Elmi təcrübənin tarixinə nəzər salaq. Rəsmi elmi tədqiqatların qeydə alınmış kökləri tək bir şəxsdən və ya hadisədən ibarət deyil. Bu, müxtəlif, yəni, qədim yunan, fars, ərəb, hind, Çin və Avropa mədəniyyətlərində olan bir sıra şəxslərin kollektiv işində mövcuddur. Yunan riyaziyyatçısı Pifaqor eramızdan əvvəl 5-ci əsrdə səmada ulduzların hərəkətini təsviri araşdırmalarına əsaslanaraq Yerin dairəvi olduğu elmi fərziyyəni irəli sürən ilk şəxs hesab olunur. Hind riyaziyyatçısı və astronomu Aryabhata eramızın 6-cı əsrində gecə səmasında cisimlərin hərəkəti ilə bağlı təsviri qeydlərdən istifadə edərək günəşin Günəş sisteminin mərkəzi olduğu ideyasını irəli sürdü. 9-cu əsrdə çinli kimyagərlər başqa maddələrdən qızıl hazırlamaq üçün təcrübələr apararkən barıt icad etdilər. Və Yaxın Şərq alimi Alhazen eramızın 1000-ci illərində görmə və işıqla bağlı xüsusiyyətləri tədqiq edərkən elmi təcrübənin konsepsiyasını hazırlamağa nail oldu.[1.s.489]

Bu və digər faktlar göstərir ki, təbiət dünyası ilə bağlı suallara elmi yanaşma bir çox mədəniyyətlərdə çoxdan mövcuddur. Müasir elmi tədqiqat metodlarının kökləri isə bir çox tarixçilər tərəfindən 16-17-ci əsrlərdə Avropada baş verən Elmi İnqilabla bağlıdır. Əksər tarixçilər Elmi İnqilabın başlanğıcını 1543-cü ildə Polşa astronomu Nikolay Kopernik tərəfindən Səma cisimlərinin inqilabları haqqında kitabının nəşri kimi qeyd edirlər. Kopernikin planetlərin Yerə münasibətdə hərəkətini diqqətlə müşahidə etməsi və təsviri onu belə bir fərziyyə irəli sürməyə imkan verdi ki, günəş Günəş sisteminin mərkəzidir və planetlər Günəş ətrafında aşağıdakı ardıcıllıqla getdikcə daha böyük orbitlərdə fırlanırlar: Merkuri, Venera, Yer, Mars, Yupiter və Saturn. Kopernik Günəş sisteminin heliosentrik görünüşünü təklif edən ilk şəxs olmasa da, onun sistematik məlumat toplaması Yerin kainatın mərkəzi olduğuna dair ümumi inanca qarşı ciddi, fər qli bir arqumenti ortaya çıxartdı.

Hazırda elm və onun tətbiq olunması barədə danışarkən dünyanın öndə gedən ölkələrində elmin fundamental kateqoriyasına və təcrübəsinə ayrılan maliyyə vəsaitlərinin statistik fərqlərinə baxmaq kifayətdir. Belə ki, Yaponiyada hökumət maliyyə vəsaitinin 14 faizini fundamental kateqoriyaya ayrırırsa, 26 faizi təcrübəyə ayrılır. Eləcə də ABŞ-da dövlətin maliyyəsinin 12 faizi fundamental elmə ayrılırsa, 22 faizi tətbiq olunmasına ayrılır. Bu rəqəmlər onu deməyə əsas verir ki, dünyaynın qabaqcıl ölkələrində elmi nailiyyətlərin tətbiqinə daha çox üstünlük verilir. Bu da büdcə vəsaitlərinin nəzərəçarpacaq dərəcədə artırılmasına, ölkənin davamlı və dayanıqlı iqtisadi inkişafına, insanların həyat şəraitinin yaxşıaşdırılmasına şərait yaradır. Azərbaycana gəldikdə isə, qeyd etmək lazımdır ki, başqa mənzərənin şahidi oluruq. Ölkəmizdə fundamental elm kateqoriyalarına müəyyən həcmdə maliyyə vəsaiti ayrılsa da, təcrübəyə əsaslanan sahələrə olduqca az vəsait xərclənir. Fikrimizcə, iqtisadi sahələrlə bərabər, elmin inkişafı və elmi biliklərin təcrübəyə tətbiqi ilə dövlətin iqtisadi qüdrətinin daha sürətli inkişafına nail olmaq mümkündür. [2]

Təcrübə məlumatı tez və avtomatik əldə etmək qabiliyyətimizi artırmağa kömək edir. Təcrübə həm də beynimizi daha çətin məlumat və problemləri emal etməkdən azad edir. Hansı fənni öyrətdiyinizin və ya öyrənməyinizin fərqi yoxdur, tələbələrin fəallığına onların təcrübə ilə nə əldə etməsi təsir göstərir. Tədqiqatçılar əzbərləməklə təcrübəvi fəaliyyətləri arasında mühüm fərqləri aşkar ediblər, sadəcə bir tapşırığı əzbər təkrarlamaq öz-özünə performansı artırmayacaq. Təcrübə diqqəti, məşqi və təkrarı əhatə edir və sonradan daha mürəkkəb bilik və bacarıqlara çevrilə bilən yeni bilik və ya bacarıqlara gətirib çıxarır.[3]

Nəyi isə dərk eləmək, başa düşmək hələ azdır. Öyrənilənləri həyatda tətbiq etməyi bacarmaq lazımdır. Əgər bilik hər hansı fəaliyyət proqramına daxil edilə bilmirsə, istifadəsiz qalırsa, o, passiv hafizəyə keçərək tədricən unudulur və ya xüsusi saxlanma ilə (kitab və s.) gələn nəsillərə ötürülür. Məşhur filosof R.Dekartın sözlərinə görə, bilmək hər şey deyil, əsas olan onun tətbiqidir. Bu, elmlə təcrübənin əhəmiyyətinə, zəruriliyinə, istifadə mexanizminə verilən ən yaxşı və uğurlu qiymətdir!

Ədəbiyyat

1. Vimla L. Patel. Science and practice. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC61329/
2. https://www.visionlearning.com/en/library/Process-of-Science/49/The-Practice-of-Science/148

3. Campitelli & Gobet, 2011
https://www.researchgate.net/publication/226396370_Deliberate_Practice_Necessary_But_Not_Sufficient

РЕЗЮМЕ
НАУКА И ПРАКТИКА В СОВРЕМЕННУЮ ЭПОХУ
Мададзаде К.М.

Ключевые слова: *наука, опыт, теория, научное открытие.*

Исторически сложилось так, что к вопросам теории и практики относились и поныне относятся по-разному. Одни берут их научную, другие – прикладную практическую основу. Большинство утверждает, что теория и практика не разделимы, и что они тесно связаны друг с другом. Безусловно, ценность знаний, научных успехов, основная их суть явно выражается в практике. В этой связи, когда наука и практика составляют друг с другом паралелли, они становятся более полезными и плодотворными. Не применяемые в реальной жизни какие-то теории, научные открытия похожи на неплодоносящие деревья. Поэтому мысль знаменитого философа Р.Декарта о том, что «знать – еще не все, главное - применение» является самой удачной оценкой, данной механизму совместного использования науки и практики.

SUMMARY
SCIENCE AND EXPERIENCE IN MODERN TIMES
Madadzadeh K.M.

Key words: *science, experience, theory, scientific discovery*

Different approaches to the question of theory and practice have existed historically and still exist today. Some are based on science, while others are based on its application-experience. Those who do not separate theory and practice, but claim that they form a unity, are the majority. Undoubtedly, the value and true nature of scientific achievements and knowledge becomes clearer when it is applied in practice. For this reason, science and experience are more useful and more productive when they are parallel to each other. Any theory or scientific discovery that is not applied in real life can be compared to a tree without branches. Therefore, the famous philosopher R. Descartes' opinion about this - "knowing is not everything, the main thing is its application" is the most successful assessment given to the mechanism of using science and experience.

HEYDƏR ƏLİYEV İRSİNDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI VƏ MULTİKULTURAL DƏYƏRLƏR

Qasımova N.Z.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
kulturoloq1@gmail.com

Açar sözlər: *mədəniyyət siyasəti, təhsil, müstəqillik, azərbaycançılıq, multikulturalizm, mədəni dəyərlər*

Tarix səhnəsində Azərbaycan coğrafi və etnik baxımdan müxtəlif çətin proseslərdən keçmişdir. Özündə böyük bir mədəni müxtəlifliyi birləşdirən ölkəmiz coğrafi baxımdan geniş geosiyasi məkanda yerləşir. Müxtəlif sivilizasiyaların qovuşduğu yer olaraq, əsrlər boyu milli-mədəni müxtəliflik mühitinin formalaşdığı bir diyardır. Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından olan bir xalq kimi həmişə özünün maddi-mədəniyyət abidələri, qədim incəsənəti, ədəbiyyatı, folkloru və musiqisi ilə fəxr etmişdir. Təbii ki, bütün bunların rəngarəngliyinə ölkəmizin təbiəti, sərvətləri, iqlimi böyük təsir etmişdir. Xüsusən xalq yaradıcılığının tarixi, bədiiliyi, etnoqrafik xüsusiyyətləri öz əksini xalqın mentallığında da göstərmişdir.

Bəşər tarixi boyu müstəqillik hər bir xalqın ən ali istəyi, hüquqi, siyasi və mənəvi tələbatlrının misilsiz varlığı olub. Bu baxımdan milli müstəqilliyimizin 70 ildən sonra yenidən bərqərar olması dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevin böyük siyasətinin nəticəsi idi. Azərbaycanın milli dövlət müstəqilliyinin yenidən bərpa olunması fenomen şəxsiyyət Heydər Əliyevin çətin, eyni zamanda uğurlu siyasətinin neməti oldu. Ümummilli liderin xalqı qarşısındakı əvəzsiz tarixi xidmətlərinin ən vacib siyasi təzahürü isə onun dayanıqlı milli dövlət qurması və onu möhkəmləndirməsi idi. Həmçinin bütün canı, ruhu ilə özünü azərbaycanlı bilən ümummilli lider cəmiyyətin bütövləşməsi, ən əsası azətbaycançılıq ideologiyasının milli həmrəliyin aparıcı amilinə çevrilməsi istiqamətində əvəzsiz işlər görərək ümumxalq birliyinin dərin siyasi və nəzəri əsaslarını yaratdı. Daima Heydər Əliyev öz fikirlərində qeyd edirdi ki, “Azərbaycançılıq ideologiyası müstəqilliyə nail olmaq, bütöv və bölünməz Azərbaycanı qoruyub saxlayaraq, daha da möhkəmləndirmək üçün ən önəmli vasitədir”. [1, s.49]

Ulu öndər Heydər Əliyev 2001-ci il 9 noyabr tarixində keçirilən Dünya azərbaycanlılarının I qurultayında dövlətin əsas siyasətini önə gətirərək demişdir: “Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz

azərbaycançılığı-Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət və ənənələrini yaşatmalıyıq". Bu kontekstdə vətəndaşlıq, vətənpərvərlik ilk öncə fərdin dövlətə və cəmiyyətə vahid yanaşma prinsipidir. Ümummilli liderin həmin tarixi dövr ərzində ölkəmizdəki müxtəlif din və mədəniyyətlərə tolerant münasibəti, onun siyasi fəaliyyətində həmişə özünü göstərmişdir. Ulu öndər Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldikdən sonra, yəni 1993-cü ildə prezident seçildikdən sonra, hər zaman öz çıxışlarında xalqımızla bərabər yaşayan digər xalqların da onlarla birgə bərabər hüquqa sahib olduqlarını vurğulamışdır. Bu tarixi dövrdən etibarən Azərbaycanda yaşayan icma və xalqlar arasında dostluq, həmrəylik əlaqələrinin yeni vüsət alması, güclənməsi nəticəsində hər kəs azərbaycançılıq ideyası, multikulturalizm ənənələri və dövlətçilik ətrafında sıx birləşdi. [2, s. 24]

Ölkəmizin ictimai-siyasi, mədəni, sosial-iqtisadi və beynəlxalq əlaqələrində yeni bir dönüş yarandı. Beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesi başladı. Ulu öndər Heydər Əliyev tarixən Azərbaycanda mədəniyyətlər və dinlər arasında isti münasibətlərin olmasını bildirmişdir. Hər zaman ölkəmizdə tolerantlığın vəziyyəti ilə maraqlanaraq, mədəniyyətlərarası, dinlərarası münasibətlərin yaxşı və daha yüksək səviyyədə olmasına çalışmışdır. Dünyada baş verən mədəniyyətlərarası münasibətlərin əsas məqsədi multikultural modellərin yayılmasıdır. Çünki mədəniyyət müasir cəmiyyətlərin sosial qüvvəsinə çevrilmişdir desək, yanılmarıq. Belə ki, sosial fəaliyyət üçün multikultural mühitin dayanıqlı inkişafı mühüm faktordur. Azərbaycanda multikultural mühitin və tolerantlıq siyasətinin formalaşması inkişafında Heydər Əliyevin böyük rolu olduğunu az saylı xalqların nümayəndələri də qeyd etmişlər. Əsrlər boyu Azərbaycanda multikulturalizm meylləri yaşayıb, ölkəmizdə yaşayan xalqlar isə heç zaman nə siyasi, nə də iqtisadi inkişaf üçün problemlər yaşamayıblar. Çünki, müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın mövcud olduğu ölkə olmuşdur. Dövlətimizin dinə münasibətdə siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıqla bağlıdır. Hazırkı dövrdə Azərbaycanda həyata keçirilən multikulturalizn siyasəti dövlətin tolerantlıq ənənələrinə sadiq qalmasının əsas göstəricisidir. [3, s.78]

Müasir dünyada multimədəni cəmiyyətlər kulturoloji strategiyaya əsaslanaraq multikulturalizm nəzəriyyəsi və siyasəti olmadan sabit formada inkişaf edə bilməz. Belə cəmiyyətlərin sübutundan biri məhz Azərbaycan dövlətinin inkişafıdır ki, ölkəmizin mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan bir çox xalqların nümayəndələri hormanik inkişaf edir və bərabər yaşayırlar. Azərbaycanda yaşayan milli azlıq və etnik qrup təşkil edən bir çox xalqlar ləzgi, avar, aşşur, udi, tat, saxur, ingiloy, kürd, talış, yəhudi, gürcü, malakan, rus, erməni və digər xalqlar yaşayırlar. Onların bir xalq olaraq inkişafı təbii ki, təhsillərindən əhəmiyyətli dərəcədə asılıdır. Tarix boyu bu xalqların içərisindən elm, təhsil və mədəniyyət sahəsində görkəmli şəxsiyyətlər yetişmişdir. Onlar sahib olduqları intellektual keyfiyyətlərlə azərbaycan xalqı ilə birgə ölkəmizin elm, təhsil, mədəniyyət və incəsənət sahəsində mübarizə aparmışlar. Bu ona əsas verir ki, ölkəmizin etnomədəniyyətinin özünəməxsus xüsusiyyətləri tarix boyu davam etməkdədir. Ölkəmizdə təhsilə, elmə dəstək həmişə öz töhfəsini vermişdir. Bu baxımdan Azərbaycan millilik və ümumbəşəriliyin vəhdətini təşkil edir. Məhz bu səbəbdən beynəlxalq aləmdə Azərbaycanı xarakterizə edən əsas xüsusiyyətlərdən ən önəmlisi ölkəmizdə olan yüksək tolerantlıq mühitinin mövcudluğudur. Heydər Əliyevin Azərbaycanda multikultural və tolerantlıq dəyərlərinin inkişafındakı xidmətlərini dünyanın bir çox dini liderləri də dəstəkləmişlər. Bu baxımdan, multikulturalizmin əsasında din, tolerantlıq, milli birliklərin adət-ənənələrinə, hüquq bərabərliyinə və onların azadlığına hörmət hissi dayanır. [4, s.182]

Azərbaycançılıq ideyası və multikulturalizm siyasəti milli həyatın ahəgdarlığını, konfessiyaların dinc yanaşı yaşamasının təməlidir. Eyni zamanda Azərbaycançılıq ideyası ölkəmizdə yaşayan bütün etnosların qarşılıqlı əlaqəsi, çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın inkişafı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Multikulturalizm siyasətində əsasən qlobal səviyyədə mədəniyyətlərarası hormaniyaya nail olmaqdır. Həm regional, həm də qlobal səviyyədə multikultural dəyərlərin müdafiəsi, təbliği və təşviqi hər zaman zəruri və aktualdır. Ulu öndər Heydər Əliyev Azərbaycanın uğurlu gələcək inkişafı üçün hüquqi və siyasi müstəvidə multikulturalizmin əsl yerini müəyyən etdi. Multikulturalizm siyasəti azərbaycan türklərinin ölkədəki başqa etnik xalqlarla tolerant münasibətinin, sülh içində yaşamaq istəyinin bariz göstəricisi olaraq, digər tərəfdən də Azərbaycanın türk dünyasının ayrılmaz bir parçası olduğunu təsdiqlədi. Azərbaycan dövlətinin qurucusu, ulu öndərimiz Heydər Əliyevin adını daşıyan Fondun azərbaycançılıq və multikulturalizm ideyasının təbliğinə verdiyi dəyər yalnız ölkəmiz daxilində deyil, həmçinin dünyanın hər yerində görünməkdədir. Mədəniyyət XXI əsrin prioriteti sayılan davamlı inkişaf, əsasən insan potensialı inkişafının mühüm amilidir. İndi dünyada beynəlxalq mədəni əlaqələr durmadan genişlənir. Ölkəmiz bu əlaqələrin daha səmərəli olmasında böyük xidmətlər göstərir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, İSESCO və UNESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bu konteksdəki xidmətləri əvəzsizdir. Dünyanın bir çox beynəlxalq təşkilatları Avropa İttifaqı, BMT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və

digər təşkilatlarla əməkdaşlığa böyük önəm verilir. Milli mədəniyyətimizin təbliği, onun dünyada tanınması istiqamətində Heydər Əliyev Fondunun səmərəli fəaliyyəti danılmazdır. Heydər Əliyev Fondunun əsas məramı xalqımızın, həmçinin ölkəmizdə yaşayan etnos xalqların milli tarixini, doğma dilini, təhsilini, ədəbiyyatını, mədəniyyət və incəsənətini, adət və ənənələrini qoruyaraq dünya mədəniyyətinə çatdırmaqdır. [5, s. 91]

Bu gün Azərbaycan dövləti dünyada gedən mədəni, elmi, iqtisadi və siyasi proseslərdə layiqincə təmsil olunur. Şərqlə Qərbin qovuşağında yerləşən Azərbaycan milli mədəniyyətimizi qoruyaraq, hər iki tərəfin mədəniyyətinin elementlərini də özündə birləşdirmişdir. Ulu öndər Heydər Əliyev həmişə Azərbaycanı beynəlxalq mədəni proseslərin fəal iştirakçısı, bir çox mədəni proqram və layihələrin təşəbbüskarı, həmçinin təşkilatçısı kimi qiymətləndirirdi. İnsanları bir-birinə yaxınlaşdıran, əsasən sabitlik, sülh və qarşılıqlı hörmət, mehribanlıq naminə birləşdirən azərbaycançılıq ideyası və multikulturalizm siyasəti ölkəmizin demokratik inkişafının tərkib hissəsidir. Əslində müstəqilliyimizi yetişdirən əsas amillər elə bunlar olmuşdur. Yaşadığımız tarix göstərdi ki, bütün bunlar xalqımızın milli mənlik şüurunu oyadaraq, milli ideologiyamızı yaratdı. Hazırda Azərbaycan mədəniyyəti özünün yeni inkişaf mərhələsini yaşamaqdadır. Təbii ki, milli mədəniyyətimizin uğurlarında , yaradıcı sənət adamlarının fəaliyyətində, dilimizin, təhsilimizin inkişafında, mənəvi- əxalqi dəyərlərimizin qorunmasında ulu öndərimiz Heydər Əliyevin xidmətləri misilsiz olmuşdur. Bu gün bir çox strateji sahələrdə olduğu kimi, mədəniyyətimizin davamlı inkişafı dövlətimizin siyasi fəaliyyətinin əsas tərkib hissəsidir. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə Azərbaycan xalqının multikultural ənənələrinin qorunaraq inkişaf etdirilməsi, elm, təhsil və mədəniyyət sahəsindəki fəal istiqaməti hazırkı mərhələdə Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməkdədir.

Ədəbiyyat

1. Abdullayev K.M. Heydər Əliyev və milli mənəvi dəyərlər. Bakı-2017, 152 s.
2. Abbasov N.Ə. Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri. Bakı: Təknur MMC, 2008, 240 s.
3. Əhmədova S. A. Heydər Əliyev və ədəbi-tarixi proses. Monoqrafiya. Bakı: Elm, 2013, 156 s.
4. Quliyeva S.Ə. "Azərbaycanda yaşayan azsaylı xalqların milli dəyərləri" Bakı: AMEA-İctimai elmlər bölməsi, 2015, 218 s.
5. Məmmədov F.T. Kulturologiya, mədəniyyət, sivilizasiya. Bakı: "OL" MMC, 2016l, 260 s.

РЕЗЮМЕ
ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА И МУЛЬТИКУЛЬТУРАЛЬНЫЕ ЦЕННОСТИ В НАСЛЕДИИ ГЕЙДАРА АЛИЕВА

Гасымова Н.З.

Ключевые слова: *культурная политика, образование, независимость, азербайджанство, мультикультурализм, культурные ценности*

Принадлежность нашего народа к древним историческим традициям и национально-нравственным ценностям на протяжении веков свидетельствует о его высокой культуре. С первых лет независимости государственная поддержка укрепления традиций мультикультурализма в Азербайджане стала более масштабной. В основе этого формирования лежит решительная политика, проводимая общенациональным лидером Гейдаром Алиевым. Заслуги Гейдара Алиева в развитии традиций азербайджанства и мультикультурализма велики и многогранны. История современного Азербайджана развивается, сохраняя традиции мультикультурализма. В то же азербайджанская модел считается примером для всего мира. Азербайджан, как независимое государство основывал свою внешнюю политику на своих национальных интересах. Главным для народа было развитие своего языка, традиций и национальной культуры. Конечно, сегодня на примере Азербайджана можно увидеть, что мультикультурализм, имеющий глубокие исторические корни и превратившийся в способ социальной жизни общества, составляет основу нашей государственной политики. Сегодня новое демократическое общество, сформировавшееся в нашей стране, проявляет большую активность в строительстве независимого государства. Пример поликультурной безопасности в Азербайджане показывает, что ее принципы целенаправленно соблюдаются, а также увеличивается ее потенциальная мощь и влияние на мировой арене.

SUMMARY
AZERBAIJANISM IDEOLOGY AND MULTICULTURAL VALUES IN THE LEGACY OF HEYDAR ALIYEV

Gasimova N.Z.

Key words: *cultural policy, education, independence, azerbaijanism, multiculturalism, cultural values*

The fact that our people belong to ancient historical traditions and national-cultural values for centuries is an indication of its great culture. From the first years of independence, state support for strengthening the traditions of multiculturalism in Azerbaijan has become more widespread. At the heart of this formation is the resolute policy pursued by national leader Heydar Aliyev. Heydar Aliyev's contribution to the development of Azerbaijanism and multiculturalism is large and multifaceted. The history of modern Azerbaijan preserves and develops the traditions of multiculturalism. At the same time, the Azerbaijani model is considered an example to the world. As an independent state, Azerbaijan has based its foreign and domestic policy on its national interests. As a

nation, it has tried to develop its language, customs and national culture. Of course, today it is possible to see from the example of Azerbaijan that multiculturalism, whichhas deep historical roots and developed into a social lifestyle of the society, forms the basis of our state policy. Today, the new democratic society formed in our country is strongly active in building an independent state. The example of multicultural security in Azerbaijan shows that its principles are purposefully followed and also increases its potential power and influence in the world arena.

ELM VƏ CƏMİYYƏT

Nəsirova N.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nargiz917@gmail.com

Açar sözlər: *cəmiyyət, elm, inkişaf, təhsil*

Bu gün dünyanı belə bir sual düşündürür: həyatda elm, təhsil nə dərəcədə əhəmiyyətlidir, elm və cəmiyyətin bir-biri ilə əlaqəsi varmı və bu, nədir?

Robotlaşma, yüksək kommunikasiyalar dövrü olan XXI əsrdə, qloballaşan dünyamızda, şübhəsiz, bugünkü həyatımızı elmsiz, təhsilsiz təsəvvür etmək qeyri-mümkündür. Bircə onu qeyd etmək kifayətdir ki, dünyanın aparıcı dövlətləri hazırki inkişaf səviyyəsinə məhz elmin, təhsilin sayəsində gəlib çatıblar. Hər bir dövlətin inkişafının əsas təkanverici qüvvəsi onun vətəndaşlarının savadlılıq, bilik səviyyəsi ilə ölçülür.

Atalarımızın elm, təhsil haqda müdrik kəlamları, deyimləri çoxdur. Onlardan bəzilərinə nəzər salaq:

-Təhsil bizi qaranlıqdan işığa doğru aparan böyük yoldur.

-Ən böyük var-dövlət təhsildir, savaddır, elmdir.

-Dünya günəşlə, insan isə biliklə işıqlanır.

-Bir saat elm öyrənmək 40 illik ibadətə bərabərdir.

Elm ən mühüm inkişaf yollarından biridir. Onun konkret rolu, eləcə də cəmiyyətimizin mənafeyi naminə yeni biliklərin yaradılması, təhsilin təkmilləşdirilməsi və həyatımızın keyfiyyətinin yüksəldilməsi kimi müxtəlif funksiyaları var. Elm sosial ehtiyaclara və qlobal çağırışlara cavab verməlidir. Cəmiyyət elmə elmi biliklərin tətbiq olunması insanların bir çox ehtiyaclarını ödədiyinə və həyat standardlarını yaxşılaşdırmağa kömək etdiyinə görə qiymət verir. [1.s.7.]

Elm ən böyük kollektiv səydir. O, daha uzun və sağlam həyatı təmin etməyə töhfə verir, sağlamlığımıza nəzarət edir, xəstəliklərimizi müalicə etmək üçün dərman vasitələri ilə təmin edir, ağrıları yüngülləşdirir, qida ilə birlikdə əsas ehtiyaclarımızı, suya olan tələbatımızı təmin etməyə kömək edir, enerji verir, musiqi, əyləncə, ən son kommunikasiya texnologiyaları, idman da daxil olmaqla, həyatı daha maraqlı edir. Nəhayət, ruhumuzu qidalandırır.

Yaşamaq üçün gündəlik həyatımızda elm həll yolları yaradır ki, bu həllər də kainatın böyük sirlərinə cavab verir. Elm sosial ehtiyaclara və qlobal çağırışlara cavab verməli, real həyata söykənməlidir. İctimaiyyətin anlayışı və elmlə əlaqəsi, o cümlədən elmin populyarlaşdırılması yolu ilə vətəndaşların iştirakı vətəndaşları məlumatlı şəxsi və peşəkar seçimlər etmək üçün təchiz etmək üçün vacibdir. Hökumətlər təhsil, səhiyyə, kənd təsərrüfatı və digər bu kimi məsələlərlə bağlı keyfiyyətli elmi məlumatlara əsaslanan qərarlar, parlamentlər isə ən son elmi bilikləri tələb edən sosial məsələlərlə bağlı qanunlar qəbul etməlidirlər. Milli hökumətlər iqlim dəyişikliyi, okean sağlamlığı, biomüxtəlifliyin itirilməsi və şirin su təhlükəsizliyi kimi əsas qlobal problemlərin arxasında duran elmi başa düşməlidirlər.

Davamlı inkişaf çağırışları ilə üzləşmək üçün həm hökumətlər, həm də vətəndaşlar elmin dilini anlamalı və elmi biliklərə yiyələnməli, savadlı olmalıdırlar. Digər tərəfdən, elm adamları siyasətçilərin qarşılaşdıqları problemləri anlamalı və araşdırmalarının nəticələrini cəmiyyət üçün aktual və başa düşülən etməyə çalışmalıdırlar.

Bu gün çətinliklər fənlərin ənənəvi sərhədlərinə maneə olur və innovasiyanın həyat dövrü boyunca tədqiqatdan biliyin inkişafı və tətbiqinə qədər uzanır. Elm, texnologiya və innovasiyalar bizim daha ədalətli və davamlı inkişaf axtarışımıza təkan verməlidir. [3]

Zaman keçdikcə cəmiyyətlər yenilənir və nəticədə elm də dəyişir. Məsələn, 20-ci əsrin birinci yarısında, dünya müharibələrlə üzləşdiyi zaman, hökumətlər elm adamlarının müharibə ilə bağlı tədqiqatlar aparmaları üçün vəsait ayırdılar və beləliklə, elm nüvə enerjisinin sirlərini açaraq bu istiqamətdə inkişaf etdi. Başqa vaxtlarda bazar münasibətləri elmi tərəqqiyə gətirib çıxardı. Məsələn, tibbi müalicə, dərman istehsalı və kənd təsərrüfatı vasitəsilə gəlir axtaran müasir korporasiyalar getdikcə daha çox resursları biotexnologiya tədqiqatlarına ayıraraq, genomik ardıcıllıq və genetik mühəndislikdə irəliləyişlər əldə edirlər. Və digər tərəfdən, fərdlərin maliyyə uğurları ilə maliyyələşdirilən müasir fondlar pullarını bərpa olunan

enerji texnologiyaları kimi mövzularda araşdırmaları təşviq edərək, sosial məsuliyyətli hesab etdikləri müəssisələrə yatıra bilərlər. Elm statik deyil, zaman keçdikcə dəyişir, hənçinin onun yerləşdiyi daha böyük cəmiyyətlərdəki dəyişiklikləri əks etdirir.

Bütün bunlar onu deməyə əsas verir ki, elmlə cəmiyyət bir-biri ilə üzvi surətdə bağlıdır. Elm, təhsil cəmiyyətin üzvlərinə, insanlara xidmət edir, onların həyat şəraitinin yaxşılaşdırılmasına səy göstərir. Bir sözlə, cəmiyyətlər öz inkişafları üçün elmə, təhsilə borcludurlar. [4]

Savadlı olmaq həm də cəmiyyət, dövlət üçün faydalı, yararlı vətəndaş deməkdir. Dünya ölkələri ilə müqayisə etsək, bu gün Azərbaycanda savadlılıq səviyyəsi yüksəkdir. Təhsil dövlətin ən çox diqqət yetirdiyi, prioritet sahədir. Hər il dövlət büdcəsinin 14-15 faizi elm və təhsilə sərf olunur. Tarixə nəzər salsaq, görərik ki, Azərbaycanda təhsil sahəsində ciddi dönüş 100 il bundan əvvəl başlayıb. Müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi 1901-ci ildə Bakı şəhərində yaradılıb. Özü də dövlət tərəfindən deyil, sadə azərbaycanlı xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən yaradılıb. Bu gün ölkəmizdə kifayət qədər təhsil müəssisələri fəaliyyət göstərir, milli mənsubiyyətindən, cinsindən asılı olmayaq, heç bir ayrı-seçkiliyə yol verilmir, qızlarla oğlanlar birlikdə təhsil alırlar.

Gəlin, indi dünyanın mənzərəsinə nəzər salaq: BMT-nin statistikasına görə, bu gün dünyada 80 milyondan çox uşaq təhsildən məhrumdur, ondan 3 dəfə çox sayda uşaq isə təhsilini başa vura bilmir, yarımçıq qoyur.

Təhsilin həm insan həyatında, həm də cəmiyyətdə əhəmiyyəti böyükdür. Neçə illərdir ki, Çin iqtisadiyyatı ilə dünyaya, hətta Amerikaya meydan oxuyur. Bəs necə oldu ki, 1950-ci illərə qədər dünyada bütün sahələrdə, o cümlədən təhsildə ən geridə qalan, vətəndaş müharibəsi ilə üzləşən və 40 milyon əhalini itirən Çin 50 ildə ən inkişaf etmiş ölkəyə çevrildi? Səbəb əhalinin məcburi təhsilə cəlb edilməsi, savadsızlığın ləğvi, savadlı kadrların yetişdirilməsidir. 2002-ci il Çində dövlət ali təhsilin kütləviləşməsini elan etdi, tələbə qəbulu sürətlə artdı və ali məktəb məzunlarının sayına görə Çin Amerikanı üstələyib birinci yerə çıxdı. [2.s.354]

Yaxud başqa bir misal: dünyada ən inkişaf etmiş və təhsildə də qabaqcıl yerləri tutan Yaponiyada hər kəsin ali təhsil alması, yüksək ixtisasa yiyələnməsi ən vacib məsələ hesab edilir. Buna görə də orta məktəb məzunlarının 75 faizi ali məktəblərə daxil olur. Cənubi Koreyada isə bu rəqəm 90 faizdir, üstəlik hər il 60-70 min tələbə xarici ali məktəblərə göndərilir. Nəticə də göz qabağındadır.

Belə bir deyim var: hər şeyi kadrlar həll edir. Bəli, kollektivləri də, cəmiyyətləri də kadrlar idarə edir. Bu kadrlar yüksək təhsilli, peşəkar olanda nəticə daha uğurlu olur. Ölkəmizdə də belə kadrlara həmişə ehtiyac var və olacaq. Ona görə də mükəmməl təhsilə nail olmaq prioritet məsələ olaraq həmişə diqqət mərkəzində saxlanılmalıdır.

44 günlük Vətən Müharibəsi sübut etdi ki, biz güclü olmalıyıq. Güclü olmaq üçün isə savadlı, peşəkar olmalıyıq. Ən müasir hərbi texnikanı pulla almaq mümkündür, lakin ondan istifadə edə bilən kadrlar olmasa, bunlar sadəcə anbarlarda yığılıb qalan dəmir parçasından başqa bir şey olmayacaq. Dünyada baş verən və davam edən siyasi-hərbi hadisələr göstərir ki, biz gələcəkdə də gözlənilməyən təhlükələrlə qarşılaşa bilərik və onları dəf etməyə daim hazır olmalıyıq. Bunun üçün isə biz bizə əks cəbhədə dayanan qüvvələrdən həmişə üstün olmalıyıq. Üstün olmaq üçün ən etibarlı vasitə isə elmdir, təhsildir. Böyük mütəfəkkir şairimiz Nizami Gəncəvi demişkən: "Qüvvət elmdədir, başqa cür heç kəs heç kəsə üstünlük eyləyə bilməz..."

Ədəbiyyat

1. Xəlilov S. Azərbaycanda elm və onun təşkilati formaları. Bakı - 2010.
2. Charles T. Science and Society: The Role of Long-Term Studies in Environmental Stewardship
3. Miedema F. Open Science: the Very Idea.
4. https://en.unesco.org/themes/science-society

РЕЗЮМЕ
НАУКА И ОБЩЕСТВО

Насирова Н.М.

Ключевые слова: *общество, наука, развитие, образование.*

Барометром развития любого общества является оценка, данная научным открытиям и образованию его граждан. Нельзя представить науку без общества, как и общество - без образования, без науки. Наука и образование служат улучшению условий жизни граждан общества. Своим развитием общество обязано науке и образованию. Поэтому оно тесно связано с наукой и образованием.

Страны, которые уделяют особое внимание науке и образованию, проходят ускоренный путь развития, а уровень жизни граждан этих стран выше по сравнению с жителями тех государств, где уровень образованности ниже. Поэтому

государства ежегодно повышают объем средств из государственного бюджета, который отводится образованию, при этом стараются эффективно его использовать.

SUMMARY
SCIENCE AND SOCIETY
Nasirova N.M.

Keywords: *society, science, development, education*

The barometer of the development of every society is the assessment of its citizens' education and scientific research. It is impossible to imagine education and science without society, and society without education and science. Science and education serve to improve the living conditions of society members. Societies owe their development to science and education. Therefore, society is organically connected with science and education.

Countries that pay special attention to science and education are developing faster, and the standard of living of citizens in those countries is higher than in countries with a low level of literacy. Therefore, every year, states try to increase the amount of funds spent on education and scientific research in the state budget and to use it effectively.

MÜASİR DÜNYADA SOSİAL İŞ ELMİ FENOMEN HADİSƏ KİMİ

Bünyadov Z.V.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
bunyadov82@mail.ru

Açar sözlər: *sosial, fəaliyyət, müasir, ictimai, təmənna, yardım*

Sosial iş bir elm sahəsi kimi yaranmadan öncə bir fəaliyyət sahəsi olaraq yaranmışdır. Sosial iş insanlara köməyin həyata keçirilməsinə, onlara müxtəlif situasiyalarda yardım göstərilməsinə yönəldilmiş sosial fəaliyyət növüdür. Sosial fəaliyyətin kökləri zəiflərin və köməksizlərin dəstəklənməsi sisteminin inkişaf etmədiyi, insanların sosial qruplarda birləşə bilmədikləri qədim dövrlərə dayanır. Sosial fəaliyyətin əsasında dini-etnik baxışlar və müəyyən tarixi dövrlərdə sosial işi əlverişli həyata keçirmə metodları durur.

Tarixin erkən mərhələsi hesab olunan ibtidai icma quruluşu üçün səciyyəvi olan bölüşdürmə münasibətləri sonradan sədəqə, xeyriyyəçilik, o cümlədən zəiflərə, kasıblara, şikəstlərə və xəstələrə ənənəvi icma yardımı ilə əvəz olundu. Ardınca isə bu münasibətlər dövlət tərəfindən tənzimlənən hamilik fəaliyyəti ilə əvəz edilmişdir. Sosial iş ictimai təcrübə sahəsi kimi "Ehtiyacı olanlara kömək göstərilməsi haqqında" bilik sahəsinin müdafiəsi və dəstəklənməsinin təsiri altında dövlət sistemində qanuniləşdirilərək inkişaf etmişdir.

"Yaxınlarına kömək və dəstəyin göstərilməsi haqqında" ictimai düşüncənin əsas istiqamətləri XIV-XVII əsrlərdə dövlət tərəfindən qanunla təsdiq edilmişdir. XIX-XX əsrin əvvəllərində onlar "Xüsusi ictimai hamilik haqqında" vahid kompleksdə cəmlənmişdir. Bu dövrdə "İctimai köməyin mahiyyəti haqqında" sosial düşüncənin aşağıdakı əsas istiqamətləri formalaşmışdır: teoloji (ilahiyyat), konfessial (dini), hüquqi, əxlaqi, siyasi, iqtisadi.

XIX əsrdə meydana gələn modernləşmə cərəyanı sosial-mədəni hadisələrin dəyişməsi və insanların həyat şəraitlərinin çətinləşməsi ilə xarakterizə olunurdu. Bu cür şərtlərdə mədəni fenomenlər qanunauyğun şəkildə dəyişməyə başladılar:

1) Sosial həyatın icma formasından fərdi formaya keçidi;
2) Avtoritar liderlikdən cəmiyyətdə müxtəlif sosial qrupların marağına səbəb olan, demokratik prinsiplərə əsaslanan peşəkar menecmentə keçid;
3) İcma münasibətlərini tənzimləyən adi hüquqdan bütün vətəndaşların qanun qarşısında bərabərliyini təmin edən, cəmiyyətdə universal funksiya yerinə yetirən hüquqi münasibətlərə keçid;
4) Gerçəkliyə olan mifoloji münasibətdən insanları əhatə edən süni mühitin mürəkkəbləşməsi ilə şərtlənən rasional münasibətə keçid.

Bu gün yardım və müdafiə sahəsində milli tarixi təcrübənin əsasında formalaşan sosial işin yeni nümunəsi inkişaf pilləsindədir. Hal-hazırda vahid informasiya məkanında sosial yardımın dünya üzrə infrastrukturunun yaradılmasına olan ehtiyac get-gedə artmaqdadır. Sosial yardımın milli paradiqmasının əsas xüsusiyyətlərini müəyyənləşdirmək üçün lokal və qlobal təcrübəni müqayisə etmək lazımdır.

1.Sosial yardımın qərb modelində altruizm ideyaları ayrı-ayrılıqda hər bir insanın ən yüksək meyar kimi qiymətləndirildiyi fərdiyyətçilikdə öz əksini tapır. Altruizm öz mənafeyini unudub başqalarının qeydinə qalma, başqalarına təmənnasız yardım etməyə hazır olma deməkdir. Fərdiyyətçilik isə məhz individualizmdə təzahür edir.

2. Qərb modelində yardım prosesi şəkildəyişmə, daxili dəyişiklik, ruhun yenilənməsi kimi əks olunur ki, bu da yenilənməyə, yüksəlişə gətirib çıxarır. Sosial yardımın milli modelində himayəçilik həlledici amil rolunu oynayır, burada reallığın özü deyil, milli düşüncənin mənəvi mədəniyyətdə mütəmadi dəyişən reallıq ideyası bu işin əsas meyarını təşkil edir. Himayəçilik yaxınlaşma, öz yaxınının ehtiyacları ilə maraqlanmaq deməkdir.

3. Sosial iş, qərb yardım modelində peşə sahəsi kimi, feministlərin və liberal-demokratik müxalifətin könüllülük hərəkatından meydana gəlir və könüllü yardımdan peşəkar yardıma qədər fasiləsiz inkişaf mərhələsi keçir.

4. Qərb modelində yardım anlayışı tibbi, sosioloji, konfessional, hüquqi və psixoloji yanaşmaların əsasında yaranır. Psixologiya sosial işin inkişafının metodoloji bazasını təşkil edir, onun metodikasının kökündə isə qrup şəklində psixoterapevtik işin texnikası durur.

Sosial elmin inkişaf tarixində qərb modeli ilə yanaşı Rusiya modeli də vardır. Nəzərə alsaq ki, 200 illik Rusiya və Sovet İttifaqı işğalı altında olduğumuz dövrdə Azərbaycan da bu sosial iş modelinin tərkib hissəsi olmuşdur. Rusiyada sosial yardımın xüsusi olaraq öyrənilməsinə XIX əsrin əvvəllərində başlanılmışdır. Sosial yardım və müdafiənin milli təcrübəsinin tarixinə maraq ehtiyacı olanların–zəiflərin, fağırların dəstəklənməsi sahəsində ictimai hərəkatın yüksəlişi, eləcə də sosial siyasət sahəsində bir sıra dövlət tədbirlərinin keçirilməsi ilə bağlıdır. Bu illərdə aparılan tədqiqatlarda Rusiyada yardım və dəstək prosesinin tarixi və sosial hamiliyin təkamülü prosesi tarixi-statistik yanaşma mövqeyindən araşdırılmışdır.

Ancaq paralel şəkildə xristian xeyriyyəçiliyi mövqeyindən başqa bir yanaşma da inkişaf edir: xristian mədəniyyətində mərhəmət (şəfqət) təcrübəsi və xeyriyyəçiliyin mərhələləri ayrı-ayrılıqda nəzərdən keçirilir, fərdi xristian xeyriyyəçiliyinin tarixi meyilləri qeyd edilir. İctimai və fərdi yardım tarixinin müəyyən sahələri formalaşmışdır: sosial yardımın ayrı-ayrı mərhələlərinin və istiqamətlərinin (kilsə, zemskiy (yerli özünüidarəetmə orqanı), şəhər) xeyriyyə təşkilatları və cəmiyyətlərinin tarixi, ictimai himayənin dünyəvi təcrübəsi;

Yardım və dəstəyin tarixi təcrübəsinin öyrənilməsi ayrı-ayrı cəmiyyətlərin, müəssisələrin və fərdi xeyriyyəçilərin fəaliyyətlərinin tarixi təcrübəsinin dərk edilməsi ilə bağlıdır. Xeyriyyə cəmiyyətlərinin fəaliyyətinin araşdırılmasının əsası çar ailəsi tərəfindən təməli qoyulan "İmperator İnsanpərvərlik Cəmiyyəti"nin, "İmperatriçə qurumları idarəsi"nin öyrənilməsinə başlanıldığı zaman-XIX əsrin 70-ci illərində qoyulmuşdur. Rusiyanın müxtəlif şəhərlərində Qırmızı Xaç cəmiyyətinin, xeyriyyə təşkilatlarının fəaliyyəti də tarixi nöqteyi-nəzərdən aydınlığa qovuşur. Müxtəlif sosial-tarixi prosesləri, tarixi transformasiyaları (miqrasiya, urbanizasiya, geosiyasi məkanın balansının pozulması və s.) əks etdirən müəyyən sosial qruplar da tədqiqat obyektinə çevrilir. Deviant (doğru yoldan ayrılmış) qrupların xasiyyət, davranış və dəyər meyilləri tarixi sosial yardım konteksində xüsusi sosial sahəyə və tədqiqat predmetinə çevrilir.

Rusiyada sosial işin tarixi-konseptual interpretasiyasının problemləri müdafiə və qarşılıqlı yardımın tarixi təcrübəsinin heç də birmənalı olmayan şərhi ilə bağlıdır. İnsanın ictimai mövcudluğu hələ ibtidai icma quruluşu mərhələsində qarşılıqlı fəaliyyətin və qəbilənin müdafiəsinin müəyyən prinsiplərini formalaşdırmağa başlamışdır. Bu özünütəşkiletmə prinsipləri ilk növbədə həyati funksiyalarla, qonşularla, istilaçılarla vuruşma şərtlərində qəbilənin (nəslin) sağ qalması-yaşaya bilməsi ilə bağlıdır. Formalaşmaqda olan etnik mədəniyyət inkişaf istiqamətinə yönələrək qəbilənin daxilində və xaricində müdafiə mexanizminə çevrilir. Və əgər xarici müdafiə funksiyası qəbilənin genişləndirilməsi ilə bağlıdırsa, bu funksiya qəbilənin üzvlərinin müdafiəsi və dəstəklənməsini həyata keçirir. Ümumilikdə, sosial-genetik mexanizmlər redistribusiya (yenidən bölüşdürmə) və resiprokasiyanın (qarşılıqlı mübadilə) vahid sistemi kimi formalaşır [2.s.132].

Resiprokasiya əlaqələri sonradan müəyyən davranış stereotipləri formalaşdırır: qarşılıqlı yardım, məhsul və xidmətlərin mübadiləsi. Bu davranış formaları mənimsənilir, dəyişdirilir və mütləq sonrakı nəsillərə də ötürülür. Zaman keçdikcə yardım və dəstəyin tarixi təcrübəsindən yaranan qarşılıqlı davranış nominasiyaları tarixi dilin formalaşmasından asılı olaraq bir işarəyə çevrilir. Resikrop davranış nişanlarının müxtəlif formaları tarixi prizmada özlərinin semantik planlarını genişləndirir və müəyyən davranış qaydaları kimi zamanla sabitləşir.

Sistemli müxalifət, birlik, uşaq, qadın, qocalar, zəiflər (xəstələr, gücsüzlər) – sosial davranış aktlarının müəyyən toplusunu nizamlayır, onları kifayət qədər məhdud davranış formalarına və davranışın sosial dilinə yönəldir. Resikrop davranışın digər xüsusiyyəti funksional məhdudiyyət və zamanın mütəmadiliyi ilə bağlıdır. Sosial paradoks ondan ibarətdir ki, uşaqların, qadınların yaşlı insanların sosial baxımdan dəstəklənməsi və müdafiəsi problemləri aktualdır, səciyyəvidir, nə hər hansı zaman kəsiyində, nə də sosial-mədəni dünya məkanında həll edilmir.

Aşağıdakı konseptual modelləri nəzərdən keçirək:

1. terminoloji yekcinslik
2. terminoloji tamamlama
3. terminoloji müxalifət

Birinci konseptual modeldə resikrop sosial davranış yalnız ictimai hamilik kimi izah olunur (bu zaman "xeyriyyəçilik" terminindən istifadə edilmir).

İki anlayışın ("hamilik" və "xeyriyyəçilik") qarşılıqlı tamamlama kimi mövcud olduğu ikinci model real sosial əlaqələri eyniləşdirən sosial terminologiyanın özünəməxsusluğunu əks etdirir. Həm xeyriyyəçilik, həm də ictimai hamiliklə əlaqədar, bir-birinə yaxın münasibətləri bildirir, yəni resikrop davranışın bir sistemini yaradır. "Sosial təminat" və "sosial iş" anlayışları da həmçinin müasir resikrop davranışı ilə eyniləşdirilir. "Sosial iş" və "xeyriyyəçilik" anlayışları rus leksikonuna süni olaraq daxil edilsə də, sonralar qəbul olunmuşdur. Belə ki, müəyyən təşkilati əlaqələri əks etdirən sabit sosial münasibətlər, müasir mədəniyyətin multikultural məkanı üçün səciyyəvi olan resiprok davranışı ilə qarşılaşdırılır.

Üçüncü model konseptual-terminoloji müxalifətdə rast gəlinən anlayışları ifadə edir. Bu cür yanaşma prosesin interpretasiyasının yalnız mövcud zaman çərçivəsində mümkün olmadığı halda meydana çıxır. Diaxronik yanaşmalar zamanı dil nominasiyaları digər sosial reallığı əks etdirməlidir. Bu halda ekvivalentlərin müqayisəsinə ehtiyac duyulur. Lakin anlayış yaxınlığı pozulmur, çünki onlar vahid yer, məkan və prosesi ifadə edir. "Sosial iş" və "sosial təminat", eləcə də "xeyriyyəçilik" və "ictimai hamilik" anlayışları tarixi resikrop davranışın müxtəlif zaman və mərhələlərini də özündə əks etdirir.

Resikrop əlaqələr ilə eyniləşdirilən ilk anlayışlardan biri də "mərhəmət"(şəfqət), "xeyriyyəçilik" anlayışlarıdır. Bu anlayış orta əsrlər üçün səciyyəvi olan dəstək sistemini bildirir. XVIII əsrdən başlayaraq, dövlətin konfessial dəstək sistemlərini əvəz etdiyi zaman ictimaiyyətin əhalinin aztəminatlı qruplarına münasibətini və ictimai əlaqələrin yeni səviyyəsini qarşılaşdıran "yardım" anlayışı möhkəmlənməyə başlayır.

XX əsrdə bu anlayış yenidən əvvəlcə "sosial kömək" ("aide social"), daha sonra "sosial iş" ("travail social") anlayışı ilə əvəz olulur. Anlayışların təkamülü konseptual valentliklə bağlıdır. Konseptual valentlik - bu, "daha az və ya daha geniş əhatəli tamlığın yaradılması üçün ayrıca dil nişanının digər nişanlarla əlaqəyə girmək qabiliyyətidir". Dəstək və müdafiənin monosubyekti polisubyekt ilə əvəz edilən zaman meydana gələn konseptual dil kontekstlərindən işarənin yeni tarixi keyfiyyəti - valentlik yaranır. Bu, konseptual dilə müxtəlif anlayışlarla birləşmək və substantiv məna qrupları yaratmaq imkanı verir və sistemləşdirilmiş substantiv biliklər ictimai təcrübədə tətbiq olunur. Ona görə də "ictimai hamilik" və "xeyriyyəçilik" kimi müxalif anlayışlar substantiv dil davranışının mövcudluğunu və müstəqil idrak sahəsində varlığını təsdiq edir.

Köməyin göstərilməsinə monosubyektiv yanaşma təkamül yolu ilə inkişaf edən ictimai dəstək formalarının müxtəlifliyindən istifadə edilməməsi ilə xarakterizə olunur. Bununla bağlı resiprok davranışın müəyyən növlərinə əhəmiyyət verilmir, bu zaman yardıma ehtiyacı olanların anlayış sahəsi və obyekt qavrayışı daralır. Və əgər sosial davranış təkrar edilmir, yenilənmirsə, bu zaman yenidən mənalandırılan, başqa cür dərk edilən nominasiyalar yaranır. Həm də nəzərə almaq lazımdır ki, konseptual valentliyin istiqaməti substantiv dil məkanının sərhədlərindən kənarda deyil, onun anlayışlar dairəsində həyata keçirilir.

Resiprok davranış uyğunlaşmasının ilkin mərhələlərində "xeyriyyəçilik" anlayışı eyni konseptual ziddiyyətdə "sosial təminat" kimi başa düşülür. Sonralar "sosial təminat" anlayışı "sosial sığorta" anlayışı ilə eyni mənanı ifadə etsə də, nəticədə onlar konseptual işarə stereotipi yaradırlar. Bu anlayışlar işarəverici (göstərici) və sistemyaradıcı təyinlərə çevrilirlər. Onlar anlayış sahəsinin sərhədlərini müəyyən edir və resiprok davranışın müxtəlif növlərini aydınlaşdırırlar.

Hazırkı dövrdə Rusiyada müştəri patternlərinin spontan şəkildə genişlənməsi müşahidə edilir. Müştərilərin bu qədər çoxalması yalnız dövlət sisteminin strukturları vasitəsilə deyil, bilavasitə qrup və fərdi şəkildə eyni zamanda görüş, qavrayış, hiss vasitəsilə baş verir. Resiprok əlaqələrin genişlənməsinə səbəb, cəmiyyətdə köməyin obyektlərinə müvafiq olaraq, onun subyektlərinin meydana gəlməsidir. Yalnız dövlət tərəfindən deyil, həm də ictimai qruplar, təşkilatlar, fərdlər tərəfindən müxtəlif səviyyəli dəstək növlərini əks etdirən anlayışlar qrupu yaranır. Bütün bunlar, təbii ki, dil strukturlarında sabitləşir.

Hal-hazırda dəstəyin müəyyən strukturlarını əks etdirən anlayışların üç qrupu mövcuddur:

- I qrup dövlət institutlarının konseptual-terminoloji dil strukturlarını xarakterizə edir;
- II qrup peşəkar yardım subyektləri: sosial işçilər və sosial pedaqoqlar, onların fəaliyyəti və reflekslərі ilə bağlıdır;
- III qrup anlayışlar öz müştəriləri üçün dəstək və müdafiəni təmin edən qeyri-dövlət qurumlarının fəaliyyətini əks etdirir.

Yardım edən subyekt və obyektlərinin tarixi dəyişməsi prosesində resikrop davranışın substantiv nominasiyalarının genişlənməsi baş verir. Anlayışlar yardım və dəstəyin tarixi nümunələrini əks etdirir. Onlar özlərinin konseptual birləşməsi və dəyişikliklərində XIX əsrdə "ictimai hamilik" və "ictimai xeyriyyəçilik" anlayışları ilə əlaqələndirildiyi ki, bu gün "sosial iş" anlayışı ilə paralel inkişaf edən idrakın substantiv sahəsini formalaşdırırlar. Lakin nominasiyaların hal-hazırkı vəziyyəti son forma deyil, onlar müxtəlif tarixi, coğrafi, substantiv, konseptual amillərin təsiri ilə dəyişiləcəkdir. Anlayışın dəyişməsi obyektiv hadisədir. O, qarşılıqlı yardım prosesinin müəyyən tarixi tipini müəyyənləşdirir ki, bu da, bir qayda olaraq, onun əvvəlki modelinin əvəzlənməsinə gətirib çıxarır. Bu prosesin daimi olaraq dəyişən müxtəlif aspektlərində müstəqil tarixi mənalar görmək olar.

Cəmiyyətin bir təbəqəsinin digər təbəqələr tərəfindən dəstəklənməsi və qorunmasının əsasını mədəni-tarixi cəmiyyətdə qarşılıqlı yardım təşkil edir;

1. Bu fenomen sosial-tarixi perspektivdə öz tarixi və fərdi inkişafının genezisi ilə təmsil olunan sosiogenetik şərtlənməyə malikdir.

2. Bu fenomen inkişaf prosesində öz interpretasiyasını müxtəlif quruluşlarda tapmış və kütləvi düşüncələrdə dil formaları və strukturlarında təsbit edilmişdir.

3. O, özünün yardım subyektləri, obyektlər və ideologiyası ilə

mövcudluğun tarixi formalarına malikdir ki, bu da nəticədə mədəniyyət hadisəsi, prosesi və fenomeni kimi onun sosial-genetik tipologiyasını müəyyən edir.

Ədəbiyyat

1. Həsənov R. Sosial siyasət. Bakı: Bakı Universiteti nəşriyyatı, 2016
2. Losev A.F. Dil strukturu. M., 1983.
3. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı, MBM, 2012
4. Sosial işin əsasları. Müntəxəbat. Iki hissəli. B., 2006
5. Теория социальной работы. Под ред. Холостовой Е. И., М., 2003

РЕЗЮМЕ

СОЦИАЛЬНАЯ РАБОТА КАК НАУЧНЫЙ ФЕНОМЕН В СОВРЕМЕННОМ МИРЕ

Буньядов З.В.

Ключевые слова: *социальное, действие, современное, общественное, возмещение, помощь*

Социальная работа имеет важное значение в современном мире. Хотя она зародилась как область практической деятельности, позднее она стала оформляться как наука. Наряду с объектом исследования и предметом формировались также принципы, категории и методы социальной работы. Социальный работник – это вид профессии, который выражает сострадание, доброту, помощь и поддержку и реализует это на основе принципа волонтерства. Отрадно, что Сумгаитский государственный университет уже увидит среди своих выпускников обладателей этой квалификации.

SUMMARY

SOCIAL WORK AS A SCIENTIFIC PHENOMENON IN THE MODERN WORLD

Bunyadov Z.V.

Key words: *social, action, modern, public, voluntary, assistance*

Social work is a phenomenon in the modern world. Although social work originated as a field of practical activity, it later began to take shape as a science. Along with the research object, subject and subject, the principles, categories, and methods of social work were also formed. Social worker is a type of profession that expresses compassion, kindness, help and support, and implements it based on the principle of volunteering. It is gratifying that Sumgayit State University will already see the holders of this qualification among its graduates.

MÜASİR DÖVRDƏ SOSİAL İŞİN ƏHƏMİYYƏTİ

Yusifova N.Ə.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

nl.kerimzade@gmail.com

Açar sözlər: *cəmiyyət, elm, inkişaf, təhsil, sosial, sosial iş*

Sosial ədalət məqsədləri və "rifahın yüksəldilməsi" peşənin müalicəvi məqsədləri qeyd edilmədən, bəzən sosial sahədə ən xarakterik olduğu ifadə edilən görkəmli mövzulardır.

Amerika Birləşmiş Ştatlarında işləmək. “Müxtəlifliklər” və “yerli biliklər”in qeyd edilməsi də əhəmiyyətlidir. Tərifi izah edərkən, IFSW və IASSW aşağıdakıları edir bəyanat: "Sosial iş həm fənlərarası, həm də transdisiplinardır və geniş elmi nəzəriyyələrdən istifadə edir. “Elm” bu kontekstdə ən əsas mənası ilə “bilik” kimi başa düşülür." ABŞ-da Sosial İşçilərin Milli Assosiasiyasının (NASW) Sosial İş Lüğəti (Barker, 2003) sosial işi bu şəkildə tərif edir: “... Sosial işçilər insanlara problemləri həll etmək və mübarizə aparmaq bacarıqlarını artırmağa kömək edir və onlara lazımi resursları əldə etməyə kömək edir, fərdlər və insanlar və onların ətrafları arasında qarşılıqlı əlaqəni asanlaşdırır, təşkilatları insanlar qarşısında məsuliyyətli edir və sosial siyasətlərə təsir göstərir. Sosial işçilər fərdi, ailə və icma məsələlərini həll edən müştərilərlə birbaşa işləyə bilər və ya sistem səviyyəsində qaydalar və siyasətin işlənib hazırlanması, yaxud böyük sosial işlərin idarəçiləri və planlaşdırıcıları kimi işləyə bilərlər”.

Bu tərif Paynenin üç ölçüsünün birinci və ikincisinə müraciət edir, lakin açıq şəkildə sosial inkişaf və sosial dəyişikliyə toxunmur. Birləşmiş Ştatlarda sosial işin sosial ədalətə və sosial dəyişikliyə olan bağlılığı ən açıq şəkildə NASW-nin Etika Kodeksində (Sosial İşçilərin Milli Assosiasiyası [NASW], 2008) ifadə edilir, bu tərifdən daha tez-tez istifadə olunur.

Birbaşa və ya klinik sosial iş təcrübəsi Birləşmiş Ştatlarda sosial iş təcrübəsinin ən geniş yayılmış forması olduğundan onun tərifini qeyd etmək lazımdır. Bunlardan biri: Klinik sosial iş təcrübəsi sosial iş nəzəriyyəsi və metodlarının psixososial disfunksiyanın, əlilliyin və ya zəifliyin, o cümlədən emosional və ya psixi pozğunluqların müalicəsi və qarşısının alınması üçün peşəkar tətbiqidir ... . Klinik sosial işə müdaxilələr daxildir şəxsiyyətlərarası qarşılıqlı əlaqələrə, intrapsixik dinamikaya, həyat dəstəyi və idarəetmə məsələlərinə yönəldilmişdir. (NASW, 2005)

Eyni sənəddə, klinik sosial iş daxilində sosial iş rollarının izahına "müştəri mərkəzli təbliğat" daxildir, lakin geniş və ya daha ənənəvi mənada elm qeyd olunmur. Bu yaxınlarda aparılan sistematik bir araşdırma göstərir ki, klinik sosial iş və sosial ədalət haqqında nəşr olunan ədəbiyyat klinik sosial işin sosial ədalətin məqsədlərini inkişaf etdirə biləcəyi və edə biləcəyi bir çox müxtəlif yolları göstərir .

İctimai iş fərdlər, qruplar və icmalar üçün səlahiyyətləri təmin etmək üçün nəzərdə tutulmuş sosial elm intizamıdır. Bu qlobal məqsədə nail olmaq üçün sosial iş problemləri həll etmək üçün istifadə etdiyi elmi prosedurları qəbul edir.

Bəli Sosial iş bir elmdir, çünki istənilən problemin həlli prosesində elmi prinsipləri qəbul edir.

Müşahidə: bu, hər hansı bir problemin həlli prosesində əsas elmi prosedur kimi dayanır və sosial işçilər müştərilərin problemini dərindən təhlil etmək üçün şifahi və şifahi olmayan suallara diqqət yetirirlər.

Planlaşdırma: hər hansı bir elmi prosedur adekvat planlaşdırma olmadan natamamdır. Eyni şey sosial işə də aiddir. Problemli situasiyada dəyişiklik təmin etmək üçün mütəxəssis mütəmadi olaraq həyata keçiriləcək və nəzərdən keçiriləcək dəyişiklik fəaliyyətləri planı hazırlayır.

Müdaxilə: bu, müəyyən edilmiş fəaliyyət planının faktiki həyata keçirilməsidir. Burada bütün fikirlər, müşahidələr və nəzəriyyələr həyata keçirilir

Yuxarıda qeyd olunanlar bilavasitə Sosial iş praktikasına aid olan elmin əsas xüsusiyyətlərindən bəzilərdir.

Müdaxilə zamanı sosial iş nəzəriyyələrinin istifadəsi bəlkə də peşənin elmi mahiyyətinin əsas göstəricisidir. Sistemlər nəzəriyyəsi, Rollar nəzəriyyəsi kimi nəzəriyyələr hər hansı bir problemin həlli prosesində bələdçi rolunu oynayır, çünki sosial işçilər birdən işləmir. Müasir sosial iş üç yardım metodundan istifadə edir: iş, qrup işi və icma təşkilatı. Keys işi fərdi şəxslərə və ailələrə yardım edilən üsuldur. İşə ehtiyacı olan şəxs fiziki, əqli və ya sosial cəhətdən qüsurlu ola bilər. Sosial cəhətdən əlil sayılanlar arasında: işsizlər, evsizlər, dağılmış ailələrin üzvləri, alkoqoliklər, narkomanlar, baxımsız və ya problemli uşaqlar var. Uyğunlaşmamanın səbəbini müəyyən etmək üçün sosial işçi fərdi psixologiya ilə yanaşı, cəmiyyətin sosiologiyasını da başa düşməlidir. Çətinliyə diaqnoz qoymaq üçün həkimlər, psixiatrlar və digər mütəxəssislər tələb oluna bilər.Sosial qrup işinə sosial məskunlaşma, nəzarət olunan oyun meydançası və idman zalı və əl işlərinin öyrənilə biləcəyi sinif nümunəsi göstərilir. İcma bu cür fəaliyyətlər üçün bina və zəmin təmin etməyə çağırıla bilər; çox vaxt könüllülərin və ictimai qrupların xidmətlərindən istifadə olunur; son illərdə yoxsulluq zonalarında yaşayan insanlar öz icmalarında işləmək və yoxsulluq layihələrini idarə etmək üçün işə götürülüblər.

İcma təşkilatı vasitəsilə tək qurumların, eləcə də bütöv icmaların rifah işi istiqamətləndirilir, dövlət və özəl qurumlar arasında əməkdaşlıq təmin edilir, vəsait toplanır və idarə olunur. Özəl agentliklərin tələb etdiyi vəsaitlər çox vaxt hər bir qurumun pay aldığı icma sandığına yığılır. İcma rifahı şuraları reabilitasiya proqramlarının xəritələşdirilməsi, xidmətlərin təkrarlanmasının aradan qaldırılması və diqqətdən kənarda qalan ehtiyacların aşkar edilməsi və ödənilməsi üçün təşkil edilir.

Ədəbiyyat

1. Sosial işin əsasları. Müntəxəbat. Iki hissəli. B., 2006
2. Теория социалной работы. Под ред. Холостовой Е. И., М., 2003

РЕЗЮМЕ
ЗНАЧЕНИЕ СОЦИАЛЬНОЙ РАБОТЫ В СОВРЕМЕННЫЙ ПЕРИОД
Юсифова Н.А.

Ключевые слова: *общество, наука, развитие, образование, социальная, социальная работа.*

Социальные работники помогают людям в решении проблем и преодолении трудностей, а также содействуют в получении доступа к необходимым ресурсам, облегчают взаимодействие между отдельными людьми и их окружением, делают организации подотчетными людям и влияют на социальную политику. Социальные работники могут работать непосредственно с клиентами, занимающимися личными, семейными и общественными проблемами, над политикой и разработкой политики на системном уровне, или в качестве администраторов и планировщиков крупной социальной работы

SUMMARY
THE IMPORTANCE OF SOCIAL WORK IN MODERN TİMES
Yusifova N.A.

Keywords: *society, science, development, education, social, social work*

Social workers help people improve their problem-solving and coping skills and help them access needed resources, facilitate interactions between individuals and people and their environments, make organizations accountable to people, and influence social policies. Social workers may work directly with clients dealing with individual, family, and community issues, or may work as systems-level policy and policy development, or as administrators and planners of large social work.

TƏHSİLDƏ QLOBALLAŞMANIN MAHİYYƏTİ

Fərhadova J.F.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
cale80@mail.ru

Açar sözlər: *qloballaşma, cəmiyyət, təhsil, intellektual bacarıqlar; siyasi təfəkkür.*

Bu gün qloballaşmanın təhsillə bağlı məsələləri siyasi və akademik dairələr tərəfindən geniş müzakirə obyekti olmuşdur. Onlardan bəziləri tamamilə bu fenomeni inkar etsələrdə başqaları bu prosesi başa düşməyə çalışır, onu obyektiv reallıq kimi qiymətləndirir, üçüncü tərəf isə qloballaşma ideyası ilə tamamilə razılaşaraq, onu yeni əsrin Avropa və dünya təhsil məkanında gedən dəyişikliklərlə əlaqələndirməyə çalışırlar. Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə dünyada baş verən qloballaşma ümumbəşəri prosesdir, geniş mənada yanaşsaq dövlətlər və xalqlar arasındakı münasibətlərdə səmərəli şəkildə eyni görünüşə gətirilməlidir ki, bunu da unifikasiya adlandırırıq. Bir çox ölkələr bunları normal hal kimi dəyərləndirir və qarşıalınmaz proses kimi qəbul edirlər. Dünyanın yeni coğrafi kəşfi nəticəsində yer kürəsində yaşayan xalqlar, millətlər və ölkələrin bir-birinə inteqrasiyası qloballaşmam aktual bir problemə çevirmişdir [1,2,3]. Yer kürəsində gedən problemli proseslər bütün ölkələr üçün eyni olduğu üçün qloballaşmanı qaçılmazdır. Məsələn: qlobal ekoloji problem, qlobal iqlim dəyişməsi problemi, qlobal ərzaq çatışmazlığı problemi, kütləvi savadsızlığın aradan qaldırılması, yaşlıların təhsili, narkomaniya, terrorizm və sair.

Qlobal sözü Azərbaycan dilinə roman dillər qrupundan gəlmişdir, latın dilində “globe” - şar mənasını bildirir və aşağıdakı kimi də izah olunur:

-şar kimi yumru;

-yer kürəsinə bənzər dairəvi;

-başa çatmış, tamamlanmış, yəni ölkələrin dünyalaşması.

Qloballaşma ilə bağlı modernləşməni müasir dövrün tələblərinə, yeni tələb və normalara, texnoloji proseslərə uyğunlaşmaq kimi başa düşmək lazımdır. Dünyanın yeni coğrafi kəşfindən sonra modernləşmə nəticəsində, ənənəvi cəmiyyətdən müasir cəmiyyətə makro keçid prosesi baş verdi. Bunu aşağıdakı kimi dövrləşdirərək, inkişafın müasir tendensiyaları əsasında izah etmək olar:

-manufaktura və ya erkən sənaye dövründə modernləşmə (XVI-XVII əsrin ortaları);

-sənayenin inkişafı dövründə modernləşmə (XVII əsrin sonu, XIX əsr);

-erkən sənayeləşmə dövründən sonrakı modernləşmə (XX əsrin birinci yarısı);

-iri sənayeləşmədən sonrakı dövrdə modernləşmə (XX əsrin ortalarından bu günədək).

Qloballaşma müstəvisində dünyada gedən modernləşmə əsasında dövlətləri iki qrupa - avtoritar və demokratik dövlətlər qrupuna bölmək olar. Qloballaşma istənilən müstəvidə məkan və məsafələrin sıxılmasını şərtləndirir, xalqları və mədəniyyətləri bir-birinə doğru aparır. Qloballaşma insanların təfəkkürünün varlığın yeni reallıqlarına uyğunlaşmasını irəli sürərək, geniş miqyaslı informasiyanı təhlil edərək operativ qərarlar qəbul edib, dövlətin gələcəyi müəyyən edə bilən yeni nəsil kadrların hazırlanmasını diktə edir. Bu şəraitdə təhsil sistemi xüsusi funksiya yerinə yetirir. [4].

Qloballaşma, eyni zamanda onun dinamikliyini artıran və ona yeni çalarlar verən əsas səviyyə, informasiya texnologiyalarının güclü inkişafı, ümumilikdə isə keçmişə münasibətdə hadisələrin başvermə sürətinin yüksək səviyyədə artması ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev hələ keçən əsrin 70-ci illərində informasiya texnologiyalarının inkişafının insan həyatında mühüm dəyişikliklərə səbəb olacağını hiss edərək bu sahəyə xüsusi diqqət yetirmiş və bugünkü inkişafın təməlini qoymuşdur. Heydər Əliyev demişdir ki, dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlar, müəllimlər, təhsil müəssisələrinin rəhbərləri tezliklə təhsil sistemində işləri müstəqil Azərbaycanın gələcək inkişaf istiqamətləri əsasında qurulmasını təm in etm əlidirlər [1].

Qloballaşmanın dörd əsas məqsədini xüsusi qeyd edərək, onların aşağıdakı kimi qruplaşdırılmasını məqsədəmüvafiq hesab edirik: -yeniyetişən gənc nəslin həyata, əməyə və müxtəlif sosial-mədəni, etnik və dini mənsubiyyətli insanlarla qarşılıqlı əlaqələrin qurulmasına hazırlanması; -konstruktiv qərarlar qəbul etməyi, ölkəsinin bu günü və gələcəyi ilə bağlı məsuliyyəti öz üzərinə götürməyi bacaran yaradıcı şəxsiyyətlərin hazırlanması; -qlobal cəmiyyətdə milli mədəniyyətin qorunması və inkişaf etdirilməsi sahəsində təhsilalanlarda (ümumiyyətlə gənclərdə) qlobal səriştəliliyin formalaşdırılması; -təhsilalanlarda dərk etmə motivasiyasının və mənimsəmə bacarıqlarının keyfiyyətinin yüksəldilməsi. İkinci yüzilliyin sonu və üçüncü yüzilliyin başlanğıcı cəmiyyətin qlobal transformasiyası, bütövlükdə mövcud nizamlı dünyada dəyişikliklərin baş verməsi ilə xarakterizə olunur. Dünyanın yenidən strukturlaşdırılması ilə bağlı siyasətçilərin və alimlərin qabaqcadan proqnozlaşdırdıqları dəyişikliklərə dair mövqelər (məsələn "yeni sənayeləşdirilmiş cəmiyyət", "postsənayeləşdirilmiş cəmiyyət", "informasiya cəmiyyəti", "qlobal kənd" və s.) real proseslərin gedişi ilə tamamilə üst-üstə düşür.

Təhsildə qloballaşma təhsilalanlarda qlobal (planetar) təfəkkürün formalaşmasını tələb edir. Qlobal-səmtləşmiş təfəkkür təhsil müəssisələrində, bir tərəfdən dünyanın qabaqcadan deyilənlərə əsaslanmadan dərk olunması ideologiyasına uyğun, digər tərəfdən tədris planları və proqramlarında olan mövzulara həsr olunmuş dərslərin koqnitivkommunikativ texnologiyalar əsasında aparılmasına üstünlük verir. Ümumilikdə insan qlobal düşünmə qabiliyyətinə malik olmalıdır, onun fəaliyyətindən çox şey asılıdır. Məsələn, öyrənənlərdə ekoloji savadlılığın formalaşdırılması qlobal təhsilin ən başlıca məsələlərindəndir. Bu proses tədris planlarında ictimai, humanitar və təbiət elmləri blokunu da nəzərə alaraq, üç əsas elmi istiqamətin - estetik, tarixi və kulturoloji inteqrasiyanı həyata keçirərək dünyanın konseptual m ənzərəsinin dərk olunmasını təm in etməlidir.

Qlobal təfəkkürü, nəyə inanmalı, nə etməli məsələlərin həllində düşünülmüş (ağıllı), dərk edilmiş qərarların verilməsinə birbaşa köməklik göstərən təfəkkür forması kimi qəbul etmək lazımdır. Qlobal təfəkkürün komponentlərinə biliyə həvəsi, skeptisizmi, refeksiyanı, rasionalizmi (əql və idrak ilə iş görmə, öz işində, hərəkətlərində əqlə və idraka əsaslanma) daxil etmək məqsədəmüvafiqdir.

Müasir dövrdə təhsildə qloballaşma pedaqoji nəzəriyyə və praktikanın ən perespektivli istiqamətlərindən olub, təhsilalanların mürəkkəb və daimi dəyişən kainatın çoxlu sayda siyasi, iqtisadi, ekoloji, sosial və digər problembrilə bağlı məsələlərin həllinə adaptasiya olunmalarına hazırlanmasını əsas problem kimi önə çıxıb. Həqiqətən təhsildə qloballaşma konsepsiyası, milli-mənəvi dəyərləri nəzərə alaraq, konstruktiv məsələlərin həllində sərbəst qərarlar qəbul etmək bacarığı olmaq, gələcək taleyinin məsuliyyətini başa düşən yaradıcılığını əsas məqsəd kimi qarşıya qoyur.

Təhsilin qloballaşması konsepsiyası yaradıcı şəxsiyyətin tərbiyə olunmasını, konstruktiv qərarlar qəbul etmək bacarığına, intellektual və mənəvi potensialını inkişaf etdirmək imkanına malik təhsilalanların formalaşmasını, təhsilverənlərin elmi-metodiki ustalığını və peşəkar fəaliyyətlə bağlı mədəniyyətlərinin təkmilləşdirilməsini qarşısına əsas məqsəd kimi qoymuşdur. Bunların reallaşdırılması aşağıdakı məsələlərin həllinə geniş imkanlar açır: -öyrənən şəxsiyyətin hüquqlarını, azadlığını və ideyalarını (qayələrini) nəzərə alaraq, onun tədris-təlim prosesinin mərkəzinə gətirilməsi; -təhsilalanlarda hadisələri obyektiv qiymətləndirmək, hadisələri və faktları sərbəst təhlil etmək bacarıqlarının formalaşdırılması; -şəxsiyyətin dünyaya oriyentasiyasının məqsədəmüvafiq həyata keçirilməsi; -inkişafetdirici təhsil ideyası əsasında şəxsiyyətin intellektual bacarıqlarının formalaşdırılması; -təhsilalanların mədəni düşüncə tərzinin inkişaf

etdirilməsi; -təhsilalanların mədəniyyətlərarası kompitensiyalarının yüksəldilməsi; -şəxsiyyətin sosial adaptasiyası, özünəindetifikasiyası üçün optimal şəraitin yaradılması; -tədris-təlim prosesinin beynəlmiləlləşdirilməsi; - İnsanlarda dünyanın qarşılıqlı əlaqədə olan ekosistem kimi təqdim olunma bacarıqlarının inkişaf etdirilməsi.

Bizə məlumdur ki, ideal təhsil sistemi mövcud deyildir. Hər bir milli təhsil sistemi ölkənin siyasi və sosial-iqtisadi durumundan asılıdır. Milli təhsil sistemi təkcə cəmiyyətin və tədris-təlim prosesinin əsasına qoyulmuş müsbət təcrübə və tendensiyalardan asılı olmayıb, eyni zamanda qabaqcıl beynəlxalq təcrübəni də nəzərə almalıdır. Qloballaşma prosesində beynəlxalq qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi və inkişaf etdirilməsinin səmərəli yollarını aşağıdakı kimi qruplaşdırmaq məqsədəmüvafiq hesab edilməlidir: -mütəxəssislərin hazırlanmasında əlaqələrin genişləndirilməsi; -təhsil menecerlərinin, ekspertlərin hazırlığının təkmilləşdirilməsi və gələcək inkişafı üçün, yeni beynəlmiləl təhsil proqramlarının yaradılması (işlənilməsi); -tədris prosesində istifadə olunan tədris-metodiki ədəbiyyatın və normativ sənədlərin mübadiləsi; -dövlətlərarası vahid analitik-informasiya m ərkəzinin formalaşdırılması üçün tədbirlərin işlənilməsi; -müştərək elmi tədqiqatların aparılması üçün proqramların işlənilməsi və reallaşdırılması, bu sahədə rəqabətli metodikaların qiymətləndirilməsi; -keyfiyyətin təmin olunması və keyfiyyətə nəzarətlə bağlı normativ sənədlərin mübadiləsi. Qloballaşma şəraitində cəmiyyətin inkişafı ilə bağlı məsələlərin həlli yeni konseptual yanaşmaların işlənilməsini tələb edir. Qeyd etmək lazımdır ki, bəzi qlobal problemlər, dünya xalqlarının sosial-iqtisadi durumu ilə bağlı ziddiyyətli, bir-birilə düz gəlməyən problem lər törədir. Ona görə də bütövlükdə qlobal problemlər (o cümlədən təhsil sistemində) milli-mənəvi dəyərlər nəzərə alınmaqla bütün dövlətlərin qarşılıqlı əməkdaşlığı əsasında həll olunmalıdır. Bunun üçün insanların həyat tərzində və şüurunda dəyişikliklər edəcək yeni siyasi təfəkkürün formalaşması baş verməlidir. Bununla bağlı, müasir qlobal problemlərin geniş əhatəliliyi və ağırlığı bütün dövlətlərin, siyasi partiyaların, ictimai birliklərin konstruktiv və cəsarətli fəaliyyətlərini birləşdirməyi tələb edir. Bunun üçün planetdə yaşayan bütün insanlar "insan-cəmiyyət-təbiət" sistemində həyat fəaliyyətinin müasir tələblər səviyyəsində təmin olunması ilə bağlı öz fəaliyyətlərini qurmalıdırlar. Bu isə müxtəlif ölkələr arasında, milli-mənəvi dəyərləri nəzərə alaraq beynəlxalq əməkdaşlığın genişləndirilməsini tələb edir. Araşdırmalar göstərir ki, qloballaşma şəraitində yeni siyasi təfəkkürün form alaşması təkcə insanların və dövlətlərin mövcudiyyətinə yeni baxış olmayıb, eyni zamanda cəmiyyətin və yer kürəsinin varlığının saxlanılmasına yeni baxışdır.

Ədəbiyyat

1. Mərdanov M.Ç. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009.
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
3. Войтович А.Г. Глобальные проблемы мира. М.: Наука, 1999.
4. Соколинский В.М. Глобальные проблемы экономики, М.: Высшая школа, 1998.

РЕЗЮМЕ
СУЩНОСТЬ ГЛОБАЛИЗАЦИИ В ОБРАЗОВАНИИ

Фархадова Ж.Ф.

Ключевые слова: *глобализация, общество, образование, интеллектуальные способности, политическое мышление.*

Глобализация является всемирным процессом, в широком смысле, требующим проведение унификации в отношениях между народами и государствами. Глобализация для всех стран неизбежна из-за идущих в мире одинаковых проблемных процессов. В статье даются основные направления, положительные и отрицательные особенности глобализации. Как педагогическая проблема, исследуются технология и основные принципы в системе образования. После обобщения полученных результатом, даются соответствующие рекомендации.

SUMMARY
THE ESSENCE OF GLOBALIZATION IN EDUCATION

Farkhadova J.F.

Key words: *globalization, society, education, intellectual skills, political thinking*

Globalization is a global process, in the broad it requires unification in connection between peoples and states. Globalization is inevitable for all countries in the world because of scimitar problematic processes. This article provides basic directions, positive and negative features of globalization as a pedagogical problem, are studied in the education system, conclusions are generalized and corresponding recommendations are given.

BAKI ŞƏHƏRİNDƏ NİKAH VƏ BOŞANMALARIN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Mirzəyeva Z.A.
Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
mirzeyeva.zeyneb.92@mail.ru

Açar sözlər: *Bakı şəhəri, demoqrafik proseslər, şəhər əhalisi, nikah, boşanma*

Giriş. Bütün ölkədə olduğu kimi, Bakı şəhərində də demoqrafik proseslər və onların inkişafı ölkədə, hətta regionda gedən sosial-iqtisadi hadisələrlə birbaşa əlaqəlidir. Mühüm demoqrafik göstəricilərdən biri olan nikah və boşanmalar da qeyd edilən amillərin təsiri altında ayrı-ayrı illər üzrə fərqli tendensiyada artıb, azalmışdır.

Bakı şəhər ərazi dairəsi 12 inzibati rayon, 59 qəsəbədən ibarətdir. Əhalisinin sayı 2300,5 min nəfərdir, onlardan 1278,4 min nəfəri və ya 56%-i şəhər mərkəzində, 1022,1 min nəfəri və ya 44%-i şəhər ətrafında məskunlaşır (01.01.2021). Şəhərin payına ölkə ərazisinin 2,5% düşdüyü halda, ölkə əhalisinin 22,7%-i, ümumi şəhər əhalisinin isə 42,9%-i düşür. Onların 1144,3 min nəfərini, yəni 49,7%-ni kişilər, 1156,2 min nəfərini, yəni 50,3%-ni qadınlar təşkil edir [1].

Bakı şəhəri və ətraf rayonlarda yeni iş yerlərinin yaradılması, ümumiyyətlə, regionun yüksək sosial-iqtisadi inkişafı əhalinin də burada cəmlənməsinə səbəb olur [8]. Ölkənin digər şəhərləri ilə müqayisədə Bakıda əhali sürətlə artır. Xüsusilə şəhərə gənclərin miqrasiyası intensivləşir. Ərazidə əlverişli cins-yaş tərkibinin formalaşması ümumi şəhər əhalisi üzrə mütləq hesabla nikahların 40%-dən çoxunun, boşanmaların isə 50%-dən çoxunun Bakının payına düşməsi ilə nəticələnir.

Material və metod. Azərbaycanda şəhər əhalinin demoqrafik göstəricilərinin tədqiqində Ə.M. Hacızadə, V.Ə. Əfəndiyev, S.Q. Nağıyev, Ş.Q. Dəmirqayayev, E.Q. Mehrəliyev, N.H. Əyyubov, M.O. Sadıqov, Z.N. Eminov, E.S. Bədəlov və başqa alimlərin böyük rolu olmuşdur.

Tədqiqatın aparılmasında statistik-riyazi, müqayisəli təhlil, sistem-struktur, tarixi-coğrafi təhlil və s. tədqiqat metodlarından istifadə olunmuşdur.

Təhlil və müzakirə. Sosial hadisə olan nikah ailənin əsasını təşkil edir. Əhalinin nikah vəziyyəti və onun quruluşu demoqrafik, sosial-iqtisadi, psixoloji amillərin həmçinin milli adət-ənənələrin təsiri altında formalaşır. Nikahların sayı və intensivliyi əhalinin sayı, təbii artımı, cins-yaş strurukturu, miqrasiyalarla birbaşa əlaqəlidir.

1979-1989-cu illərdə Bakı şəhərində qeydə alınmış nikahların əhalinin hər 1000 nəfərinə olan sayı 9,4-9,3 nəfər olmuş, şəhər əhalisi üzrə orta göstəricidən (9,7 nəfər) az fərqlənmişdir. Bu dövrdə ümumi şəhər əhalisi üzrə bağlanan nikahların müvafiq olaraq, 45,7%-44,8%-i Bakı şəhərinin payına düşmüşdür.

Sonrakı 10 illikdə müharibə şəraiti, əhalinin maddi vəziyyətinin pisləşməsi, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq işsizlik və s. amillər əhalinin - xüsusilə gənc kişilərin miqrasiya intensivliyinin artmasına səbəb olmuş, nəticədə əhalinin cins-yaş strukturu pozulmuş, bu da öz növbəsində nikahların mütləq və nisbi göstəricilərində kəskin azalmaya gətirib çıxartmışdır. 1999-cu ildə şəhərdə nikahların mütləq sayı 1,8 dəfə, əhalinin hər 1000 nəfərinə olan payı isə 1,9 dəfə azalmışdır. Sonrakı dövrlərdə tədricən artım müşahidə olunmuş, 2009-cu ildə 1,8 dəfə artaraq özünün ən yüksək göstəricisinə (9,1 nəfər) çatmış, ölkə şəhər əhalisi üzrə nikahların 45,7%-i Bakı şəhərinin payına düşmüşdür. Həmin dövrdə şəhərdə əhali sayının ən yüksək artım nisbətinin (114,4%) müşahidə olunması, xüsusilə şəhərətrafına gənclərin miqrasiyası əlverişli cins-yaş nisbətinin formalaşmasına nikah göstəricilərinin artımına səbəb olmuşdur.

Cədvəl 1.

Nikahların ümumi sayı və əmsalı

İllər	Nəfər		Hər 1000 nəfərə	
	Şəhər yerləri	Bakı şəhəri	Şəhər yerləri	Bakı şəhəri
1979	31290	14310	9,7	9,4
1989	35974	16100	9,7	9,3
1999	18799	9016	4,7	5,0
2005	35593	16153	8,1	8,7
2009	40708	18615	8,7	9,1
2015	36623	16747	7,2	7,6
2020	18314	8360	3,5	3,6

Mənbə: *Azərbaycanın əhalisi 2000, Bakı 2001. Səh 68. Azərbaycanın əhalisi 2010, Bakı 2010. s 93. Azərbaycanın demoqrafik göstəriciləri 2021, səh 53-56.*

Növbəti illərdə, yenidən nikahların mütləq və nisbi göstəriciləri azalmaya doğru meyil etmiş, 2015-ci ildə nikahların nisbi əmsalı azalaraq 7,6-ya, 2020-ci ildə isə pandemiya şəraiti ilə əlaqədar özünün ən aşağı göstəricisinə 3,6-ya çatmışdır.

Cədvəl 2.

Boşanmaların ümumi sayı və əmsalı

İllər	Nəfər		Hər 1000 nəfərə	
	Şəhər yerləri	Bakı şəhəri	Şəhər yerləri	Bakı şəhəri
1979	6831	4124	2,1	2,7
1989	10723	6827	2,9	3,9
1999	4028	2529	1,0	1,4
2005	6864	3793	1,6	2,0
2009	5765	3049	1,2	1,5
2015	8658	4253	1,7	1,9
2020	9531	4238	1,8	1,8

Mənbə: *Azərbaycanın əhalisi 2000, Bakı 2001. Səh 68. Azərbaycanın əhalisi 2010, Bakı 2010. s 93. Azərbaycanın demoqrafik göstəriciləri 2021, s. 53-56.*

Tədqiqat aparılan dövr ərzində, sosial-iqtisadi amillərin təsiri ilə nikah göstəricilərində müşahidə olunan azalmalar təbii artıma da ciddi təsir göstərmişdir. Beləki, nikahların nisbi əmsalının kəskin azaldığı 1999-cu ildə təbii artımın nisbi əmsalı da kəskin azalmış 5,8-ə enmişdir. Sonrakı dövrlərdə həm nikah, həm də təbii artım göstəriciləri tədricən artmışdır. 2020-ci ildə ümumi ölkə ərazisində pandemiya şəraiti ilə əlaqədar olaraq kütləvi tədbirlərin ləğvi nikahlar kəskin azalmasına səbəb olmuş, nəticədə təbii artım əmsalı özünün ən aşağı göstəricisinə 3,4-ə enmişdir [2] .

Boşanma dövlət tərəfindən qeydə alınmış nikah müqaviləsinin məhkəmənin qərarı ilə qüvvədən düşməsidir. Nikahların bağlanmasının ilkin mərhələsində olan boşanmalar əhalinin artımına, yaşayış səviyyəsinə, uşaqların maddi təminatına, onların formalaşmasına ciddi təsir göstərir [7].

Təhlil aparılan dövr ərzində, Bakı şəhərində boşanmaların nisbi sayı şəhər əhalisi üzrə göstəricilərdən daim yüksək olmuşdur. Boşanmaların mütləq və nisbi sayında ən yüksək göstərici 1989-cu ildə qeydə alınmışdır. Əhalinin hər 1000 nəfərinə görə ümumi şəhər əhalisi üzrə əmsal 9,7-yə, Bakı şəhərində isə 9,4-ə bərabər olmuşdur. Həmin dövrdə ümumi şəhər əhalisi üzrə boşanmaların 63,7%-i Bakının payına düşmüşdür. Buna milli münaqişə proseslərinin gərginləşməsi, sovet ideologiyası nəticəsində formalaşan beynəlmiləl ailələrin çoxunun dağılması səbəb olmuşdur [5].

Növbəti 10 illikdə şəhərdə əhalinin sayının azalması, müvafiq olaraq bağlanan nikahlarında sayına ciddi təsir göstərmiş, nəticədə həmin dövrdə şəhərdə boşanma üzrə ən aşağı göstəricilər qeydə alınmış, əhalinin hər 1000 nəfərinə olan əmsal 1,4-ə enmişdir. 2005-ci ildə 1999-cu illə müqayisədə boşanmaların sayı 1,5 dəfə, nisbi əmsalı isə 1,4 dəfə artmışdır. 2009-cu ildə Bakı şəhərində nikah göstəriciləri özünün ən yüksək həddinə çatsa da, boşanma göstəricilərində 25% azalma müşahidə olunmuşdur. Sonrakı dövrlərdə isə əksinə nikahların sayı azalmış, boşanmaların sayı isə artmışdır. 2020-ci ildə ölkə şəhər əhalisi üzrə boşanmaların 44,4%-i Bakı şəhərinin payına düşmüşdür. Həm ümumi şəhər əhalisi, həm də Bakı şəhəri üzrə boşanma əmsalı 1,8-ə bərabər olmuşdur.



Şəkil. Bakı şəhərində nikah və boşanmaların nisbi göstəricilərinin dəyişməsi.

Nəticə. Tədqiq olunmuş dövr ərzində, həm ümumi şəhər əhalisi üzrə, həm də Bakı şəhərində ölkədə və regionda mövcud sosial-iqtisadi şəraitdən asılı olaraq nikahların sayı azalmış, boşanmaların sayı isə artmışdır.

1979-1989-cu illərdə Bakı şəhərində nikah əmsalı ümumi şəhər əhalisi üzrə orta göstəricidən aşağı, müstəqillik illərində isə əksinə daim yüksək olmuşdur.

Təhlil aparılan dövr ərzində, boşanma göstəriciləri Bakı şəhərində ümumi şəhər əhalisi üzrə orta göstəricidən yüksək olması ilə fərqlənmişdir.

Müstəqillik illərində nikah göstəricilərində müşahidə olunan artım 2009-cu ildən sonra azalmağa başlamış, boşanma göstəricilərində isə əks hal qeydə alınmışdır.

Nikahlar təbii artıma ciddi təsir göstərir, beləki, onların nisbi əmsalının ən aşağı olduğu 1999 və 2020-ci illərdə təbii artım göstəriciləri də müvafiq olaraq özünün ən aşağı əmsallarına 5,8 və 3,4-ə bərabər olmuşdur.

Ədəbiyyat

1. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, DSK, 2020, 529 s.
2. Azərbaycanın əhalisi. Bakı, DSK, 2020, 135 s
3. Azərbaycan Respublikasının coğrafiyası. II cild. İqtisadi, sosial və siyasi coğrafiya. Bakı, 2015, 328 s
4. Azərbaycan Respublikasının coğrafiyası. III cild. Regional coğrafiya. Bakı, 2015, 399 s.
5. Bədəlov E.S. Abşeron iqtisadi-coğrafi rayonunda sosial-demoqrafik problemlər və məskunlaşma məsələləri. Bakı, 2016, 200 s.
6. Eminov Z.N. Azərbaycanın əhalisi. Bakı: Çıraq, 2005, 560 s.
7. Eminov Z.N. Azərbaycanın demoqrafik problemləri. AMEA: Yer elmləri. Xəbərlər, № 2, 2005. s 126-131.
8. Əfəndiyev V.Ə. Müasir mərhələdə Azərbaycan şəhər əhalisi sayının dinamikası // Coğrafiya və təbii resurslar № 1, 2015. s 74-79.
9. Əfəndiyev V.Ə., Dəmirqayayev Ş.Q. Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri. Bakı, 1995, 176 s.
10. Əfəndiyev V.Ə., Nağıyev S.Q. Geourbanistika. Bakı, 2016, 272 s.
11. Hacızadə Ə.M. Azərbaycan SSR əhalisi və onun məskunlaşması. Bakı, 1965, 216 s.
12. Mehrəliyev E.Q., Əyyubov N.H., Sadıqov M.O., Azərbaycan SSR-də əhalinin məskunlaşma məsələləri. Bakı, 1988, 192 s.
13. Paşayev N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. Bakı: Çıraq, 2010, 416 s.

РЕЗЮМЕ

ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ БРАКОВ И РАЗВОДОВ В ГОРОДЕ БАКУ

Мирзаева З.А.

Ключевые слова: *город Баку, демографические процессы, городское население, брак, развод.*

Браки и разводы, являющиеся одним из важных демографических показателей, формируются в зависимости от численности населения и миграций и оказывают непосредственное влияние на естественный прирост населения. В статье изучены и проанализированы тенденции брачности и разводимости населения Баку за 1979-2021 годы и факторы, формирующие их, в сравнительном порядке со средними показателями для населения города в целом. Также социально-экономические, демографические и др. факторы влияющие на динамику брачности и разводимости, исследованы на основе актуальных источников.

SUMMARY

THE MAIN FEATURES OF MARRIAGES AND DIVORCES IN BAKU CITY

Mirzayeva Z.A.

Keywords: *Baku city, demographic processes, urban population, marriage, divorce*

Marriages and divorces, which are one of the important demographic indicators, are formed depending on the population size and migrations, and have a direct impact on the natural growth of the population. In the article, trends in the marriages and divorces of the population of Baku during the years 1979-2021 and the factors that shape them were studied and analyzed in a comparative manner with the average indicators for the general population of the city, also, socio-economic, demographic, etc. in the city. The influence of factors on the dynamics of marriage and divorce was investigated based on current sources.

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ŞƏXSİYYƏT PROBLEMİ

Rüstəmova Z.R.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Baki, Azərbaycan
rustamovazulfiyya@gmail.com

Açar sözlər: *şəxsiyət, inkişaf, problem, situasiya, davranış, təhsil*

Şəxsiyyət problemi hər dövr üçün öz aktuallığını qoruyub saxlayan bir problemdir. Xüsusən də müasir elm və texnikanın inkişaf etdiyi bir dövrdə. Bu problem müasir psixologiyanın araşdırdığı aktual məsələlərdən biridir. Çünki bütün bu sahələrdə gedən inkişaf şəxsiyyətə, onun dünyagörüşünə, dəyərlər sisteminə, təhsilinə, tərbiyəsinə təsirsiz keçmir.

Gəlin ilk öncə şəxsiyyətin kim olduğuna nəzər salaq. Şəxsiyyət insanın psixoloji simasıdır. Bunu izah etmək üçün "şəxsiyyət" sözünün ayrı - ayrı dillərdəki tərcümələrinin mənalarına fikir vermək kifayətdir.

Şəxsiyyət - müəyyən ictimai - tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır. [2, s.159]

Şəxsiyyətin inkişafında həm biloji həm də sosial amillər mühüm rol oynayır. Şəxsiyyətin inkişafında bioloji amillər dedikdə, biz irsiyyəti, genetikanı nəzərdə tututuq. Sosial amillər dedikdə isə ətraf aləm, təlim, tərbiyə sosial mühit nəzərdə tutulur. Bu amillər bir - birilə sıx, qarşılıqlı şəkildə əlaqəlidirlər. Bunları nəzərə almaq zəruridir.

Şəxsiyyət anlayışı şox mürəkkəb anlayışdır. Onun quruluşu da çox mürəkkəbdir.Şəxsiyyətin quruluşu özündə bir sıra amilləri ehtiva edir. Onlara nəzər salaq.

- Şəxsiyyətin tələbatları
- Şəxsiyyətin istiqaməti
- Şəxsiyyətin təcrübəsi
- Şəxsiyyətin münasibətləri

Şəxsiyyətin tələbatlarından danışarkən bunu qeyd etmək lazımdır ki, tələbatlar şəxsiyyətn

fəallığının mənbəyini təşkil edir. Məhz həmin tələbatların özləri insanı müəyyən surətdə iş görməyə yönləndirir. Şəxsiyyətin fəallığının mənbəyini təşkil edən tələbatların özlərinin də bir sıra növləri vardır. Mənşəyinə görə tələbatların təbii və mədəni olmaqla iki növü vardır. Predmetinə görə isə maddi və mənəvi tələbatlara bölünürlər.

Şəxsiyyətin istiqaməti dedikdə buraya şəxsiyyətin dünyagörüşü, əqidəsi, maraqları, meylləri və s. aiddir. Bunu nəzərə almaq lazımdır ki, şəxsiyyətin istiqaməti onun simasını müəyyən edir və şəxsiyyətinin motivləri ilə şərtlənir.

Şəxsiyyətin təcrübəsi dedikdə baraya hər bir adamın həyatda qazandığı bilik, bacarıq, vərdişləri daxildir. Burada diqqət yetirilməli məqam odur ki, şəxsiyyətin təcrübəsi onun şüuru ilə sıx surətdə əlaqəlidir. Və onu üç mərhələyə ayırmaq olar [5, s.24]:

- Xarici təsirlər dərk olunur
- Şüurda əksini tapmış təsirlər hifz olunur.
- Təcrübə hərəkətə, fəaliyyətə çevrilir.

İndi də şəxsiyyətin münasibətlər siferasını aydınlaşdıraq. Buraya şəxsiyyətin başqa adamlara, özünə, əməyə və əşyalara münasibəti daxildir. Şəxsiyyətin nüvəsini məhz münasibətlər təşkil edir. Əlbətdə ki, biz şəxsiyyətdən danışırıqsa təhsildən də danışmalıyıq. Bildiyimiz kimi təhsilin başlıca vəzifəsi şəxsiyyət yetişdirməkdən ibarətdir. İnsan onu əhatə edən mühitdə sosiallaşır, ictimai münasibətlərə girir, xarakteri, iradi keyfiyyətləri formalaşır, nəhayət ki, sonda şəxsiyyətə çevrilir. Və bu işdə təhsilin rolu əvəzolunmazdır.

Ümumiyyətlə belə bir nəticəyə gəlmək olar ki, tarixin bütün dövrlərində, eləcə də qlobalizasiya prosesinin baş verdiyi müasir dövrdə şəxsiyyət problemi aktualdır və inkişafın hər bir mərhələsində şəxsiyyətin formalaşmasına ondan tələb olunan keyfiyyətə tələblər dəyişilmişdir. Bu hal isə həm obyektiv həm də subyektiv səbəblərdən asılı olur.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya Dərslik. Bakı: Çinar - çap, 2002.
2. Seyidov S.İ. , Həmzəyev M.Ə. Psixologiya Dərslik. Bakı: Nurlan, 2007.
3. Əliyev R.İ. Psixologiya Dərs vəsaiti. Bakı: Nurlan, 2008.
4. Əliyev R.İ.Psixologiya tarixi Dərs vəsaiti. Bakı: Nurlan, 2006.
5. Əzizov Q.Q. Psixologiya Dərs vəsaiti. Bakı: Mütərcim, 2012

РЕЗЮМЕ
ПРОБЛЕМА ЛИЧНОСТЬ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ
Рустамова З.Р.

Ключевые слова: *личность, развиваться, проблема, ситуация, поведение, обучение*

Личность - это социальное качество индивида. Современная психология рассматривает личность как определенное ядро науки психологии. Существует множество толкований личности. Например, К.А.Абульханова рассмотривает личность как устойчивый психический склад.

Личность - является человеком, который обладает своими индивидуальными качествами. Когда говорим про личность, необходимо сказать и об образовании, потому что, образование влияет на личность человека.

SUMMARY
PERSONALITY PROBLEM AT THE GLOBALIZATION
Rustamova Z.R.

Key words: *personality, development, problem, situation, behavior, education*

Personality is a social quality of an individual. Modern psychology considers personality as a certain core of the science of psychology. There are many interpretations of personality. For example, K.A.Abulkhanova considers personality as a stable mental warehouse.

Personality is a person who has his own individual qualities. When we talk about personality, it is necessary to say about education, because education affects a person's personality.

PERFORMANSIN İDARƏ EDİLMƏSI SİSTEMİ

Yusifova X.M.
Bakı Mühəndislik Universiteti, Abşeron, Azərbaycan
xyusifova@beu.edu.az

Düzgün ünsiyyət və yenilənmənin həyatımızda olduğu kimi,
müəssisə həyatında da zəruri olduğu həqiqətini
unutmamaq diləyi ilə!

Açar sözlər: *performans qiymətləndirmə, performansın idarə edilməsi sistemi, insan resurslarının idarə edilməsi, effektivlik.*

Yeni rəqabət şərtləri, sürətli dəyişikliklər, meqatrendlər müəssisələrin idarə edilməsində yeni yanaşmaların istifadə edilməsini zəruri etməkdədir. İstifadə edilən metodların müəssisə kimliyi ilə özdəşləşdirilməsi, dəyişikliklərə görə strategiyaların formalaşdırılması, qərarvermələr zamanı etibarlı, düzgün və güncəl məlumatların istifadə edilməsi, müəssisə hesabatlılığı və məsuliyyətlərinin bütün və doğru anlaşılaraq həyata keçirilməsi "peşəkar müəssisə" profilinin xüsusiyyələtlərindəndir. İşçilər ilə əlaqədar verilən qərarların müəssisənin performansı, rəqabətqabiliyyətliliyi, işçi və müştəri məmnuniyyəti, həyat məmnuniyyəti baxımından nə qədər əhəmiyyətli olduğu dəfərlərlə isbat olunmuş və qəbul olunmuş bir doğrudur. Burada unudulmaması gərəkən digər bir xüsus isə müxtəlif elementlərin sistemli bir şəkildə mövcudluğunun təmin edilməsidir. Müəssisə idarəetməsinə holistik baxarsaq, bu elementlərin hər birinin nə qədər əhəmiyyətli olduğunu görmək heç də çətin deyildir. Qeyd edilən xüsuslardan biri insan resurslarının idarə edilməsi sisteminin effektiv bir şəkildə qurulmasıdır.

Son illərdə müəssisələrdə insan resurslarının idarə edilməsi sahəsində müsbət yöndə ciddi dəyişikliklər görülsə də bəzi problemlər hələ qalmaqdadır. Problemlərin əsasında olan səbəblərdən ən əhəmiyyətlisi isə insan resurslarının idarə edilməsi funksiyasının stratejik bir funksiya olduğunun anlaşılmaması və qəbul edilməməsidir.

Xidməti fəaliyyətin qiymətləndirilməsi və ya əmək fəaliyyətinin qiymətləndirilməsi kimi də istifadə edilən performansın qiymətləndirilməsi insan resurslarının idarə edilməsi funksiyalarından biridir. Əfsuslar olsun ki, bir çox müəssisələrdə yetəri qədər ciddiyə alınmamaqda, düzgün şəkildə həyata keçirilməməkdə və ya digər funksiyalarla düzgün koordinasiyası qurulmadan həyata keçirilməkdədir. Bu da öz növbəsində digər problemlərə səbəb olmaqdadır. Məsələn, effektiv performans qiymətləndirmənin aparılmaması işçi seçimi, əməyin ödənilməsi, karyera idarə idarə edilməsi və s qərarların alınmasında fiyaskolarlarla nəticələnməkdədir.

Yüksək performans və məhsuldarlıq əldə edə bilmək üçün məhz müəssisələr müvafiq zəmin hazırlamaq və bunu mütəmadi aktiv saxlamaq məsuliyyəti daşıyır. Təbii ki, "bazarda" qala bilmək

istəyirlərsə... Bütün olaraq, ana strategiya istiqamətində yüksək məhsuldarlıqla fəaliyyət göstərə bilmək üçün performansın effektiv bir şəkildə idarə edilməsi istifadə edilən çox mühim vasitədir.

Performansın idarə edilməsi sistemi, qısa olaraq, müəssisənin strateji məqsəd və hədəflərinin müəyyən edilməsi ilə başlayır və idarəetmə iyerarxiyası boyunca (departament, şöbə və s.) "deşifrə" edilməsi ilə davam edir; mümkün olan ən yüksək və real performans səviyyələri müəyyən edilir; performansın bu səviyyədə saxlanılması üçün müxtəlif üsullarla işçilər təşviq edilir; performanslar ölçülür və qiymətləndirilir; qiymətləndirmə nəticələri zamanında və şərtlərə riayət edilərək müzakirə olunur və müəssisəyə xas "addımlar" atılır. Təbii ki, burada sadəcə idari səpkidə deyil, eyni zamanda, işçilərin inkişafı və ya müəssisənin inkişafı istiqamətində qərarlar verilir və icra edilir.

Təsvirdə nə qədər bəsitləşdirsək də, nəzəriyyədə öyrəndiklərimizi müəssisəmizə tətbiq etdiyimizdə məsələ bu qədər sadə olmur. Səbəblərdən başlıcası, qiymətləndirən və qiymətləndirilən qismində İNSAN amilinin olmasıdır. Belə ki, insanları laboratoriyada müxtəlif alətlərlə müşahidə edə bilmə və bunu etsək belə, dəqiq nəticələr alma ehtimalımızın riskli olmasıdır.

Bundan başqa, "dərs"imizi yaxşıca çalışmalı, müəssisəmizi yaxşı tanımalı, haqq-hüquq məsələlərinə laqeyd yanaşmamalıyıq.

Elə isə effektiv performans idarə edilməsi sistemini qurmaq üçün nələri bilməliyik? Məsələyə sistemin qurulmasında və tətbiqində qarşılaşılan problemlər tərəfindən yanaşsaq və bu problemlər nələrdir deyə sual olunsa, onlardan bəziləri aşağıdakılardır:

- Sistemin müəssisə rəhbərliyi tərəfindən dəstəklənməməsi;
- Müəssisə idarəçilərinin yetərsiz hazırlığı, qiymətləndiriləcək işçilərlə düzgün və yetərli ünsiyyətin qurulmaması, işçilərlə “qarşıdurma”dan qaçınılması;
- Qiymətləndirmə aparılması səbəblərinin qarışdırılması;
- Güncəllənən vəzifə təlimatları ilə qiymətləndirmə kriteriyaları arasında əlaqənin qurulmaması;
- Qiymətləndirmənin zaman və enerji israfı şəklində qəbul edilməsi, sadəcə mənfi nəticələrlə əlaqələndirilməsi;
- Sistemin tətbiqindən öncə qiymətləndirmə kriteriyalarının işçilərə bildirilməməsi;
- Qiymətləndirici qismində seçilən tərəflərin qiymətləndirilən işçilərin performanslarını müxtəlif səbəblərdən bilavasitə müşahidə edə bilməmələri;
- Performans standartlarının açıq-aydın müəyyən edilməməsi (məsələn, strategiyalarla əlaqəsiz, natamam, fərqli kriteriyalarla "çirkləndirilmiş", doğruluq payı az olan standartlar);
- Müxtəlif qiymətləndiricilərin nəticələri arasında tutarsızlıq;
- Düzgün təyin olunmamış zaman aralığı;
- Qiymətləndirmə formalarında yanlış və qarışıq ifadə tərzi;
- Subyektivlik və şəxsi münasibətlər zəminində qiymətləndirmə;
- Qiymətləndiricilərin fərdi keyfiyyətlərinin və emosiyalarının təsiri altında qalaraq müxtəlif xətalara yol vermələri;
- Ortaya çıxan problemlərin səbəblərinin ciddi bir şəkildə müzakirə edilməməsi və ya kalibrasiya prosesinin düzgün aparılmaması;
- Qiymətləndirmənin aparılması və nəticələrin bildirilməsi (feedback) ilə əlaqədar idarəçilərin səriştəsizliyi və bu istiqamətdə təlimlərin verilməməsi;
- Qiymətləndirmənin sadəcə ildə bir dəfə aparılacaq proses kimi qəbul edilməsi;
- Koçinq metodunun bilinməməsi və ya tətbiq edilməməsi.

Təbii ki, qeyd edilən problemlərin aradan qaldırlması prosesinin lokomotivi insan resurslarının idarə edilməsi sahəsində məsul heyətin peşəkarlığı, bütün menecerlərin bu sahədə bilincli şəkildə əməkdaşlığı, müəssisə rəhbərliyinin dəstəyi və bu istiqamətdəki təşviqidir.

Ədəbiyyat

1. FISHER, Cynthia D., SHOENFELDT, Lyle F., and SHAW, James B., Human Resource Management, 6th Edition (Boston: Houghton Mifflin Co.)
2. Gary DESSLER, Human Resource Management, 13th edition, Prentice Hall, New Jersey, 2013
3. Robert L. MATHIS, John H. JACKSON, Sean R. Valentine, Patricia A. Meglich, Human Resource Management, 15th edition, 2017
4. Susan E.JACKSON, Randall S.SCHULER and Steve WERNER, Managing Human Resources, 10e, South-Western Cengage Learning, 2009

РЕЗЮМЕ
СИСТЕМА УПРАВЛЕНИЯ ЭФФЕКТИВНОСТЬЮ
Юсифова Х.М.

***Ключевые слова**: оценка эффективности, система управления эффективностью, управление человеческими ресурсами, эффективность.*

За последние годы в области управления человеческими ресурсами на предприятиях и организациях проделаны положительные изменения, но некоторые проблемы остаются нерешенными. Например, какие компетенции предприятия хотят предоставлять или развивать, когда дело доходит до человеческого или интеллектуального капитала? Какими характеристиками должны обладать сотрудник, предприниматель, администратор? Конечно, в качестве общего ответа на эти вопросы можно предположить, что предпочтение отдается людям, способным выполнять свою работу на высоком уровне и совместим с культурной средой предприятия своими индивидуальными качествами и принципами. Необходимо, чтобы человеческие ресурсы, которыми обладает предприятие, приносили пользу.

В тезисахе затронуты и некоторые важные нюансы в направлении повышения управления эффективностью.

SUMMARY
PERFORMANCE MANAGEMENT SYSTEM
Yusifova Kh.M.

***Keywords**: performance evaluation, performance management system, human resources management, effectiveness*

In recent years, positive changes have been made in the field of human resource management at enterprises and organizations, but some problems remain unresolved. For example, what competencies do businesses want to provide or develop when it comes to human or intellectual capital? What characteristics should an employee, entrepreneur, administrator have? Of course, as a general answer to these questions, it can be assumed that preference is given to people who are able to perform their work at a high level and are compatible with the cultural environment of the enterprise with their individual qualities and principles. It is necessary that the human resources that the company possesses benefit.

In the article some essential issues have been highlighted in terms of enhancing effectiveness of performance management.

VI BÖLMƏ

DİLÇİLİK

"ZƏNGƏZUR MAHALININ KAMERAL TƏSVİRİ"NDƏ OYKONİM VƏ ANTROPONİMLƏR

Bayramov A.Ə.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor
folklorshunas@mail.ru

Açar sözlər: *qəza, mahal, vergi, etnoqrafiya, ərazi, Zəngəzur*

Azərbaycanın qədim ərazisi olan Zəngəzur mahalının tarixi-coğrafiyası, iqtisadi həyatı və etnoqrafiyasını öyrənmək müasir dövrümüz üçün çox aktualdır. Zəngəzur dəhlizinin açılacağı, həm də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradıldığı bir dövrdə bu etnokulturoloji tədqiqatlar lazımlı, həm də gərəklidir.

Maraqlıdır ki, Zəngi toponimi Orta Asiya toponimləri ilə areallıq təşkil edir. Bu toponimə Özbəkistan Respublikası ərazisində Zəngi, Zəngitəpə, Zəng, Zəngərik variantlarında rast gəlirik.

Bəzən Zəngi toponiminin əsassız olaraq kürd mənşəli Zəngi tayfasının adı ilə bağlamaq meyli meydana çıxmışdır. Əvvələn, Zəngi etnonimi və antroponimi Oğuzların - Türkmənlərin - Qayı türklərinin bir tirəsi olduğu danılmaz faktdır və bunu yuxarıda əsasən göstərmişik. İkincisi, Zəngilər dövləti, Azərbaycanın ictimai-siyasi həyatında mühüm yeri tutmuşdur. Üçüncüsü, Zəngi toponimi geniş areallıdır – türkdilli etnosların yaşadıqları ərazidə geniş yayıla bilmişdir. Azərbaycanda Zəngilan və Zəngi çay (İsmayıllıda), Ermənistanda Zəngi çay, Zəngəzur dağı (Azərbaycanla Ermənistan sərhəddində), Zəngibasar və Zəngilər, Türkiyə ərazisində Ərzincan, İranda Zəncan (Cənubi Azərbaycanda), Gürcüstanda Zəngi-Şamla və Zənganə, Özbəkistanda Zəngi, Zəngitəpə, Zəng, Zəngərlik və s. toponimləri mövcuddur. Demək olar ki, bu toponimlərin olduğu ərazilər də türklərə (geniş mənada) məxsusdur və əsasən türklər yaşayırlar. Fikrimizcə, Qayı türklərinin qəbilələrindən olan Zəngənə adı Zəngəzur toponimində öz izini saxlamışlar. Zəngi çay, Zəngibasar, Zəngilər, Ərzincan, Zəncan, Zəngilan və Zəngəzur toponimləri də mövcudur. Eyni zamanda Quba rayonunda Zəngin adlı kənd vardır.

Zəngəzurun toponimlərindən danışarkən, qeyd etmək yerinə düşər ki, bu bölgədəki yer-yurd adlarının ***95*** faizə qədəri türk-oğuz-müsəlman mənşəlidir. Zəngəzur Azərbaycan torpağıdır.

Ədəbiyyat

1. Bünyadov Z.M. Azərbaycan Atabəylər Dövləti. Bakı 1985, 268 s.
2. Sümər F. Oğuzlar. Bakı, 1992, 432 s.
3. Vəlili (Baharlı) M. Bakı: Azərbaycan, 1993, 2008.

РЕЗЮМЕ
ЗАНГЕЗУР – ЭТО АЗЕРБАЙДЖАН, РОДИНА ОГУЗОВ
Рустамов А.М.

Ключевые слова: *Зангезур, топоним, этноним, огуз, этимология*

В статье дан обший обзор топонимов тюркского происхождения, находящихся на территории Зангезура. Известно, что каждый топоним является своего рода историей. В этом смысле на территории Зангезура имеются множества географических имен, имеющих Тюркское происхождение. Например, Халаден, Сувари, Чепни, Байандур, Муганджык, Гапан, Газанчы, Охчу, Аз, Яйджы, Чуллу, Хейерек, Дондарлы и др. Каждый топоним является паспортом территории, к которой он относится.

SUMMARY
ZANGEZUR – AZERBAIJAN – THE COUNTRY OF OGUZ
Rustamov A.M.

Keywords*: Zangezur, toponym, ethnonym, Oguz, etymology*

The article provides a general overview of toponyms of Turkic origin located on the territory of Zangezur. It is known that every toponym is a kind of history. In this sense, there are many geographical names of Turkic origin on the territory of Zangezur. For example, Kholoden, Suvari, Chepni, Bayandur, Muganjyk, Gapon, Gazanchi, I want, Az, Yajdzhi, Chullu, Herek, Dondarly, etc. Each toponym is a passport of the territory to which it belongs.

İFADƏLİ OXU LİNQVODİDAKTİK ANLAYIŞ KİMİ

Allahverdiyeva L.N.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fil.f.d.
lela_leyla@mail.ru

Açar sözlər: *ifadəli oxu, nitq mədəniyyəti, intonasiya, vurğu, emosionallıq,obrazlılıq*

İfadəli oxumağın insan həyatında əhəmiyyəti çox böyükdür, çünki ifadəli oxu bədii oxu, bədii qiraət isə ifaçılıq sənətidir ki, onun vəzifəsi yazılı sözü səsli sözə çevirməkdir və səslənən söz çox qavranılır. oxumaqdan daha yaxşıdır.

Müəllifin fikirlərinin aydın və düzgün çatdırılması bədii mütaliənin birinci vəzifəsidir. Məntiqi ifadəlilik mətnin sözləri və onların əlaqəsi ilə bildirilən faktların aydın şəkildə ötürülməsini təmin edir. Buraya həmişə müəllifin təsvir etdiyi həyat hadisələrinə münasibəti, hadisələrə verdiyi qiymət, onların emosional qavrayışı daxildir.

İfaddəli oxu təkcə oxu deyil, həm də nitqdir. K.S. Stanislavski iddia edirdi: "Bir şey haqqında ifadəli danışmaq müəyyən dərəcədə öz nitqindəki təəssüratını artırmaq, dinləyicilərin hisslərinə təsir etmək, onları söhbətdə və ya rəvayətdə bu və ya digər detala diqqət yetirməyə məcbur etmək deməkdir". [1, s. 234-236]

Nitqi ifadəli edən nədir? Niyə biz nitqimizi elə qurmağa çalışırıq ki, nəinki fikirlərimizi dəqiq çatdıraq, həm də onun gözəl səslənməsinə çalışırıq?

Vladimir Nabokovun sözləri ilə desək: "Sözə yüksək hüquq verilmişdir ki, bu da təsadüfdən qeyri-adi şeylər yaratmaq, qeyri-adi olanı təsadüfi olmayan etməkdir". [3]. Ədəbi qiraət ədəbi əsərin təsirli səslənən sözdə yaradıcı təcəssümü sənətinin bir növüdür. Bu, canlı sözün arxasında təkcə bədii mahiyyət daşımayan bir dəyərin tanınmasının sübutudur. Söz düşüncənin ifadəsidir. Emosional münasibətlə təchiz edilmiş, "alt mətn"lə dəstəklənən fikir şifahi nitqdə həcm qazanır, ona əlavə təsir gücü verilir.

Sözün obrazlılığı dövrün ruhunu, daxili yüksəlişini, hisslərin səfərbərliyini, keyfiyyətini, böyük insan kollektivi üçün ümumiliyini əks etdirir.. İfadəli oxu "şifahi" nitqdən yalnız ona görə fərqlənir ki, şifahi nitq, danışanın fikri, hissi və iradəsi vəhdətdə təzahür edir, buna görə də mətni səsləndirən oxucu həmin intonasiyanı təkcə "oxumur", yazılan, həm də oxuduqlarına münasibətini ifadə edir, dinləyiciləri inandırmağa çalışır.

Hər bir funksional üslubun müəyyən edilmiş nitq keyfiyyətini yaratmaq üçün öz vasitələri var. Buradan belə çıxır ki, ifadəlilik kommunikativ keyfiyyət kimi bütün üslublu mətnlər üçün xarakterikdir. "İfadəli oxumaq, danışmaq sözlə hərəkət etmək deməkdir, yəni. dinləyiciyə öz iradəsi ilə təsir etmək, ona mətni danışanın gördüyü və ya ona münasibət göstərdiyi kimi görməyə məcbur etmək. Sədi yazırdı ki," Ağıllısan, axmaqsan, böyüksən, ya kiçiksən, bir söz deməyincə bilmirik!" İfadəli oxu bacarıqlarını formalaşdıran intonasiya, vurğu, pauza, temp, ritm, qeyri-verbal və s. vasitələrdir. Eyni zamanda nitq istehsalı üçün nitq aparatı, o cümlədən tənəffüs orqanları, aktiv və passiv nitq orqanları tələb olunur:

1) tənəffüs orqanları (ağciyərlər, bronxlar, nəfəs borusu, diafraqma, qabırğaarası əzələlər);

2) passiv nitq orqanları (sabit orqanlar): dişlər, yuvaqlar, sərt damaq, burun boşluğu, qırtlaq;

3) aktiv nitq orqanları - səsin əmələ gəlməsi üçün zəruri olan əsas işi yerinə yetirən hərəkətli orqanlar (dil, dodaqlar, yumşaq damaq, səs telləri)

Ifadəli qiraət sənəti, eləcə də teatr ədəbi əsərə əsaslanan tamaşa sənətidir. Lakin bu sənətlərin hər birində təcəssüm müxtəlif ifadə vasitələri ilə həyata keçirilir. Teatrda tamaşa bir qrup iştirakçı tərəfindən ifa olunursa, bədii qiraət sənətində əsərin ifaçısı bir nəfərdir. Teatrda hər bir aktyor bir rol oynayır, bir obrazı təcəssüm etdirir, oxucu isə əsəri ifa etməklə bütün obrazlar sistemini təcəssüm etdirir.

Deməli, ifadəli oxu sənəti öyrənilməlidir. Bu halda təlim prosesində nitq texnikasının aşağıdakı texnika və qaydalarını nəzərə almaq lazımdır:

✓ Nəzərə alınmalıdır ki, vurğunun qoyulması ədəbi dilin bütün istifadəçiləri üçün məcburi olan müəyyən qaydalara tabedir.

✓ Ədəbi əsərin mətnini oxumağa hazırlayarkən nəzərə almaq lazımdır ki, pauzalar ondan asılı olduğundan canlı nitq öz tempini daim dəyişir.

✓ Tembr təkcə səsin ümumi rəngi kimi deyil, həm də səsin ifadə olunan fikir və hisslərdən asılı olaraq dəyişmə qabiliyyəti kimi mühüm rol oynayır.

✓ Bütün duruşun adi sabitlik, tarazlıq, yüngüllük və hərəkətlilik hissi yaranana qədər düzgün dayanma tərzinə yiyələnmək lazımdır.

✓ Jestlər oxucunun düşüncələrini, hisslərini və təcrübələrini təbii şəkildə tamamlayır.

✓ Duruş, jest və mimika düşüncənin vizual təzahürüdür. Hisslərin dilini bilmək və ondan məharətlə istifadə etmək lazımdır.

B.N. Qolovin qeyd edirdi ki, nitqin ifadəliliyi onun strukturunun "dinləyicinin və ya oxucunun diqqətini və marağını qoruyan xüsusiyyətləridir." [2. 186]

Beləliklə, ifadəli oxu peşəkar bacarıq və texnikanın müəyyən səviyyədə mənimsənilməsini nəzərdə tutur. Yalnız maraqlı bir sənətkar sizi özünüzü dinləməyə vadar edə bilər. Mətn üzərində iş oxucunun və ya hekayəçinin savadını, ədəbi və ifaçılıq dünyagörüşünü tələb edir.

Ədəbiyyat

1. Артоболевский Г. В. Очерки по художественному чтению. М., 1959.-С.-234-236
2. Горобец Л.Н., Ключко Н.М., Мантаржиева А.М. «Выразительность речи» как лингводидактическое метапредметное понятие // Мир науки, культуры, образования. № 2 (81) 2020, с.316
3. https://mybook.ru/author/vladimir-nabokov/volshebnik/citations/

РЕЗЮМЕ
ВЫРАЗИТЕЛЬНОЕ ЧТЕНИЕ КАК ЛИНГВОДИДАКТИЧЕСКОЕ ПОНЯТИЕ
Аллахвердиева Л.Н.

Ключевые слова*: *выразительное чтение, культура речи, интонация, ударение, эмоциональность, образность.

Выразительное чтение – закономерный результат и объективный показатель. Оно обеспечивает вдумчивое и эмоциональное восприятие произведения, повышает его воспитательный эффект, положительно влияет на речевую культуру человека - чувствителен к чистоте и правильности языка, уместности и образности слов, интонационных оттенков в живой речи и чтении. Выразительная речь достигает своей цели быстрее, чем правильная речь. Выразительность речи создается не только тропами и стилистическими фигурами, но и всеми ее языковыми единицами и уровнями (от фонетики до синтаксиса).

SUMMARY
EXPRESSIVE READING AS A LINGUODIDACTIC CONCEPT
Allahverdiyeva L.N.

Key words: *expressive reading, speech culture, intonation, emphasis, emotionality, imagery*

Expressive reading is a natural result and an objective indicator. It provides a thoughtful and emotional perception of the work, increases its educational effect, has a positive effect on the speech culture of a person - is sensitive to the purity and correctness of the language, appropriate and figurative words, intonation shades in live speech and reading. Expressive speech achieves its goal faster than correct speech. Expressiveness of speech is created not only by tropes and stylistic figures, but also by all its language units and levels (from phonetics to syntax).

AĞBABA ŞİVƏSİNDƏ SAMİT ƏVƏZLƏNMƏLƏRİ

Bayramova A.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fil.f.d.
bayramova.arzu2@gmail.com

***Açar sözlər**: karlaşma, cingiltiləşmə, samit, şivə, nümunə, konkret*

Dialekt və şivələrin xüsusiyyətlərini əks etdirən fonetik hadisələrdən biri də samit səslərin bir-birini əvəz etməsidir. Bu əvəzlənmələr nəticəsində bir sıra fonetik hadisələr baş verir ki, bunlarda ən başlıcası karlaşma, cingiltiləşmədir[1, s.75; 6, s.75]. Samit səslərin əvəzlənməsi Qərb qrupuna aid edilən Ağbaba şivəsində də geniş yayılmışdır. Bu əvəzlənmələr sözün həm əvvəlində, ortasında həm də axırında baş verir. Bunlara ayrılıqda nəzər salaq.

1. Kar samitlərin cingiltili samitlərlə əvəzlənməsi: h > y-söybət, k´> q kəhlix′, qənfet, qolxoz və s.

2. Cingiltili samitlərin kar samitlərlə əvəzlənməsi: v > f tufar, d > t tükan, b > p Təpriz, pıçax və s. (Quz., El.)

3. Partlayan samitlərin sürtünən samitlərlə əvəzlənməsi: d > ç –çöndər, yarpax, k > x´ərdəx, cölməx́, b > v bava, b > f gedif və s. (B., El.)

4. Sürtünən samitlərin partlayan samitlərlə əvəzlənməsi: v > b –nöbə, ğ >q damqa, f > p İsfəndiyar, f > p kəpgir və s. (Qön.)

5. Partlayan samitlərin qovuşuq samitlərlə əvəzlənməsi: b >m munun, d > c çöndü, d >ç bələcci və s.

6. Qovuşuq samitlərin partlayan samitlərlə əvəzlənməsi: c > j bajı, majal, ç > k kəkiş, ç > ş işqırıx, c > ş ağaş və s.

1) Söz əvvəlində samit səslərin əvəzlənməsi.

b > m əvəzlənməsi: buna >muna, bəhanə >mahna, banlamaq >manlamax və s.

Göründüyü kimi, sözlərin qədim forması, törəmə dinamikası burada aydın görünür. Bu fono-semantik variant bir çox sözlərdə var.

Sait səslə bitən bir sözə g ilə başlayan söz artırdıqda g səsi y səsinə keçir:

g >y - basdı gəldi>basdı yəldi, bəri gətirin >bəri yətirin hara gedirsən >hara yedirsən. Qars vilayətinin Arpaçay qəzasında yaşayan Azərilərin danışığında bu əvəzlənmə daha çox nəzərə çarpır [3, 117].

b > p əvəzlənməsi: bıçaq >pıçax, buxarı >puxarı, bişmiş >pişmiş, bitki >pitki, bütün >pütün, budaq >putax və s.

Çuvaş (pez-bir, pusla –başlamaq və s.), xakas (polam –balam, palıxçı və s.), tatar (pıçqı, pıçax və s.), türkmən (palta, putax və s.) dillərində belə əvəzləmələr mövcuddur [2, 31].

q > k əvəzlənməsi: qıfıl>kıfıl, qış>kış, qıç>kıç, qismət>kısmat və s.

d > t əvəzlənməsi: dükan>tükan, düşmək>tüşməx, divar>tufar, dənə>tənə və s.

d > ç əvəzlənməsi: döndər>çöndər, devrilməx'>çevrilmək və s.

k >q əvəzlənməsi: klub>quluf, kamer>qamer, konfet > qənfet // qəntef və s..

v >b əvəzlənməsi: vəfasız>bafasız, vəfat>bafat və s.

f > p əvəzlənməsi: Firuzə>Purzə, füsünkar>pisunkar və s.

s >ş əvəzlənməsi:sabah>şavah və s.

d >t əvəzlənməsi bütün dialektlərdə az-çox halda olsa da, ancaq qərb qrupuna aid olan Ağbaba şivəsində çox rast gəlinir: divar>tufar, diş>tiş, düşmən>tuşman və s. Qıpçaq qrupuna daxil olan türk dillərində d>t hadisəsi çoxdur. Məsələn: taş, til (qazax), tən, tat (qırğız) və s.

2) Söz ortasında samit səslərinin əvəzlənməsi.

y > b əvəzlənməsi: dovğa>doyğa, qovurma>qoyurma, qovurğa>qoyurğa.

b>v əvəzlənməsi: çibin>çivin, torba>torva, Qurban>Qurvan, Tükəzban>Tükəzvan, çubux>çuvux, çoban>çovan, xəlbir>xəlvir, xəbər>xavar, bərabər>baravar, baba>bava, soba>sevə, gobud>govut, qəbir>qavır, yaba>yava, tablamax>tovlamax, qavramaq>qavramax, qabaq>qavaxlarım, sabah>savax, çubuq>çuvux, xəlbir>xəlvir, bərabər>baravar, lobya>lovya, nabat>navat, dabaq>davax.

y>v əvəzlənməsi: soyuq>sovux, hoyxurmaq>hovxurmax və s.

v > y əvəzlənməsi: çovdar>çoydar, çovğun>çoyğun və s.

k > g əvəzlənməsi: səkkiz>səkgiz çiskin>çisgin və s.

k > q əvəzlənməsi: doqquz>dokquz, saqqız>sakqız, baqqal>bakqal və s.

m > b əvəzləməsi: evə kimi > əvə kibi, amma > amba, hümmət > hümbət və s.

t >d əvəzlənməsi: astar>asdar, bostan>bosdan, Rüstəm>Urusdam, küftə>küfdə, doktor>doxdur, həftə>həfdə və s.

n > m əvəzlənməsi: indi>imdi, anbar>ambar, Qənbər>Qəmbər, çənbər>çəmbər.

r > l əvəzlənməsi: çarpaşıx>çəlpəşik, zirə çəkmək>zilə çəkməx' və s. Bu misalda fono-variantın yaranması nəzərə çarpır.

ç > c əvəzlənməsi: qönçə>qonca, əyrimçə>əyrimcə və s.

ç >ş əvəzlənməsi: açdı>aşdı, qaçdı>qaşdı, uçdu>uşdu, heç kim>heş kim və s.

p > f əvəzlənməsi: tapşırıq>tafşırıx, top>tof, tapdı>tafdı, sap>saf, kip>kif, şapqa>şafqa və s.

v > y əvəzlənməsi: tovlamaq>toylamax, sovuşmaq>souşmax və s.

v > f əvəzlənməsi: divar>tufar, təhvil>təfil və s.

b> p əvəzlənməsi: Təbriz>Təpriz və s.

k > h əvəzlənməsi: Ələkbər>Ələhvər, məktəb>məhtəf, çəkmə>çəhmə, kəklik>kəhlix, görükdüm >görühdüm və s.

l>d əvəzlənməsi: ağızlamaq>ağızdamax, bizləmək>bizdəmək, pazlamaq>paz-damax, nazlamaq>nazdamax, bəsləmə>bəsdəmə.

r > d əvəzlənməsi: alabayraq>alabaydaq.

d > t əvəzlənməsi: budax>butax, yasdıq>yastıx və s.

c > ç əvəzlənməsi: xəncər>xənçər, gənclər>gənçlər.

c >d əvəzlənməsi: öcəşmək>ödəşmək

v > f əvəzlənməsi: bənövşə>bənəfşə.

ğ >m əvəzlənməsi: qantarğa>qantarma.

y > l əvəzlənməsi: hiylə>hillə, piyləmək>pilləməx′ və s.

c > j əvəzlənməsi: acı>ajı, baca>baja, necə>nejə, ac>aj, bacı>bajı, alacam>alajam, gələcəm>gələjəm, biləcəm>biləjəm, sevəcəm>sevəjəm və s.

c > j əvəzlənməsi: Ağbaba şivəsinin Göllü, Quzukənd, Sultanabad, Balıxlı kəndlərində yaşayan qarapapaq mənşəli Azərbaycan türklərinin danışığında daha çox müşahidə edilir. Məsələn: baca>baja, qoca>qoja, qıcı>qıjı, və s.

3) Söz axırında samit səslərin əvəzlənməsi

b>*f əvəzlənməsi*: Qəndab>Qəndaf, Zeynəb>Zeynaf, Qərib>Qərif, corab>coraf, tutub>tutuf, gəlib>gəlif, gedib>gedif, çıxıb>çıxıf, olub>oluf, gedib>gedif, çarşab>çarşaf, qəssab>qəssaf, solub>soluf və s.

b > v əvəzlənməsi: dib>div, cib>civ, qab>qav və s.

v > j əvəzlənməsi: yanov>yanoy, bülöv>bülöy, plov>piloy, oxlov>oxloy, qırov>qıroy, buzov>buzoy, tilov>tiloy, qaşov>qaşoy, ev>öy və s.

Bugünkü uyğur türkcəsində söz sonunda v>y əvəzlənməsi daha çox nəzərə çarpır. Məsələn: Öyde xotın bolmasa boran cıxar (Evdə qadın olmasa, boran olar); Öy oğrusu tutkuzmaz; Ev oğrusu tutulmaz [4, 258-259].

k > h əvəzlənməsi: kəsək>kəsəh, çiçək>çiçəh, ləçək>ləsəh və s.

p > f əvəzlənməsi: top>tof, sap>saf, kip>kif, turp>turf, sap>saf və s.

d > t əvəzlənməsi: armud>armut, kənd>kənt, qənd>qənt, yurd>yurt, qurd> qurt, palıd>palıt, dərd>dərt və s.

q>x əvəzlənməsi: yarmaq>yarmax, acmaq>acmax, cırnaq>cırnax, ortaq>ortax, yanaq>yanax, şırnaq>şırnax və s.

z > s əvəzlənməsi: nüfuz>nüfus, almaz>almas, xoruz>xorus, atlaz>atlas və s.

r > z əvəzlənməsi: cır>cız, yar>yaz (kəs, doğra) və s.

k > x' əvəzlənməsi: məktəb>məxtəf, getmək>getməx', gülmək>gülməx', bilmək>bilməx.

ç > c əvəzlənməsi: qılınc>qılınç, gülünc>gülünç, gənc>gənç.

c > ş əvəzlənməsi: ağac>ağaş, turac>turaş, arxac>arxaş, sac>saş, uc>uş, hec>heş, çəkic>çəkiş, balınc>balış, Oruc>Oruş, sonuc>sonuş, anac>anaş və s.

c > j əvəzlənməsi: gec>gej, sac>saj, ac>aj, güc>güj, gic>gij, bic>bij, ajqarına, məcbur>məjbur və s.

Qeyd edilməlidir ki, bir çox halda səs dəyişmələri(r > z, y > g, y > v, ş > l, d > c, v > y) mənanı dəyişdirmir. Məsələn: cırmaq > cızmaq, burmaq > büzmək, düyün > dügün, sovuq > soyuq, deş > dəl, çönmək > dönmək, əv > öy, dırnaq > caynax, civi > cüyü və s. fonosemantik variantlar irəlidə göstərdiyimiz samit törəmələrinin nəticəsi hesab edilir.

1932-ci ildən 1990-cı ilə qədər Amasya rayonunda Azərbaycan dilində çıxan "Maldarlıq cəbhəsində" (sonralar "Əmək") qəzetinin 1935-ci ilin avqust ayında çıxan 37-ci sayına baxdıqda orada da səs əvəzləmələri ilə işlənən sözləri görürük. Məsələn: dövlət >dəvlət, xırman > xərmən, hokumət >hükumət, kitabxana > kutubxana, kimi >kibi və s. [5]. Həmin sözlər eynilə Güllübulaq, Magaracıq, Oxcuoğlu kəndlərində işlədilirdi. Göstərilən samit əvəzlənmələrinə Qazax, Qarabağ, Borçalı, Göyçə, Gədəbəy və digər Qərb rayonlarında da təsadüf edilir.

Ədəbiyyat

1. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, 2008, 414 s.
2. Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri. Bakı: Maarif, 1984, 386 s.
3. Ercilasun A.B. Kars ili ağızları. Ses bilgisi. Ankara: 2002, 283 s.
4. Öztopçu K. Uyğur ata sözleri ve deyimleri. İstanbul: 1992, 339 s.
5. "Maldarlıq cəbhəsində". Rayon qəzeti. Amasiya: 17.08.1935, N.37
6. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 2008, 414 s.

Kənd adlarının ixtisarı

Quz.-Quzukənd B.- Balıqlı
El.-Ellərkənd Qön.- Qönçəli

РЕЗЮМЕ
ЧЕРЕДОВАНИЯ СОГЛАСНЫХ В ГОВОРЕ АГБАБА
Байрамова А.А.

Ключевые слова: *оглушение, звонкость, согласные, говор, пример, конкретно*

В статье описываются особенности замены согласных в Агбабинском говоре (Амасийский район). Приводятся конкретные примеры замены согласных, которые встречаются в начале, середине и в конце слов, собранных из говорных слов в селах Амасийского района. Также проводятся сравнения фонетических случаев в языках других тюркских народов.

SUMMARY
THE CONSONANT SUBSTITUTIONS IN THE AGBABA DIALECT
Bayramova A.A.

Key words: *voicing, devoicing, consonant, dialect, sample, concrete*

In the article the features of consonant substitutions in the Agbaba dialect (in the region of Amasya) have been noted. Besides, detailed samples have been given about dialects collected from the villages of Amasya, regarding the consonant substitution that comes at the beginning, middle, and end of the sentences. Moreover, some comparisons have been made on phonetical cases in the languages of other Turkic people.

DİL, NİTQ VƏ DAVRANIŞ MƏDƏNİYYƏTİ

Muğamat X.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
xeyalemugamat@gmail.com

Açar sözlər: *mədəniyyət, davranış, linqvokulturologiya, dilçilik, kommunikasiya*

Dil xalqın tarixi, dünyagörüşü, adət-ənənələri, mədəniyyəti, milli irsi əsasında formalaşan ictimai hadisədir. Dildə heç bir şey təklikdə, ayrılıqda inkişaf edə bilməz, məhz bu səbəbdən dilin bütün elementləri bir-biri ilə zəncirvari şəkildə, qarşılıqlı surətdə inkişaf edir. Hər bir dil gündən-günə və çox asta tərzdə dəyişikliyə məruz qalır və mövcud dillər zamanla dəyişən şəraitə uyğunlaşır. Görkəmli dilçi Ağamusa Axundov dildə baş verən bu kimi dəyişiklikləri birbaşa insan amili ilə əlaqələndirir: "Dil insanın əqli fəaliyyətinin substratıdır. İnsanın fiziki həyatı üçün hava lazım olduğu kimi, onun mənəvi həyatı üçün isə dil çox zəruridir. Bu baxımdan dilin insan davranışına təsirinin müxtəlifliyi təbiidir" [2,s.169].

Dildə baş verən dəyişiklikləri S.Potter belə təsvir edir: "Dil paltar kimidir. Biz paltarımızı vəziyyətə uyğun olaraq dəyişirik. Əsl natiq hər hansı bir şəraitə uyğunlaşmaq üçün müxtəlif səviyyələrdə öz fikrini ifadə etməyi bacarmalıdır" [3,s.116].

Əksər dilçilik ədəbiyyatlarında dilin funksiyaları aşağıdakı şəkildə qeyd olunur:

a) dil ictimai tarixi təcrübənin mövcud olması, saxlanması və verilməsi vasitəsidir;
b) dil kommunukasiya, eləcə də insanın davranışını tənzim etmək vasitəsidir;
c) dil intellektual fəaliyyətin silahıdır.

Dilin funksiyalarının təhlili zamanı müşahidə edirik ki, dil keçmiş təcrübənin əldə etdiyi saysız-hesabsız nailiyyətləri özündə sintezləşdirir və bir təfəkkür vasitəsi kimi istifadə olunduğu üçün insanları həmin təcrübələrin təsiri ilə formalaşan davranışa tabe edir. Davranışa səbəb isə təcrübədir. Təcrübə həm fikrin, həm də ünsiyyətin məzmunudur. İnsan yalnız dil sayəsində mövcud standart davranış qaydalarına sahib olur və bunlara müvafiq hərəkət edir.

Dilin ictimai sferalarına mədəniyyətin inkişafı da öz xüsusi təsirini göstərir. XXI əsrdə dilçiliyin yeni meydana gəlmiş sahəsi olan linqvokulturologiya dil və mədəniyyətin, dil və etnosun, dil və xalq mentalitetinin qarşılıqlı əlaqəsinin öyrənilməsi və təsviri ilə məşğul olur. Görkəmli dilçi-alim Afad Qurbanov dil ilə mədəniyyətin qarşılıqlı əlaqəsi haqqında yazır: "İnkaredilməz bir həqiqətdir ki, dillə mədəniyyət bir-biri ilə əlaqədardır. Hər şeydən əvvəl, dil mədəniyyətin bünövrəsini təşkil edir. Buna görə də milli dil, milli mədəniyyətin formasıdır. Lakin dillə mədəniyyət arasında eyniyyət işarəsi qoymaq, onları bərabərləşdirmək heç bir cəhətdən doğru ola bilməz. Çünki dil və mədəniyyət mahiyyət və xarakterinə görə eyni hadisə deyil. Mədəniyyət təbiətə görə üstqurum hadisələrinə məxsusdur" [1, s.186-187].

Mədəniyyətin əsas tiplərindən biri olan sosial mədəniyyət də ictimai fəaliyyətin ixtisaslaşdırılmış sahələrində və ünsiyyətin müxtəlif növlərində insanların davranış qaydalarının sistemidir. Mədəniyyət də dil kimi cəmiyyətdə yaradıcı (mədəniyyət insanların yaradıcı fəaliyyəti prosesində aşkara çıxır), ünsiyyət (müəyyən ümumi əhəmiyyətli ünsiyyət vasitələri, təcrübəni və bilikləri ötürən vasitələr olmasydı, vahid mədəniyyət olmazdı), idraki-evristik (mədəniyyət dünyanın ümumi mənzərəsini verməklə kifayətlənmir, o, həm də idrakın daha yaxşı və effektiv formalarını axtarıb tapmağa kömək edir), qiymətverici (bu funksiyanın köməyi ilə dünyanın dərki estetik, siyasi və əxlaqi normalarla əlaqəli şəkildə götürülür), informasiya, təhsil-tərbiyə kimi funksiyalar yerinə yetirir.

Dil və mədəniyyəti davranışla əlaqələndirən mədəni antropologiya cərəyanına (Amerikada etnoqrafiya cərəyanlarından biri olub, mədəniyyəti məhz etnoqrafik baxımdan öyrənir) görə, dil insan davranışının ən mühüm formalarından biridir. Bu cərəyanın nümayəndələri dilçiliyi ümumi mədəniyyət nəzəriyyəsinin tərkibinə daxil edirlər.

Mürəkkəb və çoxcəhətli hadisə olan dil mədəniyyətin müxtəlif sahələrində müxtəlif səciyyəyə malik olur. Dil ünsiyyət aləti, mübarizə alətidir və deməli, ictimai sahənin tərkib ünsürlərindəndir. Dil həm də mənəvi mədəniyyət hadisəsidir.

Mədəniyyətin ayrılmaz tərkib hissələri olan dil mədəniyyəti, nitq mədəniyyəti və davranış mədəniyyəti terminləri bir-biri ilə sıx əlaqəlidir, lakin bu anlayışları eyniləşdirmək olmaz.

Dil mədəniyyəti dedikdə hər bir xalqın müxtəlif tarixi dövrlərdə, müxtəlif formasiyalarda öz ana dilində fikrini bütün incəliyi ilə ifadə edə bilməsi başa düşülür. Dil mədəniyyəti ayrı-ayrı dövrlərdə müxtəlif keyfiyyətdə özünü göstərir. Bu mənada dil mədəniyyəti keçmişin canlı şahidi, müasir mədəniyyətin fəal iştirakçısı hesab oluna bilər.

Dil mədəniyyəti ilə paralel olaraq inkişaf edən nitq mədəniyyəti insanın qavrayışı, dünyagörüşü, o cümlədən şəxsiyyətin mənəvi zənginliyi və ayrılmaz daxili mədəniyyəti ilə bilavasitə bağlıdır. Tətbiqi

dilçiliyin bir sahəsi olan nitq mədəniyyəti hər hansı konkret bir dilin orfoepik, orfoqrafik, leksik, qrammatik, üslubi və s. normalarını müəyyənləşdirən nəzəri axtarışlar və təcrübi tədbirlər kompleksidir [1, s.10]. Əgər dilimizin fonetik, leksik və qrammatik normaları formalaşmasa idi, təbii ki, bu gün ədəbi dilimizdən və nitq mədəniyyətindən danışa bilməzdik. Deməli, dilin normaları olmadan ədəbi dil, ədəbi dil olmadan nitq mədəniyyəti yoxdur. Nitq mədəniyyəti yüksək inkişaf səviyyəsinə çatmış, dilin qanunauyğunluqları ilə tənzimlənən sabitləşmiş qaydalar sisteminə əsaslanır.

Ulu öndər Heydər Əliyevin diqqəti və qayğısı sayəsində keçən əsrin 60-80-ci illərində nitq mədəniyyəti məsələlərinin həm nəzəri, həm də praktik şəkildə öyrənilməsi və təbliği istiqamətində bir sıra mühüm işlər görülmüşdür. Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda 1962-ci ildən dil mədəniyyəti şöbəsi fəaliyyət göstərmişdir. Şöbə nitq mədəniyyəti ilə bağlı tədqiqatlar aparmaqla yanaşı, mətbuatda, radio, televiziya verilişlərində, ədəbi və elmi əsərlərdə, dərsliklərdə, reklamlarda nəzərə çarpan dil və üslub nöqsanlarınm aradan qaldırılması üçün əməli təkliflər vermişdir. H. Əliyev çıxışlarından birində ana dili haqqında demişdir: “Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur”.

Davranış mədəniyyəti insanın mənəvi və əxlaqi prinsiplərinin ifadə olunduğu bütün davranış formalarının məcmusunu özündə cəmləşdirir. Davranış mədəniyyəti normalarına **nəzakətlilik, ədəblilik, mərifətlilik, zəriflik, təvazökarlıq** kimi keyfiyyətlər daxildir.

Ədəbiyyat

1. Qurbanov A. Ümumi dilçilik. Bakı, 1977, s.186-187
2. Axundov A. Dil və mədəniyyət. Bakı: Yazıçı, 1992, 189 s.
3. Potter S. Dilimiz. Bakı, 2014.

РЕЗЮМЕ
КУЛЬТУРА ЯЗЫКА, РЕЧИ И ПОВЕДЕНИЯ
Мугамат Х.М.

Ключевые слова: *культура, поведение, лингвистика, языкознание, общение*

Культурная речь и поведение считаются основополагающими элементами нашей национальной культуры. Культурный фактор всегда имел особое значение в становлении, регулировании и развитии межличностных отношений в целом, давал исходную информацию об общем уровне духовности, мировоззрения и поведения людей в социальной среде. Культурный уровень речи можно измерить тем, что все слои народа знают родной язык, бережно относятся к нему, правильно соблюдают орфоэпические нормы литературного языка и т. д. Языковая культура проявляет себя в разном качестве в разные периоды. Культура поведения охватывает все области внутренней и внешней культуры человека.

SUMMARY
CULTURE OF LANGUAGE, SPEECH AND BEHAVIOR
Mugamat Kh.M.

Keywords: *culture, behavior, linguoculturology, linguistics, communication*

Cultural speech and behavior are considered fundamental elements of our national culture. The cultural factor has always been of special importance in the establishment, regulation and development of interpersonal relations in general, and provided initial information about the general level of people's spirituality, outlook, and behavior in the social environment. The cultural level of speech can be measured by the fact that all layers of the people know their mother tongue, care for it, correctly observe the orthoepic norms of the literary language, and so on. Language culture shows itself in different quality in different periods. Behavioral culture covers all areas of a person's internal and external culture.

FRAZEOLOGİZMLƏRDƏ SEMANTİKANIN ROLU

İbayev N.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
nemetibayev@gmail.com

Açar sözlər: *frazeologiya, semantika, dilçilik, frazeoloji tədqiqat, semantik məna*

Müasir dövr dilçilikdə dilin leksik-semantik sistemi geniş tədqiq edilmişdir. Bu tədqiqat prosesində paradiqmatik münasibətlər arasındakı fərqlər də göstərilmişdir. Həmin münasibətlər arasında rabitə də müəyyənləşdirilmişdir. Son tədqiqatlarda da, həmçinin, məntiqi-semantik analizlər (təhlillər) aparılmış, sözlər və məfhumlar arasındakı münasibətlərə aydınlıq gətirilmişdir.

Dilçilik elmində söz və ifadələrin semantikası və semantik dəyişmələrini öyrənən semasiologiyanı bir şöbə kimi hesab etmək olar. Məna semasiologiyanın əsas predmeti olaraq fəaliyyət göstərir. Belə ki, semasiologiyanın əsas vəzifələrindən biri sözün və söz birləşmələrinin (ifadələrin) semantik dəyişmələrinin inkişafının izlənilməsindən, məna strukturunun təşəkkül tapmasının qanunauyğunluqlarının aşkarlanmasından ibarətdir.

Ümumiyyətlə semasiologiyanın mərkəzi problemi semantikadır. Hətta M.Breal "Semantika: məna elmi haqqında təlim" adlı əsər də yazmışdır.

Söz və söz birləşmələrində ekspressiv, emosionallıq mühüm rol oynayır.

M.M.Pokrovski semasioloji dəyişmələrin mədəni-tarixi səbəbləri olduğunu vurğulayır, onları, həmçinin, obyektiv səbəblər hesab edirdi [1, s.28].

S.Ulman semantik sahələrə mürəkkəb daxili təşkilata malik bir bütov əmələ gətirən anlayış sahələri kimi baxır və bir-birinin ziddini təşkil edən ayrı-ayrı ünsürlərdən ibarət olduğunu qeyd edir [2, 288]. Tədqiqatlar zamanı daha çox formaya deyil, mənaya üstünlük verilir. Sözlər arasında bu və ya digər semantik münasibətlərin müəyyən edilməsi işarə olunanların qarşılıqlı münasibətləri ilə sıx bağlıdır. Linqvistik əsasda məna dəyişmələrini dil faktları əsasında təsvir edən S.Ulman semantik dəyişmələrini aşağıdakı kimi göstərir:

1. İki sözün mənası arasındakı bənzərliklə
2. İki sözün mənaları arasındakı kontaktla
3. İki ad arasındakı oxşarlıqla
4. İki ad arasında kontaktla

Diqqətlə yanaşdıqda bütün dillərdə hər hansı bir söz müəyyən semantik xətlərlə müxtəlif sahələrlə bağlı olan vahidlərlə əlaqələnir və yada düşür [3, s.17].

Semasiologiyadan bəhs edərkən, sözsüz ki, polisemiya (çoxmənalılıq), omonimlik, sinonimlik və s. yada düşür.

Dilin leksik-semantik həddində polisemiya hadisəsinin formalaşması özlüyündə xüsusi dəyişmə tipi kimi özünü göstərir. Əsasən lüğət tərkibi hər hansı bir dildaxili və dilxarici sözü öz fonduna daxil edir, mövcud lüğət vahidlərinin semantik quruluşunu və funksional imkanını genişləndirir.

1897-ci ildə ilk dəfə fransız dilçi alimi M.Breal tərəfindən dilçiliyə gətirilmiş "semantika" termininin predmeti dil işarələrinin mənasıdır. Semantikanın ümumi məsələlərinin, həmçinin leksika və morfoloji kateqoriyaların məna quruluşunun araşdırılması dilçilik elmi üçün aktuallıq təşkil edir. Bu haqda İ.Məmmədov, düzgün olaraq yazır ki, linqvistik semantikaya həsr olunmuş əsərlərdə müasir elmi nəzəriyyələrə söykənən dəyərli mülahizələr irəli sürülmüş, bir çox araşdırmalarda semantikanın əsas kateqoriyaları, anlayış və vahidləri dəqiq şəkildə müəyyənləşdirilmiş, semantik təhlilin aparatı işlənərək dilin məzmun planının öyrənilməsi perspektivi qeyd olunmuşdur ki, bu da semasiologiyanın müasir nəzəri elmlər arasındakı yerinin müəyyənləşdirilməsinə təminat yaratmışdır [4, s.25].

Semantikanın başlıca anlayışı mənadır ki bu da təfəkkür məzmunu ilə mətni mənanın arasında olan əlaqə ilə müəyyənləşdirir. Çünki dilin semasioloji dərəcələri birbaşa təfəkkürlə əlaqədardır.

Dilçilikdə semantika dil vahidlərinin mənalarını öyrənməklə məşğul olur. Buraya sözlər, söz birləşmələri, frazeoloji vahidlər, cümlələr və s.daxildir. Həmin dil vahidləri semantik analiz obyekti kimi qrammatik və leksik tərəfdən təhlil edilir. Qrammatik və leksik məna bütöv predmetlər sinfini əhatə edir.

Leksik və qrammatik mənanın qarşılıqlı əlaqəsində iki aspekt diqqəti cəlb edir: a) leksik məna sözün morfoloji dəyişmə və sintaktik vəzifə daşıma imkanına müəyyən məhdudiyyət qoyur; b) sözün müəyyən morfoloji formaya düşməsi və müəyyən sintaktik funksiya daşıması onun leksik mənasının dəyişməsinə səbəb olur [4, s.32].

Leksik mənanın növlərindən olan praqmatik məna bölgüsündə təsvir edilən bir çox frazeologizmlər neytral üsluba xas olan sözlərin mənasını konnotativ yük daşımaqla ifadə edir, məna reallaşır. Məsələn:

Əl içi kimi bilmək – aydın görünmək;

Qara yaxmaq – şər, böhtan atmaq;

Tükdən asılı olmaq – təhlükəli vəziyyəti bildirir;

Başına yığılmaq - ətrafına toplaşmaq;

Əlindən dada gəlmək – cana doymaq, bezmək, təngə gəlmək.

Qeyd edək ki, praqmatik məna sözün strukturunu təşkil edən bir əlmətdir və dildə ən çox emosiya, güclü ekspressiya yaradır. Frazeoloji tədqiqatlarda nitq hissələri semantik cəhətdən aşağıdakı model əsasında təhlil olunur, qruplaşdırılır: isim+isim, isim – sifət, sifət – isim, isim-feil, isim-zərf. Sözün frazeoloji mənası sabit birləşmələrin içərisində (komponentlərində) fəallaşır. Belə mənalar sərbəst formada dilimizin leksik sisteminin daxili qanunları ilə şərtlənir. Sabit birləşmələr daxilində iştirak edən sözlər məcazi məna daşıyır.

Azərbaycan dilində frazeologizmlə bağlı mənaları müxtəlif tipdə özünü göstərir: frazeoloji birikmə və frazeoloji birlik. Frazeoloji birikməyə daxil olan vahidlər semantik cəhətdən bölünmür. Sözlərin ayrı-ayrılıqda müstəqil mənası olmur.

Frazeoloji birliklər də semantik cəhətdən bölünməz vahidlərdir. Lakin fərq ondadır ki, frazeoloji birliklər bütöv halda, semantika onun tərkibində iştirak edən sözlərin mənası ilə bağlıdır. Bundan başqa frazeologizmlər semantika fonunda praqmatik funksiya da daşıyır. Belə bir vəziyyətdə sabit söz birləşmələri müsbət, yaxud mənfi məzmun çalarında olur.

Mənfi məzmun çalarında olan frazeologizmlərə aşağıdakı nümunələri göstərmək olar:

Başına ağıl qoymaq – birinə düzgün yol göstərmək, pis fikirdən daşındırmaq;

Başına bəla açmaq (gətirmək) –çıxılmaz vəziyyətə salmaq;

Hörmətdən salmaq – hörmətinə, nüfuzuna xələl gətirmək;

Başında turp əkmək – çox əzab-əziyyət vermək, kiminsə üzərində ağalıq etmək;

Evini xaraba qoymaq – cəzalandırmaq; evini başına vurmaq;

Gözünə soxmaq – 1. Acgözlüklə yemək 2. Nəyi isə qabaqcasına, acıqla göstərmək;

Başını batırmaq – öldürmək, məhv etmək və s.

Müsbət məzmun çalarında olan frazeologizmlərə isə aşağıdakı nümunələri göstərə bilərik:

Hörmətini saxlamaq – saymaq, hörmət etmək, başqa variantda hörmətini gözləmək;

Başını uca eləmək – etimadını doğrultmaq;

Can-ciyər olmaq – bir-birinə çox yaxın, mehriban olmaq;

Ümumiyyətlə frazeologizmlərin tərkibində iştirak edən komponentlər ifadə etdiyi mənanın formalaşmasında sözün semantikasının mühüm rolu vardır. Deməli söz yaradıcılığında olduğu kimi sabit söz birləşmələrinin yaranmasında da söz fəal bir üzv kimi semantik mənbədir və onun leksik-semantik variantından istifadə olunur. V.R.Jukov feili frazeoloji vahidlərdən danışarkən göstərir ki, feili frazeologizmlərin əksər qrupunun forması müəyyən semantik modellər əsasında qurulur [5, s.94].

Ədəbiyyat

1. Покровский М.М. О методах семасиологии// Избранные работы по языкознанию. М., 1959
2. Улман С. Семантические универсали. Новое в лингвистике. V.M.1970.
3. Улман С. Стилистика и семантика. Новое в лингвистике. Вып.I. М., 1980.
4. Məmmədov İ. Azərbaycan dilinin semantikası. Bakı: Xəzər, 2006.
5. Жуков В.Р. Русская фразеология. М.: Высшая школа, 1986.

РЕЗЮМЕ

РОЛЬ СЕМАНТИКИ ВО ФРАЗЕОЛОГИЗМАХ

Ибаев Н.А.

Ключевые слова: *фразеология, семантика, лингвистика, фразеологическое исследование, семантическое значение*

В статье рассматривается роль семантики во фразеологизмах. В языкознании анализируются мнения ученых о семантике и семантических изменениях слов и словосочетаний. Отмечается, что семантика слова играет важную роль в формировании значения, выражаемого компонентами, участвующими в составе фразеологизмов, а также слово является смысловым источником как активный участник в создании устойчивых словосочетаний в словотворчестве.

В целом хотим отметить, что управленческий признак фразеологизмов реализуется двояко: первый – структурный, второй – семантический. Оба реализуются в контексте. Семантический тон значения меняется и он управляет общей идеей в тексте.

SUMMARY

ROLE OF SEMANTICS IN PHRASEOLOGISMS

Ibaev N.A.

Key words: *phraseology, semantics, linguistics, phraseological research, semantic meaning*

The article discusses the role of semantics in phraseological units. In linguistics, the opinions of scientists about semantics and semantic changes of words and phrases are analyzed.

It is noted that the importance of word semantics in the formation of the meaning expressed by the components involved in the composition of phraseological units and the word is a semantic source as an active participant in the creation of stable word combinations in word creation.

ETNOMƏDƏNİ KONSEPTLƏR MİLLİ MƏNSUBİYYƏTİN ƏKSİ KİMİ

Bünyatova A.B.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ayten.bunyatova@yahoo.com

Açar sözlər: *etnomədəni, linqvokultura, konsept, konseptosfera*

Dünyanın linqvomədəni modelləşdirmə vahidi kimi linqvokulturoloji konseptlər çıxış edir. Bu konseptlər mürəkkəb, çoxölçülü, mental biliklər olub, özündə obrazlı-perseptual, konseptual və milli dəyər komponentlərini birləşdirir [4, s. 100]. Hər bir fərdi konsept konkret olaraq müəyyən dəyərə malik etnik mədəniyyətdə mövcudluğunu əks etdirir. Müəyyən mədəniyyətin konseptosferi əsasən bu mədəniyyətə xas olan dilin semantik sahəsində öz əksini tapmışdır. Məsələn, Azərbaycanda "xarı bülbül" dedikdə ağlımıza ilkin olaraq Qarabağ, Şuşa gəlir. Bizim xalqımız üçün "xarı bülbül" təkcə bitki anlamında deyil, böyük əhəmiyyət daşıyır.

Karabakh's Khari Bulbul presented in U.S.

The Khari Bulbul flower, the symbol of Azerbaijan's Karabakh region, was presented in the United States. The presentation ceremony took place at the U.S. Botanic Garden Conservatory on March 18 at the initiative of the Azerbaijani embassy in the United States, and with the organization of the Karabakh Foundation, AzerTag news agency reported.

The Khari Bulbul Flower is often associated with Shusha. Legends say that this flower only grows in Shusha, but ten different species have been found throughout the old Soviet Union territories. Khari means "bee" and Bulbul means "nightingale."

The Khari Bulbul flower, which has brought the spring's atmosphere to Washington, impressed the employees of the Botanic Garden with its beauty.

Experts who have cultivated the Khari Bulbul flower said the flower differs from other flowers by its sensitivity. Expert on plants in the Botanic Garden Bill Maclagly said the Khari Bulbul flower will be included in a symphony dedicated to the orchids in the Garden. The U.S. Botanic Garden Conservatory was established in 1820 and is considered one of the North America's oldest botanical gardens. The garden has the status of a museum [7].

Qarabağın Xarı Bülbülü ABŞ-da təqdim edildi

Azərbaycanın Qarabağ bölgəsinin simvolu olan Xarı Bülbül çiçəyi ABŞ-da təqdim edildi. AzerTag xəbər agentliyi xəbər verir ki, təqdimat mərasimi Azərbaycanın ABŞ-dakı səfirliyinin təşəbbüsü və Qarabağ Vəqfinin təşkilatçılığı ilə 18 Martda ABŞ Botanika Bağı Konservatoriyasında baş tutdu.

Xarı Bülbül çiçəyi çox vaxt Şuşa ilə əlaqələndirilir. Rəvayətlərdə deyilir ki, bu çiçək yalnız Şuşada böyüyür, lakin köhnə Sovet İttifaqı ərazilərində on müxtəlif növ tapılmışdır. Xarı "arı", Bülbül isə "bülbül" deməkdir.

Baharın atmosferini Vaşinqtona gətirən Xarı Bülbül çiçəyi, gözəlliyi ilə Botanika Bağının işçilərini heyran etdi.

Xarı Bülbül çiçəyini becərən mütəxəssislər çiçəyin həssaslığı ilə digər çiçəklərdən fərqləndiyini söylədi. Botanika bağındakı bitkilər üzrə mütəxəssis Bill Makleqli, Xarı Bülbül çiçəyinin bağdakı səhləbkimilər fəsiləsindən olan güllərə həsr olunmuş bir simfoniyaya daxil ediləcəyini söylədi. ABŞ Botanika Bağı Konservatoriyası 1820-ci ildə yaradılıb və Şimali Amerikanın ən qədim botanika bağlarından biri hesab olunur. Bağ muzey statusuna malikdir.

Mədəni anlayışlar dünyanın dil mənzərəsində xüsusilə seçilir. Mədəniyyətin dəyər prioritetlərini ortaya qoyan anlayışlar müəyyən sistemlərdə və ya linqvomədəni dominantlarda birləşir. Məsələn, mübaliğəsiz söyləmək olar ki, İngilislərin milli xarakterinə hələ də qorunub saxlanılan monarxiya və aristokratiya ənənələrinin çox böyük təsiri olmuşdur. Aristokrat və ziyalı təbəqənin dəyərləri demək olar ki, bütün xalqın dəyərlərinə çevrildi.

Dilçilikdə maraq doğuran özünəməxsus koda malik konseptlər mövcuddur ki, bunlar müəyyən bir mədəniyyətin dəyərlərini, insanların həyat şəraitini, onların davranış stereotiplərini başa düşmək üçün açar rolunu oynayır. Azərbaycan xalqının da özünəməxsus mentaliteti vardır. Bunlardan bir neçəsi özünü toy adətlərində, toy mərasimlərinin keçirilməsində göstərir.

In the evening of the first day of the wedding, the ceremony of "decorating henna" ("khinayakhdi") takes place in the house of the bride. Close friends and the relatives of the bride are invited to it. A group of young men and women together with the musicians arrive from the house of the groom that play, dance and make fun together with the bride. The closest relatives of the groom decorate the hands of the bride with

henna and present gifts. The family of the bride gives an invited lunch to the participants of the ceremony. In various regions of Azerbaijan the ceremony of decorating hands with henna is called differently: in Sheki, it is called "feast of bride". In Tovuz – "demonstration of girl", in Masalli and Lenkoran – "gathering at girls", in Guba – "use of henna", in Absheron – "hennanane", in other places – "girls party" [8, s.55-56].

Toyun ilk günü axşam gəlinin evində "xına bəzəmək" ("xınayaxdı") mərasimi baş verir. Yaxın dostlar və gəlinin qohumları ora dəvət olunur. Bir qrup bəyin evindən gələn gənc kişi və qadın musiqiçilərlə birlikdə gəlinlə birlikdə oynayır, rəqs edir və əylənirlər. Bəyin ən yaxın qohumları gəlinin əllərini xına ilə bəzəyir və hədiyyələr təqdim edirlər. Gəlinin ailəsi dəvət olunmuş mərasim iştirakçılarına nahar verir. Azərbaycanın müxtəlif bölgələrində əlləri xına ilə bəzəmək mərasimi fərqli adlandırılır: Şəkidə buna "gəlin bayramı" deyilir. Tovuzda - "qız nümayişi", Masallı və Lənkəranda - "qızların toplaşması", Qubada - "xına istifadəsi", Abşeronda - "xınayaxdı", digər yerlərdə - "qızlar məclisi".

Konseptlər müəyyən dil mədəniyyətinin nümayəndələrini birləşdirir, onlar arasında qarşılıqlı anlaşma üçün zəmin yaradır. Ayrı bir dil şəxsiyyəti və dil mədəniyyətinin konseptual məkanı ümumilikdə konseptosferanı təşkil edir. "Konseptosferə iki istiqamətdə baxmaq olar: "kənardan" baxış kimi, yəni ümumiyyətlə müəyyən xalqın milli-mədəni xüsusiyyətlərinin ifadəsi nöqteyi-nəzərindən konseptosferanın təhlili və "içəridən" baxış kimi, müxtəlif sosial qrup nümayəndələrinin daxili dünyasına çoxölçülü anlayışlar şəklində mövcud olan konseptlər vasitəsilə nüfuz etmək..." [5, s. 111].

V.P.Neroznak milli mədəniyyət anlayışlarını təhlil edərək vurğulayır ki, "ekvivalentsiz leksika" və ya "tərcümədə tərcümə olunmayanlar" adlanan terminlər məhz o anlayışlardır ki, onlar vasitəsilə fundamental milli-mədəni konseptlərin siyahılarını tərtib etmək olar" [6, s. 85]. Bu, konseptin maksimum dərəcədə obyektiv öyrənilməsi üçün maraqlı və unikal bir yanaşmadır.

Etnospesifik konseptləri təhlil edərkən müqayisəsi aparılan mədəniyyətlərin vahidlərində müəyyən asimmetriya müşahidə etmək olar. Həddindən artıq böyük asimmetriya "boşluğa" və ya lakunarlığa gətirib çıxarır. Lakunarlıq bir sistemdə digəri ilə müqayisədə müəyyən xüsusiyyətlərin və vahidlərin əhəmiyyətli dərəcədə mövcud olmamasıdır. "Doldurulmamış hüceyrələr" rolunu oynayan "lakunar anlayışları" şərti olaraq aşağıdakı növlərə bölmək olar [3]:

1) müqayisə edilən mədəniyyətlərdə müəyyən obyektləri ifadə edən anlayışların olmaması. Bunlar illogizmlər adlanır və insanların ehtiyac duymadıqları, lakin icad edilə və ya yaradıla bilən anlayışlardır. Məsələn, Azərbaycan dilində *bibi* və *xala* sözləri ingilis dilində ümumiləşdirilərək *aunt* sözü ilə, *əmi* və *dayı* sözləri isə *uncle* sözü ilə ifadə olunur. Əksinə ingilis dilində *grandparent* sözü Azərbaycan dilində vahid bir sözlə deyil, *nənə və baba* kimi ifadə olunur. Bundan əlavə rus dilində *сутка, почемучка* sözlərinin ingilis və Azərbaycan dillərinə birbaşa tərcüməsi yoxdur.

2) müqayisə edilən mədəniyyətlərdən birinə xas olan reallıqlar digərində mövcud deyil (mövzu, antroponimik, toponimik, tarixi və mədəni). Məsələn, Azərbaycan dilində *xan, müfti, aşıq, dərviş*, ingilis dilində *Union Jack, celt, Magna Carta, druids* və s.

3) aid olduqları mədəniyyətdə adı olan keyfiyyətlər və ya keyfiyyətlərin birləşməsini ifadə edən anlayışların digər mədəniyyətdə olmaması. Məsələn, Azərbaycan xalqının xeyir və şər mərasimlərinin bəzi xüsusiyyətləri bura aid edilə bilər; toyların *tamada*, yasların *molla* adlanan şəxs tərəfindən aparılması, toylarda *xonça* bəzədilməsi, yasda *halva* çalınması və s.

Bəzən ərazidə geniş yayılmış heyvan və bitki adları bir sıra stereotipik assosiasiyalarla qəbul edilir, həmin dil və mədəniyyətin daşıyıcısı olan xalqın yaddaşında sabitləşir və ad-simvollara çevrilir: r*ose* (qızılgül), *lion (aslan), unicorn* (təkbuynuzlu).

Böyük Britaniya bəzi anlayışlar mədəni birliklərə səbəb olur: fog (duman), Shakespeare (Şekspir), tea time (çay içmək, günorta çayı), monarchy (monarxiya), dry sense of humour (quru yumor), special tea (xüsusi çay), Robin Hood (Robin Hud), Oxbridge (Oxford, Cambridge, Oxbridge), rain (yağış), gentlemen (cənablar), good manners (yaxşı davranış) ədəb), 5 o'clock (çay vaxtı), unknown cuisine (naməlum mətbəx), Baker Street, yaşıl çəmənliklər, qalalar, xəyallar, futbol və s.

İngilis və Azərbaycan dillərinin konseptsferasını müqayisə edərkən həyatın mənəvi və emosional tərəfli Azərbaycan konseptlərinin ingilis dilində analoqlarının olmadığı ortaya çıxır. Eyni zamanda ingilis dilinə tərcümə olunmayan Azərbaycan dilindəki anlayışlar əksər hallarda ingilis mədəniyyətinin fərdi və rasionalizm xarakterini əks etdirir. İngilislərin aparıcı xüsusiyyətlərindən biri individualizmdır ki, müqayisəli təhlil zamanı Azərbaycan mədəniyyətində bu anlayış kollektivizm ilə əvəz edilir.

Beləliklə, linqvokulturologiyada milli-koloritli konseptləri müəyyən etməyin ən təsirli yolu onların dillərarası müqayisədə təhlil edilməsidir. Müqayisə olunan iki mədəniyyətdə konseptlərin etnomədəni spesifikliyi müvafiq leksik və frazeoloji qruplar vasitəsilə ifadə oluna bilər.

At any cost – nəyin bahasına olursa olsun [2, s. 20]; to eat like a horse – qurd iştahası, acgözlüklə yemək; to burn one's finger – yanmaq, özünü işə salmaq [2, s. 49]; When hell freezes over - dəvənin

quyruğu yerə dəyəndə [2, s.312]; break the ice – buzları əritmək, gərginliyi aradan qaldırmaq [2, s. 47]; an old bird – bərkə-boşa düşmüş adam, qoca qartal; fall of deaf ears – qulaqardına vurmaq [2, s. 86]; to kick the bucket – dünyasını dəyişmək; Tell smb. a thing or two – birisinə bir-iki yaxşı söz demək [2, s.286]; Between two fires – odla su arasında [2, s. 40]; change colour – üzdən dəyişmək, saralmaq[2, s. 55]; dance to smb`s tune – kiminsə qabağında tir-tir əsmək [2, s.72] və s.

Etnomədəni konseptlərin təhlili zamanı, şübhəsiz ki, tədqiqatçının maraq dairəsi digər linqvokulturologiyada ekvivalentləri mövcud olmayan konseptlərdən ibarətdir. Ümumilikdə etnomədəni konseptlər maddi aləmə koqnitiv və mental yanaşmaları, reallığın mənimsənilməsi və onun mənəvi qiymətləndirilməsi yollarını, mentalitetin xüsusiyyətlərini özündə əks etdirir. Azərbaycan Respublikasının Qeyri-Maddi Mədəni İrs Nümunələrinin Dövlət Reyestrindən «Kəlağayı sənəti»nə dair qısa çıxarışda bildirilir [1]:

Kəlağayını armud, qoz, cır alma ağacından hazırlanan, üzəri böyük ustalıqla oyulmuş nəbati, həndəsi və kosmoqonik təsvirlərdən ibarət qəliblərlə naxışlayırlar. Qəliblərə naxışlarına görə müxtəlif adlar verilir ("günəş", "pullu qəlib", "simayi-şəms", "haşiyə", "şah" (böyük buta), "buta" (kiçik buta), "göbək", "mədahil", "xarı bübül", "xətayi", "kəpənək", "heratı", "çobanyastığı", çiyələk", "aypara", "tikəş", "ispirəy" və s.).

Kelaghayis are decorated with floral, geometric and cosmogony patterns made with the help of specific woodblocks, which woodblock-makers skilfully prepare from various kinds of trees: pear-tree, walnuttree and apple tree. Woodblocks have different names (gunesh, pullu qelib, simayi-shems, hashiye, shah (boyuk buta), buta (kichik buta), gobek, medahil, xari bulbul, xetayi, kepenek, herati, chobanyastighi, chiyelek, aypara, tikesh, ispirey and others).

İki mədəniyyətdə olan etnomədəni fərqləri anlamaq digər mədəniyyətdə bir-birilə bağlı məna zəncirini görməyə və buna uyğun olaraq öz mədəniyyətində belə zəncirləri daha yaxşı başa düşməyə imkan verir. Etnospesifik linqvokulturoloji konseptlərin mental tərəflərinin öyrənilməsi bizə müəyyən bir mədəniyyətə xas davranışın ən yüksək qaydalarını başa düşmək imkanı verir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Qeyri-Maddi Mədəni İrs Nümunələrinin Dövlət Reyestrindən "Kəlağayı sənəti"nə dair qısa çıxarış. Reyestr Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 218 saylı 28.04.2010 tarixli əmri ilə təsdiq edilmişdir. (09.07.2013 tarixli əlavələrlə)
2. Hacıyeva, Ə.H. Müxtəlifsistemli dillərdə somatik frazeoloji birləşmələr / filologiya elmləri doktoru dissertasiyasının avtoreferatı / – Bakı, 2009. – 44 s.
3. Быкова Г. В. Лакунарность как категория лексической системологии: автореф. дис. … д-ра филол. наук. Воронеж, 1999. 33 с.
4. Карасик В. И. Языковой круг: личность, концепты, дискурс. М.: Гнозис, 2004. 390 с.
5. Леонтович О. А. Русские и американцы: парадоксы межкультурного общения: монография. М.: Гнозис, 2005. 352 с.
6. Нерознак В. П. От концерта к слову: к проблеме филологического концептуализма // Вопр. Филологии и методики преподавания иностранных языков: сб. науч. тр. Омск, 1998. С. 80–85.
7. Mounin, G. Les belles infidels / G.Mounin. – Paris: – 1955. – 160 p.
8. Rustambayova A. Ancient tradition of fire worshiping in Azerbaijan. – Baku: IRS From the past, – 3(22) Autumn, – 2015. – p.20-25.

РЕЗЮМЕ

ЭТНОКУЛЬТУРНЫЕ КОНЦЕПТЫ КАК ОТРАЖЕНИЕ НАЦИОНАЛЬНОЙ ПРИНАДЛЕЖНОСТИ

Буньятова А.Б.

Ключевые слова: *этнокультурный, лингвокультура, концепт, концептосфера*

Проблема языка, мышления и мысли, языка и культуры всегда остается актуальной для лингвистики, культурологии и лингвокультурологии: ведь нельзя однозначно определить природу взаимоотношения языка, мышления и культуры. Существуют различные подходы к решению данной проблемы.

В настоящее время в рамках изучения иностранных языков особое внимание должно быть уделено формированию межкультурной компетенции. Данная статья рассматривает возможность использования этноспецифических концептов в учебных целях, разъясняет необходимость культурно-связанного изучения иностранных языков. Так же включена этноспецифика концепта с позиции межкультурного подхода к изучению иностранных языков.

SUMMARY

ETHNOCULTURAL CONCEPTS AS A REFLECTION OF NATIONAL BELONGING

Bunyatova A.B.

Key words: *ethno-cultural, linguoculture, concept, conceptsphere*

The problem of language, thinking and thought, culture always remains relevant for linguistics, cultural studies and linguoculturology, because it is impossible to unambiguously determine the nature of the relationship between language, thinking and culture. There are various approaches to solving this problem.

At present, in the framework of the study of foreign languages, special attention should be paid to the formation of intercultural competence. This article considers the possibility of using ethno-specific concepts for educational purposes, explains the need for culturally related learning of foreign languages. The ethnospecificity of the concept is also included from the standpoint of an intercultural approach to the study of foreign languages.

QƏRBİ AZƏRBAYCANIN QARAQOYUNLU BÖLGƏSİNİN YANIQPƏYƏ KƏNDİNİN YER-YURD ADLARININ XALQ ETİMOLOGİYASI

Əhmədov N.Ş.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
nofelehmedov@mail.ru

***Açar sözlər**: Yeniqpaya, aborigen, hidronim, Qaraqoyunlu, toponim, Qərbi Azərbaycan*

Tarixi mənbələrdən məlumdur ki, indiki Ermənistan Respublikası deyilən ərazidə hələ eramızdan əvvəl I minilliyin əvvəllərindən başlayaraq siyasi və iqtisadi hadisələrin əsas iştirakçıları türk mənşəli tayfalar, türk mənşəli şəxsiyyətlər idilər.Azərbaycanlıların bu ərazilərdə aborigen olduğunu toponimik adlar sübut edir. Göyçə gölü və onun ətrfında türkmənşəli tayfalar yaşamış, özlərinin silinməz izlərini tarixi yaddaşlara həkk etmişdir. Hal-hazırda ermənilər tərəfindən həmin ərazilərdə olan tarixi abidələr saxtalaşdırılmış, bir çox maddi və mənəvi abidələr yerlə yesan olunmuş, məhv edilmişdir. Lakin tarixi abidələr öz sirlərini və izlərini gizli saxlamağı baçarır. "Bundan alınan məntiqi nəticə belədir ki, indiki Ermənistana məxsus olan və Azərbaycanla sərhəd təşkil edən Zəngəzur (Zəngəzurun böyük hissəsi- Sisyan, Gorus, Qafan və Meğri rayonları indi Ermənistana, kiçik hissəsi- Laçın Qubadlı və Zəngilan rayonları Azərbaycana məxsusdur), Dərələyəz və Göyçə zonaları tarixən Azərbaycan xalqının yaranma arealına aid olduğuna görə elə tarixən də erməni torpağı sayıla bilməz.Həqiqətən də Ermənistan azərbaycanlılarının yaşadığı Zəngəzur və Göyçə zonaları qədim dövrdə Alban ölkəsinin ərazisi idi." [5, s.9]. Digər tərəfdən, Azərbaycan xalqının hələlik ən qədim salnaməsi sayılan "Kitabi-Dədə Qorqud" dastanında hadisələr cərəyan etdiyi yerlər Qərbi Azərbaycanın mədəni-coğrafi arealı ilə yaxından səsləşir. Dastandakı hadisələrin əksəriyyəti Dəmir Qapı Dərbənd, Bərdə, Gəncə,Dərəşam, Əlincə, Qaradağ, Göyçə gölü, Qaracuq və s. yerlərdə cərəyan edir. Bu baxımdan Qərbi Azərbaycanın Qaraqoyunlu bölgəsində bir sıra toponim, oronim, hidronimlər və s. "Kitabi Dədə Qorqud"un toponomiyasının izlərini özündə qoruyub saxlayır.Tədqiqatçı Q.Qeybullayev indiki Ermənistan ərazisində min illərlə yaşayıb-yaratmış azərbaycanlıların soykökündən bəhs edərkən yazır ki, Ermənistan azərbaycanlılarının etno-genezində iştirak etmiş qədim türk mənşəli etnosların hamısı, həm də bu və ya digər dərəcədə, bütünlükdə azərbaycanlıların ulu əjdadlarıdır". Erməni daşnakları müxtəlif dövrlərdə Basarkeçər rayonunun bir-neçə kəndini Qaraqoyunlu dərəsinin kəndləri ilə birləşdirərək Krasnoselo rayonu yaratdılar.Yəni coğrafi məkan baxımından Göyçə mahalı ilə Qaraqoyunlu dərəsi bir region təşkil edir.Burada da məkrli erməni siyasəti mövcuddur. Qaraqoyunlu dərəsinə aid olan Salah, Göyərçinli, Polad Ayrım, Ağkilsə, Mırtöyül, Alaçıqqaya və Haqqıxlı kəndləri, Dilican rayonuna aid olan Adatəpə, Aralıx-Qoyun, Armudlu, Ağtalaq,Baltadərəsi, Baltaçay, Qaraəhmədli, Qədirdamı,Göytala,Güneytəpə,Taxtakörpu, Tərsəçay kəndləri, İcevan rayonuna aid olan Abbasdərəsi, Ağdan, Aşağı Ağdan, Aşhigah, Bibis, Bostantala, Yuxarı Ağdan, Lələkənd, Məlikkənd, Murtu, Rəvazlı, Sarıkənd, Tala, Uzuntala, Xeyirbəyli, Hamamlı, Haçasu, Çirviz, Coğaz kəndləri adlarından da göründüyü kimi, sirf azərbaycanlı kəndləridir. Həmin kəndlər müxtəlif dövrlərdə ermənilərin məkrli siyasətindən və istəyindən asılı olaraq gah İcevan (qədimi adı Karvansaray) rayonuna, gah da Dilican rayonuna verilir və ya müxtəlif bəhanələrlə kəndlər ləğv olunurdu. Sonralar məlum olur ki, bütün azərbaycan kəndləri üçün ayrıca rayon təşkil olunsaydı, bir tərəfdən Basarkeçər, digər tərəfdən isə Dilican və İcevan şəhərləri ətrafında olan azərbaycanlılar yaşayan kəndlər birləşərək, muxtariyyat tələb edə bilərmişlər. Yenə də məkrli erməni xisləti, xəstə təxəyyüllü daşnak partiyasının ideoloqlarının milliyətçilik siyasəti öz ampluasından əl çəkmir. "1935-ci il yanvarın 3-dən etibarən isə ermənilər "Ermənistan" ərazisində görülməmiş tarixi bir cinayətə-türk mənşəli yer-yurd adlarının kütləvi şəkildə dəyişdirilməsinə və ermənilşdirilməsinə başlayırlar. Dövlət səviyyəsində - "Ermənistan SSR" Ali Sovetinin qərarı iləhəyata keçirilən bu aksiya düz 56 il sonra bütövlükdə başa çatdı – 1991-ci ilin avqustunda "Ermənistan" ərazisindəkisonuncu azərbaycan kəndi – Meqri rayonunun Nüvədi kəndi tərk edildikdən sonra "Ermənistan"da artıq nə bir azərbaycanlı, nə də bir azərbaycanlı yaşayış məntəqəsi qaldı" [3, s.12].

“Ermənilər pusquda dayanmış tülkü kimi türklərdən yeni bir qisas almaq üçün məqam gözləyirdilər. Artıq belə bir an gəlmişdi və ermənilər bundan öz xeyirləri üçün maksimum istifadə etdilər.Sovetlər imperiyasının prezidenti Qorbaçovun xeyir-duası ilə erməni dığası “miatsum”dünyaya gəldi. 1988-ci ildə Qərbi Azərbaycanda yaşayan türklər birdəfəlik dədə-baba torpaqlqrını itirdilər. Qərbi Azərbaycan gəlmə ermənilərin əlinə keçdi.” [4, s.12].

Bir qayda olaraq, müəyyən regionda yaşayıb- yaratmış sakinlərin aborigen olduqları yer-yurd adlarında, müxtəlif dövrlərdə yaranmış əfsanə və əsatirlərdə də toponimlər, oronim, fitonim, zoonimlər və sairə onomoloji vahidlərdə özünü yaşadır və təsdiq edir.Bu baxımdan Qərbi Azərbaycanın Qaraqoyunlu Dərəsində 1988-ci ilədək yaşamış azərbaycanlıların tarixi yaddaşına həkk olunmuş yer-yurd adlarının xalq etimologiyası xalqımızın ən qədim milli-etnik təfəkkürü ilə bağlıdır.Qaraqoyunlu Dərəsinin Yanıqpəyə kəndi. “Yanıqpəyə - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında (indiki Ermənistanın Krasnoselsk rayonunda) kənd adı. 1978-ci Meşəkənd adlandırılmışdır. 1988-ci əhalisi Azərbaycana qovulmuşdur. Kənd XIX əsrin ortalarında qışlaq əsasında yaranmışdır.Qışlaq isə “Yanıq pəyə”(yandırılmış pəyə) yerinin adını əks etdirir” [2, s.274]. Çar hökümətinin “parçala, hökm sür!” siyasəti nəticəsində Qaraqaoyunlu bölgəsinə də ermənilər köçürülmüş və milli nifaq salmaq üçün şərait yaradılmışdı.

“1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciənin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qisa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi ” [1, s.214].

Yanıqpəyə kəndi ərazisində yerləşən və müqəddəs sayılan Qoşaqardaş piri maraqlı xalq etimologiyasını özündə əks etdirir. Yerli əhalının söylədiyinə görə, qoşa palıd ağacı bitən yerdə iki tayfa arasında yaranmış ədavət nəticəsində iki qardaş öldürülmüşdür və həmin yerdə bir palıd ağacı bitmişdir. Qoşaqardaş kəndin girəcəyində qoşa palıd ağacıdır, ağacın kökü birdir və inanca görə həmin ağacı yaralayanda və ya balta vuranda ondan qan gəlir, ona görə də həmin yer müqəddəs hesab olunurdu. Ürəklərində arzu tutub niyyət edənlər həmin ağacın haçalandığı yerə və ya budaqlarına nəsə hədiyyə bağlayar, şirniyyat və bəzən də pul qoyardılar. Heç kim cürət etib həmin qoşa ağacı yaralaya bilməzdi, müqəddəs yer sayılırdı. Hətta toponimləşmiş həmin yerə “Haradasan?- sualına yerli camaat- “Qoşaqardaşın yanındayam”- deyə cavab verərdi. Ən müqəddəs sayılan ziyarətgahlardan biri də yalnız Yanıqpəyə camaatı üçün yox, bütün Qaraqoyunlu elatı üçün Qiblətəpə və ya Çalmalıtəpə hesab olunurdu. Qaraqoyunlu eli ilk növbədə Qiblətəpə (yerlı tələffüzlə Qıvlatəpə) ona görə adlandırıdı ki, iribuynuzlu və ya xırdabuynuzlu, eləcə də ev quşları kəsilərkən Qiblətəpə istiqamətində həmin heyvanların dini rituala uyğun başı kəsilirdi.Hər hansı bir şəxsin əri, oğlu və ya əzizi müharibəyə gedib sağ-salamat qayıtmasına qurban deyər və sonra qurbanlığı orada kəsərdilər. Uzun müddət ağır xəstə yatan, əsasən uşaqları, həmin ziyarərtgaha aparar, qurban kəsər, təpənin ən yüksək yerin torpağından ağır xəstə yatan şəxsə mütləq, az da olsa, yedizdirərdilər. Hər iki müqəddəs sayılan yer, həm Qoşaqardaş və həm də Qiblətəpə Yanıqpəyə kəndinin ərazisində yerləşir. Gədəölən (yerli dialektə görə tələffüzü Gədölən) toponiminin də maraqlı tarixçəsi mövcuddur. Həmin hadisənin baş verdiyi yer toponimləşərək Gədəölən bulağı, Gədəölən meşəsi kimi yerli əhali tərəfindən adlandırılmışdır.Yerli camaatın söylədiyinə əsasən kəndin gənc qadınlarından biri öz uşağı ilə qonşu kəndə, həmin rayonun Əmirxeyir kəndinə, qohumlarıgilə qonaq gedirmiş. Elə olur ki, uşaq birdən-birə, qəflətən yolda xəstələnir. Yerli əhalı 11-14 yaşlı oğlan uşaqlarına müraciət edərkən “ Ay gədə, ay uşaq” deyə çağırırdılar. Ana bir qədər uşağına köməklik göstərir və gücü çatmır ki, onu kəndədək aparıb çıxara bilsin. Balasına deyir ki, məni burada gözlə, qohumları köməyə çağırım. Kəndə gəlir və qohumlarına əhvaları danışır, onlar isə tez yola düşürlər. Həmin yerə çatanda görürlər ki, uşaq bir palıd ağacına söykənərək dünyasını dəyişib. Bu hadisədən sonra yerli camaat həmin meşəni Gədəölən meşəsi, yeri isə Gədəölən adlandırır.

Tazıuçan yaylağı da maraqlı xalq etimologiyası ilə bağlıdır. Deyilənə görə, qış vaxtı ovçular yığışıb dağa ova gedirlər. Özləri ilə ov tulaları və ya tazıları da aparırlar. Həmin yerlərdə, meşələrdə çox cüyür olarmış. Ovçular bərədə dayanırlar və sürəkçiləri (sürəkçi- ov zamanı ovçular bərələrdə öz yerlərini tutduqdan sonra ov tulaları,tazıları və ya yalnız ova böyük marağı olan, ancaq hələlik yaxşı güllə ata bilməyən adamlar sürəkçi adlanırlar) gözləyirlər. Onlar tazılarla birlikdə səs-küy edirlər ki, ov gəlib bərədən keçsin. Ov zamanı tazı ov heyvanını görərək onu təqib etməyə başlayır və bu zaman sıldırım qayalıqdan cüyür hoppanır, arxası ilə də tazı. Tazı qayalıqdan uçur və ölür. Ona görə də həmin yaylaq Tazıuçan yaylağı adlanırdı. Qeyd edək ki, Tazıuçan oronimi Qərbi Azərbaycanın Ağbaba, Pəmbək, Dərələyəz və digər bölgələrində də mövcud olmuşdur. Yanıqpəyə kəndinin içində olan bulaqlar haqqında: Yerli əhalının söylədiyinə görə kənddə olan ilk bulaq Gilli və ya Güllü bulaq adlanırdı. Hər iki adın verilməsinin izahı var, çünki bulaq həm gilli və qayalı olan yerdən çıxır, həm də bulağın üst tərəfində əsasən yaz vaxtı xırda göy

rəngə çalan güllər bitirdi. Sonralar elin ağsaqqalı sayılan və həmin kənddə məskunlaşmış ilk tayfalardan biri olan Mancanlı tayfasından olan Quzuçu kişi həmin bulağı tam bərpa etmiş, kəndin heyvanatını sulamaq üçün bulağa nov hazırlatmışdı. Hörmət mənasında kənd camaatı həmin bulağı Quzuçu bulağı adlandırırdı. Böyük təəssüflə qeyd etməliyik ki, 1988-ci il hadisələrindən, yəni azərbaycanlıların Ermənistan ərazisindən deportasiyasından sonra, mənfur düşmənlərimiz indi həmin bulağın ad yazılmış daşının üstünə erməni dilində uydurma ad yazıblar. Həmişə olduğu kimi bir azdan haylar deyəcəklər ki, burada həmişə ermənilər yaşayıblar. Kəndin içində olan ikinci bulaq isə Naziksu bulağı idi.Bu adın verilməsinin əsas səbəbi bulaqdan çıxan suyun nazik formada qeyri-adi axması idi.Kənddə olan üçüncü bulaq Ağaismayıl bulağı adlanırdı. İzahı isə bulağın həm Ağaismayılın evinin yanından çıxması və həm də həmin şəxs tərəfindən mütəmadi təmizlənməsi və həm də nəzarətdə saxlanılmasına görə kənd camaatı bulağı elə adlandırırdı. Dördüncü bulaq isə kəndin ayaq tərəfində olan Qaratelbulağı adlandırılırdı.Bulağın adı kəndin sakini Qaratel xanımın adı ilə bağlıdır. Qeyd olunan bulaq da həmin xanımgilin evinə çox yaxın olması ilə bağlıdır.Beşincı bulaq isə bəzən Çır-Çır, bəzən də Şır-Şır bulağı adlanırdı. Kəndin çıxacağında, yəni Taxtalar adlanan məhəllədə,iki, üç metr hündürlükdən şəlalə kimi axdığına və axarkən şırıltılı olduğuna görə,camaat bulağı belə adlandırırdı. Kənddən kənarda, kəndin Şimal tərəfində yerləşən Qurubulaq toponiminin də adı maraq doğurur. Həmin bulaq yaz aylarında axar və ilindən asılı olaraq yay aylarının ortalarında quruyardı. Adı isə ona görə Qurubulaq adlanırdı. Demək olar ki, Qaraqoyunlu Dərəsinin təqribən 14 kəndinin əhalisinin bir qismi, ilindən asılı olaraq, yaz və yay aylarında yaylaqlara çıxırdılar. Bir qayda olaraq yaylağa iri və xırda buynuzlu naxır və sürülərlə bərabər hər ailədən bir-neçə nəfər gedirdi.Yaylaqlara adətən qoçaq və bacarıqlı, yəni süd məhsullarını yaxşı emal edən insanlar və onlarla bərabər yaşlılar, uşaqlar da çıxırdılar. Məqsəd isə mal-qaranın yaxşı və gümrah kökəlməsi üçün yaylaqlarda və dağlarda münbit şəraitin olması və qışa hazırlıq idi. Payızda yaylaqlara qalxmış köç birbaşa kəndə gəlmirdi. Yerli əhali arasında birinci köç, yəni birbaşa kəndə yox, dağ ətəyində olan yerlərə- meşəlik və talalara edilmiş köç payızlıq köçü adlanırdı. Bununla əlaqədar, müvəqqəti də olsa, yeni toponimlər yaranırdı. Həm yaylaqlarda və həm də payızlıq yerlərində kənd əhalisi bir qayda olaraq tayfa-tayfa özlərinə yer seçirdilər. Adətən hər tayfanın da öz yurd yeri olurdu, bir qayda olaraq yer-yurd adları tayfanın sayılan, seçilən şəxsin adı ilə bağlı olurdu. Yer seçilən zaman əsas şərt bulaqların yaşayış yerinə yaxın olması idi. Belə yerlərdən biri Sərdardüşən adlanırdı və həmin yerdə Göybulaq adında bulaq da var idi. Aydındır ki, su şəffaf olur və göy ola bilməz, ancaq bulağın çıxdığı yerdə, daha dəqiq desək bulağın gözündə xırda-xırda göy daşlar var idi və buna görə də bulaqdan çıxan su göy rəngə çalırdı, ona görə də bulaq Göybulaq adlanırdı. Həmin yerə payız vaxtı bir qayda olaraq Sərdarlı tayfası düşərdi. Qeyd olunan kəndin hər tərəfi meyvə ağaclar ilə, əsasən meşə armudu ilə çox zəngin idi. Sona qarı armud ağacını tapdığına və həmin ağacın meyvələri digərlərindən tam fərqli olduğuna, ağacın meyvələrini ilk dəfə o,kəndə gətirdiyinə görə kənd əhalisi ağaca həmin adı- Sona qarının armudu adını vermişdir. Eləcə də böyük bir tarla sahəsinin ortasında bir armud ağacı var idi və onu isə yerli əhali toponimik vahid kimi Təkarmud adlandırılırdı. Məlumat üçün onu da bildirməliyik ki, professor Q.Namazov "Dədə Qorqud" boylarının izi ilə" adlı məqaləsində dastanın tarixi-coğrafi arealından bəhs edərkən diqqəti Göyçə və onun ətrafına çəkərək yazır: "Orta yüzillər oğuznamələrində oğuzların vətəni kimi Göyçə daha çox xatırlanır...Oğuz xaqanın, Bayandur xaqanın, Sunkur bəyin,Şəktur bəyin, habelə Qıpçaq xanın və başqalarının fəaliyyət mərkəzi- onların əsas məkanları, başlıca oylaqları Göyçə dənizi ətrafı, Qarabağ qışlağı,Alagöz yaylaqları, Əlincə qalasının olduğu yerlər, Qərbi Azərbaycan torpaqlarıdır" [6,31-32]. Digər tərəfdən,Qazax royonunun kənd adları və həmin dövrdə ən məşhur ağalar , bəylərin adları ilə adlanan Qərbi Azərbaycanın Qaraqoyunlu bölgəsində yaylaqların, biçənəklərin, yurd yerlərinin,bulaqların adları var idi. Ona görə ki, qeyd olunan Qaraqoyunlu dərəsi 1920-ci ilə qədər inzibati-ərazi bölgüsünə görə Qazax qəzasına tabe idi.Yaylaq, biçənək, yer-yurd adlarının tədqiqatı isə ayrıca bir araşdırma mövzudur.

Ədəbiyyat

1. Arzumanlı V., Mustafa V. Tarixin qara səhifələri. Deportasiya. Soyqırımı. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280s.
2. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 454 s.
3. Ələkbərli Ə. Qədim türk-Oğuz yurdu "Ermənistan". Bakı: Sabah, 1994, 204 s.
4. Hacılı E. Qaraqoyunlular. Sumqayıt: Sumqayıt, 1999, 292s.
5. Qeybullayev Q. Qədim türklər və Ermənistan.Bakı: Azərnəşr, 1992, 140s.
6. Namazov Q. Qzan-aşıq sənətinin tarixi. Bakı: Elm və təhsil, 2013, 480s.

РЕЗЮМЕ
НАРОДНАЯ ЭТИМОЛОГИЯ НАЗВАНИЙ МЕСТ И ЖИЛИЩ СЕЛА ЯНЫГПАЯ РЕГИОНА ГАРАГОЮНЛУ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА
Ахмедов Н.Ш.

Ключевые слова: *Яныгпая, абориген, гидроним, Гарагоюнлу, топоним, Западный Азербайджан*

В данной статье дается историческая информация об азербайджанском селе, находящемся на территории Красносельского района региона Гарагоюнлу Западного Азербайджана. Отмечается, что в дастане «Китаби Деде-Коргут», считающемся древнейшей летописью азербайджанского народа, сохранены и упомянуты многие топонимы, оронимы, гидронимы и др. Однако армяне искусственно заселенные на территорию Западного Азербайджана около двух веков, изменяли азербайджанские названия населенных пунктов, рек, озер, районов, чтобы объявлять всему миру, что они являются здесь коренным населением. В статье исследуются топонимы названного села и в результате исследования автор приходит к выводу, что азербайджанцы – древние жители этой земли, и все названия этих местностей связаны с историей и происхождением этого народа.

SUMMARY
FOLK ETYMOLOGY OF THE NAMES OF PLACES AND DWELLINGS OF THE VILLAGE OF YANIGPAYA IN THE GARAGOYUNLU REGION OF WESTERN AZERBAIJAN
Akhmedov N.Sh.

Key words*: Yanikpaya, aborigine , hydronym ,Garagoyunlu, toponym,Western Azerbaijan*

The article gives information about the Azerbaijani village located in the Garagoyunlu region of Western Azerbaijan. It is noted thatKitabi Dede-Korkut the oldest chronicle of the Azerbaijani people contains many toponyms, oronyms, hydronyms, etc. However, the Armenians who were artificially placed in the territory of Western Azerbaijan, gradually changed the names of Azerbaijani settlements, rivers, lakes, and regions in a period of nearly 2 centuries in order to announce to the whole world that they are the real natives of these lands. The toponyms of the mentioned village are studied in the article, and the author comes to the conclusion that Azerbaijanis are the real local population of these lands, and all the names of these places are related to the history and origin of this people.

DİSKURSDA MƏTNLƏRİN KONDENSASİYASI (SIXILMASI)

Quliyeva D.R.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
dilarerustam@gmail.com

Açar sözlər: *mətn, kondensasiya, diskurs, verbal və qeyri-verbal nitq*

Diskurs mətnin bir növüdür, dil fəaliyyətinin mühüm bir prosesi kimi görünür, eləcə də bu hadisənin nəticəsidir. Diskursun strukturu tam olduğu kimi, sıxılmış durumda da olur. Sıxılmış vəziyyət əsla məna bitkinliyinə xələl gətirmir. Sıxılan mətnlər də iyerarxik formada özünü göstərir. Assimmetrik və simmetrik münasibətlər bu səviyyədə formalaşır.

Diskurs geniş anlamda danışan və dinləyən (həmçinin də müşahidə edən) arasında müəyyən zaman və məkan daxilindəki ünsiyyət fəaliyyəti prosesində yaranan kommunikativ hadisə kimi dərk edilir. Kommunikativ təsir nitq və yazı formasında olub verbal (sözlü) və qeyri-verbal (sözsüz) tərkib elementlərini özündə birləşdirir. Diskursa örnək olaraq ali danışıq, dialoq, qəzet mətnlərinin oxunması və s. misal göstərmək olar.

- Xub, o da baş üstə. (Çağırır) Süleyman! Cavad, Süleymanı buraya çağır. (Cavad çıxır) Bu saat Süleyman bəy gələr, deyərəm kağız yazar. Gedərsən kəndə, taxıl da götürərsən, yabı da verərlər. (Süleyman bəy daxil olur gimnaziya libasında, uzun birçək, papaq əyri, damağında papiros.) Süleyman, qadan alım, bir kağız yaz darğa Avanesə, Mirzə Bayram gələn kimi ona bir çuval buğda, bir çuval düyü və kənddəki boz yabını da versin [2, s.116].

- İzin verin anam ilə görüşüm.

Anasını çağırdılar. Uca boylu, tənumənd bir qadın irəli yeriyib oğlunun üzündən öpdü. Əbdülkərim, anasının üzündən öpüb dedi:

- Ana, mən igidliklə ölümə gedirəm. Məndən sonra bir qətrə göz yaşı töksən, ruhum səndən inciyəcəkdir.

Anası cavabında:

- Əbdülkərim anası ağlamaz. Sən də, oğul, dünyada igid yaşayıbsan, ölümə də igid get, rəngin bir zərrə qaçsa, sənə oğul demərəm [2, s.103].

Verbal nitq ünsiyyətin yazılı və ya şifahi formasıdır; ünsiyyət prosesində dil vasitələrindən istifadə edilməklə tərəflər arasında həm şifahi, həm də yazılı şəkildə fikir mübadiləsi aparılır. Qeyri-verbal nitq isə

jestlər və mimika vasitəsilə həyata keçirilir. İnsanlar arasında üz ifadəsi və göz təmasının təsir gücünün üstünlük təşkil etdiyi qeyri-verbal nitqdən fərqli olaraq, verbal nitqin şifahi formasının insanlara təsiri səs tembri, səs tonu və intonasiyanın vasitəsilə həyata keçirilir.

"*Qeyri-verbal ünsiyyət bədən dili və nitq parametrləri vasitəsilə həyata keçirilir. Bədən dili, başqa bir insana təsir edən verbal olmayan ünsiyyətlərin əsas komponentidir. Bura geyim, duruş, jestlər, bədən hərəkətləri, insanın fiquru, qaməti, üz ifadəsi, göz təması, şagird-tələbə məsafəsi və natiqlər arasındakı məsafə daxildir*" [1, s.164].

Dar çərçivədə diskurs kommunikativ təsirin yalnız verbal təşkilediciliyi əsasında əmələ gələn "mətn" yaxud "danışıq"dır. Kommunikativ fəaliyyətin bitmiş yaxud davam edən məhsulu olan diskurs bu kommunikativ prosesin yazı və ya nitq şəklində təzahürünün nəticəsi olaraq meydana çıxır. Odur ki, diskurs kommunikativ fəaliyyətin yazılı və ya şifahi forması olan verbal məhsuludur [6, s.67].

Diskurs, təbii olaraq, cəmiyyətin, həyatın rəngarəng sahələri ilə əlaqədar meydana çıxır. Bu sahədə nitq fəaliyyətinin bütöv və lakonik şəkildə ifadəsi məsələsi də ortaya çıxır. İnsan özünü nitqində gerçəkləşdirməkdən ötrü qurduğu mətnə öz fərdi prizmasından yanaşır. Əsas fikri tam şəkildə yaxud sıxılmış biçimdə təqdim etməyi planlaşdırır. İnsanın həmin vərdişlərə yiyələnməsi onun nadir diskurs qabiliyyətini formalaşdırır. Azad Məmmədovun göstərdiyi kimi, "*Diskursiv bilik, bacarıq və vərdişlər şəxsiyyətlərarası münasibətlərin nəticəsi kimi milli-mədəni spesifika ilə fərqlənir və hər hansı bir tam və sıxılmış diskurs konkret dil toplumunun qanunları ilə qurulur"* [4, s.5].

Sıxılma hadisəsi birbaşa mətnlə bağlı olduğu üçün onun öyrənilməsi əsas etibarilə 2 üsulla aparılır. Birinci üsul propozisional üsuldur. Həmin üsul mətnin sıxılmış parametrlərinə əsasən cümlənin artıq müəyyənləşdirilmiş əlamətlərini araşdırır. İkinci üsul kommunikativ üsul adlanır. Həmin üsul sıxılmış mətnin öyrənilməsini, onun immanent xüsusiyyətlərinin homogen sintaktik strukturlara müraciət etmədən ayrılmasını nəzərdə tutur. Belə üsul və ya yanaşma reduksiyaya uğramış (hər hansı bir səbəbdən) özünəxas xüsusiyyətlərinin bütöv obyekt kimi dəqiq diferensiasiyasını şərtləndirir [3, s.10].

Qeyd edək ki, sıxılmış mətn ən çox ünsiyyət prosesinə köməklik göstərir. Bu baxımdan yanaşdıqda həm mətn, həm də diskurs dilin müəyyən semantik yük daşıyan konfiqurasiyasıdır. Mətn və kontekstdən söhbət açılarkən diskursun əsas hissəsini təşkil edən mətnlər müəyyən şəraitdə daim olaraq çevrilməyə məruz qalır və bu zaman diskursda da sıxılma hadisəsi yaranır. Mətn və diskurs sıxılan zaman onun mütləq gerçək situasiya daxilində strukturu dağılır. Sıxılma mətnin və diskursun özünün ünsiyyət səviyyəsindən asılı duruma düşür. Əlbəttə, sıxılmış mətnlər də xətti sıraya malikdirlər. Bu sıra çöxölçülüdür.

N.A.Slyusarevanın diskursla bağlı fikri digərlərindən fərqlənir: "*Diskurs dedikdə, bir-birinə bağlı olan iki və daha çox cümlə nəzərdə tutulur"* [5, s.69].

Bu cəhətdən mətni adekvat biçimdə dərk etməkdən ötrü onun fərdi şəkildə sıxılan diskurslarını da müəyyənləşdirmək lazım gəlir.

Qeyd edək ki, bugün siyasi diskurslarda mətn müəllifi çalışır ki, mətndə açılan əsas fikri inandırsın, dəqiq fəaliyyət planını, cəmiyyətdə mövcud problemlərin əsaslandırılmış baxışlarını həyata keçirsin, həmçinin də düşüncəsini yığcam olaraq çatdırsın.

Ədəbiyyat

1. Eminli, B.İ. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti / B.İ.Eminli, G.B.Paşayeva. - Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, - 2021. – 400 s.
2. Haqverdiyev, Ə. Seçilmiş əsərləri / Ə.Haqverdiyev. – Bakı: "Maarif" nəşriyyatı, - 1987. – 197 s.
3. Məmmədov, A. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi / A.Məmmədov. – Bakı: "Elm" nəşriyyat, - 2001. - 144 s.
4. Məmmədov, A. Diskurs təhlilinin koqnitiv perspektivləri / A.Məmmədov, M.Məmmədov. – Bakı: Çaşıoğlu, - 2010. - 96 s.
5. Слюсарева, Н.А. Проблемы функционального синтаксиса современного английского языка (монография) / Н.А.Слюсарева. - Москва: Наука, - 1981. - 206 с.
6. Dijk, T.İ.Van. Text and context: Exploration in the semantics and Progmatic of Discourse / T.İ.Van. Dijk - London-New-York: Academic Press, - 1983. – 72p.

РЕЗЮМЕ

КОНДЕНСАЦИЯ (СЖАТИЕ) ТЕКСТОВ В ДИСКУРСЕ

Гулиева Д.Р.

Ключевые слова*: текст, конденсация, дискурс, вербальная и невербальная речь.*

В отличие от монологических, диалогических текстов, которые подвержены большему сжатию, дискурсивные тексты, включающие в себя речь говорящего, а также его внешние признаки, одежду, поведение и действия, создаются из

единства вербальных и невербальных речевых элементов. Это позволяет более правильно и лучше понять эти тексты читателем. С этой точки зрения компрессия дискурса и связанных с ним текстов открывает путь к истолкованию общих направлений механизма понимания человека, выявляет значение компрессии в речевой деятельности.

SUMMARY
CONDENSATION (COMPRESSION) OF TEXTS IN DISCOURSE
Guliyeva D.R.

Key words: *text, condensation, discourse,verbal and non-verbal speech.*

Unlike monologue and dialogic texts, which are subject to greater compression, discursive texts, which include the speaker's speech, as well as his external signs, clothes, behavior and actions, are created from the unity of verbal and non-verbal speech elements. This allows the reader to understand these texts more correctly and better. From this point of view, the compression of discourse and related texts opens the way to the interpretation of the general directions of the mechanism of human understanding and reveals the significance of compression in speech activity.

KONSEPT DÜNYA MƏNZƏRƏSİNİN TƏRKİB VAHİDİ KİMİ

Məhərrəmova M.H.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
meherremova79@inbox.ru

Açar sözlər*: konsepsiya, dünyanın linqvistik mənzərəsi, linqvokultural yanaşma, koqnitiv yanaşma, mədəniyyət, konsepsiya sferası*

İnsan düşünən varlıq kimi ətraf aləmi dərk edir, dünya haqqında öz mənzərəsini qurur, ətrafdakı reallığı müxtəlif rənglərlə rəngləyir. Dünya insanın ətraf mühitlə qarşılıqlı əlaqəsidir, dünyanın mənzərəsi isə informasiyanın emalı və dünya haqqında müəyyən təsəvvürlərin formalaşmasının məhsuludur. Ona görə də deyə bilərik ki, dünyanın şəkli fotoalbom deyil, insanın dünyanı idrak prosesi, dünyanın müəyyən obrazıdır. İnsan ağlı özü üçün reallığın müəyyən modelini təmsil edən faktların obrazlarını yaradır. Bu model və ya faktların təsviri bütövlükdə reallığın strukturunu və ya onun ayrı-ayrı komponentlərinin strukturunu (xüsusilə, məkan, rəng və s.) əks etdirir. Müasir mənada, dünyanın şəkli kainatın bir növ portretidir, dünyanın necə işlədiyini, hansı qanunlarla idarə olunduğunu, onun əsasında nəyin dayandığını və təsvirini ehtiva edən Kainatın bir növ surətidir (necə inkişaf edir, məkan və zaman necə görünür, müxtəlif obyektlərlə necə qarşılıqlı əlaqədə olur, insan bu dünyada hansı yeri tutur). Təcrübəni toplayaraq insan onu müəyyən anlayışlara çevirir ki, bu da son nəticədə insanın davamlı olaraq təkmilləşdirdiyi, müasirləşdirdiyi və yenidən qurduğu konseptual sistemdə sıralanır.

"Konsept" termininin tərifini aydınlaşdırmaq lazımdır. "Böyük Ensiklopedik Lüğət"ə görə, "anlayış (latınca Conceptus — düşüncə, anlayış) adın (işarənin) semantik mənasıdır, yəni obyekti bunun subyekti (denotasiyası) olan anlayışın məzmunudur. Tərifə əsasən sözün leksik mənasını anlayış adlandırmaq olar, lakin anlayışın belə başa düşülməsi qeyri-kafi, dar və reallıqdan uzaq hesab olunur. Konsepsiyanın tədqiqində iki əsas sahə var: linqvokultural (bununla da dilçilikdə yeni bir sahənin - linqvokonseptologiyanın yaranması) və koqnitiv. Bu iki istiqamətin çoxlu ortaq cəhətləri var, lakin fərqləri də var.

Müasir dilçilikdə "konsept" termini yeni deyil. Hələ 1928-ci ildə S. A. Askoldov "Anlayış və söz" məqaləsini dərc etdirmişdir. Bu məqalə müasir elmdə linqvokultural yanaşmanın başlanğıcıdır. Konsepsiyanın əvəzedici funksiyasına işarə edən S.A.Askoldov ona belə tərif verir: "Konsept bizim üçün düşüncə prosesində eyni tipli obyektlərin qeyri-müəyyən çoxluğunu əvəz edən psixi formalaşmadır" [2]. Buna görə də, konsepsiyanın beynin yaddaşının və dilinin operativ mənalı vahidi, insan psixikasında əks olunan dünyanın bütün mənzərəsi olduğunu iddia etmək olar. Konsepsiya anlayışı insanın təfəkkür proseslərində işlədiyi və bütün insan fəaliyyətinin nəticələrinin məzmununu və müəyyən "kvantlar" şəklində dünyanın idrak proseslərini əks etdirən mənalar ideyasına uyğundur. "

Təxminən eyni zamanda, D.S.Lixaçev ana dilində danışan şəxsin təhsilindən, şəxsi təcrübəsindən, peşə və sosial təcrübəsindən asılı olaraq reallıq hadisələrini əks etdirən və şərh edən ümumiləşdirilmiş psixi vahidi ifadə etmək üçün "konsepsiya" anlayışından istifadə etmişdir. Ana dili danışanların fərdi şüurunda sözün müxtəlif mənalarının ümumiləşdirilməsi, ünsiyyət quranlara sözlərin başa düşülməsində aralarındakı fərdi fərqləri aradan qaldırmağa imkan verir. Etnik dünyagörüşünü əks etdirən konsepsiya dünyanın etnik linqvistik mənzərəsini qeyd edir və bu mənzərənin minimum vahididir. Eyni zamanda, konsepsiya insanın bütün fəaliyyətinin məzmununu əks etdirən bir növ bilik kvantıdır. Konsepsiya birbaşa sözün mənasından

yaranmır, sözün lüğət mənası ilə insanın şəxsi və xalq təcrübəsinin toqquşmasının nəticəsidir. Beləliklə, D.S. Lixaçova görə konsepsiya dil ünsiyyətində əvəzedici funksiyanı yerinə yetirir [3]. Linqvokultural yanaşmanın digər tərəfdarı Y.S.Stepanov deyir : "konsept insan şüurunda mədəniyyət laxtası kimidir; ki, hansı formada mədəniyyət insanın psixi dünyasına daxil olur. Digər tərəfdən, məfhum elə bir şeydir ki, insanın – "mədəni dəyərlərin yaradıcısı" deyil, adi, adi bir insanın özü mədəniyyətə daxil olur, bəzi hallarda isə ona təsir edir" [4]. Bu ifadəni ifadə etsək, deyə bilərik ki, anlayış o qədər də düşünülmüş deyil, təcrübəlidir. Konsepsiyanı sözün leksik mənasından qat-qat geniş hesab edən V.İ. Karasikin "konsepsiya dəyər, obrazlı və konseptual cəhətlərin önə çıxdığı çoxölçülü semantik formalaşmadır" [5] fikrini irəli sürərək çox mühümdür. V. İ. Karasik və G. G. Slışkinin təklif etdiyi konsepsiya nəzəriyyəsi diqqətəlayiqdir. Onun əsas tezisləri aşağıdakılardır:

1) şüur anlayışın sahəsidir;
2) konsepsiya - mədəniyyətin psixi əksi;
3) dil və ya nitq anlayışın obyektivləşmə sferalarıdır

Bu nəzəriyyəyə görə anlayış imtiyazlı dəyər xassəsinə malik psixi formalaşma kimi başa düşülür [6]. A. Vejbitskaya konsepsiyanı ada malik olan, semantik məlumatlar toplusu ilə müəyyən edilən və reallığın mədəni dərkini əks etdirən ideal dünyanın obyekti kimi müəyyən edir [8]. Gerçəkliyin özü bilavasitə deyil, dil vasitəsilə təfəkkürdə verilir. Z. D. Popova və I. A. Sternin konsepsiyanı dərk etmək üçün idrak yanaşmasını inkişaf etdirir. Z.D.Popova və İ.A.Sterninin nəzəriyyəsinə görə, "insan şüurunda anlayışlar fəaliyyət, dünyanı təcrübi dərk etmə nəticəsində yaranır və aşağıdakılardan ibarətdir:

a) onun bilavasitə hiss təcrübəsi - dünyanın hisslərlə qavranılması;
b) obyektiv insan fəaliyyəti;
c) onun şüurunda artıq mövcud olan anlayışlarla zehni əməliyyatlar;
d) dil vahidlərini şüurlu bilməklə. [7]

Konsept reallıq obyektləri arasındakı əlaqələrin zehni təsviridir". Konsepsiyanın tərifinə yuxarıda göstərilən yanaşmalar bir-birini istisna etmir: fərdin şüurunda psixi formalaşma kimi konsepsiya cəmiyyətin konsepsiya sferasına, yəni mədəniyyətə çıxışdır və mədəniyyətin əksi kimi anlayış fərdin mülkiyyəti olan kollektiv təcrübənin təsbiti. Bu yanaşmalar fərdlə bağlı istiqamətlərə görə fərqlənir: linqvokoqnitiv konsepsiya fərdi şüurdan mədəniyyətə istiqamətdir; linqvomədəni konsepsiya - mədəniyyətdən fərdi şüura istiqamət.

Ədəbiyyat

1. Большой энциклопедический словарь. [Электронный ресурс]: — Режим доступа: https://www.vedu.ru/bigencdic/29936/ (дата обращения: 29. 05. 2017).
2. Аскольдов С.А. Концепт и слово // Русская словесность. От теории словесности к структуре текста: антология. М.: Язык русской культуры, 1997. С.267–279.
3. Лихачев Д.С. Концептосфера русского языка // Изв. РАН – СЛЯ - 1993,№1.
4. Степанов Ю. С. Концепт [Электронный ресурс]: — Режим доступа: http://www.ec-dejavu.net/c/Concept.html (дата обращения: 29.05.2017).
5. Карасик В. И., Слышкин Г. Г. Лингвокультурный концепт как единица исследования / В. И. Карасик, Г. Г. Слышкин // Методологические проблемы когнитивной лингвистики / Под. ред. И. А. Стернина. — Воронеж: ВорГУ, 2001.
6. Вежбицкая А. Семантические универсалии и описание языков. М.: Языки русской культуры, 1999. 780 с.
7. Попова З. Д., Стернин И. А. Когнитивная лингвистика. 2010 – Электронный ресурс. – Режим доступа: http://zinki.ru/book/kognitivnaya-lingvistika/ (дата обращения: 29. 05. 2017).

РЕЗЮМЕ

КОНЦЕПТ КАК СОСТАВЛЯЮЩАЯ ЕДИНИЦА МИРОВОЗЗРЕНИЯ

Магеррамова М.Г.

***Ключевые слова**: концепт, языковая картина мира, лингвокультурологический подход, когнитивный подход, культура, концептосфера*

В данной статье говорится, что в современном языкознании достаточно активно исследуются концептосферы различных языков. Их популярность связана с тем, что в настоящее время осуществляется активный переход от лингвистики, ориентированной на изучение языка «в самом себе», к лингвистике антропологической, изучающей язык в связи с человеком, его культурой, мышлением и сознанием, то есть когнитивной лингвистике.

SUMMARY
CONCEPT AS A COMPONENT UNIT OF WORLD VIEW
Maharramova M.H.

Keywords: *concept, linguistic view of the world, lingucultural approach, cognitive approach, culture, concept sphere*

This article states that in modern linguistics, the concept spheres of various languages are being actively explored. Their popularity is due to the fact that at present there is an active transition from linguistics, focused on the study of the language "in itself", to anthropological linguistics, which studies the language in connection with a person, his culture, thinking and consciousness, that is, cognitive linguistics.

DİALOJİ MƏTNDƏ SEMANTİK ƏLAQƏ VƏ ONLARIN İFADƏ FORMALARI (AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİ MATERİALLARI ƏSASINDA)

Məmmədli S.X.
Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan
quliyevasura@mail.ru

Açar sözlər: *dialoq mətni, məntiqi-semantik əlaqə, mətnin semantik sərhəd zonası*

Dildə dialoq mətnləri xüsusi mətn formaları olduğundan onların öyrənilməsi də xüsusi təhlil metodu tələb edir. Dialoq mətnlərində semantik əlaqə onun ifadə formaları haqqında Avropa və rus dilçiliyində olan araşdırmalar kifayət qədərdir. Bu istiqamətdə ingilis və rus dillərində dialoq mətnini öyrənən Q.B. Berkaş, S.S. Berkner, Z.F Qavrilova, E.Y. İvanova, N.V. Melixova, L.P..Çexoyan, N.E. Enkvist, J.Bagana, E.L. Kursova və b. mətndə semantik əlaqələrin fərqli formaları haqqında maraqlı mülahizələr irəli sürmüşlər. R.R.Helqardt replikaları sinsemantik/avtosemantiklik əsasında dialoji və monoloji olanlara bölməyi təklif edir. Dialoq replikaları müəllif tərəfindən sinsemantik, kompozisiya cəhətdən açıq vahidlərə, monoloq isə təşkil olunan nitqin avtosemantik, kompozisiya cəhətdən qapalı vahidlərinə aid edir [8:28 -153]

Rus dialoq nitqinin replikalarının kommunikativ istiqaməti və sintaktik quruluşu nöqteyi-nəzərindən ətraflı təhlili İ.P.Svyatogor tərəfindən aparılıb. Müəllif yazır ki, “replika dialoqun əsas quruluş vahididir və əksər hallarda dialoji birliyin və tərkibində bir neçə bitişik replika və ya bu replikaların hissələrini birləşdirən digər mürəkkəb nitq komplekslərinin ayrılmaz hissəsidir" [9: 19]

Azərbaycan dilçiliyində Vəfa İbişova Azərbaycan dilində mətnin məntiqi-semantik bütövü" adlı dissertasiyasında [4:2018] mətndə semantik əlaqələr haqqında geniş məlumat vermiş, lakin müəllif xüsusi dialoq mətnini araşdırmamışdır. Biz Azərbaycan və ingilis dillərində olan dialoq mətnlərində məntiqi-semantik əlaqələri müqayisəli formada öyrənmək üçün bu dillərdə olan dialoq mətnlərini seçmiş və qarşılaşdırmışıq.

Məntiqi-semantik aspekt mətnin formadan məzmuna və məzmundan formaya inkişafın prinsiplərinə əsaslanır. Dialoq mətnində semantik əlaqənin kontakt (yaxın) komponentlər arası əlaqələr, uzaq qarşılıqlı əlaqə, giriş əlaqəsi, korrelyativ əlaqə, konyuktiv əlaqə, korrelyasiya əlaqəsi, perspektivli əlaqələr, qarşılıqlı əlaqə kimi çox fərqli formaları qeyd edilir.

Dialoji birlik vahid semantik mərkəz ətrafında qurulur. Dialoji birliyin semantik mərkəzinə daxil olan deskriptorları əsas nomenklatura deskriptorları adlanır. Əsas nomenklatura deskriptorunun dəyişməsi dialoji birliyin sərhədindən xəbər verir. Nisbi deskriptorlar əsas kimi çıxış edə bilməz, çünki mövzunun vəhdəti nominativ xarakter vasitəsi ilə qoyulur. Nominativ informasiyaya münasibətdə nisbi məlumat ikinci dərəcəli rol oynayır. V.İbişovanın fikrincə, "dialoq mətnin məntiqi-semantik bütövlüyü üç əsas amilə əsaslanır: 1) informasiyanın ötürülməsi; 2) yeni fikrin formalaşması; 3) yaddaş mədəniyyəti" [4:70] Dialoq mətnində olan əsas informasiya dinamik xarakterlidir və daimi inkişafdadır. Dialoqdakı informasiyanın verilməsi başa çatdıqda yeni dialoq başlayır:

Balaş: Sevil, getmə, bir az dayan!
Sevil: Nə istəyirsən?
Balaş: İki söz!
Sevil: Söyləyin!
Balaş: Yadındadırmı, bir zaman məni sevdiyini, mənsiz yaşaya bilməyəcəyini söyləyirdin?
Sevil: Yadımdadır. Mən ki sözümdən qaçmadım.
Balaş: İndi mənə qarşı bu soyuqluq nədir?
Sevil: Lakin siz qaçdınız.

Balaş: Mən müqəssirəm,Sevil.
Sevil: Olsun!
Balaş: Sevil, məni bağışla.
Sevil: Bağışlayıram. (C.C. "Sevil")

Verilmiş dialoqda yeni informasiya Balaşın keçmiş günahlarını dərk etməsi və Sevildən bağışlama diləməsi dialoqda qısa replikalar formasında verilir. İlk olaraq informasiya ötürülməsi..."*bir zaman məni sevdiyini, mənsiz yaşaya bilməyəcəyini söyləyirdin? Sevil. Yadımdadır. Mən ki sözümdən qaçmadım. Balaş: İndi mənə qarşı bu soyuqluq nədir? Sevil: Lakin siz qaçdınız dialoq mətnində verilib;* ikinci mərhələ-,fikrin formalaşması*: Mən müqəssirəm),* frazasında; *üçüncü yekun informasiya - məni bağışla* frazasında verilir.

İngilis dilində olan dialoq mətninə nəzər salaq:

Kate: What about McCabe?
Anna: Do you really want to see anyone?
Kate: I don't think I like McCabe.
Anna: Nor do I.
Kate: He's strange. He says some very strange things to me.
Anna: What things?
Kate: Oh, all sorts of funny things.
Anna: I've never liked him. (Drama, p. 37,1).

Dialoqda hər iki kommunikat birliyin mövzusunun açılmasında fəal iştirak edir və mürəkkəb dialoq birlik yaradır. Dialoqda informasiyanın ötürülməsi və mövzunun dinamikal sual -cavab formasında inkişaf edir.

Bəzi dialoq mətnlərində informasiya iki və ya çoxplanlı ünsiyyət formasında qurulur. Belə dialoqda əsas fərqləndirici xüsusiyyət kimi- ikiplanlılıq (və ya çox planlılıq) ünsiyyət prosesinin birdən çox kommunikantın olduğuna görə mümkündür. Sözügedən nitqin bu və ya digər elementinin kommunikativ əhəmiyyətini replika çərçivəsində qəbul edən şəxs dəyişdirə bilər, hansıki replikada yeni, dialoji vəhdəti tamamlayan, tematik-kommunikativ perspektivi işarələyir.

İki bitişik mürəkkəb dialoji birlik üçün ümumi sərhəd zonasının mövcudluğu həm də onunla izah edilə bilər ki, danışan həmsöhbətin bütün çıxışına deyil, yalnız bir hissəsinə reaksiya verir. Bu cür reaksiya onu monoloqdan fərqləndirən dialoji nitqin xarakterik xüsusiyyətlərindən biri kimi tematik müxtəlifliyinin və ya "tematik dalğanın" (Брчакова, 1979: 259) meydana gəlməsinə kömək edir.

Deməli, çox vaxt dialoqun replikalara bölünməsi ilə dialoji birliyə bölünmə ilə üst-üstə düşmür. Dilçilik ədəbiyyatında replikalar iki böyük sinfə - monoloji və dialoqa bölünür. Birincilər həmsöhbətin dərhal şifahi reaksiyası üçün nəzərdə tutulmayan, geniş tematik məzmunu əhatə edən daha mürəkkəb sintaktik konstruksiyalar kimi müəyyən edilir, dialoq replikaları isə birbaşa həmsöhbətə ünvanlanan ifadələr kimi xarakterizə olunur və tematik tərkibdə və sintaktik quruluşda daha sadədir [115:115]

Dialoji birliklərin hüdudlarının müəyyən edilməsi problemi ilə əlaqədar əlavə aydınlaşdırma tələb edən bir sıra suallar yaranır. Birincisi, dialoq replikaları həm bir strukturdan, həm də bir neçə strukturdan ibarət ola bilər. Çox vaxt dialoji mətn uzun fasilə və intonasiya ilə ayrılan iki super fraza vahidindən ibarət ola bilir. Bununla belə, belə bir qeydi monoloji adlandırmaq olmaz, çünki onun hissələri qonşu dialoji birliklərə daxildir. İkincisi, əksər hallarda monoloq replikası semantik-sintaktik quruluşuna görə müxtəlifdir, onun bir hissəsi dialoji birliyin tərkibinə daxil olaraq ya onu başladır, ya da bitirir. Dialoji vəhdətdə monoloq replikasının bir hissəsinin ilkin və ya son mövqeyi onunla bağlıdır ki, monoloq replikası çox mövzululuğu ilə səciyyələnir, mövzunun dəyişməsi isə mürəkkəb dialoji birliyin sərhəd siqnalıdır, çünki dialoji birlik monotematik olmalıdır. Buna görə də, monoloq replikasının yalnız sərhəd (ilkin və ya yekun) konstruksiyası və ya kumulyativi dialoji birliyə daxil ola bilər.

Deməli, dialoqun semantik strukturunun təhlili göstərir ki, natiqlər dialoji birlik mövzusunun inkişafına müxtəlif töhfələr verə bilirlər. Dialoji birliyin semantik/tematik bütövlük və semantik-sintaktik ahəngliyi olan linqvistik vahid kimi başa düşülməsi bizi, əvvəla, bu cür bütövlüyün və ardıcıllığın formalaşdırılması vasitələrinin öyrənilməsinə, ikincisi də, müxtəlif kommunikantların ifadələrinin mövcud olan birliyin mövzusuna töhfəsini müəyyən etmək zərurətinə gətirib çıxarır.

Ədəbiyyat

1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri Bakı, 1999.
2. İbişova V. Azərbaycan dilində mətnin məntiqi-semantik bütövlüyü. Fil. üzrə fəl. doktoru elmi dərəcəsi almaq üçün Dissertasiya. Bakı, 2018.
3. Məmmədov A.J. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi, Bakı, 2001.
4. Novruzova N. S. Mətnin öyrənilməsində əsas yanaşmalar. Bakı, 2018.

5. Ахманова О.С., Никитина С.Е. 0 некоторых лингвистичес¬ких вопросах составления дескрипторных языков. - Вопросы языко¬знания, 1965, № 6, с. III - 115.
6. Брчакова Д. О связности в устных коммуникатах. - В кн.: Синтаксис текста. М.: Наука, 1979, с. 248 - 261.
7. Гальперин И.Р. Текст как объект лингвистического исследования. - М.: Наука, 1981. - 139 с.
8. Гельгардт Р.Р. Рассуждение о диалогах и монологах. /К общей теории высказывания./ - В кн.: Сборник докладов и сообще¬ний лингвистического общества. Калинин: Изд-во Калининского гос. ун-та, 1971, II, вып. I, с. 28 - 153.
9. Святогор И.П. Типы диалогических реплик в современном русском языке: Автореф. дисс. ... канд. филол. наук. — М., 1967. - 20 с.

РЕЗЮМЕ
СЕМАНТИЧЕСКИЕ СВЯЗИ И ФОРМЫ ИХ ВЫРАЖЕНИЯ В ДИАЛОГИЧЕСКОМ ТЕКСТЕ (НА МАТЕРИАЛЕ АЗЕРБАЙДЖАНСКОГО И АНГЛИЙСКОГО ЯЗЫКОВ)
Мамедли С.Х.

Ключевые слова: *диалоговый текст, логико-семантическая связь, семантическая пограничная зона текста,*

В статье рассматриваются основные особенности семантической связи в диалогических текстах. Отмечается, что в некоторых диалогических текстах информация строится в форме двух-или многоплановой коммуникации. Как главная отличительная черта в таком диалоге – двухплановость (или многоплановость) возможна из-за того, что коммуникационный процесс состоит из нескольких коммуникаций. Коммуникативное значение того или иного элемента диалогического текста может быть изменено человеком, воспринимающим его в рамках реплики, так как в реплике отмечается новая, дополняющая диалогическое единство, тематико-коммуникативная перспектива. В статье анализируются основные формы семантической связи в диалогических текстах – передача информации, формирование мнения, заключительные информационные этапы на основе материалов азербайджанского и английского языков.

SUMMARY
SEMANTIC RELATION AND THEIR FORMS OF EXPRESSION IN DIALOGICAL TEXT (BASED ON AZERBAIJAN AND ENGLISH LANGUAGE MATERIALS)
Mammadli S.Kh.

Key words: *dialogical text, logical-semantic relation, the semantic border zone of the text*

The main features of the semantic connection in the dialogical text is investigated in the article. It is noted that in some dialogical texts information is established in the form of two or more plan communication. As the main distinguishing feature in such a dialogue, two-planning (or multi-planning) is possible due to the fact that there is more than one communicator in the communication process. The person can change the communicative significance of this or that element of the dialogical text within the framework of the replica, because the replica marks a new, thematic-communicative perspective that complements the dialogical unity. In the article, the main forms of semantic communication in the dialogical text - information transfer, formation of the opinion, final information stages are analysed of the based on Azerbaijani and English language materials.

SİNONİMİYA MƏSƏLƏSİNƏ KOQNİTİV YANAŞMA

Məmməd İ.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
ilhame_memmed@mail.ru

Açar sözlər: *leksik sinonimiya, kontekst, məna, koqnitiv yanaşma, sinonimlik, leksik vahid*

Sinonimiya asılı morfemlər, leksik vahidlər, söz birləşmələri, cümlələr və müddəalar arasında mövcud olan münasibətdir. Beləliklə, sinonimiya ya leksik və propozisional sinonimiyasına, ya da leksik, fraza və propozisional sinonimiyasına təsnif edilə bilər. Leksik sinonimiyanın fraza sinonimiyasından ibarət olduğu birinci bölməni aşağıdakı şəkildə izah etmək olar:

1. Leksik sinonimiya asılı morfemlər, leksik vahidlər və söz birləşmələri ilə bağlıdır. Leksik sinonimiya, bir-birini əvəz edə bilən kontekstlərdə eyni mənaya malik iki və ya daha çox leksik vahid arasında mövcud olan məna əlaqəsidir. 2. Propozisional sinonimiya cümlə və müddəalarla əlaqədardır. Cümlələrin məntiqi məzmunu eyni olduqda, onları parafraz etməklə aydınlaşdırmaq mümkündür. Məsələn:

Ayan sewed the dress ‘Ayan paltar tikdi’. *The dress was sewed by Ayan* ‘Paltar Ayan tərəfindən tikildi’. *It was the dress that Ayan sewed* ‘Paltar Ayanın tikdiyi idi’.

Sinonimiya leksik cəhətdən sadə vahidlərin leksik cəhətdən mürəkkəb vahidlərlə (və ya əksinə) eyni məna daşımasını təmin edən paradiqmatik münasibətdir, məsələn, *oftalmoloq*- göz mütəxəssisi, *rinoplastika*- estetik burun əməliyyatı və s.

“Dil sistemində sinonimlik, alternativ adlandırma yaradıcılığı semantik detallaşdırmanın, aidetmə, dəqiqləşdirmə və fərqləndirmənin səmərəliliyini təmin etmək, bir çox hallarda işarənin aşkar naqisliyini, natamamlıq və hətta yararsızlığını kompensə etmək, anlayışı, obyekti, predmet və hadisələri daha geniş və əhatəli, daha dəqiq, aydın və sahmanlı şəkildə ifadə və dərk etmək ehtiyacının qanunauyğun nəticəsi olaraq meydana gəlmişdir” [1, s. 171].

Sinonimiyada koqnitiv sinonimiyanın yeri məsələsinə gəldikdə, Cruse “sinonimlik bölgüsünün müəyyən edilə biləcəyini” [3, s. 157] iddia edir. Onun qurduğu bölgü mütləq sinonimiya, koqnitiv sinonimiya və yaxın sinonimiyadan ibarətdir. Mütləq sinonimiya iki və ya daha çox leksemin bütün kontekstlərdəki mövcud mənalarının tam eyniliyi kimi təyin olunur. Bununla belə, bir dildə mütləq sinonimlərin və ya tam eyni mənalı leksemlərin olması qeyri-təbii haldır. Birincisi, onlardan birinin funksiyası və ya istifadəsi tədricən lazımsız və ya motivsiz hala gələcək və nəticədə o, tezliklə sıradan çıxacaqdır. İkincisi, onların bütün kontekstlərdə bir-birini əvəz edə bilməsi nə nümayiş etdirilə, nə də sübuta yetirilə bilər. Çünki bir tərəfdən kontekstlərin sayı sonsuzdur, digər tərəfdən isə mütləq əvəzetmədə istisnaların ola bilmə ehtimalı qaçınılmazdır. Ona görə də təbii dillərin leksik sistemləri mütləq sinonimliyə malik deyildir. Ümumiyyətlə, mütləq sinonimliyin qeyri-mümkün və ya mövcud olmadığı bir sıra dilçilər tərəfindən qəbul edilir. “O, yalnız iddia edilən sinonimlik miqyasında istinad nöqtəsi və ya sinonimliyin müəyyən edilməsi üçün ilkin meyar kimi qəbul edilir” [3, s. 157].

Tamamilə eyni mənalı iki leksem və real sinonim olmadığına görə, məhz koqnitiv sinonimiya əksər semantiklərin sinonimiya hesab etdiyi dil fenomenidir. Lyons [5, s. 63] bir çox semantik nəzəriyyələrin sinonimiya anlayışını təsviri və ya koqnitiv sinonimiya adlandırdığı, yəni təsviri mənanın eyniliyi ilə məhdudlaşdıracağını iddia edir. Yaxın sinonimlər mənası nisbətən yaxın və ya az-çox oxşar olan leksemlərdir (*mist/fog* ‘duman’, *stream/brook* ‘axın’, *dive/plunge* ‘dalmaq’). Bununla belə, yaxın sinonimiyanın verilmiş tərifi qeyri-müəyyəndir, çünki sinonimiya ilə semantik oxşarlıq arasında dəqiq əlaqə yoxdur. Yaxın sinonimiya məna və düşüncənin üst-üstə düşməsi ilə bağlıdır. Yaxın sinonimlərin ifadə etdiyi hisslər əksər hallarda üst-üstə düşür, lakin tam deyil [6, s. 155].

Koqnitiv sinonimiya deskriptiv məna ilə identiklik təşkil edir və təsviri sinonimiya, propozisional, yəni məntiqi sinonimiya kimi də tanınır. Koqnitiv sinonimiya bəzən natamam sinonimiya və ya qeyri-sabit, bəzən də qismən sinonimiya kimi də təsvir olunur [5]. Koqnitiv sinonimlərə nümunə olaraq *liberty/freedom* ‘azadlıq’, statesman/politician ‘dövlət xadimi, siyasətçi’, *hide/conceal* ‘gizlətmək’, *thrifty/economical/stingy* ‘qənaətcil’ və sair kimi sözləri göstərmək mümkündür.

Koqnitiv sinonimlər bir-biri ilə qarşılıqlı əlaqədə olan ekvivalent həqiqət- şərait və təklifləri olan cümlələri nəzərdə tutur. Sinonimiyanın bu semantik və ya məntiqi tərifi Kempson və Palmer tərəfindən təqdim olunmuşdur [6, s.150]. Eyni zamanda Palmer sinonimiyanı “simmetrik hiponimiya” [7, s.88] kimi təsvir edir. O, *mavis* və *thrush* ‘qaratoyuq’ sözlərinin sinonimliyindən bəhs edərkən “bütün *mavis*lər *trush*dır və ya bütün *thrush*lar *mavis*dir” hipotezindən çıxış edir [7, s. 88]. Lyonsa görə koqnitiv sinonimlər eyni idraki dəyəri olan sözlər, Kanna görə isə [2, s. 63] eyni mənaya malik olan sözlər kimi təsvir olunur. Deməli, koqnitiv sinonimiya məna əlaqəsi kimi qəbul edilir. Üstəlik, bu tip sinonimiya mənanın oxşarlığı ilə deyil, eyniliyi ilə bağlıdır.

Bu yanaşma sinonimiyanın praqmatik və ya kontekstdən asılı bir anlayış olduğu qənaətinə gətirib çıxarır. Bununla da, Murphy tərəfindən təqdim edilən mülahizə özünü doğruldur. Qeyd etdiyimiz hər iki tərif koqnitiv dilçiliklə məşğul olan alimlər tərəfindən qəbul edilir [3]. Koqnitiv sinonimiya bir faktı da vurğulayır ki, bir dilin bütün daşıyıcıları mövcud sinonimləri mütləq şəkildə istifadə etməyəcəklər, lakin bu sinonimlər bütün dil daşıyıcıları üçün anlaşılandır. Koqnitiv sinonimiyaya denotativ sinonimiya da deyilir ki, burada hiss və ifadələrin təhlili əsas yer tutur.

Koqnitiv sinonimiya sinonimlərin mənaca o qədər yaxın olduğu sinonimiya növüdür ki, onları nə denotativ, nə də konnotativ, yəni hətta əqli assosiasiyalar, konnotasiyalar, emotiv reaksiyalar və poetik dəyərlərlə fərqləndirmək olmur. Bu, xüsusilə nəzəri, yəni dilçilik nöqteyi-nəzərindən və ya fəlsəfi məqsədlər üçün sinonimiyanın daha dəqiq texniki tərifidir. Bu tərifdən istifadə edərkən, daha çox fərqliliyə malik olan sinonimlər sinonim deyil, yaxın sinonimlər adlanır.

Koqnitiv sinonimiya (bəzən təsviri sinonimiya və ya propozisional sinonimiya adlanır) ən azı iki leksemin xüsusi əlaqəsidir. Koqnitiv sinonimiya nümunələri bunlardır: *die, fade, decease, nibble off, kick the bucket, cash in, pass away* və s. Bu ifadələrin hamısı cümlənin həqiqət şərtlərini dəyişdirmədən eyni kontekstdə işlənə bilər. Lakin onlar mütləq sinonim hesab edilmir, çünki dildə işlənmə payı həmin leksemlərin hamısı üçün eyni deyil. Görünür, bəzi sosial tabular var ki, bu qəbildən olan leksemlərin mütləq sinonim olmasına mane olur. Təsəvvür edək ki, məhkəmədə hakim *die/ölmək* əvəzinə *cash in /gəbərmək* sözündən istifadə edir. Hətta müəyyən sosial qrupa mənsubluq da bəzi sözlər əvəzinə müəyyən sözlərin işlədilməsinə səbəb ola bilər.

Digər bir nümunə ilə fikrimizi dəqiqləşdirək. *This chocolate tastes good/ Mmmh* 'Bu şokolad yaxşı dadır'. *That perfume you're wearing is very nice/ Ohh* 'Sizin istifadə etdiyiniz ətir çox gözəldir'. *How pretty the flowers are/ Woow* 'Çiçəklər necə də gözəldir'. Bu ifadələrin məzmunu eyni şəkildə qəbul edilir. Fərq onların ifadə tərzindədir. Bu nümunədəki birinci cümlə bizə semantik mənada məlumat verir. Mesaj sözlərin mənası ilə çatdırılır. Buna propozisional üsul deyilir. İkinci deyim (Mmmh/ Ohh/ Woow) isə öz mənasını ifadə vasitəsi ilə çatdırır və ona görə də ifadə üsulu adlanır [8].

Sinonimiya məsələsinə koqnitiv yanaşma plesionimlərin də izahını tələb edir. Plesionimlər və ya yaxın sinonimlər, demək olar ki, sinonim olan sözlərdir. Onlar koqnitiv sinonimlərdən ona görə fərqlənirlər ki, cütlərin konnotasiyaları müxtəlifdir və buna görə də verilmiş kontekstdə müxtəlif həqiqət şərtləri verirlər. Məsələn, a *dictator* və a *big brother* 'diktator'; *He was a dictator. He was a Big Brother.* Bu cümlələr eyni mövzuya istinad etsələr də, fərqli həqiqət şərtlərinə malikdirlər. Fərq istifadəçinin praqmatik və ya şəxsiyyətlərarası konnotasiyasındadır.

Digər bir nümunəyə nəzər salaq: *rainy* və *drizzly*. *It was rainy last Friday or, more exactly, it was drizzly. It was drizzly last Friday or, more exactly, it was rainy.* Bu nümunədə göstərilir ki, iki həqiqət şərtini ayırd etmək demək olar ki, mümkün deyil. Hər iki cümlə eyni fenomenə istinad edir, lakin onlar həm bir-birini inkar edir, həm də həqiqət vəziyyətindəki fərqin nə ola biləcəyini söyləmək mümkün olmur. Bu, plesionimlərin reallığın faktiki vəziyyətlərinə deyil, daha çox şəxsi təəssüratlara əsaslandığı fərziyyəsinə işarə edir. *Rainy/drizzly* 'yağıntılı' leksemləri arasında fərq olsa da, bu fərq yalnız mənada və danışanların münasibət bildirməsində mövcuddur. Digər nümunələr də eyni müşahidəni göstərir.

Koqnitiv sinonimiyadan adətən sözlərin deskriptiv mənasına istinad üçün istifadə olunur. Beləliklə, sinonimlər eyni semantik xüsusiyyətlərə malikdir. Bununla belə, sinonimlərin əksəriyyəti istifadə şərtlərinə görə fərqlənir. Təsviri sinonimlər bir çox kontekstdə bir-birini əvəz edə bilər, lakin hamısında deyil. Məsələn: *This river is deep* 'Bu çay dərindir'cümləsində *deep* sözünü onun sinonimi olan *profound* sözü ilə əvəz etmək olmur. *The incident made a deep impression on me* 'Hadisə məndə dərin təəssürat yaratdı'cümləsində isə məsələ fərqlidir [4].

Koqnitiv dilçilik hər iki fərziyyəni qəti şəkildə təkzib edir. Həqiqətən də mənaya koqnitiv-funksional yanaşmalar nə "zəruri" və "kafi" şərtlər anlayışını, nə də linqvistik semantika ilə kontekst praqmatikası arasında heç bir ciddi bölgü tanımır. Bu cür fərziyyələr olmadan, polisemiya və sinonimiya terminlərinin mənası aşağıdakı kimi müəyyən edilə bilər:

Polisemiya-formanın müxtəlif "konsepsiya/anlayış-funksiyaları"

Sinonimiya – "konsepsiya-funksiya"nın müxtəlif formaları

Qeyd edək ki, polisemiya və sinonimiyaya verilən bu təriflər hiponimiya və hiperonimiya (polisemiya/çoxmənalılıq üçün) və ya əsas səviyyə, üstün və tabeli münasibətlər (superordinate and subordinate/ sinonimiya üçün) kimi taksonomik münasibətləri istisna etmir. Təriflərə bu əlaqələr daxil edilməlidir, çünki müəyyən situasiya kontekstində verilmiş forma müxtəlif spesifiklik səviyyələrində ("şaquli" çoxmənalılıq) istifadə oluna bilər. Eləcə də müxtəlif spesifiklik səviyyələrini bildirən müxtəlif sözlər arasında seçim edilir (vertical/ şaquli sinonimiya). Semantik münasibətlərin belə geniş spektrdə başa düşülməsi semasioloji və onomasioloji variasiya kimi dəqiqliklə təsvir edilə bilər.

Ədəbiyyat

1. Abdullayev S. Qeyri-səlis dilçilik təcrübəsi. Bakı: Victory, 2013, 596 s.
2. Cann R., Kempson R., Gregoromichelaki E. Semantics: An Introduction to Meaning in Language. CUP, Cambridge, 2009, 292 p.
3. Cruse D. A. Meaning in Language: An Introduction to Semantics and Pragmatics. OUP, Oxford, 2000, 424 p.
4. Kortmann B. English Linguistics: Essentials. Springer Nature, edition 2, 2020, 303 p.
5. Lyons J. Linguistic Semantics: An Introduction. Cambridge: Cambridge University Press, reprint, 2002, 376 p.
6. Murphy L. Semantic Relations and the Lexicon. CUP, Cambridge, 2008, 304 p.
7. Palmer F.R. Semantics. Cambridge: Cambridge University Press, Reprint. 2001, 232 p.
8. https://www.grin.com/document/108564

РЕЗЮМЕ

КОГНИТИВНЫЙ ПОДХОД К ПРОБЛЕМЕ СИНОНИМИИ

Маммед И.А.

Ключевые слова: *лексическая синонимия, контекст, значение, когнитивный подход, синонимия, лексическая единица*

В статье синонимия исследована с когнитивной точки зрения, а лексическая синонимия объяснена на семантическом и прагматическом уровне. Когнитивные синонимы представлены конкретными примерами в конкретных контекстах. Автор различает понятия абсолютной синонимии, когнитивной синонимии и близкой синонимии, ссылаясь на мнения лингвистов, проводивших исследования в области синонимии. Кроме того, в статье анализируются сходства и несоответствия между когнитивным и ассоциативным значением, различающиеся по условиям употребления и влияющие на понятие когнитивной синонимии.

SUMMARY
COGNITIVE APPROACH TO THE PROBLEM OF SYNONYMY
Mammad I.A.

Keywords: *lexical synonymy, context, meaning, cognitive approach, synonymy, lexical unit*
In the article, the phenomenon of synonymy was investigated from a cognitive point of view, and lexical synonymy was explained at the semantic and pragmatic level. Cognitive synonyms are presented with specific examples in specific contexts. The author distinguished the concepts of absolute synonymy, cognitive synonymy and close synonymy, referring to the opinions of linguists who conducted research in the field of synonymy. In addition, the article analyses the similarities and inconsistencies between cognitive and associative meaning, which differ according to the conditions of use and affect the concept of cognitive synonymy.

SÖZÜN FORMA VƏ MƏZMUN PROBLEMİ

Məmmədova A.C.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
aytanm@rambler.ru

Açar sözlər*: semasiologiya, forma, məzmun, söz, ifadə.*

Semasiologiyanın bəzi əsas məsələləri (məsələn, ən qədim söz köklərinin ilkin mənaları) bibaşa elmi tədqiqata tabe olmur və yalnız bu və ya digər dərəcədə uğurlu olan fərziyyələr yolu ilə həll oluna bilərlər. Sözün mənasının əsasında mürəkkəb psixi proses olan ideyaların assosiasiyası durur: sözün zahiri formasının mürəkkəb ideyası (sözün akustik və motor təsəvvürlərdən ibarət olan öz təsəvvürü; sözün səsli obrazı və onun tələffüzü üçün zəruri olan nitq orqanlarının hərəkətlərinin təsəvvürü) digər bir ideya ilə sıx bağlıdır (həmin sözün vasitəsiylə bildirilən anlayışla və onun mənasıyla (professor Budiloviçin ifadəsinə görə «sememayla). Sözün zahiri forması ilə onun mənası arasındakı əlaqə necə yaranmışdır – bu sual ümumiyyətlə dil necə yaranmışdır sualı ilə sıx bağlıdır [1;28]. Bizdə adı gedən əlaqə doğma dili hələ uşaq ikən böyüklərdən öyrənirkən yaranır, həmdə bu öyrənmə prosesi ətraf aləmlə tanışlıq ilə eyni zamanda baş verir. Adətən biz həm sözlü təqdimatı, həm də onun adlandırdığı mənanı eyni zamanda qavrayırıq, və bunun sayəsində onların arasında möhkəm assosiasiya yaranır. Xarici dilin öyrənilməsi prosesi doğma dili öyrənmə prosesindən əsaslə şəkildə fərqlənnmir, çünkü burda da yad sözün mənası onun ya birbaşa təqdimatı (dili təbii yolla, yerində, dilin daşıyıılarının əhatəsində öyrəndikdə), ya da dolayı yolla öyrəndikdə (kitab vasitəsiylə, qrammatika və lüğətlərin köməyiylə) qavranılır. Doğma dili öyrənirkən çox vaxt uşaq sözü daha geniş və ya daha dar mənada qavrayır, ya da özü ona fərdi əvəzinə ümumi məna verir, və ys əksinə. Belə ki, qarpız sözünü yuvarlaq əşya mənasında qavrayaraq uşaq digər yuvarlaq əşyaları da qarpız adlandıra bilər (məsələn, topu və s.). Vaxt keçdikə bu sözlərin istifadəsinin bütün hadisələri ilə yaxından tanış olduqca, bu cür səhvələr yoxa çıxır. Lakin, bunlara bənzər ilkin anlamın həcmi və məzmunundan yayınmalar dillərin tarixində baş verən ilk mənanın genişlənməsi və daralması hallarında da özünü göstərirlər. Bəzi sözlərin mənası daralır, digərlərininki genişlənir, və bütün semasioloji proseslər bundan ibarət olur. Hətta sözün tam aydın mənşəyi onun vaxt keçdikcə tamam başqa mənada işlənməsinə mane olmur: məsələn, rus dilindəki *чернила* sözü yalnız qara deyil, eyni zamanda yazı üçün olan digər rəngli mayeləri adlandırmaq üçün istifadə edilir; qaz *lələyi* artıq çoxdan dəmirdən və ya şüşədən düzəldilir. Eynən sözün forması ilə onun mənası arasında daxilli zəruri əlaqənin olmaması sözə imkan verir ki, o öz formasını dəyişmədən get-gedə mürəkkəbləşən anlayışları adlandırsın: məslən fransız dilindəki navire, mürəkkəb quruluşa malik olan hərbi gəmini adlandırsa da, latın dilində olan navisdən törəyib ki, o daha sadə quruluşlu gəmini adlandırırdı, navis də öz növbəsində yunan dilində işlənmiş ναῦς`dan törəyib. İstənilən halda fransız sözü navire ilə latın sözü navis arasındakı zahiri fərqin onların mənalarının daxili fərqi ilə heç bir əlaqəsi yoxdur. Sözün zahiri forması ilə onun mənası arasındakı qarşılıqlı əlaqələrin sərbəstliyi dilin inkişafı üçün çox əlverişli bir amildir: anlayışlar aləminin böyüməsi dilin ona uyğunlaşmasını tələb etmir, və öz növbəsində sözün zahiri formasının dəyişmələri onun mənasının dəyişməsinə təsir etmir.

Sözün zahiri forması ilə onun mənası arasında zəruri daxili əlaqənin olmaması dilin ən qədim xüsusiyyətlərindən biridir. Bu xüsusiyyət dilin, mənşəyi bizə az və ya çox dərəcədə məlum olan adların və təbii terminlərin əsasında dayanır. Adətən, belə bir adın əsasında hansısa anlayışın bir əlaməti durur, və bu əlamətin göstərilməsi bütün anlayışın adına çevrilir, məsələn qəbirstanlıq sözünün əsasında o əlamət göstərilib ki, həmin yerdə qəbir qazırlar, gülüstan sözündə isə güllərin çox olduğu yer əsas əlamət kimi götürülüb. Həmişə məlum bir anlayışın adlandırılması onun ilk gözə çarpan əlamətlərindən birinin göstərilməsinə çevrilir (məsələn, ağacdələn quşu, və ya günəbaxan çiçəyi) [5; 32].

Ədəbiyyat

1. Cəfərov S.A. Müasir Azərbaycan dilinin leksikası.Bakı,1956.
2. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası.Bakı, 1978.
3. Həsənov H. Azərbaycan dilinin semasiologiyası. Bakı,1978.
4. Mahmudov Ə.R.Sözün quruluşu. Bakı, 1951.
5. Şirəliyev M.A. Azərbaycan dialektologiyasının əsasları. Bakı, 1962.

РЕЗЮМЕ
ПРОБЛЕМА ФОРМЫ СОДЕРЖАНИЯ И СЛОВА
Мамедова А.С.

***Ключевые слова**: семасиология, форма, содержание, слово, выражение.*

Семасиология — одна из наименее разработанных областей лингвистики, изучающая значение слов и их формальных частей (греч. σημασία = знак, сигнал). До сих пор точно не определены не только основные семаиологические процессы, но даже объем и методы семасиологии. В этом отношении она отстает не только от фонетики и морфологии, но и от синтаксиса, с которым у нее наиболее тесная связь. Причиной данной ситуации является с одной стороны, недостаточная разработанность областей психологии, являющихся особенно важными для семасиологии, с другой стороны, недостаточность истории внешней формы слова, которая проявляет себя не только в других языковых семьях, но даже в языках индоевропейской семьи.

SUMMARY
THE PROBLEM OF THE FORM AND CONTENT OF THE WORD
Mammadova A.J.

***Keywords**: semasiology, form, content, word, expression.*

Semasiology is one of the less developed spheres of linguistics, which explores meaning of words and its formal parts (Greek σημασία=sign, signal). Still not only the main semasiological processes, but even the volume and methods of semasiology are not exactly determined. In this relation semasiology falls behind not only phonetics and morphology, but also syntax with which it has the closest connection. The reason of this situation is on one hand the insufficient development of the spheres of psychology which are the most important for semasiology, and on other hand insufficiency of the history of word`s external form, which shows itself not only in other language families, but even in the languages of Indo-European family.

DİL VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFINDA TERMİNLƏRİN ROLU

Məmmədzadə K.Ə.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
konul.kesa@yahoo.com

Açar sözlər: *dil, mədəniyyət, dil və mədəniyyətin qarşılıqlı əlaqəsi, terminlər, mədəni inkişaf*

Dil və mədəniyyət insanların həyatında mühüm rola malik olan vacib fenomendirlər. Onlar qarşılıqlı olaraq bir-birilərinə təsir edir və daima qarşılıqlı əlaqədədirlər. Dil prosesinin mədəniyyətə və mədəniyyət sahəsindəki nailiyyətlərin dilə planlı və ya plansız təsiri vardır. Dilin mədəni mühitə, mədəni mühitin isə insan təfəkkürünə və onun sosial fəaliyyətinə təsiri danılmazdır. Dil və mədəniyyət fenomenlərinin qarşılıqlı təsiri və münasibəti mövzusu həmişə aktuallığını qoruyub saxlamışdır. Bu səbəbdən təqdim edilən tezisin mövzusu cəmiyyətin mədəni nailiyyəti sayılır. Mədəniyyətin dilə şüurlu təsiri dilin elmi-nəzəri cəhətdən inkişafına zəmin yaratmışdır. Dil və mədəniyyət iki sosial fenomen kimi biri-biri ilə sıx əlaqə və qarşılıqlı təsir şəraitində inkişaf edir. Dilin inkişafı mədəniyyətin inkişafının əsas amilidir. Onlar arasında mövcud bu əlaqə və təsir elmi araşdırmaların tədqiqi zamanı əsas mövzuya çevrilmişdir. Mövzu daima aktual və əhəmiyyətli olmuşdur. Mövzu ətrafında fərqli alimlər müxtəlif təhlil və tədqiqatlar aparmışlar. Son tədqiqatlar göstərir ki, dil mədəniyyəti, mədəniyyət isə dili şərtləndirir.

Mədəniyyətin yaranmasında insan amilinin mövqeyi danılmazdır. Mədəniyyət dil üçün vasitədir. Mədəniyyət şüurlu insanların yaratdığı ikinci dünyadır. Mədəniyyət toplu insanların yaratdığı və onların

arasında inkişaf edən vasitədir. Mədəniyyət insanların həm fiziki, həm də zehni fəaliyyətinin nəticəsi kimi ərsəyə gəlir. Mədəniyyət cəmiyyətin mövcudluğudur. Dil yaradılışın intellektual və kommunikativ bacarığı sayılan mədəniyyətin formalaşması və inkişafı üçün başlıca vasitəsidir.

Bəşər tarixinin elə bir dövrü yoxdur ki, özünəməxsus, fərqli mədəniyyəti olmasın. Mədəniyyətin yaranması elə insanın yaranması anına təsadüf edir. Ən qədim insanın yaratdığı sadə əl aləti belə mədəniyyətin bir hissəsi hesab edilmiş, növbəti irəliləyişlərə addım hesab edilmişdir. İnsanların şüur və fəaliyyətlərində dəyişikliklər olduqca onların dünyagörüşləri, həyata baxışları dəyişmiş, bununla da yeni başlanğıcların əsası qoyulmuşdur. İnsanların tarixi inkişafı ilə cəmiyyətdə yaranan dəyişikliklər mədəniyyətdə də öz ifadəsini tapmışdır. Hər bir tarixi dövr, cəmiyyətin hər bir özünəməxsus forması bu mənada özgün mədəniyyətə malik olmuşdur.

Mədəniyyət insan əməyi və zəkasının nəticəsidir. Mədəniyyət insanların yer üzərində mövcudluğunu şərtləndirən mürəkkəb və çoxsahəli bir fenomendir. Mədəniyyət insanın bacarıq və əlaqələrinin, insan tərəfindən yaradılanların, insan əməyi və zəkasının nəticələrinin tam vəhdətinin zahiri əksini ifadə edən ictimai subyekt kimi insanın fəaliyyətini müəyyənləşdirən tarixi inkişaf prosesidir. Mədəniyyət formasına görə milli, məzmununa görə isə beynəlmiləl və ümumbəşəri xarakterə malikdir. Hər hansı bir mədəniyyət nümunəsi milli zəmində yaransa da, onun nəticəsi bəşəriyyətə məxsus olur. Mədəniyyət varislik xüsusiyyətinə malikdir. Müasir nəsillər keçmiş nəsillərinin təcrübəsindən faydalanaraq onu daha da inkişaf etdirirlər. Mədəniyyət mentalitet vasitəsilə gerçəkləşir. İnsanlar mədəni ünsürləri sahib olduqları keçmişlərinə, milli dəyərlərinə, irslərinə, milli adət ən-ənələrinə, soy köklərinə dayanaraq yaradırlar. Cəmiyyətin mədəni inkişaf səviyyəsi həmin cəmiyyətdə yaradılan mədəni və mənəvi sərvətlərin həm həcmi, həm yayılma miqyası, həm də insanlar tərəfindən mənimsənilməsi ilə əlaqələndirilir. Əgər mədəni nümunələr geniş vüsət alarsa, miqyasca geniş əhatədə yayılarsa, deməli o şüurlu surətdə, dərin kökə, bünövrəyə əsaslanaraq yaradılmışdır.

Dil insan həyatında böyük məna kəsb edir. Dilsiz insanlar cəmiyyətdə idarə oluna bilməzlər. İnsanlar ətraflarında baş verən hadisələri dil vasitəsi ilə qavrayır və digərlərinə ötürürlər. Dil əldə olunmuş hər bir nailiyyəti əbədiləşdirir, onun yaşamasına və inkişafına kömək edir. İnsanlar dil vasitəsilə özlərindən əvvəlki bilik və təcrübəni mənimsəyir, özlərindən sonrakı nəsillərə ötürürlər. Dil vasitəsilə toplanmış nailiyyətlər gələcək inkişaf üçün baza olur. Dilçilik elmində belə nailiyyətlərdən biri də terminologiya şöbəsində baş verir. Ərsəyə gələn hər bir termin yeni informasiya, bilik mənbəyidir. İnsanlar terminlərin etimologiyasından bilik mənbəyi kimi istifadə edərək, bilik dairələrini genişləndirirlər, onlara tez-tez müraciət edirlər. Dilin köməyi ilə Yer kürəsinin müxtəlif qitələrində yaşayan insanlar bir-biriləri ilə əlaqə saxlayır, biri digərinin elmi kəşfləri, nailiyyətləri ilə tanış olurlar.

Dil cəmiyyətin elmi və mədəni həyatının inkişafında ən başlıca vasitə hesab edilir. Dil danışan, fikirlərini ifadə edən hər kəsin malı hesab edilir. Dil məxsus olduğu mədəniyyətin əsas cəhətlərini özündə cəmləşdirir. Dil mədəniyyətin əsasını təşkil edir və mədəniyyətin ötürülməsinə xidmət edir. Mədəniyyətin ötürülməsi, qorunması və qavranılması məhz dilin sayəsində mümkün olur. Dil düşünmək və insanın ətrafda olanları dərk etməsi üçün əsas vasitədir. Fərqli ölkələrin dilləri onları dünya sivilizasiyalarına qovuşdurur. Hər bir xalqın fərqli dilləri kimi fərqli mədəniyyətləri, fərqli dünyagörüşləri vardır. Bu səbəbdən də fərqli mədəniyyətləri özündə təcəssüm etdirən fərqli kinolar, teatr səhnələri, musiqilər, operalar, memarlıq abidələri, təsviri–incəsənət nümunələri vardır. Bu nümunələrlə dünya irsləri zənginləşir. Hər bir xalqın dili mədəniyyəti ilə çulğalaşır. Xalqların mədəniyyətləri və dilləri öz qədimilikləri, həm də müasirlikləri ilə birlikdə inkişaf edir. Dünyada xalqların mədəni əlaqələri gücləndikcə dünyaya inteqrasiya edirlər, millətlərini millətlər içərisində tanıdırlar. [2]

Qloballaşma və elmi-texniki tərəqqi terminologiya elminin sürətli inkişafına xidmət edir. Cəmiyyətdə, ictimai həyatda baş verən hər bir hadisə və yeniliklər dildə öz əksini tapır. Cəmiyyətdə insanlar arasında ünsiyyətə xidmət edən dil hər zaman fərdlər tərəfindən təsirlərə məruz qalır. Bu təsirlər onun həm inkişafına, həm də inkişafının ləngiməsinə səbəb olur. Bu təsirlərə dilin lüğət tərkibi çevik cavab verir. Təsirlər və informasiya mübadiləsi hər zaman olduğu üçün proses aktiv hal alır. Dünyada yeni terminlərin yaranması dillərin inkişafına səbəb olur. Həmçinin beynəlxalq əlaqələrin inkişafı dillərin inkişafına xidmət edir və nəticədə müasir terminologiya yaranır. Dünya dillərinin terminologiyasının zənginləşməsində ingilis dilinin aktivliyi dominant rol oynayır. Çünki, bu dildə yeni-yeni fikirlər yaranır, insanları maraqlandıran məlumatlar ötürülür. Son zamanlar terminologiya elminə dair aparılan tədqiqatlar onun dillərə güclü təsir etməsini sübut edir. [3] Dillər yeni terminləri qəbul etmək üçün açıq olsalar da milliliklərini qorumağa çalışırlar. Dünya dillərində terminlərin informasiya mübadiləsində və biliyin əldə edilməsində xüsusi çəkisi vardır. Qloballaşma dövründə terminologiyanın inkişafı dillərin inkişafına səbəb olur. Dillərin terminologiya təcrübəsi müxtəlif sahələrdə ünsiyyəti genişləndirir və rəsmi dilin funksional dil imkanlarını genişləndirir. [4]

Mədəniyyət nümunələrində həm millilik qorunur, həm də müasirlik xarakterizə edilir. Mədəniyyətlər dildə təbliğ edilir. Beləliklə, həm dillər və həm də mədəniyyətlər inkişaf edir, tərəqqi edir, dünya miqyasında tanınırlar. Mədəniyyət nümunələrinin sayları artdıqca xalqlar, cəmiyyətlər zənginləşir, ön sıralara çıxırlar. Bu səbəbdən tezisdə verilən xüsusi adlardan düzəlmiş terminlər xalqların milli–mədəni tarixləri ilə bağlıdır. Heydər Əliyev irsi termini Azərbaycanın qurucusunun adı ilə bağlıdır. Bu termin özündə böyük ideologiyanın banisi, Azərbaycan dövlətinin, dilinin inkişafında danılmaz xidmətləri olan böyük şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır.

Hər bir xalqın mədəniyyəti inkişaf etdikcə onun dili də inkişaf edir. Mədəni ünsürlər dilə təsirsiz ötüşmür. Dil hər bir xalqın mədəni inkişafına aid olan, ona uyğun olan arqumentləri özündə əks etdirir. Xüsusi adlardan düzəlmiş beynəlxalq terminlərin xalqların məxsus olduğu dillərdə işlənməsinə səbəb onların beynəlmiləl olması, kəşf edilən qanunların elmlərə verdikləri tövhələrlə bağlıdır. Mədəniyyətin inkişafına zəmin yaradan müxtəlif elm sahələrinə aid olan terminləri nümunə göstərə bilərik. Dediklərimizi bir sıra xüsusi adlardan düzəlmiş terminlərlə sübut edə bilərik. Beləki, Şarl qanunu, Boyl qanunu, Mendeleyev–Klapeyron tənliyi qazın həcm və təzyiqinə, qaz molekullarının hərəkətinə aid qanunlardır. Braun hərəkəti mayedə molekulların hərəkətinə, Kandel işıq şiddətinə, Nyuton qanunları isə klassik mexanizmə aid qanunlardır.

Bu terminlərin milli dillərin lüğət tərkibinə daxil olmalarına səbəb dünya elmlərinə yeniliklər gətirmələridir. Bu qanunlar müxtəlif dillərin və mədəniyyətlərin olduqları cəmiyyətlərdə ona görə aktualdır ki, alimlərin kəşf etdikləri məvhumlar ümumilikdə şüurlu canlılar aləmində mövcuddur. Kəşf edilən qaz, istilik, işıq və digər məvhumlar haqqında qanunlar bütün canlıların yaşadığı aləmdə istifadə edilir. Bu məvhumlar olmasa dünya əhalisi yaşaya bilməz, həyat çətinləşər, üzvi və qeyri–üzvi aləm mövcud olmazdı. Afrika yuxu xəstəliyi, Afrika donuz istiliyi, İskəndər xəstəliyi və digər xəstəliklər bir bölgədə yaransa da dünyaya yayılırlar. Onlarla bağlı terminlər dünya dillərinin malı olurlar. Dünya dillərinin lüğət tərkibində beynəlmiləl termin kimi qəbul edilir, dünyanın hər nöqtəsində mövcud mədəniyyətlərdə, sahələrdə istifadə edilirlər.

Bu təsir özünü beynəlxalq terminlərin yaranmasında və lüğətlərə düşməsində göstərir. Əgər sivilizasiya varsa inkişaf da var. Beynəlxalq terminlər bu inkişafın göstəricisidir. Beynəlxalq terminlər müxtəlif sivilizasiyaların inkişafından xəbər verir. Millətlər öz milliliklərini qoruyub saxlamaqla yenilikləri dillərinə gətirməlidirlər. Yalnız bu halda millətlərarası mədəni əlaqələr inkişaf edə bilər. Azərbaycan və ingilis dilləri, mədəniyyətləri dünyada yeni kəşflərə açıq olduğu üçün beynəlxalq terminlər asanlıqla hər iki dilə yol tapır, dillərin lüğət tərkibini zənginləşdirir. Qalileo naviqasiya sistemi, Avropa peyk naviqasiya sistemi, Amper elektrik cərəyanının ölçü vahidi, Nokia, Alonso modeli, Milankoviç dövrü, Kalaşnikov avtomatı həm Azərbaycan, həm də ingilis dilində işlənən beynəlxalq terminlərdir.

Dünya dillərinin zənginləşməsində terminologiya mühüm rol oynayır. Terminlər isə fərqli mədəniyyət sahibi olan xalqların ünsiyyəti, elmi nailiyyəti zamanı ərsəyə gəlir. Terminlər xalqların mədəni inkişafını göstərən əsas faktordur. Yeniliklər, elmi nailiyyətlər nə qədər çox olarsa, bir o qədər dillər də çiçəklənər, öz dirçəliş dövrlərini yaşayarlar. Həmçinin, yeni yaranmış terminlər və ifadələr yeni məlumatların ötürülməsində mühüm rol oynayır. Bu terminlərlə tanış olan hər bir dil daşıyıcısı yeni informasiyalar, yeni biliklər əldə etmiş olur, məlumat bazasını genişləndirir.

Ədəbiyyat

1. Rüstəmova A. Sosiolinqvistikanın fəlsəfi problemləri. Bakı: Adiloğlu, 2005, 200 s.
2. Axundov A. Ümumi dilçilik – dilçiliyin tarixi, nəzəriyyələri və metodları. Bakı: Şərq-Qərb, 2006, 280 s
3. Terminologiya məsələləri. Bakı: Elm, 2018, 276 s.
4. İmamverdiyev Y.N. İnformasiya təhlükəsizliyi terminlərinin izahlı lüğəti. Bakı: İnformasiya Texnologiyaları, 2015, 160 s.

РЕЗЮМЕ

РОЛЬ ТЕРМИНОВ В РАЗВИТИИ ЯЗЫКА И КУЛЬТУРЫ

Мамедзаде К.А.

Ключевые слова: *язык, культура, взаимосвязь языка и культуры, термины, культурное развитие*

Язык и культура являются важными явлениями, играющими важную роль в жизни людей. Они постоянно взаимодействуют друг с другом. Языковой процесс оказывает запланированное или незапланированное воздействие на культуру и культурные достижения. Влияние языка на культурную среду, а культурной среды на мышление человека и его социальную деятельность неоспоримо. Тема взаимодействия и взаимосвязи языковых и культурных явлений всегда остаётся актуальной.

SUMMARY
THE ROLE OF TERMS IN THE DEVELOPMENT OF LANGUAGE AND CULTURE
Mammadzadeh K.A.

***Keywords**: language, culture, interrelation of language and culture, terms, cultural development*

Language and culture are important phenomena that play an important role in people's lives. They interact with each other and are constantly interacting. The language process has a planned or unplanned impact on culture and cultural achievements. The influence of language on the cultural environment, and the cultural environment on human thinking and its social activity is undeniable. The topic of the interaction and relationship of language and cultural phenomena has always remained relevant. For this reason, the subject of the thesis is the cultural achievement of society.

LEKSİK-SEMANTİK SAHƏNİN STRUKTURU VƏ FUNKSİYASI

İbrahimov R.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
www.ibrahimov.r@mail.ru

Açar sözlər: *lingvistika, leksik-semantik sahə, funksiyalar, leksik vahidlər, semantik komponent*

Leksik birləşmə tiplərinin mövcudluğuna alimlər hələ XIX əsrdə diqqət yetirmişlər. 1895-ci ildə rus alimi M.M.Pokrovski özünün "Qədim dillərin semasioloji tədqiqatı" əsərində qeyd edir: *"Sözlər və onların mənaları bir-birindən kənar həyatla yaşamırlar, lakin bizim düşüncəmizdən aslı olmayaraq müxtəlif qruplar yaradırlar. Belə qrupların yaranma səbəbi ya onların oxşarlığı, ya da əsas mənasına görə bir-birlərinə zidd olmasıdır."* [3, s.14]. İlk olaraq "sahə" anlayışı haqqında nəzəri düşüncələr məşhur alman alimləri Y.Trir və Q.İpsen tərəfindən irəli sürülmüş və "semantik sahə" (bundan sonra-S.S.) adını almışdır. Semantik sahə nəzəriyyəsi Trir tərəfindən intellektual terminlərin öyrənilməsi zamanı yaradılmış və bu, dilçilər tərəfindən maraqla qarşılanmışdır. Trirə əsasən istənilən bir sözdən istifadə edərək düşüncəmizdə həmin sözlə semantik baxımdan oxşarlıq təşkil edən digər söz, sözlər və ya söz birləşmələri də yaratmaq olar. Bu ümumilik sözlərin mənalarının ya oxşarlığından, ya da bir-birlərinə zidd olmasıyla təyin olunur. Burdakı anlayışlar məcmusu və onların daxilindəki mövcud oxşarliq və dəyişiklik mexanizmi alman alimi tərəfindən "semantik sahə" adlandırılmışdı. Qeyd etdiyimiz kimi, dilçilikdə semantik (anlamlı) sahələrin köməyi ilə leksik araşdırmaların aparılması Y.Tririn adı ilə bağlıdır, lakin bir termin olaraq dilçilikdə ilk dəfə Q.İpsen tərəfindən işlədilmişdir. O, sahəni eyni mənaya malik olan sözlərin birliyi kimi təyin edirdi. Trir semantik sahə dedikdə anlayışların müəyyən edilmiş sıra və toplusunun quruluşunu nəzərdə tutur. Dildə semantik sahəyə söz tərkibindən çıxarılmış və hər hansı belə bir sahə ilə bağlantısı olan leksik sahə anlayışı uyğun gəlir. *Trir semantik sahə ilə "dil sahələri" tərəfindən təqdim olunmuş dilin ifadə planı arasında paralellik aparırdı. Hər şeydən əvvəl onu ümumi leksikondan çıxarılmış konkret söz birliyinin parçalanması zamanı nəyin əsas götürüləcəyi maraqlandırırdı. Lakin Trir üçün "semantik sahə" termini arxasında müəyyənləşdirilmiş təhlil üsuluna malik metafora dayanırdı.* [1, s.24]. Trir konsepsiyasına Y.Vaysqerberin sözün mənasını müstəqil vahid yox, tam struktur komponenti hesab edən söz sahələri konsepsiyası yaxındır. Bu sahələri o *"birqat"* və *"çoxqat"* olmaqla 2 yerə bölür. "Birqat sahələrin" parçalanması hansısa bir vahid əlamətə, aspektə arxalanan nöqteyi nəzərdən baş verir. "Çoxqat sahələrin" parçalanması isə müxtəlif əlamətlərə əsaslanan nöqteyi nəzərdən baş verir, amma bu zaman dayaq "nüvə" məna vurğulayır. [6, s. 84-96]

Sözsüz ki, "sahə nəzəriyyəsi"ndən söhbət getdikdə məşhur dilçi alim Q.S.Şur və onun fundomental araşdırması olan "Sahə nəzəriyyəsi linqvistikada" əsərini vurğulamamaq qeyri-mümkündür. Şura əsasən: *Dil hadisələrinin "sahə" termini ilə əlaqədar araşdırılmasına linqvistikada dil vahidlərinin müxtəlif qruplar ətrafında ənənəvi halda (invariant, funksional, struktur funksional, funksional-invariant və assosiativ) birləşməsi səbəb olur.* [4, s.11]. "Sahə" termininin araşdırılma istiqamətinə görə Şur iki yanaşma - paradiqmatik (yun. "paradeigma" – *nümunə*) və sintaqmatik (yunanca "syntagma" – *birləşdirilmiş*) yanaşmaları vurğulayır.

Təxmin edilir ki, semantik sahənin strukturunda dil və konseptual aspektlər əks olunur. Çox güman ki, sahə tərkibindəki leksik-semantik və anlayış bildirən elementləri qəti şəkildə bir-birlərinə qarşı qoymaq məqsədəuyğun deyil. Hər şeydən əvvəl semantik sahənin işi, onun funksiyası sahənin adı tərəfindən işarələnmiş və onun elementlərinin maksimal sıxlığı ilə konkretləşdirilmiş fəaliyyət sahəsinin dilçilik baxımdan adekvat əks etməkdir. Məhz bu yolla semantik sahə söz və onun tərkib elementlərinin köməyi ilə real dünyayla bağlanmış olur. Sözün reallıq ilə münasibəti isə öz növbəsində onun denotativ və siqnifikant mənaları hesabına həyata keçirilir: denotant söz vasitəsilə işarələnən reallığın sinfinin adını çəkir, siqnifikant

isə eynicinsli reallığın ən əsas əlamətlərinə işarə edir. *Leksik-semantik sahə denotatlarin dilxarici əlamətlərinə əsaslanır, onun elementləri bir-birlərini əvəz edə bilmirlər, ümumi əlamət kimi isə çox vaxt süni sahə sərhədlərindən kənarda yerləşən söz birləşmələri çıxış edir.* [2.s. 87]. Leksikanın təsviri zamanı sahədən dil anlayışına doğru hərəkət etdikcə biz, dilin leksik tərkibinin parçalanmasını təyin edən əsas anlayışlar toplusunu əldə edirik. Bu əsas anlayışları lügətin mənalı, məzmunlu tərəfini təsvir etmək üçün koməyi dəyə biləcək semantik komponentlər kimi də nəzərdən keçirmək mümkündür.

Semantik sahənin təyin olunmasında ilk addım mərkəzi sözün seçilməsi hesab edilir. Onun köməyi ilə isə gələcəkdə leksik vahidlərin birləşdirilməsinin ilkin konturlarını (sərhədlərini) cıza bilən anlayış təyin edilir. Semantik sahənin çox vaxt bu üsulla təyin edilməsini semantik-məntiqi metod adlandırılar. Semantik sahə anlayışında müasir araşdırma predmetini ya eyni məna ifadəsi, ya eyni funksiya daşıması, ya da prinsiplərin konbinsasiyasına, birləşməsinə əsaslanan leksik vahidlər təşkil edir.

Dil vahidlərinin sahə strukturu vasitəsilə araşdırmalası üçün aşağıdakı faktları ümumi adlandırmaq mümkündür:

- Tərkibdən – formaya dogru istiqamətlənmiş dil elementlərinin hər hansı bir toplusunun öyrənilməsi semantik funksiyaların yaxınlığıdır.
- Struktur mərkəzinin intensivliyi və onların "güclənməsi" və pereferiyada "zəifləməsi".
- Makro və mikro sahələrin ayrılması, sahənin həmcins və qeyri-həmcins elementlərinin qarşılıqlı əlaqəsi, sahə elementlərinin qismən kəsişməsi, ümumi seqmenlərin mövcudluğu və sahə strukturunun dinamikliyi.

Sahənin bu xarakterik xüsusiyyətlərini daha da yaxından araşdıraq: Semantik funksiyaların yaxınlığı müxtəlif dil vasitələri hesabına ifadə olunan elementlərin eyni semantik zonaya aid olduğuna işarə edir. Bu zona üçün invariant olaraq iyerarxik pillənin zirvəsində yerləşən ümumi semantik xarakteristika hesab edilir. Lakin aşağı pillələrdə semantik şəkildə yerdəyişmə geniş təmsil olunur. Hər hansı sahəyə aid olan spesifik vasitələr özləri konkret mənalara malik olurlar: ya qrammatik, ya leksik, ya da sintaktik. Semantik sahənin funksiyaları bu anlayışları bütövlükdə əhatə etmir, o yalnız müqayisəyə gələn, qarşılaşdırıla bilən semantik elementləri seçir və verilən dildə məzmunlu, dolğun bünövrə əsasında tərkibində aksional nüvəli (məs: aspektuallıq, modallıq sahəsi) funksional semantik sahə qrupları olan sahələr sistemi yaradır. Bu cür sahələrin tərkibini təşkil edən semantik funskiyalar anlamlı kateqoriyalarla oxşarlıq təşkil etmirlər, hərçənd onlarla heç bağlı da deyillər. Anlamlı sahələrin strukturu bütövün hissələrə bölünməsi və onlar arasında əlaqənin universallıgı ilə təyin olunur, lakin funksional-semantik sahələrin strukturu verilən mənaların dildəki konkret vasitələrlə əlaqəsini bildirən seqmentasiya üzərində qurulur.

Anlamlı sahənin quruluşu abstraksiyanın daha yüksək səviyyəsinə aparıb çıxarır. Bu cür sahələr və onların komponentləri haqqında məlumatları müxtəlif dillərdəki semantik sahələri uzaqlaşdırdıqdan və ümumiləşdirdikdən sonra görmək mümkündür. Onları çox vaxt makro sahələr adlandırırlar və dil sisteminin konkret hissələrini təsvir etmək üçün istifadə edirlər (məs: oxşarlıq, təkrarlıq, inkarlıq kateqoriyaları). Adətən makro sahənin daxilində dildə xüsusilə vurğulanan və həmçinin birbaşa nitqdə istifadə olunan bir neçə mikro sahə olur.

Mikro sahə özünü ifadə və təşkil etmə baxımından müstəqilliyə malikdir. Özünü təşkil etmə dilin konkret semantik funksiyaları (və yaxud bu cür funksiyalar kompleksi) ilə təmsil olunur. Özünü ifadə etmə isə müxtəlif morfoloji, sintaktik, leksik və sözdüzəldici vasitələri özündə cəmləşdirir. Bu cür sahələrə modallıq, temporallıq, intensivlik, aspektuallıq sahələrini misal görsətmək olar.

Sahə üçün əsas əlamət nüvə, mərkəz və onlara əsasən pereferiya təşkil edən digər komponentlərin təyin olunmasıdır. Nüvəyə daxil olan ünsürlər sahənin aparıcı komponentləri kimi fəaliyyət göstərir. Bu ünsürlər ona görə aparıcı komponent kimi qəbul edilir ki, onlar sahənin daşıdığı ümumi anlayışı, invariant mənanı ifadə etmək üçün maksimal dərəcədə xüsusiləşmişdir. [5, s.58]

Rus dilçisi V.Q.Admoni sahədaxili əlaqələrin qarşılaşdırılmasında bir cütlüyü əsas götürür: əlamətlərin tamlığı və intensivliyi (mərkəz üçün), həmin tamlıq və intensivliyin getdikçə zəifləməsi (periferiya üçün). [5, s.55]

Fikirləri cəmləşdirərək "mərkəz-pereferiya" qarşılaşdırmasının çoxüzlü olmasını və onların təyin olunmasında aşağıdakı əlamətləri qeyd etmək olar :

- spesifik əlamətlərin maksimal dərəcədə konsentrasiyası (mərkəzdə) və onların pereferiyada seyrəklənməsi.

- əlaqələrin bir nöqtədə cəmləşməsi (mərkəzdə) – onların pereferiyada zəifləməsi

- konkret dil vasitəsinin və ya vasitələr sisteminin yüksək səviyyədə ixtisaslaşması (mərkəzdə) – ümumi semantik funksiyanın həyata keçirilməsində rolun azalması (pereferiyada)

- verilmiş dil elementinin mütəmadiliyi və yüksək tezlikli funksiyallığı (mərkəzdə) – daha az və ya qeyri-sabit mütəmadiliyi (pereferiyada)

Qeyd etdiyimiz kimi sahə nəzəriyyəsinə aid araşdırmalarda xüsusi olaraq diqqət qarşılıqlı əlaqələrə, dil hadisələrinin mütəmadiliyinə və səviyyələrarası qarşılıqlı təsirə ayrılır.

Yuxarıda sadalanan cəhətləri nəzərə alaraq belə bir nəticəyə gəlmək mümkündür ki, semantik sahənin əsas xüsusiyyətləri avtonomluğu, dilin müstəqil alt sistemi kimi vurğulana bilməsi və digər semantik sahələrlə birlikdə dil sistemini yaratmasıdır.

Ədəbiyyat

1. Болдырев Н.Н. Когнитивная семантика: курс лекции по английкой филологии. Тамбов: - 2000,-124 с.
2. İbrahimov,R. Vəliyeva, G. Azərbaycan dilində "Nəqliyyat" konseptinin leksik semantik sahəsi // Dil və Ədəbiyyat 4(92), Bakı: BDU, 2014, s. 87-89.
3. Покровски М.М. Семасиологические исследования в области древних языков. М. Университетская типография, 1895,-132 с.
4. Щур Г.С., Теория поля в лингвистике, Москва: - 1974, - 256 с.
5. Tahirov İ., Azərbaycan və ingilis dillərində zaman kateqoriyası, monoqrafiya, Bakı: Nurlan, 2007,-324 s.
6. Вайсгербер Й. Л. Родной язык и формирование духа / Й. Л. Вайсгербер – М.: Едиториал УРСС, 2004. - 232 с.

РЕЗЮМЕ
СТРУКТУРА И ФУНКЦИИ ЛЕКСИКО-СЕМАНТИЧЕСКОГО ПОЛЯ
Ибрагимов Р.М.

Ключевые слова: *лингвистика, лексико-семантическое поле, функции, лексические единицы, семантический компонент*

В статье рассматривается вопросы возникновения теории лексико-семантического поля, взгляды и подходы лингвистов к этому понятию. Перечислены компоненты внутренней структуры семантического поля и их функции Доказано, что первым шагом в определении семантического поля является выделение центрального слова. С его помощью определяется понятие, способное провести исходные границы объединения лексических единиц в будущем. Становится понятным, что предметом современного исследования в понятии семантического поля являются или лексические единицы, основанные на выражении, функции одного и того же значения, или лексические единицы сочетаемые комбинацией принципов.

SUMMARY
STRUCTURE AND FUNCTIONS OF THE LEXICAL-SEMANTIC FIELD
Ibrahimov R.M.

Key words: *linguistics, lexico-semantic field, functions, lexic units, semantic component*

The article deals with the emergence of lexico-semantic field theory, the views and functions of linguists on this concept. The internal structures of the semantic field, functions and features are listed and emphasized. It is proved that the first step in determining semantic field is the selection of the central word. With its help, a concept is defined that is capable of drawing the initial boundaries of the association of lexical units in the future. It becomes clear that the subject of modern research in the concept of a semantic field is either lexical units based on expression, functions of the same meaning or lexical units combined by a combination of principles.

QARABAĞ BÖLGƏSİNDƏ BƏZİ GEOMORFOLOJİ TERMİNLƏR VƏ ONLARIN MİKROTOPONİMLƏRİN YARANMA PROSESİNDƏ ƏSAS ROLU

İsmayıllı A.F.
Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan
aysheaxmedova4@gmail.com

Açar sözlər: *geomorfoloji, termin, mikrotoponim, onim*

Qarabağ bölgəsində mikrotoponimlərin tərkibində bir sıra arxaik geomorfoloji terminlər qeydə alınmışdır.

Yer coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. Təsərrüfat məqsədilə istifadə olunan və ya olunmayan torpaq sahələridir. Məsələn: Əppəkli yer, Pötnək yeri (Ağcabədi rayonu); Ağ qəbir yeri, Ağacan yeri, Ağvan yeri, Ağanın yeri, Alban yurd yeri, Avat yer, Bal yeri, Bəy yeri, Bəylik yeri, Canavar yeri, Cağlı yer, Çıraqlı yer, Çıraq yeri, Dəllək yeri, İsgəndər bəyin yurd yeri, Jımıxlı dərə yeri, Kənd yeri,

Köç yeri, Qarğalı yer, Qala yeri, Qovaq yer, Saray yeri, Solaxay yer, Şah yeri, Şənlik yeri, Şıx yeri, Tağının yeri, Yad yer, Yadın yeri, Yarpızlı yer, Yüzbaşının yeri, Zülü yeri (Ağdam rayonu); Arpa yeri, Qozlu yer, Zal yeri (Şuşa rayonu); Müsül yurdunun yeri, Orduxan öldürülən yer, Pəricahanın bağ yeri, Sehranın yeri, Təzə binə yeri, Yonca yeri, Yurdlar yeri, Ağamalının yurd yeri, Azadvurulan yer, Cavanşirlərin yeri, Ceyran qaçan yer, Çayqovuşan yer, Əli öldürülən yer, Fərhadın yeri, Göl yeri, Göllər yeri, Xırman yeri, Kolanı yeri, Kotan yeri, Qala yeri, Qaraşın yeri, Şahbazın yurd yeri, Zərdi yeri (Xocalı rayonu); Qozdibi yeri, Qoşa bulaq yeri, Qönçə yeri, Qurbanlı yer, Dəyə yeri, Yadigar yeri, Kələsər yeri, Murquzlu yurd yeri, Nağılı yurd yeri, Ocaq yeri, Pirədəfi yeri, Pörnək yeri, Səngər yeri, Suat yeri, Talıb yeri, Xədicəxanımın yurd yeri, Şəkər xanımın bağ yeri (Füzuli rayonu); Əlibala yeri, Əlibaba yeri, Əzəmət yeri, Kənd yeri, Kərəmin yeri, Kolanı yurdlarının yeri, Köç yeri, Köndələn yer, Küful yeri, Qaradağlının ferma yeri, Qazan yeri, Qətl yeri, Mandı yeri, Mərəklər yeri, Məscid yeri, Ningi yeri, Pağıldıyan çay yeri, Pörnək yeri, Sapand daşı düşən yer, Şəfi yeri, Vərəndə yeri (Xocavənd rayonu) və s.

Mağara coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. Yer səthinin üst təbəqəsində olan boşluqdur. Suda həll oluna bilən süxurların yuyulması və ya həll olunması nəticəsində yaranır. Məsələn: Azıx mağarası, Tağlar mağarası və s. (Xocavənd rayonu); Xəznədar mağarası, Şuşa mağarası (Şuşa rayonu) və s.

Zəmi coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. Əhalinin taxıl əkmək üçün istifadə etdiyi yerdir. Məsələn: Dərəzəmi (Ağdam rayonu); Qarazəmi örüşü, Uzun zəmi, Kuropatkono zəmisi və s. (Xocavənd rayonu); Düz zəmi, Kəklikotulu zəmi, Taxıllı zəmi, Ceyran zəmi (Füzuli rayonu); Kətik zəmisi, Maral zəmisi (Xocalı rayonu) və s.

Xarabalıq coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. Xarabaya çevrilən, dağılan, sökülən, viran qalan yerdir, yəni viranəlikdir. Məsələn: Gavurqala şəhər xarabalığı (Ağdam rayonu); Üzərliktəpə yaşayış yeri xarabalığı (Xocalı rayonu) və s.

Aşırım coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. Dağı açıb digər tərəfə keçmək üçün yerdir, yəni dağın belidir. Məsələn: Gözətçi aşırımı, Güllücə aşırımı, Rahat aşırım, Gədik aşırımı (Ağdam rayonu); Güllücə aşırımı, Qarakənd aşırımı, Qozluçay aşırımı, Şaqax aşırımı, Köçbək aşırımı (Xocavənd rayonu); Bəzirgan aşırımı, Keçəldağ aşırımı (Şuşa rayonu); Bəzirgan aşırımı (Xocalı rayonu) və s.

Keçid coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. Bir ərazidən başqasına keçmək üçün yoldur. Məsələn: Sultanbəy keçidi (Ağdam rayonu); Orta keçid (Xocavənd rayonu) və s.

Daş coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. "Təbiətdə parçalar, yaxud böyük və kiçik kütlələr şəklində təsadüf olunan, suda həll olunmayan bərk cisimdir (süxurdur)" [1, 543]. Məsələn: Çala daş (Şuşa rayonu); Çəpdaş, Dikdaş, Böyük daş, Duzlaşmış daş, Uzun daş (Xocalı rayonu). Bəşir Əhmədov sözün izahını belə verir; "qədim mənası "atmaq" deməkdir. Görünür, daşdan döyüş vasitəsi kimi istifadə edib, onu düşmənin üstünə atıblar (Qaraca Çoban kimi). Sonra sözün həm leksik, həm də qrammatik mənası dəyişib, feil ismə çevrilib. Ehtimal ki, dışarı (kənar) sözü ilə əlaqədardır, çünki daşı kənara atıblar və ya qayadan qopub kənara düşdüyü üçün belə adlanıb" [2, 77]. Məsələn: Xaçdaş, Dəlikdaş.

Kurqan coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. Bəşir Əhmədov sözü belə izah edir: "Kurqan "qurmaq, "tikmək" anlamları ilə bağlı olan qədim türk sözüdür. Bu kəlməni bəzən qorunmaq (qala), bəzən də gorxana (qəbir) kəlmələri ilə bağlayırlar" [2, 145]. Sultanbud kurqanı, Əjdaha kurqanı təpələri (Ağdam rayonu); Haçatəpə kurqanı, Xaçbulaq kurqanları, Kurqanlar (Xocalı rayonu); Qarabulaq kurqanları (Füzuli rayonu); Gültəpə kurqanı, Xanlıqtəpə kurqanı, Qəbiristanlıqtəpə kurqanı, Yolçəkəntəpə kurqanı, Aşıxlıtəpə kurqanı (Ağcabədi rayonu); Çaqqallıtəpə kurqanı, Toxmaxtəpə kurqanı, Dəmirçilər kurqanları (Tərtər rayonu) və s.

Yoxuş coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər. Yolun dağ, təpə, düz və s-yə qalxmaq üçün olan hissəsidir. Məsələn: Bəyin yoxuşu, Ağyoxuş, Quru yoxuş, Narlı yoxuş, Qatırçıxan yoxuş, Daşlı yoxuş (Ağdam rayonu); Ağ yoxuş, Palantökən yoxuşu, Şahyeri yoxuşu (Xocavənd rayonu); Sarıyoxuş (Şuşa rayonu); Daşlı yoxuş, Pirəhmədli yoxuşu, Sarıyoxuş (Füzuli rayonu) və s.

Bazı coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: İki zəmi arasında olan dik yerdir. Məsələn: Boz bazı, Gödək bazı (Ağdam rayonu).

Yol coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Kiş yolu, Molla Nəsrəddin yolu, Elçi yolu, Qarapirim yolu, El yolu, Ergi yolu, Qiyaslı yolu (Ağdam rayonu); Qatırçı yolu (Şuşa rayonu); Araba yolu, Şah yolu, Yastı yol (Füzuli rayonu); Elçi yolu, Elat yolu (Ağcabədi rayonu); At yolu, Elçi yolu, Kiş yolu, Molla Nəsrəddin yolu, Ninki yolu, Sarı yol, Şah yolu (Xocavənd rayonu); Falçı yolu, Firəng yolu, Qala yolu (Xocalı rayonu) və s.

Çuxur coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Yer səthindən aşağı çökən oyulan yer, oyuq və ya çaladır. Məsələn: Çuxuryal, Qalib çuxuru (Xocavənd rayonu); Öküz çuxuru, Saqqızlı çuxur (Ağdam rayonu) və s.

Cığır coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Gediş-gəliş nəticəsində meydana gələn yoldur. Ağ cığır (Ağdam rayonu)

Qala coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Qədim zamanlarda düşməndən müdafiə olunmaq üçün istifadə olunmuşdur və istehkam, kənd, şəhər mənaları da vardır: Çanaqqala, Xanın qalası, Çürük qala, Qız qalası, Qızılqala, Pənah xanın qalası, Şahbulaq qalası, Qızqala, Narın qala, (Ağdam rayonu); Əsgəran qalası, Dəhraz qalası, Qız qalası, Aslan qalası, Xanın qalası, Şahın qalası (Xocalı rayonu); Buğuz qalası, Məlikcan qalası, Ritiş qalası, Böyük Qala, Çaylaqala, Ərgünəş qalası, Xış qalası, Məlikcan qalası (Xocavənd rayonu); Qız qala (Füzuli rayonu) və s.

Oyuq coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Yamacda, həmçinin onun ətəyində olan çökəklik yerdir. Balaca oyuqlu (Xocavənd rayonu);

Kalafa coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Kalafa dağılan ərazi, yəni xarabalıqdır. Şükür qazan kalafa (Ağdam rayonu); Ayı talası, Canavar talası, Göytala (Şuşa rayonu);

Yataq coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Ferma yatağı (Ağdam rayonu)

Quyu coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Qazılan dərin və ya dayaz formada olan çuxudur. Əhəng quyusu (Ağdam rayonu);

Yarğan coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Daimi olmayan su axını nəticəsində əmələ gələn dikşəkilli çuxur mənasında işlənir. Məsələn: Darısqal yarğan, Qız yıxılan yarğan (Ağdam rayonu); Kəhrad yarğanı (Şuşa rayonu) və s.

Tala coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Tala açıq olan, çılpaq yer, ərazidir. Məsələn: Güllü tala, Meşə talası, Meşəli tala (Ağdam rayonu); Cəmilli tala, Qoşabulaq talası (Füzuli rayonu); Ayı talası, Canavar talası, Göytala, Göllü tala (Şuşa rayonu); Ayı talası, Cavadlar talası, Dəhrəz talası, Güllü tala, Hacı talası, Həmid talası, Xəzəz talası, Köz talası, Orta tala, Palıdlı tala (Xocalı rayonu) və s.

Sahə coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Coğrafi terminin mənası açıq ərazi deməkdir. Məsələn: Mütəllimin sahəsi, Çay zavodunun sahəsi (Xocalı rayonu); Fağırın sahəsi, Mərzili sahələri, Mütəllimin sahəsi, Özəl sahə, Şıxbabablının sahələri (Ağdam rayonu); Örənsahə (Füzuli və Xocavənd rayonları) və s.

Silsilə coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Qarqar silsiləsi (Xocalı rayonu); Qarabağ silsiləsi, Palatökən dağ silsiləsi, Sağsağan dağ silsiləsi (Xocavənd rayonu) və s.

Ərazi coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Əvəlikli ərazi (Xocalı rayonu)

Yüksəklik coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Ağdaş yüksəkliyi, Sığnaq yüksəkliyi, Siçanlı yüksəkliyi (Xocalı rayonu); Düzağa yüksəkliyi, Pirağ bulaq yüksəkliyi (Xocavənd rayonu) və s.

Körpü coğrafi onimi əsasında əmələ gələn mikrotoponimlər: Sultan körpüsü, Qaradağlı körpüsü, Sultan körpüsü (Ağdam rayonu); Kərəm körpüsü (Füzuli rayonu); Ciji qızı körpüsü (Ağcabədi rayonu); Ağa körpüsü, Şükürün körpüsü (Xocalı rayonu); Alı körpüsü, Alının körpüsü, Aral Həsirkörpü, Kərəm körpüsü, Tağlı körpü, Taxta körpü, Şah Abbas körpüsü (Füzuli rayonu) və s.

Məqalədə Qarabağ bölgəsində rast gəlinən mikrotoponimlərin tərkibində olan geomorfoloji terminlər linqvistik aspektdən təhlilə cəlb olunmuşdur. Bu terminlərin etimoloji izahı verilmiş, onların mikrotoponimlərin yaranması prosesində rolu müəyyənləşdirilmişdir.

Qarabağ bölgəsində qeydə alınan geomorfoloji terminlərin təhlil olunması nəticəsində aydın olmuşdur ki, onların müəyyən qismi yer-yurd adlarının tərkibində qorunub saxlanaraq müasir dövrə qədər də gəlib çata bilmişdir və canlı xalq danışıq dilində aktual şəkildə işlənir. Bu coğrafi terminlərin tarixi çox qədimdir. Qarabağ ərazisində qeydə alınan terminlər (yer, mağara, zəmi, xarabalıq, aşırım, keçid, daş, kurqan, yoxuş, bazı, yol, bazı, çuxur, cığır, qala, oyuq, kalafa, yataq, quyu, yarğan, tala, sahə, silsilə, ərazi, yüksəklik, körpü və s.) əhalinin kənd təsərrüfatı fəaliyyəti ilə bağlı olaraq işlənir. Qarabağ bölgəsində qeydə alınan geomorfoloji terminlərin müəyyənləşdirilməsinin və təhlil olunmasının dilçiliyimizdə çox əhəmiyyətlidir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti: Dörd cilddə. I c. Bakı: Şərq-Qərb, 2006, 744 s.
2. Əhmədov B. Etimologiya lüğəti (Araşdırmalar, mülahizələr). Bakı: Altun kitab, 2015, 288 s.

РЕЗЮМЕ

НЕКОТОРЫЕ ГЕОМОРФОЛОГИЧЕСКИЕ ТЕРМИНЫ В КАРАБАХСКОМ РЕГИОНЕ И ИХ ОСНОВНАЯ РОЛЬ В ПРОЦЕССЕ ОБРАЗОВАНИЯ МИКРОТОПОНИМОВ

Исмаиллы А.F.

Ключевые слова: *Карабах, геоморфологический, термин, микротопоним, оним.*

Карабахский регион имеет уникальные особенности, благодаря своему геоморфологическому строению, климатическим условиям, флоре и фауне. Здесь проявляются различные ландшафтные структуры.При наименовании

географических объектов люди использовали разные геоморфологические термины, такие как положительные и отрицательные формы рельефа, в зависимости от её формы. Некоторые из этих терминов устарели. Геоморфологические термины, зафиксированные в Карабахском регионе (место, пещера, земля, развалины, перевал, перевал, камень, насыпь, откос, некоторые, дорога, яма, тропа, замок, яма, калафа, русло, колодец, овраг, поле, мост и др.) и др.) играет важную роль в создании микротопонимов.

SUMMARY
SOME GEOMORPHOLOGICAL TERMS IN THE KARABAKH REGION AND THEIR MAIN ROLE IN THE FORMATION OF MICROTOPONYMS
Ismayilli A.F.

Key words: *Karabakh, geomorphological, term, microtoponym, onim*

Karabackh region has unique characteristics due to its geomorphological structure, climatic conditions, flora and fauna. Different landscape structure is shown here. People have used different geomorphological terms such as positive landforms and negative landforms depending on the landforms when naming the geographical objects. Some of these terms have become archaic. Geomorphological terms recorded in the Karabakh region (place, cave, ground, ruin, pass, pass, stone, mound, slope, some, road, hole, path, castle, hole, kalafa, bed, well, gully, field, field, bridge etc.) plays an important role in the creation of microtoponyms.

РОЛЬ ПАМЯТИ ПРИ УСТНОМ ПЕРЕВОДЕ

Амрахова Р.Ф.
Бакинский славянский университет, Баку, Азербайджан
amrakhova.rena@mail.ru

Ключевые слова*: перевод, устный перевод, ораторская речь, переводческая запись, семантографические символы.*

Устный перевод – это вид перевода, при котором переводчик поняв значение слов говорящего, сразу переходит с одного языка на другой, чтобы обеспечить связь между собеседниками. В данном случае оригинал и его перевод выступают в нефиксированной, устной форме. В настоящее время потребность в устном переводе стремительно растет.

Последовательный и синхронный перевод являются видами устного перевода. При последовательном переводе переводчик, воспринимая фрагмент речи ведет у себя записи, а после того как докладчик заканчивает свою речь или делает небольшую паузу, воспроизводит осуществленный им перевод.

При синхронном переводе процесс перевода происходит почти одновременно (с небольшим отставанием) с его произнесением. Переводчик должен уметь одновременно слушать, понимать, переводить и говорить. Исходя из этого, данный вид перевода считается самым сложным. Синхронный перевод осуществляется в изолированной кабине с использованием микрофона, наушников и оборудования для звукозаписи, а также обязательно наличие под рукой всех письменных материалов, необходимых для предстоящего заседания.

И последовательный и синхронный перевод требуют удержания в памяти переводчика содержания оригинала в течении очень короткого отрезка времени. При этом переводчик не только сохраняет смысл текста, но и умело применив переводческие методы и приемы, осуществляет свой перевод. Память переводчика, ее тренированность определяет качество перевода. Память определяется как мгновенная, кратковременная, оперативная и долговременная. И если кратковременная память удерживает материал в течении 20 секунд, то оперативная память функционирует дольше, от нескольких секунд до нескольких дней.

Долговременная память сохраняет сообщение в течении длительного срока. Переводчик же пользуется тем видом памяти, при котором материал лучше запоминается. Некоторые переводчики хорошо запоминают оригинал при зрительном восприятии, другие – при слуховом. Именно процесс запоминания способствует далее точности воспроизведения материала.

При устном последовательном переводе, переводчик должен так сконцентрировать свое внимание, чтобы суметь быстро и правильно передать речь оратора. И если учесть, что переводчику требуется концентрировать свое внимание на говорящем по протяжении всей его речи, и если учесть, что в какие-то моменты в исходном языке могут встретиться незнакомые слова или понятия, это все является факторами, которые напрягают возможности памяти. Чтобы выполнить качественный перевод быстро и с высокой точностью, переводчик должен уметь управлять своим вниманием.

Большое удобство при передаче текста, обеспечивают переводческие записи, которые еще называются переводческой скорописью. Скоропись является частью процесса последовательного перевода. Техника записей позволяет переводчику передавать даже очень длинные отрезки речи и тем самым не перегружать свою память. Сделанные записи должны быть краткими, эффективными, быстро читаться.

Таким образом этапы процесса перевода можно передать так: восприятие сообщения, краткая запись, расшифровка и осмысление сделанной записи, порождение текста перевода.

Умение использовать технику записей является важным для переводчика. Именно записи облегчают его работу. При ведении записей опускаются лишние слова, которые не несут основной информации, сохраняются лишь ключевые слова. Переводческая запись – это один из основных навыков, которыми обязан владеть устный переводчик. Каждый из них обладает индивидуальной техникой записи.

Система записей также называется механизмом памяти для переводчика. Записи должны соответствовать определенным требованиям: должна учитываться быстрота фиксации, максимально малая площадь фиксации, умение быстрого прочтения записей, сведение к минимуму различия в порядке слов в исходном и переводящем языках. Фиксация записей должна осуществляться так, чтобы переводчик мог ее как можно быстрее прочесть. При фиксации информации переводчик должен сосредоточить свое внимание на содержании текста оригинала уже на этапе его восприятия. Это позволяет экономить время декодирования смысла на этапе перекодировки информации на другой язык.

Для быстрой фиксации записей переводчик должен прибегать к следующим приемам: сегментации текста, трансформациям, компрессии, буквенным сокращениям, а также использованиям символов.

Переводческая запись как профессиональный навык устного перевода формировалась и совершенствовалась в течении долгого времени. И немаловажная роль здесь отводится семантографическим символам. Их преимуществом является то, что они не относятся к какому-либо языку. Они могут быть зафиксированы при прослушивании переводимого текста, а прочитаны и трансформированы на другом языке.

Символ обычно обладает тремя признаками: экономичностью, наглядностью и универсальностью.

Экономичность символов в простоте их графической фиксации.

Наглядность их заключается в том, они вызывают у переводчика определенные ассоциации и их легко найти на листе бумаге.

Универсальность же их в том, что они являются носителями лексического значения и оказывают влияние на грамматическую форму.

Все символы, которые использует переводчик должны быть ему понятны и хорошо знакомы. В запасе у него должно быть огромное количество символов, которые он может использовать при переводе.

Литература

1. Аликина Е.В. Переводческая семантография. Записи при устном переводе. М.: 2006.
2. Миньяр-Белоручев Р.К. Общая теория перевода и устный перевод. М.:1980.
3. Миньяр-Белоручев Р.К. Записи в последовательном переводе. М.:2005.
4. Чужакин А.П., Спирина С.Г. Основы последовательного перевода и переводческой скорописи. М.: 2007.
5. http://journalpro.ru/articles/perevodcheskaya-zapis-v-posledovatelnom-perevode/
6. https://cyberleninka.ru/article/n/obuchenie-perevodcheskoy-skoropisi-v-ramkah-professionalnoy-podgotovki-perevodchikov

XÜLASƏ

ŞİFAHİ TƏRCÜMƏDƏ YADDAŞIN ROLU

Əmrahova R.F.

***Açar sözlər**: tərcümə, şifahi tərcümə, natiq nitqi, tərcümə qeydləri, semantoqrafik simvollar*

Şifahi tərcümə şifahi nitqin tərcüməsidir və iki növə bölünür: ardıcıl və sinxron tərcümə. Məqalədə şifahi tərcümə zamanı yaddaşın rolu tədqiq olunur. Burada şifahi tərcümə zamanı qeydgötürmə bacarıqları da araşdırılır. Bu da ardıcıl tərcümədə tələb olunan üsullardan biridir. Qeydgötürmə yaddaşın köməkçi vasitəsi kimi istifadə olunur. Bu üsulun məqsədi tərcüməçi fəaliyyətinin

mövcud ekstrimal şəraitinin yumşaldılmasıdır. Məqalədə həm də seqmentasiya, transformasiya, kompressiya və simvolların istifadəsi tədqiq olunur.

SUMMARY
THE ROLE OF MEMORY IN ORAL TANSLATION
Amrahova R.F.

***Key words**: translation, oral tranlation, orator vocabulary, translation shorthand, semantografic symbols.*

The name of the article is "The role of memory in oral translation". The oral translation is the translation of oral speech and is divided into two types: consecutive and simultaneous translation. The article explores the role of memory in oral translation. A writing sistem, which is the main atribute during the consecutive interpretation is investigated in this article. A writing sistem is considered as a memory aid. The purpose of this sistem is to mitigate the extreme working conditions of the interpreter. The article also explores the use of segmentation, transformation, compression and symbols.

ŞİFAHİ TƏRCÜMƏDƏ MƏTNİN İNFORMATİVLİYİ ANLAYIŞI

Mustafayeva M.M.
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
Mustafayeva1964@bk.ru

***Açar sözlər**: şifahi tərcümə, mətnin informativliyi, əsas informasiya, mətnin seqmentasiyası, kommunikativ proses, əlavə informasiya.*

Tərcümənin istənilən növündə nitq tərcüməçiyə və son adresata (son ünvana) mətn şəklində daxil olur. Kommunikativ proses zamanı tərcüməçiyə çatdırılan nitq ilkin (orijinal) mətndir. Tərcüməçidən final adresata, yəni son ünvana çatdırılan nitq isə tərcümə mətni adlanır. Mətnin həcmi bir neçə cümlədən ibarət ola bilər, lakin mətn bir neçə çap vərəqi həcmində də ola bilər.

Tərcüməçi fəaliyyətinin obyekti olaraq, mətn, onun mahiyyəti və xüsusiyyətləri tərcümə elminin araşdırdığı problemlər sırasındadır. O.S. Axmanovanın tərtib etdiyi lüğətdə mətn yazılı nitq əsəri ilə eyniləşdirilir.[1] Bəzən müəllif düşüncəsindən yaranan müəyyən söz yığınını da nitq əsəri adlandırmaq olar. Məhşur psixoloq N.İ.Jinkinin isə nöqteyi-nəzəri belədir: "Əgər cümlələrdən birində qoyulan suala digər cümlədə cavab yoxdursa, deməli, cümlələr arasında heç bir əlaqə yoxdur və bu cümlələr vahid mətn təşkil edə bilməz" [2.216].

Mətni səciyyələndirən tərifdə mətnin müxtəlif əlamətləri qeyd olunur: mənin nitq fəaliyyətinin (şifahi və yazılı) məhsulu olması, mətnin məntiqi ardıcılığı və bütövlüyü. Bütövlük anlayışı müxtəlif cür başa düşülə bilər. Bir-biri ilə əlaqəli olmayan, lakin vahid təyinata cavab verən nitq əsəri də mətn sayıla bilər. Buna misal olaraq tapşırıq və çalışmaları göstərmək olar. Bu cəhətdən nitqdə "danışıq mətni", "çalışma mətni", "rol mətni" (aktyorlarda), "lüğət mətni" kimi ifadələr işlənir.

Digər bir alim V.A.Zvegintsev məntiqi ardıcıllıqla birləşən, məzmun və məna bütövlüyü yaradan cümlələrdən ibarət nitq əsərini diskurs adlandırır[3]. Mətnin əsas tərifini və təyinatını müəyyən etdikdən sonra onun digər xüsusiyyətlərini öyrənmək tərcüməçi üçün vacibdir. Bu xüsusiyyətlərə mətnin leksik tərkibi, istifadə olunan nitq vasitələri, sintaksisi, üslubu və s. aiddir. Dil nöqteyi nəzərindən sadalanan xüsusiyyətlər mətnlərin əsasını təşkil edir. Tərcümənin ümumi nəzəriyyəsi baxımından isə əhəmiyyətli olan mətnin universal xüsusiyyətləri, ilk növbədə, mətnin məzmunu və bu məzmunda toplanan informasiyadır. Bu xüsusiyyətləri mətnlərin informativliyi adlandırmaq olar.

Qeyd edildiyi kimi, mətn nitq fəaliyyətinin məhsuludur. Natiq öz nitqini səsləndirməzdən əvvəl fikirlərini cəmləşdirir, daha sonra isə bu fikirləri nitq vahidlərinə çevirir və mətn yaradır. Bu zaman mətndəki informasiya müxtəlif fikirləri əks etdirən nitq parçalarının informativlik dərəcəsi də müxtəlif olacaq. Yəni çatdırılan məlumatda əsas, ikinci dərəcəli və izafi informasiya ayrılır. Onların bir hissəsi olduqca vacib informasiya, digərləri ikinci dərəcəli və ya izafi informasiya daşıyır.

Aydındır ki, fikrin ifadə edilməsi müxtəlif sayda sözlərin iştirak etməsini tələb edir. Fikrin çatdırılması üçün istifadə olunan sözlərin miqdarı müəyyən amillərdən asılıdır:

- dilin mövcud qrammatik qaydalarından
- ünsiyyət prosesinin məqsəd və tapşırıqlarından
- mənbə dilinin müvafiq leksikasından
- mənbə dilində nitq təcrübəsindən
- adresatın məlumatlılıq səviyyəsindən
- məlumatın əhəmiyyətindən

Məlumat nə qədər dəyərli və əhəmiyyətli olarsa, onun çatdırılması üçün lazım olan sözlərin sayı bir o qədər çox olacaqdır. Bu halı dildə "izafilik' və ya "dilin izafiliyi" termini ilə adlandırmaq olar. Dilin izafiliyi fikrin çatdırılmasında istifadə edilən leksik vahidlərin, semantik informasiyanın bu və ya digər şəkildə təkrarlanması nəticəsində yaranır. Dilin izafiliyi müvafiq olaraq nitqin izafiliyini yaratmış olur. İzafi nitqdə isə izafi informasiyanın olması qaçılmazdır.

Dilin izafiliyi haqqında elmi müddəaları ilk dəfə K. Şennon irəli sürmüşdür [5]. Tədqiqatçılar F.C. Frik və V.H. Sambi dildə izafilik dərəcəsini tədqiq edərək belə qənaətə gəlmişlər ki, təyyarə pilotları arasında radio danışıqları zamanı izafilik səviyyəsi çox da böyük olmayan hədd arasında dəyişir və 96 faiz təşkil edir[6]. O.S. Axmanovaya görə müxtəlif dillərin izafilik səviyyəsi 60-70% təşkil edir. O qeyd edir ki, bu halı dillərin universal cəhəti kimi qəbul etmək olar[1].

Ehtimal proqnozlaşdırma mexanizminin müəllifi Q.V.Çernov qeyd edir ki, məntiqi əlaqə və ardıcıllıqla biri digərini əvəz edən leksik vahidlərin situasiyadan asılı olaraq təbii şəkildə təkrarlanması baş verir və müvafiq olaraq, artıq məlum olan informasiya təkrar şəkildə səslənir. Bu informasiyanı izafi informasiya adlandırmaq qəbul olunmuşdur. Əslində, sinxron tərcümədə müəyyən izafilik səviyyəsi lazımdır, xüsusən də poetik əsərlərdə sinxron tərcümənin mümkünsüzlüyünü anlamaq üçün bu, yaxşı bir eksperiment ola bilər.[4]

Diqqət yetirdiyimiz bütün bu məqamları təhlil edərək belə qənaətə gəlmək olar ki, mətnin informativliyini, yəni mətnin özündə nə qədər və hansı informasiyaları cəmləşdirdiyini müəyyən etmək üçün mətni məna əlamətlərinə görə nitq parçalarına ayırmaq lazımdır.

İstənilən mətn özündə bir neçə fikir bildirən nitq ifadələrini cəmləşdirir. Bu baxımdan mətnin strukturu sanki kvantlar şəklində insanın düşüncələrini ifadə edir, sözlər, daha sonra cümlələr biri digərini əvəz edir.

Mətndən ayrılan hər bir nitq parçası - bunu kvantlar da adlandırmaq olar - özündə müəyyən informasiya daşıyır və biz onu informasiya kvantları adlandıra bilərik. Burada bütün informasiya kvantlarını bir cümlədə birləşdirən feil əlaqəsidir. Məsələn:

Bu cümlədə hər bir informasiya kvantı müstəqil nitq seqmentini təşkil edir. İnformasiyanın seqmentlərə bölünməsi müəyyən qanunauyğunluğa əsaslanır. İnformasiyanın seqmentləşdirilməsi nitq zəncirinin qırılmaması prinsipi üzrə terinə yetirilir. Lakin bəzi hallarda bu prinsipin pozulması halları da baş verir. Belə vəziyyət əsasən ara sözlərin, ara cümlələrin nitq zəncirini qıraraq məna bütövlüyünü parçaladığı zaman yaranır.

Cümlənin sintaktik tərkibini təşkil edən mübtəda və mübtəda qrupu, xəbər və xəbər qrupu hər bir halda müstəqil seqmentlərdir. Həmçinin feli sifət və feli bağlama tərkibləri müstəqil seqment hüququna malikdirlər.

Nitq seqmentlərinin və ümumiyyətlə, seqmentləşdirilmə prosesinin təhlili göstərir ki, onların əksəriyyəti özündə bizi əhatə edən gerçək proses və ya hər hansı obyekt haqqında informasiya daşıyır. Daha dəqiq desək, hər bir seqment yalnız bir informasiya kvantına malikdir. Lakin bu o demək deyil ki, bu seqmentlərdə ancaq əsas informasiya toplanmışdır. Nitq seqmentlərinin müəyyən hissəsi izafi ola bilər. İzafilik artdıqca mətnin informativliyi azalır.

Beləliklə, mətnin seqmentləşdirilməsinin əhəmiyyəti ondan ibarətdir ki, bu proses mətnin informativliyini müəyyən etməyə, mətndə əsasən informasiyanı dəqiqləşdirməyə yönəldilmişdir ki, bu da tərcüməçinin yaddaşına düşən yükü azaltmağa, tərcümə prosesini asanlaşdırmağa zəmin yaradır. Bununla yanaşı, tərcüməçi bu mexanizmə söykənərək və qeydgötürmə texnikasından istifadə edərək məna yükü daha böyük olan leksik vahidlərin seçilməsinə nail olur və bunu böyük peşəkarlıqla həyata keçirir.

Sözlərin müxtəlif məna yükünə malik olması barədə tədqiqatçılar bir çox fikirlər söyləmişlər. N.İ.Jinkin bu barədə yazırdı: "Tamamilə aydındır ki, cümlədə müxtəlif sözlər müxtəlif məna yükünə malikdir. Sözlər təkcə müxtəlif nitq hissələrinə (əsas və ya köməkçi), və ya cümlənin müxtəlif üzvlərinə aid olmaqla bir-birindən fərqlənmir, onlar verilmiş mətndə hər biri özünə aid olan məna yükünü daşımaqla fərqlənir" [2.197]

Ünsiyyət prosesində biz sözləri mənasına görə bir-birindən ayıra bilirik. Şifahi tərcümə zamanı tərcüməçi məhz daha çox əsas məna yükü olan sözləri seçərək yaddaşında saxlamağa çalışır. Sözsüz ki, bu zaman informasiya itkisi baş verir və bu adi haldır. Çünki, adətən, itki izafi və ya ikinci dərəcəli informasiya ilə bağlıdır və tərcümənin əsas məqsədinə - məlumatın ötürülməsinə heç bir halda mane olmur.

İstənilən mətndə əsas məna yükü daşıyan leksik vahidlər ilə yanaşı əlavə informasiya daşıyan sözləri də ayırmaq lazım gəlir. Bu zaman dəqiqləşdirici informasiyanı əlavə informasiya ilə qarışdırmaq olmaz. Əgər əlavə informasiya, bir qayda olaraq, şəraitlə, vəziyyətlə yaxşı tanış olmayan, məlumatsız resipientin deyilənləri anlaması üçün faydalı olursa, dəqiqləşdirici məna daşıyan leksik vahidlər resipientə heç bir yeni məlumat çatdırmır. Çünki, mətnin bu leksik vahidlər artıq məlum olanlara, sadəcə, dəqiqlik gətirir.

Mətndə rast gəlinən daha bir informasiya təkrarlanan informasiyadır. Bu və ya digər hallarda mətnin leksik vahidləri eyni informasiyanı təkrarlaya bilər. İnformasiyanın təkrarlanması natiqlərin öz çıxışlarında geniş istifadə etdikləri üsuldur. Nəhayət, hər bir mətndə heç bir semantik mənası olmayan sözlər vardır ki, onları neytral və ya "boş" sözlər adlandırırlar. Belə sözlərə "parazit" sözləri də aid etmək olar. Məsələn: "bax", "belə deyək", "bilirsinizmi", "yəni", "hər halda", deyək ki" və s. Bir çox hallarda bu, natiqin zəif nitq mədəniyyətinə malik olması ilə izah olunur. Lakin bu sözlərdən istifadə etmək həmişə belə nəticəyə gəlmək üçün əsas deyil. Müəyyən məqamlarda - vaxt udmaq, lazımi ifadəni tapmaq, fikirlərini toplamaq üçün natiq bu söz və ifadələrdən məharətlə istifadə etməklə vəziyyətdən çıxış yolu tapa bilər.

Buradan belə nəticəyə gəlmək olar ki, mətn sadəcə hərf və səsdən ibarət dil işarələrinin ardıcıllığı deyil. Mətn, eyni zamanda, müxtəlif məna yüklü informasiyaları özündə daşıyan dil vahidləri sistemidir. Kommunikativliyin əhəmiyyəti nöqteyi-nəzərindən mətni təşkil edən informasiyaları aşağıdakı qaydada bölmək olar:

• əsas informasiya, unikal informasiya
• əlavə informasiya
• dəqiqləşdirici informasiya
• təkrarlanan informasiya
• sıfır informasiya

Mətni seqmentlərə bölərkən hər bir seqment bu informasiyalardan birini özündə daşıya bilər. Nitqdə olan seqmentlərin sayına əsasən və əsas informasiyanı ayırmaqla mətnin informativliyi haqqında fikir söyləmək olar. Yuxarıda nəzərdən keçirdiyimiz nümunəyə əsasən mətnin informativlik səviyyəsini müəyyən etmək olar.

Beləliklə, mətnin informativlik dərəcəsini müəyyən etmək üçün aşağıdakı əməliyyatlardan ibarət bir metodikanı tətbiq etmək məqsədəuyğundur.

1.Mətnin nitq seqmentlərinə bölünməsi

2.Təhlil edilən mətndə ümumilikdə məna seqmentlərinin sayının müəyyən edilməsi

3.Hər bir nitq seqmentində olan informasiyanın kommunikativ əhəmiyyətini müəyyən etmək. Bu zaman, bir qayda olaraq, hər seqmentin özündə bir informasiya daşıması və bu informasiyaların unikal və ikincidərəcəli olması şərtini nəzərdən qaçırmaq olmaz.

4. Unikal (əsas) və ikincidərəcəli informasiya daşıyan seqmentlərin sayının hesablanması.

5. Mətnin şərti olaraq informativlik dəyərinin (koeffisient) hesablanması. Bu məqsədlə əsas informasiya daşıyan seqmentlərin sayı mətndəki ümumi nitq seqmentlərinin sayına bölünür.

Mətn üzərində aparılan təhlil bunu deməyə əsas verir ki, bütün mətnlər özündə həm unikal, həm də digər informasiya növlərini daşıyır. Əsas (unikal) informasiya daşıyan seqmentlər digər informasiya (əlavə, dəqiqləşdirici, təkrar, sıfır) seqmentləri ilə bir-birini əvəz edir. Təhlil göstərir ki, unikal informasiya daşıyan cümlələr, əsas etibarilə, mətnin əvvəlində, ikincidərəcəli informasiya daşıyan cümlələr isə mətnin ortasında və sonunda rast gəlinir. Nəzərdən keçirdiyimiz mətnlərin informativliyi və seqmentləşdirilməsi mövzusu tərcüməçinin fəaliyyətində çox vacib mərhələlərdən biridir və tərcüməçinin mənimsəməli olduğu bacarıq və vərdişlər sırasındadır. Qeyd edilən məqamları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, hər bir mətn bir vacib, unikal informasiya və bir neçə ikinci dərəcəli informasiya daşıyan nitq vahidlərinə malikdir. İnformasiyanın hansının əhəmiyyətli və vacib olması bu nitq vahidlərinin vahid sistemi fonunda təyin oluna bilər. Mətn daxilində informasiyanın bölüşdürülməsi müəyyən qanunauyğunluq daxilində yerinə yetirilir. Bu qanunauyğunluğa əsasən, əsas informasiyanın mətnin əvvəlində, digər informasiyaların isə bir birini əvəz etməklə daha sonra yerləşdirilməsi ardıcılığına tabe olmaq şərtdir. Bununla yanaşı, mətnin informativliyinin müəyyən edilməsi adresatla da bir başa bağlıdır.

Ədəbiyyat

1. Ахманова. О.С. Словарь лингвистических терминов. М., 1966.
2. Жинкин Н.И. Развитие письменной речи учащихся. «Известия АПН РСФСР», вып. 78, 1956.
3. Звегинцев В.А. Предложение и его отношенние к языку и речи. М., 1976.
4. Зимняя И.А., Чернов Г.В. Вероятность прогнозирования в процессе синхронного перевода. – В кн.: Психолингвистика в СССР.М., 1974.
5. Шеннон К. Математическая теория сообщений. – В кн.:Теория передачи электрических сигналов при наличии помех. М.,1953.
6. Frick F.C., Sumby W.H. Control Tower Language.Journ, Acoust. Soc.Am., N24,1952

РЕЗЮМЕ
ПОНЯТИЕ ИНФОРМАТИВНОСТИ ТЕКСТА В УСТНОМ ПЕРЕВОДЕ
Мустафаева М.М.

***Ключевые слова**: устный перевод, информативность текста, ключевая информация, сегментация текста, коммуникативный процес, дополнительная информация*

Данная статья посвящена одной из актуальных проблем переводческой деятельности – устному переводу. В ней рассматриваются вопросы перевода, изучающие закономерности передачи информации при устном переводе. Текст может иметь различную информативность и в зависимости от коммуникативной ценности сообщения дифференцируется как ключевая, дополнительная, уточняющая, повторная и нулевая информация. В любом тексте имеется доминирующая информация. Рассмотренные в статье проблемы информативности текстов, составляет важный этап деятельности переводчика, от которого требуется умение выделять ключевую информацию при устном переводе.

SUMMARY
THE CONCEPT OF INFORMATIVENESS OF THE TEXT IN ORAL TRANSLATION
Mustafayeva M.M.

***Key words**: interpreting, informative content of the text, key information, text segmentation, communicative process, additional information.*

This article is dedicated to one of the actual problems of translation activity – interpretation. In this article are considered issues of translation, which study the patterns of information transfer during oral translation. The text can have different informativeness and depending on the communicative value of the message, it is differentiated as key, additional, clarifying, repeated and zero information. In any text there is dominant information. The problems of information content of texts considered in the article constitute an important stage in the activity of an interpreter, which requires the ability to highlight key information in interpreting.

AZƏRBAYCAN DİLİNİN ƏN MƏHSULDAR İKİHECALI FONETİK STRUKTUR NÖVLƏRİ

Rahtari M.F.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
arifmeryem@mail.ru

***Açar sözlər**: Azərbaycan dili, fonetika, məhsuldar, ikihecalı, növ*

Azərbaycan dilinin orfoqrafiya lüğətində yer almış sözlər içərisindən seçilmiş ikihecalı leksik vahidlər linqvo-didaktik metodla fonetik tədqiqata cəlb olunmuşdur. Tədqiqat nəticəsi olaraq müəyyən edilmişdir ki, **CVCCVC** heca quruluşuna malik olan sözlər dilimizdə digər fonetik quruluşlara nisbətən çoxluq təşkil edir. Dilimizin damaq ahəngi baxımından bu sözlər iki yerə bölünür: ***tattat*** və bu növün incə ekvivalenti olan ***t´it´t´it´*** (Daha ətraflı Cədvəl).

1. Qalın sait və dilarxası qalın samit səsbirləşməsindən əmələ gələn eynicinsli harmonik birləşmələr, yəni, sinharmonik sözlər S2.1 tipini formalaşdırır. Bu tipin ən məhsuldar fonetik struktur növü isə ***tattat*** quruluşudur. Burada olan ***t*** dilarxası qalın samit səsi, ***a*** isə qalın sait səsi simvolizə edir. Bu fonetik quruluş Azərbaycan dilində 1271 söz ilə reallaşır və bununla da ikihecalı sözlər içində ən məhsuldar növ kimi seçilir. Bu leksik vahidlərdən bir neçəsinə nəzər salaq: *quyruq, bayraq, doqquz, saqqız, saqqal, baqqal, caynaq, dırnaq, doxsan, çatlaq, futbol, satmaq, daşqın, danlaq, qaynar, qaymaq və s.*

2. İncə sait və dilönü incə samit səslərin birləşməsindən formalaşan eynicinsli sinharmonik sözlər. Bu sözlərin fonetik işarəsi ***t´it´t´it´*** şəklindədir və onlar S2.2 tipini formalaşdırırlar. İşarədə olan ***t´*** dilönü incə samiti, ***i*** isə incə saiti simvolizə edir. Azərbaycan dilinin orfoqrafiya lüğətindən 1117 belə söz müəyyən edilmişdir. Bu fonetik struktur növ məhsuldarlıq qabiliyyətinə görə ikihecalı sözlər içində ikinci məhsuldar növ kimi seçilir. Bu leksik vahidlərdən bir neçəsinə nəzər yetirək: *məktəb, birçək, məslək, kəsmik, cədvəl, məqsəd, səksən, dəllək, güllük, səkkiz, diqqət, çəp-çəp, bitkin, zəngin, qəflət, tənbəl, zənbil, vergül, gülşən, çövkən, küncüd, çəllək, cismən, qəmgin, sünbül, getmək və s.*

Cədvəl.

Azərbaycan dilinin ən məhsuldar ikihecalı fonetik struktur növləri

№	Tip	Növ	Söz sayı	Nümunə
1	**S2.1**	**tattat**	**1271**	qaynaq, doqquz, qaymaq
2	**S2.2**	**t´it´t´it´**	**1117**	vergül, küncüd, gizlin

Beləliklə, CVCCVC heca quruluşunun qalın və incə ekvivalentləri olan **tattat** və **t´it´t´it´** Azərbaycan dilinin ikihecalı sözləri içində məhsuldarlıq qabiliyyəti ən yüksək olan fonetik struktur növlərdir.

Ədəbiyyat

1. Мамедов Р.С. Вокально - консонантная синтагматика в русском и азер-байджанском языках (контрастивно - типологическое системное исследова-ние), Баку, Мутарджим, 2006, 308 с.
2. Мамедов Р.С. Фонетическая структура слова русского и азербайджан-ского языков (контрастивно - типологическое системное исследование), Баку, Мутарджим, 2007,240 с.
3. Rahtari M.F. Azərbaycan dilində ikihecalı sinharmonik sözlərin fonetik strukturu, Sumqayıt Dövlət Universiteti, "Elmi xəbərlər" jurnalı, Sosial və humani-tar elmlər bölməsi, cild 15, 2019, № 4, s.12-18.

РЕЗЮМЕ
НАИБОЛЕЕ ПРОДУКТИВНЫЕ ДВУСЛОЖНЫЕ ФОНЕТИЧЕСКИЕ СТРУКТУРНЫЕ ТИПЫ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА
Рахтари М.Ф.

Ключевые слова: *Азербайджанский язык, фонетика, продуктивность, двусложное слово, виды*.

Статья содержит результаты двусложной лексики, отобранной из орфографического словаря азербайджанского языка. Фонетические структурные типы, представленные в статье, являются типами с наибольшей продуктивностью. В статье дан фонетический анализ структурных типов, отмечены и разъяснены эти их признаки, приведены примеры каждого. Здесь также представлена таблица, показывающая окончательные фонетические результаты.

SUMMARY
THE MOST PRODUCTIVE TYPES OF DİSYLLABİC PHONETIC STRUCTURES OF THE AZERBAIJANI LANGUAGE
Rahtari M.F.

Key words: *Azerbaijani language, phonetics, productive, disyllabic words, species/*

The article contains the final results of the two-syllable lexicon selected from the spelling dictionary of the Azerbaijani language . The phonetic structural types presented here are the types with the highest productivity. The phonetic analysis of structural types, their signs are given in the article, these signs are explained and clarified, and examples of each are selected. A table showing the final results is also presented here.

VII BÖLMƏ

XARİCİ DİL

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNGİLİS DİLİ TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

Nəcəfova Ş.Y.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
shafiganajafova55@mail.ru

Açar sözlər: *İngilis dili, beynəlxalq dil, aktuallıq, problem, tədris*

İngilis dilinin öyrənilməsi hər bir ölkə üçün vacib və əhmiyyətlidir. Artıq bütün dünya miqyasında beynəlxalq dilə çevrilən ingilis dili həyatımızın mühüm hissəsini aktiv səviyyədə təşkil edir. D.Veysalova yazır ki, "... Fundamental dilə ingilis, alman, fransız, rus, fars, ərəb, türk dillərini aid etmək olar. Ancaq son illərdə qloballaşma şəraitində ingilis dili daha aparıcı dil hesab edilir" [1, s.265].

İngilis dilinin ali təhsil müəssisələrində tədrisinin aktual problemlərini klassifikasiya olaraq təqdim etmək bu dilin əhəmiyyətini daha dəqiqliklə nəzərə çatdıra bilər:

1. Hər zaman ikinci dilin öyrənilməsi vacibdir və mənəvi-psixoloji, ictimai-sosial üstünlüyü vardır;
2. İngilis dili beynəlxalq dil kimi əhəmiyyətlidir;
3. İngilis dili dünyaya çıxışı təmin edən əsas dildir;
4. İngilis dili kommunakativ-texnoloji dil olaraq əsas üstünlüyə malikdir;
5. İngilis dilinin milli inkişafda rolu əhəmiyyətlidir;
6. İngilis dili tərcüməşünaslıqda mühüm sahə təşkil edir;
7. Ölkə turizminin inkişafında ingilis dilinin rolu.

İctimai-nəzəri baxımdan dilin aktual problemlərini araşdırmaq çox mühüm prossesual addımdır. Çünki bir dilin cəmiyyətin həyatında mühüm faktor təşkil etməsinin öyrənilməsi təbliğat-təşviqat baxımından gərəkli olmaqla bərabər, əsas üstünlüklərinin müəyyən olunması üçün aktual problemlərinin diqqətə çatdırılması da çox vacibdir.

İkinci dilin öyrənilməsinin mənəvi-psixoloji, ictimai-sosial üstünlüyü;

Məlumdur ki, bir ölkənin toplumu öncə ana dilini mükəmməl səviyyədə bilməlidir. Bu milli özünüdərkdir, yaşadığı ölkəyə vətəndaş borcudur. Buna görə də bu kontekstdə ingilis dili ikinci dil hesab olunur. Ancaq bu dilin öyrənilməsi də vacib və zəruridir. Bu həm də ondan irəli gəlir ki, bu problemin həlli qeyd etdiyimiz kimi mənəvi-psixoloji və ictimai-sosial baxımdan gərəklidir. Təsəvvür edin ki, irəlidə də bəhs edəcəyimiz kimi toplum öz vacib problemlərini dünyaya çatdırmaq üçün mühüm vasitəyə ehtiyac hiss edir. Əgər bu vasitə imkanı zəifdirsə, özünü ifadə edə bilmir, milli vəzifələrini təbliğ etməkdə çətinlik çəkir. Bu da o toplumun mənəvi-psixoloji və ictimai-sosial, eyni zamanda siyasi baxımdan qapalı aurada qalmasına səbəb olur. Aydındır ki, bu vasitə dünyada geniş yayılan ingilis dilidir. Buna görə də ikinci dilin öyrənilməsi çox zəruri və əhəmiyyətlidir.

İngilis dilinin bu baxımdan öncə iki kontekstdə diqqətə alınması vacibliyi meydana çıxır:

1. İngiis dilinin mənəvi-psixoloji inkişafda rolu;

Məlumdur ki, ingilis dili yalnız bizim ölkəmizdə deyil, eyni zamanda bütün dünyada yayılmış ümumişlək faktor daşıyan dildir. Bu mənada bu dil yalnız ingilislərin deyil, bütün dünya xalqlarının vahid dili kimi dünya dilinə çevrilmişdir. Təsəvvür edin ki, ölkəmizdə türk xalqlarının xaricində hansısa xarici ölkə nümayəndəsi ilə ünsiyyət qurmağa çalışdıqda əsas vasitə olaraq ingilis dilində danışa bilmək ehtiyacı meydana çıxır. Əks təqdirdə ciddi mənəvi-psixoloji deqredasiya meydana gəlir, müxtəlif mənəvi-sosial çətinlik ortaya çıxır. Jest və mimika məcburiyyəti ilə danışıq dili formalaşdırmaq mühüm psixoloji gərginliyə gətirib çıxarır. Əlbəttə, bu da fərddə natamamlıq kompleksi yarada bilir. Buna görə də mövcud reallığı nəzərə almaq, ana dilinə və milli dəyərlərə etinasız qalmamaq şərtilə ingilis dilinin də öyrənilməsinə diqqət ayırmağın vacibliyini meydana çıxarır. Türkiyədə ümumiyyətlə bu situativliyi izah edən məşhur bir deyim də mövcuddur: "Bir lisan-bir insan, iki lisan-iki insan", "İki dil bilen bir insan, aslında iki insandır. Üç dil bilen bir insan, aslında üç insan, dört dil bilen ise, aslında dört insandır" [2, s.1524; 3, s.22] və s.

2. İngilis dilinin ictimai-sosial inkişafda rolu;

Bu iddia bəlkə də qəribə görünəcək, ancaq ingilis dilinin ictimai-sosial inkişafda mühüm rolu vardır. Bu antimilli düşüncə daşımaq mənasına gəlmir. Əksinə ictimai-sosial həyatda bu dilin vacibliyi daha sonra qeyd edəcəyimiz kimi milli inkişafa da təkan verir. Sosial sfera müxtəlif təbəqələrdən ibarətdir. Burada Azərbaycan ərazisində yaşayan müxtəlif xalqların etnokulturoloji problemləri ilk olaraq diqqətə alınır. Unutmaq lazım deyil ki, Azərbaycan tolerantlığı əsas götürən, müxtəlif inanclı xalqların birgə yaşaya bildiyi, eyni zamanda multidissiplinarlığı ümumi mədəniyyətə çevirmiş sivil ölkədir [4, s.8].

Bu baxımdan bütün xalqların Azərbaycanda yaşam özgürlüyü və mədəni dəyərlərini qanunlar çərçivəsində təbliğ etmək imkanı vardır. Buna görə də ingilis dili aktiv səviyyədə bu təbliğatın dünyaya yayılmasında mühüm rol oynayır. Bu qeyd etdiyimiz kimi sosial ədalətin bərpasını, ictimai dəyərlərin inkişafını reallaşdırır.

İngilis dilinin beynəlxalq dil kimi əhəmiyyəti;

Biz bu barədə qismən bəhs etdik. Ancaq ingilis dilinin beynəlxalq dil olaraq aktiv faktora çevrilməsini bir qədər ətraflı izah etməyə ehtiyac hiss olunur. Nə üçün yuxarıda bəhs açdığımız kimi, ikinci dilin öyrənilməsində ingilis dili nəzərdə tutulur? Ölkəmizdə yalnız ingilis dili deyil, ikinci dil kimi alman, fransız, rus, fars, ərəb və s. dillər də universitet, institut, hətta orta təhsil müəssisələrində tədris olunur. Bunun səbəbi odur ki, ingilis dili beynəlxalq dildir, demək olar ki, bütün dünya ölkələrində bu dil işləkdir. Hətta esperanto kimi süni dillər də [5, s.347, 369; 6, s.3-314] ingilis dili qədər beynəlxalq səviyyədə aktiv funksiyada iştirak edə bilmir. Bu baxımdan ingilis dilinin beynəlxalq əhəmiyyəti üç kontekstdə öyrənilməlidir:

1. Lokal səviyyə (məhdud əhatə);
2. Regional səviyyə (orta əhatə);
3. Qlobal səviyyə (geniş əhatə).

İngilis dilinin **lokal səviyyədə** beynəlxalq dil kimi nəzəri inkişafı kənd, qəsəbə, rayon, şəhər tədris müəssisələrində fənn və kurs kimi öyrənilməsini nəzərdə tutur. Praktiki baxımdan isə turist gəzintilərinin ünsiyyət səviyyəsində problemlərini həll edir. Konkret olaraq, ölkəmizdə turistlərin sıx yerləşdiyi məkanlarda, xüsusilə İçərişəhər abidələrinin ziyarət olunması və öyrənilməsi baxımından ingilis dili çox əhəmiyyətlidir.

İngilis dilinin **regional səviyyədə** öyrənilməsi isə daha geniş əhatəni özündə ehtiva edir. Regionlarda bu dildən istifadə əsas etibarilə bu ərazilərdə keçirilən geniş tədbirlər, konfranslar, simpoziumlar və bu kimi yığıncaqlarda daha çox əhəmiyyət daşıyır. Çünki bu ərazilərin elmi cəhətdən öyrənilməsi vacibdir. Bunun üçün dünya xalqlarının bu istiqamətdə elmi-mədəni fəaliyyəti və inteqrasiyası ingilis dilinin beynəlxalq dil kimi aktivliyini artırır.

İngilis dilinin beynəlxalq dil olaraq qlobal səviyyədə öyrənilməsi isə iki əsas faktoru meydana çıxarır:

1. Qlobal səviyyə ölkə ərazisi kimi;
2. Qlobal səviyyə dünya ərazisini ifadə edən termin kimi.

Təbiidir ki, ölkə ərazisi yuxarıda qeyd etdiyimiz lokal və regional səviyyənin daha geniş qavramı olaraq iştirak edir. Əlbəttə qlobal sözünün qarşılığı dünyəvi anlayışdır. Bu baxımdan yuxarıda qeyd etdiyimiz klassifikasiyanı bu şəkildə də adlandırmaq olar:

1. Yerli;
2. Məhəlli;
3. Dünyəvi.

Ancaq qeyd etməliyik ki, ölkə ərazisi şərti olaraq qlobal, yaxud dünyəvi anlayışın qarşılığı olaraq götürülür. Bu qavramı "national" və yaxud "milli" də adlandırmaq mümkündür. Burada məqsəd ingilis dilinin daha geniş əhatədə nəzəri-təcrübi baxımdan işarələnməsidir. Eyni proseslərin daha geniş əhatədə inkişafda olduğu buradan aydın olur.

İngilis dilinin qlobal səviyyədə iştirakı isə əvvəldə qeyd etdiyimiz kimi müasir reallıqdır. Bu reallıqdan hər bir sivil millət istifadə edərək öz problemlərini dünya miqyasında geniş səviyyədə qabarda bilir. Ölkənin elmi-ədəbi-mədəni irsi, iqtisadi fəaliyyəti, siyasi təşviqatı və təbliğatı məhz bu dil vasitəsilə həyata keçir.

İngilis dili dünyaya çıxışı təmin edən əsas dildir;

Biz, əslində, bu barədə qismən bəhs etdik. Ancaq mövzunun açılmasına daha geniş səviyyədə ehtiyac hiss olunur. Dünyaya özümüzü tanıtmaq, xüsusilə lobbiçilik fəaliyyəti, diaspora qurulması istiqamətində addımlar atmaq, eyni zamanda ən mühüm taleyüklü problemimiz olan Qarabağ probleminin daha aydın şəkildə dünyaya çıxışını təmin etmək üçün ingilis dilindən istifadə etməyi bacarmalıyıq. Son dövrdə isə sərhədlərin, xəritələrin geoqrafik və tarixi baxımdan təmin olunmasında da ingilis dilinə ehtiyac var. Çünki həyata keçirilən proseslər milli olmaqla bərabər, eyni zamanda beynəlxalq əhəmiyyət daşıyır.

Bunun üçün ingilis dilinin vacib faktor olması kifayət qədər aydındır. Çünki bu dil bizi dünyaya çıxaran əsas faktordur.

İngilis dili dünyaya çıxışı təmin etdiyi üçün bu dildən diaspora fəaliyyətində də geniş istifadə olunur. Xüsusilə Qərb ölkələrində geniş diasporamız mövcuddur ki, burada da daha geniş təşviqat və təbliğat baxımından ingilis dilinə ehtiyac hiss olunmaqdadır [6, s.37]. Xalqımızın elmi-ədəbi-mədəni irsinin yayılmasında və siyasi baxımdan müxtəlif xalqlarla inteqrasiyasında bu dildən istifadə etmək vacib stimul təşkil edir.

İngilis dili kommunikativ-texnoloji dil olaraq əsas üstünlüyə malikdir;

İngilis dili kibernetik və kommunikativ-texnoloji baxımdan da ciddi faktor olaraq çıxış edir. İnternetin daha geniş səviyyədə inkişafı əsas etibarilə ingilis dili ilə bağlıdır. İnternet resurslarının orijinaldan istifadəsi, müxtəlif sahələrin öyrənilməsi və s. canlı əlaqələrin qurulması, geniş proqramların həyatımızda tətbiqi ingilis dilini əsas beynəlxalq dil kimi aktiv səviyyədə meydana çıxarır. H.Quliyev bu barədə yazır: "Amerikan alimi Trevor Blank yazır ki, 1989-cu ildə ingilis kompüter alimi Tim Berners-Lee tərəfindən World Wide Web (Dünya Hörümçək Toru) yaradılmaqla İnternetin əsası qoyuldu. 1992-ci ildən etibarən isə Hyper Text Markup Language (HTML) və veb brauzer texnologiyaları hesabına İnternet spesifik akademik dairədən çıxaraq kütləvi istifadəyə verildi" [7, s.58].

Onu da qeyd etmək lazımdır ki, internetin, sosial medianın, internet proqramlarının aktiv və passiv yaddaşı məhz ingilis dilində yazılmışdır ki, bu dili öyrəndikdə texnoloji fəaliyyət daha da asan şəkildə həyata keçirilə bilir. Xüsusilə, kompüter cihazlarının qorunması, virus təhlükəsizliyinin bərpası və bu kimi amillər də əsas etibarilə ingilis dilində proqramlaşdırılmışdır. Təsadüfi deyil ki, "lektrotexnika və Elektronika Mühəndisləri İnstitutunun (IEEE) aparığı araşdırmaya görə, dünyada ən çox yayılmış 10 proqramlaşdırma dilinin 8-i ingilis dilinin bazasında yazılmışdır" [8, s.15].

Bir sözlə, ingiis dilini öyrənməyin vacibliyi həyatımızın müxtəlif sahələrində zəruri reallıq olaraq meydana çıxır.

İngilis dilinin milli inkişafda əhəmiyyətli rolu;

İlk baxışda doğrudan da qəribə görünə bilər. Xarici dil milli inkişafda necə əhəmiyyətli rol oynaya bilər? Məlumdur ki, milli inkişaf əsas dillə bağlıdır. Bəli, bu belədir. Ancaq ikinci dil beynəlxalq dil olduğu üçün bu dilin də milli dünyagörüşünün dünyaya yayılması üçün əhəmiyyəti əvvəldə də qeyd etdiyimiz kimi inkar olunmazdır. Milli kimliyimizin, taleyüklü problemlərin, ədəbi-mədəni irsin, gələcək üçün nəzərdə tutulmuş perspektivlərin, prioritet milli ideyaların, elm və təhsilin qabaqcıllıq təşkil etməsinin vasitəçi rolu olaraq ingilis dilini öyrənmək və öyrətmək çox gərəklidir. Unutmaq olmaz ki, əsrimiz texnologiya, kəşf və ixtiralar əsridir. Bu istiqamətdə bizim də sivil millət olaraq meydana çıxa bilməyimizdə, tərəqqinin artmasında ingilis dilinin rolu böyükdür. Buna görə də ingilis dilinin ali təhsil müəssisələrində aktuallığı hər zaman mövcuddur.

Qeyd etmək lazımdır ki, müasir dövrdə tələbələrimizin xaricdə təhsil alması, xüsusilə ingilis dilində tədris yolu seçməsi gələcəkdə milli inkişafımız üçün yaranan zəmindir. Bu baxımdan ingilis dilinə yalnız beynəlxalq dil kimi deyil, milli tərəqqimizin vasitəsi kimi baxmaq da məqsədəuyğundur. Bu antimillilik deyil, əksinə milli gələcəyin bünövrəsini qurmaq üçün mövcud faktordan istifadə etmək bacarığıdır.

İngilis dili tərcüməşünaslıqda mühüm sahə təşkil edir;

İngilis dili müxtəlif sahələrdə olduğu kimi tərcüməşünaslıqda da mühüm sahə təşkil edir. Təbiidir ki, bu kontekstdə ingilis dilindən Azərbaycan dilinə, Azərbaycan dilindən də ingilis dilinə ikinci, üçüncü dildən deyil, birbaşa orijinaldan tərcümə nəzərdə tutulur. Biz qeyd etdiyimiz kimi tərcümə vasitəsilə öncə ədəbi-bədii və mədəni nümunələrimizi ingilis dilinə tərcümə edərək bütün dünya ölkələrinə çatdıra bilərik. Eyni zamanda ingilis dilində olan müxtəlif elmi-bədii-mədəni nümunələri də Azərbaycan oxucusuna təqdim etmək imkanı qazanmış olarıq. Əlbəttə, bu sahədə geniş işlər görülür. Ancaq fikrimizcə, tərcüməçiliyin kifayət qədər inkişafı bütün dillərdə olan vacib əsərlərin dilimizə tərcümə olunmasıdır. Ancaq bu istiqamətdə daha geniş işlərin görülməsinə böyük ehtiyac vardır. Təsadüfi deyil ki, ingilisdilli qaynaqlarda tədqiq və tərcümə problemlərini araşdıran V.İbrahimova bu məsələ haqqında ciddi müddəa ortaya qoymuşdur. O, yazır: "Azərbaycanla Avropanın elmi-mədəni əlaqələrinin tarixi qədim olsa da, Azərbaycan ədəbiyyatının Avropada, ingilisdilli qaynaqlarda öyrənilməsinin tarixi nisbətən sonrakı dövrlərdə başlanmışdır [9, s.5, 6].

Təbiidir ki, əsərlər, nailiyyətlər yerində qalmır, yeniləri meydana çıxır, yeni kəşf və ixtiraların Azərbaycan oxucusuna daima çatdırılması üçün ingilis dilində tərcüməsi vacib faktorlardan biridir. Əgər gələcəkdə beynəlxalq dil funksiyasını ingilis dili deyil, başqa bir dil əvəz edərsə, o zaman bu vəzifə bitmiş hesab oluna bilər. Ancaq yaxın gələcəkdə bunun mümkünlüyü görünmür. Buna görə də ingilis dilindən tərcüməşünaslıqda da istifadə edə bilmək üçün bu dilin tədrisinin aktual problemlərindən biri məhz tərcüməşünaslıqda mövcud olan problemlərdir.

Ölkə turizminin inkişafında ingilis dilinin rolu.

Məlumdur ki, ölkə turizmi ölkənin milli-mədəni və maddi-iqtisadi inkişafında mühüm rol oynayır. Bu barədə İ.Hüseynov, N.Əfəndiyeva yazırlar ki, turizm müasir dünyanın qlobal əhəmiyyətə malik olan, sosial və iqtisadi əlaqələrini tənzimləyən, müxtəlif ölkələr və xalqlar arasında qarşılıqlı münasibətlər yaradan, biznes maraqlarının əhatə dairəsini genişləndirən sahədir [10, s.3].

İngilis dilinin turizmdə rolu danılmazdır. Ölkəmizə gələn xalqlar əsas etibarilə həm ölkə əhalisi, həmçinin bir-biri ilə əsasən ingilis dilində ünsiyyət qurur, inteqrativ münasibətlər ən çox bu dildə inkişaf edir.

Beləliklə, ingilis dilinin ali təhsil müəssisələrində tədrisinin bir çox aktual problemləri aşkara çıxır və bu dilin vacibliyini əsaslandırır. Son olaraq onu da qeyd etmək lazımdır ki, diqqət yetirdiyimiz problemlər, əslində, bir-biriylə əlaqəlidir ki, bu da ingilis dilinin beynəlxalq dilə çevrilməsindən irəli gəlir.

Ədəbiyyat

1. Veysalova D. Xarici dil dərslərində dilçiliyin başqa elmlərlə əlaqəsinə dair / "Xarici dillərin tədrisinin aktual problemləri" mövzusunda Respublika elmi-praktiki konfransının tezisləri (11-12 may, 2017-ci il). Bakı: Mütərcim, 2017.
2. İlhan N. Toplumsal ve ferdi düşüncenin dile yansımaları (dil-düşünce ilişkisi) / Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 7/3, Summer 2012, p. 1517-1525, Ankara-Turkey.
3. Yolcu M. Yabancı dil öğrenimi / Dinbilimleri Akademik Araştırma Dergisi II (2002), Sayı: 3, s. 19-73
4. Xavəri S., Quliyev H., Qarayev S. Folklorun funksional strukturu: Multidissiplinar kontekst. Bakı: Elm və Təhsil, 2016.
5. Qurbanov A. Ümumi dilçilik. III cilddə, III cild. Bakı, 2019.
6. Əliyev Z. Beynəlxalq münasibətlərdə diasporların rolu. Bakı: Nurlan, 2001.
7. Quliyev H. Folklor və internet: problemin nəzəri-metodoloji aspektləri / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər / 2 (51). Bakı: Elm və Təhsil, 2017, s. 55-64
8. Əliquliyev R.M., Mahmudov R.Ş. Dil sənayesi: imkanlar, perspektivlər və problemlər / İnformasiya cəmiyyəti problemləri, 2018, №1, 3-26
9. İbrahimova V. Azərbaycan folklorunun ingilisdilli qaynaqlarda tədqiqi və tərcümə məsələləri. Bakı: Şəms, 2010.
10. Hüseynov İ, Əfəndiyeva N. Turizmin əsasları. Dərslik. Bakı: "Mars-Print" nəşriyyat-poliqrafiya müəssisəsi, 2007.

РЕЗЮМЕ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА В ВУЗАХ

Наджафова Ш.Ю.

Ключевые слова: *английский язык, международный язык, актуальность, проблема, обучение.*

Изучение английского языка важно для каждой страны. Английский язык, который уже стал международным языком во всем мире, является важной частью нашей жизни на активном уровне. Изучение иностранных языков всегда важно и имеет морально-психологическую, социальную пользу. Английский важен как международный язык и является основным языком, обеспечивающим доступ к миру. Английский как коммуникативно-технологический язык имеет главное преимущество с кибернетической точки зрения. Как известно, роль английского языка в национальном развитии велика и важна для решения бытовых проблем.

Английский язык также является важной областью переводоведения, в этом аспекте преподавание английского языка очень актуально.

SUMMARY

ACTUAL PROBLEMS OF TEACHING ENGLISH IN HIGHER EDUCATION INSTITUTIONS

Najafova Sh.Y.

Keywords: *English language, international language, urgency, problem, teaching*

Learning English is important for every country. English, which has already become an international language all over the world, is an important part of our life at an active level. Studying foreign languages is important and has a moral-psychological, social advantage. English is important as an international language and is the main language that provides access to the world. English as a communicative-technological language has the main advantage from a cybernetic point of view. As it is known, the role of English in national development is important and at the same time it is important for the promotion of domestic problems.

The English language is also an important area in translation-study, in this regard, the teaching of the English language is urgent.

İNGİLİS DİLİNDƏ FRAZEOLOGİZMLƏRİN TİPOLOGİYASI

Kərimova D.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
dilara_14@inbox.ru

Açar sözlər: *ingilis dili, frazeoloji birləşmələr, qrammatika, tərcümə, məcazi məna*

İngilis dilinin minillik tarixi var. Bu müddət ərzində insanların tapdıqları çoxlu sayda uğurlu, məqsədyönlü və gözəl ifadələr toplandı. Beləliklə, dilin xüsusi təbəqəsi - frazeologiya, müstəqil məna kəsb edən ifadələr toplusu yarandı.

Ölkəmizdə ingilis dilinin öyrənilməsi geniş yayılıb. Dili, o cümlədən ingilis dilini yaxşı bilmək onun frazeologiyasını bilmədən mümkün deyil. Frazeologiyanı bilmək həm qeyri-bədii, həm də bədii ədəbiyyatın oxunmasını xeyli asanlaşdırır. Frazeoloji vahidlərin əsaslı istifadəsi nitqi daha ifadəli edir.

Hərfi tərcümə olunmayan, lakin yenidən düşünülmüş şəkildə qəbul edilən frazeoloji ifadələrin köməyi ilə dilin estetik cəhəti yüksəlir. "Müxtəlif rəng çalarlarının köməyi ilə olduğu kimi, idiomların köməyi ilə də dilin informasiya tərəfi dünyamızın, həyatımızın həssas-intuitiv təsviri ilə tamamlanır" [2, s. 140].

Bildiyiniz kimi, frazeoloji vahidlər məcazi mənada işlənən sözlərin sərbəst birləşməsindən yaranır. Tədricən, daşınma unudulur, silinir və birləşmə sabit olur.

İngilis dilində frazeoloji vahidlərin aşağıdakı tipologiyaları mövcuddur [1, s. 15]:

1. Frazeoloji vahidlərin komponent tərkibinin qrammatik yaxınlığına əsaslanan tipologiya.

a) sifətin isimlə birləşməsi:

Vicious circle - pis dairə (uğursuz hadisələrin ard-arda baş verməsi). Many people get trapped in a vicious circle of dieting and weight gain.

The Indian summer - Hindistan yayı (payız aylarında sakit isti havanın baş verməsi). We had a splendid Indian summer last October.

b) Azərbaycan dilinə tərcümə edərkən yiyəlik haldakı isimlə mənsubiyyət şəkilçili ismin birləşməsi:

Point of view – baxış nöqtəsi. I am trying to get Andrew to change his point of view.

Apple of discord - nifaq alması (düşmənlik və narahatlıq yaradan hadisə). The apple of discord seems to be that you stole his pencil case.

c) sifətlə sözönülü ismin birləşməsi:

Be on a good footing - kiminləsə yaxşı münasibətdə olmaq. We tend to be on a good footing with the folks at Skyfire.

d) isimlə feilin birləşməsi:

Come to one's sense - ağlını başına yığmaq. He finally came to his senses and gave up his plans to quit his job and become an artist.

Cock one's nose – barmağını burnuna qoyub yellətmək; nəyəsə hörmətsiz yanaşmaq. To cock one's nose at that is beyond rude.

e) felin zərflə birləşməsi:

To see through somebody – kiminsə daxilini görmək və ona aldanmamaq. I am not fooled that easily. I can see right through you.

Fly high - iddialı olmaq. His stories began to sell, and he was flying high.

Come down to earth - buludlardan yerə enmək. I was excited to book a vacation, but I came down to earth when I checked my nearly depleted bank account.

f) feili sifət I isimlə birləşməsi:

One's heart is bleeding - ürəyi qan ağlamaq. My heart is bleeding for any child suffering from hunger.

2. Frazeoloji vahidlərin və onların əvəz oluna bildiyi nitq hissələrinin sintaktik funksiyalarının uyğunluğuna əsaslanan tipologiya.

a) nominal frazeoloji vahidlər:

Swan-song - ququşu mahnısı (Ququşu mahnı oxuya bilmir, onlar yalnız fitə oxşar səslər çıxarırlar. Lakin qədim mifə əsasən ölümünə yaxın ququşu bir mahnı ifa edib ölür. Buradan da bu ifadə yaranıb, sonuncu hərəkəti edib məşhurlaşmaq anlamına gəlir.) I competed in the Commonwealth Games in Christchurch, which was my swan-song.

b) feili frazeoloji vahidləri

Hold one's ground – mövqeyində çox möhkəm durmaq, geri çəkilməmək. The referee stood his ground, though his decision was hotly contested by the crowd.

c) sifət tərkibli frazeoloji vahidləri

In blooming health – çox sağlam və enerjili görünmək. She is in blooming health.

d) zərf tərkibli frazeoloji vahidlər:

Up one's sleeves – gizlincə saxlanılan və ehtiyac olduqda istifadə edilən ideya və ya fikir. He was new to the game but had a few tricks up his sleeve.

Frazeoloji vahidləri digər xüsusiyyətlərinə görə də sistemləşdirmək olar. Məsələn, səs quruluşu nöqteyi-nəzərindən bütün frazeoloji vahidlər fonikasına görə sıralananlara və neytral olanlara bölünür. Birincilər frazeoloji vahidləri açıq-aşkar ritmik birləşmələr, qafiyə elementləri, səs təkrarları ilə birləşdirir.

Frazeoloji vahidlərin mənşəyinə görə də maraqlı təsnifatı vardır [5, s. 11]. Burada, yerli ingilis frazeoloji vahidlərini (*Fleet Street* - Londonda ən məşhur qəzetlərin redaksiyalarının yerləşdiyi küçə) və digər dillərdən götürülmüş frazeoloji vahidləri (*Tête-à-tête* - Fransız dilindən tərcümədə baş-başa mənasındadır) ayırmaq olar.

Latın dilindən də götürülmüş frazeoloji vahidlər vardır. Onların mənbəyi sonradan ingilis dilinə tərcümə edilən xristian kitabları (İncil) idi.

Apple of discord - nifaq alması (düşmənlik və narahatlıq yaradan hadisə). The apple of discord seems to be that you stole his pencil case.

Frazeoloji vahidlərin əhəmiyyətli bir hissəsi qədim mifologiyadan ingilis dilinə daxil olanlardır.

Augean stables – Avgeas tövlələri (qədim yunan əfsanələrində Kral Avgeasın at və inəklərinin saxlanıldığı və heç vaxt təmizlənmədiyi tövlələrdən yarana ifadədir. Çoxlu pis və ədalətsiz hərəkətlərin cəmləndiyi vəziyyət mənasındadır). A campaigning US attorney decided that Wall Street was an Augean Stables that he was destined to muck out.

Bəzi frazeoloji vahidlər kalka üsulu ilə - mənbə dildən hərfi tərcümədir.

Frazeologizmlər müxtəlif üslublu ədəbiyyatda geniş istifadə olunur. Bacarıqlı tərcüməçi isə bu və ya digər frazeoloji vahidin tərcüməsində qeyri-dəqiqliyə yol verməməlidir. Frazeologiyanı bilmədən nitqin parlaqlığını və ifadəliliyini qiymətləndirmək, zarafatı, söz oyununu və bəzən sadəcə bütün ifadənin mənasını başa düşmək mümkün deyil.

Frazeoloji vahidlər bir tərəfdən ayrı-ayrı sözlərdən, digər tərəfdən sərbəst ifadələrdən əsaslı şəkildə fərqlənir və eyni zamanda müəyyən mənada milli dilin daha mürəkkəb sisteminin bir hissəsi olub onun müxtəlif səviyyələri ilə əlaqələrə girə bilir. Məsələn, sözlər kimi frazeoloji vahidlər də mənalı funksiya yerinə yetirən fonemlərdən ibarətdir; bu da frazeologiyanın dilin fonetik səviyyəsi ilə sistemli şəkildə əlaqələrini müəyyən edir. Frazeologizmlər müxtəlif nitq hissələri ilə müxtəlif əlaqələr yarada bilir ki, bu da onların morfoloji səviyyədə sistemli əlaqələrini səciyyələndirir. Cümlədə müəyyən sintaktik funksiyaları yerinə yetirən frazeoloji vahidlər sintaktik səviyyədə digər dil vahidləri ilə sistemli əlaqədə olurlar.

İngilis dilinin frazeoloji sisteminin bir hissəsi olaraq, xarakterik xüsusiyyətlərinə görə birləşən frazeoloji vahidlərin müxtəlif paradiqmaları (qrupları) fərqlənir. Yuxarıda qeyd olunan frazeoloji vahid qruplarına əlavə olaraq, öz linqvistik xüsusiyyətlərinə əsaslanaraq bir sıra başqaları da nəzərdən keçirilə bilər: frazeoloji vahidlər monosemantik və polisemantik, omonim, sinonim, antonim və s.

Frazeoloji vahidlərin sintaqmatik əlaqələri onların müəyyən diapazondakı leksik vahidlərlə uzlaşma imkanları ilə səciyyələnir. Bəzi frazeoloji vahidlərin çox məhdud uyğunluğu var, məsələn, *in the public eyes* (ictimaiyyətin göz önündə olmaq. The job requires someone who is comfortable being in the public eyes) frazeoloji vahidi *to come, to be* feili ilə birləşir, lakin *to become, to take* felləri ilə birləşmir. Bununla belə, frazeoloji vahidlər arasında müxtəlif sintaqmatik əlaqəyə malik olanlar da az deyil.

Frazeoloji vahidlərin linqvistik xüsusiyyətlərə görə də fərqlənə bilirlər. Əksər frazeoloji vahidlər monosemantik olub yalnız bir məna daşıyırlar. Onların semantik quruluşu kifayət qədər monolit, parçalanmayandır [4, s. 31]:

From the first look - ilk baxışdan, ilk təəssüratra görə. You can differentiate them from the first look.

To daydream - xəyallara qapılmaq. He never paid attention in class and seemed to be in a permanent daydream.

Ancaq bir neçə məna daşıyan frazeoloji vahidlər var:

To play fool

1. heç nə etməmək
2. qeyri-ciddi davranmaq
3. axmaqlıq etmək.

Polisemiya adətən dildə mənaların qismən motivasiyasını saxlayan frazeoloji vahidlərdə baş verir. Üstəlik, strukturunda bütöv məna daşıyan, ifadələrlə əlaqələndirilə bilən frazeoloji vahidlərdə qeyri-müəyyənlik daha asan inkişaf edir.

Frazeologiya son dərəcə mürəkkəb bir hadisədir ki, onun tədqiqi özünəməxsus tədqiqat metodu ilə yanaşı, digər elmlərin - leksikologiya, qrammatika, üslubiyyat, fonetika, dil tarixi, tarix, fəlsəfə, məntiq və ölkəşünaslığın məlumatlarından istifadə etməyi tələb edir.

Frazeologiyanın bir sıra problemləri ilə bağlı dilçilərin fikirləri fərqlidir və bu, tamamilə təbiidir. Buna baxmayaraq, frazeologiya sahəsində çalışan dilçilərin mühüm vəzifəsi həm frazeologiya nəzəriyyəsinin, həm də xarici dillərin tədrisi təcrübəsinin maraqları baxımından səyləri birləşdirmək və ümumi dil tapmaqdır [3, s. 49].

Ədəbiyyat

1. Аничков И.Е. Труды по языкознанию. - СПб: Наука, 1997, 510 с.
2. Виноградов В.В. Об основных типах фразеологических единиц в русском языке. - М.: Наука, 1986, 243 с.
3. Копыленко М.М., Попова З.Д. Очерки по общей фразеологии: Проблемы, методы, опыты. – Воронеж: Изд-во Воронежского ун-та, 1990, 109 с.
4. Кунин А.В. Фразеология современного английского языка. - М.: Международные отношения, 1996, 200 с.
5. Weinreich, U. Problems in the Analysis of Idioms: Substance and Structure of Language. – University of California Press, Berkeley and Los Angeles, 1984, 81 p.

РЕЗЮМЕ

ТИПОЛОГИЯ ФРАЗЕОЛОГИЗМОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

Каримова Д.А

Ключевые слова: *английский язык, фразеологизмы, грамматика, перевод, переносное значение*

Фразеологический фонд английского языка настолько велик, что полное его исследование не уместилось бы в рамки данной работы. Тем не менее, на примере рассмотренных фразеологизмов можно отчетливо представить, насколько разнообразны по своей семантике и выразительности фразеологизмы современного английского языка. Благодаря литературным произведениям писателей и поэтов, английский язык в настоящее время насчитывает огромное количество фразеологизмов. Но, не следует забывать и о том, что из истории и культуры различных стран мира в английский язык также пришло огромное количество фразеологизмов.

SUMMARY

TYPOLOGY OF PHRASEOLOGICAL UNITS IN THE ENGLISH LANGUAGE

Karimova D.A.

Key words: *the English language, phraseological units, grammar, translation, figurative meaning*

The phraseological fund of the English language is so large that its full study would not fit within the framework of this work. Nevertheless, using the example of the considered phraseological units, one can clearly imagine how diverse in their semantics and expressiveness the phraseological units of the modern English language are. Thanks to the literary works of writers and poets, the English language currently has a huge number of phraseological units. But we should not forget that from the history and culture of various countries of the world a huge number of phraseological units also came into the English language.

DIFFICULT POINTS IN THE ARTICLE

Alakbarova A.N.

Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan

aynur.alakbarova55@mail.ru

Key words: *indefinite article, noun, adjective, proper nouns, listener, sentence*

In English articles moderate words that are often used at the beginning of noun phrases .There are two- **the** (definite article) and **a\an** (indefinite article) As we know, we use **the** with singular ,plural or uncountable nouns when we forward the listener or reader to be able that the thing or person we are referring to in the following noun. May be the thing has already been mentioned

Ann took a cake and some cookies to the party but only cookies were eaten.

It may be that is clear from the situation which person or thing we mean

Can you shut the door after you, please?

We use **a\ an** with singular nouns and use it to introduce a new specific person or things generally for instance, when we depict someone or something or say what type of thing someone or something is.

Lisa has just bought a house on Strike street.

Italy is a beautiful city.

We use **zero article** with uncountable and plural nouns when we talk about people or things .

Water has got on my mobile phone and damaged it

There are examples of the nouns on page 40

Articles use is one of the bewildering points in English grammar. At times, we use article more a matter of vocabulary than grammar .We occur to use **the** in one expression and **a** or **zero article** in another resembling expressions for no very good reason.

On the radio on TV

I have got backache I have got a headache

Mainly, we use **the** when we talk about things which are unique . For example ,

The world, the sky , the sun , the land , the climate

But some nouns like this can be used with **zero article** to refer to a concept in general and if we describe a particular instance of nouns we use **a\an**

These plants grow best in sandy soil and sun (in this sentence sun means sunshine)

I could see the plane high up in the sky

When Jane woke up there was a bright blue sky

On the whole we don't use **a** before uncountable nouns but we can use countable nouns when we talk about an istance or more than one instance of it. When these nouns are used countable nouns we can use **a\an**

I don't drink coffee -------- Would you like a coffee?

He shook with fear -------- He has a fear of height

Generally we use **zero article** before the name of an individual person or place .But we use **the** when there are two people with the same name to specify which one we mean

That is not the Stephen Fraser ,I went to school with him.

There was a Stephen Fraser in my class. (a person named Stephen Fraser)

At the same time we can also use **a\an** before a person's name if we don't know the person yourself.

Dr. Lee is here for you (I know Dr. Lee)

There is a Dr. Amy Lee on the phone (I have not heard of her before) Do you want to talk to her?

We usually use **zero article** with the special times of the year , months and days of the week.But in some sentences we use article

I will see you on Saturday

They met on Saturday.

He came on a Saturday as far as I can remember,(we are only interested in the day of the week, not which particular Saturday)

They came on the Saturday after our party (a particular Saturday specifying which one)

We always use **a** before nouns and noun phrases that begin with a consonant sound .If the noun or noun phrases starts with a vowel letter but begins with a consonant sound we also use **a**

a university , a European

We use **an** before words that begin with a vowel sound including a silent letter "h"

An orange , an umbrella , an hour

But in abbreviations said as individual letters that begin with A ,E ,F,H, M,N ,O

an MP [ən ` em pi:]

an FBI agent [ən ef bi: ai]

But compare abbreviations said as words

A NATO general [ə ne i to u]

A FIFA official [ə fi : fə]

At the same time we can say a history book , an historical novel

Bibliography

1. Martin Hewings – Advanced Grammar in use.
2. Michsel Swan – Practical English Usage

XÜLASƏ
MƏQALƏDƏ MÜRƏKKƏB MƏQAMLAR
Ələkbərova A.N.

Açar sözlər: *qeyri-müəyyən artikl, isim, sifət, xüsusi isimlər, dinləyici, cümlə*

Müəyyən artiklın xüsusi isimlərin, xüsusilə insan adlarının qarşısında işlənməsi maraqlı nüanslardan biridir. Qeyri-müəyyən artiklın vahid isimlər ilə işlənməsi də mühüm mövzulardan biridir. Məqalənin məzmununa görə artiklı biz yalnız qrammatik cəhətdən deyil, həm də cümlənin məzmununa görə də fərqli zamanlarda işlədə bilirik.

РЕЗЮМЕ
СЛОЖНЫЕ МОМЕНТЫ В СТАТЬЕ
Алекперова А.Н.

Ключевые слова: *неопределенный артикль, существительное, прилагательное, специальные существительные, слушатель, предложение*

Использование определенного артикля перед именами собственными, особенно человеческими именами является одним из интересных нюансов. Обработка неопределенного артикля с существительными в единственном числе также является одной из важных тем. В зависимости от содержания мы можем использовать артикль в разное время не только грамматически, но и по содержанию.

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ QOHUMLUQ MƏNSUBİYYƏTİ İLƏ BAĞLI MÜRACİƏT FORMALARININ ƏSAS XARAKTERİK CƏHƏTLƏRİ

Həmidova D.A.
Azərbaycan Texniki Universiteti, Bakı, Azərbaycan
dilara.hamidova.2712@gmail.com

***Açar sözlər*:** *müraciət formaları, sosiolinqvistik yanaşma, qohumluq terminləri, yaşla bağlı müraciətlər*

Hazırda dünya dilçiliyində dil və cəmiyyət, dil və mədəniyyət, dil və şəxsiyyət, dil və təfəkkür problemlərinin tədqiqi ilə sosiolinqvistika, praqmalinqvistika, linqvokulturologiya, koqnitiv dilçilik kimi istiqamətlər məşğul olur. Nitq fəaliyyəti linqvistik tədqiqatların ən mühüm obyektinə çevrilmişdir ki, bu da elmin inkişaf perspektivlərini qabaqcadan müəyyən etməklə yanaşı, həm də yeni elmi problemlərin yaranmasına səbəb olmuşdur. Dünya dilçiliyində dil vahidlərinin nitqlə həyata keçirilməsinin sosiolinqvistik tədqiqi, sosial statusdan asılı olaraq nitq təzahürlərinin tədqiqi milli dilçilikdə sosiolinqvistik tədqiqatlar üçün ilkin şərtlər hazırlayır. Bu mənada sosiolinqvistik xüsusiyyətlərin, xüsusən də nitqin sosial statusdan, yaşdan, cinsdən asılı olaraq təcrid olunması nəzəri və tətbiqi xarakter daşıyan mühüm vəzifələrdən biridir. Ölkəmizdə müstəqilliyinin ilk illərindən cəmiyyətin bütün sahələrində ardıcıl islahatlar aparılmış, elmin intensiv inkişafına xüsusi diqqət yetirilmişdir. Digər sahələrdə olduğu kimi, Azərbaycan dilçiliyində də tədqiqatçılar dili yeni elmi paradiqmalar əsasında tədqiq etməyə, dilimizin əhatə dairəsini genişləndirməyə, hərtərəfli inkişaf etdirməyə başlamışlar. [5,6,7] Bunu son illərin linqvistik tədqiqatlarında da görmək olar, İndi nitq hadisələrinin ana dili ilə bilavasitə bağlı olan xüsusiyyətlərinə çox diqqət yetirilir. Bununla yanaşı, Azərbaycan dilçiliyində sosiolinqvistik tədqiqatlar yetərincə aparılmamışdır və dilimizin özünəməxsus təbiətinin sosiolinqvistik təhlili problemləri öz tədqiqatçılarını gözləyir .

Eyni zamanda, canlı nitqin sosiolinqvistik yanaşma əsasında tədqiqi, yazılı nitq formalarının (əsasən bədii mətnlərin) tədqiqi, dil vahidlərinin dil-nitq prinsipinə əsasən sosial izolyasiya baxımından təhlili, eləcə də sosial amillərin təsiri altında mətndə nitqin nitq təcridinin nitq şəraiti və nitq situasiyası baxımından elmi əsaslandırılmasına ehtiyac var.

Nitq situasiyasında ünsiyyət quranlar yalnız həmsöhbətin xarakterini deyil, həm də xarici amilləri də nəzərə alırlar. Bu da öz növbəsində nitqin reallaşması zamanı danışanın və dinləyicinin vəziyyətindən təsirlənən nitq vəziyyəti və şərtləri ilə bağlıdır [7, s.48]. Ünsiyyət quranların görünüşü əslində sosial mühit və sosial statusla əlaqələndirilir. Xarakterlərin görünüşü həmsöhbətin və ya müəllifin nitqindən istifadə etməklə təqdim edilə bilər. Həmsöhbətin tipini təsvir edərkən onun sosial vəziyyəti, tutduğu vəzifə, yaşı, cinsi nəzərə alınır, yəni qadın kommunikator təsvir edilərkən kişi kommunikatorun təsvirində iştirak edən leksik vahidlərdən istifadə olunmur. Cinsin hər iki nümayəndəsini təsvir edərkən yalnız onlara xas olan vahidlərdən istifadə olunur, təsvir olunan şəxsin yaşı, cinsi, vəzifəsi, statusu nəzərə alınmaqla seçilən işarələrdən istifadə olunur.

Müraciət formalarının sosial-linqvistik mahiyyəti şərh edərkən onu nəzərə almaq lazımdır ki, onlar danışanla dinləyici arasında əlaqənin formalaşması ilə yanaşı, söhbətin davamının xarakterini də müəyyən edir, Xarakterlər arasında ünsiyyət onlar arasında quranların müxtəlif münasibətləri əks etdirir [6, s.48]. Müraciət formaları kommunikantların cəmiyyətdəki sosial vəziyyətindən (yaşından, cinsindən, tutduğu vəzifədən, peşəsindən), cəmiyyətdəki sosial mövqeyindən asılı olaraq seçilir, sosial rollar dəyişdikdə ünvan vahidləri də dəyişir. Ünsiyyət edənlərin yaşı da nitqində özünü göstərir. Belə diferensiasiya hər bir xalqın özəlliyi ilə, yəni mentaliteti ilə bağlıdır. Yaşdan asılı olaraq müraciət formalarının seçilməsi, əsasən, Azərbaycan ünsiyyət mədəniyyətinin özünəməxsus xüsusiyyətidir. Adətən kiçik uşaq böyüklərə, valideynlərə adla müraciət etmir, əksinə qohumluq terminlərindən istifadə edir. Ata, baba, əmi, dayı, xala, bibi, qardaşım, bacı, bacıqızı, xalaqızı, əmioğlu, day-day, bibican, qaqaş, qohum, kirvə kimi ifadələr yalnız qonumluqla bağı olan insaların arasında deyil, həm də, qohumluq münasibəti olmayan, hətta heç tanış olmayan insanların müraciətində də işlənə bilir: *Aftil. Eybi yoxdu,* ***bacıqızı ,*** *işini gör, mən elə gedəsiyəm. Sonra yenə gələrəm (Çıxmaq istəyir). Almaz.* ***Aftil dayı,*** *bu mənim nişanlımdır. Görərsən, o mənə hər şeydə necə kömək edər. Aftil. Allah eləsin,* ***bacıqızı,*** *Alah eləsin* [11, s.124].

Bu dialoqda Aftandil Almazın kəndlisidir və heç bir qohumluq münasibəti yoxdur. Burda *"dayı", bacıqızı"* müraciətləri etiket kimi istifadə olunur və onlar arasında yaş fərqini ifadə edir.

Dilimizdə çox işlənən *kişi* müraciət forması iki mənanı özündə birləşdirir. Bu ilkin olaraq mətn əsasında müəyyən olunur. İlkin məna yenə də cinslə bağlı, ikinci məna isə ailə daxili münasibətlərlə bağlı olub, qadının kişiyə müraciətiylə bağlıdır. Məsələn: *A kişi , bu səfeh oğlu, səfeh haradan şeytan kimi eşşəy aparan, bizi mərəkəyə saldı* [12, s.87].

Ailə münasibətlərinə aid müracət formalarının ikinci növünə ailədən kənar qohumların istifadə etdiyi müraciət formaları daxildir. Bunlara aid müraciət formaları əmi dayı, bibi, xala, əmioğlu, kimi müraciət formaları daxildir. məsəslən: *Ay baba! Vallah mən bu işə razi deyiləm* [12, s.18].

Dialoq mətnlərində olan müraciət formaları sosial münasibətlərin müraciət formalarına təsirini qabarıq əks etdirir. Qadın və kişiyə, böyük və kiçiyə, uşaq, qoca, dövlətli, kasıb, hökmdar və ya sadə peşə adamlarına müraciət formalarının tarixən nitqdə çox fərqli formaları mövcud olmuşdur. Bu formalar onların sosial mövqeyini əks etdirir. Belə dialoqlarda müraciət formalarında yaş fərqi daha çox ifadə olunur.

Azərbaycan dilində qeyri-rəsmi müraciətlərdə qohumluq terminləri (böyüklər: a bala, bacıqızı, qardaşoğlu, ay uşaq; kişilər isə əmi, dayı, day-day, bibi, xala ifadələrindən istifadə edirlər: *Əlbəttəki,* ***əmigəlini,*** *siz elə mənim anam yerində və anamsınız* [12, s.38]. *Ah,* ***əmi ,*** *Sitarəni aparıblarmı?* [11, s.54] ***Qardaş oğlu****, sən elə doğurdan lağlağı imişsən,* [11, s.43] ***Xala,*** *qlava bəyin şikayətinə görə oğlun Vəliqulunu tutub qatdı dama* [12, s.76]. *Apar, qardaş , apar.. o ərizəni apar!* [12, s.81].

Dilimizdə işlənən başqa bir müraciət forması da var ki, o da *qardaş* sözünün ekvivalentidir. Bu müraciət forması *" dadaş"* leksemidir. Bu müraciət forması iki mənanı ifadə edir. İlkin mənanı yuxarida qeyd etdik. İkinci mənası sisə "böyük qardaş" mənasındadır. " *Dadaş, vallah anam yalan deyir"* [12, s.79] *"Dadaş, bir az səbr buyur, mən bu cavanlardan bir –iki sorğu sual edim"* [12, s.81].

Azərbaycan diində *oğlum* sözü qohumluq münasibəti bildirsə də , yaş fərqini bildirmək üçün istifadə olunan müraciət formasıdır. Azərbaycan dilində ünsiyyət mədəniyyətindəki bu cür vahidlər yaşlı ünsiyyətçilərin nitqi üçün xarakterikdir və müasir ünsiyyətində fəal istifadə olunur. Tarixi mətnlərdə yuxarı təbəqənin nümayəndələri arasında qohumluq terminlərinə daha çox ailə dairəsində, qeyri-rəsmi nitqdə rast gəlinir. Rəsmi nitqdə bu qohumluq terminlərinin yerinə yüksək əhval-ruhiyyə bildirən, vəzifə bildirən sözlər işlədilir. Ünsiyyətçilərin bir-birinə müraciətlərində onların yaşlarından daha çox sosial statuslar rol oynayır. Məlum olduğu kimi, nitqin gender ayrılması problemi sosiolinqvistik tədqiqatın əsas problemlərindən biridir. Nitqin cins ayrılığının ifadəsi də maraqlı faktlar verir. M.F. Axundzadə, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.V. Çəmənzəminli, C.Cabbarlının əsərlərində belə müraciət formalları çoxdur.

İngilis dilində *oğlan* sözü cins anlayışı və qohumluq mənaları ifadə edir, Lakin bu söz ingilis dilində müraciət kimi əsasən cins anlamı ifadə edir, akin din xadimlərinin dilində isə yaş fərqini də ifadə edə bilir: Fetch me my rapier **boy**, what dares the slave / Come hither, cover'd with an antic face (Mənim rapirimi mənə ver, oğlan, maska ilə bura girməyə necə cəsarət edirsən, qul) (Shakespear W. Romeo and Juliet)

İngilis dilində cinsi mənsubiyyət və yaşla bağlı müraciət formalarında olan əsas xarakterik cəhətlər milli mədəniyyətlə bağlıdır və tarixən dəyişir. Misallara baxaq:

1. Speak **nephew**, were you by when it began? (Söylə, *qardaşımın oğlu*, bu zaman sən orda idin? (Shakespear W. Romeo and Juliet) 2. **My noble uncle** do you know the cause? (*Nəcib dayı,* siz səbəbi bilirsinizmi? (Shakespear W. Romeo and Juliet)3. Good morrow **Cousin** (Sabahın xeyir, kuzen!) (Shakespear W. Romeo and Juliet) 4. I came to talk of, tell me **daughter Juliet**, How stands your disposition to be married? Mən gəlmişəm danışaq, söylə mənə, qızım Culyetta, Sən evliliyə necə baxırsan?

(Shakespear W. Romeo and Juliet). 5. Edmund: **A credulous father!** And **a brother noble**,/ Whose nature is so far from doing harms,/ That he suspects none: on whose foolish honestly/ My practices ride easy! I see the business./ Let me, if not by birth, have lands by wit:/ All with me's meet that I can fashion fit. **Etibarlı ata və nəcib qardaşım,** O doğru deyir və heç bir şübhə yeri qoymur. Onların məsumluğu ilə oynamaq asandır. Onları necə aldatmağı aydın görürəm. Doğuşdan almamışam, öz anadangəlmə ağlıma minnətdaram. (Shakespeare W. King Lear).

Misallardan göründüyü kimi, ingilis dilində qohumluq terminləri müraciət forması kimi dioloqda daha çox qohumluq münasibətlərini ifadə edir. Azərbaycan dilində isə bu terminlər dialoqlarda yaş fərqini və sosial vəsiyyətin ifadəsi kimi çıxış edir.

Ədəbiyyat

1. Abdullayev A.S. Nitq mədəniyyəti və natiqlik sənəti Bakı, 2004.
2. Ağayeva F.M. Azərbaycan danışıq dili. Bakı, 1987.
3. Qasimov E. Dilimizdə islənən bir neçə müraciət formaları // ADU. Elmi Xəbərləri, 2016.№5.s.27-35
4. Əbdülhəsənli T., Zülfüqarlı S., Rzai A. Azərbaycan dili və nitq mədəniyyəti, Bakı,2014.
5. Hüseynov S., Qaracayeva E. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2016.
6. Eminli B. Azərbaycan danışıq dilində müraciət formaları. dissertasiya. Bakı, 2015.
7. Əliyeva T. Etiket muraciət formaları //Elmi Xəbərlər ADPU. Humanitar ser.2017. s. 48-56
8. Orucova Ş.Ə. Türk dilərində xitab. Bakı, 2007.
9.Shakespear W. Romeo and Juliet/пер. с англ. Б.Пастернака М.: Айрис-пресс, 2008, 288 с., с. 62.
10.Shakespeare W. King Lear. Istanbul: Dejavu Publishing, 2011, pp. 130, p. 23
11. Cabbarlı C. Əsərləri: Dörd cilddə. III cild. Bakı, 2005
12. Məmmədquluzadə C.M. Əsərləri: Dörd cildə, I c. Bakı: Örnək, 2004.

РЕЗЮМЕ

ОСНОВНЫЕ ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ФОРМ ОБРАЩЕНИЯ В СВЯЗИ С РОДСТВОМ В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

Гамидова Д.А.

Ключевые слова*: *формы обращения, социолингвистический подход, термины родства, возрастные обращения

Статья посвящена использованию в качестве формы обращения терминов родства на азербайджанском и английском языках и их национальной самобытности. Слова, употребляемые в формах обращения, выражают степень уважения говорящих друг к другу, возраст, пол, а также национальную культуру своего времени. Отмечается, что внешний вид собеседников может быть представлен с помощью речи собеседника или автора. При описании типа собеседника учитывается его социальный статус, занимаемая должность, возраст, пол, то есть при описании коммуникатора женского пола используются лексические единицы, участвующие в описании коммуникатора мужского пола. При описании обоих представителей рода используются только присущие им единицы, используются признаки, которые выбираются с учетом возраста, пола, должности, статуса изображаемого лица. На основе материалов азербайджанского и английского языков сравниваются термины родства, используемые в качестве форм обращения, интерпретируются как показатель выражения национального менталитета, национальной культуры.

SUMMARY

THE MAIN CHARACTERISTIC FEATURES OF THE FORMS OF APPEAL IN CONNECTION WITH KINSHIP IN THE AZERBAIJANI AND ENGLISH LANGUAGES

Hamidova D.A.

Key words*: *forms of address, sociolinguistic approach, kinship terms, age-specific addresses

The article is devoted to the use of kinship terms in Azerbaijani and English as a form of address and their national identity. The words used in the forms of address in the language express the degree of respect of the speakers for each other, age, gender, as well as the color and national culture of their time. It is noted that the appearance of the characters can be represented using the speech of the interlocutor or the author. When describing the type of interlocutor, his social status, position, age, gender are taken into account, that is, when describing a female communicator, lexical units are used that are involved in the description of a male communicator. When describing both representatives of the genus, only the units inherent in them and signs are used that are selected taking into account the age, gender, position, status of the depicted person. Based on the materials of the Azerbaijani and English languages, the terms of kinship used as forms of address are compared and interpreted as an indicator of the expression of the national mentality, national culture.

PARADIGMING OF GOD AND SPIRIT DENOTATIONS IN A RELIGIOUS AND MYTHOLOGICAL CONTEXT WITH A SUBSTANTIAL CONCEPT OF GOODNESS

Musayeva I.I.
Sumgait State University, Sumgait, Azerbaijan
musayevailahe987@gmail.com

Key words: *religion, mythology, god, soul, good, concept, linguistics*

Cultural researchers have different opinions about people's religious and mythological ideas. According to a group of evolutionists, primitive man was not able to imagine a physical god at the first stage. In this period, in all kinds of natural phenomena, meteorites, trees, stones, rocks, waterfalls, lightning, animals, lunar and solar eclipses, social environment, within the framework of various aspects and conditions of sexual life, in periods of outbreaks of diseases, unique, uncertain, sometimes scary, sometimes there was a hopeful, strong, unattainable power. According to the thinking of the other group, even in the time of the most primitive knowledge, people were able to worship God and form the idea of a good God, which would be a source of hope. Religious and mythological ideas cannot be studied in isolation from each other. Thus, both sciences serve to clarify the reasons and details of existence of the world and beings as the primary form of social consciousness.

Mythology is the first political science that classifies human goals and preferences from a socio-cultural point of view, the first knowledge system of life, which created discipline among people with forces considered sacred in society. Mythology, which reflects the facts in an unfathomable way, explains the formation of existence by bringing together all the possibilities of language and thought. It is also the first political science that transmits the scientific experiences of primitive and archaic first thoughts from generation to generation, presents the negative and positive elements of people and generally hidden as a symbolic source of cosmic information. Mythological events, concepts which are the result of turning certain elements of the cognitive paradigm into lexemes, are reflected in the reflection of human characteristics and signs on animals, nature and supernatural beings. Religion, which is the most important source of culture, is a tool that forms belief in supernatural powers, various divine beings, and systematizes different forms of worship. The famous Russian philosopher and culturologist Alexey Losev contrasts religion and mythology and writes that in terms of style, mythology is sharply different from religion, and the content of myth is far from fear, prostration and helplessness in front of gods and supernatural beings: Both areas connected with the consciousness of personality exist separately. Religion promises people comfort, salvation, justification, and consolation. In the myth, a person who tries to prove that he has a certain past and history, and to prove himself. *Religion can turn a myth into a myth with a religious content by giving it its own content. However, the creation of the myth has nothing to do with religious and divine content. Both polytheistic and monotheistic religions owe their existence to mythology.* [5, p. 35]

The analysis of the concepts of good and evil formed in the religious and mythological thinking of the ancient Turkish provides a basis for describing the evolution and change in people's beliefs and thinking for determining the different and multifaceted lines of meaning of the significations of negative and positive concepts within the framework of social-religious-philosophical and ethical concepts. For this reason, religious and mythological terms, which contain many common aspects, are studied together with their complementary situational concepts. Ancient Turkish communities understood the concept of goodness in an abstract and deeper sense in the context of religion and mythology. Because religion is a means to satisfy people's spiritual needs. Usually, a person sees religion as a tool to heal his wounds and soothe soul in difficult, unsuccessful, days, when he faces a heavy loss. Information about the spirituality of people of the ancient world has come down to the nowadays in the texts of myths through different cultures. The concept of goodness, which is dominant, nominative and concrete meaning good, benefit and profit, shares the same context with the word holy (iduk) in mythical thinking. It goes without saying that the semantic fields of the concept of goodness are quite multi-component and multi-faceted. As a lexical unit, which presents the concept of goodness, income, holy, profit, growth, efficiency, growth, blessing, cheerfulness, kindness, wisdom, benefit (the number of expressions can be increased sufficiently, taking into account the national, cultural, individual characteristics of peoples), etc. the semantic and logical difference between such interpretations is clearly noticeable. However, within a certain context, in the framework of a certain situation, in the words and expressions we use daily with a deep and philosophical meaning, in the language of epics and myths, in the language of folklore examples, such concepts are verbalized as a form of semantic field. The denotations of god and spirit, which are the supreme beings of the belief system of ancient

peoples, who are thought to have superhuman characteristics, power and will, and are given names according to their skills and powers, create a paradigm in terms of content with the concepts of goodness and badness in the nominative sense according to ancient mythical thinking.

In the ancient Turkish mythological thinking, we are witnessing the transformation of the concept of god, which embodies a single being, and over time, represents many holy beings, into a semantically goodness concept. In general, god is the basic concept of ancient Turkish belief. The "god" who ensures the cosmological and social order, protects people from disasters, and brings victory to the Turkish is of vital importance for the Turkish ethnos. The concept of God is eternal in the imagination of the ancient Turkish peoples, a saint who either kills his servant, gives him life, gives strength, success, health, determines his destiny, knows everything, shows the right path, spares, hears his servant's prayers and fulfills them in a good way is an entity. When examining the ancient mythological texts, it is possible to find enough examples that understand that the Turkish are descended from God. This idea of the term is a universal thought model of the Turkish ethnos and an indicator of the infinite sympathy and love they have for the god. M. Seyidov writes about this: It is clear in written and oral texts that Turkish consider themselves children of God and believe that their ancestors came from heaven. They express their Khagans in the images of "born of God" or "born of God" [7, p168].

The word "god" in the form of *"dingir"* in the Sumerian language, has the same meaning as the words *"sky-goy"* and *"tanri-god"*, which made it possible for both terms to be used in the same way in the future. In the language of different Turkish ethnic groups, the lexeme sounds the same in terms of content, but in a different phonetic variant. Chuvash *tura, ture, turi; khakas tiger*; Kyrgyz *tenir*; Karachay-Balkar *teyr*; different Tatar sizes *tere, tengre; tuvalar leather, deer;* Mongols *tenger, tengri*; rubies *tangara*; Altai tengri; *commanders tengere; tegre, tegri, tengere; salts tengri*; Buryats *tengeri, tengri*; Karaites call Tangr as a God [3, p. 24]. Baba Muharramli explains the etymological analysis of the word in this way: *"Etymologically, the word god is divided into "tan" and "ri". The word is based on the ancient root "an-janli", and "t" is a prosthetic sound" [6, p63-64]. In ancient Chinese sources, the word "god" meaning sky is recorded in the phonetic shell "tian"* [9, p495]. The roots *"Tan//tin"* as the etymological root of the lexical unit mean body and body, breath, soul and in different semantics - *back, lean* [10, p. 28]. In the opposite of the word god, which has a deep semantic component, the main nominative meaning is the concepts of soul and breath. So, the existence of a person without mind and soul is impossible. Both soul and breath are gifts of God. In general, if we look at the cultural development of humanity, we will witness that the concepts of god and spirit form unity among all belief systems. Presuppositions such as the rise to the divine position after a certain spiritual level, the embodiment of God's spirit in a person, are reflected in the approach of representatives of Sufism: *"The perfect person in Zoroastrianism, the encounter of good and evil, communication with God, Nirvana in Indian mysticism, asceticism, struggle with the soul, unity and the inner self in Brahmanism the idea of reaching it with love, avoidance of material existence in Jewish mysticism, communication with God and attaining to it, inner illumination, unity, unity of being in Platonism and the fact that it consists of God, "the idea of being is living", the system of creation starts from the single truth of all-mind, all-nefs matter and, finally, its arrangement in the form of the material world, the impossibility of fully understanding absolute existence, asceticism in Christianity are aspects compatible with Sufism"* [8, p10].

The expression *"tincikhmaq-to be restless"* is used to mean to miss the heart, to be short of breath, to be short of breath, to suffocate in the Aghbaba, Oghuz, Zangilan, Aghjabedi, Gakh, Khachmaz, Zangilan dialects of the Azerbaijani language, [1, p. 496]. Taking into account the logical compatibility, when analyzing lexically-semantically, we can come to the conclusion that the distribution of the word has the meaning of physiological, physical and spiritual discomfort and mental and spiritual discomfort.

According to ancient thinking, the soul is immortal, separate from matter and body, as a part of God. Different peoples have different ideas about the soul according to their worldview. As a concept, its origin is from the Greek word *"psyche"*, which means breath, soul, and sometimes mind. In Latin, the word spiritus is used in the semantics of life force, giving life to the body. As a term of Arabic origin, the word soul includes the meanings of wind and air [11]. If we approach it from the context of the impossibility of life without soul, breath, air, it is possible to clearly see that the word has a positive meaning and connotation. We can expand the semantic volume of the lexeme and present it as the semantic field of the concept of good.

Even if we conclude that the basic semantics of the word god is sacred in the mass consciousness, if we look at the development dynamics and distribution of the term as a lexical unit, we witness the semantic correlation of different concepts that are equivalent to each other. For example, in ancient Turkish, the word *"sky"* and "the greatest creator" have the same meaning, as well as concepts with cognitive features such as great, unattainable, justice, holy create a single correlation, express a positive meaning and connotation.

Thus, the existence and things that people consider sacred are those that bring good, save from poverty, and represent justice, even if they are not visible to the eye or inaccessible. After the adoption of Islam, the lexemes of god and sky, which are in opposition to each other, were replaced by the word sky and the word tengri by Allah mahfumu in the lexicon of Turkish languages. The Sky God (Gök Tengri) is believed to be the creator of all things and lives between the sky and the earth as the most widespread among the ancient Turkish communities and as the basic concept of the Sky God belief system, which they believed for a long time and the god who elevated my Grandfather Khagan and my Mother Hatun to the throne so that his fame would not disappear! God who gives years! *"Uze Türk tengrisi, Türk ıduk yeri-subi ancha timish-turk bodun yok bolmazun"* [2, p 17]. The paremiological analysis of this example from the language of Goyturk monuments leads to the conclusion that the Khaga's accession to the throne, the existence of the Turkish nation, and the blessing of the god whose protection is considered sacred, were realized. The belief in the Sky God, which spread among the human communities living in Siberia and Central Asia, left a deep mark among the Samodes, Tungus, and Turko-Tatar peoples. The Sky God is called "buga-bull" by Tungus, Somodei "num", Mongols "tengri", Buryats "tengeri", Beltir "tingir", Yakuts "tangara", "supreme sovereign", Altai Tatars "White Light", Volga Tatars "töngere". [4, p 9]. When Altai Turks pray, they say "our father who is on high, the god who decorates the world with stars and created all beings" is one of the cognitive signs of the concept of god. The belief system of the Turkish peoples, as one of the signs that verbalize the concepts of God and holiness with information about various cults, and reflect the semantic features of the concept of good from different paradigms, requires a deep and comprehensive study.

References

1. Dialectological dictionary of the Azerbaijani language, Baku, East-West, 2007, 568p, p496
2. Ögel B."Development ages of Turkish culture", Turkish world research foundation, Istanbul 1988, Kulteg's writing I east, p. 17,788 p.
3. Kocaova Kutlu Altay "Turkish Polytheism; Tengriism". Istanbul 2014 74 S, S
4. Kalafat, Yashar, "Kaism-Shamanism from the Altai to Anatolia", Yeditepe Publishing House, Istanbul, 2004, p.9
5. Losef A.F. "Philosophy. Mythology. Culture." Moscow, 1981
6. Muharramli B. Homogeneous words in world languages. Baku, Khazar University publishing house, 2016, pp. 63-64
7. Seyidov M. Thinking about the roots of the Azerbaijani people, Baku, 1989, p168
8. Yagub Babayev. Sect literature: Sufism, Hurufism. Funding for philological faculties of higher schools. Baku, "Nurlan", 2007, -128p, p10
9. EDOC-Schuessler Axel. ABC Etymological Dictionary of Old Chinese. Honolulu University of Hawaii Press, 2007, p495
10. Clauson G An Etymological Dictionary of Pre Thirteenth-Century Turkish. Oxford, At the Clarendon Press, 1972.
11. https://indigodergisi.com/2018/05/ruh-kavrami-etymolojisi-tarihcesi/

XÜLASƏ
DİNİ VƏ MİFOLOJİ KONTEKSTDƏ TANRI VƏ RUH DENOTATLARININ MƏZMUN CƏHƏTDƏN XEYİR ANLAYIŞI İLƏ PARADİQMASI

Musayeva İ.İ.

Açar sözlər: *din, mifologiya, tanrı, ruh, xeyir, konsept, dilçilik*

Fövqəlbəşəri xüsusiyyətlərə, qüdrətə və iradəyə malik olduğu düşünülən, bacarıq və güclərinə görə adlandırılan, qədim xalqların inanc sisteminin ən ali varlığı olan *tanrı* və *ruh* denotatları qədim mifik təfəkkürə görə nominativ məna etibarilə *xeyir* və *şər* anlayışları ilə məzmun cəhətdən paradiqma yaradır. Müəyyən kontekst daxilində, müəyyən situasiya çərçivəsində dərin və fəlsəvi məna anlamı ilə gündəlik istifadə etdiyimiz söz və ifadələrdə, dastan və miflərin dilində, folklor nümunələrinin dilində bu anlayışlar əsasən *xeyir* konseptinin baza səciyyəli semantikası kimi verballaşır. Məqalədə mücərrəd və daha dərin anlamda *tanrı* və *ruh* məhfumlarının leksik-semantik təhlili verilmiş, xeyir anlayışına transformasiyası və denotativ mahiyyəti incələnmişdir.

РЕЗЮМЕ
ПАРАДИГМИРОВАНИЕ ОБОЗНАЧЕНИЙ БОГА И ДУХА В РЕЛИГИОЗНО-МИФОЛОГИЧЕСКОМ КОНТЕКСТЕ С СУБСТАНЦИОННЫМ ПОНИМАНИЕМ ДОБРА

Мусаева И.И.

Ключевые слова: *религия, мифология, бог, душа, добро, понятие, языкознание.*

Обозначения бога и духа, которые, как считается, обладают сверхчеловеческими характеристиками, силой и волей, названы в соответствии с их навыками и способностями и являются высшими существами системы верований древних народов. Согласно древнему мифическому мышлению они создают парадигму по содержанию с понятиями добра

и зла в номинативном смысле. В определенном контексте, в рамках определенной ситуации, в повседневно употребляемых нами словах и выражениях с глубоким и философским смыслом, на языке былин и мифов, на языке фольклорных примеров эти понятия в основном вербализуются как основная характеристика семантики понятия добра. В статье дается лексико-семантический анализ понятий бог и душа в абстрактном и более глубоком смысле, разрабатывается их трансформация в понятие добра и их денотативная сущность.

TƏRCÜMƏ NƏZƏRİYYƏSİNDƏ LİNQVİSTİK PROBLEMLƏR

Quliyeva G.A.
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
gulerquliyeva9@gmail.com

Açar sözlər: tərcümə, nəzəriyyə, janr, növ, linqvistika, tərcümədə semantika

Tərcümə bəşəriyyətin mədəni inkişafında mühüm rol oynayır. Tərcümə sahəsində bir ölkənin xalqı digər ölkə xalqlarının həyatı, məişəti, tarixi, ədəbiyyatı, elmi nailiyyətləri və s. ilə tanış olur. Yəqin ki, bəşər cəmiyyətində, onun inkişafında tərcümənin rolunu qiymətləndirməyən bir insan tapılmaz. Tərcümə bütün dünyanı bir-birinə birləşdirən ən qüdrətli vasitələrdən biri olmuş və olmaqda davam edir. Tərcümə müxtəlif qəbilələrin xalq və millətlərin birbirini başa düşməsində, elə bir rol oynayır ki, onsuz bəlkə də bir-birindən təcrid olunar və ümumiyyətlə inkişafdan qalardı. Tərcümə millətlərin bir-birinə yaxınlaşması, dostlaşması, bir-birinin inkişafından bəhrələnməsi və bir-biri ilə əməkdaşlıq etməsinin əsasını təmin edən bir aktdır. Bunun bir həqiqət olduğunu insanlar hələ qədim zamanlardan başa düşmüş və bu lazımlı sənət yolunda ömürlərini sərf etmişlər. Əgər tərcümə sənəti olmasaydı biz bu gün nəinki Qərbin, hətta bir hissəsi olduğumuz Şərqin də elmindən, mədəniyyətindən bəhrələnə bilməzdik.

Tərcümə nəzəriyyəsi nəinki tərcümənin məqsəd və vəzifələrini müəyyənləşdirir, eyni zamanda tərcümə problemlərinin həlli yollarını da göstərir. Onun vəzifəsi iki dilin leksik, qrammatik, stilistik cəhətdən uyğunluqlarını aşkara çıxarmaq, fərqli cəhətləri göstərməkdir.

Tərcümə nəzəriyyəsi tərcümə prosesində qarşıya çıxan problemlərin çözülməsi zamanı meydana gəlir və formalaşır. Bütün elmlərdə belədir, problem yoxsa, onun həlli istiqamətində də heç bir təşəbbüs göstərilmir.

Kifayət qədər zəngin tarixi olan tərcümə sənəti daima cəmiyyətin ictimai, siyasi, mədəni həyatında xüsusi əhəmiyyət kəsb etmişdir. Bu baxımdan tərcümə janrları və tərcümə növləri özünəməxsus prinsiplərinə və əhatə dairəsinə görə dünya xalqlarının mənəvi, mədəni səviyyələrdə yaxınlaşmasındakı rolu danılmazdır.

Tərcümə nəzəriyyəsində mətnin linqvistikası başlıca problem hesab olunur. Çünki o mətnə müxtəlif, o cümlədən, mədəni-tarixi səviyyələrdən yanaşmaq imkanı verir. Tanınmış tərcüməşünaslardan A.Şveyser və K.Rays bu mühüm məsələni araşdırarkən ilk növbədə üç faktorun vəhdətini əsas götürürlər: konseptual informasiya aparatı, mətnin linqvistikası və funksional stilistika.

Belə ki, bu üç amil nisbi müstəqilliyə malik olsalar da, onlardan biri digərindən təcrid şəkildə təhlil oluna bilməz. Mətnin semantika məsələsi onun stilistika ilə birbaşa və dolayısı ilə bağlı olur. Şveyser və Rays b u baxımdan "mətnin tipini", "janrını" nəzərdə tuturlar. Mətnin janrı üç semiotik ölçü ilə müəyyənləşdirilir (semantika, praqmatika və sintaksis). Bu cür yanaşma təbiidir: elmi-publisistik janrla poetik mətnin arasında istər semantik, istər praqmatik və istərsə də üslub fərqi nəzərə-çarpacaq dərəcədədir.

Beləliklə, mətnin janr variantlılığına nitq zamanı müvafiq dil vasitələrinin seçimini müəyyənləşdirən sosial normaların təzahürü daxildir. Tərcümə praktikasında mövcud olan cəhətlər cəmiyyətin və mədəniyyətin sosial normaları ilə bağlı olur. Təbii ki, bunların hamısı bədii tərcümədə daha qabarıq şəkildə müşahidə olunur. Ədəbiyyat söz sənətidir və o aid olduğu xalqın dilindən daima bəhrələnmiş, formalaşmış və inkişaf etməkdədir.

Tərcüməni möhkəm linqvistik əsası olmadan təsəvvür etmək mümkün deyil. Belə ki, əsas məqsəd orijinalın və tərcümənin dilləri arasında mövcud olan dil hadisələrinin müqayisəli öyrənilməsi və onlardakı müəyyən müvafiqliyi təyin etməkdən ibarət olmalıdır. Leksika, frazeologiya, sintaksis və üslub sahələrindəki bu müvafiqlik tərcümə nəzəriyyəsinin əsasını təşkil etməlidir.

Tərcümə nəzəriyyəsinin başlıca problemlərindən biri mətn məsələsidir. Tərcümənin birinci mərhələsində orijinalın interpretasiyası ilə bağlı təhlil predmeti məhz mətn hesab olunur, son mərhələdə də məhz mətn sintez predmeti hesab olunur. Elə buna görə də, bu problem tərcümə nəzəriyyəçilərinin diqqətini cəlb edir. Tanınmış alim R.Ştolse hesab edir ki, tərcümə prosesinin nəzəri cəhətdən dərk olunması mətnin linqvistikası ilə germenevtikanın sıx əlaqəsi nəzərə alınmaqla qurulmalıdır.

Bunların hamısı bu və ya digər dərəcədə kontekstlə bağlıdır. Məsələn, germenevtika qədim mətnlərin leksik tərkibini təşkil edən sözlərin bir qisminin həqiqi mənada deyil, fəlsəfi, məcazi yaxud sətiraltı mahiyyət daşıdığını qeyd edir.

Bundan əlavə lap qədimdə hələ dilin inkişafının erkən mərhələlərində insanlar predmet və hadisələri ümumi adı ilə deyil, təsadüfi, nadir yaxud səbəb və məqsəd əlaqələri ilə ifadə edirdilər. Məsələn, qədim şumer dilində "öldürmək" deməkdən ötəri "sag-gis-rah" (hərfi mənası "başına ağacla vurmaq") işlədirdilər, baxmayaraq ki, söhbət qılıncla öldürməkdən gedir. Yaxud qədim akkad, semit dillərində sözün semantik cərgəsi səbəb-məqsəd-nəticə əlaqəsi ilə xarakterizə olunur. Məsələn, "hayyat" həm qan, həm qan qohumluğu, həm içməli su və həm də suyun mənbəyini qoruyan ilan, əjdaha anlamı verir.

Göründüyü kimi, kontekst belə mətnlərdə daha geniş, leksik və tarixi miqyasda təmsil olunduğundan tərcüməçilər bəzi leksik vahidlərin mənasını bir yox, bir neçə sosial-mədəni yaxud mədəni-tarixi kontekstdə konkretləşdirmək məcburiyyətində qalırlar.

Mütərcim tərcümə mətnində zaman amilinin saxlanmasına çalışarkən dilin daima dəyişkən leksik tərkibini də nəzərdən qaçırmamalıdır.

Mətnin tərcüməsində onun semantikasının nəzərə alınmasıməsələsi bu gün tərcümə nəzəriyyəsində ayrı-ayrı leksemlərin mənası məsələsinə yeni yanaşma tələb edir.

Onları müəyyən semantik toplumun "kəsiyi" kmi deyil, onları mətn müstəvisində semantik və praqmatik parametrlərə çevik cavab verən dəyişkən semantikanın məcmuu kimi qəbul etməyi tövsiyyə edir.

Tərcümə mətnin linqvistikasına janrın sosial interpretasiyası məsələsi də daxildir. Belə ki, mətnlərin janr varinatlığı tərcümədə dil vasitələrinin seçimi zamanı müvafiq sosial normalar ilə əlaqəli olur. Tərcümə praktakasında konkret cəmiyyəti və mədəniyyəti əks etdirən üç tip sosial normalara rast gəlinir:

1) mətnin qurulma normaları (orijinalı);
2) tərcümə dilində mətnin qurulma normaları;
3) tərcümənin normaları.

K.Rays hesab edir ki, tərcümədən öncə və tərcümə prosesində bu normalar dillər və mədəniyyətlər arasındakı fərqi aydınlaşdırır. Elə janrlar var ki, tərcümə dili üçün ənənəvi sayılmır.

Tərcümə nəzəriyyəsi tərcümənin dil quruluşunu öyrənməklə məşğul olmur. Çünki tərcümə təkcə müxtəlif dillərin qarşılaşması deyil, həm də həmin dillərin mənsub olduğu xalqların mədəniyyətlərinin qarşılaşmasıdır. Tərcümədən həm orijinal mətnin yaranması şəraiti, həm də tərcümənin insan tərəfindən həyata keçirdiyini də nəzərə almamaq olmaz. Axı bu adamın da dünyagörüşü, psixologiyası və ümumi intellektual səviyyəsi tərcümənin son nəticəsində özünü göstərir.

Buna görə də tərcümə nəzəriyyəsinin mövzusuna tərcümə prosesi geniş sosial-mədəni kontekstdən daxil olur ki, burada dil faktorlarının, sosial, mədəni və psixoloji amillərin ona təsviri də nəzərə alınır.

Tərcümə anlayışı çox geniş fəaliyyət sahəsini əhatə edir. Bir dildən başqa dilə şer, nəsr, publisistik əsərlər, məqalələr, elmin müxtəlif sahələrinə aid əsərlər, kargüzarlıq sənədləri, natiqlərin çıxışları, qəzet materialları, kinofilmlər və sairənin tərcüməsi. «Tərcümə» sözünün iki terminoloji mənası vardır:

1) Bir dildən başqa dilə tərcümə prosesi,
2) Bu prosesin nəticəsi, daha doğrusu hazır tərcümə.

Bu iki məna bir-biri ilə qarşılıqlı münasibətdə və əlaqədədirlər, belə ki, birinci həmişə ikincini şərtləndirir, yəni, əgər proses gedirsə nəticə də olmalıdır. Bununla belə tərcümə istilahı ilə ifadə edilən bu mənaları həm də fərqləndirmək lazımdır. Çünki bunlar bir-birinə bağlı olduğu kimi, həm də müəyyən cəhətlərə görə fərqlənirlər.

Mütəxəsislər tərcümənin bir sənət kimi lap qədimlərdən mövcud olduğunu çoxdan sübut etmişlər. Hələ "eramızdan əvvəl III–II əsrlərdə Luçiy Liviy Andronik Homerin məşhur "Odisseya" əsərini latın dilinə tərcümə edərək dünya ədəbiyyatı tarixində bədii tərcümənin bizə məlum nümunəsini yaratmışdır".

Bəlkə də bədii tərcümə tarixi daha qədimlərə gedib çıxır. Hələlik mütəxəsislər həmin tarixi bu əsərin adı ilə bağlayırlar. Lakin bu da həqiqətdir ki, əksər xalqların ədəbi fikrinə, ədəbiyyatının formalaşmasına və inkişafına daha çox inkişaf etmiş qonşu xalqların ədəbiyyatından edilən müxtəlif tipli iqtibaslar da öz təsirini göstərir və bu iqtibasların özlərini də müəyyən mənada bədii tərcümə nümunələri hesab etmək olar. Ümumiyyətlə, ədəbi əsərlər bu və ya digər dilə tərcümə olunaraq həmin xalqın mənəvi sərvətinə çevrilir.

Tərcümə nəzəriyyəsinə dair mənbələrdə tərcüməşünaslığın ekvivalentlik, janr-üslub, praqmatika, konvensional normaları kimi normativ tələbləri diqqətə alınmaqla aşağıdakı əsas kateqoriyalarından bəhs olunur:

- ekvivalentlik kateqoriyası. Bu kateqoriyanın uyğunluq tipləri ekvivalent tərcümə, variant uyğunluğu və mətn uyğunluğudur;
- adekvatlıq – qeyri-adekvatlıq kateqoriyası. Bu kateqoriya ekvivalentlik kateqoriyasına oxşasa da, tam eyniyyət təşkil etmir. Belə ki, ekvivalentlik mətnin (orijinalın) tam, mükəmməl (tam dəyərli) tərcüməsi

deməkdir. Adekvatlıq isə orijinala ən yaxın, orijinalın məzmununu kifayət dərəcədə ifadə edən tərcümə variantlarından biri mənasına gəlir;

- variantlıq – invariantlıq kateqoriyası. Eyni bir mətnin orijinalla tam dəyərli, yaxud adekvat olan tərcümə variantlarıdır;
- orijinal mətnin (informasiyanın) dəyərliliyi, praqmatikliyi kateqoriyası. Bu, mətnin tərcüməsi zamanı saxlanması zəruri olan (relevant) və çıxarılması mümkün olan (qeyri-relevant) informasiya deməkdir;
- orijinal mətnin (informasiyanın) tərcümə üsulu kateqoriyası. Orijinal mətnin strukturu dəyişilmədən (cümlə quruluşu, janr tipi və s.) tərcümə edilir, yaxud da tam dəyərli tərcümə işi orijinalın strukturu ilə başqa şəkillərə transformasiya edilərək (şeir nəsrlə, mürəkkəb cümlə iki sadə cümlə ilə və s.) həyata keçirilir;
- tərcümənin keyfiyyəti kateqoriyası. Tərcümə işi tamamlandıqdan sonra ortaya çıxan nəticənin (tərcümənin) keyfiyyəti onun bir neçə əlamətinə görə müəyyənləşdirilir: orijinalın və tərcümənin məna yaxınlığına görə; janr-üslub ekvivalentliyinə görə; praqmatik faktorlara görə (məsələn, bədii tərcümə ədəbi dəyərinə, texniki tərcümə terminoloji ekvivalentliyə, reklam tərcüməsi onun effektlilik dərəcəsinə görə qiymətləndirilir).

Nəticə. Tərcüməyə (tərcümə prosesinə) verilən müxtəlif təriflər içərisində ən yığcam olanı budur ki, tərcümə – bir dildə ifadə olunanın başqa bir dilin imkan və vasitələri ilə ifadə edilməsidir. Bu isə yalnız o zaman mümkün olur ki, mütərcim hər iki dili ən dərin incəliklərinəcən bilir. Söhbət bədii tərcümədən gedirsə, mütərcim eyni zamanda çevirdiyi əsərin müəllifinin yaradıcılıq üslubuna, yazı tərzinə, yazıçının ölkəsinin adət-ənənələrinə, coğrafiyasına, ictimai-siyasi şəraitinə, o dilin dialektlərinə dərindən bələd olmalıdır. Mütərcim iki dildən birini yaxşı, digərini zəif bilirsə, tərcümənin sönük çıxacağı şübhəsizdir. Tərcüməçi xüsusilə öz ana dilini kamil bilməlidir. Qəribə görünsə də, əcnəbi dildən ciddi əsəri tərcümə etməkdən ötrü həmin xarici dildən daha çox, ana dilini yüksək səviyyədə bilmək lazımdır ki, onu xalis xalq dilində tələbkar oxucuya çatdıra biləsən.

Tərcüməni möhkəm linqvistik əsası olmadan təsəvvür etmək mümkün deyil. Belə ki, əsas məqsəd orijinalın və tərcümənin dilləri arasında mövcud olan dil hadisələrinin müqayisəli öyrənilməsi və onlardakı müəyyən müvafiqliyi təyin etməkdən ibarət olmalıdır. Leksika, frazeologiya, sintaksis və üslub sahələrindəki bu müvafiqlik tərcümə nəzəriyyəsinin əsasını təşkil etməlidir.

Ədəbiyyat

1. Bayramov Q.H. Tərcümə sənəti. Bakı, 2008.
2. Tərcümə sənəti. Bakı. Elm, 1990.
3. Гальперин И.Р. Перевод и стилистика. М.: Наука, 1950.
4. Швейцер А.Д. Теория перевода. М.: Наука, 1988.

РЕЗЮМЕ
ЛИНГВИСТИЧЕСКИЕ ПРОБЛЕМЫ В ТЕОРИИ ПЕРЕВОДА

Гулиева Г.А.

Ключевые слова: *перевод, теория, жанр, тип, лингвистика, семантика в переводе*

Лингвистика текста считается главной проблемой теории перевода. Потому что это дает возможность подойти к тексту с разных, в том числе культурно-исторических уровней. Одни из известных переводчиков А. Швейцер и К. Райс, исследуя этот важный вопрос, прежде всего берут за основу единство трех факторов: концептуального информационного аппарата, лингвистики текста и функциональной стилистики.

Невозможно представить перевод без прочной языковой базы. Итак, основной целью должно стать сравнительное изучение языковых явлений, существующих между языками оригинала и перевода и установление в них определенного соответствия. Эта актуальность в области лексики, фразеологии, синтаксиса и стиля должна лечь в основу теории перевода.

SUMMARY
LINGUISTIC PROBLEMS IN TRANSLATION THEORY

Guliyeva G.A.

***Keywords*:** translation, theory, genre, type, linguistics, semantics in translation

Linguistics of the text is considered the main problem in translation theory. Because it gives an opportunity to approach the text from different, including cultural-historical levels. One of the well-known translators, A. Schweizer and K. Rice, while investigating this important issue, first of all take as a basis the unity of three factors: conceptual information apparatus, linguistics of the text and functional stylistics.

It is impossible to imagine a translation without a solid linguistic foundation. So, the main goal should be the comparative study of the language phenomena existing between the languages of the original and the translation and determining a certain

correspondence in them. This relevance in the fields of lexis, phraseology, syntax and style should form the basis of translation theory.

ОСОБЕННОСТИ РЕАЛИЗАЦИИ ТЕМПА И ТЕМБРА В РАЗГОВОРНОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Нуралиева Г.Ф.
Азербайджанский университет языков, Баку, Азербайджан
nuraliyeva73@mail.ru

***Ключевые слова**: интонация, темп, тембр, пауза, речь.*

Компоненты интонации можно рассматривать на акустическом уровне. Каждый из них имеет свое собственное акустическое понятие и может быть объективно измерен. Высота тона коррелирует с частотой колебаний голосовых связок, громкость коррелирует с интенсивностью, темп коррелирует со временем (продолжительностью), в течение которого длится речевая единица. Высота тона обычно описывается как система тонов, уровни высоты тона и диапазоны высоты тона.

Громкость описывается как нормальная, повышенная или низкая. Темп включает в себя темп речи и паузу. Темп речи может быть нормальным, медленным и быстрым. Части высказывания, которые особенно важны, обычно произносятся в медленном темпе, в то время как в менее важных частях темп речи имеет тенденцию быть быстрее.

Любой отрезок речи может быть разделен на более мелкие сегменты с помощью пауз. Пауза - это полная остановка фонации. Паузы классифицируются в зависимости от их продолжительности, их положения в высказывании и их функции. При изучении английской интонации достаточно различать следующие типы пауз:

− короткие паузы, которые могут использоваться для разделения интонационных групп внутри фразы;

− более длительные паузы, которые обычно указывают на конец фразы;

− очень длинные паузы, которые используются для разделения больших фонетических единиц. Паузы, сделанные между двумя предложениями, обязательны. Паузы обычно делятся на заполненные и незаполненные, соответствующие озвученным и тихим паузам. Функционально можно выделить синтаксические паузы (которые разделяют тонограммы, фразы, интонационные группы), выразительные паузы (которые служат для того, чтобы сделать некоторые части высказывания особенно заметными) и паузы колебания (которые в основном используются в спонтанной речи, чтобы выиграть некоторое время, чтобы обдумать, что сказать дальше). Помимо сегментации речевого континуума, паузы способствуют временной и ритмической организации речи. Все компоненты интонации тесно взаимосвязаны в процессах производства речи и восприятия речи.

В как таковое понятие темпа входят: скорость речи в общем, продолжительность звучания единичных слов, интервалы, а также протяженность, или длительность пауз.

Темпом называется понятие о быстроте, скорости протекания речи. В различных стилях речи темп обладает характеристикой, а также значимостью в противопоставлении необходимого с неважным. Таким образом, мы можем точно заметить, что темп, относящийся к информационному характеру носит в себе более учащенный темп. В то время как, чтение различных сказок, или детских программ, темп более размеренный и спокойный. Очень часто, можно заметить, что ускоренный темп в конце или в начале повествования говорит о не столь важном значении той или иной информации, которую пытается донести рассказчик. Эту информацию можно назвать второстепенной. И наоборот, повествование или замедленный темп при произнесении определенных фраз в предложении, может дать понять слушателю о том, что именно эта часть является той, на которую следует обратить внимание. У темпа присутствуют свои нормы произнесения количества фонем за одну секунду, и оно не должно превышать четырнадцати. Следует также и упомянуть, о том, что 105-110 слов в минуту является самым оптимальным количеством. Такое количество слов помогает учащимся оставаться сфокусированными на занятии, и при этом качественно усваивать тему. Темп ускоряется, если: передается материал менее важный, или информация уже отлично

знакомая, показывается нечто быстрое; ускоряется на фразах - не имеющих фундаментальной семасиологический нагрузки, воссоздающих известное.

Тембр - окраска, или характер звука голоса. В словаре О. Ахмановой дается толкование двум терминам: тембр I и тембр II. К компоненту интонации имеет отношение тембр II. «Специфическая суперсегментная окраска речи, придающая ей те или другие экспрессивно-эмоциональные свойства» [1, с. 18-19].

Необходимо уметь отличать индивидуальный тембр и интонационный тембр. Абсолютно у каждого отдельного человека есть его собственный, индивидуальный тембр голоса, и именно это помогает нам различать голоса людей друг от друга. Однако данный тембр не является элементом интонации. Такой самобытный тембр дается исключительно посредством анатомического сложения речевого аппарата.

«Интонационный тембр (как компонент интонации) порождается произвольным изменением формы некоторых резонаторов в этом аппарате и создается взаимодействием диапазонной высоты и интенсивности. Тембр участвует в выражении эмоций, его семантическая функция наблюдается при изображении свойств некоторых предметов и явлений действительности» [3, с. 37]. Тембральная окраска речи может повысить или понизить эффект речи в целом. Тембральная окраска - один из ведущих параметров, который оценивается слушателями при первичном восприятии звучащей речи. Он вызывает у слушателей определенную реакцию: если тембр отражает негативные эмоции, то соответственно - отрицательную реакцию. В интонации педагогической речи преобладают негативные эмоции, поэтому будущему учителю важно обратить внимание на индивидуальный тембр своего голоса и на умение искусно менять тембральную окраску в зависимости от ситуации общения. Интонация тесно связана со смыслом, синтаксической структурой и ритмом речи.

Паузы характеризуются такими параметрами, как место возникновения, длительность и заполнение. Локализация и длительность пауз, несущие четко выраженную функциональную нагрузку, рассматриваются многими авторами. Например, «Роль пауз не раз отмечалась наряду с другими средствами для разграничения разных значимых сочетаний» [4, с. 21].

Особенно ясна она в разграничении речевых тактов», - очевидно, здесь и в подобных контекстах речь идет о локализации пауз. Далее А.Н. Гвоздев пишет: «По-видимому, в качестве различительного средства фигурирует и длительность пауз; именно разная продолжительность их помогает группировать речевые элементы, устанавливая между ними перспективу по большей или меньшей их близости и намечая единства высшего и низшего порядка. Перцептивная категоризация пауз по длительности исследовалась многими фонетистами» [4, с. 11].

В результате экспериментов, проведенных М. Г. Каспаровой, было установлено, что интервал длительностью от 3 до 25 мс воспринимается аудиторами как треск, щелчок, помеха на магнитофонной ленте и т.д. Интервал от 25 до 100 мс оценивается как нарушение в звучании, но как пауза в большинстве случаев не осознается, хотя «в позиции, обусловленной для членения нормой языка» паузы могут восприниматься даже начиная с 20-25 мс [6, с. 22].

Длительность пауз варьируется в широких пределах и зависит помимо семантико-синтаксических факторов от просодического контекста, стилистических характеристик текста, а также от вида речевой деятельности. По данным других авторов, нижний порог восприятия паузы составляет порядка 200 мс. При чтении текста время длинной паузы часто используется говорящим для дыхания: чтобы сделать вдох, выдох или даже осуществить несколько дыхательных циклов.

Средние паузы обычно сопряжены с выдохом. Короткие паузы, как правило, реализуются с помощью гортанной смычки, заполняются продолжающейся вокализацией или же характеризуются отсутствием какого-либо артикуляторного заполнения.

Литература

1. Ахманова О. «Английская интонация», М., 1974.
2. Антипова А.М. «Система английской речевой интонациии», М., 1977.
3. Баранов Р.Е. «Семантика акцентного выделения», М., 1982.
4. Гвоздев А.Н. «Интонационные особенности английской речи», М., 1983.
5. Дикушина О. «Фонетика английского языка», М., 1952.
6. Зиндер Л.Р. «Общая фонетика», М., 1979.
7. Каспарова Н. «Пособие по фонетике английского языка», М., 1983.
8. Лебединская Б.Я. «Фонетический практикум по английскому языку», М., 1978.

XÜLASƏ
İNGİLİS DİLİNİN RABİTƏLİ NİTQİNDƏ TEMP VƏ TEMBRİN REALLAŞMA XÜSUSİYYƏTLƏRİ
Nurəliyeva G.F.

***Açar sözlər**: intonasiya, temp, tembr, pauza, nitq*

Məqalədə intonasiyanın komponentlərindən olan temp və tembrdən bəhs edilir. Eləcə də, intonasiyanın əsas xüsusiyyətlərini öyrənməyə cəhd edilmişdir. Bununla yanaşı, intonasiyanın temp və tembr komponentləri akustik səviyyədə təhlil edilmişdir. Bu komponentlər tanınmış alimlərin nöqtəyi nəzərindən də təhlil edilmişdir. Eyni zamanda məqalədə tempin, tembrin və pauzanın əsas komponentləri kimi vacibliyi vurğulanmışdır.

SUMMARY
REALIZATION FEATURES OF TEMPO AND TIMBRE IN COLLOQUIAL ENGLISH SPEECH
Nuraliyeva G.F.

***Key words**: intonation, tempo, timbre, pause, speech*

The article deals with the components of intonation in the English language. Also, an attempt is made to study the main peculiarities of intonation. At the same time, tempo and timbre are studied on the acoustic level. These components have also been studied from the scientific view points in the works of the famous scholars. Along with this, in the article, the importance of tempo and timbre is studied.

MÜASİR İNGİLİS DİLİNDƏ QRAMMATİK SİNONİMLƏRİN TƏHLİLİ VƏ İŞLƏNMƏSİ

Baxşəliyeva N.R.
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
natavanabbas@gmail.com

***Açar sözlər**: sinonimlik, qrammatk sinonimlik, morfoloji sinonimlik, zaman formaları, şəkilçilər*

Sinonimlər dildə geniş tədqiq olunmuş bir dil hadisəsidir. Sinonimliyin xüsusilə leksik növləri geniş araşdırılmış, dilçilikdə sinonimlər haqqında fərqli fikirlər, mülahizələr formalaşmışdır.

Müasir ingilis dilində mükəmməl bir səviyyəyə çatmış sinonimlik hadisəsi bir çox müəlliflər tərəfindən araşdırılmışdır. Müasir ingilis dili zəngin lüğət tərkibinə malik olduğundan hər hansı bir anlayışın təxmini analoqunu ifadə etmək çox asandır. Təbii ki, əksər hallarda bu sözlərdən hər biri öz sinonimindən müəyyən bir xüsusiyyətinə, əlamətinə görə fərqlənir.

Dilin qrammatik səviyyəsində yaranan sinonimlərdən danışdıqda qeyd etməliyik ki, leksik sinonimlikdən fərqli olaraq onlar daha mürəkkəb bir dil hadisəsidir. Qrammatik sinonimlik məsələsini ilk dəfə O.Yespersen istifadə etsə də, bu anlayışın məğzini tam aydınlaşdıra bilməmişdir [5, s.219].

Sintaktik səviyyədə sinonimlik məsələsi N.Xomski tərəfindən də təhlil olunmuşdur. N.Xomski sintaktik əlaqələrin ümumi bir sistemi ilə bağlı olan sintaktik konstruksiyaların çoxunu sinonim kimi qəbul edirdi. [3 s. 25].

Rus dilçisi A.M.Peşkovski qrammatik səviyyədə yaranan sinonimləri tam müəyyən edən ilk dilçidir.

"Qrammatik məzmununa əsasən oxşar olan söz və söz birləşmələri qrammatik sinonimlərdir" [2, s. 18].

Beləliklə, A.M.Peşkovski fərqli qrammatik modellərdən istifadə edərək bir ümumi məzmunun ifadə edilməsini qrammatik səviyyədə yaranan sinonimlik hesab etmişdir.

Dil səviyyələrinə uyğun olaraq qrammatik sinonimlər morfoloji və sintaktik səviyyədə tədqiq olunur.

Morfoloji dil səviyyəsində yaranan sinonimlər variantlardan fərqlənir. Belə ki, variantlar tam eyni mənanı ifadə etdiyi halda, sinonimlər oxşar qrammatik məzmuna malik olur. Bu məsələ ilə bağlı dilçi Q.M. Birkenqof qeyd edir:

"Sözün oxşar qrammatik mənaya malik forması morfoloji sinonimlər hesab olunur" [1, s. 30].

Morfoloji sinonimliyi tədqiq edərkən, şəkilçilərdən də bəhs etmək lazımdır. Müasir ingilis dilində qrammatik mənasına görə oxşar mənalı şəkilçilər də mövcuddur. Qeyd etmək lazımdır ki, funksional xüusiyyətlərinə görə şəkilçilərin mənası sözlərin mənalarından fərqlənir. Şəkilçilər sözlərə xas olan konkret leksik mənadan daha çox mücərrədliyə malikdir.

Müəyyən bir nitq hissəsinə aid olan yeni sözlər yaratmaq üçün bu nitq hissəsi daxilində sözlərin leksik-semantik qruplarını formalaşdıran bir sıra şəkilçilərdən (affikslərdən) istifadə olunur. Məsələn, "müəyyən bir işlə məşğul olan insan", "hərəkəti həyata keçirən şəxs" mənasında olan isimlər bir çox dillərdə geniş yayılmışdır. İngilis dilində bu isimlər bir sıra şəkilçilər vasitəsilə düzəlir. Beləliklə, *work**er*** 'fəhlə', *bak**er** 'çörəkçi, novel**ist*** 'nasir', *stud**ent*** 'tələbə', *combat**ant*** 'döyüşçü', *administr**ant** 'idarəçi', electric**ian***

‘elektrik’, *mechanic**ian*** ‘mexanik’, *sales**man** ‘satıcı’, waitr**ess** ‘ofisiant’* sözləri onlara artırılan şəkilçilərin köməyilə leksik-semantik söz qrupları yaradır və morfoloji sinonimlik qrupu təşkil edirlər. Bu şəkilçilərin sinonimliyi özünü onda göstərir ki, onların iştirakı ilə yaranan sözlər müəyyən işi yerinə yetirən və ya işlə məşğul olan (kişi və ya qadın) şəxs mənasında işlədilir. Bu şəkilçilər mənaca oxşardır və bu səbəbdən onlar oxşar və ya yaxın mənalı sinonim sözlər qrupu təşkil edir.

İnkarlıq ifadə edən bir sıra şəkilçilər sözlərə artırılaraq bildirdikləri inkar mənalarına görə sinonim bir qrup yaradır. Məsələn,

Feillər – *to **un**tie* ‘açmaq’, *to **dis**sapear* ‘yox olmaq’, *to **mis**understand* ‘səhv başa düşmək’;

İsimlər – ***dis**order* ‘qarışıqlıq’, ***mis**treatment* ‘pis rəftar;

Sifətlər – ***un**believable* ‘inanılmaz’, ***dis**similar* ‘fərqli’

Lakin sözlərin sinonimliyi ilə şəkilçilərin sinonimliyini eyniləşdirmək olmaz, çünki şəkilçilər sözlərdən fərqli olaraq müstəqil şəkildə işlənə bilmir. Onlar yalnız sözün tərkib hissəsi kimi çıxış edirlər. Məsələn, *electric**ian*** və *novel**ist*** sözlərinə diqqət etsək görə bilərik ki, hər iki söz sinonim olmadığı halda, onlara artırılan suffikslər sinonim hesab edilir. Belə ki, bu şəkilçilərin sinonimliyi həmin şəkilçili sözlərin müəyyən leksik-semantik qrupa aid olmasını göstərir.

Şəkilçilərin sinonimliyindən bəhs edərkən onu da xüsusilə nəzərə çatdırmalıyıq ki, sözə hansı şəkilçinin artırılması həmin sözün fumksional-semantik xüsusiyyətlərindən asılıdır. Məsələn, *folklor**ish**, cartoon**ish*** sözləri tərkibindəki şəkilçilərə görə “keyfiyyətə, xüsusuiyyətə malik olmaq mənasında işləndiyi halda, eyni şəkilçilər sifətlərin sonuna əlavə olunarkən “natamam keyfiyyət dərəcəsi” (*redd**ish*** ‘qırmızımtıl’, *cold**ish*** ‘soyuqtəhər’) mənasında işlənə bilir.

Müasir ingilis dilində feilin zaman kateqoriyasının əlamətləri arasında morfoloji sinonimliyə rast gəlmək olur. Bu cür hallara xüsusilə danışıq dilində daha çox təsadüf edilir. Lakin ədəbi dildə də zaman formalarının sinonimliyindən yan keçmək mümkün olmur.

Bildiyimiz kimi, ingilis dilində zamanın 16 forması vardır. Bu formaların hər birinin özünəməxsus işlənmə halları vardır. Lakin bəzi zaman formaları öz ilkin mənalarından başqa mənalar da ifadə edə bilirlər:

1. Müasir ingilis dilində indiki qeyri-müəyyən zaman forması (The Present Indefinite Tense Form) prosesi indiki zamanda ifadə etməklə yanaşı gələcək zaman mənasında da işlənə bilir.

a) İndiki adi zaman (The Present Simple) zaman, şərt və güzəşt budaq cümlələrində gələcək zaman mənasında işlənir. Bu zaman baş cümlənin xəbəri ya gələcək zamanla (The Future Indefinite), modal feillə, ya da feilin əmr şəkli ilə ifadə edilir.

Gələcək zaman mənasında işlənən zaman budaq cümlələri baş cümləyə bağlayıcılar vasitəsilə bağlanır. Məsələn,

1) *Can you do your homework while I cook the pizza?* ‘Mən pizzanı bişirənədək sən də ev tapşırığını edə bilərsən?’

2) *Go upstairs as soon as you enter the house.* ‘Evə daxil olan kimi yuxarı mərtəbəyə çıxarsan’.

Gələcək zaman mənasında işlənən şərt budaq cümlələri baş cümləyə *if, unless, on condition (that), provided (providing), in case* bağlayıcıları vasitəsilə bağlanır. Məsələn, He *must have the book handy, in case he needs it.* ‘Lazım olduğu təqdirdə gərək kitab onun əlinin altında olsun’.

b)To see (to) ‘görmək’, *to take care* ‘qayğısına qalmaq’, *to make sure* ‘əmin olmaq’ feillərinin baş cümlədə xəbər kimi işləndiyi cümlələrdə tamamlıq budaq cümlələrinin xəbərləri indiki zamanla göstərilsə də, gələcək zaman məzmunu kəsb edir, məsələn:

She will take care that the kids have their dinner at six p.m. ‘O, uşaqların axşam yeməyini axşam saat 6-da yemələrinə diqqət yetirəcək.’

c) Bəzi sual cümlələrinin xəbəri indiki zaman göstəricisi ilə işlənməsinə baxmayaraq gələcək mənasına malik olur, məsələn:

What does she do next? ‘O sonra nə edəcək?’

Where do they run now? ‘İndi onlar hara qaçacaqlar?’

What happens next? ‘Sonra nə baş verəcək?’

d) İndiki adi zaman hərəkət bildirən feillərlə (the verbs of motion) işləndikdə, qabaqcadan planlaşdırılmış, razılaşdırılmış, plana, cədvələ əsasən reallaşacaq hərəkətləri bildirərkən gələcək zaman məzmunu kəsb edir, məsələn:

The tourist leaves at six o’clock in the evening. ‘Turist axşam saat altıda yola düşəcək.’

e) İndiki sadə zaman forması bədii üslubda keçmişdə bir-birinin ardınca baş verən hadisələri daha canlı və emosional təsvir etmək üçün işlənə bilir. Bu halda o, keçmiş sadə zaman və ya qeyri-müəyyən zaman formasına (The Past Simple) morfoloji sinonim münasibətində çıxış edir, məsələn:

He comes home very unhappy, takes his medicine, goes to bed, then takes a deep breath and dies. Bu cümlə aşağıdakı mənada işlənmişdir: 'O, evə çox qəmgin gəldi, dərmanını içdi, yatağına getdi, sonra dərin nəfəs alaraq öldü.'

2. İndiki zamanın davamedici formasının ilkin mənası danışıq anında davam edən hərəkətləri bildirir. Bu forma gələcəkdə reallaşacaq prosesləri bildirərkən gələcək zamana qrammatik sinonimlik təşkil edir. Məsələn:

Are you watching horror film tonight? 'Bu gecə qorxulu film izləyəcəksən?'

He is taking the children to the zoo tomorrow 'Sabah o, uşaqları zooparka aparacaq.'

Davamedici zaman forması həmçinin insana xas olan, vərdiş halına keçən təkrarlanan hərəkətləri də bildirir. Bu zaman o, *always* 'həmişə', *constantly* 'elə hey' zərfləri ilə işlənərək, indiki sadə zaman forması ilə morfoloji sinonim olur. Məsələnı

My granny is constantly complaining of her headaches. 'Nənəm elə hey baş ağrılarından şikayət edir.

"Oh, the English! They are always thinking of tea." 'Ax, bu ingilislər! Onlar həmişə çay haqqında düşünürlər'. [4, s. 20].

3**.** Keçmiş zamanın davamedici forması - The Past Continuous Tense form keçmişdə konkret bir zaman ərzində baş verən hərəkətləri bildirir ki, bu da onun əsas mənasıdır. Lakin bu zaman forması keçmişdə vərdiş halına çevrilmiş, təkraralanan hərəkətləri bildirərkən keçmiş sadə zaman forması ilə qrammatik əsasda sinonimlik təkil edir. Məsələn,

"He was always experimenting. He wasn't really a doctor, he was a bacteriologist." 'O, həmişə təcrübə aparırdı. O, əslində həkim deyildi, o, bakterioloq idi.' [4, s. 38].

Bu forma keçmişə nəzərən gələcək zamanla kontekst daxilində sinonim ola bilir, məsələn:

After discussing all these problems, she wired that she was returning. 'Bütün problemləri müzakirə etdikdən sonra o, geri dönəcəyini bildirdi'

I thought that you were never coming. 'Düşünürdüm ki, sən heç vaxt gəlməyəcəksən'.

Bu qrammatik formaların müxtəlif sosial qruplar tərəfindən xüsusilə danışıq dilində işlənməsi dili yeknəsəklikdən çıxarır, cəmiyyətdə insanların fikrini müxtəlif şəkildə, fərqli qrammatik strukturlardan istifadə edərək ifadə etməsinə imkan yaradır.

Ədəbiyyat

1. Биркенгоф, Г.М. К вопросу о морфологической синонимии (на материале немецкого языка) // – Москва: Изд-во Московский Пединститут Иностран-ных Языков, Учёные записи, 1-й Московский Пединститут Иностранных Языков, – 1964. т. 31, – с.69-98
2. Пешковский, А.М. Принципы и приемы стилистического анализа и оценки художественной прозы. / А.М.Пешковский. – Москва: Изд-во Госиздат, –1930. – 68 с.
3. Chomsky, N. Aspects of the theory of syntax. / N.Chomsky. – Cambridge, Cambridge University Press, –1965. – 250 p.
4. Gordon, E.M. A Grammar of Present-Day English. / E.M.Gordon, I.P.Krylova. – Moscow: Universitet Knijniy Dom, Высшая школа, – 2006. – 448 p.
5. Jespersen, O. Essentials of the English grammar. / O.Jespersen. – USA: Abllington Press. –2007. – 388 p.

РЕЗЮМЕ

АНАЛИЗ И УПОТРЕБЛЕНИЕ ГРАММАТИЧЕСКИХ СИНОНИМОВ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Бахшалиева Н.Р.

Ключевые слова: *синонимия, грамматическая синонимия, морфологическая синонимия, формы времени, суффиксы.*

Статья посвящена анализу грамматико-морфологических синонимов в современном английском языке. Как известно, грамматическая синонимия является одним из самых сложных и дискуссионных вопросов современного языкознания.

Среди суффиксов, внутри временных форм можно найти грамматико-морфологические синонимы. Морфологические синонимы широко используются носителями языка.

Грамматические формы, которые считаются грамматическими синонимами, должны различаться по фонетической структуре, но пересекаться по значению. Грамматические синонимы должны иметь определенные различия в стиле и значении.

SUMMARY

ANALYSIS AND THE USE OF GRAMMATICAL SYNONYMS IN MODERN ENGLISH

Bakhshaliyeva N.R.

Keywords*: synonymy, grammatical synonymy, morphological synonymy, tense forms, suffixes.*

The article is devoted to the analysis of grammatical-morphological synonyms in modern English. As is known, grammatical synonymy is one of the most complex and controversial issues of modern linguistics.

It is possible to find grammatical-morphological synonyms among suffixes, within tense forms. Morphological synonyms are widely used by native speakers.

Grammatical forms that are considered grammatical synonyms must differ in phonetic structure but overlap in meaning. Grammatical synonyms must have specific differences in style and meaning.

THE ROLE OF GRAMMAR IN COMMUNICATIVE INTERACTION

Khalilova S.Ikh.
Sumgait State University, Sumqayıt, Azərbaycan
xelilov-55@mail.ru

Keywords: *communicative language teaching; communicative competence; grammar teaching; situational grammar; explicit and implicit approach*

In modern society, the role of international education is increasing. And here the subject "foreign language" due to its specificity has more opportunities than other subjects of the school cycle. Now, more than ever, it is necessary that people speak foreign languages. The priority direction was the need to create alternative methods of teaching languages. Education had to become more functional, more pragmatic. The communicative function of language came to the fore, which contributed to the creation of a new method as a language teaching system in Azerbaijan too. [1]

The study of foreign languages consists of several aspects. One of such aspects is grammar. In teaching foreign language speaking, grammar occupies an important place, it is a kind of framework on which vocabulary is based. Teaching grammar and the correct formulation of an utterance, as well as the recognition of grammatical forms in speech and writing, occurs through the formation of grammatical skills.

The grammatical skill of speaking is understood as the correct communicative-motivated use of grammatical phenomena in oral speech. Grammar skills that provide correct form usage and formation can be called morphological skills. Other skills responsible for the correct placement of words in all kinds of sentences are called syntactic speech skills. [1]

Many difficulties arise when mastering grammar, which is rich in grammatical rules, terms and a varied number of exceptions. In schools, most often teaching grammar, the whole process is limited to simple memorization of constructions and performing the same type of exercises.

Due to the teaching of grammar in traditional approach, most educational goals in learning are remained unreached. Also, the passivity of students in the lesson is due to not always alternating forms of work. Therefore, it is very important at the present time to use a communicative approach in the study of grammar at the middle stage. [4]

When teaching a foreign language, the task of teaching grammar is to develop students' grammatical skills in receptive and productive types of speech activity that correspond to the limits of the grammatical minimum determined by the training programs. The communicative goal in teaching grammar in high school makes it possible to identify the main requirement put forward to the amount of grammatical material that is to be mastered in high school. It must be real for assimilation, as well as sufficient for the use of the language.

An insufficient level of grammatical skills becomes an insurmountable barrier to the formation of not only language, but also speech and sociocultural competence. Thus, “grammar is of paramount practical importance, since it ensures the formation of oral and written communication skills” [3, s.305]

However, for many methodologists, the arrival of the communicative method and the move towards communication mistakenly means the abandonment of grammar. Without knowledge of the grammatical structure of the language, it is impossible to solve communicative tasks in a foreign language. It should be noted that in the modern educational standard for foreign languages, the mastery of grammatical means is considered as one of the learning objectives in the framework of the development of language competence. Let's find out what is meant by "communicative competence".

According to I.L. Beam, “communicative competence, which acts as an integrative goal of teaching foreign languages, is understood as the ability and willingness to carry out foreign language interpersonal and intercultural communication with native speakers within the limits specified by the standard/program” [2, s.11].

In the process of verbal communication, people use the means of language - its vocabulary and grammar - to build statements that would be understandable to the addressee. However, knowing only the dictionary and grammar is not enough for communication in a given language to be successful: you also

need to know the conditions for using certain language units and their combinations. In other words, in addition to grammar proper, a native speaker must learn "situational grammar".

The communicative technique involves the use of speech situations as the basis for teaching foreign language speech activity. The situation is a special case of speech activity, the form in which the speech interaction of people speaking a given language is carried out. In other words, the situation is a role-based organization of the educational process.

Rogova G.V. and Vereshchagin I.N. distinguish the following five rules of the principle of communicative orientation [6, s.53-54]:

Pick the situation. When introducing a word, phrase, grammatical phenomenon, select a situation that would show the children the function, the purpose of this unit in communication (that is, what can be conveyed with the help of this unit) so that children see from the first moments of work the use of this unit in the act of communication.

Provide repeatability, repetition and novelty. Since the assimilation of the material is possible with repeated repetition, then ensure a sufficient number of them, each time bringing something new, some kind of novelty to the situations you have selected. If possible, make all the exercises you use communicatively oriented, and for this, come up with tasks for them based on the real learning conditions in a particular class.

Include everyone in the conversation. Keeping in mind that oral communication, communication is an active interaction between the speaker and the listener, in the course of mastering the material, ensure the active participation of each student in this communication process.

Create favorable conditions for communication. By organizing communication between students on the basis of the material being learned, create favorable conditions for communication, a psychologically favorable atmosphere that encourages learners to listen, speak, read in the language being studied and do it with pleasure. Create motivation for success, take into account the personal relationships of children when organizing a conversation, etc.

Ensure communication of tasks. Communication is carried out not only orally, but also through reading. Therefore, when a student reads a text, pay his main attention to the content-semantic side of what is being read, and for this, use communicative tasks more widely, that is, what you learned, what you read about, how you feel about it. Do not re-read the text without changing the task. The principle of communicative orientation can also be applied in teaching aspects of the language.

Traditionally, methodologists distinguish two main approaches to teaching grammar - explicit and implicit. The explicit approach is distinguished by the explanation of grammatical rules and phenomena. Implicit, on the contrary, is characterized by the repetition and memorization of grammatically correct structures without learning the rules themselves. An explicit approach to teaching grammar is implemented by two main methods – inductive and deductive. In inductive method students are offered a fragment of a speech / language situation, analyzing which they must find grammatical patterns and formulate a grammatical rule.

In deductive method first the teacher gives a grammatical rule, and then the students work out new structures in communication-oriented tasks.

The choice of method depends on the age, the level of language competence of the students, the goals of the course, as well as the characteristics of the grammatical material itself. [5]

The communicative approach in teaching foreign languages, and in particular the grammatical side of speech, allows the most optimal achievement of the main goals that are currently set for the subject of a foreign language. The communicative approach corresponds to modern trends in methodology.

Literature

1. Azərbaycanda ingilis dilinin qrammatikasına dair aparılan tədqiqat işlərində qoyulan elmi problemlər // Dil və ədəbiyyat. Bakı: Mütərcim, 2014, №3, s.111-117
2. Бим, И.Л. Личностно-ориентированный подход – основная стратегия обновления школы [Текст] / И.Л. Бим //Иностранные языки в школе. – 2002. - №2. - С.11-15.
3. Гальскова, Н.Д., Гез, Н.И. Теория обучения иностранным языкам [Текст]: Лингводидактика и методика: учеб. пособие для студентов лингв. ун-тов и фак. ин. яз. высш. пед. учеб. заведений / Н.Д. Гальскова, Н.И. Гез. – М.: Издательский центр "Академия", 2006. – 336 с.
4. Опойкова О.Н. Коммуникативные приемы обучения грамматике/ Иностранные языки в школе. — 2005. — №8. — С. 37
5. Penny Ur. A course in English Language Teaching. Cambridge University Press. 2002, 325 p. Иностранные языки в школе, 2002. — №2- С. 6

6. Рогова, Г.В., Верещагина, И.Н. Методика обучения английскому языку на начальном этапе в общеобразовательных учреждениях: пособие для учителей и студентов пед. вузов. [Текст] / Г.В. Рогова, И.Н. Верещагина. – М.: Просвещение, 1998. – 232 с

XÜLASƏ
KOMMUNİKATİV QRAMMATİKANIN ÜNSİYYƏTDƏ ROLU
Xəlilova S.İ.

Açar sözlər: *kommunikativ dilin tədrisi, kommunikativ səriştə, qrammatika tədrisi, situativ grammatika, eksplisit və implisit yanaşma*

Son illərdə ingilis dili ən populyar dillərdən biri hesab olunur. İngilis dili ünsiyyət vasitəsi kimi qəbul edilir. Qrammatika adətən kompüterin auditoriyalarda mövcudluğundan əvvəl ənənəvi metodlardan istifadə etməklə öyrədilirdi. Üstəlik, qrammatika dərsləri tələbələr üçün mürəkkəb və cansıxıcı görünürdü. Nəticə etibarilə, bir çox dil öyrənənlərin qrammatikadan bilik səviyyəsi yaxşı olduğu halda, hələ də səlis və dəqiq ünsiyyət qura bilmirlər.

Qrammatika dilin müvəffəqiyyətlə mənimsənilməsində mühüm rol oynayır. Bununla belə, qeyd olunur ki, müxtəlif kontekstlərdə qrammatikanın rolu hələ də lazımi səviyyədə qiymətləndirilmir və qrammatika yönümlü dərslər qrammatikanı kommunikativ şəkildə öyrətməkdənsə, açıq şəkildə praktikada aparılır. Buna görə də, məqalədə qrammatikanın tədrisinin prinsipləri və məqsədləri daxil olmaqla onu müasir tələblərə uyğun, kommunikativ qurmaq yolları araşdırılır.

РЕЗЮМЕ
РОЛЬ КОММУНИКАТИВНОЙ ГРАММАТИКИ В ОБЩЕНИИ
Халилова С.И.

Ключевые слова*: обучение коммуникативному языку, коммуникативная компетентность, обучение грамматике, ситуативная грамматика, эксплицитный и имплицитный* подход

В последние годы английский считается одним из самых популярных языков. Английский принят как средство общения. Грамматика обычно преподавалась традиционными методами до появления компьютеров в классах. Более того, уроки грамматики казались ученикам сложными и скучными. В результате многие изучающие язык хорошо понимают грамматику, но все еще не могут свободно и точно общаться.

Грамматика играет важную роль в успешном овладении языком. Однако отмечается, что роль грамматики в различных контекстах все еще недооценивается и что уроки, ориентированные на грамматику, открыто практикуются, а не коммуникативно преподаются. Поэтому в статье рассматриваются принципы и цели обучения грамматике, способы ее коммуникативного построения в соответствии с современными требованиями.

"CODEX CUMANICUS"DA FEİLİ BİRLƏŞMƏLƏR

Rasulova L.V.
Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan.
lale.haciyeva.1994@gmail.com

Açar sözlər: *"Codex Cumanicus", təhlil, feili birləşmə, məsdər, feili sifət*

Giriş. Bildiyimiz kimi, söz birləşməsi iki və daha artıq müstəqil mənalı sözün birləşməsindən yaranır. Əsas tərəfinin ifadə vasitəsinə görə ismi və feili birləşmələrə ayrılan bu birləşmələr "Codex Cumanicus"da ["Kodeks"] da geniş təmsil olunmuşdur. Əsərin dilində bu birləşmələrin hər birinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Bu məqalənin məqsədi həmin dil faktları ilə qədim yazılı abidələrimizin, eyni zamanda müasir Azərbaycan dilinin arasındakı oxşar və fərqli məqamların mahiyyətini izah etməkdir.

Əsas tərəfi feilin təsriflənməyən formaları-məsdər, feili sifət, feili bağlama ilə ifadə olunan söz birləşmələrinə feili birləşmələr deyilir. İsmi birləşmələrdə olduğu kimi, feili birləşmələrdə də sözlər arasında məna və qrammatik əlaqə olmalıdır. Bu birləşmələrdə əsas qrammatik əlaqə isə yanaşma və idarə əlaqəsidir.

R.Zeynalovun qeydlərinə əsasən, "*Türkologiyada feili birləşmələrin öyrənilməsinə 1950-ci illərdən başlanmışdır; "feili birləşmələr" ("глагольные словосочетания") termini də türkologiyada qədim tarixə malik deyildir. Bizə məlum olduğuna görə, türkologiyada söz birləşməsinin ayrıca bir növü kimi, feili birləşmələrdən ilk dəfə geniş şəkildə bəhs edən M.B.Balakayev olmuşdur. M.B.Balakayev feili birləşmələri feillərlə başqa sözlərin qeyri-predikativ birləşməsi kimi almış və onları üç əsas hissəyə ayırmışdır:*

1) *Yanaşma əlaqəsi ilə əmələ gələnlər;*
2) *İdarə əlaqəsi ilə əmələ gələnlər;*
3) *Köməkçi sözlərlə əmələ gələnlər"* [Zeynalov. 2021: s.28].

Düzdür, alimin tədqiqatı bütün feili birləşmə növlərini əhatə etməsə də, bu sahədə atılmış ilk addım idi və özündən sonrakı araşdırmalar üçün bir təməl olmuşdur. Y.Seyidov da onun tədqiqatlarını yüksək qiymətləndirmiş və məhz onun araşdırmalarından sonra feili birləşmələrə marağın artdığını, onun haqqında dissertasiyalar və məqalələr yazıldığını bildirir [Seyidov. 2006: s.230].

Dilçilik ədəbiyyatımızda feili birləşmələrin müxtəlif əlamətlərinə görə fərqli başlıqlarla bölgüsü aparılmışdır. Belə ki, ""Müasir Azərbaycan dili" dərsliyində feili birləşmələr aşağıdakı kimi qruplaşdırılır:

a) Birinci tərəfi isimlə ifadə olunan feili söz birləşmələri
b) Birinci tərəfi məsdər, ikinci tərəfi feillə ifadə olunan feili söz birləşmələri
c) Birinci tərəfi feili sifətlə ifadə olunan feili söz birləşmələri
d) Birinci tərəfi feili bağlama ilə ifadə olunan feili söz birləşmələri
e) Birinci tərəfi zərflə ifadə olunan feili söz birləşmələri" [Budaqova. 1981: s.124-146].

Professor Y.Seyidov isə feili birləşmələri birinci tərəfinin ifadə vasitələrinə görə təsnif edir: 1) Ad+feil tipli birləşmələr; 2) Feil+feil tipli birləşmələr; 3) Zərf+feil tipli birləşmələr [Seyidov. 1992: s.138].

Q.Kazımov feili birləşmələrin bölgüsünü apararkən digər tədqiqatçılardan fərqli olaraq, birləşmənin tərəfləri arasındakı sintaktik əlaqəni əsas götürür: 1) koordinativ feili birləşmələr; 2) yanaşma əlaqəli feili birləşmələr; 3) idarə əlaqəli feili birləşmələr [Kazımov. 2000: s.55-61].

Gördüyümüz kimi, feili birləşmələrin bölgüsündə müxtəliflik olsa da, onlar eyni xətdə birləşirlər. "Kodeks"in də dilində işlənmiş feili birləşmələr müasir türk dillərində olduğu kimi müxtəlif qrammatik xüsusiyyətləri özündə ehtiva edir. Ona görə də bu birləşmələri fərqli cəhətlərdən qruplaşdıra bilərik. Biz öz tədqiqatımızda Y.Seyidovun bölgüsünü əsas götürərək feili birləşmələri aşağıdakı kimi təsnif edirik:

Ad+feil tipli birləşmələr: Bu birləşmələrin birinci tərəfi adlarla, ikinci tərəfi isə feilin qeyri-predikativ formalarından biri ilə ifadə olunur. Məs ***Kir yukturmay*** *sazqa tüşti*[4] "çirk yoluxdurmadan bataqlığa düşdü", ***kərtək açmay*** *eşikini küyöv çıqtı* "toy qapısını açmadan bəy çıxdı" (76a/15-16), ***Teŋridən tüşgən*** *toqmaçıq* "Allahdan düşən toxmacıq" (60b/25), ***bizni tiləy*** *yarlı boldı* "bizi arzulayaraq kasıb oldu", ***səni sövüp*** *çın xanımız barçadan üstün kötürdi* "səni sevib əsl xanımız hamıdan üstün tutdu", ***ötkəmniŋ müzin sındırqan, miskinni baxtqa təyirgən*** "təkəbbürün buynuzunu qıran, yoxsulları sevindirən" və s. Nümunələrdən də aydın olur ki, əsərdə işlənmiş belə birləşmələrin əsas tərəfi, əsasən, feili bağlama, feili sifətlə, nadir hallarda isə məsdərlə ifadə olunur. Bu da onu göstərir ki, abidənin yazıldığı dövrdə feilin təsriflənməyən formaları hələ tam təşəkkül tapmamışdır. Eyni hadisəyə qədim və orta əsrlərdə yazılmış əsərlərin dilində də rast gəlinir. Müq.et: ***Sü süləpən*** *tört bulundakı bodunığ kop almıs* "qoşun çəkərək dörd tərəfdəki xalqın hamısını məğlub etmiş" (KT b2), ***körir közim*** *körməz təg, bilir biligim bilməz təg boltı* "görən gözüm görməz tək, bilir biliyim bilməz tək oldu" (KT b50), *qız* ***anadan görməyincə*** *ögüt almaz, oğul* ***atadan görməyincə*** *süfrə çəkməz* (Kitab), ***qonuğı gəlməyən*** *qara evlər yıqılsa, yeg!,* ***at yeməyən*** *acı otlar bitincə, bitməsə, yeg!* (Kitab), ***vüsalın istəyən*** *aşiq əcəb sevdayə düşmüşdür..* (Nəsimi), *əzəl* ***nəqqaşı yazarkən*** *cəmalın nəqşini, dammış* (Nəsimi).

Ad+feil modelində olan birləşmələrin birinci tərəfi ismin adlıq, yönlük, təsirlik, yerlik və çıxışlıq hallarında olan sözlərlə işlənərək fərqli münasibətlər bildirir.

Adlıq hallı feili birləşmələr: Kir yukturmay *sazqa tüşti* "çirk yoluxdurmadan bataqlığa düşdü", ***kərtək açmay*** *eşikini küyöv çıqtı* "toy qapısını açmadan bəy çıxdı" (76a/15-16),

Yönlük hallı feili birləşmələr: *biz barçalarnı ündətti* ***toyqa yürüp*** *yügürəli* "bizim hamımızı çağırtdı şənliyə gəzərək gedək" (76a/16-17), *ançа çaqlı kim friştələr* ***saa yetməyin*** *taŋlarlar* "onun kimi ki mələklər sənə çatmadan hiss edərlər" (69b/6), ***bizgə baxıp*** *yarılqadı* "bizə baxıb rəhm etdi" (70a/22), *qatı* ***ölimgə kirip*** *ölimdən bizni çıqardıŋ* "ağır ölümə girib bizi ölümdən xilas etdin" (72b/14-15), ***gökgə aqınqan*** *Yesusqa övdü təydi* "göyə yüksələn İsaya tərif dedi" (73a/3), *ançа mı köp sövməkdən əsirdiŋ, kim* ***xaçqa minməgə*** *uyalmadıŋ* "çox sevməkdən o qədərmi özündən imtina etdin ki, çarmıxa çəkilməkdən çəkinmədin" (75a/7-8)

Təsirlik hallı feili birləşmələr: *ave,* ***yazıqsızlıqıŋnı arzulap*** *Teŋri köçürdi..* "salam, günahsızlığını arzulayıb Tanrı köçürtdü.." (70b/15-16), *ave qız,* ***xannı tuvurqan, şaytannı ərksiz etkən*** *asrovıŋ bizgə təyirgil* "salam bakirə, xanı dünyaya gətirən, şeytanı zərərsiz edən müdafiəçini bizə çatdır" (71a/2), *ave,* ***sırın barça bilgən..*** "salam, bütün sirrini bilən.." (71b/19), *ave saa qız,* ***saqınqan Bəy Teŋrini*** *həm* ***tiləgən meŋü yıllarnı..*** "salam sənə bakirə, düşünən Rəbb Allahı və arzulayan əbədi illəri.." (72b/3), ***ər yazuxın bilməyin****, börləndi quru çıbux* "ər günahını bilmədən çiçək açdı quru çubuq" (73a/11-12).

Yerlik hallı feili birləşmələr: *ave saa kim ıqladıŋ* ***xaçda ölgəndə*** *oğulıŋ* "salam sənə ki, ağladın çarmıxda öləndə oğlun" (70a/15).

Çıxışlıq hallı feili birləşmələr: *ave qız, kimniŋ mirəti* ***gökdən kəlip*** *xaçqa mindi* "salam bakirə, kimin irsi göydən gəlib çarmıxa çəkildi" (69b/4), ***..otdan keçirip*** *sınadı* "oddan keçirdib imtahan etdi" (72a/3).

Ü.Aslanovanın da qeyd etdiyi kimi, *"adlıq hallı feili birləşmələrdə birinci tərəf subyekti, təsirlik hallı birləşmələrdə obyekti, yönlük, yerlik, çıxışlıq hallı birləşmələrdə isə yer, məkan anlayışlarını ifadə edir"* [Aslanova. 2022: s.55].

---

[4] Nümunələr M.Arqunşah və Q.Günərin "Codex Cumanicus" kitabından götürülmüşdür. A-CC-nin ön səhifəsini, b- isə arxa səhifəsini göstərir.

Feil+feil tipli feili birləşmələr: Feili birləşmələrin bu modelində digər növlərdən fərqli olaraq, birinci tərəf yalnız feili bağlamalarla, ikinci tərəf isə feilin təsriflənməyən formalarından biri ilə ifadə olunur. "Kodeks"in dilində bu tipli birləşmələrə çox az təsadüf edilir: *Yürüp* ***yügrüp armayın*** *yetməgə uçmataqı əlbək meŋgü toyqa..* "yorulmadan yeriyib qaçaraq cənnətdəki zəngin sonsuz ziyafətə çatmağa.." (75b/4-5), ***burulıp turqan*** *ılannı basıp yançtı, ərksiz qıldı* "burulub duran ilanı sıxıb əzdi, təsirsiz etdi" (69b/16).

Zərf+feil tipli feili birləşmələr: Bu birləşmələrin birinci tərəfi zərf, ikinci tərəfi isə digər feili birləşmələrdə olduğu kimi qeyri-predikativ xəbərlərlə ifadə olunur. Y.Seyidov *zərf+feil* modeli haqqında yazır: *"Bu tip birləşmələr arasında məna əlaqələri, əsasən, birinci tərəfin mənası ilə müəyyən olunur, yəni birinci tərəf hərəkətin tərzini (tərz əlaqəsi), zamanını (zaman əlaqəsi), yerini (yer əlaqəsi) və kəmiyyətini bildirir"*

Qaçan anı taş bilə taşlar edi, ol aytur edi, ***yoxarı baxıp*** "onu daşlayarkən o yuxarı baxıb belə deyərdi" (61b/16), ***artux yegənimdən***, ***artux içgənimdən*** "çox yediyimdən, çox içdiyimdən" (61a/4), *ança mı* ***köp sövməkdən*** *əsirdiŋ* "çox sevməkdən o qədərmi özündən imtina etdin" (75a/7-8), ***utru beynip*** *tabunmış* "qarşılıqlı oynayıb hörmət etmiş" (76a/9).

Nümunələrdən də göründüyü kimi, "Kodeks"də işlənmiş feili birləşmələrlə Azərbaycan yazılı abidələrinin dili arasında əsaslı fərqlər yoxdur. Müq. et: ***Bu yirdə olurıp*** *Tabğaç bodun birlə tüzəltim* "burada məskən salıb Tabğaç xalqı ilə əlaqəni düzəltdim" (KTk 48), ***İlərü yatan*** *Qara dəniz gördüm.., Oğuz ərənləri turarkən* ***səni ögməgim*** *yoq* (Kitab), ***təgirməndə toğmış*** *sıçğan kök kökrəginqə korkmas* "dəyirmanda doğulmuş siçan göy gurultusundan qorxmaz" (Divan, s.257), *Ey Nəsimi, çün Süleyman oldu* ***quş dilin bilən***, ***Qafa varıb*** *görmək istərsən bizim ənqamızı* (Nəsimi. s.34), *ey şəm, bizi tap dəxi odlaruna yaxma, ey bədr,* ***yüzün gösdərübən*** *tezcək oyaxma* (Qazi Bürhanəddin) və s.

Nəticə. Yekun olaraq deyə bilərik ki, əsərdə işlənmiş söz birləşmələrinin növləri həm müasir türk dillərindən, eləcə də Azərbaycan dilindən, həm də qədim və orta əsrlər yazılı abidələrimizin dilindən elə də fərqlənmir. Əsas fərq feili birləşmələrin ifadə vasitələrində özünü göstərir. Belə ki, müasir Azərbaycan dilində bu birləşmələrin ifadə vasitələri geniş olduğu halda, abidənin dilində bunun tam əksini görürük. Eyni zamanda eyni dövrün məhsulları olan abidələrimizin dilinə də baxdıqda biz eyni dil faktına rast gəlirik. Bu da o deməkdir ki, deməli XIII-XIV əsrlərdə feilin təsriflənməyən formaları hələ tam formalaşmamışdır.

Ədəbiyyat

1. Arqunşah M., G.Güner. "Codex Cumanicus". İstanbul: Kesit Yayınları, 2015, 1079 s.
2. Aslanova Ü. Yusif Seyidovun dilçilik fəaliyyətində sintaksis, fəlsəfə doktoru elmi dərc. al. üçün təq. olun. dissertasiya, Bakı, 2022, s.55.
3. Budaqova Z. Müasir Azərbaycan dili [3 cilddə], AzSSR EA Nəsimi ad. Dilçilik İnstitutu, Bakı, 1981, s. 124-146.
4. Bürhanəddin Q, Divan, Bakı, "Öndər nəşriyyatı", 2005, 728 s.
5. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis, Bakı, "Ünsiyyət", 2000, s.55-61.
6. Mahmud Kaşğari "Divanü lüğat-it-türk" [4 cilddə] / tərc.edən və nəşrə hazırlayan R. Əskər . – Bakı: Ozan, c. 3. - 2006. - 400 s.
7. Nəsimi İ, Seçilmiş əsərləri, 2 cilddə, II cild, Bakı, "Lider nəşriyyatı", 2004, 376 s.
8. Seyidov Y. Əsərləri. 15 cilddə, 1 cild., Bakı, "Bakı Universiteti", 2006, s. 230.
9. Seyidov Y. Azərbaycan dilində söz birləşmələri, Bakı, "Bakı Universiteti nəşriyyatı", 1992, s.138.
10. Zeynalov R. M.Kaşğarinin "Divanü lüğət-it türk" əsərində atalar sözləri və məsəllərin sintaktik xüsusiyyətləri, fəlsəfə doktoru elmi dərc. al. üçün təq. olun. dissertasiya, Sumqayıt, 2021, s.28.

РЕЗЮМЕ
ГЛАГОЛЬНЫЕ СОЧЕТАНИЯ В "CODEX CUMANICUS"

Расулова Л.В.

Ключевые слова: *«Codex Cumanicus», анализ, инфинитив, причастие*

«Codex Cumanicus» - первое турецкое произведение, написанное латинским алфавитом в конце XIII - начале XIV века. Изучение грамматического строя произведения дает нам богатые сведения о развитии кыпчакского языка, их истории и культуры в XIII-XIV веках. В данной статье изучены характерные особенности глагольных словосочетаний, использованных в работе «Codex Cumanicus». Словосочетания, используемые в языке памятника, были разделены на разные типы и каждый из них проанализирован на отдельных примерах.

SUMMARY
VERB CONJUGATIONS IN "CODEX CUMANICUS"

Rasulova L.B.

Keywords: *Codex Cumanicus, analysis, the infinite, the participle.*

"Codex Cumanicus" is the first Turkish monument written in the Latin alphabet in the late 13th-early 14th century. Examining the grammatical structure of the work gives us rich information about the development of the Kipchak language, their history and culture in the 13th-14th centuries. In this article, the characteristic features of verb phrases used in the work "Codex Cumanicus" are studied. The word combinations used in the language of the monument were divided into different types and each of them was analyzed based on individual examples.

VIII BÖLMƏ

ƏDƏBİYYATŞÜNASLIQ

BAYATILARDA ÖLÜM-HƏYAT FƏLSƏFƏSİ

Ağbaba A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor
avtandil.aqbaba@mail.ru

Açar sözlər: *bayatı, həyat-ölüm fəlsəfəsi, folklor, poeziya*

Türk xalqlarının folklor arealında xoyrat, aşulə, mani, jır, koşuq, aydım, sarınq və digər adlarla tanınan bayatı janrı Azərbaycan aşıq ədəbiyyatının üç əsas şəklindən biri (M.H.Təhmasib) hesab edilir. Zəngin məzmunu, tarixi-semantik inkişafının özünəməxsusluğu və yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilən bayatılar mövzu rəngarəngliyinə görə çox geniş əhatə dairəsinə malikdir. Xalqımızın ictimai-siyasi həyatının ən müxtəlif hadisələri, etno-milli duyğuları, milli məişəti və etnoqrafiyası, kainat və təbiət haqqında düşüncələri, insan-təbiət münasibətləri, fərdi yaşantılar və s. bayatıların poetik mətninin əsasını təşkil edir. İnsan mənəviyyatının təzadları, əbədi həyat axtarışları, ölüm-həyat fəlsəfəsi yalnız el sənətkarlarının yaradıcılıqlarında deyil, eləcə də klassik və çağdaş şairlərimizin poeziyasında da yüksək sənətkarlıqla əks olunan mövzular kimi ədəbi-bədii aktuallığını saxlamaqdadır. Bu baxımdan, insan oğlu ölümə çarə axtarmış, ondan qaçmağın mümkün olmadığını dərk etsə də, bu həqiqətə inanmaq istəməmiş, taleyin hökmünə qarşı bu və ya digər dərəcədə öz etirazını bildirmişdir.

O da məlumdur ki, dünya, o cümlədən, türk xalqlarının əfsanə və nağıllarında, dastanlarda və başqa folklor örnəklərində ölümə qalib gəlmək, ondan qaçmaq ideyası olduqca güclü olmuşdur. Dədə Qorqudun ölümdən xilas olmaq arzusu, Bilqamısın əbədi həyat uğrunda mübarizəsi, Ural Batırın ölümü məhv etmək, əbədi həyat suyunu tapmaq üçün axtarışları, İsgəndərin və Xızır peyğəmbərin dirilik suyunu axtarmaları və s. süjetlər bəşər övladının ölümsüzlük axtarışlarının mifopoetik ifadəsidir. Əbədi həyat arzusu ilə daim düşünən və yaşayıb-yaradan insan bir çox hallarda ölümə məhkum olduğu üçün dünyanı qınamış, ölüm mələyini günahkar saymışdır. Yüksək bədiiliklə ifadə olunan kövrək hisslər, dərin fəlsəfi düşüncələr bu qəbil bayatıları daha təsirli və cazibədar edir:

Eləmi sözlü dünya,
Yüzdən çox üzlü dünya.
İnsan yeyib nazlanan,
Doymayan gözlü dünya [2, s.34].

Bir sıra bayatılarda Əzrayıl bədii obraz kimi ümumiləşdirilir, ölümdən qaçmağa çalışan lirik qəhrəman Əzrayılı ittiham etmir, qaçınılmaz hökmə boyun əyir. Ölümüdə bir varlıq kimi dərk etmək və onunla barışmaq insanın mənəvi qüdrəti, kamillik nişanəsi kimi oxucunu həyat-ölüm haqqında düşünməyə vadar edir, ova çıxan Əzrayılın qanlı əlləri kimi poetik ifadələr insanı qorxuya salmır, təbiətin bu əbədi və əzəli qanununa tabe olmağı qeydsiz-şərtsiz onun yaddaşına həkk edir.

Əziziyəm, beş düyün,
Sinəmdə on beş düyün.
Əzrayıl, gəl işin gör,
Çatdı vədə, keçdi gün [2, s.52].

Forma və məzmun yığcamlığı bayatıların poetik strukturunda məcazi söz və ifadələrin obrazlı şəkildə sıralanmasını zəruriləşdirməklə yanaşı, müəyyən emosional məqamların, lirik-psixoloji yaşantıların ifadəsinə də bədii zəmin yaradır. Başqa sözlə, forma və məzmun yığcamlığı poetik mətni təşkil edən sözlərin dərin məna tutumu ilə yüklənməsini təmin edir. Folklorşünas M.Qasımlı bayatıların orijinal və təsirli məna tutumunu səciyyələndirərək yazır: “Lirik ovqatlı kövrək duyğulardan tutmuş güclü ümumiləşdirmə və fəlsəfi dərinliyə malik həyati düşüncələri yığcam bir biçim daxilində poetik sərrastlıq və ecazkar harmoniya ilə ifadə edən bu əvəzsiz folklor örnəklərinin bədii-estetik nüfuzetmə qüdrəti şifahi və yazılı ədəbiyyatın hər hansı bir janrından müqayisə olunmaz dərəcədə güclüdür [1, s.165].

Bir qayda olaraq, insanın kainat haqqında düşüncələri, həyat və ölüm məfhumlarına münasibəti, məhəbbət, nisgil, vəfa, həsrət, kədər və s. hisslərin poetik harmoniyasında öz əksini tapır. “ Ölümün Allah

əmri" olduğunu dərk edən insan istəsə də, istəməsə də taleyin hökmü ilə barışır, lakin ayrılığın, hicran dərdinin dözülməzliyi onu iztirablara qərq edir. Bu qəbil bayatılarda bir sıra təbiət predmetləri (gül, dağ, bulaq və s.) poetik məzmun qazanaraq güclü metaforik ifadələr, orijinal bənzətmələr silsiləsində fəlsəfi fikrin ədəbi-estetik semantikasını daha da genişləndirir:

Qızılgül olmayaydı,
Saralıb solmayaydı.
Ölüm Allah əmridir,
Ayrılıq olmayaydı.
və yaxud:
Yolun üstü Gəncədi
Gülü pəncə-pəncədi.
Ölüm Allah işidi,
Ayrılıq işgəncədi [2, s.59].

Lirik qəhrəmanın "mən sevdiyim ağ gülə Əzrayıl da bənd olub" – göynərti dolu etirafı bir tərəfdən onun öz sevgilisinə sonsuz məhəbbətini ifadə edirsə, digər tərəfdən o, vaxtsız əcəlin gəlişi ilə qəlbini bürüyən dərdi, kədəri bildirir:

Aşıq hay səsi gəlir,
Çeşmə, çay səsi gəlir.
Bülbül oldu gül üstə,
Gülün vay səsi gəlir [2, s.14].

Bayatıda ölüm qoxusu, onun vahiməsi yox, ayrılıq əzabından doğan hisslərin ifadəsi əsas yer tutur.

Həyatla ölümün fəlsəfi məzmununu daşıyan bayatıların bir qismində Vətən həsrəti, qürbət ellərin ağrısı daha dözülməz, ölümdən daha qorxulu görünür. Sarı Aşığın bir bayatısında həyat və ölüm arasındakı əkslik yox, ölümün qəriblikdə çəkdirdiyi iztirabın daha qorxulu təsiri poetikləşmişdir:

Aşiqəm, lala yalqız,
Gül yalqız, lala yalqız,
Qorxuram gəzib öləm
Cənazəm qala yalqız [3, s.88].

Qeyd edək ki, Sarı Aşığın, onun sevgilisi Yaxşının adları bir sıra rəvayətlərdə, xalq arasında dolaşan əhvalatlarda geniş əks olunduğu kimi, bayatılarda da original və təsirli misralarla ifadə olunmuşdur. El-oba içində nüfuz qazanmaq, ölənin dərdinin ağırlığı deyil, diri ikən ölü kimi gəzənin dərdinin dözülməzliyini ifadə edən bayatılar dərin əxlaqi-fəlsəfi mahiyyəti ilə aforistik səciyyə daşıyır:

Mən aşiq, Diri dağı,
Duman, gəl, bürü dağı.
Ölüm Allah əmridir,
Yamandır diri dağı [2, s.15].

Ölümün labüdlüyünə inanmaq, həyat kimi onun da varlığını qəbul etmək bayatıların məzmununa bədbinlik gətirmir. Əksinə, mənalı yaşamaq, xalqın məhəbbətini qazanmaqla ölümə qalib gəlmək ideyası insanı düşündürür, onun qəlbindəki həyat eşqini sönməyə qoymur:

Əziziyəm, nə qaldı,
Nə qovğadı, nə qaldı.
Yaxşı, sənə irəhmət,
Yaman, sənə nə qaldı ?! [2, s.42].

Bayatılarımızda işlənən " dirəksiz, bacasız dam", "yaxasız köynək" "qapısız ev" və sair kimi ifadələr ölüm qorxusunu yox, onun labüdlüyünü yada salır. Bu yaddaşın dərin qatlarında insanın ümidi, gələcəyə inamı və nikbin hissləri yaşayır.

Bütün bunları ümumiləşdirərək həyat-ölüm fəlsəfi məzmunlu bayatıların ideya-mündəricə axarında iki əsas məqamın əks olunduğunu görmək olar:

1) Əbədi həyat arzusu. Bu arzuya el-obanı, Vətəni sevmək, zəngin mənəviyyata malik olmaqla qovuşmaq mümkündür – "Yaxşı, sənə irəhmət".

2) Ölümün labüdlüyünü, ondan qaçmağın mümkün olmadığını qəbul etmək – "Ölüm Allah əmridir"

İnsanlığın ən qədim dövrlərdən bu günə kimi mənəvi axtarışında olduğu bu arzu və inam hər iki halda, fikrimizcə, kamilliyin nişanəsini əks etdirir. Əbədi həyat axtarışında olanlar da, ölümü təbiətin qaçınılmaz bir qanunu kimi dərk edənlər də əslində yaşamaq eşqini ölümün də həyat qədər gərəkli olduğunu nümayiş etdirirlər.

Ədəbiyyat
1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I c. Bakı: Elm, 2004, 760 s.
2. Bayatılar (tərtib edəni və ön sözün müəllifi V.Vəliyev). Bakı: Yazıçı, 1985, 199 s.
3. Behcət B. Sarı Aşığın bayatıları. Bakı: Səda, 2005, 96 s.

РЕЗЮМЕ
ФИЛОСОФИЯ ЖИЗНИ И СМЕРТИ В БАЯТЫ
Агбаба А.

Ключевые слова: *баяты, философия жизни и смерти, фольклор, поэзия*
Баяты, широко распространенные не только в фольклорном ареале Азербайджана, но и в устной поэзии тюркских народов и известные под разными названиями, имеют богатые сюжетно-содержательные и идейно-художественные черты. Вечная жизнь, стремление к бессмертию было величайшим желанием человечества с древних времен. Во многих баяты эта тема отражена с высоким артистизмом, человек, приговоренный к смерти, был вынужден смириться с этой истиной после ее осознания. В статье проанализированы характерные черты баяты, исследованы на научном уровне и выделена их философская сущность, воплощающая жизнь и смерть.

SUMMARY
THE PHILOSOPHY OF LIFE AND DEATH IN BAYATIS
Agbaba A.

Keywords: *bayati, philosophy of life and death, folklore, poetry*
Bayatis, which are widespread not only in the folklore area of Azerbaijan, but also in the oral poetry of Turkic peoples and are known by different names, have rich features in terms of subject, content and idea-artistic. Everlasting life, avoiding death has been the greatest desire of mankind since ancient times. In a number of bayatis, this topic is reflected with high artistry, a person condemned to death was forced to come to terms with this truth after realizing it. In the article, these characteristics of bayatis were analysed, bayatis embodying the philosophical essence of life and death were investigated at the scientific and theoretical level.

THE CHILDREN'S LITERATURE IN THE US EVOLUTION AND CURRENT ISSUES

Isgandarova N.V.
Sumgayit State University, Sumgayit, Azerbaijan, professor
isgani@gmail.com

Key words*: children's personality, self-awareness, concept of childhood, folk samples, research centers*

The invaluable role and importance of children's literature in the formation of children's personality, as well as in their self-awareness, is immeasurable. Tracing the history of children's literature shows a long history of the books written for children, and their content that has absorbed samples of oral tradition, folk, and fairy tales. As Sheila Ray states, "*In the early stages of a printed literature, there are few or no books published specifically for children. There are perhaps a few books intended for broadly educational purposes, such as the courtesy or behavior books printed in the fifteenth or sixteenth centuries in European countries. In this situation, children, as they learn to read, also take over adult books, which appeal to them. Gradually stories written specially for children begin to appear ..... [and eventually] demands for books to meet a variety of interests and special needs emerg*[e] [10, II, p.850].

Looking through the main problems of children's literature reveals its availability in the focus of literary criticism. However, the systematic study of the genres of children's prose, the reflection of children's images, the interrelation of artistic idea with the kids' self-consciousness, and cognition of national values in the artistic works have not been sufficiently investigated in the area of literary studies. From this point of view, studying the specificity and challenges of literature for children is actually one of the actual issues in revealing the real situation of the literary-theoretical thought of the time. Undoubtedly, similar situation is available in the literatures of many peoples of the world. However, the fact that literature for kids hasn't have special name as it is, does not mean that it has been removed from the literature in general. A manifestation of a non-serious attitude towards children's literature is being followed in the "Oxford Handbook of Children's Literature" [12, p.3-21] the compilers of which recognized this field only as a genre, and even in the monograph "Cambridge History of the American Novel" [6, p.861-878] in the publication of which the children's literature was given only one chapter.

In modern times, along with the interest in children's literature, the number of studies on this literature is increasing. In fact, the scientific study of children's literature began in the middle of the XX century. Since the end of the 70s of this century, the fundamental researches on children's literature have played a certain basic role in determining the theoretical perspectives of this literature.

In 1970, the "Signal" - children's magazine was founded in Britain, and in 1972, the "Children's Literature" magazine was founded in the United States. In 1973, the Children's Literature Association was established in the US, and this Association supported the granting in this field by making a tradition to hold annual conferences on children's literature. In recent years, awards for children's books' authors and illustrators in the United States, Canada, and the United Kingdom have been distinguished by their prestige.

The American children's literature was not of serious interest to researchers, it has been brought to the agenda in the last 50 years of the XX century, starting from the 1970s. The study of well-known samples of children's literature reveals serious social and political topics, and instills in the reader that children are a great force in solving the most delicate issues of "childhood", and "child" issues; even many problems of the "adult" world attract attention with its relevance.

The prominent Azerbaijani scholar Gorkhmaz Guliyev notes, "American children's literature is considered a branch of American literature, therefore, every change that occurs in the literature for adults definitely affects children's literature as well" [9, p.8].

Study of the American children's literature reveals historical similarities with Western European literature. The first historians of this literature assure that American literature has no characteristic features of its own, that this literature is only a way of imitation of the English literary process. Professor G. Guliyev is definitely accurate while describing the grounds of the US literature: "It would be correct to look for the roots of the American literature in the European literature, first of all, of course, in the English literary and artistic thought" [9, p.4].

The USA literature has already completed its formative stage and has become one of the world's leading literatures in terms of artistic and idea content. However, the history of the creation of American literature is attributed to the XVIII century in a number of researches on Literary Studies.

Actually, in the XVII-XVIII centuries, there was no concept of children's literature, because the concept of childhood was not existing, and children looked like their parents and elder brothers and sisters: they dressed and behaved like adults, they were made to work, and did not differ from teenagers. Although the English philosopher John Locke (1632-1704) introduced the term "child" into the literary circulation in the XVII century in his book "Some Thoughts Concerning Education", this term did not become popular until the 20th century. Children were forced to behave like teenagers from an early age [4, p.39].

In the XVII century, samples of American literature began to spread widely. The most famous textbook written by the English-born publisher Benjamin Harris (1673-1716) was first published in England. Later, the author moved to America and reprinted it there. The work was circulated in America for nearly 150 years, between 1680 and 1830, in over six million copies, and was used as a primary textbook for children [5, p.112].

It should be noted that historically parents have told stories and legends to children in order to entertain them. Such stories were first collected by the French writer Charles Perrault (1628-1703) and published in France in 1697 [8, p.455-475]. Based on these tales and legends, Daniel Defoe's "The Life and Strange Surprising Adventures of Robinson Crusoe" (1719), and Jonathan Swift's "Gulliver's Travels" were later popular among both young children and teenagers. His works ("Gulliver's Travels", 1726) were published and gained a wide readership on both sides of the Atlantic Ocean. Books suitable for the age level of children were first printed in a very small size and in a messy form. This created an obstacle to the wide distribution of the works.

The publishing of children's books in the United States was laid by the publisher and writer John Newbery (1713-1767). J. Newbery was named the founder of children's literature else in Britain in the XVIII century. In 1905, regular publication of children' books began with the "Booklist". In 1924, "The Horn Book" collection was started publishing purposely to evaluate children's books. Finally, in the 1970s and 1990s, the United States became one of the leading countries in the world in publishing children's literature. As a whole, the children's literature was spreading in orally transmitted forms, but its transformation into a separate research object coincides with the modern era [2, p.27-31].

It is a well-known fact that the heroes of literary works easily influence children. While reading these works, the children compare themselves with the heroes of the stories, and sometimes they try to imitate them. In order to coincide the favorite heroes, they try to copy them in their daily life, learning the mechanism of attitude towards the environment and people [7, p.211-214]. American educators Henderson B., Kennedy M., and Chamberlin J. in their joint monographic study noted the undeniable role and influence

of children's literature in a civilized society: "With the help of literature, children acquire literacy and science, become environmentally friendly citizens" [3, p.129-130].

In the 20th century, the legislation concerning children started regulating, so the use of child labor at an early age was almost banned in several countries of the world, including the United States. Recently, the works written for children in that period have been already valued as a historical literature

At the turn of the XIX century, folk samples began to spread widely in the USA literature. Joel Chandler Harris (1848-1908) collected and published the stories of "Uncle Remus", an example of widespread oral folk literature; and Keith Douglas collected, revised and published the "Arabian nights" for children [5]. "The development of special children's book publishing departments in large publishing houses played an important role in the development of children's literature as a separate field. In 1919, a children's book week was held for the first time in the history of American children's literature" [1, p.197].

In the US children's literature, creating works for children has become a tradition in the XX century. "The Tale of Peter Rabbit" by the English writer Helen Beatrix Potter (1866-1943) was published in 1902, and "Winnie the Pooh» by Alan Alexander Milne (1882-1956) - in 1926. When Beatrice Potter wrote her first work, she masterfully used pictures as well as words to describe her story, thus laying the foundation for picture books in English children's literature. Now she is valued as the mother of modern children's picture books. The main heroes of the writer's stories are animals. These stories are included in the list of stories that children are interested in at an earlier age. This period differed from other periods in terms of the richness of children's literature and was called “The golden age of children's literature” [11, p.32].

It should be noted that scientific studies on children's literature, as well as the publication of monthly and quarterly international research collections on children's literature in a number of countries, including the United Kingdom, and the United States, are of great importance for students and researchers. Cultural and literary theories, comparative literature issues, and children's literature have a unique role in promoting them as the samples of world literature. The ever-expanding children's literature, as well as the study and research of children's literature issues, are of great importance and relevance in determining the strategy of Azerbaijani children's literature.

At present, there are a number of research centers for the development of children's literature in the world. Along with the “Children's Literature Association” in the United States, "The Center for Children's Literature and Culture" at the University of Florida, "National Center for the Study of Children's Literature" at San Diego State University, "Center for Research in Children's Literature" at Cambridge University in England, "National Center for Research in Children's Literature" at Roehampton University are intensively operating. The main goal of the above mentioned research centers on children's literature is to bring together researchers in this field and reveal the innovations in children's literature.

References

1. Abdullayeva, T.M. 1970-1990-cı illər Amerika uşaq dramaturgiyası // – Bakı: Bakı Dövlət Universiteti, Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2018, № 3, – s.329-331
2. Hearne, Betsy. Problem and Possibilities: U.S. Research in Children’s Literature // – School Library Journal, – 1988. – p.27-31
3. Henderson, B., Kennedy, M., & Chamberlin, J. Playing Seriously with Dr. Seuss: A Pedagogical Response to the Lorax // – Detroit: Wayne State University Press, – 2004. – P.129-130
4. Locke, John. Some Thoughts Concerning Education / / J. Locke. 7 th edition by A. &; J. Churchill. – London, – 1712. – 356 p.
5. Lystad, M.A. From Dr.Mather to Dr.Seuss: Two hundred Years of American Books for Children. / M. Lystad. – Boston: G. K. Hall-Schenkman. – 1980. – 304 p.
6. Mickenberg, J. Children's novels. // C. Eby & B. Reiss. The Cambridge History of the American Novel// edited L. Cassuto. Cambridge: Cambridge University Press, 2011, pp. 861-878
7. Nitzke Susan, Byrne Elena. The Effect of Children’s Books on Attitudes and Behaviors Pertaining to an Unfamiliar Vegetable // – Journal of Nutrition Education & Behavior – 2002. – p. 211-214
8. Perrault, Charles. Stories or Tales from Times Past, with Morals; or, Tales of Mother Goose (1697). A new translation by Charles Welsh. Introduction by M. V. O'Shea. Illustrated by D. J. Munro after drawings by Gustave Doré. Boston: D. C. Heath and Company, 1901
9. Quliyev Q. Amerika ədəbiyyatı: Tarixi oçerklər/ Q.Quliyev, Ü.Əliyeva. – Bakı: “Elm və təhsil”, 2016, 395 s.
10. Ray, S. The world of children’s literature: An introduction’, in Hunt, P. (ed.). International Companion Encyclopedia of Children’s Literature, 2nd edition, London and New York: Routledge. 2004: II, 850

11. Sullivan, E. Comparative children's literature / E. Sullivan. – Routledge, – 2005. – 192 p.
12. The Oxford Handbook of Children's Literature / Edited by Julia Mickenberg and Lynne Vallone. USA: oxford university press, 2011, 608 p. – p.3-21

XÜLASƏ
ABŞ-da UŞAQ ƏDƏBİYYATININ TƏKAMÜLÜ VƏ MÜASİR PROBLEMLƏRİ
İsgəndərova N.V.

***Açar sözlər**: uşaq şəxsiyyəti, özünüdərk, uşaqlıq anlayışı, folklor nümunələri, tədqiqat mərkəzləri*

Məqalədə ABŞ-da uşaq ədəbiyyatının yaranma tarixi, məqsədi və vəzifələri araşdırırlır, onun gənc nəslin tərbiyəsində və özünüdərkində rolu və əhəmiyyəti açıqlanır. Göstərilir ki, ABŞ-da uşaq kitabları nəşrinin əsası naşir və yazıçı Con Nyuberi (1713-1767) tərəfindən qoyulmuşdur. 1970-1990-cı illərdə ABŞ uşaq ədəbiyyatının nəşri üzrə dünyanın aparıcı ölkələrindən birinə çevrildi. Yarandığı dövrdən şifahi xalq ədəbiyyatı ilə sıx əlaqəsi olan uşaq ədəbiyyatı uzun müddət şifahi şəkildə yayılsa da, onun ayrıca tədqiqat obyektinə çevrilməsi müasir dövrə təsadüf edir.

РЕЗЮМЕ
ЭВОЛЮЦИЯ И СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ США
Искендерова Н.В.

***Ключевые слова**: личность ребенка, самосознание, концепция детства, образцы фольклора, исследовательские центры*

В статье рассматривается история возникновения, цели и задачи детской литературы США, объясняется ее роль и значение в воспитании и процессе самосознания подрастающего поколения. Указывается, что издание детских книг в США было основано издателем и писателем Джоном Ньюбери (1713-1767) еще в 18 веке. В 1970-1990-х годах Соединенные Штаты стали одной из ведущих стран мира по изданию детской литературы. Тесно связанная с устным народным творчеством детская литература изначально распространялась в устной форме. Привлечение детской литературы США к изучению в качестве отдельного объекта исследования стало реальным в современную эпоху.

ANTİK ƏDƏBİ FİKRİ VƏ ƏLİ SULTANLI

Həmzəyeva S.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
vevi77@mail.ru

Açar sözlər: *yunan, Aristotel, katarsis, Əli Sultanlı, Platon, ədəbiyyat*

Azərbaycanda yunan ictimai və ədəbi fikri ilə tanışlığının tarixi qədimdir. Hələ bir neçə əsr bundan əvvəl dahi şair Nizami Gəncəvi özünün "İskəndərnamə" əsərini yazarkən, məşhur yunan filosoflarının fikirlərindən söhbət açması, M.Füzuli, A.Bakıxanov, M.F.Axundov kimi görkəmli şair və mütəfəkkirlərimizin əsərlərində isə yunan mədəniyyətinin təsiri duyulması, XIX əsrin görkəmli şairi S.Ə.Şirvaninin tərtib etdiyi dərsliyə digər ədəbi nümunələrlə bərabər, Homer haqqında hekayətini də daxil etməsi F.Köçərlinin Sokratın həyatından və təlimatından bəhs edən "Təlimati-Sokrat" əsərini tərcümə etməsi, yazıçı-dramaturq C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" hekayəsini Sokratın insanları ədalət və insafa çağıran sözləri ilə başlaması kimi faktlar qədim yunan ədəbiyyatına marağın göstəricilərindəndir. Əli Sultanlının yunan ədəbiyyatı sahəsindəki tədqiqləri belə bir zəmin üzərində inkişaf edir. Bu istiqamətdə müəllifin qələmə aldığı "Antik dünyada bədiyyat və ədəbiyyatşünaslıq məsələləri" əsərinin özünəməxsus mövqeyi vardır.

1946-cı ildə yazılan bu əsər Antik dünya ədəbiyyatının öyrənilməsi məqsədilə qələmə alınan ilk əsərdir. Əsər giriş və dörd hissədən ibarətdir. Birinci, ikinci və dördüncü hissələr qədim yunan mədəniyyətinin ayrı-ayrı dövrlərində yaranan sənət nümunələrindən, üçüncü hissə isə qədim Roma şairi Horatsinin "Pizanlara məktub" əsərindən bəhs edir. Əsərdə qədim Yunanıstanda və Romada yaranan müxtəlif nəzəri, elmi əsərlər təhlilə cəlb edilir, ayrı-ayrı sənətkarların estetik, ədəbi görüşləri şərh olunur və münasibət bildirilir

Gözəllik, onun nisbiliyi məsələsi, gözəlliyə münasibət bu dövr filosoflarını düşündürən əsas problem idi. Əli Sultanlı Heraklit, Demokrit, Sokratın görüşlərindən ötəri danışaraq, qədim aləmin böyük filosofları hesab edilən Aristotel və Platonun estetikasını təhlilə cəlb edir. Müəllif Platonun "Böyük İppi və yaxud gözəllik haqqında", "Ziyafət", "Fedr", "Fileb", "Dövlət", "Qanunlar" kimi əsərlərinin adlarını çəkir və göstərir ki, onun bədii görüşləri ən çox bu əsərlərində verilmişdir. Əli Sultanlı Platonu yunan bədiyyatının banisi hesab edənlərlə razılaşır və belə hesab edir ki, obyektiv idealist filosof Platon öz fəlsəfi görüşləri ilə əlaqədar olaraq müəyyən bədii məfhumları da izah etmişdir. Xüsusən, Əli Sultanlı onun

gözəllik konsepsiyasından geniş şəkildə danışaraq, "Ziyafət" əsərinin üzərində dayanır. O göstərir ki, bu əsərdə Platon bədii hissin tərbiyəsini və xüsusi hallardan ümumiləşdirməyə doğru inkişafını aydınlaşdırır. Platonun "Gözəllik əbədidir. O doğmur; məhv olmur; artmır, azalmır, gözəllik burada gözəl, başqa bir yerdə çirkin deyil, bu münasibətlə gözəl, başqa münasibətlə çirkin ola bilməz" fikirlərini şərh edərkən Əli Sultanlı belə nəticəyə gəlir ki, gözəllik öz-özlüyündə mütləqdir, dəyişməzdir və ideya aləminin passiv əksidir. Əli Sultanlı göstərir ki, Əflatunun incəsənət onun mahiyyəti və əhəmiyyəti haqqında düşüncələri onun gözəllik haqqında fikirlərindən doğur. Müəllif Platonun yaradıcılıq barəsində fikirlərindən danışarkən belə qeyd edir ki, o yaradıcılıq üçün dözülməz hədd, çərçivə qoyur. Əsərdə Əflatunun şairlik qabiliyyəti haqqında görüşləri də təhlilə cəlb olunub. Əli Sultanlı onun "ya fitrətən çox qabiliyyətli, ya da dəliliyə meyl edən insanlar ən gözəl, şairanə əsərlər yarada bilərlər" fikrinə istinad edərək göstərir ki, onun bu fikri bu və ya digər şəkildə, lakin eyni məzmunda yunan fəlsəfəsində təkrar edilmişdir. Deməli, talant haqqında ilk dəfə olaraq fitri nəzəriyyəni – Əli Sultanlı belə nəticəyə gəlir – məhz Platon irəli sürmüşdür. Buradakı "dəliliyə meyl edən" ifadəsi Əli Sultanlının təhlilində açıqlanmamış qalmışdır. Ə.Sultanlının "Antik dünyada bədiyyat və ədəbiyyatşünaslıq məsələləri" əsərində tədqiqə cəlb etdiyi məsələlərdən biri də ədəbiyyat və incəsənətin yaranma səbəbi, meydana gəlmə tarixidir. Bu ad altında o, iki problemdən söhbət açır: 1) İncəsənətin əsasını təşkil edən təqlid nəzəriyyəsindən; 2) Poeziyanın yaranma səbəbindən. Əli Sultanlı Platon və Aristotelin görüşlərinin müqayisəli şəkildə diqqət mərkəzinə çəkərək göstərir ki, Platon poeziyanın təqlid sənəti olduğunu iddia edərkən, təqlidin maddi mənasını inkar edir. Platona görə, incəsənət ideyanı idrak etməyə qabil deyil, bəlkə hisslərin qavraya bildiklərini təqlid edir. Müqayisə zamanı Aristotelin görüşlərinə daha çox üstünlük verir. Onun təqlid haqqında fikirlərini şərh etməzdən əvvəl, incəsənət və yaradıcılıq məfhumuna Aristotelin münasibətini göstərir.

"Etika" əsərini əsas götürərək Əli Sultanlı göstərir ki, Aristotel incəsənətlə yaradıcılığı eyni şey hesab edirdi. Təqlid haqqında danışarkən Aristotelin bu fikirlərinə istinad edərək Əli Sultanlı "incəsənətin mahiyyəti nədən ibarətdir?" sualını qoyur və buna "Poetika" əsərində cavab axtarır. İncəsənətin mahiyyətini təşkil edən təqlid məfhumunu isə, Əli Sultanlı Aristotel anlamı ilə belə izah edir: "Qeyd etmək lazımdır ki, Ərəstu "təqlid" məfhumunu çox geniş mənada düşünmüşdür. Təqlid ona görə, həyatın korcasına surətini kopya etmək deyildir. Təqlid xarici aləmi və onun hadisələrini yenidən yaratmaq deməkdir" [6, s.12]. Əli Sultanlı Platonun görüşləri ilə Aristotelin görüşlərini fərqləndirərək göstərirdi ki, Platon bədii təqlidə o qədər də böyük məna vermirdi, çünki o, belə hesab edirdi ki, təqlid hisslər aləminin təcəssümü və ideyalar dünyasının zəif verilmiş surətidir. Lakin Aristotel belə fikirləşirdi ki, bəzi təqlid gerçəkliyi anlamağa, dərk etməyə yardım edir.

"Poetika" əsəri Aristotelin digər əsərlərindən fərqli olaraq ədəbiyyatşünaslar üçün daha yararlıdır. Çünki burada ədəbi-nəzəri məsələlər daha geniş yer tutur. Əli Sultanlı bu əsər haqqında belə yazır: "Poetika" əsərinin üstünlüyü onun normativ xarakter daşımasındadır. Ərəstu bədii qanunlara tarixi bir hadisə kimi baxır. O, ancaq antik dövrün bədii abidələrini əsas alıb, onların üzərində öz tədqiqatını cəmləşdirir. "Poetika" əsərindən bütün dövrlərin sənəti üçün dəyişməz, əbədi qanunlar çıxaranlar şübhəsiz yanılırlar. "Poetika"da Ərəstu daha çox faciə üzərində dayanmış və antik faciənin çox müfəssəl tərifini, təhlilini vermişdir" [6, s.17]. Həqiqətən, "Poetika" əsərində faciə janrının nəzəri məsələlərindən daha çox danışılır. Aristotel faciəyə elə bitkin tərif vermişdir ki, bu gün də bu tərifdə üzə çıxan bəzi məsələlər diskussiyaya cəlb olunur. Xüsusən, onun işlətdiyi "katarsis" – təmizləmə termini daha çox müzakirə və mübahisələrə səbəb olmuşdur. Bir çox tənqidçilər, nəzəriyyəçilər bu sözün elmi izahını verməyə çalışmış, bu baxımdan bir neçə istiqamət meydana gəlmişdir. Onlar "katarsis" sözünü etik, etik-estetik, tibbi və dini istiqamətdən izah etməyə çalışmışlar. Əli Sultanlı bu barədə yaranan fikirləri ümumiləşdirərək belə nəticəyə gəlir: "Ərəstu təsvir etdiyi mərhəmət yalnız yazıqgəlmə hissi deyil, bu hiss ona görə daha mürəkkəbdir. Mərhəmət hissi dərhal qorxuya keçir. Qorxu hissi, dəhşət hissi ayrı-ayrı şeylərdir...

Qədim yunan ədəbiyyatının inkişafında "Ellinizm" dövrü öz xüsusiyyətləri ilə digərlərindən fərqlənirdi. Nə qədimdə, sinifli cəmiyyətin yarandığı dövrdə çiçəklənən lirikanın, nə də attik dövrdə mövcud olan komediya və faciənin mükəmməl nümunələri bu dövrdə gözə çarpmır. "Antik dünyada bədiiyyat və ədəbiyyatşünaslıq" məsələləri əsərinin ikinci hissəsində bu dövrün nəzəri məsələlərindən söhbət açılır. Əli Sultanlı ellinizm dövrünü belə səciyyələndirərək göstərirdi ki, İsgəndərin ölümündən sonra yeni-yeni dövlətlər yaranır, yəni böyük mərkəzlər təsis olunur.

Perqam, Antioxa, Selevkiya, İsgəndəriyyə kimi şəhərlər həm siyasi, həm də mədəni mərkəzlər olmaq nöqteyi-nəzərindən şöhrət tapır, ellinizm dövrünün ən böyük alimləri toplanır, dünyanın ən nadir kitabları, əlyazmaları İsgəndəriyyə kitabxanasına axın edir. Misal üçün III əsrdə İsgəndəriyyə padşah kitabxanasında 490 min əl yazı bağlaması, I əsrdə isə 700 min əl yazı bağlaması var idi. Dövlət başçılarının çağırışı Yunanıstanın ən böyük alimləri, filosofları bu kitabxanada işləmişlər" [6, s.30]. Kitabxanaçılıq fəaliyyəti genişləndikcə tədqiqatçılıq işi də yaranmağa başlayır. Nəticədə isə filologiya elmi meydana gəlir.

Əli Sultanlı dövrün bu əlamətdar hadisəsi haqqında danışaraq belə göstərir ki, ayrı-ayrı şairlər barəsində ağızdan-ağıza gəzən rəvayətlər toplanır, təzkirələr yazılır: ümumi ədəbiyyat tarixinin xüsusi elmi tədqiqat işləri ədəbiyyat tarixinin ilk mərhələsinə çevrilir.

Əli Sultanlı əsərinini III hissəsində qədim Roma şairi Horatsinin "Pizonlara məktub" əsərindən söhbət açır. Məlum olduğu kimi, bu əsər poeziya sənəti haqqındadır. Görkəmli rus alimi N.M.Tronski göstərirdi ki, bu əsər hələ antik dövrdə "Poeziya elmi" kimi adlandırılmaqla başlamışdı və əsər Aristotelin "Poetika" əsəri kimi nəzəri tədqiqat əsəri hesab olunurdu. Eyni fikri Əli Sultanlı da təsdiqləyərək qeyd edirdi ki, "Horatsinin bu əsəri Ərəstunun "Poetika"sından sonra ədəbiyyatşünaslıq tarixində dərin təsirlər buraxmış bir əsərdir" [6, s.33]. Horatsinin yaşadığı dövrdə ziyalılar və zadəganlar arasında şeir yazmaq dəb halını almışdı və buna həyat pilləkənində şöhrətə nail olamq üçün astana yolu kimi baxırdılar. Əli Sultanlı Horatsinin görüşlərini şərh etməzdən əvvəl, yaşadığı dövrü xarakterizə edərək yazır:

"Bəzi hallarda ədəbi məşğuliyyət bir xəstəlik halına çevrilmişdir heç təəccüblü deyil ki, bu vaxt Vergili, Horatsi, Ovidi-Nazon, Propersi, Tibull kimi böyük talantlı şairlər ilə bir sırada minlərlə nazimlər, mütəşşairlər şeir meydanında at oynadırdılar; lakin dövr onları ədəbiyyat arxivinin tozlu küncləri nə tullayır, unutdurur? İkinci tərəfdən yunan ədəbiyyatı ilə tanışlıq işləri getdikcə genişlənirdi. Vergili, Horatsi kimi şairlər öz şeir yaradıcılıq yollarına nəzər ataraq Homer, Sapfo, Pindar kimi böyük ustadlar qarşısında imtahan verməli idilər. Yunan şairləri, onların şeir üsulları, bədii vasitələri əsas bir nümunə idi. hətta rəvayətə görə, Avqust ədəbi məsələlərlə, bədii həzzə nəzarət üçün xüsusi bir amillər cəmiyyəti təşkil etmişdi. [6, s.33].

"Pizonlara məktub" əsəri belə bir şəraitdə yazılmışdı. Əsər poeziya haqqında, şeir onun qanunauyğunluğu barədədir. Lakin bütövlükdə ədəbiyyatşünaslıq problemləri onun tədqiq obyektinə daxil deyildi. Bu əsərin "Poetika" əsərinin təsiri ilə yaranması fikrini elm aləmində uzun müddət söyləmiş və isbat etməyə çalışmışlar. Əli Sultanlı onlara qarşı əks mövqedə durur, o, belə hesab edir ki, Aristotelin "Poetika"sı fəlsəfi dərinliyə malik, mükəmməl, məntiqi əsaslara istinad edən zəngin bir ədəbiyyat nəzəriyyəsi dərsliyi olduğu halda, "Pizonlara məktub" əsəri nəsihətamiz, satirik bir tərzdə yazılmış məsələləri sırf şairanə bir ehtirasla həll edən, məsələlərin quruluşu etibarilə mənriqlikdən, məhrum bir ədəbi öyüddür. Bununla belə, Əli Sultanlı göstərir ki, Horatsi bir çox fikirləri ilə Aristotelə yaxındır.

"Antik dünyada bədiiyyat və ədəbiyyatşünaslıq məsələləri" əsərinin dördüncü hissəsində müəllif qədim Yunan mədəniyyətinin tənəzzülə uğradığı dövrdə yaranan sənət əsərləri barədə məlumat verir. "Antik dövrün ədəbiyyatşünaslığından danışarkən "Ülviyyət" adlı bir nəzəri əsərin üzərindən keçmək olmaz" – deyərək, professor Əli Sultanlı müəllifi bəlli olmayan bu əsər barədə söhbət açmağa başlayır. Əsərdə məzmun zənginliyinin gözlənilməsindən, üslub gözəlliyindən, onun vacibliyindən danışılır. Burada yabançı ünsürlərə qarşı etiraz var. Bunu nəzərdə tutan Əli Sultanlı göstərirdi ki, "müəllif üslubda üzmatik ünsürlərə qarşı çıxaraq, bədii əsərlərin getdikcə ya quru, cansız bir hala gəldiyini və yaxud sonsuz naturalist təhlükələrə düşdüyünü göstərərək, hər iki yolu tənqid edir. Bu yerdə bir sual qarşıya çıxır. I əsrdə ədəbiyyatın düşgünlüyünə səbəb nədir? Öz sualına müəllif özü cavab verir: O yazır: "Müasir dövrdə ədəbiyyatın düşgünlüyünə əsas səbəb, demokratiyanın düşməsi, azadlığın olmaması və cəmiyyətdə, ailədə əxlaqın düşkünlüyüdür" [6, s.43].

Roma imperiyası dövrünə təsadüf edən elllin dünyasının ədəbi həyatı tədricən sönməyə, tənəzzülə uğramağa başladığı bir dövrdə satirik Lukian yaşayıb-yaradır. O, həmçinin natiqlik sənətini öyrənmiş və vəkil kimi şöhrət qazana bilmişdir. Lukian öz dövrünün ictimai-siyasi hadisələrini tənqid atəşinə tutur və acı gülüş içərisində təsvir edirdi. O, əsərlərində natiqlik sənətində, ədəbi əsərlərdə təsadüf olunan formasızlıq, məzmunsuzluq məsələləri haqqında söhbət açır. Əli Sultanlı Lukiana məhz bu baxımdan yanaşmış və yaradıcılığındakı ədəbiyyatşünaslıq məsələlərini öz təhlilinə cəlb etmişdir. O yazır: "Təxrib edici, zəhərləyici gülüşlərlə müasir dövrünün yaradıcılıq işlərini tənqid edən Lukian öz bədii əsərlərində bədiiyyat məsələlərinə toxunaraq, bir sıra maraqlı fikirlər irəli sürmüşdür. "Tarixi necə yazmaq lazımdır?" adlı əsərində müasir dövrünün tarixçilərini tənqid edir. Tarixçilər əsl tarixi hadisələri, onların qanunu inkişafını bir tərəfdə buraxaraq, ayrı-ayrı şəxsləri yaltaqlıq üzündən mədh edir" [6,44]. Bədiiyyat məsələlərinə gəlincə, Ə.Sultanlı göstərir ki, o məzmun haqqında danışaraq, məzmun zənginliyini bədii əsər üçün əsas amil hesab edir.

Sonda Əli Sultanlı Platininin yaradıcılığına toxunur. O göstərir ki, Platininin yaradıcılığı üçün idealist filosof Platonun görüşləri istinad yeri olmuşdur, lakin sonralar o, bədiiyyata, mistikaya doğru inkişaf etmişdir. "O gözəlliyi təbiətdə deyil, mütləq mənəvi elmdə axtarır... Gözəllik ancaq məfkurədə, ideyadadır" – Əli Sultanlı onun bu fikirlərini əsas alaraq yazır: "Platininin (Enneada. VI kitab) bu son fikirlərilə çox zəngin məzmunlu, dərin mənalı yunan bədiiyyatı və ədəbiyyatşünaslığı iri addımlarla sönməyə doğru yuvarlanırdı. Antik ədəbiyyatşünaslığı III əsrdə öz əzəmətini itirir" [6, s.47].

Öz əzəmətini itirməyə başlayan Antik mədəniyyət təşəkkül tapdığı andan sonadək o qədər böyük zənginlik, möhtəşəmlik ehtiva etməyə başladı ki, müasir dövrə qədər gücünü itirmədi. Əli Sultanlı öz

əsərində məhz bu güc barədə söhbət açmışdır. Əsərdə bəzi məsələlərin üzərindən ötəri keçilmişdir. Əli Sultanlı çox vaxt yazıçıların əsərlərindən təhlilə cəlb etdiyi problemə öz münasibətini bildirmir, sadəcə bir növ təqdim edərək kifayətlənmişdir. Ancaq qeyd etmək vacibdir ki, əsər Antik ədəbi fikrin öyrənilməsində mühüm mənbədir.

Ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. Üç cilddə. Bakı, 1957-1960, 564 s.
2. Qarayev Y. Tənqid: problemlər, portretlər. Bakı: Azərnəşr, 1974, 212 s.
3. Zamanov A. Əməl dostları. Bakı: Yazıçı, 1979,374 s.
4. İsmayıl Ş. Xatirəyə dönmüş illər. Bakı: Yazıçı, 1980, 366 s.
5. Sultanlı Ə.Azərbaycan dramaturgiyasının inkişafı tarixindən. Bakı: Azərnəşr, 1964, 300 s.
6. Sultanlı Ə. Antik dünyada ədəbiyyat və ədəbiyyatşünaslıq məsələləri. Bakı: ADU, 1946, 10 s.
7. Sultanlı Ə. Antik ədəbiyyatı müntəxəbatı. Bakı: ADU, 1958, 496 s.
8. Sultanlı Ə. Məqalələr. Bakı: Azərnəşr, 1971, 327 s.

РЕЗЮМЕ
АНТИЧНАЯ ЛИТЕРАТУРНАЯ МЫСЛЬ И АЛИ СУЛТАНЛЫ
Гамзаева С.С.

Ключевые слова: *грек Аристотель, катарсис, Али Султанлы, Платон, литература*

В данной статье рассказывается о работе Али Султанлы «Античная литература и вопросы литературоведения». В работе говорится о представлениях о творчестве древнегреческой и римской литературы. Сопоставляются и анализируются теоретические идеи Платона, Аристотеля, Горация и других, а также объясняются теория подражания, понятие красоты, вопрос о таланте.

SUMMARY
ANCIENT LITERARY THOUGHT AND ALI SULTANLI
Hamzayeva S.S

Key words: *greek, Aristotel, catharsis, Ali Sultanli, Platon, literature*

Ali Sultanli's work named “Issues of Literature and Literary studies in the Ancient World” is mentioned in the article. His ideas about the works of prominent figures of ancient Greek and Roman literature are discussed here. The theoretical ideas of Plato, Aristotle, Horatio and others are analyzed by comparison. The theory of imitation, the myth of beauty, and the issue of talent are explained.

ALİ MƏKTƏBLƏRDƏ CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATININ TƏDQİQİ MƏSƏLƏLƏRİ

Hüseynova A.H.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent

Açar sözlər: *Cənubi Azərbaycan, bədii ədəbiyyat, monoqrafiya, nəzəri-siyasi məsələlər, Səttarxan, Xiyabani, Pişəvəri*

1828-ci ildə Azərbaycan Şimala və Cənuba parçalandıqdan sonra Cənubda baş verən hadisələr Şimala da öz təsirini göstərirdi. Cənubda baş vermiş inqilabi hərəkat – Səttarxan, Xiyabani hərəkatı və 1945-ci ildə yaradılmış muxtariyyət fars rejimi tərəfindən qəddarcasına iflasa uğradılsa da, bu hadisələr gedişində Azərbaycan xalqı fars şovinizminə öz gücünü göstərdi.

İstər Səttarxan, istər Xiyabani, istərsə də, Pişəvərinin rəhbərliyi ilə olmuş xalq hərəkatı Cənubi Azərbaycan tarixinin parlaq səhifələridir. Əvvəl rus, sonra sovet rejimlərində bu xalq hərəkatının mahiyyətini, məqsədini öyrənmək, tarixini yazmaq bir o qədər də asan deyildi. Belə olduqda bu missiyanı bədii ədəbiyyat öz üzərinə götürərək olan hadisələri, tarixi obrazları bədiiləşmiş obrazlar vasitəsi ilə təqdim edə bilir. Mürtəce rejimlər dövründə bu baxımdan ədəbiyyatın imkanı tarixin imkanlarından daha genişdir.

1828-ci ilə qədər vahid Azərbaycanın ayrılmaz böyük hissəsi olan Cənubi Azərbaycan ədəbiyyatının tədqiqi və öyrənilməsi XX əsrin II yarısında və müstəqilliyin bərpasından sonrakı dövrdə həmişə aktual olmuş və bu sahədə elm adamları cənub mövzusuna həsr olunmuş ədəbiyyat nümunələri ilə bağlı tədqiqatlar aparmışlar.

Cənubi Azərbaycanda baş verən siyasi hadisələr Şimali Azərbaycanda bədii ədəbiyyat üçün xüsusi seçilmiş mövzular idi. Şimali Azərbaycan ədibləri ilə bərabər mühacirət həyatı yaşayan ədiblər də öz yaradıcılıqlarında bu mövzuya xüsusi yer vermişlər.

Cənubi Azərbaycan ədəbiyyatının ali məktəblərdə tədqiqi məsələlərini öyrənərkən onu da qeyd etməliyik ki, bu məsələlər Elmlər Akademiyasının İnstitutları ilə bərabər respublikamızın ali məktəblərinin də aktual problemləri olmuşdur. Bu sahədə alimlərimizin apardıqları tədqiqat işlərinin bir neçəsini təqdim etmək yerinə düşərdi. Belə ki, Bakı Dövlət Universitetinin professorları Almaz Əliqızı, Yavuz Axundlu, Sumqayıt Dövlət Universitetinin dosenti A. Hüseynovanın tədqiqatları üstünlük təşkil edir.

Cənubi Azərbaycan ədəbiyyatının öyrənilməsində BDU-nun professoru A.Əli qızının tədqiqatları mühüm yer tutur. Onun tədqiqat əsərləri arasında "Güney Azərbaycan ədəbiyyatı: mərhələlər, təmayüllər, etüdlər"[1], "Güney Azərbaycan zamanın məngənəsində"[2] adlı monoqrafiyalarında Cənubi Azərbaycan ədəbiyyatının öyrənilməsinin nəzəri-siyasi məsələlərinin konsepsiyası qoyulur.

"Güney Azərbaycan zamanın məngənəsində" monoqrafiyası sovet dövründə yazılsa da, müəllif zamanın çərçivəsindən kənara çıxaraq Cənubdakı soydaşlarımız, onların həyat tərzi ilə bağlı bədii ədəbiyyat nümunələrin verdiyi imkanlardan istifadə edərkən müəyyən araşdırmalar aparmışdır.

A.Əliqızı 1998-ci ildə nəşr etdirdiyi "Güney Azərbaycan ədəbiyyatı, mərhələləri, təmayüllər, etüdlər" adlı əsərində Cənubi Azərbaycan ədəbiyyatının son 40 illik dövrünü tədqiq edir. 1945-ci ildən başlanan bu dövrü tədqiq edərkən Cənubi Azərbaycanda baş verən hadisələrə xüsusi diqqət yetirir. Cənubi Azərbaycanda baş verən hadisələrin bədii ədəbiyyatda əksi, inikası məsələsinə xüsusi diqqət yetirən Almaz Əliqızı bu mövzuda ədəbiyyatda yaranmış iri həcmli əsərlərin nümunələri əsasında İran daxilində xüsusilə 1945-1946-cı illərdə Azərbaycanın muxtariyyəti məsələlərinə geniş yer verilir.

Müəllif təqdim olunmuş monoqrafiyasında Azərbaycan xalqının böyük oğlu S.C.Pişəvərinin fəaliyyəti üzərində geniş dayanmaqla qeyd edir ki, bu böyük vətən övladı XX əsrin əvvəllərində Cənubi Azərbaycanda üsyan bayrağı qaldırmış Səttarxan və S.M.Xiyabaninin davamçısıdır. Əsərdə Azərbaycan dili məsələsinin Pişəvərinin yaratdığı Demokratik firqəsinin də dəfələrlə qaldırması Pişəvərinin dili ilə qeyd olunur.

Almaz Əliqızının oxuculara təqdim olunan bu tədqiqatı ədəbiyyatımızın Güney ağrılarını duymaq, yaşamaq və dərk etmək baxımından mühüm əhəmiyyətə malikdir. Azərbaycan Milli Hökumətinin təşəkkülü və süqutundan günümüzə qədərki dövrədək olan ədəbiyyatın (bu ədəbiyyatın poeziya və nəşr qolunun) təhlil obyektinə çevrildiyi əsərin diqqəti çəkən cəhətlərindən biri burasındadır ki, müəllif yarım əsrdən artıq bir epoxanın ədəbi sərvətlərini saf-çürük etmiş, ümumiləşdirmiş, onun mərhələ təsnifatını vermiş və hər bir mərhələnin spesifik xüsusiyyətlərini açıqlamaqla ədəbi prosesi tarixi hadisələrin kontekstində canlandırmışdır. Müəllif Güney Azərbaycandakı ədəbi prosesi ayrı-ayrı tarixi dövrlər və mərhələlər fonunda təqdim etdiyindəndir ki, monoqrafiyada xronoloji bir ardıcıllıq izlənilməkdədir. Bu isə İran-fars istibdad rejimi altında inləyən xalqımızın ədəbiyyatının hansı ağrılarla yaşadığını, hansı qayələrə söykəndiyini duymağa və dərk etməyə imkanlar açır. Bir cəhətin də xatırladılmasına ehtiyac vardır ki, monoqrafiyada əbədi xəzinəmizin Güney qolu müstəqil araşdırma obyekti kimi düşünülsə də, tədqiqatçı ədəbiyyatımızın ümumi, ortaq cəhətlərinə diqqət yetirmiş, müqayisə və paralellər aparmış, bəzi məqamlarda bütovAzərbaycan ədəbiyatı mövqe və prinsiplərindən çıxış etmişdir.

XX əsr Cənubi Azərbaycanda baş verən proseslərin ədəbiyyatda (həm cənub, həm də Şimali Azərbaycan ədəbiyyatında) bədii obrazların vasitəsilə verilməsi söz yox ki, şair və yazıçıdan ilk növbədə xalqının tarixini bilmək bacarığından çox asılıdır. Həmin yazıçı və şairlərin cənubda gedən proseslərə aid əsərlərini tədqiqata cəlb edən müəlliflərdən biri də Sumqayıt Dövlət Universitetinin Azərbaycan və xarici ölkələr ədəbiyyatı kafedrasının dosenti A.H.Hüseynovadır. Onun 2007-ci ildə nəşr olunmuş "Məmməd Səid Ordubadinin nəsrində Cənubi Azərbaycan" adlı monoqrafiyasında cənub mövzusunda yazıb yaratmış ədiblərin əsərləri elmi dövriyyəyə cəlb olunmuş, tarixi-etnoqrafik, fəlsəfi, sosial-iqtisadi, xüsusilə milli özünüdərk məsələləri ön plana çəkilmişdir. Monoqrafiyada M.S.Ordubadinin "Dumanlı Təbriz" romanının üzərində dayanan tədqiqatçı bildirir ki, "məşrutə hərəkatı və inqilabi mübarizənin təcəssümü, hadisələr, obrazlar sisteminin araşdırılması, tarixi roman janrı, tarixilik prinsipi, milli mədəniyyət və etnoqrafiya, bunların bədii inikası məsələlərinə aydınlıq gətirilməsi, yazıçının siyasi-ictimai hadisələrə fəlsəfi baxışları, dünyagörüşü və sənətkarlıq xüsusiyyətlərinin öyrənilməsi ədəbiyyat tariximizin müasirlik baxımından tədqiqi üçün gərəkli"[3]dir. [3, s.7]

Tədqiqatçı Arzu Hüseynovanın 2018-ci ildə nəşr olunmuş "XX əsr Azərbaycan ədəbiyyatında bölünmüş Vətən mövzusu" adlı monoqrafiyasını son illərdə ali məktəbdə Cənubi Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində atılmış addımların ən uğurlusu hesab etmək olar. Tədqiqatçı monoqrafiyanın girişində qeyd edir ki, qoyulmuş məsələyə elmi, nəzəri, siyasi baxışların məcmusu ulu öndər Heydər Əliyevin hələ Azərbaycana birinci rəhbərliyi dövründə formalaşmış, müstəqilliyimizin bərpasından sonra yeni mərhələyə qədəm qoymuşdur. Ali məktəblərdə tədris olunan Cənubi Azərbaycan ədəbiyyatı fənninin öyrənilməsində böyük elmi əhəmiyyət kəsb edən monoqrafiyanın əsas qayəsini, bütöv, vahid Azərbaycan mövzusu təşkil edir. Sovetlər dövründə ədəbiyyatımızda ikiyə bölünmüş vətən mövzusunda yazıların nəşrinin qadağan

olunmasına baxmayaraq "görkəmli dövlət xadimi Heydər Əliyev Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaranmasına, Azərbaycan ədəbiyyatının bütövlüyünə özünün əvəzsiz tövhələrini vermişdir."[4] [4, s.10]

Ədəbiyyat

1. Əliqızı A. Güney Azərbaycan ədəbiyyatı: mərhələlər, təmayüllər, etüdlər, Bakı: Bakı Universiteti, 1998, 321 s.
2. Əliqızı A. Güney Azərbaycan zamanın məngənəsində, Bakı: "Elm və təhsil" nəşriyyatı, 2011, 112 s.
3. Hüseynova A. Məmməd Səid Ordubadinin nəsrində Cənubi Azərbaycan, Bakı: BUN, 2007, 154 s.
4. Hüseynova A. XX əsr Azərbaycan ədəbiyyatında bölünmüş Vətən mövzusu. Bakı: AFPoliqrAF, 2018. 200 s.

РЕЗЮМЕ
ВОПРОСЫ ИССЛЕДОВАНИЯ ЛИТЕРАТУРЫ ЮЖНОГО АЗЕРБАЙДЖАНА В ВУЗАХ
Гусейнова А.Н.

Ключевые слова: *Южный Азербайджан, художественная литература, монография, теоретико-политические вопросы, Саттархан, Хияабани, Пешавар*

Представлена подробная информация о научных исследованиях ученых-филологов высших учебных заведений в области исследования и изучения литературы Южного Азербайджана. Отмечается особая роль написанных о литературе Южного Азербайджана монографий в развитии нашего литературоведения. Исследуются общесвенно-политические процессы, происходившие на юге в XX веке и вопросы целостности Родины.

SUMMARY
ISSUES OF STUDYING THE LITERATURE OF SOUTH AZERBAIJAN IN HIGHER EDUCATIONAL INSTITUTIONS
Huseynova A.H.

Key words: *Southern Azerbaijan, art literature, monograph, theoretical and political questions, Sattarkhan, Khiyabani, Peshawar*

Detailed information on scientific studies of philologists of higher educational institutions in the area of research and study of literature of Southern Azerbaijan is presented. The special role of the monographs written about the literature of South Azerbaijan in the development of our literary education is noted. Social and political processes and issues of the integrity of the homeland that occurred in the south in the 20th century are studied.

FORMA VƏ MAHİYYƏT ÜZƏRİNDƏ QURULAN POETİK ASSOSİASİYALAR (RƏSUL RZA ƏDƏBİ MƏKTƏBİ ƏSASINDA)

Cümənov D.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
cumanov73@mail.ru

Açar sözlər: *Rəsul Rza, ədəbi məktəb, poetik assosiasiya, forma-mahiyyət assosiasiyası*

İncəsənətdə və onun müxtəlif sahələrində, bədii yaradıcılıqda özünü göstərən assosiasiya məsələsi təfəkkür hadisəsi olub, psixi proseslərlə bağlıdır. Assosiativ bədii təfəkkür, assosiativ obrazlılıq, poetik assosiativlik, bədii fikrin assosiativ çalarlarla təqdimi və s. kimi ifadələri yaradıcılıq prosesində ilk baxışda bir-biri əlaqəsi olmayan, yaxud zəif və uzaq görünən nəsnələr, həyat və təbiət hadisələri arasında fikir və təsəvvürdə bağlantı yaratmağın poetik cəhdi kimi dəyərləndirmək olar. Şeiryaratma prosesində poetik fikrin bu cür ifadə tərzi assosiativ poeziya anlayışını yaratmışdır ki, bunu da obrazlı təfəkkürün ən yüksək mərhələsi, səviyyəsi hesab etmək mümkündür. Çünki assosiativ təfəkkürlə bağlı olan bu cür poetik mətnlər qarşı tərəfin, yəni mütaliəçinin materialı dərkini çətinləşdirir, bir sözlə, bu həm yaradandan - şairdən, eləcə də onu qavramaq istəyən oxucudan intuisiya, intellekt-məntiq tələb edir. V.Səmədoğlu R.Rza haqqında yazdığı "Poeziya nəhri" məqaləsində bu amili nəzərdə tutaraq göstərmişdir ki, *"Bizim əsrdə, zəka böyük zəfərlər qazandığı bir əsrdə, böyük fikir qısa bir sözə və düstura sığışdırıla bilən zamanda oxucu şeir kitabını açarkən düşünməyə hazır olmalıdır, şeirdə yalnız şirin əyləncə axtarmamalıdır*" [8].

Xatırlama, sual-cavab, fəlsəfi ümimiləşdirmələr kimi müxtəlif üsullardan istifadə edilərək həyata keçirilən asssosiativliyin poetik yol və imkanları müxtəlif olmuşdur. Bunlardan biri də forma və mahiyyət üzərində qurulan assosiasiyalardır. Bu assosiasiya tipində daha çox bir-birindən fərqli görünən predmet və hadisələr arasında forma və daxili məzmuna görə rabitə qurmaq yolu ilə poetik təfəkkürdə üçüncü lirik-

metaforik assosiativ obraz yaradılır. Məsələn, "Rənglər"də "Cansız barmaqlar arasında/sönmüş siqaretin uzun külü./Yetim bir qız uşağının/dəyişiksiz dizliyi" boz rəngin forma, "Çoxlara qatışıb itənlər,/Hər torpaqda bitənlər./Boş günlər,/boş ürəklər./Həm elə, həm belə adam" ("Boz") mahiyyət assosiasiyasıdır. Forma və mahiyyət assosiasiyaları bir-birindən ayrı deyildir, əksinə əlaqə və keçidlidir. "Yetim bir qız uşağının/dəyişiksiz dizliyi" boz rəngin - formanın üzərində qurulsa da, ideya-məzmun mündəricəsini (yetim, baxımsız insanların taleyini) açmağa xidmət edir. R.Xəlilov "Rənglər"də bədii qavramanı izah edərkən yazır ki, *"... həyati mahiyyət və məzmun öz poetik ifadəsini, adətən, assosiativ düşüncə prosesində tapır", "... predmetin rəngi, forması deyil, özü, daxili mahiyyəti assosiativ əlaqənin əsasını təşkil edir"* [3, s.167;172].

R.Rzanın "Rənglər" silsiləsinin təsirinin aşkar müşahidə olunduğu mətnlər çoxdur. Abbas Abdullanın "Aylar silsiləsi" (1969) şeirlərində ayların ("Sentyabr/bir salxım üzüm asdı/divarımdan-/gilələri dupduru, /yupyumru, /pişik gözü kimi. /Açdım təqvimi: /varağı- /tənək yarpağı. /Tənək yarpağı- /ayı pəncəsi. /Divarımda bir salxım keçiməməsi...", Ə.Salahzadənin "Fevral-1966" (1966) poemasında "körpə", "ümid", "işıq", "təbəssüm"ün çalarlarının ("Bütün otaqlarımda/Körpə - gələcəyə körpümüz. /Ümid – yaşıl köklü ağacımız. /İşıq – günümüzün qalayı. /Təbəssüm–baxışımın cənub yazı... /Bütün otaqlarımda/Hörmüz, Əhrimən..."), F.Sadığın "Kəhrəba" (1966) şeirində kəhrəbanın ("Buğdanın təşbehi, /Çiçək şehi,/Donmuş dəniz dalğası. /Daşların qövsi-qüzehi, /Qız fərəhi, /Bərkimiş günəş şüası, /Balıqçı gəmilərini gözləyən qadınların göz yaşı..."), "Tənbəllik" (1966) şeirində tənbəlliyin təsvirində ("Gözünü qum tutmuş bulaq./Gec yeriyən uşaq./Məcrasını aşmayan sel,/əsarətə öyrəşən el./İstedadın ölümü./Fikrin xərçəngi,/Arzunun güvəsi./Usta Zeynalın nəvəsi") müxtəlif predmetlər arasında forma-mahiyyət tipli assosiasiya yaradılmışdır. Forma-mahiyyət assosiasiyalarına gözəl örnək sayıla biləcək F.Sadığın "Söz hörgüsü" (1978) şeirinin strukturu eynilə "Rənglər"dəki kimidir: "Əkiz söz/Ahəng tərəzisinin pərsəngi, /Şeir divarının hamar üzü. /Köhnə daşı çox olsa/Kifir göstərəcək hörgünüzü" ("Qafiyə"), "Möcüzə. /Hörgüdə qapı-pəncərə yeri. /İşığa qərq edir şeiri" (Məcaz"), "Nəfəsdərmə, /Söz dayanacağı, /Döngə-dalan./Elə böl ki,/ dalandan küçəyə çıxasan" ("Bölgü") və s. [5, s.148].

Yeknəsəqlik və monotonluq içində rəngarənglik, yeni çalarlar axtarıb tapmaq, həm də onları poetik mətnin ön planına çıxarmaq Rəsul Rza ədəbi məktəbinin estetik sənət gözəlliklərdəndir. Bu mənada tənqiçi-ədəbiyyatşünas Y.Qarayev "İmzalar və ümidlər" (1976) məqaləsində 1960-70-ci illər Azərbaycan poeziyasında yeni poetik üslubların müşahidə olunduğunu nəzərə çatdırmışdı: *"60-cı illərin narahat üslub axtarışlarında büllurlaşan və artıq poetik şəxsiyyətlər kimi sabitləşməkdə olan imzaların ikisi, adətən, yanaşı çəkilir: Ə.Salahzadə və İ.İsmayılzadə. Bugünkü poeziyada maraqlı bir poetik üslubu (həm qüvvətli, həm də zəif cəhətləri ilə birlikdə) bu iki imzanın vəhdəti qabarıq ifadə edir"* [4, s. 43]. Fikrimizcə, bu "maraqlı poetik üslub"u formalaşdıran isə hər iki şairin fikrinin poetik təqdimatında daha çox assosiasiyaya meyillilik faktoru dayanmışdır. Tədqiqatçılar (Y.Qarayev, V.Ysifli, E.Akimova) Ə.Salahzadənin "Ağ zanbaq" (1968), İ.İsmayılzadənin "İşıqlı yarpaqlar" (1976) şeirlərini assosiativliyə gözəl örnək-mətnlər kimi dəyərləndirmişlər. "Ağ zanbaq" şeirində (Ağ bir zanbaq kimi açıldı səhər! /Şəfəqlə suladı/susəpən kimi/günəş zanbağı./Şəfəq içə-içə qızardı zanbaq./Qızlar xəbər tutmadılar /zanbaq səhərdən; /yoxsa ayaqlarını/ dirəyib bir başmağa/oğlanları/salardılar dağa-daşa...) forma assosiasiyaları (günəş, səhər, ağ zanbaq, qızlar və oğlanlar) daxili mahiyyəti – zahirən şeirdə bəhs olunmayan lirik sevgi obrazını bədii təfəkkürdə yaratmış və bütövləşdirmişdir. "İşıqlı yarpaqlar" şeirində ("Yuyur çıraqları noyabr ayı, /ehmalca-ehmalca yerə döşəyir. /Ehtiyatlı olun, ayaqlamayın, /lampalar qırılar,/ qaralar meşə...") yarpaq və çıraq/lampa kimi ayrı-ayrı pretmetlərin ikiləşməsi üsulu ilə bədii təxəyyüldə üçüncü bir obraz - "çıraq-yarpaq"//yarpaq-çıraq" assosiativ obrazı yaradılmışdır. Burada şairin ustalığı, fikrimizcə, poetik axtarışlar nəticəsində yarpaq və çıraq arasında məna bağlılığı tapmaq və bununla kifayətlənməyib onları bir məna yükünə transformasiya etdirərək vahidləşdirmək bacarığı, həm də ideyasıdır!

Ə.Salahzadənin "Səttar Bəhlulzadə" (1968) şeirində də eyni poetik ifadə üsulunu müşahidə etmək mümkündür. Ayrı-ayrı predmetlər olan ağac və rəssam əli ilə Məcnunun əli arasında əlaqələr ("Ayaq üstə bir əncir ağacı–/təbiətlə əl-ələ. /Gəzər dolaşar/gündoğandan günbatana. /Rəssamların gözlərinə yığılar, /ürəyində əriyər. /Əllərindən, fırçasından asılar, /rəng-rəng, çilik-çilik/köçər kətana... /Bir az/Məcnuna bənzər/gündoğandan günbatana... /Əllərinə yığışar/quşlar, çiçəklər... /Əncirdən iki koğuş -/iki göz çağlayıb axar dünyaya...") "kəşf edilmişdir". Bərəkətli əncir ağacı özü-özlüyündə - forma və məzmunca "rəssamlaşmış", rəssam da eynilə "ağaclaşmış", yəni yaratdığı tablolarla təbiətin özünə dönmüşdür. Bədii təfəkkürdə İ.İsmayılzadənin yaratdığı "lampa-çıraq"//"çıraq-lampa" obrazına uyğun üçüncü bir obraz – "ağac-rəssam"//"rəssam-ağac" obrazı assosiasiya olunmuşdur ki, bu da öz növbəsində vahidləşdirmək prinsipini həyata keçirmişdir - rəssam (Səttar Bəhlulzadə) "təbiətləşmiş", təbiət "rəssamlaşmışdır". Tənqidçi V.Yusifliyə görə, *"Şeirdə Səttar Bəhlulzadənin təbiət mənzərələrindən alınan təəssüratlar, rəssamın*

yaratdığı rənglər dünyasının özünəməxsusluğu şeirin özünün poetik tablo kimi qavranılmasına imkan verir. Beləliklə, bu şeirdə Rəng və Söz birləşir...” [9, s. 295].

Assosiativ poetik mətnlər daha çox ayrı-ayrı predmetlər arasında bağlılıq yaratmaq və bu əlaqələri mənalandırmaq cəhdlərindən yaranır ki, bu amilin özünü də bir bədii priyom kimi qəbul etmək olar. Ə.Salahzadənin “22 yaşım” (1963) şeirində ömrün 22 ili, yaşı 22 qardaş kimi dərk olunmuş, qavramada 1 (il) qardaşla yuxu, 6 (il) qardaşla uşaqlıq və dəcəllik, 10 (il) qardaşla məktəb və şagirdlik, 5 (il) qardaşla institut və tələbəlik dövrünün bədii assosiasiyası doğmuşdur. Nəticədə, uşaq, şagird və tələbə kimi üçüncü assosiativ obrazlar yaranmışdır: “Sanıram ki,/22 qardaşım var./Lap kiçiyi/vurğun olub yuxulara./Deyirlər ki,/günlərinə/dava kölgə saldısa da,/alov imiş, dəcəl imiş altısı da./On qardaşım/kəndimizdə dərsə gedib.../Beş qardaşım tələbədir, /bakılıdır...” [3, s.13-14].

Bəzən hər hansı bir hadisənin, təbiət, iş prosesinin detallı təsviri şeirə kiçik bir süjet xətti gətirməklə yanaşı assosiativ obrazın yaranmasına səbəb olur. Ə.Salahzadənin “Otçalanlar” şeirində otçalma prosesinin özü xırda detalları ilə təfərrüatlı şəkildə - dəryazların iş prosesindəki ritmini və ahəngini, təbiətlə birgə harmoniyası (Ot çalınır,/otçalanlar bir orkestr;/ bir havanı tutub gedir./Bir çiçəyin harayını/bir vıyıltı udub gedir) poetik mətnə köçürülmüşdür. Adi bir otçalma prosesi, eləcə də bu prosesdə başqa-başqa detallar, xüsusən də fikrin assosiativ gedişinin təmin edən Əl detalı (“Ot çalınır,/bir oğlanın qulağında/saz çalınır, ud çalınır. /Dəryaz qızır, /od qoxuyur, ot qoxuyur. /Elə bil qu nəğməsini oxuyur ot.../) oxucu-ünvanda insan həyatı, yaşayışı üçün “zəhmətin vacibliyi” düşüncəsini assosiasiya etməklə yanaşı, Əmək obrazını yarada bilmişdir. “Axşam” şeirində axşam (“Qanadlara qondu axşam -/yordu, yordu quşları”) yorğunluğu; ayrı-ayrı hadisləri (“Axşamüstü/axşam üstə/atam çəkic vurdu/anam paltar ütülədi”) təsvir etməklə zəhməti və məişət qayğılarını; “Voleybol”da (“Nə vaxtdır/şumlamıram qəzetləri... /Əli Vəliyə, Vəli Telliyə,/Telli Gülüyə ötürmür yazıları... /Qəzetlər çıxır yenə. /Redaktor-zərrəbin. /Ədəbi işçilər şeir dişləyir, /şəkər dişləmir”) süründürməçilik və “ötür-ötür”ün fonunda voleybol oyununu, “Fəvvarə”də (“Bir tabaq yatağan su/qaldırılıb ayağa/qovulur yuxarı. /Su havada qıvrılıb/işıldaya-işıldaya/balıq kimi/yenidən tabağa atır özünü”) “bir tabaq yatağan su” fəvvarəni assosiasiya etmiş, beləliklə, axşam, əncir ağacı, fəvvarə kimi predmetlər yaradılmış bədii lövhələrdə assosiativ lirik obrazlara çevrilmişdir.

Azərbaycan poeziyasında R.Rzadan sonra İ.İsmayılzadə və Ə.Salahzadənin şeirlərindəki assosiativ təfəkkürün daha çox mütəhərrikliyini nəzərə alan bir çox tədqiqatçılar onlardan sonra təşəkkül tapan modern şeirdə poetik təfəkkürün məhz bu iki şairdən rişələnməsi qənaətində olmuşlar. Tənqidçi-ədəbiyyatşünas E.Akimova Ə.Salahzadənin və İ.İsmayılzadənin bu tip poetik mətnlərini nəzərdə tutaraq belə nəticəyə gəlmişdir ki, *“şairlər bir-biri ilə heç bir uyğunluq olmayan predmetlər arasında məna əlaqələri yaratmaqla bir tərəfdən, epitetlərlə zəngin klassik poeziyaya xələflik edirdilərsə, digər tərəfdən, təxəyyül və fikir meydanına daha sərbəst daxil olmaları, seçdiyi obrazları, ifadə üsulları, yanaşma və mənalandırma tərzi ilə yeni bir təmayülün əsasını qoyurdular”* [1, s.110-111]. Ə.Salahzadə və İ.İsmayılzadənin şeirləri üzərində apardığımız müşahidələr göstərir ki, hər iki şairin məhz 1960-70-ci illərə təsadüf edən sərbəst şeirlərində orijinal assosiativ poeziya örnəkləri üstünlük təşkil etmiş, lakin 1980-ci illərdən sonra onlar şeiryaratma prosesində bu üsuldan, demək olar ki, çox az yararlanmışlar.

V.Səmədolunun “Bilirsiz qantel nədir?” (1962) şeirində forma assosiasiyası - telefon və qantel predmetlərinin qarşılaşdırılmasından (“Bilirsiz qantel nədir? /Çuqundan tökülmüş, /Uzunbel səkkizə bənzər/əzələ bərkidən./Mən bir dəfə/dünyanın ən ağır/qantelini qaldırdım: /telefon çağırdı məni...”) mahiyyətə keçid almış (“...götürdüm dəstəyi, /səs gəldi: /-Özünü ələ al, /öldü... /Qüvvəm çatmadı, /düşdü əlimdən/dünyanın ən ağır qanteli...”) təsəvvürdə bucağın üçüncü tərəfi - “ölüm xəbəri” lirik-assosiativ obraza çevrilmişdir. Burada qantelin ağırlığı telefona “köçürülmüş”, telefondan isə dünyada hər şeydən ağır ölüm xəbəri “sallanmışdır”. “Küləkli payız günündə” (1965) mətnində ümidsizlik, təklik haqqında bir söz, misra işlənmir, yalqızlığın söz-rəsmi çəkilir, Viran könül, Tənhalıq lirik-assosiativ obraz səviyyəsinə qədər qalxmışdır: “Küləkli payız günündə/atılmış bağ evinin/qapısıtək/açılır, örtülür/ürəyim. /Barmağımla/günlərimin profilini çəkirəm/dünya pəncərəsinin /toz basmış şüşəsində.../Ay Allah, /heç olmasa/başımı sığalla!” [7, s. 42]. Hər şeyə qadir Allah da qəhrəmanın taleyini dəyişə bilmir. Şair demək istəyir ki, taleyimi dəyişə bilmirsənsə, məni xoşbəxt edə bilmirsənsə, heç olmasa başıma bir sığal çək, bu tumardan təsəlli tapım. “Bağ yolunda tənha işıq yanır” (1986) şeirində lampa və onu yelləyən külək elementləri də (“Bağ yolunda külək əsir,/yırğalanır tənha işıq,/yandıranı qayıtmır geri,/görənləri/oyanmır yuxudan”) insan tənhalığının obrazını yaratmışdır. Yaxud “Batan/gəminin suya atılan/yükü kimi/kənara atıram ümidlərimi. /Ömrümün divarında/bu gün yenə/kəndir dayanıb/qapı yerinə...” poetik nümunəsində qapının – çıxış və xilas yolunun yerində kəndirin təsviri ilə İntiharın (intihar anlarının); “Bu yağış/pəncərədən baxıb/bir qadın yada salası...” misralarında üç detalla: yağış, pəncərə və qadınla Sevginin (sevgi prosesinin) lirik-assosiativ obrazları yaradılmışdır. Atılmış bağ evi, açılıb-örtülən qapı, toz basmış pəncərə şüşəsi, tənha işıq, batan gəmi kimi forma assosiasiyalarında “atılmış”, “açılıb-örtülən”, toz

basmış”, “batan” kimi təyinlər isə mahiyyət assosiasiyasına keçidi sürətləndirmişdir. Bununla yanaşı, fikrimizcə, “bağ evi”, “pəncərə”, “bağ yolu”, “külək”, “yağış” kimi sözlərin daxili estetik enerji tutumunun da bu prosesdə rolu az deyildir.

Ç.Əlioğlunun “Xalq yazıçısı İsa Muğanna” (1990) şeirində konkret bir əsər adı çəkilmir, ancaq yazıçının günbəz alnının qübbəsi altında “yeddi qat göylərdən nur alan”lar, “yeddi qat torpağın təkindəkilər, “Aydanmı haylanan, gündənmi enən bir ünün, bir səsin sərdabəsi” olanlar yazıçının bəşəriyyətin yaddaşında Azərbaycan xalqının, türkün tarixi kimliyinə işıq salan “İdeal”, “Məhşər”, “Qəbiristan”, “Cəhənnəm”, GurÜn”, “İsahəq-Musahəq” və b. əsərlərinə işarə, simvolizədir. Bu bədii ştrixlərlə yanaşı, “saf ağ işıq”, “AĞRI”, “YADDAŞ”, “SÖZ”, “işıq sütunu” və s. kimi ifadə-detallar bədii təfəkkürdə “AĞRININ, YADDAŞIN YARANIŞINDAN sözün həmyaşıdı olan” yazıçının bəşəriləşən, həm də azərbaycanlaşan monumental obraz-portretinin cizgilərini yaratmağa hesablanmış assosiativ poetik addımlardır: “Orda saf ağ işıq, orada zülmət,/Minillik, yüzillik qaranlıqları/Yarıb parçalayan qəfil bir heyrət./Boyları əsrlə ölçüb-biçilən/Zamanın ağrılı məsafələri,/O günbəz alnının qübbəsi altda/Sığıb hər cığıra, bitib hər qatda.../Çiyninə sallanan işıq sütunu/Göydəki zənglərin dil kədəridir” [2, s.1119-120].

Ədəbiyyat

1. Akimova E. Çağdaş poeziya və ədəbi təmayüllər. Bakı: YYSİBQ, 2018.- 374 s.
2. Əlioğlu Ç. Gün keçdi. Bakı: Şərq-Qərb, 1993.- 232 s.
3. Xəlilov R. Rəsul Rza poeziyası. Bakı: Yazıçı, 1987.- 215 s.
4. Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985.- 288 s.
5. Sadıq F. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1991.- 38 s.
6. Salahzadə Ə. Beş yarpaq. Bakı: Gənclik, 1968.- 108 s.
7. Səmədoğlu V. Uzaq yaşıl ada. Bakı: Şərq-Qərb, 2004.- 264 s.
8. Səmədoğlu V. Poeziya nəhri // “Vışka” qəzeti. – 1970, - 19 iyun
9. Yusifli V. Poeziyanın yolları və illəri. Bakı: Mütərcim, 2009.- 404 s.

РЕЗЮМЕ
ПОЭТИЧЕСКИЕ АССОЦИАЦИИ, ПОСТРОЕННЫЕ НА ФОРМЕ И СУЩНОСТИ (НА ОСНОВЕ ЛИТЕРАТУРНОЙ ШКОЛЫ РАСУЛА РЗЫ)
Джуманов Д.А.

Ключевые слова: *Расул Рза, литературная школа, поэтическая ассоциация, ассоциация формы и сущности*

Ассоциативно-метафорическая заслуга Расула Рзы в движении за свободный стих в азербайджанской поэзии изменила ритм и интонацию нашей национальной поэзии, избавила поэзию от традиционных художественно-эстетических узоров, а С.Вургуна – от «повторения». Основной характеристикой творчества представителей литературной школы Расула Рзы в процессе создания поэтических текстов является стремление к более сложным ассоциациям и передача поэтического чувства через создание ассоциативных образов. В статье говорится о художественных объединениях, основанных на форме и сущности, которые выделяются в поэзии представителей этого литературного направления.

SUMMARY
POETIC ASSOCIATIONS BASED ON FORM AND ESSENCE (BASED ON THE RASUL RZA LITERARY SCHOOL)
Jumanov D.A.

Keywords: *Rasul Rza, literary school, poetic association, form-essence association*

Rasul Rza's associative-metaphorical merit free verse movement in Azerbaijani poetry changed the rhythm and intonation of our national poetry, saved poetry from traditional artistic-aesthetic patterns, S.Vurgun from "repetition". In the process of creating poetic texts, tending to more complex associations and conveying poetic feelings by creating associative images has been the main characteristic of the creativity of the representatives of the Rasul Rza literary school. The article talks about the artistic associations based on the form and essence that are prominent in the poetry of the representatives of this literary school.

NİZAMİNİN YARATDIĞI QADIN OBRAZLARI

Rzayev Ə.İ.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
alirza_200@mail.ru

Açar sözlər: *Nizami Gəncəvi, qadın, gender, Azərbaycan, fars dili, Leyli və Məcnun, Xosrov və Şirin, Yeddi gözəl*

Giriş: Nizami yaratdığı qadın obrazlarını daha azad, müstəqil, öz azadlığı uğrunda mübariz və yeri gəlmişkən müqavimət göstərən qəhrəman kimi təqdim edir. Şirin çayda çılpaq şəkildə çimir və Şiruyə Xosrovu öldürdükdən sonra Şirinlə evlənmək istəyir, amma Şirin ona icazə vermir. Bəzi tədqiqattçıların fikrinə görə Şirin, Nizaminin vəfat etmiş yoldaşı Afaqın prototipidir. [1. s. 137]

Yeddi gözəl poemasında hər bir qadının xüsusiyyətlərini nümayiş etdirməsi Nizaminin qadına verdiyi müstəsna dəyərlərdən ibarətdir. Sasani padışahı Bəhram dastanın baş qəhrəmanı kimi, dünyanın müxtəlif coğrafi məkanlarından gəlmiş, yeddi qadını qonaqlayır, onlar yeddi günbəzin altında padışaha yeddi dastan danışırlar. Eşqdən ibarət olan hər əhvalat ya tamdır, ya da natamam. Nizami adıçəkilən poemada qadın gözəlliyini vəsf etməklə yanaşı onun təhsilə verdiyi önəmi də vurğulayaraq, elm və təhsilin qadına qazandırdığı hüquq və azadlıqlar, qadınların təhsil və tədrisinin əhəmiyyəti, qadın haqlarının qorunması məqsədilə rəhbərləri üzərinə düşən vəzifələr kimi vacib məqamlara toxunur.

Qəmzəsi cadugər, könül oxşayan,
Üzü gül qaməti bir sərvi rəvan,
Bənizi qəşəngdir onun qəmərdən,
Dodağı şirindir qənddən, şəkərdən
Zöhrəydi aşiqi parlaq müştəri,
Hüsnü batil etdi, şamı, şəkəri [5, s. 144]

Nizami Gəncəvinin Yeddi gözəl əsərində başqa bir qadın obrazı Fitnədir. O, ənənəvi adətləri, mental dəyərlər adı ilə cəmiyyətə sirayət etmiş mənfiləri rədd edir. Padşah öz ovçuluq məharəti ilə Fitnəni təəccübləndirməyə çalışır, amma qız bütün gördüklərinə fikir vermir, laqeydliklə qarşılayır və padşaha bütün bunların sadəcə vərdişlə əldə edildiyini söyləyir. Bu cür ovçuluq məharəti qarşısında Fitnənin laqeyd münasibət göstərməsi padşahı qəzəbləndirir və onu qovur.

Ağıllı və fərasətli Fitnə də eyni üsulla padşaha daha ibrətamiz bir dərs verir. İbrətli dərsi də bundan ibarət olur ki, yenicə doğulmuş buzovu boynuna alıb hər gün qırx pilləkəni qalxıb-enir. Fitnə o qədər məşq edir ki, həmin buzov böyüyüb iri bir erkək heyvan olanda da çətinlik çəkmədən onu boynuna alıb pilləkənləri qalxır və enir. Fitnənin bu məharəti elin dilinə düşür, ağızdan ağıza gəzir və gedib padşahın qulağına çatır. Padşah da öküzü çiyninə alıb qırx pilləkəni qalxıb-enən qızı görmək üçün durub, onun yanına gəlir və incə bir qızın o boyda öküzü boynuna qaldırmasına heyrətini gizlədə bilmir.

Nəhayət, padşaha lazım olan dərsin verilmə zamanının gəldiyini anlayan Fitnə üzündən örtüyü atıb, özünü ona təqdim edir və boynuna öküz qaldırmağın güc yox, adi vərdiş olduğunu deyir. [5.s.133] Nizami bu arada qadının kişi üçün arxa, dayaq ola biləcəyini də göstərmədən keçmir. Nizami yaradıcılığına səyahət etdikcə anlamaq olur ki, o qadının öz əks cinsinə həyatın çətin dövrlərində dayaq ola biləcəyini qeyd edir. Məcnunun atasının vəfatından sonra Leyli onun könlünü alır, eşq məktubları yazır, məktub vasitəsilə ona təsəlli verməyə başlayır.

Qəlbini sıxma ki, sən kimsəsizsən,
Mən kiməm, adamın deyilmiyəm mən?
Heç kəs köməksizəm, deməsin gərək,
Köməksiz olana Allahdır kömək.

Nizami Gəncəvinin yaradıcılığında gender bərabərliyi məsələsini daha dərindən araşdırarkən, şairin öz dövründən daha qədimə, zərdüştülüyə müəyyən qədər rücu etdiyinin şahidi oluruq. Belə ki, zərdüştülükdə Ahuraməzdanın istəyi ilə Anahita adlı qadın məlayikə Mehrlə bərabər mövcud olur və burada qadının kişi ilə bərabər olduğuna nümayiş etdirir. Zərdüştülüyün dini mətnində Zərdüşt öz qızına evlilik üçün seçim imkanı verərkən özünə həyat yoldaşı seçmə azadlığı verir. Biz bunu Yesna 53 də görməkdəyik. O deyir: "mən bu təklifi evlənmək istəyən qızlara və eləcə də sənə deyirəm" [7.s.56]

Şirinin öz sevgilisinin məzarı üstündə intihar etdiyini təsvir edərkən də şair onun bu fədakarlığını alqışlamaqla bərabər qadınlıq haqqında danışmış, qadını ülvi bir varlıq kimi tərifləmişdir.

Alqış bu ölümə, əhsən Şirinə,
Öldürən Şirinə, ölən Şirinə.
Məhəbbət yolunda ölüm budur, bax
Canana belədir canı tapşırmaq...
Çox gözəl arvad var mərdlikdə bir şir,
Çox ipək içində şirlər gizlənir. [6. s. 451]

Nizami əsərlərində qadını müsbət təsvir etməklə yanaşı onu azad, insan modelinin ən üstünü kimi qeyd etmişdir. O qadını insan cəmiyyətinin ən layiqli üzvü kimi görür, bununla yanaşı qadın kişi bərabərliyinə mühüm mesaj kimi gələcək nəsillərə ötürür. Heç bir vəchlə qadının alçaldılmasına, ona qarşı şiddət sərgiləməsinə icazə verilməməsini deyir. Xosrov və Şirin əsərində Xosrovun, Şirinin sarayına, onun

yanına gizlində gəlib onunla görüşmək istədiyi xəbərini göndərdiyi Şapura əsəbləşərək Xosrovla evlənməli olarsa, ancaq nikahdan sonra onunla birlikdə ola biləcəyini təkid edir. Deyir:

Mən gövhərəm, neçin gərək əksiləm,
Çağrılmamış gedəm, məgər mən yeləm? [5, s. 354]

Nəticə. Beləliklə, zəngin mədəniyyət tariximizin ən ünlü simalarından olan Nizami Gəncəvi müəllifi olduğu Xəmsədə insan faktorunu, yaradılışın ən üstün varlığı kimi dəyərləndirir. İnsanlar arasında cins ayrıseçkiliyinin olmamasını təbliğ edən şair, bəşəriyyəti sevgiyə, dostluğa çağırır. Zərif yaradılış olan qadına sevgi Nizami yaradıcılığının ruhuna hopmuşdur. Nizaminin baxışında qadın, varlığın mayası, həyatın başlanğıcıdır.

Ədəbiyyat

1. عبد المجید آیتی، داستان خسرو و شیرین، سروده نظامی، تهران 1353،
2. "İskiəndərnamə" Nizami Gəncəvi, Bakı, Yazıçı n. 1982, [Mikayıl Rzaquluzadə]
3. "Yeddi gözəl" Nizami Gəncəvi, Bakı, [Lider nəşriyyatı 2004] 1983. Məmməd Rahim.
4. Bərat Zəncani, "Leyli və Məcnun" N. Gəncəvi. Tehran. Tehran Universiteti nəşriyyatı. 1991 Səh. 113. لیلی و مجنون، دانشگاه تهران
5. Nizami Gəncəvi "Həft Peykər. Tehran, Qətrə nəşriyyatı, 1997 [هفت پیکر، حکیم نظامی گنجوی، انتشارات قطره، 1399]
6. "Xosrov və Şirin", Nizami Gəncəvi. Bakı, Lider nəşriyyatı 2004. [(Rəsul Rza]
7. (T. R. Sethna, Yashts in Roman Cript with Translation [Karachi: Sethna, 1976]

РЕЗЮМЕ
ЖЕНСКИЕ ОБРАЗЫ, СОЗДАННЫЕ НИЗАМИ
Рзаев А.И.

***Ключевые слова**: Низами Гянджеви, женщина, гендер, Азербайджан, фарси, Лейли и Меджнун, Хосров и Ширин, Семь красавиц*

Известный азербайджанский поэт Низами Гянджеви регулярно затрагивал в своих произведениях вопрос о месте и роли женщины в обществе и решительно выступал за равноправие женщин и мужчин во всех сферах общественной жизни. Как видно из анализа его творчества, он считал женскую свободу естественной мерой свободы всего общества. Низами представляет женщин как свободных членов общества, играющих важную роль в формировании гражданского общества.

SUMMARY
FEMALE CHARACTERS CREATED BY NIZAMI
Rzayev A.I.

***Key words:** Nizami Ganjavi, woman, gender equality, Azerbaijan, persian, Layla and Majnu, Khosrow and Shirin, Seven beauties*

Prominent Azerbaijani poet Nizami Ganjavi regularly touches upon the issue of the place and role of women in society in his works, strongly advocated the equal rights of women and men in all spheres of public life. As can be seen from the analysis of her works, she considered women's freedom as a natural measure of freedom in the whole society. Nizami presents women as free members of society, who play an important role in the formation of civil society.

ANADOLU HƏQİQƏTLƏRİ VƏ RƏŞAD NURİ GÜNTƏKİN

Zeynallı G.F.
Sumqayıt Dövlət Universiteti, Azərbaycan, Sumqayıt
gunel185@gmail.com

***Açar sözlər**: Anadolu, roman, yazıçı, insan, mühit, gerçəklik*

"Anadolu əfəndi, əbəs yerə özünü yorma. Sən əxlaqsızlığa qərar verdiyin zaman da bacara bilməyəcəksən" söyləyən Rəşad Nurinin yaradıcılığında Anadolu mövzusu həm dərin bir yaradır, həm də hər bucağını qürurla təsvir edə biləcəyi doğma diyar. Müəllif bütün təəssüratlarını, yolboyu etdiyi qeydləri "Anadolu notları" adlı səyahət romanında əsk etdirmişdir. Ədib Anadolunun ictimai və mədəni həyatı ilə bağlı bir sıra müşahidələrini bu əsərdə toplamışdır. Öz üslubunda orijinal və diqqəti cəlb edən bir əsər olan "Anadolu notları" 1928-1939-cu illərin qeydlərindən formalaşan, yurdun hər bucağını qarış-qarış gəzən, incə bir müşahidə qabiliyyətinə malik olan yazıçının səfər təəssüratlarının nəticəsi olaraq ərsəyə gəlmiş bir əsərdir. R.N.Güntəkin Anadolunun və Anadolu insanının türk romanlarında əks etdirilməsinə nail olan və

əsərlərində həm Anadolunu, həm də Anadolu insanını əsas mövzu hədəfinə çevirən yazıçılardan ən öndə gedənlərindən biridir desək yanılmarıq. O, Anadolunu təsvir etdiyi bütün romanlarında istər Anadolunu, istərsə də Anadolu insanını həqiqi bir biçimdə bütün məziyyətləri ilə ortaya qoyur. Dürüstlüyü, saxtakarlığı, dostluğu, düşmənçiliyi, comərdliyi, xəsisliyi, yardımsevərliyi, laqeydliyi, yoxsulluğu, zənginliyi, əxlaqsızlığı ilə bütün tərəflərini təsvir etməkdən çəkinmir. Anadolunun müxtəlif səmtlərində yaşayan insanların nə qədər ağıllı, ayıq-sayıq, çalışqan və bacarıqlı olduqlarını durmadan vurğulayır: "Buralarda elə bir torpaqdayıq ki, necə məhsul yetişdirildiyini elə də bilmirəm. Fəqət yetişdirdiyi insanlar olduqca ağıllı, ayıq, istiqanlıdır. Qarşımızda Kayseri, solumuzda Nevşehir, arxamızda Niğde, daha sonra Karaman...Bunlar təbii ki, od kimi, su kimi qarşısıalınmaz qüvvətlərdir. İstanbulda əsrlərcə ən güclü idarə və iş adamları məhz onların arasından yetişdi. İqtisadi həyat dediyimiz şey onlarla başladı" [1, s.164].

R.N.Güntəkinin romanlarında qəhrəmanların çoxu İstanbuldan Anadoluya sürgün olunmuş, ya da özü bilərəkdən şüurlu şəkildə özünü oraya sürgün etmişdir. Sevgi iztirablarını unutmaq üçün Anadoluya qaçan Fəridə ("Çalıquşu"), İstanbulda iş tapa bilmədiyi üçün Gəmlikdə maliyyə məmuru işləməyə məcbur olan Şərəf ("Gizli əl"), oğru damğası səbəbi ilə ancaq Anadoluda işləyə bilən İffət ("Damğa"), siması yandığı üçün insanlardan qaçan Süleyman ("Xarabaların çiçəyi"), ulduzu sönməyə başladığında doğulub boya-başa çatdığı yerlər üçün darıxan bəstəkar Hüseyn Kənan ("Dodaqdan qəlbə"), atasının təhriki ilə Anadoluda yaşamağa məhkum olan Züleyxa ("Əski xəstəlik"), xəstəliyindən dolayı bir əyalətə sığınan Nəzmi ("Axşam günəşi"), İstanbuldan Milasa sürgün edilən Kamal Murad ("Atəş gecəsi") və b. Obrazların biz Anadoluya yad olduqlarını hiss edirik. Ədibin bu romanlarının baş qəhrəmanları ümumən İstanbulda doğulub böyüyən, bəziləri Avropa görmüş, bir-iki əcnəbi dil bilən, ancaq şərtlər onları məcbur etdiyi üçün təskinliyi Anadoluda tapan şəxslərdir.Türk romanının Anadoluya açılan pəncərəsi hesab edilən "Çalı quşu" romanının qəhrəmanı Fəridə romantik duyğularla Anadoluya gedir ve getdiyində qarşılaşdığı mənzərə xəyalındakından çox fərqlidir. "Kənd deyiləndə gözümün önünə yaşıllıqlar arasında keçmiş Boğaziçi sahillərində göyərçin yuvalarına bənzəyən sevimli, şən, mənzərəli daxmalar gələrdi. Halbuki, bu evlər uçulmağa üz tutmuş qapqara viranələr idi. Zeynilər ilk baxışdan mənə hələ ora burasından tüstü çıxan bir yanğın xarabası kimi göründü" [2, s.147]. Romanda Anadolunun baxımsızlığı, yoxsulluğu, yerli əhalinin düşüncə baxımından geriliyi kimi sosial problemlər iş həyatına yenicə atılmış Fəridənin sıxıntıları ilə qarşılaşdırılır. Şəxsi həyatındakı uğursuzluqdan dolayı evi tərk edib Anadoluya üz tutan Fəridə qarşıda onu hansı çətinliklərin, imtahanların gözlədiyindən xəbərsizdir, amma Rəşad Nuri bu sevimli qəhrəmanını Anadolunun ucsuz-bucaqsız, dolanbac yollarından keçirib sərt qayalarla qarşılaşdırmaqla onu daha da yetkinləşdirir, şıltaq, ərköyün bir qızcığaz qarşımızda dolğun, yetkin, sözünü, davranışını və ən əsas nə istədiyini bilən bir qadın olaraq dayanır.

"Dodaqdan qəlbə" romanının qəhrəmanı Hüseyn Kənan Anadoluda doğulub boya-başa çatmışdır. Yoxsul həyat tərzi keçirirdi, maddi ehtiyac üzündən evlərə musiqi dərsi keçməyə gedirdi, pulsuzluq onu buna məcbur edirdi. Əslində onun istəyi, arzuları bu deyildir. Evlərə gedib musiqi anlamayan, sadəcə maraq naminə onu evlərinə çağıran kəslərə musiqi dərsi keçmək onun heysiyyətinə toxunurdu. Sonra bir dostunun dəvəti ilə Avropaya gedir, musiqiyə olan maraq və qabiliyyəti sayəsində tanınmış bir bəstəkar olur. Yaz aylarını dayısı Saib Paşanın köşkündə, içində üzüm bağları olan Bozyaxada keçirir. Buraya həm rahat bir nəfəs almaq üçün, həm də yeni bir əsər üzərində çalışmaq üçün gəlir. Əvvəllər susqun, utancaq, qapalı biri olan Kənan getdikcə artan şöhrətin təsiri ilə eqoist, ərköyün birinə çevrilir. Çətin bir uşaqlıq dövrü keçirən yoxsul, ürkək bir uşaq olan Kənan məşhurlaşdıqdan sonra ictimai statusu dəyişir, başqa bir həyatın, mühitin cazibəsinə aludə olur, həyat tərzi, ətrafındakı insanlar dəyişir, uşaqlıq və yeniyetməlik illərini keçirdiyi doğma Bozyaxa belə artıq ona solğun, sönük təsir bağışlayır: "İstanbuldan ayrılmağıma gündə min dəfə peşman oluram. Bozyaxa gözümdə bütün rəngini, bütün rayihəsini,bütün gözəlliyini itirmişdir. Günlər çox uzun görünür, bitib tükənmək bilmir" [4, s.228]. Şöhrətin təsiri yavaş-yavaş azalmağa başlayanda Kənan həyatına ayrıca düşüncə ilə, gerçək gözlərlə baxır. Üzərinə geyindiyi şöhrət paltarını, üzünə taxdığı şöhrət maskasını çıxarır. Səhv etdiyini anlayır. Əslində ona lazım olan həyatın bu olmadığını dərk edir. Hər şeyi vardı: şöhrəti, pulu, çevrəsində hörməti, yüksək təbəqədən olan həyat yoldaşı Cavidan. Amma bütün bunlar onun sonsuz xoşbəxtliyi üçün yetdimi? Xeyr! Keçmiş günlərini xatırlayır və həmin zamanlar onun üçün daha dəyərli və yaxın olur. Yenidən xoşbəxtliyə qovuşmaq üçün bu ümidlə içdən aid olduğu mühitə-Bozyaxaya gəlir. Lakin pozduğu həyatını bir daha nizama sala bilmir. "Mən ölüb qurtarmış bir adamam, Cavidan...Sənətim, kamanım bəlkə də sənə mənim haqqımda xəyal bəsləməyə əsas verirdi...Varlığım isə əslində ancaq gözəl bir səsdən ibarətdi...İndi artıq o da susmuşdur" [4, s.258].

"Damğa" romanının qəhrəmanı İffət sevdiyi qadının namusunu qorumaq üçün oğru damğası yemək məcburiyyəti qarşısında qalan biçarə obrazdır. Qanunun damğa vurduğu bu gənc həbsxanadan çıxandan sonra bu damğanın ağırlığını daha çox hiss etməyə başlayır, heç kim ona etibar etmir, heç yerdə münasib iş tapa bilmir. Sanki bər-bəzəkli xəyal dünyasından ayılır və real dünyanın real şərtləri ilə qarşı-qarşıya

dayanır. “Qanun mənə damğa vurdu, namuslu insanlar sırasından vurub çıxartdı. Sevdiyim insanların hamısı üçün yad oldum” [3, s.101]. Dörd ay yarım səfil həyatı sürür, məhrumiyyətlər yaşayır, İstanbul həyatı onun üçün kabusa çevrilir. Nəhayətdə dostu Cəlalla qarşılaşır və dostu Konyadakı şirkətində İffətə iş verir. Beləliklə, İffət İstanbuldakı zindan həyatında məcburən qaçıb Anadolya üz tutur.

Rəşad Nurinin romanlarında çarəsizlikdən Anadoluya üz tutub sığınan obrazlardan savayı, könüllü olaraq oraya üz tutan qəhrəmanlar da mövcuddur. “Acımaq” romanının qəhrəmanı Zəhra, “Yaşıl gecə” romanının qəhrəmanı Əli Şahin, “Qan davası” romanının qəhrəmanı Ömər öz şəxsi arzu və istəkləri ilə Anadoluya üz tutub buradakı cəhalət, savadsızlıq, dini fanatizmlə savaşan təhsilli, zəkalı, maarifpərvər, cəsur, əzmli müəllim obrazlarıdır. Yazıçı hər kəsin qaçdığı Anaodoluya əbəs yerə ilk könüllülər olaraq gənc müəllimləri göndərmir. Yazıçı sanki bununla “cəhalət içərisində boğulan Anadolunu elm və bilik nura qovuşdura bilər” ideyasına söykənir. Fəridə Anadoluya gedən ilk gənc müəllim olaraq diqqətləri çəkir. Onu Zeynilər kəndinə göndərirlər. Və buranı havası, mənzərəsi gözəl, yeyəcək içəcəyi ucuz, əhalisi mehriban olan cənnət bir yer kimi təsvir edirlər. Fəridə bu qədər təriflənən yerə gedib qapqara, əksəri uçuq-sökük evlər, dar, pis küçələrlə qarşılaşınca böyük xəyal qırıqlığına məruz qalır. Fəridədən sonra Şahin əfəndi, Zəhra, Ömər kimi gənc ziyalılar bu ucqar diyara üz tutur və öz vəzifələrini həyata keçirmək yolunda müxtəlif əngəllərlə qarşılaşırlar.

Anadolunu bütün gerçəklikləri ilə, həm yaxşı, həm pis tərəfləri ilə əsərində təsvir edən yazıçı müəyyən tənqidlərlə qarşılaşır və bu tənqidlərə qarşı onun necə bir vətənpərvər insan olduğunu açıqlayan cavab verir: “İnsanları sevmək kimi məmləkəti sevməyin vahid bir forması yoxdur. Eşq vardır ki, cazibəyə bənzəyər, insana sevdiyini qüsursuz bir ideal kimi göstərər. Bu bəlkə də eşqin ən məqbul şəklidir. Lakin eləsi də vardır ki, qaranlıqda növbətçi kimi pusquda dayanır və şübhədədir; ən əhəmiyyətiz kölgə və səs-küydən yalnış fikirlərə düşər. Amma eləsi də vardır ki, sevdiyində qüsur görməyə təhəmmül etməz. Yaxşı tərəflərdən ziyadə axsayan və geridə qalan tərəfləri görməyə və bunlardan narahat olmağa meyl edər. Nəticədə bu bir qabiliyyət və istedad məsələsidir və zənn edirəm ki, sadaladığım sevgi çeşidlərinin hamısı bir məmləkət üçün ayrı-ayrılıqda faydalıdır, lazımdır. Mən hər halda bu son kateqoriyadan bir insan olacağam və eşqin bu tərzini axsaq, cahil və təhlükəyə arxa çevirən idealist bir sevgidən daima üstün tuturam” [1, s.287]. Anadoluda yaşanan mənfiliklərə rağmən müəllifdə diqqəti çəkən xüsusiyyət onda yumor və nikbinlik hissinin güclü olmasıdır. Şahid olduğu hadisələr onu nə qədər dərindən üzsə də, yenə də Anadoluya, onun təbii gerçək gözəlliklərinə, sadə insanlarına sevgiylə baxır və buradakı gözə,könülə xoş getməyən durumların yaxın zaman ərzində aradan qaldırılmasına ümidini itirmir.

Ədəbiyyat

1. Güntekin, R.N. Anadolu notları I-II. İstanbul, İnkılap, 2015, 287 s.
2. Güntəkin, R.N. Çalı quşu. Bakı: Şərq-Qərb, 2006, 376 s.
3. Güntəkin, R.N. Damğa. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1961, 156 s.
4. Güntəkin, R.N. Dodaqdan qəlbə. Bakı: Şərq-Qərb, 2006, 280 s.

РЕЗЮМЕ

АНАТОЛИЙСКИЕ РЕАЛИИ И РАШАД НУРИ ГЮНТЕКИН

Зейналлы Г.Ф.

***Ключевые слова**: Анадолу, роман, писатель, человек, среда, реальность*

Тема Анадолу – отдельное направление в творчестве видного писателя турецкой литературы Рашада Нури Гюнтекина. В своей работе “Заметки Анадолу” автор описывает поселения и провинции Анадолу, соединяющие их дороги, отели, рестораны, крупные средства передвижения, такие как конные повозки, грузовики, поезда, а также уникальные черты народа, бедность, лишения и образ жизни, описываются люди, которые своими человеческими качествами пытаются исправить эти ошибки. Противоречия перехода к современной жизни объясняются читателю посредством его произведений.

SUMMARY

ANATOLIAN REALITIES AND RESHAD NURI GUNTEKIN

Zeynalli G.F.

***Keywords**: Anadolu, novel, writer, person, environment, reality*

The Anadolu theme is a separate direction in the work of Rashad Nuri Guntakin, a prominent writer of Turkish literature. In his work "Anadolu Notes", the author describes the Anadolu settlements and provinces, the roads that connect them, hotels, restaurants, large means of travel such as horse carriages, trucks, trains, as well as the unique features of the Anadolu people, poverty, deprivation, and the old way of life. The inconsistencies of the transition to modern life are explained to the reader through the writer's pen.

“OĞUZNAMƏ”LƏRİN DİLİNDƏ GƏLƏCƏK ZAMANIN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİNİN İŞLƏNMƏSİ

İmaməliyeva G.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
gunay.imamaliyeva@gmail.com

Açar sözlər: *“Oğuznamə”lər, gələcək zaman, qəti gələcək zaman, qeyri-qəti gələcək zaman, sintaktik xüsusiyyətlər, yazılı abidə*

Gələcək zaman forması da morfoloji və məna xüsusiyyətləri ilə yanaşı, bir sıra sintaktik xüsusiyyətlərə malikdir.

-acaq[2] şəkilçili qəti gələcək zamanın sintaktik xüsusiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1) *-acaq*[2] şəkilçisi feillərin sonuna əlavə edilərək, cümlədə feili sifətin substantivləşməsi kimi çıxış edir. Aşağıdakı nümunələrə nəzər yetirək:

Kişiyə üşüməyəcəksə ***geyəcək,*** *aç olmayacəkçə* ***yeyəcək*** *yetər* [3, s.51]; ***Verəcək*** *ucundan* ***alacaq*** *bulmadım* [3, s.168].

2) *-acaq*[2] şəkilçisi omonim şəkilçidir. Bu şəkilçi hər üç şəxsin tək və cəmində mənsubiyyət şəkilçisini qəbul edərək feili sifət vəzifəsində işlənir. Aşağıdakı nümunələrə nəzər yetirək:

Öləcək *oğlan bəllüdür* [3, s.52]; ***Öləcək*** *cana* ***yatacaq*** *yer gərək* [3, s.53]; *Dəniz olup taşma, əlindən* ***gəlməyəcək*** *işə tolaşma* [4, 100]; *Kölgəsində* ***yatacaq*** *ağacı budama* [4, s.152].

-acaq[2] şəkilçisinin cümlədə feili sifət kimi işlənməsinə aid nümunələr S.Əlizadənin tərtib etdiyi “Oğuznamə” ilə yanaşı, “Kitabi-Dədə Qorqud” yazılı abidəsində də istifadə olunmuşdur. Məsələn:

“Neyləyəlim, bu ***yıgılacaq*** *evdə un yoq, ələk yoq, dəvə dəgirməndən gəlmədi”-deyər* [4, s.23]. *Ölməyə-yitməyə getməmişdim,* ***yatacaq*** *yerim genə bu xarab olasıdı; nolaydı bənim evimə bir ləhzə baqaydın* [4, s.23]. ***Yatacaq*** *yermi buldun, yurtmı buldun, noldı sana?-deyü çağırdı* [4, s.113].

“Qəti gələcək zamanın bu sintaktik xüsusiyyəti S.Əlizadənin tərtib etdiyi “Oğuznamə””, “Kitabi-Dədə Qorqud” yazılı abidəsindən fərqli olaraq, Ə.Bahadır xanın “Şəcərei-Tərakimə” əsəri və F.Rəşidəddinin “Oğuznamə”sində işlənməmişdir.

-ar(-maz), -ər(məz) qeyri-qəti gələcək zaman şəkilçisi cümlədə işlənmə yerindən asılı olaraq bir sıra sintaktik vəzifələrdə çıxış edir. Bu sintaktik xüsusiyyətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) *-ar*[2] şəkilçisi feili sifət əmələ gətirir. Aşağıdakı nümunəyə nəzər yetirək:

Bitməz *iş olmaz* [3, s.75]. *Tanrı, kişiyə kəndüyə* ***müti olmaz*** *oğul versün* [3, s.81]; *Keçi yatduğı yeri* ***eşər*** *yatur* [3, s.147].

Müqayisə üçün indi də “Kitabi-Dədə Qorqud” yazılı abidəsində bu sintaktik xüsusiyyətə aid nümunələrə nəzər yetirək:

Dəli Domrul ***görər*** *gözi görməz oldı,* ***tutar*** *əlləri tutmaz oldı* [4, s.95].

Mənim ***görər*** *gözlərim görməz oldı.*

Tutar *mənim əllərim tutmaz oldı* [4, s.96].

Yarar *qocaların yanına cəm eylədi* [4, s.119].

“Kitabi-Dədə Qorqud” yazılı abidəsi ilə yanaşı, Ə.Bahadır xanın “Şəcərei-Tərakimə” əsərində işlənmiş iki nümunədə -ar[2] şəkilçisi feli sifət kimi istifadə olunmuşdur. Məsələn*: Mihlail adı çəkilən şəhərdə doqquz yüz iyirmi il yaşadı və yerinə oğlu Berdi qoyub* ***nəfəs alınmaz*** *ölkəyə getdi* [1, s.49]. *İki yüz qırx il yaşayıb və yerinə oğlu Amulca xanı qoyaraq, o* ***“gedər-gəlməz”*** *ölkəyə getdi* [1, s.51].

S.Əlizadənin tərtib etdiyi “Oğuznamə” ilə yanaşı, “Kitabi-Dədə Qorqud” yazılı abidəsində də -ar[2] qeyri-qəti gələcək zaman şəkilçisi cümlədə feili sifət kimi işlənmişdir. Məsələn:

Keyikə atarkən oqla səni ***urar*** *öldürər* [4, s.31]; *Dəmirqapı Dərbənddəki dəmür qapuyı dəpüb alan, altmış tutam ala göndərənin ucunda ər bögürdən Qıyan Selcik oğlı Dəli Dondar* ***çapar*** *yetdi: “çal qılıcın, ağam Qazan, yetdim”- dedi* [4, s.49]; *Qazılıq qoca iş görmüş, iş* ***yarar*** *adam idi* [4, s.119].

2) Cümlədə feili sifətin substantivləşməsi kimi işlənir. Aşağıdakı nümunələrə nəzər yetirək:

Eyü alan aldanmaz, ***yaramaz*** *alan aldanur* [3, s.37]; *Eyilik də edərsən kəndünə,* ***yaramazlıq*** *da edərsən kəndünə* [4, s.61]; ***Bilməzəm*** *demək can qolayıdır* [3, s.76]; ***Söyləməz*** *ağızdan... yegdir* [4, s.109]; ***Kəsər*** *kəndü sapın yonmaz* [3, s.150].

-ar[2] qeyri-qəti gələcək zaman şəkilçisi “Kitabi-Dədə Qorqud” yazılı abidəsində yalnız bir nümunədə feili sifətin substantivləşməsi kimi işlənmişdir. Məsələn:

Kəsə-kəsə yeməyə yəxni yaxşı

Kəsər *gündə sərçeşmə yügrək yaxşı* [4, s.112].

3) Cümlədə tamamlıq vəzifəsində işlənir. Aşağıdakı nümunələrə nəzər yetirək:

Bilməzə *bulut yüküdür* [3, 66]; *Bir bilürdən qorq, bir* ***bilməzdən*** *qorq* [3, s.69]; *Tuz-ətmək* ***bilməzdən*** *it yegdir* [3, s.121]; *Kəndü düşən* ***ağlamaza*** *ağlamaq degil, amma gözi də çıqar* [3, s.156].

4) Cümlədə zaman zərfliyi vəzifəsində işlənir. Məsələn:

Bitər sənin otların Qazılıq dağı,
Bitər ikən *bitməz olsun.*
Qaçar sənin keyiklərin, qazılıq dağı,
Qaçar ikən *qaçmaz olsun, daşa dönsün!* [4, s.32]

Bu nümunədə işlənən ***ikən*** sözü ***idi, imiş*** kimi zaman ədatıdır. Müasir dilimizdə ***ikən*** ədatı çox az işlənir. "Oğuznamə"lərin dilində də ***ikən*** zaman ədatı yalnız bir nümunədə işlənmişdir. Bəzən bu ədat ***-arkən***^{2} feili bağlama şəkilçisi ilə qarışdırılır. Məsələn: ***yazarkən, gələrkən*** və s.

Bu haqda B.Ə.Xəlilov yazır: "Bu şəkilçi ***-ar***^{2} şəkilçisi ilə ***ikən*** qoşmasının birləşməsindən yaranmışdır: ***hazırlaşarkən, edərkən, danışarkən, görüşərkən*** və s." [2, s.271]

-ar^2 qeyri-qəti gələcək zaman şəkilçisinin bu sintaktik xüsusiyyətinə S.Əlizadənin tərtib etdiyi "Oğuznamə", Ə.Bahadır xanın "Şəcərei-Tərakimə" əsərində rast gəlmədik.

Ədəbiyyat

1. Ə.Bahadır xan. "Şəcərei-Tərakimə". Bakı: Poliqrafiya birliyi, 2002, 131 s.
2. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. Bakı: Nurlan nəşriyyatı, 2007, 354 s.
3. "Kitabi – Dədə Qorqud". Bakı: Öndər Nəşriyyat, 2004, 375 s.
4. Rəşidəddin F. "Oğuznamə". Bakı: ADN-Poliqrafiya birliyi, 1982, 71 s.

РЕЗЮМЕ
ИСПОЛЬЗОВАНИЕ СИНТАКСИЧЕСКИХ ОСОБЕННОСТЕЙ БУДУЩЕГО ВРЕМЕНИ В ЯЗЫКЕ «ОГУЗНАМЕ».
Имамалиева Г.С.

Ключевые слова: *«Огузname», будущее время, определенное будущее время, неопределенное будущее время, синтаксические особенности, письменный памятник.*

Помимо морфологических и семантических признаков, форма будущего времени обладает еще рядом синтаксических особенностей. Исследуя язык «Огузname» мы еще раз убедились в этом. В языке этих письменних памятников суффикс – аджаг^2, являющийся определенным морфологическим показателем будущего времени, развивается как омоним, субстантивация глагола. Суффикс – ар^2, являющийся морфологическим показателем неопределенного будущего времени, употребляется в предложенниях как причастие, субстантивизация причастия, в дополнения и обстоятельства времени. Эти синтаксические признаки, названия которых мы упомянули, основаны на богатых примерах в тезисах.

SUMMARY
THE USAGE OF SYNTACTIC FEATURES OF THE FUTURE TENSE IN THE LANGUAGE OF "OGUZNAMES"
Imamaliyeva G.S.

Key words: *"Oguzname", future tense, definite, indefinite future dense,syntactic features, written, monuments*

In addition to morphological and semantic features, the future tense form also has a number of syntactic features. While analyzing the language of the "Oguznames" we can see this once again. In the language of these written monuments, the morphological indicator of the future tense the suffix –acaq^2 hymonym plays a role of substantivization of participle. The morphological indicator of Indefinite Future tense –ar^2 acts as participle, the substantivization of participle, object and adverb of time. All these syntactic features we have mentioned are investigated on the bases of a great number of examples.

AŞIQ MURAD ÇOBANOĞLU VƏ TÜRK DASTANÇILIQ ƏNƏNƏSİ

Nağızadə S.E.
Sumqayıt Dövlət Universiteti, Azərbaycan
nagizade_2021@mail.ru

Açar sözlər: *dastan, aşıq, obraz, ideya, klassik, ənənə*

XX əsr Doğu Anadolu mühitinin yetişdirdiyi saz-söz sənətinin görkəmli simalarından biri də Aşıq Murad Çobanoğludur. Doğu Anadolunun Qars vilayətində doğulub-boya başa çatan Aşıq Murad Çobanoğlu yalnız Anadoluda deyil, bütün türk dünyasında tanınan bir el sənətkarıdır.

Aşıq Murad Çobanoğlunun zəngin və çoxşaxəli yaradıclığının mühüm istiqamətlərindən birini onun dastanları təşkil edir. Onun fərdi yaradıcılıq məhsulu olan "Nəcib və Telli", "Cünun və Dərdli Sultan", "Əhməd ilə Mehmet", "Həmid Xan və Mələk Sultan" kimi dastanları vardır. Bu dastanlar içərisində "Nəcib və Telli" dastanı öz xüsusiyyətlərinə görə digərlərindən fərqlənir. Məzmun və ideya baxımından olduqca maraqlı olan bu dastanda vətənpərvərlik, birlik, məhəbbət, dost xəyanəti və s. kimi motivlər süjet xəttinin əsasını təşkil edir. Ümumiyyətlə, dastanda Nəcib ilə Tellinin saf məhəbbəti, bir-birlərinə qovuşması, Nəcibin vətəni qorumaq üçün hərbi xidmətə getməsi və bu zaman kəsiyində başlarına gələn müsibətlər, Qara bəyin xəyanəti, Nəcibin ölümü və s. maraqlı epizodlarda təsvir olunmuşdur. Bundan əlavə dastandakı Ağa Dədə, Qara Bəy, Sırma və Həmid paşa "obrazlarının dili ilə təqdim olunan poetik fikirlər dastanın mahiyyətinin aydınlaşdırılmasına, məzmunun aydın təqdim edilməsinə səbəb olan amillər kimi dəyərləndirilməlidir". [10]

"Nəcib və Telli" dastanı türk dastançılıq ənənəsi ilə sıx bağlıdır. "Koroğlu" dastanı ilə "Nəcib və Telli" dastanında "qardaşlıq" ideyası oxşar motiv kimi diqqəti cəlb edir. "Koroğlu" dastanının Azərbaycan variantının "Mahru xanımın Çənlibelə gəlməyi" qolunda Giziroğlu Mustafa bəyin Koroğlu ilə Hasan paşanın qırx min əsgərini Toqat keçidində qanına qəltan etməsindən, Giziroğlunun sonra Gizir qalasına qayıtmasından və yeddi yüz yetmiş yeddi dəlisini də götürüb Çənlibelə gəlməsindən, onların şərəfinə Çənlibeldə qırx gün məclis qurulmasından, Koroğlu ilə Giziroğlu Mustafa bəyin şəhadət barmağını kəsib qanını bir-birinə sıxıb qan qardaşı, dost olmasından" [4, s.79] bəhs edilir. "Mahru xanımın Çənlibelə gəlməyi" qolunda oxuyuruq: "Hey dəlilərim! Biz yeddi min yeddi yüz yetmiş yeddi dəli idik. İndi Giziroğlu Mustafa bəyin 777 dəlisi də oldu bizim canbir qardaşımız, - deyib bayaqdan Misri qılıncı çıxardı qınından. Giziroğlu Mustafda bəy də bir himə bənd imiş kimi Giziri qılıncı çıxardı qınından. Hər ikisi şəhadət barmağını yaralayıb qanını sıxdılar bir-birinə" [8, s.279].

Eyni motivlə biz "Nəcib və Telli" dastanında da rastlaşırıq. Belə ki, Nəcib ilə Qara Bəy bir qəhvəcidə görüşüb tanış olduqdan sonra baş barmaqlarını kəsərək qan qardaşı olduqları – ikisindən birinin başı dara düşəndə bir-birlərini köməyə çağırmaları, " kim kimi çağırmasa onun əli onun yaxası" olması barədə əhd-peyman bağlayırlar: "Barmaqlarını kəsib qan qardaşı olurlar. Qanlarını içib qan qardaşı olurlar" [5, s.375]. Bu epizodlar bir-biri ilə oxşar səciyyə daşısa da, fərli xüsusiyyətlərə də malikdir. "Mahru xanımın Çənlibelə gəlməyi" qolunda Giziroğlu Mustafa bəylə Koroğlunun qardaşlığı nə qədər sarsılmazdırsa, ikinci dastanda bu qardaşlıq xəyanət və düşmənçiliyin qurbanı olur və dastan faciəvi sonluqla yekunlaşır.

Aşıq Murad Çobanoğlu dastanları ilə "Koroğlu" dastanı arasındakı oxşarlıq təkcə bununla bitmir. Aşığın düzüb-qoşduğu "Cünun və Dərdli Sultan" dastanı orijinal məzmunu, yüksək sənətkarlığı etibarı ilə "Koroğlu"nun müstəqil bir qolunu xatırladır, desək yanılmarıq. Dastanda Koroğludan, onun qəhrəmanlığından, yardıma ehtiyacı olanlara göstərdiyi köməkdən, Cununa yardım edərək ailəsinə qovuşdurmasından söhbət gedir. Məlumdur ki, "Koroğlu"nun bir qolu "Aşıq Cünun" adlanır. "Cünun və Dərdli Sultan" dastanında Cünun əsas hadisələrin mərkəzində durursa, "Aşıq Cünun" qolunda bu funksiyanı Koroğlu yerinə yetirir. "Aşıq Cünun" qolunda Cünun Koroğlunun çox sevdiyi aşıq kimi eli-obanı gəzərək Koroğlunu olan hadisələrdən və gözü tutduğu igidlərdən xəbərdar edən bir obraz kimi təqdim edilir. "Cünun və Dərdli Sultan" dastanında da Cünun bir el sənətkarı kimi Koroğlunu valeh edir. "Cünun və Dərdli Sultan" dastanı "Həmzənin Qıratı aparması" qolu ilə də müəyyən oxşarlıqlara malikdir ki, bu da maraqlı məqamlardandır. Hər iki dastanda Koroğlunun aldadılması, əsir düşməsi, əsirlikdən dəliləri sayəsində xilas olması buna misal ola bilər. Lakin bu cür oxşar və fərqli məqamların olmasına baxmayaraq Aşıq Murad Çobanoğlu yaratdığı "Cünun və Dərdli Sultan" dastanında əsil bir Koroğluşünas kimi çıxış edərək eposun dərin qatlarına enməyi bacarır. Dastanda rast gəldiyimiz Eyvaz (Ayvaz), Dəmirçioğlu, Ərəb Reyhan və s. kimi obrazlar diqqət çəkir. Bundan əlavə dastanda Koroğlunun dəliləri "Əsabalı, Timurlenk, Xəndək Atlamaz, Loxma Sığmaz, Qəbrə Sığmaz, Allahdanqorxmaz, Quldanutanmaz, Kəndinibilməz" [5, s.461] kimi təqdim olunur. "Cünun və Dərdli Sultan" dastanında Koroğlunun əsl adı Ruşan Ali kimi təqdim olunur:

Ruşan Ali bax əsərə,
Yazılanlar gəlir sərə,
Bir gün sırtını bu yerə,
Vurarlar xəbərin olmaz. [5, s.458]

"Koroğlu ilə Dəli Həsən" qolunda Koroğlu özünü belə təqdim edir:

Adımı soruşsan, bil, Rövşən olu,
Atadan, babadan cinsim Koroğlu;
Mənəm bu yerlərdə bir dəli, dolu,
Gündoğandan ta günbatan mənimdi. [8, s. 60]

Ümumiyyətlə, "Cünun və Dərdli Sultan" dastanında yeni bir Koroğlu obrazı ilə qarşılaşırıq. Aşıq Murad Çobanoğlu Koroğlu obrazını yeni bədii çalarlarla zənginləşdirmişdir. "Cünun və Dərdli Sultan"

dastanında Korğlunun dərviş qiyafəsində eli-obanı gəzərək gələcəkdən xəbər verməsi, evli olan igidləri dəlilərin sırasına qəbul etməməsi və s. buna misal ola bilər. Dastanın bir yerində oxuyuruq: "Koroğlunu üç işarəti vardı: Qəhvəni qozla içər, qəhvədən sonra qəlyanını çıxardar tütününü çəkər, üçüncüsü isə, düşməni duranda, onun yerinə oturardı" [5, s.458].

Bütün bu oxşar və fərli cəhətlər onu göstərir ki, Aşıq Murad Çobanoğlu qədim türk dastanlarına, eləcə də Azərbaycanda geniş yayılan dastanlara yaxından bələd olmuşdur. Dediklərimizi əyani şəkildə sübüt etmək üçün müəyyən məqamlara diqqət yetirməyi məqsədəuyğun sayırıq. Belə məqamlardan biri də aşığın simvolik adlardan istifadə etməsidir. Məlumdur ki, həm türk, həm də Azərbaycan aşıq yaradıcılığında "qara" məfhumu mənfi obrazların xarakterlərinin açılmasına xidmət edir. Qara Vəzir ("Alı xan", "Abbas və Gülgəz", "Qurbani", "Tahir-Zöhrə"), Qara Keşiş ("Əsli və Kərəm"), Qara Paşa, Qara Pəhləvan ("Koroğlu") və s. kimi obrazlar mənfi və qara qüvvələri təmsil edirlər. Kökü mifologiyaya dayanan bu rəmzi-simvolik məna demək olar ki, dastanlarda hadisələrin gedişatı üçün açar rolunu oynayır. Aşıq Murad Çobanoğlu da ənənəyə sadiq qalaraq Qara bəy obrazı yaratmaqla gələcək hadisələr üçün zəmin yaradır. Adlarını yuxarıda qeyd etdiyimiz digər obrazlar kimi Qara Bəy obrazı da haqq-sayı itirən, şəri təmsil edən bir obrazdır. "Əsli və Kərəm" dastanında Qara keşişin xəyanəti, əhdinə xilaf çıxması nəticəsində sevgililərin faciəvi sonluğunun şahidi oluruqsa, eləcə də "Nəcib və Telli" dastanında Qara Bəyin namərdliyi nəticəsində eyni sonluğu müşahidə edirik. Belə ki, "Nəcib və Telli" dastanında Nəcib Qara Bəyə güvənir, hərbi xidmətə gedəndə öz ailəsini, canından çox sevdiyi Tellini Qara Bəyə əmanət edir. Qara Bəy isə əhdinə dönük çıxır, dostunun sevgilisi Telliyə göz dikir, onu zorla evinə gətirir. Dostunun xəyanətini bilən Nəcib bu dərdə dözə bilmir və ölür. Nəcibin – "yanan cavan"ın ölümü Kərəmin ölümünü xatırladır. Hər iki qəhrəmanın nakam məhəbbəti, dərdə düçar olub ölmələri dərin kədər və təəssüf hissi doğurur. Dastanın sonunda isə Tellinin yanıqlı bir dillə Nəcibin məzarı yanında oxuması insanda "təsirli duyğular oyadır, onu ovutmaq, qəminə şərik çıxmaq istəyənlər dərdin böyüklüyünü sanki bir daha dərk edirlər" [1, s.175]:

Qərib yarım, muradını almadı,
Gənc ikən yanan cavana baxın.
Qarış-qarış ot bitmiş məzarında,
Gənc ikən yanan cavana baxın. [5, s.382]

Nəcibin bacısı Sırma ilə qarşılaşması maraqlı epizodlardandır. Ailəsindən xəbər bilmək üçün öz elinə qayıdan Nəcib çeşmə başında bacısı Sırma ilə qarşılaşır. Bacısını tanıyan Nəcib ondan eli-obası barədə xəbər alır. Lakin qaralar bağlayan Sırma dərddən pərişan olduğu üçün qardaşını tanıya bilmir:

Bilməm əsgər bilməm, sana nə olmuş?
Söylə əsgər qardaşımı gördünmü?
Sənində gül bənzin saralmış, solmuş,
Söylə əsgər qardaşımı gördünmü? [5, s.379]

Eyni motivə "Kitabi-Dədə Qorqud" dastanının "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda da rast gəlirik. Məlumdur ki, əsirlikdən qayıdan Beyrək bulaq başında bacısı ilə qarşılaşmış və bacısı onu tanıya bilməmişdi:

Ay ozan! Qarşıda uca dağları
aşıb gəldikdə, keşdikdə sən
Büyrək adlı bir igidə rast gəldinmi?
Ay ozan, gördünsə, söylə mənə!
Dərdli başım qurban olsun, ozan, sənə! [7, s.215]

Oxşar epizod "Aşıq Qərib" dastanında da mövcuddur. Qəribin öz bacısı ilə qarşılaşması, bacısının qardaşını tanıya bilməməsi eyni səhnəni xatırladır.

Bunları ümumiləşdirərək deyə bilərik ki, Murad Çobanoğlunun "Cünun və Dərdli Sultan", "Nəcib və Telli" dastanları klassik ənənələr üzərində yaranıb formalaşan gözəl sənət nümunələridir. Qarşılaşdırılan epizodlar, aparılan müqyisələr klassik eposçuluq ənənələrinin zənginliyi Murad Çobanoğlunun dastan yaradıcılığında uğurla mühafizə və əks olunmuşdur.

Ədəbiyyat

1. Ağbaba A. Ağbaba-Çıldır aşıq mühiti. Bakı: Elm və təhsil, 2012, 372 s.
2. Azərbaycan dastanları. 5 cilddə, I cild (tərtib edənlər M.H.Təhmasib, Ə.Axundov). Bakı: Lider-Nəşriyyat, 2005, 392 s.
3. Azərbaycan dastanları. 5 cilddə, II cild (tərtib edənlər M.H.Təhmasib, Ə.Axundov). Bakı: Lider-Nəşriyyat, 2005, 448 s.
4. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər (Elmi-ədəbi toplu). 2017/1 (50). Bakı: Elm və təhsil, 2017, 134 s.

5. Durbilmez B. Karslı Aşık Murat Çobanoğlu (Hayatı-sanatı ve eserleri). Kayseri: Temmuz, 1993, 547 s.
6. Hacıyeva M. Türk aşıqları. Bakı: Elm, 2004, 207 s.
7. Kitabi-Dədə Qorqud (tərtib edəni: Samət Əlizadə). Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər Nəşriyyat, 2004, 376 s.
8. Koroğlu (mətni hazırlayıb tərtib edənlər İ.Abbaslı, B.Abdulla). Bakı: Lider-Nəşriyyat, 2005, 552 s.
9. Təhmasib M.H. Azərbaycan xalq dastanları. Bakı: Elm, 1972, 397 s.
10. https://sia.az/az/news/literature/

РЕЗЮМЕ
АШУГ МУРАД ЧОБАНОГЛУ И ТЮРКСКАЯ ТРАДИЦИЯ ЭПОСА
Нагизаде С.Е.

Ключевые слова: *эпос, влюблённый, образ, идея, классика, традиция*

Ашуг Мурад Чобаноглу – один из ашугов, сыгравших особую роль в общетюркском культурно-географическом ареале. Поэзия и эпическое творчество ашуга, обладающего многогранным творчеством, чрезвычайно богаты. Таким образом, созданные ашугом эпосы, в том числе “Наджиб и Телли”, “Джунун и Дардли Султан”, по идее и содержанию сохранили черты классических эпосов. Сюжеты и мотивы, образующие сходство с народными эпосами, национальный колорит, народная душа свидетельствуют о том, что Ашуг Мурад Чобаноглу мастерски воспользовался дошедшей до наших дней многовековой традицией эпоса.

SUMMARY
ASHUG MURAD CHOBANOGLU AND THE TURKIC EPIC TRADITION
Nagizade S.E.

Keywords*: epic, lover, image, idea, classic, tradition*

Ashiq Murad Chobanoglu is one of the ashiqs who has a special role in the all-Turkish cultural and geographical area. Having a multifaceted creativity, Ashish's poetry and epic creations are quite rich. Thus, the epics created by Ashish, including the epics "Najib and Telli", "Junun and Dardli Sultan" have preserved the features of classical epics in terms of ideas and content. The plot and motifs similar to folk epics, national color, folk spirit prove that Ashıg Murad Chobanoglu skillfully benefited from the old tradition of epic writing.

TANINMIŞ ŞUŞALI MÜƏLLİM – ƏBDÜLƏLİ MUXTAROV

Nəsibova A.B.
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
afaqnesibova@mail.ru

Açar sözlər: *maarif, təhsil, müəllim, məktəb, mədəniyyət*

Azərbaycan xalqı 44 günlük müharibədən sonra qəhrəman oğullarının şücaəti və ölkə rəhbəri İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində 30 ildir erməni vandallarının əsarətində olan torpaqlarımızı geri qaytarmağa müvəffəq ola bilmişdir. Qaytarılan torpaqlar içərisində elm, mədəniyyət, incəsənət beşiyi sayılan Şuşa şəhəri də var.

Şuşa, onun ədəbi-mədəni mühiti, elm və mədəniyyət ocaqları Azərbaycan təhsil və mədəniyyət tarixində çox önəmli yer tutmuşdur. Təsadüfi deyildir ki, 1829-cu il Xalq Maarif Nazirliyinin əsasını qoyduğu nizamnamənin qəbul olunması ilə Azərbaycanda birinci dünyəvi məktəb olan ilk qəza məktəbi məhz 1830-cu il 30 dekabr tarixində elm və mədəniyyətin beşiyi sayılan Şuşa şəhərində açılmışdır. Sonralar bu qəza məktəbi və onun məzunlarının Azərbaycan təhsili sahəsində misilsiz xidmətləri olmuşdur.

Şuşa qəza məktəbində təhsil alan dövrünün mütərəqqi ziyalılarından biri də Əbdüləli Bağır oğlu Muxtarov olmuşdur. O, 1855-ci ildə Şuşada tacir olan atası Bağır Hacı Əsgər oğlunun ailəsində dünyaya göz açmışdır.

“Muxtarovlar” Şuşada Hacıəsgərlilər tayfasına bağlı çox tanınmış bir soy idi. Əbdüləli bəyin ulu babaları hələ Pənahəli xan Cavanşirin dövründə Təbrizə aid olan Məməqan qəsəbəsindən Şuşaya gələrək, burada Təbrizlilər məhəlləsində məskunlaşmışdılar [2, s.108].

İlk təhsilini mollaxanada almağa başlayan Ə. Muxtarov daha sonralar Şuşa qəza məktəbinə daxil olmuş və sonralar qəza məktəbinin şəhər məktəbinə çevrilməsi ilə şəhər məktəbini bitirmişdir.

Şuşa şəhər məktəbi XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda milli pedaqoji kadrların hazırlanmasında da çox önəmli yer tuturdu. Həmin dövrdə Şuşa şəhər məktəbini yüksək göstəricilərlə bitirənlər əlavə imtahan vermək yolu ilə məhəllə və ya ibtidai məktəblərdə dərs demək imkanı əldə edirdilər. Bu ada layiq görülən gənclər Azərbaycanın müxtəlif bölgələrində müəllimlik fəaliyyəti ilə məşğul olur və

beləliklə də pedaqoji təcrübəyə yiyələnərək, müəllim peşəsinin sirrlərini öyrənirdilər. Özünə bu müqəddəs peşəni seçənlərdən biri də Əbdüləli bəy Muxtarov idi.

Əbdüləli bəy 1876-cı ildə məktəb daxilində keçirilən imtahanlarda iştirak edərək yüksək göstərici əldə etdikdən sonra, şəhər məhəlli və ibtidai məktəb müəllimi adını almışdır. Elə həmin ilin sentyabrın 14-də Qazax qəzasının Dağkəsəmən kənd məktəbində müəllimlik etməyə başlayan Ə.Muxtarov, sonralar məktəbin müdiri Petrovla bərabər buradakı yaşlı əhalinin savadlanması və rus dilini öyrənməsi üçün axşam kurslarının da əsas təşəbbüskarı və təşkilatçısı olmuşdur.

Dağkəsəmən kənd məktəbində müəllimlik fəaliyyətindən sonra Əbdüləli bəy təyinatını Şuşa qəzasının Ağcabədi kənd orta məktəbinə alır. Hərtərəfli savada və geniş dünyagörüşə malik bir şəxs olan Muxtarovun gəlişi ilə burada elm, maarif, mədəniyyət və səhiyyə sahəsində bir canlanma baş vermiş, əhali arasında təhsil almaq istəyənlərin sayında xeyli artım olmuşdur.

Əbdüləli bəy öz dərsləri zamanı təkcə uşaqların təlim və tərbiyəsi ilə məşğul olmur, şagirdlərini mexaniki əzbərləməyə sövq etmirdi. O, eyni zamanda, uşaqların dünyagörüşünün genişlənməsi, onlarda tənqidi təfəkkürün inkişaf edirilməsi, estetik zövqün aşılanması ilə də böyük həvəslə məşğul olurdu.

Misal üçün qeyd edə bilərik ki, 1889-cu ildə Tiflisdə keçirilən kənd təsərrüfatı və sənaye sərgisində onun rəhbərliyi altında iştirak edən kənd məktəbinin kollektivi bürünc medal və üçüncü dərəcəli diplom qazanmışdır. Bu həmin dövrdə ucqar bir kənd məktəbi üçün böyük bir uğur, nailiyyət idi. O, hətta məkətəbin nəzdində metereoloji stansiya belə təşkil etmişdi. Səhiyyəni yaxşı bilməsi səbəbilə bəzən yerli əhaliyə ehtiyac yarandığı zaman tibbi yardım belə göstərən Əbdüləli bəy 1892-ci ildə kənddə məktəbin nəzdində aptek də yaratmışdı [3, s.36].

Ə.Muxtarov Ağcabədi kənd orta məktəbində işlədiyi dövrdə məktəb həyatında inkişafı müşahidə edərək yazırdı: "Ağcabədinin şəhərdən aralı olmasına və digər səbəblərə görə burada xalq maarifi çoxdandır ki, ləng inkişaf edirdi. Kəndli öz oğlunu heç olmazsa ana dilini öyrənmək üçün kənddə və ya kənarda məktəbə qoymağa çox nadir halda imkan tapırdı. Lakin burada məktəb açılması ilə get-gedə kəndlilər bu məktəbin faydasını dərk etməyə başlamışlar. Yeni məktəbin açılması ilə köhnə təhsilin xarakteri dəyişir. Köhnə qayda və üsul yenisi ilə əvəz edilir, yeni qayda təlimin tezliklə mənimsənilməsinə səbəb olur. Kəndlilərin öz uşaqlarının tərbiyəsinə cəhd etməsi də ancaq məktəbin təsiri ilə əlaqədardır" [2, s.110].

Gənc nəslin savadlı yetişməsində məktəb təhsilinin rolunu yüksək qiymətləndirən Əbdüləli bəy təkcə şagirdlərlə işləmir, eyni zamanda, onların valideynləri ilə də mütəmadi olaraq görüşür, onlarla müxtəlif mövzularda maarifləndirici söhbətlər aparır, bir sözlə əhali arasında elm və savadı təbliğ edirdi. Əbdüləli bəyin uğuru əhalinin böyük inam və hörmətini, etimadını qazanmasında idi. Məhz bu inam sayəsində elm və savaddan uzaq, cahil xalq öz övladlarını böyük həvəslə məktəblərə göndərir, hətta bir illik olan məktəbdə təhsil müddətinin artırılmasını tələb edirdilər.

Kənd məktəblərində işlədiyi 20 il müddətində Ə.Muxtarov nizam-intizamı, ədalətliliyi, dərslərində təlimi həyatla əlaqələndirməsi, yeni metodlardan istifadəsi və çalışdığı məktəblərdə həyata keçirdiyi mədəni-maarif işləri ilə şöhrət qazanmışdır. O, ətraf kənd və rayonlarda qazandığı şöhrət və müəllim peşəsinə yüksək səviyyədə yiyələnməsi nəticəsində 1896-cı ildə Zaqafqaziya (Qori) müəllimlər seminariyasının nəzdində fəaliyyət göstərən Azərbaycan ibtidai məktəbinə müdir təyin edilir [1, s.20].

Əbdüləli bəy Muxtarov uzun müddət F.Köçərli ilə çiyin-çiyinə seminariyanın hazırlıq sinifində dərs demiş, buradakı uşaqlara elm və təhsil öyrətməklə bərabər, həm də onların təlim-tərbiyəsi ilə şəxsən özü məşğul olmuş, onlara ədəb-ərkan, nəzakət qaydalarını da öyrətmişdir.

Təbiət hadisələri ilə maraqlanan Ə.Muxtarov öz səyahətləri zamanı hər zaman müşahidələr aparır və gündəliyində qeydlər edirdi. Bu qeydlər gələcəkdə ona metereologiya ilə bağlı ilk elmi işini yazarkən gərəkli olmuşdur. Səyahətləri zamanı o, havanın kimyəvi tərkibini öyrənmək, astronomik müşahidələr aparmaqla yanaşı, həm də Qarabağ əhalisinin yaşayışını, təsərrüfatını, qədim mədəniyyət və tarixini öyrənmişdir.

Hal-hazırda respublikamızda işğaldan azad olunmuş torpaqların tarixi, mədəni-ədəbi irsinin araşdırıldığı bir dövrdə Ə.Muxtarov və bir çox dövrünün vətənpərvər, maarifçi, Azərbaycan oğullarının Qarabağ, onun mədəniyyəti və tarixi haqqında yazdıqları bizim üçün çox dəyərli mənbə rolunu oynamaqdadır. Unutmayaq ki, əgər biz bu araşdırmaları ölkə prezidentinin dəstəyi ilə müstəqil bir dövlətin vətəndaşları kimi aparırıqsa, onlar hələ Azərbaycanın çar Rusiyasının müstəmləkəsi olduğu illərdə, böyük təzyiqlər altında aparmalı olmuşlar. Bu sahədə onların xidməti misilsiz və ödənilməzdir.

Ədəbiyyat

1. Ağayev Ə. 150 yaşlı Şuşa məktəbi. Bakı: Maarif, 1983
2. Çingizoğlu Ə. Şuşa şəhəri Təbrizli məhəlləsi. Bakı: Zərdabi LTD, 2012
3. Quliyev V. 180 yaşlı Şuşa məktəbi. Bakı: Şuşa, 2010

РЕЗЮМЕ
ИЗВЕСТНЫЙ ШУШИНСКИЙ УЧИТЕЛЬ - АБДУЛАЛИ МУХТАРОВ
Насибова А.Б.

Ключевые слова: *просвещение, образование, учитель, школа, культура*

Со второй половины XIX века в Азербайджане началось развитие в области науки, образования и культуры. В то время, как и во многих регионах Азербайджана, в Шуше, считающейся центром науки и культуры, стали открываться новые школы.

Абдулали Мухтаров, учитель из Шуши, посвятивший свою жизнь священной профессии учителя, был одним из известных деятелей литературной, культурной, научной и просветительской среды Шуши, расцвет которой пришелся на конец XIX века.

SUMMARY
A WELL-KNOWN TEACHER FROM SHUSHA - ABDULALI MUKHTAROV
Nasibova A.B.

Keywords: *enlightenment, education, teacher, school, culture*

Since the second half of the 19th century, development in the field of science, education and culture had been noticeable in Azerbaijan. At that time, as in many regions of Azerbaijan, new schools began to open in Shusha which was considered the center of science and culture.

Abdulali Mukhtarov, a teacher from Shusha who devoted his life to the sacred profession of a teacher was one of the famous figures in the literary, cultural, scientific and educational environment of Shusha which flourished at the end of the 19th century.

ƏHMƏD BAYTURSUNUN MAARİFÇİLİK FƏALİYYƏTİ

Alıyeva A.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fil.f.d.
afiqe75@mail.ru

Açar sözlər: *Əhməd Baytursun, qazax ədəbiyyatı, repressiya*

Əhməd Baytursun (Ahmet Baytursunov)- qazax xalqının görkəmli maarifçilərindən biri, ədəbiyyatşünas alim, dilçi, publisist, şifahi xalq ədəbiyyatının toplayıcı və tədqiqatçısı, şairdir. 1873-1937-ci illərdə yaşayan Əhməd Baytursun həyatının çox hissəsini sürgün və həbslərdə olmuş, buna baxmayaraq heç vaxt ruhdan düşməmiş, həbsxanalarda da elmi-bədii fəaliyyətlə məşğul olmuşdur. Kişik yaşlarından elmə, təhsilə marağı olan Əhməd Orenburq müəllimlər seminariyasını bitirmiş və 1895-ci ildən başlayaraq müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur. 1896-cı ildə çuvaş araşdırıcısı Alektorovla tanışlıq daim yeniliklər axtaran Əhmədin həyatında, dünyagörüşündə dəyişikliyə səbəb oldu. Alektorov qazax xalqının etnoqrafiyasını, dialektlərinin öyrənir, şifahi ədəbiyyat nümunələrinin xalq arasından toplayırdı. Onun Əhmədlə görüşü gənc müəllimi də bu işə həvəsləndirdi. Xalqını sevən, ona bağlı olan Əhməd qazax xalqının tarixini, həyat tərzini, folklor nümunələrinin toplamaq, tədqiq etmək qərarına gəlir və ömrünün sonuna qədər bu sahədə xeyli işlər görür.

Məktəbdə fəaliyyət göstərdiyi illərdə o, yeni tədris üsulları haqqında öyrənir, onları öz işində tətbiq etməyə çalışırdı. Əsası tatar maarifşisi İsmayıl bəy Qaspralı tərəfindən qoyulan "Üsul-i-Cədid" hərəkatına qoşulan Ə.Baytursun qazax maarifçiləri arasında ilk cədidçilərdən hesab olunur. 1910-cu ilə qəsər dərs dediyi məktəblərdə qazax balalarının maariflənməsi, öz xalqını, milli kimliyini tanıması sahəsində xeyli işlər görür. Eyni zamanda ictimai-siyasi fəaliyyətinin genişləndirən Əhməd Baytursun publisist, siyasi xadim Əli xan Bökeyxanla birlikdə 1905-ci ildə çarizmin bölgələrdəki idarəçiliyinə etiraz olaraq qazax-qırğız xalqları arasında təbliğat aparır. 1909-cu ilə qədər təqib olunan Ə.Baytursun 1909-cu ildə həbs olunur, 1910-cu ildə isə Orenburqa sürgün edilir. Sürgün illərində "Oxu qaydaları" kitabını yazır və 1912-ci ildə onu çap etdirir. Bu kitab da üsul-i cədidin təlimləri əsasında yazılmışdır.

Əhməd Baytursun şair kimi də qələmini sınamış və satirik şeirləri ilə xalqının oyanması, daha fəal olması üçün çağırışlar etmişdir. 1911-ci ildə şeirlərindən ibarət "Masa" (Ağcaqanad) kitabı işıq üzü görmüşdür. Masa şairin gizli imzası olmuşdur. O illərdə Əhməd Baytursun "Türküstan valayatı", "Dala valayatı", "Aykap" adlı mətbu orqanlarda Masa imzası ilə məqalə və şeirlər çap etdirirdi. Ağcaqanad insanı sancanda onu diksindirir, ayıldır. Şairin şeirləri də qazax xalqını ayıltmağa, onu qəflət yuxusundan oyatmağa xidmət edirdi. Şair həm də başqa dillərdən qazax dilinə tərcümələr edirdi. 1909-cu ildə "Qırx misal" kitabını nəşr etdirir ki, bu kitabda da əsasən etdiyi tərcümələr yer almışdır.

Əhməd Baytursun həm də publisis idi. Bir çox mətbu orqanlarda çalışmış və böyük təcrübə qazanmışdır.Nəhayət, 1913-cü ildə Əli xan Bökeyxanov "Kazax" adlı qəzetin çapına icazə alır və redaktoru Ə.Baytursun olur. ""Kazax"a yazdığı ilk baş məqalədə qəzeti millətin görən gözü, eşidən qulağı, danışan dili adlandıran Ahmet Baytursunov millətinin maariflənməsi üçün çox çalışır." [1,56]

Bu qəzetdə də Ə.Baytursun qazax xalqının elm, təhsil alması üçün təbliğat aparır, qaxax ziyalılarının təhsillə bağlı yeniliklərini təbliğ edir və bununla bağlı silsilə məqalələr çap etdirirdi. Onun bu fəaliyyəti çar üsul-idarəsini narahat edir və ədib daim təqib olunur. Dəfələrlə Ə.Baytursunu həbs etmək istəmiş, külli miqdarda cərimələr etmiş, hər dəfə də xalq bu məbləği toplayaraq həm qəzeti, həm də redaktoru qorumuşlar. Ancaq bu cəhdlər də görkəmli ədibi hər dəfə qoruya bilmirdi.

Əhməd Baytursunun maarifçilik fəaliyyəti geniş idi. O, əlifba islahatı sahəsində də xeyli işlər görmüşdür. 1910-cu ildən başlayaraq ərəb əlifbasının türk dilləri üçün uyğunlaşdırılmış variant üzərində çalışmalara başlamış, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda iştirak etmiş və hazırladığı yeni əlifbanı qurultaya təqdim etmişdir. Lakin əlifba qəbul olunmamışdır. 1915-ci ildə "Til kuralı", 1920-ci ildə "Kazaxca əlippege bayanşı" (Qazaxca əlifbaya başlama), 1925-ci ildə "Til tanıktış" (Dil nəzəriyyəsi), 1926-cı ildə "Ədəbiyet tanıktış" (Ədəbiyyat nəzəriyyəsi) kitabları işıq üzü görmüşdür. Xalqının maariflənməsi yolunda əzmlə çalışan Ə.Baytursun qazax dilinin qorunması, qazax balalarına öyrədilməsi yolunda bir çox işlər görmüş, bir neçə dərslik yazmış və işlədiyi məktəblərdə tədris etmişdir. "Onun dərslikləri 30-cu illərin sonlarına qədər qazax məktəblərində istifadə olunmuşdur. " [3,7]

Əhməd Baytursun qazax folklor nümunələrini toplayan, tədqiq və çap etdirən ilk tədqiqatçılardan bir kimi də tanınır. 1913-cü ildə çap olunan "Er Sayın" kitabında qazax jırçılarından (aşıq) topladığı şer nümunələrini vermişdir. 1926-cı ildə isə tarixi şəxsiyyətlərlə bağlı 23 jovqatı (ağı) ayrı kitabda çap etdirmişdir. Hər iki kitab qazax folklor nümunələrinin toplanıb nəşr olunması sahəsində ilk nümunələr idi.

1920-ci ilə qədər bir çox təşkilatların üzvü və yaradıcılarından olan Əhməd Baytursun xalqının azad və firavan yaşamasını arzulayırdı. 15 respublikanın birləşərək vahid bir ölkə kimi xoşbəxt yaşamasına böyük ümidlər bəsləyən bir çox ziyalılar kimi Ə.Baytursun da partiya sıralarına daxil oldu. 1921-1925-ci illərdə yüksək vəzifələrdə çalışsa da, Sovet xüsusi orqanları onu həmişə təqib edirdi. Bu da təsadüfi deyildi. Çünki arzuları puç olan bir çox ziyalılar kimi Ə.Baytursun da yenidən gizli təşkilatlara üzv olur və imperiyanın türkdilli xalqlara qarşı apardığı siyasətə qarşı mübarizəyə qoşulurdu. 1926-cı ildə onu partiya sıralarından çıxarırlar. Orenburq Pedoqoji İnstitutunda, Daşkənddəki Qazax Pedoqoji İnstitutunda 1929-cu ilə qədər müəllim kimi fəaliyyət göstərir. 1929-cu ildə millətçi təşkilatda iştirakına görə onu həbs edir və güllələnmə hökmü çıxarırlar. Səkkiz aydan sonra güllələnmə hökmü 10 illik həbslə əvəzlənir. Lakin 1934-cü ildə ədibi həbsdən azad edirlər. Həbsdən qayıdan Ə.Baytursun iş tapa bilmir, maddi sıxıntılar içərisində yaşayan ziyalı 1937-ci il repressiya burulğanından qurtula bilmir və yenidən həbs olunur. Sovet dövlətini devirməyə cəhd etdiyinə görə ittihamı ilə Bəkir Çobanzadə və Qaziz Qabaydullinlə birlikdə 1937-ci il dekabrın 8-də güllələnir. 1956-cı ildə repressiya qurbanlarının çoxuna bəraət verilsə də, Əhməd Baytursuna bəraət verilmir. Onun bəraəti də 1988-ci ilə qədər gecikir.

"Əhməd Baytursun yazıçı, tərcüməçi, nasir, dilçi və ədəbiyyatçı kimi qazax xalqının ictimai və mədəni oyanışına xidmət edən görkəmli qazax alimi olaraq bu gün də unudulmur." [2] Sovet hakimiyyəti illərində bir çox repressiya qurbanları kimi Ə.Baytursunun da əsərlərini oxumaq, təbliğ etmək yasaq olsa da, bu gün bütün türk xalqları bu şəxsiyyəti tanıyır və onun elmi, bədii, publisistik əsərlərini sevə-sevə oxuyur.

Ədəbiyyat

1. Şamil Ə. Türkçülüyün qurbanları (Qazaxıstan). Bakı: Elm və təhsil, 2014, 172 s.
2. İbrahimov E. Onları tanımalıyıq. https://525.az/news/185149-onlari-tanimaliyiq-ehmed-baytursunoglu-elcin-ibrahimov-yazir
3. Özdemir E. Ahmet Baytursunovun hayatı ve 20. Yüzyılın başında Kazakıstanda egitim faaliyyetleri içindeki yeri. Dumlupınar Universitesi Sosyal Bilimler Dergisi, Aralık 2008, sayı 22. https://dergipark.org.tr/tr/download/article-file/55480https://dergipark.org.tr/tr/download/article-file/55480

РЕЗЮМЕ

ОБРАЗОВАТЕЛЬНАЯ ДЕЯТЕЛЬНОСТЬ АХМЕТА БАЙТУРСУНА

Алыева А.А.

Ключевые слова: *Ахмет Байтурсун, казахская литература, репрессии.*

Ахмет Байтурсун (Ахмет Байтурсунов) – один из видных просветителей казахского народа, литературовед, языковед, публицист, собиратель и исследователь устной народной литературы. Поэт А. Байтурсун, усердно трудившийся

для просвещения своего народа, много сделал на пути сохранения казахского языка, обучения ему казахских детей, написал несколько учебников и преподавал в школах. Его учебники использовались в казахских школах до конца 1930-х годов.

SUMMARY
EDUCATIONAL ACTIVITY OF AHMET BAYTURSU
Aliyeva A.A.

Keywords: *Ahmet Baytursun, Kazakh literature, repression*

Ahmet Baytursun (Ahmet Baytursunov) is one of the prominent educators of the Kazakh people, literary scholar, linguist, publicist, collector and researcher of oral folk literature, poet. A. Bayturs, who worked diligently for the education of his people, did many things in the way of preserving the Kazakh language, teaching it to Kazakh children, wrote several textbooks and taught in the schools. His textbooks were used in Kazakh schools until the late 1930s.

MƏŞRUTƏ DÖVRÜ FARS POEZİYASINDA FORMA VƏ MƏZMUN NOVATORLUĞUNA DAİR

Məmmədzadə C.N.
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
mhjavanshir@mail.ru

Açar sözlər: *məşrutə inqilabı, yeni fars poeziyası, forma, məzmun, poetik dil, ənənə, novatorluq.*

Öz başlanğıcını, əsasən, XIX əsrin ikinci yarısından götürmüş yeni fars poeziyası Məşrutə inqilabı ilə ən yüksək zirvəyə qədəm qoymuşdur. Bütöv bir kompleksi xatırladan yeni poeziya üçün yetkin məzmun və forma komponentləri əsas idi. Şeirin varlığını təmin edən məzmun və formanın novatorluq elementləri ilə zənginləşməsi müasir fars şeirinin təşəkkülü və inkişafı baxımından həlledici amillərdən sayılırdı.

1850-ci illərdən poeziyanın məzmunca, növbəti yüzilliyin ilk onilliklərindən isə formaca yeni keyfiyyət qazanması zəngin ədəbi ənənələrə malik fars ədəbiyyatı tarixində möhtəşəm ədəbi hadisə oldu. Əlbəttə ki, bu yeniləşmə fars poeziyasında birdən-birə, "göydəndüşmə" deyil, uzun əsrlər boyu davam edən böyük ədəbi prosesin tərkib hissəsi və məntiqi nəticəsi kimi meydana çıxmışdı. Ümumiyyətlə, fars şeirində "Təcəddüd" adı altında müxtəlif cərəyanlar tarixi şəraitə uyğun, demək olar ki, bütün dövrlərdə aktuallıq kəsb etmişdir. Sələflərindən fərqli təzə fikir söyləmək və yeni poetik forma icad etmək istedadlı söz ustadlarının daim maraq və diqqət dairəsində olmuşdur. Təsadüfi deyil ki, hələ orta əsrlərin dahi mütəfəkkiri M.C.Rumi poeziyada şair üçün novatorluğu vacib saymış və "Məsnəvi-ye mənəvi" əsərinin dördüncü dəftərində bu məsələyə belə işarə etmişdir:

Şairin hədiyyəsi nə olar, [əlbəttə ki] yeni şeir. هدیهٔ شاعر چه باشد، شعر نو. [9, s.102]

Hind üslubunun yaradıcıları da düşüncə və bəyan tərzində yenilik naminə طالب حسن غریب و معنی بیگانه باش! (Qəribə gözəllik və yeni məna axtar!) [2, s.91] şüarı ilə məşəl alovlandırmışlar. Qeyd edək ki, yeni fars poeziyasının meydana çıxmasında klassik şeirin rolu əvəzsiz idi. Qədim şeir modern poeziya üçün hər zaman başlıca qida mənbəyi olmuşdur. Ölkədəki ədəbi proseslə çulğalaşan Məşrutə hərəkatı təkcə müasir poeziyada maarifçilik ideyalarından qaynaqlanan yeni məzmun əsaslarının formalaşmasına səbəb olmadı, həm də şeirin sonrakı inkişaf mərhələlərində formaca zənginləşməsi üçün geniş imkanlar açdı. Məşrutə inqilabı fars şeirinin məzmunca yeniləşməsi prosesini daha da vüsətləndirdi. Mühüm ictimai problemlərin əksini poeziyada ön plana çəkən şairlər xalq ilə onun öz dilində danışmağı, böyük kütlənin arzu və istəklərini nümayiş etdirməyi, öncüllər sırasında olmağı anladılar. Onlar başa düşdülər ki, xəyali və mücərrəd mövzulardan, anlaşılmaz, qeyri-müəyyən və bəzəkli söz və ifadələrdənsə, insanların güzəranı ilə əlaqəli hadisələr, onu düşündürən və maraqlandıran məsələlər xəlqi və sadə dillə alqışlanmalı və ya qarğışlanmalıdır. Məzmunca yenilənən fars poeziyasında ictimai-sosial motivlər şeirin bətninə köklənir, xalqın tərəfkeşi qismində düşmənlərlə mübarizədə kəskin ictimai təsir rıçaqına çevrilir.

Ötən əsrin əvvəllərində əksər şairlərin təxəyyül və təfəkkür tərzi ənənəvi deyildi. Şairin dil və düşüncəsini İran alimi M.Ş.Kədkəninin təbirincə, "bir sikkənin iki üzü" düsturu ilə qəbul etsək, o zaman bunun şeirin mövzusuna da birbaşa təsirinin olduğunu aydın müşahidə etmək olar. Qərb ədəbiyyatı və ictimai fikrindən bəsit təsirlənmə və iqtibaslar M.Eşqi kimi hələ tam püxtələşməmiş gənc şairlərin yaradıcılığında özünü aşkar biruzə verirdi. Məsələn, o, Kirmanşah ruhanilərinin etirazlarına rəğmən qəzəllərinin birində "torpaqdan yaradılışını əfsanə sanaraq, meymun nəslindən" olduğunu söyləyirdi [10, s.27]. Qərb şeirindən bu növ səthi və düşünülməmiş namünasib təsirlənmələrə A.Qəzvini və M.Baharın da poetik fəaliyyətində rast gəlinir. Məşrutənin gəlişilə bəzi mövzular zamana münasib don və libas geyinmiş, başqa sözlə, yeni anlam və məzmun kəsb etmişdir. Misal olaraq, bu dövr poeziyasının ən çox müraciət olunan mövzularından olan "azadlıq" məfhumu Qərb demokratiyası anlamında Məşrutə ilə başlanır.

İnqilabdan əvvəl "azadlıq" məfhumu heç bir vəchlə həmin anlamda işlənməmişdir. Məsələn, şair Məsud Səəd Səlmanın azadlıq axtarmaqda məqsədi Nay zindanından xilas olmaqdan başqa bir şey olmamışdır [9, s.35]. Başqa sözlə, azadlıq kəlməsi İran inqilabi poeziyasında dar konteksdən çıxaraq geniş məna diapozonu əldə edir. Artıq uğrunda qələmlə və silahla mücadilə aparılan azadlıq fərdi deyil, bəşəri status daşıyır.

Məşrutə dövrü fars şeirinin texnikası sahəsində də bir sıra uğurlara imza atıldı. Nəzmin dil, üslub və forma xüsusiyyətləri əvvəlki illərlə müqayisədə dəyişdi və təzələndi. Bu, şeirin gələcəkdə forma cəhətdən daha da təkmilləşməsinə münbit zəmin hazırladı. Məşrutəçi şairlər poetik dili sadələşdirərək bütün təbəqələrin başa düşəcəyi və həzm edəcəyi bir səviyyəyə gətirdilər. İnqilabi şeirin dilində əvvəllər rast gəlinməyən küçə-bazar, dialekt sözlərilə yanaşı alınmalar, xüsusilə də Avropa sözləri geniş yer aldı. Xalqla öz dilində danışan Ə.Gilani, Ə.Dehxodadan fərqli olaraq, A.Qəzvini və M.Eşqi kimi şairlər ədəbi dil ilə danışıq dili arasında üzvi bağlılıq yaratmağa cəhd etsələr də, sözün həqiqi mənasında buna tam nail ola bilmədilər [9, s.42]. Yeni poeziyada klassik dövrdə olduğu kimi sözə pərəstiş, daha doğrusu söz oyunu yox idi. Anlaşılmazlıq, dolaşıqlıq və qəlizlikdən uzaq olan şeirin dili xalqın yaradıcı gücünə olan inamı ifadə etmiş və ondan ilhamlanmışdı. Ə.Gilani, Ə.Dehxoda, İ.Mirzə, M.Eşqi və Ə.Lahutinin fars şeir dilinin sadələşməsi naminə səmərəli addımlar atdılar. Yeni poeziyada məzmuna uyğun forma axtarmağa, başqa sözlə təzə şeir qəlibləri düzəltməyə Ə.Gilani, Ə.Dehxoda, xüsusilə də Ə.Lahuti və M.Eşqi böyük cəhdlər göstərmişdir. Lakin dövrün poeziyası klassik üslubda əsas etibarilə ənənəvi formalar üzərində bərqərar idi. Qələm sahibləri yeni və mütərəqqi fikirləri köhnə şeir şəkillərində verməklə yanaşı mühüm bədii fəndlərə də əl atırdılar. Onlar ədəbi ənənə prinsipini pozmadan qədim şeir formalarını yeni elementlərlə zənginləşdirir və inkişaf etdirirdilər. Şairlər fikirlərinin sadə izahı və şeirin təsir gücünün artırılması üçün ən sadə və işlək poetik formalardan istifadəni məqbul sayırdılar. Onlar ilk növbədə folklor nümunələrinə müraciət edir, şifahi xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnirdilər. Xəlqi ruhlu təsnif, tərənə, layla və dübeyti kimi folklor örnəklərindən geniş istifadəyə yüksək sənətkarlıq qüdrətinə malik bütün şairlərin yaradıcılığında rast gəlinir. Ə.Gilani və Ə.Lahutinin laylalarında, M.Bahar və A.Qəzvininin təsniflərində inqilab və azadlıq motivləri geniş yer alır. Tezyaddaqalan, yığcam və işlək olan həmin poetik formalar özündə çərçivəyəsığmaz ictimai-siyasi məzmunu ehtiva edirdi. Sadə danışıq dili ilə folklor ünsürlərinin vəhdəti şeirlərin məziyyətlərini birə-beş artırır, onların sürətlə yayılmasına və dillər əzbəri olmasına şərait yaradırdı. Bu yolla ədəbiyyatda təsnif, tərənə, dübeyti və laylanın siyasi-ictimai məzmunlu yeni növləri meydana gəlirdi.

İdeya cəhətdən görkəmli dramaturq Mirzə Cəlilin publisistikasından qidalanmış, M.Ə.Sabir yaradıcılığının təsiri ilə müasir fars poeziyasında tənqidi realizm və inqilabi satira meydana gəldi. Buna qədər hər zaman fars poetikasının aparıcı janrları olan qəzəl və qəsidə klassik statusunu saxlayaraq dövrün tələb və təklifinə uyğun öz yerini inqilabi satiraya verir. Getdikcə zamanın zövq və səliqəsi, estetik baxışları ilə dolğunlaşmağa və rövnəqlənməyə başlamış satira poeziyanın əsas avanqard janrına çevrilir. Həyat həqiqətləri real satirik planda təsvir edilir, ziddiyyətlər qarşı-qarşıya qoyulur, şeirdə batillə zahir, forma ilə mahiyyət arasında münasibətlər satirik realizmin predmeti kimi təqdim olunur. İnsan poeziyanın subyektinə, zaman isə obyektinə dönüşür. Şeirdə həm də həqiqi obraz kimi təsvir edilən zaman çərçivəsində xəlqilik və həyatilik kimi realist kateqoriyalar geniş rəvac tapır. Satirik məzmunlu əsərlərdə şairlər vətəndaşlıq mövqeyini ortaya qoyaraq İranın düşmənlərini ictimai qınaq hədəfinə çevirirlər. Bədii ümumiləşdirmə metodundan geniş şəkildə bəhrələnən ədiblər yaratdıqları satirik obrazların dili ilə onların iç üzünü açırlar. Satirik və yumoristik dialoq və monoloqlarda cəmiyyətdə konkret insanların real prototiplərinə tribuna verilərək onları nitq və fikirlərilə səciyyələndirirlər. Şairlərin müxtəlif komik obrazların silsilə təşkil etdiyi əsərləri real fakt və hadisələrlə, həyat həqiqətləri ilə yoğrulmuş və əsrin mənzərəsinin təsviri baxımından arxivləşmişdir.

Eyni mənzərə ilə biz lirik növün janrlarında da qarşılaşırıq. Şairlər klassik şeirin forma və obraz sistemindən yeni zəmində yaradıcı şəkildə faydalanırdılar. Klassik dövrün şeiri novator xüsusiyyətlərə malik müasir lirikadan bu cəhətlərinə görə fərqlənirdi. Lirik növün əsas janrları olan qəzəl, qəsidə, mərsiyə, rübai, tərcibənd və sairə yeni ictimai məzmunla yüklənərək dövrün istiqamətverici əsas janrlarına çevrilir. Artıq müasir qəzəl gözəlin mah cəmalının, qəmzə və ədasının vəsfinə, aşiq-məşuq münasibətlərinin ifadəsinə, qəsidə isə hər hansı bir əyan və zadəganın məziyyətlərinin tərifinə xidmət etmirdi. Tarixi vəzifəsinin əksinə hər hansı bir fərdin deyil, zamanın ictimai sifarişini məsuliyyətilə yerinə yetirirdi. M.Baharın, F.Yəzdi, M.Eşqi və Ə.Lahutinin xalqı mücadiləyə sövq edən qəzəlləri bu cəhətdən təqdirəlayiqdir. Şairlər ilk növbədə mövzuya uyğun şeir qəlibi seçirdilər. Tamın hissələri olan forma və məzmunun vəhdəti şeirin effektli poetik təsiri baxımından əhəmiyyətli idi. Ədiblər məmləkətin əzəmət və qüdrətinin nümayişi üçün forma olaraq lirik növün məşhur janrlarını - qəzəli, qəsidəni, müsəmməti, ağrılı vəziyyətini göstərməkdən ötrü isə sentimental xarakterli mərsiyə janrını seçirdilər. Təsadüfi deyil ki, Ə.Gilani əksinqilabi çevriliş nəticəsində qanına qəltan edilmiş vətən oğulları üçün söylədiyi ağını "Ey vay, Vətən vay" rədifli

mərsiyəsində əbədiləşdirmişdir. Onun bədbin və ümidsiz əhval-ruhiyyəsi mayası göz yaşları ilə yoğrulan mərsiyənin matəmli notları ilə üst-üstə düşürdü.

Ə.Gilani, Ə.Dehxoda, M.Bahar, Ə.Lahuti, F.Yəzdi və M.Eşqinin yaradıcılığında biz rübainin məzmunca yeni növünü müşahidə edirik. Həmişə fəlsəfi məzmunların diktə olunduğu rübai janrı Məşrutə dövründən başlayaraq insanların həyat və mübarizəsindən irəli gələn məsələlərin carçısı olur. Daim həyatın faniliyi və dünyanın etibarsızlığından şikayətlənən rübailərin "gileyi" indi F.Yəzdi dili ilə belə verilir:

Bir an biz qəmginlərin ürəyi şad olmadı	یک دم دل ما غمزدگان شاد نشد
Bizim viranəmiz zülmdən abad olmadı	ویرانهٔ ما از ستم آباد نشد
Azadlıq yolunda bəs qədər can verdilər	دادند بسی به راه آزادی جان
Amma nəticəsi nə [oldu] millət azad olmadı.	اما چه نتیجه ملت آزاد نشد [12, s.221-222]

Hətta şairlərin qələmilə klassik fars şeirinin lirik obraz və qəhrəmanlarının ənənəvi vəzifəsi də dəyişilir. A.Qəzvini, M.Bahar, Ə.Lahuti və M.Eşqi öz mütərəqqi fikir və ideyalarını aşılamaq üçün həmin klassik obrazlardan ustalıqla istifadə edir. Lirik qəhrəman inqilab və azadlıq uğrunda qızğın mübarizənin getdiyi zaman və məkanda ictimai səciyyə alır. İctimai məzmunla dolğunlaşmış klassik fars poeziyasının aşiq və məşuqu artıq dünyəvi məhəbbətin deyil, inqilab və azadlığın tərənnümçüsüdür. Məsələn, M.Eşqinin mövcud rejimi tənqid və təhdid edən siyasi məzmunlu qəzəlləri ənənəvi şəkildə eşqin, aşiqin pərişan halının və rəqibin cəfasının təsvirilə başlayır. Qəzəldə siyasi məzmunun kəskinləşdiyi kulminasiya nöqtəsində isə həmin aşiqin dünyəvi eşqin deyil, zamanın "siyasi aşiq"i olduğunu görürük. A.Qəzvininin "Ağlamaqdan sonra gülüş" şeiri aşiqanə məzmun təəssüratı bağışlasa da, qəzəldəki giley-güzarın sevgilidən deyil, vətənin vəziyyətindən ibarət olduğu anlaşılır. Şairə əziyyət verən, onu son dərəcə narahat və pərişan edən xəyali məşuqənin yox, İranın dərdidir. Əslində Arifin sevgilisi onun öz doğma Vətənidir. Ə.Lahuti yaradıcılığında aşiq, canan, məşuq və s. kimi klassik lirik obrazlarla sentimental duyğular və şəhvani hisslər deyil, inqilabi-siyasi amallar ifadə edilir. Məsələn, rübailərinin birində yazırdı:

Mən aşiqəm və mənim eşqim mənim imanımdır	من عاشقم و عشق من ایمان من است
Mənim cananım mənim canımdan daha yaxşıdır	جانانهٔ من خوبتر از جان من است
Əslində bu can mənim cananım üçündür	اصلا این جان برای جانان من است
Mənim məşuqum - mənim İranımın inqilabıdır.	معشوق من انقلاب ایران من است.[1, s.266]

Bu qəbildən olan lirik əsərlərdə qəhrəmana xas hal və vəziyyət, ənənəvi xüsusiyyətlər qorunsa da xarakter və məqsədlər yeni şəraitə uyğunlaşmış və onunla əlaqələnmişdir. Əsərlərin keyfiyyətini artırmaq naminə bədii təsvir və ifadə vasitələrindən ustalıq və incəliklə istifadə şairlərin poetik qüdrətinin sübutu idi. Keçən əsrin əvvəllərində poeziyada dil, ideya-məzmun və bədii sənətkarlıq cəhətdən gözəl, biçimli tənasübün olması və nəzmin hər bir elementinə yaradıcı yanaşma yeni poeziyanın gələcək uğurlu inkişafının göstəricisi idi.

Məşrutə hərəkatı şeirin məzmunca yeni keyfiyyət və məziyyətlərə sahiblənməsinə təkan versə də, onun forma cəhətdən tam mənada yenilənməsi yeni poeziya qarşısında duran ən mühüm vəzifələrdən oldu. Yeni məzmun hələ də əruz vəzni ilə bəstələnən klassik şeir janrları, bədii təsvir və ifadə vasitələrilə bəyan edilirdi. Əruz vəzni və onun çoxsaylı, müxtəlif ahəngdar bəhrləri üzərinə ilmələnmiş fars şeirinin müasir mərhələdə formaca dəyişilməsi, bu vəznin sadələşdirilməsinə yönəlik cəhdlər, şübhəsiz ki, fars ədəbiyyatı tarixində inqilabi bir hadisə idi.

XX əsrin ilk illərində ədiblər fars poeziyasında formaca "yeni şeir"in yaradılmasında təşəbbüskar oldular. Məşrutəçi şairlər şeirin formasına bir sıra yeniliklər gətirdilər. Klassik şeir janrları qəzəl, qəsidə, məsnəvi və rübai ilə müqayisədə vaxtilə çox da populyar olmayan müsəmmət, müstəzad, tərcibənd və bəhri-təvil kimi şeir qəlibləri geniş yayıldı. "Çərçivəli janrlar"a nisbətdə bəhri-təvil, tərcibənd, müsəmmət və müstəzadın quruluşunda olan müstəqillik və sadəlik inqilabi, ictimai-siyasi fikirlərin ifadəsi üçün geniş təsvir imkanları yaradırdı. Ənənəvi şeirin qaydalarından nisbətən azad görünən bu janrların şifahi xalq yaradıcılığı ilə bağlılığı onların daha da rəvac tapmasına şans yaradırdı. Şairlər məzmunun tələbindən asılı olaraq, həmin qəliblər əsasında bir sıra yeni janr növlərinin icadına nail oldular. Şeirin qəlibinin yenilənməsi istiqamətində beşlik və altılıq müsəmmət, müxtəlif müstəzad növləri, daha çox isə asanlığa malik azad dördlüklər yarandı. Misraların növbənöv qafiyələnmə üsulu genişləndi [7, s.56-57]. İran alimi Ş.Ləngərudinin fikrincə, İranda ilk "yeni şeir"i (daha doğrusu, formaca "yeni şeir"i - C.M.) Ə.Lahuti 1909-cu ildə yazmışdır [11, s.65]. Həqiqətən də Lahuti həmin ilin dekabrında Tehranda inqilabçılara həsr etdiyi "Əhdə vəfa", 1915-ci ilin aprelində "Vətənə qayıdış" və 1920-ci ildə şairə Ş.Kəsmayinin oğlunun inqilab cəbhəsində şəhid olması münasibətilə yazdığı "Gül ömrü" əsərlərini yeni üslubda qələmə almışdı. Lakin Ə.Dehxodanın hələ 1908-ci ildə "Sur-e esrafil" qəzetinin 3-cü sayında nəşr olunmuş "Yad et, sönmüş şamı yad et!" şeiri quruluş, forma, üslub, vəzn cəhətdən ənənəvi şeirdən çox fərqlənirdi. Qəmli notlarla

bəstələnmiş şeirin müsəmmət qəlibində olması şairə geniş yaradıcılıq imkanları açmışdı. Alovlu vətənpərvər Mirzə Cahangir xan Şirazinin qətlə yetirilməsi ilə əlaqədar yazılmış bu şeiri ədəbiyyatşünas Y.Aryənpur hətta misraların sayı baxımından türk şairi M.Ə.Sabirdən təqlid olduğunu qeyd edir [6, s.95]. Fikrimizcə, əsərin dili, ifadə tərzi, qafiyə quruluşu və simvolik elementlərin işlənməsi, həmçinin M.Ə.Sabirin populyarlığı alimin belə bir qeyri-müəyyən nəticəyə gəlməsinə səbəb olub. Ə.Dehxodanın özü isə həmin əsərin Avropa şeirləri üslubunda olması qənaətində idi [8, s.30]. Müəllifin bir çoxları tərəfindən bəyənilmiş "Səhər quşu", "Yad et!" və s. adlarla məhşurlaşmış həmən əsərinə sonralar M.Bahar, P.Etesami, H.Kəmali, Ə.Xorrəm və b. nəzirələr yazmışdır [6, s.97]. Rus alimi K.Çaykin fars şeirinin bənd quruluşu baxımından qeyri-adi olan bu şeirin şairə Avropa poeziyasının təsirini bağışladığını və fars ədəbiyyatının poetik yaradıcılığında Qərb formalarının tətbiqinə ilk cəhd kimi qeyd edir [5, s.54]. Ümumiyyətlə, XX əsrin 20-ci illərinə qədər şairlərin novatorluğu özünü yeni qafiyələnmə üsulları və şeir ölçülərinin icadında, bədii təsvir və bəyan vasitələri, yeni ifadə və tərkiblərin işlənməsində göstərirdi. Lakin sistemsiz və pərakəndə şəkildə olan bu hallar şairlərin fəaliyyətində mütəmadi xarakter almamışdı.

Ədəbiyyat

1. Hüseynov B.M. XX əsr fars şeirində ənənə və novatorluq. Bakı: Elm, 1975, 338 s.
2. Məhəmmədi M. Saib Təbrizi və farsdilli poeziyada "Hind üslubu". Bakı: Elm, 1994, 187 s.
3. Məmmədzadə C.N. Müasir fars poeziyasında yeni məzmun əsaslarının formalaşması // "Şərqşünaslığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları. Bakı: Bakı Universiteti, 14-15 noyabr, 2012, s. 188-191.
4. Мамедзаде, Дж.Н. К вопросу о формировании «Нового стиха» в иранской поэзии // Тольятти: Балтийский гуманитарный журнал, 2016. № 2 (15), с. 46-49.
5. Чайкин К. Краткий очерк новейшей персидской литературы. Москва: Книгосоюз, 1928, 158 с.
6. آرین پور ی. از صبا تا نیما (تاریخ ۱۵۰ سال ادب فارسی): [در۳ جلد]. تهران: زوّار، ج. ۱، ۱۳۷۲، ۴۲۲ ص.
7. حاکمی ا. ادبیات معاصر ایران. تهران: اساطیر، ۱۳۷٦، ۲۲۴ ص.
8. دیوان دهخدا / به کوشش م. دبیر سیاقی. تهران: تیراژه، ۱۳٦٦، ۲۰۹ ص.
9. شفیعی کدکنی م. ادوار شعر فارسی: از مشروطیت تا سقوط سلطنت. تهران: سخن،۱۳۸۰، ۱۷۵ ص.
10. کتاب منتخبات عشقی / به قلم ع. سلیمی. تهران: لاله زار، ۱۳۰٦، ۱۴٦ ص.
11. لنگرودی ش. تاریخ تحلیلی شعر نو (۱۳۳۲-۱۲۸۴): [در۴ جلد]. تهران: مرکز، ج. ۱، ۱۳۷۰، ٦۴۹ ص.
12. یزدی ف. دیوان: غزلیات و قصاید و قطعات و رباعیات / به قلم ح. مکی. تهران: امیر کبیر، ۱۳۵۷، ۲۹۳ ص.

РЕЗЮМЕ
О НОВАТОРСТВЕ ФОРМЫ И СОДЕРЖАНИЯ В ПЕРСИДСКОЙ ПОЭЗИИ В ПЕРИОД МАШРУТА
Мамедзаде Дж.Н.

Ключевые слова: *машрутская революция, новоперсидская поэзия, форма, содержание, поэтический язык, традиция, новаторство.*

Машрутская революция, которую всколыхнул литературный процесс в Иране, не только привела к формированию в современной поэзии новых содержательных основ, вытекающих из идей просветительства, но и открыла широкие возможности для формообразующего обогащения поэзии на более поздних этапах своего развития. Поэты прилагали большие усилия для поиска формы, соответствующей содержанию в новой поэзии. Язык, стиль и особенности формы стихотворения изменились и обновились по сравнению с предыдущими годами. Поэтический язык упростился, освободился от преклонения перед словами непонимания, путаницы и неразберихи как в классический период

SUMMARY
ON THE INNOVATION OF FORM AND CONTENT IN PERSIAN POETRY OF THE MASHRUTA PERIOD
Mammadzadeh J.N.

Key words: *Mashruta revolution, new Persian poetry, form, content, poetic language, tradition, innovation.*

The Mashruta revolution, which was stirred up by the literary process in Iran, not only led to the formation of new content bases stemming from the ideas of enlightenment in modern poetry, but also opened wide opportunities for the formative enrichment of poetry in the later stages of its development. Poets made great efforts to search for a form that matches the content in new poetry. The language, style and form features of the poem have changed and been renewed compared to previous years.

.

AZƏRBAYCAN NAĞILLARINDA DİV OBRAZININ MİFİK SEMANTİKASI

İsgəndərov B.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
babaxanli64@mail.ru

Açar sözlər: *mif, nağıl, janr, folklor, obraz, süjet, Avesta*

Azərbaycan xalq ədəbiyyatının epik janrlar sistemində nağıllar mühüm yer tutur. Bu janr xalq yaradıcılığını və dünyanı əski düşüncə kanonlarında əks etdirən təhkiyə üsuludur. Qədim zamanlarda yaranıb formalaşan bu heyrətamiz folklor nümunələrində onu yaradan xalqın mifoloji görüşləri, inam və etiqadları, arzu, istək və xəyalları öz əksini tapmışdır.

Özünəməxsus tarixi inkişaf yolu keçmiş nağılları tədqiqatçılar əsasən, üç mövzu üzrə təsnif etmişlər:

1. Heyvanlar haqqında nağıllar
2. Sosial-məişət nağılları
3. Sehirli nağıllar

Sehrli nağıllar xalq arasında daha geniş yayılmışdır. Bu qrupa daxil olan nağılların əsas xüsusiyyətləri aşağıdakılardır:

a) Süjet xətti çoxşaxəli və macəra xarakterlidir
b) Sehr, cadu, tilsim hadisələrin canını təşkil edir
c) Qəhrəman qarşısına çıxan maneəni sehirli qüvvə və əşyaların köməyi ilə aradan qaldırır
ç) Sehrli nağıllarda fantastik düşüncə tərzi üstünlük təşkil edir

Məlum olduğu kimi, Azərbaycan nağıllarının semantik cəhətdən zəngin növü sehrli nağıllardır. Epik ənənəyə uyğun olaraq sehrli nağıl qəhrəmanları öz düşmənləri üzərində sehrin, cadunun, əfsunun və möcüzəli əşyaların köməyi ilə qələbə çalırlar. "Göründüyü kimi sehrli nağıllar qeyri- adi hadisələrlə zəngindir. Mürəkkəb quruluşa malik olan bu nağıllarda mifik təsəvvürlər özünəməxsus bir şəkildə əks olunmuşdur. Bu təsəvvürlər inkişaf prosesində tədricən aradan çıxır. Ancaq nağıl estetik məzmununu itirmədən bədii əsər kimi xalqın yaddaşında bu gün də yaşayır." [2, s.43].

Hələ qədim dövrlərdə ibtidai insanlar ətraf aləmdə baş verən obyektiv həyat hadisələrinin yaranma səbəblərini öyrənmək istəmişlər. Lakin onlar təbiət hadisələrinin elmi qanunauyğunluqlarını dərk edə bilmədikləri üçün həmin hadisələr haqqında ilkin mifləri yaratmağa başlamışlar. Unutmaq olmaz ki, mioloji görüşlərsiz heç bir xalqın qədim tarixi və mədəniyyəti yoxdur.

Klassik Alman fəlsəfəsində obyektiv idealizmin görkəmli nümayəndələrindən biri Fridrix Şellinq "Tassendental idealizm sistemi" adlı məşhur əsərində yazırdı: "Millət öz əfsanələri ilə doğulur. Kollektiv fəlsəfənin ifadəsi olan düşüncə birliyi xalq nağıllarında, əfsanələrində yaşayır və beləcə mifologiya millətin taleyini yaradır" [5]. Dünya xalqlarının tarixi taleyində müstəsna rol oynamış mifoloji şüur və düşüncə eyni ilə Azərbaycan xalqının da bədii təfəkkür tərzinin formalaşmasına güclü təkan vermişdir. Nəticədə mifdən-nağıla keçid mərhələsi başlamışdır. Odur ki, sehrli nağılların vahid süjet xətti qurularkən xalqın əski təsəvvürlərinə söykənən yaradıcılıq elementləri ilə zəngin olan miflərdən və rituallardan istifadə olunmuşdur. Tədqiqatçı Ramazan Qafarlının təbirincə desək, sehrli nağılların ilkin çağlarda "*mif qazanında qaynadıldığı*"[6, s.217] fikri daha inandırıcı səslənir. Epik ənənəyə uyğun olaraq sehrli nağıllarda fantastik düşüncə tərzi üstünlük təşkil edir. Eyni zamanda, nağılda iştirak edən obrazlar içərisində fövqəladə güc sahibi olan divlər, əjdahalar və digər tilsimlənmiş mifoloji varlıqlar iştirak edir. Əksər Azərbaycan sehrli nağıllarında iştirak edən mənfi obrazları şərti olaraq iki qrupa ayırmaq mümkündür:

a) Sehrli aləmlə bağlı şər qüvvələri təmsil edən obrzlar- div, əjdaha
b) Real aləmlə bağlı şər qüvvələri təmsil edən obrazlar- şah, ögey ana

Adətən, sehrli aləmlə bağlı obrazlar- qəhrəmanlıq süjetləri üçün səciyyəvi personajlardır. Bu personajlar içərisində işləkliyi ilə diqqət çəkən mifoloji obrazlardan biri də divdir. Div surəti Azərbaycan sehrli nağıllarında daha çox şər qüvvələri təmsil edir. Sehrli nağıllarda təsvir olunduğu kimi divlər nəhəng, qüvvətli, qorxunc sifətli insanabənzər üç və qırxbaşlı məxluqlar kimi göstərilirlər. Möcüzəli gücə malik olan divlər başdan- ayağa tilsimli verilir. Yalnız sehrli aləmlə və ya sehrli əşyalara sahib olan nağıl qəhrəmanları divləri məğlub etmək gücünə malik olurlar. Gözəl qızların onlar tərəindən oğurlanaraq əsir alınması motivinə onlarla sehrli nağıl süjetlərində rast gəlmək mümkündür. Eyni zamanda divlərə səmavi dinlərdə və digər əski inanclarda bir sıra işarələr edilmişdir. Güman edilir ki, divlər ilk insan yaradılışından əvvəl yaşamışlar. Onlar insana bənzəməyən qorxunc məxluqlardır. Divlər hətta, nəhəng bədənləri ilə səmada uçaraq dünyanı dövrə vururlar. *Mifi gerçəkliyə doğru atılan addım*[6, s. 215] adlandıran tədqiqatçılar həqiqətən yanılmamışlar. Çünki mif özlüyündə hansısa bir tarixi mərhələnin başlanğıcına qədərki

hadisələrdir. Deməli, tarixin hansısa dönəmində nəhənglər erası olmuşdur. İlk çağ dövrü insanlarının mifoloji düşüncəsində xaosun daşıyıcısı, qaranlıq dünyanın təmsilçisi kimi demonik varlıq olan divlərin mövcud olması fikri yanlış olmaya bilər. Çünki Bu kimi fikir və mülahizələri təsdiq edən dini və tarixi mənbələr mövcuddur. Yuxarıda göstərdiyimiz mifik div obrazı bir çox sehirli Azərbaycan nağıllarında öz əksini tapır. Bu nağıllar içərisində "Yetim İbrahim və sövdəgər," "Cəlayi-vətən," "Haxnəzər," "Tapdıq," "Kəl Həsənin nağılı," "Məlikməmməd," "Reyhanın nağılı," "Yeddi qardaşlar" və b. Bu tipli nağıllarda əsas hadisələr gözəl qızların div tərəfindən oğurlanmasından sonra başlayır. Tarixi nağılçılıq ənənəsinə uyğun olaraq Azərbaycan nağılları özünəməxsus forma xüsusiyyətlərinə malikdir. Minilliklər boyu xalq sənətkarları adlandırılan nağılçılar tərəfindən kamilləşən bu forma nağılların müqəddimə hissəsidir ki, bu hissə folklorşünaslıqda **pişrov** adlanır. Bu baxımdan qeyd edək ki, "Barxudarın baxtı" nağılı da maraqlı pişrovla başlayır. "Biri var idi, biri yox idi. Yaradan bir idi, bəndəsi çox idi. Barxudar dəryadan balıq tutmaqla güzəran keçirərdi. Günlərin bir günü işdən evə yorğun qayıdarkən o bir dərvişlə qarşılaşır. Dərviş Barxudara dedi:

-Niyə fikirlisən? Al, bu qızıl bıçağı, apar ver padşahın qızı Ülkərə, muradına çatarsan. Ülkər bıçağı alan kimi dedi:

-Barxudar, daha durmaq vaxtı deyil, hazırlaş gedək. Onlar gedib başqa bir padşahın ölkəsində yaşamalı olurlar. Bir gün eyvanda oturub yoldan tapdıqları qiymətli ləl daşına baxarkən o şəhərin padşahı Ülkəri görüb ona vurulur və vəzirinə deyir:

-Vəzir, qızı almaq üçün tədbir tökmək lazımdır.

Vəzir dedi:

-Ləl daşını mahna eləyib, qızı almaq olar. Padşah hökm elədi. Barxudarı saraya gətirdib soruşdu:

-O səndəki ləl daşını mənim xəzinəmdən oğurlayıbsan, boynuna al, yoxsa səni öldürtdürəcəyəm. Barxudar dedi:

-Şah sağ olsun, belə qırmızı böhtan olmaz. Mən bu daşı döylər torpağında bir bulaqdan tapmışam. Padşah Barxudara on gün möhlət verib azad elədi ki, o daşdan yenə gətirsin. Barxudar evlərinə gəldi. Əhvalatı Ülkərə söylədi. Ülkər dedi:

-Sən get, tanrı sənə yar olsun. Bir də divlərin əlində mənim bir bacım var onu dev götürüf aparıb. Bəlkə ona rast gəldin. Özün ilə gətir. Az getdi, çox getdi, getdi bir suya çatdı. Axırda o ləl daşından beşini tapdı, götürdü. Barxudar suyuxarı gedib dərənin boğazında bir mağaraya çatdı. İçəri girdi, gördü bir taxt qoyuluf. Üstə bir gözəl qız yatıf. Barxudar düşündü ki, yəqin bu qız Ülkərin bacısıdır. Barxudar ha çığırdı ki, qız oyansın, qızdan cavab çıxmadı. Başa düşdü ki, qızı huşa aparan bu daşdır. Barxudar bir yana çəkilib gizləndi. Çox keçmədi göy guruldadı, ildırım çaxdı, bir div göydən yerə düşdü. Qız yatan taxtın baş ucunnan bir qamçı götürdü, lələ vurdu. Ləl göyə çəkildi, qız ayıldı. Barxudarı görüb dedi:

-Ey oğlan sən kimsən, buraya niyə gəlifsən? Barxudar özünün və Ülkərin əhvalatını ona söylədi. Qız dedi:

-Məni aparmaq üçün bu devi öldürmək lazımdır. Mən devdən xəbər aldım: sənin canın hardadır. O acıqlanıb dedi: mənim canım şüşə içərisində bir quşdur. Hər kimdə Süleyman peyğəmbərin üzüyü olsa, o gedib üzüyü suya salsa, mənim canımı ələ gətirə bilər. Barxudar dedi:

-Bacın gələndə o üzüyü mana verif. Dur gedək. Getdilər su kənarına, üzüyü suya saldılar. Bir şüşə gəldi. Şüşəni qırdılar, bir quş çıxdı. Barxudar quşun boğazını üzüb atdı. O saat dev göydən düşüb öldü. Barxudar özü ilə xeyli ləl daşı götürüb, qızla bərabər evlərinə gəldi. Şad- xürrəm yaşadılar" [1, s. 208]

Göründüyü kimi, istər dini, istərsə də tarixi mənbələrdə Süleyman peyğəmbərlə bağlı yetərincə məlumatlar mövcuddur. Bu məlumatların əfsanə və nağıl kimi folklor janrlarına transfomasiyası müsbət hal kimi dəyərləndirilir. Miladdan öncə 989-931-ci illərdə yaşamış Süleyman peyğəmbərə məxsus olan üzük, xalça və güzgü kimi sehirli əşyaların divlərlə birgə nağıllarımızda iştirakı maraq doğurur. Yuxarıda adlarını çəkdiyimiz obraz və əşyaların hamısı "Barxudarın baxtı" adlı nağılda öz əksini tapıb. Məqalənin mətnində həmin nağıldan nümunə verildiyi üçün, təkrar yazmağı lazım bilmədik.

"Hanok kitabının (kononik müqəddəs kitablardan sayılmayan qeyri-dini kitab) verdiyi bilgiyə görə Nuh peyğəmbər də doğularkən adı çəkilən divlərlə eyni özəlliklərə sahib olmuşdur. 1976-cı ildə isə məşhur antropoloq Mary Çatlaq Laetoli Tanzaniyada yetmiş iri insan ayağının izinə rast gəlib [4].

XIX əsrin qırxıncı illərində Qrim qardaşları "Mifoloji məktəb" adlı nəzəriyyə irəli sürmüşlər. Bu nəzəriyyənin əsasında miflə nağılların bağlılığı dururdu. Miflə nağılın bağlılığını göstərən əsas cəhətlərdən biri də odur ki, sakral aləmdə baş verən hadisələr zamanı məkan və zaman kateqoriyaları mifikləşir.Tanınmış rus folklorşünası Propp miflərlə nağıllar arasındakı fərqi onların məzmun və formasında deyil, mənşəyində görürdü. Miflə nağılı bir-birindən fərqləndirən əsas cəhətlərə nəzər salaq; Mif-gerçəkliyin dərk olunmasına doğru atılan addımdır. Ona görə də miflərdə *hansı səbəbdən və necə yaranıb?*[6, s. 215] sualına cavab axtarılır. Nağıllar isə xalq epik ənənəsinin tələblərinə uyğun biçimlənmiş

təhkiyə formasıdır. Miflərdə süjetin özü olmur. Yalnız onu təşkil edən detallar olur. Nağıllar isə bir qayda olaraq hazır mif modelləri üzərində qurulur. Bir sözlə "*mif nağıllara keçəndə obrazlaşır, zənginləşir və bədiiliyin əksolunma mexanizminə çevrilir*" [6, s. 216]. Avropada folklorşünaslıq elminin təşəkkül tapdığı vaxtdan etibarən nağılların mənşəyi məsələsi tədqiqatçıların diqqət mərkəzində olmuşdur.

Azərbaycan folklorşunaslığında isə nağılların mənşəyinin tədqiq olunması işi alim-yazıçı Yusif Vəzir Çəmənzəminli və Məmmədhüseyn Təhmasibin adı ilə bağlıdır. Məhz bu səbəbdən də biz tədqiqat zamanı hər iki alimin araşdırmalarına müraciət etməli olduq. Bu sıradan Təhmasibin 1946-cı ildə yazmış olduğu "Azərbaycan xalq ədəbiyyatında div surəti" adlı məqaləsində mifik div obrazı haqqında gəldiyi son nəticə belədir; "*Divlərin əsatiri bir surət olmaq etibarilə, daha qədim əsatirdə bugünkünün tamamilə əksinə olaraq xeyirxahlıq qüvvəsi hətta, işıq-günəş və musiqi ilahəsi olduğu aydın görünməkdədir. Bu deyilənlərin daha çox əksini ifadə edən bir surətə çevrilməsinin səbəbi zərdüştlük və Avestadır. Deməli,* ***zərdüştlük*** *adlı yeni dini-fəlsəfi dünyagörüşünün təsiri nəticəsində daha əski mifoloji çağda günəşlə əlaqədar xeyirxah qüvvələrdən biri olan div, zülmətin yaradıcısı hesab edilən şər qüvvəsinə çevrilmişdir.*"[7, s. 92]. Biz bu mövzuda alimin apardığı tədqiqat işinin nəticələri ilə həmfikirik. Mifik obrazlar mifoloji mətnlərdən başlayaraq əfsanə, əsatir və nağıllarımızda hələ də öz izini qoruyub saxlamaqdadır. Əslində mifologiya insan həyatının yaşam kodlarıdır. Aparılan tədqiqat işinin nəticəsi bizə bunu deməyə əsas verir ki, Azərbaycan xalq nağıllarında təsvir edilən div obrazları real həyatda baş verən qüsurların mifoloji düşüncədə mifik təzahürüdür.

Ədəbiyyat

1. Azərbaycan nağılları. Beş cilddə: I c. Bakı: Şərq-Qərb, 2005, 3660 s.
2. Əliyev O. Azərbaycan nağılları: janr, süjet və obraz problemləri. Bakı: Elm və təhsil, 2019, 304 s.
3. Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman. Bakı: Elm və təhsil, 2017, 116 s.
4. https://tr.wikipedia.org/wiki/Hanok_kitab%C4%B1
5. https://www.wikiwand.com/az/Fridrix_%C5%9Eellinq
6. Qafarlı R. Mif, əfsanə, nağıl və epos (epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU-nun nəşri, 2011, 780 s.
7. Təhmasib M. Azərbaycan xalq ədəbiyyatında div surəti. Vətən uğrunda (Azərbaycan sovet yazıçıları itttifaqının bədii ədəbiyyat, incəsənət və ictimai-siyasi məcmuəsi) Bakı, 1946, 280 s.

РЕЗЮМЕ

МИФИЧЕСКАЯ СЕМАНТИКА ОБРАЗА ДИВА В АЗЕРБАЙДЖАНСКИХ СКАЗКАХ

Искандеров Б.А.

Ключевые слова: *миф, сказка, жанр, фольклор, образ, сюжет, Авеста*

В статье азербайджанские народные сказки представлены как образцы богатого мистикой фольклорного жанра, отражающие мир в канонах древнего мышления. Одновременно раскрываются основные характеристики, указывающие на связь между мифами и сказками. В связи с темой исследования были изучены взгляды мировых и азербайджанских исследователей, и раскрыта суть волшебных сказок, опирающихся на эпические традиции. В статье на основе научных фактов раскрывается мифическая семантика дивов – обладателей сверхсилы в сказках.

SUMMARY

MYTHIC SEMANTICS OF THE IMAGE OF THE GIANT IN AZERBAIJANI FAIRY TALES

Iskanderov B.A.

Key words: *myth, fairy tale, genre, folklore, image, plot, Avesta*

In the article, Azerbaijani folk tales, which reflect the world in the canons of old thought are presented as examples of rich folklore in mysticism. At the same time, the main aspects showing the connection between myth and fairy tale are clarified. In connection with the research, the opinions of the researchers of the world and Azerbaijan were studied, and the essence of magical tales with an epic tradition was revealed. During the research, the mythical semantics of giants with extraordinary power in fairy tales are investigated and interpreted with scientific facts.

HÜSEYN CAVİD YARADICILIĞINDA MİFOLOJİ MOTİVLƏR

Babayeva A.N.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

aynure.nizamiqizi@mail.ru

Açar sözlər: *Hüseyn Cavid, mifopoetik obrazlar, Tanrı, insan, İblis, Mələk, bəşəri dəyərlər*

Dünya xalqları mifologiyasına nəzər yetirsək, görərik ki, onun əsas tədqiq obyekti yaradılış, Tanrı, insan, mələk və s. olmuşdur. Dilindən, dinindən, rəngindən və dünyaya baxışından asılı olmayaraq, insanlar onları idarə edə bilən fövqəl gücün varlığına inanmışlar. İlk dəfə Antik ədəbiyyatda Hesiod və Homer qalaktikada məskunlaşan ağıllı məxluqların dörd növü – Tanrılar, İblislər, qəhrəmanlar və insanlar haqqında bəhs ediblər. Bu baxımdan, ümumi şüurun kateqoriyası olan, başlanğıcı və sonu olmayan mif ədəbiyyata mövzu, ideya, motiv verməklə yanaşı, həm də müəllifin dərketmə prosesini ifadə edir.

XX əsrdən başlayaraq mifoloji motivlərdən sıx şəkildə qaynaqlanma bədii-fikri şərtilik kimi ədəbi problemlərin həlli vasitələrindən birinə çevrilir. E.M.Meletinski çox doğru qeyd edir ki, "mifologizm həm bədii priyom, həm də onun arxasında dayanan dünyaduyumu kimi XX əsr ədəbiyyatının səciyyəvi hadisəsidir" [8, 295]. Pərvanə İsayeva isə bu prosesi belə ifadə edir: "Dünyanın bir mif kimi qavranılması şəkli olaraq "mifologizm" bu dövrün simvolik poetikasının başlıca cizgisinə çevrilir ki, bu zaman mif də kamil bir sənət əsəriylə eyniləşdirilir [4, s.38].

Milli və bəşəri ideyaları özündə birləşdirən Hüseyn Cavid yaradıcılığı bəşəriyyətin həqiqət axtarışına – mənəvi dəyərlər konseptinin təhlilinə həsr edilmişdir. Dostoyevski kimi mənəvi gözəlliyin gücünü dərk edən Cavid yaradıcılığı utopik dünya arzusu ilə xeyir və şərin mübarizəsini təsvir edir. Ateizmi təbliğ edən bir dövrdə totalitarizmə boyun əymədən milli özünüdərki ifadə edən mifopoetik obrazlardan istifadə, Tanrı – insan – İblis fələsəfəsini açmaq, tarixi, bəşəri mövzulara müraciət H.Cavidin dahi sənətkarlığının bariz sübutudur.

"İnsanlığın daha ilkin və ümumi təsəvvür forması"nı [6, s.106] özündə əxz edən mifopoetik obrazlar "psixi gücün simvolik ifadəsi"dirlər [9, s.18].

Sakrallığa, dini inanclara söykənən Tanrı obrazı ilə Hüseyn Cavid Hegelin Tanrı – insan, insan isə Tanrıdır fəlsəfi fikrini təsdiq edir. Şair Tanrı sevgisini ucaldır, fövqəl bir hiss kimi təsvir edir. Onun üçün Tanrını sevmək bəşəriyyəti, insanları sevmək, dəyərləndirməkdir.

Avtandil Ağbaba və Dəyanət Cümənov "Azərbaycan mifologiyası" kitabında Tanrı/Tenqri sözünün türk kosmoqonik mifi ilə əlaqəli olduğunu qeyd edirlər. Deməli, H.Cavid türk mifik təfəkküründən qaynaqlanaraq Tanrını müqəddəsləşdirir (Ey mərhəmət kanı, ey ulu Tanrı! Ey yerlərin, göylərin hökmdarı! [2, s.7]; Dünyaları yoqdan yaratan, ey ulu Tanrı! Ey xaliqi-hikmət! [3, s.8], eyni zamanda insanla eyniləşdirir. O, "Azər" poemasında yazır:

Dəyişirkən, əvət bəşər qafası,
Dəyişir Tanrının da siması [1, s.155].

Şair-dramaturq Azərin dili ilə camaata cənnət vəd edib, cəhənnəmlə qorxudub onların qəlblərinə xof salan şeyxə etirazını bildirir.

Kəndi əxlaqı sönükkən həpsi
Yeltənir verməyə əxlaq dərsi.
Sadə minbərdə deyil, çoq yerdə
Göz boyar həp şu qaranlıq pərdə [1, s.154]

– deyə hayqıran Azər cəhalətə qarşı çıxır. O deyir ki, zaman dəyişdikcə insan və insanın siması olan Tanrı haqqında fikirlər bu qədər bəsit, cılız olmamalıdır. "Səni hər kim doyursa Tanrın odur" [1, s.156] – deməklə Hüseyn Cavid kin, ədavət, ölümlə bəslənənlərin "Tanrısını" qəbul etmir.

"Bənim ən sevgili, eşsiz Tanrım Gözəlim, həp sənsin" [1, s.169] fikrində biz bir daha insanın Tanrı səviyyəsində eyniləşməsinin şahidi oluruq. Deməli, Cavid əfəndi üçün Tanrı həm də sevgidir, məhəbbətdir. Bu ideyanı biz "Şeyx Sənan" pyesində də görürük. Şair Zəhranın dili ilə Şeyx Sənanı "sən xaliqi-fəzilətsən" [2, s.106] adlandırmaqla öz fikrini bir daha təkrarlayır:

Kim ki, Allahı istiyor görmək,
Arasın qəlbi-tabnakində,
Arasın kəndi ruhi-pakində,
Hər kimin qəlbi, ruhu düzgündür,
Daima hiss edər də haqqı görür.
Feyləsufanə ruha malik olan
Yaşamaz ayrı hərgiz Allahdan [2, s.113].

Yuxarıda verilmiş parçadan da görünür ki, Hüseyn Cavid insana Tanrını görmək üçün qəlbinə baxmağı məsləhət bilir. Ona görə vicdanı, qəlbi düz olan kəs ruhunda bir Tanrı gəzdirir. Məhz bu ruhun nəticəsində kainat sevgiyə bürünə bilər.

H.Cavid yaradıcılığında bədii kamilliyə çatmış mifopoetik xüsusiyyətə malik İblis obrazı bir sənət möcüzəsi kimi əbədi ad qazanmışdır. Dünya ədəbiyyatının demonundan geri qalmayaraq ideal və reallıq arasında baş verən ziddiyyətlərdən doğan lirik-fəlsəfi, psixoloji, mifik düşüncələri özündə qovuşdurur.

Babil əfsanələrindən qaynaqlanan, Tanrının əmrini rədd edib, etiraz edən İblis bir çox əsərlərdə Şəri təmsil edir. Bədii ədəbiyyatda ilk dəfə İblis və insan qarşıdurması Con Miltonun "İtirilmiş Cənnət" əsərində təsvir edilmişdir. Bir zamanlar mələk olan, lakin sonra itaətsizliyinə görə Tanrı tərəfindən cənnətdən qovulmuş bu varlıq qəzəbini insana göstərmə qərarını verdikdən sonra dünya get-gedə qaranlığa bürünməyə başlayır.

Ya Rəb, azacıq lütfü inayət!
Qəhr olmada artıq bəşəriyyət.
Başdan-başa həp yer yüzü vəhşət,
İblis ilə həmrəngi-siyasət [3, s.8].

Bu parçada biz Mələyin çarəsiz çığlıqlarını eşidirk. "İblisəmi uymuş bəşəriyyət" [3, s.8]. ifadəsində isə dərinlərdə gizlənmiş bir qorxu hiss edilir. İblis isə cavan canların qatili olan müharibənin fonunda insana baxıb sevinir:

Sellər kibi aqmaqda qızıl qan,
Canlar yaqar, evlər yıqar insan...[3, s.8].

Hüseyn Cavid bu misralara inamını, sevgisini itirmiş insanı İblisə bənzədir.

Ev yıxıb, qan içməyə adət etmiş insanların törətdiklərinə dözməyən Arif üzünü Tanrıya tutub deyir:

Ver, bir buyuruq ver də cəhənnəmlər açılsın,
Coşsun, bütün atəşləri dünyaya saçılsın.
Yaqsın da, şu zalım bəşərin yurdunu yıqsın,
Həp yer yüzü bir ah olaraq göylərə çıqsın [3, s.11].

Hüseyn Cavid yaradıcılığında tez-tez insanı iblis və mələklə qarşılaşdırır. Bununla o, insanın xeyir və ya şər dolu düşüncələrini, qəlbində alovlandırdığı hissləri təqdim edir. İnsan qəlbinə şübhə, inamsızlıq toxumu səpməklə İblis onu özünə bənzədir. Hər şeyi özü üçün istəyən, yalnız öz mənafeyini fikirləşən insan içində olan bütün gözəl hisslərin qatilinə çevrilərək bəşəriyyətin sonunu yaxınlaşdırır. Mahirəbələr bunun təsdiqidir. Deməli, həyat dağıdıcı qüvvəyə malik iblisləşmiş insanlarla mərhəmət, rəhm, sevgi dolu mələkləşmiş bəşər övladı arasında baş verən mübarizənin döyüş meydanıdır. "Hüseyn Cavid romantizminin mifik qəhrəmanı – İblis" adlı məqaləsində Sona Vəliyeva oxucunun qarşısına çox maraqlı bir sualla çıxır: "Qovulacaq İblis haradadır, kimdir?" [7]. Şairə görə iblis də, mələk də insanın ruhundadır. Yalnız mənən zəngin, sevgi dolu kamil insan bu mübarizənin qalibi ola bilər. Bu halda iblis məğlub olub öz qaranlığına çəkiləcək. Əsərdə mifik aləmi İblis və mələk təsvir edirsə, gerçəkliyi, bəşəriyyəti Arif, İxtiyar, Xavər, Rəna, Vasif, Elxan, İbn Yəmin və digərləri əks etdirir.

Fəlsəfi məzmunun dərinliyinə və bədii sənətkarlıq xüsusiyyətlərinə görə "İblis" əsəri haqlı olaraq Dantenin "İlahi komediya", Servantesin "Don Kixot", Hötenin "Faust", Bulqakovun "Master və Marqarita"sı və digər "bəşəriyyətin əbədi yoldaşları" ilə bir sırada yer alır. Qeyd olunmuş əsərlərin hər birində iblis özünü Tanrıya tay tutur və manipulyatordur:

Əvət, İblis, o böyük sənətkar
Həm yapar, həm də yıqar, qüdrəti var [3, s.32]

və ya

Bəndən imdad umuyor cümlə cihan,
Biri zalım, biri məzlum insan [3, s.34]

Hüseyn Cavid bu mifik obrazlarla göstərməyə çalışır ki, insan, əsasən, qəlbinin bəhrəsini görür. Sevginin söndüyü ruh Tanrıdan dönərək özünü atəşə atmış olur.

Şərqin əsəbi çöhrəsi bilməz ki, nə yapsın,
Bilməz ki, sağır göylərə, yaxud bana tapsın [3, s.83]

İntiqam, nəfs, ehtiras, mənəmlik və s. kimi hisslər insanı iblisə çevirər və ətrafı qaraya sarar. Bu səbəbdən də, şair demək istəyir ki, ruh insan sevgisindən xalidirsə, ona ya Tanrı, ya da iblis neyləsin. O, mifik düşüncədən istifadə etməklə dünyanın düzəninin pozulmasına məhz insanların bais olduğunu vurğulayır. Hüseyn Cavidə görə qəlbində mənfi və müsbət xüsusiyyətlərin toxumunu cücərdən insan Tanrını və iblisi başqa yerdə aramamalı, problemlərin kökünü tapmaq üçün ruhunun dərinliyinə enməli, istəklərinə, hisslərinə reallıq və ideal prinsipindən nəzər yetirməlidir.

Ustad şair, dramaturq öz yaradıcılığı ilə bəşəri problemlərin alt laylarını bədii-lirik, fəlsəfi şəkildə şərh edir və şəxsi mövqeyini əks etdirir, əbədi sualların cavablarını oxucuya təqdim edir, hamını öz qəlbindəki iblisə "yox" deməyə dəvət edir. Onun bu fikirləri sufi təriqətinin kamil insan fəlsəfəsi ilə səsləşir.

Ədəbiyyat

1. Hüseyn, C. Əsərləri. Beş cilddə. I c. Bakı, "Lider nəşriyyat", 2005, 256 səh.
2. Hüseyn, C. Əsərləri. Beş cilddə. II c. Bakı, "Lider nəşriyyat", 2005, 352 səh.

3. Hüseyn, C. Əsərləri. Beş cilddə. III c. Bakı, “Lider nəşriyyat”, 2005, 304 səh.
4. İsayeva, P.B. XX əsr Azərbaycan ədəbiyyatının bədii strukturu və mifopoetik təfəkkür (nəsr və dramaturgiya əsasında): filol.e.d-ru a. dər. al. üçün təq. ed. dis. / - Bakı, - 2016. – 231 s.
5. Mehmedoğlu, A.U. C.G.Jung’un Tanrı Anlayışı // Toplum Bilimleri Dergisi,– № 7 (14), – 2013, – s. 15-26
6. Sultanova X.R. XX yüzil Azərbaycan poeziyasinda mifopoetik ənənə: filol.e.d-ru a. dər. al. üçün təq. ed. dis. / - Bakı, - 2022. – 314 s.
7. Vəliyeva S. Hüseyn Cavid romantizminin mifik qəhrəmanı – İblis // https://sonavaliyeva.com/az/read/375/
8. Мелетински, Е.М. Поэтика мифа / Е.М.Мелетински. – М.: Наука, - 1976. – 408 s.
9. Юнг, К. Архетип и символ / К.Юнг. – М.: Наука, – 1991, – 343 с.

РЕЗЮМЕ
МИФОЛОГИЧЕСКИЕ МОТИВЫ В ТВОРЧЕСТВЕ ГУСЕЙНА ДЖАВИДА
Бабаева А.Н.

Ключевые слова: *Гусейн Джавид, мифопоэтические образы, Бог, человек, Дьявол, Ангел, общечеловеческие ценности.*

Борьба добра и зла, составляющая основу изначальной мифологической мысли, навеки останется одной из главных тем художественной литературы. По этой причине обращение поэтов и писателей к мифу является естественным.

Гусейн Джавид, в поисках истины, строит мост между прошлым, настоящим и будущим, используя образы, принадлежащие мифологическому и мистическому миру. Он дает художественно-философское объяснение человеческих и духовных проблем через мифопоэтические образы, такие как Бог, человек, демон, ангел, фея. Для него человек отдается Богу или Дьяволу своего сердца.

SUMMARY
MYTHOLOGICAL MOTIFS IN THE WORK OF HUSEYN JAVID
Babayeva A.N.

Key words: *Huseyn Javid, mythopoetic images, God, man, Devil, Angel, all mankind values.*

The struggle between good and evil, which forms the basis of the original mythological thought, will forever remain one of the main themes of fiction. For this reason, the appeal of poets and writers to myth and primordial is considered appropriate.

Huseyn Javid, in search of truth, builds a bridge between the past, present and future, using images belonging to the mythological and mystical world. He gives an artistic and philosophical explanation of human and spiritual problems through mythopoetic images such as God, man, demon, angel, fairy. For him, a person surrenders to God or the Devil of his heart.

ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEVİN “ŞEYX ŞƏBAN” HEKAYƏSİNDƏ MÜƏLLİF TƏHKİYƏSİ VƏ PORTRET YARATMAQ USTALIĞI

Əhmədov Q.H.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
qara_ahmedov-66@mail.ru

Açar sözlər*: obraz, təhkiyə, portret, ideya, hekayə*

XX əsr Azərbaycan nəşrində yeni bir ədəbi mərhələnin əsasını qoyan Əbdürrəhim bəy Haqverdiyevin hekayələri ideya mündəricə xüsusiyyətləri ilə klassik sənət nümunələri sayılır. Yazıçının hekayə yaradıcılığı novator məzmunu, sənətkarlıq axtarışları ilə Azərbaycan ədəbiyyatı tarixində yeni bir ədəbi hadisə kimi qiymətləndirilir. Bir qayda olaraq Ə.Haqverdiyevin novatorluğundan söhbət açanda ilk növbədə onun hekayələrində qoyduğu problemlər, bu problemlərin bədii axarında yaratdığı obrazlar aləmi yada düşür. Yazıçının obraz yaratmaq ustalığı həm müəllif təhkiyəsinin, həm də monoloq və dialoqların özünəməxsus epik detallaında üzə çıxır. Yazıçı obrazı təqdim edərkən elə etnoqrafik cizgilərdən, yığcam, akin mənalı cizgilərdən istifadə edir ki, obrazın zahgiri görünüşünün və hərəkətlərinin təsviri həm də onun daxili aləmini, iç dunyasını üzə çıxarır. Oxucu ilk sətilərdən obrazın xarakterik əlamətlərinn təsvirində yazıçının istedadına, diqqətcil müşahidəsinə istər-istəməz heyran olur. Ciddi və həyati səhnələr, cəmiyyətdəki konfliktlər, insan mənəiyyatındakı təzadlar Ə.Haqverdiyevin hekayələrininməzmununda klassik ənənəyə çevrilir və aparıcı istiqaməti ilə həm cəmiyyətin sosial problemləri, həm də şəxsiyyətin, ayrı- ayrı fərdlərin mənəvi böhranların təmkinli və rəvan bir tıhkiyə üslubun da oxucuya çatdırır.

“Azərbaycan bədii nəşr sənətində Ə.Haqverdiyevin sayca az, sambalca güclü olan hekayələrinə haqlı olaraq klassik nümunələr kimi baxılır. Bu əsərndə xalq dilinin canlı, orijinal xüsusiyyətləri həmişə aşkar görünür və hörmətlə qarşılanır” [4, s.182].

Cəhalət və nadanlıq dünyasının mənəvi prinsiplərindən əziyyət çəkən sadə insanlar (Şeyx Şəban, Gülsüm, Mirzə Cavad, Mirzə Cəfər və b.) canlı məişət hadisələrinin təsvirində bütün təfərrüatları ilə təsvir edilir. Görkəmli ədəbiyyatşünas alim Mir Cəlal XX əsrin əvvəllərindəki Azərbaycan ədəbiyyatında gedən üslubi mübarizədən danışarkən Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığını “Molla Nəsrəddinin” jurnalında çap olunan nəşr əsərləri ilə ideya-mündəricə baxımından yüksək qiymətləndirərək yazır: “Haqverdiyev və Molla Nəsrəddinin, eləcə də, Axundovun məişətimizdən yazması əbəs deyildi. Köhnəliyin, konservatizmin rışələri burada, uzun əsrlər elm, mədəniyyət işığından uzaqda qalan bu qaranlıq guşədə daha möhkəm idi. Məişəti yenilik ordusu ilə fəth etmək, ümumiyyətlə, feodal-fanatik zehniyyətin minillik qalasını yıxmaq-bağlanmış gözləri, zəncirlənmiş ayaqları inqilaba doğru açmaq idi. Elə də oldu” [3, s.9].

Köhnəliyin ifşası yeniliyin təntənəsi onun hadisə və portretlərin təsviri maraqlı forma və üsullarla əks olunur. Portret hekayələrində oxucunun diqqəti obrazın üzərinə cəmləşir, onun daxili aləmi, psixoloji durumu və s. xüsusiyyətlər əhəmiyyətli dərəcədə oxucuda obraz haqqında ətraflı təsəvvür yaradır. Yazıçı “Şeyx Şəban” hekayəsində onun bədii portretini elə böyük ustalıqla yaradır ki, oxucu nəinki obraz haqqında geniş məlumat alır, eləcə də obrazın yaşadığı cəmiyyət, həmin cəmiyyətin adət-ənənələri, xalqın milli məişəti barədə dolğun təsəvvürə malik olur. “Şeyx Şəbanı tanıyırsınızmı?“ sualı ilə başlayan hekayənin ilk sətirlərindən Şeyx Şəbanın pinəçiliklə məşğul olub ”fəqir-füqaranın ayaqqablarını yamaması” haqqında yığcam təsvirdən sonra, “bir toiyun, bir ehsanın onsuz keçmədiyindən”, “ muzdsuz filansız günorta və axşam azan verməyini özünə borc bilməsindən” müəllif elə səmimi söhbət açır ki, sujetin sonrakı mərhələsində onun portreti tam mənası ilə çəkilib təqdim olunur. Şeyx Şəban gödək boylu, uzun saqqallı bir kişi idi. Baharda, yayda aba bürünərdi və qış fəslində çiyninə bir Xorasan kürkü salardı. Bir nəfər deyə bilməzdi ki, mən Şeyx Şəbanın saqqalının dibini zərrəcə ağarmış görmüşəm. Heç Şeyx Şəban elə adam deyil idi. Otuz il bir əbada gəzməyi, qırx il bir kürkə bürünməyi qəbul edirdi, amma saqqalına rəng və hənadan korluq verməzdi” [1, s.179].

“Başmaqçı oğlu Şəban” – ləqəbi ilə tanınan bu obrazın xarakterik cəhətləri, onun zahiri görkəmi və daxili aləmi müəllif təhkiyəsində maraqlı bir harmoniya təşkil edir. Hekayənin əvvəlində mömin bir müsəlman kimi təsvir olunan Şeyx Şəbanın ədəbi-sosial mahiyyəti hadisələrin inkişafında yeni həyati detallarla zənginləşib açılır. Hekayə boyu tez-tez ritorik suallarla oxucuya müraciət edən yazıçı Şeyx Şaban haqqında “ Bəs bu haradan pul qazanırdı ki, toylarda, qumarda, şəfahətlərdə xərc edərdi? ”Ə. Haqverdiyev özünəməxsus ədəbi bir priyomdan istifadə edərək oxucunu nigəran qoyan həmin sualın cavabını bu cür təfsilatlı cümlələrlə cavablandırır: “ Mən də sizdən sual edirəm:- “Bəs Xoca Sərkizin ki, evi yarıldı, yüz put ipəyi getdi, ipəyin pulu necə oldu? Hacı Qafarın dükanı yarıldı, on beş min manatliq malı getdi; o malın pulu kimin cibinə doldu? Baron Arakelin dükanından gedən on min manatlıq cəvahirət necə oldu?

Xülasə nə ərz edim, mədaxil yolu bir deyil idi, beş deyil idi, bu evləri, dükanları yaranların hamısı baçmaqçı Şəban idi” [1, s.3,181].

Bu cür dolğun və mənalı təsvirlər Şeyx Şəban obrazının daha bir daxili cəhətini üzə çıxarır. Hekayənin əvvəlində Şeyx Şəban mömin və əməli saleh bir insan kimi təsvir olunursa yuxarıdakı təqdimatda o, evləri yaran, dükanları soyan bir soygunçu kimi təsvir edilir. Bu təsvir yazıçının portret yaratmaq ustalığının özünəməxsus cəhətlərindən biri kimi orijinal təsir bağışlayır. Əslində Şeyx Şəban bir obraz kimi oxucuda ikrah doğurmur, əksinə bizdə ona qarşı mərhəmət və rəğbət hissi oyanır. Çünki Şeyx Şəbanın təzadlı həyatı cəmiyyətin yaramazlıqları nəticəsində faciəyə çevrilir. Heç bir muzd olmadan günorta və axşam əzan verən Şeyx Şəban baron Arakelin dükanını soyduğuna görə həbs edilib Sibirə sürgün olunur. Sürgün həyatından sonra günlərini məsciddə, qazının hücrəsində onunla söhbətdə keçirən “əmələyi-mövta cərgəsinə” daxil olur. Şəhərdə təmənnasız xidmətləri ilə əhalinin qulluğunda durduğuna, möminliyinə və dindarlığına görə adını Şeyx Şəban qoymuşdular”. Ancaq onun facıiələrindən heç kəsin xəbəri olmur. Arvadı Gülsüm rəhmətə gedəndən uç gün sonra onun öldüyündən xəbər tuturlar. Yəni cəmiyyətdə heç kəs onunla maraqlanmır, onun taleyinə hamı biganə yanaşır.

Şeyx Şəbanın arvadı Gülsümün portreti də eyni ustalıqla yaradılmışdır. Yazıçı Şeyx Şəban kimi onu da təfərrüatlı təsvirlərlə oxucuya təqdim edir: “Şeyx Şəbanın arvadı Gülsüm xala da məhəllədə məşhur idi, çünki yaxşı ruf tuturdu, çöp ötürərdi, noxud falı açardı həcəmət qoyardı, bogaz basardı, nəinki şəhərdən, hətta ətraf kəndlərdən də bogazlarında şöp qalan uşaqları birbaş Gülsüm xalanın yanına gətirərdilər” [1, s.180]. Gülsüm nə qədər ətrafda məşhur olsa da cəhalət girdabından o da xilas ola bilmir, Gülsüm nadanlığın hökm sürdüyü cəmiyyətdə məhv olur. Prof. F.Hüseynov Cəlil Məmmədquluzadənın qadın qəhrəmanlarından bəhs edərkən cəmiyyətin və ictimai quruluşun kölə vəziyyətinə salındığı qadınların həyatını bu cür səciyyələndirir. “Ədib gözünü açdığı vaxtdan anasını, habelə qeyriləri bu cansıxıcı, yeknəsək,

ağır məişət şəraitində, qaranlıq, boğucu mühitdə görmüşdü. O, qadınları, ana və bacıları əsarət zəncirindən xilas edib, işıqlı bir aləmə qovuşdurmaq uğrunda çalışırdı”[2, s.192].

Görkəmli alimin bu fikirlərini Əbdürrəhim bəy Haqverdiyevin özünə və onun qadın qəhrəmanlarına da şamil etmək olar. Yazıçının qadın azadlığı uğrunda mübarizəsi onun ali məqsədlərindən biri olmuşdur.

Ümumiyyətlə, “Şeyx Şəban” hekayəsində Ə. Haqverdiyevin portret yaratmaq ustalığı onun təhkiyəsində xüsusi bir yer tutur.

Ədəbiyyat

1. Haqverdiyev Ə. Seçilmiş əsərləri: 2 cilddə, II cild, Bakı: Lider-Nəşriyyat, 2005, 408 s.
2. Hüseynov F. Adi əhvalatlarda böyük həqiqətlər. Bakı: Gənclik, 1977, 184 s.
3. Mir Cəlal. Klasiklər və müasirlər. Bakı: Azərnəşr, 1973, 296 s.
4. Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəvbiyyatı. Bakı: Elm və təhsil, 2018, 560 s.

РЕЗЮМЕ

АВТОРСКОЕ ПОВЕСТВОВАНИЕ И МАСТЕРСТВО СОЗДАНИЯ ПОРТРЕТА В РАССКАЗЕ АБДУРРАХИМ БЕКА ХАГВЕРДИЕВА “ШЕЙХ ШАБАН”

Ахмедов Г.

***Ключевые слова**: образ, развитие, портрет, идея, рассказ*

Абдуррахман бек Хагвердиев, известный как мастер коротких рассказов, создает поэтическую гармонию между внутренним миром и внешним видом персонажей, созданных в его рассказах. Главный герой Шейх Шабан, является персонажем, подробно описанным его женой Гульсум. В статье на основе научного анализа и ссылок объясняется мастерство писателя в создании портретов, его метод разработки,выражение авторского стиля в портретной живописи. Мастерство Абдуррахман бека Хагвердиева в создании портретов проявляется в описании внешнего образа героя, сочетающегося с его внутренним миром.

SUMMARY

THE SKILL OF THE AUTHOR AND THE CREATION OF A PORTRAIT IN THE STORY OF ABDURRAHIM BEY HAGVERDIYEV “SHEIKH SHABAN”

Akhmedov G.H.

***Key words:** image, devolepment, portrait, idea,story*

The inner world and outer appearance of the characters created in the stories of Abdurrahim bey Hagverdiev, who is known as the master of short stories, form a poetic harmony. The main character of the writer's story "Sheikh Shaban" is Sheikh Shaban, the characters described in detail by his wife Gulsum. The writer's mastery of creating portraits, his development method, the expression of the author's style in the portrait lines are explained on the basis of scientific analysis and references in the article. Abdurrahman bey Hagverdiev's portrait creation mastery is brought out on the original aspects.

AZƏRBAYCAN NAĞILLARINDA CİLDDƏYİŞMƏ MOTİVİ

Rəfiyeva A.İ.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

afat.rafiyeva@gmail.com

***Açar sözlər**: nağıl, sehr, fantaziya, cilddəyişmə, motiv, süjet*

Azərbaycan xalqının şifahi epik ənənəsində sehirli nağıllarda sıx-sıx rast gəlinən mifik süjetlər arasında cilddəyişmə motivi xüsusi yer tutur. Cildini dəyişən canlı və cansız varlıqların müxtəlif magik funksiyalarda çıxış etmələri cansız əşyalaraın təsvirindən daha çox xeyir qüvvələrə xidmət edən təbiət predmetlərinin şəxsləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan bir çox nağıllarda cildini dəyişən qəhrəmanın mübarizə apardığı şər qüvvələrə qalib gəlməsi süjetin özündən yaranan məntiqi nəticənin özünəməxsus cəhətlərini bir daha təsdiqləyir.

İbtidai insanlar müxtəlif təbiət hadisələrdən qorxduqları üçün onları ilahiləşdirir, mifik don geyindiridilər. Xalqın yaddaşından süzülüb gələn folklor nümunələrində bir çox hallarda izahı çətin olan məqamlarla qarşılaşırıq. Bu bir tərəfdən qədim insanın dini-mifoloji dünyagörüşünü ifadə edirsə, digər tərəfdən oxucunu bu gün elm tərəfindən birmənalı şəkildə qarşılanmayan bir çox hadisələrlə üz-üzə qoyur. Bəzi məqamları biz qədim insanın qorxuları qarşılığında uydurmaları hesab etsək də, müasir dünya alimləri bu məqamların heç də biz düşündüyümüz qədər sadə olmadığını iddia edir.

Sehirli nağıllarda qarşımıza çıxan uçan xalça, sehirli papaq, sehirli tütək, sehirli güzgü, divlər, yeddibaşlı əjdahalar, əfsanəvi quşlar xəyali səltənət və ölkələrdə yaşayır, müəyyən zaman kəsimində nağıl

qəhrəmanının qarşısına çıxır, ona kömək edir və ya əksinə ona uğrunda mübarizə apardığı amalına çatmaqda mane olmağa çalışırlar. Məsələn, Zümrüd (Simurq) quşu, sehirli xalça, sehirli üzük, sehirli papaq və s. əsasən nağıl qəhrəmanına kömək edərək, onu dardan qurtarır. Divlər, əjdəhalar, küpəgirən qarılar isə şər işlərdə iştirak edirlər. "Şahzadə Mütalib" nağılında isə div qəhrəmana kömək edir.

Prof. A.Ağbaba yazır: "Cilddəyişmə motivi (cildini dəyişdikdən sonra gözəl qıza, gənc oğlana və yaxud əksinə - ilana, qorxunc varlığa çevrilmə) mifoloji təfəkkürdən folklor mətnlərinə əksi təsəvvürləri ifadə edir. "Qu cildli pəri", "Qurbağa qız" (Yuqoslaviya), "Bənövşəyi ilan" (İndoneziya), "Pərinin paltarı" (Koreya), "Çar dada Seqbonun qızı" (Afrika), "Bazubəndin nağılı", "Qah-qah dağında üç xiyara aşiq olasan" (Azərbaycan) və sair kimi dünya xalqlarının nağıllarında bu mifik motivin izlərini aydın görmək olar" [1, s.10].

Lakin bu sehirli varlıqlar qəhrəmanların qarşısına həmişə ilkin görünümlərində çıxmır, onların əsl varlıqları nağıl sonlarında qəhrəmana aydın olur. Yaxud qəhrəman çıxdığı yolda özü mahiyyətini dəyişir. "Qeyd edək ki, keçid mərasimləri, xüsusilə, inisiyasiya (qəbul) mərasimləri üç mərhələdə gerçəkləşir: uzaqlaşdırma, vəziyyət/hal dəyişimi və uyğunlaşma mərhələsi. Biz nağıllarda bu mərhələləri "ayrılıq", "çətin dönəm", "evə qayıdış" olaraq görürük. Simvolik və tilsimli ölüm səfəri olaraq təqdim edilən bu mərhələ inisiyasiya mərhələlərində olduğu kimi, nağıllarda da qəhrəmanın kamilliyə, yetkinliyə keçməsinin ifadəsidir" [2, s.93].

Beynəlxalq motivlərə uyğun gələn xalq nağıl "Göyçək Fatmanın nağılı"nda baş verən cilddəyişmə keçid vəziyyəti ilə bağlıdır. "Nağılda analığı tərəfindən incidilən Fatma və qardaşının analığının istəyi ilə atası tərəfindən meşədə azdırılması şəklində baş verir. Evlərindən, yaşadıqları kənddən uzaqda vahiməli, qaranlıq meşədə tək qalan uşaqlar bir çox çətinliklərin öhdəsindən gəlirlər, sonda bacısı Fatmanın mane olmasına baxmayan, bərk susayan balaca oğlan susuzluğa dözməyib qarşılarına çıxan bulağın suyundan doyunca içdikdən sonra qara bir inəyə çevrilir. Fatma inəyi qabağına salıb uzun yol gedəndən sonra evlərini tapmağa nail olur" [5, s.16]. Nağılda müxtəlif qadağan olunmuş nəsnəyə toxunduğu üçün insan heyvan cildinə düşür. Yaxud qarının köməyi ilə Fatma bir formadan başqa formaya keçid alaraq xoşbəxt həyata qədəm qoyur.

"İskəndər" nağılında ağ div tərəfindən gözləri çıxarılan İskəndərin gözlərinin sağalmasının sirrini quşlar söyləyir. Onlar bir lələk və yarpaq verib uçurlar. İskəndərin tulası və yanındakı qızlar gözləri yerinə qoyub, yarpağı sıxıb damızdırdıqdan sonra onun gözləri oldu lap əvvəlki kimi [3, s.185].

"Gülnar xanım" adlı nağılda süjet bu kontekstdə ortaya çıxır: "Qəndahar padşahşının Məlik Məmməd adlı bir oğlu var idi. On dörd yaşında itir. Nə qədər axtarırlar, tapa bilmirlər. Oğlanın lələsi dözmür və təğyir-libas olub, çıxır Məlik Məmmədi axtarmağa. İstanbula gəlib çıxır və yerdə qarın üstündə qan izi görüb ürəyi gedir. Bunu görən İstanbul padşahının qızı Gülnar xanım onu içəri gətirtdirir. Qoca lələ Məlik Məmmədin əhvalatını ona danışır. Gülnar xanım gedib atasından Məlik Məmmədi axtarmaq üçün izn istəyir. Padşah çar-naçar razılaşır, lakin şərt qoyur ki, əgər iki ilə qayıtmasa lələni öldürtdürəcək. Gülnar xanım gəlib bir qalaçaya çatır. Bu qalaçaya girir, burda gözəl bir qızla qarşılaşır. Qız Gülnar xanımı tanıyır. Gülnar məəttəl qalır ki, hardan tanıdı. Bunu başa düşən qız deyir ki, biz üç bacıyıq, özümüz də pərilər padşahının qızlayırıq. Biz hər cümə axşamı öz atamızın evinə qonaq gedəndə sənin gözəlliyinə tamaşa etmək üçün gəlib sənin küləfirənginə qonuruq. Sən də bizi göyərçin bilib, yedirdib-içirdib yola salırsan. Gülnar xanım əhvalatı ona danışır. Qız üç bacının divə ərə getdiyini, bunu bilsə-bilsə, o biri bacıların ərlərinin biləcəyini söyləyib bacısına namə yazıb verir Gülnara. Gülnar gəlib ortancıl bacının yaşadığı qalaçaya çıxır, qız onu tanıyır və əhvalatdan hali olur. Ərindən onun bilmədiyini öyrənir. Qız böyük bacısına namə yazıb Gülnarı yola salır. Böyük bacı da Gülnarı tanıyır. Ərindən oğlanın yerini öyrənib Gülnara bildirir. Gülnar oğlanı yarımcan halda tapır və qırx gün Quran oxumalı olur, buna görə də karvandan bir qız alır ki, o yorulanda qız davam eləsin. Beləliklə, otuz doqquz gün tamam olur, Gülnar yenə yorulub qıza davam etməsini söyləyir və yuxuya gedir. Oğlan oyanıb görür ki, qız Quran oxuyur. Qız isə deyir ki, yatan qız onu tilsimə salıb, tez qaçırlar, gəlirlər öz vilayətlərinə. Padşah oğluna toy edib bu qızla evləndirir. Gülnar hadisədən hali olur və üç xalça toxuyub bütün əhvalatı bu üç xalça üzərində Məlik Məmmədə çatdırır. Hər şey məlum olur və qırx gün, qırx gecə toy edirlər" [4, s.60]. Nağılda cilddəyişmənin yardımlaşma motivi daha çox özünü göstərir.

Bir çox nağıllarda cilddəyişmə motivi ilə bağlı ən çox rastlaşdığımız varlıq ilandır. İlanın varlığı xalq arasında birmənalı qarşılanmasa da əksər nağıllarımızda biz ilanın xeyirxah obrazını görürük. Adətən nağıllarda "ağ ilan" xeyiri, "qara ilan" isə şəri təmsil edir. Ağ ilanlar adətən onları xilas edən qəhrəmana minnətdarlıq hisslərini ifadə etmək üçün onlara ya sehirli əşyalar, ya da sehirli hansısa qüvvənin verilməsində mühüm rol alırlar. İlanın cildini dəyişərək ya oğlana, ya da qıza çevirilməsi motivi Şərq ədəbiyyatında tez-tez rast gəlinən süjetdir. Bəlkə də məhz ilanın cilddəyişməsi onların bioloji təbiətinə də işarə hesab edilə bilər. Belə ki, ilanlar ildə bir dəfə qabıqlarını çıxardaraq yeni dəri əldə edirlər. Görünür bu

məqam ibtidai insanın nəzərindən yayınmamış və buna fərqli mifik don geyindirmişdir. “Taxta qılınc” nağılında oğlana dönüşən ilan vaxtilə ona edilən yaxşılığı unutmadığını şahzadənin həyatını dəfələrlə ölümdən xilas edərək göstərir.

Nağılın məzmunu və oxşar süjetlər onu göstərir ki, təbiətlə insan arasındakı münasibətlər cilddəyişmə motivinin əsasında formalaşıb müəyyən mifoloji məna tutumu qazanır. Ümumiyyətlə, sehirli nağılların süjet xəttində dayanan cilddəyişmənin özünəməxsus əlamətləri, obrazlar sistemi mifik səciyyəsi ilə Azərbaycan xalqının etnoqrafiyasını, mərasim və adət-ənənəsini özündə yaşadır. Buna görədir ki, cilddəyişmə motivli nağıllar yalnız sehirli xüsusiyyətləri ilə milli koloriti əks etdirmir, bu nağıllarda əxlaqi-tərbiyəvi fikirlər və olduqca güclüdür. Bu cür mütərəqqi fikirlər ulu babaların müxtəlif təbiət cisimlərini, nağıldakı obrazları və sıra canlı varlıqları fetişləşdirməklə bəşəri məzmun ifadə etmiş, xalqımızın milli-mənəvi dəyərlərinin parlaq daşıyıcısına çevrilmişdir.

Ədəbiyyat

1. Ağbaba A. Mifologiya. Sumqayıt: SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2019, 240 s.
2. Azərbaycan mifoloji mətnləri. Tərtib edəni A.Acalov. Bakı: Elm, 1988, 196 s.
3. Azərbaycan nağılları. V cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 360 s.
4. Azərbaycan nağılları. V cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005, 296 s.
5. Azərbaycan nağılları. V cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005, 304 s.

РЕЗЮМЕ
МОТИВЫ ПРЕОБРАЖЕНИЯ В АЗЕРБАЙДЖАНСКИХ СКАЗКАХ
Рафиева А.И.

***Ключевые слова**: сказка, волшебство, фантазия, превращение, мотив, сюжет*

Как правило, в сказках, богатых темой, события, описываемые в начале сюжета, подчеркивают будущую судьбу героя сказки посредством ряда символов и знаков. Иными словами, кроме тюрко-мусульманского мировоззрения, в сказках, чаще всего связанных с зороастризмом, сохраняются следы сильной фантазии и художественно-философского мышления народа. Образы яблок, коней, птиц, великанов и змей в сюжетах «Волшебный шаман», «Сказка Оххая», «Говорящий череп», «Сказки падишаха Санаввара», «Сказки Гарагаша» и других сказок отражают первоэлементы архаических представлений с их мифическим уровнем.

SUMMARY
MOTIVE OF TRANSFIGURATION IN AZERBAIJAN FAIRY TALES
Rafiyeva A.I.

***Key words**: fairy tale, magic, fantasy, transformation, motive, story*

As a rule, in fairy tales rich in the theme of transfiguration, the events described at the beginning of the plot mark the future fate of the hero of the fairy tale by means of a number of symbols and symbols. In other words, in addition to the turkish-muslim worldview, it is evident that the traces of strong fantasy and artistic and philosophical thinking of the people are preserved in the tales created most often related to Zoroastrianism. The images of apples, horses, birds, giants and snakes in the plots of "The Magic Shaman", "The Tale of Ohkhaya", "The Talking Skull", "Tales of Padishah Sanavvar", "Tales of Garagash" and other fairy tales reflect the primary elements of archaic representations with their mythical level.

О СТИХАХ ЦИКЛА «ПЕРСИДСКИЕ МОТИВЫ» СЕРГЕЯ ЕСЕНИНА

Гусейнова Г.Т.
Сумгаитский государственный университет, Сумгаит, Азербайджан, доцент
gulnarelcan919520@icloud.com

***Ключевые слова:** поэзия, поэт, дух Востока, любовь, красота*

Выдающийся поэт Сергей Александрович Есенин [1895-1925] прошел за свою недолгую жизнь богатый творческий путь. Сергей Есенин, известный в мировой литературе как авантюрный, энергичный, жизнерадостный поэт, один из крупнейших личностей Серебряного века, является представителем новокрестьянской поэзии и лирики, выражающим в своей неповторимой поэтической манере дух Востока в русской романтической поэзии. Из его жизни известно, что он некоторое время жил в Баку и Мардакяне в 1924-1925 годах и считал свое творчество самым значимым периодом своей жизни. Дни, проведенные в Баку и Азербайджане, дали поэту богатый жизненный материал, он написал множество произведений, в том числе большинство

стихотворений, вошедших в серию «Персидские мотивы», здесь же написал поэму «Анна Снегина», и был опубликован в различных изданиях Азербайджана.

Годы, прожитые Есениным в Азербайджане, характеризуются как самый плодотворный и золотой период его творчества. Желание поэта увидеть Кавказ и Иран было связано с его упором на восточную поэзию и творчество ее могущественных представителей. Из историко-литературных источников известно, что Есенин был хорошо знаком с литературой восточных народов, читал и высоко оценивал стихи Низами, Хагани, Насими, Сади, Хафиза и других великих поэтов. Поэтическое воплощение хрупких чувств, искренних переживаний и романтических мечтаний – главные черты лирики поэта. Наиболее яркое и искреннее выражение этих черт можно увидеть в его стихах цикла «Персидские мотивы». В этот цикл вошли пятнадцать стихотворений Есенина, пять из которых были написаны в 1924 году, а остальные десять в 1925 году.

Не ошибемся, если скажем, что в «Персидских мотивах» самые хрупкие и лирические стихотворения, отражающие поэтический и жизнерадостный характер поэта. Выражение тонких чувств, принадлежащим народам Востока, оригинальными художественными средствами, такими словами, как Лале, Шаганэ, чайхана, чадра, Фирдовси, Багдад, Хорасан и др., усиливают в его стихах дух Востока и национальный колорит, присущий народам Востока. Говоря о «Персидских мотивах» Есенина, проф. Амирхан Халилов обращает внимание на то, что поэт часто вспоминает имена восточных классиков и использует в своих стихах азербайджанские слова, которые носят скорее внешний характер. Главное, что Есенин не ограничивается созданием системы традиционных восточных образов, но и создает свою оригинальную систему образов и находит для нее подходящие метафоры и противопоставления, сравнения и эпитеты, художественные вопросы и художественные восклицания… В цикле «Персидские мотивы» он преследует мотивы жить, творить любовь, творить красоту, любить, слышать и наслаждаться природой... Также в них преобладают деликатная мелодичность, высокая романтика, пафос, точеный, отточенный образный язык и качества восточной поэзии [1].

Сергей Есенин в цикле «Персидские мотивы» создал образ Шаганэ с любовью, хрупкими и романтическими чувствами, присуще красавицам Востока, она воспевается как чуткая и нежная девушка. В поэме, начинающей с этих строк: «Шаганэ ты моя, Шаганэ!» поэт открывает глаза на свои чувства, обращаясь к Шаганэ. Вспоминая дни, проведенные в родной Рязани, он выражает свои трепетные чувства, полные волнения. В стихотворении Шаганэ он словно вспоминает знакомую северную красавицу, которая заставила его хотя бы на мгновение забыть о своих проблемах. Поэт в строках «Про волнистую рожь при луне» вспоминает о родине, и тоскует по любимой, которую любил на Севере. Неправильно оценивать искренние чувства автора к Шаганэ как личные переживания. Когда поэт говорит о ржи из Шираза и о Шаганэ, он выражает свою неиссякаемую любовь к родной стране в поэтических строках «Рожь накрасила мои волосы хной», «На севере есть одна красивая девушка» и т.д. Какое хрупкое впечатление не создавалось бы в стихотворении о внутридушевных переживаниях Есенина, его мысли о северном крае добавляют новые действенные усилия к общественному содержанию поэмы, читатель глубже чувствует отраженный в стихотворении лирический авторский голос. На наш взгляд, в этом стихотворении Шаганэ является скорее авторским поиском идеи, чем поэтическим образом.

Из жизни и деятельности Сергея Есенина известно, что у него было очень сильное желание поехать в Иран, но друзья, учитывая сумасбродный и эксцентричный характер поэта, препятствовали его поездке, чтобы уберечь от какого-то страшного события, с которым ему предстоит столкнуться в Иране. Правительство его не допустило. Однако комфортные условия, созданные для продолжения литературной деятельности поэта в Мардакяне, обустройство восточной экзотики, напоминающей иранскую природу, соответствовали творческому стилю Есенина, его акценту на материальных и духовных красотах Востока. Многие художественно-этнографические детали, выраженные в его стихах, связаны с возведением топонимов и антропонимов на поэтический уровень. Благодаря этому типу литературно-художественных особенностей его «Персидские мотивы» также привлекают внимание своей автобиографичностью, что подтверждается отдельными моментами, мечтами и желаниями, поэтическими размышлениями о жизни поэта. В одном из стихотворений, посвященных Шаганэ, он сетует о том, что «Не ходил в Багдад я с караваном», и неоднократно упоминает, что его влекло на Восток и поражало его великолепие:

Никогда я не был на Босфоре,
Ты меня не спрашивай о нем.
Я в твоих глазах увидел море,
Полыхающее голубым огнем. [3]

Как и в строках стихотворения «Шаганэ ты моя, Шаганэ!», выражается возвышенная любовь Есенина к Шаганэ, так и в этом стихотворении можно увидеть его любовь к северной стране - родной России. Этот стиль выражения еще больше усиливает литературно-эстетический и социально-философский характер поэмы. В строке «Северные ветры звучат в душе» выражает, насколько глубоко он привязан к своей родине. О*чень характерно в этом отношении его стихотворение «В Хороссане есть такие двери», «Нельзя судить любящее сердце» - это главная мысль стихотворения. Вывод «В любви нет единства» отражен поэтическими красками и оригинальными художественными выражениями настолько искренне, что читатель вливается в естественный поток волнений и мыслей поэта, тоскующего по родине в дальних краях. Несмотря на то, что художественные идиомы и символические выражения, выражающие разлуку, вносят в общий дух стихотворения некий пессимизм, стремление поэта вернуться на Родину ослабляет такие пессимистические чувства, читатель воспринимает это стремление автора как человеческое волнение и приветствует его всем сердцем:*

Мне пора обратно ехать в Русь.
Персия! Тебя ли покидаю?
Навсегда ль с тобою расстаюсь
Из любви к родимому мне краю?
Мне пора обратно ехать в Русь. [3]

Одной из уникальных особенностей цикла «Персидские мотивы», как мы уже упоминали, является сочетание чувств и мыслей, грустной музыки и тонких переживаний с пейзажными элементами, характерными для природы Азербайджана. Эстетический принцип лирики Есенина характеризуется тем, что он не отделяет естественность и красоту сельской жизни от общей гармонии природы, а описывает их, взяв в неразрывном единстве [41]. Этот научный очерк литературоведа А. Халилова подтверждает наше мнение. Высокоэмоциональная выразительность природных стихий и пейзажей не только расширяет смысловую емкость стихотворений: «Улеглась *моя* былая *рана*», «Ты сказала что…», «В *Хорасане* есть такие двери…», «Свет вечерний шафранного края...», но и раскрывает главную авторскую цель и литературно-эстетические принципы во всей полноте.

Вообще, цикл «Персидские мотивы» Сергея Есенина, что является чудом поэтической фантазии поэта, переиздавался на азербайджанском языке разными авторами. С.Рустам, А.Курчайлы, А.Джамиль, М.Садыг, Р.Зака и другие поэты обращаясь к поэзии Есенина, демонстрируют свою любовь к его поэтическому миру и художественной силе.

Литература

1. Халилов А. Мировая литература. Баку.
2. Халилов А. Сергей Есенин: Золотая осень и весна Мардакяна. Баку: Издание Азербайджана, 1996, 142 с.
3. Есенин С.А. Избранные работы (перевод на русский язык: А.Курчайлы). Баку: Евразия пресс, 2006, 168 с.

XÜLASƏ
SERGEY YESENİN "FARS MOTİVLƏRİ" SİLSİLƏ ŞEİRLƏRİ HAQQINDA
Hüseynova G.T.

Açar sözlər: *poeziya, şair, Şərq ruhu, sevgi, gözəllik*

Görkəmli rus şairi Sergey Yeseninin yaradıcılığında "İran nəğmələri" adlı şeirlər silsiləsi xüsusi yer tutur. 1924-1925-ci illərdə Bakıda və Mərdəkanda yaşayıb-yaradan şairin bu silsiləyə on beş şeiri daxildir. Şərq, o cümlədən Azərbaycan məişətinin və təbiətinin təsviri bu şeirlərdə müəllifin duyğu və düşüncələri ilə poetik bir harmoniya təşkil edir. Məqalədə həmin şeirlərin başlıca ədəbi-estetik xüsusiyyətləri, lirik obrazların təhlili aparılmış, əldə olunan elmi qənaətlər ümumiləşdirilərək şərh edilmişdir.

SUMMARY
ON THE CYCLE OF POEMS OF SERGEI YESENIN'S "PERSIAN MOTIVES"
Huseynova G.T.

Keywords: *poetry, poet, Eastern spirit, love, beauty*

A cycle of poems called "Persian Motives" occupies a special place in the work of the famous Russian poet Sergei Yesenin. This cycle includes fifteen poems by the poet, who lived and worked in Baku and Mardakan in 1924-1925. These verses, describing the life and nature of Azerbaijan, including the East, form a poetic harmony with the feelings and thoughts of the author. The article analyzes the main literary and aesthetic features of these poems and the analysis of lyrical images, generalizes and interprets the obtained scientific conclusions.

QARABAĞ FOLKLORUNDA AZƏRBAYCAN MƏİŞƏTİNİN TƏSVİRİ

Quluyeva Ş.İ.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
folklorshunas@mail.ru

Açar sözlər: *Qarabağ, folklor, məişət, nağıl, çörək, kömbə, fətir, şalanpur, aş, yorğan-döşək, məcməyi, badya, xurcun, xalça və s.*

Hər bir xalqın özünəməxsus maddi və mənəvi dəyərləri vardır.Bu dəyərlər birdən-birə yaranmamış əsrlərlə formalaşaraq dövrümüzə gəlib çatmışdir. Bütün bunlar xalqımızın hərtərəfli formalaşmasına, xüsusən də mənəviyyatının zənginləşməsinə xidmət edir.Çünki xalqımızın əsrlər boyu müxtəlif formalarda yaratdığı, inkişaf etdirdiyi dəyərlər bu gün bizim üçün mənəvi qida və zəngin xəzinədir.Xalqın yaratdığı bu yatırdan düzgün istifadə etmək və onu daha da zənginləşdirmək hər birimizin borçudur.Maddi və mənəvi mədəniyyətimizin öyrənilməsinə hər vaxt dövlət qayğısı vardır. Hətta hörmətli Prezidentimiz İlham Əliyev cənabları da andiçmə mərasimində milli-mənəvi dəyərlərə toxunaraq, müqəddəs "Qurani-Şərifə" əl basaraq demişdir:

– Əlimi "Qurani-Şərifə" basaraq and içirəm, Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə sadiq qalacam, onları daima uca tutacağam[5, s,1].

Bu gün bizim də qarşımızda duran əsas vəzifələrdən biri xalqımızın yaratdığı, formalaşdırdığı dəyərləri gələcək nəsillərə ötürməkdir. Bu maddi dəyərlərin bir hissəsini folklorumuz təşkil edir. Bizə məlumdur ki, folklorumuz müxtəlif bölgələrdən toplanan materiallar əsasında formalaşır.Belə məhsuldar və diqqəti cəlb edən regionlardan biri də Qarabağdır. Məlumdur ki, hər bir folklor nümunəsi yarandığı ərazinin təbiətini, insanların dünyagörüşünü, məşğuliyyəni, etnoqrafiyasını və məişətini əhatə edir.Qarabağ folkloru da bu baxımdan çox zəngindir. Bu ərazidə folklorumuzun bütün janrları öz əksini tapmışdır. Burada epik növün nağıl janrının da özünə məxsus yeri var. Nəriman Nərimanovun fikrincə desək:"Elin inşası (yaratdığı folklor örnəkləri),elin güzgüsüdür xalq ədəbiyyatı. Bir elin,qövmün ruhunu, fikrini, bütün əqidəsini onun inşasından bilmək olar" [6, s.74]. Bu baxımdan, Qarabağdan toplanmış nağıllar əsasında Azərbaycan məişətinin təsviri mövzusunu araşdırsaq yerinə düşərdi.Qarabağın məişəti və təbiəti rəngarəng olduğuna görə folkloru da zəngindir. Araşdırdığımız nağıllarda məişətimiz bütün xırdalıqları ilə öz əksini tapır və onların çox hissəsi bu gün də yaşayır.Burada xalqımızın məşğuliyyəti,adət-ənənəsi, yaşam tərzi ən xırda elementləri ilə təsvir olunur.

Xalqın yaratdığı bu nağıllarda heç nə diqqətdən kənarda qalmamış,qəddar və ədalətli hökmdarlarından tutmuş, igid qəhrəmanları, yoxsul, dağlı-aranlı köçəri həyat keçirən çobanına qədər özünə məxsus həyat tərzi işıqlandırılmış,diqqət mərkəzində olmuşdur. Bu həm də Qarabağ haqqında xalqın öz yaratdığı bir tarixdir. Çünki ilk insan məskəni olan Qarabağ da birdən-birə yaranmamış,əsrlərin sınağından çıxaraq formalaşmışdır. Çox böyük bir ərazini əhatə edən Qarabağdan toplanan nağıllar isə Azərbaycan nağıllarının əsasını təşkil edir.Eyni zamanda bu nağıllar epik janrın üç növünü də (sehirli, məişət və heyvanlar haqqında) özündə birləşdirir. Bunların hər birində məişətimizin eləcə də etnoqrafik əşya və məmulatların təsviri mühüm yer tutur. Xalqımızın müqəddəs neməti olan çörəynin nağıllarda tutduğu mövqey maraq doğurur. Məsələn, çörəyin hazırlanması uzun bir vaxt və zaman tələb edir. Əvvəlcə əkin sahəsi seçilir, yer şumlanır , arpa və ya buğda toxumu səpilib sulanır."Nazikbədən"nağılnnda arpa və ya buğda səpiləcək torpağın hazırlanması təsvir olunur."Baxdı ki, burada heç kəs yoxdu, amma böyründən səs-küy gəlir. Yavaş-yavaş gedib gördü ki, bu bir cütcüdü,cüt sürür"[3, s.118].

"Qaraçuxasını axtaran kişi" nağılında isə cütə qoşulmuş öküzlər vasitəsi ilə yerin şumlanması,əkilməsi təsvir olunur. "Bir müddət gedənnən sora bir vilayətdə görür ki, ağaş var,kölgədi, bir-iki cütcü oturup çörəh yeyir, öküzləri də ötürüplər ottamağa, dincəlmağa" [1,s.134].

Nağıllarda un üyüdən, dəyirman,dəyirmançı söz və ifadələrinə də tez-tez rast gəlirik.Yəni nağıllarda məişətimizin əsasını təkiil edən çörəyin necə və hansı ardıcıllıqlarla hazırlanması da diqqəti cəlb edir.Əldə olunan hazır məhsul arpa, buğda dəyirmana gətirilir ki, ondan un,yarma və kəpək alınaraq müxtəlif məqsədlər üçün istifadə edilir. "Keçəllə Kosa şərikli kömbə bişirir"nağılında dənin nədə dəyirmana gəlməsi və üyüdülməsi belə təsvir olunur:"Gəlir dörd kosanın dəyirmanına,dəni üyüdür.Dağarı var idi, dağarda aparmışdı.Dağar maı dərisindən hazırlanmış qab idi.Dağar da yarım pud-səkkiz kilo tutardı"[2,s.341]. Arpa və buğdadan hazırlammış undan müxtəlif növ çorək bişirərmişlər.Məsələn, kömbə, fətir,cad-küt kimi çörək növlərinin adı çəkilir. "Bəxtiyar" nağılında belə bir ifadəyə rast gəlirik. "Günlərin bir günündə bir kişi işdən yornux gəlib caddan-kütdən yeyib yatdı".[4,s.96]. "Keçəllə kosa şərikli kömbə bişirir"nağılında isə kömbənin bişməsi belə təsvir edilir. Keçəl kosanın su dəyirmanında un üyüdür.Bu vaxt kosa deyir: "Keçəl,

gəlsənə kömbə bişirək?”.Kömbəni bişirmək üçün ojağın közün qırağa sivirif kömbə yaparmışdar.Sonra külnən üstünü örtüf köz yığallarmış, kömbə bişərmiş [2, s.341].

Nağıllarda çörəyin fətir növünündə adı çəkilir.”Keçəllə Kosanın nağıl”ında isə fətirin bişirilmə qaydası izah olunur. “Fətiri teyxa süddən,şəkərdən yoğurallamış. Fətiri həmişə bişirməzdərmiş ey.Fətiri ən əziz qonax gələndə bişirəllərmiş.Qayda idi,mitilin arasına qoyardılar

Nağıllarda çox vaxt çörəyə əppək deyə müraciət olunur. “Göy təpə göyərdi, ərim məni döyərdi” nağılında belə bir nümunəyə rast gəlirik. “Gündə üç əppək para yeyib,üç kələf yarım da yun əyirərmiş” [4, s.341].

Aydındır ki, çörək müxtəlif dövrlərdə,bir-birindən fərqli üsullarla hazırlanıb bişirilərmiş. Azərbaycan folkloru külliyatının 6-cıldində “Keçəllə kosanın nağıl”ında çörəyin təndirdə bişirilməsi təsvir olunur.Məsələn: “Qapını belə açır, açanda görür arvad təndirdə çörək bişirir” [2, s.335].

Nağıllarımızda milli mətbəximiz də özünəməxsusluğu ilə diqqəti cəllb edir. Məsələn, rəvayətə görə keçmişdə qonax gələndə fətir bişirilərmiş, bir də çolpa kəsəllərmiş. “Keçəllə Kosanın nağıl”ında belə bir faktla rastlaşırıq.”Arvad tez-tələsih bir çolpa tutur,qonşuya kəsdirir, bunu burda hazirrıyır, soyutma eliyir” [2, s.335].

“Vardan səxavət yaxşıdı”nağılında qoyun ətindən hazırlanmış milli xörəklərin adı çəkilir: Oğlan qonağa xoş gəlmisən deyib, öz qoyunlarından birini kəsib ondan soruşur: “Qonaq, ürəyin necə istəyir elə bişirtdirim.Şalappar,kabab,qovurma,yoxsa nə? Qonaq deyir: “Mən ət yemirəm. Yesəm də böyrək yeyirəm” [2, s.74].

“Kəl Həsənin nağıl”ında aş xörəyinin adı çəkilir. Kəl Həsən dedi: “Mənə yeddi qazan aş, bir at, bir dəst pələvan paltarı ver!” [3, s.86].

“Nardan qızın nağıl”ında isə bal bir yemək növü kimi göstərilir:“Qoca əlini uzadıb yanındakı sandığın içindən bir parça quru çörək, bir nəlbəki bal götürüb uzatdı Nardan xanıma”[3, s.71].

“Dəlisov arvad “ nağılın da isə dəvə ətindən yemək növü kimi istifadə olunduğuna işarə edilir: “Ay bacı, padşah bərk naxoşlayıb,ona həkim dəvə əti buyurub.Sizdə varsa, bir bişirim verin” [3, s.326].

“Yetim qızlar” nağılında meşədə, çəmənlikdə yabanı halda bitən, yeməli bitkilərin adı çəkilir:”Qızlara aclıq kar eləmişdi.Qızlar meşənin ətrafındakı göy çəmənliyi gəzdilər,dolandılar cincilim,qazayağı yığıb yedilər,aclıqlari getdi.Bir az da cincilim, qazayağı yığıb,özləri ilə götürüb yola düşdülər” [3, s.382].

“Mərd və namərd” nağılında isə aşın bişməsi belə təsvir edilir:” Təbil vuruldu, qazan qazan yanına düzüldü. Aşpazlar əl-qollarını çırmalayıb düyü tökdülər, aş bişirdilər, payladılar”[4,s.186].

“Əlimə su tök” nağılında yemək bişirmək üçün istifadə edilən ərzaqların adı çəkilir. Məsələn, “Ay qızlar, əti gətirin mən doğrayım,siz gedin, pencər yığın. Bişirək yeyək, kef eyləyək” [4, s.285].

“Bəxtiyar” nağılında da gündəlik işlənən ərzaqların adı çəkilir:”Get bazara, düyüdən, yağdan, turşudan,qırqovuldan al, ver hambal gətirsin evimizə,sabaha ehtiyat görməliyik” [4, s.102].

Nağıllarımızda təsvir olunan ev əşyaları insanların yaşadığı mühit haqqında ilk təsəvvür yaradır. Belə ki, bu əşyalar nə məqsədə görə istifadə edildiyi, nədən hazırlandığı bizə məlum olur. Yorğan-döşək, mütəkkə yataq üçün istifadə olunan əşyalardı. Eyni zamanda hamısı qoyun yunundan hazırlanır. Bu nümunələrə Qarabağdan toplanan nağıllarda daha tez-tez rast gəlirik. Məsələn, “Qızıl qoç” nağılında belə bir nümunə var. “Qardaş, mütəkkəyə dirsəklən, mən öz sirrimi sənə açım” [4, s.157].

Yorğan-döşək sözünə isə “Gülü Qah-qahın nağıl”ında rast gəlirik: “Gülü Qah-Qahın qızı Bəxtiyarı odun içinnən elə götürür kü, heç kim xəbər tutmur, gətirip qoyur öz imaratında yorğan- döşəyin içinə” [2,s.143].

Nağıllarda fərməş, xurcun sözlərinə də tez-tez rast gəlirik. Bunların hər ikisi əyrilmiş və boyanmış yundan əllə toxunan məişət əşyalarıdır.Fərməşə əsasən mitil, yorğan-döşək yığılır. Bundan ən çox köç gedən zaman istifadə olunur. Xurcun isə iki hissədən ibarət olur,ona əsasən ərzaq şeyləri yığılır: “Bostançı və Şah Abbas” nağılında da xurcunun adı çəkilir. Məsələn, “Bostançı qarpızın ən yaxşılarından bir xurcun yığdı,eşşəyin belinə aşırıb İsfahana yola düşdü” [3, s.312].

Qarabağdan toplanan nağıllarda xalça, çual, sicim,corab kimi yundan əllə əyriləib, toxunan və məişətimizdə işlənən əşyaların da adları çəkilir.”Səbr daşı”nağılında belə bir nümunəyə rast gəlirik: “Fatma həmişə gözəl xalçalar toxuyardı” [1, s.43].

Bu toxunma və tikmə əşyaların adlarının çəkilməsi təbiidir. Çünki Qarabağ əhalisi qoyunçuluq və xalça-palaz toxumaqla məşhur olmuşdular.

Nağıllarımızda tez-tez mücrü, məcməyi, badya, koğa, qavlama, avtafa-ləyən, xəlbir, cürdək, satıl və s. mətbəx əşyalarının adına rast gəlirik. “Qara vəzir” nağılında məcməyinin adı çəkilir və nə üçün istifadə edildiyi göstərilir: “Qara vəzirin qulu əlində qızıl məcməyi, məcəyinin içində aş hər bir xuruşu ilə, qapını açıb Mələk xanımın hüzurunda hazır oldu” [4, s.48].

Qarabağ misgərlərinin hazıladığı mis qablar bu gündə muzeylərimizi bəziyir.

Xalq arasında daha çox sevilən nağıllarımızda geyim və baş örtüklərinin təsviri də mühüm yer tutur: "Qızıl qoç" nağılında bunun ən yaxşı nümunəsinə rast gəlirik: "Keçəl gördü ki, otağın qapısı taybatay açıldı. İçəri qara əmmaməli, qara əbalı, qara başmaqlı üç dərviş girdi" [4, s.142].

"Fatmanın nağılın" da isə çarşab və çuxanın adı çəkilir: "Arvad qızın paltarını çıxardıb cırım-cındır geyindirir, başına cındır çarşab salıb oturdur bir puşkaxda"[1, s.149].

"Tez çuxasını çıxardıb salır qızın çiyninə, götürüb gəlir evə"[1, s.149].

"Qızıl qoç"nağılında isə mal gönündən tikilən çarıx, başmax kimi ayaqqabı nümunəsinə rast gəlirik.

"Gündüzlər çay aşağı, çay yuxarı getməkdən ayağında çarıx dayanmırdı"[4, s.139].

Eyni zamanda araşdırdığımız nağıllarda pinəçi, ilxıçı, naxırçı, qatırçı, qəssab kimi peşə, qılınc, qalxan kimi silah növlərinə, saz, dəf kimi musiqi alətlərinə, batman, girvənkə kimi çəki, abbası, şahı, tümən kimi pul vahidlərinə, dəvə, at kimi minik növlərinə, yorğan-döşək, mütəkkə, xalça, xurçun, sandıx kimi ev, abtafa-ləyən, badya, satıl, məcməyi, cürdək, səhəng, dağar kimi mətbəx əşyalarına və ölkəni idarə edən padşah, vəzir, nökər kimi titullara da rast gəldik.

Beləliklə, Qarabağdan toplanmış nağıllar vasitəsi ilə biz ərazinin ictimai-siyasi vəziyyəti, əhalinin məşğuliyyəti, yaşam tərzi ilə yaxında tanış olduq.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan folkloru külliyyatı: [10 ciliddə] / tərt/ ed. H.İsmayılov, O.Əliyev. – Bakı: Nurlan, – c.IV. – 2007. – 400s.
2. Azərbaycan folkloru külliyyatı: [10 cilddə] / tərt.ed. H.İsmayılov, O.Əliyev. – Bakı: Nurlan, – c.VI. – 2007. – 400 s.
3. Azərbaycan folkloru külliyyatı: [10 ciliddə] / tərt. ed. H.İsmayılov, O.Əliyev. – Bakı: Nurlan, – c.VII. – 2008, – 400 s.
4. Azərbaycan folkloru külliyyatı: [10 cilddə] / tərt. ed. H.İsmayılov, O.Əliyev. –Bakı: Nurlan, – c.X. – 2008. – 400 s.
5. Əliyev, İ.H. Prezident seçilərkən andiçmə mərasimindəki nitqindən // Respublika. – 2003, 1 noyabr, №254 (1890), – 1.
6. Nərimanov.N.N. Seçilmiş əsərləri / N.N.Nərimanov. –Bakı: Elm, – 1973. – 329 s.

РЕЗЮМЕ

ОТРАЖЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО БЫТА В КАРАБАХСКОМ ФОЛЬКЛОРЕ

Гулуева Ш.И.

Ключевые слова: *Карабах, фольклор, быт, сказка, хлеб, фетир, шаланпур, одеяло, булочка, плов, поднос, кастрюля, хурджун, ковер*

Исследование в статье проведено на основе сказок, собранных на территории Карабаха. В этих сказках мельчайшие подробности нашей жизни были в центре внимания, и на их основе формировались представления об образе жизни нашего древнего народа. Таким образом, наши сказки, формировавшиеся веками, донесли до наших дней словесную память, язык, фольклор, традиции, верования и обычаи, семейно-бытовые условия нашего народа. Значит, традиции, верования, быт и занятия нашего народа отражены в этих сказках очень убедительно и подробно.

В то же время описание земледелия, овцеводства, рисоводства и других видов деятельности в карабахском фольклоре носит этнографический характер.

SUMMARY

REFLECTION OF AZERBAIJANI WAY OF LIFE IN KARABAKH FOLKLORE

Guluyeva Sh.I.

Keywords: *Karabakh, folklore, life, fairy tale, bread, felt, steamed meat, blanket, bun, pilaf, tray, saucepan, khurjun, carpet*

The research in the article is based on fairy tales collected in the territory of Karabakh. In these fairy tales, the smallest details of our life were in the center of attention, and on their basis ideas about the way of life of our ancient people were formed. Thus, these fairy tales, which have been formed over the centuries, have brought to our days protecting verbal memory, language, folklore, traditions, beliefs and customs, family and living conditions of the people from alien influences. This means that the traditions, beliefs, life and occupations of our people are reflected in these tales in a very convincing and detailed way.

At the same time, the description of agriculture, sheep breeding, rice growing and other professions in the Karabakh folklore is of an ethnographic nature.

TOFİQ MAHMUDUN UŞAQ ŞEİRLƏRİNİN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

İsmayılova L.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
lami_b@mail.ru

***Açar sözlər**: uşaq, tərbiyə, poeziya, ədəbiyyat, qəhrəman, xarakter*

Janr və mövzu baxımından rəngarəng bədii irsə sahib olan T.Mahmudun əsərləri içərisində uşaq şeirləri əhəmiyyətli səciyyə daşıyır desək, heç də yanılmarıq. Poeziyanı möcüzə adlandıran şair bu möcüzədən gələcəyimiz olan uşaqların tərbiyəsində bədii vasitə kimi istifadə edir. Uşaqların zövqünü oxşayan axıcı şeirlər vasitəsilə şair uşaqların tərbiyəsinə müsbət mənada təsir etməyi qarşısına məqsəd qoymuşdur. T. Mahmud qəhrəmanlarının bəzən müsbət, bəzən də mənfi cəhətlərini göstərməklə oxucusuna önəmli ismarıc göndərir. "Bir oğlan tanıyıram", "Gəzir yer kürəsini", "Dalandar", "Tələsəndə", "Qulam qonaq gedəndə", "Qulamgilə qonaq gəlir", "Qulam çıxır həyətə", "İlk dəfə", "Əhməd gedir küçədə", "Sakit-sakit", "Heç nə alma", "Yarımçıq şəkil" və s. şeirlər uşaqların xarakterlərini formalaşdırmağa yönəldilmişdir.

"Bir oğlan tanıyıram" və "Yarımçıq şəkil" şeirlərinin "qəhrəmanları" oxşar xarakterlərdir. Birinci şeirdəki oğlan başladığı hər işi yarımçıq qoyursa, digər şeirdəki İskəndər başladığı tablonu bitirmir. Əslində gözəl istedada malik İskəndər üçün işinə belə etinasız yanaşmaq faciədir. İşini yarımçıq qoyub futbol oynamağa gedən oğlan əslində öz arzularını məhv edir. Çünki, ilhamla çəkməyə başladığı tablo oynamağın ucbatından heç zaman bitmir. "Bir oğlan tanıyıram" şeirindəki oğlansa hər bir işi, o cümlədən oyunları da yarımçıq qoyur, heç nədən zövq almır. Bu xarakterləri yaratmaqda şairin məqsədi uşaqlarda bu pis vərdişləri tərgitmək və başladıqları işi bitirmək vərdişini aşılamaqdır. Şair özünün də bu tip uşaqları sevmədiyini deyir:

Həvəsi də tez sönər...
Bir oğlan tanıyıram
Belə xasiyyəti var.
Mən onu xoşlamıram,
Bəs siz necə uşaqlar? [1, s.27]

"Gəzir yer kürəsini" şeirinin qəhrəmanı isə özünün elmə, biliyə olan sevgisi ilə digər qəhrəmanlardan fərqlənir. İkram şairin sevdiyi uşaq tipidir. O da, şair kimi təbiət vurğunudur, fərqli ölkələri gəzməyi sevir. Amma o məktəblidir və bu arzusuna xəyalən xəritədəki ölkələri gəzərək çatır. O, dərslərini yaxşı oxuyur, müəllimlərə nəfəsini dərmədən qulaq asır. Şair İkram obrazını yaradaraq uşaqlara dərsləri, bütün fənləri sevməyi aşılayır. Elmə, təhsilə çağırış şairin başqa şeirlərində də özünü göstərir. Ümumiyyətlə, bu mövzu şairin digər janrda yazdığı əsərlərdə də özünü göstərir. "İlk dəfə", "Sehrli kitabxana", "Qulam çıxır həyətə", "Salam, məktəb" və s. şeirlərdə elmə, kitaba sevgi aşılanır. Bu baxımdan "İlk dəfə" şeiri maraqlıdır. Burada oxumağı təzəcə öy`rənən qızdan söhbət açılır. Hər çətin sözü oxuduqca sevinən Süsənin üzü gülür. O yeni-yeni kitablar oxumağa həvəslənir:

Oxuyur heca-heca
Oxuyur sətir-sətir.
Deyir:- anacan mənə
Təzə kitablar gətir. [1, s.65]

"Sehrli kitabxana" şeiri də özünəməxsusluğu ilə seçilir. Şeirdə T.Mahmud kitabı işıq, nur adlandırır. Burada şair oxucusuna Azərbaycan, eyni zamanda dünya xalqlarının nağıl qəhrəmanlarından, vətənin igid oğullarından bəhs edir. Şair oxucunu bu qəhrəmanları tanımağa səsləyir.

Qeyd etdiyimiz kimi şairin uşaq şeirləri mövzu cəhətdən rəngarəngdir. Şair oxucusunu mənfi vərdişlərdən çəkindirməyə çalışır. O, şeirlərində tələskənliyi, yalanı, ziyanvericiliyi zərərli vərdiş kimi hədəf alır. Şairin məqsədi uşaqları bu vərdişlərdən yayındırmaqdır. "Tələsəndə", "Əhməd gedir küçədə", "Sancaq" şeirləri bu baxımdan maraqlıdır. "Tələsəndə" şeirində bir çox uşağa xas olan xarakter əks olunmuşdur. Əkbər tələskəndir və bu xüsusiyyəti hər zaman ona zərər verir. Valideynləri nə qədər məsləhət versələr də, o öz vərdişindən əl çəkmir. Şair uşaqlara bu xüsusiyyətin zərərini göstərməyi qarşısına məqsəd qoymuşdur. Bədii ədəbiyyatın tərbiyəedici xüsusiyyətini əsas tutaraq qeyd edə bilərik ki, şair öz məqsədinə çatır. Burada şeirlərin anlaşıqlı, ahəngdar, oxunaqlı olması da mühüm rol oynayır.

Gəlib arxa çatanda
Hövsələsi daraldı
O tullandı bu anda

Qazanı yerə saldı
Yeməyi su apardı
Əkbər haray qopardı. [1, s.35]

T.Mahmud S. Vurğunun uşaq ədəbiyyatı nümunələri yaradarkən folklordan bəhrələnmək lazımdır fikrini əsas tutaraq bu və ya digər əsərlərində yeri gəldikcə folklor nümunələrinə müraciət etmişdir. O, atalar sözü və məsəllərdən şeirlərdə yerli yerində istifadə etmişdir desək, heç də yanılmarıq. "Tələsəndə" şeirində "Bir məsəl var tələsən, Bala düşər təndirə", "Əhməd gedir küçədə" şeirində "Keçəl baxar güzgüyə, adın qoyar özgəyə" atalar sözü və məsəlləri buna nümunədir. Bundan əlavə şairin elə şeirləri də var ki, əxlaqi sonluğu atalar məsəlləri ilə izah olunur. Şairin "Sancaq" şeirini bu fikrə nümunə gətirsək, heç də yanılmarıq:

Elə oldu ki, oğlan
Bu sancağı unutdu.
Cibdə açılıb sancaq
Özünə batdı ancaq! [1, s.156]

Uşaqların cəmiyyətdə özlərini aparmaları da, onların tərbiyəsində vacib nüansdır. Təbii ki, T.Mahmud kimi diqqətli müşahidəçi bu məqamı diqqətdən qaçıra bilməzdi. Bu baxımdan şairin Qulam adlı oğlanı "qəhrəman" seçdiyi "Qulam qonaq gedəndə", "Qulamgilə qonaq gəlir", "Qulam çıxır həyətə" şeirləri maraqlıdır. Qulamda bir çox uşağın xarakteri əks olunmuşdur. O xüsusiyyətlər şeirlərdə elə təqdim olunur ki, uşaqlar buradan əxlaqi nəticə çıxartsınlar. "Qulam qonaq gedəndə" şeirinə nəzər salsaq görərik ki, burada qonaq gedərkən özünü yaxşı aparayan uşaqların hərəkətləri göstərilir. Evdə hər bir şeylə təmin olunan Qulam qonaq gedərkən lazım gəldi ya gəlmədi hər şey istəyir. Bu mənfi süsusiyyətləri göstərməklə şair oxucusunu belə əməllərdən çəkindirməyə çalışır. "Qulamgilə qonaq gəlir" şeirində də şair maraqlı məqamları işıqlandırmışdır. Qulam evə gələn uşaqlarla dalaşır, oyuncaqlarını onlarla paylaşmır. Qulamın həyətdə davranışı da ürəkaçan deyil. Bu haqda biz "Qulam həyətə çıxır" şeirində oxuyuruq. O həyətdə uşaqlarla, hətta heyvanlarla pis rəftar edir. Amma şeirdə bir maraqlı hadisə diqqəti cəlb edir. Şeirin ikinci hissəsində görünür ki, başı kitaba qarışan Qulamın rəftarı da yaxşılaşmışdır.

Əlində kitab tutub
O dünyanı unudub
Elə kitabı açır
Öz-özüylə danışır. [1, s.52]

Qulamla bağlı şeirlərdən biri olan "Qulam kitab oxuyur" şeiri də özünəməxsusluğu ilə seçilir. Şeirdə tənqid hədəfi özünü oxuyan kimi göstərən, əlindən kitab düşməyən tiplərdir. Belə tipləri gülüş hədəfi seçən şair oxucusunu bu əməldən çəkindirməyə çalışır.

T.Mahmud yaradıcılığının bütün istiqamətlərində xeyirxahlığın təbliğinə rast gəlirik. Təbii ki, şair uşaq şeirlərində də, bu ənənəsinə sadiq qalmışdır. Gələcəyin qurucusu olan uşaqların xeyirxah ruhda böyüməsinin önəmini anlayan şair uşaq şeirlərində də bunu işıqlandırmışdır. "Dalandar" şeiri bu baxımdan maraqlıdır. Burada Süsən, Əfqan, Güllər, Bikə qoca dalandara kömək edərək onun rəğbətini qazanırlar. Uşaqların köməyindən razı qalan dalandar uşaqlara tennis stolu hədiyyə edir və onlarla tennis oynayaraq məktəbliləri sevindirir.

Nəticə olaraq onu qeyd etmək istərdik ki, mövzu baxımından T. Mahmudun uşaq şeirləri günümüzdə də aktualdır. Elmə, təhsilə, xeyirxahlığa, düzgün davranışa səsləyən əsərlərin günümüzdə də uşaqların tərbiyəsində mühüm rolu var. Bu cəhətdən şairin uşaq şeirlərinin araşdırılması səciyyəvi əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Mahmud T., Seçilmiş əsərləri, I cild, Bakı, Tuna, 2013, 712 s.
2. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı, Bakı. Maarif, 1983, 276 s.
3. Vurğun S. Əsərləri, 6 cilddə, 5-ci cild, Bakı, Elm, 1972, 426 s.
4. Yusifoğlu R. Ədəbi-nəzəri fikrin inkişaf mərhələləri, Bakı, Elm və təhsil, 2016, 368 s.

РЕЗЮМЕ

ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ ДЕТСКИХ СТИХОВ ТОФИКА МАХМУДА

Исмаилова Л.М.

***Ключевые слова**: ребенок, воспитание, поэзия, литература, герой, характер.*

Тофиг Махмуд – один из ярких представителей азербайджанской детской литературы. Его заслуги в этой области неоценимы. Произведения поэта на эту тему написаны в разных жанрах. В данных тезисах анализируются детские стихи поэта. Цель Т. Махмуда, выбирающего для своих стихов красочные сюжеты, - угодить вкусу юного читателя и вместе с тем привить ему положительные качества. Через эти стихотворения исследуется влияние поэта на воспитание детей.

Акцентируется внимание на методах и принципах, используемых поэтом в его стихах. Анализируется, насколько актуальны темы в стихах автора на сегодняшний день.

SUMMARY
THE EDUCATIONAL SIGNIFICANCE OF TOFIQ MAHMUD'S CHILDREN'S POEMS
Ismailova L.M.

***Key words**: child, upbringing, poetry, literature, hero, character*

Tofig Mahmud is one of the prominent representatives of Azerbaijani children's literature. His services in this field are invaluable. The works written by the poet on this topic are in different genres. In this thesis, the children's poems of the poet are involved in the analysis. The goal of T. Mahmud, who chooses colorful subjects for his poems, is to please the taste of the young reader and at the same time to instill positive qualities in him. Through these poems, the poet's influence on children's education is investigated. Attention is focused on the methods and principles used by the poet in his poems. It is analyzed how relevant the topics in the author's poems are today.

FƏLSƏFİ POEZİYADA SUFİ METAFORALAR

Məmmədova S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
hasanovas@yandex.ru

Açar sözlər: *sufi, rəmz, Şəbüstəri, Nizami, sufi hekayələri*

Təsəvvüf rümuz elmidir. Rəmz sözünün lüğəvi mənası işarə etmək, üstü örtülü anlatma deməkdir. Sufi ədəbiyyatında rəmz əhlindən başqasının anlamadığı kəlamın arxasında gizlənən məna kimi anlaşılır [5, 414]. Bu da təsəvvüfün Qurandan qaynaqlanmasından irəli gəlir. Qurani-Kərimin dili, üslubu, təfsir elmi, örtülü ayələr, Allah əxlaqını əks etdirən, örnək insan kimi qəbul olunan peyğəmbərin həyatı və hədis elmi, eləcə də hüruf elmi sufiləri öz məktublarında, eləcə də şeirlərində rəmzi ifadələrdən istifadə etməsinə təsir etmişdir. Qurani-Kərimin təsəvvüf ədəviyyatına fikir qaynağı olması ədəbiyyata bəlağət növləri olan təlmih, irsali-məsəl, iqtibas kimi poetik ifadə vasitələri qazandırmışdır. Bu poetik vasitələrin bir qisminin ədəbi sənət kimi işlənməsi, bir qisminin əsl anlamından qismən uzaqlaşaraq rəmzilik qazanması və müxtəlif məcazi anlamların daşıyıcısına çevrilməsi müşahidə olunur. Bu deyimlərin təsəvvüf baxımından interpretasiyaları fərqli fikir yükünə malik anlayışların yaranmasına da yol açdı.

Təsəvvüf qəlbi təmizləyib, bəndəni mərifətə və qəlbi həssaslığa hazırlayır. O.N.Topbaşa görə, "bu, ibadətin kamilliyi üçün ən əlverişli şəraitin hazırlanması deməkdir. Bu baxımdan təsəvvüfə fiqh elminin ruhani əsası və mahiyyəti mənasında "fiqhi-batin", ya da "fiqhi-vicdani" də deyilmişdir [6, 89]. Şəbüstərinin "Səadətnamə" məsnəvisində yer alan aşağıdakı hekayə rəmzi dili ilə seçilir [1, s.189]:

خانۀ زال داشت یک روزن
تنگ مانند منفذ سوزن
تابش خور چو رشتۀ باریک
اندر آمد به خانۀ تاریک
زال مسکین چو آن شعاع بدید
رشته پنداشت پیش باز دوید
تا کند ریسمان به کلافه
رای درآفه چیست جز یافه
چونکه با روزن او برابر شد
مدرک قرص چشمۀ خور شد
بانگ برداشت تا غریوی خاست
کافتاب اندرون خانۀماست
عارفی گفتش ای بعیدالذّات
تو کجائی و او کجا هیهات

(*Zalın evinin bir dənə kiçik pəncərəsi, var idi, iynənin deşiyi kimi dar idi.*
Günəş işığı nazik ip kimi, (o dəlikdən) qaranlıq evinə girərdi.
Miskin qarı o işığı görüncə, onu ip zənn etdi, yanına yüyürdü.
Ki, ipi yumaq etsin. Boş düşüncə boş sözdən başqa nədir
O, divardakı dəliklə bərabər olanda, günəşin görünən gözü bilindi.
(işığın) ucuna qədər getdi, sonra haray saldı: "Günəş evimizin içindədir".
Bir arif ona dedi ki, "Ey zatdan uzaq olan!" Sən hardasan, o harda? Heyhat).

İlk baxışda bəsit görünə bilən hekayədə Şəbüstərinin qarı (zal) və ip metaforalarını işlətməsi təsadüfi deyildir. Zal yaşlı, ixtiyar mənasında olduğundan fələk zala bənzədilmişdir. Fələk günəş və ay da daxil olmaqla ulduzların hərəkət etdiyi sistemdir, göy qübbəsidir. Dünya kainatın mərkəzi, fələklər isə iç-içə yeddi halqadan ibarət olmaqla dünyanın çevrəsindədirlər. Dünya sabitdir, fələk isə daim hərəkətdədir. *Quranın "Yasin" surəsində deyildiyi kimi, "Nə günəş aya çatar (yetişər), nə də gecə gündüzü ötə bilər. (Günəş, ay və ulduzların) hər biri (özünə məxsus) bir göydə (öz hədəqəsində, öz dairəsində) üzər"* ["*Yasin",* 36/40]. Günəşdən ayrılan enerjinin yerə çatan hissəsi işıqlı nöqtə kimi, sap kimi görünür. Fələk aləmin başlanğıcından bəri hər şeyə şahiddir. Ona görə də şairlər ona müxtəlif epitetlər aid etmişlər. Nəfs, qarı (qadın), dünyanı birləşdirən ortaq cəhət onların fitnə, fəsad, yalan kimi bənzətmələrlə ifadəsidir. Nəfsin qarı (qadın) obrazında verilməsi qadının həssas olması, hərislik kimi əmmarə nəfsin xüsusiyyətlərini daşıması ilə bağlı ola bilər. Həvvanın Adəmi yoldan çıxarması, Nuh tufanının qarının təndiri ilə başlaması, Nuh və Lut peyğəmbərlərin qadınlarının cəzalandırılması kimi qissələrdə yer alan görüşlər də söylənənlərə əyandır. Əsərlərdə də dünya, fələk üzü bəzəkli, riyakar, cadugər qarı kimi təsvir olunur. "İskəndərnamə"də Nizami fələyi insanın qəsdinə duran, üzdə oxşayan, altda öldürən riyakar varlıq kimi təsvir edir, ona inanmamağı tövsiyə edir:

ساز زرق دوی‌جا ایـ ن جـ فت مـ شو

[7, s.39]

(*Hiylə, ovsun edən bu qarı (ilə) danışma*).

Quranda qadın həm də "nəfsin azuladığı" şeylər sırasında verilir. Bununla belə, qadın klassik ədəbiyyatda həm də salikin kamillik yolunda irəliləməsində yoldaşdır, bir vasitədir. "Leyli və Məcnun" dastanında Məcnunun Həqiqətə doğru yolu Leylidən başlayır, nəfsindən arınır, kamil insan olur. Digər örnək Məryəm obrazıdır ki, nəfsi-kamiləni təmsil edir. Bu mənada qadın nəfsin müxtəlif mərtəbələrini təmsil edir. "Yusif və Züleyxa" qissəsində Züleyxa əvvəlcə nəfsi-əmmarə olduğu halda, sonradan nəfsi-mütməinə qədər yüksəlir.

Digər metaforaya – ipə gəldikdə isə, o bəzən günəşin ipi kimi (şüası) işlədilir. "Səadətnamə"də Şəbüstəri ip metaforunu üç dəfə işlədir və bunlardan ikisi günəşin ipi anlamını daşıyır. Bir beytdə deyilir:

سر او بر قباب قبهٔ عرش

پای او در طناب خیمهٔ فرش

[1, s.191]

(Onun başı Ərş qübbələrinin üzərində, ayağı fərş xeyməsinin ipindədir).

Fərş yer üzüdür. Ərşin fərşə bağlanması nəzərdə tutulur. Ərşin fərşə bağlanması odur ki, ərş və kürsi insana bağlıdır, cisim ruha bağlı olduğu üçün onunla birlikdə vardır. Mövlana da ərşin fərşlə bağlanmasını izah edərkən deyir: *"Cisim can ayağında ip kimidir, onu göydən yer üzünə çəkir"* [2, s.261].

Əslində Şəbüstərinin yuxarıdakı beytdə nəzərdə tutduğu əqli-fəaldır. Nizami isə "can ipi" ifadəsi işlədir:

رشته جان بر جگرت بسته اند

گوهر تن بر کمرت بسته اند

[7, s.32]

Ruh ipini ürəyinə bağlayıb,

Cismin gövhərini belinə (kəmərinə) bağlayıb.

Mütəfəkkirə görə, ruh cismə sanki bir iplə bağlanmışdır. Bu şəkildə bağlılıq anlayışı öz qaynağını *"Əraf"* surəsinin 172-ci ayəsindən götürür. Ayədə deyilir: *"...bir zaman Rəbbin Adəm oğullarının bellərindən (gələcək) nəsillərini çıxarıb onları özlərinə (bir-birinə) şahid tutaraq: "Mən sizin Rəbbiniz deyiləmmi?" – soruşmuş, onlar da: "Bəli, Rəbbimizsən!" – deyə cavab vermişdilər.* Bu, ruhlarla Yaradan arasında ilk əhd idi. Əslində burada zərrə şəklində zürriyyətlərin (ruh) cəmi nəzərdə tutulmur, çünki bu əhd məcazi anlamda olub cismin-bədənin yaradılmasına işarə edir. Yəni bu mərhələ hər insanın ata belindən ana rəhminə keçməsi dövründən başlayıb, onun yaranma dövrəsinin tamamlayaraq dünyaya gəlməsi və yetkinlik çağına girənə qədərki dövrü əhatə edir. Çünki bu dövrə tamamlandıqdan sonra insan təfəkkür edə bilir, dərk edə bilir. İnsana elə bir fitri istedad verilmişdir ki, insanın ağlı, qəlbi maddi və mənəvi aləmi qavramağa qabildir. Bu Yaradanla insan arasında bəyan edilməmiş əhddir. Çünki insan içində olanı kəşf edir. Bu da Yaradanın "Mən sizin rəbbiniz deyiləmmi" sualına səssiz şəkildə "bəli" cavabının dəlilidir. "Günəşin ipi" ifadəsini izah edərkən Şəbüstəri əvvəlcə "bəzmi-ələst"dəki zərrəni xatırladır:

الـ ست خطاب از آن کـه بـ ود ذرّه

بـ ست در مـ یان «بـ لی» جواب بـ ه

[1, s.159]

(*Ələst xitabına "bəli" cavabı deyən, o əhdə bel bağlayan kimsə zərrə idi*).

Şəbüstəri də digər sünni kəlam alimləri kimi bu fikirdədir ki, Allah insanın feilən dünyaya gəlişindən əvvəl ondan əhd almışdır. Bütün insanların zürriyyəti Adəmin belindən zərrə şəklində çıxarılmış,

onlara ruh və ağıl verilərək ilahi xitab edilmişdir. Onlar da buna sözlə cavab vermişlər. Zərrənin yerini isə Şəbüstəri belə müəyyənləşdirir:

است تابان مهر نور از ذرّه
است شد تابان او سوی بدو هم
[1, s.159]

(*Zərrə parlayan günəşin nurundandır, üstəlik başlanğıca (günəş) tərəf tələsəndir*

بست جان بر که تا مهر رشته
نشد ست فرو طلب از زمان یک
[1, s.159]

Günəşin ipi cana bağlanmayınca, bir müddət onu tələb etməkdən əl çəkmədi).
"Günəşin ipi cana bağlanmadıqca" dedikdə Yaradanın ipi nəzərdə tutulur [Ali-İmran 3:103].
Nizami də İskəndərin dili ilə insanın canının bir iplə bağlı olduğunu xatırladır:

نه زین رشته سر می توان
نه سر رشته را می توان یافتن
[7, s.39]

(Nə başını ipə əyə bilmir, nə də ipin başını tapa bilmir).
Göründüyü kimi, orta əsr müəllifləri ilahi hikməti açıqlamaq üçün sadə həyati həqiqətlərə diqqət yetirir, onun arxasındakı gerçəkliyi görməyə çağırır. Bu hekayələrdə rəmzi dil diqqəti çəkir. Bu real hekayələrdən istifadə sufilər üçün ideal bir üsul idi. Çünki rasional düşüncə qissələrlə gələn mücərrəd hekayələri süzgəcdən keçirməkdə çətinlik çəkir. Hekayələr istər mücərrəd olanı real göstərməyə qabil olduğu üçün, istərsə də duyğulara xitab etdiyi üçün klassik əsərlərin dilini asanlaşdırmaq baxımından uğurlu bir vasitədir. İnsan həyatı hekayələrlə zəngindir, belə ki, hər duyğunun arasında bir hekayə gizlidir. Beləcə bunun fərqinə varan filosoflar da əsərlərinə həyat hekayələri, bəzən də mənqəbələri daxil etməklə əsərlərini daha zövqlü və hər kəs üçün anlaşılan etmişlər.

Ədəbiyyat

1. ،نیارفعال براتم ،نیقحمال رآتم - نیقیال قح ،هامنادتعس راز، نشلگ :ریتسبش ودمحم خیش ارآث هوعمجم ص 420 ش،1365 طهوري، :تهران موحد، صمدت صحیح
2. Konuk, Ahmed Avni. Mevlânâ'nın Mesnevî-i Şerif Şerhi (1-13 Cilt). Kitabevi Yayınları, 2008. C.12, s.261
3. Qurani-Kərim. tərcümə: Z.Bünyadov, V.Məmmədəliyev. Bakı: Çıraq, 2005.
4. Mahmud Şəbüstəri. Səadətnamə. tərcümə: Məmmədova S. Bakı, Elm və təhsil, 2022. 212s.
5. Serrac, El-Lüma. İslam tasavvufu (trc.H.Kamil Yılmaz), İstanbul, 1996.
6. Topbaş O. N. İmandan ehsana təsəvvüf. Bakı: İpəkyolu nəşriyyatı, 2009, 576 s.
7. https://ganjoor.net/nezami/5ganj

РЕЗЮМЕ
СУФИЙСКИЕ МЕТАФОРЫ В ФИЛОСОФСКОЙ ПОЭЗИИ
Мамедова С.

Ключевые слова: *суфий, символ, Шабустари, Низами, суфийские истории*

В суфийской литературе под словом смысл подразумевается значение, скрытое за словом, смысл которого никто иной понять не сможет. С целью раскрытия божественной мудрости, средневековые авторы сосредотачиваются на простых жизненных истинах, призывая увидеть за ней реальность. В этих рассказах особо примечательным является язык символов Использование этих реальных историй являлось идеальным методом для суфиев. В статье говорится об идее, характерной для символов, используемых в образцах классической азербайджанской литературы эпохи средневековья. Также проводится сравнительный анализ символов, используемых в произведениях Низами Гянджеви, Махмуда Шабистари, Юнуса Эмре, Мовланы Джалалуддина Руми

SUMMARY
SUFI METAPHORS IN PHILOSOPHICAL POETRY
Mammadova S.

Key words: *Sufi, Symbol, Shabustari, Nizami, sufi stories*

In Sufi literature, a symbol is understood as a meaning hidden behind a word that no one else understands. Medieval authors used to focus on simple life truths to reveal divine wisdom, calling to see the reality behind it. In these stories, symbolic language is especially noteworthy. Using these real stories was an ideal method for the Sufis. The article talks about the idea characteristic of the symbols used in examples of classical Azerbaijani literature of the Middle Ages. Also symbols used in the works of Nizami Ganjavi, Mahmud Shabustari, Yunus Amre, and Movlana Jalaladdin Rumi is analyzed comparatively.

HUMAYUN MUĞAMINDA BƏDİİ-ESTETİK XÜSUSİYYƏTLƏR

Qəniyev T.X.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
qeniyev.telman@gmail.com

Açar sözlər*: *muğam, professional, janr, bədii-estetik, xarakter

Estetik xüsusiyyətlərdən danışarkən ilk növbədə insan hissiyatı və duyğuları əsas əhəmiyyət daşıyır. XVIII əsrdə tanınmış alman filosofu Aleksandr Qotlib Baumqarten (1714–1762) tərəfindən elmə gətrilən bu termin gözəllik nəzəriyyəsi, "Hissi idrak elmi" adlandırmışdır. Bu anlayış nəticəsində yaranan idrak nəzəriyyəsi klassik fəlsəfənin sonrakı inkişafı üçün böyük əhəmiyyət daşıyaraq, həmçinin bir çox elmlərin dəinkişafına təsir göstərmişdir. Lakin estetik fikrin tarixi daha qədim olaraq, hələ 2500 il bundan əvvəl quldarlıq dövründə Misir, Babilistan, Hindistan və Çində yaranmışdır. Qədim Yunanıstan və Qədim Romada isə estetik fikirlər inkişaf edərək, antik filosofların əsərlərində öz əksini tapmış, xüsusənestetik düşüncəyə dair incəsənətin cəmiyyətdə rolu, eləcə də insan əxlaqına təsiri barədə geniş fikirlərin yaranmasına səbəb olmuşdur. Lakin ən inkişaf etmiş estetik fikirləri antik Yunanıstana aid etmək olar. Çünki bu qəbildən olan biliklər orada fəlsəfi sistemin tərkib hissəsi kimi qəbul olunurdu [4].

Onu da qeyd etmək lazımdır ki, estetikada mövcud olan funksional özünəməxsusluq,onun mədəniyyətdə yeri və fəaliyyət formaları ilə də fərqlənmişdir. Tarixin müxtəlif inkişaf dövrlərində yaranan bir çox elm sahələri ilə yanaşı, incəsənətin növlərinin və janrlarının, habelə cərəyanların, üslubların, metodların və digər cəhətlərin meydana gəlməsi müxtəlif cəmiyyətlərin estetik inkişafını əsas amillərindən birinə çevirmişdir. Bu cəhət müasir dövrümüzdə də cəmiyyətin bədii inkişafının xüsusiyyətlərinə geniş təsirini göstərməkdədir. Məhz buna görə də, bədii-estetik cəhətlər, estetik xüsusiyyətlərin bir qolu kimi əsas qayə təşkil etmişdir.

Son illərdə respublikamızda da dövlət tərəfindən incəsənətimizin müxtəlif sahələrinə göstərilən qayğı, həmçinin xalq musiqisinə verilən dəyər, cəmiyyətimizdə yeniyetmələrimizin və gənclərimizin bədii-estetik tərbiyəsində mühüm rol oynamaqdadır. Bu baxımdan muğam sənəti sahəsində keçirilən simfoziumlar və müxtəlif musiqi festivalları qeyd etdiklərimizə ən gözəl örnəkdir. Cünki "musiqi hər şeydən əvvəl insan hisslərini, əhval-ruhiyyəsini, ruhi həyatını özündə əks etdirir" [5].

Elə bu baxımdandır ki, Azərbaycan professional xalq musiqisinin bir qolu olan muğam sənətinin araşdırılması bir çox estetik fikirlərin formalaşmasına zəmin yaradır.Belə ki, muğam və onun şöbə və guşələrində səslənən intonasiyalar insanın ruhi qidasını, həyat və məişətində baş verən müxtəlif ictimai-tarixi hadisələrin əks olunmasında da öz əhəmiyyəti ilə seçilir. Azərbaycan muğamları məzmun və formasına görə keçmiş, indiki və gələcək zamanla sıx bağlılıq təşkil etmişdir [2]. Bundan əlavə muğam hissələrinin adlarının qədim yer, coğrafi ərazi, tarixi şəxsiyyətlər, tayfa adları və s. ilə bağlı olması da diqqət çəkir [3].

Bu cəhətlər Azərbaycan muğamları arasında özünəməxsus yeri olan "Hümayun" muğamında da öz əksini tapır.Bədii-estetik cəhətdən muğamın şöbə və guşələrində ardıcıllaşan xarakterlərin müxtəlif intonasiyalar vasitəsi ilə ifadə olunması, onların insanahissi-emosional təsiri barədə araşdırma aparmaq yerinə düşərdi. "Hümayun" muğamı haqqında onu demək olar ki, "hümayun" sözü cənnət quşu, şahlıq quşu mənasını daşıyırsa, onun 2-ci mənası uğurlu, sədaqətli deməkdir.Bu muğamı dinlədikdə insan qəm-qüssə, kədər əhval-ruhiyyəsinə qərq olur. Bu muğam 2 gəncin qız və oğlanın ülvi hisslərini, iztirabla dolu günlərini, xoşbəxt olmaq arzularını özündə əks etdirir[7].

Muğamda "Bərdaşt", "Mayə", "Bəxtiyari", "Feli", "Möləvi", "Şüştər", "Tərkib", "Bidad", "Məsnəvi" və "Hümayun"a ayaq kimi şöbə və guşələr ardıcıllaşır. Bu adlara və muğamın şöbə guşələrində səslənən intonasiyalara nəzər saldıqda "hissi qavramaya daxil olan" bir çox bədii-estsetik tərəflər aşkarlanır.Belə ki, "Bərdaşt" və "Mayə" şöbələri özündə qəm-kədər hissini ifadə edərək zil və bəm registrləri əhatə edir. Lakin"Bəxtiyari" guşəsi isə mayədən sonra səslənir. Bu adİran ərazisində yaşayan dilləri Hind-İran qrupuna aid edilən "Lur" xalqının yarım qrupuna daxil olan tayfanın adı ilə eyniləşir. Lakin burada xarakterik cəhətdən bir melanxoliklik özünü göstərir. Süstlük və sakitlik hissi-emosional təsiri altında olan qəhrəmanın obrazı ağır tempdə aşağı registrli intonasiya səsələnmələri ilə diqqət çəkir. Xüsusən "Mayə" şöbəsinin ifasında Azərbaycanmilli musiqi aləti olan tardasim üzərində barmaq sürüşdürməsi, sekundalı-dissonanas harmonik interval səslənməsi, alt mizrabların istifadəsi və digər ifa üsulları bu intonasiyaları dinləyici üçün daha təsirli və maraqlı edir [1].

"Bəxtiyari" guşəsindən sonra nisbətən aktivləşən və dərhal yenə sakit xarakterdə təqdim edilən həcmcə kiçik "Feli" guşəsi diqqət çəkir. Burada kvarta intervalı həcmində sıçrayışlı səslənmə əvvəldə özünü

göstərir. Adından göründüyü kimi feli sözü mənasına görə özündə hal və hərəkəti ehtiva edir. Bundan sonra "Feli"nin dramaturji inkişaf mərhələsi kimi səslənən "Möləvi" şöbəsində də kvarta intervalı həcmində sıçrayışlı səslənməbaş verir. Bu zaman xarakter dəyişərək mətn və sərt şəkildə intonasiya edilən xolerik xarakterliyə malik olur. Bu ad XIII əsrdə Türkiyədə Mövlana Cəlaləddin Rumi tərəfindən əsası qoyulmuş həmin adlı təriqətlə də əlaqələndirilir[6].

Buradan işə Süstər muğamına modulyasiya edilən səslənmə aşağıdan yuxarıya doğru melodik hərəkət sakit səslənmələrə nisbətən dinamiklik təşkil edir. Bu səslənmələr sanki əzablı günləri göz önünə gətirir. "Tərkib" söbəsində isə qəhrəmanın xarakteri daha mübariz vəqabarıq intonasiya ilə səslənir. Bu səsələnmələr kuliminasiyaya doğru yönəlir. "Bidad" adlanan şöbə isə özündə tam kulminasiyanı əhatə edərək, mayənin zili,yəni ən yüksək pərdəsi kimi qəhrəmanın mübariz xarakterinin daha da coşqunluğunu əhatə edir. "Bidad" adından göründüyü kimi haqsızlıqdan şikayət kimi xarakterizə olunur. Ay aman, ay dad, ay dadi-bidad, yəni ey İlahi, Ay Allah kəlmələrinin prototipi olaraq "Bidad" muğamın əsas şöbələrindən biri olur. Burada son ardıcıllaşan şöbə isə "Məsnəvi"şöbəsidir. Bu şöbəyə həm də "Kiçik məsnəvi" də deyilir. Burada səslənmə yeni xüsusda nisbətən həzin xarakterdə təqdim olunur. Məsnəvi sözü ərəb sözü olub ikilik mənasını daşıyır. Bir termin olaraq klassik Azərbaycan ədəbiyyatında isə həm də bir şeir forması kimi mövcud olmuşdur. "Məsnəvi" şöbəsindən sonra yenidən qəm-qüssə xarakterli "Hümayun"ə ayaq adlanan guşə səslənir. Beləliklə, muğam sona yetir.

Ədəbiyyat

1. Абдуллаева С.А.Народные музыкальные инструменты Азербайджана. Баку, АГИ, 1972, 36 с.
2. Абдуллазаде Г.А.Философская сущность Азербайджанских мугамов. Баку, Язычы, 1983, 39 с.
3. Bədəlbəyli Ə. İzahlı monoqrafik musiqi lüğəti. Bakı, Elm, 1969, 245 s.
4. Hacıyeva. N. Estetika, peşə etikası və psixologiya. Bakı, Şərq-Qərb, 2012,128 s.
5. Хохлов. Ю . О музыкальной программности. М., ГМИ, 1963, 145 s.
6. Mövlana Cəlaləddin Rumi, Məsnəvi I cild (I və II dəftər).(Hazırlayan: Prof. Dr. Adnan Qaraismayıloğlu) Naxçıvan, 2012, "Əcəmi, 504 s.
7. Zöhrabov R. Muğam. Bakı, Azərnəşr, 1991, 119 s.

РЕЗЮМЕ

ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ В МУГАМЕ ХУМАЮН

Ганиев Т.

Ключевые слова*: *мугам, профессионал, жанр, художественно-эстетический, образ

Изучение художественно-эстетических аспектов азербайджанских классических мугамов повышает отношение народа и молодежи к этому жанру в нашем современном обществе. Этот жанр, как и профессиональная народная музыка Азербайджана, выделяется своей актуальностью и сегодня. Эти аспекты более отчетливо раскрываются при исследовании художественно-эстетических особенностей мугама «Хумаюн», одного из классических мугамов Азербайджана. Возникает необходимость исследовать важные аспекты особенностей звучания в зависимости от интонаций в разделах мугама и их влияние на чувства человека. Эти аспекты находят свое значение во внутренней структуре мугама.

SUMMARY

ARTISTIC AND AESTHETIC CHARACTERISTICS IN HUMAYUN'S MUGAM

Ganiyev T.

Keywords*: *mugham, professional, genre, artistic and aesthetic, character

The study of the artistic and aesthetic aspects of the Azerbaijani classical mughams increases the attitude of your people and youth towards this genre in our modern society. This genre, like the professional folk music of Azerbaijan, stands out for its relevance today. These aspects are more clearly revealed in the study of the artistic and aesthetic features of the "Humayun" mugham, one of the classic mughams of Azerbaijan. There is a need to investigate important aspects of the features of sound depending on the intonations in the branches and corners of mugham and their influence on human feelings. These aspects find their meaning in the internal structure of mugham.

IX BÖLMƏ

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA

YENİ ÇAĞIRIŞLAR ŞƏRAİTİNDƏ UNİVERSİTET ELMİNƏ VƏ TƏHSİLİNƏ KONSEPTUAL YANAŞMALAR

Əliyev Ş.T.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor
shafaaliyev@gmail.com

Açar sözlər: *yeni çağırışlar, universitet, elm, təhsil, elmi tədqiqatlar, təhsilə konseptual yanaşmalar.*

Qlobal Covid-19 pandemiyasının təsirindən yaranan yeni çağırışlar və ümumilikdə, dünyada ali təhsil sistemində gözlənilən dəyişikliklər bir sıra məsələlərə xüsusi diqqət yetirməyi tələb edir. Dünya Universitetlərinin fəaliyyəti ilə bağlı olaraq beynəlxalq reytinqlərin təhlili göstərir ki, ilk 20-də və ya 30-da olan universitetlərin əksəriyyəti bir çox ümumi xüsusiyyətlərə malikdir və bu universitetlərdə, eyni zamanda, müxtəlif dünya ölkələrinin ali təhsil sistemində bir qrup məsələlər daha çox diqqət mərkəzindədir: 1) çoxlu sayda istedadlıların cəmləşməsi, yəni istedadlı müəllim və tələbələrin böyük faiz təşkil etməsi; 2) qabaqcıl tədqiqatların aparılması və idarəetmənin təşkili, yüksək səviyyəli təhsil üçün keyfiyyətli şəraitin yaradılması ilə bağlı kifayət qədər resurs təminatının olması; 3) ali təhsil müəssisələrinin innovatik və çevik strateji yanaşmalarının mövcudluğu; 4) elmi-tədqiqat və layihə-konstruktor işlərinin ali təhsil müəssisələrində güclü komponent kimi olması və bunun onların nüfuzlarına müsbət təsir göstərməsi ("beyin mərkəzləri"nin rolunu artması); 5) biznes və innovasiya sistemləri ilə sıx institusional əlaqələrin olması və s.

Bütün bunlar universitetlərin çoxfunksiyalı fəaliyyətinə əlavə imkanlar yaradır və onların gəlirlərinin şaxələndirilməsinə, eyni zamanda, əldə olunan elmi nəticələrin kommersiyalaşdırılması üçün investorların cəlb edilməsinə və iri sənaye şirkətləri ilə əməkdaşlığın daha səmərəli təşkilinə əlavə imkanlar yaradır [2, s.15]. Müasir dövrdə universitetlərin inkişaf strategiyalarında tədqiqata yönəlik önəmli yer tutur və dünya universitetləri uyğun tədqiqat mərkəzləri, sonrakı mərhələdə isə "beyin mərkəzi" formalaşdırmaq istiqamətlərində fəaliyyətlərini genişləndirməkdədilər. Bu baxımdan, universitetlərdə uyğun elm istiqamətlər üzrə tədqiqat mərkəzlərinin yaradılması prosesləri ardıcıl xarakter daşımalıdır. Analoji mərkəzlər elmi-tədqiqatlara marağı artırar, universitetlərin nüfuzunu yüksəldər və göstəricilərini yaxşılaşdırmaqla bərabər, beynəlxalq reytinqinə müsbət təsir edər.

Yeni çağırışlar təkcə bu qeyd olunanlarla bitmir, belə ki, tələbələrin təhsil proseslərinin və tədris proqramlarının yüksək səviyyədə çevik və tarazlı olması, müasir çağırışları özündə əks etdirməsi vacib məsələlər kimi xarakterizə edilirlər [4, s. 59]. Bunlarla bərabər, universitetlərin adekvat olaraq qlobal bazarın çağırışlarına reaksiyalar verməsi və zəruri tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir [6, s. 101]. Dövrün obyektiv reallıqlarını özündə əks etdirən yeni tədris planları və proqramlarının hazırlanması, universitetlərdə çoxfunksiyalı elmi-tədqiqat mərkəzlərinin, laboratoriyaların və şöbələrin yaradılması lazım gəlir. Digər mühüm bir məsələ yeni ideyalara və novatorluğa malik professor-müəllim heyətinin formalaşdırılmasıdır və əslində bu, fikrimizcə, universitetlərin ən dəyərli sərvəti və varlığı kimi dəyərləndirilməlidir. Müəllim-professor heyəti arasında sağlam və şəffaf rəqabət mühitinin formalaşdırılması və motivasiyanın artırılması, reytinq sisteminin tətbiq olunması, ədalətlilik prinsipinin qorunması, hər bir novatorluq təşəbbüsünün stimullaşdırılması vacib şərtlərdəndir.

Universitet təkcə bilik vermək üçün yox, həm də cəmiyyət üçün yararlı insanların formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, gənclərin formalaşmasında, vətənpərvər ruhda inkişaf etməsində, dünyagörüşünün artmasında unuiversitet həyatının ciddi səmərəsi vardır. Bu amillər baxımından hazırkı şəraitdə universitetlərdə tələbə həyatının müxtəlifliyi və rəngarəngliyi təmin edilməlidir, digər tərəfdən, auditoriyaya daxil olan hər bir müəllimin peşəkarlıq səviyyəsi adekvat meyarlara cavab verməlidir. Məsələn, auditoriya müəllimlərinin tədrislə bağlı keyfiyyət məsələləri xüsusi diqqət mərkəzində saxlanılmalıdır. Hazırda ingilis dili dünya elm və təhsilində hegemonluq edir, bununla bərabər, dünya alimlərinin və tələbələrinin formal və qeyri-formal ünsiyyətlərində başlıca yer tutur. Təsadüfi deyildir ki, nüfuzlu elmi jurnallar ingilis dilində nəşr olunur və buna görə də universitetlər bu reallıqları nəzərə

almalıdırlar. Yəni, Web of Science və Scopus bazası ilə bağlı dərc olunma strategiyası işlənilməli və bu istiqamətdə zəruri tədbirlər görülməlidir.

Yeni çağırışlardan ortaya çıxan digər bir qrup amillərə diqqət yönəltmək istərdik. Müasir "rəqəmsallaşma inqilabı", böyük ölçüdə istehsalın və ictimai həyatın bütün sahələrində geniş həcmdə kompüter texnologiyalarından istifadəni nəzərdə tutur və buna görə də rəqəmsal texnologiyaların tətbiqi üzrə strategiyanın olması məsələsi universitet rəhbərliyinin xüsusi diqqət mərkəzində olmalıdır. Mühazirə deyən müəllimlərlə tələbələr arasındakı münasibətlərdə "monoloq" formatı ikincilərdə psixoloji komplekslər yaratdığından, mühazirələrin daha yaradıcı üslubda hazırlanması, kreativ texnologiyalar əsasında tələbələrə çatdırılması gərəkdir. Bu amillər baxımından, dövrümüzün reallıqları nəzərə alınmalı və dəyərləndirilməlidir. Belə ki, tələbələrin yeni texnologiyalardan sürətlə formalaşan yetkin ağlı mühazirələrin ləng prosedurlarına qarşı biganəlik göstərir və nəticədə bu qəbildən olan dinləyicilər demək olar ki, mühazirələrə qulaq asmaq istəmirlər və yaxud onlar üçün analoji mühazirələr maraq kəsb etmir [3, s. 28].

Qeyd edək ki, Azərbaycanda son illərdə elm və təhsilin vəhdətinin gücləndirilməsi üçün tədbirlər görülməkdədir. Buna bariz nümunə kimi Azərbaycan Milli Elmlər Akademiyasının bir qrup Elmi-tədqiqat İnstitutları birləşdirilməklə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin yaradılmasını göstərmək olar [1]. Bizə görə, Elm və Təhsil Nazirliyinin yaradılması hesabına ölkəmizdə elmi-tədqiqatlara dünyəvi yanaşmaların təmin olunması prosesləri intensivləşəcəkdir. Məlumdur ki, dünya təcrübəsində təhsillə elmin inteqrasiyasına daha çox önəm verilməkdədir və ölkənin təhsil sisteminin strateji missiyası, ilk növbədə hazır bilikləri öyrətmək və eyni zamanda, onun mənimsənilməsinə nail olmaqdır.

Bu şəraitdə universitet elminin əsas vəzifəsi yeni, həm də innovativ ideyaları işləmək, formalaşdırmaq, araşdırmalar aparmaq, ixtiralar və kəşflər etmək, ümumilikdə fundamental şəkildə öyrənməkdir. Azərbaycan müstəqil dövlət kimi, həm də regionun lider ölkəsi statusunda dünyanın bir parçasıdır və son illərdə ölkəmizin rəqabət qabiliyyəti, beynəlxalq imici daim yüksəlməkdədir. Məhz belə bir şəraitdə ölkəmizdə elm və təhsil sahəsində köklü islahatların aparılması, elm-təhsil inteqrasiyasının dərinləşdirilməsi sayəsində Azərbaycan özünün intellektual resurslarından daha səmərəli və məhsuldar istifadə etməyə nail ola bilər.

Amma, hesab edirik ki, bunun üçün daha çox fundamental tədbirlər görülməli və elmi-tədqiqatların genişləndirilməsi hesabına universitetlərdə nəticəyönlü fəaliyyətin təşkilinə nail olunmalıdır. Bir sözlə, əldə olunan elmi – praktiki nəticələr istehsal sahələrinə yol açmalı və kommersiyalaşmalıdır [5, s. 329] Ümumilikdə, ali təhsilin səviyyəsinin artırılması istiqamətində görülən tədbirlər və atılan addımlarla yanaşı, elmi tədqiqatların sistemli xarakter almasından ötrü vacib əsasların formalaşdırılması prosesləri sürətləndirilməlidir. Bunlar sayəsində yaxın və uzaq perspektivdə Azərbaycan universitetlərinin dünyanın TOP-500 universitetləri sırasına yüksəlmək şansları arta bilər. Eyni zamanda, hesab edirik ki, ölkə universitetlərinin bu istiqamətdə ciddi fəaliyyət strategiyaları hazırlanmalı və reallaşdırılmalıdır.

Fikrimizcə, universitetlərimizin dünya səviyyəsində fəaliyyətinin daha nəticəyönlü təbliğatı və təşviqi məqsədilə iqtisad üzrə Nobel mükafatı laureatları ilə əlaqələrin yaradılması və mütəmadi olaraq onların Azərbaycana dəvət edilməsi ənənəsi sistemləşdirilməlidir. Burada qlobal iqtisadiyyata, təhsil və tədrisə, tədqiqata baxışlar, Azərbaycan iqtisadiyyatı haqqında müzakirələr istiqamətində böyük auditoriyaya hesablanmış tədbirlərin və görüşlərin keçirilməsi, mühazirələrin oxunması nəzərdə tutula bilər. Eyni zamanda, son illərdə bir neçə universitetlərimiz beynəlxalq səviyyədə tanınmaqdadırlar. Amma, TOP-500 universitetlər sırasına daxil olmaq üçün, məhz ilk 500-də olan, yaxşı olardı ki, ilk 200-də olan universitetlərlə mümkün qədər əməkdaşlıq əlaqələri, tələbə və tədqiqatçıların, müəllim və professorların mübadiləsi həyata keçirilsin.

Bu kimi tədbirlərin coğrafiyası da geniş olmalıdır və müasir dövrümüzdə təhsil və elmin inteqrasiyasının güclü olduğu ölkələr, məsələn, konkret olaraq, Qərbi Avropa ölkələri, ABŞ, Cənubi-Şərqi Asiya ölkələri, ilk növbədə Çin, həmçinin Cənubi Koreya və ya Yaponiya kimi ölkələrin universitetləri ilə bakalavr və magistr təhsili üzrə ikili diplom layihələrinin reallaşdırılmasına və elmi-tədqiqat istiqmətində əməkdaşlığın gücləndirilməsinə ciddi önəm verilməlidir. Başqa bir mühüm məsələyə də toxunmaq istərdik, xaricidən ölkəmizdə təhsil almağa gələnlərin sayının artırılması istiqmətində məqsədli işlər aparılmalıdır. Bunun üçün universitetlərin əcnəbi tələbələr, magistrlər və doktorantlar üçün təhsil strukturunun yenidən qurulması və hədəflərin yüksəldilməsi tələb olunur.

Beləliklə, müasir çağırışlar baxımından universitet elminə və təhsilinə konseptual yanaşmalar bir sıra məsələlərin aktuallığını ön plana çıxarır və bunlarla bağlı təklif və tövsiyələri ümumiləşdirmişik:

– Ənənəvi təhsil üzrə mühazirələrin keçirilməsində dəyişikliklər qaçılmazdır, buna görə də mühazirələrdə ənənəvi yanaşma ilə bərabər, ayılan vaxtın bir hissəsi dialoq və diskussiya formasında tövsiyə olunur;

– Mühazirələr mütləq şəkildə müasir yenilikləri və çağırışları özündə əks etdirməli, yorucu və yeknəsək olmamalı və tələbələr tərəfindən maraqla qarşılanmalıdır;

– Universitet kitabxanasında günün 24 saatı ərzində əlçatan olan elektron resurslar və asan yüklənən resurslar yaradılmalıdır və tədris olunan kursların fənn proqramlarına uyğun ədəbiyyatlar yerləşdirilməlidir;

– Qeyd etdiyimiz kimi, professor-müəllim heyətinin rəqabətqabiliyyətliliyinin artırılması üçün qiymətləndirmə mexanizminin – reytinq sisteminin tətbiqi zəruridir;

– İngilis dilinin dünya elmində və təhsil sistemində əsas yeri tutması səbəbindən, bu istiqamətdə universitetlərdə görülən işləri daha da dərinləşdirmək tələb olunur, təklif kimi professor-müəllim heyəti üçün akademik ingilis dili səviyyəsinə çatmağa imkan verən 2 illik tədrisin təşkili, məsələn həftədə 3 dəfə 2 akademik saat olmaqla, hesab edirik ki, səmərə verə bilərdi.

– Elmi tədqiqatların kompleks və sistemli, ardıcıl şəkildə təmin edilməsi məqsədilə, Universitetlərdə müasir çağırışlara uyğun tədqiqat mərkəzlərinin yaradılmasına xüsusi diqqət yetirilməlidir;

– Universitet əməkdaşlarının və tədqiqatçı-alimlərin Web of Science və Scopus bazasında olan nüfuzlu elmi jurnallarda dərc olunmaları üzrə motivasiyasının gücləndirilməsi vacibdir;

– Professor-müəllim heyətinin İKT texnologiyalarının mənimsənilməsi səviyyəsinin artırılması üçün əlavə tədbirlərin görülməsi qaçılmazdır;

– Professor-müəllim heyəti ilə tələbələr arasında sosiallaşma və ünsiyyətin dərinləşdirilməsi üzrə xüsusi strategiyanın işlənib hazırlanması və reallaşdırılması daha münbit tədris prosesi formalaşdırar və istedadlı tələbələrin elmi tədqiqatlara cəlb olunmasını asanlaşdırar;

– İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və perspektivdə burada 700-800 minə kimi insanın yaşayacağını nəzərə almaqla, regionun inkişaf perspektivlərini, o cümlədən qonşu İranda yaşayan on milyonlarla soydaşlarımızın daha fəal şəkildə inteqrasiyasının mümkünlüyünü əsas götürməklə, Ağdamda, yaxud "Araz Vadisi İqtisadi Zonası"na (Cəbrayıl) yaxın ərazidə "Elm, innovasiyalar və yüksək texnologiyalar parkı" da daxil olmaqla, Müasir Universitetin təsis edilməsi məqsədəuyğundur, bu halda regionun innovasiyalar, "ağıllı" texnologiyalar əsasında inkişafında daha çox uğurlar əldə olunar və s

Ədəbiyyat

1. Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 28 iyul 2022-ci il.
2. Əliyev, Ş.T. Azərbaycanla Türkiyə arasında universitet-sənaye əməkdaşlığının gücləndirilməsində texnoparkların strateji əhəmiyyəti // Sumqayıt Dövlət Universiteti və Yıldız Texniki Universitetinin birgə təşkilatçılığı ilə "Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının strateji istiqamətləri" mövzusunda Beynəlxalq elmi konfrans, 26-27 may 2022-ci il.– s.14-17.
3. Власова, Н.Ю., Молокова Е.Л. Модели высшего образования в условиях сочетания рыночных и государственных регуляторов // Journal of new economy. 2016. №3 (65). – С.26-38.
4. Прохоров, А.В. Модели университета в условиях глобализации // Известия ВУЗов. Поволжский регион. Гуманитарные науки. 2013. №3 (27). – с.56-66.
5. Aliyev, Sh.T., Mamedov Z.F.. Modern universities: new challenges, trends, paradigms and expectations/ 70th International Scientific Conference on Economic and Social Development / Azerbaijan State University of Economics, Faculty of Management University of Warsaw and Faculty of Law, Economics and Social Sciences Sale - Mohammed V University in Rabat and Polytechnic of Medimurje in Cakovec. Baku, Azerbaijan, 25-26 June, 2021.– p.325-334.
6. Aliyev, Sh.T., Mamedov Z.F.. Universities in the modern age: New challenges, trends, paradigms and expectations. Azerbaijan// Journal of Educational Studies. Baku, Vol. 691, 2020. Issue II, pp. 99-115.

РЕЗЮМЕ

КОНЦЕПТУАЛЬНЫЕ ПОДХОДЫ К УНИВЕРСИТЕТСКОЙ НАУКЕ И ОБРАЗОВАНИЮ В УСЛОВИЯХ НОВЫХ ВЫЗОВОВ

Алиев Ш.Т.

Ключевые слова: *новые вызовы, университет, наука, образование, научные исследования, концептуальные подходы к образованию.*

В статье исследуются важнейшие подходы к университетской науке и образованию в современных условиях. Раскрыты стратегические задачи, стоящие перед университетом с учетом его основной миссии. Обоснована важность эффективности полученных научных результатов в интеграционных процессах науки и образования. Рассмотрены актуальные подходы к совершенствованию высшего образования. Отмечена важность осуществления научных исследований, ориентированных на результативность. Подготовлены предложения по повышению эффективности процессов образования и поднятию уровня университетской науки в контексте новых подходов.

SUMMARY
CONCEPTUAL APPROACHES TO UNIVERSITY SCIENCE AND EDUCATION IN THE CONDITIONS OF NEW CHALLENGES
Aliyev Sh.T.

Keywords: *new challenges, university, science, education, scientific research, conceptual approaches to education.*

The article explores the most important approaches to university science and education in modern conditions. The strategic challenges facing the university according its core mission are revealed. The importance of the effectiveness of the scientific results obtained in the integration processes of science and education is justified. Current approaches to improving higher education are considered. The importance of carrying out scientific research focused on effectiveness is noted. Proposals are prepared to improve the efficiency of education processes and raise the level of university science in the context of new approaches.

AZƏRBAYCAN UNİVERSİTETLƏRİNDƏ TƏHSİL SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Səlimov Ş.D.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor
Shirxan.salimov@mail.ru

Açar sözlər: *universitet, təhsil, milli dəyərlər, islahatlar, kadr hazırlığı, humanizm*

Azərbaycanın müstəqillik qazanmasından sonra təhsilimizdə də müstəqil siyasət yürüdülməyə başlandı. Xalqımız bir ictimai quruluşdan digərinə keçdiyindən təhsilimiz də sovet ideologiyasından çıxaraq bəşəri xarakter almağa başladı. [7, s.5]

Müasir Azərbaycan təhsilində ən mühüm amillərdən biri milli və ümumbəşəri dəyərlərin qorunması və onların dialektik vəhdətinin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi, *bununla yanaşı* təhsilin mövcud standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu [1] *təmin olunmalıdır. Müasir dünyada qloballaşma sürətlə getməkdədir və dünyadan təcrid olaraq inkişaf etmək mümkün deyil. Təhsil prosesində iki amili nəzərdən qaçırmaq olmaz. Bunlardan biri min illərlə formalaşmış və inkişaf etməkdə olan milli dəyərlərin qorunması və inkişaf etdirilməsidir. Hər bir millətin yaşaması və gələcəyi üçün milli dəyərlər mühüm rol oynayır. Digər tərəfdən bəşəri dəyərlərdən tamamilə imtina edərək inkişafa nail olmaq mümkün deyil. Ona görə də müasir dünya prosesinin önündə getmək üçün milli və ümumbəşəri dəyərlərin hər ikisindən səmərəli istifadə etməklə təhsilin inkişaf etdirilməsinə nail olmaq olar.*

Təhsil siyasətinin qarşısında duran ən mühüm məsələlərdən biri də tələb-təklif məsələsidir. Bunun üçün tədris prosesində mövcud standart və normalara riayət edilməlidir. Təhsil siyasətində sosial-iqtisadi amillərlə yanaşı dövləti maraqlar da nəzərə alınmalıdır.

Azərbaycan Respublikası müstəqillik əldə edəndən sonra təhsil sistemində islahatların aparılması zəruriyyəti ortaya çıxdı. Dünyanın bir çox ölkələrində gedən təhsil islahatları haqqında informatik məlumatlar verilməklə yanaşı, təhsil sahəsindəki problemlərin obyektiv səbəbləri açıqlanır və mövcud təhsil böhranının aradan qaldırılması üçün atılan zəruri addımlardan da danışılır. [6] *Sovet rejimindən fərqli olaraq müstəqillik dövründə təhsil siyasətinin həyata keçirilməsi Azərbaycan dövlətinin maraqları çərçivəsində baş verir. İlk növbədə Azərbaycan təhsili sovet ideologiyasından azad olaraq müstəqil dövlətimizin və milli maraqlarımıza uyğun olaraq qurulmağa başladı və dünya təhsil siyasətinə uyğunlaşdırılması məqsədilə davamlı olaraq islahatlar həyata keçirildi.*

Təhsil-tərbiyə işinin mərkəzində insan onun maraq və qabiliyyətləri inkişafı durmalı hər şey ona xidmət etməlidir. [9] *Təhsil prosesi zamanı müəllim-tələbə münasibətləri qarşılıqlı hörmət və humanizm prinsiplərinə əsaslanmalıdır. Tələbələrin maraq və qabiliyyətlərinin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmalıdır.*

Ölkəmizdə start götürmüş geniş islahatçılıq hərəkatı çərçivəsində təhsil sahəsində də mühüm dəyişikliklərin, yeniliklərin həyata keçirilməsi obyektiv tələbatdır. [3] *Müstəqilliyin ilk illərində təhsil siyasətində bir sıra çətinliklər mövcud idi. Bunlardan bir qismi sovet rejimindən sonra yeni sistemin yaranması, digər qismi isə iqtisadi böhran və xarici əlaqələrin qurulmasında mövcud olan problemlərlə əlaqədar idi. Lakin buna baxmayaraq sonrakı dövrdə iqtisadi böranın aradan qaldırılmasının nəticəsi olaraq təhsil sahəsində bir sıra islahatlar həyata keçirildi ki, bu da mövcud problemlərin aradan qaldırılmasında mühüm rol oynadı.*

Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf

edir. [5] *Bütün qanunların mənbəyi Azərbaycan Respublikasının Konstitusiyası olduğu kimi təhsil haqqında qanunlar da Konstitusiyadan bəhrələnir və ona əsaslanır. Bu zaman demokratik pronsiplər ön planda dayanır. Azərbaycan vətəndaşlarının təhsil sahəsində hüquq və vəzifələri ön plana çəkilir. Beynəlxalq təhsil sisteminə inteqrasiya diqqət mərkəzində saxlanılır.*

Ali təhsil insan kapitalının formalaşmasında və inkişafında mühüm mərhələdir. Hazırda ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, daha çox əlavə dəyərin yaranmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. [8] *Ali təhsil müəssisələrində kadr hazırlığı zamanı ən mühüm amillərdən biri də kadr hazırlığı zamanı tələbatın nəzərə alınması, əmək bazarının öyrənilməsi məsələsidir. Kadr hazırlığı əmək bazarının tələblərinə uyğun olaraq həyat keçirilməlidir. Bu zaman tələb-təklif məsələsində nisbət gözlənilməlidir. Xüsusilə də tələbatın daha çox olan kadrların hazırlanmasına üstünlük verilməlidir.*

Ədəbiyyat

1. https://aztehsil.com/hn/1119-thsil-sahsind-dvlt-siyastinin-sas-prinsiplri.html
2. https://aztehsil.com/inv/313-azrbaycanda-thsil-sistemi-v-thsil-sahsind-dvlt-siyastinin-prinsiplri.html
3. https://e-qanun.az/framework/5363
4. https://sia.az/az/news/education/879145.html
5. https://unec.edu.az/application/uploads/2015/02/Tehsil-haqqinda-Azerbaycan-Respublikasinin-Qanunu.pdf
6. Qədirov C. Azərbaycanda təhsil sistemi və təhsil sahəsində dövlət siyasətinin prinsipləri
7. Qəzənfəroğlu M. Təhsil dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Xalq qəzeti.- 2010.- 18 iyun.- S. 5.
8. Quliyeva Q. Ali təhsil haqqında "Qanun layihəsi" – nə vəd edir ? Ekspertlər açıqlaması.
9. Təhsil Qanununda təhsil sisteminin əsas prinsipləri öz əksini tapmışdır. https://aztehsil.com/news/9292-tehsil-sisteminin-esas-prinsipleri.html

РЕЗЮМЕ
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ОБРАЗОВАТЕЛЬНОЙ ПОЛИТИКИ В ВУЗАХ АЗЕРБАЙДЖАНА.

Салимов Ш.Д.

***Ключевые слова**: вуз, образование, национальные ценности, реформы, подготовка кадров, гуманизм.*

В представленных тезисах отражены исторические корни нашего национального образования, образовательная политика, проводимая советским режимом в Азербайджане, создание и развитие светской системы образования, основанной на защите национальных и общечеловеческих ценностей и обеспечении их диалектического единства после восстановления независимости. В исследовании также отражены проблемы, существовавшие в образовательной политике в первые годы независимости, отражены реформы в системе образования, организация образования в соответствии с существующими стандартами, вопросы спроса-предложения на рынке труда, подготовка кадров, соблюдение действующих стандартов и норм в образовательном процессе, роль высшего образования в формировании человеческого капитала.

SUMMARY
MAIN DIRECTIONS OF EDUCATION POLICY IN AZERBAIJAN UNIVERSITIES.

Salimov Sh.D.

***Keywords**: university, education, national values, reforms, personnel training, humanism*

In the submitted thesis, the historical roots of our national education, the educational policy implemented by the Soviet regime in Azerbaijan, the creation and development of a secular education system based on the protection of national and universal values and ensuring their dialectical unity after the restoration of independence, the problems existing in the education policy in the first years of independence, the Republic of Azerbaijan After gaining independence, reforms in the education system, organization of education according to existing standards, demand-supply issues in the labor market regarding personnel training, compliance with existing standards and norms in the educational process, and the role of higher education in the formation of human capital were discussed.

STRATEGİYALI OXUNUN TƏŞKİLİ HAQQINDA

[1]Cəfərova N.B., [2]Məmmədova S.Ə.
[1]Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
[2]Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
Cafarova_nabat@mail.ru ; elviz.mamedov@mail.ru

Açar sözlər: *strategiyalı oxu, məqsəd, istiqamət, düşünməyə yönəltmə, dərketmə, düşünmə.*

Strategiyalı oxu vasitəsi ilə şagirdlərdə vətənə məhəbbət, leksik zənginlik, nitq inkişafı, kitaba sevgi, öz məsuliyyətini başa düşmək keyfiyyəti formalaşdırılır[4, s.54]. Strategiyalı oxu təliminin qarşısında inkişafedici vəzifələr durur ki, bu da şagirdlərdə düzgün, sürətli, şüurlu, ifadəli oxu vərdişlərinin yaranmasına, onlarda ana dilinə, kitab oxumağa məhəbbət hissinin tərbiyə olunmasına gətirib çıxarır[10].

Şagirdlərin kitab oxumaq bacarıq və vərdişləri inkişaf etdikcə onlar daha məhsuldar fəaliyyət göstərir, əsər haqqında müstəqil fikirləri meydana gəlir. Şagirdlər əsərin iştirakçılarının davranışını qiymətləndirirlər. Müəllim işini elə qurmalıdır ki, şagirdlər oxunan əsərin həyatlarındakı rolunu başa düşsünlər. Dərk etsinlər, hər bir əsərin oxunması onların dünyagörüşünü artırır, zövqlərini cilalayır, onlara ülvi hisslər yaşadır. Oxunan hər bir mətnin dəyərinin dərk edilməsi, həyatın dərk edilməsinə açar olur.

Dərslik müəllifləri şagirdlərə təqdim edilən mətnlərin məzmununu, ideyasını, şagirdlərin bilik və yaş səviyyəsinə uyğunluğunu diqqət mərkəzində saxlamaqla, daha maraqlı olmasını da nəzərdən qaçırmamalıdırlar. Belə ki, müəllim hansı sinifdə oxumasından asılı olaraq şagirdlərlə işini düzgün qurmalı, strategiyalı oxunun səmərəli keçirilməsinə məsuliyyət daşımalıdır. Oxunması diqqətdə saxlanılan mətnin asanlığı şagirdlərin fəaliyyətini "söndürə" bilər, bu zaman oxunun strategiya ilə aparılmasına lüzum qalmaz. Oxunması nəzərdə tutulan mətnin mürəkkəblik dərəcəsi də şagirdlərin marağına mənfi təsir göstərə bilər və onların oxudan uzaqlaşmasına səbəb olar.

Oxunması təşkil edilən materialın məzmunu şagirdlərin fəallığını yüksəltməyə, axtarıcılıq qabiliyyətlərini gücləndirməyə şərait yaratmalı, onların ümuminkişaf səviyyəsini yüksəltməlidir. Bildiyimiz kimi, eyni sinif şagirdləri arasında fərdi fərqlərin olması, onların strategiyalı oxusunda da özünü göstərir. Odur ki, strategiyalı oxu prosesində hər bir şagirdin qavrama səviyyəsi nəzərə alınmaqla ona uyğun oxu materialı seçilməlidir.

İbtidai siniflərdə oxu təliminin daha səmərəli və intensiv təşkilində ənənəvi təlim üsulları ilə yanaşı, yeni təlim texnologiyalarından istifadənin böyük rolu vardır. Təhsilvermədə şagirdin bilik, bacarıq və vərdişləri, təfəkkürü inkişaf etdirilir.

Belə ki, fəal təlim texnologiyaları şagirdlərin təfəkkür fəaliyyətini stimullaşdırır, biliklərin mənimsənilməsini sürətləndirir, nitq bacarıqlarını inkişaf etdirir və nitq mədəniyyətini formalaşdırır.

Şagirdlərin maraqlandığı məsələlərə müəllimin diqqət yetirməsi və nəzərə alması həm müəllimin, həm də fənnin sevilməsi ilə nəticələnir ki, bu da uğurlu təhsilin əsasıdır. Şagird mətni oxuyur**,** mətndə xoş təsir bağışlayan, həmçinin xoş təsir bağışlamayan məsələlər ortaya çıxır. Xoş təsir bağışlayan məsələlər şagirdlərə sevinc, şadlıq, məhəbbət, xoşa gəlməyən emosiya isə kədər, qüssə, nifrət hissləri yaşadır. Emosional hisslər, emosional yüksəliş şagirdlərin fəaliyyətində dəyişkənliklə müşahidə edilir[3, s.270]. Emosional qavranılan hər bir dərs dərindən mənimsənilir və uzun müddət yadda qalır.

Ş.A.Amonaşvili yazır ki, bəzi müəllimlər pedaqoji ekspressiyaya lazımi diqqət vermirlər. Onlar dərsi qurarkən əsas fikri mövzunun məntiqi açılışına, nümunələrin seçilməsinə, sualların qoyuluşuna, əyani vəsaitlərin tətbiqinə verirlər. Bəlkə də ən əsas şeyi-şagirdləri necə ilhamlandırmağı, onlarda necə nikbin əhval-ruhiyyə yaratmağı yaddan çıxarırlar. Şagirdlərlə müəllim arasında emosional-ekspressiv münasibət olmadan isə şagirdləri dərsin yaradıcı iştirakçısına çevirmək mümkün deyil. Emosional-ekspressiv yaddaş şagirdin davranışında, yoldaşları ilə münasibətində, hərəkərlərində böyük rol oynayır.

Mətnin oxunmasında mütləq şagirdlərin obrazlı təfəkkürünə əsaslanmaq lazımdır. Müəllim təkcə pedaqoji ustalığa deyil, həm də aktyorluq qabiliyyətinə (hisslərin bu və ya digər zahiri əlamətlərdə təzahür edən ifadəsinə) malik olmalı, öz fikrini ifadəli çatdırmaq üçün səsinin ahəngini, mimikasını, əl hərəkətlərini dəyişdirməyi bacarmalıdır. Emosiyalar məhz mətnin oxusu zamanı yüksəlir, ictimai mahiyyət kəsb edir, şagirdlərdə vətənpərvərlik, milli-mənəvi, mədəni sərvətlərimizə sevgi, düşmənə barışmazlıq kimi tərbiyəvi xarakter xüsusiyyətləri formalaşdırır. Estetika-estetik zövqün inkişafı, şagirdlərin bilikləri onların intellektual səviyyəsinin göstəricisidir.

Mətnin strategiyalı oxusu prosesində fakt və hadisələrin müəyyən edilməsi, onlar haqqında düşünmək, şagird təfəkkürünün inkişafını tənzimləyir. Hazırki dövrdə şagirdlərə öyrənməyi öyrətmək texnologiyasını müəyyənləşdirmək əsas vəzifə kimi qarşıya qoyulmuşdur.

Fəal təlim texnologiyalarına əsaslanan dərslərin təşkili müəllim-şagird əməkdaşlığına, onların birgə işləməsinə istinad edir. Müəllimin yüksək səviyyəli elmi-metodik hazırlığı dərslərin innovativ texnologiyalarla aparılmasına yönəlməlidir, çünki müasir tədrisin təşkili şagirdlərin təfəkkür fəaliyyətinin inkişafına hesablanmışdır. Həmçinin dərsin uğurlu təşkili təlim nəticələrinin reallaşmasına istiqamətlənmişdir.

Ona görə ki, kurikulum anlayışlarında məzmun standartı-təhsil alanın bilik və bacarıq səviyyəsinə qoyulan dövlət tələbi kimi səciyyələndirilmişdir. Şübhəsiz ki, ibtidai sinif müəllimləri şagirdlərin strategiyalı oxu vərdişlərinə yiyələnməsinə daha çox səy göstərirlər. Müəllimlər şagirlərin oxu vərdişlərini inkişaf etdirməklə yanaşı, onların strategiyalı oxuya yiyələnmələrinə çalışmalı, strategiyalı oxunun həyatdakı əhəmiyyətini dərk etmələrinə istiqamət verməlidirlər.

Strategiyalı oxunun məqsədini müəyyənləşdirmək və işi bu istiqamətdə qurmaq vacib məsələdir[3, s.275]. Bunun üçün geniş istiamətdə iş görmək: oxudan əvvəl, oxu zamanı, oxudan sonra düşünməyə yönəltmə, dərketmə, düşünmə mərhələlərinə riayət etmək, oxunmuş materialı digər materiallarla inteqrasiya etmək, əlaqələndirmək, ümumiləşdirmək, nəticələr çıxarmaq və s. lazımdır. Müəllimin təqdim etdiyi kitablar haqqında şagirdlərin fikirlərini öyrənmək, hansı mövzuda olan əsərlərə maraq göstərdiklərini bilmək və onlara yaxın hadisələrlə bağlı müzakirələr təşkil etmək, diskusiya aparmaq kimi priyomlardan istifadə etməsi strategiyalı oxunun təşkilində vacib məqamlardan sayılır.

Şagirdlərin oxuya olan maraqının yaradılmaması da əsaslı çətinliklər yaradır. Strategiyalı oxuda problem yaşayan şagirdləri kitabla dost olmağa yönəltmək üçün müəllim ciddi səy göstərməli, onların maraqlarına uyğun kitablar seçməli və oxularına nəzarət etməlidir. Qüdrətli söz dünyasının ecazkar nümunələri oxuya maraqı artırır, tənbəl şagirdi də islah edə bilir.

Startegiyalı oxuda şagirdlərin maraq dairəsini tənzimləmək üçün əvvəlcə, kiçik həcmli mətnlərin oxusundan başlamaq lazımdır. Bu cür mətnlərin oxusundan əldə edilən nəticələr geniş həcmli əsərlərin strategiyalı oxusunun təşkili üçün baza rolunu oynayır.

Ümumiyyətlə, şagirdlərin problemi necə dərk etdiklərini öyrəndikdə görürük ki, onlar mətni oxumağı bacaranları iki qrupa ayırırlar: kim uca səslə və ifadəli oxuyursa, deməli, o,yaxşı oxuyur; kim asta səslə, həm də düzgün oxumursa, o oxumağı bacarmır. Əlbəttə, əslinə qalsa, bu məsələni belə qəbul edə bilərik, o halda ki, yaxşı oxuyan şagirdin oxunan mətndəki mənanı dərk etdiyini müəyyən edə bilək. Bəzən zəif oxucu kimi nəzərə çarpan şagirdin oxuduğu mətn haqqında dolğun fikir söyləməsi də müşahidə edilir. Deməli, strategiyalı oxu probleminə bu cəhətdən yanaşma güzgün deyildir, məsələnin məğzini daha geniş formatda izləmək lazımdır.

Şagirdlər mətnin oxusuna başlamazdan qabaq, strategiyalı oxu prosesində, oxunun tamamlanmasında inteqrasiyadan yararlanır, hadisələri, vəziyyəti dərk etməklə düşünürlər. Beləliklə, oxunmuş mətndə təsvir olunanları anlamaq, daxili suallara cavab axtarmaq, nəticələr əldə etmək və s. şagirdləri fəallaşdırır. Müəllimin şagirdlərlə söhbətləri onların arzu və istəklərinin reallaşmasına yol açır.

Şagirdlərin yaxşı oxucu olması üçün nə etmək lazımdır? Bunun üçün məqsədəuyğun motivasiyanın yaradılması nə dərəcədə vacibdirsə, oxunması nəzərdə tutulan materialın şagirdlərin maraqları ilə üst-üstə güşməsi və strategiyalı oxunun təşkili qaydalarının öyrədilməsi də əsas şərtdir.

Strategiyalı oxu zamanı müəllim öz vəzifələrində dəyişiklik aparır. Bu zaman müəllimin fəaliyyəti oxu prosesini təşkil etməkdən, rast gəlinən problemləri həll etməkdən, mətnin oxusunda yardımçı olmaqdan başlayıb oxunun bitməsinə qədər şagirdlərə yol göstərməkdən ibarətdir. Strategiyalı oxunun müvəffəqiyyətlə aparılması üçün müəllimin köməyi hər zaman zəruridir. Strategiyalı oxunun qiymətləndirilməsində də fərqli cəhətlər vardır. Məsələn, mətnin oxusu prosesində baş verən nöqsanların tipinin müəyyənləşdirilməsi, əsərin ideyasının öyrənilməsi, ucadan düşünməyin dəyərləndirilməsi və s. parametrlər nəzərə alınır. Müəllim, sanki şagirdlərin hər birinin daxili aləmini görür, həmçinin şagirdlər də müəllimin nə fikirləşdiyini dərk edirlər. Müəllimin açıq sualları şagirdlərin düşünməsini tələb etməlidir:

-Niyə belə düşünürsünüz?

-Hadisələr daha necə ola bilərdi?...

Strategiyalar müxtəlif ola bilər. Məsələn:

1-ci Strategiya: Mətnin işarələnməsi. I-II siniflərdə bu strategiyanın istifadəsi faydalı və səmərəlidir. Bu strategiya bədii, elmi-kütləvi mətnlərin tədrisi prosesində oxunun optimallığını təmin edir.

Mətnin işarələnməsi ilə oxunun təşkili zamanı şagirdlərdən tələb edilir ki, mətnin oxusu prosesində müəyyən işarələrdən istifadə etməklə qeydlər aparsınlar. Verilmiş mətnin oxusuna başlamazdan əvvəl müəllim şagirdlərə tapşırır ki, oxu zamanı onlar lövhədə göstərilən işarələrin mətn üzrə düzülməsini müşahidə etsinlər [4, s.58].

Beləliklə, şagirdlər təcrübi yolla strategiyalı oxunun bir növü ilə tanış olur və müvafiq işarələrdən məqamına uyğun istifadə edirlər.

(*) - Bu haqda bilgim var; (+) - bu mənim üçün yenidır; (!) - əla yenilikdir; (?) - düşmürəm ki, bunu bilmirəm.

Mətnin oxusu zamanı müəllimin abzaslara əməl etməsi, hər abzasda nədən söhbət getdiyini şagirdlərdən soruşması və özünün də münasibət bildirməsi vacibdir. Qeydlərin aparılması üçün hər bir abzasın yanına qeyd vərəqləri yapışdırılır və oraya uyğun işarələr yazılır.

Müəllim abzaslarda etdiyi işarələr haqqında şagirdlərlə izah işi aparır. İşarələrdən necə istifadə ediləcəyi ilə bağlı məsləhətlər şagirdlərə müstəqil oxu prosesində bu işin özləri tərəfindən yerinə yetirilməsinə imkan verir. Müəllim şagirdlərin işarələrlə oxusunu müşahidə etdikdən sonra onlarla müzakirə təşkil edir. Bu işarələr üzrə izah işinin aparılması isə şagirdlərin strategiyalı oxu üzrə bacarıqlarını çox artırır və onların düşünməyə yönəltmə, dərketmə, düşünmə səviyyələrini yüksəldir.

Birinci sinif "Azərbaycan dili" dərsliyindəki "Ad günü" adlı mətnin tədrisi zamanı şagirdlərin təfəkkürünün inkişafı üzrə işin təşkili maraq doğurur. Mətndə hadisələr belə təsvir edilir:

Səbinənin ad günü idi. Qohumları, yoldaşları onu təbrik etməyə gəlmişdilər. Onlar Səbinəyə hədiyyə gətirmişdilər.

İlhamə ona kukla almışdı. O bilirdi ki, Səbinə kuklanı çox sevir. Vaqif ona marka albomu almışdı. Nərgiz şəklli kitab almışdı. Əli isə ona qızılgül gətirmişdi.

Səbinə qızılgülü güldana qoydu.

Sual doğur, görəsən, daha çox hansı hədiyyə Səbinənin xoşuna gəldi?

Bilirik ki, bu özəl gündə-ad günündə hərənin bir arzusu olur. Ad günündə edilən təbrikləri, deyilən xoş sözləri, təqdim edilən hədiyyələri kim sevmir ki? Bu günü hər kəs səbirsizliklə gözləyir. Həmin gün özü üçün, onu sevənlər üçün bir bayrama çevrilir. Ad günü olan şəxs daxili sevincini bölmək üçün ətrafında doğmalarını, əzizlərini, dostlarını görmək istəyir.

Hər kəs həmin gün ən yaxın qohumlarının, dostlarının yanında özünü xoşbəxt hiss edir*(Oxuya başlamazdan düşünmə).* Oxu mətnində tanış olduğumuz Səbinə də (personaj) məhz belə düşünürdü.

Bu gün onun sevə-sevə gözlədiyi tarixlərdən biridir, ad günüdür. Təbrikə gələnlər çox idi: qohumlar, dostlar, sinif yoldaşları. Onlar bu xoş günü Səbinə ilə birgə kecirəcəkdilər (*Əlaqənin yaradılması*). Hamı Səbinə üçün hədiyyələr gətirmişdi. Düşünürsən, niyə görə ad günündə təbrikə gələnlər fərqli hədiyyələr gətirirlər? **(***Sual yaranır***).** Rəfiqəsi İlhamə Səbinənin kukladan xoşlandığını bildiyi üçün ona kukla almışdı. Vaqif isə albom almağa üstünlük vermişdi ki, Səbinə buraya-alboma müxtəlif markalar yapışdırar. Nərgiz də çox sevdiyi dostuna rəngli şəkillərlə bəzədilmiş kitab bağışlamışdı. Bəs Əli hədiyyə olaraq nə gətirmişdi? O, ad gününə tünd məxməri qızılgül gətirmişdi və Səbinə həmin qızılgülü güldanda suya qoymuşdu.

Niyə oxu materialında digər hədiyyələrin qoyulduğu yer haqqında yazılmır? Əli tərəfindən təqdim edilən güllər isə hətta, güldanda yer alır. Niyə? (*Sual*). Görəsən, Səbinə hansı hədiyyəni çox xoşladı?(Nəticəyə gəlmə). Səbinə hədiyyələrdən birini çox xoşladı. Qərarınız nə üçün belədir? (*Mətnin oxusundan alınan təəssürat*). Sizcə, hədiyyənin qəbulu necə olmalıdır? (*Necə təsəvvür edərdiniz?*).

Müəllimin şagirdləri düşündürməsi üç halda baş verir(mətni oxumamışdan, oxuya başladıqda-bu prosesdə, mətnin oxusundan sonrakı vaxtda).

2-ci strategiya: Mətnlər necə müqayisə edilir? Hazır mətn verilir, şagirdlər isə verilmiş mətnə uyğun inşa və ya hekayə yazmaları barədə tapşırıq alırlar. Sonradan şagirdlərə yazıları müqayisə etmək tapşırılır:

Mətnlərdəki hadisələrə münasibət bildirin: oxşarlığı, fərqliliyi müəyyənləşdirin[4, s. 60].

Venn diaqramı. Şagird tərəfindən tərtib edilən mətndəki hadisələrin müqayisə edilməsi (fərqli). Verilmiş iki mətnin birgə təhlilinin aparılması(oxşar). Dərslikdəki mətndə olan məsələlər(fərqli).



Fikrinizi bu məsələlərə yönəldin:

- Öz yazdığınız hekayədə hadisələrin təsvirini istədiyiniz kimi verə bildinizmi?
- Dərs üçün verilmiş oxu materialında nədən bəhs edilir?
- Mətnlərdəki hadisələrə münasibətinizi bildirin.

- Fərqləndirdiyiniz fikirləri necə təqdim edərdiniz?
- Öyrəndiklériniz sizi qane etdimi?
- Mövzunun məzmununun dolğun olması üçün nələrin çatmadığını deyə bilərsinizmi?

Şagirdlərin müəllimin onlardan hansı mətnə maraq göstərdiyi sualına cavabları da müxtəlif ola bilər, bu da təbiidir. Hər bir şagirdin istək və arzusu, maraq dairəsi, dünyagörüşü, estetik zövqü fərqlidir. Belə ki, müəllim işini elə qurmalıdır ki, hər bir şagird mətnin strategiya ilə oxusuna nail ola bilsin. Bu zaman müəllimin fəaliyyəti çox ciddi şəkildə dəyişir. O, strategiyalı oxu nümayiş etdirir, şagirdlərin oxusuna nəzarət edir, sonra oxunu qiymətləndirən ekspert vəzifəsində çıxış edir, bununla yanaşı, oxu prosesini təşkil edən, məsləhətçiyə, bələdçiyə çevrilir. Qiymətləndirmədə isə mətnin əsas ideyasını aşkar etməklə yanaşı, həmin ideyanın necə aşkar edildiyi nəzərə alınır.

Strategiyalı oxuya nail olmaq üçün müəllim və şagirdlər daha cox düşünmək bacarığına üstünlük verməlidirlər. Müəllim, sanki şagirdlərin əksini göstərən güzgü rolunu oynamalıdır. Şagirdlər müəllimin fikirlərini müəyyənləşdirmək üçün oxu prosesinin ardıcıllığını izləyir, hadisələrin baş vermə şəraitini düşünür, baş verən dəyişikliklərə münasibət bildirirlər.

Ədəbiyyat

1. Abdullayeva N. I siniflərin ilk təlim çətinliklərinin psixoloji xüsusiyyətləti//BQU-nun Elmi əsərləri, Bakı, 2019, №3(39)
2. Azərbaycan dili. 1-ci sinif. Bakı: Altun Kitab, MMS, 2012, 159 s.
3. Cəfərova N.B. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. I hissə. Bakı: ADPU, 2020, 404s.
4. Cəfərova N.B. İbtidai siniflərdə strategiyalı oxu problemi. Bakı: ADPU, 2022, 288 s.
5. Həsənli B, Abdullazadə N. İfadəli oxu. Bakı: Müəllim, 2015, 304 s.
6. Tağıyev B. Oxu təlimi. Bakı: ADPU, 2006, 315 s.
7. Tapmacalar. Bakı, 1973, 11 s.
8. Элконин Д.Б. Как учить детей читать. 2-е изд. М.: Знане, 1991, 80 с.
9. Рыбникова М.А. Очерки по методике литературного чтения. 3-е изд. М.: Просвещение, 1963, 315 с.
10. https://www.shagird.az
11. http://www.tipii.edu.az/noduploads/document/oxu-talimi-muallimlar-ucun-vasait.

РЕЗЮМЕ
ОБ ОРГАНИЗАЦИИ СТРАТЕГИЧЕСКОГО ЧТЕНИЯ
Джафарова Н.В., Мамедова С.А.

Ключевые слова: *стратегическое чтение, цель, направление, направленность мышления, понимание, мышление*

При обучении стратегическому чтению в начальных классах с активными технологиями обучения учащиеся должны интерпретировать факты и события, знать цель работы, обосновывать правильность мыслей и находить пути решения проблемы. Для этого учитель должен создать мотивацию и даже определить, какой тип мотивации использовать для вовлечения учащихся в процесс. Если мотивация задана правильно, студенты легко начинают поиск как исследователи. Учащиеся собирают все свои силы, мыслительные процессы и готовятся к выполнению задания. Следует отметить, что совпадение работы с интересами учащихся делает работу более живой, и они находятся в постоянном поиске.

SUMMARY
ABOUT THE ORGANIZATION OF STRATEGIC READING
Jafarova N.B., Mammadova S.A.

Key words: *strategic reading, goal, direction, direction of thinking, understanding, thinking*

When teaching strategic reading in primary grades with active learning technologies, students must interpret facts and events, know the purpose of the work, justify the correctness of thoughts and find ways to solve the problem. To do this, the teacher must create motivation and even determine what type of motivation to use and involve students in activities. If the motivation is set correctly, students easily begin the search as researchers. The students gather all their strength, mental processes are preparing to complete the task. It should be noted that the coincidence of work with the interests of students makes the work more lively, and they are in constant search.

FİZİKA FƏNNİNİN LABORATORİYA DƏRSLƏRİNƏ İNNOVATİV TEXNOLOGİYALARIN TƏTBİQİ

Cəfərov S.A.
Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
seyfeddinceferov18.12.1956@gmail.com

Açar sözlər: *peşə fəaliyyəti, fizikanın tədrisi metodikası, intensiv formalar, fiziki proses, kompüter modelləri.*

Son iki il ərzində Naxçıvan Dövlət Universiteti Naxçıvan Ali Məclisinin köməyilə ilə fizika üzrə laboratoriya emalatxanasının ciddi modernləşdirilməsini həyata keçirmişdir.Əvvəllər bütün laboratoriya işlərində analoq fiziki alətlərdən istifadə olunurdu. Bütün nəticələrin işlənməsi (cədvəllərin tərtibi, tələb olunan qiymətlərin hesablanması, planların qurulması) əl ilə həyata keçirilirdi. Aydındır ki, bu da istənilən diaqramları oxumağı, cihazların bölünməsinin qiymətini müəyyən etməyi, nəticələri düzgün qeyd edib təhlil etməyi, hesablamalar aparmağı, qrafiklər qurmağı çətinləşdirirdi. Lakin informasiya texnologiyalarının sürətli inkişafı əsrində zamanla bu çətinliklər aradan götürüldü.. Yeni laboratoriya emalatxanasında tematik cəhətdən yaxşı, lakin köhnəlmiş böyük laboratoriya bazası müasir proqram təminatı və kompüter bazasına keçirilmişdir [1]. Hər bir eksperimental laboratoriya qurğusuna fərdi kompüter və Naxçıvan Dövlət Universitetində "Ümumi və Nəzəri Fizika "kafedrasında hazırlanmış ***TekhnoLab ölçmə və idarəetmə*** cihazı daxildir. IBu yığcam cihaz bir sıra mürəkkəb ölçü alətlərini əvəz edir: generator, ampermetr, osiloskop, tezlikölçən, spektr analizatoru və s. İndi tələbələr virtual voltmetrlərdən və ampermetrlərdən , virtual osiloskoplardan istifadə edirlər.

Seçilmiş mövzunun aktuallığı ondan ibarətdir ki, müxtəlif fiziki proses və hadisələrin,laboratoriya işlərinin kompüter modellərindən istifadəsi tələbələə fizika fənninin tədrisinin səmərəliliyinə töhfə verir, fiziki hadisələrin mexanizmlərini, daha çox bu prosesləri dərk etməyə imkan verir. Tədris prosesində kompüter modellərindən istifadə problemləri ilə "Ümumi Və Nəzəri Fizika " kafedrasının müəllimləri tərəfindən hayata keçirilir..Tədqiqat əsa problemi: fizika dərsləri üçün kompüter modellərinin materialının düzgün seçilməsindədir. Fizika fənninin səmərəli tədrisi üçün kompüter modellərindən istifadə etməklə hər hansı fiziki hadisələri və laboratoriya işlərini təsvir etmək olar. Fizikanın tədrisində kompüter modellərindən istifadə olunarsa, o zaman tədris materialının mənimsənilməsini yaxşılaşdırmaq olar.

1. Tədqiqat mövzusu üzrə elmi-metodiki ədəbiyyatı araşdırmaq, öyrənmək;
2. Fizikanın tədrisində kompüter modellərindən istifadənin əsas vəzifələrini müəyyən etmək;
3. Fizikanın tədrisində kompüter modellərindən istifadənin əsas üstünlüklərini vurğulamaq;
4. Fizikanın tədrisində kompüter modellərinin əhəmiyyətini müəyyənləşdirmək;
5. Fizikanın tədrisində kompüter modellərindən istifadə etməklə dərslərin xülasəsini hazırlamaq;
6. Eksperimental və axtarış işlərini yerinə yetirmək.

Modellərin təsnifatı və onların fizikanın tədrisində əhəmiyyəti Fizikanın tədrisində kompüter modelləri böyük rol oynayır. Fiziki hadisələr haqqında əvvəllər yığılmış ilkin fikirləri formalaşdırırlar, fizikanın öyrənilməsinin başlanğıcında hər kəs üçün düzgün deyil.Fizika kursu boyu bu modellər tələbələrin biliklərini artırır və genişləndirir. Onlar yeni fiziki hadisələr və proseslər haqqında ilkin təsəvvürləri korreksiya edir, qanunauyğunluqları aşkar edir və tədqiqat metodlarını tətbiq edirlər. Modellərin nümayişi müxtəlif hadisələrin və nümunələrin öyrənilməsində tələbələrin diqqətini və yaddaşını inkişaf etdirir.Həmçinin, kompüter modelləri mövzunu izah etmək, illüstrasiya etmək və müşayiət etmək üçün ilkin element ola bilər. Fiziki hadisələrin modellərindən həm də eksperimental məsələlərin qoyulması və tələbələrlə müsahibə zamanı və keçilən materialın təkrarlanması zamanı istifadə olunur.Model real və ya uydurma dünyanın obyektlərinin (obyektlərin, hadisələrin və ya proseslərin) və onların xassələrinin təsviridir. [2] Kompüter modellərinin tətbiqinin əsas vəzifəsi tələbənin fərdi tempdə və siniflə müstəqil işləməsi üçün təlim mühiti yaratmaqdır. Fizika fənninin tədrisində fiziki hadisələrin modellərindən istifadə tələblərin gələcək təhsilə hazırlanmasının keyfiyyətcə yeni forma və üsullarının yaradılması üçün geniş imkanlar açır. Təklif olunan metodologiyaya uyğun olaraq nəzarət edilən müstəqil işin həyata keçirilməsinin aşağıdakı mərhələlərini ayırd etmək olarMəsələn Sabit cəryan dövrələrinin parametrlərinin təyininə baxaq. Bu laboratoriya işində bir rezistora (yükə) paralel bağlanmış üç EHQ mənbəyindən ibarət ən sadə budaqlanmış elektrik dövrəsinin modeli tədqiq edilmişdir.

Nəzəriyyə pəncərəsini bağlayın. Rəsmə diqqətlə baxın, bütün idarəetmə elementlərini və digər əsas elementləri tapın və onları konturda eskiz edin.

Mənbələri bir-birinin altına yerləşdirərək və hər bir mənbədə daxili müqavimətin olmasını nəzərə alaraq, konturda ekvivalent dövrə diaqramını çəkin. EHQ işarələrini, hər bölmədə cərəyanların istiqamətlərini göstərin. Hər bir qapalı dövrədən yan keçmə istiqamətləri. Hər bölmədə cərəyanları tapmaq üçün tənliklər sistemi qurun. [3]

Ölçmələr. Göstərilən ekvivalent sxemi ekranda yığın. Bunu etmək üçün əvvəlcə EHQ . düyməsini sol . ekranın aşağı hissəsində basın. Mausu markerini nöqtələrin yerləşdiyi ekranın iş sahəsinə aparın. Bu LR üçün təsvirdə diaqramını rəhbər tutun. İlk EHQ mənbəyinin yerləşəcəyi ekranın iş sahəsinə gətirin . Maus markerini bir xana aşağı aparın və ilk mənbənin yerləşdiyi yerin altında yenidən sola gətirin. Orada ikinci EHQ mənbəyi görünəcək. Üçüncü mənbəni eyni şəkildə yerləşdirin. [4]



Şəkil.

Hər bir mənbə ilə onun daxili müqavimətini göstərən rezistoru (əvvəlcə ekranın altındakı R düyməsini basaraq) və ampermetri (eyni yerdə A düyməsi) ardıcıl olaraq yerləşdirin. Sonra yük rezistorunu və ampermetri onunla ardıcıl olaraq yerləşdirin. Yükdəki gərginliyi ölçmək üçün yükün altına bir voltmetr qoyun.Bağlayıcı telləri birləşdirin. Bunu etmək üçün ekranın altındakı tel düyməsini basın və sonra maus markerini dövrənin iş sahəsinə köçürün. Hər bir element üçün parametr dəyərlərini təyin edin. Bunu etmək üçün ox düyməsini sola çəkin.. Sonra bu elementə bağlanın. Maus markerini görünən tənzimləyicinin aparın, sol siçan düyməsini basın və onu basıb saxlayın, parametr dəyərini dəyişdirin və komandanız üçün Cədvəl 2-dən götürülmüş rəqəmə bərabər ədədi dəyəri təyin edin.Yük rezistorunun müqavimətini R = 1 ohm olaraq təyin edin. Yük üzərindəki bütün cərəyanların və gərginliklərin qiymətini ölçün və onları Cədvəl 3-yə yazın. R müqavimətini dəyişdirərək, parametrlərin ölçmələrini təkrarlayın və Cədvəl 3-ni doldurun.

Cədvəl 1.

Tağım	1	2	3	4	5	6	7	8
E_1,E_2,E_3 [V]	3,7,-2	4,-3,-8	3,6,-4	6,-2,-8	-6,5,8	5,8,-4	-4,6,-7	8,-4,6
R_1,R_2,R_3 [Ом]	2,1,1	1,3,1	2,1,2	1,1,2	2,1,1	1,2,1	1,1,2	1,3,1

Nəticələrin hesablanması.

Dövrəniz üçün bütün cərəyanlar üçün tənliklər sisteminin ümumi həllini yazın.

Hər bir yük müqaviməti üçün bütün cərəyanların qiymətini hesablayın və cədvəl 3-də qeyd edin.

U yükü üzərindəki gərginliyin düşməsinin ondan keçən I cərəyanından eksperimental asılılığının qrafikini çəkin. Cədvəl üzrə nəticə çıxarın.

Cədvəl 2

R[Ом]	I_1 [A]	I_2 [A]	I_3 [A]	I [A]	U [B]
1					
2					
3					
4					
5					
6					

Cədvəl 3

I_1 [A]	I_2 [A]	I_3 [A]	I [A]

Həmçinin, fizika laboratoriyaların təchiz edilməsi universitetdə fizikanın tələbələrin sevimli fənlərindən biri olmasını təmin edən pedaqoji kollektiv üçün əsas vəzifədir. Çətinlik ondan ibarətdir ki, fizika sinfində müxtəlif sahələrin öyrənilməsidir: bunlar mexanika, optika, elektrik, termodinamika, molekulyar fizika və s.

Ədəbiyyat

1. Cəfərov S., Sultanova A., Hacıyeva B. Fizika. Naxçıvan, 2022, 232 s.
2. Бухаркина М. Ю. Современные педагогические и информационные технологии в системе образования / М.Ю. Бухаркина, 2009. – 46 с
3. Веников В.А. Теория подобия и моделирования / В.А. Веников. – М.:Высшая школа, 2006. – 87 с.
4. Mehrabov A. Ümumi fizika kursu. Bakı: Çaşıoğlu, 2002.

РЕЗЮМЕ
ВНЕДРЕНИЕ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ
В ЛАБОРАТОРНЫЕ ЗАНЯТИЯ ПО ФИЗИКЕ
Джафаров С.А.

Ключевые слова; *профессиональная деятельность, методика преподавания физики, интенсивные формы, физический процесс, компьютерные модели.*

Статья посвящена проблемам физической науки и образования в Азербайджане. Рассмотрены основные достижения и проблемы, связанные с профессиональной деятельностью в области физики, высшим профессиональным образованием, а также школьным образованием по физике. Предлагаются некоторые пути решения существующих проблем. В вузах физика является фундаментальной общей наукой, дающей базовые знания и навыки, необходимые для глубокого овладения физическими предметами. Физика способствует формированию научного мировоззрения, и в то же время позволяет будущим специалистам самостоятельно разбираться в любой современной научно-технической информации.При изучении курса общей физики в вузах лабораторному практикуму отводится особая роль.

SUMMARY
APPLICATION OF INNOVATIVE TECHNOLOGIES IN
LABORATORY LESSONS OF PHYSICS
Jafarov S.A.

Key words: *professional activity, teaching methodology of physics, intensive forms, physical process, computer models.*

The article is dedicated to the problems of physical science and education in Azerbaijan. The main achievements and problems related to professional activity in the field of physics, higher professional education, as well as school education in physics are considered. Some ways to solve the existing problems are suggested. In universities, physics is a fundamental general science that provides the basic knowledge and skills necessary for deep mastery of physical subjects. Physics contributes to the formation of the scientific worldview, and at the same time allows future specialists to independently understand any modern scientific and technical information. In the study of the general physics course in universities, the laboratory workshop has a special role.

TƏLƏBƏ FƏRDİLİYİ TƏDRİS PROSESİNİN FƏRDİLƏŞDİRİLMƏSİNİN ƏSASI KİMİ

Məmmədova S.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
sona-mammadova@list.ru

Açar sözlər: *fərdilik, tədris, təbii xüsusiyyətlər, yaddaş, nitq qabiliyyəti, bacarıq və bacarıqlar, bilik, diferensial yanaşma*

Təlimin fərdiləşdirilməsi didaktikanın aparıcı prinsiplərindən biridir. Çünki fərdi, təkrarolunmaz şəxs, ilk növbədə, tələbənin sırf fərdi həyəcanlarının, hisslərinin, duyğularının, mənəvi meyillərinin ifadə

olunması vasitəsi kimi çıxış etməsidir. Buna görə də hər hansı başqa fənn ilə müqayisədə xarici dil tədrisi daha çox fərdi yanaşma tələb edir. [1]

Fərdiləşdirmə, adətən, yalnız materialın mənimsənilməsinin hansısa bir mərhələsində və tələbənin hansısa bir qrupuna (güclü, orta, zəif) tətbiq edilməklə istifadə edilən birdəfəlik vasitə deyil; o, xarici dildə danışmanın bütün tədris prosesinə nüfuz etməlidir. Fərdiləşdirmə təlimin fərqləndirilməsinə də şamil edilməməlidir.

Fərdiləşmənin əsasını tələbənin fərdiliyi təşkil edə bilər. Təhsilin fərdiləşdirilməsindən söhbət gedəndə, onun şəxsi aspektinin aparıcı rolunda insan fəaliyyətinin bütün bu üç tərəfini nəzərə almamaq olmaz.

Üç aspektdən və müvafiq olaraq fərdiləşmənin üç növünü: A, B, C öyrənilən şəxsin fərdiliyini nəzərdən keçirək.

A. Tələbələrin fərdi xüsusiyyətləri və fərdi fərdiləşdirmə.

Fərd xüsusiyyətləri insanın təbii xassələrinin son kompleksləri şəklində fərdilikdə təqdim olunur. Bu xüsusiyyətlərin məcmusu daha ümumi formada temperament şəklində çıxış edir.

Xarici dildə nitq fəaliyyətini öyrənərkən behlərin rolu bəzi tələbələrin bəzi hərəkətləri yerinə yetirməyə daha çox qadir olduqlarını, digərləri isə başqalarını göstərir. Müəllim üçün fərdi xüsusiyyətlərdəki fərqlər obyektiv bir məlumat kimi çıxış edir ki, bununla da hərtərəfli hesablaşmaq və təlimdə nəzərə alınmalıdır. Əhəmiyyətlilik və spesifikliyə görə insanın təlimdə fərdi nəzərə alınması xüsusi olaraq ayrılmış fərdiləşdirmə növü çərçivəsində aparılmalıdır. Fərdi fərdiləşdirmə, ilk növbədə, xarici dildə nitq fəaliyyətinə olan qabiliyyətlərin nəzərə alınmasına və inkişafına xidmət etmək məqsədi daşıyır.

Differensiallaşdırılmış təlim məhz əsasən fərdi tapşırıqların seçimi əsasında, şagirdlərin qabiliyyətindən (yaddaşından, nitq eşitməsindən) və nitq vərdişlərinin və bacarıqlarının formalaşma səviyyəsindən asılı olaraq qurulur. Lakin differensial yanaşma müəyyən çatışmazlıqlardan əziyyət çəkir:

a) əksər hallarda differensiallaşdırılmış yanaşma birdəfəlik vasitə kimi bir qayda olaraq, tələbələrin bilikdə boşluqlara yol verildikdən sonra tətbiq edilir. Bu profilaktik fərdiləşdirmə funksiyası istifadə edilmir;

b) paradoksal vəziyyət yaranır, burada öz bacarığı sayəsində tez işləyən və məşqlərə daha az ehtiyacı olan tələbələr əlavə tapşırıqlar alırlar. Təlimlərə daha çox ehtiyacı olan zəif tələbələr isə onların sayının azını yerinə yetirirlər, çünki bunu yavaş edirlər, həmçinin dərsin yalnız yüngül tapşırıqlarda öyrədilir ki, bu da onların inkişafında və bilik səviyyəsində çatışmazlıqların ağırlaşmasına gətirib çıxarır;

c) dərsdə differensiallaşdırılmış yanaşma çox vaxt yalnız tələbələrin biliklərinin zəif tərəflərini üzə çıxarmaq məqsədi daşıyır, halbuki həqiqi fərdi yanaşma, əsasən, fərdiliyin güclü cəhətlərinin üzə çıxarılması və inkişaf etdirilməsinə xidmət etməlidir;

d) differensial yanaşma praktiki olaraq tələbələr arasında əməkdaşlığı istisna edir. Hər bir tələbə xarici dil ünsiyyətini ünsiyyətdən kənarda, yəni dostlarından təcrid olunmuş şəkildə öyrənməli olur.

Göstərilən çatışmazlıqların aradan qaldırılması baxımından iki şərh vermək lazımdır.

Birincisi, qabiliyyətlərin (fərdi xüsusiyyətlərin) aşkarlanması və müəyyənləşdirilməsi metodologiyasına aiddir. Nitq fəaliyyətinin növünü və tədris metodunu nəzərə almaqla qabiliyyətlərin müəyyən edilməsinə yanaşma səmərəli şəkildə təqdim olunur.

Portativ test sisteminin yaradılması, eləcə də xarici dil bacarıqlarının inkişafı üçün xüsusi tapşırıqların hazırlanması vacibdir. Bu qabiliyyətlərin vaxtında aşkar edilməsi fərdin fərdiləşməsinin profilaktik funksiyasını həyata keçirməyə və onları ümumi proqramla paralel olaraq təlimin ilkin mərhələsində inkişaf etdirməyə imkan verəcəkdir.

B. Tələbələrin subyektiv xüsusiyyətləri və subyektiv fərdiləşdirilməsi.

Bir şəxs bir mövzu kimi yalnız müxtəlif fəaliyyətlə məşğul olmaqla deyil, həm də onun məhsuldarlığı ilə xarakterizə olunur ki, bu da bir tərəfdən təbii qabiliyyətlərlə, digər tərəfdən isə əmək qabiliyyəti ilə, yəni Subyektiv xüsusiyyətlərlə müəyyən edilir. [2]

Xarici dildə danışmağı öyrənmək üçün tələbələrin subyekti xüsusiyyətlərinin hesaba alınması ona görə vacibdir ki, hər bir tələbənin öz bilikləri, öz tədris strategiyası var.

Danışığa münasibətdə, xüsusən də kommunikativ metod çərçivəsində subyektiv xüsusiyyətlərin inkişafı hələ öyrənilməmişdir. Zəif inkişaf etmiş subyektiv xüsusiyyətləri olan tələbələr üçün fərdi tapşırıqlar demək olar ki, hər bir tapşırığın optimal yerinə yetirilməsi alqoritmlərinin təsvirini ehtiva etmir. Əgər belə Xatırlatmalar yoxdursa, onda dərsdə çox vaxt qeyri-məhsuldarlıqla xərclənir, çünki tələbələr tez və mütəşəkkil şəkildə işləyə bilmirlər.

Əgər başqa fənləri tədris edərkən məqbul, hətta müsbət hesab edilirsə ki, tələbələr öz templərində hər bir işləyirlər, xarici dildə danışmağı öyrənərkən tədris prosesinin bu cür təqdimat forması mənfi nəticələrə malikdir: nitq kollektivi dağılır və hər kəs ünsiyyəti öyrənməli olur ... ünsiyyətdən kənarda, ən yaxşı halda, yalnız müəllimlə ünsiyyət qurmalı olur (dərs başına 1-2 dəqiqə).

Xarici dildə danışmanın öyrənilməsində subyektivləşmənin spesifikliyi ondan ibarətdir ki, o, tələbənin tədris fəaliyyətinin üsullarının özünəməxsusluğunu nəzərə alan, lakin nəticədə bərabər zaman kəsiyi üçün imkan daxilində eyni nəticələrə gətirib çıxaran formada (məsələn, dayaqların olub-olmaması) müxtəlif didaktik materialların eyni vaxtda tətbiqini nəzərdə tutmalıdır.

C. Tələbələrin şəxsiyyət xüsusiyyətləri və şəxsiyyət fərdiləşdirilməsi.

Çox tez-tez, lakin, tələbələr hətta öz nitq vəzifələrini yerinə yetirərkən və bu tapşırıqların yerinə yetirilməsi üsuluna malik olduqda belə, çox passivlik göstərirlər. Səbəb ondan ibarətdir ki, tələbələrin şəxsi xüsusiyyətləri nəzərə alınmır.

Şəxsi fərdiləşdirmə nəzərə alınır:

a) təhsil alanın fərdiləşdirilməsi konteksti;

b) tələbələrin həyat təcrübəsi (onların oxucuları, idmançıları, səyahətçiləri və s. kimi təcrübəsi);

c) maraq, istək, meyl, mənəvi ehtiyacların sferası;

d) dünyagörüşü (həyata baxışlar);

e) emosional-şəhvətli sferası ("tələbələri öz sevimli komandasının, aktyorun, kitabın, peşənin müdafiəsi üçün dilə gətirməyə" çağırarkən);

f) kollektivdə şəxsiyyət statusu: tələbənin dostlar arasında populyarlığı, nitq tərəfdaşlarının tapılması üçün qarşılıqlı rəğbət.

Fərdi alt quruluşunun sadalanan komponentləri şəxsi fərdiləşdirmə üsullarından istifadə üçün mənbədir.

Beləliklə, əgər şəxsiyyəti insan fərdiliyinə seçdiyimiz yanaşma çərçivəsində nəzərdən keçirsək, o, insanın sosial inkişafının müəyyən kəmiyyət vəziyyətini ifadə edir. Buna görə də, şəxsi xüsusiyyətlər insanın şəxsiyyətinə ən mühüm komponent kimi daxil olur və onun mahiyyətini təşkil edir. Tələbənin şəxsi xüsusiyyətlərini – şəxsi fərdiləşdirməni nəzərə almaq üçün xüsusi olaraq nəzərdə tutulmuş fərdiləşdirmə növünü qeyd etmək əsaslandırılmış və metodik baxımdan məqsədəuyğundur.

Ədəbiyyat

1. Рогова Г.В. Повышение эффективности обучения иностранном языкам за счет улучшения психологического климата на уроке / Иностранные языки в школе, –1977, № 5, –с. 46
2. Мерлин В.С., Климов Е.А. Формирование индивидуального стиля деятельности в процессе обучения / Советская педагогика, –1967. №4, –с.111

РЕЗЮМЕ

ИНДИВИДУАЛЬНОСТЬ СТУДЕНТА КАК ОСНОВА ИНДИВИДУАЛИЗАЦИИ УЧЕБНОГО ПРОЦЕССА

Мамедова С.М.

Ключевые слова: *индивидуальность, дифференцированный подход, обучение, природные свойства, память, навыки и умения, речевой слух*

Индивидуализация – это не одноразовое средство, используемое обычно лишь на каком-то одном этапе усвоения материала и применительно к какой-то одной группе студентов (сильных, средних, слабых); она должна пронизывать весь процесс обучения иноязычному говорению. Индивидуализация не должна сводиться и к дифференциации обучения.

При обучении иноязычной речевой деятельности роль задатков проявляется в том, что одни студенты оказываются более способными к выполнению одних действий, другие – других. Для преподавателя различия в индивидных свойствах выступают как объективная данность, с которой необходимо всемерно считаться и учитывать в обучении.

SUMMARY

STUDENT'S INDIVIDUALITY AS THE BASIS OF INDIVIDUALIZATION OF THE EDUCATIONAL PROCESS

Mammadova S.M.

Key words: *individuality, differentiated approach, learning, natural properties, memory, skills and abilities, speech hearing*

Individualization is not a one–time tool, usually used only at one stage of mastering the material and in relation to one group of students (strong, medium, weak); it should permeate the entire process of teaching foreign language speaking. Individualization should not be reduced to differentiation of learning.

When teaching foreign language speech activity, the role of inclinations is manifested in the fact that some students are more capable of performing some actions, others – others. For a teacher, differences in individual properties act as an objective reality, which must be fully taken into account and taken into account in teaching.

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ MOTİVASİYANIN ROLU VƏ ƏHƏMİYYƏTİ

İsgəndərova K.Y.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
konul.kenan1981@mail.ru

***Açar sözlər**: inandırmaq, özünəinam, xarici və daxili stimul motivasiyası, instrumental və inteqrativ motivasiya*

Tələbələrin xarici dil öyrənməyə marağı olmadığı təqdirdə, öyrənmə və mənimsəmə prosesi çətin və nəticəsiz olur, lakin motivasiya edilənlər müvəffəqiyyət qazanmaqda daha şanslıdırlar. Təsadüfi deyil ki, müasir həyatımızda insanları motivasiya edən bir çox video dərslər, məşhur adamların mühazirələri böyük maraq dairəsindədir. Motivasiya mövzusunu araşdırmaqla biz onun hardan gəldiyini, niyə dəyişdiyini, azalıb-çoxalmasını və hansı müsbət tərəflərinin olduğunu anlayacayıq. Sosial həyatımızda biz daim motivasiyanın hesabına irəlləyirik. Məqsəd və istəklərimizin reallaşmasında birbaşa motivasiyanın rolu vardır. Deməli, istəklərimizin gerçəkləşməsi üçün göstərdiyimiz çaba və cəhdləri hərəkətə gətirən ruh halımız motivasiyadır. İnsanın yiyələndiyi bəzi motivlər bioloji olsa da, digərləri şəxsi və sosial olaraq formalaşır. Düşüncələrimizin, hisslərimizin və davranışlarımızın dəyişməsində bir növ cığır rolu oynayır. Morsela və Golvitzerə görə "bizdə mövcud olan motivlər gündəlik tələbatlarımızı yerinə yetirmək istəkləri- yemək, içmək və s. sonradan qazanılan motivlər isə cəmiyyətə uyğun formalaşır". [2, s.344]

Öyrəncinin motivasiyası bir çox amillər nəticəsində özünü mənfi və ya müsbət şəkildə büruzə verir: yaşadıqları mühit və cəmiyyət, həmin cəmiyyətin xarici dil öyrənilməsinə olan münasibəti, ətrafdakı insanlar və qoyulan məqsədin möhkəmliyi. Motivasiyanın formlaşmasında 3 əsas element vardır: inandırmağı bacarmaq, nəticənin yaxşı olacağına inanmaq və işin dəyərinin çəkilən əziyyətə dəyməsi.

İngilis dilinin tədris metodikasında motivasiya 4 əsas hissəyə ayrılır: 1. Xarici stimul (Extrinsic) 2. Daxili stimul (Intrinsic) 3. İnteqrativ (Integrative) 4. İnstrumental (Instrumental)

Xarici stimul, yəni ingiliscə "extrinsic" adlanan motivasiya – xaricdən gələn, kənardan təsir edən motivasiyadır. Buna nümunə olaraq: imtahanı keçmək üçün səy, müəllimdən tərif eşitmək və ya xarici ölkəyə səyahət planı ola bilər. Bu motivasiya öyrəncidə hərəkətə keçmək üçün enerji yaradır, məqsədə nail olmaq üçün irəli sürükləyir. Belə mühitdə tədrisə və müəllimə böyük inam formalaşır. Əlbəttə ki, bacarıq və imkanlar icra etmək üçün əvəzsiz rol oynayır. Bir insan motivasiya edildikdə, onun həvəs və yaradıcılığının üzə çıxmasında heç bir məhdudiyyət yoxdur.

Digər motivasiya –daxili stimul (intrinsic), adından göründüyü kimi dil öyrənməyə, fənni öyrənməyə olan daxili istək və arzu nəzərdə tutulur. Burada insan xaricdən heç bir təltif və ya mükafat gözləmir, daxili potensialı, araşdırmaya və öyrənməyə olan həvəs insanı aktiv öyrənciyə çevirir. Emosiyalarımız da motiv kimi xidmət edir. Öyrəncidə daxili stimulun yaranmasında təkcə təhsil ocağı və müəllim deyil, valideyn, bioloji həvəs, yaş, tərbiyə böyük təsir göstərir.

Xarici stimuldan fərqli olaraq bu motivasiya sərbəst seçilir, daha cəld və güclü olur. [1, s. 21] Həmçinin təcrübələr göstərir ki, daxili stimul motivasiyası psixoloji ehtiyacları tam təmin etdiyindən positiv düşüncələr formalaşdıraraq daha uzun müddətli olur.

İnteqrasiya edən, yəni "nüfuz edən" motivasiya öyrəncinin öyrəndiyi dil cəmiyyətinə daxil olma istəyi, mədəniyyətini və başlıca milli xüsusiyyətləri mənimsəməklə həmin cəmiyyətin bir üzvü olmaq həvəsidir. Digər sonuncu instrumental motivasiyadır ki, yəni bir növü dil öyrənmə "alət" rolunu oynayır. Öyrənci düşünür ki, dilə yiyələnməklə o, daha yaxşı iş və ya qazanc əldə edə bilər. Araşdırmalar göstərir ki, instrumental motivasiyadansa inteqrasiya edən motivasiya ilə tələbələr daha yaxşı nəticələr əldə edirlər. Lakin, motivasiyanın təsirini sonda əldə edilən nəticələrə əsasən müəyyənləşdirmək daha doğru olardı. Müasir təhsil dünyasında müəllimlərin çoxu motivasiya yaratmaqla tədrisi yerinə yetirməyə meyillidir. Tələbələr hiss etsə ki, müəllim onlara qayğı ilə yanaşır, bu positiv düşüncələr onları uzun müddət motivasiyalı saxlayır. Onları diqqətlə dinləmək, səmimi olmaq, maraq yaratmaq müəllimin çiyinlərinə düşən öhdəliklərdir. Burada müəllim-tələbə münasibətlərinin hörmət əsasında qurulması vacib amildir. Müəllim dərs prosesində tələbələrin istək və arzularını mütləq şəkildə nəzərə almalıdır. İlk gündən müvəffəqiyyət qazanan tələbələr sonralar daha həvəsli və cəsarətli olurlar. Bacarıqlı müəllim hər tədris səviyyəsində aydın şəkildə məqsədi elan edir və bu məqsədə nail olmaq üçün bütün cəhdləri yerinə yetirməyə çalışır. Müəllimin ilk gündən özünü bacarıqlı təqdim etməsi, öyrəncilərin inamını qazanması onun səriştəli işindən xəbər verir. Tələbələr də eyni zamanda, müəllimin profesional yanaşmasından zövq alaraq üzün müddətli motivasiyalı olurlar. Əlbəttə, hər zaman mümkün olmasa da, tələbələri yarış tipli sorğulara cəlb etmək və ya özləri kontrol edəcək işlər təşkil etmək onlarda daha çox motivasiya yaradır. Tələbələr müstəqil qərar verdikdə,

yerinə yetirdikləri işin məsuliyyətini daşıdıqda daha çox işə cəlb olunurlar, çünki bu işdə onların öz əziyyətləri "payları" vardır. Kənardan izləyən müəllim tələbəni məsuliyyətli görüb onu daha çox tələbə yönümlü işlərə cəlb etməyə başlayır. Bu zaman öyrəncilər araşdırma aparır, dərsdənkənar oxu, dinləmə, ev işlərini yerinə yetirmək üçün təcrübələr, təhqiqatlar aparırlar. Sadaladıqlarımızın heç biri tək halda heç vaxt effekt verə bilməz, yalnız onları bir yerə toplamaq və yerinə yetirməklə biz motivasiyanın uzun müddətli olması üçün yaxşı nəticə əldə edə bilərik. Qısaca desək, motivlər hərkəsin daxilində ehtiyac, idrak və emosiya şəklində mövcud olan niyyətlər, təcrübələr toplusudur, bu təcrübələr həyatımız boyu qazandıqlarımız, əldə etdiklərimizdir. Motivasiya- etdiklərimizin əsas səbəbidir.

Ədəbiyyat

1. Deci, E.L., Olafsen, A.H., Ryan, R.M. Self-determination theory in work organizations: State of the science. Annual Review of Organizational Psychology and Organizational Behavior, 2017 pp.19-43
2. Morsella, E., Bargh, J.A., and Gollwitzer, P.M., Oxford Handbook of Human Action. New York, NY: Oxford University Press USA 2009, 648 p.

РЕЗЮМЕ
РОЛЬ И ЗНАЧЕНИЕ МОТИВАЦИИ НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА
Искендерова К.Я.

***Ключевые слова**: убеждать, самоуверенность, внешняя и внутренняя мотивация, инструментальная и интегративная мотивация*

Понятно, что определенные факторы играют решающую роль для эффективной реализации процесса изучения языка. Среди них особое значение имеет мотивация. Образование является динамичной областью, поскольку в реализации мотивации важна роль как учителя, так и ученика. Образование сталкивается с большими изменениями с точки зрения концепции, теории, метода и принципа, здесь мотивация незаменима для усиления цели обучения учащихся. В то время как преподаватель пытается сформировать долгосрочную мотивационную среду, студенты стараются быть активными для лучшего усвоения академических знаний. Двумя основными факторами мотивации в образовательном процессе являются нормальное развитие сотрудничества и общения.

SUMMARY
THE ROLE AND IMPORTANCE OF MOTIVATION IN ENGLISH LESSONS
Iskenderova K.Ya.

***Key words**: convince, confidence, extrinsic and intrinsic motivation, instrumental and integratve motivation*

It is known that some definite factors play a crucial role for implementation the process of language learning effectvely. Among them motivation acquire particular importance. Education is a dinamic sphere, because both the teacher and the students play a great role in the realization of motivation. Education faces with great changes in terms of concept, theory, method and principle, here motivation is irreplaceable to reinforce the learning target of the learners. While the teacher strives to create a long-term motivational environment, the students make efforts to be active for the high quality of academic knowledge. The two main stimuli of motivation in the educational process are the normal development of collaboration and communication.

AZƏRBAYCAN RESPUBLİKASI UNİVERSİTETLƏRİNDƏ MÜASİR TƏHSİL METODLARI VƏ ONLARIN PROBLEMLƏRİ

[1,2] Həsənov E.R., [2]Xəlilova Ş.Q.
[1]Bakı Dövlət Universiteti, [2]Fizika İnstitutu, Bakı, Azərbaycan

***Açar söz:** təhsil sistemi, tədris sistemi, tədris proqramı, orta məktəb, ali təhsil, orta ixtisas, elmin inkişafı, nəzəri elmlər.*

Dövlət və özəl universitetlərdə tədris olunan fənlərin proqramları (eyni fakültələrdə) onların fərqi olmamalıdır. Bu məqsədlə orta, orta ixtisas və ali təhsil müəssələrində təhsilin və elmin səviyyəsini yüksəltmək üçün aşağıdakı təklifləri irəli sürülmüşdür.

Bu deyilənlərdən məlum olur ki, təhsil prosesinin optimallaşdırılması və müasirləşdirilməsi aşağıdakıları tələb edir:

1. Təhsil sistemində çalışan mütəxəsislərin (professor-müaəllim, texniki işçilərin) ixtisas üzrə dəqiq və düzgün seçilməsi vacibdir.
2. Təhsilin və pedaqojı fəaliyyətin təkmilləşdirilməsi üçün müxtəlif fənlər üzrə bakalavr və maqistr pillələrində xüsusi bacarığı ilə fərqlənən tələbələrin mərkəzləşmiş şəkildə işlə təmin olunması vacibdir. Onların doktarantura pilləsində təhsil almaları uyğun universitetlərin öz səlahiyyətində olmalıdır.

3. Bakalavr və maqistr pilləsində ödənişlə təhsil alan tələbələrin ödəniş haqları onalrda dövlət səviyyəsində (yaxud ali təhsil nazir səviyyəsində) bağlanılan müqavilə əsasında dövlətin ödəmələri vacibdir. Bu müqavilələrdə universiteti bitirən (bakalavr, maqistr) şəxsin işlə təmin olunduqdan sonra həmin ödəmələri dövlətə ödəməyi qeyd olunsun

4. Universitetdə təhsil gələcəkdə keyfiyyətini yüksəltmək üçün çox ciddi tədbirlər görülməlidir. Məsələn, doktarantura pilləsində təhsil alan şəxslərin aylıq təqaüdlərin (məvacublərin) onların müsir səviyyədə yaşamaqlarını təmin etməlidir.

5. Elm tədqiqat institutları ilə, Azərbaycan MEA ilə universitetlərin rəhbərliyi arasında doktorantura pilləsində işə düzəlmələri haqqında müqavilələri olmalıdır.

6. Universitetlərin bütün fənlər üzrə tədris proqramları tamamilə yenidən işlənməlidir və dövrün müasir tələblərinə uyğunlaşdırılmalıdır.

7. Təhsilin yüksək inkişafı, elmin inkişafı, nəzəri biliklər əsasında qurulur. Ona görə universitetlərdə nəzəri fənlərin tədrisinə ayrılan saat miqdarları artırılmalıdır.

8. Elmin inkişafı bu sadalanan şərtlərdən başqa doktarantura pilləsində alanların secdikləri fənlərdən hərtərəfli hazırlanması üçün, elmi rəhbərlərin rolu böyükdür. Elmə rəhbər doktorantın savadını yoxladıqdan sonra ona rəhbər olmağa razı olmalıdır. Əfsuslar olsun ki, çox çətin xarici dil imtahanından sonra rəhbər təyin olunur. Xarici dildən minimum adlanan imtahan xalis ədəbi dildir. Fizika üzrə fəlsəfə doktorlarına Şeksprin ədəbi ingilis dili yox, fizikadan terminləri bilmək kifayətdir. Elə buna görə də, xarici dildən olan imtahan minimum adlanır və əlbəttə ədəbiyyatdan, qarmatikadan imtahan adlanmır.

Bu sadalanan vacib və lazımlı şərtlər gələcək təhsilin güclənməsini səmərələşdirilməsini təmin edir.

Orta məktəblərdə müəllimlərin sagirdlərin bilik səviyyəsinin yoxlamasının səmərəliyini artırmaq üçün orta məktəblərdə bir sinifdə 20 nəfərdə artıq şagird olmamalıdır. Məktəblərdə xüsusi geyim formaları valideynlər üçün əlavə problem yaradır. Yalnız xüsusi liseylərdə formalar ola bilər, ancaq bu formalar lisey tərəfindən təmin olunmalıdır. Bütün orta təhsil məktəblərdə və ali məktəblərdə tədris olunan təbiət və humanitar fənn kitabları eyni müəllif tərəfindən yazılmalıdır. Müxtəlif müəlliflər tərəfinfən yazılan kitab müxtəlif orta, orta ixtisas və ali təhsil ocaqlarında istifadə olunduqda fənin ardıcıl mənimsəməsi keyfiyyətsiz olur.

РЕЗЮМЕ

СОВРЕМЕННЫЕ МЕТОДЫ ОБРАЗОВАНИЯ И ИХ ПРОБЛЕМЫ В ВУЗАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Гасанов Э.Р., Халилова Ш.Г.

***Ключевые слова**: система образования, система обучения, учебная программа, средняя школа, высшее образование, средняя специализация, развитие науки, теоретические науки*

В тезисах рассмотрена учебная программа предметов, преподаваемых в средних, средне-специальных и высших учебных заведениях, состоящая из восьми пунктов. Применение этих пунктов должно быть практическим с учетом методических советов вузов. Решением педагогических советов общеобразовательных, средних и высших учебных заведениях проводятся семинары с учетом достижений современной науки. Предлагается взимать плату за обучение студентов в вузах или оплачивать в виде кредита. Для выпускников высших учебных заведений этот кредит должен быть погашен за счет определенной суммы от зарплаты в течение указанного срока.

SUMMARY

MODERN EDUCATIONAL METHODS AND THEIR PROBLEMS IN HIGHER EDUCATION INSTITUTIONS OF THE REPUBLIC OF AZERBAIJAN

Hasanov E.R., Khalilova Sh.G.

***Keywords:** education system, teaching system, curriculum, secondary school, higher education, secondary specialization, development of science, theoretical sciences*

The theses consider the curriculum of subjects taught in secondary, specialized secondary and higher educational institutions, consisting of eight points. The application of these points should be practical, taking into account the methodological councils of universities. By the decision of the pedagogical councils of general education, secondary and higher educational institutions, seminars are held taking into account the achievements of modern science. It is proposed to charge tuition fees for students at universities, to pay in the form of a loan. For graduates of higher educational institutions, this loan must be repaid at the expense of a certain amount of salary within the specified period

.

MÜASİR UNİVERSİTET TƏHSİLİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Cəbrayılova F.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fəl.f.d.
cebrayilova_fira@mail.ru

Açar sözlər: *müasir təhsil, universitet təhsili, bilik istehsalı, elmi informasiya*

İstənilən cəmiyyətin bütün dövrlər və zamanlar üçün, o cümlədən müasir postindustrial dövr üçün ən vacib dəyəri insan kapitalıdır. Vətəndaşların rifahı, yaşam keyfiyyəti bir tərəfdən dövlətin inkişaf dərəcəsinin göstəricisidir, digər tərəfdən insanın bu dünyada məsuliyyəti, insani keyfiyyətlər sivilizasiyanın taleyini müəyyənləşdirir.[1]. İnsani keyfiyyətlərin inkişafı təhsillə mümkündür, buna görə də təhsil hər bir dövlət, cəmiyyət və insan üçün qiymətli dəyərdir. Bundan başqa təhsil həm də yeni dəyərlərin axtarışı və yaradılması üçün institut rolu oynayır və oynamalıdır, belə ki, təhsil həmişə ümummədəniyyət sahəsinin yayımı olub və olacaq[2].

Müasir təhsilin, xüsusilə universitet təhsilinin əsas vəzifəsi kifayət qədər yaxşı bilik alan, elmi inkişafın əsas istiqamətləri haqqında müəyyən təsəvvürə malik olan, özü üçün ən perspektivli sahəni seçən mütəxəssis hazırlamaqdan ibarətdir. Bu gün yüksək elmi-texniki tərəqqi və xüsusilə, qloballaşma şəraitində elm ayrı-ayrı fərdlərin romantik xəyallarından xeyli uzaqlaşıb; onun cari durumu daha çox iki mühüm amillə - maliyyə və informasiya ilə şərtlənir.

Müasir elm bilik istehsalının yaxşı təşkil olunmuş sistemidir. O, inkişaf etmiş infrastruktura, konkret planlaşdırmaya, maliyyə vasaitlərinə və bu yönümdə şiddətli rəqabətə malik olan biznesdir.

Hazırda elm bütövlükdə bilik istehsalının yaxşı təşkil olunmuş sistemidir; o, inkişaf etmiş infrastruktura, aydın planlaşdırmaya, düzgün formalaşmış pul vəsaitlərinə və bu axınlar ətrafında şiddətli rəqabətə malik biznesdir. Qabaqcıl elm, cəmiyyətin ehtiyaclarına cavab verən və bu ehtiyaclara təsir göstərə biləcək güclü, geniş dünyagörüşlü mütəxəssislərin nəzarəti ilə böyük qruplar, əməkdaşlıqlar tərəfindən hazırlanır. Bu gün elm yetərincə məlumat bazasına malikdir, lakin eyni zamanda bu məlumatların istehsal sürəti və miqyası daha böyükdür. Hər gün yeni-yeni elmi istiqamətlər və tədqiqat sahələri yaranır. Və bu tamamilə təbiidir, çünki informasiya elmi fəaliyyətin əsas məhsuludur.

Yeni informasiyanın emalı və saxlanması problemi elmi ictimaiyyət tərəfindən kompüterlərin köməyi ilə uğurla həll edilir, lakin insan beyninin bu məlumatı qavramaq imkanları çox məhduddur. Elmin daxili strukturunun və elm sahələrinin sayının sürətlə artması elmdaxili əlaqələrin zəifləməsinə və çoxlu sayda dar mütəxəssislərin meydana çıxmasına səbəb olur.

Univeristet təhsilində bir-biri ilə əlaqəli iki amil mövcuddur: məzmun və insan. Məzmun baxımından təhsil daha mühafizəkar sistemdir. Təhsil sürətli reaksiya sistemi deyil, belə ki, onun məzmunu elmi-texniki tərəqqinin ən son nailiyyətlərin təsiri altında sürətlə dəyişməməlidir, xüsusilə bu nailiyyətlərin real sosial-iqtisadi nəticələrini yalnız uzun illər və hətta onilliklərdən sonra qiymətləndirmək mümkündür. Eyni zamanda, universitet təhsili insanları elmə hazırlayır və ona görə də ondan ayrılmaq olmaz. Təhsilin strukturu elmlə əks əlaqə mexanizmini elə təmin etməlidir ki, yeni biliklər normal olaraq mövcud məzmun sisteminə uyğunlaşdırılsın.

Müasir universitetin funksiyalarına aşağıdakıları daxil etmək mümkündür:

- intellektual (bilik, elm, mədəniyyətin qorunması, istehsalı və ötürülməsi);
-tədqiqat (biliyin inkişafı, sərbəst həqiqət axtarışı)
- sosial (yüksək ixtisaslı mütəxəssislərin və işçi qüvvəsinin hazırlanması və yenidən hazırlanması);
- xidməti (cəmiyyətin inkişafının qiymətləndirilməsinin təmin edilməsi);
- təhsil (cəmiyyətin intellektual kapitalının yetişdirilməsi və formalaşması);
- humanist (universal bəşəri ideyalara, konsepsiyalara, dəyərlərə yiyələnmək)

Belə güman etmək mümkündür ki, bunların içərisində ən mühüm olan tədqiqat, təhsil və humanist funksiyalardır.

Bu funksiyalar postindustrial cəmiyyətin əsas problemi ilə-insan kapitalının sürətlə yenilənməsi və inkişafı ilə əlaqələndirilir [3].

İnsan kapitalı həm də dəyərdir və özündə insanların bilik və praktiki bacarıqlarını, yaradıcılıq və düşünmə qabiliyyətlərini, şəxsi və liderlik keyfiyyətlərini, iş mədəniyyətini ehtiva edir. Təhsilin şəxsi dəyəri insanın ideala (karyera, xoşbəxtilk) hansı meyarla yaxınlaşması ilə müəyyənləşdirir. İnsanın şəxsi keyfiyyətləri, təhsili, dünyagörüşü, əxlaqı onun əməyini daha məhsuldar edir.

Təhsilin ictimai dəyəri ondan ibarətdir ki, insan təlim və tərbiyə prosesində nəsillərin təcrübəsini müxtəlif səviyyələr, mədəni irs, bilik sistemi şəlkində mənimsəyərək özünün fərdi inkişafı üçün təlimatlar

əldə edir. Universitet təhsili tələbəyə imkan verir ki, özünün həyat təcrübəsini – dünya haqqında təsəvvürlərini, öz şəxsi "Mən"ini, bu dünyadakı yerini və rolunu müəyyənləşdirə bilsin. Bu mənada təhsil prosesi bir araşdırmadır və istənilən tədqiqat da həmişə yaradıcı və yenilikçi sayıla bilər.

Təhsilin postsənaye cəmiyyətində dövlət əhəmiyyəti insan kapitalının təkmilləşdirilməsinə ehtiyac duyulur. Bu gün dövlət təhsil vasitəsilə insan kapitalına – insanların biliyinə, praktiki, yaradıcı, düşünmə qabiliyyətlərinə, mənəvi dəyərlərinə, şəxsi və liderlik keyfiyyətlərinə, dövlət tərəfindən gəlir əldə etmək üçün istifadə olunan əmək mədəniyyətinə sərmayə yatırır.

Universitet təhsilinin mahiyyətini H.Orteqa Qassetin "Universitet missiyası" kitabındaki sitat daha yaxşı anladır: "Məhdud mənada universitet elə institutdur ki, orada tələbə mədəni insan və yaxşı peşəkar olmağı öyrənir" [4].

Universitet uğurlu insanın inkişafı və formalaşması üçün mühitdir, şəxsiyyət yetişdirməyə qadirdir. Universitet fərdin ictimai məkana daxil olması üçün aktual vasitə olan insan keyfiyyətlərini yetişdirmək üçün nəzərdə tutulmuşdur. Universitet təhsilinin əsas prinsiplərindən biri peşəkarlıqdır, ali təhsildə peşəkarlıq və tədqiqat birləşərək fərdi yaradıcı mütəxəssisə çevirir. Müasir universitet təhsili digər elm və təhsil ocaqları sırasında liderlik edir desək, yanılmarıq. Universitet təhsili digər ali təhsil müəssisələrindən yüksək səviyyəli fundamental elmi- tədqiqat prosesləri ilə fərqlənir.

21-ci əsrdə universitet təhsilinin təkamülü nəhəng iqtisadi və sosial hadisələrin – dünyanın getdikcə daha çox qloballaşma və beynəlmiləlləşməsi fonunda baş verir. Bu gün universitet təhsilinin inkişafına beynəlxaql əməkdaşlıq, qarşılıqlı mübadilə, müştərək tədqiqat işləri, eyni zamanda dünyəvi prioritetlərə, bu və ya digər elmi məktəblərin təcrübəsinə əsaslanmaqla, yüksək iqtisadiyyatdan və texnologiyalardan yararlanmaqla, beynəlxalq standartlara və hər cür innovasiyalara açıq olmaqla mümkündür.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında qeyd edildiyi kimi:"Qlobal iqtisadi inkişafın tələblərinə uyğun şəkildə beynəlxalq təcrübədən istifadə təhsil prosesində müasir informasiya texnologiyalarının sürətli tətbiqini zəruri edir" [5].

Universitet təhsili çalışmalıdır ki, qloballaşmanın tələblərinə uyğunlaşmaqla yanaşı, öz dəyərlərini itirməsin, humanist bəşəri dəyərlərə yiyələnməklə yanaşı, milli ənənələrini mühafizə edərək yüksək keyfiyyətli, dövlətə və cəmiyyətə yararlı insan kapitalı istehsal edə bilsin.

Ədəbiyyat

1. Печчеи А. Человеческие качества / Пер. с англ. О.В. Захаровой. — М.: Прогресс, 1985.
2. Лебедев О.Е. Из материалов круглого стола «Образование в условиях формирования нового типа культуры», 7 октября 2002 г., СПб. / Научные основы развития образования в XXI веке : 105 выступлений членов Российской академии образования в СПбГУП / сост., ред. А.С. Запесоцкий, О.Е. Лебедев. — СПб.: СПбГУП, 2011.
3. Посталюк М.П. Интеллектуализация человеческого капитала в инновационной экономике / М.П. Посталюк, Б.В. Салихов; Казанский гос. ун-т, Ин-т социальных и гуманитарных знаний. — Казань: Казанский гос. ун-т, 2005..
4. *Ортега-и-Гассет Х.* Миссия университета / Хосе Ортега-и-Гассет; пер. с испан. М. Голубевой, А. Корбута. — Москва: Изд. дом Гос. ун-та — Высш. шк. экономики, 2010.
5. https://president.az/az/articles/view/9779

РЕЗЮМЕ

НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СОВРЕМЕННОГО УНИВЕРСИТЕТСКОГО ОБРАЗОВАНИЯ

Джабраилова Ф.С.

***Ключевые слова**: современное образование, университетское образование, производство знаний, научная информация*

В статье сделана попытка осмыслить индивидуальное, общественное и государственное значение современного университетского образования. Автору удалось учесть задачи и обязанности, стоящие сегодня перед университетским образованием в условиях глобализации и научно-технического прогресса. В то же время в статье четко и конкретно описывается национальное и социальное значение университетского образования и функции, которые оно должно выполнять. Автору удалось проанализировать направления развития современного университетского образования.

SUMMARY

DIRECTIONS OF DEVELOPMENT OF MODERN UNIVERSITY EDUCATION

Jabrayilova F.S.

***Key words:** modern education, university education, knowledge production, scientific information*

The article attempts to comprehend the individual, social and state significance of modern university education. The author managed to take into account the tasks and responsibilities facing university education today in the context of globalization and scientific and technological progress. At the same time, the article clearly and specifically describes the national and social significance of university education and the functions that it should perform. The author managed to analyze the directions of development of modern university education.

УЧЕБНОЕ ВЗАИМОДЕЙСТВИЕ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ ВЫСШЕЙ ШКОЛЫ

Гасанова А.А.
Сумгаитский государственный университет, Сумгаит, Азербайджан,доцент
amina.gasanova5@mail.ru

Ключевые слова: *образовательный процесс, научные кадры, научная работа, информация*

Рассматривая образовательный процесс высшей школы следует выделить несколько сфер взаимодействия: это взаимодействие студента и преподавателя в процессе учебы, взаимодействие студентов между собой и межличностное взаимодействие . Все это оказывает влияние на учебно-педагогическое взаимодействие.

Учебное взаимодействие рассматривается, как субъект-субъектное взаимодействие, которое должно обеспечить формирование у студентов ключевых и специальных компетенций. И это все оказывает помощь в освоении будущей профессиональной деятельности.

«Анализ сущности компетентностного подхода и образовательного взаимодействия, которая формируется как психолого-педагогического явление позволяет сделать вывод о том, что образовательное взаимодействие при компетентностном подходе характеризуется своей активностью, осознанностью и целеустремленностью взаимных действий сторон, где согласованное действие выступает результатом психологического состояния контакта. Причем активность как характеристика образовательного взаимодействия одновременно выступает характеристикой студента и преподавателя как субъектов этого взаимодействия» [1, с. 21].

В данном случае преподаватель является личностью, обладает некоторыми качествами: умением проектировать, модифицировать структуру содержания образовательного процесса, использовать различные технологии обучения, осуществлять педагогическую рефлексию [2,с. 138–144]. Д. Ахметова, Л. Гурье называют это инновационным подходом в преподавании. Для достижения всего этого и в реализации такого инновационного подхода имеет активность преподавателя. Из ретранслятора знаний он должен превратиться в организатора учебной деятельности студентов, в помощника и наставника, который реализует творческий подход, принимающего в каждом конкретном случае нестандартные решения.

К. Денек [3, с. 114–127] подчеркивает значение научных кадров высшей школы и их компетенций для качества образования. Автор утверждает, что хороший преподаватель, проводя занятия, создает так называемые условия для самостоятельного творческого мышления, мотивирует студента к интеллектуальной деятельности, к переработке информации и выработке новых знаний. Он заботится о всестороннем развитии студентов в интеллектуальной, эмоциональной и социальной сфер.

Преподаватель высшей школы должен стремиться быть научным авторитетом, или, как это определяет Э. Фромм, авторитетом рациональным, который основан на компетентности, чертах характера, вызывающих восхищение, обожание подчиненных [4, с. 75–86]. Человек, который является авторитетом, имеет разумное преимущество над другими, поскольку обладает реальными достаточными достижениями. Конечно он не боится критики и открыт для диалога, со студентами. Необходимым условием реализации компетентностного подхода в образовании являются психолого-педагогическая компетентность. Под психолого-педагогической компетентностью преподавателя М. И. Лукьянова понимает совокупность определенных качеств (свойств) личности с высоким уровнем профессиональной подготовленности к педагогической деятельности и эффективному взаимодействию с учащимися в образовательном процессе [5, с. 56–61]. Психолого-педагогической компетентностью преподавателя является его направленность на студента, совершенствовании способов учебно-воспитательной деятельности. Психологическими компонентами профессиональной педагогической компетентности, по мнению Н. В. Кузьминой, являются:

1. Знание особенностей усвоения учебного материала учащимися в соответствии с их индивидуальными и возрастными характеристиками;

2. Знание особенностей учебной группы и конкретного учащегося в ней, особенностей взаимоотношений преподавателя с группой и закономерностей общения;

3. Знания о достоинствах и недостатках собственной деятельности, особенностях и характерных качествах своей личности [6, с. 23].

Следует отметить еще один факт, в чем отличие высококомпетентных педагогов от малокомпетентных. Это заключается именно в разном уровне психологических компонентов в системе их профессиональных знаний [6, с. 25].

И. Шемпрух [7, с. 21–27] считает, что в профессиональном функционировании педагога важны так называемые интерпретационно-коммуникативные компетенции, которые выражаются в способности понимать образовательную ситуацию, в умении выбрать эффективный способ общения. Эти компетенции касаются: способности в рефлексивном понимании студентов, приобретении ими навыков установления и поддержания контакта со студентами, правильной интерпретации образовательной информации; общения между преподавателем и студентом; передачи учебной информации; совершенствования точности, ясности и этичности собственного лингвистического поведения.

Невозможно рассматривать психолого-педагогическую компетентность преподавателя вне развития его личности. Преподаватель также должен быть для студентов образцом личности. Поэтому не безразлично, кем является преподаватель университета как человек, пользуется ли он доверием у студентов [8, с. 365–378].

Компетентный преподаватель стремится узнать студента, он внимательно его слушает, старается понять, принять его мнение, рассматривает его предложения и идеи и помогает самостоятельно сделать выбор. В данном случае преподаватель использует различные виды поддержки на всех этапах решения задач, творческих проблем, как в индивидуальной, так и в коллективной работе [9, с. 182].

Студент в процессе обучения одновременно взаимодействует не с одним педагогом, а с целой группой преподавателей. Их деятельность оказывается наиболее эффективной, а усилия оставляют наибольший след в личности учащегося тогда, когда деятельность педагогов оказывается совместной, согласованной, «ансамблевой». Высшим критерием такой согласованности является не просто взаимодействие педагогов между собой, но их взаимосодействие, направленное на достижение конечной цели, какой является вовсе не методическое совершенство процесса, а личность учащегося – его развитие, обучение и воспитание [10, с. 3–13].

Литература

1. Смышляева, Л. Г. Педагогические технологии активизации обучения в высшей школе: учебное пособие / Л. Г. Смышляева, Л. А. Сивицкая.– Томск : Изд-во Томского политехнического университета, 2008. – 190 с.
2. Ахметова, Д. Преподаватель вуза и инновационные технологии / Д. Ахметова, Л. Гурье // Высшее образование в России. – 2001. – № 4. –С. 138–144.
3. Denek, K. Uniwersytet w perspektywie społeczeństwa wiedzy. Dydaktyka akademicka i jej efekty / K. Denek. – Poznań: Wyd. WSPiA, 2011. – 421 s.
4. Fromm, E. Ucieczka od wolności / E. Fromm. – Warszawa: Czytelnik, 2000. – 275 s.
5. Лукьянова, М. И. Психолого-педагогическая компетентность учителя / М. И. Лукьянова // Педагогика – № 10. – 2001. – С. 56–61.
6. Кузьмина, Н. В. Педагогическое мастерство учителя как фактор развития способностей учащихся / Н. В. Кузьмина // Вопросы психологии. –1984. – № 1. – С. 20–25.
7. Szempruch, J. Nauczyciel w warunkach zmiany społecznej i edukacyjnej / J. Szempruch. – Kraków, Impuls, 2012. – 310 s.
8. Stewart, J. Mosty zamiast murów. O komunikowaniu się między ludźmi / J. Stewart. – Warszawa: Wydaw. Naukowe PWN, 2000. – 643 s.
9. Poplawska, A. Rozwazania o modelu podmiotowosci uczniow we wspolczesnej edukacji / E. Niemiec, A. Poplawska (red.) Podmiotowosc wspolczesnej edukacji. Oglady – intencje – realia. – Bialystok: Wyd. NWSP, 2009. – С. 177–186.
10. Байденко А. Компетенции в профессиональном образовании / А. Байденко // Высшее образование в России. – 2004. – № 11. – С. 3–13.

XÜLASƏ
ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏDRİS PROSESİNDƏ TƏDRİS QARŞILIQLI ƏLAQƏSİ
Həsənova Ə.A.

Açar sözlər: *tədris prossesi, elmi kadırlar, elmi iş, informasiya*

Bu məqalə ali təhsil müəssisələrinin müəllim və tələbələrinin təhsil yanaşması sahəsində mühüm aspektlərə həsr edilmişdir. Ali təhsil müəssisəsinin səriştəli müəllimi tələbəni tanımağa çalışır, onu diqqətlə dinləyir, tələbəni anlamağa çalışır. Müəllim şəxsiyyət nümunəsi olmalıdır. Tədris prosesində ali təhsil müəssisəsində tələbə bir müəllimlə deyil, bütün müəllimlər qrupu ilə qarşılaşır. Müəllim şagirdlərin intellektual, emosional və sosial sahədə hərtərəfli inkişafının qayğısına qalır.

SUMMARY
EDUCATIONAL INTERACTION IN THE EDUCATIONAL PROCESS OF HIGHER EDUCATION
Hasanova A.A.

Key words: *teaching process, scientific cadres, scientific work, information*

This article is devoted to important aspects in the field of educational approach of teachers and students of higher education. A competent teacher of a higher educational institution strives to get know the student, he listens attentively to him, tries to understand the student. The teacher should be a model of personality. In the process of learning, a student in a higher educational institution is faced not with one teacher, but with a whole group of teachers. The teacher takes care of the comprehensive development of students in the intellectual, emotional and social spheres.

AZƏRBAYCANIN ALİ TƏHSİL SİSTEMİNDƏ PROBLEMLƏR VƏ HƏLLİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN TƏDBİRLƏR

Xəlilov E.Ş.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
Atiahi-sdu-hik@mail.ru

Açar sözlər: *universitet, təhsil sistemi, proqram, inteqrasiya, metod, problem*

Azərbaycanda universitetlərin idarə edilməsi zamanı köhnə tədris proqramlarından istifadəsi, ümumilikdə təhsilin məzmununun yenilənməməsi, digər tərəfdən dərsliklərlə bağlı problemlər isə kifayət qədər çoxdur. Az sayda universitetlərimiz vardır ki, onlar öz tədris yüklərinə uyğun yeni dərsliklərini və eləcə də tədris proqramlarını formalaşdıra bilmişlər. Əlbəttə universitetlərin hamısında tədris proqramları formalaşıb. Lakin onlardan çox az qismi günün tələblərinə cavab verə bilir. Lakin təəssüf hissi ilə bildirək ki, təhsil müəsisələrinin böyük əksəriyyətində köhnə tədris proqramları, müasir tələblərə cavab verməyən dərsliklər, həmçinin universitetlərin bəzi pedoqoji heyyətinin yeni tələblərə cavab verə bilməməsi kimi məsələlər öz lazımi həllini tapmayıb. Bütün bu proselərə görə qeyd edə bilərik ki, həmin ali təhsil müəssisələrinin məzunları son dövrlərdə əmək bazarında çox böyük çətinliklərlə üz-üzə qalmaqdadırlar. Qeyd edə bilərik ki, bu gün Azərbaycanın əmək bazarında kifayət qədər işçiyə tələbat vardır. Düşünürəm ki, bütün bu proseslərin gedişatında lazım olan uğurların əldə edilə bilməməsində həmin ali təhsil müəssisəninin rəhbərliyindən də çox şey asılıdır. [4]

Müasir təhsilin, eləcə də Azərbaycanda təhsil sisteminin inkişafı təhsil sahəsini mənəvi dəyərlərlə zənginləşdirməklə sosiomədəni bir hadisə kimi dirçəldilməsini gündəmə gətirmişdir. Təhsilin inkişafına bu cür yanaşma onun əsas mahiyyətini sosiomədəni kontekstdə təhlil etmək zərurətini meydana gətirir. Bir məsələni də qeyd edə bilərik ki, hələ antik dövr zamanı istər Platon, istərsə də Aristotel təhsil və tərbiyə məsələləri haqqında danışarkən onun fəlsəfə və etika ilə ayrılmaz bağlı olduğunu qeyd etmişdilər.

Təhsilə sosiomədəni yanaşmanın əsası XX əsrdə fəlsəfi fikirdə cərəyan edən ümumi metodoloji proseslər çərcivəsində qoyulmuşdur. Sosial bilik metodologiyası sferasında klassik mərhələni mədəniyyətin meydana gəlməsi, elmdə baş verən dəyişikliklərin təsiri altında yaranmış qeyri-klassik mərhələ əvəz etmiş və onun da ardınca postqeyri-klassik mərhələ başlamışdır. Postqeyri-klassik mərhələdə sosial idrakın bir-birini tamamlayan yeni metodları meydana gəlmişdir ki, bu da bizi bu mərhələni metodoloji plüralizm dövrü kimi nəzərdən keçirməyə imkan verməkdədir. Bu gün monist metodologiyadan plüralist metodologiyaya keçiddən məlumat verən alimlər onun səciyyəvi cəhətlərini aşağıdakı kimi qeyd edirlər: rasionallığın çərçivələrinin analitik metodlardan kənara çıxarmaqla genişləndirilməsi; metodologiyanın metodların sintezi və şərhi üsulları kimi nəzərdən keçirilməsi. Təhsilin öyrənilməsi baxımından metodoloji plüralizm təsadüfi deyildir, çünki təhsildə maddi və mənəvi, obyektiv və subyektiv, tarixi və məntiqi, sosial və siyasi substansiyalar bir yerdədir. Belə ki, təhsil həyatın hər iki sferasına-həm ictimai varlığa, həm də ictimai şüura köklənir. Buna görə də hesab edirik ki, təhsilə sosiomədəni yanaşma onun problemlərinin öyrənilməsi

istiqamətində xüsusi əhəmiyyət kəsb edir. Təhsil həm sosial, həm də mədəni hadisə kimi mühüm əhəmiyyət kəsb edir. Deməli, metodoloji plüralizm fəlsəfə, antropologiya, kulturologiya, psixologiya, etika kimi ən müxtəlif elmlərin nailiyyətlərindən yararlanmağı həm mümkün və həm də zəruri edir. Bu mənada S.Xəlilov haqlı olaraq təhsilin öyrənilməsinə metodoloji yanaşmalara yenidən baxmaq və təhsili öyrənərkən metodoloji sintezdən istifadə etmək zərurətinə işarə etmişdir [2].

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanda təhsil sahəsinin inkişafı üçün böyük işlər görmüşdür. Ulu öndərin layiqli davamçısı İlham Əliyev 2003-cü ildə hakimiyyətə gəldikdən sonra ölkədə hər sahədə olduğu kimi təhsil sahəsinə də böyük diqqət ayırmışdır. Azərbaycanda 2005-ci ildə Bolonya prosesinə qoşulması ölkədə ali təhsil sahəsində islahatların yeni mərhələsinə start vermişdir. 2009-cu ildə "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı qəbul edilmişdir. Qəbul olunmuş proqramda əsas məqsəd ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiya etməsindən ibarətdir. Proqramın əsas məzmununu Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, rəqabət qabiliyyətliliyinin tam təmin olunması, ölkədə iqtisadiyyatın inkişaf tələblərinə uyğun ali təhsilli kadrlar üçün yaranan tələbatın ödənilməsi, eləcə də informasiya cəmiyyətinə və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi məqsədlə iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin fmüəyyənləşdirilməsi təşkil edir. Proqramın icrası zamanı ali təhsilin qanunvericilik bazasının Avropa standartlarına tam uyğunlaşdırılması və Bolonya prosesinin əsas prinsipləri sahəsində yenidən qurulması istiqamətində mühüm işlər həyata keçirilmişdir [3]. Qeyd olunan mərhələdə atılan mühüm strateji addımlardan biri də Prezident İlham Əliyevin irəli sürdüyü neft kapitalının insan kapitalına çevrilməsi konsepsiyası çərçivəsində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olmuşdur. Proqramın əsas hədəfi xarici ölkələrə dövlət hesabına təhsil almaq üçün göndərilən Azərbaycalı gənclərin təhsilin bütün pillələri üzrə ayrılan maliyyə vəsaitləri çərçivəsində bakalavriat, magistratura, rezidentura, doktorantura pillələri üzrə təhsil alması, eləcə də ixtisasartırma və yenidənhazırlanma təhsili üzrə bölünməsi təşkil etmişdir. Həmçinin hökumətlər arasında imzalanmış müqavilələr və ali təhsil müəssisələri arasında beynəlxalq tələbə mübadiləsi əsasında mütəxəssis hazırlığının respublikanın iqtisadi inkişaf məsələləri nəzərə alınmaqla təmin edilməsi olmuşdur.

Qlobal səviyyədə təhsil sahəsində ortaya çıxan yeni çağırışlar və Azərbaycan iqtisadiyyatının müasir inkişaf mərhələsinə daxil olması heç şübhəsiz ki, ölkədə təhsilin inkişafı üzrə vahid dövlət strategiyasının formalaşdırılmasını zəruri etmişdir. Bu məqsədlə "24 oktyabr 2013-cü ildə Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və onun əsasında hazırlanaraq 2015-ci ilin 19 yanvarında təsdiq edilmiş müvafiq Fəaliyyət Planı ölkədə ali təhsil də daxil olmaqla, bütövlükdə təhsil sisteminin qeyd olunan çağırışlar və tələblər istiqamətində qısa, orta və uzunmüddətli inkişafını təmin edəcək vahid dövlət siyasətini özündə əks etdirir". [1]

Ədəbiyyat

1. https://azedu.az/az/news
2. Xəlilov S.S.Təhsil, təlim, tərbiyə. Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 2005, 650 s.
3. Mahmudov M.C. Dünyada təhsil sistemləri. Monoqrafiya. – Bakı: Mütərcim, 2014. 480 s.
4. "Respublika".-2013.-24 yanvar.-N 16.-S.6

РЕЗЮМЕ

ПРОБЛЕМЫ И МЕРЫ, ПРЕДПРИНИМАЕМЫЕ В СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА

Халилов Э.Ш.

Ключевые слова: *вуз, образовательная система, программа, интеграция, метод, проблема.*

Использование старых учебных программ в высших учебных заведениях Азербайджана, отсутствие обновления содержания образования в целом и проблемы, связанные с учебниками, поначалу вызывали большие трудности. С началом 21 века принятие Государственных программ реформ в системе высшего образования Азербайджанской Республики позволило азербайджанским студентам получить образование в зарубежных странах за счет государства. Новые вызовы, возникающие в сфере образования на глобальном уровне, и выход экономики Азербайджана на современный этап развития, несомненно, привели к формированию единой государственной стратегии развития образования в стране.

SUMMARY

PROBLEMS AND MEASURES TAKEN IN THE HIGHER EDUCATION SYSTEM OF AZERBAIJAN

Khalilov E.Sh.

Keywords: *university, educational system, program, integration, method, problem*

The use of old educational programs in Azerbaijan's higher education institutions, failure to update the content of education in general, and problems related to textbooks, on the other hand, caused great difficulties in the early days. Since the beginning of the 21st century, the adoption of State Programs on reforms in the higher education system of the Republic of Azerbaijan has led to the study of Azerbaijani students in foreign countries at the expense of the state. The new challenges emerging in the field of education at the global level and the entry of Azerbaijan's economy into the modern stage of development undoubtedly led to the formation of a unified state strategy for the development of education in the country.

PEDAQOJİ FƏALİYYƏTDƏ MÜƏLLİMİN FƏRDİ-PEDAQOJİ MÖVQEYİ

Məmmədov C.H.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
j.mamedov@gmail.com

***Açar sözlər**: ali təhsilin keyfiyyəti, pedaqoq-tələbə münasibətləri, akademik dəyərlər, pedaqoqun peşəkar-şəxsi qiymətləndirilməsi, "ali məktəb müəllimi" fenomeni, daxili və xarici komponentlər.*

Bir aparıcı sosial qrup, cəmiyyətin inkişafının rəhni kimi tələbə gənclərin müasir dövrün dəyərləri baxımından təkamülü çox şaxəli,bəzən isə hətta proqnozlaşdırılması çətin olan bir proses xarakteri daşıyır. Məhz bu iki cəhət – çoxşaxəlilik və proqnozlaşdırılmasında çətinlik – ali məktəb pedaqoqunun qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün təkcə peşəkar səviyyə deyil, həm də pedaqoq-tələbə qarşılıqlı münasibətlərində də yeni müstəviyə keçid tələb edir.

Bu gün aliməktəbdə təlim prosesinin həyata keçirilməsində iştirak edən pedaqoqların – ali məktəb müəllimlərinin əksəriyyəti bu səviyyədə klassik akademik dəyərlərin – yüksək səviyyədə peşəkarlığın, intellektuallığın və s.-nin daşıyıcısı olmaqla bərabər, həm də bir şəxsiyyət kimi tələbənin qəbul edilməsinə və, ən əsası da, onun psixoloji durumunun anlaşılmasına meyl nümayiş etdirirlər.

Bu meylin formalaşmasına, zənnimizcə, bir neçə mühüm amil təsir göstərir. Belə ki, bir tərəfdən müasir tələbələrə münasibətdə (hətta bu tam aşkar nümayiş etdirilməsə belə) belə bir mövqe formalaşmaqdadır ki, onlar, "klassik tələbəliyə" nisbətən xeyli dəyişmişlər.

Bazar iqtisadiyyatı, dünyada və ölkəmizdə rəvac almış siyasi-iqtisadi durum şəraitində onların həyatında yer almış adaptivlik, daha yüksək səviyyədə müstəqillik və s. bu kimi pozitiv keyfiyyətlərlə yanaşı, təhsilə münasibətdə onların əməksevərliyi və erudisiyasının zəiflədiyi, bu baxımdan özlərinə qarşı tələbkarlıqlarının azaldığı, dünyagörüşünün daraldığı, intellektual səviyyələrinin aşağı düşdüyü vurğulanır. Onların dəyər yönümü, ilk növbədə, gedonist, maddi və ailə dəyərlərinə yönəlmişdir və, müvafiq qaydada, mənəvi, etik və estetik dəyərlər sistemi zəifləmişdir. Bu isə, labüd olaraq, onlarla təkcə konkret fənn proqramı çərçivəsində münasibətlərin qurulmasının yetərli olduğuna dəlalət etmir. (Etiraf etmək lazımdır ki, bu mövqe tam obyektiv olmasa da, o müəyyən dərəcədə həqiqətə yaxındır).

Digər tərəfdən, sözü gedən meylin "meydana çıxması" ali təhsil sitemində "pedaqoq-tələbə" münasibətlərinin "öyrədən-öyrənən" münasibətləri çərçivəsindən çıxaraq, tərəfdaşlıq səviyyəsinə keçməsini labüd edir. Belə ki, müasir texnologiyaların olduqca əhatəli (maləsəf, bu təyinin azərbaycan dilli internet resurslarına münasibətdə istifadəsi bir qədər obyektivlikdən uzaqdır, lakin bu vəziyyətin dinamikası ümidvericidir!) informativ imkanlarını və tələbə gənclərin internetdən istifadə imkanlarını və bacarıqlarını nəzərə alsaq, bu keçidin qaçışlmaz bir reallıq, bir zərurət olması qəbuledilən dir.

Yəni, ali məktəbdə təlim prosesinin tərəf-müqabilləri kimi istər tələbənin, istərsə də pedaqoqun şəxsiyyəti ön plana çıxır. Bu prosesin səmərəsinin təmin edilməsi tələbə mühitinin psixoloji xüsusiyyətlərinin müntəzəm məcrada öyrənilməsini, bir tərəfdən deviant təbiətli gənclik meyllərinin, eləcə də istər tədris, istərsə də fərdi planda peadoqun fəaliyyətində mümkün ola bilən qüsurların vaxtında aşkar edilib qarşısının alınmasını tələb edir.

Ali məktəbdə təlim prosesinin şəxsiyyət yönümünün əhəmiyyətinin ön plana çıxması təlim sisteminin özünün texnokrat və fənn yönümlü xarakteri prinsiplərindən uzaqlaşmasını tələb edir. Bununla əlaqədar, pedaqoqun təlim prosesində aparıcı funksiyası kimi, tələbə şəxsiyyətinin pozitiv istiqamətdə keyfiyyətcə dəyişməsi zərurəyi ilə bağlı olan dəyişdirici funksiya çıxış edir. Bu funksiya özünə inkişafetdirici, formalaşdırıcı, maarifləndirici, layihələndirici, akmeoloji rolları daxil edir.

Ən əsası da odur ki, sözü gedən meyllər birmənalı şəkildə "ali məktəb müəllimi" peşəsinə də toxunur, ona keyfiyyətcə və mənaca yenilik gətirir. Hər bir ictimai əhəmiyyətli və dinamik fenomen kimi, bu fenomen də iki – daxili və xarici cəhətdən nəzərdən keçirilə bilər. Onun adekvatlığını təmin edən xarici amil – cəmiyyətin və dövlətin ali təhsilə münasibətini əks etdirir və ali məktəb müəlliminin ictimai statusunu

ona xas olan atributlarla (tutduğu vəzifə, nail olduğu elmi dərəcə, əmək haqqı səviyyəsi və s. bu kimi əhəmiyyətli məqamlarla) səciyyələnir.

Ali məktəb müəlliminin prestijinin daxili komponentinə gəldikdə isə demək lazımdır ki o, bu peşənin subyektlərinin peşəkar və şəxsi (!) keyfiyyətlərinə söykənir, ali məktəbin təlim mühitində (pedaqoqun tələbələr tərəfindən qiymətləndirilməsi və peşəkar ictimaiyyət tərəfindən ekspert qiymətləndirilməsi əsasında) formalaşır və faktiki olaraq onların özlərindən asılıdır.

Sözü gedən cəhətin - ali məktəb müəlliminin prestijinin daxili komponentinin, əgər onun sırf subyektiv xarakter daşımadığını nəzərə alsaq, pedaqoqun fəaliyyətində, zənnimizcə, pozitiv rolu ondan ibarətdir ki, onun vasitəsi ilə istər konkret pedaqoqların, istərsə də bütövlükdə pedaqoji mühitin işində mümkün çatışmazlıqların operativ şəkildə aşkar edilməsi (proqnozlaşdırılması) və vaxtında korreksiya olunması imkanı meydana çıxır. Bu prosesdə, ilk baxışdan nə qədər subyektiv görünsə də, ən önəmli olan məqamlardan biri – "müəllimin tələbə reytinqi", yəni onun öz dinləyiciləri tərəfindən qiymətləndirilməsidir: bu qiymətləndirmənin formamalaşmasına daxil olan məqamlar kimi pedaqoqun peşə səriştəsi, intellektual-bilik bazası, təlim prosesində özünü təqdim etməsi və, həmçinin, öyrənənlərlə davranış xüsusiyyətləri fərqləndirilə bilərlər.

(Qeyd edək ki, burada söhbət heç vəhclə, "ali məktəb pedaqonun ideallaşdırılmasından", onun nümunəvi surətinin formlaşdırılmasından (əksər sorğularda və tədqiqatlarda məhz bu monovektor üstenlük təşkil edir) deyil, ali məktəbin təlim mühitində yer alan müəllim-tələbə münasibətlərinin istər bütövlükdə, istərsə də onun ayrı-ayrı komponetləri baxımından, pozitiv dinamikasının təmin edilməsindən gedir).

Ədəbiyyat

1. Буланова-Топоркова М.В. Педагогика и психология высшей школы: учебное пособие. Ростов н/Д: Феникс, 2002. 544 с.
2. Попова О.И. Преподаватель вуза: современный взгляд на профессию. Опыт социологического исследования // Педагогическое образование в России. 2012. № 6. С. 112-119.
3. Сенашенко В.С. О престиже профессии «преподаватель высшей школы», учёных степеней и званий // Высшее образование в России. 2017. № 2. С. 36-44.

РЕЗЮМЕ
ИНДИВИДУАЛЬНО-ПЕДАГОГИЧЕСКАЯ ПОЗИЦИЯ УЧИТЕЛЯ В ПЕДАГОГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

Мамедов Дж.Г.

Ключевые слова: *качество высшего образования, академические ценности, взаимоотношения «педагог-студент», феномен «преподаватель высшей школы», профессионально-личностная оценка преподавателей, внешний и внутренний компоненты.*

Одним из наиболее важных и наименее изученных аспектов системы высшего образования является сфера личностных взаимоотношений на уровне «преподаватель - студент». Формирование этого типа социальных отношений - процесс сложный, в равной мере зависящий от обеих заинтересованных сторон, но именно он в итоге определяет эффективность образовательного процесса. Психодиагностика этой сферы образовательного пространства может не только дать более полное представление о значимости данного аспекта системы высшего образования, но и поможет внести коррективы в организацию образовательного процесса.

SUMMARY
INDIVIDUAL PEDAGOGICAL POSITION OF A TEACHER IN PEDAGOGICAL ACTIVITY

Mammadov J.H.

Keywords: *quality of higher education, academic values, "teacher-student" relationship, "teacher of higher education" phenomenon, professional and personal assessment of teachers, external and internal components.*

One of the most important and least studied aspects of the higher education system is the sphere of personal relationships at the level of "teacher - student". The formation of this type of social relations is a complex process, equally dependent on both stakeholders, but it is he who ultimately determines the effectiveness of the educational process. Psychodiagnostics of this sphere of the educational space can not only give a more complete picture of the significance of this aspect of the higher education system, but also help to make adjustments to the organization of the educational process.

RESEARCH OF INTEGRATION OF SUBJECTS AS A SCIENTIFIC THEME

Hasanov E.L.
The Presidium of Ganja Branch of ANAS, Ganja, Azerbaijan, PhD
el-hasanov@gmail.ru

Key words: *integration, education, innovative research, subject, higher education.*

Dünyada getdikcə daha çox alimlər var və onlar getdikcə daha mobil olurlar. 2017-2022-ci illər arasında dünyada tədqiqatçıların və nəşrlərin sayı 20%-dən çox artıb. Getdikcə daha çox ölkə qadın tədqiqatçıların sayını artırmaq üçün siyasət həyata keçirir. Eyni zamanda, alimlər nəinki beynəlxalq elmi jurnallarda daha fəal nəşr edirlər, həm də onların xarici tərəfdaşlarla həmmüəlliflik etdiyi məqalələr yazmaq ehtimalı daha yüksəkdir və ictimai sahədə məqalələrin sayı getdikcə artır. Müxtəlif gəlir səviyyələrinə baxmayaraq, dünya ölkələri istedadlı alimləri cəlb etmək və saxlamaq, onların bacarıqlarını artırmaq və tədqiqat infrastrukturunu təkmilləşdirmək, yeni təqaüdlər yaratmaq və tədqiqat vizaları vermək üçün şərait yaradır. Özəl firmalar öz tədqiqat laboratoriyalarını başqa ölkələrə köçürür, bəzi universitetlər isə daha çox istedadlı gəncləri cəlb etmək üçün xaricdə kampuslar yaradırlar. Bütün bunlarla biz siyasətin formalaşdırılması və dünyanı daha dayanıqlı etmək üçün elmi sahibkarlıq, bilik, mobillik və beynəlxalq əməkdaşlıqda bu sürətlənən tendensiyaları səfərbər etmək problemi ilə üzləşirik. Bunun üçün elm və siyasət arasında daha möhkəm əlaqələr və innovasiyaya doğru amansız hərəkət tələb olunur. Davamlı inkişaf məqsədlərinin bir çoxuna nail olmaq təkcə texnologiyanın yayılmasından deyil, həm də elmin inkişafı üçün ölkələrin bir-biri ilə nə dərəcədə əməkdaşlıq etməsindən asılı olacaq. Azərbaycanda milli elmi-tədqiqat institutlarının sayı iki dəfə azalıb. Sovet dövründə yaradılmış bu elmi müəssisələr sonradan yeni texnologiyaların inkişafı və milli prioritetlərin dəyişməsi nəticəsində köhnəlmişdir. Modernləşməni asanlaşdırmaq üçün infrastrukturun bir hissəsi kimi Azərbaycanda texnoparklar tikilir və elm mərkəzləri yaratmaq üçün mövcud institutlar birləşdirilir. Davamlı iqtisadi artımla dəstəklənən milli inkişaf strategiyaları yeni yüksək texnologiyalı sənaye sahələrinin yaradılmasına, resursların bölüşdürülməsinə və iqtisadiyyatın ixrac bazarlarına yönəldilməsinə kömək edir. Azərbaycan təkcə ənənəvi sənaye sahələrinin səmərəliliyinin artırılması vəzifəsini qarşısına qoymur, həm də biznes sektorunun, təhsilin və elmi tədqiqatların inkişafı üçün İKT və digər müasir texnologiyalardan daha geniş istifadə etməyə çalışır.

Ədəbiyyat

1.Барабанова С.В., Административная реформа в образовании и трансформация внутривузовского самоуправления (правовое регулирование) // Юрист вуза, 2021. № 1.С. 9.

2. Борисов И. И., Запрягаев С. А. Тенденции развития образования в XXI веке // Вестн. Воронеж, гос. ун-та. Сер. Проблемы высшего образования. 2020. № 1. С. 12-28

3. Волосникова Д.М., Принципы академической автономии // Совет ректоров, № 9. В Абрамов Р.Н. Академическая автономия: образы и реальность современного университета. М.: ГУ-ВШЭ, 2018. С.

4. Мазуркин П.М., Трудности многоуровневого высшего образования // Современные проблемы науки и образования. – 2020. – № 6.

РЕЗЮМЕ
АНАЛИЗ УНИВЕРСИТЕТСКОЙ НАУКИ И ОБРАЗОВАНИЯ
Мовсумова Ф.Р.

Ключевые слова: *исследовательская деятельность, инновации, технологии, концепции экономики знаний, системы непрерывного образования, мобильность, кампусы*

Наука, технологии и инновации играют все более важную роль в быстро меняющемся мире сегодня. Выросли расходы на исследования и разработки, и это связано с тем, что в настоящее время исследования и разработки рассматриваются как ключевой фактор экономического роста и развития. Независимо от уровня доходов, все больше и больше стран стремятся развивать научные исследования и внедрять новые технологии. Университеты играют важную роль в инновационном развитии во всем мире.

SUMMARY
ANALYSIS OF UNIVERSITY SCIENCE AND EDUCATION
Movsumova F.R.

Keywords*: research activities, innovation, technology, knowledge economy concepts, continuing education systems, mobility, campuses*.

Science, technology and innovation are playing an increasingly important role in today's rapidly changing world. Spending on research and development has increased globally, and this is due to the fact that research and development is now seen as a key factor in economic growth and development. An increasing number of countries, regardless of income level, are striving to develop scientific research and introduce new technologies. Universities play an important role in innovative development all over the world.

MÜASİR UNİVERSİTET ELMİNİN AKTUAL PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

Musayeva M.A.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
musaeva.matanat@mail.ru

Açar sözlər: *təhsilin keyfiyyəti, ali təhsil, universitet elminin problemləri, elmi-pedaqoji kadrların hazırlanması, universitet elminin inkişafı, elmin inkişaf perspektivləri*

Azərbaycan rəhbərliyinin və hökumətinin təhsil sahəsindəki təşəbbüsləri ölkəmizin təhsilinin yüksək keyfiyyətli və rəqabətədavamlı səviyyəsini təmin etməyə və nəticədə təhsil səviyyəsinə görə dünyanın aparıcı ölkələrinin ön sıralarında yer almağa yönəlmişdir [1]. Bu strategiyanın həyata keçirilməsi olkə təhsilinin bütün səviyyələrini əhatə edir.

Azərbaycanın ali təhsili ölkənin aparıcı universitetlərindən, tədqiqat universitetlərindən, habelə Azərbaycan Respublikasının təsis qurumlarında flaqman ali təhsil müəssisələrindən ibarət qurulmuş bir sistem ilə xarakterizə olunur.

Elm və təhsil təşkilatlarının konsolidasiyası və optimallaşdırılması əsasında yaradılan universitetlərin təcrübəsi həm regionların ehtiyacları üçün ixtisaslı kadrların hazırlanmasında, həm də onun tərkib hissəsi olan ərazilərin sosial-iqtisadi inkişafında müsbət nəticələr göstərir.

Təhsil müəssisəsinin elmi fəaliyyəti və əldə edilmiş elmi-tədqiqat nəticələrinin təhsil proqramlarında tətbiqi, o cümlədən tələbələrin, magistrantların, aspirantların və doktorantların elmi-tədqiqat fəaliyyətinə cəlb edilməsi müasir universitetin mühüm tərkib hissələridir. Beləliklə, heç bir araşdırmanın olmadığı bir universitet fəaliyyətləri çox keyfiyyətli təhsil proqramları olsa belə “universitet” adlandırıla bilməz. Bütün bunlar dövlət təhsil standartlarının tələblərindən irəli gəlir. Boloniya sistemi də elm və təhsilin inteqrasiyası vəzifəsini qoyur, əsas rol isə universitetlərə verilir.

Universitetlərdə açıq, səmərəli və daha çox özünü təmin edən tədqiqat fəaliyyətinə keçid zərurətdir, lakin bütün universitet elminin “kapitallaşması” universitetlərdə tədqiqat seqmentinin tamamilə dağılmasına səbəb ola bilər.

Azərbaycan və xarici təcrübə göstərir ki, universitet elmi bir qayda olaraq, böyük tədqiqat vəzifələri ilə üzləşmir. Müxtəlif səbəblərdən bu gün universitet ictimaiyyətinin diqqəti tədqiqata deyil, pul qazanma yollarına yönəlib. Bu baxımdan son illərdə universitetlərdə rəhbərlik yüksək elmi statusa malik olan alimlərdən elmi-pedaqoji kollektivin qazandıqlarını daha yaxşı qazana bilən və ya mənimsəyə bilən idarəçilərə keçdi. Bununla belə, “idarəetmənin şəffaflığının artırılması, fəaliyyətinin optimallaşdırılması və universitetin elmi fəaliyyətinin idarə edilməsi strukturunun təkmilləşdirilməsi universitetin və alimlərin akademik müstəqilliyinin, onların elmi tədqiqatların prioritetini müstəqil müəyyən etmək hüququnun toxunulmazlığının zəruri qorunmasını nəzərdə tutur”.

Akademik və ya korporativ elmdən fərqli olaraq, universitet alimləri daha çox elmi sərbəstliyə malikdirlər və əsasən təşəbbüskarlıqla məşğul olurlar ki, bu da bəzən qrantlar vasitəsilə həyata keçirilir. Nəticə etibarı ilə, müxtəlif səviyyəli büdcələr hesabına universitet tədqiqatlarına qoyulan investisiyalar geri qaytarılma baxımından olduqca risklidir.

Ali təhsil sahəsində beynəlxalq ekspert Cəmil Səlminin tədqiqatında [3] ali təhsilin mütəxəssis və rəhbərlərinin əks etdirdiyi mövzu bu sualla yenilənir - dünya səviyyəli universitet necə olmalıdır?

Müəllif "Salmi formulası" adlanan üç əsas göstəricini müəyyənləşdirir:

– istedadların yüksək konsentrasiyası (müəllimlər və tələbələr);

- əlverişli öyrənmə mühiti yaratmaq və qabaqcıl tədqiqatlar aparmaq üçün resursların bolluğu;

– universitetin idarəetmə strukturu [3].

Bundan əlavə, alim müasir reytinqlərdə istifadə olunan əsas komponentləri xüsusi qeyd edir. Təqdim olunan göstəricilər toplusu bir tərəfdən universitetin fəaliyyətinin obyektiv qiymətləndirilməsini əks etdirirsə, digər tərəfdən isə keyfiyyətin təmin edilməsi üçün qarşıdan gələn dəyişikliklər vektorunu təmsil edir.

Universitet elminin xüsusiyyətləri aşağıdakı şəkildə göstərilir:

- Onun qarşısında böyük elmi-tədqiqat məsələsi qoyulmur;
- Bu seqmentə universitetin gəlir mənbəyi kimi baxılmır;
- Onun üzərinə cavan tədqiqatçıların aşkar edilməsi məsuliyyəti düşür;
- O, tədris proqramının elmi əsasını yaradır;
- Tədris müəssələrində elmi fəaliyyət, bir qayda olaraq, fakultativ əsasda həyata keçirilir;
- Maliyələşdirmə mənbəsi çox hallarda – dövlət büdcəsidir.

Ölkəmizin universitetlərinin elmi fəaliyyətinin təhlili göstərir ki, universitetlərdə elmi fəaliyyət həm peşəkar əsasda, həm də universitet işçiləri üçün tədqiqatın istəyə bağlı olduğu halda fakultativ əsaslarla həyata keçirilir. Eyni zamanda, bəzi iri ali məktəblərin heyətində tədris-metodiki işlə məşğul olmayan elmi işçilər var. Beləliklə, respublikamızın universitetlərinin bir çox müəllimi öz universitetinin yerli nizamnamələrində nəzərdə tutulmuş tam akademik yükü yerinə yetirməklə "həvəskar" formatda elmlə məşğul olurlar. Tələbələrin universitetin elmi-tədqiqat işlərinə cəlb edilməsi kafedralarının əməkdaşlarının elmi fəaliyyət dərəcəsindən birbaşa asılıdır. Kafedranın müəllimlərinin böyük əksəriyyəti üçün elmi işin fakultativ xarakter daşıdığını bildirsək, tələbələr üçün bu daha səthi xarakter daşıyır. Bu arada, universitet əməkdaşları üçün konkret elmi layihələrin həyata keçirilməsi əlavə gəlir mənbəyidir, baxmayaraq ki, belə sifarişlərin alınması ehtimalı azdır.

Təcrübə göstərir ki, tədqiqat üçün sifarişlərin əsas mənbəyi büdcədir, bu sifarişlər çox yüksək və həmişə "şəffaf" olmayan rəqabət, eləcə də aşağı rentabellik ilə xarakterizə olunur. Universitetlər üçün korporativ sifarişlər də olduqca nadir və aşağı gəlirlidir, çünki bizneslər öz ehtiyaclarını ənənəvi universitetlərdən daha mobil olan konsaltinq şirkətləri vasitəsilə qarşılayırlar.

Bütün inkişaf etmiş ölkələrdə universitet elminə dəstək üçün müxtəlif mexanizmlər mövcuddur. Məsələn, ABŞ-da universitetlərə ayrılan ümumi tədqiqat və təkmilləşdirmə maliyyəsinin təxminən 60%-ni federal hökumət fondları, dövlət və yerli büdcələrin vəsaitləri isə - 6,5% təşkil edir. Universitet xərclərinin öz tədqiqatlarına qoyulan investisiyaların payı elmdə ümumi xərclərdə 20% səviyyəsində ölçülür. Belə ki, ABŞ-da elmə xərclənən 1 universitet dollarına xarici mənbələrdən 4 dollar düşürdü ki, bunun da təxminən 3 dolları büdcə vəsaiti idi. Almaniyada universitet elminə çoxmərhələli dəstək sistemi mövcuddur ki, bu sistem nəzarət və koordinasiya məsələlərində alimlərin ekspert icmasına arxalanır.

Universitet elminin inkişafına mane olan mühüm amil nə büdcənin, nə dövlət inhisarçı şirkətlərinin, nə də biznes ictimaiyyətinin universitet elminin problemlərini müəyyən edə bilmədiyi "müştəri böhranıdır".

Dünyanın bir çox aparıcı universitetlərində elmi-tədqiqat potensialının gücləndirilməsinin zəruriliyi başa düşülür, çünki güclü tədqiqat bazası olmayanda təhsilin keyfiyyətinin yüksəldilməsi mümkün deyil. Bu arada bəzi böyük universitetlər elmə xərcləri azaltmaqla xərclərini "optimallaşdırır".

Universitet elminin öz layiqli yerini tutması üçün aşağıdakılar lazımdır:

- universitet elminin korporativ və akademik elmlər üçün tələb olunan tədqiqatçıların hazırlanması üçün baza platforması kimi yerləşdirilməsi;
- universitet, akademik və sahə elmləri arasında sıx əlaqənin yaradılması;
- universitetin elmi prorektoru-fakültə-kafedra-yaradıcı kollektivin aydın strukturunun qurulması;
- yüksək keyfiyyətli və populyar təhsil proqramlarının həyata keçirilməsi üçün tədqiqat fəaliyyətinə ehtiyac haqqında məlumatlılıq.

Azərbaycanda ilk növbədə elmi və innovativ fəaliyyət sahəsində yüksək ixtisaslı insan resurslarının olmaması milli və beynəlxalq miqyasda iri investisiya layihələrinin inkişafını maneə törədən amillərdən biridir, ölkənin innovativ sektorlarının uğurlu inkişafına maneədir. Eyni zamanda, ölkəmizdə kadr hazırlığı,

ixtisasartırma və yenidən hazırlıq sahəsində dövlət vəzifələri bu prosesdə ölkəmizin təsis qurumlarının fəal iştirakı olmadan uğurla həll edilə bilməz.

Dünya təcrübəsinin təhlili dünyanın aparıcı tədqiqat universitetlərinin əksəriyyətinə xas olan aşağıdakı xüsusiyyətləri müəyyən etməyə imkan verir: [2]

1. Yüksək keyfiyyətli insan resursları.

ABŞ, Kanada və Avstraliyanın aparıcı elmi-tədqiqat universitetlərinin professor-müəllim heyətinin yüksək ixtisas səviyyəsinin inkişafı və saxlanması onların elmi tədqiqatlara cəlb edilməsi ilə təmin edilir. Məsələn, Kaliforniya Universitetinin bütün professorları dövlət qrantları hesabına maliyyələşdirilən öz tədqiqat layihələrini həyata keçirirlər. Eyni zamanda, onların bir hissəsi təlim proqramları çərçivəsində pedaqoji fəaliyyətlə, digər hissəsi isə biliklərin yayılması sistemi, kənd təsərrüfatı işçilərinin hazırlanması ilə məşğul olur. Uzun müddət öz maliyyələşdirdiyi elmi layihələri olmayan fakültə üzvləri, bir qayda olaraq, universiteti tərk edirlər. Qeyd etmək lazımdır ki, insan kapitalının keyfiyyəti müəllimlərin əmək haqqı səviyyəsi ilə ayrılmaz şəkildə bağlıdır. Bir qayda olaraq, hər bir universitetin digər universitetlər və fəaliyyət sahələri ilə müqayisədə rəqabət şəraiti təmin edən özünəməxsus əmək haqqı sistemi mövcuddur. Yalnız belə şərait kənd təsərrüfatı təhsilinə və elminə ən istedadlı və perspektivli gənc mütəxəssisləri cəlb etməyə və aqrar alim karyerası üçün yüksək nüfuzu saxlamağa imkan verir.

2. Elmi işlərin istehlakçıları ilə işəgötürənlər arasında daimi qarşılıqlı əlaqə.

Dünyanın aparıcı tədqiqat universitetlərinin tədqiqat və təlim proqramlarının aktuallığı onların aqrar-sənaye kompleksinin subyektlərinin fəal əməkdaşlığı ilə bağlıdır. Effektiv qarşılıqlı əlaqə bütün səviyyələrdə olmaqla, həm universitetin qəyyumlar şuralarına aqrobiznes nümayəndələrinin cəlb edilməsi, həm də professor-müəllim heyəti ilə təsərrüfat işçiləri arasında birbaşa əməkdaşlıq yolu ilə əldə edilir ki, bu da elm adamlarına sənayedə yaranan problemlərə operativ reaksiya verməyə imkan verir. Bir qayda olaraq, professor-müəllim heyətinin əhəmiyyətli hissəsi biliklərin yayılması fəaliyyətinə cəlb olunur ki, bu da təkcə aqrar-sənaye kompleksinin fəaliyyət göstərən subyektlərinə qabaqcıl innovasiyaların gətirilməsinə imkan vermir, həm də "əlaqə"nin mühüm elementi kimi çıxış edir. Nəticədə aqrar-sənaye kompleksi subyektlərinin professor-müəllim heyətinə inamı artdıqca ali məktəblərin aqrobiznesdən birgə maliyyələşməsi meydana çıxır ki, bu da bəzi hallarda illik büdcənin 30%-nə çata bilir.

3. Şəxsi, müasir tədqiqat və eksperimental infrastrukturun mövcudluğu.

Dünyanın bütün aparıcı tədqiqat universitetlərinin ayrılmaz atributu praktiki təlimlər, aqrar-sənaye kompleksinin subyektlərinə biliklərin ötürülməsi üzrə fəaliyyətlər və elmi tədqiqatlar üçün inkişaf etmiş infrastrukturun olmasıdır. Məsələn, Makqilla Universitetinin (Kanada) ağac, metal və plastik məmulatların emalı üçün ən müasir avadanlıqla təchiz edilmiş öz emalatxanası, kənd təsərrüfatı məhsullarının emalı üzrə pilot zavodu, sənaye südçülük ferması, donuzçuluq və quşçuluq, istixana, dendrari, qoruq, fitotronu vardır.

4. Avtonom idarəetmə modeli.

Dünyanın bütün aparıcı tədqiqat universitetləri muxtar təşkilatlar kimi fəaliyyət göstərir. Universitetlərin muxtariyyəti ənənəvi olaraq bir neçə aspektdə nəzərdən keçirilir:

- akademik muxtariyyət müstəqil olaraq unikal təhsil proqramlarını hazırlamaq və həyata keçirmək, unikal təşəbbüskar elmi tədqiqatlar aparmaq bacarığı olması;
- ictimai mənbələrdən gələnlər də daxil olmaqla əmlak və resurslara müstəqil, tam nəzarət etmək imkanı kimi maliyyə muxtariyyəti;
- idarəetmə orqanlarının strukturunu və sayını müstəqil müəyyən etmək, onların səlahiyyətlərini bölüşdürmək, struktur bölmələri, törəmə müəssisələri yaratmaq və ya ləğv etmək imkanı kimi təşkilati muxtariyyət;
- professor-müəllim heyətinin işə qəbulu, yüksəldilməsi və əməyinin ödənilməsi şərtlərini müstəqil müəyyən etmək bacarığı kimi kadr siyasəti sahəsində muxtariyyət.

Daha geniş mənada, muxtariyyət hər bir universitetin fərdi olaraq öz məqsədlərini müstəqil şəkildə müəyyənləşdirməsini və həyata keçirməsini nəzərdə tutur, eyni zamanda onlar birlikdə ayrı-ayrı regionların, ölkələrin və bütövlükdə dünya birliyinin ehtiyaclarını ödəmək üçün çalışmalıdırlar [2]. Muxtariyyət universitetin daxili ictimaiyyəti - işçi heyəti, tələbələri və bütövlükdə cəmiyyət qarşısında cavabdehliyi tələb edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.
2. Абдыров А.М., Сарбасова К.А., Ташкенбаева Ж.М. Формирование исследовательских университетов и их роль в инновационном развитии Республики Казахстан // Международный журнал прикладных и фундаментальных исследований. – 2015. – № 6-3. – С. 496-500.

3. Салми Дж. Создание университетов мирового класса / Дж. Салми; пер. с англ. – М.: Весь Мир, 2009. – 132 с.

РЕЗЮМЕ
АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ СОВРЕМЕННОЙ УНИВЕРСИТЕТСКОЙ НАУКИ
Мусаева М. А.

Ключевые слова: *качество образования, высшее образование, проблемы университетской науки, подготовка научно-педагогических кадров, развитие вузовской науки, перспективы развития науки*

Проведен анализ состояния университетской науки Азербайджанской Республики на современном этапе, определены основные факторы, препятствующие ее развитию. Анализируется зарубежный опыт поддержки университетской науки, сформулированы рекомендации по развитию науки в азербайджанских вузах

SUMMARY
CURRENT PROBLEMS AND PROSPECTS OF MODERN UNIVERSITY SCIENCE
Musaeva M. A.

Keywords: *quality of education, higher education, problems of university research, training of academic and pedagogical staff, development of university research, prospects for the development of science*

The analysis of the state of university science in the Azerbaijan Republic at the present stage was carried out, the main factors hindering its development were identified. The foreign experience of supporting university science is analyzed, recommendations are formulated for the development of science in Azerbaijani universities.

AZƏRBAYCANDA İNSAN KAPİTALININ İNKİŞAFINDA PEŞƏ TƏHSİLİNİN ROLU

Niftiyev F.Q.
Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu, publik hüquqi şəxs, Bakı, Azərbaycan
f.niftiyev@mail.ru

Açar sözlər: *peşə, təhsil, insan, kapital, Azərbaycan*

İnsan kapitalı cəmiyyətin fərdi və kollektiv şəkildə sahib olduğu bütün bilik, istedad, bacarıq eyni zamanda təcrübə, zəka, təhsil, mühakimə və müdriklik xüsusiyyətinin məcmusudur [3]. Hazırki dövürdə insanları biliksiz təsəvvür etmək qeyri mümkündür.

Müasir dövrdə cəmiyətin inkişaf etməsində başlıca rolu təhsil sahəsi tutur. Tarix boyu təhsil sivilizasiyanın, bəşəriyyətin mədəniyyətinin inkişafı, ictimai həyatda nizam-intizam və rasionallıq dərəcəsinin yüksəldilməsi, mənəvi dəyərlərin yetişdirilməsi və bu yolla insan vəziyyətinə yüksək statusun verilməsi üçün öz mühüm rolunu nümayiş etdirmişdir. Azərbaycanda təhsilin aşağdakı pillələri vardır. Məktəbəqədər, ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili və ali təhsil.

Peşə təhsili əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif peşələr üzrə ixtisaslı işçi kadr hazırlığı aparılan təhsil pilləsi hesab olunur. Peşə və texniki peşə təhsil vətəndaşların öz peşələrinə, maraqlarına, qabiliyyətlərinə uyğun peşəyə yiyələnməsi, o cümlədən ixtisasqabağı hazırlığın yenidən hazırlanmasını və ixtisaslarını artırılmasını təmin edir.

Peşə təhsilində müxtəlif peşə sahələri üzrə mütəxəssi hazırlayırlar. Peşə təhsil müəssisələrində komputer ustası, reklam işçisi, kargüzar, mühasib, əl elektrik qaynaqçısı, zərgər, misgər , xalçaçı, baramaçı, dayə, meyvə ustası, dərzi, geyim üzrə dizayner, aşbaz, dülgər, çilingər-santexnik, bərbər, inşaat ustası, mebel ustası, kran maşinist, avtomobil üzrə elektrik, avtomobil üzrə dəmirçi, neft və qaz çıxarma operaturu, qənnadçı, şirniyatçı və s. peşə ixtisaslarında mütəxəssislərin hazırlanması həyata keçirilir [6].

Peşə təhsilinin ilk peşə, texniki peşə və yüksək texniki peşə təhsil səviyyələri vardır. Bundan başqa peşə məktəbi, peşə liseyi və peşə təhsil mərkəzi peşə təhsili müəssisələrinə daxildir. Peşə məktəbinə qəbul olan şəxslərə ilk peşə və texniki peşə təhsili almaq səlahiyyəti verilir. Peşə liseyinə qəbul olan şəxslərə ilk peşə, texniki peşə və tam orta təhsil almaq hüququ verilir. Peşə təhsil mərkəzlərinə qəbul olan şəxslərə ilk peşə, texniki peşə, yüksək texniki peşə və tam orta təhsil almaq hüququna malikdirlər [4].

Əmək bazarının tələblərinə uyğun olaraq peşə təhsil müəssisəsində ixtisasartırma və yenidənhazırlanma kursları təşkil olunur ki, bu da vətəndaşın öz işlədiyi sahədə biliklərin artırılmasına və peşəkarlıq qabilliyətinin yüksəldilməsinə xidmət edir.

Peşə təhsilinin fəaliyyətinin həyata keçirilməsi peşə təhsil müəssisələrində aparılır. Bu müəsssisələrin müasir tələblərə cavab verməsi peşə biliklərin keyfiyyətinin yüksəldilməsinə kömək edəcək.

Son dövrlər respublikada peşə təhsil müəssisələrin sayında azalma müşahidə edilməkdədir. Statistik məlumatlardan istifadə etsək aydın olur ki, peşə təhsil müəsisələrin sayı 2000-ci ildə 110 ədəd, 2015-ci ildə 113 ədəd və 2020-ci ildə 103 ədəd olmuşdur. Bu müəssisələr əsasən istismar müddətini başa vurmuş, təmirə ehtiyac yaranması səbəbindən azalma olmuşdur.

Cədvəl.

Peşə təhsil müəssisəsində tələbələrin sayı (ilin əvvəlinə)

Göstəricilər	**2001**	**2006**	**2011**	**2016**	**2020**
Tam orta təhsil bazası	5151	4134	5384	5008	5224
Ümumi orta təhsil bazası	13121	13463	15103	13131	10710
Gənclərə tam orta təhsil verməyən qruplar	3637	3431	4836	3112	2827
İslah əmək müəssisələrin peşə məktəbləri	690	1019	314	1020	1008
Xüsusi peşə məktəbləri	16	25	22	4	4
Ödənişli əsaslarla qısamüddətli kurslar	329	117	1671	2207	3420
Tələbələrin sayı	22944	22189	27330	24482	23193

Mənbə: *Azərbaycanda təhsil-2021,DSK- məlumata əsasında hazırlanıb*

Cədvəldə peşə təhsil müəssisələrində oxuyan tələbə haqqında statistik tədqiqiat aparılmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, peşə təhsil müəssisələrinin sayının azalmasına baxmayaraq onlarda oxuyan şagirdlərin sayında artım baş vermişdir. Bu da son dövrlər bu sahəyə ayrılan diqqətin nəticəsi kimi qiymətləndirmək olar. 2000-ci illə müqayisədə 2019-cu ildə 1,1% (249 nəfər) artım olmuşdur.

Peşə təhsili müəssisələrində təhsil müddəti aşağıdakı qruplara görə müəyyənləşdirilir [4]:

1. ümumi orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 1 il, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 2 il;

2. tam orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 6 ay, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 1 il;

3. ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda – 3 il;

4. ümumi orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 4 il;

5. tam orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda – 3 il.

Peşə təhsil müəssisəsinin tam orta təhsilinə qəbul olanların sayında artım olmuşdur. 2000-ci ildə 5151 nəfər, 2005-ci ildə 4134 nəfər, 2015-ci ildə 5008 nəfər və 2019-cu ildə 5224 nəfər olmuşdur. Ümumi orta təhsil bazasında azalma müşahidə edilməkdədir. 2000-ci illə (13121 nəfər) müqayisədə 2019-cu ildə 10710 nəfər olmuşdur [1].

İslah düşərgələrində yeniyetmələrin peşə təhsilə marağın artması və yeni biliklərə yiyələnməsi çox yaxşı haldır. 2001-2020-cu illərin əvvəlinə nəzərən 318 nəfər, yəni 46% artım deməkdir.

Xüsusi peşə məktəblərində tələbə sayı çox aşağadır. 2020-ci ilin əvvəlinə 4 nəfər təşkil edir. Ödənişli əsaslarla qısamüddətli kurslarda oxuyanların sayında artım olmuşdur. Bazar iqtisadiyyatı şəraitində peşə sahibləri işlədiyi işdə daha da təkminləşdirmənin inkişaf etdirməsi üçün belə kurslara yazılırlar. Belə qısamüddətli kurslarda müxtəlif yaşdan olan peşə sahibləri maraq göstərirlər.

Peşə təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı 2000-2020-ci illərdə 12946 nəfərdən 17140 nəfərə qalxmışdır. Buna baxmayaraq bitirənlərin sayı 14304 nəfər olmuşdur.

Peşə təhsili sistemində kadr siyasətinin formalaşmasına ehtiyac duyulur. Yüksək biliyə malik müəllim heyətinin peşə təhsili sistemində işlə təmin olunması savadlı gənc nəslinin yetişdirilməsinə töhvə verəcək. Buna baxmayaraq müəsissələrdə təhsil verən müəllimlərin sayı azalma olmuşdur. İlin əvvəlinə uyğun olaraq 2001-ci il üzrə 1972 nəfər, 2006-ci ildə 1906 nəfər, 2011-ci ildə 1969, 2016-cı ildə 1673 nəfər və 2021-ci il üzrə 1501 nəfər olmuşdur [1]. Müəllim heyətinin azalmasının səbəbi müəssisələrin sayında azalma ilə əlaqədardır. Müəllim heyəti arasında qadınların payı yüksəkdir. 2021-ci ilin əvvəlinə müəllim heyəti arasında qadınların payı 73% təşkil edir.

Peşə təhsilin inkişafı ilə bağlı ölkədə müsbət addımlar atılmışdır. Bu sahədə müəyyən olunmuş qanunların tətbiqi və dövlət proqramlarının həyata keçirilməsi peşə təhsilinin inkişafı üçün zəmin yaratmışdır.

"Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir [5].

"Azərbaycan Respublikasının 2022-2026-ci illərdə sosial-iqtisadi inkişaf strategiyası"nda keyfiyətli və davamlı əmək bazarının tələblərinə cavab yerinən peşə təhsilinin təşkili həyata keçiriləcəkdir .

"Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi" haqqında Nazirlər Kabinetinin qərarı təhsilalanlar, təhsilverənlər və işəgötürənlər üçün hazırlanmışdır [2].

Beləliklə, insan kapitalının inkişafında təhsil sistemində peşə təhsilin rolu əvəzedilməzdir. Belə ki, bu sahəyə diqqətin ayrılması gələcəkdə gənc nəslin müvafiq peşələrə yiyələnməsi savadlılıq səviyyəsinin yüksəldilməsinə gətirib çıxaracaqdır. Statistik təhlil nəticəsində peşə təhsil sahəsində müəyyən geriləmələr aşkar olundu.

Nəticə. Respublikada insan kapitalının inkişafında peşə təhsilinin əhəmiyyəti olduqca böyük olmasına baxmayaraq bu sahədə müəyyən problemlər həll edilməsinə ehtiyac vardır.

1. Peşə təhsilini bitirən gənc mütəxəssislər üçün sahibkarlıq fəaliyyəti ilə bağlı güzəştlərin tətbiqi.
2. Peşə təhsillə bağlı milli institutların yaradılması.
3. Peşə təhsilini bitirən məzunların elektron reyestrinin yaradılması.
4. Peşə təhsil müəssisələrin təmiri və yenidən qurulması vacibdir.

Ədəbiyyat

1. Azərbaycanda təhsil, elm, mədəniyyət, Bakı : 2021, 504 s.
2. "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin təsdiq edilməsi barədə (e-qanun.az)
3. https://az.wikipedia.org/wiki/İnsan_kapitalı
4. Peşə təhsili haqqında (e-qanun.az)
5. Peşə təhsili ve təliminin inkişafına dair strateji yol xəritəsi 1613650584.pdf (edu.gov.az)
6. www.vet.edu.gov.az/az/content/19

РЕЗЮМЕ
РОЛЬ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ В РАЗВИТИИ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В АЗЕРБАЙДЖАНЕ

Нифтиев Ф.Г.

Ключевые слова: *профессия, образование, человек, капитал, Азербайджан*

В статье рассматриваются вопросы профессионального образования в Азербайджане и его роль в развитии человеческого капитала. В работе проводится статистический анализ студентов и преподавателей проводится. Приведены сведения о типах профессионально-технических учебных заведений и приеме на образовательные ступени. Исследуются недостатки, связанные с профессиональным образованием. Подробно анализируются меры, предпринимаемые государством в этой сфере, и даются рекомендации по развитию профессионального образования.

SUMMARY
THE ROLE OF HUMAN CAPITAL DEVELOPMENT AND VOCATIONAL EDUCATION IN AZERBAIJAN
Niftiev F.G.

Keywords: *profession, education, human, capital, Azerbaijan*

The article discusses the development of vocational education in Azerbaijan and its role in human capital. Statistical analysis of students and teachers is conducted in my research work. Information on the types of vocational educational institutions and admission to educational levels is provided. Deficiencies related to vocational education are investigated. Measures taken by the state in this field are analyzed in detail, and recommendations are made for the development of vocational education.

ƏLAVƏ TƏHSİLİN TƏŞKİLİ MODELLƏRİNİN TƏSNİFİNƏ DAİR

Məmmədov N.R.
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
nurlan.mammadov.r@bsu-uni.edu.az

Açar sözlər: *əlavə təhsil, təlimlər, qısamüddətli kurslar, seminarlar, master-klass, konfrans, forum, simpozium, kouçinq, mentorluq*

Zaman keçdikcə təhsildə dəyişən paradiqmalara uyğun yeni islahatlara ehtiyac yaranır. Dünyada gedən qloballaşma prosesləri fonunda cəmiyyətin informasiyalaşması yeni təhsil modellərini formalaşdırır. Bu modellərin ən dinamik komponentləri əlavə təhsil sistemində mövcuddur. Bunun kökündə isə rəqabətqabiliyyətli təhsil mühiti, texnoloji innovasiyalar və rəqəmsal inkişaf dayanır.

İnkişaf etmiş dövlətlərdə klassik təhsil və təhsilalma formaları yeni təhsil modellərinə birləşir və nəticədə vahid təhsil məkanını yaratmış olur. Vahid təhsil məkanını isə müxtəlif təhsil modelləri təşkil edir. Təhsil modelləri öz növbəsində pedaqoji modellər əsasında formalaşır, pedaqoji modellər isə öz növbəsində müxtəlif təlim modellərinin komponentlərindən yaranır. Məsələn, Yaponiya təhsil modeli müxtəlif təhsil müəssisələrinin təlim modellərinin məcmusunu təşkil edən lokal pedaqoji modellər əsasında formalaşa bilər. Sillabusdan yaxud tədris proqramından asılı olaraq öyrənənlərin təhsili psixopedaqoji, koqnitiv-affektiv, şəxsiyyətyönümlü, idrakyönümlü və s. modellər əsasında qurula bilər.

Buna misal kimi, Yevgeni Lodatkonun təhsil sistemlərinin modelləşdirilməsi ilə bağlı araşdırmalarına nəzər yetirmək maraqlıdır. Y.A. Lodatko təhsil sistemlərinin qurulmasına konseptual yanaşmaları təhsil modelləri kimi xarakterizə edir. Yeri gəlmişkən, təhsil sistemlərinin daxili və xarici istiqamətlərini, avtoritar və ya demokratik cəmiyyət dəyərlərinə istiqamətlənməklə fərqləndirən Y.A. Lodatko təhsil sistemlərinin modellərini totalitar, praqmatik, rasional və açıq olmaqla dörd tipə bölür. [3, s.2]

Fikrimizcə, model sözü kontekstdən asılı olaraq dəyişdiyi üçün onun birmənalı təsnifatını qurmaq mümkün deyil. Buna görə də hesab edirik ki, pedaqoji konteksdtə model dedikdə təhsilin məzmunu özündə əks etdirən sənədlərin, xüsusilə təhsil proqramının əsas və əlavə komponentlərinin və onların arasında əlaqələrin qarşılıqlı mövqeyi başa düşülməlidir. Əsas komponentlər hər hansı bir təhsil prosesinin qurulduğu hər hansı pedaqoji nəticələri özündə əks etdirən sistem ola bilər. Bununla belə "təhsil modeli" ilə "pedaqoji model" və "təlim modeli" anlayışlarını birləşdirən ümumi cəhətlər olsa da, onların fərqli xüsusiyyətləri də mövcuddur. Viktor Ştoffun təbirincə desək, *pedaqoji model - tədqiqatçı tərəfindən yaradılmış yaxud seçilmiş elə bir sistemdir ki, idraki məqsədə nail olmaq üçün öyrənilən obyektin xüsusiyyətlərini (tərkib hissələri, elementləri, xassələri, parametrləri) yenidən yaratmaq qabiliyyətinə malik olur. Bu sistem öyrənilən obyektlə elə bir əvəzetmə və oxşarlıq nisbətində olur ki, onun tədqiqi öyrənilən obyekt haqqında dolayı yolla bilik əldə etmə üsulu olmaqla, həmin obyekt haqqında birmənalı informasiya mənbəyinə çevirilən və eksperiment yolu ilə yoxlanılması mümkün ola bilən məlumatla təmin edir* [5, s. 48]

Professor Qalina Kocaspirova isə qeyd edir ki, təhsil modeli *təhsilin ümumi məqsəd və məzmununu, tədris planlarının və proqramlarının layihələşdirilməsini, təlimlərin fəaliyyətinə rəhbərlik etməyin xüsusi məqsədlərini, şagirdlərin qruplaşdırılması modellərini, nəzarət metodlarını və hesabatlarını, tədris prosesinin qiymətləndirilməsi üsullarını özündə ehtiva edən təhsil sistemidir* [2, s. 94].

Beləliklə, pedaqogikada istənilən model – gerçək predmeti əks etdirən kamil sistemdir. Bu sistemin məzmununda aparılan istənilən yenilik və dəyişiklik ona gətirib çıxarır ki, bu yeniliklərin, yaxud dəyişikliklərin nəticəsində əvvəlkindən fərqli yeni bir sistem meydana gəlmiş olsun. Buna görə də nəzəri cəhətdən təlim modelləri saysız-hesabsız ola bilər. Onlardan bəziləri bir-birindən cüzi surətdə fərqlənə bilər, digərləri isə prinsipial fərqliliklərə malik ola bilər (məsələn, inklüziv təhsil modeli). Praktiki olaraq isə belədir: tədris prosesinin təşkilinin bu və ya digər xüsusiyyətlərini özündə əks etdirən çoxsaylı modellər mövcuddur və daimi olaraq yeni modellər də meydana çıxır. Bu modellərin əksəriyyəti lokal əhəmiyyət daşıyır və geniş pedaqoji kütləyə məlum deyil. Başqa sözlə ifadə etsək, tədqiqatçı müəllim elmi fərziyyəsinin yoxlanılması məqsədilə tədris prosesini modelləşdirə bilər.

Bunun üçün müəllifin eksperimental xarakter daşıyan modeli onun uğurlu tətbiqindən sonra kütləvi təcrübədə istifadə olunmaya bilir. Lakin müəyyən elmi yanaşma, konsepsiya, prinsip, metod və ya təlim vasitələri üzərində qurulmuş tədris prosesinin daha ümumi xüsusiyyətlərini özündə ehtiva edən modellər mövcuddur. Onların hər biri təhsil prosesində uğurla sınaqdan çıxşımış, təcrübədə kifayət qədər geniş yayılmış, elmi-pedaqoji və metodiki ədəbiyyatda barələrində geniş şərh verilmişdir ki, onların sırasına aşağıdakıları aid etmək mümkündür:

- inkişafetdirici təlim modeli;
- problemli təlim modeli;
- evristik təlim modeli;
- oyun əsaslı modeli;
- kibernetik təlim modeli;
- androqogenik təlim modeli;
- şəxsiyyətyönümlü təlim modeli;
- passiv, aktiv və interaktiv təlim modeli və s.

Modelləşdirmə prosesində aşağıdakı təlim vasitələrindən istifadə edilir:

– öyrədici əyani vəsaitlər (şəkilli, sxematik, simvolik);

– virtual reallıq (eynək və işıq proyeksiyaları vasitəsilə);

– verbal (təhsil ədəbiyyatı, tədris-metodiki ədəbiyyat, lüğətlər, didaktik material (tapşırıq kartları);

– texniki (audio tədris və məlumat materialları, video və audio tədris və məlumat materialları, elektron dərsliklər, elektron məlumat bazaları, kompüter təlim proqramları).

Qeyd etmək vacibdir ki, pedaqoji nəzəriyyə və təcrübədə istifadə olunan model konkret funksiyalara (illüstrativ, evristik, məntiqi, təhliledici, sintezedici, bərpaedici, izahedici, proqnozlaşdırıcı, koqnitiv, tənqidi, kommunikativ, texnoloji və s.) istiqamətlənməlidir.

Tədris metodları və vasitələri təlim prosesinin təşkili formalarında, təhsil fəaliyyətinin əsas növlərində üzə çıxarılır. Ali məktəblərdə gələcək gələcək sosial-pedaqoji kadrların hazırlanması üçün təlim prosesinin təşkilinin aşağıdakı formalarından istifadə olunur: mühazirələr, seminarlar və praktik məşğələlər, laborator praktikumlar, kollokviumlar, tələbənin tədqiqat işi, tələbənin sərbəst işi, müxtəlif növ təcrübələr üzrə (tədris, istehsalat, peşə və s.) nəzəri və praktiki hazırlıq, habelə tələbələrin bilik, bacarıq və vərdişlərinə yönəlik digər nəzarət alətləri.

Bəzən pedaqoji ədəbiyyatda təlimin metodları ilə təlim modellərinin ümumi cəhətlərini əsas götürərək modelləri metod kimi, yaxud əksinə təqdim edirlər. Sözsüz ki, biz bu təlim modellərinə şərh versək, mövzudan yayınmış oluruq. Lakin onu qeyd edək ki, təlim modellərinin özünəməxsus metodları ola bilər.

Qeyd edilənlərdən bu qənaətə gəlmək olar ki, təhsilin, təlimin və tərbiyənin modelləri olduğu üçün onları modelləşdirmək və beləliklə modelləşdirməni obyektiv və universal qneseoloji prosedur kimi pedaqogikada tətbiq etmək mümkündür. Bunun üçün modelləşdirmənin pedaqogikada tətbiqi təcrübəsini məhz modellərin köməyi ilə, nəzəri və praktiki məsələlərin həlli vasitəsi kimi təhlil etmək vacibdir. Tədris prosesinin pedaqoji modelləşdirilməsi tədris-pedaqoji qarşılıqlı münasibətlərin qurulmasına, tədris-idrak fəaliyyətinin fəallaşdırılmasının yeni üsullarının və tədrisin təşkilinə fəal yanaşmanın həyata keçirilməsi vasitələrinin tapılmasına kömək edir.

Əlavə təhsilin təşkili prosesində isə modelləşdirməni tətbiq etmək ona görə vacib, eyni zamanda çətin və mürəkkəbdir ki, burada həm təhsilin məzmunu, həm də təlimin təşkili formaları ali təhsilin bütün səviyyələrini əhatə edir və didaktik müxtəlifliyə malikdir. Tədqiqatçıların fikrincə, *əlavə təhsil üçün perspektiv malik "ənənəvi və distant tədris formalarının inteqrasiyası" olaraq meydana çıxan qarışıq (hibrid) təlim modelidir* [1, s. 35]. T.Ş. Şıxnabiyeva isə öz növbəsində distant təhsil forması üçün informasiyasının semantik şəbəkə əsaslı ötürülməsi modelindən istifadə edir. Onun fikrincə, bu model *tədris informasiyasının məntiqi strukturuna əyanilik qatmağa və eyni zamanda kifayət qədər ciddi xarakter verməyə, semantik şəbəkələr isə model kimi obyektin xassələrini və xüsusiyyətlərini özündə birləşdirməyə* imkan verir [4, s. 90].

Azərbaycan Respublikasının Avropanın və dünyanın qabaqcıl ölkələrinin təhsil məkanına inteqrasiyası fasiləsiz pedaqoji əlavə təhsil sistemində də köklü islahatların aparılmasının zəruriliyini ortaya qoymuşdur. Aydındır ki, bütövlükdə təhsil sistemində aparılan islahatların keyfiyyəti və səmərəliliyi ilk növbədə pedaqoji kadr hazırlığı sferasında aparılan islahatlarla bağlıdır. Çünki son nəticədə bütün təhsil sisteminin və onun ayrı-ayrı sahələrinin inkişafı və səmərəliliyi pedaqoji kadrların fəaliyyətindən asılı olur.

06 sentyabr 2010-cu il tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin **"Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"**nın təsdiq etməsi ilə Azərbaycanda əlavə təhsilin müəyyən istiqamətləri üzrə təşkili modellərinin konturlarını çəksə də, daha dəqiq cizgilərini müəyyən edə bilməmişdir və nəticədə əlavə təhsilinin bir çox təşkili modelləri diqqətdən kənarda qalmışdır. Əlavə təhsilin həmin modellərinə aşağıdakılar daxildir:

- treninqlər;
- qısa müddətli kurlsar;
- uzunmüddətli kurslar;
- təlimlər;
- seminarlar;
- ustad dərsləri;
- konfranslar;
- dərnəklər;
- forumlar və simpoziumlar.

Sözsüz ki, müasir dövrün tələbi, bazar iqtisadiyyatının diktəsi, rəqabətli əmək bazarı və sosial sifariş mütəxəssislərdən yeni bilik, bacarıq və vərdişlər tələb edir. Bunun üçün yenidən təhsil müəssisəsinə qəbul olmaq və hər hansı bir kompetensiyaya yiyələnmək prosesi həm vaxt, həm də iqtsiadi baxımdan nə sosial-pedaqoji kadrlara, nə də müəssisələrə sərf edir. Ən çevik və optimal çıxış yolu isə əlavə təhsilin diplomdansonrakı müvafiq təşkili modellərinə müraciət etməkdir.

Ümumiyyətlə, fasiləsiz təhsilin əsas tərkib hissəsi olan əlavə təhsilin təşkili modellərinin əksər komponentləri elmi metodik və elmi praktik tədbirlərdən ibarətdir. Bu tədbirlərin hazırlanması qarşıya qoyulan məqsədi müəyyən etməklə başlayır. "Biz bu tədbiri təşkil etməklə nəyə nail olmaq istəyirik?",

"Hansı nəticə əldə olunacaq?", "Müəllimlərin fəaliyyətində nə dəyişəcək?". Əgər məqsəd realdırsa, o, sosial-pedaqoji kadrları fəaliyyətə sövq edir, onlarda aktivlik yaradır. Bu gün əsas məqsəd sosial-pedaqoji kadrlarla iş üsullarının təkmilləşdirilməsidir, çünki hər bir sosial işçinin, sosial pedaqoqun, müəllimin, tərbiyəçinin spesifik pedaqoji ustalıq səviyyəsi vardır ki, bu da pedaqoji təcrübə ilə şərtlənir.

Ədəbiyyat

1. Захарова О.А., Рыльщикова Л.П., Атрошина Э.Б. и др. Методологические основы применения информационно-коммуникационных технологий для развития интеллектуальных особенностей обучающихся. Ростов н/Д : Издательский центр ДГТУ, 2010. 151 с. С.35
2. Коджаспирова Г.М. Педагогический словарь. - М., Издательство: Академия, 2005, 176 с. С. 94
3. Лодатко Е.А. Моделирование образовательных систем в контексте ценностной ориентации социокультурного пространства // Научно-культурологический журнал. 2008. № 1 (164). С. 2
4. Шихнабиева Т.Ш. Модели процесса обучения сельских школьников // Педагогическая информатика. 2006. № 4. С. 90
5. Штофф В.А. Проблемы методологии научного познания. – М.: Высшая школа, 1978. – 271 с. С.48

РЕЗЮМЕ
О КЛАССИФИКАЦИИ МОДЕЛЕЙ ОРГАНИЗАЦИИ ДОПОЛНИТЕЛЬНОГО ОБРАЗОВАНИЯ
Маммадов Н.Р.

Ключевые слова: *дополнительное образование, тренинги, краткосрочные курсы, семинары, мастер-классы, конференции, форумы, симпозиумы, коучинг, наставничество*

Большинство составляющих моделей организации дополнительного образования, являющихся основными компонентами непрерывного образования, состоят из научно-методических и научно-практических мероприятий. Их подготовка начинается с определения поставленной цели. Хотя в Азербайджанской Республике соответствующим законодательством определены направления дополнительного образования, модели организации дополнительного образования находятся в процессе формирования. Мы считаем, что модели дополнительного образования включают краткосрочные курсы, долгосрочные курсы, тренинги, семинары, мастер-классы, конференции, ассоциации, форумы и симпозиумы. Кроме того, в число других моделей организации дополнительного образования мы включили коучинг и наставничество.

SUMMARU
ON THE CLASSIFICATION OF MODELS OF THE ORGANIZATION OF ADDITIONAL EDUCATION
Mammadov N.R.

Key words: *additional education, trainings, short-term courses, seminars, master classes, conferences, forums, symposiums, coaching, mentoring*

Most of the constituent models of the organization of additional education, which are the main components of continuing education, consist of scientific and methodological and scientific and practical activities. The preparation of these events begins with the definition of the goal. Although the relevant legislation defines the directions of additional education in the Republic of Azerbaijan, the models of the organization of additional education are in the process of formation. We believe that models of additional education include trainings, short-term courses, long-term courses, trainings, seminars, master classes, conferences, associations, forums and symposiums. In addition, we have included coaching and mentoring among other models of organizing additional education.

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ BƏDİİ BƏRPAEDİCİ TƏXƏYYÜLÜN İNKİŞAFI

Rzayeva S.B.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
sevincrzayevasdu@gmail.com

Açar sözlər: *bədii bərpaedici təxəyyül, ədəbiyyat,obrazların bəpası prosesi, şagirdlər*

"Müasir dərs bu günkü dərs demək deyildir. Hamımızın uğurlarına söykənən dərsə müasir dərs deyilir" [2, s.95]. Bu baxımdan müasir dərsin qarşısında duran mühüm vəzifələrin psixoloji təhlilindən aydın olur ki, proqram materialını hərtərəfli öyrənmək üçün ilk növbədə şagirdlərin idrak fəaliyyətini fəallaşdırmaq lazımdır. Müasir təhsilin əsas vəzifələrindən biri də şagirdlərdə psixi proseslərin, o cümlədən, təfəkkürün, təxəyyülün inkişaf etdirilməsidir.

Bədii bərpaedici təxəyyül deyəndə bədii əsərlərin obrazlarının bərpası prosesi başa düşülür. Bu proses ədəbi əsərin qavranılmasında əsas rol oynayır. Yazıçı əsərin ideyasını obrazlar vasitəsi ilə ifadə

edir.Bərpaedici təxəyyül insanlarda müxtəlif cür inkişaf edir və bu xüsusiyyətlərinə görə də insanlar bir-birilərindən fərqlənir. Bərpaedici təxəyyülün inkişafı, müxtəlifliyi insanın dünyagörüşü, təhsili, mütaliə müddəti, təcrübəsi ilə və əsasən də fərdi xüsusiyyətləri ilə sıx bağlıdır.Təxəyyülün müvəffəqiyyətli inkişafı üçün məktəblilərin təxəyyülün hansı tipinə malik olduğunu və təzahür xüsusiyyətlərini bilmək vacibdir. Bu iş əsasən ədəbiyyat müəllimlərinin üzərinə düşür. Ədəbi obrazların bərpası prosesi peyzajların bədii təsviri üzrərində öyrənilib. Peyzaj bədii əsərin məzmunu, ideyası ilə bağlı olub təbiətin tipik hadisələrini, müxtəlif adamları başa düşməyə, qavramağa imkan verir.Bədii əsərlərdə həyat hadisələri yalnız təsvir olunmur, o, obrazlı bir dil ilə, söz sənətinin qayda- qanunları və ədəbi vasitələrdən istifadə yolu ilə şagirdlərə çatdırılır.Yazıçı, şair həyat gerçəklikləri və onlar haqqındakı düşüncələrini daha qabarıq göstərmək üçün bədii təsvir vasitələrindən istifadə edir.

VII sinifdə Qurbaninin "Bənövşəni" şerinin tədrisi zamanı şagirdlərin təxəyyülünü inkişaf etdirmək məqsədi ilə müəllim şeri ifadəli oxumazdan əvvəl şerin məzmunu haqda ümumi məlumat verməlidir. Şairin insan gözəlliyini təbiət zənginlikləri ilə müqayisədə verməsini, təbiətlə insanın mənəvi vəhdətini qələmə almasını şagirdlərə çatdırılmalıdır. Şerdə insanın gözü qarşısında bir səhnə canlanır. Sevgilinin ağ, nazik əllərinin zərifliyi ilə incə qoxulu tər bənövşə bir-birini tamamlayır.

Başına döndüyüm, ay qəşəng Pəri,
Adətdir, dərərlər yaz bənövşəni,
Ağ nazik əlinlə dər, dəstə bağla,
Tər buxaq altına düz bənövşəni.

Qurbani der: könülüm bundan sayrıdı,
Nə etmişəm yarım məndən ayrıdı?
Ayrılıqmı çəkmiş, boynu əyridi?
Heç yerdə görmədim düz bənövşəni

Müəllimin tapşırığı ilə çəkilən şəklə nəzər yetirəndə bənövşənin təsvirə uyğunluğunun şahidi oluruq.

Bədii əsərdə hər hansı bir əşya və ya anlayışı dəqiq müəyyənləşdirmək, hər hansı xüsusiyyətini nəzərə çatdırmaq üçün ona təyinedici söz artırılır. Bu bədii təyinlər şagirdlərdə həmin obyekt haqqında dəqiq və konkret surətlərin yaranmasına təkan verir.

Ədəbiyyatı dərindən öyrənən, incəsənətə meyilli şagirdlər daha obrazlı təxəyyül surətləri yaradırlar. Belə şagirdlər adətən əsərləri bədii təsvirləri buraxmadan oxuyurlar. Eyni zamanda bərpaedici təxəvvülü fəal olan şagirdlərin oxusu bir qədər ləng olur. Onlar əsərdəki peyzajları gözləri önündə canlandıraraq oxuyur və bu cür oxu zamanı bədii əsər uzun müddət yaddaşlarında həkk olur. V sinif şagirdlərində bərpaedici təxəyyülün necə inkişaf etməsini öyrənmək məqsədi ilə A. Şaiqin "Məktub yetişmədi" hekayəsindən aşağıdakı parça ifadəli oxunur: "Ah! Bir ay sonra o yerlər nə qədər gözəl olacaq! Düzlər, ağaclar yarapaqlanacaq, bahar elçiləri olan qaranquş, sığırçın, leylək sürü-sürü dönüb yuvalarını tikəcək, səhər və axşam dadlı-dadlı nəğmələrlə ürəkləri oxşayacaq. Hər yerdə əkin, bostan işləri başlanacaq, balıqçılar çaylardan və göllərdən balıq ovlayacaq. Ah! Məni bu gözəlliklərə həsrət qoyan yoxsulluq".

Yazıçı sözlə elə bil yaz fəsilində nəzərdə tutulan yerli, fəhlə Qurbaninin vətəninin şəklini çəkmişdir. Eyni zamanda həmin təbiət obrazı o yerdə yaşayan adamların həyat tərzini, məşğuliyyətini, nəhayət, Qurbaninin yoxsulluğunun, vətən həsrəti ilə yaşamasını dərk etməyə kömək edir. Amma gəlin V sinif şagirdi D.Fəridin bu peyzaji necə dərk etməsinə nəzər salaq."Ah! Həmin yerlər bir neçə aydan sonra çox qəşəng olacaq! Qaranquşlar, sığırçınlar dönüb yenə yuvalarını tikəcək, orada bala çıxaracaqlar. Insanlar əkin-biçinlə məşğul olur".

Göründüyü kimi, parça şagirdin öz sözləri ilə ifadə olunub. Fikir bitkin deyil. Şagird həm də özündən əlavələr edib. Bu cür təxəyyülə malik olanlar əsasən V-VI sinif şagirdləridir.Onlar oxumağı xoşlayırlar və çox oxuyurlar, lakin bədii təsvirləri oxumağı sevmirlər, ya da belə abzasları buraxırlar. Onlar yalnız hadisələrin gedişini izləyirlər. Belə şagirdlərdə oxu sürəti təxəyyülü inkişaf etmiş şagirdlərdən cəlddir. Nə üçün VII-VIII sinfə nisbətən onlarda təxəyyül passiv olur?

Peyzajin dinlənilməsi və oxsu zamanı məqsədi tam yaddasaxlama olan şagirdlərdə bu məsələ bir qədər asan həll olunur. Yuxarıda verilən peyzajin şagird tərəfindən ifadəsi onu göstərdi ki, I-tam mənada yaddasaxlama bərpaedici təxəyyülün zəif inkişafı ilə şərtlənmişdir; II-bu uşaqlarda təxəyyülün passivliyi fitri deyildir, obrazlı proseslərin ləngiməsinin nəticəsidir.

Bədii ədəbi dilin obrazlı vasitələrinin düzgün qavranılmasının tərbiyəsi şagirdlər üçün müəyyən məna daşıyır.Hər bir bədii əsərdə tipik olmayan, köməkçi detallar var. Bu detalların çoxu müəyyən zaman üçün spesifik olublar və müasir məişətdə çoxdan arxaikləşiblər. Belə hallarda uşaqlarda ya heç bir təsəvvür yaranmır, ya da səhv təsəvvür yaranır. Müəllim əsər üzərində işə başlamazdan əvvəl şagirdlərə ya belə

detalların şəkillərini göstərməli, ya da onları elə obrazlı izah etməlidir ki, uşaqların təxəyyülündə düzgün obraz-xatirə yaransın.

Məs: müəllim VII sinifdə M.P.Vaqifin "Hayıf ki yoxdur" qoşmasını tədris edərkən belə br hal baş verir.Yüksək zövqə və həssas ruha malik olan Vaqifin tayı-bərabəri Çinü Maçində tapılmayan yerli gözəllərin yoxsul geyimlərini ürək ağrısı ilə qələmə almasını çatdırır. Eyni zamanda bu şerdə Vaqif dövrünün səciyyəvi real bir mənzərəni canlandırır. Şair gözəlliyi tamamlayan səliqə və bəzək-düzəkləri Kür qırağının gözəllərində yerli-yerində görmək istəyir, onları davranış və rəftarında mədəni olmalarını arzulayır.

Ucu əşrəfli bulud kimi saç,
Dal qərdəndə hər hörüyü bir qulac.
Kəlağayı əlvan, qəsabə qıyğac,
Altından cunası hayıf ki, yoxdur.

Zər haşiyə al nimtənə üstündə,
Xallar üz yanında, çənəüstündə.
Buxağın altında sinə üstündə,
Zülfün burulması, hayıf ki, yoxdur.

Bu verilən bənddə "qəsabə" altında cunası, "Al nimtə üstündə zər haşiyə" necə olması şagirdlər üçün anlamlı deyil. Müəllim hər bir detalı ətraflı şəkildə başa salmalıdır.Qoşmanın oxusundan sonra uşaqlar müxtəlif fikirlər söyəyir. Bəzisi aydın təxəyyül surəti yarada bilmədiyi, bir qismi keçmiş xatirələri əsasında ona bənzər obraz yaratdığını söyləyir:"Mən oxu prosesində iki keçmiş Azərbaycan qadını obrazı yaratdım. Mən həm Kür qırağında yaşayan gözəlin təsvirini, həm də Vaqifin görmək istədiyi, amma görmədiyi gözəli göz önünə gətirdim. O gözəli ki, onu Vaqif təxəyyülündə canlandırmışdı. Mən onların şəklini çəkə bilərəm".

Müəllimlər bədii obrazların düzgün və dəqiq bərpasının vacib olduğunun uşaqlara aşılamalıdırlar. Bəzən müəllim özü bilmədən uşaqların ədəbiyyatın öyrənilməsində olan çatışmazlıqları onların təxəyyülünün mükəmməl olmasına yox, digər səbəblərə aid edərək şagirdi diqqətsizlikdə günahlandırırlar. Bu da mexaniki yaddasaxlamaya gətirib çıxarır.

В последние годы в сфере азербайджанского образования расширились международные связи была проведена целенаправленная работа для успешной интеграции азербайджанского образования в международную образовательную среду с помощью изучения мирового опыта.

С точки зрения всех этих аспектов, установление тесных отношений сотрудничества с мировыми рейтинговыми организациями азербайджанских университетов в последние годы можно рассматривать как стратегические шаги, предпринятые для будущего высшего образования в стране. Это сотрудничество вносит большой вклад в работу по

надлежащему осуществлению стратегического планирования и освоению международных стандартов в секторе высшего образования страны.

AZƏRBAYCAN RESPUBLİKASINDA DİSTANT TƏHSİL SİSTEMİNİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI İSTİQAMƏTLƏRİ

Həsənova N.Ə.
Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
nubar2017@list.ru

Açar sözlər: *təhsil, təlim, tərbiyə, distant, təhsil sistemi*

K.D.Uşinskinin də ideyaları də maraq doğurur və pedaqoji- metodik cəhətdən pedaqoqu bu gün müasir səslənir. O yazır: Uşaq formalarla, boyalarla, səslərlə və ümumiyyətlə, duyğularla fikirləşir və uşağı başqa cür düşünməyə vadar etmək istəyən şəxs onun təbiətini əbəs yerə və zərərinə olaraq zorlamış olur.

Y.A.Komenski bu şərhlə təlim mənimsənilməsinin, dərk mexanizmini olunmasının psixoloji açır, təqdim materiallarının olunan cisim və hadisənin duyğu orqanlarının məqsədəmüvafiq ötürülməsini vasitəsi ilə idrak prosesinə sayır. Təlim zamanı eyni duyğu üzvündən bir vaxtda neçə istifadə olunduqda təlim materialı mənimsənilir daha asan və uzun müddət unudulmur.

«Uşağın təbiəti aydın əyanilik surətdə tələb edir. Ona məlum olmayan 5 kəlmə söz öyrətməyə çalışır, uzun müddət üzərində uzun və boş yerə əzab çəkəcək, lakin bu cür 10 kəlməni əlaqələndirin şəkillərlə və uşaq bunları çox çətinliklə mənimsəyəcək. Siz sadə uşağa edirsiniz bir fikri izah, o, anlamır; sizi həmin uşağa asan bir şəkli başa salın, o sizi çox tez anlayır».

Göründüyü kimi, ayrı-ayrı dövrlərdə təlim-tərbiyə nəzəriyyəsi sahəsində çalışan və diqqətəlayiq elmi fəaliyyət göstərən tanınmış pedaqoqlar təlimdə əyaniliyə ciddi əhəmiyyət vermişlər. Bu da o deməkdir ki, əyaniliyə münasibət heç bir zaman subyektiv xarakler daşımamış, təlimin ciddi və olduqca faydalı prinsipi, zəruri prinsip kimi şərh edilmişdir [4].

Vaxt ötdükcə təhsildə əyanilik prinsipinin vəzifəsi, mexanizmi psixoloqlar və pedaqoqlar tərəfindən elmi baxımdan daha vacib şəkildə şərh edilir. Son illərdə İran və Azərbaycan pedaqoqlarının əsərlərində problemlə bağlı parlaq idyalar irəli sürülmüşdür[1].

Universitet tarixindən, təlim-tərbiyə praktikasından, ayrı-ayrı fənlərin tədrisinin inkişaf vəziyyətindən məlum olur ki, müxtəlif dövrlərdə təlim zamanı əyanilik müxtəlif prinsipini əsas tutaraq vasitələrdən - əşyanın özündən, texniki avadanlığın bu və ya digər növündən - val maqnitləşmiş epidiaskopdan,lent yazılarındarı, yazılarından,diafilmlərdən istifadə olunmuşdur.

Ümumiyyətlə, bunların hər ikisi dövr üçün müəyyən səmərəliliyi azaldan təhsildə texniki tərbiyə vasitəsi çox kimi və ya az əhəmiyyətli dərəcədə rol oynamışdır, lakin həyatın, texnikanın və elm indiki inkişaf səviyyəsində, güclü informasiya axını təlimdə bunların heç şəraitində biri lazımi şəkildə effekt yaratmaq malik imkanına deyildir. Bu cəhətdən kompyuter, şəxsi cib kompyuter və telefonları, elektron poçtları və s. sözün həqiqi mənasında, heç nə ilə əvəz olunmaz gücə və imkana malikdir.

Kompyuter və qeyd etdiklərimiz əgər belə demək mümkündürsə, hələlik son texniki nailiyyətdir. Təlimdəki hamısının roluna, gəldikdə, demək olar ki, o, yuxarıda sadalanan vəsaitlərin malik olduğu imkanı əhəmiyyətinə özündə birləşdirir, az vaxtda çox informasiya optimallıq vermək və yaratmaq baxımından əvəz olunmaz vəsaitdir. Ona təlimdə lazımlılıq prizmasından və universitet praktikasına əsaslanaraq yanaşsaq ən azı aşağıdakıları söyləmək olar:



- Distant təhsilin iş rejimi, istifadə texnologiyasına görə tələbələrin marağına səbəb olur, onların

diqqətini kənar obyektdən (qıcıqlandırıcılardan) ayıralaq təlim materialı kimi təqdim edilən mövzunun üzərinə yönəldir;

- İnformasiya texnologiyalarından istifadə təqdim edilən obyektin (mövzunun) məzmununu, demək olar ki, təfərrüatı ilə göstərmək imkanına malikdir,
- Distant təhsil prosesində kompyuterdən istifadə zamanı mövzu ilə əlaqədar nisbətən çox (əlbəttə, tələbələrin qavraya biləcəkləri həcmdə, həm də vaxta qənaət etməklə) informasiya vermək mümkündür;
- İnformasiya və kommunikasiya texnologiyaları sözliə hərəkəti lazımi şəkildə birləşdirmək imkanına malikdir ki, bu da təlim materialının mənimsənilməsini asanlaşdırır;
- Distant təhsildən istifadə təlim materiallarını hafizədə möhkəmləndirir, yadasalmanı tezləşdirir;
- Distant təhsil tədris materialının məzmununa uyğun müxtəlif rəng çalarlarından istifadə tələbələrin duyumlarına olduqca müsbət təsir göstərir ki, bu da onların estetik tərbiyəsinin inkişafına güclü təsir göstərir;
- Distant təhsil zamanı interaktiv təlimə lazımi imkan yaranır[6];
- Bu təlimdən istifadə tələbələri mövzu ətrafında fikirləşmək, ayrı-ayrı materialları təhlil etmək və sərbəst fikir söyləmək, ümumiləşdirmələr aparmaq üçün optimal şərait yaradır;

Distant təhsil tədris materialının məzmununa uyğun müxtətif metod və priyomlara müraciət etməyə imkan verdiyindən dərsdə fəallıq yaradır.

Əlbəttə, bütün bu deyilənlər, ümumiyyətlə, distant təhsildən istifadənin əhəmiyyəti ilə bağlıdır. Lakin nəzərdən qaçırmaq olmaz ki, hər bir təlim fənni spesifik xüsusiyyətə malikdir. Distant təhsildən istifadə zamanı fənnin spesifikası nəzərdən qaçırıla bilməz. Hər şeydən əvvəl, bu təlim üçün yuxarıda sadalanan faydalı cəhətləri bütünlükdə ali məktəbdə tədris olunan fənlər üçün də eyni dərəcədə faydalıdır. Onları təkrar etməyə ehtiyac hiss olunmur, yuxarıda deyilənlər diqqət mərkəzində saxlanılmalıdır.

Distant təhsilin bir forması da elektron öyrənmədir. Distant təhsil elektron öyrənmə mühitində əməkdaşlıq fəzasının yaradılmasını da ön plana çəkir. Mahiyyət etibarı ilə elektron öyrənmə mühitində yaranması böyük əhəmiyyət kəsb edən və öyrənməni dərinləşdirə bilən məsələ öyrənənlərin öz təcrübələrini bir-birinə ötürə bilmələrinə va öyrənməni əməkdaşlıq yolu ilə yerinə yetirməyə imkan verən bir fəzadır. Buna görə qrupların yaradılması elektron öyrənmə vasitələrindən dialoq və çat üçün istifadə imkanı yaradır. Bu imkan əslində əməkdaşlıq etməklə öyrənməni reallaşdırır. Əməkdaşlıq etməklə öyrənmənin ən geniş yayılmış tərifi iki və ya daha artıq nəfərin öyrənmənin öyrəndiklərinə imkan verə bilən mövqeyə nəzarətidir. Bu tərifin hissələrinin hər biri haqqında müxtəllif izahatlar vermək olar.

İki və ya daha artıq nəfər iki, üç və ya beş nəfərlik kiçik qrupa, auditoriyaya (iyirmidən otuza qədər nəfəri əhatə edən) nəzarətçi olabilər.

Bir-birilə əməkdaşlığı, fəaliyyətin qarşı-qarşıya, kompyuter vasitəsilə, eyni zaman və ya müxtəlif zamanlarda baş verən proseslər kimi müxtəlif formaları hesab etmək olar və ya bu əməkdaşlıq bir-birinin yanında həqiqi çalışmalar və ya öyrənmə fəaliyyətinin sistemli şəkildə paylaşdırılması deməkdir[5].

Əməkdaşlıqla öyrənmənin adı iki nəfərin öyrənməni fəaliyyət yolu ilə bir və ya iki saat ərzində eyni vaxtda məsəfənin həllini tapması hesab etmək olar və ya bu, bir illik dövrdə elektron poçtdan istifadə edənlərdən ibarət qrupdur. Əməkdaşlıqla öyrənmə yeganə öyrənmə mexanizmidir. Əgər öyrənmə ilə bağlı əməkdaşlıq və həmkarlıq üsulundan söz açılsa, təkcə öyrənmədən də söz açmaq olar. Əgər kimsə tək bir şeyi öyrənirsə, deməli, müqayisə və nəticə kimi mexanizmləri tələb edən oxumaq, qurmaq, əvvəlcədən proqnozlaşdırma kimi fəaliyyətlər vasitəsilə bu iş həyata keçirilir. Bu işin analoji forması qrupda baş verir və bu zaman qrupun üzvləri arasında qarşılıqlı fəaliyyət izahat, razılaşmamaq, iki tərəfli qaydanın tənzimlənməsi və s. kimi daha çox fəaliyyətləri əhatə olunur ki, bu özü də daha az nəticə çıxarma, tanışlıq nəticəsi kimi mexanizmləri əhatə edir. Əməkdaşlıqla öyrənmə sahəsi dəqiq olaraq bu fəaliyyətlər və mexanizmləri əhatə edir və bu fəaliyyətlərin əməkdaşlıqla öyrənmədə meydana çıxması imkanı fərdi öyrənməyə nisbətən daha çoxdur. Eyni zamanda bu mexanizmlərin hər bir növ fəaliyyətdə qarşılıqlı baş verəcəyinə təminat da yoxdur və bu, həm də yalnız əməkdaşlıqla baş vermir. Təsvir səviyyələrinin bəzilərində əməkdaşlıqla öyrənmənin potensial mexanizmləri elə həmin fərdi tanışlığın potensial mexanizmləridir. Əsas şəkildə əmakdaşlıqda öyrənmə öyrənənlərə istiqamət təqdim etmə formasına malikdir, bu dərsdə sanki bir-birinizlə işləyirsiniz və ya qrup üzvləri bir masa ətrafında işləyirlər, yaxud da qrup fərdləri son dərəcə öz qruplarının dəyəri vasitəsilə qiymətləndirilirlər. Buna görə öyrənmədə əməkdaşlıq və həmkarlıq mövqeyi bir növ qruplar arasında və ya qruplar və müəllim arasında bağlanan ictimai müqavilədir. Bu müqavilə qarşılıqlı fəaliyyətlə paralel baş verən şəraiti bu qarşılıqlı fəaliyyətin təzahür etməsini təmin etmədən müəyyən edir. Məsələn, əməkdaşlıq müqaviləsi dolayısı yolla onu göstərir ki, bütün öyrənənlər məsələnin həllinə kömək edirlər, lakin həmişə bu belə olmur[1].

Xülasə şəklində əməkdaşlıqla öyrənmə fərdlər tərəfindən öyrənmə mexanizmlərini təmin edən qarşılıqlı fəaliyyətin xüsusi formalarının gözlənildiyi mövqeni təsvir edir, lakin zərurət etibarilə gözlənilən qarşılıqlı fəaliyyətin baş verməsi üçün təminat vermir. Buna görə əməkdaşlıqla öyrənmədə əsas narahatlıq bu qarşılıqlı fəaliyyətin baş vermə ehtimalının artması yollarının müəyyən edilməsidir. Bu üsulları dörd qismə ayırmaq olar: birinci, şəraitin tənzimlənməsi; mövqenin dəqiq planlaşdırılması üçün qarşılıqlı fəaliyyət ehtimalının artması diqqət mərkəzində olmalıdır. Bu mərhələdə müəllimlər üçün təqdim olunana suallar bu qəbildəndir: hər bir qrupun üzvlərinin münasib sayı nə səviyyədədir? Müəyyən bir meyarla qrupu tərtib etmək lazımdır və ya qrupun təşkilini üzvlərin özünə həvalə etmək lazımdır? Qrup analoji baxışlar, eyni inkişaf səviyyəsi, eyni bilik əsasında təşkil olunmalıdırmı və ya bu işin əhəmiyyəti yoxdur? Qrupların üzbəüz olması yaxşıdır, yoxsa bir-birinin kənarında yerləşməsi? Əməkdaşlıqda öyrənmə üçün hansı işlər münasibdir və hansı işlər münasib deyil? Əməkdaşlıq müqaviləsinin müəyyən olunması rolların müəyyən olunduğu ssenari əsasında baş verir. Bu prosesdə əməkdaşlıqla öyrənmə üsula çevrilir. Məsələn, müştərək təlim müəyyən şəkildə rolları müəyyən edir. Bir sıra üsullar öyrənənlərin fərqlərinin tənzimlənməsi əsasında formalaşır və ya qarştlıqlı fəaliyyətlərin stimullaşdırılması əsasında baş verir və yaxud öyrənənlərin biliyinin təkmilləşdirilməsi zəngin qarşılıqlı fəaliyyətə bağlı olur. Məsələn:

- Mübahisə və faktların gətirilməsində xüsusi rol oynamaq üçün öyrənənlərə, hətta əgər ifadə edilmiş baxış, onların şəxsi baxışları qəti olmasa da, sual vermək;
- Tələbələr üçün müxtəlif baxışların və fikirlərin təqdim olunması;
- Qrup üzvlərinin fərqli informasiya əldə etməsinə imkan verən üsulla informasiya əldə edilməsinə nəzarət. Bu üsulda məsələnin həlli şəraiti belədir ki, qrup üzvləri bir-birinin informasiyasını birləşdirməyə məcburdurlar;
- Qrup arasında qarşılıqlı fəaliyyət qaydalarının nöqteyi-nəzərindən yaradıcı qarşılıqlı fəaliyyətlərin təmin olunması.

Müəllim qarşılıqlı fəaliyyət qaydalarını üzbəüz əməkdaşlıq əsasında ifadə edə bilər. Məsələn: qrupun bütün üzvlərindən öz fikirlərini ifadə etmələri tələb oluna bilər[4].

- Qarşılıqlı fəaliyyətə və onların tənzimlənməsinə nəzarət. Qrup üzvlərinin sayının artması da daha böyük əhəmiyyət kəsb edir. Bu, tədris deyil, asanlaşdırıcı roldur. Həqiqətdə burada müəllim düzgün cavabı hazırlamır və ya düzgün cavab verən qrupu müəyyən etmir, əksinə, ən azı təlim prosesinə minimum səviyyədə müdaxilə edir (işarə və istiqamətləndirmə həddində) və onun rolu əslində yaradıcı işdə qrup işini istiqamətləndirmək və ya ona nəzarət etməkdir. Məsələn: o, müəyyən edir ki, qrup üzvlərindən hansı biri qarşılıqlı fəaliyyətdən aralı düşmüşdür.

Əməkdaşlıq mənaca müxtəlif ola bilər: əməkdaşlıq sözü dörd mahiyyəti əhatə etməlidir:

1. Fərdlərm mövqeyi bir-birinə oxşar olmalıdır. Məsələn, rəhbər və işçilər və yaxud müəllim və tələbə arasında olduğu kimi deyil, fərdlər arasında analoji mövqedə daha çox əməkdaşlıq kimi.
2. Üzvlər arasında qarşılıqlı fəaliyyət müəyyən dərəcədə əməkdaşlıqdır, məsələn, əməkdaşlıq rənginin mübahisəsi istiqamətin təqdim edilməsindən daha çoxdur.
3. Bəzi öyrənmə mexanizmləri daha çox əməkdaşlıq mahiyyətinə malikdirlər.
4. Dördüncü ünsür əməkdaşlıqla öyrənməni izah edir, bəlkə də ona görə ki, bu sahənin terminoloji hissəsində əməkdaşlıqla öyrənmənin nəticələrini qiymətləndirmə üsulu haqqında müxtəlif baxışlar daha effektlidir. Öyrənmənin yeni texnologiyaları təlim və tərbiyəni struktur və sistemli üsullar vasitəsilə təsir altına sala bilər. Virtual öyrənmə mühitində informasiya texnologiyasının uğurlu başlanğıcı tələbə və müəllimlər və qruplar arasında orta inzibati qarşılıqlı fəaliyyətin qurulmasına yardımdır. Bu üsul öyrənənlərə müəllimlər və tələbələr arasında əlaqələri öyrənmə prosesinin və təcrübələrinin yaxşılaşması üçün dəyişilməsinə icazə verir.

Ədəbiyyat

1. Rəsulov, S .Təhsilin idarə edilməsinin nəzəri və praktik məsələləri / S.Rəsulov, R. Əzizov –Bakı: Müəllim, -2012.- 169 s.
2. Rzayev, O. Təhsilin idarə olunmasının əsasları. Dərs vəsaiti. / O.Rzayev, S.Məmmədov , Ş.İsmayılov- Bakı: Mütərcim, -2010, -476 s.
3. Rəsulov, S Təhsil müəssisəsinin idarə olunmasında təhsil menecmentinin rolu / S.Rəsulov, Həmidova X. //Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi Əsərləri, -Bakı:-2015. №1, -s.17-20
4. Təhsil sistemində monitorinq və qiymətləndirmə/M.Mərdanov, R. Ağamalıyev, A. Mehrabov [və b.]- Bakı: Çaşığolu, -2003, -416 s.
5. Təhsili idarəedilməsinin bəzi məsələləri/R.Məmmədzadə[və b.]-Bakı: Müəllim, 2008,237 s.
6. Təhsilin idarə edilməsinin aktual problemləri. / Ş.Qəribov, İ.Əsədova, T.İsmayılova [və b.]- Bakı: Şahin-MB, -2016.-192 s.

РЕЗЮМЕ
НАПРАВЛЕНИЯ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ СИСТЕМЫ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ
Гасанова Н.А.

Ключевые слова: *образование, обучение, воспитание, дистанционное обучение, образовательная система*.

Использование дистанционного обучения в основном способствует наглядности учебного материала. Выдающиеся педагоги считали наглядность одним из основных принципов системы образования. Одна из народных поговорок «Лучше один раз увидеть, чем сто раз услышать» также показывает, что это один из основных методов обучения и понимания. Великий педагог Ю.А.Коменский справедливо называл наглядность «золотым правилом» в образовании. Он пишет: «...чтобы сделать возможным их предъявление к восприятию органами чувств, золотым правилом должно быть все, т. и прикосновение к осязанию. Если можно воспринимать все сразу несколькими органами чувств, то и чувство должно восприниматься несколькими одновременно».

SUMMARY
DIRECTIONS OF IMPROVING THE EFFECTIVENESS OF THE DISTANCE EDUCATION SYSTEM IN THE REPUBLIC OF AZERBAIJAN
Hasanova N.A.

Key words: *education, training, upbringing, distance learning, educational system*

The use of distance education mainly helps to visualize the learning material. Prominent educators have considered visibility as one of the main principles in the education system. One of the folk sayings, " It is better to see once than to hear a hundred times" also shows that it is one of the main methods of learning and understanding. The great pedagogue Y. A. Komensky rightly called visibility the "golden rule" in education. He writes: "...in order to make it possible to present them to perception with the senses, the golden rule should be everything, i.e. what is seen - to the senses of sight, what is tasted - to the sense of taste, and the touch to the sense of touch. If it is possible to perceive everything at once with several sense organs, let the sense be perceived with several at the same time.

RİYAZİ ANALİZİN TƏDRİSİNDƏ MÜASİR TƏLİM METODUNDAN İSTİFADƏ

Səfərli İ.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
i.safarli@mail.ru

Açar sözlər: *riyazi analiz, universitet, təhsil, tələbə, müəllim*

Ali və orta məktəbdə təlim işlərinin əsas forması dərsdir. Dərs, təlim prosesində müxtəlif üsulların tədqiq edilməsi üçün əlverişli şərait yaradır. Dərs eyni zamanda tədris prosesində müəllimlərin həlledici rolunu təmin edir. Tədrisin gedişində həlledici qüvvə olan müəllim bu sahədə toplanmış ən qabaqcıl təcrübəyə əsaslanaraq tədris etdiyi fənnin ayrı-ayrı bölmələrini xronoloji ardıcıllıqla tələbələrə çatdırır. Müəllim tədris proqramında nəzərdə tutulan materialları tələbələrə mənimsətmək üçün sistemli şəkildə fəaliyyət göstərməlidir. Riyazi analizin inkişafını sistemli şəkildə şərh etmək vacibdir. Riyazi anlayışlar arasındakı əlaqələri aydın göstərmək və yeni materialların, anlayışların əhəmiyyətini düzgün izah etmək lazımdır. Bu vacib vəzifəni yüksək səviyyədə həyata keçirmək üçün müəllim müxtəlif üsullardan istifadə etməli və eyni zamanda ən səmərəli yolları axtarmalıdır. Beləliklə, təlim prosesində müəllim riyazi anlayışların mahiyyətinin aydınlaşdırılmasına çalışmalı və ən səmərəli yollarını araşdırmalıdır. Müəllim təlimin gedişində tələbələrin əqli inkişafı ilə yanaşı, onun mənimsədiyi biliyə və yiyələndiyi vərdişlərə əsaslanaraq bu iş üsullarını tədricən mürəkkəbləşdirir.

Hər bir dərsin öz məzmunu, öz tələbləri var. Dərsin mövzusu məşğələnin məqsəd və vəzifələrini müəyyən edir. Müəllim dərsin gedişində mətnin bütün mahiyyətini açmalı və tələbələrə aşılamalıdır. Dərslikdə, dərs vəsaitində və metodik vəsaitdə hər bir mövzu ayrı-ayrı paraqraflara bölünür. Bu paraqraflar problemin bütün mahiyyətini əks etdirir. Məhz buna görə Riyazi analiz dərslərində faktik materialları öyrənərkən dərsliklərdə, dərs vəsaitlərində və metodik vəsaitlərdə müəyyən olunan paraqraflara istinad edilməli, onun tələblərinə riayət olunmalıdır. Lakin yaradıcı müəllim mövzunun paraqraflara bölünməsinə dəyişilməz bir məsələ kimi yanaşmamalıdır. Bu bölgüyə yaradıcı yanaşmaq olduqca vacibdir. Burada müəllim riyazi anlayışlara yaradıcı yanaşmaqla tələbələri bu istiqamətə yönəltməlidir.

Müəllimlər tələbələrə hər hansı riyazi anlayışı izah etməklə kifayətlənməməlidirlər. Müəllim tələbələrə riyazi anlayışların yaranmasını, tətbiq sahələrini açmalı, eyni zamanda riyazi anlayışa faktik materiallar əsasında elmi inam yaratmalıdır. Bu inam yalnız riyazi gerçəkliyə, inkarolunmaz faktlara əsaslanmalıdır. Buna görə də hər bir müəllim yalnız dərsliklərdə, dərs vəsaitlərində və metodik vəsaitlərdə şərh olunan təlim materialları ilə kifayətlənməməlidir. O, tədris etdiyi problemlərə, mövzulara aid vəsaitlərə, əlyazmalara və materiallar külliyyatına istinad etməlidir. Müəllim həmçinin fəlsəfi baxışlara malik

olmalıdır.

Dərslik, dərs vəsaitləri, metodik vəsaitlər, tədris planı tələbələrin ixtisas xüsusiyyətlərinə uyğun olmalıdır. Dərsin gedişində müəllim tələbələrin keçən dərslərdə əldə etdikləri biliklərinin səviyyəsini yoxlamalı və onu möhkəmləndirməlidir. Bu mühüm vəzifə həyata keçirildikdən sonra yeni materialların tədrisinə başlamalı, mövzuya aid müəyyən edilmiş tapşırıqları verməlidir. Bütün bu proses dərsin təxminən beş ünsürü çərçivəsində həyata keçirilməlidir. Həmin ünsürlər sorğu, yeni mövzuya keçid, yeni mövzunun şərhi, verilən biliklərin möhkəmləndirilməsi və evə verilən tapşırıqdan ibarət olmalıdır.

Bu ünsürlər dərs üçün ən tipik nümunədir. Lakin bu ünsürlər bütün dərslərə şamil edilmir. Belə ki, sorğu həm seminar-məşğələ dərslərində, həm də yeni dərsə keçid zamanı olur. Müəllim auditoriyanın bütün tələbələrindən soruşmaqla onların biliklərini möhkəmləndirir və yeni mövzuya keçmək üçün zəmin yaradır və yaxud dərsin sonuncu mərhələsində aparılır.

Sorğu zamanı tələbələrin biliyini yoxlamaq mümkündür. Sorğu zamanı tələbələrin həm faktik biliyi, onların yeni materialları dərk etmək qabiliyyəti, problem üzərində işləmək bacarığı artır. Bu məqsədlə müəllim yeni mövzuya keçid üçün təxmini vaxt ayırmalıdır. Bununla belə proqramın məzmununa və mövzunun quruluşuna görə əvvəlki dərslə əlaqə həmişə bu cür yaradıla bilməz. Bir qayda olaraq köhnə dərsdən yeni dərsə keçid müqayisəli şərhlər yolu ilə, ümumiləşdirici izah yolu ilə aparılır. Beləliklə, dərsin keçid mərhələsi müxtəlif üsulla aparıla bilər. Bu mərhələdə ən çətin və ən mürəkkəb vəziyyət yeni problemə, yeni kursa keçid dövründə baş verir. Yeni mövzuya, yeni kursa keçid zamanı əlaqəyə, ardıcıllığa, məntiqliyə diqqət yetirilməlidir. Əks halda tələbələrdə kursun quruluşu, məntiqi davamlığı haqqında səhv təsəvvür yarana bilər. Riyazi anlayışlar arasında əlaqələrin pozulması, bu məsələyə diqqətsizlik ciddi anlaşılmazlığa gətirib çıxara bilər.

Müəllim keçilən mövzuları və riyazi anlayışları dövrün tələbi və qanunauyğunluqları ilə əlaqələndirməlidir. Müəllim ümumiləşdirməyi, mövzu və anlayışları konkret bir şəkildə izah etməyi bacarmalıdır. Əks halda o, mövzu və anlayışların mahiyyətini aydınlaşdıra bilməz. Müəllim dərsin məqsədini aydın müəyyən etməli, bütün səyini məhz buna yönəltməlidir. Ali məktəblərin tərtib etdiyi Riyazi analiz proqramlarında verilmiş dərslərin planı əksər hallarda dərsliklərdəki, dərs vəsaitlərindəki və metodik vəsaitlərdəki mövzuların paraqrafları ilə uyğun gəlmir. Bu işdə tələbələr üçün müəllimin şərhindən, planından dərsliyin, dərs vəsaitinin və metodik vəsaitin planına keçmək bir qədər çətin olur. Lakin kursun məzmununu dərindən bilən, baş verən dəyişiklikləri düzgün dərk edən müəllim planda daha səmərəli dəyişikliklər edə bilər. Beləliklə, istər dərslikdə, dərs vəsaitində və metodik vəsaitdə və istərsə də proqramda qeyd olunan paraqraflara dəyişilməz bir hal kimi yanaşmaq olmaz. Dərsi mexaniki ardıcıllıqla şərh etmək, anlayışları bir-birinin ardınca sadalamaq, şübhəsiz ki, ciddi nöqsandır.

Müəllim seçdiyi ixtisasını dərindən bilməli və tələbələrə bilik və bacarıqları aşılamaq üçün öz üzərində müntəzəm olaraq işləməlidir. O, ali məktb dərsliklərindən, müxtəlif dərs vəsaitlərindən, metodik vəsaitlərdən, müxtəlif materiallar külliyatından, elmi əsərlərdən və s. istifadə etməlidir.

Tələbələrin təlim materialını mümkün qədər dərindən mənimsəməsinə nail olmaq üçün tarixi təcrübələrdən, qabaqcıl müəllimlərin iş üsullarından istifadə olunmalıdır. Xüsusilə dəsdə müasir informasiya kommunikasiya texnologiyalarından, əyani vəsaitlərdən istifadə olunmalıdır.

Kursun məzmunundan, onun xarakterindən asılı olaraq tədrisin üsulları da dəyişilməlidir. Bu işdə tələbələrin qavrama qabiliyyətləri də nəzərə alınmalıdır. Dərs eyni üsullarla aparıla bilməz, belə ki, dərsin bütün gedişi zamanı mövzu və anlayışlar üzərində şərhlər aparılmalıdır. Mövzu və anlayışın quru şəkildə əzbərlənmsi, izahsiz və misal nümunəsiz mühazirə mətni, həmçinin nəzəriyyəni sorğu-sual etmədən misallar və məsələlər həlli tədrisin məzmununa ciddi təsir göstərə bilər. Burada tələbələrin diqqəti yalnız bir istiqamətdə - quru əzbərçiliyə yönələ bilər. Eyni zamanda uzun-uzadı şərhlər, misal və məsələ nümunəsiz mühazirələr yorucu diqqətsizliyə gətirib çıxara bilər.

Müəllim tələbələrin diqqətini vaxtında müsahibəyə çevirdikdə auditoriyada ümumi canlanma yarana bilər, tələbələrin dərsin ümumi təhlilində fəal iştirakına səbəb ola bilər. Dərsin gedişi, aparılan müsahibələr tələbələrin ümumi fəallığına və marağına səbəb ola bilər.

Təlim üsullarına gəldikdə o müəllimin bilik dairəsindən, metodik bacarığından, tələbələrin ümumi səviyyəsindən asılıdır. Məsələn, aparılan mühazirələrin gedişini, onun nəticələrini şərh edərkən aparılan şərhlə plan üzərində aparılmalı lazımlı, misal və məsələ həllində lazım olan və diqqəti cəlb edən materiallardan və nümunələrdən istifadə olunmalıdır. Bu zaman müəllim tələbələrdə öyrənilən riyazi anlayışlara maraq və onlara lazım olmalarına inam yaratmalıdır. Eyni üsulları bütün auditoriyalarda tətbiq etmək olmaz. Bəzi auditoriyalarda bu işlər azaldılmalı, əyani vəsaitlərdən istifadə etməyə, müsahibəyə üstünlük verilməlidir. Yəni, hər bir auditoriyanın spesifik xüsusiyyətləri nəzərdən keçirilməlidir.

Tələbələr auditoriyada izah olunan materialları evdə daha dərindən öyrənməlidirlər. Ev tapşırığı verərkən tapşırığın mahiyyətini nəzərə almalı, tələbələrin həmin tapşırığı yerinə yetirə bilməsi imkanları

nəzərə alınmalıdır.

Təlimin gedişində əsas mərhələlərdən biri də müəllimin mövzunu şərh etməsidir. Mövzunun izahı müəllimin şərhi vasitəsilə aparılır. Müəllimin şərhi mövzunun təhlili üçün çox vacibdir.

Müəllim ilk növbədə Riyazi analiz kursunun fəsilləri, mövzuları və onun paraqrafları üzərində şərhini qurmalıdır. Hər bir mövzunun mətni konkret və aydın bir şəkildə şərh olunmalı, sadə və aydın aşılanmalıdır. Müəllimin izahı ardıcıl, sistemli və məntiqli olmalıdır. Dərsliklərdə, dərs vəsaitlərində və metodik vəsaitlərdə hər bir mövzunun paraqraflarına yaradıcı yanaşmaq olduqca zəruridir. Müəllim şərh etdiyi mövzunun materiallarını tələbələrə izah edərkən problemə aid dərsliklərdə, dərs vəsaitlərində və metodik vəsaitlərdə olmayan, lakin ona elmi əsərlərdən məlum olan materiallara da istinad edə bilər və etməlidir. Müəllim bu məsələdə də ehtiyatlı olmalı, dərsliklərdə, dərs vəsaitlərində və metodik vəsaitlərdə olan materiallar əsas götürülməlidir. Dərsliklərdən, dərs vəsaitlərindən, metodik vəsaitlərdən və digər elmi əsərlərdən müəllimin gətirdiyi faktlar və misallar dərsin tələbləri səviyyəsinə uyğun olmalıdır. Burada mücərrədliyə, məntiqsizliyə və əlaqəsizliyə yol verilməməlidir. Buna görə də müəllim dərsin və ya mövzunun mətninə nələri əlavə etməyi və burada hansı məsələləri daha geniş izah etməyin zəruriliyini və vacibliyini müəyyən etməlidir. Müəllim elə etməlidir ki, izah etdiyi mövzunun ümumi səviyyəsi dərsliklərdə, dərs vəsaitlərində və metodik vəsaitlərdə göstərilən materialların ümumi məzmunu ilə bir olmalı və bir-birini tamamlamalıdır. Belə olduqda həm müəllimin şərhi, həm də dərsliklər, dərs vəsaitləri və metodik vəsaitlər öz əhəmiyyətini saxlayar, dərsin məqsədi yerinə yetirilmiş olar.

Müəllimin izahı düşünülmüş plan əsasında qurulmalıdır. Müəllimin nəzərdə tutduğu plan dərsliklərlə, dərs vəsaitləri ilə və metodik vəsaitlərlə bir-birilərini tamamlamalıdır.

Lakin müasir dövrdə ənənəvi təlim metodları ilə yanaşı, interaktiv təlim metodlarından da istifadə edilir. Bu baxımdan dərsliklərdəki, dərs vəsaitlərindəki və metodik vəsaitlərdəki faktik materialların interaktiv metodlarla öyrənilməsi təlim keyfiyyətinin yüksəldilməsinə ciddi təsir göstərir.

İnteraktiv təlim metodları müəllimin iştirakı ilə tələbələrin müxtəlif informasiya mənbələri (dərslik, dərs vəsaitləri, metodik vəsaitlər, elmi nəşrlər, internet materialları və s.) və ya bir-biri ilə qarşılıqlı fəaliyyət prosesində yeni biliklər əldə etməyə imkan verən təlim üsullarının məcmusudur. İlk dəfə Avropada Britaniya alimi Con Raven tərəfindən təhsil məqsədlərinin vacibliyi ilə bağlı eksperiment keçirilmişdir. O, oğlanlar, qızlar və müəllimlər arasında sorğu keçirmiş, özünəinam, təşəbbüs, islahatçılıq istedadlarını üzə çıxarmaq bacarığı formalaşdırmaq, müxtəlif məsələləri müzakirə etmək, diskussiya dərslər keçirmək, əldə olunmuş bilik və vərdişlərdən yeni problemlərin həllində istifadə etməyi öyrətmək kimi məsələləri araşdırmışdır. Testlərin nəticələrindən belə məlum olmuşdur ki, tələbələr məktəbdə, yəni universitetdə tədris olunan, onlara təklif olunan biliklərə can atırlar. Universitetdə tələbələr hazır bilik və ifadələri çox vaxt əzbərləməyə məcbur olurlar. Buna görə də onların müstəqil öyrənmək həvəsi olmur. Tədrisin interaktiv metodikası isə tələbələrin təlimin əsas məqsədləri sırasında qeyd edilən bacarıq və vərdişlərin əldə olunmasını nəzərdə tutur.

Yuxarıda qeyd olunan məlumatlar bütün dünyada məktəb təhsil sisteminin əsaslı islahata ehtiyacı olduğunu göstərir. Azərbaycanda həyata keçirilən islahat haqlı olaraq əsasən tələbələrə universitetdə dərslik, dərs vəsaiti və metodik vəsaitlər üzərində sərbəst işləmək, təhlil və müstəqil nəticələr çıxarmaq, bilik, bacarıq və vərdişləri inkişaf etdirmək kimi məsələləri vacib sayır.

Universitetdə Riyazi analizin tədrisinin əsas məsələləri tələbələri ali riyaziyyat elementləri ilə işləməyə və öyrənməyə hazırlamaq, gələcəkdə müəllim işləməyə hazırlamaq, həmçinin insan cəmiyyəti inkişafının əsas prosesləri ilə tanış etmək, tələbələrdə riyazi anlayışları təhlil etmək və şəxsiyyəti formalaşdırmaqdır. Tələbələr keçmiş və müasir dövr riyaziyyatını müstəqil təhlil edərkən səbəb və nəticələri əlaqələndirərək, faktik materialları ümumiləşdirməlidirlər. Riyazi biliklərin öyrənilməsində əldə olunan biliklərdən istifadə, müasir cəmiyyətin vəziyyətini təhlil etmək bacarığını inkişaf etdirmək lazımdır. Gənc Azərbaycan vətəndaşına həmçinin vətənə məhəbbət hissini yüksək səviyyədə aşılamaq vacibdir.

İnsan həyatının mərhələlərinin xüsusiyyətlərini bilmədən məktəbdə, universitetdə müəllim işləmək olmaz. Yaş psixologiyası hər bir insanın müəyyən yaş mərhələlərini öyrənən bir neçə bölmədən ibarət elm sahəsidir və həyatın müxtəlif yaş dövrlərində normal insanın psixi inkişaf qanunauyğunluqlarını öyrənir.

Tələbələrin bizi maraqlandıran yaş dövrü 16-dan təxmini 25-ə kimidir. Psixoloqlar insanın həyatında bu yaş dövrünü də iki hissəyə bölürlər. Bizi maraqlandıran yaş dövrü 16-20 yaş universitet, ali məktəb yaş dövrü – insan həyatında ən sabit dövrlərdən biri sayılır. Böyüklər uşaqlarla münasibətdə demək olar ki, heç bir yeni problemlərlə qarşılaşmırlar. Bu dövrdə uşaqlarda hazırcavablıq yaranmış, onlar asanlıqla və həvəslə öyrənirlər, reallığı, təsəvvürlərinə uyğun gələn nəticəni aldıqda çox məmnunluq duyurlar. Məhz bu dövrdə onlar özlərini yaşlarından böyük aparırlar.

Əlbəttə, bəzi qrup tələbələrinin təcrübəsində müvəffəqiyyəti təkcə bilik həll etmir. Müəllimin aqidəliyi, səmimiliyi, prinsipiallığı, ədalətli olması, açıq danışması və həqiqəti deməsi, onun baxışlarının,

hərəkətlərinin ciddiliyi müstəsna əhəmiyyətə malikdir.

Yeniyetməlik dövrü həyatın elə bir mərhələsidir ki, insanda başqaları ilə ünsiyyət öz-özünə norma və üsulları ilə formalaşır.

Hazırda yeni dərsliklər, dərs vəsaitləri və metodik vəsaitlər hazırlanmış və həmin dərsliklər, dərs vəsaitləri və metodik vəsaitləri təlimin interaktiv metodlarla təşkilinə imkan verir.

Riyazi analizin tədrisi keyfiyyətini yüksəltmək üçün müəllimin təlim metodlarının mahiyyətinə dərindən bələd olması vacib şərtlərdən biridir və bu tələbələrdə demokratik cəmiyyət vətəndaşı üçün tələb olunan sosial və intellektual vərdişlərin inkişafına kömək edir.

Müasir təlim metodlarına rollu oyunlar, birgə qrup işi, modelləşdirmə, diskussiyalar və qrup layihələri daxildir. Bu cür metodlar tələbələrdə nəinki Riyazi analizə marağı artırır, həm də daha dərindən mənimsəməni, vətəndaşlıq vərdişlərinin tərbiyələndirilməsi və demokratik dəyərlərə bağlılığı təmin edir. Müasir dərs Azərbaycan məktəblərində hələ də üstün mövqedə duran ənənəvi dərslə müqayisədə bir sıra fərqli xüsusiyyətlərə malikdir.

Müasir dərsin aşağıdakı xüsusiyyətləri vardır:

1. Diqqət ilk növbədə tələbənin şəxsiyyətinin formalaşmasına yönəlir.
2. Müəllim təlim prosesində tələbələrin məsləhətçisi və köməkçisi kimi çıxış edir.
3. Müəllim və tələbə arasında əməkdaşlıq tələbələrin dəlillərinə və fəaliyyətinə böyük kömək edir.
4. Təlim prosesində yeni materialın nisbətən kiçik həcmi tələbələrin idrak fəallığı nəticəsində dərsdə əsas faktların, səbəb-nəticə əlaqələrinin tələbələr tərəfindən ilkin mənimsənilməsinə imkan verir.
5. Ən mühüm tələb ayrı-ayrı dərslərin əvvəlki və sonrakı dərslərlə sıx əlaqəsinin həyata keçməsindən ibarətdir.
6. Dərsin keyfiyyəti təkcə müəllimin hazırlığından və onun dərsdəki fəaliyyətindən asılı deyil, həm də tələbələrin bununla sıx əlaqədə olan hazırlığından və dərsə ümumi həvəsindən asılıdır. Dərsin səmərəli və keyfiyyətli olması üçün müəllim tərəfindən nəzərdə tutulmuş təlim-tərbiyə məqsədlərinin dərsdə müvəffəqiyyətlə həyata keçirməsindən ibarətdir.
7. Ekskursiya dərslərini həm yeni materialları öyrətmək, həm də keçirilmiş materialları təkrarlamaqla keçirmək olar.
8. Kompüterdən və informasiya telekommunikasiya texnologiyalarından istifadə etməklə keçirilən dərslər, dərs ekskursiyalar və s. dərslərin özünəməxsus xüsusiyyətləri olur.

Təcrübə göstərir ki, təlim prosesində tələbələrin fəallığını artırmaq üçün mətn üzərində işin təşkilinə xüsusi diqqət yetirilməli, müasir təlim metodlarından məqsədəuyğun istifadə olunmalıdır.

Ədəbiyyat

1. Безрукова В.С. Словарь нового педагогического мышления. Екатеринбург: Б.и., 1992, 93 с.
2. Чекалева Н.В. Теоретические основы учебно-методического обеспечения процесса изучения педагогических дисциплин в педагогическом вузе: Дис. … д-ра пед. Наук: СПб, 1998, 426 с.
3. Земцова В.И. Адаптация студентов педагогических специальностей к профессиональной деятельности: Монография / Под ред.В.И.Земцовой.- Орск: Издательство ОГТИ, 2003, 307 с.
4. Кандыбович Л.А. Психология высшей школы: Учеб. пособие для магистров пед. Спец. Вузов / М.И.Дьяченко, Л.А.Кандыбович.-Минск: Тесей, 2003, 352 с.
5. Большой энциклопедический словарь. – 2-е изд., переработанное и дополнен. М.: Большая Российская энциклопедия; СПб.: Норинт, 1997, 952 с.
6. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, “Mütərcim”, 2007.
7. Mərdanov M.C. Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr. Bakı, 2001.
8. Qədimova X. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Bakı, 2003.
9. Шарыгин И.Ф. Математическое образование: вчера, сегодня, завтра. М., 2001.

РЕЗЮМЕ

ПРЕПОДАВАНИЕ МАТЕМАТИЧЕСКОГО АНАЛИЗА С ИСПОЛЬЗОВАНИЕМ СОВРЕМЕННЫХ МЕТОДОВ ОБУЧЕНИЯ

Сафарли И.С.

***Ключевые слова**: математический анализ, университет, образование, студент, преподаватель*

Представленная статья посвящена вопросам использования традиционного и современного методов обучения в процессе организации работы с текстом при преподавании математического анализа. Практика показывает, что для повышения активности учащихся в процессе обучения следует уделять особое внимание организации работы над текстом, целесообразно использовать современные методы обучения.

SUMMARY
USE OF MODERN TEACHING METHODS IN TEACHING MATHEMATICAL ANALYSIS
Safarli I.S.

Keywords: *mathematics analyze, university, education, student, teacher*

The presented article is devoted to the use of traditional and modern teaching methods in the process of organizing work with text when teaching mathematical analysis lessons. Practice shows that in order to increase the activity of students in the learning process, special attention should be paid to the organization of work on the text, it is advisable to use modern teaching methods.

ALİ VƏ ORTA MƏKTƏB ARASINDA VARİSLİYİN PEDAQOJİ ƏSASLARI

Hadıyeva S.S., Səfərli İ.İ.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
smsff125@mail.ru ,ilaheseferli20@gmail.com

Açar sözlər: *məktəb, təhsil, tələbə, müəllim, pedaqoji*

Müstəqil respublikamızda sosial-iqtisadi həyatın inkişafı böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsinə yeni təfəkkür tərzi ilə yanaşmağı, əvvəlki təhsilin ən mütərəqqi cəhətlərinin təkmilləşdirərək yeni təlim şəraitinə uyğunlaşdırmağı və hərtərəfli inkişafın yeni pedaqoji sistemini hazırlamağı tələb edir [1]. Bu baxımdan fasiləsiz təhsilin ilkin pilləsindən biri olan orta məktəb ilə ali məktəb təlimi arasında varisliyin imkan və yollarının uzlaşdırılması aktual bir məsələ kimi xüsusi tədqiqat aparılmasını tələb edir. Təhsilin ilkin pilləsindən biri olan orta məktəb pilləsinə məktəb hüdudunda fəaliyyət göstərən və həmin dairədə də qapanıb qalan təlim prosesi kimi deyil, ali məktəbə, ali təhsil təliminə bünövrə, bazis prizmasından yanaşmaq zəruridir. Didaktik prinsiplərin mövcud təlim şəraitinə tətbiqi baxımından yanaşdıqda orta məktəb və ali məktəb arasında yalnız hər hansı bir əlaqə deyil, varislik – yəni orta məktəbdə öyrədilənlərin ali məktəbdə inkişaf etdirilməsi, bacarıq və vərdişlərə çevrilməsi istiqamətində iş getməlidir. Orta məktəbdə şagirdlərin ali məktəbə hazırlanmasına, onlara müəyyən biliklər verilməsinə diqqət yetirilsə də varisliyin yolları, pedaqoji əsasları, tədris materialları arasında varisliyin uyğunlaşdırılması kimi məsələlər tədqiq olunmamışdır. Hər iki təhsil müəssisəsində təlimin əsas prinsipi tədris və bilik inkişafı olduğuna görə bütün fəaliyyət təfəkkürün inkişafına yönəldilməlidir. Mütəxəssislərin qeydləri göstərir ki, lazımi fiziki və əmək hazırlığına malik olmayan, müşahidə qabiliyyəti zəif inkişaf etmiş şagirdlərin məktəbdə təlim fəaliyyəti də aşağı səviyyədə olur, təlim materiallarını mənimsəmək çətinləşir və proses mürəkkəbləşdikcə geriləmə çoxalır. Deməli, tərbiyənin həmin növlərinə məktəb təlimində müvəffəqiyyətlə başlamaq, çətin təlim tapşırıqlarının yerinə yetirilməsi yolunda iradi keyfiyyətlər nümayiş etdirmək bacarığı formalaşdırmaq mövqeyindən yanaşmaq lazımdır. Orta məktəblərdə əsas fəaliyyət növü olan fənlərin ilkin tədrisi təhsilin əsaslarına hazırlıq xarakteri daşımalı, öyrətmənin vasitəsi, səmərəli didaktik əsas rolunu oynamalıdır [2].

Bizim cəmiyyətdə uşaqların təlim-tərbiyəsi, onların inkişafı idarə olunan proses xarakteri daşıyır. Belə ki, orta məktəb və ali məktəbdə təlim-tərbiyə işləri dövlət planı və proqramı əsasında aparılır, bütün fəaliyyət növlərindən konkret təlim nəticələri güdülür. Buna uyğun olaraq orta məktəb və ali məktəb arasında varislik ilk növbədə təhsilin, öyrədiləcək biliklərin, təlim materiallarının, metod və vasitələrin ümumiliyində axtarılmalıdır [4].

Orta məktəb və ali məktəb arasında varislik savad təliminə münasibətdə daha aydın görünür. Əgər hər iki təhsil pilləsində təlim vahid tələblər, müvafiqlik, materialların yaş və konkret təcrübəyə uyğunlaşdırılması, inkişaf etdiricilik və s. pedaqoji prinsiplər əsasında təşkil olunarsa, uşaqların bilik və bacarıqlarından əməli nəticələr əldə etmək olar. Lakin varislik prinsipinin konkret olaraq savad təlimi məşğələlərinə tətbiqində bəzi amilləri nəzərə almaq lazımdır.

Məlumdur ki, cəmiyyətimizin mədəni inkişaf səviyyəsi elə bir həddə çatmışdır ki, bu gün istər orta məktəbdən, istərsə də orta ixtisas məktəbindən və yaxud istehsalatdan ali məktəbə gələnlər həm savad təlimi, həm də təhsilin digər əsasları üzrə müəyyən vərdişlərə malik olurlar. Müxtəlif şəraitdə qazanılan bu vərdişlər ali məktəb təlimi işləri ilə uyğunluq təşkil etmirsə, bundan ciddi şəkildə fərqlənirsə, təlim prosesinin təşkilində çoxlu çətinliklər yaranır. Belə ki, orta məktəb şagirdlərinin təlimi vahid proqram, ali məktəbdə tətbiq olunan üsul və vasitələrə nisbətən uyğunluq, didaktik prinsiplər əsasında aparıldığı və baza təhsili rolu oynadığı halda, istehsalatdan gələn tələbələrin qazandıqları vərdişlərdə bu əlamətləri müşahidə etmək olmur [5].

Hazırlıq səviyyəsinin müxtəlifliyinə baxmayaraq ali məktəbdə tələblərin inkişafı fənn müəllimlərindən, onların pedaqoji ustalığı, dərsin təşkili və quruluşundakı fəaliyyətindən, tətbiq etdiyi üsul və vasitələrin səmərəliliyindən, tələbələrə fərdi yanaşma qabiliyyətindən asılıdır. Məlumdur ki, eyni şəraitdə eyni fənni tədris edən müəllimlərin təlim göstəriciləri bərabər səviyyədə olmur. Lakin orta məktəb təhsilinin şagirdlərin ali məktəb fəaliyyətində əhəmiyyətli rolu danılmaz faktdır. Çünki orta məktəblərdə təlim-tərbiyənin qarşısında qoyulan əsas tələb şagirdlərdə elə bacarıq və vərdişlər formalaşdırmaqdır ki, ali məktəb fəaliyyəti bunlar üzərində təşkil və inkişaf etdirilə bilsin. Təhsilin hər iki mərhələsi arasında varisliyin pedaqoji əsasını təlim və tərbiyə prosesinə vahid tələblərlə yanaşma prinsipi təşkil edir. Orta məktəb və ali məktəb arasında əlaqə və varisliyin təmin olunmasında həm orta məktəbin, həm də ali məktəbin qarşısında konkret məqsədlər dayanır [6].

Məlumdur ki, orta məktəb təhsili ali təhsilin bünövrəsini təşkil etməlidir. Orta məktəbin bu vəzifəsi ictimai borc, məsuliyyət səviyyəsində başa düşülməlidir. Bu təhsil-tərbiyə müəssisəsinin işi ali məktəbin birinci kursuna qəbulda şagirdin əldə etdiyi göstəricilərə əsasən qiymətləndirilir. Orta məktəbdə təlim-tərbiyə işləri ali məktəb təcrübəsində özünü doğrultmalıdır. Bizim pedaqoji ədəbiyyatda orta məktəb məzunlarının ali məktəbdəki fəaliyyət səviyyəsi hələlik ancaq təsəvvür və ehtimallara əsaslanır. Məzunların fəaliyyətini, orta məktəbdəki təlimin nəticələrindən istifadənin məqsədyönlülüyünü konkret metodik araşdırmalar, eksperimental təlimlə müəyyənləşdirmək lazımdır. Ali məktəb də öz növbəsində orta məktəb təliminin nəticələrindən faydalanmalı, bu və ya digər vərdişlərin formalaşdırılmasında əvvəlki vərdişlərə istinad etməlidir. Buradan elə başa düşülməməlidir ki, ali məktəb təlimi bütövlükdə orta məktəb təlimini olduğu kimi təkrar etməlidir.

Varisliyin təmin edilməsində ali məktəbin vəzifələri daha genişdir. Savad təliminin hazırlıq dövründə pedaqoji diaqnostika nəticəsində müəllim şagirdləri hərtərəfli öyrədir, əgər tələbə orta məktəbdən gəlmişsə, onun təlim-tərbiyə baxımından bütün keyfiyyətləri ortaya çıxarılır. Bu zaman ali məktəb orta məktəb təliminin keyfiyyətinə dair pedaqoji mətbuat vasitəsilə sifarişlər və müəyyən məlumatlar verə bilər. Ali məktəb nəzərə almalıdır ki, orta məktəb təliminə ali məktəb təlim-tərbiyəsinin bir parçası, ali təhsilin bünövrəsi kimi yanaşmaq lazımdır. Buna uyğun olaraq ali məktəb orta məktəbə müəyyən didaktik tələb və tövsiyələr verə bilər, çünki orta məktəb təlim-tərbiyəsinin səviyyəsi ali məktəbə əməli yardım xarakteri daşıyır. Ali məktəb isə öz növbəsində, orta məktəbin şagirdlərdə formalaşdırdığı bilik və bacarıqları ali məktəbdə veriləcək yeni məzmunda əlaqələndirərək istifadə etməlidir. Ali məktəb orta məktəbin şagirdlərin şüurunda, davranışında formalaşdırdığı sərvəti qiymətləndirməli və ona fəal münasibət bəsləməlidir [8].

Şagirdlərin orta məktəbdən ali məktəbə, orta məktəb dövründən ali məktəb dövrünə keçidi, sözsüz ki, onların həyatında, təlim-tərbiyə fəaliyyətində yeni mərhələnin başlanğıcıdır. Müəllimlər bu keçidin rəvan, konfliktsiz keçməsi üçün uşaqlarla xüsusi hazırlıq işi aparmalıdırlar. Elə hadisələr məlumdur ki, orta məktəbdə normal inkişaf edən və yaxşı oxuyan şagirdlər ali məktəbə qəbul zamanı stresslər keçirir və hətta ali məktəbdə sonradan oxumaq istəmədiklərini söyləyirlər. Bu, ali məktəb tapşırıqlarının çətinlik dərəcəsinin bəzən tələbələrin mənimsəmə imkanları ilə uyğunsuzluq təşkil etməsindən, tələbələrin yaranmış yeni məsuliyyət yükünə hazırsızlığından irəli gəlir. Bu halların yaranma səbəbi tamamilə aydındır – burada günah tələbələrdə yox, onlara yönəldilmiş tərbiyəvi təsirin məzmunundadır. Məhz həmin tərbiyəvi təsirin məzmununda dəyişiklik etməklə yaranmış çətinlikləri tədricən aradan qaldırmaq lazımdır. Yeni təlim şəraiti, auditoriya – dərs sistemi, möhkəm inzibati rejim öyrənənlə öyrədən arasında normal davranış prinsipləri səviyyəsində təşkil edilərsə, tələbəni əhatə edən psixoloji gərginliyi və təlimdə çətinlik səddini tez aradan qaldırmaq, səmərəli təlim şəraiti yaratmaq olar. Ona görə də birinci kursda dərs deyən müəllimlər tələbənin həyatında ən çətin mərhələ olan təlim dövründə tələbənin orta məktəb mühitinə uyğun şərait yaratmaqla obyektiv çətinlikləri uğurla aradan qaldıra bilərlər. Bu zaman varislik prinsipindən istifadənin əsas vəzifəsi ondan ibarətdir ki, tələbənin əvvəl qazandığı vərdişlər yeni şəraitdə yeni məqsədlərin reallaşdırılması naminə inkişaf etdirilsin [10].

Orta məktəb və ali məktəb arasında varisliyin təmin olunması üçün spesifik iş növlərindən istifadənin əhəmiyyətinin də qeyd etmək lazımdır. Bu iş növlərinin bir qismi təlim, bəziləri isə təlimdən kənar xarakter daşıyır. Ali məktəb rəhbərliyi ilə görüş, ali məktəblə tanışlıq, 15 sentyabr bilik gününün bayram şəklində təşkili, qəbul imtahanlarında yüksək nəticə qazanmış tələbələrin ali məktəb tərəfindən mükafatlandırılması, birinci kurs tələbələri arasında bilik və idman yarışları, müəllimlərin ilk dərslərdə ali məktəb həyatı ilə bağlı məqsədyönlü müsahibəsi və s. işlər tələbələrin ali məktəblə bağlı psixoloji çətinliklərinin, "vahimənin" aradan qaldırılmasına səbəb olur, tələbələrin ali məktəb həyatına tez uyğunlaşmasına kömək göstərir.

Məlumdur ki, orta məktəb məzunlarının əksəriyyəti yaxın ərazilərdə yerləşən ali məktəblərdə oxumağı daha üstün tuturlar. Belə şəraitdə konkret orta məktəb müəllimləri ilə konkret ali məktəb müəllimləri arasında aşağıdakı pedaqoji əməkdaşlıq formalarından istifadə etmək olar:

1. Təlim prosesində varisliyi təmin etmək üçün ali məktəb müəlliminin orta məktəbdə aparılan dərsləri dinləməsi. Bunun nəticəsində müəllim varisliyi düzgün təşkil etmək üçün forma və yollar, metodlar müəyyənləşdirir.

2. Aparılan müşahidələrin nəticələri hər iki müəssisənin təşkil etdikləri elmi-praktik seminarlarda, pedaqoji mühazirələrdə və s. tədbirlərdə müzakirə olunur.

3. Orta məktəbin yuxarı sinif şagirdləri və birinci kurs tələbələrinin birgə iştirakı ilə bağlı tədbirlərin keçirilməsi şagirdlərin ali məktəb həyatına uyğunlaşdırılmasına kömək göstərir.

4. Orta məktəb məzunlarının tələbə olduqdan sonra əvvəl oxuduqları məktəblərə dəvət olunması, onların ali məktəb həyatı haqqında şəxsi təəssürat və müşahidələri ilə bağlı söhbətlərinin dinlənilməsi.

5. Orta məktəblərdə və ali məktəbin birinci kurs proqramlarında təlimin məzmunu, metod və vasitələri üzrə qabaqcıl müəllim-pedaqoqların və ali məktəb müəllimlərinin rəy sorğusunun, təcrübə mübadiləsinin aparılması varisliyin pedaqoji əsaslarının təkmilləşdirilməsinə əhəmiyyətli təsir edir.

6. Təhsilin hər iki pilləsində açıq dərs və məşğələlərin keçirilməsi də təlim əhəmiyyəti daşıyır, qabaqcıl təcrübənin ümumiləşdirilməsi və yayılmasına, real tətbiqinə imkan yaradır.

7. Keçirilən bütün tədbirlərdə ali məktəbin orta məktəbə və orta məktəbin ali məktəbə olan tələblərinin aydınlaşdırılması varisliyin həyata keçirilməsini təkmilləşdirir, məzmun, forma, metod və vasitələrdən istifadədə uyğunluq və əlaqəni təmin edir.

Bütün bunlarla yanaşı, varislikdən istifadəni zəruriləşdirmək üçün proqramların tərtibində hər iki təhsil müəssisələrinin birgə işinə nail olmaq lazımdır. Əgər proqramda varislikdən istifadəyə konkret tələblər qoyularsa, onları yerinə yetirmək müəllimlərin həm vətəndaşlıq, həm də vəzifə borcu kimi qiymətləndirilir.

Beləliklə, orta məktəb və ali məktəb arasında varisliyə vahid təlim-tərbiyə vasitələrinin daha səmərəli şəraitdə həyata keçirilməsi vasitəsi kimi yanaşmaq lazımdır. Varislik prinsipi bütövlük, tamlıq, sistemlilik, fasiləsizlik anlayışlarının vəhdəti olmaqla təlimdə müvəffəqiyyətin və inkişafın vacib amilidir.

Ədəbiyyat

1. Azərbaycanın təhsil siyasəti (1998-2004). I cild. Bakı: Çaşıoğlu, 2005
2. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007
3. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004
4. Həmzəyev M. Pedaqoji psixologiya. Bakı: Nurlan, 1991
5. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006
6. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006
7. Əhmədova M., Əliyev M. və b. Müəllim hazırlığının və orta təhsilin perspektivləri. Bakı: Adiloğlu, 2005
8. Kazımov N. Təlim keyfiyyətini yüksəltməyin yolları. Bakı, 1996
9. Давыдов В. Теория развивающего обучения. М., Педагогика, 1998.
10. Выготский Л. Педагогическая психология. М., Логос, 1991

РЕЗЮМЕ
ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ПРЕЕМСТВЕННОСТИ МЕЖДУ СРЕДНИМИ ШКОЛАМИ И ВУЗАМИ

Гадиева С.С., Сафарли И.И.

***Ключевые слова**: школа, образование, студент, преподаватель, педагогический*

Данная статья посвящена педагогическим основам преемственности между средними школами и вузами. Педагогическим основанием связи и преемственности между средними школами и вузами является требование единого воспитательного воздействия на школьников на разных возрастных ступенях, в средних и высших учебных заведениях, так как, разделение труда по воспитанию школьников между различными воспитательными учреждениями не может служить причиной резко различного подхода к школьникам, или повторения того, что было дано детям на предыдущих ступенях их развития.

SUMMARY
PEDAGOGICAL HERITAGE FOUNDATIONS BETWEEN HIGH SCHOOL AND SECONDARY SCHOOLS

Hadieva S.S., Safarli I.I.

***Keywords**: school, education, student, teacher, pedagogical*

This article is dedicated to teaching the basics of continuity between secondary schools and higher educated school. Pedagogical basis of communication and continuity between high school and higher educated school is a requirement common educational impact on students at different age levels, secondary and higher educated as the division of labor on the education of pupils between various educational institutions can not cause dramatically different approach to the students, or a repetition of what has been given to children in the previous stages of their development.

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN İNKİŞAF TARİXİ

Əliyeva L.E.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, t.f.d.
leyla_848484@list.ru

Açar sözlər: *universitet, kitabxana, ixtisas, tələbə, inkişaf, təhsil.*

Ulu öndərin qeyd etdiyi kimi təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsil millətin gələcəyidir. Azərbaycanın təhsil ocaqlarından biri olan Sumqayıt Dövlət Universiteti də bir neçə inkişaf mərhələsindən kecmişdir.

1960-1961-ci illərdə Azərbaycan Neft Kimya institutuun Sumqayıt tədris məntəqəsi, 1962-1975-ci illərdə Azərbaycan Neft Kimya institutunun Sumqayıt filialı, 1975-1992-ci illərdə Sumqayıt Ali Texniki Təhsil məktəbi, 1992-2000-ci illərdə Azərbaycan Sənaye İnstitutu kimi fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Prezidenti H.Əliyevin 2000-ci il 13 iyun tarixli Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşməsi haqqında fərmanına əsasən bu təhsil ocağı Sumqayıt Dövlət Universiteti adlandırılmışdı. Universitetin ilk rektoru professor Qəhrəmanov N., daha sonra bu vəzifənin müvəqqəti icrası 2013-cü il dekabr ayından professor Hüseynov Elxan Bahadur oğluna həvalə edilmişdi. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2014-cü il 6 mart tarixli sərəncamına əsasən professor Elxan müəllim SDU-nun rektoru təyin edilmişdi. Sumqayıt Politexnik Texnikomunun bazasında yaradılmış AMİ Sumqayıt filialı prezidentin 24 iyul 2015-ci il tarixli Sərəncamına əsasən ləğv edilmişdir. Bundan sonra təhsil nazirinin sərəncamına əsasən filialın bütövlükdə öz maddi-texniki bazası, pedaqoji və tələbə heyəti ilə birlikdə Sumqayıt Dövlət Universitetinin nəzdinə keçirilməsi qərara alınmışdır.

Azərbaycan Respubikası Nazirlər Kabinetinin 26 avqust 2002-ci il tarixli, 140 saylı qərarı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 03 sentyabr 2002-ci il tarixli 878 sayli əmri ilə Sumqayıt Texnologiya Texnikumunun adı dəyişdirilib Sumqayıt Dövlət Texniki Kolleci adlandırılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 03 fevral 2016-cı il tarixli, 30 nömrəli qərarının icrası barədə Azərbaycan Respublikası Təhsil nazirinin 04.03.2016-cı il tarixli, 130 nömrəli əmrinə əsasən Sumqayıt Dövlət Texniki Kolleci Sumqayıt Dövlət Universitetinin nəzdinə verilmişdir [6].

Hazırda universitetdə magistratura da daxil olmaqla 7 fakültədə 8 min nəfər təhsil almaqdadır. 2021-2022-ci tədris ilində Sumqayıt Dövlət Universitetinə 42 ixtisas üzrə 1801 tələbə qəbul olmuşdur ki, onlardan 146-sı magistratura şöbəsinin tələbəsidir. Burada 1485 bakalavr pilləsində əyani və 170 qiyabi tələbə təhsil alır. 2021-ci ildə bakalavrların əksəriyyəti ölkənin müxtəlif universitetlərində magistratura pilləsində təhsilini davam etdirir.

SDU riyaziyyat, fizika və elektroenergetika, kimya və biologiya, iqtisadiyyat və idarəetmə, mühəndislik, tarix və coğrafiya, filologiya fakültələri, 29 kafedra, 5 elmi-tədqiqat laboratoriyası, Heydər Əliyev Mərkəzi, Tədris Metodik Mərkəz, Karyera Mərkəzi, Linqvistik Mərkəz, İnformasiya Texnologiyalar Mərkəzi, Əlil tələbələr mərkəzi, Əlavə təhsil mərkəzi, Elmi hissə, Doktorantura və magistratura şöbəsi, Elmi kitabxana, Ümumi şöbə, Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi və digər şöbələr fəaliyyət göstərir. Sumqayıt Dövlət Universitetində ixtisasların sayı 46-ya çatdırılıb.

Sumqayıt Dövlət Universiteti Azərbaycanın Sumqayıt şəhərində yerləşir. Bakıdan 45 km məsafədə yerləşən Sumqayıt şəhəri Azərbaycanın ən mühüm zavod şəhərlərindən biridir. Universitet şəhərin mərkəzində yerləşir. İnkişaf etməkdə olan Sumqayıt Dövlət Universiteti də tələbələrinə Erasmus proqramları təklif edir. Universitetin 3 tədris korpusu və 2 yataqxanası var. Yataqxanalarda ümumi mətbəx, futbol və voleybol meydançaları var. Yataqxana otaqları 4 nəfərlikdir [7].

Sumqayıt Dövlət Universitetinin maddi-texniki infrastrukturunun gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Belə ki, auditoriyalar normal tədris üçün yeni kompüterlər, smart lövhələr, proyektorlar, parta, şkaf, stol və stullar və digər avadanlıqlarla təchiz edilib. Bundan əlavə, tədris laboratoriyalarının müasir avadanlıq və reagentlərlə təminatı davam edir. Tədris binalarının yüksək enerjili xətləri dəyişdirilmiş, qazanxana və istilik sistemi tamamilə yenidən qurulmuş, köhnə qızdırıcılar yeniləri ilə əvəz edilmişdir. Tibbi yardım üçün otaq ayrılıb.

SDU-nun əhatə dairəsi geniş olduğundan, kampusun tikintisi üçün mini model yaradılaraq Təhsil Nazirliyinə təqdim edilib. Ötən il binalarda əsaslı struktur dəyişiklikləri aparılıb, fakültələr köçürülüb. Əsas tədris korpusunda isə 4 fakültə, ikinci tədris korpusunda 2, üçüncü tədris korpusunda 1fakültə fəaliyyət göstərir. Hər fakültədə ayrıca kompüter otağı var. Universitetin 430 nəfərlik iclas zalının oturacaqları yenilənib. Santexnika demək olar ki, tamamilə yenilənib.

Hazırda universitetin mühəndislik fakültəsi üzrə TEMPUS layihələri laboratoriyalarda fəaliyyət göstərir. Tədris laboratoriyaları müasirləşdirilmişdir. "LABVieW" proqramı ilə işləyən bir çox laboratoriyalar təşkil edilmişdir.

Tələbə və müəllimlərin asudə vaxtlarını səmərəli keçirməsi üçün "Gənclik kafesi" adlı yeməkxana istifadəyə verilmişdir. Universitetin ətrafındakı mövcud yolların asfalt örtüyü yenilənmişdir. Təmir-tikinti işləriylə yanaşı, bağın yaşıllaşdırılması və abadlaşdırılması işləri aparılıb və hər il mütəmadi olaraq aparılır.

Elmi-tədqiqat laboratoriyalarının fəaliyyətinin səmərəliliyini artırmaq üçün burada 12 otaqdan ibarət müasir korpus tikilib, bütün səpələnmiş elmi-tədqiqat laboratoriyalarının bir yerə toplanıb. Laboratoriyalar su və qaz xətləri ilə təchiz olunub, bütün otaqlar mərkəzi avtonom istilik sistemi və sürətli internetlə təmin olunub. SDU-nun mətbəəsi və nəşriyyatı tamamilə yenidən qurularaq müasirləşdirilib. Nəşriyyata epson tipli printer, rezoqraf, müasir optik oxucu printeri, laminator və digər çap cihazları alınıb. Universitetdə keçirilən hər bir konfransların materialları, habelə SDU-nun "Elmi xəbərləri" jurnalı, digər metodik vəsaitlər, dərsliklər, tələbə biletləri, o cümlədən qrup jurnalları, qiymət kitabçaları, işçi kartları burada hazırlanır [6].

Bütün universitet müəssisələrinin tam internetləşdirilməsi prosesi baş vermişdi. Sumqayıt Dövlət Universitetinin veb-saytı tamamilə yenidən işlənilmişdir.

Sumqayıt Dövlət Universitetinin elmi-tədqiqat işi üzrə 6 ixtisas üzrə Dissertasiya Şurası yaradılmışdır. Universitetdə aparılan elmi tədqiqatların nəticələrinin ictimaiyyətə çatdırılması məqsədilə "Elmi xəbərlər" jurnalı rübdə bir dəfə nəşr olunur [6].

SDU-da Tələbə Elmi Assosiasiyası fəaliyyət göstərir. Əsasnaməsi hazırlanaraq universitetin elmi şurasının iclasında qəbul edilmişdir. Bütün fakültələrin hər birində təsis konfransları keçirilir, tələbələr mövzu seçir və elmi məsləhətçiləri ilə işləyirlər. Hazırda TEC-də 500-dən çox üzv var. Tələbələrin texniki və təbiət elmləri sahələri üzrə elmi məqalələri bir çox xarici jurnallarda dərc olunur. SDU-da ənənəvi olaraq respublika magistrantlarının elmi konfransları keçirilir. 2022-ci ilin may ayında magistrlərin elmi konfransı keçirilmişdi.

Sumqayıt Dövlət Universitetinin elmi kitabxanası 2014-cü ildən etibarən Elmi kitabxana kimi fəaliyyət göstərir. Ümumi 15 nəfər çalışır. Bundan başqa, burada 4 şöbə fəaliyyət göstərməkdədir. Elmi kitabxanın fondunda 122752 kitab, 19925 jurnal, 991 magistr dissertasiyaları, 81693 tədris ədəbiyyatı, 28463 bədii ədəbiyyat və digər bir çox elmi vəsaitlər mövcuddur [2].

Sumqayıt Dövlət Universitet kitabxanada məlumat günləri, müxtəlif ədəbiyyatın sərgiləri, əlamətdar və tarixi günlərlə bağlı sərgilər keçirir. O cümlədən, universitet daxilində bir çox tədbirlər təşkil olunur [1]. Kitabxana müasir avadanlıqla təchiz olunub, internetə qoşulub. Universitetdə "Elektron kitabxana" da fəaliyyət göstərir. Məlumat bazasında 4895 kitab var. Bundan əlavə, kitabxanada İRBİS-64 sistemi quraşdırılmışdır.

Kollektivin yaxından köməyi ilə Sumqayıt Dövlət Universitet kitabxanasının kitab fonduna universitetin xüsusiyyətlərinə uyğun çoxlu sayda kitablar toplanmış, ayrı fənlər üzrə də mühazirələrin elektron variantları təşkil edilmiş, ümumilikdə kitabxananın elektronlaşdırılması prosesi həyata keçirilmişdir.

2001-ci ildə SDU-da beynəlxalq əməkdaşlıq sahəsində tədqiqatların aparılması məqsədilə Beynəlxalq Əlaqələr kafedrası yaradılmışdır. 2014-cü ilə qədər fəaliyyət göstərən bu şöbənin işi əsasən xarici universitetlərlə müqavilələrin imzalanmasından ibarətdir. SDU-nun xarici ölkələr ilə elmi əməkdaşlıqları əsasən TEMPUS layihələri vasitəsilə həyata keçirilir.

19 may 2014-cü il tarixində SGK-nın beynəlxalq əlaqələrini keyfiyyətcə yeni səviyyəyə çatdırmaq və həyata keçirilən işlərin əlaqələndirilməsi məqsədi ilə rektorun əmri ilə də Beynəlxalq əlaqələr şöbəsi ləğv edilmiş və Beynəlxalq əməkdaşlıq şöbəsi yaradılmışdır. 2019-cu ildən Beynəlxalq əməkdaşlıq şöbəsi və Əcnəbi tələbələr şöbəsi birləşdirilərək Beynəlxalq əməkdaşlıq və əcnəbi tələbələr şöbəsi adlandırılmışdı. SGK çərçivəsində həyata keçirilir. Şöbə aşağıdakı yeni struktur üzrə fəaliyyətə başlayıb [3]:

- beynəlxalq təhsil və elmi proqramlar;
- diplomatik protokol;
- akademik tələbə və professor mübadiləsi;
- məlumatların nəşri fəaliyyəti.

Universitetdə həyata keçirilən TEMPUS layihələri çərçivəsində əlillərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının əsaslarının qoyulması, beynəlxalq əlaqələr sahəsində idarəetmənin inkişafı və təkmilləşdirilməsi, İsraildə ali təhsilin təkmilləşdirilməsi, Azərbaycan və Qazaxıstanda dünya ekosisteminin kosmik aparatlarla monitorinqi, Azərbaycanda mühəndislik təhsilinin Boloniya prosesinə uyğunlaşdırılması həyata keçirilir. Görülən işlərin səmərəsini artırmaq məqsədilə layihələr Beynəlxalq Əməkdaşlıq Departamenti tərəfindən vahid mərkəzdən idarə olunub.

Universitet gələcəkdə Erasmus+ proqramının koordinatoru kimi iştirak etmək üçün işləməyə davam edir. Bu məqsədlə Azərbaycan və Avropanın tərəfdaş universitetləri ilə davamlı danışıqlar aparılır. Gələcəkdə beynəlxalq layihələr üçün kadrların təmin edilməsi məqsədilə universitet əməkdaşları arasında xarici dil bilənlər müəyyən edilib. Seçilmiş işçilər üçün layihə hazırlığı təlimi planlaşdırılır [6].

2015-ci ildən "Mövlana" akademik mübadilə proqramında iştirak etmək məqsədilə Sumqayıt Dövlət Universiteti ilə Türkiyənin aparıcı universitetləri ilə ikitərəfli əməkdaşlıq əlaqələri yaradılmışdır. 2015-ci ildə Azərbaycanda mühəndislik təhsilinin Boloniya prosesinə uyğunlaşdırılması üzrə TEMPUS layihəsi çərçivəsində ASIIN (Almaniya) beynəlxalq akkreditasiyanın təşkilatı tərəfindən iki bakalavr və bir magistratura proqramının akkreditasiyası nəzərdə tutulur. Qazanılan təcrübə digər proqramların beynəlxalq akkreditasiyasında istifadə oluna bilər və bununla da əcnəbi vətəndaşların SDU-da təhsil alması üçün stimul yaradıla bilər.

2014-cü ildə ilk dəfə SDU-da xarici ölkə nümayəndələri ilə görüşlərdə və münasibətlərdə diplomatik protokol qaydaları tətbiq edilib. Şöbədə xarici ölkələrə ezam olunan əməkdaşlar da bu ölkələrdə qəbul edilmiş davranış normaları və adətləri barədə məlumatlandırılır [3].

Ümumiyyətlə, diplomatik protokolun icrası nəticəsində mövcud əlaqələrin daha da genişlənməsi müşahidə edilir və yeni-yeni əlaqələrin qurulmasına imkan yaradılır.

Sumqayıt Dövlət Universitetinin əməkdaşlarının müxtəlif beynəlxalq layihələr, qrantlar və mübadilə proqramları haqqında mütəmadi olaraq məlumatlandırılması məqsədilə Beynəlxalq Əməkdaşlıq İdarəsi tərəfindən məlumat broşürlərinin nəşri nəzərdə tutulmuşdur. Beynəlxalq əməkdaşlıq sahəsində görülən işlərə dair məlumatlar universitetin portalında və dövri mətbuatda bu barədə materiallar dərc olunur. Universitetin fəaliyyətini, o cümlədən beynəlxalq əməkdaşlıq sahəsini əks etdirən yeni bukletlərin, habelə DVD-lərin hazırlanmasına başlanılmışdır.

Sumqayıt Dövlət Universitetinin idman bazasına idman zalı, mini futbol meydançası, stadion, açıq idman qurğuları, trenajor zalı və tir daxildir. Bu idman bazasında mini futbol, futbol, voleybol, basketbol və stolüstü tennis bölmələri fəaliyyət göstərir.

2014-cü ilin fevral ayında fakültələrarası yarışlar ənənəvi olaraq 3 növ (şahmat, dama, nərd) üzrə keçirilmişdir. Sumqayıt şəhərində voleybol üzrə Azərbaycan Respublikasının Şimal Bölgəsi birinciliyi keçirilmişdir. Bu yarışda SDU-nun komandası iştirak edərək 3-cü yeri tutmuşdur. Mart ayında Tbilisidə qaydasız döyüşlər üzrə Asiya çempionatı keçirilib. Bu yarışda dünya və Avropa çempionu, Tarix fakültəsinin tələbəsi Orxan Seyfullayev uğurlu çıxış edərək qızıl medal qazanmışdı.

Aprel ayında Sumqayıt Dövlət Universitetinin futbol üzrə yığma komandası orta məktəblər arasında futbol üzrə respublika çempionatında 1/4 finala yüksəlmişdi. Nəticədə ona VII yer verilib. Sumqayıt şəhərində müddətli həqiqi hərbi xidmətə çağırışadək gənclərin iştirak etdiyi VMH (Vətənin müdafiəsinə hazıram) çoxşaxəli müsabiqədə iştirak edən tələbələr birinci yerə layiq görülüblər.

2013-cü ilin may ayında Bakıda keçirilən Respublika Spartakiadasında (nərd, dama, şahmat, voleybol, stolüstü tennis, futzal) SDU komandası 18 komanda arasında 3-cü yeri tutmuşdur. İqtisadiyyat və biznes fakültəsinin tələbəsi Röyal Nəsirli də İranda keçirilən nizamsız müharibə üzrə Asiya çempionatında birinci yerə layiq görülüb.

Oktyabr ayında Dövlət Bayrağı və Konstitusiya Günlərinə həsr olunmuş I kurs tələbələri arasında fakültələrarası futbol yarışları keçirilmişdir. Noyabr ayında Sumqayıt şəhərində keçirilən "Azərikimya" İstehsalat Birliyi kubokunun stolüstü tennis üzrə yarışında SDU komandası birinci olub. Noyabr və dekabr aylarında SDU yığma komandası Bakıda keçirilən mini futbol yarışlarında iştirak etmişdi. Komanda öz qrupunda 3-cü yeri tutmuşdur. Fizika və elektrik fakültəsinin birinci kurs tələbəsi Vüsal Həsənov dekabr ayında Bakıda keçirilən cüdo üzrə respublika çempionatında ikinci yeri tutub. 2015-ci ilin fevral ayında üç idman növü (dama, şahmat, nərd) üzrə universitet əməkdaşları arasında fakültələrarası yarışlar keçirilmişdir.

2021-ci ilin 29 iyununda SDU tələbəsi Ülvi Teyyubzadə Ukraniyada qaydasız döyüş üzrə dünya kubokunu qazanıb. 2022-ci il fevralın 2-si oğlanlar arasında SDU-un tələbəsi Aslan Musazadə stolüstü tennis üzrə I yerə layiq görüldü. 2022-ci il mart ayında isə"A.F.S.O. Azerbaijan" Döyüş Liqasının Submission üzrə açıq birinciliyində SDU-nun tələbəsi Tahir Qurbanov 1-ci yeri tutub [5].

Nəticə. Sumqayıt Dövlət Universiteti respublikamızda təhsilin və elmin inkişafı üçün mühüm maddi və intellektual resurslara malikdir. Bu resurslardan səmərəli istifadə dövlət başçısının müəyyən etdiyi prioritet istiqamətlərdən biridir. Universitetin professor-müəllim heyəti vətənin, azərbaycançılığın, ölkənin, millətin rifahı naminə sədaqətlə çalışır. Sumqayıt Dövlət Universiteti bu siyasəti həyata keçirməklə nüfuzlu ali məktəblərdən birinə çevrilmişdir. 2022-ci ildə 60 illiyini qeyd edən Sumqayıt Dövlət Universitetinin inkişafı gün keçdikcə daha da artacaqdır.

Ədəbiyyat

1. Bayramqızı Ə.(18 Yanvar, 2014), "Sumqayıt Dövlət Universiteti", Xalq qəzeti, s.10.
2. Elmi kitabxana - Sumqayıt Dövlət Universitetinin rəsmi portalı, https://www.sdu.edu.az/az/scientific_library.
3. Günəş R., (7 Mart, 2015), "Sumqayıt Dövlət Universiteti", Azərbaycan müəllimi, s.4-5.
4. PR Yurtdışı Eğitim Danışmanlık Hizmetleri, "Sumgayıt Devlet Üniversitesi", https://www.pregitim.com/sumgayit-devlet-universitesi.
5. Sumqayıt Dövlət Universiteti. (1 Aprel, 2022), "İdmançı tələbəmiz I yerə layiq görüldü", Sumqayıt Dövlət Universiteti qəzeti, №02(90), s. 8.
6. Sumqayıt Dövlət Universitetinin rəsmi portalı, https://www.sdu.edu.az.

РЕЗЮМЕ
ИСТОРИЯ РАЗВИТИЯ СУМГАИТСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА
Алиева Л.Е.

Ключевые слова: *университет, библиотека, специальность, студент, развитие, образование*

В статье рассказывается о пути развития Сумгаитского государственного университета и о том, как он был создан. Также подробно рассказывается об истории Сумгаитского государственного университета и о работе, проделанной для его расширения и совершенствования. В статье представлена информация об истории Сумгаитского государственного университета, его материально-технической базе, единой сети интернет-серверов, научно-исследовательских работах, международных связях, спортивных достижениях и библиотеке.

SUMMARY
HISTORY OF DEVELOPMENT OF SUMGAIT STATE UNIVERSITY
Alieva L.E.

Keywords: *university, library, specialty, student, development, education*

The article describes the development path of Sumgait State University and how it originated. The article also tells in detail about the history of Sumgait State University and about the work done to make it today. Sumgait State University is considered one of the oldest universities in Azerbaijan. The article presents information about the history of Sumgait State University, its material and technical base, a unified network of Internet servers, research works, international relations, sports achievements and the library.

UNİVERSİTET TƏHSİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Əliyeva A.Ş., Hüseynova A.E., Seyidova G.M.
Sumqayıt Dövlət Universitet, Sumqayıt, Azərbaycan
azade.efendi@mail.ru ; aybeniz.huseynova1965@gmail.com ; gulaye.seyidova@mail.ru

Açar sözlər: *universitet təhsili, təhsil müəssisələri, müasir problemlər, mütəxxəsis, professor-müəllim heyəti.*

Respublikamızda təhsil müəssisələrinin demək olar ki, hər yerdə adının dəyişdirilməsi, yəni institutların universitet adlandırılması, ali təhsilin müasir vəziyyətinin diqqətəlayiq xüsusiyyətlərindən biridr. Bu ondan xəbər verir ki, təhsil müəssisələri professor-müəllim heyətinin hazırlanmasında, həmçinin elmi dərəcə və vəzifələri olan müəllimlərin sayının artırılmasında, təhsil prosesin təkmilləşdirilməsində və eləcə dəixtisasların sayının artırılmasında müəyyən nailiyyətlər əldə ediblər.

Bütün bunlar ona kömək edir ki, bu və ya digər ixtisası seçmiş tələbə həmin fənn üzrə dərin və müxtəlif biliklər əldə etmək imkanına malikdir. Belə olan halda tələbə, mütləq şəkildə müstəqil elmi və metodiki iş metodikasını mənimsəməli, təcrübəli və ixtisaslı müəllimlərin rəhbərliyi altında öz bilik və bacarıqlarını tətbiq etməklə təcrübə qazanmalı və nəticədə yüksək peşəkarlığa malik mütəxəssis olmalıdır.

Deyilənlərlə yanaşı, universitet təhsilinin özünəməxsus xüsusiyyətləri və fərqləri vardır. Universitetdə təhsil alan insanın, elmin müxtəlif sahələrində və cəmiyyətin həyatının müxtəlif sahələrində daha geniş və hərtərəfli biliklərə malik olması ehtimal olunur.

Universitetlərin əsas vəzifəsi bir tərəfdən kifayət qədər geniş təhsilli, elmin inkişafının əsas istiqamətlərini təsəvvür edən və özü üçün ən perspektivli sahəni müstəqil seçə bilən məzunun, digər tərəfdən isə konkret bir işi lazımınca bacaran, yəni cəmiyyətdə tələb olunan əsl mütəxəssis hazırlamasıdır.

Müasir təhsil sistemlərinin xüsusiyyətləri bir çox amillərlə müəyyən edilir ki, bunların da əsasını bütövlükdə elmin vəziyyəti və ayrı - ayrı bilik sahələrinin özəlliyi təşkil edir. Elmin bugünkü vəziyyətini iki mühüm, bir-birinə bağlı amil müəyyən edir: maliyyə və informasiya. İndiki zamanda elm bütövlükdə - yaxşı təşkil edilmiş bilik istehsalı sistemi olub, inkişaf etmiş infrastruktura, dəqiq plana malikbiznesdir. Qabaqcıl elm güclü, geniş düşüncəli idarəçilər tərəfindən idarə olunan, cəmiyyətin ehtiyaclarına cavab verə bilən və bu ehtiyaclara təsir edə bilən insanların (kollaborasiyaların) böyük kollektivləri tərəfindən həyata keçirilir [1].

Artıq elmdə çoxlu sayda informasiya toplanıb, lakin bu informasiyanın istehsal sürəti daha da çoxdur. Hər gün yeni elmi istiqamətlər və tədqiqat sahələri ortaya çıxır. Bu, tamamilə təbiidir, çünki informasiya elmi fəaliyyətin əsas məhsuludur. Yeni informasiyanın işlənməsi və saxlanması problemi elmi cəmiyyət tərəfindən kompyuterlər vasitəsilə uğurla həll edilir, lakin bu informasiyanın insan beyni tərəfindən qavranılması imkanları çox məhduddur. Elmin daxili strukturunun həddindən artıq artması və elmi istiqamətlərin sayının artması elm daxili əlaqələrin zəifləməsinə və çox sayda dar mütəxəssislərin yaranmasına gətirib çıxarır.

Universitet təhsilində bir-biri ilə əlaqəli iki amil əsas rol oynayır: məzmuni və insani. Məzmuni planda təhsil əsasən dil sahəsində konservativ bir sistemdir. Təhsil – tez bir zamanda reaksiya verən sistem deyil; onun məzmunu elm və texnologiyanın bütün yeni nailiyyətlərinin təsiri altında operativ şəkildə dəyişməməlidir.Bu nailiyyətlərin real sosial və iqtisadi nəticələrini yalnız illər və onilliklərdən sonra qiymətləndirmək olar (məsələn, Nobel mükafatının verilməsi). Eyni zamanda, universitet təhsili insanları elm üçün hazırlayır və ona görə təhsil elmdən ayrıla bilməz. Həmçinin yeni biliklər mövcud elmə məzmunlu şəkildə uyğunlaşmalıdır.

Universitet təhsilinin qymətləndirilməsinin mütəmadi olaraq keçirilməsi tələb olunur. Bu qymətləndirilmənin yekununa görə isə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş planları həyata keçirmək tələb olunur.

Universitet təhsilinin xüsusiyyətlərinin qiymətləndirilməsi qaydası həm daxili, həm də xarici qiymətləndirmənin bütövlüyüdür. Qiymətləndirmənin gedişi, bir tərəfdən ali məktəbin administrasiyanın, universitetmüəllim və tələbələrinin kollektiv işi, digər tərəfdən əmək bazarı subyektləri olmalıdır. Universitet təhsilinin xüsusiyyətlərinin qiymətləndirilməsi iştirak edən bütün tərəflər tərəfindən həyata keçirilməlidir.

Bu gün biz təhsil sistemimizə daha çox yeni metodlar, anlayışlar tətbiq edirik, onlar əsasən Qərbdən gəlir və bizim sistemə o qədər də uyğun gəlmir. Məsələn, Amerikada tətbiq olunan, testlərdən fəal istifadə olunması, bizim məktəbdə, təkcə orta məktəbdə deyil, ali məktəbdə də yer almışdır. Amma bir çox müəllimlər 4-5 verilən variantların içindən düzgün cavab seçməsi – işarə olaraq “+” qoymaq bacarığının uşağın inkişafına, onun yaradıcılıq potensialının inkişafına mənfi təsirindən danışırlar. Beləliklə, testləşdirmə də obyektiv qiymətləndirmə hesab edilə bilməz.

Universitet təhsilinin müasir sistemi üçün,adətən, universitet tələbələrinin fundamental nəzəri hazırlığı və universitetdən sonrakı fəaliyyətinin məhdud praqmatik tələbatlarının uyğunsuzluğu, eləcə dəkeyfiyyətli təhsilin özünə deyil,ali təhsil diplomuna olan tələbatsəciyyəvidir.Heç də hamı başa düşmür ki, biliklərin əldə olunması – dərketmə prosesində ilkin mövqedir, bu, təhsil prosesinin əsas vəzifəsinin həyata keçirilməsi üçün vasitədir, daha doğrusu, savadlı şəxsiyyətin, istənilən sahədə yaradıcılıq fəaliyyətisubyektinin formalaşdırılmasıdır.

Təlim - ilk növbədə, bilik, bacarıq və qabiliyyətlərin konkret olaraq birlikdə saxlanılmasına və ötürülməsinə təminat verən tapşırıqlar və intizamdır.Təlim insan şüurunun təkrarsızlığını, öz mənəvi keyfiyyətlərinin artmasını, onun ruhi formalaşmasını yaradır.

Tədrisdən fərqli olaraq, təhsilin məqsədi şəxsiyyətin mənəviyyatının zənginləşməsihesab olunur ki, bu olmadıqda insanın mövcudluğununbütöv olması qəbul edilməz olur.

Universitet təhsili nəzərdə tutur ki, bu və ya digər ixtisası seçmiş tələbə həmin fənn üzrə dərin və müxtəlif biliklər əldə etmək imkanına malikdir. O, məcburi qaydada müstəqil olaraq elmi və metodiki işlərlə çalışmaq metodikasını mənimsəməli, eləcə də təcrübəli və ixtisaslı müəllimlərin rəhbərliyi altında öz bilik və bacarıqlarını tətbiq etmək praktikasını əldə etməli və yüksək peşəkarlığa malik mütəxəssis olmalıdır.

Universitetdə təhsil alan insanın elmin və cəmiyyətin həyatının müxtəlif sahələrində daha geniş və hərtərəfli biliklər alması ehtimal olunur.

Hələ 20-ci əsrin əvvəllərində Avropa Universitetinin nəzəriyyəçilərindən biri alman filosofu K. Yaspers fundamental "universitet ideyaları"nda birgə tədqiqatgördü.

Bu, tələbələrin müəyyən biliklər alması (informasiya mədəniyyətinə yiyələnməsi) deyil, tədqiqatda iştirak etmək vərdişlərinin əldə olunması (biliklərin əməliyyat mədəniyyəti) deməkdir.

Başqa sözlə, müəllim və tələbə –praktiki olaraq, bərabərhüquqlu dialoq iştirakçıları olan tərəfdaşlardır. Onların arasındakı fərq ondan ibarətdir ki, müəllim, xüsusən ilk dövrlərdə aparıcı rolunda

olur. Müəllim və tələbənin birgə universitet yaradıcılığı gələcək mütəxəssis və vətəndaş şəxsiyyətinin yaranmasını nəzərdə tutur. Bu təkcə gələcək peşə fəaliyyəti üçün deyil, həm də daha geniş vərdişlər - həyat fəaliyyətinin strategiyasını (motivasion mədəniyyət) müəyyən edir və formalaşdırır [3].Ali təhsilliməzun – mütəxəssis tarixi inkişafın subyekti olmağa borcludur, bu onun inkişafına yeganə olaraq zəmanət və təminat verir.

Universitetdə təhsil problemləri daha çox gələcək peşəkarın məhdud kvalifikasiyası ilə birləşir və gələcəkdə onların iş fəaliyyətində istifadəsi üçün bilik, bacarıq və qabiliyyətlərin əldə edilməsində öz təzahürünü tapır [4]."Yeni"iqtisadiyyata həm də yalnız"dar"peşəkarlar deyil, ilk növbədə bütövlükdə təfəkkürlü, sosial və peşəkar mobil,"stresə davamlı" insanlar, yeni əmək cəmiyyətindəki roluna uyğunlaşa bilən adamlar lazımdır. İşəgötürən kimi seçəcək: ensiklopedik biliyə malik mütəxəssisi yoxsa praktiki bacarıqları olanı?

Beləliklə, universitet təhsilinin problemlərini təhlil edərək, onları şərti olaraq üç qrupa bölmək lar:

- ✓ Tələbələrdən gələn problemlər
- ✓ Təhsil sistemindən qaynaqlanan problemlər
- ✓ Cəmiyyətin istəklərindən qaynaqlanan problemlər

Tələbələrdən gələn problemlər:

* tələbələrin təhsil motivasiyasınınaşağı olması
* Orta məktəbdə aldıqları biliyinkeyfiyyətinin aşağı olması
*İxtisasındüşünmədən seçimi
* Gələcək mütəxəssislər zəif mütəxəssis yönümü

Bizim çoxsaylı tələbələrimiz üçün məqsəd oxumamaq, amma ballar və avtomatik qiymətlər almaq üçünmüxtəlif növ işlər yazmaq daha asandır. Bu, həqiqətən, ali məktəb tələbələrinin bilik dərəcəsini azaldır.

Təhsil sistemindən qaynaqlanan problemlər:

Maddi-texniki təchizat problemi mühüm vəzifədir. Bu, universitetlərin məhdud texniki təminatından ibarətdir:dərslik, metodik vəsait çatışmazlığı, kiçik ehtimalla praktiki və laboratoriya məşğələləri.Bu kiçik çətinlik kimi görünür, lakin çoxböyük çətinliyə çevrilə bilər. Praktiki işlərdəki çatışmazlıq nizam-intizama marağın itirilməsinə gətirib çıxarır.Bu isə artıq yeni çətinliklər yaradır ki, belə çətinlikləri öz işinin gedişində müəllim tənzimləməlidir.

Sistemin səbəb olduğu ikinci problem işçilərin çatışmazlığıdır. Bundan orta təhsil müəssisələri, kolleclər, institutlar, universitetlər əziyyət çəkir.

Üçüncü problem təhsil prosesinin standartlaşdırılması cəhdidir. Hər işdə müəyyən sənaye konveyerinin qurulması tendensiyası var, eləcə dətəhsildə. Amma bunu həmişə təhsildə istifadə etmək uğurlu strategiya deyil. Yeni dövlət təhsil standartları ilə çoxsaylı "kağız"işlərigəlir. Respublikamızın Boloniya sisteminə qoşulması həm müsbət məqamlara, həm də mənfi məqamlara malik idi. Xüsusilə, ekspertlər "iş layihələri ilə müvəqqəti qarışıqlığı" qeyd edirdilər ki, bu da pedaqoqlardan əzmlə işləməyi tələb edir.

Tələbələrin tədrisə maraqsız olması problemi hər bir məşğələnin keçirilməsi metodikasının dəyişməzliyindən irəli gələn motivasiyanın olmaması ilə bağlıdır.

Cəmiyyətin tələblərindən qaynaqlanan problemlər

Klassik problemdən daha çox universitetin kimi hazırlaması–təlim keçmiş məhdud peşəkarlar, müəyyən qabiliyyət və biliklərə malik şəxslər, yoxsa yüksək səviyyəli problemləri geniş düşünməyə, məhsuldar həll etməyə və əxlaqi cəhətdən ləyaqətlə – ictimai formalaşma və mövcud problemləri həll etməyə hazır olan şəxslər - əsas məsələ olaraq qalır.

Müasir universitetdə tələbələr təkcə elmlərə deyil, müxtəlif statuslu və rollu pillələrdə fəaliyyət göstərən texnologiyalara yiyələnməlidirlər ("mən bir sosioloq kimi", "mən bir menecer kimi", "mən bir vətəndaş kimi", "mən bir ailə adamı kimi","mən bir korporasiyanın üzvü kimi " və s.)[4].Dövlətimizin sosial-siyasi və iqtisadi həyatının intensiv surətdə yeniləşməsi ali təhsil sistemində genişmiqyaslı dəyişiklikləri şərtləndirdi. Ali məktəbdə mütəxəssisin sosiomədəni hazırlıq sisteminin modernləşdirilməsi təhsil prosesinin bütün komponentlərində həyata keçirilir: məqsəd və vəzifələrin dəyişdirilməsi; təhsilin məzmununun, metodlarının, vasitələrinin və formalarının yenilənməsi; bu prosesin səmərəliliyini qiymətləndirmək üçün yeni meyarların yaranması. Müasir ali məktəbin strateji vəzifələri tələbə gənclərin sosiallaşması, peşəkarlaşması və özünü reallaşdırmasıdır. Ali təhsilli mütəxəssis yalnız səlahiyyətli peşəkar işçi deyil, həm də yüksək təhsilli, mədəni, həyat strategiyaları və humanist dəyərlər sisteminə malik olan, həyat fəaliyyətinin müxtəlif sahələrində uğurla irəliləyən, baza, sosial-humanist və təbii-elmi biliklərə, sosial prosesləri, hadisələri qiymətləndirmək və təhlil etmək bacarığına, onların gələcəkdə inkişafını proqnozlaşdırmağa qadir olan bir insandır.

Universitet təhsilinin effektivliyi gələcək mütəxəssisin öz intellektual və mənəvi potensialını məharətlə aktuallaşdırmaq qabiliyyətində özünü göstərir. Sosial-humanitar biliyin mənimsənilməsi bütöv dünyagörüşünün, həyat fəaliyyəti təcrübəsinin inkişafını stimullaşdırır, yüksək sosial və peşəkar statusu saxlamağa imkan verir. Sosiomədəni bilik peşəkarın konstruktiv fəaliyyətinə təkan verir, sosial fəaliyyət imkanlarını genişləndirir.

Ali təhsil cəmiyyətin inkişafının zəruri şərtidir. Müasir təhsil gənclərin elmə gedən yoludur. Müasir ali təhsilin əsasını fundamental biliklər və ən yeni texnologiyalar təşkil edir. Tələbə gənclərində müasir insanın həyat fəaliyyətində onların əhəmiyyətini dərk etmək üçün müsbət motivasiyanın formalaşdırılması və bu motivlərin mənimsənilməsi təcrübəsi milli təhsil sisteminin başlıca vəzifəsidir. İnsan sivilizasiyası öz inkişafının yeni perspektivlərini axtarır[2].

Ədəbiyyat

1. Гришкова В.И. Университетское образование в современном мире. Современные проблемы науки и образования, 2009.
2. Довженко Л.П.. Современное университетское образование:проблемы и тенденции. Гуманитарный вестник, 2013.
3. Казаренкова Т.Б.. Современные проблемы университетского образования: социокультурный аспект, 2019.
4. Литвинов В.А., Павленко Т.А. Актуальные проблемы качества университетского образования, 2016.

РЕЗЮМЕ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ СОВЕРШЕНСТВОВАНИЯ УНИВЕРСИТЕТСКОГО ОБРАЗОВАНИЯ.

Алиева А.Ш., Гусейнова А.Э., Сеидова Г.М.

Ключевые слова: *университетское образование, учебные заведения, современные проблемы, специалисты, профессорско-преподавательский состав.*

В любом цивилизованном обществе всегда существует проблема: как эффективнее адаптировать основные представления современной науки тем социальным группам (в первую очередь аудиториям средней и высшей школы), для которых наука станет возможной профессией. Обсуждаются проблемы, с которыми столкнулся классический университет в характерных для современности условиях ломки устоявшихся культурных норм и традиций. Проблемы качества университетского образования все без исключения обсуждают на различных уровнях. Во-первых, нужно узнать, что имеется в виду под определением «качество образования». Возникает проблема: для чего так много, чему и как учить?

SUMMARY

ACTUAL PROBLEMS OF IMPROVING UNIVERSITY EDUCATION

Aliyeva A.Sh., Huseynova A.E. Seyidova G.M.

Keywords: *university education, educational institutions, modern problems, specialists, teaching staff*

In any civilized society there is always a problem: how to adapt the basic concepts of modern science more effectively to those social groups (primarily secondary and higher school audiences) for whom science will become a possible profession. The problems faced by the classical university in the conditions characteristic of modernity of breaking established cultural norms and traditions are discussed. The problems of the quality of university education, without exception, are rapidly being discussed in various degrees. First, you need to find out what is meant by the definition of "quality of education". The problem arises: why is there so much, what and how to teach?

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ EKOLOJİ MAARİFLƏNDİRMƏNİN PERSPEKTİVLƏRİ

[1]Əhmədova R.R., [2]Babayeva T.M., [1]Aşurova N.D.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan , 1-dosent, 2-a.e.f.d.

ahmedova.rahila@mail.ru ; nargiz.ashurova.1976@mail.ru ; tunzale.babayeva.84@mail.ru

Açar sözlər: *ekoloji təhsil, ekoloji tərbiyə, ekoloji maarifləndirmə, ətraf mühit, antropogen təsir.*

Tədris proqramlarının mərkəzində ekoloji tərbiyyənin durması vacibdir. Ekoloji tərbiyə antropogen faktorun ətraf mühitə, təbiətə münasibətinin vasitəsidir. Statistika göstərir ki, cəmiyyət ekoloji tərbiyə sahəsində az məlumatlıdır. Ətraf mühitin mühafizəsi sahəsində ictimaiyyət öz hüquqlarını çox bilmir[1].

Cəmiyyətdə ekoloji biliklərin və mütəxəssis kadrların peşə hazırlığını yüksəltmək üçün məktəbəqədər, məktəb, orta ixtisas və ali təhsilin bütün mərhələlərində mütəxəssislərin hazırlanması və

ixtisasların artırılmasını əhatə edən ekoloji tərbiyənin ardıcıllığı və fasiləsizliyi təmin edilməlidir. Ekoloji təhsil təbiətə qayğıkeş münasibətin tərbiyə olunması, onun sərvətindən səmərəli istifadə edilməsi məqsədilə ekoloji biliklərin və ekoloji mədəniyyətin təbliğ olunmasıdır [4]. Cəmiyyətin ekoloji təhsilinin əsas məqsədi ekoloji, mədəni şəxsiyyətin, yəni ekomərkəzi düşüncə prinsipinə tam inanan, təbiət hadisələrinin qarşılıqlı əlaqəsini dərindən başa düşən, öz ekoloji davranışına görə indiki və gələcək nəsillər qarşısında məsuliyyət hissinə malik olan və etdiyi bütün hərəkərlərin nəticəsini aydın dərk edən şəxsiyyətin təşəkkül tapmasından ibarətdir.Ekoloji maariflənmə ətraf mühitə təsir edən, eləcə də onu yaxşılaşdırmaq və qorumaq üçün edə biləcəyimiz tədbirlər haqqında məlumatı artırır. Ekoloji təhsilin gənclər, müəllimlər, məktəblilər üçün böyük faydaları var. Yaxşı olardı ki, Ekoloji təhsil təxəyyülü canlandıran və yaradıcılığı açan praktiki, interaktiv öyrənilsin. Ekoloji maariflənmə kurikuluma inteqrasiya olunduqda, tələbələr daha həvəsli öyrənmə ilə məşğul olurlar ki, bu da əsas akademik sahələrdə tələbə nailiyyətlərini artırır [2]. Ekoloji təhsili dərindən öyrənmək üçün auditoriyadan kənarda təcrübi öyrənmə imkanlarını həyata keçirtmək, həmçinin tələbələrə əlaqələr qurmağa və öyrəndiklərini tətbiq etməyə imkan verilməlidir. Ekoloji təhsil tələbələri tam mənzərəni başa düşmək üçün problemlərin müxtəlif tərəflərini araşdırmağa təşviq edir. Fərqli baxış nöqtələrinə və fərqli mədəniyyətlərə tolerantlığı təbliğ edir. Ekoloji maariflənmə tələbələrə ekoloji problemləri araşdırmaq, problemlərin həlli ilə məşğul olmaq və ətraf mühitin yaxşılaşdırılması üçün tədbirlər görmək imkanı verən bir prosesdir. Nəticədə tələbələr ekoloji problemləri daha dərindən dərk edir və məlumatlı və məsuliyyətli qərarlar qəbul etmək bacarıqlarına malik olurlar [3].

Məhz yuxarıda qeyd olunanları nəzərə alaraq Sumqayıt Dövlət Universitetində də ənənəvi olaraq ekoloji təbliğat və maarifləndirmə işi daim ön planda durur. O cümlədən, ekoloji təqvimdə olan ətraf mühitin mühafizəsi ilə bağlı əlamətdar günlər qeyd olunur. Xüsusi ilə elmi-praktik seminarlarda, dəyirmi masalarda, konfranslarda, müasir ekoloji probblemlər və onların həlli yolları öz əksini tapır. Belə ki, “Beynəlxalq Yer Kürəsi” günü, “Ekologiya” günü, “Ətraf mühitin mühafizəsi” günü və s. bu kimi ekoloji təqvim günləri qeyd olunur [6,7].

Bu cür silsilə tədbirlərin keçirilməsi ekoloji tədrislə yanaşı tələbələrə ətraf mühitin mühafizəsi sahəsində dərin bilik və bacarıqlarla yanaşı müasir ekoloji dünya görnüşünün formlaşmasına səbəb olur [5]. Həmçinin ali məktəblərdə ekoklubların yaradılması, ekoloji təlim-tərbiyə və metodik tövsiyələr və nümunəvi tədris proqramlarının sayı artmalıdır. Ekoloji tərbiyə pedaqoji proses olub yalnız ekoloji biliklərin təhlili üçün yox, həmçinin, onun hissələri ilə emosional sahəyə keçirilərək, onun ekoloji təhsilin dəyərlərinə ruhi hazırlığıdır.

Ədəbiyyat

1. Sadıqov A.S. Ətraf mühitin mühafizəsi. Bakı: Elm, 2007, 290s.
2. Əhmədova R.R., Hüseynova A.E. Ümumi ekologiya. Bakı: Elm, 2014, 320s.
3. Məmmədov R., Bəhərçi T., Mehdiyeva V. Qlobal problemlər və təbii mühit. Bakı: Maarif, 2006, 207s.
4. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanunu.
5. Snezana S.S Environmental education and upbringing / Journal of Environmental education and upbringing / 12(4):2341-2346 January 2011.
6. 23 may tarixini Ekologiya kafedrası “Ekologiya günü”nə həsr olunmuş Elmi praktik seminar keçirilmişdir.https://sdu.edu.az/az/news/1187
7. “Beynəlxalq Yer Kürəsi Günü” mövzusuna həsr olunmuş Elmi-praktik seminarın keçirilmişdir. https://sdu.edu.az/az/news/1138

РЕЗЮМЕ

ПЕРСПЕКТИВЫ ЭКОЛОГИЧЕСКОГО ПРОСВЕЩЕНИЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

Ахмедова Р.Р., Бабаева Т.М., Ашурова Н.Д.

Ключевые слова: *экологическое образование, экологическое воспитание, экологическое просвещение, окружающая среда, антропогенное воздействие.*

Известно, что экологическая ситуация окружающей среды часто меняется. И это неоспоримый факт. В то же время по мере изменения окружающей среды возрастает и потребность в большей осведомленности о проблемах и в знании факторов, вызывающих их возникновение. В настоящее время экологическими проблемами считаются тепловое воздействие, массовые природные катаклизмы, пластиковые отходы, уменьшение численности флоры и фауны, загрязнение подземных и поверхностных вод и т.д. Чтобы вовремя устранить экологические проблемы, надо проводить экологическое просвещение. В целях усиления популяризации экологического образования и воспитания необходимо увеличить количество центров экологического просвещения, отвечающих современным стандартам. Такие центры, в свою очередь, должны влиять на базовое экологическое воспитание как часть профессионального образования.

SUMMARY
PERSPECTIVES OF ENVIRONMENTAL EDUCATION IN HIGHER EDUCATIONAL INSTITUTIONS
Akhmedova R.R., Babaeva T.M., Ashurova N.D.

Keywords: *environmental education, environmental education, environmental awareness, environment, anthropogenic impact.*

It is known that the ecological situation of the environment is constantly changing. This fact is undeniable. At the same time, as the environment changes, the need to be more aware of problems and to know the factors that cause them to arise also increases. In modern times, heat effect, massive natural disasters, plastic waste, decrease in the number of flora and fauna, pollution of underground and surface water, etc. are considered environmental problems. It is necessary to carry out environmental education in order to eliminate environmental problems in time. In order to strengthen the promotion of environmental education and upbringing, the number of environmental awareness centers should increase and they should meet modern standards. Such centers, in turn, should influence basic environmental education as part of professional education.

KADR HAZIRLIĞINDA KİMYAÇI TƏLƏBƏLƏRDƏ YUMŞAQ BACARIQLARIN FORMALAŞDIRILMASI

[1]Quliyeva G.N, [2]Abdullayeva H.B.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, 1-dosent, 2-ass.
q.gulzar@mail.ru

Açar sözlər: *kadr hazırlığı, kimyaçı, tələbə, yumşaq bacarıqlar, sərt bacarıqlar*

Hazırda əmək bazarında kommunikativ bacarıqlara malik şəxslərə yüksək tələbat var. Bu bacarıqlar mütəxəssisi işəgötürən zaman tələb oluunan yumşaq bacarıqların müəyyən qismidir. Soft skils (yumşaq bacarıqlar) nədir və onlar niyə bu qədər vacibdir?

Yumşaq bacarıqlar iş yerində uğur əldə etmək üçün tələb olunan şəxsiyyətlərarası keyfiyyətlərdir. Bu digər insanlarla komanda və ya qrup daxilində işləyə bilmək və onlarla ünsiyyət qurmaq kimi davranış bacarıqlarıdır. Çünki bu bacarıqlar, yəni yumşaq bacarıqlar başqaları ilə yaxşı işləməyə və komanda məqsədlərinə çatmağa kömək edir. Hətta texniki iş də yumşaq bacarıqlar tələb etdiyindən, işəgötürənlər bu qabiliyyətlərə malik olan işçiləri işə götürmək və irəli çəkməkdə xüsusilə maraqlıdırlar.



Yumşaq bacarıqlar iş yerində uyğunlaşmağa imkan verən bacarıqlardır. Bunlara iş yoldaşlarınınza münasibətiniz, çevikliyiniz, motivasiyanız və davranışlarınız daxildir. Yumşaq bacarıqlar o qədər vacibdir ki, işəgötürənlər bu xüsusiyyətlərə malik işçini tez-tez saxlamaq və ya yüksəltmək barədə qərar verirlər.

Ymşaq bacarıqlar birbaşa müraciət etdiyiniz işə aid olan sərt bacarıqlardan (texniki bacarıqlar kimi də tanınır) fərqlidir. Sərt bacarıqlar yumşaq bacarıqlardan daha çox ölçülə biləndir və onu məyyən etmək daha asandır.İşəgötürənlər başqaları ilə effektiv qarşılıqlı əlaqə qura bilən işçilər istəyirlər. Bu bacarıqları öyrətmək də çox çətindir, buna görə də işəgötürənlər bilmək istəyirlər ki, işə namizədlər uğurlu olmaq üçün ehtiyac duyacaqları şəxsiyyətlərarası bacarıqlara artıq malikdirlər.

İşəgötürənlərin maraqlandığı ən vacib şəxsiyyətlərarası bacarıqların siyahısına daxildir:

Ünsiyyət. Siz nə dərəcədə yaxşı ünsiyyət qurursunuz? Ünsiyyət bacarıqları demək olar ki, hər bir işdə vacibdir. Çox güman ki, həmkarlar, işəgötürənlər və ya təchizatçılar olsun, iş yerində olan insanlarla qarşılıqlı əlaqə saxlamalı olacaqsınız. Siz həmçinin insanlarla şəxsən, telefonla və yazılı şəkildə aydın və nəzakətli danışa bilməlisiniz.

Siz həm də yaxşı dinləyici olmalısınız. İşəgötürənlər öz fikirlərini ifadə edə bilən, həm də başqalarını empatiya ilə dinləyə bilən işçilərə ehtiyac duyurlar [1]. Dinləmək xüsusilə vacib bir bacarıqdır.

Bədən dilini oxumaq, hesabatların və təkliflərin yazılması, yeni ideyaların və layihələrin təklif edilməsi, yazı bacarıqları, tənqidi düşüncə, kollektivə uyğunlaşma qabiliyyəti, bədii qabiliyyət, yaradıcılıq, tənqidi müşahidə, dizayn bacarığı, öyrənmək istəyi, yenilik, məntiqi düşüncə, problemlərin çevik həlli bacarığı, tədqiqat bacarığı, dəyişikliyə və qeyri-müəyyənliyə dözümlülük və s. də bu bacarıqlar siyahısına daxildir. İş nə olursa olsun, işəgötürənlər vəziyyətləri təhlil edə bilən və əsaslandırılmış qərarlar qəbul edə bilən namizədlər istəyirlər. İstər məlumatlarla işləyirsiniz, istər tələbələrə dərs deyirsiniz, istərsə də evin istilik sistemini təmir edirsinizsə, siz problemləri başa düşməyi, tənqidi düşünməyi və həll yollarını tapmağı bacarmalısınız [2]. Əgər irəliləmə potensialı olan bir iş üçün müsahibə verirsinizsə, işəgötürən lider olmaq üçün lazım olan hər şeyə sahib olduğunuzu bilmək istəyəcək.

Liderliklə əlaqəli digər bacarıqlara insanlar arasında problemləri və münaqişələri həll etmək və icra qərarları vermək bacarığı daxildir.

Liderlik bacarıqlarına yiyələnmək üçün həm də rəhbərlik, mübahisələrin həlli, insanlarla xoş davranış, çətin söhbətlərin aparılması, görüşlərin keçirilməsi, mentorluq, motivasiya, layihənin idarə olunması, problemlərin həlli, nəzarət, istedadın idarə edilməsi, kollektiv üzvlərinə müsbət münasibət və s. kimi bacarıqlara da sahib olmaq vacibdir [3,4]. Eləcə də dinamik və stressli bir iş mühitində işlədikdə yenə də müsbət münasibət saxlamaq xüsusilə vacibdir.



Tədqiqatçı kimyaçılar isə kimyəvi birləşmələrin formullarının araşdırılması, yenilərinin yaradılması istiqamətində öyrəniməklə ixtisaslaşan peşəkarlardır. Onlar tibbi dərmanlar, içkilər, qidalar, kosmetika və

bəzi hallarda elektrik məhsulları üçün də formullar yaratdır və onların xüsusiyyətlətini izah edirlər. Tədqiqatçı kimyaçının işi kimyəvi nümunələri toplamaq, analiz və təhlil etməklə yanaşı həm də yeni anlayışlar, terminlər yaratmaqdır. Onlar tədqiqat məlumatlarından yeni nəzəriyyələr hazırlamaq, nəticələri qeyd etmək və mövcud məhsulları təkmilləşdirmək üçün istifadə edirlər. Ona görə də kimyaçı tələbələr laboratoriyalarda nümunə məhsullardakı kimyəvi birləşmələrin nəzəriyyəsini geniş şəkildə öyrənmək və təkmilləşdirmək üçün qruplar şəklində və ya təkbaşına işləyə bilərlər.

Gələcək tədqiqat kimyaçılar tələbə dövründə də yeni məhsullarla araşdırma və təcrübələr aparmalıdırlar. Onlar ilk növbədə dərslərdə laboratoriya şəraitində mövcud məhsulları kimyəvi cəhətdən öyrənmək üçün araşdırma aparırlar. Tələbələr həmçinin məhsulun tərkibini müəyyən etməklə bərabər, tədqiq etdikləri məhsulun istifadəçilərin sağlamlığına təsirlərini araşdıra bilərlər. Bu məqsədlə onlar laboratoriya şəraitində müəyyən kimyəvi reaksiyaları yerinə yetirə bilər.

Tədqiqatçı kimyaçılar kimyəvi nümunələri təhlil edir, testlər aparır və müxtəlif məhsullar haqqında fərziyyələr irəli sürürlər. Aşkar etdikləri tədqiqat nəticələri digər kimyaçılara yeni dərmanlar yaratmağa, məhsul innovasiyalarına səbəb olmağa və mövcud materialları təkmilləşdirməyə kömək edə bilər. Ona görə də bu bacarıqları mənimsəmək və inkişaf etdirmək üçün gələcək kimyaçılar laboratoriya şəraitində bu qəbildən olan təcrübi işləri yerinə yetirməli və sərişta qazanmalıdırlar. Sadalanan bacarıqlar kimyaçı tələbənin təlim prosesində qazanmalı olduğu yumşaq bacarıqlardır. Bu bacarıqlara yiyələnən gələcək mütəxəssislər eksperimental məlumatları idarə və qeyd etmək üçün tək və ya komanda şəklində işləyə bilərlər. Beləliklə, tədqiqat kimyaçının iş zamanı yerinə yetirə biləcəyi digər vəzifələrə aşağıdakılar daxildir:

Laboratoriya avadanlıqları ilə işləmək bacarıqları. Tədqiqatçı kimyaçılar öyrəndikləri metodları tətbiq olunan proseslərə necə uyğunlaşdıracaqlarını başa düşürlər, həm də laboratoriya avadanlıqlarını idarə etmək üçün istifadə edə bilərlər. Onlar nəinki əksər laboratoriya avadanlıqlarını özləri idarə edə bilirlər, həm də bu prinsipləri başqalarına necə öyrətməyi də başa düşürlər. Həmçinin laboratoriya avadanlığının necə işlədilməsi və saxlanması, o cümlədən ehtiyac olduqda ehtiyat hissələrin təmizlənməsi və alınmasını öyrənmiş olurlar.. Tədqiqatçı kimyaçılar digər kimyaçılara laboratoriya və avadanlığın istifadəsi üzrə praktiki təlim keçə bilərlər.

Analitik bacarıqlar. Analitik bacarıqlar tədqiqatçı kimyaçıların maddənin kimyəvi və ya fiziki cəhətdən təyin etmək üçün istifadə etdikləri üsullardır. Tədqiqatçı kimyaçılar hər hansı iki kimyəvi maddə arasındakı əlaqəni necə təhlil edəcəyini də başa düşürlər. Həmçinin kimyaçılar bir dərmanın digər dərmana düzgün reaksiya verib-vermədiyini və ya digər kontekstual vəziyyətlərdə, məsələn, avtomobil mühərrikindəki kimyəvi maddələri qiymətləndirmək üçün analitik bacarıqlarından istifadə edə bilərlər.

Kimyaçı üçün lazım olan yumşaq bacarıqlar geniş miqyaslıdır və onların mütəmadi olaraq təlim prosesində tətbiqi və praktiki cəhətdən inkişaı gələcək mütəxəssislərin iş prosesində özlərini yüksək keyfiyyətli kadr kimi göstərməsinə kömək edir.

Ədəbiyyat

1. https://cyberleninka.ru/article/n/ponyatie-myagkie-navyki-kak-pedagogicheskaya-kategoriya-suschnost-i-soderzhanie
2. https://eto.kai.ru/files/2015/07/s_skills1D.pdf
3. https://vestnik-pp.samgtu.ru/1991-8569/article/view/52399/35852
4. Роль «мягких» навыков в современной профессиональной деятельности. Вестник Самарского государственного технического университета. Серия: Психолого-педагогические науки. Т.16, № 4 (2019), с. 150- 165

РЕЗЮМЕ

ФОРМИРОВАНИЕ МЯГКИХ НАВЫКОВ У СТУДЕНТОВ-ХИМИКОВ В ПРОЦЕССЕ ИХ КАДРОВОЙ ПОДГОТОВКИ

Гулиева Г.Н, Абдуллаева Х.В.

Ключевые слова: *подготовка кадров, химик, студент, мягкие навыки, жесткие навыки*

В статье рассматривается целесообразность приобретения навыков и творческих качеств, необходимых персоналу на современном рынке труда, в период обучения студентов. Отмечено, что мягкие навыки важны на рынке труда. В частности, soft skills — это межличностные качества, необходимые для успеха на рабочем месте. Эти навыки также являются поведенческими навыками, такими как способность работать и общаться с людьми в команде или группе. Это также подчеркивает важность социальных навыков, необходимых для студентов-химиков.

SUMMARY

FORMATION OF SOFT SKILLS AMONG CHEMISTRY STUDENTS IN THE PROCESS OF THEIR PERSONNEL TRAINING

Guliyeva G.N., Abdullayeva H.B.

***Key words**: staff training, chemist, student, soft skils, hard skils*
In the article, the expediency of acquiring the skills and creative qualities needed by personnel in the modern labor market during the period of education of students is considered. In particular, soft skills are interpersonal qualities required for success in the workplace. These skills are also behavioral skills such as being able to work and communicate with people in a team or group. It also highlights the importance of soft skills needed for chemistry students.

POSTPANDEMİYA DÖVRÜNDƏ ALİ TƏHSİLDƏ YENİ YANAŞMALAR

Cəfərov P.T.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
parvizjafarov5@gmail.com

***Açar sözlər:** inteqrasiya, pandemiya, onlayn təhsil, internet, kompüter, virtual reallıq*

Cəmiyyətdə baş verən proseslərin mahiyyətini özündə əks etdirən, onun inkişafına fəal təsir göstərən təhsil sahəsi daim cəmiyyətin, xalqın inkişafının əsas şərti sayılmışdır.

İnkişaf etmiş ölkələrin təhsil sisteminə asanlıqla inteqrasiya oluna bilən, yeni məzmuna malik təhsil sisteminin yaradılması daim müstəqil dövlətimizin qarşısında duran strateji əhəmiyyətli məsələlərdən biri olmuşdur.

Təhsil sisteminin modernləşdirilməsi Azərbaycanda yeni ali təhsil sistemi şəbəkəsinin qurulması zərurəti yaratmışdı. 1992-ci il dekabrın 16-da təsdiq olunmuş Təhsil Qanunun 13-cü maddəsinin 1-ci bəndində bu məsələ belə qeyd olunmuşdu: "Azərbaycan Respublikasında dövlət və qeyri-dövlət, pulsuz və pullu təhsil müəssisələri fəaliyyət göstərir" [1].

Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin işləyib hazırladığı və uğurla həyata keçirdiyi müstəqil dövlət quruculuğu strategiyasında belə bir ideya ön plana çəkilmişdir ki, müstəqilliyin əbədiliyinin və dönməzliyinin, cəmiyyətin sivil, demokratik inkişafının magistral yolu yalnız təhsildən keçir [2, s. 13].

Azərbaycan Respublikasının "Təhsil haqqında" 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanununu ilə vahid qanunvericilik bazasının yaradılması, təhsil müəssisələrinin hüquqi statusunun dəqiq müəyyən edilməsi, ali təhsilimizin Bolonya prosesinə qoşulması və ali təhsil müəssisələrimizin bu prosesin tələblərinə uyğunlaşdırılması məsələləri tənzimləndi.

Prezident İlham Əliyev Azərbaycanda milli təhsilin inkişafına dair dünya mahiyyətli, iri miqyaslı islahatlar həyata keçirir, dünya təhsil məkanına inteqrasiya etmək üçün proqramların həllinə uğurlu istiqamət verir. [3, 127 s.]

Respublikamızda təhsil sahəsində həyata keçirilən köklü islahatlar, yeni yanaşmalar bu sistemin inkişaf edən cəmiyət maraqlarına cavab verməsinə şərait yaratdı. Lakin müasir dövrün hər gün dəyişən yeni dinamikası həm də təhsil qarşısında yeni tələblər qoyur ki, bu da təhsilimizin daha da adekvat yönümlü reaksiya qabiliyyətliliyinə səbəb olmuşdur.

Xüsusilə pandemiya dövründə respublikamızın təhsil sistemi öz rəqabətə davamlılığını bir daha göstərdi. Amma eyni zamanda pandemiya dövrünün bəzi gerçəklikləri də var ki, təhsilimizin yeni yaranan bu reallıqdan bəzi nəticələri hasil etməsi məqsədəuyğundur. Hal-hazırda postpandemiya dövrünə qədəm qoysaq da sürətlə dəyişən dünya reallıqlarının bizə hansı "yenilikləri" təqdim edəcəyi sual altındadır. Məhz buna görə də pandemiya dövründə milli təhsil sistemimizdə az da olsa yaranan boşluqlar postpandemiya dövründə nəzərdən keçirilməli və onlar yetərincə doldurulmalıdır.

Onlayn təhsilin pedaqogikasının olmaması bəhs etdiyimiz dövrdə bu sahədə görünən ən böyük problemlərdən biridir. Bildiyimiz kimi ənənəvi təhsilin pedaqogikası və psixologiyası yetərincə araşdırılmışdır. Lakin bu araşdırmaların və onların nəticələrinin onlayn təhsilə olduğu kimi tətbiq edilməsi, onlayn təhsil zamanı əldə olunan nəticələrin effektivliyini azalda bilər ki, bu da onlayn təhsildə məxsusi yanaşmanın olmasını tələb edir.

Təbii ki, ötürülən biliyin qəbul edən üçün anlaşılan olması pedaqogikanın əsas funksiyalarından biridir. Bu funksiyanın nə dərəcədə işlək olduğunu görmək üçün imtahan və test kimi qiymətləndirmə üsullarından istifadə edilir. Lakin onlayn təhsili zamanı məsələnin mahiyyəti bir qədər dəyişir. Belə ki, onlayn təhsil zamanı internetin və kompüter texnologiyalarının tədris prosesinə tətbiq və təsir imkanları daha da genişlənir. Onlayn təhsil zamanı biliyin ötürülməsi üçün yeni kommunikativ imkanlar yaranır, zaman və məkan kimi məhdudiyyətlər aradan qaldırılır, real biliklər insanlara informasiyanın audiovizuallaşdırılması və virtual reallığın unikal imkanları ilə çatdırılır.

Bütün bunları nəzərə alaraq gələcəkdə dünya səviyyəsində baş verə biləcək hər hansı siyasi, iqtisadi, hərbi və bioloji kataklizmlərin nəticələrinin təhsil sektoruna təsirinin minimuma endirilməsi üçün respublikamızda onlayn təhsil strategiyası daha dəqiq və hərtərəfli işlənilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, İ"Öyrətmən", 1993.
2. Mərdanov M.C. Azərbaycan təhsili islahatı yollarında: uğurlar, problemlər, vəzifələr... Bakı – 2001,
3. Səmədov A. Ümümilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Dərs vəsaiti. Gəncə, 2010. 498 s.

РЕЗЮМЕ

НОВЫЕ ПОДХОДЫ В ВЫСШЕМ ОБРАЗОВАНИИ В ПОСТПАНДЕМИЧЕСКИЙ ПЕРИОД

Джафаров П.Т

Ключевые слова: *интеграция, пандемия, онлайн-образование, интернет, компьютер, виртуальная реальность*

Модернизация системы образования создала необходимость создания новой сети системы высшего образования в Азербайджане. Радикальные реформы и новые подходы в сфере образования создали условия для того, чтобы эта система отвечала интересам развивающегося общества. Особенно в период пандемии система образования нашей республики в очередной раз показала свою конкурентоспособность. Отсутствие онлайн-образования оказалось одной из самых больших проблем в области педагогики в рассматриваемый нами период, потому что в процессе онлайн-образования создаются новые коммуникативные возможности для передачи знаний.

SUMMARY

NEW APPROACHES IN HIGHER EDUCATION IN THE POST-PANDEMIC PERIOD

Jafarov P.T.

Key words: *integration, pandemic, online education, internet, computer, virtual reality*

Modernization of the education system has created the need to establish a new higher education system network in Azerbaijan. Radical reforms and new approaches implemented in the field of education created conditions for this system to respond to the interests of the developing society. Especially during the pandemic, the education system of our republic has once again shown its competitiveness. The lack of pedagogy of online education appeared as one of the biggest problems in this field in the period we are talking about, because new communicative opportunities for the transfer of knowledge are created during online education.

AZƏRBAYCANDA ALİ TƏHSİL SİSTEMİ VƏ SOSİAL HƏYATDA ALİ TƏHSİLİN ROLU

Əhmədova N.M., Vəlizadə Ü.A.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

nermin.ahmedova@bk.ru

Açar sözlər*: *sosial inkişaf, insan kapitalı, Azərbaycan təhsil sistemi, Bolonya prosesi, ali təhsil

Ali təhsil insanların mükəmməl bilik və bacarıqlar qazanaraq cəmiyyətdə özünə yer tapmasında əhəmiyyətli vasitələrdən biridir. İnsan kapitalını cəmiyyətə təqdim etmək funksiyasını həyata keçirən ali məktəb sistemi sosial rifahı yüksəltməklə fərdlərin gəlirini artırır. İnsanların məşğulluq imkanlarının daha yaxşı təmin olunmasında ali təhsilin xüsusi önəmi var. Göründüyü kimi ali təhsilin cəmiyyətə bəxş etdiyi dəyərlər ona marağı yüksəldir və demək olar ki, bütün dünya ölkələrində ali təhsilə olan tələbat sürətlə artır.

Tədqiqatlar göstərir ki, universitetlər əvəzedilməz əhəmiyyəti olan bir qurumdur. Onun fəaliyyətinin nəticəsi kimi mədəni kimliyin formalaşması, cəmiyyətin bütövlüyünün təmin edilməsi, sosial inkişaf, iqtisadi artım, yoxsulluqla mübarizə kimi məsələlər öz həllini tapır.

Azərbaycan Respublikası 70 il SSRİ adlanan bir sistemin daxilində inkişaf etmiş, müstəqil olmasa da böyük inkişaf yolu keçmişdir. Bu dövrdə elmin bir sıra istiqamətləri üzrə nailiyyətlər əldə edilmişdir. Müstəqillik əldə edildikdən sonra iqtisadi sahədə baş verən köklü dəyişikliklər, ali təhsil sistemi qarşısında da yeni tələblər qoydu. Belə ki, Azərbaycan təhsil sistemi mütərəqqi milli xüsusiyyətlər gözlənilməklə beynəlxalq standartlara uyğun olaraq Avropa təhsil məkanına inteqrasiyanı təmin etməli idi. Bu məqsədlə 1998-ci ildə "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncam imzalamış, 1999-cu ildə isə dövlət komissiyasının hazırladığı islahat proqramı təsdiq edilmişdir. Qəbul edilən islahat proqramlarının həyata keçirilməsi nəticəsində ali təhsil sahəsində bir sıra struktur dəyişikliklər həyata keçirilmiş, mütəxəssis hazırlığının strukturuna yeni ixtisaslar daxil edilmişdir. Artıq ölkəmiz Avropa təhsil məkanına inteqrasiya etmiş, Bolonya prosesinin prinsiplərinə uyğun ali təhsil sistemi formalaşdırmışdır. Bu istiqamətdə aparılan mühüm addımlardan biri kimi Prezident İlham Əliyevin irəli sürdüyü neft kapitalının insan kapitalına çevrilməsi konsepsiyası çərçivəsində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul edilməsidir. [2]

Ölkəmizin iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla maliyyə vəsaitlərinin ayrılması, bakalavriat, magistratura, rezidentura, doktorantura pillələri ilə yanaşı ixtisasartırma və yenidən hazırlanma təhsili üzrə hökumətlərarası müqavilələr və ali təhsil müəssisələri arasında beynəlxalq tələbə mübadiləsi əsasında mütəxəssis hazırlığı həyata keçirilmişdir. Artıq bu sahədə aparılan məqsədyönlü tədbirlər öz bəhrəsini vermişdir. Təhsilini başa vurmuş gənclərin böyük əksəriyyəti geriyə qayıdaraq respublikamızın gələcək inkişafına, əsasən də ali təhsilin inkişafına əhəmiyyətli dərəcədə təsir etməyə başlamışdır.

Müasir dövrdə dünya təsərrüfat sisteminə inteqrasiya davamlı inkişafın təmin olunmasının əsas göstəricisidir. Bunun üçün ilkin olaraq ölkədə intellektual potensialın formalaşdırılması zəruri hesab olunur. Aydın məsələdir ki, elm və təhsilin yüksək inkişafı intelektual potensialı formalaşdırır. Ölkəmizdə aparılan təhsil islahatları təhsilin inkişafına əhəmiyyətli dərəcədə təsir etsə də dövrün tələbinə - intellektual potensialın formalaşdırılmasına geniş imkan yarada bilmir. Bu isə təhsildə, xüsusilə ali təhsil sistemində dəyişikliklərin aparılmasını tələb edir. Ölkəmizin qloballaşan dünyaya inteqrasiyasını təmin etmək üçün ali təhsil müəssələri düzgün və məqsədyönlü kadr siyasəti həyata keçirməlidir. [4]

Hazırda ölkəmizdə insan kapitalının yaradılması prioritet məsələ kimi diqqət mərkəzindədir. Dünyada insan kapitalı ən çox gəlir gətirən investisiyadır. Qeyd etməliyik ki, ölkəmizdə ixtisaslı kadr hazırlığı və hazırlanan kadrların keyfiyyəti əmək bazarının tələbi səviyyəsində deyildir.

İnsan cəmiyyətin başlıca məhsuldar qüvvəsi kimi həmişə yeniliyə, təkmilləşməyə və daha yüksək nəticə əldə etməyə cəhd edir. Aydındır ki, insanın intelektual potensialı artdıqca onun gəliri artır və buna müvafiq olaraq həyat səviyyəsi yüksəlir. Mükəmməl təhsil sisteminə malik olan ABŞ-da təhsil müəssələri ölkəyə böyük gəlir verir. Bu yolla ölkədə təhsil alan əcnəbi tələbələr hesabına dövlətə milyard dollarlarla gəlir daxil olur. [3]

Dünya iqtisadiyyatında gedən inkişaf proseslərinin təhlili göstərir ki, son onilliklərdə kapital və əmək ehtiyatlarının intelektual potensialı zəif inkişaf etmiş ölkələrdən yüksək inkişaf etmiş ölkələrə yönəlmişdir. Hazırda dünyada iqtisadi artımın əsasən insan kapitalı əsasında baş verdiyi qeyd olunur. Belə ki, 192 ölkədə Dünya Bankının təhlili əsasında müəyyən edilmişdir ki, "planetimizdə iqtisadi artımın 16%-i fiziki kapital, 20%-i təbii resurslar, 64%-i isə insan kapitalı hesabına baş verir". Deməli zamanın tələbinə cavab verən ixtisaslı kadrların hazırlanması sosial-iqtisadi inkişafda prioritet məsələ kimi qəbul edilməlidir. [1]

Araşdırmalar göstərir ki, dövlət ali məktəblərinin buraxdığı mütəxəssislər içərisində humanitar və sosial istiqamətlər, maarif, iqtisadiyyat və idarəetmə istiqamətləri yüksəkdir, 89% təşkil edir. Lakin təbiət elmləri, təbiət-texniki, ekologiya və təbiətdən istifadə istiqamətləri 11% pay göstəricisinə malikdir. Demək olar ki, müasir dövrdə ölkəmizin ali məktəbləri ictimai və humanitar elmlər üzrə ixtisaslaşmış, mühəndis-texniki ixtisaslarda kadrlar kəskin azalma yaranmışdır. Keçid dövründə sənaye obyektlərinin böhranlı vəziyyəti, sənaye sektorunda iş yerlərinin azalması, işsizlik problemi bu sahədə kadr hazırlığına mənfi təsir göstərmişdir. Amerika təhsil sisteminin təcürbəsi göstərir ki, dəqiq və təbiət elmlərinin inkişafı təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynamışdır. [5]

Müasir dövrdə inkişaf etmiş ölkələrdə ali təhsilin sosial funksiyalarında əsaslı dəyişikliklər özünü göstərir. Ali təhsil peşə və sosial karyerada yüksək nəticələr əldə etmək üçün zəruri hesab edilir. Eyni zamanda yüksək nüfuz dairələrinə keçid də ali təhsili tələb edir.

Ölkəmizdə ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsi istiqamətində geniş imkanlar yaranmışdır. Ali təhsil müəssisələrinin idarə edilməsində səmərəli yolların müəyyən edilməsi, əlavə təhsil imkanlarının yaradılması, beynəlmiləlləşmələrinin genişləndirilməsi, ümumiyyətlə cəmiyyətdə təhsil-tədqiqat-innovasiya mərkəzləri kimi rolunun gücləndirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir.

Ədəbiyyat

1. Ənvər Abbasov Ə.M. İnkişaf etmiş xarici ölkələrdə təhsil. Bakı: Elm və təhsil, 2020, 108 s.
2. Mahmudov M.C. Dünya təhsil sistemləri. Monoqrafiya. – Bakı: Mütərcim, 2014. – 480 s.
3. https://www.yeniazerbaycan.com/Elm_e10820_az.html
4. https://www.azerbaijan-news.az/az/posts/detail/ugurlu-tehsil-strategiyasinin-muellifi-1651963329
5. https://president.az/az/articles/view/9779

РЕЗЮМЕ

СИСТЕМА ВЫСШЕГО ОБРАВАНИЯ В АЗЕРБАЙДЖАНЕ И ЕЁ РОЛЬ В СОЦИАЛЬНОЙ ЖИЗНИ

Ахмедова Н.М., Вализаде У.А

Ключевые слова: *социальное развитие, человеческий капитал, система образования Азербайджана, Балонский процесс, высшее оброзавание*

В статье отмечается особая важность высшего оброзавания в обеспечении лучших возможностей трудоустройства людей. Ценности, которые высшее образование дает обществу, показывают стремительный рост спроса на него во всех странах мира. В статье отражены вопросы интеграции Азербайджанской системы оброзования в европейское образовательное пронстраство и экономический рост в мире, основанный на человеческом капитале. Среди специалистов, оканчивших наши вузы, проанализированы причины высокой доли гуманитарно-социальных направлений, образования, экономики и управления и низкой доли естественно-научного, естественно-технического, экологического и природопользовательного направлений.

SUMMARY
THE SYSTEM OF HIGHER EDUCATION IN AZERBAIJAN AND THE ROLE OF HIGHER EDUCATION IN SOCIAL LIFE
Ahmadova N.M., Valizade U.A.

Key words**:** *social development, human capital, education system of Azerbaijan, Balon process, higher education*
The article mentions the special importance of higher education in providing better employment opportunities for people. The values that higher education brings to society show the rapid growth in demand for higher education in all countries of the world. В статье отражены вопросы интеграции Азербайджанской системы оброзования в европейское образовательное пронстраство и экономический рост в мире, основанный на человеческом капитале. Among the specialists who graduated from our universities, analyze the reasons for the high share of humanitarian and social areas, education, economics and management and the low share of natural science, natural technology, environmental and nature management areas.

ƏNƏNƏVİ VƏ MÜASİR TƏHSİL PARADİQMALARI

Cəfərova S.N.
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
sabina_16_86@mail.ru

Açar sözləri: *təhsil, paradiqma, elm, ənənəvilik, müasir, şəxsiyyət*

Paradiqma elmdə müəyyən tarixi dövr ərzində üstünlük təşkil edən ilkin konseptual sxem, problemlərin qoyulması və onların həlli modeli, tədqiqat metodlarıdır. Bu, onun orijinal və klassik anlayışıdır. "Paradiqma" termini yunan dilindən tərcümədə nümunə anlamını verir. Paradiqma reallığın ən mühüm xüsusiyyətlərini özündə ehtiva edir ki, bu da anlayışlar sistemində təcəssüm olunmuş ciddi elmi nəzəriyyə deməkdir. Digər mənada isə paradiqma təlim prosesində problemlərin qoyulması və müəyyən müddət ərzində onların həlli istiqamətində ümumi qəbul edilmiş elmi nailiyyətləri xarakterizə etmək üçün istifadə olunur. Məhz bu mənada paradiqmalardan pedaqoji nəzəriyyədə təhsilin konseptual modellərini təyin etmək üçün istifadə olunur.

Tarixə nəzər yetirsək cəmiyyətdə və ənun ən mühüm sahəsi təhsil sahəsində müxtəlif paradiqmalar mövcud olmuşdur. Professor Abdulla Mehrabova görə XX əsrin sonları və XXI əsrin əvvəllərinədək cəmiyyətdə dominant rol oynayan ənənəvi təhsil sistemində təhsilalanlara bir obyekt kimi yanaşılıb, təhsildə avtoritar idarəetmə üsullarına üstünlük verilmişdir [3]. Məhz bu səbəbdən demək olar ki, təhsilin də müəyyən paradiqmaları var idi. Müasir paradiqmalara keçməzdən öncə təhsil tarixində zamanı ilə müəyyən rola malik olan bu paradiqmalar haqqında məlumat vermək istərdik:

1) biliyə əsaslanan ənənəvi (bilik paradiqması);
2) Biheviorestik - rasionalist (davranışçı paradiqma);
3) Humanist paradiqma;
4) humanitar paradiqma;

1. Biliyə əsaslanan ənənəvi paradiqma. Bilik paradiqmasının əsas məqsədi bəşər sivilizasiyasının mədəni irsinin ən vacib elementlərini və onun təcrübəsini gənc nəslə ötürməkdən ibarətdir. Bu paradiqma zamanın sınağından çıxmış bilik, bacarıq və vərdişlərin, o cümlədən həm fərdi inkişafa, həm də sosial nizamın qorunmasına töhfə verən mənəvi ideallar və dəyərlər əsasında həyata keçirilirdi. Ənənəvi paradiqmalar tələbələrin funksional savadlılığını, onların sosiallaşmasını təmin etmək məqsədi daşıyırdı.

Bundan başqa A.Mehrabova görə ənənəvi təhsil paradiqmasında təhsilanlara obyekt kimi yanaşılır və bütün şagirdlərin səviyyəsi eyni göstərilir ki, bu onlarda istedadın, qabiliyyətin inkişafına mane olur və bunun üçün şərait yaratmır. Bundan əlavə təhsilalanların dərslərdə seçim hüququ reallaşdırılmır, əksinə məhdudlaşdırılır.

2. Biheviorestik-rasionalist paradiqması, ilk növbədə, bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və gənc nəslin mövcud cəmiyyətin konkret şəraitinə təcrübi uyğunlaşmasını təmin etməyi nəzərdə tuturdu. Bu paradiqmanın əsas termini belədir: “Məktəb bir fabrikdir ki, onun şagirdləri isə “xammal”dır.

Biheviorestik-rasionalist paradiqma B.Skinnerin sosial mühəndislik konsepsiyasına əsaslanır, bu səbəbdən məktəblərdə əsas məqsəd şagirdlərin Qərb mədəniyyətinin sosial normalarına, tələblərinə və gözləntilərinə uyğun gələn adaptiv "davranış repertuarı" formalaşdırmaqdan ibarətdir. Belə təlimin əsas üsulları tədris, təlim, test nəzarəti, fərdi təlim və uyğunlaşdırmadır.

Qeyd etmək lazımdır ki, istər ənənəvi, istərsə də rasionalist təlim modellərinin dezavantajı onların zəif humanist yönümlü olmasıdır.

3. Təhsilin humanist paradiqması həm müəllimi, həm də şagirdi təhsil prosesinin bərabərhüquqlu subyektləri hesab edir. Bu paradiqmanın əsas məqsədi şagirdlərin fərdi psixoloji xüsusiyyətlərini nəzərə alaraq, onların inkişafına və özünü inkişaf etdirməsinə şərait yaratmaq, öz təbii potensiallarını və özünü həyata keçirmək üçün seçim azadlığını təmin etməkdən ibarətdir. Humanist paradiqma həm şagirdlər, həm də müəllimlər üçün azadlıq və yaradıcı axtarışları nəzərdə tutur. O, fərdin yaradıcı, mənəvi inkişafına, şəxsiyyətlərarası ünsiyyətə, dialoqa, insanın özünü tərbiyəsində, təkmilləşdirməsində kömək və dəstəyə yönəlmişdir.

4. Humanitar təhsil paradiqması. İ.A. Koesnikova görə onun mərkəzi hazır biliyə yiyələnən şagird deyil, həqiqəti öyrənən insan dayanır. Amma birmənalı həqiqət olmadığına görə vacib olan həqiqətin özü deyil, ona olan münasibətdir. Eyni zamanda, pedaqoji prosesin iştirakçıları arasında münasibətlər, əməkdaşlıq, birgə yaradıcılıq, dialoq, fikir mübadiləsi və öz mövqeyini sərbəst seçmək, mənəvi dəyərlərin mübadiləsi yolu ilə ətraf aləmi dərk etmək kimi qarşılıqlı prinsiplərə əsaslan subyektiv qarşılıqlı əlaqələr dayanır.

Qeyd edilən təhsil paradiqmaları bu gün öz aktuallığını itirməsə də bir qədər zəifləmişdir.

Paradiqma gələcək transformasiyaların istiqamətini və xarakterini müəyyən edən aparıcı konseptual ideyadır. Qeyd etmək lazımdır ki, təhsil paradiqmasının dəyişməsi təhsil sistemindəki dəyişiklikdir.

Müasir təhsil paradiqmalarını və onun təşkilinə yanaşmaları nəzərə alaraq belə qənaətə gələ bilərik ki, bu gün insan üçün təhsil təkcə müəyyən bilik, bacarıq və bacarıqlar deyil, həm də özünütərbiyə, özünü inkişaf etdirmək, şəxsiyyətin təkmilləşdirilməsi, biliklərin davamlı olaraq toplanması, yenilənməsi, işlənməsi və digər sahələrdə psixoloji hazırlıq deməkdir.

Müasir təhsil paradiqmaları pedaqogikanın obyekti olan təhsil sistemində mövcuddur, çünki o, təhsil və tərbiyə proseslərini özündə cəmləşdirir, cəmiyyətin sosial-mədəni dəyərlərinin beynəlmiləlləşməsini özündə ehtiva edir.

Təhsil, təlim-tərbiyə hər bir dövlətin strateji əhəmiyyətli fəaliyyət sahəsi olmaqla həmin dövlətin siyasi-iqtisadi, sosial və mədəni inkişafını müəyyən edir, yeni qurulmuş cəmiyyətin mənəvi dəyərlərini formalaşdırır. Yenişələn, inkişaf edən təhsilin də müasir paradiqmaları mövcuddur:

- ✓ koqnitiv-informasiya yönümlü
- ✓ şəxsiyyətyönümlü
- ✓ mədəniyyətyönümlü
- ✓ səriştəyönümlü

1. Koqnitiv-informasiya paradiqması bəşəriyyət tərəfindən toplanmış bütün bilik, bacarıq və vərdişlərin maksimum miqdarını uşağa ötürmək zərurəti haqqında sabit fikirlərə əsaslanır. Tədris prosesinin istiqamətini konkret şəkildə özündə ehtiva edir ki, müəllimlər fənn proqramlarına, nəticələrə, perspektivlərə əsaslanıraq təlimi həyata keçirirlər. Burada şagird şəxsiyyətinin istək və ehtiyacları nəzərə alınmır.

2. Şəxsiyyətyönümlü paradiqma. Əsas hədəf uşağın intellektual, emosional və sosial inkişafına köklənir. Bu pedaqoji paradiqmaya əməl edən müəllimlər şagirdləri yaxından müşahidə edir və onların şəxsi inkişafı, maraq və problemlərinə daha çox diqqət yetirirlər. Müəllimlər hər bir uşağın fərdi inkişafına uyğunlaşmağa çalışdıqları üsulları seçmək və məqsədlər qoymaq üçün çox səy sərf etməlidirlər. Şagirdin uğurunun onun əvvəlki nailiyyətləri əsasında müqayisəli təhlili aparılmalırdır. Belə pedaqoji paradiqmada təlim daha geniş əsaslar əldə edir. Şagird ona ən yaxşı nəticələr əldə etməyə kömək edəcək öyrənmə üsulunu seçə bilən bir şəxs kimi qəbul edilir. Tədris materialı uşağa məktəb divarları xaricində ətraf ailəm ilə mümkün qədər effektiv qarşılıqlı əlaqədə olmağa kömək edəcək şəkildə planlaşdırılır və təqdim olunur.

3. Mədəniyyətyönümlü paradiqma. Bu paradiqmanın əsas vəzifəsini mədəni dəyərlərin gələcək nəsillərə ötürülməsindən ibarətdir.

4. Səriştəyönümlü paradiqma. Bu paradiqma praqmatik, koqnitiv-informasiya paradiqmasından yaranır. Bu paradiqmanın əsasında təhsil prosesinin gözlənilən nəticəsi bilik, bacarıq və bacarıqlar sistemi deyil, dövlət tərəfindən elan edilmiş əsas səriştələr məcmusu dayanır ki, bu səriştələrsiz müasir insanın intellektual, ictimai-siyasi, kommunikasiya, informasiya və digər sahələrini inkişaf etdirmək mümkün deyil. Səriştəyönümlü paradiqma ümumi orta təhsilin praktiki yönümlülüyünün və instrumental oriyentasiyanın gücləndirilməsinə yönəlib. Bu paradiqmanın əsas məqsədi yalnız faktlar toplusuna deyil, onları əldə etmək üçün üsul və texnologiyalara sahib olan bacarıqlı və mobil bir insan hazırlamağa çalışır.

Müasir təhsil paradiqmalarının müsbət cəhətləri:

- Qeyd etmək lazımdır ki, qeyd olunan təhsil paradiqmalarının hər biri ciddi təməl əsaslara malikdir, mədəniyyətdən qaynaqlanır, şagirdi zəruri dəyərlərə və biliklərə yönəldir;
- Müasir təhsil paradiqmaları şagird şəxsiyyətinin inkişafında maraqlıdır;
- Şagirdlərin şəxsi maraqları nəzərə alınır;
- Təlim prosesində diferensiallaşdırılmış, fərdiləşdirilmiş və problemli təlim texnologiyalarına üstünlük verilir.
- Təlim prosesində psixoloji mühit qorunur, valioloji xidmətlər inkişaf etdirilir;
- Humanist ünsiyyətə üstünlük verilir;
- Dərlərdə problemli dialoqlar, refleksiv təlim texnologiyaları və kollektvi fəaliyyətə üstünlük verilir;
- Şagirdlərin kommunikativ fəaliyyətləri – dinləmə, eşitmə, nəql etmə bacarıqları inkişaf etdirilir;
- Təlim proesisndə şagirdlərə tolerant yanaşılır, eyni zamanda yoldaşlarına və həmsöhbətlərinə hörmət etmək kimi bacarıqlar inkişaf etdirilir.

Beləliklə göründüyü kimi müasir təhsil paradiqmaları təlim proesisndə tədrisin səmərələliyinin artırılmasına, şagirdlərin şəxsi düşüncəsini, potenisalını, gücünü üzə çıxarmağa, məntiqi təfəkkürünü artırmağa, müəyyən çətin situasiyalardan çıxış yolu tapmağa köməklik göstərir. Bu məqsədələ də hədəfə çatmaq üçün təlim prosesinində müasir təhsil paradiqmalarına əsaslanaraq yeni təlim metodlarından istifadə edərək, səmərəli və keyfiyyətli dərslər həyata keçirmək lazımdır.

Ədəbiyyat

1. Kərimov Y.. Müşahidə tədqiqat metodu kimi.Seçilmiş əsərləri. II c. Bakı, 2007, səh.258-271.
2. Qasımova L., R.Mahmudova. Pedaqogika. Bakı, 2012, 548 s.
3. https://aztehsil.com/kurikulum/373-masir-v-nnvi-drsin-drsin-paradiqmalar-abdulla-mehrabov.html
4. Подласый М.П. Педагогика началъной школы. М.,2000, 544 ст.

РЕЗЮМЕ

ТРАДИЦИОННЫЕ И СОВРЕМЕННЫЕ ОБРАЗОВАТЕЛЬНЫЕ ПАРАДИГМЫ

Джафарова С.Н.

Ключевые слова: *образование, парадигма, наука, традиционное, современное, идентичность*

Парадигма – это исходная концептуальная схема, модель постановки задач и их решения, методов исследования, господствующих в науке в определенный исторический период. Современные образовательные парадигмы способствуют повышению эффективности преподавания в процессе обучения, раскрытию личностного мышления, потенциала и сил учащихся, повышению их логического мышления, нахождению выхода из некоторых сложных ситуаций. Для достижения цели, необходимо внедрить в учебный процесс эффективные и качественные уроки с использованием новых методов обучения, основанных на современных образовательных парадигмах.

SUMMARY

TRADITIONAL AND MODERN EDUCATIONAL PARADIGMS

Jafarova S.N.

Key words: *education, paradigm, science, traditional, contemporary, identity*

A paradigm is an initial conceptual scheme, a model for setting problems and solving them, research methods that prevail in science in a certain historical period. Modern educational paradigms contribute to increasing the effectiveness of teaching in the learning process, revealing the personal thinking, potential and strength of students, increasing their logical thinking, and finding a way out of some difficult situations. To achieve the goal, it is necessary to introduce effective and high-quality lessons into the educational process using new teaching methods based on modern educational paradigms.

EKOLOJİ TƏHSİLİN İNKİŞAFINDA COĞRAFİYANIN ROLU

Süleymanlı D.Q.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

dilshad8080@mail.ru

Açar sözlər: *ekologiya, coğrafiya, təhsil, məktəb, təbiət*

Tələbələrin ekoloji təhsili və tərbiyəsi bu gün haqlı olaraq elmi-pedaqoji tədqiqatların ən prioritet sahələrinə aid edilə bilər. Son zamanlarda ekoloji təhsilə və tərbiyəyə getdikcə daha çox diqqət yetirilir, çünki bunsuz sivilizasiyanın inkişafının ən vacib problemlərini həll etmək mümkün deyil. Ekologiya

zəmanəmizin ən aktual elmlərindən biridir. Getdikcə mürəkkəbləşən bir dünyada bəşəriyyətin sağ qalması ümidləri və inkişafın yeni mərhələsinin mümkünlüyü onunla bağlıdır.

Çox yaxın gələcəkdə ekoloji təhsilin inkişafı bizi məktəb təhsilinin dəyişdirilməsi haqqında ciddi düşünməyə vadar edəcəkdir. İqtisadi fəaliyyətin təbiətə təsirindən danışmazdan əvvəl tələbələr onun nə olduğunu aydın başa düşməlidirlər. Əks halda, ekoloji təhsil "ruhun ekologiyası" haqqında mənasız söhbətlərə, təbiəti sevməyə və qorumağa çağırışlara çevriləcəkdir. "Ekologiya" sözü indi gündəlik ünsiyyətdə, mediada, siyasətçilərin çıxışlarında çox məşhurdur. Müasir bəşəriyyətin nəhəng texniki gücü və "demoqrafik partlayış" adlanan planetdə əhalinin sürətli artımı canlı olaraq nəsillərin gözü qarşısında təbiətin geniş miqyaslı deqradasiyasına səbəb olmuşdur. Bu dağıntılar təkcə konkret bölgələrə deyil, həm də bütün biosferin miqyasında görünməyə başlayır. [3] Bəşəriyyət öz sağ qalmasını təhlükə altına alan həddə yaxınlaşır. Təəssüf ki, bizim məktəbdə bir çox fənlər kimi ekologiya ayrıca fənn kimi öyrənilmir. Buna görə də böyüklər və tələbələr tez-tez "ekologiya" və "ətraf mühitin vəziyyəti", "ekologiya" və "təbiəti mühafizə" anlayışlarını qarışdırır və ya əvəz edirlər.

Coğrafiya dərslərində ekoloji tərbiyə müasir məktəblərdə böyük diqqət tələb edən ən mühüm problemlərdən biridir. Ona görə də bu məsələni daha ətraflı nəzərdən keçirməliyik. Ekoloji mədəniyyətin səviyyəsi sivil cəmiyyət üçün əsas meyarlardan biridir, bir növ göstəricidir - insanın öz nəslinin mənafeyi naminə öz maraqlarını qurban verməyə nə qədər hazır olmasıdır. Ekoloji təhsil davamlı bir prosesdir, ona daxildir: ailə, məktəbəqədər təhsil müəssisələri, məktəb, universitet. Məktəbdə ekoloji təhsil fənlərarası xarakter daşıyır və bir çox fənlərin: təbiət, tarix, coğrafiya, biologiya, kimya və s.-nin məzmununun xüsusiyyətləri baxımından nəzərdən keçirilir. Lakin məktəb coğrafiyası digər tədris fənləri ilə müqayisədə daha ekolojiləşdirilir. Məktəb təhsilində coğrafiya kursu ekoloji problemləri 3 səviyyədə nəzərdən keçirən yeganə fənndir: qlobal, regional və yerli. İbtidai siniflərdə uşaq ətraf aləm, təbiət, tarix dərslərində təbiətin komponentləri, təbii mühitdəki hadisələrin dövri xarakteri haqqında biliklərini genişləndirir. Məktəbin orta pilləsində mücərrəd təfəkkür formalaşan zaman o, ekoloji problemlərin həllinin zəruriliyini, "insan-təbiət" münasibətlərinin müxtəlifliyini, bu münasibətlərin nəticələrini dərk edir. Orta məktəbdə təhlil, ümumiləşdirmə, müqayisə və s. kimi zehni əməliyyatları mənimsəmiş şagird insanın təsərrüfat fəaliyyətini qiymətləndirə, nəinki ekoloji problemlərin mövcudluğunu dərk edə, həm də onların yaranma səbəblərini müəyyən edə bilər, onların həyata keçirilməsinin yollarını təklif edə və əsaslandıra bilər. Demək olar ki, istənilən coğrafiya dərsində ekoloji problemləri həll etmək lazımdır. Hər bir coğrafiya kursunun ətraf mühitə diqqəti var. Coğrafiya dərslərində əsas məqsədlərdən biri məktəblilərin ekoloji dünyagörüşünün və ekoloji mədəniyyətin formalaşdırılması, ekoloji savadlı insan kimi formalaşması yolu ilə onların ekoloji maarifləndirilməsidir.

Məktəb coğrafiyası kursunun məzmunu məktəblilərdə təbiətdə əxlaqi norma və davranış vərdişlərinin, dəyər yönümlərinin formalaşması və inkişafı üçün obyektiv imkanlara malikdir. Təbiətin insan fəaliyyətinin həyatında və iqtisadiyyatında rolu, dəyər təşkilatlarının inkişafı ilə bağlı tədris materialının öyrənilməsi prosesində onların açıqlanması tələbələr tərəfindən praktiki qiymətləndirmə işinin həyata keçirilməsinə kömək edir (məsələn, ölkələrin mövcud resurslarının qiymətləndirilməsi, ərazisində təbii və iqtisadi vəziyyət və s.). Ekoloji təhsil üçün insanın ətraf mühitə təsirini qiymətləndirmək üçün yerlərdə işləmək vacibdir. Onların əsasında məktəblilər digər insanları düzgün, tənqidi qiymətləndirmək, təbiət və cəmiyyətin qanunlarına uyğun davranış xətti seçmək vərdişlərini inkişaf etdirirlər. Ekoloji dünyagörüşünün formalaşmasında böyük tərbiyəvi əhəmiyyətə malik olan mövzular, məsələn: "Ətraf mühitin çirklənməsi və ekoloji problemlər"; "Atmosfer"; "Litosfer"; "Hidrosfer və onların çirklənməsinə qarşı mübarizə tədbirləri"; "Bəşəriyyətin qlobal problemləri" və bir çox başqalarıdır. 6-cı sinifin fiziki coğrafiya fənni kursunda coğrafiya haqqında Yer və cəmiyyət elmi kimi təsəvvür formalaşmağa başlayır. Onun öyrənilməsi prosesində şagirdlərin dəyər yönümlərinin, təbiətin, insanın və ətraf mühitin ayrı-ayrı komponentləri arasındakı əlaqəni dərk etmələrinin əsasları qoyulur. Azərbaycanın fiziki coğrafiyası kursunda ekoloji təhsilin əsas istiqamətləri inkişaf etdirilir: təbii ehtiyatlardan səmərəli istifadə, insan fəaliyyətinin təbiətə təsiri, insan sağlamlığı ilə ətraf mühitin vəziyyəti arasında əlaqə və s. rentabellik, rasionallıq, təkrar istehsal və s. haqqında biliklər sistemi, İqtisadi və sosial coğrafiya kursunda işlərdə zəruri olan qənaətcillik, işgüzarlıq kimi şəxsiyyət xüsusiyyətlərinin tərbiyəsində aparıcı yer tutur. Dünyanın iqtisadi və sosial coğrafiyası (10-cu sinif) kursunda ekoloji təhsilin əsas xüsusiyyətlərindən biri təbiətin qarşılıqlı əlaqəsi və bütün ölkələrin və xalqların həyati maraqlarına toxunan və birgə təhsil tələb edən problemlər haqqında əvvəllər əldə edilmiş biliklərin ümumiləşdirilməsidir.

Şagirdlərin yaradıcılıq fəaliyyəti də böyük tərbiyəvi əhəmiyyət kəsb edir: ekoloji plakatlar, rəsmlər, qəzetlər, tematik layihələr, ətraf mühit mövzusunda uşaqları düşündürən, düşünməyə, təhlil etməyə, müxtəlif məlumat mənbələrini müqayisə etməyə, təbiətdən və təbii sərvətlərdən səmərəli istifadə haqqında fikirlərini bildirməyə vadar edən esselər. Ekoloji tərbiyənin ən təsirli vasitəsi uşaqların müxtəlif

fəaliyyətləridir (təhsil, idrak, bədii, yaradıcı, oyun). Məktəblilərin ətraf mühitin mühafizəsi fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onun növləri müxtəlifdir: təbii mühitin mühafizəsi üçün (heyvanların bəslənməsi; çətinlikdə olan heyvanların xilas edilməsi; zibillə mübarizə; yemlik və quş evlərinin hazırlanması; mühafizə olunan bitkilərin yayıldığı yerlərdə nişanların quraşdırılması); təbiətdə pis əməllərin qarşısının alınması və onlara qarşı mübarizə (təbiətdə reydlərdə iştirak, ekoloji cığırın marşrutunun işlənməsi); təbii mühitin yaxşılaşdırılması (bitkilərin əkilməsi, yamacların abadlaşdırılması, meşənin quru ağacdan təmizlənməsi); təbiəti mühafizə ideyalarını təbliğ etmək və izah etmək (yoldaşlar, valideynlər, böyüklər ilə söhbətlər, plakatlar hazırlamaq, divar qəzetləri nəşr etmək, radio verilişləri hazırlamaq) və s.

Məktəblilərin ekoloji mədəniyyətinin formalaşdırılması istiqamətində aparılan işlərin səmərəliliyinin əsas meyarı onların ekoloji şüurunun və davranışının vəhdətindən ibarətdir. Yəqin ki, yer üzündə elə bir insan yoxdur ki, heyvanların həyatı ilə maraqlanmasın, çayların, göllərin, çiçəkli çəmənlərin gözəlliyinə heyran olmasın və təbiət haqqında mümkün qədər çox şey öyrənməyə çalışmasın. Axı insan özü təbiətin bir hissəsidir, onun övladıdır. Ona görə də hər bir şagirdin şüurunda insanın təbiətə mənsub olması və onun qayğısına qalmaq borcu və borc anlayışının möhkəmləndirilməsi çox vacibdir. Həyat son dərəcə mürəkkəb və müxtəlifdir. Eyni zamanda, təbiətdəki hər şeyin ən incə bağlarla bağlı olduğunu xatırlamalıyıq. Təbiətin öyrənilməsi bu əlaqələri pozmamaq üçün kompleks şəkildə davam etməlidir; insan təbiəti dərk etməli, onu məhv etməməli, onu qoruyub abadlaşdırmalıdır. Məktəb coğrafiya kursunun məzmunu böyük potensiala malikdir. Bunların həyata keçirilməsində və ekoloji savadlı yüksək mənəviyyatlı nəslin hazırlanmasında əsas rol müəllimə, onun yaradıcı təşəbbüsünə aiddir. Coğrafiya dərslərində ekoloji maarifləndirmə müasir təhsildə ən mühüm məsələlərdən biridir. Coğrafiya dərslərində ekoloji təhsil və tərbiyəni məqsədyönlü, sistemli, ardıcıl həyata keçirmək lazımdır.[2]

Coğrafi və ekoloji təhsilin məqsəd və vəzifələri əsasən üst-üstə düşür və bir-biri ilə sıx bağlıdır. İnsan fəaliyyətinin ətraf mühitlə sıx əlaqədə hərtərəfli öyrənilməsinin zəruriliyi coğrafiya alimləri tərəfindən dəfələrlə yazılmışdır. “Coğrafiya” fənni çərçivəsində geosiyasətin ekoloji aspektləri, resursların mühafizəsi problemləri, rasional ekoloji idarəetmənin əsasları, urbanizasiya nəticəsində istehsalat tullantıları problemləri öyrənilir, bəşəriyyətin ekoloji problemləri nəzərdən keçirilir.[1] Dövrümüzün qlobal problemləri arasında ekoloji problemlər sülhün qorunması problemindən sonra ikinci yeri tutur.

Coğrafi təhsilin ekolojiləşdirilməsi bir neçə yolla həyata keçirilə bilər. Onlardan biri əlavə məlumatların tətbiqi ilə ekoloji məlumatların həcminin artırılmasıdır. Məsələn, “Təbii ehtiyatlar, onların təsnifatı” mövzusunu öyrənərkən əlavə olaraq “ölkənin su ehtiyatları “yaşıl” iqtisadiyyat strategiyası kontekstində” və s. Bundan əlavə, coğrafiyanın yaşıllaşdırılması həm də tərbiyəvi əhəmiyyətə malikdir. Ekoloji təhsil və tərbiyə sistemi sinifdənkənar işlərdə də həyata keçirilir. Bəzi məktəblərdə ekoloji klublar fəaliyyət göstərir. Klubun fəaliyyəti müəyyən proqrama əsaslanır. Proqram müəyyən fəaliyyət növünə maraq göstərən tələbələrin fərdi qabiliyyətlərinə uyğun olaraq tərtib edilir. Klubun əsas iş istiqamətləri və formaları: ekskursiyaların təşkili və keçirilməsi; ekoloji toplantılarda və təbliğatlarda, müsabiqələrdə iştirak; ekoloji plakatların buraxılması; təbliğat qrupunun çıxışlarının hazırlanması; klub iclaslarının keçirilməsi; məktəbin ərazisinin təmizlənməsi və abadlaşdırılmasında iştirak. Bunun sayəsində gənclərin ekoloji hərəkatı davam edir. Klub iclasları həm nəzəri, həm də praktiki dərsləri əhatə edir: müxtəlif promosyonların keçirilməsi; çap, foto və video materialların hazırlanması və buraxılması. Klubun işində maraqlı insanlarla dəyirmi masa görüşləri, ekskursiyalar çox mühümdür. Ekoloji klubun iclasları tələbələrə öz biliklərini genişləndirməyə və ekoloji təhsil üzrə müstəqil iş üçün mövzu seçməyə imkan verir. Üfüqləri genişləndirmək, tədqiqat fəaliyyətini inkişaf etdirmək və ekoloji mədəniyyəti formalaşdırmaq üçün tədbirlər keçirilir: “Şəhərimizi necə təmiz edək?” seminar-müzakirəsi, “Plastik tullantılar. Onlarla nə etməli?”, “Bu gün nüvə enerjisi”, “Alternativ enerji mənbələri”, “Qablaşdırma və enerji”, “Yer günü”, şəhər müəssisələrinə ekskursiyalar və s. Sosial ekoloji təşkilatlar arasında, əlbəttə ki, birinci dərəcəli əhəmiyyətə malik olan təhsil və tərbiyə sistemidir. Məhz onlar ekoloji tərbiyənin əsasını qoymalı və təbiətə məhəbbətlə tərbiyə etməlidirlər. Mübaliğəsiz demək olar ki, onların uğur və ya uğursuzluğu gələcək nəsillərin ətraf mühitin çirklənməsinin öhdəsindən gəlib-gəlməyəcəyini müəyyənləşdirəcək.

Ədəbiyyat

1. Muradova E.Ə. Demokratik ekoloji təhsilin prinsipləri. Bakı: Elm, 2009, 448 s.
2. İskəndərova S.M. Ekoloji təhsilin nəzəri-metodoloji əsasları. Baki Universitetinin Xəbərləri 2014.
3. http www.ecoguild.ru

РЕЗЮМЕ
РОЛЬ ГЕОГРАФИИ В РАЗВИТИИ ЭКОЛОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ
Сулейманлы Д.Г.

***Ключевые слова**: экология, география, образование, школа, природа.*

Экологическое образование и воспитание учащихся сегодня по праву можно отнести к наиболее приоритетным направлениям научно-педагогических исследований. В последнее время все больше внимания уделяется экологическому образованию и воспитанию, ведь без него невозможно решить важнейшие проблемы развития цивилизации. Экология – одна из самых актуальных наук нашего времени. Во все более сложном мире от него зависят надежды человечества на выживание и возможность нового этапа развития.

SUMMARY
THE ROLE OF GEOGRAPHY IN THE DEVELOPMENT OF ENVIRONMENTAL EDUCATION
Suleymanli D.Q.

***Keywords:** ecology, geography, education, school, nature*

Ecological education and upbringing of schoolchildren today can rightfully be considered one of the most priority areas of scientific and pedagogical research. Recently, more and more attention is paid to environmental education and upbringing, because without it it is impossible to solve the most important problems of the development of civilization. Ecology is one of the most relevant sciences of our time. In an increasingly complex world, humanity's hopes for survival and the possibility of a new stage of development depend on it.

AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ İNTERNETDƏN İSTİFADƏ

Musayeva S.Q.
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
seva64@bk.ru

***Açar sözlər:** texniki tərəqqi, müəllim, tələbə, texnologiyalar, internet.*

Məlum olduğu kimi, elmi-texniki tərəqqinin inkişafı nəticəsində son illərdə cəmiyyətin istənilən sahəsində kompüter və internetdən geniş istifadə olunmaqdadır. Artıq internet saytlarının sayı kifayət qədərdir. Onlar insanların tələbatını tam ödəməsə və bəzən orda yer almış materiallar tam dəqiq olmasa da istənilən qədər etibarlı mənbələr də mövcuddur.

Hal-hazırda internetdə Azərbaycan dilinin tədrisi ilə bağlı hazır yükləmə və yaxud çap oluna bilən bir çox tapşırıqlar mövcuddur ki, bunlar təkcə dərs kitablarından və dərsliklərdə verilmiş məhdud sayda çalışma və tətbiqi tapşırıqlardan asılı qalmaq istəməyən müəllimlərə bir növ əlavə dəstəkdir. Lakin bunlardan heç də kor-koranə istifadə etmək məsləhət görülmür. Əvvəldə qeyd etdiyimiz kimi, bütün bu materiallara etibarlı mənbə kimi yanaşmaq heç də doğru olmaz. Fikrimizcə, uyğun görünən bir çox tətbiqi materiallardan istifadə tələbələrin marağının artmasına, həm də dərsiklərdə daim üzləşdiyimiz monotonluqdan uzaqlaşmaq üçün məsləhətlidir. Azərbaycan dili dərslərində internetdən istifadə və bunun verə biləcəyi imkanları nəzərə alan müəllimin qarşısında əsasən aşağıdakı suallara cavab vermək tələb olunur:

1. Tələbələr Azərbaycan dili ilə bağlı bu tapşırıqlardan nə qazanacaq?
2. Dərsin müəyyən bir hissəsini, yaxud bir neçə dərs ardıcıl olaraq və ya bütün dərslərdə internetdən istifadə olunmaqla dil bilikləri necə inkişaf etdiriləcəkdir?
3. Dərsdə tələbələr Azərbaycan dilində sərbəst surətdə necə ünsiyyətə girəcəkdir?
4. Tələbələrin dil səviyyəsinə görə tapşırıqlar necə müəyyən ediləcəkdir?

Düşünürük ki, bütün bunlarla yanaşı, tədris prosesində gündəlik qəzet materialı ilə bağlı dərslərdə artıq köhnə qəzetlərdən və aktuallığını itirmiş, tələbələrə maraqlı olmayan monoton xəbərlərdən uzaqlaşmaq da mümkün olacaqdır. Bu sahədə İnternet ən gözəl vasitədir. Dərsin daha canlı, tələbələrə maraqlı olması məqsədilə günümüzlə səsləşən, yeni-yeni informasiyaların əldə olunduğu saytlara müraciət etmək, fikrimizcə, daha uyğun olar. Burada seçimi də tələbənin ixtiyarına buraxmaq məqsədəuyğun sayıla bilər. Bu zaman tələbənin müəllimdən kortəbii asılılığından qutarması ilə yanaşı, dərsə həvəsi də artacaqdır. Müəllim yalnız müvafiq saytların adlarını təqdim edəcəkdir. Tələbələr dərsdə cavab verərkən öz maraqlarına müvafiq seçdikləri xəbəri və ya siyasi məlumatı ana dilimizdə səsləndirəcəkdir. Beləliklə, dərsdə tələbələr müəyyən aktual informasiyaları Azərbaycan dilində çatdıracaqdır. Burada dərs bölgüsünə riayət etməklə vaxt məhdudiyyəti müəllim tərəfindən müəyyən olunmalıdır.

Ədəbiyyat

1. Nəzərov A.M. Müasir təlim texnologiyaları. Bakı: ADPU, 2012. 103 s.

2. Yeni təhsil proqramlarının tətbiqi məsələləri. Bakı, 2014, 99 s.
3. Əliyev E. Tədrisdə müasir təlim texnologiyalarının tətbiqi. “Azərbaycan məktəbi”, 2017. s.103-105

РЕЗЮМЕ
ИСПОЛЬЗОВАНИЕ ИНТЕРНЕТА НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА
Мусаева С.Г.

Ключевые слова: *технический прогресс, учитель, студент, технологии, интернет.*

В тезисах отмечается использование Интернета на уроках азербайджанского языка. Главное здесь – активность учащихся и контроль учителя. Интернет является лучшим инструментом в этой области. Студенты найдут в Интернете материалы, соответствующие их интересам. Работа над текстами, где получена новая информация, поможет лучшему усвоению языка. Все это будет происходить под контролем учителя.

SUMMARY
USING THE INTERNET IN THE TEACH OF THE AZERBAIJANI LANGUAGE
Musayeva S.Q.

Key words: *technical progress, teacher, student, technologies, internet.*

The thesis notes the use of the Internet in Azerbaijani language classes. Students' activity and teacher's supervision is the main thing here. Internet is the best tool in this field. Students will find materials relevant to their interests from the Internet. Working on texts where new information is obtained will help to learn the language better. All this will take place under the supervision of the teacher.

XALQIMIZIN GƏNC QIZLARININ AİLƏ HƏYATINA HAZIRLIĞININ ETNOPSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

Quliyeva Ş.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
shahnaz1969@mail.ru

Açar sözlər: *xalq, gənc, ailə, namus, qeyrət, şəxsiyyət, etnopsixoloji, münasibət*

Xalqımızın gənc qızlarının ailə həyatına hazırlığının etnopsixoloji xüsusiyyətlərini tədqiq etmək üçün tariximizin canlı əksi olan və bir millət kimi özümüzü düzgün dərk edib qiymətləndirməyə imkan yaradan «Kitabi-Dədə Qorqud» dastanına nəzər salaq.

«Kitabi-Dədə Qorqud» dastanında ailə həyatına hazırlıqla bağlı xalqımızın əcdadlarına məxsus etnik xarakter əlamətləri, stereotip və yönümlər, hisslər, davranış tərzi, adət-ənənələr canlı şəkildə öz əksini tapmışdır. «Kitabi-Dədə Qorqud» dastanındakı zəngin materiallar əcdadlarımıza xas olan adət-ənənələri, xalqımıza tarixən xas olan ailə münasibətlərini qavramağa imkan verir. Dastana nəzər saldıqda şahidi oluruq ki, gənc qızların ailə həyatına hazırlığında ana tərbiyəsinə böyük önəm verilir. «Qız anadan görməyincə öyüd almaz»-ulu Dədə Qorqudun bu nəsihətləri Azərbaycan xalqının qız tərbiyəsi haqqındakı fikirlərində həmişə xüsusi yer tutmuşdur. [3, s.15]

Xalqımızın qədim əcdadları olan oğuzlardakı evlənmə ilə bağlı adət-ənənəyə diqqət yetirsək görərik ki, bir Oğuz igidi evlənərkən ilk növbədə qıza elçi göndərir. Bu işə ata-ana və müdrik şəxslər başçılıq edir. Ancaq qızın razılığı da olmalıdır. Oğlanın igidliyi ilə bərabər qızın igidliyi də nəzərə alınır. Bamsı Beyrək ilə Banuçiçəyin yarışı buna parlaq misal ola bilər. Toy günü oğlan və qız qırmızı qaftan, paltar geyinirlər. Oğlan ox atır və oxunun düşdüyü yerdə yeni evlənənlər üçün çadır-otaq tikilir və valideynlər tərəfindən ayrıca ev, var-dövlət verilərək cəmiyyətin tam hüquqlu üzvünə çevrilirlər. Bununla da oğuzlarda yeni ailə qurmağa «evlənmək» demişlər [1, s.176]. Göründüyü kimi, Oğuz elində yeni ailənin təməli qoyularkən qızın razılığına xüsusi diqqət yetirilir və bu mərasim böyüklərin xeyir-duası ilə həyata keçirilir. Həmin etnik adət-ənənə müasir dövrdə də xalqımızda «oğul evləndirmək», «qız köçürmək», «övlada toy etmək» adət-ənənəsində mahiyyət etibarı ilə əsasən olduğu kimi hifz edilir. Oğuzların ailədə ən böyük önəm verdiyi mənəvi psixoloji keyfiyyətlərdən başlıcası namus və qeyrətdir. Elə ona görə də oğuzlular qızlarını ailə həyatına hazırlayarkən bu kimi mənəvi psixoloji keyfiyyətlərə üstünlük verirlər. Gənc qız, qadın namuslu və qeyrətli olarsa, oğuzlulara görə onda digər mənəvi psixoloji keyfiyyətlərin olacağı və onun rəftar və davranışında, münasibətlər sistemində özünü büruzə verəcəyi şübhə doğurmur. Namuslu və qeyrətli olmaq ailənin, elin-obanın, ümumən xalqın namus və qeyrətini çəkmək, ümumxalq mənafeyini hər şeydən üstün tutmaq deməkdir ki, biz bunu Burla xatunun simasında görürük. Düşmən əlində əsir olan Burla xatun əri Salur Qazanın namusunun tapdalanmasına, özünün şərəf və ləyaqətinə toxunulmasına yol verməmək, yəni

«iyrənc dinli kafirin yatağına düşməmək üçün oğlu Uruzun ətindən bişiriləcək qovurmadan yeməyə razılıq verir [1, s. 211]. Bununla da Oğuz qadınının şərəf və namus yolunda qeyrətlə ölümə hazır olduqlarının şahidi olursan, çünki Oğuz namusunu, qeyrətini qorumaq onlara kiçik yaşlarından ən vacib anlam kimi canlarına, qanlarına hopdurulubdur.

Burla Xatunun və onun timsalında bütün Oğuz qız-gəlininin namus və qeyrət yolunda böyük fədakarlığı, ölümün gözünə düz baxmaları yalnız onların ailə namusu ilə məhdudlaşmır, burada Oğuz elinin, tayfasının namus və qeyrətini gözləmək ön plana keçir. Dastanda namus və qeyrət ümumpsixoloji keyfiyyət kimi əks olunur. Bizim üçün də əsas ibrət dərsi ondan ibarət olmalıdır ki, əcdadlarımız olan oğuzluların çox önəm verdiyi mənəvi psixoloji keyfiyyətlərdən namus və qeyrət ailə həyatına hazırlaşan hər bir gənc qızımızın canına, qanına hopdurulsun və namus, qeyrət kimi mənəvi-psixoloji keyfiyyətlərin onlara əcdadları oğuzlular tərəfindən yadigar qaldığı anladılsın və bununla da özünün kim olduğunu düzgün dərk edib hər yerdə ailənin, xalqın, vətəninin şərəf və ləyaqətini qorumağa çalışsın.

Mövzumuzla bağlı «Kitabi-Dədə Qorqud» dastanlarından alacağımız ən mühüm ibrət dərslərindən biri də öz tarixi köklərimiz üzərində ucalaraq inkişaf etməyimiz, gənc qızların ailə həyatına hazırlığında mənəvi-psixoloji irsimizdə yaxşı nə varsa onu qoruyub saxlamaq, mənfi və mühafizakar cəhətlərimizdən uzaqlaşmağımız olmalıdır. Gənc qızların ailə həyatına hazırlığını düzgün istiqamətləndirmək üçün ilk növbədə onlara qarşı olan münasibəti düzgün qurmalı və bunun üçün Oğuz elinin təcrübəsindən istifadə edib onu qiymətləndirmək lazımdır.

Faktlar göstərir ki, gənclərdə mənəvi və əxlaqi davranış normativlərinin formalaşması istiqamətləri, ailəyə hazırlığın əsasları milli-etnik kökə, milli hisslərə və milli adət-ənənələrə əsaslanmadıqda, ailənin uzunömürlülüyü azalır, boşanmaların sayı artır, cəmiyyətin özülü zəifləyir. Şübhəsiz ki, hər bir ailənin həyatında xalqın ruhu, mənəviyyatı yaşayır və bu xüsusiyyətlər el adət-ənənələri ilə nəsildən-nəslə verilir.

Azərbaycan ailələrində gənc qızlara münasibət və onların ailə həyatına hazırlığı ilə bağlı məsələlər mürəkkəb strukturu və məxsusi cəhətlərilə səciyyələnir. Bu məxsusi cəhətlərin sosial-psixoloji mexanizmlərinin öyrənilməsi ailə institutnda baş verən böhranların aradan qaldırılmasında, ailə münasibətlərində ortaya çıxan çatışmazlıqların azadılmasında mühüm əhəmiyyətə malik ola bilər. Bununla yanaşı gənc qızların ailə həyatına hazırlanmasında milli-etnik xüsusiyyətlərin nəzərə alınması ilə yanaşı, sosial-psixoloji mexanizmlərin təsir imkanlarının da diqqət mərkəzinə gətirilməsi hər bir halda tərbiyə prosesində qızlarda zəruri keyfiyyətlərin formalaşdırılmasına zəmin yaratmış olur.

Gənc qızlara ailədə olan münasibət və ailə həyatına hazırlığın milli-mənəvi dəyərlər əsasında formalaşdırılması müasir dövrdə gənc qız şəxsiyyətinin təşəkkülünü şərtləndirən əsas qlobal məsələlərdən biridir. Məsələyə sosial cəhətdən yanaşdıqda, məlumdur ki, gənc qız şəxsiyyətinin təşəkkülündə əsas rol oynayan ailə cəmiyyətin əsas nüvəsini təşkil edir. Cəmiyyətin də inkişafı ilk növbədə ailənin sabitliyindən, rifahından, ailə münasibətlərinin yüksək əxlaqi və mənəvi dəyərlər əsasında təşkilindən asılıdır. Bunun üçün də cəmiyyət həmişə ailənin möhkəm bünövrə əsasında qurulmasına, sağlam münasibətlər əsasında inkişafına çalışır, ailə münasibətlərinin tənzimi üçün də müxtəlif qanunvericilik aktlarından istifadə edir. Bütün bunlara baxmayaraq, sanki hər bir ailənin gənc qız şəxsiyyətinin təşəkkülündə, mənəvi inkişafında, ailə həyatına hazırlığında özünəməxsus qayda və qanunları mövcuddur. Amma, onu qeyd etməliyik ki, müasir gənc qızın tərbiyəsi, onun milli-mənəvi dəyərlərimizə münasibəti və bunun əsasında ailə həyatına hazırlığı problemi çox mürəkkəbdir, onun mürəkkəbliyi bir də onunla şərtlənir ki, sosial mühit inkişaf etdikcə, dəyişildikcə tərbiyəvi təsir vasitələri və istiqaməti də əsaslı surətdə dəyişir.

Ədəbiyyat

1. Bayramov Ə.S. Etnik psixologiya. Bakı: Renessans, 2001, 374 s.
2. Əlizadə Ə.Ə., Abbasov A.H. Ailə. Bakı: Maarif, 1989, 256 s.
3. Əliyev R.I. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları.Bakı: Araz, 2000, 196 s.
4. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 1993, 230 s.
5. Quliyeva Ş.M. Azərbaycan ailələrində gənc qızlara münasibətin və onların ailə həyatına hazırlanmasının psixoloji problemləri: Psixol. ü.f.d., dis.Bakı: 2016,152 s.

РЕЗЮМЕ

ЭТНОПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОДГОТОВКИ К СЕМЕЙНОЙ ЖИЗНИ МОЛОДЫХ ДЕВУШЕК НАШЕГО НАРОДА

Гулиева Ш.М

***Ключевые слова**: люди, молодежь, семья, честь, рвение, личность, этнопсихологические, отношение*

В статье рассматриваются этнопсихологические особенности подготовки девушек к семейной жизни у предков нашего народа – огузов. С этой точки зрения эпос «Китаби-Деде Горгуд» имеет особое значение для правильного понимания и самооценки народа.

Вопрос о подготовке молодых девушек к семейной жизни широко рассматривается в эпосе «Китаби-Деда Горгуд». Здесь нашли свое отражение этнические черты характера, стереотипы и ориентации, чувства, нравы и традиции, присущие предкам, что позволяет понять традиции и семейные отношения нашего народа

SUMMARY
ETHNOPSYCHOLOGICAL FEATURES OF PREPARATION FOR FAMILY LIFE OF YOUNG GIRLS OF OUR PEOPLE
Guliyeva Sh.M.

Key words: *people, youth, family, honor, zeal, personality, ethnopsychological, relationship*

The article deals with the ethno-psychological features of the preparation of girls for family life among the ancestors of our Oghuz people. From this point of view, the epos "Kitabi-Dede Gorgud" is of particular importance for the correct understanding and self-esteem of the people.

The issue of preparing young girls for family life is widely considered in the epic Kitabi-Deda Gorgud. Ethnic character traits, stereotypes and orientations, feelings, mores and traditions inherent in ancestors are reflected here, which allows us to understand the traditions and family relations of our people.

XARİCİ DİL DƏRSLƏRİNDƏ İNNOVATİV METODLARIN TƏTBİQİ

Allahquliyeva C.M.
Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki Kolleci, Sumqayıt, Azərbaycan
cavahir.allahquliyeva77@gmail.com

Açar sözlər*: tədris, internet resursları, metodika, xarici dil, ali təhsil*

Cəmiyyətin innovativ inkişafı dövründə intellektual əmək bazarında yalnız yüksək peşəkar biliyə deyil, həm də təşkilati, tədris, idarəetmə bacarıqlara malik, geniş elmi dünyagörüşlü mütəxəssislərə ehtiyac duyulur. Bu səbəbdən müasir informasiya cəmiyyətində ali təhsil müəssisələrinin məqsədi reallığı bütövlüklə dərk edən, sosial və peşə sferasında mobil fəaliyyət göstərə bilən, yaradıcı şəxsiyyətin formalaşdırılmasıdır. Ölkəmizin dünya birliyinə inteqrasiyası kontekstində peşəkar məqsədlər üçün xarici dilin istifadəsi mütəxəssislər üçün zərurətə çevrilir. Mövcud şəraitdə ali təhsil müəssisələrində xarici dil orta ixtisas fənni kimi yox, gələcək peşə fəaliyyəti üçün zəruri alət kimi qəbul edilməlidir, çünki vahid beynəlxalq təhsil standartlarına cavab vermək, əmək və akademik mobilliyi təmin etmək, birgə elmi-tədqiqat və istehsalat fəaliyyəti ilə məşğul olmaq yüksək səviyyədə xarici dil biliyi olmadan mümkün deyil [2,312]. Bununla belə, təcrübə göstərir ki, universitetlərdə xarici dillərin tədrisi keyfiyyəti əsasən yüksək xarici dil bilikli mütəxəssislərin yetişdirilməsi tələblərinə cavab vermir. Burada yalnız tədrisi ingilis dilində aparılan qrupları istisna etmək olar. Qeyd etmək istəyirik ki, xarici dillərin tədrisi metodları cəmiyyətin və fərdin ehtiyaclarını hələ də tam ödəyə bilmir. İntellektual əmək bazarında mövcud olan rəqabət ali məktəblərin bazarın müəyyən sahə üzrə mütəxəssislərə olan tələbatını ödəmək üçün problemlər yaradır. Bu gün bizə hərtərəfli inkişaf etmiş müxtəlif bacarıqlara malik, cəld və sərbəst qərar verə bilən, müxtəlif şəraitdə fəaliyyət göstərməyi bacaran, mürəkkəb problemlərin həlli yollarını müstəqil şəkildə axtaran kadrlara ehtiyacımız var. Bu baxımdan, yüksək səviyyəli xarici dil biliyi müəyyən edilmiş vəzifələrin həlli üçün ilkin şərtdir. Bu problemi həll etmək üçün ali təhsil sisteminin müasirləşdirilməsi, yəni yüksək effektiv təlim texnologiyaları, müxtəlif tədris üsullarının tədris prosesinə tətbiqi tələb olunur ki, bu da təhsilin strukturunda, məzmununda, texnologiyalarında və təşkilində mühüm dəyişikliklərin edilməsini nəzərdə tutur.

Son zamanlar ali təhsil müəssisələrində xarici dil hazırlığı təcrübəsinə innovativ təhsil texnologiyaları geniş şəkildə tətbiq edilir. Hazırda kifayət qədər müasir effektiv texnologiyalar var ki, bunlardan birgə təlim, layihə metodologiyası, yeni informasiya texnologiyalarından istifadə, internet resursları, multimedia proqramları, multimedia təqdimatları, onlayn test interaktiv proqramları, distant təhsil və s. göstərmək olar.

İnnovativ üsullar xarici dil dərslərində aşağıdakı məqsədlərə nail olmağa imkan verir:

- tədris materialının tez və asan qavranılması;
- əldə olunan biliyin sistemləşdirilməsi;
- tələbələrin yaradıcılıq qabiliyyətlərinin inkişafı;
- psixoloji maneənin aradan qaldırılması (ünsiyyət qurmaq, səhv etmək qorxusu);
- tədris materialının qavranılması, öyrənilən materialın təhlili.

Xarici dil hazırlığı, qarşılıqlı əlaqə qurmaq və qarşılıqlı anlaşmaya nail olmaq, xarici dildə ünsiyyət qurmaq hazırlığı və bacarığı formalaşdırmaq məqsədi daşıyır. Peşəkar səviyyədə müxtəlif sahələrdə xarici dil biliyinə malik olmaq şəxsiyyətin özünün inkişafı üçün də prioritetdir. Multikultural cəmiyyətdə xarici dil kommunikativ bacarıqlara malik olmadan aktiv fəaliyyət göstərmək mümkün deyil. Xarici dil səriştəsinin formalaşmasında müasir informasiya texnologiyaları xüsusi rol oynayır. Tədris prosesində innovativ metodların tətbiqi internetin iştirakı olmadan mümkün deyil. İnternet tələbələrə real vaxt rejimində xarici dilin daşıyıcıları ilə vizual ünsiyyət üçün unikal imkan yaradır ki, bu da əcnəbi dildə danışanların orijinal səsləri, üz ifadələri və jestləri əsasında canlı nitqin düzgün qavranılmasına kömək edir. Tələbə internet resursları ilə işləyərkən və ya video dərsləri izləyərkən öyrəndiyi dildə səsləndirilən şeirlərə, mahnılara, atalar sözlərinə və s. rast gələ bilər.

Multimedia informasiyanın səs və vizual formada işlənməsini həyata keçirən proqram və texniki vasitələrin məcmusudur. İnteraktiv iş rejimində qrafika, animasiya, foto, video, səs, mətnin müşayiəti inteqrasiya olunmuş informasiya mühiti yaradır ki, burada istifadəçi (bizim halda tələbə) təlim prosesində keyfiyyətcə yeni imkanlar əldə edir [1,3]. Multimedia proqramları xarici dili öyrənmək üçün motivasiyanı artırır, fonetik, leksik və qrammatik bacarıqları effektiv şəkildə işləmək və müstəqil şəkildə idarə etmək imkanı verir.

Bu gün xarici dilin tədrisində istifadə olunan informasiya-kommunikasiya texnologiyaları vasitələri arasında kompüter xüsusi yer tutur. Xarici dilin öyrədilməsində məqsəd interaktiv ünsiyyət olan kompüter ən uyğun vasitədir.İnnovativ kompüter texnologiyaları tələbələrə əks əlaqə yaratmağa imkan verir və bununla da xarici dillərin öyrənilməsi prosesini keyfiyyətcə təkmilləşdirir. Kompüter, lazım gələrsə, tələbələrə biliklərin mənimsənilməsi və qiymətləndirilməsinə nəzarət etmək üçün daha çevik sistem tətbiq edə bilər, auditoriyada rahat psixoloji atmosfer yarada və özünə inam qazanmağa kömək edə bilər. Kompüter proqramlarından istifadə tələbələrin idrak fəaliyyətini və intellektual qabiliyyətlərini, yaddaşını, diqqətini, məntiqi təfəkkürünü inkişaf etdirir. Bütün dünyada milyonlarla istifadəçini birləşdirən həm yerli, həm də qlobal kompüter şəbəkələrinin təhsilə verdiyi dəstək demək olar ki, əvəzsizdir.

Ali təhsilin keyfiyyətinə təsir edən amillərdən biri də yaxşı maddi-texniki bazanın olmasıdır. Xarici dildə ünsiyyət bacarıqlarının formalaşması üçün otaqlarının müasir texniki tədris vasitələri: video və audio sistemlər, kompüterlərlə təchiz edilməsi zəruri şərtdir. Burada metodiki dəstək də az əhəmiyyət kəsb etmir: mətnlər, müxtəlif mövzularda video və audio materiallar olan dərsliklər.

Beləliklə qeyd edək ki, qloballaşma mərhələsində şəxsiyyətin uğurlu sosiallaşmasının ən mühüm şərtlərindən biri xarici dilləri bilməkdir. Dünya iqtisadiyyatında və mədəniyyətində baş verən dəyişikliklər fonunda xarici dil obyektiv zəruri sosial dəyərdir və müasir şəraitdə xarici dilin beynəlxalq ünsiyyət vasitəsi kimi öyrənilməsi məsələsi xüsusi əhəmiyyət kəsb edir. Ali təhsil müəssisələrində xarici dil bilikli səriştəli mütəxəssis hazırlığını informasiya texnologiyalarından istifadə etmədən təsəvvür etmək mümkün deyil. Bu isə öz növbəsində mövcud kurikulumların, o cümlədən xarici dillərin məzmununun müasirləşdirilməsini, ənənəvi kursları tamamlayan yeni kursların işlənib hazırlanmasını, ali təhsil sahəsində aktiv metodların tətbiqini zəruri edir [3]. Eyni zamanda tələbələrin elmi-tədqiqat işləri sisteminin təkmilləşdirilməsinə böyük əhəmiyyət verilir: xarici dil olimpiadalarının, xarici dildə məruzələrlə konfransların keçirilməsi, kurs və diplom layihələri üçün xülasələrin yazılması və s.

Onlayn resurslar didaktik materialların mənbəyi kimi fəal şəkildə istifadə olunması da vacib şərtlərdən biridir. Tədris prosesinin mümkün qədər səmərəli təşkili üçün müxtəlif multimedia dərslikləri, elektron dərs vəsaitləri, elektron testlər və s. internetin imkanlarından geniş istifadə olunmalıdır.

Ədəbiyyat

1. Роберт И.В. О понятийном аппарате информатизации образования // Информатика образования. – №12. – 2002. – с. 2-6.
2. Хлыбова М.А. Особенности смешанного обучения иностранному языку в неязыковом вузе // Азимут научных исследований: педагогика и психология. - 2021. - Т. 10, № 2 (35). - с. 311-313.
3.Щербина Л.Д. Теория и методика профессионального образования», https://www.dissercat.com/content/intensivnoe-obuchenie-inostrannym-yazykam-v-tekhnicheskom-vuze

РЕЗЮМЕ

ПРИМЕНЕНИЕ ИННОВАЦИОННЫХ МЕТОДОВ НА УРОКАХ ИНОСТРАННОГО ЯЗЫКА

Аллахгулиева Дж.М.

***Ключевые слова**: обучение, интернет-ресурсы, методика, иностранный язык, высшее образование*

Современное развитие общества требует от специалистов с высшим образованием высокого профессионализма, а также знания иностранных языков и умения свободно общаться на иностранном языке в различных сферах. Это, в свою

очередь, вызывает необходимость поиска и использования новых инновационных методов и технологий в обучении иностранному языку. Применение инновационных методов обучения позволяет поднять качество образовательного процесса на новый уровень. В целях повышения практических навыков владения иностранным языком у молодых специалистов необходимо использовать более эффективные инновационные методы при обучении иностранным языкам.

SUMMARY
APPLICATION OF INNOVATIVE METHODS IN FOREIGN LANGUAGE LESSONS
Allahguliyeva J.M.
Sumgait State Technical College

***Key words**: teaching, Internet resources, methodology, foreign language, higher education*

The modern development of society requires high professionalism from specialists in higher education, as well as knowledge of foreign languages and the ability to communicate freely in a foreign language in various fields. This, in turn, necessitates the search and use of new innovative methods and technologies in teaching a foreign language. The use of innovative teaching methods allows raising the quality of the educational process to a new level. In order to improve the practical skills of a foreign language among young professionals, it is necessary to use more effective innovative methods in teaching foreign languages.

MÜASİR GƏNCLƏRDƏ DAVRANIŞ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASININ PSİXOLOJİ PROBLEMLƏRİ

Əlixanova G.H.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
gulnare.alixanova@mail.ru

Açar sözlər: *davranış mədəniyyəti, dürüstlük, insan şəxsiyyəti, ünsiyyət prosesi, məqsədyönlü proses, özünüdərk, özünənəzarət.*

Müasir cəmiyyətin inkisafı təhsilin qarşısında yeni tələblər qoymaqda davam edir. Burada əsas məqsəd yetisməkdə olan gənc nəslin təbii imkanlarını inkisaf etdirmək, ona elmin əsaslarını öyrətmək, fiziki, əqli, intellektual imkanlarını, maraq və idrak qabiliyyətlərini nəzərə alaraq onun səxsiyyətini formalasdirmaq, müstəqil, yaradıcı düşünən, davranış mədəniyyətinə Azərbaycanın inkisafi naminə fədakar çalışan vətəndaş tərbiyə etməkdir. Davranış mədəniyyəti bütün dövrlərdə yüksək qiymətləndirilmişdir.

Ümummilli lider Heydər Əliyev insanları nümunəvi davranış mədəniyyətinə sahib olmaq üçün milli mənlik şüuruna sahib olmağı daha məqsədəuyğun olduğunu qeyd edirdi: "hər bir fərd saf əxlaqın mənasını dərk etsə və öz davranışını milli mənəviyyat normalarına uyğunlaşdırsa, ölkədə həmişə əmin-amanlıq, bin-bərəkət olar". İnsanlar ədəb-ərkan qaydalarına, yüksək mənəvi prinsiplərə yiyələnər, cəmiyyətdə, ailədə olna davranışları və rəftarları daha qənaətbəxş olar.

Müasir dövrdə məktəb qarşısında duran həlli vacib vəzifələrdən biri də davranış qüsürları olan uşaq və yeniyetmələrlə aparılan işin təşkil edilməsi ilə bağlı problemlərdir. Mədəni davranış insanın şəxsiyyət kimi formalaşmasında, özünüqiymətləndirməsində, özünənəzarətdə və ziyanlı vərdişlərdən uzaqlaşmasında çox əhəmiyyətlidir.

Son dövrlərdə baş verən sosial-iqtisadi prosseslər gələcəyimiz olan uşaq, yeniyetmə və gənclərin davranış mədəniyyətinin düzgün formalaşdırılması haqqında dərindən düşünməyə vadar edir. Məktəb yaşı dövründə uşaqlarda qüsurlu davranışın təzahürləri artıq kiçik məktəb yaşı dövründə kəskin nəzərə çarpmağa başlayır. Bu hal uşağın aşağı intellektual inkişaf səviyyəsi ailədə və ətrafındakı insanların həmin uşağa nümayiş etdirdikləri mənfi təzahürlərin təsiri nəticəsində təzahür edir. Uşaq böyüyüb yaşa dolduqca onun davranışına hopmuş bu qüsurlar məzmunca mürəkkəbləşir və yeni qüsurların meydana gəlməsinə səbəb olan amillər isə daha da artmağa başlayır.

Yeniyetməlik dövründə qazanılan qüsurlar özünü yeniyetməmin daxil olduğu qrupun dəyərlərinə etinasızlığında, yaşlıların tələblərini eşitməməsində, əxlaq normalarına riayət etməməsində, sosial davranış və rəftarında, eyni zamanda idrak proseslərinin inkişaf etməməsi səbəbi ilə təlim uğursuzluqlarında özünü biruzə verir. Buradan da belə bir nəticə çıxır ki: mədəniyyət əslində yalnız mədəni görünmək deyil, o, insanın daxilində, duyğularında, varlığında, rəftar və hərəkətlərində təzahür etməlidir. Bununla belə müasir dövrdə yeniyetmə və gənclərin özünəməxsus proritetləri sayılan həyata fərqli bacarıq və dəyərlər sistemi yaranmaqdadır [1, s.67].

Davranış mədəniyyəti normalarına aşağıda göstərilənləri aid edə bilərik:

- nəzakətlilik - ətrafındakı insanlarla qarşılıqlı münasibətində mədəni və nəcib davranışlılıq;

- ədəblilik – hər hansı bir vəziyyətdə hamı tərəfindən qəbul edilmiş dəyərlər çərçivəsində özünü apara bilmək;
- mərifətlilik - danışıq zamanı, şəxsi və işgüzar münasibətlərdə gözlənilməsi zamanı ölçü hissini, «sərhədi hiss etmək» bacarığı;
- Mərifət, eyni zamanda digər insanın reaksiyasını olduğu kimi anlamağa imkan verən daxili duyma qabiliyyətinin olması;
- zəriflik - insanların fərdi və yaş xüsusiyyətlərini aşkarlamaq və nəzərə almaq bacarığı;
- təvazökarlıq - bütün hallarda öz fərdiliyini qoruyub saxlamaq bacarığı, özünə aid olmayan roldan çəkinmək, öz üstünlüyünü müsbət cəhətləri ilə lovğalıq və ədəbazlıqla göstərməmək;

Bu məqsədlə gənclərə milli-mənəvi dəyərlərin aşılanması, milli ruhda tərbiyə edilməsi və milli mənsubiyyətimizin qorunmasına töhfə verəcək "Davranış Mədəniyyəti Konsepsiyası"nın hazırlanmasına başlanılması cəmiyyətin, xüsusilə də gənc nəslin hərtərəfli inkişafı Azərbaycanın daxili siyasətinin mühüm istiqamətlərindəndir [3, s.21].

Davranış mədəniyyətinin insanlar arasındakı inkişafı sadədən mürəkkəbə, ibtidaidən aliyədək uzun bir yol keçmişdir. Nəticədə təfəkkürü ifadə edən davranış mədəniyyətinin meydana gəlməsi, insanların öz düşüncələrini, hisslərini, onları narahat edən hadisələri bir –birinə ötürməsində fikir və qarşılıqlı düşüncə tərzli imkanları çox inkişaf etmişdir. "Özün üçün nəyi arzu edirsən və istəyirsənsə, başqa insalar üçün də onu arzu et və istə" kimi davranış qaydaları və davranış texnikası ictimai münasibətlərin rəvanlığına imkan yaradır.

Müxtəlif nəsillərdən olan insanların etik təsir vasitələri ilə mənəvi zənginliyi böyük mütəfəkkirlərin, söz-sənət ustalarının həmişə diqqət mərkəzində olmuşdur. Görkəmli əxlaq nəzəriyyəçisi, ensiklopedik bilik sahibi "Əxlaqi Nasiri" əsəri ilə dünyanı heyran edən, X-XI əsrdə yaşayıb yaratmış Nəsirəddin Tusi də etika elminin başlıca istiqamətlərini olduqca inandırıcı, həyatı mövqedən işıqlandırmışdır. N.Tusinin "Əxlaqi-Nasiri" əsəri bütün dövrlər üçün əhəmiyyətini itirməyən, təlim-tərbiyə, əxlaq və digər davranış qaydalarına dair qiymətli fikirlərlə zəngin olan əbədiyaşar bir əsərdir. Uzun illər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan "Əxlaqi-Nasiri" əsərində uşaqların, yeniyetmə və gənclərin, ağıllı, vicdanlı, insaflı və vüqarlı davranışla, pak və təmizliklə, doğruluqla şöhrət tapmış adamlar haqqında tövsiyələr yer almışdır [5, s.98].

Davranış mədəniyyətinin əsas mahiyyəti haqqında fikirlər həmişə müxtəlif olmuşdur. İzahlı lüğətlərdə davranış mədəniyyəti insanların işgüzar və dostluq əlaqələri, qarşılıqlı münasibətlər kimi şərh edilir. Pedaqoji lüğətlərdə davranış mədəniyyəti, əxlaq, etika, estetik mədəniyyət normalarına əməl etməklə cəmiyyətdəki bir şəxsin şəxsiyyət, gündəlik hərəkətləri, sosial baxımdan əhəmiyyətli keyfiyyətlər toplusu kimi izaha rast gəlinir. Davranış mədəniyyəti haqqında psixoloqlar 30-cu illərdən başlayaraq müxtəlif cür yanaşmalar vermişlər. A.S.Vıqotski onu fəaliyyət kimi, B.Q.Ananyev isə əmək və təfəkkür kimi tədqiq edirdi. Deyilənləri ümumiləşdirərək davranış mədəniyyətini bu cür ifadə etmək olar: "davranış mədəniyyəti gündəlik həyatda, ünsiyyətdə və digər fəaliyyətlərdə gündəlik davranışın davamlı formalarıdır."

Hər bir şəxsin davranışının bütövlükdə mədəni səviyyəsi ilk olaraq tərbiyə aldığı ailə və yaşına müvafiq olan digər təhsil müəssisələrində formalaşır. Aparılmış tədqiqatların nəticələrindən məlum olur ki. gənclərin birgə fəaliyyətdə ünsiyyəti düzgün qura bilməməsi problemi onlarda bu sahədə psixoloji mədəniyyətin kifayət qədər inkişaf etməməsi və təhsildə stimullaşdırıcı vasitələrin tətbiq edilməməsi amillərindən asılıdır [7, s.254]. Pedaqoji – psixoloji ədəbiyyatda tədqiqatçı alimlər uşaqların davranış mədəniyyətinə yiyələnməsi probleminə aid fikirlərinə görə 4 qrupa bölünürlər:

- Birinci qrupa daxil olan alimlər uşaqlara davranış mədəniyyəti barədə xüsusi biliklərin verilməsini iddia edir və bunun üçün xusüsi vəsaitlərin olmasını zəruri hesab edirlər.
- İkinci qrupa daxil olan alimlər davranış mədəniyyətini formalaşdırmağın əsas yolu kimi uşaqların asudə vaxtının düzgün təşkil olunması, istirahət və əyləncə mərkəzlərinin yaradılması, ailə ilə birgə səmərəli vaxtın keçirilməsini əsas götürürlər. Eyni zamanda sinifdənxaric, məktəbdənkənar tədbirlərə xüsusi diqqətin artırılmasını təklif edilir.
- Üçüncü qrupa daxil olan alimlər isə gələcək zamanı nəzərə alaraq qeyd edirlər ki, tədris yükünün, proqramının ağırlığı mütləq nəzərə alınmalı və davranış mədəniyyətinin formalaşması üçün dolayı yola ciddi fikir verilməlidir.
- Son qrup alimlər, uşaqların, yeniyetmə və gənclərin kommunikasiya qabiliyyətlərinin inkişafı üçün psixoloji testlərin, işgüzar və idman oyunlarının vacibliyindən bəhs edirlər.

XX əsrin 50- ci illərdə "davranış mədəniyyəti" kimi tədqiq edilən problem, 70-ci illərdən başlayaraq "şəxslərarası münasibət mədəniyyəti" kimi daha sonra müxtəlif sahələrdə, eyni zamanda pedaqoji sahədə də davranış mədəniyyəti kimi öyrənilirdi. Davranış mədəniyyətinin əsasını demokratiya, ədalət, insana və insan şəxsiyyətinə hörmət təşkil edir [4, s.67]. Ünsiyyət prosesində təzahür edən davranış mədəniyyətində

ünsiyyət probleminin elmi izahat və təhlili vardır. Ünsiyyətin növləri olan ünsiyyət, nitq və pedaqoji-ünsiyyəti və s. davranış mədəniyyətinin əsas ünsürlərindəndir. Davranış mədəniyyətinin formalaşması, inkişaf etməsi üçün yol və imkanlar kifayət qədərdir. Bunlardan bəzilərini aşağıdakı kimi göstərmək olar:

a) ailənin imkan və rolunun davranış mədəniyyətinin formalaşmasına təsiri;
b) davranış mədəniyyətinin formalaşmasında konfliktlərin düzgün təhlilinin rolu;
c) uşaqların cinsi, fərdi xüsusiyyətlərinin və yaş dövrlərinin nəzərə alınması;
d) müəllimin şəxsi nümunəsinin uşaq və gənclərdə davranış mədəniyyətinin formalaşmasına təsiri.

Azərbaycan xalqının müdrik insanları, qabaqcıl elm adamları, nənə və babalarımız, insanın bir şəxsiyyət kimi inkişafında mədəni davranışın böyük əhəmiyyətə malik olduğunu hər zaman əsas götürmüşlər.

Görkəmli N.Gəncəvi "Xəmsə", M.Füzuli "Şikayətnamə" əsərində, M.Ə.Sabir satirik şerlərində insanların daxili və psixoloji xüsusiyyətlərini göstərməklə yanaşı, onun qanunauyğunluqları açaraq diqqəti həmin psixoloji çalara yönəltmişlər. Əsərlərdə davranış motivlərinin inkişafında insanlara münasibəti müəyyən edən mədəni motivlərin yer alması da böyük əhəmiyyətə malikdir. Bu cür misallar çoxdur [2, s.87].

Uşaqlarda mədəni davranış mədəniyyətinin və adətlərin formalaşması prosesində diqqəti cəlb edən psixoloji problemlərdən biri də onların milli kökə, azərbaycançılığa və türkçülüyə dərindən yiyələnmələridir. Eyni zamanda yaxşı əxlaq sahibi olmaq yalnız mənsub olduğu millətin nümayəndəsi kimi dünyaya gəlməklə bitmir. Sokrat görə: "Yunanları yunan edən yunanlı olaraq doğulması deyil aldığı təlim, təhsil və tərbiyədir". Davranış mədəniyyəti qeyd etdiyimiz kimi çox geniş məhfumdur və onun ətrafında bir çox fəaliyyət, ünsiyyət, gigiyenik qaydalar kimi məhfumlar cəmlənir. Davranış mədəniyyəti məhfumları sırasında daha geniş formada:

- insanlarla qarşılıqlı əlaqə,
- faydalı işlə məşğul olmaq,
- böyüklərin tələblərinə, sözlərinə qulaq asmaq,
- həmyaşlılarla dostluq,
- ictimai-sosial mühitdə insanlara qarşı pozitiv rəftar,
- süfrə mədəniyyəti, nitq mədəniyyəti,
- mehriban münasibətlərin qurulması,
- qonaq getmək və qonaq qarşılamaq,
- əşyalara və heyvanlara qarşı bir çox davranış nümunələri kimi münasibətlər toplanır.

Ailədə valideynlər uşaqlarına nümayiş etdirdikləri tərbiyənin və davranışın məqsədini aydın təsəvvür etməli, məqsədi uşağın mənafelərinə istiqamətləndirməlidirlər [6, s.245].

Davranış mədəniyyəti eyni zamanda digər vasitələrin köməyi ilə də məsələn: bədii vasitələr; təbiət; özfəaliyyətlər; rabitə, televiziya vasitəsilə və mühitdə həyata keçirilir. Bu zaman həyata keçirilən bütün tərbiyə metodları müəyyən bir davranış mədəniyyətinin gəncdə formalaşdırma məqsədi güdür. Pedaqoji – psixoloji ədəbiyyatda tədqiqatçılar tərəfindən tərbiyə mexanizminin fəallığını təmin edən bir çox üsul və vasitələr müxtəlif formalarda təsnif edilir. Təsnifatda bütün metodlar üç qrupda birləşdirilir:

- mədəni adət və vərdişləri formalaşdıran metodları: məşqlər, təlimatlar, tələblər və təhsil vəziyyətləri;
- əxlaqi şüurun formalaşdırılması metodları: izah, nəsihət, təklif, tələb, etik söhbət və nümunə;
- təşviq metodları: təşviq, rəqabət, təsdiq, mükafatlandırıcı və subyektiv-praqmatik.

Davranış mədəniyyətinin formalaşmasına kömək edən pedaqoji - psixoloji metodların seçilməsi zamanı bir sıra prinsiplərə riayət edilməlidir: metodun təhsilin məqsəd və vəzifələrinə uyğun olması; metodun humanistliyi; metodun real olması; metoddan istifadə üçün şərt və vasitələrin hazırlığı; metod seçiminin seçiciliyi; metod tətbiqinin həssaslığı; metodun təsirinin mümkün nəticəsinin planlaşdırılması; metoddan istifadə edərkən müəllimin səbri və tolerantlığı; Tədris müəssisələrində və ali məktəbdə çalışan müəllimlər vəzifəsindən, elmi dərəcəsindən asılı olmayaraq, gənclərlə dostluq mövqeyinə üstünlük verməli, rəftarında, səmimiyyətində ideal müəllim səviyyəsini qorumalıdırlar.

Nəticədə gənclərdə düzgün davranış mədəniyyətinin formalaşmasında, inkişafında ailənin, tərbiyəçi, müəllim və yaşlıların rolu xüsusilə vurğulanmalıdır. Davranış mədəniyyətinin formalaşması üzərində iş sistematik şəkildə aparılmalıdır. Hər hansı bir davranış mədəniyyətinin köklü və düzgün şəkildə formalaşması üçün həmin vərdişə uşaq yaşlarından gündəlik davranışlarında əməl etməsinə nəzarət ən vacib məsələdir.

Ədəbiyyat

1. Baxşəliyev.Ə.T., Rəhimova Q.V. Azərbaycanlı gənclərdə mədəni adət və vərdişlərin formalaşmasının psixoloji əsasları, Bakı: 2017. 132 s.
2. Əlizadə Ə.Ə. Xəmsədə yaş və pedaqoji psixologiya məsələləri. Bakı, 2002, 215 s.
3. Əkbərov N.A. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları . Bakı: Bərəkət, 2009. 78 s.
4. Qədirova R.H. Ünsiyyət psixologiyası. Dərs vəsaiti. Bakı, 2016, 152 s.
5. Tusi N. Əxlaqi-nasiri. Bakı: 2005. 278 s.
6. Ильин, Е.П. Психология общения и межличностных отношений / СПб.: Питер, 2013. -576 с.
7. Кузнецов И.Н.Современный этикет. Издательство: Дашков и К . 2019, 550 с.

РЕЗЮМЕ
ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ В ФОРМИРОВАНИИ КУЛЬТУРЫ ПОВЕДЕНИЯ У СОВРЕМЕННОЙ МОЛОДЕЖИ
Алиханова Г.Г.

Ключевые слова: *культура поведения, честность, личность человека, процесс общения, целенаправленный процесс, самосознание, самоконтроль.*

В статье рассматриваются проблемы правильного формирования культуры поведения. Подчеркнуты роль семьи, воспитателей, педагогов и пожилых людей в формировании, развитии культуры правильного поведения у молодежи. Работа по формированию культуры поведения должна проводиться систематически. Для укоренения и правильного формирования любой культуры поведения важнейшим является контроль за соблюдением этой привычки в повседневном поведении с детских лет. Наличие у молодых людей культуры позитивного поведения приводит к тому, что они растут настоящими гражданами, с высоким самосознанием и самообладанием.

SUMMARY
FORMATION OF BEHAVIOR CULTURE IN MODERN YOUTH PSYCHOLOGICAL PROBLEMS
Alikhanova G.H.

Key words: *behavioral culture, honesty, human personality, communication process, purposeful process, self-awareness, self-control.*

The article discusses the problems of the correct formation of a culture of behavior. The role of the family, educators, teachers and the elderly in the formation and development of a culture of correct behavior among young people is emphasized. Work on the formation of a culture of behavior should be carried out systematically. For the rooting and proper formation of any culture of behavior, the most important thing is to monitor compliance with this habit in everyday behavior from childhood. The presence of a culture of positive behavior among young people leads to the fact that they grow up to be real citizens, with high self-awareness and self-control.

AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ VƏTƏN MÜHARİBƏSİ TARİXİ MƏSƏLƏLƏRİ

Şamilova A.M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
aysel.yaqubova5@mail.ru

Açar sözlər: *Vətən müharibəsi, prezident, qələbə, təhsil, tələbə, vətənpərvərlik*

Bildiyimiz kimi BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 822, 853, 874, 884 nömrəli qətnamələri qəbul edib. Bu qətnamələrdə atəşkəsin elan olunması, hərbi əməliyyatlara son qoyulması, işğalçı qüvvələrin Azərbaycanın ərazisindən çıxarılması tələbləri irəli sürülüb. Lakin BMT kimi böyük təşkilatın qəbul etdiyi bu dörd qətnamələrə baxmayaraq, Ermənistan silahlı qüvvələri bu qətnamələrə riayət etmir və atəşkəsi hər daim pozurdu. BMT-nin yerinə yetirmədiyi bu qətnamələrə 44 günlük müharibə yerinə yetirdi. Ümumiyyətlə, 2003-cü ildə Azərbaycan üçün yeni mərhələ başlayır. Və bu mərhələnin ən xarakterik xüsusiyyəti xalq iqtidar birliyi idi. Belə ki, II Qarabağ müharibəsi dövründə xalq - iqtidar birliyi özünün ən yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Prezidentimiz İlham Əliyev "Azərbaycan Respublikasında qismən səfərbərliyin elan edilməsi haqqında" fərman imzaladı. Fərmanda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təsdiq edilmiş planlar əsasında və müəyyən edilmiş qaydada hərbi xidmətə çağırılmış şəxslərin hərbi xidmətə çağırılmasını, hərbi vəziyyətdən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etməyi tapşırıldı [1, s6].

Azərbaycan xalqı düşmən qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alan, düşmənə sarsıdıcı zərbələr endirən Azərbaycan ordusunun qalibiyyət xəbərlərini böyük sevinc və qürur hissi ilə qarşıladı. Vətəndaşlarımızla bərabər xaricdə yaşayan azərbaycanlılar, həmçinin qardaş Türkiyə vətəndaşları Ali Baş

Komandanımız İlham Əliyevə minnətdarlıq məktubları göndərirdilər. Türkiyə vətəndaşları Prezidentimiz İlham Əliyevə məktub yazaraq qardaş ölkənin torpaqlarını işğalçılardan azad edilməsində döyüşlərdə iştirak etmək istədiklərini, buna hər zaman hazır olduqlarını bildirmişlər. Müharibə başlayan gündən paytaxtımızın küçələrində, eyvanlarda, digər obyektlərdə minlərlə bayrağımız dalğalınrdı. Əhali ev və maşınlarını qələbəmiz şərəfinə bayraqlarla bəzəyirdilər.

Müharibədə xeyli itkilər verən, xüsusilə canlı qüvvəyə görə Azərbaycandan daha çox itkilər verən ermənilər müharibənin dayandırılması üçün böyük dövlətlərin rəhbərlərinə hansı səviyyədə müraciət etsələr də bu elə bir nəticə vermədi. Ermənilərin canlı qüvvəsinin çox itkisi barədə isə Ali Baş Komandan İlham Əliyev çox haqlı olaraq bildirmişdi ki, "Bu gün Azərbaycan ordusu öz torpaqlarında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpaqda nə işi var?" [6, s.51].

Bütün bunları nəzərə alaraq yaxşı olardı ki, ali təhsil müəssisələrində Azərbaycan tarixinin tədrisində Vətən müharibəsi tarixi məsələlərinə xüsusi diqqət ayrılardı. Qeyd etdiyim kimi 2003-cü ildə ölkəmiz üçün yeni səhifə, yeni mərhələ başlayır və bu mərhələnin xarakterik xüsusiyyəti ordu quruculuğu məsələləri idi. Qələbəmiz, zəfərimiz haqqında ali təhsil müəssisələrində xüsusi nəzəri kursların keçilməsi məqsədəuyğun olardı.

Ali məktəblərdə tədris olunan Azərbaycan tarixi ilk növbədə dövlətçilik tariximiz və onların ənənələri barədə məsələlərə xüsusi diqqət yetirilir. Ulu öndər Heydər Əliyev dövlətçilik tariximizə və onun ənənələrinə yüksək qiymət verərək demişdir: "Fəxr edirik ki, itirilmiş dövlətçilik ənənələrini XX əsrin sonlarında bərpa etmək fürsəti bizim nəslə nəsib olmuşdur. Azərbaycan Respublikasında dövlətçilik ənənələrinin zənginləşdirilməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, onun əbədi edilməsi hər birimizdən var qüvvəsini sərf etməyi tələb edir" [2, s.53].

Qeyd etdiyimiz kimi, ölkə başçısı İlham Əliyev və rəşadətli əsgərlərimizin sayəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə bizim üçün yeni bir mərhələnin və inkişaf dövrünün əsası qoyuldu. Bu baxımdan şagirdlərə, eyni zamanda tələbələrə vətənpərvərlik ruhunu aşılamaq və yüksəltmək, gənc nəslimizin tariximizə dair biliklərini möhkəmləndirmək, Vətənimiz uğrunda canından keçmiş qəhrəman oğullarımızın xatirəsini əbədiləşdirmək üçün orta və ali təhsil müəssisələrində qələbəmizlə bağlı stendlərin yer alması çox önəmlidir. Belə ki, qələbəmizi əks etdirən stend - guşələr torpaqlarımız uğrunda canından keçmiş şəhidlərimzin qəhrəmanlıq salnaməsi ilə daha yaxından tanış olmağa və gələcəyimiz olan gənclərimizin vətənpərvər ruhda formalaşmasına təkan verməsinə kömək olar.

Prezidentimiz İlham Əliyev demişdir: "İkinci Qarabağ müharibəsində biz Ermənistanın haradasa 4-5 milyard dollarlıq dəyərində hərbi texnikasını məhv etmişik. Bu texnikanın bir hissəsi qənimət kimi götürülüb, biz ondan istifadə edirik. Bir hissəsi isə Hərbi Qənimətlər Parkında nümayiş etdirilir" [3]. Ərazi bütövlüyümüzün bərpası uğrunda 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər ordumuzun işğalçı Ermənistanı məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir ki, bu da gənclərimizin vətənpərvərlik ruhuna müsbət təsir göstərir. Milli Dənizkənarı Parka yolu düşənlər və ya Bakıda səfərdə olan əcnəbilər və ya turist kimi ölkəmizə səyahətə gələnlər, nə qədər maraqlı və mənalı yerlərdə olsalar da, bu parkı gəzib - görmədən vətənlərinə qayıtmaq istəmirlər. Ziyarətçilər arasında bu parkı muzey adlandıranlar da çox olur. Bu muzeyə tələbələrimizin ekskursiyaların təşkil olunması ilə gənclərimizdə vətənpərvərlik hissi daha da dərinləşir, düşmənə nifət artır. Hərbi Qənimətlər Parkı Azərbaycan xalqı və dost ölkələr üçün qürur yeri, gənclərimizin qəlbində Vətənə sevgini artırdığı kimi, düşmənimiz üçün göz dağıdır. Müharibə öncəsi "Tezliklə tanklarımız Bakı küçələrində olacaq" deyən erməni tərəfi Bakıda belə bir parkın yaradılmasını erməni xalqı üçün təhqir adlandırır hətta beynəlxalq təşkilatlara Azərbaycanın "düşmənçiliyi" haqqında müraciət etməkdən də geri qalmırlar. Əlbəttə, bunlar boş addımlardır. Prezidentimiz İlham Əliyev 2021-ci il yanvarın 19-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edərkən deyib: "Azərbaycan işğal olunmuş ərazilərə qayıdandan sonra, beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri, jurnalistlər oraya səfər edir, hər şeyi öz gözləri ilə görürlər. Bu, misli görünməmiş vandallıqdır. Elə bil bu ərazilərdən vəhşi qəbilə keçib"[4].

İşğal etdikləri torpaqlara qatı düşmən kəsilən ermənilərin törətdikləri vəhşiliyi torpaqlarımız işğaldan azad olunandan sonra dünyanın müxtlif yerlərindən gəlmiş jurnalistlər öz gözləri ilə gördükləri və özlərini yazıq, kimsəsiz adlandran bu millətin iç üzünü gördülər. Ümumiyyətlə, Hərbi Qənimətlər Parkı yenidən torpaqlarımızı işğal etmək və onlara havadarlıq etmək istəyənlər üçün kabus, bütün Azərbaycansevənlər, əsas da gənclərimiz üçün isə qürur ünvanıdır.

Tariximizə mərdlik, qalibiyyət və qürur rəmzi kimi həkk olunan Zəfər paradı da bu baxımdan böyük əhəmiyyət daşıyır. Dekabrın 10-da paytaxtımız Bakı şəhərində keçirilən möhtəşəm Zəfər paradı Vətənimizin gücünü və tarixi Qələbəmizi bütün dünyaya bir daha nümayiş etdirdi. Zəfər paradı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 gün davam edən "Dəmir yumruq" hərbi

əməliyyatında qazandığı tarixi Qələbənin təcəssümü oldu. Dövlət başçımız nitqində həmin günün tarixi mahiyyətini belə açıqladı: "Azadlıq Meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu zəfər paradıdır! Bu tarixi hadisədir!" [5].

Ədəbiyyat

1. Bayramov, V. 2020-ci il - Azərbaycan tarixinin Zəfər ili / Vaqif Bayramov // Xalq qəzeti. - 2021. - 8 yanvar. - s.6.
2. Heydər Əliyev. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında // Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. 29 dekabr 2000-ci il / Bakı: XXI - Yeni Nəşrlər Evi, - 2001. - 56 s.
3. https://www.azerbaijan-news.az/az/posts/detail/xalqimizin-qurur-unvani-herbi-qenimetler-parki-1650748180
4. https://report.az/qarabag/olke-bascisi-ele-bil-bu-erazilerden-vehsi-qebile-kecib/
5. https://xalqqazeti.com/mobile/az/news/66071
6. Əliyev İ. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. - 106-cı kitab. sentyabr 2020 - oktyabr 2020. Bakı: Azərnəşr, 2021.-392s.

РЕЗЮМЕ
ВОПРОСЫ ИСТОРИИ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ
В ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА
Шамилова А.М.

Ключевые слова: *Отечественная война, президент, победа, образование, студенты, патриотизм*

В тезисах отражены вопросы истории Отечественой войны 2020 года, в результате которой благодаря умелому руководству главнокомандующего Ильхама Алиева и отваге азербайджанских солдат и офицеров, были освобождены оккупированные земли. Это стало началом нового этапа для страны. История Отечественной войны в астоящее время изучается во всех общеобразовательных учреждениях.

Так в целях увековечивания памяти о наших героических сыновьях, павших за Родину, размещены стенды, связанные с нашей победой, организуются экскурсии молодёжи в Парк военных трофеев, где находится часть трофеев захваченных нашей победоносной армией. Эти мероприятия помогут формированию у молодёжи чувства патриотизма и любви к Родине.

SUMMARY
QUESTIONS OF THE HISTORY OF THE PATRIOTIC WAR
IN THE TEACHING OF THE HISTORY OF AZERBAIJAN
Shamilova A.M.

Key words: *Patriotic war, president, victory, education, students, patriotism*

The theses reflect the issues of the history of the Patriotic War of 2020, as a result of which, thanks to the skillful leadership of Commander-in-Chief Ilham Aliyev and the courage of Azerbaijani soldiers and officers, the occupied lands were liberated. This was the beginning of a new stage for the country. The history of the Patriotic War is currently being studied in all educational institutions.

So, in order to perpetuate the memory of our heroic sons who fell for the Motherland, stands related to our victory are placed, excursions of young people to the War Trophies Park are organized, where part of the trophies captured by our victorious army is located. These events will help to form a sense of patriotism and love for the Motherland among young people.

AZƏRBAYCANDA APARILAN TİBBİ-COĞRAFİ TƏDQİQATLARIN NƏZƏRİ METODİKİ ƏSASLARI

Məmmədova A.R.
Coğrafiya İnstitutu, Bakı, Azərbaycan
ayshenmammadova1987@gmail.com

Açar sözlər: *tibbi-coğrafiya, ürək-damar, ekoloji şərait, ətraf mühit, insan səhhəti, sağlamlığı, iqlim dəyişikliyi*

Giriş. XX əsrin əvvəllərindən başlayaraq Qərb ölkələrində tibbi coğrafiya elminin formalaşması və onun praktiki üstünlüyündə aparılan araşdırmalar yeni ideyalar üzərində qurulmuşdur. İnkişaf etmiş ölkələrdə, xüsusilə də Qərbi Avropada meteorologiya və iqlimşünaslıqla məşğul olan alimlər qrupu coğrafi mühitin insan orqanizminə fiziki təsir mexanizmlərinə dair kompleks tədbirlər proqramlarını həyata keçirirlər. Fransada tibbi coğrafiya elminə dair tədqiqatlar geniş miqyas almışdır. L.Sorre (Sorre 1957) insan ekologiyasına, insan cəmiyyətinin formalaşmasında tibbi-coğrafiya elminin dəyərlərinə yönəldilən ideyaları

daha çox diqqəti cəlb edir. Ölkənin tibbi-coğrafi elmi tədqiqat mərkəzlərində funksional bölmələrinin (sanitar-epidemioloji, kartoqrafik və s.) yaradılması, yeni metodlarla tibbi-coğrafi təhlillərin aparılmasına daha çox diqqət yetirilirdi. Avropada geniş nüfuza malik olan "Tropik təbabət" adlı jurnal materiallarında tibbi-coğrafiya elminin nəzəri-metodoloji və praktiki məsələlərinə dair geniş miqyasda təhlillərinə rast gəlinir. Elmi-metodoloji və praktiki əhəmiyyətə malik olan tədqiqatların nəticələri Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən toplanır və yayılmasını təmin edir. Bununla bərabər ÜST insanların sağlamlığının qorunmasına, xəstəliklərin aradan götürülməsi hallarına qarşı müalicə-profilaktika tədbirlərinin genişləndirilməsinin siyasətini həyata keçirir [12]. Azərbaycanda da tibbi coğrafiya elminə dair müxtəlif istiqamətli araşdırmalar aparılmış və aparılmaqdadır. Problemli məsələlərin həllində AMEA-nın Coğrafiya İnstitutu, Dövlət Tibb Universiteti, Dövlət Hidrometrologiya Komitəsi və başqa təşkilatlar elmi-tədqiqat işlərini həyata keçirirlər.

2. Tədqiqatın şərhi. İqtisadi coğrafiyanın bir qolu olan tibbi coğrafiya elminin Azərbaycanda inkişafı AMEA akad. H.Ə.Əliyev adına coğrafiya İnstitutunun direktoru olmuş, akademik R.Məmmədovun təşəbbüsü ilə bağlıdır. Belə ki, Coğrafiya İnstitutunda çox böyük işlər görülməsinə baxmayaraq, keçən illər ərzində tibbi coğrafiya sahəsi təəssüf ki, geniş inkişafa malik olmamışdır. 2016-cı ilin aprelində Coğrafiya İnstitutunda "Tibbi coğrafiya" şöbəsi açılmışdır. İlk dəfə olaraq Coğrafiya İnstitutunda "Tibbi coğrafiya" şöbəsində "Azərbaycanda onkoloji xəstəliklərin yayılmasına ekocoğrafi mühitin təsiri" mövzusunda tədqiqat işi aparılmışdır. Yeni yaradılan tibbi coğrafiya sahəsini inkişaf etdirmək üçün, respublikamızın iqtisadi rayonları üzrə xəstələrin sayı və xəstəliklərin müxtəlif lokalizasiyalar üzrə yayılmasının ekocografi mühitlə əlaqədar olaraq fərqli xüsusiyyətlərini, xəstəliklərin regional yayılmasını xarici ölkə tədqiqatçılarının metodlarından istifadə edərək öyrənilib.

Coğrafi mühitin insan səhhətinə təsiri və onun proqnoz sahəsinə dair aparılan tədqiqatlarının çərçivəsində coğrafiya elmi ilə tibb elmi arasında bağlılıq yaradan problemlərinin təhlili müasir dövrdə aktualdır. Bu məqsədlə Azərbaycanda müxtəlif istiqamətli tibbi-coğrafi araşdırmalarının elmi-praktiki əhəmiyyətini nəzərə almaq məqsədəuyğundur. Problemə dair Ə.C.Əyyubov, A.Abdullayev, M.Qasımov və başqa tədqiqatçıların əsərlərində elmi-praktiki məsələlər daha ətraflı məzmunda əsaslandırılmışdır. Ə.C.Əyyubov tərəfindən aparılan iqlim və insan səhhətinin qarşılıqlı əlaqəli sistemlərinin nəticələri tibbi coğrafiya elminin inkişafında mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycanda tibbi meterologiya elminin formalaşmasında və onun metodiki araşdırılmasında Ə.C.Əyyubovun elmi tədqiqat işlərinin əhəmiyyəti çox böyükdür. Onun ürək-damar xəstəliklərinin, insanda baş verən metopataloji reaksiyasının müəyyən edilməsində rolu və coğrafi elmi mövqeyi metodiki-praktiki əhəmiyyətə malikdir. Ə.C.Əyyubovun rəhbərliyi və bilavasitə iştirakı əsasında insan orqanizminə təsir edən havanın (Abşeron yarımadası üzrə) beş metopatik effekt pillələrinin təhlükəsiz, indifferent, az riskli, riskli, kəskin riskli halları təsnifatı tibbi coğrafiya elminin proqnoz istiqamətlərinin təliminin metodikası dəyərli hesab edilir [1].

Əsas məsələlərdən biri də Ə.Əyyubov tərəfindən respublikanın kurortları və müalicə mərkəzlərinin biometeroloji səciyyəsinə dair təhlillərin aparılmasına dair metodiki cəhətdən əsaslandırılmasıdır. Bu sahədə aparılan tədqiqatların nəticələrindən yeni yaradılan kurort-müalicə komplekslərindən effektli istifadə olunur. Müxtəlif kurort-müalicə (xüsusən də Xəzər sahili) komplekslər üzrə Ə.Əyyubovun tərtib etdiyi iqlimlə müalicə edilməsinin praktiki nəticələri dəyərlidir. Qeyd etmək olar ki, aparılan mühüm məsələlərdən biri də tibbi-metoroloji proqnozlarının elmi-praktikasının nəticələrindən tibbi elmi müəssisələrdə istifadə edilməsidir [1].

Tibb elminin aparıcı alimlərinin əsərlərində də coğrafi şəraitin insan orqanizmi ilə əlaqəsinə dair araşdırmaların mövqeyi və təhlilinin metodikasına dair yanaşmaları elmi-praktiki əhəmiyyət kəsb edir. Bu sahədə H.M.İsazadənin apardığı tibbi-coğrafi tədqiqatlarında insan orqanizmində baş verən hipertoniya, vena damarlarının stenokardiya və s. xəstəliklərinin yaranması ilkin olaraq kəskin iqlim dəyişkənlikləri ilə üzvi surətdə əlaqəlidir.

M.E.Abdullayev, M.A.İrani, M.C.Qasımov və başqa tibbi elmi tədqiqatçılar insan orqanizmində baş verən müxtəlif xəstəliklərinin yaranması və yayılmasında tibbi-meteoroloji faktorlarına üstünlük vermişlər. Ağayev İ.Ə., Xələfli X.İ., Tağıyev X.İ., Tağıyeva F.Ş "Epidemologiya" (Bakı, 2012) monoqrafik tədqiqat əsərində tibbi coğrafiya elminin aktual problemlərinə dair məzmunlu ideyalar təklif olunur. Ümumi formada desək bu əsərdə tibbi coğrafiya elmin epidemiologiya ilə əlaqəsinə dair mənbələr daha praktiki əhəmiyyətə malikdir.

R.M.Mahmudov "Tibbi fizologiyanın əsasları" (Bakı, 2017) adlı əsərində insan orqanizmin xarici mühitlə (coğrafi mühitlə) əlaqəsinə dair araşdırmaları və alınan nəticələri tibbi coğrafiya elminin təhlilləri üçün çox faydalı mənbələrindən biridir. Əsas məsələ ondan ibarətdir ki, bu əsərdə insan fizologiya elminin

inkişafında bir çox faktorlarla birlikdə xarici mühitin (coğrafi mühitin) təsiri mexanizminin variantlarının əsas kimi tədqiqat sahəsinə çevrilməsinə dair geniş məzmunlu materialların verilməsidir.

AMEA Coğrafiya İnstitutunun əməkdaşları U.R.Tağıyeva və C.N.Əhmədova [5] tərəfindən tərtib edilmiş "Tibbi-meteroloji proqnozların hazırlanması üçün metodik vəsait"in (Bakı, 2015) tibbi coğrafiya elmi üçün dəyərli tədqiqatlardan sayılır. Metodiki vəsaitdə meteoroloji proqnozlaşmasının əsasında tibbi-coğrafi məsələlərinə kompleks yanaşılmış və elmi-praktiki məsələlərinin tipoloji xarakterlərinin ön plana gətirilməsi, dəyərləndirilməsi mühüm əhəmiyyətə malikdir. İnstitutun digər əməkdaşı S.İ.Rzayeva [2] tərəfindən "Azərbaycanda onkoloji xəstəliklərin yaranması və yayılmasına ekocoğrafi mühitin təsiri" (Bakı, 2016) adlı dissertasiya işində ekocoğrafi, ekoloji-coğrafi mühitin təsiri ilə onkoloji xəstəliklərin yayılmasına dair təhlillər aparılmışdır.

Coğrafi mühitin insan səhhətinə təsiri və onun tibbi-bioloji parametrlərinə dair elmi-metodiki dərs vəsaitləri, proqramları universitetin və tibbi liseylərinin tədris prosesinə daxil edilmişdir. İnsan orqanizminin reaksiyasında iştirak edən sinoptik-meteoroloji sistemində aparılan təhlillərin konteksti üstünlük təşkil edir. Buraya daxildir:

Tibbi-meteoroloji faktorlarının dəyişilməsinin ürək-damar xəstəliklərinə təsiri və onun baş verməsi səbəblərinə aydınlıq gətirilməsi məsələləri;

1.Havanın meteopatik effekt pillələrinin təyin edilməsinin metodikası;

2.Ekometeoroloji diskomfortlar bölgüsünün insan orqanizmində baş verən xəstəliklərin yaranması səbəbləri;

3.Tibbi-meteoroloji proqnoz effektinin praktiki cəhətdən istifadə edilməsinin metodikası və s.

Azərbaycanda bioiqlim, bioekoloji şəraitinə uyğun olaraq aparılan tədqiqatlarının nəticələri tibbi coğrafiya elminin inkişafındakı mövqeyi çox önəmlidir. Beləki, insan orqanizminin ətraf mühitə qarşı reaksiyalarının təhlillərinin metodikasına dair mənbələrindən klinik xəstəxanalarda istifadə edilir.

Sinoptik tibbi ekologiya ifadəsinə - sinoptik şəraitinin əsasında atmosferdə baş verən çirklənmə proseslərinin fəaliyyətinin insan səhhətinə təsiri kimi məsələlər daxildir. Atmosferin çirklənməsində iştirak edən müxtəlif mənşəli birləşmələrin (dəm qazı, kükürd qazı, karbon oksidi, tozun, buxarın və s) yaratdığı ekoloj gərginliklərin insan orqanizmində funksional dəyişiliklərinin yaranması və inkişafı kimi məsələlər sionoptiki tibbi ekologiyanın metodiki əsası hesab edilir.

İnsan səhhətinin qorunması problemi digər coğrafi mühitlə çirklənməsinə şərait yaradan sinoptiki, havanın meteoroloji proseslərinin öyrənilməsi tibbi coğrafiya elminin qarşısında duran vəzifələrindən biridir. Bu məqsədlə havanın maksimal çirklənməsində fəaliyyət göstərən sinoptiki ekoloji mühitinin qabaqcadan müəyyən edilməsi tibbi coğrafi tədqiqatlarının metodikasının önəmli istiqaməti sayılır [9].

Təhlillər göstərir ki, havanın, sənaye, nəqliyyat və s, sahələrinin yaratdıqları ekoloji mühitinin artırılmasında sinoptiki proseslərinin təsiri ilə dəyişkənliklərə məruz qalır. Ümumiyyətlə, havanın çirklənməsində antropogen faktorlar üstünlüyə malikdir. Oroqrafik meteoroloji şəraitlə yanaşı, sinoptik mühitin yaratdığı ekoloji şəraitin miqyası daha genişdir. Bu sahədə Ə.Əyyubov, A.Mədətzadə, M.Cabbarov və b. tədqiqatlarının nəticələri göstərirlər ki, sabit vaziyyətli atmosfer şəraitində insan orqanizninə təsir göstərən zərərli tullantı maddələrin yayılmasında sinoptiki şəraitinin təsiri çox böyükdür.ABŞ tədqiqatçı alimi Xolsuort tərəfindən havanın maksimal çirklənməsində Yer üzərində yüksək təzyiq sahələrinin insan orqanizminə mənfi təsrinə dair metodiki təkliflər irəli sürülmüşdür. Ə.Əyyubov, N.Cəfərova Azərbaycanda temperatur inversiyalarına şərait yaradan sinoptik-ekoloji mühitinin yaranmasına dair irəli sürdükləri metodiki təkliflər mühüm əhəmiyyət kəsb edir. Beləki, Abşeron və digər rayonlarda küləyin sürəti saniyədə 5-7 metrə qədər olduqda havanın çirklənməsinin dərəcəsi yüksəlir.

Tibbi-sinoptiki ekoloji mühitin yaranmasında və inkişafında sənaye müəssisələrinin tullantı materialları üstünlük təşkil edir. Misal olaraq, hər il bu müəssisələrdən atmosferə çoxlu miqdarda 8 mlrd-a yaxın karbon birləşmələri (karbon qazı, dəm qazı və s.) buraxılır. Hesablamalara görə, yerdən çıxarılan faydalı qazıntıların 90%-ə qədəri ətraf mühiti çirkləndirən tullantılara çevrilir. Bu, səbəbdəndə şəhərlərdə yaşayan insanların sağlamlığı təhlükə ilə üzləşir.

Sinoptik tibbi-ekolojl müşahidələr göstərir ki, insan çirklənmiş hava ilə tənəffüs edərkən onun tərkibində olan zəhərli komponentlər ağciyər toxumalarında və bronxlarda iltihab prosesi törədir. İnsanın müqavimət qabiliyyəti zəifləyir, ürək-damar sistemi daha həssas olanlara mənfi reaksiyalar yaradır. Şəhər mühitində isə karbon qazının təsiri ilə insanlarda qanazlığına və s. xəstəliklərin yaranmasına səbəb olur [10].

Azərbaycanda ayrı-ayrı sionptik vəziyyətlərindən asılı olaraq, havanın çirklənmə səviyyəsi dəyişilir. Ə.Əyyubov və başqa tədqiqatçılar göstərirlər ki, Abşeron yarımadasında havanın çirklənməsində ən çox dəm qazı və azot 4 oksid birləşmələrinin payına düşür. Təhlil zamanı havanın maksimal çirklənməsində sinoptik şərait üstünlük təşkil edir. Buraya daxil edilir: antisiklonun cənub-qərb periferiyası; zəif siklon

sahəsi və s. "Bilgəh" kardioloji sanatoriyasında həkimlərin apardığı klinik-fizioloji maşahidələrin nəticələri göstərir ki, ürək-damar xəstəliklərinin yaranmasında sioptiki-ekoloji mühitin təsiri çox böyükdür.

Ürək-damar xəstəliklərinin yaranmasına səbəb olan faktorlardan biridə əlverişsiz sinoptiki şəraitin olması hesab edilir. Aparılan klinik-fizoloji tədqiqatlar göstərir ki, havanın temperaturu, atmosfer təzyiqi, havada oksigen sıxlığı və s. biometeoroloji proseslərin təsiri nəticəsində insan orqanizmində dəyişikliklərin yaranmasına səbəb olur. Bu, da insan orqanizmində yaranan meteopatik reaksiyası nəticəsində ürək-damar xəstəliklərinin ilkin mənbəyi kimi təsir göstərir [1].

Ərazilərin biometeroloji xüsusiyyətlərini səciyyələndirmək, iqlim-sağlamlıq tədbirlərini lazımi səviyyədə həyata keçirtmək üçün hava şəraitinin meteoheliogeofiziki effektlər üzrə qiymətləndirilməsi və təsnif edilməsi zərurəti yaranır. Bu iş öz növbəsində yaşayış, müalicə və istirahət yerlərinin bioiqlim cəhətdən əlverişlilik dərəcəsini müəyyən etməyi, xəstələrdə mənfi meteopatik reaksiyalar əmələ gətirən əlverişsiz meteoroloji və heliogeofiziki vəziyyətləri aşkar etməyi tələb edir və son nəticədə tibbi-meteoroloji proqnozlaşdırma aparmağa və meteopatik reaksiyaların profilaktikasını həyata keçirməyə imkan verir. Bu məqsədlə yerinə yetirilən tədqiqat işlərində, tibb iqlimşünaslığında hava tiplərinin Fyodorov-Çubukov üsulu kimi tanınan, genetik prinsipinə əsaslanmış və hava şəraiti müxtəlifliklərinin 16 sinfə bölünməsini nəzərdə tutan kompleks təsnifat geniş tətbiq olunur (J.J.Fyodorov, L.A.Çubukov, 1956, 1963).

Bu təsnifatın təkmilləşdirilməsində iştirak edən Ə.C.Əyyubov [1] Azərbaycanın əsas kurortları və müalicə yerlərinin müqayisəli iqlim təhlilini aparmışdır. Müxtəlif kurortlar üzrə müəllifin tərtib etdiyi iqlim səciyyələri və hava şəraitlərinin tibbi qiymətləndirilməsi sağlamlıq ocaqlarında iqlimlə müalicə işlərinin aparılması və bu məqsədlə müvafiq mövsümün seçilməsi haqqında aydın təsəvvür yaradır.

Havanın tibbi təsnifatının tərtibi məqsədilə İ.İ.Qriqoriyev, İ.Q.Paramonov tərəfindən havanın morfodinamik təsnifatı təklif olunmuşdur (1974). Bu təsnifata görə barikosirkulasiya, meteoroloji və geliogeofiziki göstəricilərinin dəyişmə xarakteri əsasında müxtəlif hava şəraitləri 4 tibbi hava tipinə ayrılmışdır. B.F.Ovçarova havada olan oksigen qazının miqdarı və digər meteoroloji göstəricilərin dəyişməsindən asılı olaraq insan orqanizmində yaranan meteopatik reaksiyalara əsasən daha dəqiq tibbi-meteoroloji tipləşdirmə aparmışdır. Lakin qeyd olunan bu təsnifatlar hazırda tibbi iqlimşünaslıqda əsas və yeganə təsnifat kimi geniş tətbiqini tapmamışdır. Qarşıya qoyulan məsələ ilə əlaqədar olaraq respublika ərazisində mövcud olan müxtəlif hava şəraitlərinin meteopatik reaksiyalar baxımından tipləşdirilməsi üzrə tədbirlərin görülməsi genişləndirilməlidir.

Havanın rütubətliyinin də insan həyatına və səhhətinə təsiri böyükdür. Atmosferin dəyişkən tərkib hissəsi olan hava rütubətliliyi səth örtüyünün xarakteri, ilin fəsilləri, sutkalıq rejim və hava kütlələrinin xassələrindən aslıdır. Rütubətlik haqda məlumatlar ən çox nəfəs yolları, hərəkət orqanlarının müalicəsi və profilaktikasında nəzərə alınır. Ürək-damar sistemi xəstəlikləri üzrə tədqiqatlar zamanı isə onun digər meteoroloji ünsürlərlə olan kompleksləri, xüsusilə ekstremal halları daha çox əhəmiyyət kəsb edir.

A.A.Kellerin [13] təsnifatının elmi-metodiki istiqamətlərindən istifadə edərək, respublikanın regionlarında ekocoğrafi, tibbi-ekoloji şəraitlə bağlı müxtəlif xəstəliklərin yaranması və yayılmasını müəyyən etmək və xəstəliklərə qarşı ciddi tədbirlər görmək yollarını araşdırmaq qarşımızdakı vəzifədir. Azərbaycanın tibbi-coğrafi şəraitini öyrənmək, yaranmış hər hansı bir xəstəliyin areallarını müəyyən etmək, onlara qarşı mübarizə üsullarını işləyib hazırlamaq mühüm elmi-əməli problemlərdən biridir.

3. Nəticə. Göründüyü kimi respublikamızda tibbi-coğrafi baxımdan tədqiqatlar geniş miqyasda aparılmamışdır. Bundan əlavə, aparılan elmi-tədqiqat işlərinin kompleksliyi təmin olunmamışdır. Bu problemin həllində coğrafiyaçıların payı aşağı səviyyədə olmuşdur. Çalışmaq lazımdır ki, tibbi-coğrafi tədqiqatlar əlaqəli şəkildə yerinə yetirilsin.

İnsan səhhətinin müxtəlif formada həyat tərzinin tənzimlənməsi, tibbi-ekoloji, coğrafi şəraitin onların sağlamlıqlarına göstərdiyi təsirin öyrənilməsi baxımından tibbi coğrafiya elminin qarşısında bir sıra metodoloji problemlərin təhlillərinin öyrənilməsi tələb olunur. Yaşadığımız dövrdə ətraf mühit amili və ətraf mühitin insan həyatına geniş təsiri danılmaz bir faktdir. Təbii ki, çirklənmiş ətraf mühitin zərərindən qaçmaq mümkün deyil. Əlverişsiz ətraf mühit insanların sağlamlığına birbaşa mənfi təsirini göstərməkdədir. Bu da öz növbəsində insanın sağlamlığına mane olan əsas maneələrdən biridir.

Ədəbiyyat

1. Əyyubov Ə.C. və b. Bakı və Abşeron yarımadasının iqlimi və insan səhhəti. Bakı, 1997.
2. Rzayeva S.İ. "Ətraf mühitin keyfiyyət göstəricilərinin insan sağlamliğinda rolu". Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU filialinin əsərləri. Baki: 2008. s. 245-251.
3. Rzayeva S.İ."Landşaft kompanentlərinin keyfiyyətinin insan sağlamlığına təsiri". Azərbaycan Coğrafiya cəmiyyətinin əsərləri. XIII -cü cild. Bakı: 2008. səh. 204-208.

4. Rzayeva S.İ. “Şəhərlərdə insan səhhətinə təsir göstərən mühit amillərinin təsnifati” Azərbaycan Coğrafiya Cəmiyyətinin BDU filialinin əsərləri. Baki, 2012. s.555-561.
5. Tağıyeva U.R., Əhmədova C.N. Tibbi-meteoroloji proqnozların hazırlanması üçün metodik vəsait. Bakı, 2015.
6. Вернадски В.И. Биосфера и иоосфера. М.,2012.
7. Введение в географическую патологию. М., Медицина, 2007.
8. Введение в географическую патологию (сб). Л.1998.
9.Введение в географическую паталогию / М., 2010.
10. Воронов А. Г. Медицинская география. М.: изд-во МГУ, 1981.
11. Геоэкология человека (сб). Мн. БГУ.2004.
12. Гомель. Медицинская география и экология: практическое руководство. 2011.
13. Келлер А.А. Медицинские географы РГО.СРб. 2003.
14. Семенова, З.А. Медицинская география - наука о человеке, природе и общесве. Киев. 2012.
15. Медицинская экология: учеб.пособие.Мн.2007.
16. Малахазова, С.М. Медико-географический анализ.М.,2001.
17. Медицинская география. С-Пб. 2010.
18. www.azstat.org

РЕЗЮМЕ
ТЕОРЕТИЧЕСКИЕ И МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ МЕДИКО-ГЕОГРАФИЧЕСКИХ ИССЛЕДОВАНИЙ В АЗЕРБАЙДЖАНЕ
Мамедова А.Р.

Ключевые слова: *медико-география, сердечно-сосудистый, экологические условия, окружающая среда, здоровье человека, здоровье населения, изменение климата*

В статье подчеркавается важность изучения анализа ряда методологических проблем, стоящих перед наукой медицинской географии с точки зрения регулирования образа жизни человека в различных формах, изучения влияния медико-экологических, географических условий на его здоровье. Экологический фактор в то время, когда мы живем, и широкое влияние окружающей среды на жизнь человека является неоспоримым фактом. Естественно, избежать вреда загрязненной окружающей среды невозможно. Неблагоприятная экологическая обстановка оказывает прямое негативное влияние на здоровье людей. Это, в свою очередь, является одним из основных препятствий на пути к здоровью человека.

SUMMARY
THEORETICAL AND METHODOLOGICAL FOUNDATIONS OF MEDICAL AND GEOGRAPHICAL RESEARCH IN AZERBAIJAN
Mammadova A.R.

Key words*: medico-geography, cardiovascular, ecological conditions, environment, human health, population health, climate change,*

The article emphasizes the importance of studying the analysis of a number of methodological problems facing the science of medical geography from the point of view of regulating a person's lifestyle in various forms, studying the influence of medical, environmental, geographical conditions on his health. The environmental factor at the time when we live, and the widespread influence of the environment on human life is an indisputable fact. Naturally, it is impossible to avoid harm to the polluted environment. Unfavorable environmental conditions have a direct negative impact on people's health. This, in turn, is one of the main obstacles to human health.

AZƏRBAYCAN RESPUBLİKASINDA GƏNCLƏRİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR ƏSASINDA FORMALAŞDIRILMASINDA UNİVERSİTETLƏRİN ROLU: SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NÜMUNƏSİNDƏ

Məhərrəmova S.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
Oguz.gunhan@gmail.com

Açar sözlər: *gənc nəsil, milli-mənəvi dəyərlər, qloballaşma, formalaşma, Sumqayıt Dövlət Universiteti*

Hər bir xalqın tarixin süzgəcindən keçmiş dəyərlər sistemi mövcuddur. Azərbaycan xalqı da milli və bəşəri dəyərlərdən qidalanaraq özünün milli-mənəvi dəyərlər sistemini formalaşdırmışdır. Heç şübhəsiz, milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Lakin milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilərək ötürülməlidir. Bu halda xalq öz varlığını qoruyub saxlamaqla inkişafının növbəti mərhələsinə keçir. Tarixən Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərini qoruyub saxlamış və onu inkişaf

etdirərək müstəqil dövlətimizin dəyərlər sistemini yaratmışdır. Müstəqil Azərbaycan Respublikası – dövlətimiz milli-mənəvi dəyərlərimizin, 5 minillik dövlətçilik ənənələrimizin tarixi təkamülüdür.

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərin qorunub saxlanması dövlətimizin başlıca vəzifələrdən biridir. Bu barədə Azərbaycan Respublikasının Prezdenti İlham Əliyev deyir: "Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik, bu dəyərləri qoruyuruq, saxlayırıq, ənənələri yaşadırıq və bizim gücümüz də bundadır" [2].

Xalqımızın tarixi, dili, dini, adət-ənənələri, mentaliteti, mədəniyyəti, ədəbiyyat və incəsənəti milli-mənəvi dəyərlərimizin komponentləridir. Bu komponentlər insanı dünyaya gələndən sonra cəmiyyətdə formalaşdıran yazılmayan qanunlardır. Bu gün müstəqil Azərbaycan dövləti bütün sahələrdə mütərəqqi yenilikləri nəzərə alaraq, onun müsbət tərəflərini yerli şəraitə uyğunlaşdırmaqla milli-mənəvi dəyərlərin daha da zənginləşdirilməsinə, qorunmasına xidmət edir.

Qloballaşan dünyada milli-mənəvi dəyərlərə yad elementlərin daxil olması azad və sürətli informasiya məkanında asanlaşmışdır. Xalqın mill-mənəvi dəyərlərindən uzaqlaşdırılmasına, zərərli tendensiyaların Azərbaycan xalqına kobud desək "sırınmasına" qarşı bütünlükdə cəmiyyətin üzərinə böyük vəzifələr düşür. Məhz buna görə də milli-mənəvi dəyərlərin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi vacibdir və aktualdır. Bu barədə Ulu Öndərimiz Heydər Əliyev deyirdi ki, gənclərimiz milli ruhda, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır .

Məlum olduğu kimi 70 il sovet rejiminin təzyiqləri altında yaşayan Azərbaycan xalqı bütün çətinliklərə baxmayaraq milli-mənəvi dəyərlərini qoruyub saxlamışdır. SSRİ dağıldıqdan sonra Azərbaycan xalqı bütün varlığı ilə qoruduğu dəyərlər sistemini azad, müstəqil şəkildə yaşatmağa başladı.

Azərbaycanın gələcəyi, onun müstəqillik yolu ilə daha da inkişaf etməsi milli-mənəvi dəyərlərdən qidalanan və müasir elmi-texniki nailiyətlərə yiyələnən gənc nəsildən asılıdır. Belə ki, gənc nəslin vətənpərvər, humanist, ədalətli və xeyirxah, cəsarətli və mərd, əməksevər, böyüklərə hörmət, vətənə, torpağa, dövlətə, bayrağa bağlı milli-mənəvi dəyərləri dərindən mənimsəyən vətəndaşlar kimi yetişdirilməsi başlıca vəzifədir. Bu mənada gənc nəslin formalaşmasında ali təhsil ocaqlarının, universitetlərin üzərinə böyük vəzifələr düşür.

Ölkəmizin gələcək müqəddəratı onun gənclərindən asılı olduğu üçün təhsil və ali təhsil müəsisələri xüsusi əhəmiyyət daşıyır. Universitetlər milli ənənələrimizə, milli dəyərlərimizə bağlı və bəşəri dəyərlərə hörmətlə yanaşan şəxsiyyətlərin formalaşdırılmasında müstəsna rol oynayırlar. Doğrudur, səxsiyyətin yetişməsində mühitdən də əvvəl ailə böyük rol oynayır. Çünki əsas dəyərlər ilk olaraq ailədə doğulur, formalaşır. Sonra isə məktəbəqədər müəssisələrdə, məktəblərdə, ali təhsil müəssisələri, universitetlərdə nəticə olaraq cəmiyyətdə yetişərək tamamlanır.

Ulu Öndər Heydər Əliyev çıxışlarında həmişə milli adət-ənənələrə bağlılığın vacibliyindən qururla bəhs edərdi. O, göstərirdi ki, milli-mənəvi dəyərlər xalqın sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Ümummilli Liderimiz deyirdi: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi üçün onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir [2].

Ali məktəblər, universitetlər təhsilin məzmununa uyğun milli dövlətçilik prinsipləri və azərbaycançılıq ideologiyası əsasında gənc nəslin formalaşmasında xüsusi rol oynayır. Belə universitetlərdən biri də respublikamızda nüfuzlu ali məktəbə çevrilmiş Sumqayıt Dövlət Universitetidir.

60 illik tarixi keçmişə malik Sumqayıt Dövlət Universiteti təhsilin məzmununun əsas komponentlərindən olan tədris-təlim-tərbiyə işlərini "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na [1] və SDU-nun Strateji İnkişaf Planına [3] uyğun həyata keçirir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın eləcə də SDU-nun Strateji İnkişaf Planının əsas strateji istiqamətlərindən biri kimi milli tərbiyə işinin təşkili məsələləri ön plana çəkilmişdir. Sumqayıt Dövlət Universitetində təlim-tərbiyə işlərinin təşkilində mənbə Ulu Öndər Heydər Əliyevin bizə buraxdığı əvəzolunmaz sərvət olan həyat və fəaliyyəti, dövlətçilik təcrübəsidir. Bu dahi insanın irsində Vətənə, Azərbaycana sevgisi - azərbaycançılıq hissi, xalqa, millətə, dil və dinə sevgisi, milli mədəniyyət və mənəviyyata bağlılığı xüsusi yer tutur. Onun bu xüsusiyyətləri hər bir azərbaycanlı üçün mənəvi təməl kimi örnəkdir. Gənc nəslin Heydər Əliyev ideyaları əsasında tərbiyəsinin təşkili məqsədi ilə universitetimizdə Heydər Əliyev Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə hər ay Heydər Əliyev məktəbinin dərsləri keçirilir. Burada gənclərimiz, tələbələrimiz, həmçinin gənc pedaqoqlarımız Ümummilli Liderimizin zəngin dövlətçilik təcrübəsi, onun milli-mənəvi dəyərlərimiz, azərbaycançılıq ideologiyası barədə ideyaları ətrafında məruzələr dinləyir, müzakirələrdə iştirak edirlər. Burada gənclər əsil vətənpərvər,

vətənə sədaqətli vətəndaş kimi formalaşırlar. Nəzərə alsaq ki, milli tərbiyənin tərkib hissəsinə daxil olan məfhumlardan birincisi vətənpərvərlikdir. Sumqayıt Dövlət Universitetində fəaliyyət göstərən Heydər Əliyev Mərkəzinin missiyasının, eləcə də tariximizin əlamətdar günlərinin SDU-da tərtib olunan Tədbirlər Planına uyğun qeyd olunmasının, təlim-tərbiyə işlərinin düzgün qurulmasının nəticəsidir ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Milli Ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın təcavüzkar Ermənistanın işğal altında saxladığı torpaqlarımızın azad edilməsində milli çağrışa Sumqayıt Dövlət Universitetinin tələbələri də qoşuldu və 44 günlük Vətən müharibəsində iştirakı edərək qazi oldular, şəhidlik zirvəsinə yüksəldilər. Bu gün universitetimizin həyətində şəhidlərimizin əziz xatirəsinə həsr olunmuş Şəhidlik Şərəf, Qeyrət Zirvəsidir adlı abidə kompleksi ucaldılmışdır. Bu abidənin böyük mənəvi əhəmiyyəti var.

Universitetimizdə hər bir tələbə gəncin azərbaycançılıq fəlsəfəsi ilə formalaşdırılmasına xüsusi diqqət yetirilir. Bu mənada Azərbaycanın qədim tarixi, elmi, mədəniyyəti, ədəbiyyatı və incəsənəti, dövlətçilik ənənələri, tarixi şəxsiyyətləri, Azərbaycanın dövlət rəmzləri tariximizin əlamətdar günlərində tələbələrə bir daha aşılanır, izahat işləri aparılır. Bununla yanaşı, tələbə gənclərin milli dəyərlərlə bərabər, ümumbəşəri, multikultural dəyərlərə hörmət ruhunda tərbiyə olunmasına da xüsusi diqqət yetirilir. Bu mənada universitetimizdə tələbələrə Tələbə Elmi Cəmiyyətinə üzv olmaqla aktual mövzuların tədqiq edilməsinə yaradılmış şərait xüsusi qeyd edilməlidir.

Bu gün universitetimizdə milli və bəşəri dəyərlər əsasında formalaşan gənclər azərbaycançılıq və multukultural dəyərlərin bir-birindən ayrılmaz vəhdəti əsasında yetişərək dünyada dəyərlərin yeni "Azərbaycan modeli"nin nümayəndələrinə çevrilirlər.

Söz yoxdur ki, Sumqayıt Dövlət Universiteti və onun elmi-pedaqoji kollektivi fəaliyyətini milli-mənəvi və bəşəri dəyərlər əsasında quraraq gənc nəslin tərbiyəsi sahəsində qazanılmış nailiyyətləri Vətən müharibəsinin yaratdığı yeni reallıqlara uyğun daha da inkişaf etdirir. Bu mənada Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynovun dediyi kimi: "Görəcəyimiz işlər gördüyümüz işlərdən çoxdur" anlayışı ilə kollektiv vətənə, xalqa, Ulu Öndər Heydər Əliyev ideyalarına layiqli gənc nəslin yetişdirilməsində yorulmadan çalışmağa hazırdır. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə söylədiyi kimi, ilkin olaraq ailədən başlayan bu tərbiyəvi iş təhsil müəssisələrində davam etdiriləcək, bütün cəmiyyətin hər bir üzvünün əməlindəki müsbət nümunələrlə yetkinləşdiriləcək.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" haqqında Sərəncamı. Bakı: 2013, 24 oktyabr. https://president.az/az/articles/view/9779
2. Bayramlı E. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi qloballaşma kontekstində. https://azadinform.az/az/publika/86733/genclerin-milli-menevi-deyerler-esasinda-terbiyesi-qloballasma-kontekstinde/
3. Sumqayıt Dövlət Universitetinin Strateji İnkişaf Planı (2020-2025). https://www.sdu.edu.az/userfiles/image/news/strateji_plan.pdf

РЕЗЮМЕ

РОЛЬ УНИВЕРСИТЕТОВ В ФОРМИРОВАНИИ МОЛОДЕЖИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ НА ОСНОВЕ НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ: НА ПРИМЕРЕ СУМГАИТСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА

Магеррамова С.С.

Ключевые слова: *молодое поколение, национально-нравственные ценности, глобализация, становление, Сумгаитский государственный университет.*

В глобализированном мире формирование молодого поколения на основе национально-нравственных ценностей приобретает особое значение, так как является важным требованием времени. В этой сфере на семью, школу, высшие учебные заведения и общество в целом ложится большая ответственность. Университеты играют особую роль в формировании молодого поколения на основе национальных и нравственных ценностей. Одним из таких вузов является Сумгаитский государственный университет, ставший одним из престижных вузов нашей республики. Сегодня Сумгаитский государственный университет достойно справляется с этой задачей, то есть формированием молодежи на основе национально-нравственных ценностей.

SUMMARY

THE ROLE OF UNIVERSITIES IN THE FORMATION OF YOUTH IN THE REPUBLIC OF AZERBAIJAN ON THE BASIS OF NATIONAL AND SPIRITUAL VALUES: ON THE EXAMPLE OF SUMGAYIT STATE UNIVERSITY

Maharramova S.S.

Key words: *young generation, national-moral values, globalization, formation, Sumgayit State University*

In the globalized world, the formation of the young generation on the basis of national and moral values is of particular importance as it is an important requirement of the day. In this area, the family, school, higher education institutions and society as a whole have a great responsibility. Universities play a special role in the formation of the young generation based on national and moral values. One of such universities is Sumgayit State University, which has become one of the prestigious universities of our republic. Today, Sumgayit State University adequately copes with this task, that is, the formation of young people on the basis of national and moral values.

UNİVERSİTETLƏRİN ELMİ-TƏDQİQAT PROFİLLİ TƏDQİQAT MÜƏSSİSƏLƏRİNƏ ÇEVRİLMƏSİ

Abbasov Ə.M.
Azərbaycan Respublikasının Təhsil İnstitutu, Bakı, Azərbaycan, dosent
e.abbasov@arti.edu.az

Açar sözlər: *elmi-tədqiqat, tədqiqat müəssisəsi, elmi araşdırmalar, inteqrasiya, elmi kadrlar.*

Ölkəmizdə həyata keçirilən təhsil islahatları daha geniş miqyasda aparılmaqla onun bütün pillə və səviyyələrini əhatə edir. Bir ölkə olaraq Azərbaycanın dünya təhsil məkanına inteqrasiya olunması məqsədini daşıyır. İstər təhsilin məzmunu, istərsə də metodoloji cəhətdən mükkəmməl olması, cəmiyyətin aparıcı qüvvəsi olan kadr potensiyalının müasir dövrün tələblərinə uyğun yerinə yetişdirilməsi prioritet olaraq diqqət mərkəzində saxlanılır.

Təhsil sosial fenomen kimi dəyərləndirilir.[3] Həmçinin təhsil dedikdə insanın müxtəlif yaş dövrlərində məzmuna malik olmaqla inkişafı, formalaşması və böyüməsi başa düşülür.[2] Təhsilin pillələrindən biri kimi ali təhsilin kadr hazırlığı sahəsində rolu nəzərə alınmaqla onun yenidən qurulması, respublikamızda elmin dünya təcrübəsi müstəvisində inkişaf etdirilməsi bu gün xüsusi maraq doğuran məsələlərdən biri kimi gündəmdə dayanır. Ölkəmizdə təhsilin, o cümlədən ali təhsilin inkişafı ilə bağlı qəbul olunmuş proqramlar[4;5;6] bilavasitə bu məsələnin son dərəcə aktual olmasından xəbər verir.

Azərbaycanda elmin inkişaf etdirilməsi və onun bilavasitə təhsillə inteqrasiya olunmasının vacibliyi, eləcə də bu sahədə ilk addımların atılması hazırkı fəaliyyətimizin gündəmində dayanır. Artıq Azərbaycan Prezidentinin elm və təhsil nazirliyinin yaradılması barədə Fərmanı [7] bu işlərin ümumi siyasətini müəyyən etməklə fəaliyyətimizi tənzimləyən bir sənədə çevrilmişdir. İndi bilavasitə inteqrasiya prosesinin reallaşdırılması istiqamətində iş aparılır. Bu prosesdə "universitetlərin beynəlxalq reytinqinin yüksəldilməsinə və elmi-tədqiqat profilli təhsil müəssisəsinə çevrilməsinə nail olunmasına" gözlənilən nəticələrdən biri kimi yanaşılır. Daha doğrusu, universitetlərin elmi-tədqiqat müəsissisələrinə çevrilməsi, yeni, həm də fərqli elmi-tədqiqat strukturunun yaradılması kimi anlaşılır. Belə olan təqdirdə elmi araşdırmaların səmərəliliyini, effektivliyini təmin etmək üçün onların universitetin strukturunda xüsusi laboratoriya, mərkəz və ya institut kimi formalaşdırılması məqbul hesab edilə bilər. Kafedralar, yaxud müəllimləri birləşdirən hər hansı qurum həmin elmi qurumlarla qarşılıqlı əməkdaşlıq şəraitində yalnız tədris yükünü yerinə yetirməklə fəaliyyət göstərər. Beləliklə, elmi-tədqiqatların nəticələri həm universitetdən kənarda, həm də universitetdəki tədris prosesində maneəsiz tətbiq olunmaqla faydalı ola bilər.

Məlum olduğu kimi, hazırkı şəraitdə universitetlərin fəaliyyətində elmi araşdırmaların aparılması istiqamətlərdən biri olsa da, onun indiki formada təşkili bir sıra cəhətlərdən müasir tələblərə cavab vermir. Başqa sözlə, aparılan araşdırmaların tematikası cəmiyyətin inkişaf dinamikasını izləmək və onu istiqamətləndirməklə dəstəkləmək baxımından müasir tələblərə lazımınca uyğun gəlmir. Xüsusilə bu, pedaqoji, psixoloji sahələrdə aparılan elmi-tədqiqatlarda daha çox diqqəti cəlb edir. Belə ki, elmi-tədqiqatlar təhsil sisteminin qarşısında getməklə qabaqlayıcı funksiyanı yerinə yetirməkdə yubanır. Sistemli olaraq ardıcıl və davamlı şəkildə təhsil prosesinin özülünə çevrilməkdə daha təkmil infrastruktrun yaradılmasına ehtiyac duyulur. Aparılan ilkin araşdırmalar bilavasitə bu mülahizələri təsdiqləməklə, həm də onun universitetlərin strukturuna inteqrasiya edilməsini, daha böyük elmi potensialla reallaşdırılmasını zəruri edir.

İlkin araşdırmalar onu göstərir ki, elmi-tədqiqat müəssisələrinin universitetlərə inteqrasiya olunması, ilk növbədə, onların fəaliyyətində tədqiqatcılığı gücləndirməklə elmi-tədqiqat müəssisələrinə xas olan bir keyfiyyətin yaranmasına gətirib çıxaracaqdır. Bununla indiki kafedra sisteminə xas olan formal tədqiqatcılıq fəaliyyətindən imtina etmək mümkün ola bilər.

Universitetlərdə yaradılacaq elmi mərkəz və institutlar əslində araşdırmaların aparılması işini yeni müstəvidə mərkəzləşdirməklə onun daha keyfiyyətli təşkili məqsədi daşıyaraq tədqiqatların keyfiyyətlə idarə olunmasına imkan yarada bilər. Həmçinin universitet daxilində və universitetdən kənarda ehtiyacların öyrənilməsi və nəzərə alınmasını asanlaşdırar.

Belə bir yanaşmanı həyata keçirməklə elmi-tədqiqatların məhz rentabelli olması, onun nəticələrinin faydalı iş əmsalına çevrilməsi də mümkün ola bilər.

Bu gün sürətlə dəyişən və inkişaf edən cəmiyyət hadisələri, prosesləri qarşılayan gələcəyə yönəli praqnoz xarakterli fəaliyyətlərin olmasını daha çox tələb edir. Bu fəaliyyət həm də gələcəyin prespektivlərini müəyyən etmək baxımından əhəmiyyət daşıyır. Bu, inkarolunmaz bir həqiqətdir ki, gələcəyin eskizini verən, onun praqnozlarını təqdim edən, ilk növbədə, aparılacaq elmi-tədqiqatların vəzifəsidir. Həm də bu tədqiqatlar ciddi nəzəri fundamental xarakteri ilə yanaşı, praqmatik xüsusiyyətləri ilə təcrübi əhəmiyyət də daşıyır. Əslində, müasir cəmiyyət özünün texnoloji ehtiyacları ilə daha çox tələblər irəli sürür və bu tələblərin yerinə yetirilməsində elmi-tədqiqatlar əsaslandırılmış müddəaları ilə məsuliyyət daşıyır. Ona görə də elmi-tədqiqatlar müasir zamanın tələbinə uyğun olaraq vacib bir keyfiyyət kimi mobillik tələb edir. Yəni zaman kəsiyində ehtiyaclara uyğun tələbatları ödəmək, fəaliyyət istiqamətində addımları tənzimləyən müddəalarla gündəmə gəlmək və konkret qərarların verilməsini təsdiqləməklə dəstək olmağı şərtləndirir.

Bütün bunlar elmi-tədqiqatların həm dünən, həm də bu gün üçün inkarolunmaz vəzifələri olsa da, onların daha uğurla yerinə yetirilməsində optimal mühitin, şəraitin olması zəruri hesab edilir. Belə bir mühit bu gün daha çox təhsil əlaqələrinin olması ilə xarakterizə olunur. Daha çox müəllim və tələbə çoxluğu ilə təmsil olunan belə bir mühitdə araşdırmaların aparılması, müzakirə edilməsi, öyrənilməsi, nəticələrin tətbiğinin zərurəti meydana çıxır. Həmçinin araşdırmaların qrup şəklində kollektiv aparılmasına imkan yaranır. Ən başlıcası aparılan elmi-tədqiqatların nəticələrindən istifadə etmək üçün onun yeni hazırlanan kadrlar tərəfindən öyrənilməsi üçün şərait yaranır. Belə bir şərait yalnız ali təhsil məktəblərində, universitet mühitində yarana bilər ki, bu gün elmi-tədqiqatlara yeni yanaşma müstəvisində onların universitetlərə inteqrasiya olunması bu baxımdan da əhəmiyyətli hesab edilir.

Məlum olduğu kimi, müasir təhsil prosesində ali məktəb tələbələrinin peşəkar kadr kimi yetişdirilməsi üçün onların, ilk növbədə, axtarışlar apara bilmək, fakt və hadisələrə yaradıcı yanaşmaq bacarıqlarını inkişaf etdirmək lazımdır. Bu günün tələbələri sadəcə hadisələri öyrənməklə onlara seyrci kimi yanaşa bilməzlər. Onlar təqdim olunan mövzu ətrafında araşdırmalar aparmaqla öyrəndiklərini ümumiləşdirməli, qənaətlərini təqdim etməlidirlər. Bu isə istər-istəməz onu tələb edir ki, onlar müxtəlif mənbələr üzərində araşdırmalar aparsınlar, kiminsə nəticələrini deyil, özlərinin qənaətlərini meydana qoysunlar. Buna isə sadəcə bir dərslik və ya bir vəsait üzərində işləməklə nail olmaq mümkün deyildir. Hökmən problem üzrə müxtəlif mənbələr üzərində işləmək lazımdır. Eyni zamanda fikirlərə standart olaraq ehkam kimi deyil, yaradıcı yanaşılmalıdır. Təbii ki, belə situasiyanı elmi-tədqiqatları universitetlərə inteqrasiya etməklə mümkündür. Elmi-tədqiqatların aparılması nəticəsində hazırlanan mənbələr, onların elektron və ya qeyri-elektron variantları uyğun fənlər üzrə tələbələrə tövsiyə olunur. Tələbələr bu araşdırmaları öyrənməyə təşviq edilir və nəticədə şablonculuqdan çıxaraq, özlərinin qənaətlərini axtarmağa başlayırlar.

Elmi-tədqiqatların mobilliyinin təmin olunmasında əsas şərtlərdən biri onun konkret olaraq qısa zamanda icra olunmasının təmin edilməsidir. Adətən ənənəvi olaraq tədqiqatların müddəti müəyyən edilərkən ona uzun vaxtın ayrılması bir təcrübə kimi geniş yayılıb. Araşdırmalar onu göstərir ki, belə yanaşmalar zamanı çox hallarda tədqiqat tamamlanmamış aktuallığını itirir. Belə bir hala xüsusilə təhsil tədqiqatlarında, eləcə də digər tətbiqi sahələrdə daha çox rast gəlmək olur. Təhsil sahəsində inkişaf və dəyişikliklər sürətli olduğundan burada dəstəkləyici və istiqamətverici araşdırmalara daha çox ehtiyac yaranır. Çünki təhsil prosesi özünün müxtəlif yanaşmalar (praqmatik, sinergetik və s.) əsasında inkişafını təmin etmək üçün emprik və qismən də nəzəri araşdırmaların nəticələrinə istinad etməli olur. Müxtəlif zamanlarda tədqiqatlar gecikdikdə və olmadıqda isə fəaliyyətlərdə fərdi mülahizə xarakteri daşıyan subyektiv fikirlərə əsaslanılır. Belə yanaşmalar isə təhsilin səmərəliliyinə və keyfiyyətinə təminat verə bilmir. Nəticə etibarı ilə fəaliyyətimizdə risklər artır. Nəticələrin tam əldə olunmasında çətinliklər yaranır.

Odur ki, elmi-tədqiqatların çox da uzun olmayan vaxt müddətində planlaşdırılaraq yerinə yetirilməsi nəticələrin uğurlu tətbiqi baxımından faydalı hesab edilir. Eyni zamanda elmi-tədqiqatların mobil və praktik cəhətdən əhəmiyyətli olmasında onların layihə əsasında planlaşdırılaraq reallaşdırılması da əsas şərtlərdən sayılır. Son illər bu baxımdan əldə olunan təcrübələr də fikrimizi əsaslandırmaq baxımından əhəmiyyət daşıyır.

Ali məktəbdə aparılan elmi-tədqiqatların keyfiyyətinin elmi jurnallarda, nəşrlərdə ali məktəbdə aparılan tədqiqatlardan gətirilmiş sitatların onun professor-müəllim heyətinin ümumi sayına nisbəti əsasında müəyyənləşdirilməsi dünyada qəbul olunmuş təcrübələrdəndir.[1] Bu təcrübədən respublikamızdakı universitetlərdə də istifadə olunması elmi-tədqiqatların, o cümlədən elmi-pedaqoji tədqiqatların keyfiyyətinə müsbət təsir göstərə bilər.

Universitetlərin elmi-tədqiqat müəssisələrinə çevrilməsi həm də yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlığı ilə şərtlənir. Bu sahədə müəyyən təcrübəyə sahib olsaq da, artıq dünya müstəvisində inteqrasiya, bütün sahələrdə olduğu kimi, təhsilin, o cümlədən ali təhsilin inkişaf etdirilərək dünya standartları səviyyəsinə çatdırılması strateji tələb kimi qarşıda durur. Elə bu səbəbdən də ölkə miqyasında müxtəlif vaxtlarda təhsil sahəsində siyasətimizi konkretləşdirən müxtəlif sənədlər qəbul olunaraq fəaliyyətimizin əsasına gətirilir. Xüsusi olaraq yeni mütəxəssislərin yetişdirilməsi başlıca istiqamət kimi vurğulanır. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq reytinqinin artırılması üzrə Dövlət Proqramı" nda (2018) qeyd olunduğu kimi, qloballaşma şəraitində yeni iqtisadi çağırışlara uyğun rəqabət qabiliyyətli mütəxəssislərin hazırlanması, insan kapitalının davamlı və dayanıqlı inkişafına nail olmaq üçün ölkəmizdə ali təhsilin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Odur ki, bu səbəbdən bir sıra tədbirlərlə yanaşı, həm də respublikamızda ali təhsil müəssisələrinin akademik imkanlarının gücləndirilməsi məqsədilə tədbirlər müəyyənləşdirilir. Əsasən, bu tədbirlərin mərkəzində milli elmi kadrların inkişaf etdirilməsi, yetişdirilməsi durur. Bunun üçün ali təhsil müəssisələrində, o cümlədən universitetlərdə elmi kadrların hazırlanması məqsədilə bir sıra təşkilati işlərin görülməsi, tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.[6]

Təcrübələr göstərir ki, elmi-tədqiqatların hazırlanmasında universitetlər, orada yaradılmış elmi-pedaqoji mühit xüsusi rol oynayır. Ona görə də dünya universitetlərində bu mühitin daha çox öyrədici, formalaşdırıcı xarakterdə yaranmasına səy göstərilir. Heç şübhəsiz, bu mühit universitet alimlərinin, tədqiqatcılarının gücü, imkanı hesabına yaranır. Ölkəmizdə ali təhsillə bağlı yuxarıda adı qeyd olunan Dövlət Proqramında bu məsələ xüsusi olaraq diqqət mərkəzində saxlanılır. İnkişaf etmiş xarici ölkələr, onların qabaqcıl universitetləri ilə əməkdaşlıq ön plana çəkilir. Eyni zamanda doktorantların seçiminin düzgün aparılmasına, onların ixtisasının müəyyənləşdirilməsinə, əlaqədar müəssisələrin cəlb olunmasına ciddi yanaşılır.

Elmi kadrların formalaşmasında elmi-tədqiqatların, onun aparılması üçün yaradılmış mühitin rolu xüsusilə böyükdür. Universitetlər ənənəvi olaraq tədris mühitinin güclü olması ilə fərqlənir. Əgər elmi-tədqiqat strukturları onların məzmununa inteqrasiya olunarsa, bu, istər-istəməz elmin, tədqiqatcılıq fəaliyyətinin daha da artması ilə nəticələnə bilər. Müzakirələr, diskussiyalar, elmi polemikalar və s. elmi-tədqiqatla məşğul olan insanlar, eləcə də təhsil alan doktorant və dissertantlar üçün nümunə məktəbinə çevrilər.

Ədəbiyyat

1. Cahangirov A. Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları.Bakı, «Şərq-Qərb», 220 səh.
2. *Хуторской А.В.* Педагогика. Учебник для вузов. Стандарт третьего поколения. - СПб.: Питер, 2019. – 608 с.
3. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası**.** *Magistratura pilləsi üçün dərslik.* Bakı: Nurlan, 2007, 568 s.
4. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının ... https://president.az ›
5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət ... https://president.az ›
6. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali ... https://e-qanun.az ›
7. Azərbaycan Respublikasında elm və təhsil sahəsində ... https://president.az ›

РЕЗЮМЕ

ПРЕОБРАЗОВАНИЕ ВУЗОВ В ИССЛЕДОВАТЕЛЬСКИЕ УЧРЕЖДЕНИЯ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКОГО ПРОФИЛЯ

Аббасов А.М.

Ключевые слова: *научные исследования, научно-исследовательское учреждение, научные исследования, интеграция, научные кадры.*

В статье речь идет о трансформации университетов в институты исследовательского профиля. Также затрагивается тема о качестве реформ образования в нашей стране. Далее трактуется развитие науки как приоритетный вопрос, а ее развитие отмечается как государственная политика в нашей стране. В статье обосновывается необходимость интеграции науки и образования, а также превращения вузов в институты исследовательского профиля.

SUMMARY

TRANSFORMATION OF UNIVERSITIES INTO RESEARCH INSTITUTIONS OF A RESEARCH PROFILE

Abbasov A.M.

Keywords*: scientific research, research institution, scientific research, integration, scientific personnel*

The article deals with the transformation of universities into institutions with research profiles. The article also touches upon the quality of education reforms in our country. Then the development of science is interpreted as a priority issue, and its development as a state policy in our country is noted. The need to integrate science and education as well as the transformation of universities into research profile institutions are justified in the article.

ELMİMETRİYA- TİRANLIQ, YOXSA ELMİ FƏALİYYƏTİN İNKİŞAF VASİTƏSİ?

Hümbətəliyeva S.Ə.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
saadethumbataliyeva@mail.ru

Açar sözlər: *elmimetriya, səmərəlilik, elmin rəqəmsallaşdırılması, elmimetrik, savad, elmimetrik mədəniyyət.*

Müasir elm aləmində elmometriya termini (qeyd edək ki, söhbət fundamental elmi istiqamətdən deyil, elmi idarəetmə vasitəsi kimi tətbiqi elmiometriyadan gedir) çox vaxt "real elm"ə münasibətdə invektiv, təhqiredici anlayış kimi qəbul edilir." [2, c. 98-102]. Müəllimlər, tədqiqatçılar, jurnalistlər getdikcə daha çox "indikatorların tiranlığı və onların fəaliyyətlərinin hər hansı formal qiymətləndirilməsində akademik ictimaiyyət arasında inam böhranı" haqqında yazırlar. Bu münaqişə bir sıra səbəblərə (etikadan idarəetməyə qədər) əsaslanır, lakin bu gün əsas səbəblər arasında aşağıdakıları qeyd etməyi zəruri hesab edirik:

– formalaşmamış elmiometrik şüur;

– elmiometrik savadın aşağı olması.

Təəssüf ki, akademik cəmiyyətində elmi səmərəlilik göstəriciləri getdikcə öz-özlüyündə bir məqsədə çevrilir və elmiometriya obyektiv təhlil vasitəsindən manipulyasiya obyektinə, sözdə elmiometrik oyunun alətinə çevrilir. Məsələn, tədqiqatçılar qeyd edirlər ki: "akademik ictimaiyyət üçün elmi iş bəzən hətta ən dürüst şəkildə olmasa da, formal göstəricilərə nail olmaq oyununun elementinə çevrilir" [3, s. 155-167].

Yenə də təəssüflə qeyd etməliyik ki, bu oyunlar elm adamları tərəfindən bütün vasitələrin yaxşı olduğu halda sağ qalma yolu, zəruri tədbir kimi başa düşüldüyü üçün bu gün etik qiymətləndirmə sahəsindən kənara çıxır. Bəzi "yaxşı - pis" çərçivələri qurmaq cəhdləri, ictimai qınaq alətlərini işə salmaq (məsələn, Disser-net layihəsi) başqa bir kommersiya layihəsi, başqa bir təzyiq yolu kimi qəbul edilir. Deməli, həmin alətlər də əsas vəzifələrini yerinə yetirə bilmədilər.

Hazırda kompromis tapmaq üçün alimlərlə menecerlər arasında fəal dialoq aparılır: elmi ixtisaslaşma və qiymətləndirmələrin əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar elmiometrik göstəricilərin təzyiqini azaltmağa cəhdlər edilir. Məsələn, RİNS əsası üzrə 2021-ci il üçün yeni faizli göstəricisi müəyyən bir elmi sahə daxilində reytinqdəki yeri əks etdirir ki, bu da fiziklərin və liriklərin elmiometrik sahədə "bərabərliyi" və "tarazlığı" ilə bağlı verilənlər bazasında əbədi ziddiyyətli suallardan birini qismən aradan qaldırır. Şübhəsiz ki, bu gün müasir akademik sferada qiymətləndirmə və idarəetmə vasitəsi kimi istifadə olunan elmiometrik göstəricilər həmişə elmi ünsiyyətin bütün müxtəlif formalarını əks etdirmir. Tədqiqatçılar haqlı olaraq qeyd edirlər ki, "bir alimin bütün müxtəlif fəaliyyətlərindən yalnız elmi məqalə və ona istinad faktı nəzərə alınır" [1]. Ancaq indi ən məşhur sitat bazaları tədqiqatçı işinin aşağıdakı növlərini də nəzərə alır: elmi məqalələr, elmi rəhbərlik/konsultasiya, ekspert və patent fəaliyyəti, həmçinin müxtəlif elmi ünsiyyət formalarının təşkili (konfranslar, forumlar, simpoziumlar və s.)

Lakin qiymətləndirmə alətinin təkmilləşdirilməsi hansısa ideal nöqtəyə çatmaq şansı olmayan davamlı bir prosesdir. Dəyişdirilməli olan alət yox, ona olan münasibət, istifadə üsuludur. İndiki mərhələdə müəyyən ölçülərin tamamilə rədd edilməsi ideyası ən azı utopik səslənir, buna görə də münaqişənin həlli üçün bu seçim dərhal axtarışımızdan çıxarılır.

Biz praktiki elmiometriyanın inkişafını iki əsas müstəvidə görürük:

1) göstəricilərin və qiymətləndirmə növlərinin genişləndirilməsi (və biz bu prosesi artıq müşahidə edirik, bu yuxarıda bizim tərəfimizdən qeyd edilib);

2) elmiometrik metrikanın peşəkar təcrübə ilə gücləndirilməsi.

Elsevier S&T şirkətinin Rusiyadakı vitse-prezidenti Marat Fatxullin də dəqiq qeyd etdiyi kimi: "Təəssüf ki, indi elmiometriya rəqəmlərdir və onların intellektə ehtiyacı var" [2, s. 101]. Bəs bu ekspertlər kimlərdir? Axı elmiometriya "hər hansı bir alət kimi, ... ağıllı həkimin əlində yaxşıdır" [4]. Onlar tətbiqi elmiometriya üzrə mütəxəssislər və ya təhlil etdiyimiz və qiymətləndirdiyimiz elmlər sahəsində mütəxəssislərdirmi? Bizim müasir akademik mühitdə birinci növ mütəxəssislərin sayı açıq şəkildə kifayət

deyil. Birincisi, onların hazırlanması üçün heç bir sistem yoxdur. Çox vaxt bunlar "özünü öyrədən" həmkarlar, "sistemi aldatmaq" və ya "oynamaq" ilə maraqlananlardır. Ya da elmi şöbələrin işçiləridir, yəni peşə vəzifələrinə uyğun olaraq fəaliyyətin qiymətləndirilməsi üçün elmiometriyaya yiyələnməyə məcbur olanlardır.

Beləliklə, biz iki silahlı ekspertlər düşərgəsini formalaşdırdıq. Ədalət naminə qeyd edək ki, hazırda universitet və akademik kitabxanalarda cəmləşən üçüncü "neytral" düşərgə fəal şəkildə inkişaf edir. Bəs belə ekspert elmi işin keyfiyyətini dəyərləndirə bilirmi? Bu halda söhbət "sənaye" ekspertlərindən gedir. Biz elmi istiqamət və hətta tədqiqat mövzusu çərçivəsində, məsələn, dissertasiyaların müdafiəsi, qrant layihələrinin qiymətləndirilməsi zamanı ekspertlərin cəlb edilməsi təcrübəsi ilə tanışıq. Ancaq burada iki əsas tələ də var:

1) Elmi tayfaçılıq (elmi məktəblərin qarşıdurması, keçmiş sinif yoldaşlarının dəstəyi);

2) "sənaye" ekspertlərinin seçimi də peşəkar ictimaiyyətin rəyinə deyil, elmiometrik göstəricilərə əsaslanır.

Belə görünür ki, bir növ qapalı dairə ortaya çıxır, əksinə - məhz bu mərhələdə iki alətin - rəqəmlərin və intellektin birləşdirilməsi zərurəti göz qabağındadır, yalnız bu ittifaqda güzəştə getmək mümkündür. Qeyd etmək lazımdır ki, belə inkişaf yolu təsadüfi deyil: bu, cəmiyyətin özünün təkamülü ilə bağlıdır. Bir tərəfdən qlobal rəqəmsallaşma tədqiqatçıların sistemləşdirilməsini və qiymətləndirilməsini tələb edən çoxlu sayda "rəqəmsal" izlərin yaranmasına səbəb olur. Digər tərəfdən, biz hazırda ekspert axınının inkişafının əsas zərurətə çevrildiyi zaman rəqəmsal dünyanın inkişafı mərhələsindəyik.

Beləliklə, biz məsələnin həllini və elmiometrik zülmdən qurtuluşu iki ən vacib sahənin kəsişməsində görürük:

- mütəxəssislərin cəlb edilməsi yolu ilə tətbiqi elmiometriyanın inkişafı;
- akademik ictimaiyyətdə elmiometrik şüurun formalaşması.

Ədəbiyyat

1. Кулешова А. В., Подвойский Д. Г. Парадоксы публикационной активности в поле современной российской науки: генезис, диагноз, тренды. Мониторинг общественного мнения: Экономические и социальные перемены. 2018. № 4. с.169-210.
2. Медведева О. О. «Неизмеримая наука», тирания показателей и цифровизация: есть ли повод для наукометрического оптимизма? / Государственная служба. 2020. Т. 22. № 1. с. 98-102
3. Михайлов О. В. Библиометрические индексы и российская наука. Науковедческие исследования. 2016. с. 155-167
4. Поляк Б. Т. Наукометрия: кого мы лечим? / Управление большими системами. 2013. № 44. с.161-170

РЕЗЮМЕ

НАУКОМЕТРИЯ - ТИРАНИЯ ИЛИ СРЕДСТВО РАЗВИТИЯ НАУЧНОЙ ДЕЯТЕЛЬНОСТИ?

Гумбаталиева С.А.

Ключевые слова: *наукометрия, эффективность, цифровизация науки, наукометрическая грамотность, наукометрическая культура*

Сегодня в академическом (научном) сообществе, с каждым днём нарастает все больший кризис, идёт постоянный спор на предмет: наукометрия –это хорошо или плохо, нужна она или нет? В ходе исследования мы выявили и выделили причины этих споров и пути их решения. В то же время на основе изученной в статье информации были получены промежуточные результаты и предложены соответствующие рекомендации в направлении путей выхода из этого кризиса.

SUMMARY

SCIENTOMETRICS - TYRANNY OR A MEANS OF DEVELOPING SCIENTIFIC ACTIVITY?

Humbataliyeva S.A.

Key words*: scientometrics; efficiency; digitalization of science; scientometric literacy, scientometric culture.*

Today in the academic (scientific) community, with each day by day, a growing crisis is growing, there is a constant dispute on the subject, is scientometrics good or bad, is it needed or not? In the course of the study, we identified and identified the causes of these disputes and ways to resolve them. At the same time, on the basis of the information studied in the article, intermediate results were obtained and relevant recommendations are proposed in the direction of ways out of this crisis.

MÜASİR DÖVRDƏ AZƏRBAYCAN UNİVERSİTETLƏRİNDƏ RƏQƏMSAL TRANSFORMASİYASININ TƏTBİQİ YOLUNDA PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

[1]Əliyeva S.Y., [2]Əliyev M.B.
[1]Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
[2] Pekin Normal Universiteti, Pekin, Çin Xalq Respublikası
aliyev.murad4320@gmail.com

***Açar sözlər**: rəqəmsal transformasiya, Azərbaycan universitetləri, rəqəmsal bacarıqlar*

Giriş. Rəqəmsal transformasiya rəqəmsal texnologiyaların gətirdiyi və insan həyatının müxtəlif aspektlərinə təsir edən dəyişikliklərə aiddir. Rəqəmsal transformasiya texnologiyaların rolunun və təsirinin müxtəlif perspektivlərdən (fərd, qurum və ya təşkilat, şəbəkə, sənaye və ya bütün ekosistem, təhsil, cəmiyyət və iqtisadiyyat) yenidən nəzərdən keçirilməsini müəyyən etdiyini göstərir. Müxtəlif tərifləri olan rəqəmsal transformasiya fərdlərin işini asanlaşdırmaq, prosesləri təkmilləşdirmək, əməliyyatın səmərəliliyini artırmaq və yeni biznes modelləri yaratmaq üçün müxtəlif rəqəmsal texnologiyalardan istifadə kimi müəyyən edilir [9, s.173].

Təhsil sektorunda rəqəmsal transformasiya yeni texnologiyaların tətbiq etdiyi dəyişikliklərə uyğunlaşmaq üçün davamlı olaraq idarəetmənin bu dəyişikliklərə cəlb edilməsini nəzərdə tutur. Cəmiyyətin həyatında sosial dəyişikliklərin ən mühüm məkanlardan biri olan ali təhsil müəssisələri də ölkənin tələbatını ödəyə biləcək gücə malikdir və insan kapitalının inkişaf etdirilməsində xüsusi rol oynayır. Bu səbəbdən ali təhsil müəssisələrinin müasir texnoloji tərəqqi ilə ayaqlaşması və hətta bu dəyişikliklərə öncülük etmələri çox vacibdir. Ali təhsildə rəqəmsal transformasiyanın həyata keçirilməsi üçün ali təhsilin bəzi komponentləri nəzərə alınmalıdır. Bu komponentləri E.K. Gümüşoğlu təhsil, idarəetmə, tədqiqat və sosial töhfələr kimi sıralamışdır [5, s.32-35].

Qeyd etmək lazımdır ki, universitetlərdə mövcud texnoloji infrastrukturun modernləşdirilməsi davam edərkən, Azərbaycanda telekommunikasiya infrastrukturunda çox yaxşı irəliləyiş müşahidə olunduğu halda, tədqiqat, sınaq, rəqəmsal innovasiyaların prototipləşdirilməsi üçün avadanlıqların daha da modernləşdirilməsinə ehtiyac var. Modernləşdirmək üçün isə əvvəlcə universitetin professional heyətin və universitetdə təhsil alanların da müəyyən qədər səriştələri inkişaf etsin və universitet rəhbərliyi bunun üçün müəyyən addımlar atsın. Tələbələri elektron formada qeydiyyata almaq və ya tələbələrin bir universitetdən digər universitetə köçürülməsini həyata keçirmək, tələbələrə tədrislə bağlı müxtəlif onlayn xidmətlər təklif etmək, həmçinin fərqli öyrənmə üsullarından istifadə etmək, eyni zamanda tələbələrin öyrənmə tərəqqisini izləmək, habelə karyera imkanlarını artırmaq üçün sənaye ilə əməkdaşlıq etmək. Qrosek və digərləri belə qeyd edir ki, hər bir universitet öz strategiyasında rəqəmsal transformasiya ilə bağlı üç əsas istiqaməti nəzərə alaraq aydın və konkret məqsədlər qoymalıdır: universitetin rəqəmsal infrastrukturu, akademik heyətin və tələbələrin rəqəmsal bilik və bacarıqlarının inkişafı və onların tədrisinə əsaslanan metodlar [4, s.567].

Hal-hazırda, ali təhsil sektorunda maraq texnologiyanın özündən daha çox öyrənənlər və öyrədənlərin təcrübələrinə yönəldilməyə başlamışdır. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında xüsusilə belə qeyd edilmişdir ki, ali təhsildə innovativ və rəqəmsal bacarıqların formalaşdırılması prioritet hesab ediləcək [1, s.18]. Bu səbəbdən tələbələrin və professor-müəllim heyətinin rəqəmsal bilik və bacarıqlarının inkişaf etdirilməsinə, yeni nəslin öyrədilməsində fənn kurikulumlarının dəyişdirilməsinə ehtiyac yaranmışdır. Qeyd etmək olar ki, texnologiyaların getdikcə daha çox ali təhsilə təsiri tədrisin, öyrənmənin, tədqiqatın və işin bütün proseslərini, məkanını, formatını və məqsədlərini dəyişməyə vadar etmişdir. Bu rəqəmsal transformasiya yeni infrastrukturların inkişafını və tədris və təlim, tədqiqat, dəstək xidmətləri, idarəetmə və kommunikasiya üçün rəqəmsal media və texnologiyalardan artan istifadəni, eyni zamanda tələbələrin və işçilərin cari və gələcək iş yerləri üçün rəqəmsal bacarıqların inkişaf etdirilməsi ehtiyacını əhatə edir [6].

1. Müasir dövrün tələbi kimi universitetlərdə rəqəmsal transformasiya

Təhsildə rəqəmsal transformasiya müəllim və tələbələri texnoloji əsrin tələbləri olan tədrisin idarə edilməsi sistemlərindən, açıq təlim resurslarından, sosial şəbəkələrdən, mühazirə videolarından və kütləvi açıq onlayn kurslardan geniş istifadə etməyə vadar etmişdir. Bu dəyişikliklə ali təhsil müəssisələrində 4-cü nəsil universitet adlı yeni ali təhsil strukturu yaranıb. Bu universitetlərin əsas funksiyası vurğulayır ki, universitetlər rəqəmsal dövrün tələblərinə uyğun olaraq müxtəlif layihələri inkişaf etdirən və yeni tətbiqlərə start verən qurumlar kimi ifadə edilməlidir [7, s.3].

Etiraf etmək lazımdır ki, innovasiya klaster təşkilatları, ictimai təşkilatlardan kənar rəqəmsal innovasiya mərkəzləri üçün əməliyyat orqanının işinə dəstək, universitetlər, elmi-tədqiqat və inkişaf

təşkilatları və bizneslər arasında şəbəkələşmə və əməkdaşlığın əlaqələndirilməsi, ekspert icmalarının inkişafı üçün maliyyə çatışmazlığı hal-hazırda ölkədə müşahidə edilir [3, s.44]. Azərbaycanda innovasiyalar üçün tam dövriyyəli maliyyələşdirmənin inkişafına, özəl sektorun ETİ-yə sərmayələri, investisiyalar, kapital qoyuluşları, o cümlədən həm tənzimləmənin inkişafı, həm də innovasiyanın müxtəlif maliyyələşdirmə mərhələlərində təcrübə və əlaqələrin inkişafı prosesinin sürətləndirilməsinə artıq ehtiyac yaranmışdır.

2. Ali təhsildə rəqəmsal savadlılıq

Bütün maraqlı tərəflərin rəqəmsal savadlılığı ali təhsil müəssisələrində rəqəmsal dəyişikliklərə gedən yolda xüsusi önəm kəsb edir. Ali təhsil müəssisələrində maraqlı tərəflərin (tələbələr, müəllimlər, rəhbərlik, sənaye müəssisələri, məzunlar, valideynlər, iş adamları, cəmiyyət və başqaları) hər biri müəyyən bir yaş səviyyəsindədir və texnologiya ilə bağlı bacarıqlarında fərqliliklər özünü göstərə bilər. Rəqəmsal strategiyanın uğuru bu müxtəlif maraqlı tərəflərin yaranan texnologiyalara uyğunlaşmaq və onlardan səmərəli istifadə etmək qabiliyyətindən çox asılıdır.

Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası təhsilalanların rəqəmsal biliklərinin formalaşması vacib hesab edilir və bunun üçün hesab edirik ki, ali təhsil müəssisələri əvəzsiz rol oynayır [1, s.18]. Bərabər səviyyədə, onların bilik və bacarıqlarını inkişaf etdirmək əlbəttə mürəkkəb bir proses olmaqla bərabər, uzun müddət ala bilir. Ali təhsil müəssisələrinə qəbul edilən tələbələr təkcə 17-25 yaş arası gənclər deyil, və ya bu yaş səviyyəsində olan gənclərin bir hissəsi müəyyən sosio-iqtisadi və digər səbəblərdən texnoloji avadanlıqlardan istifadə bacarıqlarını təkmilləşdirə bilməmişdir.

3. Universitetlərin idarəçiliyində rəqəmsal transformasiya

Müasir dövrdə tələbələrin yeni gözləntiləri və ehtiyacları yaranmışdır. Tələbələr inzibati proseslərin rəqəmsallaşdırılması, çoxsaylı və çoxşaxəli platformalar və ya rəqəmsal kurrikulumdan istifadə edərək bütün məlumat və xidmətlərə 24 saat məhdudiyyətsiz çıxış kimi xüsusiyyətlərlə öz təcrübələrinin "əsaslarının" təkmilləşdirilməsini getdikcə daha çox tələb edirlər. Buna görə də tələbələrin ehtiyaclarına cavab verən düzgün rəqəmsal yanaşmanın seçilməsi rəqəmsal transformasiyanın əsas amillərindən birinin - tələbə təcrübəsinin təkmilləşdirilməsi üçün çox vacibdir.

Ali təhsil müəssisələrində idarəetmə fəaliyyətinin rəqəmsallaşdırılması, elektron sənədlərdən istifadə etməklə sənədləşmə proseslərinin həyata keçirilməsi, vaxt və kağız itkisinin qarşısının alınması məqsədilə araşdırmalar aparılır. Bir çox xarici ölkələrdə tələbə qəbulunu həyata keçirən universitetlər kimi Azərbaycan universitetləri də bu sahədə bir sıra addımlar atmışdır. Pandemiya dövrü bu prosesə təkan vermişdir. Hal-hazırda Azərbaycan universitetlərinə qeydiyyat prosesi elektron formada aparılır [10]. Bundan başqa, bu cür prosedurlar universitetlərin daxilindəki şöbələrdə də gücləndirilmişdir.

4. Rəqəmsal transformasiya dövründə araşdırma və inkişaf

Ali təhsil müəssisələrinin digər mühüm sütunu olan tədqiqat sahəsində rəqəmsal kitabxanaların yaradılması və müxtəlif ölkələrin kitabxanalarına çıxışın asanlaşdırılması, və bu məlumatlarla bağlı elmi məlumatların rəqəmsal mühitlərdə paylaşılması xüsusi önəm kəsb edir [8, s.41]. Bu komponentin elmi araşdırmaların məlumatlarının yoxlanılmasına əhəmiyyətli töhfə verəcəyinə inanılır. Azərbaycan universitetlərində tələbələrin və tədqiqatçıların birlikdə mübadilə aparılması üçün davamlı layihələrin təşkil edilməsinə, elmi konfranslarda tələbə-müəllim qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsinə ehtiyac yaranmışdır. Tələbə-müəllim arasında əməkdaşlığın inkişaf etdirilməsi və komanda şəklində müxtəlif sahələrdə araşdırmaları həyata keçirilməsi Azərbaycan elminə xüsusi töhvə verə bilər. Bunun üçün tələbələrin rəqəmsal biliklərini inkişaf etdirmək, onların açıq elektron kitabxanalardan istifadə etmək bacarıqlarını inkişaf etdirmək lazımdır. Rəqəmsal kitabxananın inkişafı üçün bir çox açıq mənbə proqram təminatı mövcuddur. Hər kəsin istifadəsinə açıq olan mənbələrə daxil olmaqla kitablar və akademik jurnallardan elektron formalarda ödənişsiz şəkildə istifadə etmək olar. Müəllif hüquqları sahibləri üçün normal olaraq qorunan mənbə kodu və hüquqlar indi tərtibatçılara/istifadəçilərə təmənnasız şəkildə proqram təminatını öyrənməyə, dəyişdirməyə, təkmilləşdirməyə və bəzən lazım gəldikdə yaymağa imkan verir [8, s.41]. Bu formada olan elektron kitabxanaların tələbələrin istifadəsinə verilməsi universitetin xərclərini azalda bilər, həmçinin gələcəkdə aparılacaq işlərin etibarlılığına, daha keyfiyyətli akademik işlərin tələbələr və universitetin professor-müəllim heyəti arasında yayılmasına zəmanət verə bilər.

Burada iki əsas məsələ var: Azərbaycanda fəaliyyət göstərən universitetlərin tələbələrin kitabxana resurslarından istifadə etmək imkanlarını təmin etməsi və tələbələrin araşdırma bacarıqlarını inkişaf etdirməsi, digər məsələ isə xarici ölkələrin bir sıra akademik jurnallarına girişin məhdud olmasını nəzərə alaraq, açıq onlayn jurnalların siyahısının hazırlanması, tələbələrin, hətta professor-müəllim heyətinin bu jurnallar barəsində məlumatlandırılması, daha çox elmi araşdırmaların aparılması tövsiyyələrin verilməsi lazımdır.

5. Rəqəmsal təhsilin inkişaf etdirilməsi

Ali təhsil müəssisələrinin cəmiyyətin bütün təbəqələrini əhatə etməsi və dəyişikliklərə öncülük etməsi gözlənilir. Bu mənada cəmiyyətin bütün təbəqələrini əhatə edə bilən yetkinlik yaşına çatmış şəxslərin təhsilini dəstəkləyən açıq kursların təmin edilməsi, yüksək keyfiyyətli, çevik, az ödənişli təhsil mühitlərinin yaradılması rəqəmsal transformasiya çərçivəsində nəzərdə tutulur.

Həmçinin təhsil alanların karyera idarəçiliyi və bacarıqlarının təkmilləşdirilməsi, sənaye ilə tədqiqatçılar və öyrənənlər arasında fasiləsiz əlaqələrin qurulması, müxtəlif peşəkar səlahiyyətlərə yiyələnmək üçün onlayn formatda qısamüddətli sertifikat proqramlarının yaradılması kimi dəyişikliklər edilməsi üçün artıq rəqəmsallaşmaya xüsusi ehtiyac duyulur. Məhz bunun nəticəsi kimi Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında ölkə prezidenti cənab İlham Əliyev vətəndaşların daimi savadlılığını təmin etmək üçün "ömürboyu öyrənmək" mexanizminin yaradılmasını irəli sürmüşdür[1, s.18]. Bu mexanizmin nəticəsi kimi, müxtəlif yaş qruplarından olan insanlar üçün qlobal məkanda əmək bazarı üçün qoyulan tələblərə uyğun olaraq ixtisasartırma kursları təşkil edilməli və müxtəlif yaş qruplarından olan insanlar bu kurslara cəlb edilərək yüksək ixtisaslaşmış bir mütəxəssis ola bilərlər

Bu dəyişikliklərin edilməsi universitetlərin qlobal arenada beynəlmilələşmə siyasətinə xüsusilə dəstək ola bilər. Rixter və digərləri qeyd edir ki, ali təhsildə rəqəmsal transformasiya universitetlərin beynəlxalq arenada yer alması, qlobal bilik iqtisadiyyatının xüsusi bir hissəsini təşkil etməsi və tələbələrini gələcəyə hazırlaması üçün kritik əhəmiyyətə malikdir [9, s.174]. Azərbaycandakı universitetlərin əksəriyyətinin özünü maliyyələşdirmə nəticəsində yenidən qurmasında yeni gəlir sahələrinin əldə edilməsi, universitetlərin yeni investisiya mənbələrinə çevrilməsində xüsusilə yuxarıda qeyd etdiyimiz məsələlər əsas rol oynayır.

Ali təhsil müəssisələrində elmi-tədqiqat və təkmilləşdirmə mədəniyyətinin və innovasiyanın yaradılması üçün silsilə tədbirlər və sistemli yanaşma praktikada tətbiq edilməlidir. Uğurlu olmaq istəyən təhsil müəssisələri ilk növbədə tədqiqat, təkmilləşdirmə və innovasiyalarda ümumi cəhətlər yaratmalıdır. Bu nöqteyi-nəzərdən sistemin inkişaf etdirilməsi məzunlarının ömür boyu öyrənmə ehtiyaclarına töhfə vermək kimi tələblərə uyğun olaraq həqiqətən təsirli bir vasitə ola bilər [2].

Nəticə və təkliflər. Nəticə etibarı ilə, görünür ki, rəqəmsal transformasiya mürəkkəb və davamlı prosesdir. Ali təhsil müəssisələri müxtəlif iyerarxik strukturlara malikdir ki, bu da rəqəmsallaşma strategiyasının həyata keçirilməsini xüsusilə mürəkkəb edir. Burada ali təhsilin maraqlı tərəfləri – tələbələr, müəllimlər, universitetin inzibati heyəti, eləcə də daha geniş ictimaiyyət – sıx əməkdaşlıq etməlidir.

Bu gün Azərbaycan ali təhsil müəssisələri arasında bəzilərinin innovativ texnoloji avadanlıqlarla təchiz edilməsinin, bəzilərinin isə daha çox müasir dövrün tələbələrinə çox az cavab verən avadanlıqlarla təchiz edildiyini müşahidə edirik. Ali məktəblərin maliyyə və texnoloji məhdudiyyətləri onların rəqəmsallaşmanı tam həyata keçirməyə mane ola bilir. Etiraf etmək lazımdır ki, texnologiyalar çox vaxt bahadır və bu, ali təhsil müəssisələrinin bu gün üzləşdiyi maliyyə məhdudiyyətləri ilə birlikdə onun qəbuluna mane ola bilər. Digər tərəfdən, ali məktəblərin müəyyən strategiya üçün lazım olan texnologiyalara çıxışı olmaya bilər, çünki bu texnologiyalara giriş açıq deyil. Beləliklə, rəqəmsal strategiyanın uğurlu olması üçün ali məktəbin onun həyata keçirilməsi üçün lazımi resurslara malik olmasını təmin etmək lazımdı.

Ölkə daxilində təkcə araşdırma sahəsində fikir mübadiləsi aparmaq kifayət etmir. Müəllim və tələbələrin dərin bilik və bacarıqlara malik olmasını təmin etmək üçün müxtəlif virtual formatlı görüşlərin təşkil edilməsi, nisbətən innovasiyalardan istifadə qabiliyyətini inkişaf etdirmiş universitetlərin digər universitetlərə tövsiyyə və məsləhətlərini verməsi, lazımi texniki dəstəyin göstərilməsi rəqəmsal savadlılığın artırılmasına, universitetlərin bu mənada bərabərsizliyinin azaldılmasına dəstək ola bilər. Azərbaycan universitetləri bu rəqəmsal dövrdə tələbələr üçün bilikləri təchiz etmək, yaradıcı qabiliyyətləri, bacarıqları və baxışları təşviq etmək üçün yeni strategiyaları hazırlamalı və təhsildə güclü innovasiyalar həyata keçirməlidir. Xüsusilə iqtisadi sahədə ali təhsil müəssisələri dünyada universitet hazırlığının inkişaf tendensiyasına uyğunlaşmaq üçün tədris proqramlarının, məzmununun və metodlarının təcili yenilənməsini tələb edir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. https://president.az/az/articles/view/56725
2. Altbach P. Patterns in Higher Education Development. In P. Altbach, R. Berdahl, P. Gumport (Eds.). American Higher Education in the Twenty-First Century: Social, Political, and Economic Challenges. Baltimore: The Johns Hopkins University Press, 2005, pp. 15-37.

3. EU4Digital - supporting digital economy and society in the Eastern Partnership. New organisational forms in support of ICT innovation: policy recommendations: Azerbaijan, 2020, pp. 50. https://eufordigital.eu/wp-content/uploads/2020/07/Policy-recommendation-for-Azerbaijan-in-the-area-of-New-organisational-forms-in-support-of-ICT-innovation.pdf
4. Grosseck G., Maliţa L., Bunoiu M. Higher Education Institutions Towards Digital Transformation—The WUT Case. In: Curaj, A., Deca, L., Pricopie, R. (eds) European Higher Education Area: Challenges for a New Decade. Springer, Cham, 2020, pp. 565-581. https://doi.org/10.1007/978-3-030-56316-5_35
5. Gümüşoğlu E.K.. Yükseköğretimde dijital dönüşüm. Açıköğretim Uygulamaları ve Araştırmaları Dergisi, 2017, cild 3, no. 4, ss. 30-42. https://dergipark.org.tr/en/pub/auad/issue/34247/378482
6. Rampelt F., Orr D., & Knoth A. Bologna Digital 2020 White Paper on Digitalisation in the European Higher Education Area, 2019. https://hochschulforumdigitalisierung.de/de/news/white-paper-bologna-digital-2020.
7. Rodríguez-Abitia G., Bribiesca-Correa G. Assessing Digital Transformation in Universities. Future Internet, 2021, vol. 13, no. 2 : 52. https://doi.org/10.3390/fi13020052
8. Singh K K, Asif M, Emerging trends and technologies for digital transformation of libraries. IP Indian J Libr Sci Inf Technol, 2019, vol.4, no. 2, pp. 41-43.
9. Taşcı Y., Taşlıbeyaz E. Yükseköğretim Kurumlarında Dijital Dönüşüm Çalışmalarının İncelenmesi. Yükseköğretim ve Bilim Dergisi, 2021, c.11, sayı.1, ss.172-183.
10. Universitetlərə daxil olanların sənəd qəbulu bu cür həyata keçiriləcək. https://ted.az/az/view/news/23915/universitetlere-daxil-olanlarin-sened-qebulu-bu-cur-heyata-kechirileceknbsp

РЕЗЮМЕ
ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ ВНЕДРЕНИЯ ЦИФРОВОЙ ТРАНСФОРМАЦИИ В АЗЕРБАЙДЖАНСКИХ УНИВЕРСИТЕТАХ В СОВРЕМЕННУЮ ЭПОХУ
Алиева С.Ю., Алиев М.Б.

***Ключевые слова**: цифровая трансформация, вузы Азербайджана, цифровые навыки.*

В последние годы ряд важных изменений, основанных на технологических и социальных тенденциях к цифровизации в высших учебных заведениях Азербайджана, привели к пониманию цифровизации как сложной и взаимосвязанной среды, обеспечивающей обучение в новую эпоху. В этой сложной среде развитие определенных цифровых знаний и навыков всех заинтересованных сторон, связанных с университетом (преподавателей, студентов, специалистов, администраторов и т. д.), может помочь администраторам университетов ускорить цифровизацию. В этом смысле уместно обратиться к моделям цифровой трансформации, применяемым в зарубежных университетах.

SUMMARY
PROBLEMS AND PROSPECTS OF IMPLEMENTING DIGITAL TRANSFORMATION IN AZERBAIJANI UNIVERSITIES IN THE MODERN ERA
Aliyeva S.Yu., Aliyev M.B.

***Key words:** digital transformation, Azerbaijan universities, digital skills*

In recent years, a number of important changes based on the technological and social trends towards digitalization in higher education institutions in Azerbaijan have led to the understanding of digitalization as a complex and interconnected environment that provides learning in the new era. In this complex environment, the development of certain digital knowledge and skills of all university-related stakeholders (teachers, students, professional staff, administrators, etc.) can support university administrators to accelerate digitization. In this sense, it is appropriate to refer to the models applied for digital transformation in foreign universities.

AZƏRBAYCANDA MİLLİ KADRLARIN HAZIRLANMASINDA NAXÇIVAN ALİ VƏ ORTA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ROLU

Şəfiyeva Ə.H.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan
afshanshafiyeva@yahoo.com

Açar sözlər: *Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Dövlət Pedaqoji İnstitutu, Naxçıvan ali və orta təhsil müəssisələri, Heydər Əliyev*

Hər bir xalqa aid olan mədəniyyət, elm və təhsilin inkişafı onun milli kimliyinin ,milli ruhunun, milli şüur və düşüncəsinin formalaşması ilə əlaqələndirilir. Təhsil hər bir xalqın keçmişinin öyrənilməsində

böyük əhəmiyyətə daşıyır .Bununla belə təhsil həm dövlətin strateji əhəmiyyətli fəaliyyətini,həm siyasi-iqtisadi, həm sosial ,həm də mədəni inkişafının müəyyən edilməsində həmçinin, yeni qurulmuş cəmiyyətin mənəvi dəyərlərinin formalaşmasında böyük rol oynayır.. Ona görə də, təhsilin inkişaf etdirilməsi ,bu yolda atılan addımlar hər biri əsas istiqamət sayılaraq bütün müstəqil dövlətlər üçün vacib istiqamətlərdən biri hesab olunur.

XX əsrdə orta əsrlərdən formalaşmağa, inkişaf etməyə başlamış olan maarifçilik ideyası mədəniyyət mərkəzi kimi tanınan Naxçıvanda inkişaf istiqaməti daha da artmış və tanınmışdır. Milli-mənəvi dəyərlərə qayıdışın əsası da məhz təhsil sahəsinin inkişafı ilə əlaqələndirilir .Naxçıvanda XIII əsr ərzində təhsil sisteminin əsası kimi məktəblər və mədrəsələr mühüm rol oynayırdı . XIII əsr ərzində məktəblərə qəbul 5-6 yaşlarında həyata keçirilirdi . Və 15 yaşına qədər təhsillərini davam etdirirdilər. Məktəbi bitirdikdən sonra uşaqların bir hissəsi isə mədrəsələrdə təhsillərini davam etdirirdilər. Həmin təhsil müəssisələri öz fəaliyyətlərini XIV-XV əsrlər ərzində davam etdirmişlər. Bu mövzu haqqında orta əsrlərdə yaşamış tarixçi və çoğrafiyaşünas kimi tanınan Əbdürrəşid əl-Bakuvinin yazmiş olduğu əsərlərində müəyyən qeydlər verilmişdir .XIII-XV əsrlər ərzində Naxçıvan həm Azərbaycanın, həm də Şərqin elm və mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır .

Naxçıvanda təhsil sahəsinin mükəmməl formada inkişafı irəliləyən zamanlarda özünü daha yaxşı göstərirdi . Bu inkişaf da Naxçıvan xanlığı dövründə daim özünü göstərmişdir . Tarixçi İ.Şopen Naxçıvanda siyahıyaalma prosesinin həyata keçirərkən öz əsərlərində qeyd etmişdir ki, Naxçıvandakı təhsil sistemi digər xanlıqlarda olan mövcud təhsil sistemi üçün analoq kimi çıxış etmişdir.. [6]

XIX əsrin sonlarından etibarən Naxçıvanda yeni üslubda şəhər və qəza məktəblərinin inşasına başlandı. Lakin XX əsrdən etibarən maarifçilik hərəkatı, elm və təhsil sahəsi özünün ən yüksək zirvəsinə çatmışdır. Məhz bu dövrdə Azərbaycanın ayrılmaz bölgəsi hesab edilən Naxçıvanda da təhsil, məktəb sisteminin geniş şəbəkəsi yaradılmışdır. Bununla da xalqımız ümumi təhsilə cəlb edilmişir.

Məktəblər təhsilin formalaşması və inkişafında xüsusi yer tutur . Ümumiyyətlə ,tariximizə nəzər saldıqda , Azərbaycan ərazisində qədim dövrlərdən etibarən böyük məktəblər və təhsil ocaqlarının mövcud olduğunu görmək olar . XIX əsr ərzində də Naxçıvanda təhsilin böyük inkişaf yolu keçdiyini müşahidə edirik. Ümummilli liderimiz Heydər Əliyev müəllimlərə müraciətində demişdir ki, *"Məktəb elə bir proses ,elə bir bir orqanizm hesab edilir ki, burada hamı – şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişaf edir"* [2]

Naxçıvan və Ordubad ərazisindəki pedaqoji texnikumlar,həmçinin , Naxçıvan Müəllimlər İnstitutu və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı da belə məktəblərdən biri kimi hesab olunmuşdur .

Həm pedaqoji təhsilin, həm də elmin və mədəniyyətin inkişafında Naxçıvan Muxtar Respublikasının təhsil sahəsində böyük rolu olan müəssisələrdən sayılan texnikumların özünəməxsus yeri və böyük xidmətləri mövcuddur . Qeyd etmək yerinə düşər ki, Naxçıvanda məktəblərin sürətlə çoxalması , inşası nəticəsində burada tədrisi həyata keçirəcək olan müəllim kadrlarına böyük ehtiyac və tələbat da artmışdı . Bu səbəbdən də ,yeni maarifçilik ideyası və yeni düşüncə tərzinə malik müəllim kadrlarının hazırlanması üçün yeni ali təhsil ocaqlarının inşası zərurəti meydana çıxmışdı.

Maarifçiliklə çox maraqlanan, müəllimlik sənətinə dərin hörmətlə yanaşan ümummilli liderimiz Heydər Əliyev demişdir ki, *"Mənim müəllimə qarşı hər zaman böyük hörmətim olmuşdur. Həmişə məndən soruşanda ki, gənc yaşlarından ən çox hörmət etdiyiniz adamlar kim olmuşdur? Həmişə cavabımda demişəm ki, orta məktəbdə mənə dərs deyən müəllimlər hörmət etdiyim adamlardır . Sonrakı vaxtlarda mənim müəllimlərim daha çox olmuşdur. Mən həm ali təhsil ocaqlarında ,həm də xüsusi məktəblərdə təhsil almışam. Mənə bir çox müəllim və alimlər dərs deyiblər... Ancaq Naxçıvanda orta məktəbdəotəhsil alarkən müəllimlərimdən aldığım , öyrəndiyim bilik, tərbiyə və təəssürat qəlbimdə daimi şəkildə yaşayır. Həmin müəllimlərin hər birinin siması ,çöhrəsi bu günkü gündə də mənim gözümün qarşısındadır,yadımdadır. 1990-cı ildə Moskvadan Azərbaycana qayıdıb və ordan da Naxçıvana gedərkən mən orada ilk növbədə öz müəllimimi axtarmağa başladım. Məsələn, orada Əli Əliyev var idi. Allaha şükürlər edirəm ki, həmin müəllim mənə tarix dərsi deyibdir*". [3]

Təhsil sahəsinin yüksək pilləsinə yüksəlmək kimi şərəfli yolda addımlayan Naxçıvan ali və orta ixtisas təhsil müəssisələrində təhsil almış yüzlərlə məzun hər şeydən əvvəl özlərini elm və təhsil ocaqlarının inkişaf etdirilməsində əsas kadr kimi görurdülər. Təsadüfi deyildir ki, müasir sivilizasiyanın ən yüksək göstəricisi elm və təhsil sahəsinin inkişaf istiqaməti hesab olunur. Elmin, təhsilin inkişafı və fəaliyyətinin artması özünü mütləq şəkildə universitet, institut, məktəb, texnikum və kolleclərdən keçən istiqamətdə göstərir .

Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərmiş olan ali və orta ixtisas təhsil müəssisələrinin rolu haqqında danışarkən belə bir nüans , məsələ nəzərə alınmalı, qeyd olunmalıdır ki,

həmin müəssisələr yalnız elm, təhsil ocağı kimi deyil, həm də böyük mənəvi tərbiyə məktəbi kimi bugünkü dövrdə də fəaliyyət göstərir.

Müasir dövrumüzdə görkəmli mütəxəssislərin fikirlərinə əsaslı hesab edərək demək olar ki , qədim tarixi mədəniyyət sahibi olan və bunu daim yaşadan xalqlar ilk növbədə elm və təhsilin vacibliyini bildirərək inkişafını əsas hesab edirlər .Bəşər tarixinin ən qədim və mədəni xalqlarından biri hesab edilən azərbaycanlıların əzəli türk torpaqları Naxçıvan hesab edilirdi. Bununla bağlı olaraq bir məsələ haqqında danışmaq olar: 1999-cu il oktyabr ayının 11də ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun açılış mərasimindəki nitqində söyləmişdir ki, " *Azərbaycanın yüksək səviyyəli ziyalılar yetişdirən bir diyarı da Naxçıvan olmuşdur. Naxçıvan Dövlət Universitetinin bu gün fəaliyyət göstərməsi Naxçıvan şəhərində min il əvvəldən elmin, mədəniyyətin mövcud olması və sonradan inkişafının məntiqi nəticəsi hesab olunur " vəbu fikrə əlavə olaraq qeyd etmişdir ki, "bu ali məktəb yeni , Naxçıvan Dövlət Universiteti qonşu ölkələrin elm və təhsil ocaqları ilə geniş siyasi ,diplomatik əlaqələr saxlamaqla bir daha Naxçıvanın Şərqin qapısı olduğunu nümayiş etdirmişdir".* [1]

Görkəmli dövlət xadimi, Respublikamızın ümummilli lideri ,Ulu Öndərimiz ,Azerbaycan xalqının sevgi rəğbətini qazanmış Heydər Əlirza oğlu Əliyev təhsil müəssisəsi kimi fəaliyyət göstərən həmin texnikumun yetirməsi olmuşdur. Heydər Əliyev 1936-1937-ci tədris ili ərzində Naxçıvan İnternasional Pedaqoji Texnikumuna daxil olmuşdur.

Naxçıvan Pedaqoji Texnikumu və Müəllimlər İnstitutunda təhsil almış olan məzunlar dövlətçiliyin yaranması, inkişafı və möhkəmləndirilməsində, dövlət quruculuğu və idarəçilik sahəsində çalışaraq böyük nəaliyyətləri olmuş, gördüyü işlərə görə xalq içərisində tanınmışlar. Bu məzunlardan Manaf Xuduyevi, Yaqub oğlu Kəngərli Nəsrullanı, Əzimov Hüseynqulunu, Yusifov Əbili, Mehdiyev Həsəni, Həmzə oğlu Əkbərov Məhəmmədi, Heydər oğlu Qurbanov Qənbəri, İmanov Cəfəri, Əzimov Əlini, Rzayev Həbibi, Nəbiyev Yusifi və s.adlarını qeyd etmək yerinə düşər .

Naxçıvan Pedaqoji Texnikumunun və Müəllimlər İnstitutunda təhsil almış məzunların bir hissəsi dövlət orqanlarında, dövlət quruculuğu sahəsində çalışmış ,digərləri isə öz fəaliyyətlərini elm və təhsil sahəsində davam etdirmiş və ömrünü bu sahədə qurban vermiş görkəmli, tanımış şəxsiyyətlər olmuşlar. Bu məzunlardan Bektaşi Məmməd, Babayev Səfəralı, Cəfərov Məmməd, Məmmədyarov Məhərrəm, Əliyev Cəlal, Nəsirli Müzəffər, Seyidov Yəhya, Axundov Musa, Məmmədov Dövlət Mirişli Adilə, Tahirova Nazlı, Zamanova Xurşud, Məmmədov Vaqif, Məmmədova Hökümə, Axundlu Yavuz, Sadıqov Şükür və s.adlarını qeyd edə bilərik. [4]

Ümumtəhsil məktəblərinin şəbəkə sisteminin genişlənməsi ali təhsilli və savadlı müəllim kadr və heyyətinə böyük ehtiyac və tələbatın artmasına gətirib çıxartmışdır. . Bununla bağlı olaraq, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının yarandılmışdır. Naxçıvanda açılacaq olan bu filial Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bir parçası kimi fəaliyyət göstərəcəkdi. 1967-ci ilin yayından etibarən filialda tələbə qəbuluna başlanılmışdı . Naxçıvan Muxtar Respublikasının məktəblərinin ən savadlı məzunları Azərbaycan Dövlət Pedaqoji İnstitutun Naxçıvan filialına sənədlərini təqdim etmişdilər. 1970-ci ildən etibarən təhsil müəssisəsinin Naxçıvan filialı Naxçıvan MSSR-də ali təhsilli ,savadlı kadrlar yetişdirən ilk və yeganə ali təhsil müəssisəsi kimi tanımış və fəaliyyət göstərmişdir .Burada 5 fakültə rolunu qeyd etmək olar .Bunlardan tarix, ədəbiyyat, riyaziyyat, coğrafiya, fizika fakültələri böyük rol oynamışdır. Əyani şöbədə 506 nəfər, qiyabi şöbəsdə isə 434 nəfər tələbə təhsilalan ders almışdır. [5]

Regionun yüksək ixtisaslı və savadlı kadr və mütəxəssislərə olan tələbatı ödəmək zərurəti ali təhsil ocağının filial kimi deyil də müstəqil ali məktəb kimi fəaliyyət göstərməsini şərtləndirdi. Bununla bağlı olaraq , 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutu həmin filialın bazası əsasında yaradılmışdır. 1972-ci ildən başlayaraq Naxçıvan Dövlət Pedaqoji İnstitutunda ibtidai təhsil üzrə ibtidai təhsilin pedaqogikası və metodikası, fizika, ümumi texniki fənləri, əmək, kimya, biologiya ixtisasları üzrə müəllimlətin hazırlanması üçün ayrıca yeni fakültələr açılmış və fəaliyyət göstərmişdir. . Bu ixtisasların hər biri Azərbaycan Pedaqoji İnstitutunun fəaliyyəti, onun tədris planları, təhsil proqramları ilə inkişaf etmiş və təkmilləşmişdir.

Pedaqoji kadrlara yaranmış tələbat zaman keçdikcə sosial-iqtisadi və mədəni həyatın digər sahələrini də əhatə etməyə başladı və ali məktəb qarşısına məqsəd kimi yeni ixtisasların açılmasını, fəaliyyətini daha geniş müstəvidə həyata keçirməyi qoydu. Bununla bağlı olaraq da Azərbaycan SSR Nazirlər Kabinetinin 1990-cil 29 dekabrında imzalanmış 584 saylı qərarla bu Pedaqoji İnstitut Naxçıvan Dövlət Universitetinə çevrilmişdir.

Respublikamızın Prezidenti Heydər Əliyevin 2002-ci ilin iyun 12 də imzalanmış sərəncamı ilə Naxçıvan Dövlət Universitetinə yüksək səviyyəli özünüidarəetmə statusu və muxtariyyət hüququ verilmişdir. Ümummilli liderimiz Heydər Əliyev müxtəlif illərdə 1974, 1992 (iki dəfə) və 1999-cu illərdə

Naxçıvan Dövlət Universitetində olmuşdur. Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının və Konservatoriyasının açılışında Azərbaycan Respublikasının prezidenti İlham Əliyev iştirak etmişdir.

Hazırda Naxçıvan Dövlət Universitetində 451 nəfər professor və müəllim heyəti çalışır. Bu heyətin 3 nəfəri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 20 nəfəri elmlər doktoru, 7 nəfər professor 151 nəfəri fəlsəfə doktoru kimi fəaliyyət göstərirlər .Müəllimlər arasında xalq rəssamı, əməkdar elm xadimi, 10 nəfəri Azərbaycan Respublikasının əməkdar müəllimi, 3 nəfəri Azərbaycan Respublikasının əməkdar artisti, 4 nəfəri Azərbaycan Respublikasının əməkdar mədəniyət işçisi, həmçinin , 32 nəfəri Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, 5 nəfəri əməkdar artisti, 2 nəfəri əməkdar bədən tərbiyəsi və idman xadimi, 2 nəfəri əməkdar həkimi, 5 nəfər əməkdar mədəniyət işçisi, əməkdar rəssamı, əməkdar incəsənət xadimi fəxri adlarına layiq görülənlər vardır.

Naxçıvan Dövlət Universitetində 12 fakültədə (Tarix-filologiya, Beynəlxalq münasibətlər və hüquq, İqtisadiyyat və idarəetmə, Xarici dillər, Fizika-riyaziyyat, Memarlıq və mühəndislik, Təbiətşünaslıq və kənd təsərrüfatı, Tibb, Pedaqoji, İncəsənət fakültəsi, Xarici tələbələrlə iş üzrə dekanlıq və Magistratura mərkəzi) bakalavriat səviyyəsi üzrə 70 ixtisas, magistratura üzrə 82 ixtisaslaşma, doktoranturada 52 ixtisas və rezidentura üzrə 32 ixtisasda ümumilikdə 7700-ə yaxın, o cümlədən 9 ölkədən 1500 nəfərdən çox xarici tələbə təhsil alır.

8 iyun 2021-ci il tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Musiqi Kollecinin Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsi haqqında" Sərəncamı təhsil sahəsinin dünyaya inteqrasiyası istiqamətində atılan addımların məntiqi davamıdır. Universitetin tabeliyində olan Naxçıvan Musiqi Kollecində isə subbakalavriat səviyyəsi üzrə 13 ixtisasda 516 tələbə təhsil alır.

Naxçıvan Dövlət Universiteti artıq yaxşı düşüncə qabiliyyətinə, bacarıq imkanlarına malik olan, əsaslandırılmış formada məntiqi baxışlarını ortaya qoya bilən güclü təfəkkür və bilik daşıyıcıları yetişdirməkdədir. Universitetdə gələcəyimiz üçün lazımi sayılan tələbələrin əsaslı şəkildə təhsil almaları üçün vətənpərvər və peşəsini həqiqətən sevən, xalqına xidmət göstərəcək elmi-pedaqoji kadrlar hazırlanır. Hər bir Azərbaycan vətəndaşı bilir ki, Avropaya inteqrasiya siyasətini reallaşdıran Azərbaycan cəmiyyətinin bütün sahələrindəki göstəriciləri mütərəqqi dövlətlər səviyyəsinə çatdırmalıdır. Təhsilin milli səviyyədə inkişaf etdirilməsi üçün konkret hədəflər, məqsədlər müəyyən edilməlidir. Azərbaycan təhsili qarşısında duran bir sıra vəzifələr və onların həyata keçirilməsi keyfiyyət dəyişikliklərinin edilməsinə əsaslı təkan verə bilər. Naxçıvan ali və orta təhsil müəssisələri də müasir təhsil sisteminə yeni baxışlı, fəal təlimi tətbiq edə biləcək elmi-pedaqoji kadrların yetişdirilməsi istiqamətində fəaliyyət göstərməkdədir.

Ədəbiyyat

1. "Azərbaycan" qəzeti, - 1999, 13 oktyabr. – s.1
2. "Azərbaycan müəllimi" qəzeti. – 2014, 2 may. – s. 4.
3. "Xalq qəzeti", – 1998, 6 may. – s. 2.
4. Naxçıvan MSSR-də xalq maarifinin inkişafı // NMRDA, Fond №713, siyahı №1, iş №89, vərəq – 37
5. Naxçıvan Pedaqoji Texnikumunun direksiya müəllimlər və texniki işçilərin sənədləri // NMRDA, Fond №8, siyahı №2, iş №45, vərəq – 42
6. Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи / И.Шопен. – СПб: Типография Императорской Академии Наук, – 1852. – 1231 с.

РЕЗЮМЕ

РОЛЬ ВЫСШИХ И СРЕДНИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ НАХЧЫВАНА В ПОДГОТОВКЕ НАЦИОНАЛЬНЫХ КАДРОВ В АЗЕРБАЙДЖАНЕ

Шафиева А.Г.

Ключевые слова: *Нахчыванский государственный университет, Нахчыванский педагогический институт, Нахчыванский государственный педагогический институт, Нахчыванские высшие и средние учебные заведения, Гейдар Алиев*

Нахчыванское образование, внесшее свой вклад в систему образования Азербайджана и имеющее очень древнюю и богатую историю, прошло интересный путь развития. Наибольшего успеха система образования Нахчывана достигла в 20 веке. Нахчыванское образование, сформировавшееся в начале 20 века от создания неполных высших учебных заведений до их преобразования в самостоятельные государственные университеты, прошло многолетний путь развития. В статье рассказывается о деятельности высших и средних учебных заведений Нахчыванской Автономной Республики, ее выпускниках, в основном о великом лидере Гейдаре Алиеве и других известных выпускниках.

SUMMARY
THE ROLE OF NAKHCHIVAN HIGHER AND SECONDARY EDUCATIONAL INSTITUTIONS IN THE TRAINING OF NATIONAL PERSONNEL IN AZERBAIJAN
Shafiyeva A.H.

Keywords: *Nakhchivan State University, Nakhchivan Pedagogical Institute, Nakhchivan State Pedagogical Institute, Nakhchivan Higher and Secondary Educational Institutions, Heydar Aliyev*

Nakhchivan education, which has contributed to the education system of Azerbaijan and has a very ancient and rich history, has gone through an interesting development path. The Nakhchivan education system achieved its greatest success in the 20th century. Nakhchivan education which is formed at the beginning of the 20th century from the creation of incomplete higher education institutions to their transformation into independent state universities, has gone through a long-term development path.

The article talks about the higher and secondary educational institutions in the Nakhchivan Autonomous Republic, its graduates, mainly the great leader Heydar Aliyev and activities of other graduates in the state building, science and education field.

E-TƏHSİL MÜHİTİNDƏ SOSİAL ŞƏBƏKƏLƏRİN TƏTBİQİ

Bahadurzadə N.İ., Ələsgərova E.R.
İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
aleskerova-66@mail.ru, bahadurzade99@mail.ru

Açar sözlər: *sosial şəbəkələr, tədris kontenti, e-təhsil, e-təhsilin idarəetmə sistemi, e-tədrisin fərdiləşdirilməsi.*

Giriş. E-Learning sistemlərinin sürətli inkişafı tədqiqatçılar üçün istər onlayn, istərsə də oflayn rejimlərdə e-Learning-in keyfiyyətini artırmaq üçün yaxşı situmullaşdırıcı platforma yaratmışdır. E-Learning tədqiqat layihəsi göstərir ki, sosial şəbəkə alətlərindən istifadə etməklə, elektron tədrisin inkişafı üçün hələ də kifayət qədər yer var. Bu gün qlobal İnternetdə tədris prosesində fəal şəkildə istifadə oluna bilən texnologiyalar mövcuddur. Ən məşhurlarından biri, əsas məzmununa müntəzəm olaraq yazılar, şəkillər və ya multimedia əlavələri olan təhsil bloqlarının yaradılmasıdır. Burada, hər bir tələbə öz məlumatını, nəzər nöqtəsini və digər materialları yerləşdirə bilər. Tədris prosesində tələbə həmçinin məlumat paylaşa, konkret təfərrüatları müzakirə edə və dərc olunmuş materiala şərhlər ala bilər.

Digər tərəfdən, müəllimlərin bloqları da daha az populyar deyil. Onların köməyi ilə müəllimlər tələbələrin müstəqil dərsdənkənar işlərini səmərəli idarə edə bilər, həmçinin nitq fəaliyyətinin bacarıqlarını təkmilləşdirməyə yönəlmiş tapşırıqlar yarada bilərlər. Müxtəlif yazı növlərini öyrənmək (axtarış, baxış, giriş və öyrənmə) bir-birindən fərqli materiallara istənilən miqdarda bağlantı yerləşdirmək üçün məhdudiyyətsiz imkanla asanlaşdırılır. Şəbəkə üzrə tədris diqqəti tələbəyə yönəldir və fərdi yaxud birgə tədris olmasından asılı olmayaraq, burada həmin şəxsin öz öyrənməsinə dəstək olur.

Təhsildə sosial şəbəkələrin istifadəsində problemli məqamlar kimi aşağıdakıları qeyd etmək lazımdır [1]:

- burada, təhsil məqsədləri üçün xüsusi olaraq hazırlanmış vasitələrin olmaması;
- təhsil müəssəsilərdə sosial şəbəkələrə tez-tez açıq çıxışın olmaması;
- sosial şəbəkənin məkanında tələbələrin öyrənmə fəaliyyətindən yayındıran amillərin olması;
- bütün İnternet ictimaiyyəti üçün bir çox müəllimlərin qəbuledilməz və ya narahatçılığa səbəb olan təhsil prosesinin açıqlığı.

Sosial şəbəkələr son bir neçə ildə mühüm tendensiyaya çevrilib və hazırda müxtəlif informasiya ehtiyaclarını qarşılayan çoxlu sayda sosial şəbəkə saytları mövcuddur. Fərdiləşdirmə istifadəçinin maraq dairəsindən, məlumatların keyfiyyətinə dair tələblərdən, sorğu zamanı yerləşdiyi yerdən, məlumatın tələb olunduğu vaxtdan, bu məlumatları, istifadəçi məxfiliyini və ya biznes siyasətini təmin etmək üçün istifadə olunan mediadan asılıdır. Onlayn sosial şəbəkə həm də tipik bir web 2.0 tətbiqi kimi də tanınır [2]. Onlayn sosial şəbəkə saytının ən çox yayılmış anlayışı OSN (Online Social Network) saytıdır ki, dostluq etmək və ya başqaları ilə əlaqələr saxlamaq üçün bir platforma rolunu oynayır.

Əlaqədar işlər. Sosial şəbəkələrdən istifadə ilə bağlı xarici təcrübənin [3-4] təhlili təhsil, onların tətbiqi lehinə aşağıdakı psixoloji, sosial və pedaqoji arqumentləri ayırd edə bilərik.

1. Tələbələrin stimullaşdırma, nailiyyətlərinin tanınma ehtiyaclarının ödənilməsi.
2. Tələbə üçün rahat və tanış mühit.
3. Onlayn təlim prosesində iştirakçıların daimi qarşılıqlı əlaqəsi və mövcudluğu
4. Pulsuz, funksionallıq, təqvimlərin və xüsusi proqramların mövcudluğu
5. Qrup işi üçün imkanlar açıqdır. Şagirdlər öz həmyaşıdlarını öyrənmə problemlərinin həllinə cəlb edə bilərlər.

6. Daxil olan məlumatı filtrləmək imkanı.

7. Şagirdlər və müəllimlər tərəfindən təhsil məzmununun birgə yaradılması.

8. Müxtəlif ünsiyyət formaları (viki səhifələr, forumlar, sorğular, səsvermə, şərhlər, şəxsi mesajlar göndərmək, söhbət etmək və s.).

9. Video kommunikasiyadan istifadə etməklə, sosial şəbəkədə məsləhətləşmələrin aparılması imkanı (geniş nümayiş imkanları, video eksperimentlər, mühazirələr),

10. Tədris-metodik ədəbiyyata, elmi məqalələrə, diqqətçəkən faktlara, hadisələrə və görüşlərə keçidlər paylaşmaq bacarığı.

11. Müəllimlərin peşə problemlərini həll etmək üçün sosial şəbəkələrdən istifadə etməsi onların kommunikativ səriştəlilik səviyyəsini artırır.

12. Sosial şəbəkələr müəllimləri ünsiyyət baxımından tələbələr üçün sosial cəhətdən daha əlçatan edir

Elektron təhsil saytları və proqramlarından minimal istifadənin səbəbi təhlükəsizlik və məxfilik problemləri, məzmunun etibarlılığı, valyutası, giriş sürəti, real vaxt sinxronizasiyası və səmərəlilik kimi şəbəkə problemləridir. Bu aktual problemlər e-təhsil sistemlərindən aradan qaldırılsa, sosial şəbəkə saytları əməkdaşlığı, ünsiyyəti, resurs mübadiləsini, sosial təsir, faydalılıq və istifadəni asanlaşdıracaq. Digər tərəfdən, sosial şəbəkə saytları insanlara real dünyada gizlənə biləcək əlaqələri tapmağa kömək edə bilər [5].

Sosial qarşılıqlı əlaqə və əməkdaşlıq kimi xüsusiyyətlər Veb 2.0 texnologiyalarında, məsələn, bloqlar, vikilər, sindikasiya, podkastlar, teqlər, sosial əlfəcinlər və internet üzərindən bilik mübadiləsini, sosial qarşılıqlı əlaqəni, öyrənməni və kollektiv intellektin istehsalını asanlaşdırmaq üçün proqram təminatı mövcuddur. Virtual mühitdə Web 2.0 texnologiyaları icmaya sənədi birgə dərc etməyə və redaktə etməyə imkan verir. Bu, öz bacarıqlarını təkmilləşdirmək üçün belə sosial qarşılıqlı əlaqə və kollektiv intellekt, sıx qarşılıqlı əlaqə, əməkdaşlıq və bir-biri ilə dil öyrənmək üzrə ünsiyyətin köməyi ilə mübadilə və paylaşılan biliklər yaratdı. Platforma Web 2.0 aləti və sosial öyrənmə vasitəsi ilə təmin edilir ki, bütün tələbələr bilik mübadiləsi, öyrənmə, sosial şəbəkə və kollektiv intellekt istehsalı üçün birləşsin, bununla tərtibatçılar Veb 2.0 alətindən istifadəni müəllimdən öyrənənin axtardığı hər kəsə qədər genişləndirə bilər [6].

Digər xarici müəllif iddia edir ki [7], sosial şəbəkə daxilində repetitorlar və tələbələr arasında ünsiyyəti gücləndirmək üçün tələbələrin müvafiq repetitorları və qrupları ilə uyğunlaşdırılması alqoritmini həyata keçirməyin ən yaxşı yolunu təlim nəticələrini yaxşılaşdırmaqdır.

E-Learning-də sosial şəbəkələrin gələcəyi LMS-dən kənara çıxır, yəni:

– Mövzunu qrupun faydası ətrafında cəmləmək,

– Öyrənmələri üçün resurs kimi internetdən fəal istifadəyə öyrənənləri cəlb etmək,

- Birgə fəaliyyətlər vasitəsilə daha yüksək səviyyəli düşünməyi təşviq etmək,

- Onların marağını asanlaşdırmaq və saxlamaq,

– Maraqlı, aktual mövzuya başlamaq,

- XXI əsr bacarıqlarını təşviq etmək.

Elektron öyrənmə mühiti üçün veb texnologiya istifadəsinin öyrənilməsi, istifadəçilərin daha çox fərdiləşdirilmiş xidmətlərlərinin təmin olunmasını təmin edir. Bu, həmçinin e-təhsil mühitinin yaxşılaşdırılmasında faydalı olacaq, müxtəlif data mining üsullarından istifadə etməklə gizli məlumatları tapmaq üçün veb məlumatların çevrilməsini və şərhini əhatə edir.

Sosial şəbəkə xidmətlərinin elektron təhsil prosesinə inteqrasiyası tələbələrin elektron təhsilə münasibətinə və onların nailiyyətlərinə müsbət təsir göstərmişdir. Sosial şəbəkənin tədris prosesinə tətbiqi tələbə-müəllim ünsiyyətini, əməkdaşlığı və qarşılıqlı əlaqəni yaxşılaşdırır, bununla da elektron təhsil prosesinin keyfiyyətinə təsir göstərir. Müxtəlif tipli sosial şəbəkələr tələbələr üçün elektron təhsil resurslarını təkmilləşdirən elektron təhsili təmin etmək üçün yaxşı platformadır.

Nəticə. E-Learning bugünkü onlayn öyrənmədə mühüm rol oynayır, çünki getdikcə tələbələr daha yüksək dərəcələr üçün distant təhsili davam etdirir. Distant elektron təhsilə eyni dərəcədə maraq göstərən tələbələr qrupu yaratmaq çox çətindir. Təklif olunan sosial şəbəkə arxitekturası tələbənin fərdi hesabını inkişaf etdirməyə və fənlərə, texnologiyalara və hər hansı digər oxşarlığa eyni marağı paylaşanlar ilə qarşılıqlı əlaqə yaratmağa yönəlmişdir. Semantik veb və ontologiya sosial şəbəkədən kontekst məlumatları kimi istifadə edərək, tövsiyə sistemi üçün təklif olunan yeni texnologiyalardır və İnternetdən təkcə sorğu və cavab vasitəsi kimi istifadə edilmir, həm də gələcəkdə istifadəçilərə məlumatların ağıllı şəkildə təqdim edilməsi üçün istifadə ediləcəkdir.

Ədəbiyyat

1. Yilmazsoy B., Kahraman M. Utku Köseeducational Technology and Online Learning. Volume 3, Issue 1, 2020, pp. 69-90.

2. Bennett S., Bishop A., Dalgarno B., Waycott J., Kennedy G., Implementing Web 2.0 technologies in higher education: A collective case study, Computers & Education, 2012, pp. 724-729.
3. Schroeder A., Minocha S., Schneider C., The strengths, weaknesses, opportunities and threats of using social software in higher and further education teaching and learning, Journal of Computer Assisted Learning, 2010, pp.159-174.
4. McLoughlin C. E., Lee M., Personalised and self regulated learning in the Web 2.0: International exemplars of innovative pedagogy using social software, Australasian Journal of Educational Technology 26(1), March 2010, pp. 28-43.
5. Coleman, E., & O'Connor, E. (2019). The role of WhatsApp® in medical education; a scoping review and instructional design model. BMC medical education, 19(1), p. 279.
6. Marijana S. Despotovic-Zrakic, Aleksandra B. Labus and Aleksandar R. Milic, "Fostering Engineering E-learning Courses with Social Network Services", 19 Telekommunication forum TELFOR 2011, Serbiya, Belgrad, , November (2011). pp. 122–125.
7. Davies, S., Mullan, J., & Feldman, P. (2017). Rebooting learning for the digital age: What next for technology-enhanced higher education? (pp. 49-50). Oxford: Higher Education Policy Institute.

РЕЗЮМЕ
ВНЕДРЕНИЕ СОЦИАЛЬНЫХ СЕТЕЙ В СРЕДУ ЭЛЕКТРОННОГО ОБУЧЕНИЯ
Бахадурзаде Н.И., Алескерова Е.Р.

Ключевые слова: *социальные сети, образовательный контент, электронное обучение, система управления электронным обучением, персонализация электронного обучения*.

Цель этой статьи предложить инновационную архитектуру электронного обучения для более эффективного и совместного применения ресурсов электронного обучения для студентов в онлайн-среде. Социальные сети являются новой услугой в мире Интернета и успешно привлекают внимание молодежи во всем мире. Когда учителя и ученики стремятся использовать Интернет, роль и влияние социальных сетей становятся важными. Для изучения возможностей использования новых платформ и опыта, которые социальные сети предоставляют для обучения, необходимы как исследования, так и практический опыт.

SUMMARY
INTRODUCTION OF SOCIAL NETWORKS INTO THE E-LEARNING ENVIRONMENT
Bahadurzade N.I., Aleskerova E.R.

Keywords: *e-learning, e-learning management system, educational content, Social networks, personalization of e-learning*.

The goal of this paper is to propose an advanced e-Learning architecture for more influentially and collaboratively applying e-learning resources to students in an online environment. Social Networks are a modern service in the Internet world and are luckily alluring the heed of young people all over the world. Whenever teachers and students intent to use the Internet, the part and influence of social networks be important. Also fact-finding and practical experiences are lacked to investigate the chances of using modern platforms and experiences that social networking ensurs for learning.

ОБ ОРГАНИЗАЦИИ ДИСТАНЦИОНОГО ОБУЧЕНИЯ

[1]Урманшина Н.Э., [2]Галимнурова О.В.
[1]Уфимский государственный нефтяной технический университет
[2]Архитектурно-строительный институт, Уфа, Российская Федерация
galimnurova@mail.ru

Ключевые слова: *учебный процесс, дисциплина, дистанционная форма обучения, информационная платформа*

Для успешного обучения в дистанционном формате в учебном заведении необходим внутренний модуль/платформа на котором будет осуществляться образовательный процесс. На эту платформу может зайти каждый обучающийся и преподаватель посредством индивидуального личного кабинета. Студент со своей стороны должен видеть, как минимум, все дисциплины семестра, а преподаватель – дисциплины согласно своего расписания текущего семестра.

Таким образом, на платформе дистанционного обучения вуза должен быть приведён весь перечень дисциплин, включая итоговую аттестацию, все виды практик и научной работы. В модуле, в индивидуальных окнах, приводится вся информация об учебном процессе. На наш взгляд необходимы следующие окна с соответствующей информацией:

- «Основные сведения»: статус дисциплины (на какой платформе будет идти преподавание и с помощью каких технологий, необходимые ссылки, ФИО преподавателя(-ей) и контакты для связи).

- «Материалы для ЛК студента»: приводятся необходимые учебно-методические материалы (учебно-методические пособия, перечни вопросов текущего контроля, расписание консультаций и т.д., и т.п.).

- «Расписание»: по дисциплине. В этом окне прикрепляется ссылка на платформу на которой будут проводиться занятия, а также добавляется дополнительное время консультаций, время сдачи зачёта/экзамена по дисциплине.

Вышеперечисленные функции информируют о контактной работе (лекции, практические занятия, лабораторные работы) с обучающимся, которые проводятся с использованием программного обеспечения для проведения веб-конференций. Это могут быть такие платформы как Webinar, ZOOM, BigBlueButton (BBB). Их возможности различны. Но они, как правило, позволяют демонстрировать на экране презентацию, сопровождающую занятие (в формате Power Point, PDF документов и т.п.), применять web-камеру, контролировать посещение, отвечать на вопросы и т.д. Во время проведения занятий студент может присоединиться к голосовой конференции: отвечать преподавателю или задать вопросы [1].

Дистанционная платформа должна также предусматривать дистанционную проверку работ обучающихся. Студент через личный кабинет загружает свою работу по дисциплине (частично или полностью) в модуль, преподаватель её проверяет. В зависимости от правильности выполненной работы, преподаватель, может отправить её на доработку, отклонить, зачесть с проставлением оценки, написать рецензию на работу с указанием ошибок, недоработок и рекомендаций к их исправлению.

В дистанционном обучении большое значение имеет доступ к учебным и учебно-методическим пособиям. Некоторые из этих материалов преподаватель может прикрепить в модуле, обеспечивающем дистанционный учебный процесс, но оптимальный вариант – это создание электронной библиотеки вуза, в которой приводятся все учебно-методические пособия, изданные в электронном виде, а также оцифрованные учебники и монографии. Каждый студент имеет доступ к электронной библиотеке и может воспользоваться любым изданием абсолютно бесплатно.

Завершается изучение дисциплины итоговым контролем – недифференцированным/ дифференцированным зачётом, экзаменом. Контроль знаний обучающихся в формате дистанционного обучения можно выполнить различными путями. Один из них – это применение балльно-рейтинговой системы: в течение семестра студент на необходимом качественном уровне выкладывает работы по дисциплине согласно рабочей программы дисциплины в модуль с соблюдением дедлайнов (дата и время выкладки работы фиксируется), то этот студент заслуживает проставление оценки по результатам работы в семестре. Также возможно использование банка тестовых заданий по данной дисциплине. Назначается время сдачи текущего контроля по дисциплине, студентам выдаются пароли, и они отвечают на вопросы теста онлайн. В таких случаях проверка происходит автоматически, и после завершения тестирования обучающийся сразу видит свою оценку. Преподаватель может сформировать ведомость результатов сдачи. Экзамены можно принимать и с применением платформ для веб-конференций, общаясь с экзаменуемым онлайн через экран [2].

Успешность дистанционной формы обучения обеспечивает большой объём подготовительной работы со стороны преподавателя. Опыт дистанционного обучения показал, что время, затрачиваемое преподавателем на подготовку к занятиям, а потом на проверку работ и написание рецензий к ним, несравнимо больше, чем при очных формах работы. Несмотря на положительный опыт дистанционного образовательного процесса, он не заменит личное общение преподавателя и ученика, при котором необходимый уровень знаний и компетенций достигается проще и успешнее.

Литература

1. Галимнурова О.В., Урманшина Н.Э. Об опыте дистанционного обучения // Материалы XXV Всероссийской научно-технической конференции «Проблемы строительного комплекса России», Уфа, УГНТУ, 2021. 441-444 с.
2. Галимнурова О.В., Урманшина Н.Э. Об опыте дистанционного обучения в УГНТУ // Материалы IX Всероссийской научно-технической конференции молодых исследователей «Актуальные проблемы строительства, ЖКХ и техносферной безопасности», Волгоград, ВолгГТУ, 2022. 398-400 с.

XÜLASƏ
DİSTANT TƏHSİLİN TƏŞKİLİ HAQQINDA
Urmanshina N. E., Galimnurova O. V.

***Açar sözlər**: tədris prosesi, intizam, distant təhsil, informasiya platforması*

Məqalədə distant təhsil prosesinin formalaşması, təşkili, tədris-metodiki təminatı məsələlərinə baxılır, tələbələr və müəllimlər üçün distant təhsil prosesinin platformasının təsviri verilir. Bütün lazımi məlumatları ehtiva edir: tələbələr üçün dərslərin cədvəli, fənlər üzrə müəllimlərin adları, əlaqələri, fənlər haqqında əsas məlumatlar, tədris materialları; müəllim üçün: şəxsi cədvələ uyğun fənlərin siyahısı, qrupların siyahısı və s. Platforma onlayn dərslər keçirməyə, elektron hesabatlar yaratmağa və dekanlığa göndərməyə imkan verir.

SUMMARY
ABOUT THE ORGANIZATION OF DISTANCE LEARNING
Urmanshina N.E., Galimnurova O.V.

***Keywords:** educational process, discipline, distance learning, information platform*

The publication discusses the issues of formation, organization, educational and methodological support of the distance educational process, provides a description of the platform of the distance educational process for students and teachers. It contains all the necessary information. For students: schedule of classes, names of teachers by discipline with their contacts, basic information about the disciplines, educational and methodological materials. For the teacher: a list of disciplines according to the personal schedule, lists of groups, etc. The platform makes it possible to conduct classes online, create and send electronic statements to the dean's office.

ИГРОВЫЕ ЗАДАНИЯ НА УРОКАХ РКИ

Мусаева А.Т.
Сумгаитский государственный университет, Сумгаит, Азербайджан
amina.musayeva@list.ru

***Ключевые слова**: задание, игра, коммуникация, русский язык как иностранный, языковой барьер*

Перед преподавателем РКИ всегда стоит вопрос организации наиболее продуктивной структуры занятия, создания благоприятного для коммуникации микроклимата. Основой для разработки, построения нетрадиционного урока могут быть игры и задания с игровым элементом.

Одну из первых попыток систематического изучения игры предпринял немецкий психолог К.Гросс. Он называл игры изначальной школой поведения. Д.Б.Эльконин и Л.С.Выготский говорили об игре как об одной из ведущих форм развития психических функций “способов познания ребенком мира взрослых” [1]. Но игра как таковая важна не только для гармоничного развития личности в детском и юношеском возрасте. Важность игровых форм занятий в том, что они реализовывают как социальную функцию игры, так и важнейшие коммуникативные и лингвистические функции.

6. Мышкина С.А. Ценности как культурные факторы этнотипических стиле- вых характеристик познавательной активности // Вестн. Удмуртского ун-та. Психология и педагогика, 2007. № 9. С. 125–134.
7. Шамова Т.И.Активизация учения школьников.М.: Педагогика,-2000.-208 с.

РЕЗЮМЕ
ПОЗНАВАТЕЛЬНАЯ ДЕЯТЕЛЬНОСТЬ СТУДЕНТОВ ВУЗА КАК ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА

Мамедова М.И.

Ключевые слова: *познавательная деятельность, учебный процесс, методы обучения, коммуникативные навыки, интеллектуальная деятельность, профессиональные качества*

В диссертации познавательная деятельность студентов характеризуется проблема как в педагогическом, и в психологическом аспектах. Были исследованы взаимосвязанные источники, мотивы и структура, влияющие на познавательную деятельность. Автор справедливо отмечает, что эффективность формирования познавательной активности студентов будет достигнута, если формы, методы и средства обучения будут адекватны целям обеспечения развития профессиональной компетентности. В связи с этим необходимо обратить внимание на способы формирования компонентов познавательной деятельности.

SUMMARY
COGNITIVE ACTIVITY OF UNIVERSITY STUDENTS AS PSYCHOLOGICAL AND PEDAGOGICAL PROBLEM

Mammadova M.I.

Keywords: *cognitive activity, educational process, teaching methods, communication skills, intellectual activity, professional qualities*

In the dissertation, the cognitive activity of students is characterized as a problem in both pedagogical and psychological aspects. Interrelated sources, motives, and structure influencing cognitive activity were also investigated. The author rightly notes that the effectiveness of the formation of students' cognitive activity will be achieved if the forms, methods and means of teaching are adequate to the goals of ensuring the development of professional competence. In this regard, it is necessary to pay attention to the ways of forming the components of cognitive activity.

TƏHSİL SİSTEMİNDƏ TƏLƏBƏLƏRİN SOSİALLAŞMASI ÜNSİYYƏT MƏDƏNİYYƏTİNİN KEYFİYYƏT SƏVİYYƏSİ KİMİ

İsmayılova M.C.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
mehriban_ismayilova_1962@mail.ru

Açar sözlər: *ünsiyyət mədəniyyəti, sosiallaşma, etiket normaları, sosial fəallıq, adaptivlik*

Ünsiyyət mədəniyyəti əsrlər boyu savadlı və ziyalı insanları müşayiət edən dəyişməz atributdur. Konstruktiv ünsiyyət, fikir mübadiləsi peşəkarın zəruri komponentləridir. Məhz buna görə də ali təhsil almaq arzusunda olan gənclər arasında ünsiyyət mədəniyyətinin rolu böyükdür. Ünsiyyət mədəniyyəti insan fəaliyyətinin müxtəlif sahələrində münasi- bətlərin səviyyələrinə - fərdilikdən beynəlxalq səviyyəyə qədər təsir göstərir, buna görə də bu gün necə və hansı növ dialoqun öyrədilməsi barədə qərar vermək üçün onların nəzəri anlayışı lazımdır. Gənc nəslin tərbiyəsi və təlimi problemlərini peşəkarlıqla həll edən insanların ümumi mədəniyyət sahəsində ünsiyyət mədəniyyəti xüsusi əhəmiyyət kəsb edir.

Ünsiyyət mədəniyyətinin formalaşması problemi ümumbəşəri, humanist, etik dəyərlərin tələbələr tərəfindən mənimsənilməsi və tətbiqi, eləcə də onların bilavasitə ünsiyyətdə tətbiqi ilə əlaqədar mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsi zərurətindən irəli gəlir. Dövlət təhsil standartına uyğun ali təhsil müəssisələrinin məzunları ünsiyyət mədəniyyəti sahəsində bir çox bilik və bacarıqlara malik olmalıdırlar. Ona görə də bu gün tələbələrə ünsiyyət qurmağı öyrətməyi nəzərdə tutan məzmun daxil etmədən pedaqoji prosesin elmi dərk edilməsi və qurulması problemlərini həll etmək mümkün deyildir.

Tələbəlik illərində həyati dəyərlərin seçilməsi problemi xüsusilə qabarıq şəkildə özünü göstərir. Tələbə gənclər üçün formalaşmamış əxlaqi təlimatlar sistemi onu müxtəlif təsirlərə məruz qoyur. Bunlar içərisində istehlakçı dəyərlər birinci yerdədir. Xeyirxahlıq, mərhəmət, ədəb, nəzakət və ünsiyyətin digər əxlaqi dəyərləri isə bir kənarda qalır. Gənc nəslin imici tədricən formalaşır ki, bu da mədəniyyətə mənfi münasibəti ifadə edir. Mədəniyyət anlayışı mürəkkəb fenomen kimi birmənalı şərhə malik deyil və o maddi və mənəvi dəyərlərin, insan aləminin, insan fəaliyyətinin nəticəsi və ya cəmiyyətin sistemli keyfiyyətinin məcmusu kimi anlaşılır. Mədəniyyət anlayışının digər bölgülərində onun ikili xarakteri göstərilir. Bir tərəfdən mədəniyyət insanın cəmiyyətdə sosial təcrübəsidirr, topladığı davamlı maddi və mənəvi dəyərləridir, digər tərəfdən insan fəaliyyətinin keyfiyyət xarakteristikasıdır.

Ünsiyyət anlayışı həm də mürəkkəb və çoxtərəfli olması ilə seçilir. Bu gün kifayət qədər geniş yayılmış ünsiyyətə yanaşmalardan biri G.M.Andreyevanın əsərlərində öz əksini tapmışdır. Bu yanaşmaya uyğun olaraq ünsiyyət mürəkkəb bir proses kimi informasiyanın ötürülməsi və mübadiləsi, qarşılıqlı əlaqə, mövcud sosial münasibətlər sistemində insanların qarşılıqlı anlaşması kimi çıxış edir [6, s.160]. Mədəniyyət və ünsiyyət öz inkişafında dialektik vəhdətdədir. Ünsiyyət mədəni dəyərlər istehsalının zəruri şərti kimi qəbul edilir. M.S.Kaqan qeyd edir: "Subyektivlərarası qarşılıqlı əlaqə mədəniyyətin əsl məhsulu və mexanizmidir". Daim qarşılıqlı əlaqədə olan və bir-biri ilə inteqrasiya edən ünsiyyət və mədəniyyət anlayışları məzmun və struktur baxımından yeni ünsiyyət mədəniyyəti anlayışını formalaşdırır. Ünsiyyət mədəniyyətinin subyektlərinə sosial-fəlsəfi yanaşma əsasında aşağıdakı səviyyələri ayırmaq olar: bütövlükdə bəşəriyyət, ayrı cəmiyyət, sosial qrup, konkret şəxs.

Cəmiyyətdə ünsiyyət mədəniyyəti insan münasibətləri sahəsində cəmiyyətin mənəvi sərvətinin inkişaf dərəcəsidir ki, buraya humanist prinsipləri və dəyərləri, etik və etiket normaları, ünsiyyət sahəsində biliklər sistemi, onların mənimsənilməsi və istifadəsi aid edilir. Ünsiyyət sahəsində cəmiyyətin mənəvi sərvətinin mənimsənilməsi prosesində insan davranışının tənzimlənməsinin xarici formaları daxili formalara çevrilir - cəmiyyətin tələbləri emosional-könüllü ilə vəhdətdə olan biliklərə, inanclara, ehtiyaclara, vərdişlərə çevrilir. O insan davranışının motivləri kimi özünüqiymətləndirmə, özünüidarə formasında sosial tələblərin və insan davranışının vəhdətini təmin edir.

Ünsiyyət mədəniyyətinə ünsiyyət sferasında cəmiyyətin mənəvi sərvətinin mənim- sənilməsi, qəbul edilməsi, tətbiqi və zənginləşdirilməsi kimi xarakterizə edən mürəkkəb şəxsi təhsil kimi nəzərdən keçirmək olar. Ünsiyyət mədəniyyətinin funksiyalarını öyrənərək belə nəticəyə gəlmək olar ki, o, cəmiyyət mədəniyyətinin və fərdin mədəniyyətinin tərkib hissəsidir. Ünsiyyət mədəniyyəti bir sıra mühüm funksiyaları yerinə yetirir, xüsusən də fərdin bəşəriyyətin mədəni təcrübəsi ilə tanış olmasına, fərdin mənəvi dünyasının aparıcı xüsusiyyətlərinin inkişafına və psixoloji cəhətdən optimal formada formalaşmasına kömək edir. Psixoloji nöqteyi-nəzərdən fərdin ünsiyyət mədəniyyətində üç əsas komponent vardır ki, onların ahəngdar vəhdəti ünsiyyət mədəniyyətinin strukturunda onun səmərəli fəaliyyətini təmin edir. Bir sözlə,

idrak komponenti ünsiyyət mədəniyyəti, etika, etiket, ünsiyyət psixologiyası haqqında ümumi müddəalar sahəsində biliklərdir.

Şəxsi əhəmiyyətli komponent fərdin arzularında, maraqlarında, ideallarında, dəyər oriyentasiyalarında, inanclarında ifadəsini tapan ünsiyyət mədəniyyətinin şəxsiyyət üçün əhəmiyyətini əks etdirir. Ünsiyyət mədəniyyətinin bir dəyər kimi faydalılığının dərk edilməməsi ona gətirib çıxarır ki, fərd əgər ünsiyyətin mədəni normalarına əməl edirsə bunu öz istək və maraqlarına zidd edir. S.L.Rubinşteynin fikrincə, "bu zaman şəxsiyyət norma qarşısında əyilir, lakin ona yüksəlmir". Yalnız sosial şəxsi əhəmiyyət kəsb etdikdə mədəni hərəkətlərin həyata keçirilməsi həm vəzifə, həm də tələbat kimi təzahür edir.

Davranış komponenti dəyərlərin, normaların, biliklərin praktikada, gündəlik ünsiyyətdə həyata keçirilməsini xarakterizə edir, mədəni qarşılıqlı əlaqə bacarıqlarını, ünsiyyətə yaradıcı münasibəti əhatə edir. Bu komponent olmadıqda, xaricdən alınan məlumat fərdin daxili biliklərində saxlandıqda və ondan həyatda istifadə edilmədikdə ünsiyyət mədəniyyəti bütün mənasını itirir. Nəticə etibari ilə cəmiyyətdə ünsiyyət mədəniyyətinin mənimsənilməsi prosesində fərdin mövqeyi kənar müşahidəçi rolundan marağa, maraqdan hazırlığa və inamlılığa, sonra isə daxili ünsiyyət təcrübəsi sisteminə uyğun fəaliyyətə keçir.

Tələbəlik illərində ünsiyyətin rolu üç əsas vəzifə ilə əlaqələndirilir: şəxsi müstəqilliyin, peşə özünüdərkinin və gələcək peşənin əsaslarının mənimsənilməsinin formalaşdırılması, habelə əks cinslə münasibətlərdə effektiv oriyentasiya və gələcək ailə həyatı üçün tərəfdaş seçmək. Tələbələrin daxil olduğu münasibətlər sisteminin mürəkkəbliyi kontekstində şəxsi seçim problemi onun qarşısında tez-tez və daha kəskin formada özünü təzahür etdirir. Tədris prosesində sinif yoldaşları ilə ünsiyyət tələbə üçün xüsusi əhəmiyyət kəsb edir. Tələbə üçün iş qrupu onun sosial əlaqələrini cəmləyən bir mərkəzdir.

Ünsiyyət mədəniyyətinin səviyyəsi aşağıdakı obyektiv amillərin nəticə- sidir: a) iqtisadi, b) ictimai-siyasi, c) demoqrafik, d) dini-mədəni, e) təhsil mühitinin vəziyyəti və s. Ünsiyyət mədəniyyətlərinin səviyyəsinin subyektiv əsasını şəxsiyyətin spesifik parametrlərini bələdləşmə, təhsil, tərbiyə, sosiallaşma, ümumi mədəniyyət, psixi proseslərin və şəxsiyyət xüsusiyyətlərinin inkişafı təşkil edir. Gənclərin şəxsiyyətlərarası ünsiyyətdə tolerant şüur və davranış münasibətlərinin formalaşdırılması prioritet vəzifədir. Bir sıra təşkilati və pedaqoji tələblərə uyğunluq aşağıdakı problemlərin uğurlu həllinə kömək edəcəkdir:

- ünsiyyət mədəniyyətinin strukturunu və məzmununu, təhsil prosesinin imkanlarını nəzərə alaraq pedaqoji fəaliyyətin layihələndirilməsi;
- humanizm prinsipləri əsasında ünsiyyət mədəniyyətinin tərbiyə edilməsinin reallaşdırılması ünsiyyət dialoqu, təhsil prosesinin qarşılıqlı əlaqə subyektlərinin birgə yaradıcılığı prosesində həyata keçirilməsi;
- təhsil prosesinin adekvat məzmununu müəyyən edən dəyər keyfiyyəti kimi tolerant şəxsiyyət haqqında biliklərin bütövlüyünün aşılanması;
- müsbət şəxsiyyətlərarası qarşılıqlı əlaqəni şərtləndirən problem-axtarış, imitasiya-rol xarakteri daşıyan tərbiyənin forma və metodlarından istifadə.

Humanizm, mədəniyyətlərin dialoqu, təhsil prosesinin qarşılıqlı əlaqə subyektlərinin birgə yaradılması prinsiplərinə əsaslanan ünsiyyət mədəniyyətinin tərbiyəsi vəzifələrinin həyata keçirilməsi tələbələrin dialoq qarşılıqlı fəaliyyətinə, onların qarşılıqlı anlaşmasını və mənəvi qarşılıqlı əlaqəsini təmin etməyə imkan verir. Həmçinin müxtəlif mədəni icmaların nümayəndələri kimi zənginləşmək, insanın şəxsiyyət kimi dəyərini, onun azadlıq hüququnu, bacarıqlarını inkişaf etdirmək və təzahür etdirmək hüququnu təsdiq etmək, şagirdlərin təşəbbüs- karlığının və müstəqilliyinin inkişafına kömək etmək, müəllimlə tələbələr arasında yaranan problemlərin birgə yaradıcı həllinə kömək etmək bunun bir daha bariz nümunəsidir.

Sinifdə tədris materialının məzmununun təşkilində müəllim yaradıcı situasiya yaratmağı bacarır, birbaşa və ya dolayı yolla təhsil və yaradıcılıq fəaliyyətinin məqsədini, şərtlərini və tələblərini təyin edir, nəticədə tələbə fəal şəkildə bilik, bacarıq və vərdişlər qazanır, yaradıcı qabiliyyətlərini inkişaf etdirir.

Müxtəlif mədəniyyətləri təmsil edən tələbələrin müsbət qarşılıqlı əlaqəsi struktur komponentlərin formalaşmasında problem-axtarış, imitasiya-rol xarakteri forma və metodları vasitəsilə əldə edilir. Ünsiyyət mədəniyyətinin idrak komponentini formalaşdırarkən aşağıdakı forma və üsullardan istifadə olunur:

- ***mühazirə - mətbuat konfransında*** müəllim tələbələri mövzu ilə bağlı onları maraqlandıran suallar verməyə dəvət edir. Mühazirə suallara cavab kimi deyil, ardıcıl mətn kimi təqdim olunur, təqdimat zamanı cavablar formalaşır. Mühazirənin sonunda müəllim tələbələrin maraq və biliklərini əks etdirən sualları təhlil edir;
- ***idrak oyunlarından istifadə*** ("Mədəniyyət dialoqu", "Agent") reallığı modelləşdirən tələbələrin həyatda özlərini tapa biləcəyi xüsusi vəziyyətlərin yaradılmasını nəzərdə tutur.

Şəxsi əhəmiyyətli komponentin formalaşmasına aşağıdakılar təsir edir:

- ***seminar-diskussiyada*** aktual problemli məsələlər müzakirəyə çıxarılır. Əvvəlcə tələbələr fərdi olaraq onlar haqqında düşünür, sonra bu məsələlərin müzakirə olunduğu cütlər və kiçik qrupları təşkil

edirlər. Məsələ ondadır ki, həmin məsələlər cütlüklərdə artıq müzakirə olunub, müəyyən stabil fikirlər formalaşıb. Dərsin sonunda qrup müzakirəsi üçün vaxt ayrılır.

- ***rollu oyunlarda*** ("Sehrli dükan", "Qrup şəkli") müəyyən bir vəziyyət və həmin şəraitdə insanın davranışı oynanılır. Oyunun əsas vəzifəsi tələbəyə həyatın müxtəlif vəziyyətlərində davranışına obyektiv qiymət verməyi, əlaqələr qurmağı, başqasının mövqeyini tutmağı öyrətməkdir.

Davranış komponentinin formalaşması aşağıdakı forma və üsullarla həyata keçirilir:

- ***seminar - problemli vəziyyətlər*** müxtəlif millətlərin mədəniyyətlərinin, sosial qruplarda baxışların nümayəndələri ilə ünsiyyət zamanı yarana biləcək problemli vəziyyətlərə baxılmasını nəzərdə tutur. Tələbənin vəzifəsi özünün davranış modelini qurmaq, mövcud vəziyyətdən çıxmaq üçün ən optimal və düzgün həlli yoluni tapmaqdır;

- ***Kommunikasiya*** eyni vaxtda meydana çıxan üç aspekti: kommunikasiya, interaktiv və persepsiyanı inkişaf etdirməyə yönəlir.

Bu forma və metodların tətbiqi nəticəsində təhsil prosesinin iştirakçılarının müsbət qarşılıqlı əlaqəsi sıx əməkdaşlıqda, bir-birinə güzəştə getməkdə və uyğunlaşmada təzahür edir.

Sosiallaşma prosesinin əsas effektiv meyarlarından biri müasir gənclərin sosial fəallığıdır və ünsiyyət mədəniyyətidir. Şəxsiyyətin sosial fəallığı dedikdə, sosial əlaqələrə, hərəkətlərə qabil olan şəxsiyyət nəzərdə tutulur. Onu adaptivliyin yüksək səviyyəsi, müxtəlif sosial rolların icrasına hazırlığı, habelə praktik hərəkətlərin komponentlərinə qabilliyi, o cümlədən birgə fəaliyyətdə və ünsiyyətdə olmaq bacarığı xarakterizə edir.

Şəxsiyyətin ünsiyyət mədəniyyəti fərdin mədəniyyətinin strukturunun dinamik və nisbətən sabit komponentləri arasında əlaqə rolunu oynayır. Biz hesab edirik ki, bir insanın ünsiyyət mədəniyyəti bir tərəfdən sosiallaşmanın, digər tərəfdən isə fərdin inkişafının nəticəsi onun başqa insanlarla dialoji qarşılıqlı əlaqəsinin forma və metodlarının keyfiyyət səviyyəsidir. Deməli, təhsil sistemində tələbələrin sosiallaşması ünsiyyət mədəniyyətinin səviyyəsi kimi xarakterizə olunur.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı.: Çinar-çap, 2002, -620s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Ali məktəblər üç dərslik. Bakı, 2003
3. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı, 2008
4. Əliyev R.İ. Psixologiya. Dərs vəsaiti. Bakı, 2008
5. İsmayılova M.C. Ünsiyyət psixologiyası (məntiqi-struktur sxemlərdə və şərhlərdə). Dərs vəsaiti. AMEA-nın İnformasiya Texnologiyaları nəşriyyatı. B, 2011.-320s.
6. Андреева, Г. М. Социальная психология : учебник для высших учебных заведений / Андреева Г. М. – М.: Аспект Пресс, 2017. - 363 с.
7. Ильин, Е.П. Психология общения и межличностных отношений / Е.П. Ильин.. - СПб.: Питер, 2013. - 576 с
8. Смирнова, Н. М. Повышение уровня культуры общения в студенческой среде // Вестник Российской академии образования. Вып. 1. 2007. – С. 36-42.
9. Шиляева, И.Ф. Культура общения современной личности: детерминанты и факторы развития [Текст] / И.Ф.Шиляева // Вектор науки Тольяттинского государственного университета. Серия «Педагогика, психология». 2011. №3(6). С. 337-340.

РЕЗЮМЕ

СОЦИАЛИЗАЦИЯ СТУДЕНТОВ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ КАК КАЧЕСТВЕННЫЙ УРОВЕНЬ СОЦИАЛЬНОЙ КУЛЬТУРЫ

Исмаилова М. Дж.

Ключевые слова: *культура общения, социализация, нормы этикета, социальная активность, адаптивность*

В тезисах утверждается, что проблема формирования культуры общения возникает из-за необходимости повышения качества подготовки специалистов, связанных с усвоением и применением обучающимися общечеловеческих, гуманистических, этических ценностей, а также их непосредственным применением в общении. По мнению автора, культура общения человека является результатом социализации, с одной стороны, и качественного уровня форм и методов его диалогического взаимодействия с другими людьми, с другой. Поэтому социализация студентов в системе образования характеризуется уровнем культуры общения.

SUMMARY

SOCIALIZATION OF STUDENTS IN THE EDUCATIONAL SYSTEM AS QUALITATIVE LEVEL OF SOCIAL CULTURE

Ismayilova M.J.

Keywords: *communication culture, socialization, etiquette norms, social activity, adaptability*

The thesis states that the problem of forming a culture of communication arises from the need to improve the quality of training of specialists related to the assimilation and application by students of universal, humanistic, ethical values, as well as their

direct application in communication. According to the author, the culture of human communication is the result of socialization, on the one hand, and the qualitative level of forms and methods of his dialogical interaction with other people, on the other. Therefore, the socialization of students in the education system is characterized by the level of communication culture.

DİQQƏT DEFİSİTİ VƏ HİPERAKTİV SİNDROMLU YENİYETMƏLƏRİN DEVİANT DAVRANIŞININ FORMALAŞMASININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

İsazadə E.Ə.
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Quba filialı, Azərbaycan
elnare.zade93@gmail.com

Açar sözlər: *diqqət defisiti sindromu, deviasiya, hiperaktiv sindromlu yeniyetmələr, impulsiv davranış, deviant davranış*

Ətraf aləmin xoşagəlməz amilləri inkişafın perenatal mərhələsində orqanizmin inkişafına təsir göstərir. Bu təsir uşağın şəxsiyyətinin təşəkkülündə mühüm rol oynayan DDH sindromlu bir çox uşaqların formalaşmasını şərtləndirir. Nevrozluq, emosional labillik, diqqətin dalğınlığı, özünə inamsızlıq, kommunikativ vərdişlərin məhdudluğu, məktəb təliminə motivasiyanın olmaması, bir sözlə bütün sadalananlar uşağın gələcəkdə adaptasiyasına mənfi təsir göstərir və deviant davranışa meylliliyin inkişafına səbəb olur. Yeniyetməlik yaşında uşağın davranışına və psixoemosional vəziyyətinə şəxsiyyətin nevrotik pozuntuları mənfi təsir göstərir.Deviant davranışın formalaşması probleminə tədqiqatçılardan: E.V.Zmanovskiy, P.A.Kovalev, V.T. Kondratenko, V.N.Kudryasev və başqaları xüsusi diqqət yetirmişlər. Onlar deviant davranışı şəxsiyyətin sabit davranışı, şəxsiyyətin özünə və ya cəmiyyətə reallıqda zərər vurmaqla mühüm sosial normaları qəbul etməmək, habelə sosial dezadaptasiya ilə müşayiət kimi nəzərdən keçirirlər.

Psixoloji tədqiqatlarda şəxsiyyətin deviasiyasının növləri sistemləşdirilmişdir: *delinkvent, adduktiv, autodestruktiv, suisidal*. Deviant davranışın formalaşması amillərini nəzərdən keçirdikdə onun yayınmasının izahında biologizator və sosiologizator yönəlişliyinə diqqət yetirilmişdir. Müxtəlif yaşlarda müxtəlif adamlarla deviant davranış müxtəlif şəkildə təzahür edir. Müxtəlif deviasiyanın formalaşmasında ən kritik dövr yeniyetməlik yaş dövrüdür.

Yeniyetməlik yaşında deviasiyanın formalaşmasının xüsusiyyətləri S.P.Korolenko və V.N.Kudryasevin elmi tədqiqatlarında araşdırılmışdır. DDH sindromlu yeniyetmələrin deant davranışının formalaşması probleminə tədqiqatşılar kifayət qədər diqqət yetirməmişlər. Son illər DDH sindromlu uşaqların sayı artır. Bu sindrom hərəki hiperaktivliyin, diqqətin mərkəzləş- məsindəki qüsurlar, yayınma halları, impulsiv davranış, ətrafdakılarla qarşılıqlı münasibətdə problemlərvə və təlimdə çətinliklərdə təzahür edir.

Diqqət defisiti sindromuna və hiper qıcıqlandırıcıya yeniyetmələrin deviant davranışının formalaşma amili kimi baxmaq olar.Yeniyetməlik yaşında ziddiyyətli hərəkətlər şüurlu və ixtiyaridir. Hiper qıcıqlandırıcı və hiperaktivlik yeniyetməlik yaşında özünü qabarıq şəkildə göstərən aqressivlik, impulsivlik, eqosentrizm, konfliktlilik daha xarakterikdir. DDH sindromlu uşaqlarda emosional-şəxsi xüsusiyyətlərin tədqiqi göstərir ki, onlara uğursuzluq hallarında psixoemosional davamlılığın zəifliyi, özünəinamsızlıq, özünüqiymətləndirmənin aşağı düşməsi xasdır. Onlarda çox vaxt sadə və sosial fobiyalar, dalaşqanlıq, tündməcazlıq, razılaşmamaq, aqressiv davranış, delinkvent və adduktiv davranışa meyllilik müşahidə olunur [3].

DDH sindromlu deviasiyalı yeniyetmələr arasında məktəbə adaptasiya birinci yerdə durur. Məktəbə dezadaptasiya akademik uğurlarda və uşaqların konfliktli davranışlarında təzahür edir. Akademik uğursuzluq aşağı təlim motivasiyası, psixofizioloji diqqətsizlik, hiperqıcıqlandırıcılıq, müəllimlərin tənqidinə və etdiyi səhvlərə həssaslığı ilə şərtlənir. Məktəbdə hiperaktiv uşaqlar tez-tez müəllimə maneə olur və dərsdə qayda-qanunun pozulmasına sinif yoldaşlarını da təhrik edirlər.

Müəyyən vəziyyətlərdə, məsələn, yaş adamlarla görüşdükdə onlar özlərini çox sakit apara bilirlər ki, bu da həyəcanlılıq fonunda mexanizmlərin güclənməsi ilə izah olunur. Hiperaktiv yeniyetmələrin digər xüsusiyyətlərdən biri də impulsivdir. Dərsdə onlar çox çətinliklə öz növbələrini gözləyirlər, başqa uşaqlar dərs danışanda maneə olur, verilən suallarasona qədər qulaq asmır, onlara yersiz cavablar verirlər.

N.N.Zavadenkonun tədqiqatları göstərir ki, DDH sindromlu yeniyetmələrdə aqressiv və konfliktli davranış, nevrozluq, diqqətsizlik kimi deviasiya növləri ifadə olunur. Belə yeniyetmələrin əksəriyyətində uğursuzluqlar zamanı emosional sabitliyin zəifliyi, özünəinamsızlıq, özünü- qiymətləndirmənin aşağı olması halları müşahidə olunur. Çox vaxt onlarda delinkvent və adduktiv davranışa meyllilik, davakarlıq və s. kimi halları da müşayiət etmək olar. Onlar üçün oğurluq və dələduzluq halları da xarakterikdir.

Hiperqıcıqlandırıcı vəziyyətdə cəzadan qorxma halları zəifləyir, aqressivlik, qəddarlıq güclənir, ətrafdakılara və özünə tənqidilik aşağı düşür [4].

V.N.Kudryasev belə hesab edir ki, yeniyetmələrdə cinayətkarlıq karyerası zəif təlimdən və məktəbdən uzaqlaşdığı hallarda (onlarda neqativ düşmən münasibəti) başlayır. Sonra ailə problemləri fonunda evdən yayınma və tərbiyədə qeyri-pedaqoji metodların yaranması halları müşahidə edilir. Sonuncu addımda artıq yeniyetmə cinayətkar qrupa daxil olur və cinayət törədir.Belə hallarda yeniyetmə üçün təxminən 2 il vaxt tələb olunur. Yeniyetmənin cəmiyyətə zidd davranışının gələcəkdə formalaşmasının planında uğursuz proqnoz əlamətlərinə: ailədə qarşılıqlı anlaşmanın və köməyin olmaması, dəyərlər sisteminin və mənəvi prinsiplərin deformasiyası, günahkarlıq hissinin olmaması və s. kimi halları aid etmək olar.

Oğlan və qızlarda deviasiya mexanizmlərinin formalaşması müxtəlifdir. Oğlanların deviant davranışı çox vaxt beynin müxtəlif sahələrində neyropsixoloji inkişafın ləngiməsi ilə bağlıdır ki, bu da oğlanlar arasında deviasiyanın miqdarının çox olması ilə izah olunur. Oğlanlarda deviasiyanın korreksiyası sağ yarımkürələr qabığındaeliminasiya disfunksiyasının qurulması ilə mümkündür ki, burada artterapiya, kinestetik tapşırıqlar aid ola bilər.

Qızlarda deviasiya sağ yarımkürələr qabığının alın payında neyropsixoloji inkişafın ləngiməsi ilə bağlıdır. Deviant davranış müəyyən sindromların təzahürüdür, o epizodik olaraq baş vermir. Deviasiya istənilən situasiyada özünü göstərir. Beləliklə, hiperaktivlik sindromuna intellektual-mnemik pozuntular, həmçinin impulsivlik, diqqət çatışmazlığı, aqressivlik, hərəki fəallığın yüksəlməsi kimi psixopatoloji təzahürlər aid edilir.

DDH sindromu diqqətin çıtışmazlığındakı qüsurlarla, yayınmalarla, davranışın impulsivliyi, təlimdə şəxsiyyətlərarası qarşılıqlı münasibətlərdə çətinliklərlə, habelə hərəki hiperaktivliyin normal yaş göstəricilərinə qeyri-məxsusluğu ilə özünü göstərir.

Yeniyetməlik yaş dövründə DDH uşaqlarda deviant davranışın formalaşmasının amili kimi nəzərdən keçirilir. Bu yaş dövründə hüquqa zidd hərəkətlər daha şüurlu və ixtiyaridir.Yeniyetməlik yaş dövründə hiperqıcıqlandırıcılar və hiperaktivlik həmin yaş üçün xarakterikdir olan aqressivliyi, impulsivliyi, eqoistliyi və konfliktliliyi daha da yüksəldir. Diqqət defisiti və piperaktivliyin emosional-şəxsi xüsusiyyətlərinin tədqiqi göstərir ki, onlara uğursuz hallarda zəif psixoemosional sabitlik, özünəinamsızlıq, özünüqiymətləndirmənin aşağı olması xarakterikdir. Onlarda sadə və sosial fobiyalar,çılğınlıq, aqressiv davranış, delinkvent və adduktiv davranışa meyllilik də müşahidə edilir. Bu yaş dövründə DDH sindromu arasında məktəbə dezadaptasiya birinci planda durur. Məktəbə dezadaptasiya uşaqların konfliktli davranışında və akademik müvəffəqiyyətsizlikdə özünü göstərir. Akademik müvəffəqiyyətsizlik təlim motivasiyasının aşağı olması psixofizioloji diqqətsizliklə, hiperqıcıqlandırıcılarla, səhvlərinə və müəllimlərinin tənqidinə həssaslıqla müəyyən edilir. Məktəbdə hiperaktiv yeniyetmə həmişə müəllimlərə maneə olur və həmyaşıd- larının davranış pozuntularına səbəb olur. Düzdür, vərdiş etmədiyi şəraitdə naməlum insanlarla görüşərkən özlərini sakit aparmağı bacarır ki, bu da həyəcanlılıq fonunda mexanizmlərin ləngiməsi ilə izah olunur. Hiperaktiv yeniyetmələrin digər xüsusiyyətlərdən biri impulsivlikdir. Belə uşaqlar dərslərdə öz növbələrini çox çətinliklə gözləməli olurlar.

N.N.Zavadenko göstərir ki, DDH sindromu deviasiyanın növlərində: aqressiv və konfliktli davranışda özünü göstərir ki, bu da nevrotik və emosional-iradi qeyri-sabitliklə müəyyən edilir. Belə uşaqlara oğurluq və dələduzluq da xasdır. Hiperqıcıqlandırıcı vəziyyətdə cəzalanmaq qorxudu azalır, aqressivlik və qəddarlıq artır, habelə baş verənlərə və özünə tənqidilik aşağı düşür.

V.N.Kudryavsev belə hesab edir ki, kiçik yaşlı hiperaktiv yeniyetmələrdə karyeraya başlamaq məktəbdən uşaqlaşmaqla və pis oxumaqla başlayır. Həmçinin tərbiyədə qeyri-pedaqoji metodlar və ailə problemləri fonunda ailədən uzaqlaşma halları baş verir. Gələcək planda cəmiyyətə zidd davranışın formalaşmasında uğursuz proqnostik əlamətlərə: dəstəyin olmaması, ailədə qarşılıqlı anlaşmanın olmaması, dəyərlər sisteminin və əxlaqi prinsiplərin deformasiyası, vicdan hissinin olmaması, patoloji yalançılıq və s. aid edilir.

Yeniyetmələrdə deviant davranışa meylliliyinin fadəsi göstərir ki, onlara psixokorreksiyalı köməyin göstərilməsi zəruridir. Psixokorreksiyalı kömək sistemli və kompleksli xarakter daşımaqla psixoloqları, pedaqoqları və nevroloqları cəlb edir. Bu da yeniyetmələrin mikrososial mühitə normal adaptasiya olmağa imkan verir. Minimum beyin disfunksiyaların vaxtında aşkarlanması və korreksiyası, onun təzahürünün gücləndirilməsi deviasiyanın müxtəlif növlərinin transformasiyası onun aradan qaldırılmasına kömək etmiş olar.

Rassel A.Barkli təsdiq edir ki, DDH sindromlu yeniyetmələrin yaşadıqları ailə üçün ailədaxili kommunikasiyanın pozulmasının bir neçə aspektlərini müəyyən etmək olar:

1. DDH sindromlu yeniyetmələrin ailədə digər uşaqlarla qarşılıqlı münasibəti hiperaktiv uşaqlara xas olan psixoloji qeyri-yetkinliyə baxmayaraq onlar bacı və qardaşları üzərində hökmranlıq etməyə cəhd

göstərir, onların tələblərini yerinə yetirməyə onları tabe etdirir. Hiperaktiv yeniyetmələr özlərinə qarşı tələbkar olmadıqlarından fikirləşdikləri işi sona çatdıra bilmirlər. Bacı və qardaşları isə onların davranışlarına nəzarət etməyi özlərinə borc sayırlar. İctimai yerlərdə isə bacı və qardaşları ətrafdakı insanların hiperaktiv uşaqlara yönəlmiş heqativ diqqətdən utanırlar.

2. Hiperaktiv yeniyetmələrin valideynləri ilə münasibətlərdə çətinliklər aydın müşahidə edilir. Belə uşaqlar ilk günlər valideynlərinin gözlədiklərini doğrultmayırlar. Onları olduğu kimi qəbul etmək valideynlərə ağır gəlir. Valideynlər adəti üzrə uşaqlardan sözə baxmağı, ailə qaydalarına riayət etməyi onlardan gözləyirlər. İlk günlər bu sindromlu uşaqları valideynlər tənbəl, inadkar, pis xarakterli uşaq kimi səciyyələndirirlər. Belə situasiyada valideynlər yeniyetmələrə edilən qadağaları və cəzaları daha da artırırlar ki, bu da nəticədə uşaq-valideyn münasibətlərinin pozulmasına, konfliktlərin yaranmasına aparıb çıxarır.

3. Ailədə belə sindromlu uşaqların olması valideynlər arasında ər-arvad münasibətlərinə də təsir göstərir. Belə sindromlu yeniyetməli olan valideynlər ər-arvad münasibətlərini harmonik şəkildə qoruyub saxlamaqda çətinlik çəkirlər. Uşağın pis davranışının səbəblərinin axtarışı qarşılıqlı məzəmmətlərə səbəb olur ki, bu da təhlükənin daha da artmasına aparıb çıxarır. Ailədə tərbiyə prosesini düzgün təşkil etməyi bacarmayan, təlim və yüklənmələri düzgün bölüşdürə bilməyən valideynlər bir qayda olaraq ya uşağa təzyiq göstərir, ya da ər-arvad münasibətlərinə son qoyurlar.

4. DDN sindromlu yeniyetmələri tərbiyə edən anaların psixoloji problemləri də mühüm rol oynayır. Ailədə uşağa qulluq sahəsində əsas yüklənmə ananın üzərinə düşür. Ana nəinki hiperaktv uşağını daima müşayiət edir, həm də ona neqativ münasibət göstərən müəllimlərlə, ətrafdakı insanlarla uşağın münasibətlərini korreksiya etməli olur.

Ədəbiyyat

1. Болотовский Г. В. Гиперактивный ребенок / Г. В. Болотовский. М.: Изд-во Омега, 2010. – 221 с.
2. Брязгунов И. П. Непоседливый ребенок или все о гиперактивных детях/ И. П. Брязгунов - М. : Изд-во Института психотерапии, 2012. – 112 с.
3. Дробинский А.О. Синдром гиперактивности с дефицитом внимания // Дефектология. - №1. - 1999. - С.31- 36.
4. Заваденко, Н.Н. Синдром дефицита внимания с гиперактивностью: выбор оптимальной продолжительности лекарственной терапии / Н.Н. Заваденко, Н.Ю. Суворинова // Ж-л неврологии и психиатрии им. С.С. Корсакова. – 2011. – Т. 111. – № 10. – С. 28-32.
5. Синдром дефицита внимания с гиперактивностью у детей: Руководство практического психолога /А.В. Грибанов, Т.В. Волокитина, Е.А. Гусева, Д.Н. Подоплекин.– М.: Академический Проект, 2004.– 176 с.
6. Сиротюк А. Л. Синдром дефицита внимания с гиперактивностью/ А. Л. Сиротюк. – М.: Изд-во ТЦ Сфера, 2011. – 15 с.

РЕЗЮМЕ

ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ДЕВИАНТНОГО ПОВЕДЕНИЯ МОЛОДЕЖИ С ДЕФИЦИТОМ ВНИМАНИЯ И ГИПЕРАКТИВНЫМ СИНДРОМОМ

Исазаде Е. А.

Ключевые слова: *синдром дефицита внимания, девиация, подростки с гиперактивным синдромом, импульсивное поведение, девиантное поведение*

В тезисах утверждается, что у девиантных подростков с синдромом ДДГ на первом месте стоит адаптация к школе. Дезадаптация к школе проявляется в успеваемости и конфликтном поведении детей. Неуспеваемость определяется низкой учебной мотивацией, психофизиологической невнимательностью, повышенной раздражительностью, чувствительностью к критике и ошибкам учителей. По мнению автора, синдром дефицита внимания и повышенную раздражительность можно рассматривать как фактор формирования девиантного поведения подростков. В работе автор разъяснил аспекты нарушения внутрисемейной коммуникации для семьи, в которой проживают подростки с синдромом ДДГ.

SUMMARY

PSYCHOLOGICAL FEATURES OF THE FORMATION OF DEVIANT BEHAVIOR OF YOUTH WITH ATTENTION DEFICIENCY AND HYPERACTIVE SYNDROME

Isazade E.A

Keywords: *attention deficit disorder, deviation, adolescents with hyperactive syndrome, impulsive behavior, deviant behavior*

The thesis states that in deviant adolescents with FDH syndrome, adaptation to school is in the first place. Disadaptation to school is manifested in academic performance and conflict behavior of children. Poor progress is determined by low academic motivation, psychophysiological inattention, increased irritability, sensitivity to criticism and teachers' mistakes. According to the author, attention deficit disorder and increased irritability can be considered as a factor in the formation of deviant behavior in

adolescents. In the thesis, the author explained the aspects of the violation of intra-family communication for the family in which adolescents with DDH syndrome live.

YENİ TƏLİM TEXNOLOGİYALARINDAN İSTİFADƏ UNİVERSİTET TƏHSİLİNİN UĞURU KİMİ

Firidova X.Ş.
"A2Z Technologies" Şirkəti, Bakı, Azərbaycan
kfiridova2019@ada.edu.az

***Açar sözlər**: İnternet, texnologiya, onlayn, öyrənmə, ünsiyyət*

Elm-texnikanın sürətli inkişaf etdiyi müasir dünyada güclü iqtisadiyyata malik olan ölkələrin təhsil sistemləri bir-birindən fərqli formada fəaliyyət göstərir. Demək olar ki, təhsilin vahid modeli yoxdur. Lakin son illər dünyada ali təhsilin qloballaşması prosesi, vahid təhsil məkanı və təhsil standartlarının yaradılması meyilləri genişlənməkdədir. Hazırda ölkəmizdə dünya təhsil sisteminə, xüsusilə ali təhsil müəssələrinin Avropa təhsil sisteminə inteqrasiyası genişlənməkdədir.

Dünyada mükəmməl təhsil sisteminə malik olan ölkələrin təcürbəsi göstərir ki, müasir informasiya texnologiyalarına və başlıca olaraq kompyuterlər əsasında məktəblərin texniki təchizatının yüksəldilməsinə nail olmaq təhsilin inkişafını şərtləndirən əsas amillərdən biri kimi qiymətləndirilir.

Tədqiqatlar göstərir ki, müəllimlərin müasir texnologiya ilə tədrisi təşkil etməsi uğurlu nəticələrin əldə edilməsinə səbəb olur. Təhsil texnologiyalarından daha səmərəli istifadəyə nail olmaq üçün konseptual dəyişikliyin dəstəklənməsi peşəkar inkişaf fəaliyyətlərinin mərkəzi komponenti olmalıdır. Texnologiya bu gün təkcə təhsil deyil, həyatın demək olar ki, hər bir sahəsinə təsir edir. Lakin bəzən təhsilin elə məqamları var ki, düşünürsən ki, təhsil uzun illərdə olduğu kimidir: müəllim kürsüdən mühazirə deyir, tələbələr dinləyir, bəziləri qarşısında açıq kitabla sanki müəllimi izləyir, bəziləri yoldaşları ilə danışır, digəri yatmış kimi görünür. Demək olar ki, auditoriyalar əvvəlkilərdən çox da fərqlənmir. Müasir tələbələr kitab əvəzinə noutbuklarına, planşetlərinə və yaxud ağıllı telefonlarına baxaraq müəllimlərini izləyə bilərdilər.

Qeyd etməliyik ki, bir çox cəhətdən texnologiya təhsili kökündən dəyişdirdi. İlkin olaraq, texnologiya təhsilə çıxışı xeyli genişləndirdi. Belə ki, böyük miqdarda məlumat (kitablar, audio, şəkillər, videolar) internet vasitəsilə əlçatandır. Rəsmi öyrənmə imkanları Khan Academy, MOOCs, podkastlar, ənənəvi onlayn dərəcə proqramları və s. vasitəsilə bütün dünyada onlayn olaraq mövcuddur. Hazırda texnologiya sayəsində öyrənmə imkanlarına çıxış çox genişdir.

Müasir texnologiya yeni öyrənmə, ünsiyyət və əməkdaşlıq üsullarına geniş imkanlar yaradır. Məsələn, ABŞ-ın kənd yerlərində sinif otağında olan tələbələr, bölgədəki bir qrup elm adamının ekspedisiyasını izləməklə, Arktika haqqında məlumat əldə edə bilir, alimlərin bloq yazılarını oxuyur, fotoşəkillərə baxır, alimlərə e-poçtla suallar göndərə və hətta danışa bilirlər. Eyni zamanda tələbələr digər siniflərdəki tələbələrlə paylaşa bilirlər. Tələbələr vikilər və Google sənədləri kimi texnologiyaya əsaslanan vasitələrdən istifadə edərək qrup layihələrində əməkdaşlıq edə bilərlər.

Texnologiya müəllimlər üçün təlimat materialları əldə etməyi asanlaşdırmaqla bərabər, insanların öyrənmələri və birlikdə işləmələri üçün yeni üsullardan istifadə etməyə imkan yaradır. Müasir texnologiya bir çox cəhətdən təhsili dəstəkləyə və dəyişdirə bilən güclü vasitədir. İnternetin dünya miqyasında yayılması və ona qoşula bilən ağıllı cihazların çoxluğu demək olar ki, hər yerdə təhsilin yeni istiqamətdə inkişafını təmin edə bilir.

Texnologiyanın verdiyi imkanlardan istifadə etməklə effektiv və səmərəli təhsilin hər kəs üçün əlçatanlığı mümkündür. Tələbə bir mövzunu onlayn və ya üz-üzə öyrəndikdən sonra, öz fikirlərini onlayn əks etdirə, onlayn qiymətləndirməni tamamlaya bilər, həmçinin həmyaşıdları ilə onlayn əməkdaşlıq edə və sonra müxtəlif təşkilatlardan olan iş yoldaşları ilə onlayn əməkdaşlıq edə və yeni biliklərini tətbiq edə bilərlər. Müəllimlər indi Android və iOS platformalarında mövcud olan çoxlu proqramlardan öyrənmə prosesinə kömək etmək, tədrisdə həyəcan yaratmaq və tələbələri cəlb etmək üçün istifadə edirlər.

Hazırda fərdi kompüterlər, mobil telefonlar və internetə çıxış ali təhsili daha geniş çeşiddə tələbələr üçün əlçatan etmişdir. Onlayn öyrənmə platformaları bütün dünyada tələbələrin yüksək keyfiyyətli kollec kurslarına daxil olmasını asanlaşdırmış və müəllimlərə yüksək keyfiyyətli tədqiqat və tədris alətləri ilə məşğul olmaq üçün böyük imkanlar yaratmışdır.

Onlayn təhsil qismən uzaqdan öyrənmənin tələbələrin həyatına gətirdiyi çevikliyə görə populyarlaşmışdır. Onlayn mühitdə həyata keçirilən kurslar fərdi tələbələrin fərdi öyrənmə üslubları üçün

daha əlverişli şərait yaradır. Bundan əlavə, tələbələr vaxtında işləmək, materialı mənimsəmək üçün əlavə vaxta sahib olmaq və kurs materialı haqqında daha məhsuldar müzakirələr aparmaq üçün imkanlar əldə edirlər.

Texnologiyanın istifadəsi ilə hətta ən səssiz tələbələr də qrup müzakirələrinin fəal üzvlərinə çevrilə bilərlər. Onlayn kurs forumları tələbələrə öz sinif yoldaşları ilə dialoq yaratmaq üçün unikal imkan yaradır. Texnologiyanın gündəlik həyatımıza saysız-hesabsız təsirləri mövcuddur. Artıq texnoloji inkişaflar bizim yaşamaq, sosiallaşmaq və işləmək tərzimizi dəyişmişdir. Texnologiyanın karyera seçiminə və məşğulluğa təsirini də qeyd etmək lazımdır. Texnologiya ilə karyeranızı yüksəltmək indi daha asandır. İndi onlayn kurslara yazıla və virtual olaraq dərslərə qatılmaq mümkündür. Təhsil sisteminin özəl informasiya bazası, kompyuterlərlə əla təminatı onun uğurudur.

Müasir dünyada yüksək ali təhsil və peşə təlimi sektorunun inkişafı ilə seçilən Sinqapur, Finlandiya, Niderland, İsveçrə, Belçika, Danimarka, Norveç, ABŞ, Avstraliya, Yeni Zellandiya, Almaniya, İsveç, Birləşmiş Krallıq, Yaponiya kimi ölkələrdə formalaşan insan kapitalı yüksək texnologiyalara əsaslanan, innovasiya potensialı güclü olan iqtisadiyyat yaratmışlar.

Sürətli qloballaşma dövründə İnformasiya texnologiyalarının inkişafı, ali təhsildə beynəlmiləlləşmə əhəmiyyətli bir inkişaf strategiyasına çevrilmişdir. Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi "2019-2023-ci illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" (16.11.2018) və "Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında" sərəncam (30.11.2021) ölkədə ali təhsilin və kadr hazırlığının inkişafında yeni imkanlar, yeni yanaşmaları ortaya qoyur.

Ədəbiyyat

1. Abbasov Ə.M. İnkişaf etmiş xarici ölkələrdə təhsil. Bakı, "Elm və təhsil", 2020, 108 səh.
2. Mahmudov M.C. Dünya təhsil sistemləri. Monoqrafiya. – Бакы: Mütərcim, 2014. – 480 səh.
3. Muradov A.N. Elmi-texniki potensial: əsas inkişaf meylləri və problemləri, Bakı, Elm 2005, 324 s.
4. https://www.yeniazerbaycan.com/Elm_e10820_az.html
5. https://www.azerbaijan-news.az/az/posts/detail/ugurlu-tehsil-strategiyasinin-muellifi-1651963329
6. https://president.az/az/articles/view/9779

РЕЗЮМЕ

ИСПОЛЬЗОВАНИЕ НОВЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ КАК УСПЕХ УНИВЕРСИТЕТСКОГО ОБРАЗОВАНИЯ

Фиридова Х.Ш.

***Ключевые слова**: Интернет, технологии, онлайн, обучение, общение.*

В статье отмечается, что достижение современных информационных технологий и совершенствование технического оснащения школ на базе компьютеров является одним из основных факторов, определяющих развитие образования. Современные технологии влияют практически на все аспекты жизни, а не только на образование. В статье отмечается, что современные технологии открывают широкие возможности для новых способов обучения, общения и сотрудничества. Было показано, что технологии облегчают учителям доступ к учебным материалам и открывают новые способы для людей учиться и работать вместе.

SUMMARY

USE OF NEW LEARNING TECHNOLOGIES AS A SUCCESS OF UNIVERSITY EDUCATION

Firidova K. Sh.

***Keywords**: Internet, technology, online, learning, communication*

Summary: the article mentions that achieving modern information technologies and improving the technical equipment of schools based on computers is one of the main factors determining the development of education. Technology today affects almost every aspect of life, not just education. The article mentions that modern technology opens wide opportunities for new ways of learning, communication and cooperation. Technology has been shown to make it easier for teachers to access instructional materials, while also enabling new ways for people to learn and work together.

ALİ TƏHSİL SİSTEMİNDƏ KEYFİYYƏT TƏMİNATI

Abdullayev N.M.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

nofalabdullayev61@gmail.com

Açar sözlər: *ali təhsil, keyfiyyət təminatı, Azərbaycan Respublikasının Təhsil siyasəti, Təhsildə Keyfiyyət Təminatı Agentliyi*

Müasir dövrdə qloballaşma prosesinin gedişində istehsal və xidmətlərin müxtəlif sahələrində, o cümlədən təhsil sistemində keyfiyyət təminatı öz əhəmiyyətini artırmaqdadır. II Dünya Müharibəsi illərində və ondan sonrakı dövrdə E.Deming, M.Juran və K.Ishikawa kimi məhşur elm adamları tərəfindən inkişaf etdirilən keyfiyyət anlayışı təhsildə, xüsusən də ali təhsil sferasında milli və beynəlxalq konteksdə ən vacib faktorlardan birinə çevrilmişdir.

Keyfiyyət təminatı – təhsil xidmətinin keyfiyyət standartlarında göstərilən tələbləri yerinə yetirdiyinə kifayət qədər inam yaratmaq və həmin tələblərə cavab verdiyini müəyyənləşdirmək üçün icra edilən planlı, sistemli fəaliyyətlər məcmusu və onların qiymətləndirilməsidir [1].

Keyfiyyət təminatı XIX əsrin sonlarından etibarən ABŞ-da ilk akkreditasiya təşkilatlarının yaranması ilə ali təhsilin idarə olunmasında ayrıca sahə olaraq formalaşmağa başlamışdı. Hər bir ölkənin iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən və müasir dünyada kapital cəlb edən sahəyə çevrilmiş təhsil sektoru adekvat olaraq, buradakı xidmətlərin də keyfiyyətinin artırılmasını tələb edir. Bu baxımdan bəhs edilən sahədə səmərəliliyi artırmaq və müsbət nəticələr əldə edilməsi üçün ali təhsil müəssisələrində effektiv keyfiyyət təminatını formalaşdırmaq, hətta bunu yüksələn xətlə artırmaq zərurətə çevrilmişdir. Universitetlərdə təlim və tədris prosesi həmişə bütün maraqlı tərəflər – tələbələr, valideynlər, məktəblər, işəgötürənlər və hökumət üçün əhəmiyyət daşımışdır.

Elə bu səbəbdən də Avropanın ali təhsil sistemində 2005-ci ildə qəbul olunmuş standartlar və təlimatlar məhz daxili keyfiyyətin təminatına yönəlmişdi. Bunun nəticəsi idi ki, bəhs olunan dövrdən etibarən keyfiyyət təminatında, eləcə də digər Boloniya tədbirlərində, o cümlədən təlim nəticələrinin istifadəsinin həm tanınmasında, həm də təşviqində əldə olunmuş nailiyyətlər tədris və təhsil istiqamətində yeni fikir və ideyaların yaranmasına səbəb olmuşdur. Bu da son nəticədə 2015-ci ildə Avropa ali təhsil məkanında daxili keyfiyyət təminatı üzrə yeni standartlarla yanaşı təlimatlarında yenilənməsini zəruri edən amillərdən birinə çevrilmişdir.

Ali təhsil müəssisələrinin fəaliyyətinə etimad yaradan hesabatlılıq və keyfiyyətin artırılması kimi iki oxşar prinsip keyfiyyət təminatı fəaliyyətinin əsasında dayanan mühüm məqsədlər olmaqla diqqəti cəlb edir.

Ali təhsil müəssisəsi və ictimaiyyət ali təhsil müəssisələrinin fəaliyyətinin keyfiyyəti haqqında lazım olan məlumatlarla yalnız keyfiyyət təminatı prosesinin yüksək səviyyədə həyata keçirildiyi təqdirdə təmin oluna bilərlər. Burada ali təhsil müəssisəsində görülən işlərin keyfiyyətinin daha da yüksəldilməsinə dair məsləhət və tövsiyyələr də nəzərə alınmalıdır.

XXI əsrin tələblərinə uyğun olaraq Azərbaycanda rəqabətqabiliyyətli insan kapitalını yetişdirmək və Ali təhsil müəssisələrində keyfiyyət təminatının effektivliyini artırmaq məqsədilə bir sıra addımlar atılmaqdadır. Bunların sırasında aşağıdakıları göstərə bilərik:

- Tələbə qəbulu qaydalarının təkmilləşdirilməsi;
- Universitetlərdə keyfiyyətin təminatı mərkəzlərinin yaradılması;
- Məzunların işlə təmin olunmasına xidmət edən karyera mərkəzlərinin qurulması.

Azərbaycan 2015-ci ildən Ali Təhsildə Keyfiyyətin Təminatı üzrə Avropa Reyestri (EQAR) təşkilatının üzv seçilmişdir. EQAR Bolonya prosesinə üzv ölkələrin mandatı ilə Ali təhsildə keyfiyyətin təminatı üzrə Avropa Assosiasiyasının (ENQA), Avropa Universitetlər Assosiasiyasının (EUA), ATM-lərin Avropa Assosiasiyasının (EURASHE) və Avropa Tələbələr Birliyinin (ESU) təşəbbüsü əsasında ali təhsildə keyfiyyətə nəzarət üçün yaradılmış ilk rəsmi qurumdur [1].

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixdə imzaladığı müvafiq fərmana əsasən, Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) təşkil edilmişdir. Onu da qeyd edim ki, bu idarə əvvəllər "Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsi" adlanırdı. Azərbaycanda və beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanan ali, orta ixtisas və əlavə təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi sahəsində peşəkar və mütəxəssis qurum olan agentlik təhsil proqramlarının keyfiyyət səviyyələrinin müəyyənləşdirilməsi və tələblərin həyata keçirilməsini təmin edir [2]. Bununla yanaşı, agentlik digər məqsədləri də yerinə yetirməkdədir:

- Azərbaycan Respublikasında effektiv keyfiyyət təminatı sisteminin fəaliyyətini təşkil etmək;
- Keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemi formalaşdırmaq;
- Müasir dövrün tələblərinə uyğun bilik, bacarıq, sərişta və təcrübəyə malik rəqabətqabiliyyətli mütəxəssislərin əmək bazarına çıxışına dəstək göstərmək və s. [3]

Agentliyin fəaliyyət istiqamətləri olaraq, təhsil müəssisələrinin akkreditasiyasını həyata keçirmək, xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını həyata keçirmək, peşə təhsili üzrə qeyri-

formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, sərişte və təcrübənin qiymətləndirilməsi və tanınmasını həyata keçirmək, təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsi üçün tövsiyələr hazırlamaq və təlimlər təşkil etmək, təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsi ilə bağlı məsləhət və metodiki dəstək xidmətləri təşkil etmək, təhsil sisteminin və bu sahədə dövlət standartlarının davamlı inkişafını, təhsil müəssisələrinin nüfuzunun və mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasını təşviq etmək, təhsil fəaliyyətinin lisenziyalaşdırılması məqsədilə rəy verilməsində iştirak etmək, müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və tətbiq etmək məsələləri müəyyənləşdirilmişdir [1].

TKTA təhsil proqramlarının keyfiyyət səviyyələrinin müəyyənləşdirilməsi və tələblərin həyata keçirilməsini təmin edir və 2017-ci ildə Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Assosiasiyada (ENQA) müşahidəçi üzv statusu qazanmışdır. Təhsil müəssisələrinin akkreditasiyası hər 5 ildən bir həyata keçirilir.

Təhsilin yüksək keyfiyyətini təmin etmək üçün təhsil sahəsində monitorinq, keyfiyyət və fəaliyyət göstəriciləri sisteminin inkişaf etdirilməsi, təhsil və təlim müəssisələrində, təhsil fəaliyyəti ilə məşğul olan elmi müəssisələrdə keyfiyyətin daxili təminatı sisteminin yaradılması, keyfiyyətin qiymətləndirilməsi və müvafiq meyarların hazırlanması zamanı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmişdir), "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi" kimi sənədlərə istinad olunmuşdur.

Sumqayıt Dövlət Universitetində daxili keyfiyyət təminatı sisteminin qurulması üçün 2015-ci ildən başlayaraq müvafiq işlər görülmüşdür. Rektorun 02 oktyabr 2015-ci il tarixli əmri ilə Tədris Metodiki Mərkəzin daxilində Qiymətləndirmə və keyfiyyətə nəzarət bölməsi fəaliyyətə başlamışdır. Rektorun 02 noyabr 2021-ci il tarixli əmri ilə Tədris Metodiki Mərkəzin Qiymətləndirmə və keyfiyyətə nəzarət bölməsi və ERASMUS+EQAC layihəsi çərçivəsində yaradılmış Keyfiyyət Təminatı Mərkəzi ləğv olunaraq, onların əsasında Keyfiyyət təminatı şöbəsi yaradılmışdır [4].

Sumqayıt Dövlət Universitetinin fəaliyyətində keyfiyyət təminatının əldə edilməsi üçün digər fəaliyyətlər də həyata keçirilməkdədir. Bunlara misal olaraq, Sumqayıt Dövlət Universitetinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "ERASMUS+EQAC - Azərbaycan Universitetlərində Keyfiyyətə Təminat Mərkəzlərinin Yaradılması və İnkişaf etdirilməsi" [5] və "Tvinninq - Azərbaycanda ali təhsilin gücləndirilməsinə dəstək" [6] layihələrində uğurla iştirakını göstərmək olar.

ERASMUS+EQAC layihəsi çərçivəsində 9 ali təhsil müəssisəsində Keyfiyyət Təminatı Mərkəzləri yaradılmış, iki ali təhsil müəssisəsində mərkəzin fəaliyyəti yenidən təşkil edilmiş, 3000-ə yaxın tələbə və 500-dən çox akademik heyət sorğularda iştirak edilmiş, 500-ə yaxın akademik heyət müxtəlif təlimlərdə iştirak etmiş, 80 fənn proqramı yenilənmiş, 22 nəfər Keyfiyyətin İdarəedilməsi sahəsi üzrə sertifikatlaşdırılmış, ali təhsil müəssisələri üçün daxili keyfiyyət təminatı standartları və təlimatlarını özündə əks etdirən bələdçi hazırlanmışdır [7].

Tvinninq layihəsi çərçivəsində isə 2019-cu ilin noyabr ayından 2020-ci ilin yanvar ayınadək 8 universitetdə (BDU, SDU, ADNSU, AzTU, ADPU, BMU, Xəzər Universiteti və Azərbaycan Dillər Universiteti) bakalavr pilləsinə aid 6 pilot təhsil proqramı üzrə 23 simulyativ akkreditasiya həyata keçirilmişdir [8].

Bütövlükdə, Azərbaycan Respublikasının təhsil siyasətində son dövrlər keyfiyyət təminatı ilə bağlı məsələlər daha çox diqqət mərkəzində saxlanılmaqdadır. Ali təhsil müəssisələrinin daxili keyfiyyət təminatı sisteminin qurulması sahəsindəki təcrübələrinin təkmilləşdirilməsi və daxili keyfiyyət təminatı strukturlarına (bölmələrinə) dəstək verilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilməkdədir.

Ədəbiyyat

1. Muştaqov Ə. Ali təhsil müəssisələrində keyfiyyətin təmin edilməsində keyfiyyət təminati sistemi və akkreditasiya amili// İqtisadiyyat və idarəetmə sahəsində magistr və doktorantların beynəlxalq elmi konfransı, Gəncə, 4 – 7 iyun 2021
2. https://www.tkta.edu.az/p/about-the-agency
3. https://e-qanun.az/framework/44056 Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və"Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 yanvar tarixli 479 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı
4. https://www.sdu.edu.az/az/81
5. http://eqac.az/az

6. http://www.twinning4he.edu.az/az
7. https://www.sdu.edu.az/az/news/1884
8. https://www.sdu.edu.az/az/news/1567

РЕЗЮМЕ
ОБЕСПЕЧЕНИЕ КАЧЕСТВА В СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ
Абдуллаев Н.М.

Ключевые слова: *высшее образование, обеспечение качества, Образовательная политика Азербайджанской Республики, Агентство по обеспечению качества в образовании*

В современном мире высшие учебные заведения с каждым днем все чаще сталкиваются как с национальной, так и международной конкуренцией. В этих условиях возникает потребность выделиться среди других, доказать, что ты лучше и сильнее. По этой причине предоставление более качественного образования и повышение качества преподавания и академической деятельности высших учебных заведений становится основным определяющим фактором в конкуренции с более авторитетными учебными заведениями. Для достижения этих целей и задач высшие учебные заведения должны постоянно искать, быть инновационными и технологически обновленными, стараться расширить свой взгляд на вопросы обеспечения качества, не бояться ошибок, критически подходить к своей деятельности, определять цели, которые они не смогли достичь в предыдущие годы, и двигаться вперед с большей решимостью.

SUMMARY
QUALITY ASSURANCE IN THE HIGHER EDUCATION SYSTEM
Abdullaev N.M.

Keywords: *higher education, quality assurance, Education policy of the Republic of Azerbaijan, Quality Assurance Agency in Education*

In the modern world, higher education institutions encounter both national and international competition at an increasing rate every day. Under these circumstances, there is a need to distinguish oneself from others, to prove that one is better and stronger. For this reason, providing better quality education and increasing quality assurance in teaching and academic activities of the higher education institutions become the main determining factor in competition with educational institutions that have a greater reputation. In order to achieve these goals and objectives, higher education institutions should constantly search, be innovative and technologically updated, try to broaden their view of quality assurance issues, not be afraid of mistakes, take a critical approach to their activities, identify goals that they could not achieve in previous years and move forward with more determination.

PEŞƏKAR MÜƏLLİM VƏ TƏHSİL PROSESİ

[1]Axundova S.M., [2]Qarayeva A.Q.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, 1-b.f.d., 2-dosent
ismayilov.sevil@mail.ru ; amalya.qarayeva59@gmail.com

Açar sözlər*: pedaqoji proses, innovasiyalar, təlim-tərbiyə-təhsil, peşəkar müəllim, şəxsiyyətyönümlü*

Ölkəmizdə baş verən yeniliklər bütün sahələrdə olduğu kimi təhsil sistemində də özünü qabarıq şəkildə göstərir. Bu yeniliklərin müsbət tərəfləri göz qabağındadır, ürəkaçandır, müəllimləri daha səmərəli, daha yaradıcı olmağa ruhlandırır. Hər birimiz bu peşənin məsuliyyətini, ağırlığını, müqəddəsliyini bir an belə unutmuruq.

Müasir təhsil sisteminin qarşısında duran əsas vəzifə peşəkar müəllim və şagird şəsiyyətinin formalaşdırılması, təhsilin ümumbəşəri mövqedən yeniləndirilməsi, sistemli şəkildə inkişaf etdirilməsidir. Şagirdlərin intellekttual, fiziki və psixoloji inkişafında peşəkar müəllimlərin rolu danılmazdır. Gələcəyimizin yüksək səviyyədə təminatı, rahatlığı yeni nəslin təhsil səviyyəsindən çox aslıdır. Məhz buna görə təhsilin yüksək inkişaf etdirilən sahəyə çevrilməsi zəruridir.Müasir təhsil sistemi təlim-tərbiyə prosesinin təşkilinə, təlim proqramının məzmununa, pedaqoji prosesin tamlığına, pedaqoji işçilərin fəaliyyətinin nəticəliliyinə, peşəkarlığına yeni tələblər irəli sürür.

Müasir cəmiyyət dərin, dolğun, sistemli biliklər, məzmunun yeniləşməsinin yüksək tempini, hərtərəfli inteqrasiyanı, biliklərin mənomsənilməsində fasiləsizliyi tələb edir. Dövrün tələbatlarının müxtəlifliyinin diqqətdə saxlayaraq, pedaqoji prosesin tamlığının, pedaqoji səriştəliliyin və peşəkarlığın daha yüksək səviyyəsinin təminatı günün başlıca vəzifəsidir.Təhsil müəssisələri şəbəkəsində yaranan problemlərin aradan qaldırılması, onların istər şəgirdlərin, istərsə də tələbələrin mənafeyini diqqətdə saxlamaqla səmərəli həlli ən başlıca şərtlərdən biridir.

Azərbaycan Respublikasında təhsilin yeni sisteminin qurulmasının, məzmununun yeniləşdirilməsinin, təhsilin məzmununa yeni metod, forma, üsulların tətbiqinin olması çox ürəkaçandır. Peşəkar müəllim yalnız öz fənnini bilməklə kifayətlənməli, digər elmlərdən xəbərdar olmalıdır. Belə ki,

təhsildə inteqrasia yeni elm sahəsi formalaşdırmaqla yanaşı, eyni zamanda şagird şəxsiyyətinin hərtərəfli inkişafında mühüm rol oynayır. İnteqrasiya sosial- şəraiti dəyişən, təhsil sistemini pilləli şəkildə inkişaf etdirən yeni təhsil islahatının əsası kimi çıxış edir. İnteqrasiya təlim-tərbiyə prosesində az əhəmiyyət kəsb eləmir. Təlimdə kompleks və əlaqəli yanaşma şagird və tələbələrimizin mənəvi cəhətdən saf, hərtərəfli inkişafında inteqrasiyanın rolu danılmazdır.

Peşəkar müəllim fəaliyyətin müxtəlif növlərinin əlaqələndirilməsinin öyrədilən materialların asan mənimsənilməsində, təfəkkür və təxəyyülün inkişafında, ünsiyyət və davranış mədəniyyətinin nizamlı şəkildə yaranmasında əhəmiyyətini vurğulayır. Təhsilin, təhsil prosesinin nəzəri, bioloji, ekooloji, ideoloji bazası nə qədər zəngin olsa da, müasir təlim metodlarından əlaqəli şəkildə istifadə edilməsə, müsbət nəticələ rəldə olunmaz. Ona görə də təhsil prosesində müasir təlim və texnologiyalardan istifadə zəruridir. Peşəkar müəllim təlim prosesində təhsilalanların yüksək əqli, əxlaqi, mənəvi dəyərlər daşıyıcısı olmasını həyata keçirir. İnsanın kamillik səviyyəsi gözəl düşüncə, nitq mədəniyyəti, dəyərləri ilə qiymətləndirilir. Məhz buna görə müasirlərimiz olan gənc nəsldə məntiqi yaradıcı təfəkkürü, ünsiyyət və davranış mədəniyyətini formalaşdırmaq, peşəkar müəllim kimi yetişdirmək üçün onlarla əməkdaşlığın alınmasında maraqlı tərəf olmalıyıq.

Kafedramızın müəllimləri yeni elmi nailiyyətlərin əldə olunmasında, tələbələrin həm elmi, həm də ictimai fəallıqlarının təmin olunmasında məsuliyyətlərini dərindən anlayırlar. Dərslərimizi daha yaradıcı, daha səmərəli, əməkdaşlıq şəraitində keçirik. Bəzi məqamlarda razı qalsaq da, bir sıra poblemlər özünü qabarıq şəkildə göstərir. Təhsildə inovasiyaların təşkili, tətbiqi şərtdir. Müəllimlərin peşəkarlıq səviyyəsindən asılı olaraq ayrı-ayrı qruplarda müxtəlif nəticələrlə rastlaşırıq. Diqqət yetirdinizsə, pe.kar müəllim anlayışını xüsusi vurğuladəm. Çünki innovasiyaoarın əhəmiyyətli dərəcədə tətbiqinə yalnız təcrübə, aktivlik deyil,həm də peşkar olmaq lazımdır.

Müəllimliyi sevməliyik, ona hörmətlə yanaşmalıyıq, dəyərlərimizi hər dəqiqə diqqətdə saxlamalıyıq. Pe.əmizin peşıkarı olmağa çalışmalıyıq. Bu istiqamətdə yalnız fənni tədris eləmək, nəzəri bilikləri öyrənməklə kifayətlənməməli, eyni zamanda təhsilalanların bilik, bacarıq və vərdişlərini inkişaf etdirməyi bacarmalıyıq. Təhsilalanlarda özünəinamı, sərbəst fikir söyləməyi, dinləmək mədəniyyətini,zəngin söz ehtiyanının olmasını, mütaliə etməyi, ünsiyyət və davranış mədəniyyətini inkişaf etdirməyi bacarmalıyıq. Ümumilikdaə cəmiyyətə şəxsiyyət formalaşdırmaı diqqətdə saxlamalıyıq. Özümüzü yaradıcı, pedaqoji, psixoloji, paralel olaraq nəzəri biliklər baxımından pilləli və sistemli şəkildə inkişaf etdirməyi bacarmalıyıq. Savadsız müəllim anlayışın yoxdur. Özünə tənqidi yanaşmayan, özünü istər pedaqoji, istər psixoloji, istərsə də elmi tərəfdən nkişaf etdirməyən, yeniliklərin tələbləri ilə ayaqlaşa bilməyən, peşəsindən zövq almayan, peşəsinin aliliyini unudan, tələbə və şagirdlərinin dəyərləndirməyən vəs. müəllimlərimiz çoxdur. Bu baxımdan yalnız təhsillalanlar deyil, təhsilverənləri də müasir təhsilin tələləri ilə ayaqlaşmağı bacarmalıdırlar.

"Azərbaycan Respublikasının təhsilin inkişafı üzrə Dövlət Strategiyasında göstərilir ki, "Strategiyanın məqsədi ölkədə səriştəli, yeni təlimin tələblərinə cavab verən, peşəkar müəllim kimi özünü inkişaf etdirən müəllimlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemi yaratmaqdır." Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki,təlim-tərbiyə-təhsil prosesinin effektliyinin yüksəldilməsi, səmərəli və yaradıcı olması üçün peşəkar müəllimlərə, təhsil texnologiyalarına əsslanan, məntiqi, tənqidi və yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir.

Tədris müəssiələrindəki müşahidələriməzə əsaslanıb söyləmək olar ki, həm peşəkar müəllimlərin çoxluğu, həm yeni texnologiyaların tədris-təlim prosesinə tətbiqi, həm də bir sıra sağlam əməkdaşlıqlar təhsil prosesinə müasir baxış hesab olunur. Belə yanaşmalar əsasında təşkil olunmuş pedaqoji proses maksimum idarə olunan proses hesab olunur.Bu zaman hər bir yeni dərs- nəzərdə tutulmuş bütün məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, təhsilalanlarla təhsilverənlərin sağlam əməkdaşlıqları əsasında, məkan və zaman səviyyəsində proqramlaşdırılmış pedaqoji prosesin tamlığının birgə fəaliyyətidir. Tədris- təlim prosesi o vaxt keyfiyyətli olur ki, tədris prosesinə istiqamət verən, onu yaradıcı edən, inkişaf etdirən müəllimlərin bilikləri kifayət qədər təkmilləşdirilmiş, yeniləşdirilmiş, müasir təlimin tələblərinə cavab vermiş olsun və müəllimlərin peşkarlığını inkişaf etdirmiş olsun.

XXI əsr Azərbaycan Respublikasında təhsil sisteminin yenidən qurulmasını, modenləşdirilməsini, pedaqoji innovasiyalardan yerində istifadə olunmasını, inteqrasiyaların tətbiqini, peşəkar müəllimlərin hazırlığını, şagird şəxsiyyətinin formalaşmasını və s. məsələləri əhatə edir. Pedaqoji prosesin tamlığının məqsədi kamil insan formalaşdırmaqdır. Təhsildə yeni yanaşmalar tədris prosesinin demokratik prinsiplər

əsasında idarə etməyə imkan verməklə, təlim məqsədlərini yüksək səviyyədə, keyfiyyətli yerinə yetirilməsinə zəmanət verən fəaliyyət sistemidir.

Müasir təhsilin pedaqoji prinsiplər əsasında qurulmasında təşkilatçılıq, istiqamətvericilik vəzifələrini öz üzərinə götürən təhsilverən əsas fəallığı təhsilalanlara verir. Bu zaman müxtəlif çətinliklərlə və problemlərlə qarşılaşan təhsilalan onları müstəqil həll etməyə çalışır. Peşəkar müəllimlərin mövqeyi, məqsədi təhsilalanların tədqiqatçılıq bacarıqlarının inkişafına metodiki istiqamət verməkdir.

Azərbaycan Respublikasının Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsil müəssisələrində tədris-təlim prosesinin səmərəliliyinin artırılmasında, təhsilin keyfiyyətinin yüksəldilməsində, peşəkar müəllimlərin formalaşmasında, yeni pedaqoji anlayışların və ideyaların təliim prosesinə gətirilməsində xüsusi önəm daşıyır. Eyni zamanda gənc müəllimlərin yetişdirilməsində keyfiyyətli tədris-təlim prosesinin təşkili xüsusi rol oynayır.Bu baxımdan bütün pedaqoji ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə gənc təhsillverənlərin müasir tələblərə cavab verən səviyyədə hazırlanması zamanın tələbi kimi qiymətləndirməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Xalq qəzeti", 25.12.2013.
2. Mehrabov A.O. Şəxsiyyətyönümlü təhsil standartlarının hazırlanma texnologiyası. "Azərbaycan məktəbi", Bakı, 2005, №4 (596).
3. Mehrabov A.O. Pedaqoji prosesin optimallaşdırılmasının psixopedaqoji məsələləri Bakı: Azərbaycan məktəbi, 2011, №2.
4. "Kurikulum" Elmi –metodiki jurnal. 2014, №3. (30-40)
5. Kazımov N. Ali Məktəb Pedaqogikası. Bakı, 2011. (90-95).

РЕЗЮМЕ

ПРОФЕССИОНАЛЬНЫЙ УЧИТЕЛЬ И ПРОЦЕСС ОБРАЗОВАНИЯ

Ахундова С.М., Гараева А.Q.

***Ключевые слова**: педагогический процесс, инновации, обучение-воспитание-образхование, профессиональный педагог, личностная направленность.*

Главной задачей, стоящей перед современной системой образования, является формирование личности профессиональных педагогов. Роль профессиональных педагогов в интеллектуальном, физическом и психологическом развитии учащихся неоспорима. От уровня образования нового поколения зависит высокий уровень безопасности и комфорта нашего будущего. Вот почему необходимо превратить образование в высокоразвитую область. Современная система образования предъявляет новые требования к организации учебного процесса, содержанию учебной программы, полноте педагогического процесса, эффективности деятельности педагогических работников.

SUMMARY

PROFESSIONAL TEACHER AND EDUCATIONAL PROCESS

Akhundova S.M., Garayeva A.Q.

***Keywords**: pedagogical process, innovations, training-upbringing-education, professional teacher, personal orientation*

The main task facing the modern education system is the formation of the personality of professional teachers and students, renewal of education from a universal point of view, and systematic development. The role of professional teachers in the intellectual, physical and psychological development of students is undeniable. The high level of security and comfort of our future depends on the level of education of the new generation. That is why it is necessary to turn education into a highly developed field. The modern education system makes new demands on the organization of the training process, the content of the training program, the completeness of the pedagogical process, the effectiveness of the activities of the pedagogical staff, and the professionalism.

YARADICILIQ TƏLİM METODLARININ ƏSASI KİMİ

İsayeva Z.M.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

zabite66@box.az

Açar sözlər: *yaradıcılıq, təlim metodları, idrak fəaliyyəti, maraq, tədqiqatçılıq metodu*

Müasir şəraitdə zamanın inkişaf ahənginə uyğun olaraq yaradıcı şəkildə işləmək üçün təlim-tərbiyə prosesini yenidən qurmaq olduqca vacib məsələdir. Təlim prosesini bütövlükdə intensivləşdirmək məqsədi ilə uzun illərdən bəri yaranmış metodların potensial imkanlarını fəal şəkildə axtarıb tapmaq, aşkara çıxarmaq və onlardan faydalanmaq tələb olunur.

Cəmiyyətin yeniləşdirilməsi üçün hər şeyə yaradıcı yanaşmağı bacaran, geniş dünyagörüşə və intellektual səviyyəyə malik olan adamların formalaşması məktəbdə, təlim-tərbiyə prosesində başlayır və inkişaf etdirilir. Odur ki, yaradıcılıq bütün təlim metodlarına daxil olmalıdır.

Yaradıcılıq problemi istər pedaqogikada, istərsə də psixologiyada lazımi qədər tədqiq olunmamışdır. Vaxtilə *B.A.Suxomlinski* göstərirdi ki, yaradıcılığın işlənməmiş bir sahə olaraq qalmasının başlıca səbəblərindən biri müəllimlərin tədris etdikləri fənn üzrə psixopedaqoji və fiziogigiyenik sahələr üzrə hazırlıq səviyyələrinin aşağı olmasıdır.

Təlim psixologiyasında tələbələrin (şagirdlərin) yaddaş qanunlarının, müəyyən yaş qruplarından olan uşaqların təfəkkürünün psixoloji xüsusiyyətlərinin nəzərə alınması əsas şərtlərdəndir. Hər bir müəllim təlimdə bütün tələbələrin (şagirdlərin) düzgün inkişafı sahəsində müvəffəqiyyət qazanmaq üçün dərs prosesində lazımi psixoloji mikroiqlim yaratmaq məqsədi ilə konkret vəzifələri yerinə yetirməlidir.

Yaradıcılıq öz-özlüyündə geniş və çoxşaxəli bir prosesdir, o, insandan yüksək emosionallıq, dərin həssaslıq tələb edir. *Təlim metodları* tədris prosesinin mühüm komponentlərindən biridir. *Təlim metodu* dedikdə, biz müəllimin müntəzəm olaraq tətbiq etdiyi iş üsullarını, tələbələrin (şagirdlərin) öz əqli qabiliyyətləri və maraqlarını inkişaf etdirmələrinə, bilik və bacarıqlara yiyələnmələrinə, qazanılmış bilik və bacarıqlardan praktik olaraq istifadə etmələrinə imkan verən əməkdaşlıq şəraitində qarşılıqlı müəllim-tələbə (şagird) fəaliyyətini başa düşürük.

Təlim metodları tədris prosesində müəllimlə tələbələr (şagirdlər) arasında yaranan ünsiyyətdir. Belə ki, hər hansı bir ünsiyyət yaradıcılıqla sıx bağlıdır. Deməli, təlimin özü yaradıcı prosesdir. Bütün təlim-tərbiyə prosesi və təlim metodları yaradıcılıq ruhunda olmalıdır.

İ.Y.Lerner "Təlim metodlarının didaktik sistemi" adlı tədqiqat əsərində göstərir ki, reproduktiv təlim metodunun mahiyyətini müəllimin hər bir tapşırığı müəyyənləşdirmə üsulu, habelə tapşırığın icrası prosesində tələbələrin (şagirdlərin) öz bilik, vərdiş və bacarıqlarını tətbiqetmə yolları təşkil edir.

Hələ vaxtilə *C.Lokk* "yumşaq" adlanan metodlar işləyib hazırlamışdır. *"Yumşaq metodlar"* tələbələrin (şagirdlərin) təbii maraqlarına və müsbət emosiyalarına əsaslanır. Həmin metodlar tədris prosesini əyləncəli etməyə istiqamətləndirməklə şərtlənir. O, təlimdə oyun formalarından, şəkilli kitablardan istifadə etməyi, qazanılmış bilik və bacarıqları praktik şəkildə tətbiq etməyi təklif etmişdir.

Odur ki, təlim prosesində tələbələrin (şagirdlərin) yaradıcılıq imkanları müəllim tərəfindən düzgün inkişaf etdirilməlidir. Bu təlimin həm idraki, yaradıcı strukturunu, mənimsənilmiş biliklərin yeni situasiyada müstəqil şəkildə tətbiqini, həm də adi şəraitdə problemin, tanış əşyanın yeni funksiyasını, müəyyən bir məsələnin özünü və onun həlli yolunun alternativini görməyi nəzərdə tutur. Belə təlim üçün tələbələr (şagirdlər) tərəfindən müntəzəm olaraq yerinə yetirilən və tədricən mürəkkəbləşdirilən tapşırıqların rolu yüksəldilməlidir. Özü də elə tapşırıqlar ki, onlar problemli situasiya yaratmaq üçün əlverişli olsun. Deməli, tələbələrin (şagirdlərin) fikri gərginliyi, onların təlim prosesində hər vasitə ilə oyadılmış əqli fəaliyyətləri daima fənnin öyrənilməsinə yönəldilməlidir. Belə olduqda müəllimin dərsdəki hər bir hərəkəti az və ya çox dərəcədə yaradıcılıq fəaliyyətinə yaxınlaşır.

Yaradıcılıq prosesi qeyri-adi, yeni, məlum olmayan, maraq və həyəcan doğuran hadisələrlə toqquşur. Müəllim tələbələrini (şagirdləri) onlara cavab axtarmağa sövq etdirir. Bu qabiliyyəti fizioloqlar "yeniliyə qarşı oyanan refleks", psixoloqlar "problemlə qarşılaşmaq","problem situasiyanın yaranması" adlandırırlar.Əksər hallarda yaradıcılıq prosesi bütünlüklə və ardıcıl şəkildə bilik və bacarıqların yeni situasiyalarda müstəqil tətbiqetməni nəzərdə tutur.Müşahidələr göstərir ki, tələbələrin (şagirdlərin) çoxu tədqiqatçıların yanında suallar verməyə can atmırlar. Bu şəraitdə yaradıcılıq fəaliyyətinin mühüm proses səciyyəsi olan problemi görmək bacarığı zəifləyir.

Hər bir tələbənin (şagirdin) idrak fəaliyyəti müx- təlif şəkildə (müstəqil, fəal, passiv) özünü göstərə bilir. Bəzi hallarda idrak fəaliyyəti təqlidçi, reproduktiv xarakter, digər hallarda isə axtarıcı, başqa bir halda isə yaradıcı xarakter daşıya bilər. Hər bir tələbədə (şagirddə) yaradıcı təfəkkürü inkişaf etdirmək, onları həyatda tez-tez qarşılanan müxtəlif nəzəri (elmi) və praktiki məsələləri müstəqil həll etməyə hazırlamaq mühüm vəzifələrdən biridir. Bunun üçün psixologiyanın tədrisi prosesində təlim metodlarının düzgün seçilməsi, yaradıcı təlim metodlarından səmərəli istifadə olunması lazımdır. Odur ki, hər bir təlim metodunu düzgün qiymətləndirmək, onun həqiqi rolunu aydın dərk etmək tələb olunur.

Bütün bunları nəzərə alaraq, *akad.B.N.Stoletov* yazırdı ki, təlim metodları şagirdin (tələbənin-kursiv bizimdir) nə qədər tez və düzgün dərk edilməsinə, onun ətrafında baş verən, yaxud artıq baş vermiş hadisəni nə qədər tam başa düşməsinə, səbəb və nəticənin necə qavramasına, baş verən hadisədə nəyin yaxşı, nəyin

isə pis, nəyin haqlı, nəyin isə haqsiz olduğunu necə müəyyən edilməsinə əsasən qiymətləndirilir.Zehnin bütün hərəkətlərində təfəkkür prosesi, düşünmə məşqi başlanır. Şagirdlərə (tələbələrə-kursiv bizimdir) elmin əsaslarını əqidələrə çevirməkdə kömək göstərmək-təlim metodlarının təyinedici vəzifəsidir.

Psixoloq S.L.Rubinşteyn göstərir ki,fikri prosesin başlanğıcı onun problemli vəziyyətindən ibarətdir. Adamda nəyi isə anlamaq tələbatı əmələ gəldikdə o düşünməyə başlayır.

Təfəkkür, adətən problemdən və ya sualdan, təəccübdən, heyrətlənməkdən və təzaddan başlayır. Problemli vəziyyət vasitəsilə şəxsiyyət təfəkkür prosesinə cəlb edilir: o, həmişə hər hansı bir məsələnin həllinə istiqamətləndirilir.

Göründüyü kimi, *problemli vəziyyət,* əsasən sualdan başlayır. Lakin bütün suallar problemli vəziyyət yarada bilmir. Problemli vəziyyət o zaman yaranır ki, tələbələr həmin suala mövcud biliklər əsasında cavab verə biməsinlər. ***Problemli situasiyanın*** mühüm bir əhəmiyyəti də ondan ibarətdir ki, tələbələr təlim materialı üzərində həvəslə çalışırlar. Təcrübə göstərir ki, tələbələrin təlim materialı üzərində həvəslə işləməsi zamanı əmək məhsuldarlığı onun həmin işi həvəssiz və təhriketmə nəticəsində işləməsindən çox yüksək olur.

Problemli şərh metodu zamanı yaradılan problemli situasiyada tələbələr onlara məlum olmayan yeniliyi müstəqil "kəşf" etmək imkanına malik olmadıqları halda, evristik müsahibə metodu zamanı yeni biliyi qismən, müəllimin köməyi ilə "kəşf" edir, həmçinin tədqiqat metodu zamanı isə onlar yeni məsələni müstəqil şəkildə "kəşf" edirlər.

Problemli təlim metodlarının bu sistemində (ardı- cıllığında) tələbələrin (şagirdlərin) müstəqilliyi dinamik şəkildə inkişaf edir. Problemli şərh metodunda müəllimdən "asılı" vəziyyətdə olan tələbələr (şagirdlər) evristik metodda yarım müstəqillik, tədqiqat metodunda isə tam müstəqillik əldə edirlər. İstər tədqiqatçılıq, istərsə də evristik müsahibə metodu tələbələrin (şagirdlərin) müstəqil işlərinə əsaslanır. Ona görə də həmin psixoloji metodlar tələbələrin (şagirdlərin) zehni fəallığının inkişafını təmin etmək, habelə onları düşünmək, axtarışlar aparmaq, müəyyən problemin həllinə yaradıcılıqla yanaşmağa sövq etmək baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Evristik metod idrak qabiliyyətini mərhələlərlə inkişaf etdirir. Həmin mərhələlər, adətən, müəllimlə tələbələr (şagirdlər) arasında gedən silsiləli sual-cavabdan ibarət olur. Məhz buna görə də, evristik metodu bəzən *müsahibə, sual-cavab metodu* da adlandırırlar. Evristik metodda suallar tələbələrin keçmiş biliklərə istinadən yeni biliklərə yiyələnməsi prosesini təşkil edir. Lakin evristik metodla /suallar vasitəsilə/ bilikləri dəqiqləşdirmək, ümumiləşdirmək və tətbiqi yollarını müəy- yənləşdirmək mümkündür ki, müəllimlər evristik metodun bu xüsusiyyətlərindən təlim prosesində tez-tez istifadə edə bilsinlər.

Psixoloq İ.Y.Lerner təlim prosesində evristik müsahibə metodunun, əsasən, üç variantından istifadə edildiyini göstə- rir:

1. Müəllim fakt və hadisə haqqında məlumat verir, tələbələrin (şagirdlərin) fikrini müəyyən istiqamətə yönəldir və onlar özləri nəticə çıxarırlar. Əvvəlcə müəllim problemi müəyyənləşdirir, tələbələr fərziyyəni irəli sürürlər. Müəllim sübutetmənin məntiqini açır və izah edir. Tələbələrdən isə mühakimə yürütməyin növbəti mərhələsini göstərməyi tələb edir. Müəllim tapşırıq verir, tələblərin çətinlik çəkdiklərini görüb əlavə /köməkçi/ məlumat verməklə onların axtarıcılıq sahəsini konkretləşdirir.

2. Müəllim bütün tələbələrə (şagirdlərə) məsələnin həllində, yaxud da tələbələr verilmiş suallara cavab tapmaqda çətinlik çəkdikdə müəllim onlara həmin məsələ və ya suala oxşar daha asanlarını onlara təqdim edir. Tələbələr (şagirdlər) onları həll etdikdən sonra əvvəlki tapşırığı və ya məsələni həll etməyə başlayırlar.

3. Müəllim çətin tapşırığı iki-üç hissəyə bölür, tapşırıq hissə-hissə həll edilir, sonra isə ümumiləşdirilir, ümumi nəticə, başlıca məqsəd həyata keçirilir.

Təlim prosesində ***evristik müsahibə metodu***, əsasən, iki yolla (induktiv-deduktiv və deduktiv-induktiv) həyata keçirilir. Müəllimin həmin yollardan birini seçməsi təlim prosesinin qarşısında duran didaktik məqsəddən, tələbələrin (şagirdlərin) vəzifələrindən asılıdır. Tələbələr qazandıqları bilikləri praktikaya tətbiq edə bilər, yaxud da fakt və hadisələrdən ümumi nəticələr çıxara bilər, fakt və hadisələri müqayisə etməklə oxşar və fərqli cəhətləri müəyyənləşdirə bilərlər.

Əgər fakt və hadisələr tələbələr (şagirdlər) tərəfindən öyrənilmişdirsə, öyrənilmiş biliklər əsasında ümumiləşdirmə, nəticə çıxarmaq tələb olunursa, adətən, müəllim induktiv-deduktiv yoldan istifadə edir. Əgər didaktik vəzifə biliklərin tətbiqilə əlaqədardırsa, o zaman evristik müsahibə deduktiv-induktiv yolla aparılır.

Hər iki halda evristik müsahibə metodu tələbələrin (şagirdlərin) idraki fəallığını gücləndirir, onları düşünməyə, fikir yürütməyə təhrik edir. Çünki ***müsahibə*** prosesində tələbələr (şagirdlər) qarşıya qoyulmuş təlim vəzifəsini yerinə yetirmək üçün ümumiləşdirmələr apar- malı, təhlil etməli, qarşılaşdırmalı və tutuşdurmalı, bir sözlə, cavabın düzgün tapılması üçün əsaslandırılmış elmi nəticəyə gəlməlidirlər.

Təlim prosesində müəllimin əsas vəzifəsi tələbələrə (şagirdlərə) həmin problemləri tapmaqda, təhlil etməkdə və düşüncələrini formalaşdırmaqda tələbəyə (şagirdə) kömək etməkdən ibarətdir ki, evristik metod həmin məsələlərin həllinə şərait yaradır.

Tədqiqatçılıq metodu ilə tələbələr yaradıcılıq psixologiyasının tədrisində onlara məlum olmayan fakt və hadisələri "kəşf" etməklə yanaşı, həm də onların biliklər sistemində irəliləyiş əmələ gəlir. Tələbələr idrak prosesinin-fikri əməliyyatın əsas növlərinə /təhlil, tərkib, müqayisə, konkret-ləşdirmə, ümumiləşdirmə/ tədricən yiyələnirlər. *Tədqiqatşılıq üsulunun* əsas mahiyyəti ondan ibarətdir ki, müəllim tələbələrin (şagirdlərin) qarşısında müəyyən problem qoyur, yaxud müəyyən tapşırığın öyrənilməsi, icrası üçün problemli şərait yaradır, sonra isə tələbələr (şagirdlər) müstəqil şəkildə, yaradıcılıqla qarşıdakı problemi həll edirlər.

Müstəqil düşünməyə əsaslanan tədqiqatçılıq metodu vasitəsi ilə tələbələr (şagirdlər) müxtəlif təlim problemlərini həll edir, nəticədə biliklər tələbələr (şagirdlər) tərəfindən daha dərindən, əsaslı və şüurlu surətdə mənimsənilir. Digər tərəfdən, tədqiqatçılıq metodu bilik və bacarıqların formalaş- masında və qazanılmış nəzəri biliklərin yaradıcı şəkildə müxtəlif şəraitdə tətbiq edilməsində böyük və mühüm üstünlüyə malikdir. Bu metod hər bir tələbənin ayrılıqda idrak fəaliyyətinin inkişaf tempinin düzgün müəyyənləşdirilməsinə imkan verir.

Tədqiqatçılıq metodu tələbələri elmin metodlarına bələd edir. Belə ki, onlar da alimlər kimi müəyyən bir problem haqqında fərziyyə irəli sürür, həmin fəaliyyəti sübuta yetirmək üçün mühüm eksperimentlər qoyurlar.*Tədqiqatçılıq metodu* tələbələrin müşahidə, müqayisə və ümumiləşdirmələr aparması üçün əlverişli şərait yaradır. Onlar aldıqları ilkin nəticələri təhlil-tərkib edir və ümumi nəticələr çıxarır, yaxud da əsas ideyanı müəyyənləşdirə bilirlər. Bu prosesdə bütün tələbələrin (şagirdlərin) idrak fəallığı yüksəlir, yeni biliyə yiyələnmək üçün onlar müstəqil şəkildə düşünür, fikir yürüdür, həmçinin tələbələrin axtarıcılıq, tədqiq etmək qabiliyyətinin inkişafı üçün obyektiv imkan yaranır və onlar tədqiqatçı vəziyyətinə düşürlər.

Tədqiqatçılıq üsulunda tələbələr bu cəhətdən müstəqildirlər. Tələbələrin idrak fəaliyyəti quruluşuna görə alimin tədqiqatçılıq fəaliyyətinə oxşardır. Bu üsul tələbələrdə (şagirdlərdə) bilik qazanmağa dərin maraq əmələ gətirir, onlarda dərk etməyə ehtiyac yaradır, təlim prosesinin effektivliyini yüksəldir və tələbələrin təfəkkür prosesini fəallaşdırır.

Beləliklə, təlim prosesində tələbələrin hər birinin gərgin işləməsini təmin etmək, onların idrak fəaliyyətini daha da fəallaşdırmaq dərsin əsas tələblərindən biridir. Çünki dərs təlim prosesinin elə təzahür formasıdır ki, tələbələrin bu prosesdə hazırlıq səviyyəsini əsaslı surətdə yüksəltmək mümkündür. Bu fəallıq kortəbii surətdə formalaşmır. Dərsdə fəallıq mövqeyi tələbənin təlimə olan münasibətinin elə inkişafetdirici formasıdır ki, orada tələbə könüllü olaraq bütün qüvvə və qabiliyyətlərini səfərbər edir, böyük məsuliyyət hissi ilə verilən təlim tapşırıqlarını müəyyən vaxt çərçivəsində yerinə yetirir. Müəllim yeni dərsi izah etməsi ilə yanaşı, sinfi elə fəallaşdırmalıdır ki, keçilən dərs tələbələr tərəfindən asanlıqla dərk edilsin.

Yaradıcı situasiyalar mühüm cəhətlərinə görə seçilir. Onlardan müvəffəqiyyətlə istifadə etmək üçün ziddiyyət, paradoks və yeniliklərə diqqətlə, həssaslıqla yanaşmağa xüsusi maraq tələb olunur. Varlığın özünəməxsus sirləri vardır. Bu sirləri tapma prosesində insanın təəccüblənməsi, həyəcanlanması və heyrətlənməsi təbiidir. Yaradıcılıq təlim metodlarının əsasını təşkil etməlidir. O, hər bir fərddən yüksək hazırlıq, intellektual zənginlik, coşğunluq, emosional- lıq və dərin həssaslıq tələb edir. Müəllim o zaman tədris etdiyi fənnin təlimində yüksək müvəffəqiyyət əldə edə bilər ki, o, həmişə elmi axtarışlarda olsun, fəaliyyətində yaradıcılıq həmişə diqqət mərkəzində dayansın, dərin elmi-nəzəri, psixoloji-pedaqoji və ixtisas hazırlığına, geniş diapozona malik olsun, yaş və pedaqoji psixologiyanı dərindən bilsin. Odur ki, təlim metodları bir-birilə əlaqələndirilməlidir. Təlim metodları praktik istiqamətin təmin olunmasına kömək etməlidir. Praktik metod təlimin məqsədinin həllinə kömək etdiyindən onu reproduktiv metodlarsız təsəvvür etmək qeyri-mümkündür. Deməli, metodlar tədris prosesində bir-biri ilə sıx əlaqə şəraitində istifadə olunma prosesindən keçir, onlar bir-birini tamamlayır. Tələbələr bilik, vərdiş və bacarıqlara yiyələnməyə ona görə səy göstərirlər ki, yaradıcılıq prosesində onlardan səmərəli şəkildə istifadə edə bilsinlər.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-poliqraf, 2003, -345 s.
2. Bəylərov E.B. İstedadlı uşaqların psixoloji təminatı. Bakı: Aspoliqraf, 2008, -300 s.
3. Bəylərov E.B. İstedadın psixoloji diaqnostikası. Bakı, Aspoliqraf, 2008.
4. Bəylərov E.B. Uşaqlarda istedadın müəyyənləşdirilməsi və inkişaf etdirilməsi. İstedadın işçi konsepsiyası. Bakı: Təhsil, 2008, -224s.
5. Əliyeva K.R. Şəxsiyyətin yaradıcılıq fenomenologiyası. Bakı, 2005.
6. Əliyeva K.R.Şəxsiyyətin yaradıcılıq potensialının psixoloji problemləri. Doktorluq dissertasiyası, Bakı, 2009.

7. Богоявленская Д.Б.Психология творческих способностей. М., 2002.
8.Сеидов С.И. Феноменология творчества /История. Парадоксы.Личность/. Б., 2009, -304с.
9. Холодная М.А. Психология интеллекта. СПб., Питер, 2002.

РЕЗЮМЕ
ТВОРЧЕСТВО КАК ОСНОВА МЕТОДОВ ОБУЧЕНИЯ
Исаева З.М.

Ключевые слова: *творчество, методы обучения, познавательная деятельность, интерес, исследовательский метод*

В тезисах утверждается, что творчество представляет собой широкий и многогранный процесс сам по себе, требует от человека высокой эмоциональности и чуткости. Методы обучения являются одной из важных составляющих процесса обучения. В процессе обучения творческие способности учащихся (воспитанников) должны правильно развиваться педагогом. Методы обучения были интерпретированы автором последовательно. По мнению автора, методы обучения – это общение учителя и учащихся в процессе обучения. Итак, любое общение тесно связано с творчеством. Поэтому обучение само по себе является творческим процессом. Весь образовательный процесс и методы обучения должны быть в духе творчества.

SUMMARY
CREATIVITY AS THE BASIS OF TEACHING METHODS
Isayeva Z.M.

Keywords: *creativity, teaching methods, cognitive activity, interest, research method*

The thesis states that creativity is a broad and multifaceted process in itself, requiring high emotionality and deep sensitivity from a person. Teaching methods are one of the important components of the learning process. In the learning process, the creative abilities of students (pupils) must be properly developed by the teacher. In the thesis, the teaching methods were interpreted by the author consistently. According to the author, teaching methods are communication between the teacher and students in the learning process. So, any communication is closely connected with creativity. Therefore, learning in itself is a creative process. The entire educational process and teaching methods must be in the spirit of creativity.

TƏDQİQAT ÜSULLARI - MÖVZUNUN SEÇİLMƏSİ VƏ ELMİ TƏDQİQAT İŞLƏRİNİN PLANLANMASI

Əhmədov R.V.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
adigozelli.87@mail.ru

Açar sözlər*: *elm, problem, tədqiqat, planlama, obyekt, predmet, elmi hipotez, elmi metod, empirik interpretasiya

Elmi tədqiqat işlərinə başlanması mərhələsində ilk növbədə mövzunun seçilməsinə diqqət etmək lazımdır.Seçilən elmi mövzu ya elmi istiqamətə, ya da elmi problemə istiqamətlənə bilər. Qeyd olunan elmi istiqamət və elmi problem özündə hansı mənaları ifadə edir.Elmi istiqamətdə elmin müəyyən hissələrində fundamental,nəzəri və ya eksperimental problemlərinin həlli ilə məşğul olan elmi-yaradıcı kollektivin fəaliyyət dairəsi diqqətdə saxlanılır.Nümunə olaraq iqtisadçıların elmi tədqiqatları "iqtisadiyyat"adı altında ümumi istiqaməti özündə birləşdirir.Onun tərkibində müxtəlif istiqamətlərə uyğun iqtisadiyyat nəzəriyyəsi, iqtisadi analiz, vergilərin müəyyənləşdirilməsi dünya iqtisadiyyatı,təşkiletmənin iqtisadiyyatı sahələri seçilir.Buna əlavə olaraq tarix elminin -Qədim dünya,Orta əsrlər,Yeni və ən Yeni,Müasir tarix mərhələlərini göstərə bilərik ki, bunlar da "tarix" adı altında birləşərək, istiqamətləri aydınlaşdırır və müəyyənləşdirir.Elmi istiqamətin struktur hissələri kompleks problem, mövzu və suallardan yaranaraq formalaşır.

Elmi problem – mürəkkəb nəzəri və təcrübi məsələlərin elmi -tədqiqat işlərinin cəmidir.Problem perspektiv dəyərə malik olmaqla yanaşı işlənəcək tədqiqatın əsas sahəsini əhatə edir. [1-s.32]

Mövzu tarixin hələ tam tədqiq olunmamış sahəsinə aid edilərək bir problem kimi həll olunması istiqamətində araşdırmalar aparılır. Mövzu elmi suallara əsaslanır.Elmi sual əslində kiçik konkret elmi məsələ kimi nəzərdə tutulur.

Qəbul edilən mövzular nəzəri,praktiki və ya qarışıq formada olur.Elmi ədəbiyyatlardan istifadə edilməklə işlənən mövzular əsasən nəzəri mövzular adlanır.

Praktiki mövzular faktların toplanıb araşdırılması, ümumiləşdirilməsi və təhlili əsasında icra olunaraq sona çatdırılır.

Qarışıq mövzular da bizə məlum olan hər iki metoddan istifadə olunaraq yararlanılır.

Mövzunun işlənməsi prosesində yeni konstruksiyanınmodern texnologiyanın,yeni metodikanın yaradılması kimi konkret tapşırıqlar qoyulur.Mövzu seçimi ərəfəsində milli və beynəlxalq elmi ədəbiyyatlar araşdırılır və ancaq bu prosesdən sonra tədqiqatçının mövzunu dəqiqləşdirilməsində əminlik yaranır.Problemin qoyuluşu mürəkkəb proses olub, bir neçə mərhələdən ibarətdir.

Birinci mərhələyə - problemin ortaya gətirilməsi aiddir.

Araşdırılan elmi istiqamətdəki konfliktləri təhlil edərək əsas sual -problem formulə edilir və alınan nəticə ümumi qaydada şərh edilir.

İkinci mərhələyə-quruluş problemlərinin işlənməsi aiddir. Belə halda mövzu,alt mövzular və suallar seçilib yazılır və bunlar birlikdə problem ağacını yaradırlar.

Üçüncü mərhələdə -problemin aktuallığını göstərmək üçün bir neçə qaydalar tətbiq olunur.Bundan ötrü mövzuya aid bir neçə ziddiyyət qoyulur, sonra təhlil və elmi yaxınlaşma metodunu tətbiq etməklə ziddiyyətlər birdəfəlik ortadan götürülür və təsdiqlənən mövzunun aktuallığı göstərilir.[2-s.56]

Problemi əsaslandırdıqdan və onun quruluşunu göstərdikdən sonra tədqiqatçı mövzunun seçilməsini mütləq surətdə həyata keçirir.

Seçilən mövzu həyatın həll olunmasına ehtiyacı olanı müəyyən sahəsinə yönləndirilərək aktuallıq kəsb etməlidir.Aktuallığın qiymətləndirilməsi üçün hər hansı bir meyar göstərilmir və yoxdur.Nəzəri elm sahələrində seçilən mövzunun aktuallığını elmi arenada sözünü demiş alimlər təyin edirlər.

Texniki elmlərdə isə bu gələcəkdə əldə olunacaq iqtisadi effektlə ölçûlür.

Mövzu seçilərkən diqqətli olunmalıdır ki,təkrarlanmaya yol verilməsin.Daha doğruhal odur ki, mövzu koordinasiyadan keçib,təsdiqlənməlidir.

Elmi – tədqiqat işlərinin planlanması elmi-tədqiqat institutları tərəfindən aparılır və əsasən də kompleks problemlərin həlli məsələsi önə çəkilir.

Planlama strukturu aşağıdakı kimi verilir :

İşci proqram – tədqiqatda qarşıya qoyulan məqsəd və hipotezlər nəzərə alınmaqla görülmüş ümumi konsepsiyadır , və iki hissəyə bölünür – metodoloji və prosedur.

Metodoloji hissə aşağıdakı quruluşdan ibarətdir:

-Problemin və ya mövzunun təşkil olunması ;

-Tədqiqatın əsas hədəfinin və predmetinin göstərilməsi ;

-Tədqiqatın məqsədi və problemin ortaya gətirilməsi ;

-Əsas anlayışların qeyd olunması və interpretasiyası;

-İşçi hipotezlərin formulə edilməsi [3-s.94]

Problemin qoyulması – burada qarşıda tədqiq olunacaq məslələrin həll olunması və ya tədqiqata elmi praktik işlərə istiqamətləndirilir.Sosial problem cəmiyyətin sistemləri və onun ayrı- ayrı elementlərinin inkişafındakı ziddiyyətləri nəzərdə tutur.

Elmi problem – cəmiyyətin ehtiyacları barədə biliklər və onların həll olunması yolları və vasitələri haqqındakı biliklər arasındakı konfliktlərdir.

Tədqiqatın obyekti və predmetin təyini tədqiqat prosesində əsas metodoloji etap sayılır.

Tədqiqat obyekti – ziddiyyətləri olan bir proses olmaqla problemli şərait yaradır.

Tədqiqat predmeti – tədqiq olunan mövzunun təcrübi və nəzəri əhəmiyyətli olan xüsusiyyətidir.[4-s.74]

Məsələn, əgər tədqiqatın mövzusu kredit -pul tənzimlənməsinin mexanizminin təşkil olunmasına aid edilərsə, onda tədqiqat obyekti kimi kredit -pul tənzimləmə sistemi, predmeti isə iqtisadiyyatın kredit -pul tənzimlənməsi mexanizmidir.

Tədqiqatın məqsədi – elmi ümumi formada gözlənilən nəticələrinin əldə olunmasına tərəf istiqamətləndirilməsidir.

Tədqiqatın obyekti və predmeti müəyyən olunduqdan sonra onun məqsədi aydınlaşdırılır. [5-s.150]

Nəzəri olaraq fikir söylənilir ki, gözlənilən məqsədə yetdikdən sonra qoyulmuş problem tam həll olunmuş hesab olunur.Onu da qeyd etmək lazımdır ki, humanitar və təbiət elmlərində işləyən dissertant və doktorantlar dissertasiyanın işlənməsi gedişində bəzən qeyri-dəqiqliyə yol verirlər.Burada hər bir tədqiqatın əsas hissəsi sayılan gözlənilən elmi biliyin əldə olunması əvəzinə praktiki məqsədlər qabardılır.Məsələn : “prosesin təkmilləşdirilməsi” , “effektivliyinartırılması” və s. buna aiddir.Əslində isə bu halda effektivliyin artırılmasına münbit şərait yaradan elmi biliyi irəli çəkmək daha uyğun variant ola bilər.

Tədqiqat məsələsi – araşdırmanın əvvəlində yerinə yetirilməsi tələb olunan məsələlərdəndir.

Əsas anlayışların interpretasiyası - əsas anlayışların mahiyyətinin açılmasıdır.Nəzəri interpretasiya tədqiq olunan anlayışların xüsusiyyətlərini və onların başqaları ilə qarşılıqlı münasibətlərinin məntiqi təhlilindən ibarətdir.

Empirik interpretasiya - əsas nəzəri anlayışların empirik göstəricilərinin təyini olaraq, onları müşahidə olunan faktların dilinə çevirməkdir.[6-s.205]

Hipotezlərin formulə olunması tədqiqat işlərinin həll olunması prosesində əsas vasitə hesab edilir.

Təşkil olunan tədqiqat planında bir və ya bir neçə hipotez qoyulması əsas şərtlərdən sayılır.Əsaslandırılmış elmi- tədqiqat işi tədqiq olunan məsələ barədə şərhlərdən asılı olaraq yaradılan prinsipial əsasən həyata keçirilir.

Tədqiqatçının qurduğu planlar kəşfiyyat,analitik və eksperimental metodlara əsasən aparılır.

Kəşfiyyat səciyyəli planlardan xassələri, mahiyyəti və istiqaməti bizə məlum olmayan obyektlərin tədqiq olunmasında istifadə olunur.Kəşfiyyat obyektin bizim tədqiqata uyğun olub olmamasını müəyyən edir.Daha konkret olaraq belə planın işlənməsinin məqsədi qarşıya qoyulan problemin dəqiqləşdirilməsi və ya hipotezin formulə edilməsidir.Problemin həll olunmasında əsas vasitə olan tədqiqat xarakterli ədəbiyyatların çoxluğu, azlığı və yoxluğu üzə çıxarılır.

Göstərilən obyekt və ya tədqiqat predmeti razılaşdırıldıqdan sonra hipotez qoyula bildikdə analitik planlar tətbiq olunur.Planın məqsədi bu hipotezin yoxlanmasından tədqiqat mövzusunun səciyyələndirən faktların təsvirindən ibarətdir.Eksperimental plan elmi əhəmiyyətli problem və nəzəri ideya formalaşdırıldıqdan sonra həyata keçirilməsinə başlanılır.Bu prosesdə müəyyənləşdirilmiş obyektlə ona təsir edən amil və vasitələr arasında qarşılıqlı əlaqə müəyyənləşdirilir.Proqramın giriş hissəsində tədqiqat metodunun seçilməsi əsaslandırılır : metodlarla məqsədlər, tapşırıqlar və hipotezlər arasındakı əlaqələr göstərilir.

Ədəbiyyat

1. Əliyev R. Elmi işlərin yerinə yetirilməsi metodikası. Elmi layihələrin diplom və dissertasiya işlərinin uğurlu hazırlanmasına dair vəsait. Bakı: Alatoran yayınları, 2016, 245 s.
2. Hüseynzadə R. Magistr dissertasiyası -Yazılış qaydası metodikası, tərkibi, müdafiəsi (Metodiki vəsait) Azərbaycan Müəllimlər İnstitutu, Bakı 2009 102 s..
3. Quliyeva Ş. Monoqrafiyalar elmi ədəbiyyatın növü kimi //Kitabşünaslıq və biblioqrafiya. №1. Bakı: BUN, 2009, 193 ы.
4. Васильева Е. Н. Методология научного исследования: Учебное пособие. Каран: Институт истории им. Марджани АХПТ; изд-во “ЯЗ”, 2015, 155 с.
5. Камаров М.С. Основы научных исследований. Львов: ВШ, 1982, 128 с.
6. Новиков А.М., Новиков Д.А. Методические научные исследования, М.: Гибридом, 280 с.
7. İsrafilov M. “Məntiqi” , Bakı, 2005, 335 s.

РЕЗЮМЕ
МЕТОДЫ ИССЛЕДОВАНИЯ: ВЫБОР ТЕМЫ И ПЛАНИРОВАНИЕ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИХ РАБОТ
Ахмедов Р.В.

Ключевые слова: *наука, проблема, исследование, планирование, объект, предмет, научная гипотеза, научный метод, эмпирическая интерпретация.*

Темой научного исследования направляется та область общества, которая важна для решения проблемы и становится актуальной.В процессе исследования проблемы показывается научная направленность, выбираются темы и вопросы, подходящие для структурных проблем.Методическая литература, связанная с решением проблемы, рассматривается и привлекается к исследованию. По идее говорят, что задача решена по плану, и тогда работа объявляется полностью завершенной.

SUMMARY
RESEARCH METHODS - SELECTION OF THE SUBJECT AND SCIENTIFIC RESEARCH WORKS PLANNING
Ahmadov R.V.

Keywords*: science, problem, research, planning, object, subject, scientific hypothesis, scientific method, empirical interpretation*

The topic of scientific research is directed to the area of society that is important to be solved and becomes relevant. In the process of investigating the problem, the scientific direction is shown, topics and questions suitable for structural problems are selected. Methodical literatures related to the solution of the problem are examined and involved in the research. In theory, it is said that the problem has been solved according to the plan, and then the work is declared to be fully completed.

ALİ MƏKTƏBDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ VƏTƏNDAŞLIQ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI PROBLEMİNİN İŞLƏNMƏ SƏVİYYƏSİ

Kərimli S.S.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dosent
samir-karimli@mail.ru

Açar sözlər*: Azərbaycan tarixi, vətəndaş, tərbiyə, ali məktəb, cəmiyyət*

Vətəndaş tərbiyəsinin nəzəri əsaslarının işlənməsinə nəzər yetirək. İlk növbədə deməliyik ki, Azərbaycan Respublikası XX əsrin 70 ilini keçmiş SSRİ-nin tərkibində olduğu üçün hər hansı bir pedaqoji problemin nəzəri cəhətdən işlənmə səviyyəsini araşdırmaqdan ötrü onu keçmiş SSRİ-nin mövcud olduğu dövrdən başlamaq lazımdır. Azərbaycan da bu dövlətin tərkibində idi. Odur ki, problemin nəzəri cəhətdən işlənmə səviyyəsini nəzərdən keçirməkdən ötrü biz məhz Sovet dövründən başlamalıyıq.

Vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasında müvəffəqiyyət əldə etmək üçün onu təkcə ali məktəb tələbələrində yox, hətta məktəbəqədər, tam orta təhsil və ali təhsil pillələrində həyata keçirmək lazımdır. Ali məktəblərdə vətəndaşlıq tərbiyəsini formalaşdırmaq; demokratiya ideallarına sadiq olan, öz hüquq və vəzifələrini dərk edən, milli və şəxsi azadlıqlara hörmətlə yanaşan, dövlətin qanunlarına riayət edən bir vətəndaşın formalaşdırılması deməkdir.

İnsan psixikasının inkişafı xüsusiyyətlərinin tədqiqi ilə L.S.Vıqotski məşğul olmuşdur. O, insan davranışı və psixikası ilə bağlı olaraq mədəni-tarixi nəzəriyyə yaratmışdır. L.S.Vıqotskinin nəzəriyyəsininin əsasında dayanır: "1) İnsanın psixi inkişafının əsasları; 2) İnsanın ümumi psixi inkişafının əsasında onun təhsil və tərbiyəsi durur; 3) Sosial baxımdan insanın həyat fəaliyyətinin yerinə yetirilməsi; 4) İnsanda təzahür edən psixi cəhətdən yenidən formalaşma; 5) İnsanın həyat fəaliyyətində onun intellektinin və emosiyalarının yeri" [4, s.29].

Vətəndaşlıq tərbiyəsinin pedaqoji baxımdan işlənilməsi araşdırılırkən V.A.Suxomlinskidən danışmamaq olmaz. V.A.Suxomlinskinin humanizmlə dolu olan pedaqoji irsi çoxşaxəlidir. XX əsrin 60-cı illərinin sonunda, V.A.Suxomlinskinin "Vətəndaşın tərbiyəsi" kitabı işıq üzü gördü [6]. Bu kitab çapdan çıxdıqdan sonra sovet cəmiyyətində "vətəndaşlıq tərbiyəsinin zəruriliyi" barədə danışmağa başladılar. Beləliklə, ilk dəfə bu məsələ dövlət və elmi səviyyədə qəbul edildi. Bu gün biz belə hesab edirik ki, vətənpərvər o adamdır ki, siyasi cəhətdən savadlı adam olsun, demokratiyanın nə olduğunu bilsin, öz hüquqlarını qoruya bilsin. Iqtisadi problemlərdən baş çıxartsın. V.A.Suxomlinski öz zəmanəsinin adamı kimi ilk növbədə xalqın adət ənənələrinə müraciət etmişdir. O, hesab edirdi ki, vətəndaşlıq vətənə məhəbbət, onun xeyrinə əmək sərf etmək deməkdir. Vətəndaşlıq tərbiyəsinin pedaqoji xüsusiyyətləri bu gün bir çox cəhətdən V.A.Suxomlinskinin fikirləri ilə üst-üstə düşür. Sovet dövlətində kollektivin tərbiyəedici rolu həmişə ön plana çəkilirdi. Bu baxımdan sovet pedaqogikasında V.A.Suxomlinskini hər bir şəxsin tərbiyəsinə fərdi yanaşmaq lazım olması fikrinə görə tənqid edirdilər. Bu gün V.A.Suxomlinskini pedaqoji ideyalar baxımından A.S.Makarenkonun ardıcılı hesab etmək olar.

Vətəndaşlıq tərbiyəsi hər bir cəmiyyətin qarşısında duran vacib məsələlərdəndir. Bu vəzifənin yerinə yetirilməsi üçün pedaqoji resurslara malik olmaq lazımdır. Belə resurslardan biri də sovet pedaqoqu A.S.Makarenkonun irsidir. Demək olar ki, A.S.Makarenkonun bütün pedaqoji irsi bu və ya digər dərəcədə vətəndaşın tərbiyəsi mövzusu ilə bağlıdır [5, s.6-8].

Vətəndaş bir fərd kimi yaradıcı olmalıdır ki, özünün bütün bacarıq və qabiliyyətindən istifadə edərək cəmiyyətin xeyrinə çalışa bilsin. A.S.Makarenko vətəndaş tərbiyəsinin əsas cəhətlərini belə göstərmişdir: "Vətəndaş ilk növbədə ixtisaslı işçi, siyasi və iqtisadi cəhətdən savadlı, yüksək mədəniyyətli və tam orta təhsilli, öz hərəkətlərinə görə kollektiv və cəmiyyət qarşısında cavabdeh, gələcəyə nikbin nəzərlərlə baxan şəxsdir" [5, s.9].

A.S.Makarenko mədəniyyətin müəyyən dərəcəsinə nail olmağı vacib hesab edirdi. Bunun üçün kitab oxumaq, kinofilmlərə baxmaq, bədii gecələr təşkil etmək, konfranslar, yürüşlər, teatr tamaşalarına baxış, maraqlı adamlarla görüşlər təşkil etməyi zəruri hesab edirdi. O yazırdı: "Tərbiyə? Nə üçün? Axı müəllim hər hansı fənni tədris edir, məhz elə bu zaman da tərbiyə edir. Tarix! Bilirsinizmi, təkcə tarix nə qədər tərbiyə edə bilər, siz təsəvvür edə bilməzsiniz!" [5, s.37].

A.S.Makarenko tarix fənninin vətəndaşlıq tərbiyəsində rolunu yüksək qiymətləndirirdi. O yazırdı: "hər bir tərbiyə olunacaq şəxs müxtəlifdir, ona görə də bizim tərbiyəmizin nəticəsi də hər bir fərddə başqa nəticələrə səbəb olacaqdır" [5, s.37]. Amma tərbiyənin xüsusən də vətəndaşlıq tərbiyəsinin məqsədi kimi Makarenko cəmiyyət üçün lazımlı, cəmiyyətə fayda verə bilən şəxslər yetişdirməyi görürdü. Bu barədə A.S.Makarenko yazırdı: "Tərbiyənin məqsədi kimi mən insan şəxsiyyəti, insan xarakteri; yeri gəlmişkən xarakter anlayışı dedikdə şəxsiyyətin mahiyyətini başa düşürəm" [5, s.46].

Azərbaycan metodiki ədəbiyyatında vətəndaş və vətəndaşlıq anlayışları, onların formalaşdırılması yolları və mahiyyəti, Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu və s. məsələlər barədə ətraflı şəkildə Mübariz Əmirov tədqiqatları aparmışdır. M. M.Əmirov "İnsan və cəmiyyət" dərsliyində insan və vətəndaş hüquqları anlayışlarına aydınlıq gətirir [2]. İnsan tələbatları yalnız yaşamaq və sağ qalmaq üçün ehtiyaclar deyildir. İnsan ləyaqətinin müdafiəsini təmin edən, habelə insanın ləyaqətlə yaşaması üçün zəruri tələbatların həyata keçirilməsinə kömək edən əsas norma və prinsipləri elə insan hüquqlarıdır. "İnsanlar təbii və qanunla müəyyən olunmuş hüquqlara malikdirlər. Təbii hüquqlara insanların doğulduqları gündən

malik olduqları hüquqlar daxildir: yaşamaq hüququ, bərabərlik hüququ, azadlıq hüququ, mülkiyyət hüququ və s. Azərbaycan Respublikasının Konstitusiyasında əsas insan və vətəndaş hüquqlarının toxunulmaz, pozulmaz və ayrılmaz olduğu qeyd edilməklə yanaşı, təbii hüquqların əsas xüsusiyyətləri də ilk dəfə öz əksini tapmışdır" [2, s.274].

İnsanın hər hansı hüququ dövlət tərəfindən müdafiə olunmalıdır. İnsanın hər hansı bir azadlığı isə dövlət tərəfindən məhdudlaşdırılmamalıdır. M.Əmirov vətəndaş hüquqlarının iki əsas qrupa maddi hüquqlar və prosessual hüquqlar olmaqla iki yerə bölündüyünü qeyd etməklə onların ətraflı surətdə təsnifatını da vermişdir. İnsanın hüquq və azadlıqları hər şeydən yüksəkdə durur və dövlətdən asılı olmayaraq mövcuddur. Hüquq və azadlıqların müdafiəsi isə dövlətin borcudur, çünki o, xalqa xidmət etməlidir. BMT-nin "İnsan Hüquqları haqqında Ümumi Bəyənnamə"sinin 15-ci maddəsi vətəndaşlıq məsələsinə həsr olunub. Orada qeyd olunur ki, hər bir şəxs vətəndaşlıq hüququna malikdir. Heç kim özbaşına olaraq vətəndaşlıqdan və vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz. Azərbaycan Respublikası Konstitusiyasının 52-53-cü maddələri də vətəndaşlıq hüquqlarını qanunvericilik yolu ilə təsbit edir. M.Əmirov öz tədqiqatlarında insan və vətəndaş hüquqlarının qanuni əsaslarını diqqətlə nəzərdən keçirməklə bərabər, vətəndaşlıq hüququnun əsaslarını da ətraflı araşdırmışdır. O, insan hüquqlarının əhatəli siyahısını vermişdir: "1.Şəxsiyyətin yaşamaq, azadlıq və təhlükəsizlik hüququ; 2.Köləliyə və asılı vəziyyətə məruz qalmamaq hüququ; 3.İşgəncələrə və qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalara məruz qalmamaq hüququ; 4.Hüquq subyektinin tanınması hüququ; 5.Qanun qarşısında bərabərlik hüququ; 6.Şəxsi həyata və ailə həyatına, mənzil toxunulmazlığına, yaxud yazışma sirrinə özbaşına müdaxilə edilməmə hüququ; 7.Nigah bağlamaq və ailə qurmaq hüququ; 8.Əmlaka sahib olma hüsququ". Və bütün burada sadalananlardan əlavə olaraq başqa hüquqları da göstərən M.Əmirov "Vətəndaşlıq hüququ"nu da onlara aid edir [2, s.277].

Azərbaycan vətəndaşlıq probleminin işlənmə səviyyəsindən danışarkən biz Aybəniz Əliyevanın da adını çəkməliyik. Beləki, Azərbaycan Neft akademiyasında tarix dərsi deyən A.Əliyeva həm də ABŞ-ın Montana ştatının qrantı əsasında yaradılmış Azərbaycanın orta məktəblərində vətəndaşlıq təlimi inkişafını öyrənən qrupun üzvüdür. Bu proyekt çərçivəsində ABŞ-ın Montana ştatının universitetində üç aylıq treninqlərdə göstərilən problemin öyrənilməsi ilə məşğul olmuşdur. A. Əliyeva, Z.Məmmədova və R.Məlikov ilə birlikdə "Orta məktəbdə ictimai elmlərin tədrisinin innovasiyalı təlimi" adlı əsərində verilmiş məruzələrdə vətəndaşlıq tərbiyəsi məsələsinə toxunmuşdur [1]. Onun mühazirələrindən biri "insan hüquqları (vətəndaşlıqşünaslıq) təlimində innovasiyalı təlimin tətbiqi" adlanır. A.Əliyeva mühaziräni interaktiv təlim metodları əsasında qurur. Qarşısına məqsəd kimi, tələbələri orta məktəbdə "İnsan hüquqları" təliminin müxtəlif interaktiv forma və metodları ilə tanış etmək məsələsini qoyur. Mühazirənin keçirilmə forması kimi interaktiv mühazirə götürülür. Bu mühazirədən gözlənilən nəticələr isə belədir: "1. Tələbələr "insan hüquqları" təliminin interaktiv forma və metodları barədə məlumat alacaqlar; 2. Tələbələr müxtəlif qruplarda işləmək bilik və bacarığına yiyələnmiş olacaqlar; 3. Tələbələr başa düşəcəklər ki, onlar şagirdləri hansı demokratik dəyərlərlə tanış edəcəklər" [1, s.68].

İnsan hüquqları birbaşa olaraq siyasətlə bağlıdır. Buna görə də müəllim həmişə beynəlxalq müqavilə və faktlardan misallar gətirməlidir. Bəs insan hüquqlarını başa düşmək və bu hüquq və azadlıqları dəstəkləmək üçün hansı bacarıqlar zəruridir. A. Əliyeva bunları aşağıdakı kimi təsnif edir:

"1) İntellektual bacarıqlar, əsasən: öz fikirlərini şifahi və ya yazılı surətdə çatdırmaq bacarığı, öz fikrini müdafiə etmək bacarığı; öz mülahizəsini irəli sürmək bacarığı əsasən müxtəlif mənbələrdən əldə edilmiş məlumatların, kütləvi informasiya vasitələri də daxil olmaqla, müzakirəsi zamanı üzə çıxır. Bu məlumatların müzakirəsinin nəticəsində obyektiv rəy formalaşmalıdır;

2) Sosial bacarıqlar: müxtəlifliklərə başa düşmək və olduğu kimi qəbul etmək; başqa insanlarla konstruktiv münasibətlər yaratmaq; konfliktləri sülh yolu ilə həll etmək; cavabdehliyi öz üzərinə götürmək; qərarların qəbulunda iştirak etmək; insan hüquqlarının müdafiəsi üçün mexanizmlərdən istifadə" [1, s.68].

Vətəndaşlıq tərbiyəsinin formalaşdırılmasının forma və metodlarından danışarkən A.Əliyeva əsasən qruplarla iş formasına; debatlar, modelləşdirilmiş və rollu oyunlara, diskussiyalara, fərdi və qrup layihələrinə üstünlük verdiyini qeyd edir. Vətəndaşlıq bacarıq və dəyərlərinin təlimində əməkdaşlığın böyük əhəmiyyəti vardır. A.Əliyeva qeyd edir ki; "hazırda Amerika məktəblərində təhsilalanlara işgüzar əməkdaşlığı aşılamaq təlim prosesinin ən geniş yayılmış metodlarından biridir" [1, s.73].

Son zamanlar ölkəmizin vətəndaşlarının hüquqları dəfələrlə bədnam qonşularımız tərəfindən pozulmuşdur. Beləki, onlar öz doğma yurd-yuvalarından didərgin düşmüş, bütün mülkiyyətlərindən məhrum edilmişlər. Onlar ermənilər tərəfindən fiziki terrora məruz qalmışlar. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bir milyondan çox qaçqın düşən vətəndaşımızın tapdanmış hüquqları barədə bütün məlumatları və beynəlxalq insan haqları ilə məşqul olan təşkilatların "Xocalı faciəsi" kimi qətliam qarşısında susqun vəziyyətləri haqda fikirlərini özünün üç cildlik "Xocalıya ədalət" adlı kitabında qeyd etmişdir [3, s.25].

Nəticə olaraq qeyd etməlyik ki, vətəndaşlıq həm psixoloqlar, həm pedaqoqlar həm də sosial fəlsəfə ilə məşğul olan alimlər tərəfindən araşdırılmışdır. Biz həm keçmiş SSRİ dövründə yaşamış alimlərin, həm də müasir dövr tədqiqatçılarının fəaliyyətini nəzərdən keçirdik. Sonda belə bir qənaətə gəldik ki, vətəndaşlıq probleminin həlli ilə məşğul olan tədqiqatçılarımızın və bu baxımdan yazılmış əsərlərin sayı məhduddur. Xüsusilə son dövrlərdə vətəndaşlıq tərbiyəsinin formalaşdırılmsının interaktiv təlim metodları əsasında işlənilməsinə böyük ehtiyac yaranmışdır.

Ədəbiyyat

1. Əliyeva L. Xocalıya ədalət! 3 cilddə. I cild. Bakı: CBS Poliqraphik production, 2014, 344 s.
2. Əmirov M. İnsan və cəmiyyət. Bakı: ADPU-nun nəşriyyatı, 2010, 581s.
3. Алиева А. и др. Инновационная методика преподавания общественных наук в школе (на примере истории, граждановедения и конфликтологии). Баку: Мутарджим, 2001, 128 с.
4. Выготский Л. С. Психология развития человека. Москва: Смысл, 2006. 136 стр.
5. Макаренко А.С. Воспитания гражданина. Москва: Просвещение, 1988, 301 с.
6. Сухомлинский В.А. Рождения гражданина М.: Изд-во Молодая гвардия, 1971, 336 с.

РЕЗЮМЕ

УРОВЕНЬ РАЗРАБОТКИ ПРОБЛЕМЫ ФОРМИРОВАНИЯ ГРАЖДАНСКОГО ВОСПИТАНИЯ В ОБУЧЕНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ВУЗЕ

Керимли С.С.

Ключевые слова*: история Азербайджана, гражданин, воспитание, высшая школа, общество.*

Пути формирования гражданского воспитания изучают педагогика, психология, философия. Также, если мы говорим о воспитании гражданственности на уроках истории Азербайджана, то на этом основании следует рассматривать возможности предметов, преподаваемых в курсе истории Азербайджана. В последнее время также появились такие направления исследований, как граждановедение. В связи с применением новых методов обучения (интерактивных) появились новые исследования в методике преподавания истории, что также показало свое влияние на формирование гражданского воспитания.

SUMMARY

DEVELOPMENT LEVEL OF THE PROBLEM OF FORMATION OF CITIZENSHIP EDUCATION IN TEACHING HISTORY OF AZERBAIJAN IN HIGH SCHOOL

Karimli S.S.

Key words*: history of Azerbaijan, citizen, education, higher school, society*

Ways of forming citizenship education are studied by pedagogy, psychology, and philosophy. Also, if we are talking about citizenship education in Azerbaijani history classes, then the possibilities of the subjects taught in the Azerbaijani history course should be considered on these grounds. Recently, research fields such as civic studies have also appeared. In connection with the application of new teaching methods (interactive), new studies in the teaching methodology of history have appeared, and this has also shown its influence in the formation of citizenship education.

RUSİYA-AZƏRBAYCAN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ASSOSİASİYASININ FƏALİYYƏTİNDƏ SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN ROLU

Cəlalzadə B.M.

Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan

celalzade.92@mail.ru

Açar sözlər: *Azərbaycan, Rusiya, universitet, memorandum, təhsil, elm*

Ümummilli Lider Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli Fərmanı ilə Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universiteti yaradılmışdır. Bu tarixi Fərmandan sonra şəhərin təhsil və elm müəssisələri fəaliyyətini gücləndirdi. Universitetin yenidən qurulması və təkmilləşdirilməsi istiqamətində aparılan işlər onun görkəmini dəyişdi. Hazırda SDU təkcə təhsil və elm ocağı deyil, həm də şəhərin intellektual və mədəniyyət mərkəzidir. Son illər universitetdə bir sıra elmi-tədqiqat laboratoriyaları yaradılıb, bir çox sinif otaqları "ağıllı lövhələrlə" təchiz edilib, universitet tam şəkildə internet şəbəkəsinə qoşulub, Heydər Əliyev Mərkəzi yaradılıb. Sumqayıt Dövlət Universitetində 7 fakültə, 29 kafedra, 6 elmi-tədqiqat laboratoriyası, Tədris-Metodik Mərkəz, Doktorantura və Magistratura şöbəsi, Elmi hissə, Əcnəbi tələbələrlə iş şöbəsi, Linqvistik Mərkəz və s. fəaliyyət göstərir. Bunlarla yanaşı Sumqayıt Dövlət Universitetinin aparıcı beynəlxalq universitetlərlə təhsil və elmi əlaqələri ildən-ilə genişlənir. 2014-cü ildən

Sumqayıt Dövlət Universiteti Xəzəryanı Universitetlər Assosiasiyasının, 2015-ci ildən isə Azərbaycan-Rusiya Universitetləri Assosiasiyasının üzvü, eyni zamanda SDU-nun rektoru professor Elxan Hüseynov Assosiasiyasının Azərbaycan tərəfdən həmsədridir [2].

Rusiya-Azərbaycan Universitetləri Assosiasiyası 19-21 noyabr 2015-ci il tarixində Bakıda Rusiya və Azərbaycan ali təhsil müəssisələri rektorlarının iştirakı ilə "Təhsil, Elm, Texnologiya" adlı keçirilən forumda yaradılmışdır. Buraya Rusiyanın 32, Azərbaycanın isə 12 universiteti daxildir. Tədbir Rusiya Federasiyasının Təhsil və Elm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təşkil edilmişdir. Forumda Azərbaycanın 20 və Rusiyanın 33 universiteti, o cümlədən Dağıstan Dövlət Texniki Universiteti iştirak etmişdir. Forumda hər iki ölkənin səfirləri də fəxri qonaq qismində iştirak etmişdir. Beynəlxalq Forumun əsas hadisəsi iki ölkənin aparıcı universitetlərinin daxil olduğu Rusiya və Azərbaycan ali təhsil müəssisələri Assosiasiyasının yaradılması haqqında Memorandumun imzalanması oldu. Həmçinin, Rusiya və Azərbaycan universitetlərinin rektorları müxtəlif forum saytlarında təqdimatlarla çıxış etdilər. İştirakçılar elmi-texniki və elm-təhsil əməkdaşlığının perspektivlərini, qlobal əməkdaşlıq kontekstində təhsil proqramlarının beynəlxalq akkreditasiyası, təhsilin beynəlmiləlləşdirilməsi sahəsində beynəlxalq əməkdaşlıq, akademik və coğrafi mobillik, əcnəbi tələbələrin cəlb edilməsi, peşəkar birliklərin, biznes icmalarının rolu və s. məsələləri müzakirə etmişdilər. Noyabrın 20-də Rusiya Federasiyasının Təhsil və Elm naziri Dmitri Livanov və Azərbaycan Respublikasının Təhsil Naziri Mikayıl Cabbarovun iştirakı ilə Rusiya və Azərbaycan Universitetləri Assosiasiyasının ilk iclası keçirilmişdir. Dmitri Livanov çıxışında iki ölkənin təhsil təşkilatlarının son zamanlar fəal qarşılıqlı fəaliyyət göstərdiyini, təhsil, elm və innovasiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsində, eləcə də birbaşa əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını qeyd etmişdir. Assosiasiyanın Rusiya tərəfdən həmsədri Ufa Neft və Qaz Universitetinin rektoru Ramil Baxtizin, Azərbaycan tərəfindən isə Sumqayıt Dövlət Universitetinin rektoru Elxan Hüseynov rəhbərlik edirdi. Təhsil nazirlərinin iştirakı ilə universitetlərin nümayəndələri Rusiya Federasiyası və Azərbaycan Respublikası Ali Təhsil Müəssisələri Assosiasiyasının yaradılması haqqında Memorandum imzalanmışdır. Assosiasiya əməkdaşlıq üçün hüquqi baza yaratmağa imkan verəcək - deyən Dmitri Livanov bildirib ki, bu, birgə akademik mübadilə proqramlarının, inklüziv təhsil proqramlarının, ikili diplom proqramlarının həyata keçirilməsi olacaq və çox vacib olan, birgə elmi tədqiqat proqramı olacaqdır. Bütün bunlarla yanaşı Rusiya Təhsil və Elm Nazirliyinin rəhbəri bir il ərzində Assosiasiyanın əməkdaşlığın konkret istiqamətlərini həyata keçirməyə başlayacağına əminliyini ifadə edib. Forumda Rusiya nümayəndə heyətinin tərkibində DDU-nun rektoru Murtazəli Rabadanov, DDU-nun həmkarlar ittifaqı təşkilatının sədri Nuxkədi Rabazanov və rektorun köməkçisi Murtuzəli Rabadanov iştirak ediblər. Plenar iclasda Dağıstan Dövlət Universitetinin rektoru Murtazəli Rabadanov da çıxış edərək DDU ilə Azərbaycanın universitetləri və elmi təşkilatları arasında elmi və təhsil əməkdaşlığının təcrübəsi və perspektivlərinə həsr olunmuş məruzə etmişdir. Memorandumu imzalamaqla Dağıstan Dövlət Texniki Universiteti Assosiasiyaya üzv olub və innovativ iqtisadiyyat üçün yüksək ixtisaslı kadrların hazırlanmasında Azərbaycanın aparıcı universitetləri ilə güclərini birləşdirmək, elmi-texniki və texnoloji əməkdaşlığın genişləndirilməsi niyyətində olduqlarını vurğulamışdırlar. O cümlədən, forum çərçivəsində Dağıstan Dövlət Texniki Universiteti Bakı Dövlət Universiteti, Azərbaycan Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Sumqayıt Dövlət Universiteti ilə əməkdaşlıq müqavilələri imzalayıb, həmçinin Azərbaycan Dövlət Texniki Universiteti və Azərbaycan Dövlət İqtisadiyyat Universiteti ilə mövcud müqavilələrin müddətini uzatdılar [1].

17-19 may 2017-ci ildə Başqırdıstanın paytaxtı Ufada Rusiya və Azərbaycan Universitetləri Assosiasiyasının II Forumu keçirilmişdir. Tədbirdə Başqırdıstan Respublikası Hökumətinin Baş Nazirinin müavini Salavat Sagitov, Azərbaycan təhsil nazirinin müavini Mətin Eynullayev, Ufa Dövlət Neft Texniki Universitetinin rektoru Ramil Baxtizin və Sumqayıt Dövlət Universitetinin rektoru Elxan Hüseynov iştirak etmişdir. Forumda Azərbaycan tərəfindən 16, Rusiyadan isə 34 ali məktəb təmsil olunurdu. Forumun təşkilatçıları Başqırdıstan Respublikası Hökuməti, Rusiya-Azərbaycan Universitetləri Assosiasiyası və Rusiya Milli Təlim Fondu idi. "Bashinform" agentliyinin verdiyi məlumata görə, universitet ictimaiyyətinin müzakirə etdiyi əsas məsələlər regionların inkişafında universitetlərin rolu, beynəlxalq əməkdaşlıq, o cümlədən universitetlərin beynəlxalq və milli reytinqlərdə iştirakı idi. Forumun proqramında "universitet — regional iqtisadiyyatın inkişafının drayveri: Rusiya və Azərbaycanın təcrübəsi" mövzusunda plenar iclas, "beynəlxalq əməkdaşlıq ali təhsil müəssisələrinin inkişafının əsas amili kimi" panel diskussiyası, Assosiasiyanın üzvü olan ali məktəb rektorlarının iclası yer almışdır. Forum çərçivəsində assosiasiyanın nizamnaməsinin təsdiq edilməsi, o cümlədən assosiasiyaya daxil olan ali məktəblərin tərkibində dəyişiklik edilməsi nəzərdə tutulmuşdur [3].

Tədbirlərin davamı olaraq Sumqayıt Dövlət Universiteti Təhsil Nazirliyinin dəstəyi, Azərbaycan-Rusiya Ali Təhsil Müəssisələri Assosiasiyasının təşkilatçılığı ilə 2019-cu il iyulun 14-dən 21-dək "Odlar Yurdu Azərbaycana səyahət" adlı Yay Məktəbinə yüksək səviyyədə ev sahibliyi etdi. Tələbə Yay Məktəbində Rusiya Federasiyası və yerli ali təhsil müəssisələrinin ümumilikdə 70-ə yaxın tələbəsi iştirak etdilər. Məktəb proqramı zəngin və maraqlı idi. Heydər Əliyev Mərkəzində, Tarix Muzeyində, Xalça Muzeyində, Dağüstü Mədəniyyət və İstirahət Parkında olan tələbələr Bakıdan başqa, Sumqayıt, Qobustan və Quba rayonu kimi

şəhərlərdə görməli yerlərlə yanaşı, Azərbaycan milli mətbəxinin özəllikləri ilə də tanış oldular. Məktəbin iştirakçıları üçün Sumqayıt Dövlət Universitetinə, Bakı Dövlət Universitetinə, Bakı Slavyan Universitetinə və ADA-ya ekskursiyalar təşkil edilmişdir. Yay məktəbi çərçivəsində tələbələr Rusiya və Azərbaycan Universitetləri Assosiasiyasının həmsədrləri, Sumqayıt Dövlət Universitetinin rektoru professor Elxan Hüseynov və Ufa Dövlət Neft Texniki Universitetinin rektoru Ramil Baxtizinlə görüşdülər. Məktəbdə iştirak etdiyi müddətdə tələbələr Heydər Əliyev Fondunun vəsaiti hesabına tikilmiş yeni rahat yataqxanada məskunlaşaraq, burada qaldıqları müddətdə Rusiyanın digər şəhərlərindən olan insanlarla tanış oldular. Uşaqlar Azərbaycanda təhsil alan gələcək gənc mütəxəssislərlə ünsiyyət qura və dostluq edə bildilər. “Odlar Yurduna - Azərbaycana səyahət” Tələbə Yay Məktəbinin son günündə qala-ziyafət təşkil edilib, hər bir şagird Yay Məktəbində iştirak sertifikatı ilə təltif edildi [6].

Azərbaycan-Rusiya Universitetləri Assosiasiyasının fəaliyyətinin 5 illiyi münasibətilə 18 dekabr 2020-ci il tarixində Sumqayıt Dövlət Universiteti ilə Ufa Dövlət Neft Texniki Universiteti arasında telekörpü təşkil edildi. 11 fevral 2021-ci ildə isə Sumqayıt Dövlət Universitetinin rektoru professor Elxan Hüseynova Ufa Dövlət Neft Texniki Universitetinin Fəxri professor diplomu və mantiyası təqdim edildi [5].

Beləliklə, Rusiya Federasiyası və Azərbaycan Respublikası Ali Təhsil Təşkilatları Assosiasiyasının yaradılması hər iki ölkənin sabahkı təhsil günü haqqında dialoqa başlamağa, bütün məsələləri gələcəyin universitetlərinin dünyasını uğurla inkişaf etdirmək üçün "dünən" və "bu gün" prizmasından baxmağa hazır olduğunu təsdiqlədi. Rusiya və Azərbaycanın ali məktəblərinin tərəfdaşlıq münasibətləri-möhkəm həmfikirlər alyansı, bilik mübadiləsi və unikal layihələr yaratmaq üçün meydan yaratmaq imkanıdır. Assosiasiya əməkdaşlığın hüquqi çərçivəsini müəyyənləşdirməyə imkan verəcəkdir. Gələcəkdə bu, həm akademik mübadilələrin birgə proqramlarının həyata keçirilməsi, həm daxil edilmiş təlimin proqramları, həm ikili diplomun verilməsi proqramı olacaq, həm də çox vacib olan birgə elmi tədqiqatların aparılması proqramı olacaqdır.

Ədəbiyyat

1. https://akvobr.ru/assotsiatsiya_rossiiskih_i_azerbaidzhanskih_vuzov.html
2. https://asu.edu.ru/partners/18.html
3. https://azertag.az/ru/xeber/V_Ufe_prohodit_forum_Associacii_vuzov_Rossii_i_Azerbaidzhana-1062192
4. https://riadagestan.ru/news/education/daggosuniversitet_voshel_v_assotsiatsiyu_rossiysko_azerbaydzhanskikh_vuzov/
5. https://tehsil.biz/news/az/5009/SDU-nun-rektoruna-Ufa-Dvlt-Neft-Texniki-Universitetinin-Fxri-professor-diplomu-tqdim-edildi
6. https://www.bashinform.ru/news/social/2019-07-22/studenty-ugntu-prinyali-uchastie-v-letney-studencheskoy-shkole-v-baku-2120264

РЕЗЮМЕ

РОЛЬ СУМГАИТСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА В ДЕЯТЕЛЬНОСТИ РОССИЙСКО-АЗЕРБАЙДЖАНСКОЙ АССОЦИАЦИИ ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ

Джалалзаде Б.М.

Ключевые слова: *Азербайджан, Россия, университет, меморандум, образование, наука*

Сумгаитский государственный университет, который из года в год расширяет свои международные связи, подписал множество проектов и создал отличную модель высшего учебного заведения. Сегодня университет является членом Ассоциации прикаспийских государственных университетов и Азербайджано-Российских высших учебных заведений, играя важную роль в интеграции нашей страны в мир. В рамках ассоциации руководящие сотрудники, ученые, студенты СГУ регулярно участвовали в организуемых форумах, конференциях. Это также говорит о том, что университет занимает высокие позиции в международных рейтингах и пользуется большим авторитетом.

SUMMARY

THE ROLE OF SUMGAIT STATE UNIVERSITY IN THE ACTIVITIES OF THE RUSSIAN-AZERBAIJANI ASSOCIATION OF HIGHER EDUCATIONAL INSTITUTIONS

Jalalzadeh B.M.

Keywords: *Azerbaijan, Russia, university, Memorandum, education, science*

Sumgait State University, which is expanding its international relations from year to year, has signed many projects and created an excellent model of a higher educational institution. Today, the university is a member of the Association of Caspian State Universities and Azerbaijani-Russian higher educational institutions, playing an important role in the integration of our country into the world. Within the framework of the association, senior staff, scientists, students of SSU regularly participated in organized forums and conferences. This also indicates that the university occupies high positions in international rankings and enjoys great authority.

MÜNDƏRİCAT

V BÖLMƏ
TARİX. FƏLSƏFƏ

1. *Baxşəliyev A.B.* Tarix elmində Cənubi Azərbaycan tarixi problemi *(SDU)*.....3
2. *Ağayev T.D.* Atmosfer havasının çirklənməsinin proqnozunun ümumiləşdirilmiş göstəricisi (*SDU)*.....5
3. *Mərdanov İ.İ.* Azərbaycanın dağlıq ərazilərində turizmin inkişaf etdirilməsi imkanları *(SDU)*.....7
4. *Həsənov H.İ.* Nəsirəddin Tusi və Fəzlüllah Rəşidəddinin əsərlərində Azərbaycan *(ADPU)*.....10
5. *Namazova L.S.* Səfəvi şairlərinin moğol sarayına mühacirəti məsələsi R.M.Seyvorinin tədqiqatında.....13
6. *Adıgözəlova Ş.Ə.* Qərbi Azərbaycan və Zəngəzur məktəblərinin tarixi *(SDU)*.....15
7. *Həsənov R.* Elm tarixilik və müasirlik prizmasında *(ADMİU)*.....16
8. *Alməmmədli M.G.* Xəzər dənizinin səviyyəsinin dəyişməsi haqqında *(SDU)*.....20
9. *Əsədova A.V.* Azərbaycanın təhsil tarixi (tarixə qısa səyahət) (*SDU)*.....22
10. *Yusifova S.N.* Azərbaycan Respublikasında müalicəvi turizm potensialının tədqiqi *(SDU)*.....25
11. *Hüseynov R.Ə., Nağıyeva X.X.* Şirvan Milli Parkı və bufer ərazilərinin bir sıra coğrafi parametrlərinin məsafədən zondlama vasitəsilə müqayisəli səciyyəsi və səpələnmənin xətti tendensiyası *(Cİ)*.....28
12. *Allahverdiyeva L.C.* XIX əsrin 30-50-ci illərində İrəvan şəhərinin sosial - iqtisadi həyatının tarixindən *(Tarİ)*.....32
13. *Hacıyeva M.C.* Azərbaycanda təhsil: tarixi, mövcud durumu, perspektivləri *(SDU)*.....36
14. *Əhmədova Ş.M.* II Qarabağ müharibəsində Sumqayıt Dövlət Universiteti Tarix və coğrafiya fakültəsi məzunlarının iştirakı *(SDU)*.....38
15. *Əliyev Ş., Tapdıqoğlu (Vəlişov) N.* Füzuli rayonunun tarixi-mədəni abidələri, bəzi oykonimləri, turizm ehtiyatları və inkişaf perspektivləri *(Cİ)*.....41
16. *Гасанова С.К.* Каспийская флотилия и братья Нобель *(ИИ)*.....44
17. *Məmmədov Ə.F.* XIX əsrdə Şimali Azərbaycanda təhsilin tarixindən *(SDU)*.....46
18. *Rzaquluyeva S.D.* Müasir dövrdə sosial medianın elmi yeniliklərə təsiri *(SDU)*.....48
19. *Hacıyev O.Y.* Müasir dövrdə fəlsəfənin tədrisinin aktual problemləri *(SDU)*.....50
20. *Qəniyeva A.A.* Çin filosoflarının təlimlərində musiqi estetik təsəvvürlər *(SDU)*.....53
21. *Ağayev İ.A.* İctimai-siyasi proseslər və insan amili *(SDU)*.....55
22. *Mədədzadə K.M.* Müasir dövrdə elm və təcrübə *(SDU)*.....58
23. *Qasımova N.Z.* Heydər Əliyev irsində azərbaycançılıq ideologiyası və multikultural dəyərlər *(SDU)*.....60
24. *Nəsirova N.M.* Elm və cəmiyyət *(SDU)*.....63
25. *Bünyadov Z.V.* Müasir dünyada sosial iş elmi fenomen hadisə kimi *(SDU)*.....64
26. *Yusifova N.Ə.* Müasir dövrdə sosial işin əhəmiyyəti *(SDU)*.....68
27. *Fərhadova J.F.* Təhsildə qloballaşmanın mahiyyəti *(SDU)*.....70
28. *Mirzəyeva Z.A.* Bakı şəhərində nikah və boşanmaların əsas xüsusiyyətləri *(Cİ)*.....73
29. *Rüstəmova Z.R.* Qloballaşma şəraitində şəxsiyyət problemi *(ADPU)*.....76
30. *Yusifova X.M.* Performansın idarə edilməsi sistemi (BMU).....77

VI BÖLMƏ
DİLÇİLİK

31. *Bayramov A.Ə.* "Zəngəzur mahalının kameral təsviri"ndə oykonim və antroponimlər *(SDU)*.....80
32. *Eminli B.İ.* Dillərarası lakunarlıq *(SDU)*.....82
33. *Demir N.* Türkçe eserlerde türk - moğol akrabalığı *(QU)*.....84
34. *Rüstəmov Ə.M.* Zəngəzur Azərbaycandır – Oğuz yurdudur *(SDU)*.....90
35. *Allahverdiyeva L.N.* İfadəli oxu linqvodidaktik anlayış kimi (*SDU)*.....91
36. *Bayramova A.A.* Ağbaba şiməsində samit əvəzlənmələri *(SDU)*.....93
37. *Muğamat X.M.* Dil, nitq və davranış mədəniyyəti *(SDU)*.....96
38. *İbayev N.A.* Frazeologizmlərdə semantikanın rolu *(SDU)*.....97
39. *Bünyatova A.B.* Etnomədəni konseptlər milli mənsubiyyətin əksi kimi *(SDU)*.....100

40. *Əhmədov N.Ş.* Qərbi Azərbaycanın Qaraqoyunlu bölgəsinin Yanıqpəyə kəndinin yer-yurd adlarının xalq etimologiyası (*SDU*) 103
41. *Quliyeva D.R.* Diskursda mətnlərin kondensasiyası (sıxılması) *(SDU)* 106
42. *Məhərrəmova M.H.* Konsept dünya mənzərəsinin tərkib vahidi kimi *(SDU)* 108
43. *Məmmədli S.X.* Dialoji mətndə semantik əlaqə və onların ifadə formaları (Azərbaycan və ingilis dilləri materialları əsasında) (*AzTU)* 110
44. *Məmməd İ.A.* Sinonimiya məsələsinə koqnitiv yanaşma *(SDU)* 112
45. *Məmmədova A.C.* Sözün forma və məzmun problemi (*SDU)* 115
46. *Məmmədzadə K.Ə.* Dil və mədəniyyətin inkişafında terminlərin rolu *(ADPU)* 116
47. *İbrahimov R.M.* Leksik-semantik sahənin struktur və funksiyası *(SDU)* 119
48. *İsmayıllı A.F.* Qarabağ bölgəsindəki arxaik geomorfoloji terminlərin mikrotoponimlərin yaranma prosesində rolu *(Dİ)* 121
49. *Амрахова Р.Ф.* Роль памяти при устном переводе *(БСУ)* 124
50. *Mustafayeva M.M.* Şifahi tərcümədə mətnin informativliyi anlayışı *(BSU)* 126
51. *Rahtari M.F.* Azərbaycan dilinin ən məhsuldar ikihecalı fonetik struktur növləri *(SDU)* 129

VII BÖLMƏ
XARİCİ DİL

52. *Nəcəfova Ş.Y.* Ali təhsil müəssisələrində ingilis dili tədrisinin aktual problemləri *(SDU)* 131
53. *Kərimova D.A.* İngilis dilində frazeologizmlərin tipologiyası *(SDU)* 135
54. *Alakbarova A.N.* Difficult points in article *(ADPU)* 137
55. *Həmidova D.A.* Azərbaycan və ingilis dillərində qohumluq mənsubiyyət ilə bağlı müraciət formalarının əsas xarakterik cəhətləri *(AzTU)* 138
56. *Musayeva I.İ.* Paradigming of god and spirit denotations in a religious and mythological context with a substantial consept of goodness *(SDU)* 142
57. *Quliyeva G.A.* Tərcümə nəzəriyyəsində linqvistik problemlər(*BSU*) 145
58. *Нуралиева Г.Ф.* Особенности реализации темпа и тембра в разговорном английском языке *(АУЯ)* 148
59. *Baxşəliyeva N.R.* Müasir ingilis dilində qrammatik sinonimlərin təhlili və işlənməsi *(АУЯ)* 150
60. *Khalilova S.Ikh.* The role of grammar in communicative interaction *(SSU)* 153
61. *Rasulova L.V.* "Codex Cumanicus"da feili birləşmələr *(Dİ)* 155

VIII BÖLMƏ
ƏDƏBİYYATŞÜNASLIQ

62. *Ağbaba A.* Bayatılarda ölüm-həyat fəlsəfəsi *(SDU)* 159
63. *Isgandarova N.V.* The children's literature in the us: evolution and current issues *(SSU)* 161
64. *Həmzəyeva S.S.* Antik ədəbi fikri və Əli Sultanlı *(SDU)* 164
65. *Hüseynova A.H.* Ali məktəblərdə Cənubi Azərbaycan ədəbiyyatının tədqiqi məsələləri *(SDU)* 167
66. *Cümənov D.A.* Forma və mahiyyət üzərində qurulan poetik assosiasiyalar *(SDU)* 169
67. *Rzayev Ə.İ.* Nizaminin yaratdığı qadın obrazları *(SDU)* 172
68. *Zeynallı G.F.* Anadolu həqiqətləri və Rəşad Nuri Güntəkin *(SDU)* 174
69. *İmaməliyeva G.S.* "Oğuznamə"lərin dilində gələcək zamanın sintaktik xüsusiyyətlərinin işlənməsi *(SDU)* 177
70. *Nağızadə S.E.* Aşıq Murad Çobanoğlu və türk dastançılıq ənənəsi *(SDU)* 178
71. *Nəsibova A.B.* Tanınməş şuşalı müəllim - Əbdüləli Muxtarov (*BSU*) 181
72. *Alıyeva A.A.* Əhməd Bayturusun maarifçilik fəaliyyəti (*SDU*) 183
73. *Məmmədzadə C.N.* Məşrutə dövrü fars poeziyasında forma və məzmun novatorluğuna dair *(BDU)* 185
74. *İsgəndərov B.A.* Azərbaycan nağıllarında div obrazının mifik semantikası *(SDU)* 189
75. *Babayeva A.N.* Hüseyn Cavid yaradıcılığında mifoloji motivlər *(SDU)* 191
76. *Əhmədov Q.H.* Əbdürrəhim bəy Haqverdiyevin "Şeyx Şəban" hekayəsində müəllif təhkiyəsi və portret yaratmaq ustalığı *(SDU)* 194
77. *Rəfiyeva A.İ.* Azərbaycan nağıllarında cilddəyişmə motivi *(SDU)* 196
78. *Гусейнова Г.Т.* О стихах цикла «Персидские мотивы» Сергея Есенина *(СГУ)* 198

79. *Quluyeva Ş.İ.* Qarabağ folklorunda Azərbaycan məişətinin təsviri *(SDU)* 201
80. *İsmayılova L.M.* Tofiq Mahmudun uşaq şeirlərinin tərbiyəvi əhəmiyyəti *(SDU)*.....204
81. *Məmmədova S.* Fəlsəfi poeziyada sufi metaforalar *(SDU)*.....206
82. *Qəniyev T.X.* Humayun muğamında bədii-estetik xüsusiyyətlər *(SDU)* 209

IX BÖLMƏ
PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA

83. *Əliyev Ş.T.* Yeni çağırışlar şəraitində universitet elminə və təhsilinə konseptual yanaşmalar *(SDU)* 211
84. *Səlimov Ş.D.* Azərbaycan universitetlərində təhsil siyasətinin əsas istiqamətləri *(SDU)*.....214
85. *Cəfərova N.B., Məmmədova S.Ə.* Strategiyalı oxunun təşkili haqqında *(ADPU, SDU)* 216
86. *Cəfərov S.A.* Fizika fənninin laboratoriya dərslərinə innovativ texnologiyaların tətbiqi (*NDU*) ...219
87. *Məmmədova S.M.* Tələbə fərdililiyi tədris prosesinin fərdiləşdirilməsinin əsası kimi (*SDU*) 222
88. *İsgəndərova K.Y.* İngilis dili dərslərində motivasiyanın rolu və əhəmiyyəti *(SDU)* 225
89. *Həsənov E.R., Xəlilova Ş.Q.* Azərbaycan Respublikası universitetlərində müasir təhsil metodları və onların problemləri *(BDU, Fİ)* 226
90. *Cəbrayılova F.S.* Müasir universitet təhsilinin inkişaf istiqamətləri *(SDU)*.....228
91. *Гасанова А.А.* Учебное взаимодействие в образовательном процессе высшей школы *(SDU)*.....230
92. *Xəlilov E.Ş.* Azərbaycanın ali təhsil sistemində problemlər və həlli istiqamətində görülən tədbirlər *(SDU)*.....232
93. *Məmmədov C.H.* Pedaqoji fəaliyyətdə müəllimin fərdi-pedaqoji mövqeyi *(SDU)*.....234
94. *Hasanov E.L.* Research of integration of subjects as a scientific theme *(Ganja Branch of ANAS)*.....236
95. *Панькина Т.Л., Асадуллин Р.Д.* Влияние дистанционного обучения на здоровье студентов *(УГНТУ)*.....238
96. *Mirzəyeva S.S.* Pedaqoji fəaliyyət "güzgüsündə" müəllim şəxsiyyəti obrazı *(SDU)* 240
97. *Qasımbəyli C.Q.* Təhsildə problemlərin yaranma səbəbləri *(SDU)* 242
98. *Qocayev S.M.* Azərbaycanda təhsil sistemində müasir problemlər *(SDU)*.....244
99. *Mövsümova F.R.* Universitet elminin və təhsilinin təhlili *(DİA)*.....245
100. *Musayeva M.A.* Müasir universitet elminin aktual problemləri və perspektivləri *(SDU)*.....247
101. *Niftiyev F.Q.* Azərbaycanda insan kapitalının inkişafında peşə təhsilinin rolu *(TETP)*.....250
102. *Məmmədov N.R.* Əlavə təhsilin təşkili modellərinin təsnifinə dair *(BSU)*.....252
103. *Rzayeva S.B.* Ədəbiyyat dərslərində bədii bərpaedici təxəyyülün inkişafı. *(SDU)*.....255
104. *Həsənquliyeva K.Ə.* Pedaqoji fakültələrdə təhsil alan tələbələrin tədris fəallığın artırılması və innovativ metodların öyrədilməsi *(ADPU)*.....258
105. *Бахышлы Ф.Г., Геюшова Н.Дж.* О значимости предмета «Пропаганда здоровья» в высшем медицинском образовании *(АМУ)* 261
106. *Эстрова С.Т.* Стратегии и методы обучения диспетчеров управления воздушным движением: обзор литературы (*БГУ*) 262
107. *Алиева У.Н.* К изучению фразеологических единиц на занятиях по русскому языку как иностранному (*БСУ*) 265
108. *Əskərov A.B., Orucov K.C.* Kimyadan sinifdənkənar işlərin təsnifatı və onların təlim prosesində təşkili *(SDU)* 268
109. *Abdullayeva Z.H., Vəliyev A.C.* Qloballaşma və Azərbaycanın ali təhsil sistemi *(SDU)* 271
110. *Hasanova Kh.S.* Some aspects of integration of national education to the place of europe higher education *(SSU)* 273
111. *Hüseynov T.K.* Kafedrada elmi-tədqiqat işinin təşkil olunmasına dair *(SDU)*.....276
112. *Bayramova N.S.* Successful integration of azerbaijan education into the place of international education *(SDU)*.....277
113. *Həsənova N.Ə.* Azərbaycan Respublikasında distant təhsil sisteminin səmərəliliyinin artırılması istiqamətləri *(ATMU)*.....280
114. *Səfərli İ.S.* Riyazi analizin tədrisində müasir təlim metodundan istifadə *(SDU)* 283
115. *Hadıyeva S.S., Səfərli İ.İ.* Ali və orta məktəb arasında varisliyin pedaqoji əsasları *(SDU)*.....287
116. *Əliyeva L.E.* Sumqayıt Dövlət Universitetinin inkişaf tarixi *(SDU)* 290

117. *Əliyeva A.Ş., Hüseynova A.E., Seyidova G.M.* Universitet təhsilinin təkmilləşdirilməsinin aktual problemləri *(SDU)*.....293
118. *Əhmədova R.R., Babayeva T.M., Aşurova N.D.* Ali təhsil müəssisələrində ekoloji maarifləndirmənin prespektivləri (*SDU*) 296
119. *Quliyeva G.N., Abdullayeva H.B.* Kadr hazırlığında kimyaçı tələbələrdə yumşaq bacarıqların formalaşdırılması *(SDU)*.....298
120. *Cəfərov P.T.* Postpandemiya dövründə ali təhsildə yeni yanaşmalar *(SDU)*.....301
121. *Əhmədova N.M., Vəlizadə Ü.A.* Azərbaycanda ali təhsil sistemi və sosial həyatda ali təhsilin rolu *(SDU)*.....302
122. *Cəfərova S.N.* Ənənəvi və müasir təhsil paradiqmaları *(BSU)* 304
123. *Süleymanlı D.Q.* Ekoloji təhsilin inkişafında coğrafiyanın rolu *(SDU)*.....306
124. *Musayeva S.Q.* Azərbaycan dilinin tədrisində internetdən istifadə *(ADU)*.....309
125. *Quliyeva Ş.M.* Xalqımızın gənc qızlarının ailə həyatına hazırlığının etnopsixoloji xüsusiyyətləri *(SDU)*.....310
126. *Allahquliyeva C.M.* Xarici dil dərslərində innovativ metodların tətbiqi *(SDTK)*.....312
127. *Əlixanova G.H.* Müasir gənclərdə davranış mədəniyyətinin formalaşmasının psixoloji problemləri *(ADPU)* 314
128. *Şamilova A.M.* Azərbaycanda ali təhsil müəssisələrinin müasir problemləri *(SDU)*.....317
129. *Məmmədova A.R.* Azərbaycanda aparılan tibbi-coğrafi tədqiqatların nəzəri metodiki əsasları *(CİŞ)*.....319
130. *Məhərrəmova S.S.* Azərbaycan Respublikasında gənclərin milli-mənəvi dəyərlər əsasında formalaşdırılmasında universitetlərin rolu: Sumqayıt Dövlət Universitetinin nümunəsində *(SDU)*.....323
131. *Abbasov Ə.M.* Universitetlərin elmi-tədqiqat profilli tədqiqat müəssisələrinə çevrilməsi *(TİŞ)* ...326
132. *Hümbətəliyeva S.Ə.* Elmiometriya- tiranlıq, yoxsa elmi fəaliyyətin inkişaf vasitəsi? *(SDU)*.....329
133. *Əliyeva S.Y., Əliyev M.B.* Müasir dövrdə Azərbaycan universitetlərində rəqəmsal transformasiyasının tətbiqi yolunda problemlər və perspektivlər *(SDU, PNU)*.....331
134. *Şəfiyeva Ə.H.* Azərbaycanda milli kadrların hazırlanmasında Naxçıvan ali və orta təhsil müəssisələrinin rolu *(SDU)*.....334
135. *Bahadurzadə N.İ., Ələsgərova E.R.* E-təhsil mühitində sosial şəbəkələrin tətbiqi *(İTİ)*.....338
136. *Урманшина Н.Э., Галимнурова О.В.* Об организации дистанционого обучения *(УГНТУ)* 340
137. *Мусаева А.Т.* Игровые задания на уроках РКИ *(СГУ)*.....342
138. *Novruzova G.S.* Azərbaycanda IKT təhsilinin təhlili *(AMEA, Gəncə)* 344
139. *Cəbrayılova R.N.* Tələbə gənclərin özünüreallaşdırmasını səciyyələndirən psixoloji əlamətlər *(ADPU)* 347
140. *Məmmədova M.İ.* Ali təhsil müəssisələrində tələbələrin idrak fəallığı psixoloji və pedaqoji problem kimi *(ADPU)*.....350
141. *İsmayılova M.C.* Təhsil sistemində tələbələrin sosiallaşması ünsiyyət mədəniyyətinin keyfiyyət səviyyəsi kimi *(ADPU)*.....353
142. *İsazadə E.Ə.* Diqqət defisiti və hiperaktiv sindromlu yeniyetmələrin deviant davranışının formalaşmasının psixoloji xüsusiyyətləri *(ADPU)*.....357
143. *Firidova X.Ş.* Yeni təlim texnologiyalarından istifadə universitet təhsilinin uğuru kimi *(A2Z Technologies' Şirkəti)*.....360
144. *Abdullayev N.M.* Ali təhsil sistemində keyfiyyət təminatı (*SDU*) 361
145. *Axundova S.M., Qarayeva A.Q.* Peşəkar müəllim və təhsil prosesi (*SDU*) 364
146. *İsayeva Z.M.* Pedaqoji imicin formalaşmasının psixoloji aspektləri *(SDU)* 366
147. *Əhmədov R.V.* Tədqiqat üsulları – mövzunun seçilməsi və elmi tədqiqat işlərinin planlanması *(SDU)*.....370
148. *Kərimli S.S.* Ali məktəbdə Azərbaycan tarixinin tədrisində vətəndaşlıq tərbiyəsinin formalaşdırılması probleminin işlənmə səviyyəsi (*SDU*) 372
149. *Cəlalzadə B.M.* Rusiya-Azərbaycan Ali Təhsil Müəssisələri assosiasiyasının fəaliyyətində Sumqayıt Dövlət Universitetinin rolu *(SDU)*.....375

İXTİSARLAR

ADNSU	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
ADMİU	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
AMEA	Azərbaycan Milli Elmlər Akademiyası
ATMU	Azərbaycan Turizm və Menecment Universitetinin
ADPU	Azərbaycan Dövlət Pedaqoji Universiteti
ADU	Azərbaycan Dillər Universiteti
AKU	Azərbaycan Kooperasiya Universiteti
ATU	Azərbaycan Tibb Universiteti
AzTU	Azərbaycan Texniki Universiteti
UTECA	Azərbaycan Texnologiya Universiteti
AU	Avrasiya Universiteti
AQTİ	Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu
BAU	Bakı Avrasiya Universiteti
BDU	Bakı Dövlət Universiteti
BMU	Bakı Mühəndislik Universiteti
BSU	Bakı Slavyan Universiteti
DİA	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
MDU	Mingəçevir Dövlət Universiteti
NDU	Naxçıvan Dövlət Universiteti
SDU	Sumqayıt Dövlət Universiteti
SDTK	Sumqayıt Dövlət Universiteti nəzdində Sumqayıt Dövlət Texniki Kolleci
UNEC	Azərbaycan Dövlət İqtisad Universiteti
DGKA	Dövlət Gömrük Komitəsinin Akademiyası
PNU	Pekin Normal Universiteti
Fİ	Fizika İnstitutu
NKPİ	Neft-Kimya Prosesləri İnstitutu
PMİ	Polimer Materialları İnstitutu
AKİ	Aşqarlar Kimyasi İnstitutu
RPİ	Radiasiya Problemləri İnstitutu
Tİ	Təhsil İnstitutu
İTİ	İnformasiya Texnologiyaları İnstitutu
İSİ	İdarəetmə Sistemləri İnstitutu
İİ	İqtisadiyyat İnstitutu
Cİ	Coğrafiya İnstitutu
Zİ	Zoologiya İnstitutu
Bİ	Biofizika İnstitutu
GEİ	Genetik Ehtiyatlar İnstitutu
TETİ	Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu
Tarİ	A.A. Bakıxanov adına Tarix İnstitutu
Dİ	Dilçilik İnstitutu
QU	Qazi Universiteti, Ankara, Türkiyə Cümhuriyyəti
HU	Hacettepe Universiteti

СОКРАЩЕНИЯ

АМУ	Азербайджанский медицинский университет
АУЯ	Азербайджанский университет языков
АзТУ	Азербайджанский технический университет
АГУ	Академия государственного управления

БГУ	Бакинский государственный университет
СГУ	Сумгаитский государственный университет
ИИТ	Институт информационных технологий
ИИ	Институт истории имени А.А. Бакиханова
ИПМ	Институт полимерных материалов
УГНТУ	Уфимский государственный нефтяной технический университет, г. Уфа, Российская Федерация
ИНН УГНТУ	Институт нефтепереработки и нефтехимии ФГБОУ ВО УГНТУ в г. Салават, Российская Федерация
АГУНГ	Атыраусский государственный университет нефти и газа, г.Атырау, Казахстан

ABBREVIATIONS

SSU	Sumgayit State University
GSU	Ganja State University
ASOIU	Azerbaijan State Oil and Industry University
SRI	Scientific-Research Institute
IF	Institute of Physics
İGR	İnstitute of Genetic Resources